# HEYDƏR ƏLİYEV

## MÜSTƏQİLLİYİMİZ ƏBƏDİDİR

*ikinci kitab*

***may, 1994 – dekabr, 1994***

*çıxışlar*
*nitqlər*
*bəyanatlar*
*məktublar*
*müsahibələr*

**AZƏRNƏŞR**
**BAKI-1997**

**BBK 66.3(5Aze)8**
**Ə – 65**

Buraxılışına məsul
**RAMİZ MEHDİYEV**
**HİDAYƏT ORUCOV**

**ƏLİYEV HEYDƏR**
**Ə 65 Müstəqilliyimiz əbədidir.** B., Azərnəşr, 1997, 604 səh.

Kitabda Azərbaycan Respublikasının Prezidenti Heydər Əlirza oğlu Əliyevin 1994-cü ilin may ayından dekabrın ortalarına qədər olan dövrdəki çıxışları, nitqləri, bəyanatları, müraciətləri, müsahibələri və s. toplanmışdır. Topluya daxil edilmiş materiallarda Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi, hüquqi dövlət quruculuğu, demokratik yeniləşmə, iqtisadi islahatların aparılması, respublikamızın ərazi bütövlüyünün təmin edilməsi, Ermənistanın hərbi təcavüzünün ağır nəticələrinin aradan qaldırılması, daxili, xarici siyasətin başlıca istiqamətləri və ictimai-siyasi həyatın digər vacib məsələləri öz parlaq əksini tapmışdır.

**BBK - 66.3(5Aze)8**

Ə **0801000-9 / M - 651(07) - 97**

**© Azərnəşr, 1997**

# KİTABIN İÇİNDƏKİLƏR


**AZƏRBAYCANIN İSTİQLAL BAYRAMINA – RESPUBLİKA GÜNÜNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ YIĞINCAQDA NİTQ**
*27 may 1994-cü il* ............................................................ **13**

**RESPUBLİKANIN ƏMƏKDAR İNCƏSƏNƏT XADİMİ BƏSTƏKAR ŞƏFİQƏ AXUNDOVAYA**
*1 iyun 1994-cü il* ............................................................ **18**

**TÜRKİYƏ CÜMHURİYYƏTİNƏ QISAMÜDDƏTLİ İŞGÜZAR SƏFƏRƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRİN SUALLARINA CAVAB**
*9 iyun 1994-cü il*............................................................ **19**

**İSTANBULUN ATATÜRK HAVA LİMANINDA RƏSMİ QARŞILANMA MƏRASİMİNDƏN SONRA JURNALİSTLƏR QARŞISINDA BƏYANAT**
*9 iyun 1994-cü il*............................................................ **20**

**TÜRKİYƏDƏN VƏTƏNƏ QAYIDARKƏN İSTANBULUN ATATÜRK HAVA LİMANINDA JURNALİSTLƏR ÜÇÜN BRİFİNQDƏ BƏYANAT**
*10 iyun 1994-cü il*............................................................ **21**

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ BORİS NİKOLAYEVİÇ YELTSİN CƏNABLARINA**
*11 iyun 1994-cü il*............................................................ **23**

**"ROSSİYSKAYA QAZETA"NIN MÜXBİRİNƏ MÜSAHİBƏSİ**
*15 iyun 1994-cü il*............................................................ **24**

**TƏZƏPİR MƏSCİDİNDƏ AŞURA GÜNÜ MƏRASİMİNDƏ ÇIXIŞ**
*20 iyun 1994-cü il*............................................................ **27**

**PREZİDENT SARAYINDA RESPUBLİKA İQTİSADİYYATININ VƏ HƏYATIN DİGƏR SAHƏLƏRİNİN CARİ MƏSƏLƏLƏRİNƏ HƏSR OLUNMUŞ MÜŞAVİRƏDƏ YEKUN SÖZÜ**
*21 iyun 1994-cü il*............................................................ **28**

**SƏTTARXAN ADINA ZAVODUN İŞƏ SALINMASININ 100 İLLİYİ MÜNASİBƏTİLƏ ZAVODUN KOLLEKTİVİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ**
*24 iyun 1994-cü il*............................................................ **34**

**XALQ ŞAİRİ XƏLİL RZA ULUTÜRKLƏ VİDALAŞMA MƏRASİMİNDƏ ÇIXIŞ**
*24 iyun 1994-cü il*............................................................ **37**

**YAZIÇI HÜSEYN MƏMMƏDƏLİ OĞLU İBRAHİMOVA**
*26 iyun 1994-cü il*............................................................ **38**

**İRAN İSLAM RESPUBLİKASINA RƏSMİ SƏFƏR ZAMANI İRAN XARİCİ İŞLƏR NAZİRLİYİNİN SİYASİ ARAŞDIRMALAR MƏRKƏZİNİN DİPLOMATİK KURSLARINDA TƏHSİLİNİ BAŞA ÇATDIRMIŞ MÜDAVİMLƏR QARŞISINDA ÇIXIŞ**
*2 iyul 1994-cü il*............................................................ **39**

**TEHRANDA MƏTBUAT KONFRANSINDA BƏYANAT**
*2 iyul 1994-cü il*............................................................ **42**

**İRAN İSLAM RESPUBLİKASINDAN VƏTƏNƏ YOLA DÜŞƏRKƏN "MEHRABAD" HAVA LİMANINDA JURNALİSTLƏRƏ MÜSAHİBƏ**
*2 iyul 1994-cü il*.............................................................................................................. 44

**BAKI METROSUNDA TÖRƏDİLMİŞ TƏXRİBATLA ƏLAQƏDAR HADİSƏ YERİNƏ TOPLAŞANLAR QARŞISINDA ÇIXIŞ**
*3 iyul 1994-cü il*.............................................................................................................. 45

**XALQ YAZIÇISI İSMAYIL ŞIXLIYA**
*4 iyul 1994-cü il.* ............................................................................................................ 47

**AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ UİLYAM C. KLİNTON CƏNABLARINA**
*4 iyul 1994-cü il*.............................................................................................................. 48

**EKOLOGİYA VƏ ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ NAZİRLƏRİNİN İSTANBUL GÖRÜŞÜNÜN İŞTİRAKÇILARINA TƏBRİK**
*5 iyul 1994-cü il* ............................................................................................................ 49

**"UTRO ROSSİYA" QƏZETİNƏ MÜSAHİBƏSİ**
*6 iyul 1994-cü il* ............................................................................................................ 50

**SƏUDİYYƏ ƏRƏBİSTANINA RƏSMİ SƏFƏRƏ YOLA DÜŞƏRKƏN BİNƏ HAVA LİMANINDA MÜXBİRİN SUALINA CAVABI**
*9 iyul 1994-cü il*.............................................................................................................. 53

**SƏUDİYYƏ ƏRƏBİSTANININ CİDDƏ ŞƏHƏRİNDƏ MƏTBUAT KONFRANSINDA BƏYANAT**
*11 iyul 1994-cü il*............................................................................................................ 54

**MƏDİNƏ ŞƏHƏRİNDƏKİ PEYĞƏMBƏR MƏSCİDİNİN ŞƏRƏF KİTABINA YAZILMIŞ ÜRƏK SÖZLƏRİ**
*12 iyul 1994-cü il*............................................................................................................ 59

**MƏSCİDLƏ TANIŞLIQDAN SONRA JURNALİSTLƏRLƏ GÖRÜŞDƏ BƏYANAT**
*12 iyul 1994-cü il*............................................................................................................ 60

**SƏUDİYYƏ ƏRƏBİSTANINDAN VƏTƏNƏ YOLA DÜŞƏRKƏN MƏDİNƏ HAVA LİMANINDA ÇIXIŞ**
*13 iyul 1994-cü il*............................................................................................................ 61

**FRANSA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ FRANSUA MİTTERAN CƏNABLARINA**
*14 iyul 1994-cü il*............................................................................................................ 63

**UKRAYNA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ LEONİD KUÇMA CƏNABLARINA**
*14 iyul 1994-cü il*............................................................................................................ 64

**BELARUS RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ ALEKSANDR LUKAŞENKO CƏNABLARINA**
*14 iyul 1994-cü il*............................................................................................................ 65

**22 İYUL - MİLLİ MƏTBUAT GÜNÜ MÜNASİBƏTİLƏ TƏBRİK**
*21 iyul 1994-cü il*............................................................................................................ 66

**SƏUDİYYƏ ƏRƏBİSTANINA – MÜQƏDDƏS MƏKKƏ VƏ MƏDİNƏ ŞƏHƏRLƏRİNƏ ZİYARƏTDƏN SONRA BAKIDA TƏZƏPİR MƏSCİDİNDƏ DİN**

XADİMLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ
*29 iyul 1994-cü il*........................................................................................................ 67

BAKIDA DİPLOMATİK KOMPLEKSİN BÜNÖVRƏSİNİN QOYULMASI MƏRASİMİNDƏ ÇIXIŞ
*29 iyul 1994-cü il*........................................................................................................ 70

AVROPA BİRLİYİ KOMİSSİYASININ SƏDRİ ZATİ-ALİLƏRİ JAK SANTER CƏNABLARINA
*1 avqust 1994-cü il*...................................................................................................... 72

PREZİDENT SARAYINDA DAHİ AZƏRBAYCAN ŞAİRİ MƏHƏMMƏD FÜZULİNİN 500 İLLİYİ İLƏ ƏLAQƏDAR YUBİLEY ÜZRƏ DÖVLƏT KOMİSSİYASININ İCLASINDA GİRİŞ SÖZÜ
*1 avqust 1994-cü il*...................................................................................................... 73
YEKUN SÖZÜ
*1 avqust 1994-cü il*...................................................................................................... 73

PREZİDENT SARAYINDA RESPUBLİKANIN ALİ VƏ ORTA İXTİSAS MƏKTƏBLƏRİNƏ QƏBULLA ƏLAQƏDAR KEÇİRİLƏN MÜŞAVİRƏDƏ GİRİŞ SÖZÜ
*2 avqust 1994-cü il*...................................................................................................... 79
YEKUN SÖZÜ
*2 avqust 1994-cü il*...................................................................................................... 79

PREZİDENT SARAYINDA RESPUBLİKA İQTİSADİYYATININ VƏZİYYƏTİNƏ HƏSR OLUNMUŞ GENİŞ MÜŞAVİRƏDƏ GİRİŞ SÖZÜ
*11 avqust 1994-cü il*.................................................................................................... 84
YEKUN SÖZÜ
*11 avqust 1994-cü il*.................................................................................................... 84

PREZİDENT SARAYINDA RESPUBLİKANIN KƏND TƏSƏRRÜFATINDA 1994- cü İLİN BİRİNCİ YARISININ YEKUNLARINA VƏ İSLAHATLARIN KEÇİRİLMƏSİ VƏZİYYƏTİNƏ HƏSR OLUNMUŞ MÜŞAVİRƏDƏ GİRİŞ SÖZÜ
*18 avqust 1994-cü il*.................................................................................................... 91
YEKUN SÖZÜ
*18 avqust 1994-cü il*.................................................................................................... 91

ZATİ-ALİLƏRİ DEN SYAOPİN CƏNABLARINA
*22 avqust 1994-cü il*.................................................................................................... 99

"NEDELYA"NIN XÜSUSİ MÜXBİRİNƏ MÜSAHİBƏ
*24 avqust 1994-cü il*.................................................................................................... 100

"XALQ QƏZETİ" REDAKSİYASININ KOLLEKTİVİNƏ
*25 avqust 1994-cü il*.................................................................................................... 101

MÖVLUD BAYRAMI MÜNASİBƏTİLƏ BAKIDA TƏZƏPİR MƏSCİDİNDƏ TƏNTƏNƏLİ MƏRASİMDƏ ÇIXIŞ
*26 avqust 1994-cü il*.................................................................................................... 102

SURAXANI NEFT YATAĞININ SƏNAYE ÜSULU İLƏ İSTİSMARINA BAŞLANMASININ 90 İLLİYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİMDƏ ÇIXIŞI
*26 avqust 1994-cü il*.................................................................................................... 105

PREZİDENT SARAYINDA "ƏHALİNİN SOSİAL MÜDAFİƏSİNİN GÜCLƏNDİRİLMƏSİ VƏ İQTİSADİYYATIN MALİYYƏ VƏZİYYƏTİNİN SABİTLƏŞDİRİLMƏSİ TƏDBİRLƏRİ HAQQINDA" 1994-cü İL 15 İYUN TARİXLİ

**FƏRMANIN YERİNƏ YETİRİLMƏSİ GEDİŞİNƏ HƏSR OLUNMUŞ MÜŞAVİRƏDƏ GİRİŞ SÖZÜ**
*29 avqust 1994-cü il*........................................................................................ 111
**YEKUN SÖZÜ**
*29 avqust 1994-cü il*........................................................................................ 111

**BAKI ŞƏHƏRİNİN TƏHSİL İŞÇİLƏRİ İLƏ GÖRÜŞDƏ GİRİŞ SÖZÜ**
*31 avqust 1994-cü il*........................................................................................ 116
**YEKUN SÖZÜ**
*31 avqust 1994-cü il*........................................................................................ 116

**LİVİYA ƏRƏB SOSİALİST XALQ CƏMAHİRİYYƏSİNİN İNQİLAB RƏHBƏRİ ZATİ-ALİLƏRİ POLKOVNİK MÜƏMMƏR QƏZZAFİ CƏNABLARINA**
*1 sentyabr 1994-cü il*........................................................................................ 123

**BAKIDAKI 23 SAYLI ORTA MƏKTƏBDƏ AZƏRBAYCANIN MİLLİ QƏHRƏMANI TAHİR HƏSƏNOVUN XATİRƏ LÖVHƏSİNİN AÇILIŞINA HƏSR OLUNMUŞ MİTİNQDƏ ÇIXIŞ**
*3 sentyabr 1994-cü il*........................................................................................ 124

**QAHİRƏDƏ "DÜNYA ƏHALİSİ VƏ İNKİŞAF" MÖVZUSUNDA BEYNƏLXALQ KONFRANSDA İŞTİRAK ETMƏK ÜÇÜN MİSİR ƏRƏB RESPUBLİKASINA YOLA DÜŞƏRKƏN BİNƏ HAVA LİMANINDA MÜXBİRİN SUALINA CAVAB**
*4 sentyabr 1994-cü il*........................................................................................ 127

**MİSİR-AZƏRBAYCAN DOSTLUQ CƏMİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ**
*5 sentyabr 1994-cü il*........................................................................................ 128

**ABŞ-ın MİSİRDƏKİ TİCARƏT PALATASININ NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ**
*6 sentyabr 1994-cü il*........................................................................................ 129

**QAHİRƏDƏ MƏTBUAT KONFRANSINDA BƏYANAT**
*6 sentyabr 1994-cü il*........................................................................................ 131

**MOSKVAYA MDB ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ GÖRÜŞÜNƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRƏ MÜSAHİBƏ**
*8 sentyabr 1994-cü il*........................................................................................ 135

**MÜHARİBƏNİ QURTARA BİLSƏK, AZƏRBAYCAN 2000-ci İLƏ TAMAMİLƏ BAŞQA GÖRKƏMDƏ QƏDƏM QOYACAQ**

**MOSKVAYA UÇARKƏN TƏYYARƏDƏ "DELOVOY MİR" QƏZETİNİN MÜXBİRİNƏ MÜSAHİBƏSİ**
*8 sentyabr 1994-cü il*........................................................................................ 136

**BAKIDA "SAHİBKARLIĞIN STRATEGİYASI VƏ İQTİSADİYYATIN YENİDƏN QURULMASI" MÖVZUSUNDA BEYNƏLXALQ KONFRANSIN AÇILIŞI MƏRASİMİNDƏ NİTQ**
*13 sentyabr 1994-cü il*........................................................................................ 140

**RESPUBLİKANIN ALİ MƏKTƏBLƏRİNƏ DAXİL OLMUŞ BİRİNCİ KURS TƏLƏBƏLƏRİ İLƏ GÖRÜŞDƏ NİTQ**
*14 sentyabr 1994-cü il*........................................................................................ 143

**AZƏRBAYCAN NEFT SƏNAYESİNİN TƏŞKİLATÇILARINDAN BİRİ, DÖVLƏT MÜKAFATI LAUREATI, SOSİALİST ƏMƏYİ QƏHRƏMANI QURBAN**

ABASQULU OĞLU ABASOVLA VİDALAŞMA MƏRASİMİNDƏ ÇIXIŞ
*15 sentyabr 1994-cü il*........................................................................................................ 147

NEFT MÜQAVİLƏSİNİN İMZALANMAĞA HAZIRLANMASI İLƏ BAĞLI BRİFİNQDƏ BƏYANAT
*16 sentyabr 1994-cü il*........................................................................................................ 149

AZƏRNEFTYANACAQ İSTEHSALAT BİRLİYİNDƏ GÖRÜŞLƏR
*17 sentyabr 1994-cü il*........................................................................................................ 153

RADİOQURAŞDIRMA İSTEHSALAT BİRLİYİNİN KOLLEKTİVİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ
*17 sentyabr 1994-cü il*........................................................................................................ 155

AZƏRNEFTYAĞ İSTEHSALAT BİRLİYİNDƏ AVTOMATİK İDARƏETMƏ MƏRKƏZİNİN KOLLEKTİVİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ
*17 sentyabr 1994-cü il*........................................................................................................ 156

BÖYÜK DİRİJOR VƏ BƏSTƏKAR NİYAZİNİN EV-MUZEYİNİN TƏNTƏNƏLİ AÇILIŞINDA ÇIXIŞ
*18 sentyabr 1994-cü il*........................................................................................................ 160

BİRİNCİ AZƏRBAYCAN BEYNƏLXALQ "XƏZƏRNEFTQAZ-94" KONFRANSININ İŞTİRAKÇILARINA
*19 sentyabr 1994-cü il*........................................................................................................ 163

XƏZƏR ŞELFİNDƏ YATAQLARIN BİRGƏ İŞLƏNMƏSİ HAQQINDA BAKIDA AZƏRBAYCAN DÖVLƏT NEFT ŞİRKƏTİ İLƏ XARİCİ NEFT ŞİRKƏTLƏRİNİN KONSORSİUMU ARASINDA MÜQAVİLƏ İMZALANMASI MƏRASİMİNDƏ NİTQ
*20 sentyabr 1994-cü il*........................................................................................................ 164

PREZİDENT SARAYINDA KƏND TƏSƏRRÜFATI İŞLƏRİNİN GEDİŞİNƏ, XÜSUSƏN PAMBIQ YIĞIMI İLƏ ƏLAQƏDAR MƏSƏLƏLƏRİN MÜZAKİRƏSİNƏ HƏSR OLUNMUŞ MÜŞAVİRƏDƏ GİRİŞ SÖZÜ
*22 sentyabr 1994-cü il*........................................................................................................ 171
YEKUN ÇIXIŞI
*22 sentyabr 1994-cü il*........................................................................................................ 171

AZƏRBAYCAN MİLLİ TELEVİZİYASI VƏ RADİOSU İLƏ ÇIXIŞ
*22 sentyabr 1994-cü il*........................................................................................................ 176

BMT BAŞ MƏCLİSİNİN 49-cu SESSİYASINDA İŞTİRAK ETMƏK ÜÇÜN AMERİKA BİRLƏŞMİŞ ŞTATLARINA SƏFƏRƏ YOLA DÜŞƏRKƏN BİNƏ HAVA LİMANINDA JURNALİSTİN SUALINA CAVAB
*25 sentyabr 1994-cü il*........................................................................................................ 182

NYU-YORKDAKI ”TÜRK EVİ“NDƏ AMERİKADA YAŞAYAN TÜRK VƏ AZƏRBAYCANLI İCMASININ NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ
*26 sentyabr 1994-cü il*........................................................................................................ 183

YUNİSEF TƏŞKİLATINDA UŞAQLARIN HƏYATI, MÜDAFİƏSİ VƏ İNKİŞAFINA DAİR BMT BƏYANNAMƏSİNİN İMZALANMASI MƏRASİMİNDƏ ÇIXIŞ
*27 sentyabr 1994-cü il*........................................................................................................ 188

ABŞ-ın KOLUMBİYA UNİVERSİTETİNİN HARRİMAN İNSTİTUTUNDA ÇIXIŞ
*28 sentyabr 1994-cü il*........................................................................................................ 189

**BMT BAŞ MƏCLİSİNİN 49-cu SESSİYASINDA ÇIXIŞ**
*29 sentyabr 1994-cü il*........................................................................................................ **193**

**BMT BAŞ MƏCLİSİNİN 49-cu SESSİYASINDA MİLLƏTLƏR BİRLİYİNİN XÜSUSİ SALONUNDA MƏTBUAT KONFRANSINDA BƏYANAT**
*29 sentyabr 1994-cü il*........................................................................................................ **198**

**ABŞ-ın Sİ-EN-EN TELEVİZİYA ŞİRKƏTİNİN MÜXBİRİNƏ MÜSAHİBƏ**
*29 sentyabr 1994-cü il*........................................................................................................ **201**

**ABŞ-ın NEFT ŞİRKƏTLƏRİ RƏHBƏRLƏRİNİN AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN ŞƏRƏFİNƏ VERDİKLƏRİ NAHARDA ÇIXIŞ**
*29 sentyabr 1994-cü il*............................................................................................... **203**

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN BƏYANATI**
*30 sentyabr 1994-cü il*........................................................................................................ **205**

**ABŞ-a SƏFƏRDƏN VƏTƏNƏ QAYIDARKƏN İSTANBULDA TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ SÜLEYMAN DƏMİRƏLLƏ GÖRÜŞDƏN SONRA JURNALİSTLƏRƏ BƏYANAT**
*1 oktyabr 1994-cü il*........................................................................................................... **206**

**RESPUBLİKA MİLLİ TELEVİZİYASI VƏ RADİOSU İLƏ ÇIXIŞ**
*3 oktyabr 1994-cü il*........................................................................................................... **208**

**RESPUBLİKADA FƏALİYYƏT GÖSTƏRƏN SİYASİ PARTİYALARIN RƏHBƏRLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ**
*3 oktyabr 1994-cü i*............................................................................................................ **218**

**DÜNYANIN BÜTÜN DÖVLƏTLƏRİNƏ, HÖKUMƏTLƏRİNƏ VƏ BEYNƏLXALQ TƏŞKİLATLARINA MÜRACİƏT**
*4 oktyabr 1994-cü il*........................................................................................................... **221**

**RESPUBLİKA MİLLİ TELEVİZİYASI VƏ RADİOSU İLƏ XALQA MÜRACİƏT**
*4 oktyabr 1994-cü il*........................................................................................................... **222**

**PREZİDENT SARAYI QARŞISINDA BAKI ZƏHMƏTKEŞLƏRİNİN MİTİNQİNDƏ ÇIXIŞ**
*4 oktyabr 1994-cü il*........................................................................................................... **225**

**ÜMUMRESPUBLİKA HƏMRƏYLİK MİTİNQİNDƏ ÇIXIŞ**
*5 oktyabr 1994-cü il*.......................................................................................................... **227**

**AZƏRBAYCAN SİLAHLI QÜVVƏLƏRİNİN 3-cü İLDÖNÜMÜ MÜNASİBƏTİ İLƏ TƏBRİK**
*7 oktyabr 1994-cü il*.......................................................................................................... **231**

**AZƏRBAYCAN SİLAHLI QÜVVƏLƏRİNİN 3-cü İLDÖNÜMÜNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ YIĞINCAQDA NİTQ**
*8 oktyabr 1994-cü il*.......................................................................................................... **232**

**PREZİDENT SARAYINDA KƏND TƏSƏRRÜFATI İŞLƏRİNİN GEDİŞİNƏ, XÜSUSƏN PAMBIQ YIĞIMINA HƏSR OLUNMUŞ MÜŞAVİRƏDƏ GİRİŞ SÖZÜ**
*11 oktyabr 1994-cü il*......................................................................................................... **237**
**YEKUN SÖZÜ**
*11 oktyabr 1994-cü il*......................................................................................................... **237**

**PREZİDENT SARAYINDA ƏHALİNİN ÇÖRƏKLƏ TƏMİNATI SAHƏSİNDƏ YARANMIŞ ÇƏTİNLİKLƏRİN ARADAN QALDIRILMASI MƏSƏLƏLƏRİNƏ**

HƏSR OLUNMUŞ MÜŞAVİRƏDƏ ÇIXIŞ
*16 oktyabr 1994-cü il*........................................................................................... 239

AZƏRBAYCANIN DÖVLƏT MÜSTƏQİLLİYİ GÜNÜ MÜNASİBƏTİLƏ XALQA TƏBRİK
*16 oktyabr 1994-cü il*........................................................................................... 242

AZƏRBAYCANIN DÖVLƏT MÜSTƏQİLLİYİ GÜNÜNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ YIĞINCAQDA ÇIXIŞ
*17 oktyabr 1994-cü il*........................................................................................... 243

TÜRK DÖVLƏTLƏRİ BAŞÇILARININ 2-ci ZİRVƏ TOPLANTISINDA İŞTİRAK ETMƏK ÜÇÜN İSTANBULA YOLA DÜŞƏRKƏN BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRƏ MÜSAHİBƏ
*18 oktyabr 1994-cü il*........................................................................................... 248

TÜRK DÖVLƏTLƏRİ BAŞÇILARININ 2-ci ZİRVƏ TOPLANTISININ AÇILIŞINDA NİTQ
*18 oktyabr 1994-cü il*........................................................................................... 249

TÜRK DÖVLƏTLƏRİ BAŞÇILARININ 2-ci ZİRVƏ TOPLANTISINDA QƏBUL EDİLMİŞ "İSTANBUL BƏYANNAMƏSİ"NİN İMZALANMA MƏRASİMİNDƏ ÇIXIŞ
*19 oktyabr 1994-cü il*........................................................................................... 253

İSTANBULDA TÜRK DÖVLƏTLƏRİ BAŞÇILARININ 2-ci ZİRVƏ TOPLANTISININ İŞİ BAŞA ÇATDIQDAN SONRA MƏTBUAT KONFRANSI
*19 oktyabr 1994-cü il*........................................................................................... 255

TÜRK XALQLARININ DOSTLUQ, QARDAŞLIQ VƏ ƏMƏKDAŞLIQ QURULTAYININ İŞTİRAKÇILARINA TƏBRİK
*20 oktyabr 1994-cü il*........................................................................................... 259

MOSKVAYA MDB DÖVLƏT BAŞÇILARININ GÖRÜŞÜNƏ YOLA DÜŞƏRKƏN BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRƏ MÜSAHİBƏ
*21 oktyabr 1994-cü il*........................................................................................... 260

RESPUBLİKANIN XALQ ARTİSTİ ZƏROŞ HƏMZƏYEVAYA
*24 oktyabr 1994-cü il*........................................................................................... 261

ŞƏRQ ÖLKƏLƏRİ BEYNƏLXALQ MEMARLIQ AKADEMİYASININ BİRİNCİ SESSİYASININ İŞTİRAKÇILARINA
*25 oktyabr 1994-cü il*........................................................................................... 262

TÜRKMƏNİSTANIN MÜSTƏQİLLİK QAZANMASININ 3-cü İLDÖNÜMÜ MÜNASİBƏTİLƏ ŞƏNLİKLƏRDƏ İŞTİRAK ETMƏK ÜÇÜN AŞQABATA YOLA DÜŞƏRKƏN BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRƏ QISA MÜSAHİBƏ
*26 oktyabr 1994-cü il*........................................................................................... 263

AŞQABADDA PAKİSTANIN BAŞ NAZİRİ BƏNƏZİR BHUTTO İLƏ GÖRÜŞDƏN SONRA JURNALİSTLƏRƏ MÜSAHİBƏ
*26 oktyabr 1994-cü il*........................................................................................... 264

"AZƏRBAYCAN GƏNCLƏRİ" QƏZETİNİN KOLLEKTİVİNƏ
*27 oktyabr 1994-cü il*........................................................................................... 266

TÜRKMƏNİSTAN-İRAN-TÜRKİYƏ-AVROPA QAZ KƏMƏRİNİN RƏMZİ AÇILIŞI MƏRASİMİNDƏ ÇIXIŞ
*27 oktyabr 1994-cü il*........................................................................................... 267

**AŞQABADDAN BAKIYA YOLA DÜŞƏRKƏN TƏYYARƏDƏ İRAN İSLAM RESPUBLİKASI VƏ TÜRKMƏNİSTAN PREZİDENTLƏRİ İLƏ GÖRÜŞLƏR BARƏDƏ JURNALİSTLƏRƏ MÜSAHİBƏ**
*27 oktyabr 1994-cü il*........................................................................................................ **268**

**TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ƏLAHƏZRƏT SÜLEYMAN DƏMİRƏL CƏNABLARINA**
*28 oktyabr 1994-cü il*........................................................................................................ **270**

**TÜRKİYƏ RESPUBLİKASININ İSTİQLALİYYƏT QAZANMASININ 71-ci İLDÖNÜMÜ MÜNASİBƏTİLƏ TÜRKİYƏNİN AZƏRBAYCANDAKI SƏFİRLİYİNİN TƏŞKİL ETDİYİ MƏRASİMDƏ ÇIXIŞ**
*29 oktyabr 1994-cü il*........................................................................................................ **271**

**BMT-nin BAŞ KATİBİ BUTROS BUTROS-QALİNİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ ZAMANI BAKIDA BİNƏ HAVA LİMANINDA QARŞILANMASI MƏRASİMİNDƏ ÇIXIŞ**
*29 oktyabr 1994-cü il*........................................................................................................ **272**

**PREZİDENT SARAYINDA BMT-nin BAŞ KATİBİ BUTROS BUTROS-QALİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ**
*30 oktyabr 1994-cü il*........................................................................................................ **273**

**BMT-nin BAŞ KATİBİ BUTROS BUTROS-QALİ İLƏ DANIŞIQLAR BAŞA ÇATDIQDAN SONRA BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANAT**
*30 oktyabr 1994-cü il*........................................................................................................ **276**

**BMT-nin BAŞ KATİBİ BUTROS BUTROS-QALİNİN ŞƏRƏFİNƏ VERİLƏN ZİYAFƏTDƏ ÇIXIŞ**
*30 oktyabr 1994-cü il*........................................................................................................ **279**

**AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN BMT-nin BAŞ KATİBİ BUTROS BUTROS-QALİNİN AZƏRBAYCAN SƏFƏRİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ İCLASINDA ÇIXIŞ**
*31 oktyabr 1994-cü il*........................................................................................................ **280**

**TÜRKİYƏ CÜMHURİYYƏTİNİN PREZİDENTİ ƏLAHƏZRƏT SÜLEYMAN DƏMİRƏL CƏNABLARINA**
*1 noyabr 1994-cü il*........................................................................................................ **283**

**DAHİ AZƏRBAYCAN ŞAİRİ MƏHƏMMƏD FÜZULİNİN ANADAN OLMASININ 500 İLLİYİ MÜNASİBƏTİLƏ TÜRKİYƏDƏ KEÇİRİLƏN YUBİLEY TƏDBİRLƏRİNDƏ İŞTİRAK ETMƏK ÜÇÜN YOLA DÜŞƏRKƏN BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRƏ QISA MÜSAHİBƏ**
*1 noyabr 1994-cü il*........................................................................................................ **284**

**ANKARADA "HİLTON" MEHMANXANASINDAKI İQAMƏTGAHDA TÜRKİYƏ VƏ AZƏRBAYCANDAKI XARİCİ ÖLKƏ SƏFİRLƏRİNİN QƏBULU ZAMANI ÇIXIŞ**
*1 noyabr 1994-cü il*........................................................................................................ **285**

**ANKARA YAXINLIĞINDAKI BİLKƏND UNİVERSİTET ŞƏHƏRCİYİNDƏ DAHİ AZƏRBAYCAN ŞAİRİ MƏHƏMMƏD FÜZULİNİN ANADAN OLMASININ 500 İLLİYİNƏ HƏSR OLUNMUŞ YUBİLEY ŞƏNLİKLƏRİNİN TƏNTƏNƏLİ AÇILIŞINDA ÇIXIŞ**
*7 noyabr 1994-cü il*........................................................................................................ **287**

**TÜRKİYƏNİN XARİCİ İQTİSADİ ƏMƏKDAŞLIQ KOMİTƏSİNİN ÜZVLƏRİ –**

**İŞGÜZAR DAİRƏLƏRİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ**
*1 noyabr 1994-cü il*.......................................................................................................... 289

**TÜRKİYƏDƏ YAŞAYAN AZƏRBAYCANLILARLA GÖRÜŞDƏ ÇIXIŞ**
*1 noyabr 1994-cü il*.......................................................................................................... 292

**ANKARADA TÜRKİYƏ, AZƏRBAYCAN VƏ XARİCİ ÖLKƏ JURNALİSTLƏRİ ÜÇÜN MƏTBUAT KONFRANSINDA BƏYANAT**
*1 noyabr 1994-cü il*.......................................................................................................... 296

**TÜRKİYƏ PARLAMENTİNDƏ DAHİ AZƏRBAYCAN ŞAİRİ MƏHƏMMƏD FÜZULİNİ ANMA MƏRASİMİNDƏ ÇIXIŞ**
*2 noyabr 1994-cü il*.......................................................................................................... 298

**TÜRKİYƏ PREZİDENTİ SÜLEYMAN DƏMİRƏLİN DOĞUM GÜNÜ MÜNASİBƏTİLƏ "ÇANKAYA" KÖŞKÜNDƏ KEÇİRİLƏN GÖRÜŞDƏ TƏBRİK NİTQİ**
*2 noyabr 1994-cü il*.......................................................................................................... 301

**TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNİN SƏDRİ HÜSAMƏDDİN CİNDORUKLA GÖRÜŞDƏ ÇIXIŞ**
*2 noyabr 1994-cü il*.......................................................................................................... 303

**"NEFT DAŞLARI" NEFT-QAZÇIXARMA İDARƏSİNİN ƏMƏK KOLLEKTİVİNƏ**
*4 noyabr 1994-cü il*.......................................................................................................... 304

**PREZİDENT SARAYINDA RESPUBLİKANIN KƏND TƏSƏRRÜFATINDA APARILAN İSLAHATLARIN VƏZİYYƏTİNƏ HƏSR OLUNMUŞ MÜŞAVİRƏDƏ GİRİŞ SÖZÜ**
*5 noyabr 1994-cü il*.......................................................................................................... 305
**YEKUN SÖZÜ**
*5 noyabr 1994-cü il*.......................................................................................................... 307

**QAÇQINLAR HAQQINDA QANUNVERİCİLİK, İNSAN HÜQUQLARI VƏ MİQRASİYA MƏSƏLƏLƏRİNƏ DAİR BAKIDA KEÇİRİLƏN BEYNƏLXALQ KONFRANSDA ÇIXIŞ**
*14 noyabr 1994-cü il*.......................................................................................................... 312

**MİLLİ DİRÇƏLİŞ GÜNÜ MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA MÜRACİƏT**
*16 noyabr 1994-cü il*.......................................................................................................... 317

**MOSKVAYA İŞGÜZAR SƏFƏRƏ YOLA DÜŞƏRKƏN BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRİN SUALLARINA CAVAB**
*17 noyabr 1994-cü il*.......................................................................................................... 318

**DAHİ AZƏRBAYCAN ŞAİRİ MƏHƏMMƏD FÜZULİNİN ANADAN OLMASININ 500 İLLİYİNƏ HƏSR EDİLMİŞ TƏNTƏNƏLİ YIĞINCAQDA NİTQ**
*17 noyabr 1994-cü il*.......................................................................................................... 319

**"AZƏRBAYCAN MÜƏLLİMİ" QƏZETİNİN KOLLEKTİVİNƏ TƏBRİK**
*18 noyabr 1994-cü il*.......................................................................................................... 320

**YENİ AZƏRBAYCAN PARTİYASI YARADILMASININ 2-ci İLDÖNÜMÜ MÜNASİBƏTİLƏ KEÇİRİLMİŞ ÜMUMRESPUBLİKA MÜŞAVİRƏSİNDƏ NİTQ**
*19 noyabr 1994-cü il*.......................................................................................................... 321

**ALMANİYA FEDERATİV RESPUBLİKASININ FEDERAL KANSLERİ ZATİ-**

**ALİLƏRİ HELMUT KOL CƏNABLARINA**
*21 noyabr 1994-cü il*........................................................................................................ **331**

**TACİKİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ İMAMƏLİ RƏHMANOV CƏNABLARINA**
*21 noyabr 1994-cü il*........................................................................................................ **332**

**MƏMMƏD ƏMİN RƏSULZADƏ ADINA BAKI DÖVLƏT UNİVERSİTETİNƏ**
*25 noyabr 1994-cü il*........................................................................................................ **333**

**MƏMMƏD ƏMİN RƏSULZADƏ ADINA BAKI DÖVLƏT UNİVERSİTETİNİN 75 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİMDƏ NİTQ**
*26 noyabr 1994-cü il*........................................................................................................ **334**

**ÜMUMXALQ NÜMAYƏNDƏLƏRİ TOPLANTISINDA GİRİŞ SÖZÜ**
*28 noyabr 1994-cü il*........................................................................................................ **339**
**YEKUN SÖZÜ**
*28 noyabr 1994-cü il*........................................................................................................ **342**

**"AZƏRBAYCAN" QƏZETİNİN KOLLEKTİVİNƏ**
*4 dekabr 1994-cü il*........................................................................................................ **351**

**ATƏM-in ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ ZİRVƏ TOPLANTISINDA İŞTİRAK ETMƏK ÜÇÜN BUDAPEŞT ŞƏHƏRİNƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRƏ MÜSAHİBƏSİ**
*4 dekabr 1994-cü il*........................................................................................................ **352**

**ATƏM-in ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ BUDAPEŞT GÖRÜŞÜNDƏ ÇIXIŞ**
*6 dekabr 1994-cü il*........................................................................................................ **353**

**BUDAPEŞTDƏN VƏTƏNƏ QAYIDARKƏN ZİRVƏ TOPLANTISININ YEKUNLARI BARƏDƏ TƏYYARƏDƏ JURNALİSTLƏRƏ MÜSAHİBƏSİ**
*7 dekabr 1994-cü il*........................................................................................................ **355**

**RESPUBLİKA ALİ SOVETİNDƏ "AQRAR İSLAHAT: PROBLEMLƏR VƏ ONLARIN HƏLLİ YOLLARI" MÖVZUSUNDA BEYNƏLXALQ KONFRANSDA ÇIXIŞ**
*9 dekabr 1994-cü il*........................................................................................................ **358**

## AZƏRBAYCANIN İSTİQLAL BAYRAMINA – RESPUBLİKA GÜNÜNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ YIĞINCAQDA NİTQ

*27 may 1994-cü il*

*Respublika sarayı*

Əziz həmvətənlər, bacılar və qardaşlar!
Hörmətli xanımlar, cənablar!

Sizi Azərbaycanın Respublika günü, İstiqlal bayramı münasibətilə təbrik edirəm, sizə dözümlülük, nikbinlik, dövlətçiliyimizin möhkəmlənməsi yollarında dönməzlik və inam, Azərbaycanın işıqlı gələcəyi naminə xoşbəxtlik və səadət arzulayıram.

1918-ci il may ayının 28-də Azərbaycan torpağında ilk respublika – Azərbaycan Demokratik Respublikası yarandı. Azərbaycan xalqı əsrlər boyu azadlıq arzusu ilə yaşamış, milli azadlıq, istiqlal uğrunda mübarizə aparmışdır. Xalqımız çox minillik tarixində dəfələrlə öz milli azadlığına nail olmuş, milli dövlətini yaratmış, lakin sonralar müxtəlif səbəblər üzündən bunlardan məhrum olmuşdur.

XX əsrin əvvəllərində Azərbaycanda milli azadlıq hərəkatı gücləndi. Azərbaycanın demokratik qüvvələri, mütəfəkkir şəxsləri, siyasi xadimləri yurdumuzun müstəqilliyi uğrunda, xalqımızın azadlığı uğrunda mübarizəyə qoşuldular. Birinci dünya müharibəsinin bitməsi ilə əlaqədar olaraq dünyada baş vermiş dəyişikliklər, sosialist inqilabı nəticəsində Rusiya imperiyasının dağılması Azərbaycanda müstəqil dövlət yaratmaq üçün şərait meydana gətirdi. Belə bir şəraitdə Azərbaycanın demokratik qüvvələri, siyasi xadimləri 1918-ci il mayın 28-də ilk Azərbaycan Demokratik Respublikasını elan etdilər.

Həmin gün Azərbaycan xalqının tarixinə böyük və əlamətdar bir hadisə kimi daxil olub. Biz bu günü Respublika günü, Milli İstiqlal bayramı kimi qeyd edirik. Bu bayramı qeyd edərkən biz o zaman Azərbaycanın milli azadlığı, istiqlaliyyəti uğrunda, Azərbaycanda demokratik respublika yaranması uğrunda mübarizə aparanları, demokratik dövlətin təşkil olunmasında iştirak edənləri, onun rəhbərliyində fəaliyyət göstərənləri – Məmmədəmin Rəsulzadəni, Fətəli Xan Xoyskini, Əlimərdan bəy Topçubaşovu, Nəsib bəy Yusifbəylini, Həsən bəy Ağayevi, Məmmədhəsən Hacınskini və başqalarını böyük minnətdarlıq hissi ilə yad edirik.

Onların parlaq həyatı, böyük fəaliyyəti və Azərbaycan xalqı qarşısında xidmətləri heç vaxt unudulmayacaqdır.

İlk Azərbaycan Demokratik Respublikası ağır və mürəkkəb şəraitdə fəaliyyət göstərirdi. Bir tərəfdən xarici qüvvələr, böyük dövlətlər Azərbaycanda müstəqil dövlətin yaranması ilə razılaşa bilməyərək cürbəcür [5-6] vasitələrlə bu dövləti boğmağa çalışırdılar. Digər tərəfdən Rusiyada hakimiyyətə gəlmiş kommunist rejimi keçmiş Rusiya imperiyasının ərazisində öz hakimiyyətini tətbiq etmək istəyirdi. Azərbaycan üçün həmişə təhlükəli olan, torpaqlarımıza göz dikən erməni qəsbkarları, daşnaklar bu dövrdə Azərbaycana qarşı öz təcavüzkarlıq hərəkətlərini gücləndirmişdilər. Bunlarla yanaşı, Azərbaycanın daxili ictimai-siyasi vəziyyəti olduqca gərgin idi. Şübhəsiz ki, belə bir şəraitdə ilk demokratik respublikanın fəaliyyəti böyük çətinliklərlə üzləşirdi.

Ancaq bunlara baxmayaraq, həmin ağır şəraitdə Azərbaycan Demokratik Respublikası qısa bir müddətdə böyük işlər görmüş və Azərbaycanın gələcəkdə də müstəqil olması üçün mühüm zəmin yaratmışdır. Azərbaycan Respublikasının hüdudları müəyyən olunmuş, Azərbaycan dövlətçiliyinin atributları qəbul edilmişdi. Azərbaycanın gerbi və digər atributları, Azərbaycan dövlətinin bu gün bu salonda səslənən əzəmətli himni də məhz o vaxt, o şəraitdə yaranmışdır. Dövlətçilik sahəsində bir çox işlər görülmüş, Azərbaycan dilinin – ana dilinin tətbiq olunması, mədəniyyətimizin bir çox sahələrində, təhsil sahəsində tədbirlər görülməsi, iqtisadiyyat sahəsində müəyyən addımlar atılması ilk Azərbaycan Demokratik Respublikasının fəaliyyətini əks etdirən faktlardır.

Lakin vəziyyət həddindən artıq ağır və gərgin idi. Həm xaricdən olan təzyiqlər, eyni zamanda daxildəki çəkişmələr, – təsəvvür edin, qısa müddətdə, yəni iki ildən də az bir dövrdə Azərbaycan Demokratik Respublikasının hökumət tərkibi beş dəfə dəyişmişdir, – bunların hamısı demokratik respublikanı xırda-xırda tənəzzülə uğratdı və nəhayət, 1920-ci il aprelin 27-də Azərbaycan Demokratik Respublikası süqut etdi.

Azərbaycan Demokratik Respublikasının başında duranlar respublika, dövlət yaratdılar və o vaxt həmin dövləti kommunistlərə təhvil verdilər. Kommunist rejimi dövründə Azərbaycan Sovet Sosialist Respublikası yarandı. Rusiya kommunist dövlətindən asılılığına baxmayaraq, Azərbaycan Sovet Respublikası müəyyən qədər müstəqil dövlət kimi fəaliyyət göstərdi. O, bir sıra müstəqil addımlar atdı, bir çox dövlətlərlə müqavilələr bağladı və Azərbaycanın müstəqilliyini müəyyən qədər qorudu.

1922-ci ilin dekabrında Sovet Sosialist Respublikaları İttifaqı yarandı. Azərbaycan Respublikası bu ittifaqa daxil oldu.

Beləliklə, Azərbaycan Demokratik Respublikasının süqutundan sonra Azərbaycan Respublikası, Azərbaycan xalqı yetmiş il kommunist rejimi şəraitində, sosialist dövlətinin tərkibində yaşamışdır. Həmin dövr Azərbaycan xalqının həyatında böyük bir tarixi dövrdür, onun doğru-düzgün qiyməti verilməlidir.

Bu dövrdə Azərbaycan xalqı kommunist rejimində, Ümumittifaq sosialist dövlətinin tərkibində olduğundan, şübhəsiz ki, müstəqilliyini itirmiş, ancaq dövlətçiliyini tam itirməmişdi. Azərbaycan Respublikasının dövlətçiliyinin bir çox atributları qalmış, yaşamışdı. Əsas cəhət budur ki, yetmiş il ərzində Azərbaycan xalqı böyük tarixi yol keçmiş, respubli[6-7]kanın iqtisadiyyatı yüksək sürətlə inkişaf etmiş, xalqımızın mədəni, təhsil səviyyəsi yüksəlmiş, Azərbaycanın elmi, mədəniyyəti, həyatının bütün sahələri inkişaf etmiş, respublikada böyük iqtisadi, sosial və mədəni-intellektual potensial yaranmışdır.

Azərbaycan xalqı həmin dövrdə mövcud şəraitə uyğunlaşsa da, eyni zamanda onun qəlbində tam müstəqillik, milli azadlıq hissləri yaşamışdır. Keçmişdə olduğu kimi, bu dövrdə də həmin hisslər xalqımızı heç vaxt tərk etməmişdir. Orta əsrlərdə Azərbaycan xalqı Nizami, Xaqani, Nəsimi, Füzuli kimi dahilər yetirmiş və onlar da azadlıq hissləri ilə yaşayıb-yaratmışlar. Sonrakı dövrlərdə, Azərbaycan çar Rusiyasının tərkibində, onun əsarəti altında olarkən də ölkənin mütəfəkkir adamları, qabaqcıl siyasi xadimləri, yazıçı və şairləri olmuşdur. Mirzə Fətəli Axundov, Həsən bəy Zərdabi, Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Seyid Əzim Şirvani, Üzeyir Hacıbəyov kimi şəxsiyyətlərin yaradıcılığında da milli azadlıq hissləri öz əksini tapmışdır. Yəni siyasi rejimdən, kiminsə əsarəti altında yaşamasından asılı olmayaraq, xalqımız həmişə milli azadlığa, istiqlala can atmışdır.

Yetmiş illik sosialist rejimi dövründə də bu hisslər xalqın qəlbindən çıxmamışdır. Bəli, Nəriman Nərimanov da Azərbaycan xalqının müstəqilliyi uğrunda çalışmışdır. Cəfər Cabbarlı hələ 1918-20-ci illərdə böyük əsərlər yaradaraq, həm də sosialist sistemi dövründə onu tərənnüm edərək məhz Azərbaycanın milli azadlığı uğrunda çalışmış və xalqımızın azadlıq hisslərini ifadə etmişdir. Hüseyn Cavid, Əhməd Cavad, Mikayıl Müşfiq və o dövrdə yaşamış başqa sənətkarlar da öz əsərlərində xalqımızın milli azadlıq fikirlərini əks etdirmişlər. Səməd Vurğun, Rəsul Rza, Azərbaycanın ilk Elmlər Akademiyasının birinci prezidenti Mirəsədulla Mirqasımov, Yusif Məmmədəliyev, Mustafa bəy Topçubaşov da bu dövrdə yaşamış, Azərbaycan xalqına bu dövrdə xidmət göstərmişlər. Onlar öz əserləri, elmi fəaliyyətləri ilə Azərbaycan xalqının elm və mədəniyyətinin yüksəlməsinə çalışmış və beləliklə də xalqı gələcəyə, milli azadlığa, müstəqilliyə doğru aparmışlar.

Nəhayət, 1991-ci ilin sonunda Sovetlər İttifaqında gedən proseslərin nəticəsində və İttifaqın dağılması ilə əlaqədar, dünyada cərəyan edən ictimai-siyasi proseslərin nəticəsində Azərbaycan Respublikası tam müstəqillik qazandı və iki il yarımdır ki, müstəqil dövlət kimi mövcuddur. Bu dövr də asan mərhələ deyildir. Ancaq bu dövrün ən əlamətdar cəhəti ondan ibarətdir ki, Azərbaycan Respublikası müstəqil dövlət kimi dünya dövlətləri tərəfindən tanınmış, Birləşmiş Millətlər Təşkilatına, ATƏM-ə daxil olmuşdur, bir çox digər beynəlxalq təşkilatların üzvüdür. Azərbaycan Respublikası sərbəst fəaliyyət göstərir və müstəqil dövlət kimi dünya birliyində tanınmışdır.

Bəzən bu dövrə nəzər salarkən 1918-1920-ci illərdə gedən prosesləri xatırlayır, həmin proseslərin bir-birinə çox bənzədiyini görürsən. O vaxt da bir çox xarici qüvvələr Azərbaycana təzyiq göstərirdi. O zaman da Er[7-8]mənistan Azərbaycanın torpaqlarını ələ keçirmək üçün təcavüzə başlamışdı, Azərbaycan xalqı öz torpaqlarını erməni qəsbkarlarından müdafiə edirdi. Həmin dövrdə də Azərbaycanı parçalamaq istəyirdilər. Məlumdur ki, 1918-20-ci illərdə Azərbaycanın parçalanması üçün bir neçə addım atılmışdı və parçalanma vəziyyəti yaranmışdı. İndi də, müstəqillik əldə edildikdən sonra bunlar təkrar olunur. Müstəqil Azərbaycan dövləti bir çox xarici qüvvələr tərəfindən təzyiq altındadır. Altı ildir ki, Azərbaycan xalqı torpaqlarımızı zəbt etmək niyyətində olan Ermənistanın hərbi təcavüzünə məruz qalmışdır və öz ərazisini müdafiə edir.

Eyni zamanda bu müddətdə ölkəmizin daxilində gedən cürbəcür ictimai-siyasi proseslər Azərbaycanın müstəqilliyinin möhkəmlənməsinə deyil, əksinə, zəifləməsinə xidmət etmişdir. Daxildəki bəzi ictimai-siyasi qüvvələrin hakimiyyət uğrunda mübarizəsi, çəkişmələri, bir-birinə qarşı ədavəti və düşmənçilik meylləri məhz 1918-20-ci illərdəki prosesləri yada salır. O zaman da Azərbaycan xalqı daxildə gedən və xalqa, onun müstəqilliyinə zidd olan proseslərdən çox şey itirmişdi, təəssüf ki, indi də itirir. O vaxt da Azərbaycanın müstəqilliyini əlindən almaq istəyən qüvvələr bundan istifadə etmişdi, indi də istifadə etməyə çalışırlar. Bir il əvvəl Azərbaycanda artıq vətəndaş müharibəsi baş vermişdi. Bu, hamının xatirindədir. Azərbaycan parçalanırdı. Bəzi regionlarda ayrı-ayrı hadisələr meydana çıxırdı. Xarici qüvvələrin, xüsusən bizim üçün ən qatı düşmən olan erməni millətçilərinin əli ilə Azərbaycanı parçalamağa çalışan qüvvələr fəaliyyət göstərirdi və Azərbaycanın başı üzərində belə böyük təhlükə yaranmışdı.

Allaha şükürlər olsun ki, bunların qarşısı alındı, Azərbaycanın parçalanmasına yol verilmədi. Ölkədə gedən ziddiyyətli ictimai-siyasi proseslər müəyyən qədər dayandırıldı, Azərbaycanda sabitlik yarandı. Lakin bu o demək deyil ki, həm xarici aləmdə mövqelərimiz, həm də daxili vəziyyətimiz bu gün Azərbaycanın müstəqilliyini təmin etmək üçün tam əlverişli şərait yaradır. Bir dəfə Azərbaycanın müstəqilliyi heç də o vaxt ölkəyə rəhbərlik edən şəxslərin günahı ucbatından deyil, həmin dövrdəki proseslərin nəticəsində əldən getmişdir. İndi yenə də Azərbaycanın müstəqilliyi çox təhlükə altındadır. Bunu hər bir vətənpərvər adam,

millətini, xalqını sevən hər bir azərbaycanlı bilməli, dərk etməli və Azərbaycanın müstəqilliyinin daimi, dönməz olması üçün səy göstərməlidir.

Bütün çətinliklərə baxmayaraq, bu bayram günündə bildirmək istəyirəm ki, Azərbaycan Respublikasının dövləti tutduğu yolla gedir. Dövlətçiliyin qurulması və inkişaf etməsi prosesləri davam edir. Azərbaycanın tutduğu yol müstəqil Azərbaycan Respublikası, demokratik hüquqi cəmiyyət qurmaq yoludur. Biz bu yolla gedirik və gedəcəyik. Bizi bu yoldan heç kəs döndərə bilməyəcəkdir! Azərbaycanın daxilində demokratik cəmiyyət yaratmaq üçün, Azərbaycanı tam demokratik hüquqi dövlətə çevirmək üçün çox iş görmək lazımdır. Bu işlərin əsas prinsipləri elan edilmişdir. Yeni [8-9] Azərbaycanda demokratiya prinsipləri bərqərar olmalı, hər yerdə insan azadlığı təmin edilməli, insan haqları qorunmalı, vicdan azadlığı, dil azadlığı təmin olunmalıdır. Dinindən, dilindən, irqindən asılı olmayaraq Azərbaycanın bütün vətəndaşları eyni hüquqlara malikdirlər və bu hüquqlar qorunmalıdır.

Dövlət bundan sonra da bu hüquqları qoruyacaqdır. Azərbaycanda söz azadlığı, fikir azadlığı, siyasi plüralizm geniş yer almalıdır, hər bir vətəndaş özünü azad, sərbəst hiss etməlidir. Siyasi plüralizm yolu, söz azadlığı Azərbaycan dövlətinin demokratik prinsiplərinin və demokratik hüquqi cəmiyyət yaradılmasının əsas şərtlərindən biridir. Biz bu prinsiplərin hamısının həyata keçirilməsini təmin edəcəyik.

İndi Azərbaycanın iqtisadiyyatı ağır böhran içərisindədir. İnsanların həyat tərzi ağırdır. Bunların səbəbləri məlumdur. Ancaq əsas səbəblərdən biri istehsalın aşağı düşməsi, son illər iqtisadiyyatda gedən dağıdıcı proseslər və yeni iqtisadi sistemə keçiddəki çətinliklərdir. Ona görə də mən bir daha bəyan edirəm ki, Azərbaycanın iqtisadi həyatı bazar iqtisadiyyatı yolu ilə, sərbəst iqtisadiyyat yolu ilə gedəcəkdir. Sərbəst iqtisadiyyatı, bazar iqtisadiyyatını təmin etmək üçün iqtisadi islahatlar aparılmalıdır və bundan sonra da aparılacaqdır.

Məlumdur ki, əhalinin əksər hissəsi ağır maddi şəraitdə yaşayır. Əhalini bu vəziyyətdən çıxarmaq üçün lazımi tədbirlər görülür və bundan sonra da görüləcəkdir. Bu günlərdə fərmanlar elan olunacaqdır. Az maaş alanların əmək haqlarının artırılması, müəyyən imtiyazlar yaradılması, maliyyə sistemində baş vermiş inflyasiyanın qarşısının alınması və bir neçə digər belə tədbirlər hazırlanıb. Güman edirəm ki, bu tədbirlər iqtisadi vəziyyəti bir qədər tarazlaşdıracaq və əhalinin maddi vəziyyətini, həyat tərzini də müəyyən qədər yüngülləşdirəcəkdir. Ancaq bunların hamısının dərhal nəticə verəcəyini deyə bilmərəm. Biz ağır proseslər içərisində yaşayırıq. Bu proseslərdən doğru yol tapmaq, düz getmək üçün həm çox düşünülmüş, həm də cəsarətli hərəkət etməliyik. Biz belə də hərəkət edəcəyik.

Həyatımızın çətinliyinin əsas səbəbi respublikamızın müharibə şəraitində olmasıdır. Azərbaycan torpaqları altı ildir ki, Ermənistan tərəfindən təcavüzə məruz qalmışdır. Müharibə gedir. Torpaqlarımızın bir qismi işğal olunub. Həmin ərazilərimizdən bir milyondan artıq vətəndaşımız yerindən, yurdundan didərgin düşmüş və qaçqın vəziyyətində yaşayır. Bunlar hamısı həyatımızın reallığıdır, mövcud vəziyyətdir. Eyni zamanda bunlar hamısı həm iqtisadiyyat sahəsində, həm də dövlətçiliyimizin möhkəmləndirilməsi sahəsində çətinliklər yaradır. Bu baxımdan mən Azərbaycanın müharibədən çıxması və xarici siyasəti haqqında fikirlərimi bir daha bildirmək istəyirəm.

Azərbaycan müstəqil dövlət kimi bütün dövlətlərlə bərabər hüquqlu, qarşılıqlı surətdə faydalı əlaqələr saxlayır və bu əlaqələri inkişaf etdirir. Bildiyiniz kimi, Azərbaycan müstəqilliyini əldə etdikdən sonra bir çox dövlətlərlə diplomatik əlaqələr qurmuşdur. Sizə məlumdur ki, son vaxtlar Azərbaycan xarici siyasət sahəsində bir çox gərəkli, uğurlu addımlar [9-10] atmışdır. Dünyanın böyük dövlətləri ilə əlaqələrimiz daha da sıxlaşıb, daha da möhkəmlənib. Biz həm Birləşmiş Millətlər Təşkilatının tərkibində, həm ATƏM-in tərkibində, həm də Müstəqil Dövlətlər Birliyinin tərkibində fəaliyyət göstəririk, bütün bu dövlətlərlə beynəlxalq təşkilatlar çərçivəsində fəaliyyət göstəririk. Dünya dövlətləri ilə qurulan ikitərəfli əlaqələr eyni zamanda Azərbaycanın beynəlxalq aləmdə mövqeyinin möhkəmlənməsinə kömək edir. Bunların hamısı bir tərəfdən Azərbaycanın müstəqilliyini möhkəmləndirmək, ikinci bir tərəfdən isə Azərbaycanı müharibə vəziyyətindən çıxarmaq məqsədi daşıyır. Baxmayaraq ki, torpaqlarımızın bir qismi işğal olunub, bir milyon əhali qaçqın düşüb, işğal edilmiş torpaqlarda erməni silahlı qüvvələri Azərbaycan xalqının yaratdığı iqtisadi, mədəni potensialı dağıtmaqdadır – bunların hamısına baxmayaraq, biz yenə də sülhsevər siyasət yürüdürük. Biz bütün dövlətlərlə sülhsevər siyasət əsasında əlaqə qururuq. Ermənistanla əlaqələrimizi də sülh əsasında qurub müharibəyə son qoymağa çalışırıq.

Əsas şərt odur ki, Azərbaycanın ərazi bütövlüyü qorunmalı, sərhədlərinin toxunulmazlığı təmin olunmalı, Ermənistan silahlı qüvvələri işğal edilmiş torpaqlarımızdan çıxmalı və onu tərk etməlidir. Didərgin düşmüş qaçqınların hamısı öz yerlərinə qayıtmalıdır. Biz bu prinsiplər əsasında beynəlxalq təşkilatlar çərçivəsində fəaliyyət göstəririk, böyük dövlətlərlə əlaqə saxlayırıq. O cümlədən, burada vasitəçilik fəaliyyəti göstərməyə çalışan Rusiya dövləti ilə də sıx əlaqə saxlayırıq. Ancaq məlum olmalıdır ki, bizim əsas prinsiplərimiz indicə dediyim prinsiplərdir. Müharibəyə son qoyulması, torpaqlarımızın geriyə qaytarılması, ərazi bütövlüyümüzün təmin olunması prinsipləri əsasında, sülh yolu ilə, danışıqlar yolu ilə irəliləmək istəyirik. Bizim məqsədimiz də, yolumuz da budur.

Beynəlxalq təşkilatlar və xüsusən ATƏM, onun tərkibində olan Minsk qrupu bizim bu hərəkət xəttimizi, siyasətimizi bəyənir və biz bu sahədə müştərək fəaliyyət göstəririk, bundan sonra da belə fəaliyyət göstərəcəyik. Ancaq bununla yanaşı, biz Azərbaycanın hərbi qüdrətini möhkəmləndiririk və möhkəmləndirməliyik, Azərbaycanın ordusu yaranmaqdadır. Hər bir müstəqil dövlətin ordusu dövlətin əsas atributlarından biridir. Müstəqillik əldə olunandan sonra ordu quruculuğunda təəssüf ki, çox böyük səhvlər buraxılmış, lazımi ordu yaradılmamış və bunlar da Ermənistanla müharibədə məğlubiyyətlərin əsas səbəbidir.

Bildiyiniz kimi, son vaxtlar ordu yaranır, güclənir. Son aylardakı döyüşlərdə erməni silahlı qüvvələrinin hücumları Azərbaycan Ordusunun qüvvələri tərəfindən çox qətiyyətlə dəf edilmiş, mövqelərimiz müdafiə olunmuşdur. Ordumuz Azərbaycan torpaqlarının müdafiəsi keşiyində indi də durur. Ordunun yaradılması və möhkəmləndirilməsi həm indi torpaqlarımızı müdafiə etmək üçün, həm də sülh yaranarsa, gələcəkdə Azərbaycanın ərazi bütövlüyünün qorunması üçün əsas şərtlərdən biridir və biz bunu təmin etməyə çalışırıq. [10-11]

Beləliklə, Azərbaycan Respublikası müstəqil dövlət kimi qısa bir müddətdə – təxminən iki il yarımdır ki, Azərbaycan öz müstəqilliyini əldə edib – çox işlər görüb. Eyni zamanda hələ istənilən səviyyəyə gəlib çatmayıb. Respublikamız ağır vəziyyətdədir. Mən bunu etiraf edirəm. Bu ağır vəziyyətdən hamımız birlikdə çıxmalıyıq.

Bu ağır vəziyyətdən çıxmaq üçün 1918-1920-ci illərdə Azərbaycan Demokratik Respublikasının fəaliyyətində olmuş proseslərdən hamımız ibrət dərsi götürməliyik. Hamımız. Çünki o, bizim üçün çox əyani bir ibrət dərsidir və biz bunu mütləq etməliyik. Azərbaycan müstəqilliyini təmin etmək üçün gərək öz daxili imkanlarını möhkəmləndirsin. Gərək Azərbaycan xalqı daha da sıx birləşsin, Azərbaycan xalqının vətənpərvərlik hissi yüksəlsin. Vətənini müdafiə etmək, Vətən yolunda şəhid olmaq, Vətən naminə özünü fəda etmək duyğuları, hissləri indi bütün Azərbaycanda hökm sürməlidir.

Mən bu gün, bu bayram günü qeyd etmək istəyirəm ki, son illərdə, bu ağır dövrdə Azərbaycanın qəhrəman, cəsur övladları torpaqlarımızı çox vaxt məharətlə müdafiə etmiş, düşmənə zərbələr vurmuşlar. Bu dövrdə Azərbaycan xalqı çoxlu şəhidlər vermişdir. Son günlərədək, atəş dayanana qədər hər gün qanlı döyüşlər gedirdi. Azərbaycan oğulları hər gün şəhid olurdu. Bütün bunlar onu göstərir ki, Azərbaycan xalqının tarix boyu nümayiş etdirdiyi qəhrəmanlıq, cəsurluq ənənələri bu gün müstəqil Azərbaycan dövlətində yenidən yüksəlmişdir və daha da canlanacaqdır. Azərbaycanın müstəqilliyi, torpaqlarımızın müdafiəsi uğrunda özlərini qurban vermiş. şəhidlərin xatirəsini bu bayram günündə bir dəqiqəlik sükutla yad etməyi xahiş edirəm. Allah bütün şəhidlərə rəhmət etsin.

Bu bayram günündə bütün Azərbaycan xalqı adından bəyan edirəm ki, torpaqlarımızın müdafiəsi uğrunda şəhid olanların xidməti heç vaxt unudulmayacaq, onlar qəlbimizdə daim yaşayacaqlar. Onların qəhrəmanlığı, şəhidliyi Azərbaycan Ordusunun əsgərləri üçün, gənclərimiz üçün böyük örnək olacaqdır. Hər bir Azərbaycan əsgəri, hər bir Azərbaycan gənci torpaqlarımızı müdafiə etmək üçün şəhidlərin nümunəsini daim göz önündə saxlayacaqdır.

Bildiyiniz kimi, mayın 10-dan atəş kəsilmişdir, sülh danışıqları gedir. Biz bu danışıqları respublikanın mənafeyini müdafiə etmək prinsipləri əsasında aparırıq və bundan sonra da aparacağıq. Ancaq eyni zamanda Azərbaycan xalqı, Azərbaycan ordusu torpaqlarımızı müdafiə etmək üçün həmişə sayıq olmalı, hazır olmalıdır. Biz müharibə istəmirik, heç kəsin torpağına göz dikməmişik. Biz öz torpaqlarımızı, müstəqil Azərbaycan dövlətini müdafiə edirik. Ona görə də apardığımız müharibə ancaq müdafiə xarakteri daşıyır və tam ədalətlidir. Belə ədalətli müharibəyə Azərbaycan xalqı, Azərbaycan Ordusu həmişə hazır olmalıdır.

Ordumuzda xidmət edən əsgər və zabitlərə bu gün bayram təbriki göndərirəm. İndi cəbhədə Azərbaycan torpaqlarının keşiyində duran or[11-12]dumuzun əsgər və zabitlərini bu böyük bayram münasibətilə ürəkdən təbrik edirəm.

Ordumuzla yanaşı, cəbhə boyunda ağır şəraitdə yaşayan vətəndaşlarımız da torpaqlarımızı müdafiə edirlər. Bu bayram günündə onları xüsusi təbrik edir, hamısına dözüm, bir daha cəsarət və qəhrəmanlıq arzulayıram.

İşğal olunmuş torpaqlarımızdan didərgin düşmüş qaçqınlarımız, sizə üzümü tuturam. Sizin nə qədər ağır vəziyyətdə yaşadığınızı bilirik. Sizin yaşayışınız üçün əlimizdən gələni edirik və bundan sonra da edəcəyik. Sizin dözümünüz, dəyanətiniz bütün Azərbaycan xalqı üçün nümunədir. Əziz həmvətənlər, bayram münasibətilə sizi təbrik edir və əmin olduğumu bildirmək istəyirəm ki, öz evinizə, obanıza qayıdacaq və doğma yurdunuzun sahibi olacaqsınız.

Bu bayram günündə şəhid ailələrinə üzümü tuturam. Onların dərd-qəmi bütün xalqın dərd-qəmidir, bizim dərd-qəmimizdir. Əziz həmvətənlər, bayram münasibətilə sizi təbrik edirəm. Biz sizinlə həmişə birik və bir olacağıq. Sizin şəhid olmuş övladlarınız, qardaşlarınız, atalarınız Vətən yolunda, Azərbaycanın müstəqilliyi yolunda canlarından keçmişlər. Onlar özlərinə əbədi abidə qoymuşlar.

Azərbaycanın hüdudlarından kənarda da soydaşlarımız yaşayır. Uzaqda olsalar da, onların əksəriyyəti qəlbən bizimlə, ana Vətənlə, doğma torpaqladır, Azərbaycanladır. Vətəndən kənarda yaşayan bütün

soydaşlarımıza bu bayram günündə Azərbaycan Respublikası adından bayram salamı göndərir, onları təbrik edir və bundan sonra da vətənpərvərlik hissləri ilə yaşamalarını arzu edirəm.

Bir də qeyd etmək istəyirəm ki, Azərbaycanın bu ağır vəziyyətdən çıxması üçün çox iş görülməlidir. Bundan ötrü isə Azərbaycanın daxilində ictimai-siyasi sabitlik, bütün qüvvələrin, bütün təbəqələrin, bütün vətəndaşların milli birliyi, həmrəyliyi lazımdır.

Güman edirəm ki, bu gün, bu bayramı qeyd edərkən, ilk Azərbaycan Demokratik Respublikasının yaranmasına və fəaliyyətinə hörmət və ehtiramımızı bildirərkən bir daha və bir daha o dövrü təhlil etməli, o dövrün nailiyyətlərindən istifadə etməli, bəhrələnməli, o zaman buraxılan səhvlərə yol verməməliyik. O dövrdə Azərbaycan Demokratik Respublikasını zəiflədən amillərin indi də mövcud olduğunu görərək, mütləq onları aradan qaldırmalıyıq.

Ona görə də bu bayram günündə bütün Azərbaycan vətəndaşlarına üzümü tutaraq bir daha deyirəm: indi Azərbaycanın müstəqilliyi xalqımızın öz əlindədir. Bu gün bir daha bəyan etməliyik ki, Azərbaycanın müstəqilliyi daimidir, əbədidir, dönməzdir və bu yolda hamımız əl-ələ verərək çalışmalıyıq.

Azərbaycanın müstəqilliyi, müstəqil dövlətimizin geniş fəaliyyəti torpaqlarımızın azad edilməsi ilə bağlıdır. Ona görə də qarşımızda duran əsas vəzifə Azərbaycanı erməni təcavüzündən xilas etmək, işğal olunmuş torpaqlarımızı geri qaytarmaq, Azərbaycanın ərazi bütövlüyünü, sərhədlərinin toxunulmazlığını təmin etməkdir. Bu yolda hamı həmrəy, bir [12-13] olmalı, bütün ədavətlər bir kənara qoyulmalıdır, bu yolda hamımız Vətənin sıravi əsgəri olmalıyıq. Hamını bu yola dəvət edir və ümidvar olmaq istədiyimi bildirirəm ki, Azərbaycanın bütün vətənpərvər adamları məhz bu yolla gedəcəklər.

Əziz həmvətənlər, bu böyük bayram münasibətilə Sizi bir daha təbrik edir, hər birinizə cansağlığı, xoşbəxtlik arzulayıram. Ümidvar olduğumu bildirmək istəyirəm ki, işıqlı gün uzaqda deyil, Azərbaycan bu qaranlıqdan, bu bəladan çıxacaq, xalqımız daha da ucalacaq və müstəqil Azərbaycan Respublikası dünya birliyində öz layiqli yerini tutacaqdır. Sağ olun. [13-14]

## RESPUBLİKANIN ƏMƏKDAR İNCƏSƏNƏT XADİMİ BƏSTƏKAR ŞƏFİQƏ AXUNDOVAYA

Hörmətli Şəfiqə xanım!

Sizi – Azərbaycan xalqının sevimli bəstəkarını şanlı yubileyiniz münasibətilə ürəkdən təbrik edir, Sizə xoş arzularımı bildirirəm.

Sizin qoca Şərqdə opera yazan ilk qadın bəstəkar kimi tanınmağınız xalqımız üçün böyük fəxrdir. Əminəm ki, qəlblərə yol acan əzəmətli və ecazkar musiqiniz gənclərin mənəvi dünyasına saflıq və aydınlıq, əzəmət və qüdrət bəxş edəcək, xalqımızın mübarizə əzmini, qurub-yaratmaq eşqini daha da qüvvətləndirəcəkdir.

Sizə yaradıcılıq yollarında möhkəm cansağlığı, uzun ömür, yeni sənət uğurları diləyirəm.

**HEYDƏR ƏLİYEV**

*1 iyun 1994-cü il* [14-15]

## TÜRKİYƏ CÜMHURİYYƏTİNƏ QISAMÜDDƏTLİ İŞGÜZAR SƏFƏRƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRİN SUALLARINA CAVAB

*9 iyun 1994-cü il*

**- Hörmətli prezident Türkiyə Cümhuriyyətinə qısamüddətli işgüzar səfərinizin məqsədi barədə nə deyə bilərsiniz?**

- Türkiyə ilə Azərbaycan bir-birinə çox yaxın, dost ölkələrdir. Azərbaycanın Türkiyə ilə dostluq və əməkdaşlıq haqqında müqaviləsi vardır və biz bu ölkə ilə müntəzəm əlaqə saxlayırıq. 1994-cü ilin fevralında mən Türkiyədə rəsmi səfərdə olarkən bir çox mühüm müqavilələr, sazişlər imzalamışıq və bunların həyata keçirilməsi ilə hər iki tərəf məşğul olur. Bu yaxınlarda mən Belçikaya səfərdən Bakıya dönərkən də bir neçə saat Ankarada oldum. Türkiyənin rəhbərləri ilə görüşdüm, söhbətlər etdik, məsləhətləşmələr apardıq.

Türkiyə ilə Azərbaycan arasında dostluq və qardaşlıq əlaqələrinin inkişaf etdiyi indiki şəraitdə, bizim vaxtaşırı görüşməyə, danışıqlar, məsləhətləşmələr aparmağa ehtiyacımız var. Ona görə də dostum, qardaşım Süleyman Dəmirəl məni Türkiyəyə dəvət edib. O, İstanbulda olduğu üçün rica edib ki, İstanbula gəlim, orada görüşərək əməkdaşlığımızın davam etməsi ilə əlaqədar bir sıra məsələləri müzakirə edək. Mən bu dəvəti məmnuniyyətlə qəbul etmişəm.

**- Hörmətli prezident, hazırda İstanbulda Azərbaycan Dövlət Neft Şirkəti ilə xarici ölkələrin neft şirkətləri arasında dəniz neft yataqlarının birgə işlənməsinə dair müqavilə bağlanması barədə danışıqlar gedir. Orada Şimali Atlantika Əməkdaşlıq Şurasının iclası da keçiriləcəkdir. Səfərinizin bu iki mühüm hadisə ilə əlaqəsi varmı?**

- Xeyr, mənim səfərim həmin hadisələrlə əlaqədar deyil. Bu, sadəcə olaraq təsadüfdür. Əgər Türkiyə prezidenti Süleyman Dəmirəl bu gün Ankarada olsaydı, mən Ankaraya gedəcəkdim. Ancaq o, indi İstanbuldadır, ona görə də məni İstanbula dəvət etdi.

Qərb ölkələrinin neft şirkətləri ilə Azərbaycan Dövlət Neft Şirkəti arasında danışıqlar üç gündür ki, yenidən başlanıb. Bu danışıqlar lazımi səviyyədə davam edir. Hazırda bu işlərə mənim müdaxilə etməyimə ehtiyac yoxdur. Çünki respublika Dövlət Neft Şirkətinin nümayəndə heyəti İstanbula yola düşərkən mən onları qəbul etdim, ətraflı söhbət apardıq. Bu barədə Azərbaycanın prinsipial mövqeyi müəyyənləşib və nümayəndələrimiz də danışıqları bunun əsasında aparırlar.

Şimali Atlantika Əməkdaşlıq Şurasına daxil olan ölkələrin xarici işlər nazirlərinin iclasına isə Həsən Həsənov dəvət olunub. O, orada çıxış [15-16] edəcək və bütün fikirlərimizi ŞAƏŞ-in iclasının iştirakçılarına çatdıracaqdır.

**- Rusiya müdafiə nazirinin Bakıya səfərinin məqsədi barədə nə deyə bilərsiniz?**

- Pavel Qraçovun Bakıya səfəri Qəbələdəki böyük əhəmiyyət kəsb edən hava hücumundan müdafiə qurğusu ilə əlaqədardır. Bu barədə bizim müəyyən danışıqlarımız olub. Mən Rusiyanın prezidenti Boris Yeltsinlə telefonla danışıq aparmışam. Həmin obyekt vaxtı ilə Sovet İttifaqının strateji raketlərdən mühafizə olunması üçün qurulmuşdur. Bunun indi Rusiya üçün böyük əhəmiyyəti var. Həmin qurğu hazırda istismar olunur, ancaq onun Azərbaycandakı statusu müəyyən deyil. Bir halda ki, həmin qurğu Azərbaycanın ərazisində yerləşir, deməli, Azərbaycana məxsusdur. Sovet İttifaqı iki il yarımdır dağılıb. Təəssüf ki, bu müddətdə məsələ həll olunmayıb. Yəni iki il yarımdır ki, qurğudan Rusiya yenə də istifadə edir, ancaq Azərbaycanın hüquqları müəyyən deyil. Ona görə də mən Rusiyanın prezidenti Boris Yeltsinin, müdafiə naziri Pavel Qraçovun qarşısında bu məsələni qaldırmışam. Pavel Qraçov da həmin məsələni müzakirə etmək üçün Bakıya gəlir. [16-17]

## İSTANBULUN ATATÜRK HAVA LİMANINDA RƏSMİ QARŞILANMA MƏRASİMİNDƏN SONRA JURNALİSTLƏR QARŞISINDA BƏYANAT

*9 iyun 1994-cü il*

Əziz Süleyman bəy! Sizinlə bir daha görüşmək, bir çox məsələlər haqqında fikir mübadiləsi aparmaq, məsləhətləşmək bizim üçün çox vacibdir və bu imkana görə Sizə təşəkkür edirəm. Türkiyənin böyük və gözəl şəhəri İstanbula gəlməyimdən çox məmnunam. İstanbullulara, Türkiyədəki bütün qardaşlarımıza öz salamımı yetirir, hörmətimi bildirirəm.

Türkiyə və Azərbaycan dost, qardaş, qonşu dövlətlərdir. Ölkələrimiz arasında əlaqələr son vaxtlar çox sürətlə inkişaf edir. Bu ilin fevralında mən Türkiyədə rəsmi səfərdə olarkən bir çox mühüm müqavilələr, sazişlər imzalamışıq və bunların həyata keçirilməsi ilə hər iki tərəf məşğul olur. Bu yaxınlarda mən Belçikaya səfərdən Bakıya dönərkən də bir neçə saat Ankarada oldum. Türkiyənin rəhbəri ilə görüşdük, söhbətlər etdik, məsləhətləşmələr apardıq. Əmin olduğumu bildirmək istəyirəm ki, indiki qısamüddətli işgüzar səfər zamanı keçiriləcək görüşlər, danışıqlar iki ölkə arasında əlaqələrin daha da inkişafına kömək edəcəkdir.

Altı ildən bəri davam edən müharibə Azərbaycan üçün ən böyük problem olaraq qalır. Ermənistanın hərbi təcavüzü nəticəsində torpaqlarımızın 20 faizindən çoxu işğal olunmuşdur, 1 milyon 200 mindən artıq insan qaçqın, köçkün vəziyyətində yaşayır. Bütün bunlara baxmayaraq, biz müharibəyə son qoymaq istəyirik, onun gələcəyinin olmadığını yaxşı bilirik.

Problemin sülh yolu ilə həll edilməsi istiqamətində Azərbaycanın təşəbbüslərindən danışarkən ölkəmizin mövqeyini bir daha vurğulayaraq bildirirəm ki, respublikamızın işğal edilmiş torpaqları azad olunmalı, Azərbaycanın ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı təmin edilməlidir. Biz bu sahədə beynəlxalq təşkilatların, BMT Təhlükəsizlik Şurasının, ATƏM-in, Minsk qrupunun, dünyanın nüfuzlu dövlətlərinin, habelə Türkiyə kimi böyük və bizə dost ölkənin imkanlarından hərtərəfli istifadə etməyə çalışırıq. 1994-cü il martın 4-də Azərbaycanın NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramına qoşulması da müharibəyə son qoyulması istiqamətində yaranmış imkanlardan biridir.

Ermənistanla Azərbaycan arasında müharibə, Ermənistanın Azərbaycana təcavüz etməsi Qafqaz bölgəsində vəziyyəti daha çox gərginləşdirir və bu ağır vəziyyət qonşu dövlətlərə də təsir edir. Şübhəsiz ki, bizim yaxın qonşumuz Türkiyə buna biganə qala bilməz. Çünki bir tərəfdən onun qardaşları təhlükə içərisindədir ikinci tərəfdən isə həm Azər[17-18]baycan həm də Ermənistan Türkiyə ilə sərhəd qonşularıdır. Ona görə də bu məsələnin beynəlxalq təşkilatlarda ədalətli həllinə Türkiyənin sözü, mövqeyi çox kömək edəcək və biz buna həmişə böyük ümid bəsləyirik.

Mən əminəm ki, bugünkü danışıqlarda da həmin məsələlər və iki, qardaş ölkə arasında əməkdaşlığın daha da möhkəmləndirilməsi ilə əlaqədar digər məsələlər hərtərəfli müzakirə olunacaqdır. Mən dəvəti məhz bunun üçün qəbul edib İstanbula gəlmişəm. İnanıram ki, görüşlərimiz xalqlarımız üçün çox faydalı olacaqdır. [18-19]

## TÜRKİYƏDƏN VƏTƏNƏ QAYIDARKƏN İSTANBULUN ATATÜRK HAVA LİMANINDA JURNALİSTLƏR ÜÇÜN BRİFİNQDƏ BƏYANAT

*10 iyun 1994-cü il*

Türkiyə Cümhuriyyətinin prezidenti hörmətli Süleyman Dəmirəlin dəvəti ilə mən dünən buraya qısamüddətli işgüzar səfərə gəldim. İndi də geriyə dönürəm, Azərbaycana yola düşürəm. Bu müddətdə burada Azərbaycan üçün çox əhəmiyyətli görüşlər oldu. Hörmətli dostumuz, qardaşımız Süleyman Dəmirəlin dəvəti ilə mənim buraya gəlməyimin məqsədi Türkiyə ilə Azərbaycan arasında əlaqələrin sürətlə inkişaf etməsi barədə bəzi danışıqlar aparmaq, məsləhətləşmələr etmək idi.

Dünən Türkiyə prezidenti Süleyman Dəmirəllə çox ətraflı söhbətimiz oldu, ölkələrimiz üçün maraqlı olan məsələlərin hamısını müzakirə etdik. Bu gün Türkiyənin baş naziri hörmətli Tansu Çillərlə, baş nazirin birinci müavini hörmətli Murad Qarayalçınla görüşlərim oldu. Bu görüşlərdə də Azərbaycanla Türkiyə arasında dostluq, qardaşlıq əlaqələrinin inkişaf etdirilməsi və bəzi məsələlərin həllinin sürətləndirilməsi üçün danışıqlar, söhbətlər apardıq, çox məsələlərdə razılığa gəldik. Mənim səfərimin əsas məqsədi bundan ibarət idi və bu baxımdan mən səfərimdən çox razıyam.

Hörmətli Süleyman Dəmirəllə, hörmətli Tansu Çillərlə, Murad Qarayalçınla, Hikmət Çətinlə danışıqlarda Azərbaycanın indiki vəziyyəti, Ermənistanın Azərbaycana təcavüzü və bu məsələlərin həll olunması yolları müzakirə edildi. Artıq dünya ictimaiyyəti bilir ki, Azərbaycan tərəfi, şəxsən mən bir prezident kimi bu məsələnin sülh yolu ilə həll olunmasının – müharibəyə son qoyulmasının, döyüşlərin dayandırılmasının tərəfdarıyam. Bu barədə biz bir neçə dəfə təkliflərimizi vermişik. Amma təəssüf ki, indiyədək buna nail ola bilməmişik.

Məsələnin sülh yolu ilə həll olunması üçün Azərbaycanın çox qəti sərtləri var. Bu şərtlər ondan ibarətdir ki, Azərbaycanın ərazi bütövlüyü, onun sərhədlərinin toxunulmazlığı təmin olunmalı, Azərbaycan ərazilərini işğal etmiş Ermənistan silahlı qüvvələri bu torpaqlardan çıxmalı və Azərbaycan vətəndaşları həmin işğal olunmuş torpaqlara, öz yerlərinə qayıtmalıdırlar. Biz bu şərtlər əsasında məsələnin sülh yolu ilə həll olunmasına tərəfdarıq və bu barədə ATƏM-in və onun Minsk qrupunun imkanlarından geniş istifadə etməyə çalışırıq. Biz dünyanın böyük dövlətlərinin (bunların böyük əksəriyyəti ATƏM təşkilatının, Birləşmiş Millətlər Təşkilatının, BMT Təhlükəsizlik Şurasının üzvüdür) imkanlarından istifadə etməyə çalışırıq. Bu barədə bizim bir çox tədbirlərimiz olub. Rusiya dövləti də bu məsələlərdə çox fəal iştirak edir, bu məsələnin həll [19-20] olunmasında vasitəçilik etməyə çalışır. Son vaxtlar ATƏM təşkilatının Minsk qrupu və onun başçısı Yan Eliasson bu məsələdə Rusiya dövlətinin xüsusi bir yer tutmasına da razılıq vermişdir. Minsk qrupu Müstəqil Dövlətlər Birliyinin də bu işə qoşulmasını lüzumlu bilmişdir.

Biz öz işlərimizi bu prinsiplər əsasında aparırıq. Dünyanın bir çox ölkələrinin xarici işlər nazirlərinin İstanbulda olması ilə əlaqədar dünən və bu gün mən bir neçə Qərb ölkəsinin xarici işlər nazirləri ilə də görüşdüm. ABŞ-ın dövlət katibi cənab Uorren Kristoferlə, Böyük Britaniyanın xarici işlər naziri Duqlas Herdlə, İsveçin xarici işlər naziri xanım Marqaret af Uqlasla (bilirsiniz ki, İsveç hazırda Minsk qrupuna rəhbərlik edən bir ölkədir, həmin qrupa İsveçin nümayəndəsi başçılıq edir. Xanım af Uqlas da son vaxtlaradək ATƏM təşkilatının sədri olmuşdur. O bu problemlərlə məşğul olub, bu problemləri yaxşı bilir. Marqaret af Uqlas Bakıya da gəlmişdi, bizim onunla görüşümüz olub), Avropa İqtisadi Birliyinin sədri, Yunanıstanın xarici işlər naziri Karolos Papuliasla görüşdüm.

Bu görüşlərdə Azərbaycanın hazırkı ağır vəziyyətdən çıxması, yəni müharibəyə son qoyulması, məsələnin sülh yolu ilə həll olunması barəsində fikir mübadiləsi, müzakirələr apardıq. Mən belə hesab edirəm ki, görüşlərimiz çox faydalı, əhəmiyyətli oldu. Bu görüşlərdə Azərbaycan bir daha öz mövqeyini elan etdi, böyük dövlətlərin, Avropa dövlətlərinin bu prosesdə iştirak etməsi üçün öz arzularını bildirdi. Həmin dövlətlərin xarici işlər nazirləri də bu məsələnin yalnız ATƏM təşkilatı çərçivəsində, Minsk qrupu vasitəsilə həll edilməsinə tərəfdar olduqlarını bildirdilər və bu istiqamətdə gələcəkdə də fəaliyyət göstərəcəkləri haqqında mənə məlumatlar verdilər.

Ona görə də belə hesab edirəm ki, mənim Türkiyəyə səfərim Türkiyə ilə Azərbaycan arasında əlaqələrin genişləndirilməsi ilə birbaşa bağlı olduğu halda, bu müddətdə Azərbaycanla əlaqədar bir çox mühüm məsələləri burada müzakirə etmək üçün mənə bir fürsət yarandı.

Mənim sizə deyəcəyim bu qədər. İstanbula qısamüddətli ziyarətimdən çox məmnunam. Türkiyə Cümhuriyyətinin prezidenti, hörmətli dostum, qardaşım Süleyman Dəmirələ bu dəvət üçün təşəkkürümü bildirirəm. Türkiyənin baş naziri hörmətli Tansu Çillərə, baş nazirin müavini hörmətli Murad Qarayalçına, xarici işlər naziri hörmətli Hikmət Çətinə və burada olan başqa dostlarımıza, qardaşlarımıza bizə göstərilən qonaqpərvərliyə, hörmətə, dostluq, qardaşlıq əlaqələrinə görə minnətdarlığımı bildirirəm. Türkiyənin xalqına öz

hörmətimi və məhəbbətimi bir daha bildirirəm, bundan sonra da xoşbəxt, bəxtiyar yaşamağı arzu edirəm. Sağ olun. [20-21]

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ BORİS NİKOLAYEVİÇ**
**YELTSİN CƏNABLARINA**

Hörmətli Boris Nikolayeviç!

Sizi dövlət bayramı – Rusiya Federasiyasının dövlət suverenliyi haqqında bəyannamənin qəbul edilməsi günü münasibətilə ürəkdən təbrik edirəm, Sizə və bütün rusiyalılara səadət, firavanlıq və tərəqqi arzulayıram.

Mən Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında dostluq və əməkdaşlığın inkişafına böyük əhəmiyyət verirəm və əminəm ki, bu dostluq və əməkdaşlıq xalqlarımızın rifahı naminə gələcəkdə də inkişaf edəcək və möhkəmlənəcəkdir.

Hörmətlə,

**HEYDƏR ƏLİYEV**

*11 iyun 1994-cü il* [21-22]

## "ROSSİYSKAYA QAZETA"NIN MÜXBİRİNƏ MÜSAHİBƏSİ

**- Tezliklə Sizin Azərbaycan prezidenti seçilməyinizin bir ili tamam olacaq. Bir neçə il bundan əvvəl əksəriyyət əmin idi ki, H. Əliyevin siyasi karyerası başa çatmışdır...**

- Mən buraya, demək olar ki, öz iradəmlə gəlməmişəm. 1987-ci ildə SSRİ rəhbərliyi ilə, o cümlədən şəxsən Qorbaçovla ciddi ixtilaflar ucbatından Siyasi Büronun tərkibindən çıxanda siyasi fəaliyyətlə məşğul olmurdum. 1990-cı ilin axırlarında mənə, Bakıda yaşamaq üçün imkan verilməyəndə Naxçıvanda sığınacaq tapdım, yenə də siyasi həyata qoşulmaq istəmədim. Amma 1991-ci ildə çox mürəkkəb vəziyyət yarandı. Azərbaycanın tərkibində olan bu muxtar respublika dövlətin əsas ərazisindən ayrı düşmüş, İran, Türkiyə və Ermənistanla həmsərhəddir, buna görə də müharibə nəticəsində blokadaya məruz qaldı. Xalq bir neçə gün meydanlarda mitinq keçirdi, tələb etdi ki, mən respublika Ali Sovetinə rəhbərlik edim və beləliklə də, bunu etməyə məcbur oldum. İşləməyə başladım. Bu, çox mürəkkəb regiondur. Biz çətinliklə yaşayırdıq, amma hər halda xırda sərhəd toqquşmaları istisna olmaqla sakit həyat keçirirdik.

Orada indi də nə müharibə, nə də əvvəlki kimi kriminogen vəziyyət var. Türkiyə Naxçıvana 100 milyon dollar məbləğində kredit verdi, onun 20 milyonunu dərhal ərzaq alınmasına sərf etdik, bu da vəziyyəti yüngülləşdirdi. Fikirləşirdim ki, bu muxtar respublika mənim üçün son dayanacaqdır.

Amma keçən ilin iyununda Azərbaycanda hakimiyyət uğrunda mübarizə kəskinləşdi, respublika vətəndaş müharibəsi həddinə çatdı. Onda prezident Əbülfəz Elçibəyin şəxsində Azərbaycan rəhbərliyi mənə müraciət edərək Bakıya gəlib respublikanı böhrandan çıxarmağa kömək göstərmək barədə müraciət etdi. Mən qayıtmaq istəmirdim, amma sonra qərarlaşdım ki, xalq bədbəxtliyə düçar olubsa, kənarda qalmaq doğru deyil. Təəssüf ki, Azərbaycan Ali Soveti sədri vəzifəsinin icrasına başlamağımdan iki gün sonra prezident Elçibəy gizli şəkildə Bakını tərk etdi və o vaxtdan bəri Naxçıvanda bir dağ kəndindədir. Mən tək qaldım. Budur, 11 aydan bəridir ki, respublikada vəziyyəti düzəltməklə məşğulam.

**- Azərbaycanın qarşısında indi hansı əsas problemlər durur?**

-Biz çox mürəkkəb dövr keçiririk. Vahid sovet dövlətinin tərkibində olduğumuz vəziyyətdən müstəqilliyin təşəkkülünə, suverenliyin möhkəmləndirilməsinə keçid öz-özlüyündə sadə deyil. Vəziyyəti mürəkkəbləşdirən bir də odur ki, bütün keçmiş sovet respublikaları, xüsusilə iqtisadiyyat sahəsində bir-biri ilə çox sıx bağlı idi və əlaqələrin qırılması Azərbaycan iqtisadiyyatına güclü təsir göstərdi. Digər tərəfdən, respublika bir iqtisadi sistemdən digərinə, öz qanunları və prinsipləri olan sosial iqtisadi [22-23] sistemindən azad bazar iqtisadiyyatına keçir. Nəhayət, Azərbaycanda ictimai-iqtisadi vəziyyəti mürəkkəbləşdirən üçüncü məsələ müharibədir. Bu müharibə altı ildir davam edir, respublika ərazisinin təxminən 20 faizi işğal edilmişdir. 1 milyondan artıq adam qaçqın vəziyyətindədir.

**- Münaqişənin səbəbləri haqqında nə deyə bilərsiniz və onu dayandırmaq üçün nə etmək lazımdır?**

- Bu müharibəni Azərbaycan tərəfi başlamamışdır. İndi nə baş verdiyini təhlil etməyə lüzum yoxdur, amma mən bütün bunların nə vaxt baş verdiyi barədə bir şey demək istəyirəm. Azərbaycan vahid, mərkəzləşdirilmiş dövlətin – SSRİ-nin tərkibində idi və buna görə də İttifaq rəhbərliyi münaqişə yaranmasına imkan verməyə bilərdi. Yaxud da bu münaqişə başlasaydı, onun inkişafının qarşısını ala bilərdi. Təəssüf ki, belə olmadı. Qarabağ münaqişəsi SSRİ ərazisində ilk münaqişə idi, indi isə baxın, nə qədər qaynar nöqtə yaranmışdır.

Hazırda Azərbaycan öz ərazi bütövlüyünü qoruyub saxlamaq uğrunda müharibə aparır. Amma bütün bu dövr ərzində mən müharibəyə danışıqlar yolu ilə son qoymaqla məşğul olmuşam. Mayın 10-da atəş kəsilmişdir. Hazırda ATƏM-in Minsk qrupunun və Rusiyanın iştirakı ilə danışıqlar gedir. Güman ki, münaqişəni aradan qaldırmaq üçün, nəhayət, razılaşma əldə etmək mümkün olacaq. Amma bir şərtlə: erməni hərbi birləşmələri Dağlıq Qarabağdan başqa, Azərbaycanın bütün işğal edilmiş ərazilərini boşaltmalıdırlar. Sonra Dağlıq Qarabağın statusu haqqında danışıqlar aparmaq olar.

**- Bişkekdə danışıqlar zamanı ayrıca qüvvələr haqqında söhbət gedirdi...**

- Baxarıq. Hər halda müharibəni dayandırmaq və atəşkəs barədə razılaşmaya riayət olunmasına nəzarət etmək, erməni hərbi birləşmələrinin çıxarılmasını təmin etmək üçün, şübhəsiz, hansısa qüvvələr lazımdır. ATƏM-in Minsk qrupu bu qüvvələri müşahidəçilərdə görür. Rusiya isə buraya MDB-nin sülhməramlı ayırıcı qüvvələri adlanan qüvvələri yeritmək istəyir, amma bu məsələ hələ danışıq mərhələsindədir.

**- Qafqazda vəziyyəti necə qiymətləndirərdiniz? Son vaxtlar tez-tez deyirlər ki, Rusiya hələ də bu regiona münasibətdə dəqiq siyasi konsepsiya işləyib hazırlamamışdır.**

- Rusiyanın hansısa dəqiq mövqeyinin olub-olmamasını demək mənə çətindir. Amma fakt odur ki, Qafqaz çox mürəkkəb regiondur, daha düşünülmüş, ölçülüb-biçilmiş, çox müdrik mövqe tələb edir, Rusiya isə böyük ölkədir. Qafqaz 200 ildən artıqdır onun tərkibindədir – istər çar Rusiyası olsun, istərsə də Rusiyanın hakim olduğu SSRİ. Rusiya da bütün Qafqaz respublikalarına eyni münasibət bəsləməlidir. Əgər bu və ya digər

tərəfə sarı meyl olsa, bu, vəziyyətin mürəkkəbləşməsinə və nəticə etibarilə onun regionda nüfuzunun itirməsinə gətirib çıxaracaq. Təkrar edirəm, Rusiyanın hansı xalqla tarixən daha çox bağlı olduğundan, dini mənsubiyyətdən asılı olmayaraq ölçülüb-biçilmiş mövqeyi olmalıdır. Mənə elə [23-24] gəlir ki, məhz bu halda həm Rusiyanın Qafqazda daha böyük nüfuzu olacaq, həm də Qafqazda daha çox sakitlik təmin ediləcək. Qafqazda daha çox sakitlik isə Rusiyada daha çox sakitlik deməkdir.

**- Postsovet məkanında əlaqələrin qırılması problemini keçmiş respublikalar artıq iki ildir MDB çərçivəsində həll etməyə çalışırlar. Siz bu təşkilatın fəaliyyətini və perspektivlərini necə qiymətləndirirsiniz?**

- Məncə, bu təşkilatın perspektivləri var. O, hər bir respublikanın daha müvəffəqiyyətlə inkişafı üçün lazımdır. Buna görə də mən Azərbaycanın rəhbəri olanda MDB-yə etimad ab-havası və birliyə daxil olmaqdan ötrü şərait yaratmaq üçün çox səy göstərdim.

Doğrusu, bu o qədər də asan deyildi. Müxtəlif səbəblər ucbatından Azərbaycanda Müstəqil Dövlətlər Birliyinə qarşı çox mənfi münasibət yaranmışdı. Demirəm ki, hamıda, amma mütləq əksəriyyətin münasibəti belə idi. Hər şeydən əvvəl, 20 yanvar 1990-cı il hadisələri xalqa çox ciddi mənəvi zərbə vurmuşdu. Digər tərəfdən, hakimiyyətdə olarkən Xalq Cəbhəsi çox fəal şəkildə antivirus əhval-ruhiyyəsi yaratmışdı. Ona görə də ictimai şüurda bu əhval-ruhiyyəni aradan götürmək üçün bir neçə ay vaxt tələb olunurdu. Sentyabrın 24-də biz MDB-yə daxil olduq. Hesab edirəm ki, bu, lazımlı, mühüm addım idi və gələcəkdə Azərbaycan MDB-nin tərkibində olmalıdır. Birliyin praktik fəaliyyətinə gəlincə, deməzdim ki, bu təşkilat artıq təşəkkül tapmışdır və həqiqətən işləyir. Elə təsəvvür yaranır ki, dövlət başçılarının 1,5-2 gün davam edən görüşündə MDB, deyəsən, mövcuddur, amma bu görüşlər arasındakı dövrdə, deyəsən, yoxdur. Buna görə də, mənim fikrimcə, fəal tədbirlər görmək lazımdır ki, MDB daha müvəffəqiyyətlə fəaliyyət göstərsin.

**- Bəs bunun üçün nə lazımdır? Bəlkə, hansısa dövlətüstü strukturlara ehtiyac var?**

- Bunu məqsədəuyğun hesab etmirəm. Bunun arxasında vahid dövlətin bərpası, milli mənafeyə toxunmaq ehtimalı durur. Hazırda keçmiş respublikalar müstəqil dövlətlərdir və bununla razılaşmaya bilərlər. Ancaq daha sıx inteqrasiya zəruridir.

**- Əvvəllər SSRİ-də tez-tez xalqlar dostluğu haqqında danışırdılar. MDB-də, bundan başqa, hansı məsələni istəyirlərsə, müzakirə edirlər. Sizə elə gəlmirmi ki, indi məhz bu lazımdır?**

- Həqiqətən, bu məsələ çox mühümdür. Aşqabat görüşündə mən rəsmi bəyanat verdim və bildirdim ki, eyni ittifaqın üzvü olan iki dövlətin öz aralarında müharibə aparmasını qeyri-normal hal hesab edirəm. Amma cavab reaksiyası almadım. İkinci dəfə aprelin 15-də Moskvada yenidən belə bir məsələ qaldırdım ki, MDB birləşmək və ittifaqımızın mənafeyini müdafiə etmək üçün yaradılmışdır, buna görə də ittifaqın iki üzünün öz aralarında müharibə aparması yolverilməzdir, dünya praktikasında belə şey heç vaxt olmamışdır. Yenə də bu məsələni müzakirə etmədilər. Halbuki hərbi və iqtisadi amillərlə yanaşı, MDB-yə mənəvi-əxlaqi iqlim lazımdır, gələcək münaqişələrdən, bir-birilə ədavətdən qurtulmaq vasitəsi kimi xalqlar dostluğunun möhkəmləndirilməsi lazımdır. MDB-nin funksi[24-25]yaları humanitar sahəni də, millətlər və xalqlar arasında qarşılıqlı münasibətlərin möhkəmləndirilməsini də əhatə etməlidir, amma bunun üçün MDB-nin özünün daxilində qarşılıqlı münasibətlər hərarətli və mehriban olmalıdır.

**- Prezident olduğunuz qısa müddət ərzində Siz qeyri-adi diplomatik fəallıq göstərmisiniz. Beynəlxalq aləmdə Azərbaycanın yönümünü necə səciyyələndirmək olar?**

- Belə bir faktı uğur hesab edirəm ki, Rusiya ilə Azərbaycanın qarşılıqlı münasibətlərinin tənqidini müsbət tərəfə döndərmək mənə müyəssər oldu. Mən B. Yeltsin və V. Çernomırdinlə, digər rəsmi şəxslərlə görüşmüşəm, biz bir sıra mühüm sənədlər imzalamışıq, MDB-yə daxil olmuşuq. Yəni mənim ilk addımlarım Rusiya ilə xeyirxah münasibətlərin bərpasına yönəlmişdir. Bu xətt davam etdiriləcəkdir: Rusiya Azərbaycan üçün həm yaxın qonşu, həm də istər Azərbaycanda, istərsə də Rusiyada yaşayan respublika vətəndaşlarının bir çoxunun taleyinin bağlı olduğu böyük ölkədir.

Təbii ki, biz bütün qonşu ölkələrlə, məsələn, Türkiyə ilə dostluq münasibətlərinin yaradılmasına tərəfdarıq. Bu münasibətlər əvvəl də yaxşı idi, mənim Türkiyəyə səfərim və imzaladığım müqavilə isə münasibətlərimizi daha da möhkəmlətdi.

Başqa bir qonşumuz İrandır. Bizim böyük ümumi sərhədlərimiz, ənənəvi əlaqələrimiz var. Doğrudur, əvvəlki rəhbərlik İranla əlaqələrə lazımi əhəmiyyət vermirdi və münasibətlərimizdə bir qədər gərginlik yaranmışdı. Amma oktyabrda prezident Rəfsəncaninin Bakıya səfəri zamanı biz bir sıra sənədlər imzaladıq.

Gürcüstan da bizim qonşumuzdur, orada 600 min azərbaycanlı yaşayır, prezident Şevardnadze də ölkəmizə səfər etmişdir.

Digər ölkələrə gəlincə, demokratik, hüquqi dövlət quruculuğu yolu ilə getdiyimizə görə demokratiya, bazar iqtisadiyyatı sahəsində ənənələri, təcrübəsi olan Qərb ölkələri ilə münasibətləri inkişaf etdirməyə böyük ehtiyacımız var. Ona görə də mən Böyük Britaniyanın və Fransanın rəhbərləri Con Meycorun və Fransua Mitteranın dəvətini qəbul edərək bu dövlətlərə səfər etdim, aramızda kifayət qədər səmərəli danışıqlar oldu.

**- Siz xarici siyasətə, respublikanın daxilindəki problemlərə, Qarabağ münaqişəsinə çoxlu vaxt ayırırsınız. Bu zaman kimə arxalanırsınız? Kənardan Azərbaycanın bütün siyasi üfüqündə bir fiqur – prezident Heydər Əliyev görünür...**

- Artıq dedim ki, Bakıya öz iradəmlə qayıtmamışam və siyasətlə məşğul olmağı planlaşdırmamışdım. Bir qədər dəbdəbəli səslənsə də, məni xalq çağırdı. Buna görə də heç bir komandamı gətirmədim və hazırlamadım. Doğrudur, Azərbaycanı yaxşı tanıyıram. Amma buradan 1982-ci [25-26] ildə getmişəm; bu dövr ərzində rəhbərlərin bütöv bir nəsli dəyişmişdir. Özümün heç bir partiyam yoxdur, indi olan adamlarla işləyirəm.

**- "Rossiyskaya qazeta"nın oxucularına nə demək istərdiniz?**

- İstəyirəm ki, onlar bir şeyi bilsinlər: mən prezident kimi Rusiya ilə dostluq əlaqələri yaratmağa çalışacaq, bunun üçün bütün səyləri göstərəcəyəm.

Söhbəti Pavel Alekseyev aparmışdır.
*15 iyun 1994-cü il*, Bakı-Moskva

*"Azərbaycan", 18 iyun 1994-cü il* [26-27]

## TƏZƏPİR MƏSCİDİNDƏ AŞURA GÜNÜ MƏRASİMİNDƏ ÇIXIŞ

*20 iyun 1994-cü il*

Əziz bacılar və qardaşlar, əziz müsəlmanlar!

Müsəlman aləmində faciəli, müqəddəs bir günün əziz xatirəsi qeyd olunur. Bu gün Həzrəti Məhəmməd peyğəmbərin nəvəsi Həzrəti imam Hüseynin qətlə yetirildiyi gündür. Biz ulu babalarımızın Vətən, torpaq, haqq, ədalət yolunda şəhid olduğu günü yad edirik. Bu münasibətlə mən bütün Azərbaycan müsəlmanlarına dərin hüznlə başsağlığı verirəm.

Bütün müsəlmanlar, o cümlədən biz azərbaycanlılar həmin faciəli günü hər il yada salmaqla Vətənə, torpağa, dinimizə, məsləkimizə sədaqətimizi bir daha nümayiş etdiririk. Biz bundan sonra da Quranı-Şərifin, Həzrəti Məhəmməd peyğəmbərin qoyduğu yol ilə gedəcək və haqq-ədalət, torpaq, Vətən yolunda şəhid olmuş Həzrəti imam Hüseynin və onun bütün silahdaşlarının qəhrəmanlığını, şəhidliyini heç vaxt unutmayacağıq.

İndi Vətənimiz faciəli bir dövr keçirir. Yağı düşmən torpaqlarımıza hücum edir. Azərbaycanın cəsarətli oğulları Vətənimizi müdafiə edir və bu yolda Həzrəti imam Hüseyn kimi şəhid olurlar. Biz Vətən, torpaq, din yolunda canından keçmiş bütün şəhidlərin şücaəti qarşısında Kərbəla müsibətilə əlaqədar keçirilən bu mərasimdə bir daha baş əyir, onların xatirəsini qəlbimizdə daim yaşatmağa söz veririk.

Allah dünyasını dəyişmişlərin hamısına rəhmət eləsin. Biz qətlə yetirilmiş imam Hüseynin və onun silahdaşlarının xatirəsi önündə baş əyirik. Əmin olduğumu bildirirəm ki, xalqımız öz milli ənənələrinə, adətlərinə, dininə, məsləkinə həmişə sadiq qalacaqdır. Allah bu ağır günlərdə xalqımıza səbir versin. Allah doğma Azərbaycanımızı xoşbəxt etsin. [27-28]

## PREZİDENT SARAYINDA RESPUBLİKA İQTİSADİYYATININ VƏ HƏYATIN DİGƏR SAHƏLƏRİNİN CARİ MƏSƏLƏLƏRİNƏ HƏSR OLUNMUŞ MÜŞAVİRƏDƏ YEKUN SÖZÜ

*21 iyun 1994-cü il*

Respublikamız, Azərbaycan vətəndaşları ölkəmizin tarixinin çətin dövrünü yaşayırlar. Azərbaycanın müstəqil dövlət olması, xalqımızın azadlığa çıxması tarixi hadisələrdir və biz bunları qiymətləndirməli, əldə edilmiş nailiyyətləri əbədiləşdirməliyik. Bu, istər bizim, istərsə də gələcək nəsillərin qarşısında duran strateji vəzifədir. Güman edirəm ki, biz hamımız bu barədə eyni fikirdəyik. Xalqımızın da əksəriyyəti bu fikirlərlə yaşayır. Mən xalqı bir daha əmin etmək istəyirəm ki, Azərbaycan Respublikasının müstəqilliyini qoruyub saxlamaq, xalqımızın milli azadlığını təmin etmək, ölkəmizin demokratiya yolu ilə getməsi bizim bugünkü və gələcək fəaliyyətimizin əsasını təşkil edir.

Dediyim kimi, biz tariximizin ağır dövrünü yaşayırıq. Bu, bir neçə amillə bağlıdır. Əvvəla, müstəqillik yoluna çıxmaq, tam müstəqilliyi təmin etmək, dövləti formalaşdırmaq çətin vəzifələrdir və məşəqqətli bir yoldur. Biz bu yolla gedirik. Lakin bütün işlərimizi ağırlaşdıran və çətinləşdirən amil respublikamızın müharibə şəraitində olmasıdır. Ermənistan tərəfindən daim təcavüzə məruz qalmasıdır və bu müharibə nəticəsində böyük faciələr baş verməsidir.

Amma nə etməli, – taleyimiz belədir. İndi Azərbaycan xalqı öz taleyinin sahibidir. Biz bütün imkanlarımızı cəmləşdirib, bir yerə toplayıb, bu çətin mərhələni başa çatdırıb gələcəyə doğru irəliləməliyik. Şübhəsiz ki, müharibə xalqımızı daim narahat edir və həyatımızı ağırlaşdırır. Biz bu barədə çox məlumat vermişik. Odur ki, indi bu mövzuda geniş danışmağa ehtiyac yoxdur. Lakin bu gün bir daha xatırladıram ki, biz respublikamızı müharibə şəraitindən çıxarmaq, müharibəyə son qoymaq istəyirik. Ötən altı ildə Azərbaycan xalqına böyük faciələr gətirmiş Dağlıq Qarabağ məsələsini, hərbi münaqişəni sülh yolu ilə həll etməyə çalışırıq.

Bu sahədə görülən işlər, atılan addımlar məlumdur. Biz öz fəaliyyətimizi daim davam etdirmişik və bundan sonra da davam etdirəcəyik. Xalqımızda gərək düzgün təsəvvür olsun: biz bütün imkanlardan istifadə edirik ki, müharibəyə son qoyulsun. Burada həm beynəlxalq təşkilatların, həm də böyük dövlətlərin imkanları bizim üçün gərəklidir və biz bu imkanlardan indən sonra da istifadə edəcəyik. Bəzən ayrı-ayrı qruplar xalqı çaşdırmaq üçün cürbəcür məlumat yaymağa can atır, xalqın mənafeyinə zidd fikirlər söyləyirlər. Xalq artıq hər şeyi anlayır və bilir. Əhali, [28-29] camaat bilir ki, biz müharibəyə son qoymağa çalışaraq, respublikamızın milli mənafeyini müdafiə edirik. Biz bu məsələnin sülh yolu ilə həll olunmasına cəhd göstərir və Azərbaycan Respublikasının ərazi bütövlüyünün, sərhədlərimizin toxunulmazlığının təmin edilməsini, erməni silahlı qüvvələrinin işğal etdikləri torpaqlardan çıxarılmasını, həmin ərazilərdən qaçqın düşmüş Azərbaycan vətəndaşlarının öz yerlərinə qayıtmasını danışıqlarda başlıca şərtlər kimi irəli sürürük və saziş də bu şərtlər yerinə yetirildikdən sonra ola bilər.

Güman edirəm ki, bu, indiki dövrdə ən düzgün və doğru yoldur. Həmin məqsəd naminə biz bundan sonra da var qüvvə ilə çalışacağıq. Son vaxtlar həm Qərb ölkələrinin rəhbərləri ilə, həm ATƏM-in Minsk qrupunun rəhbərləri ilə, həm də Rusiya nümayəndələri ilə apardığımız danışıqlar, keçirdiyimiz görüşlər göstərir ki, biz bu istiqamətdə irəliləyə və qarşımızda duran məqsədə nail ola bilərik. Bildiyiniz kimi, mayın 10-dan Rusiyanın vasitəçiliyi ilə biz atəşin kəsilməsinə nail olmuşuq və bunun tərəfdarıyıq. Buna görə də həmin rejimə əməl olunmasına çalışırıq və çalışacağıq. Eyni zamanda intensiv danışıqlar apararaq, qarşımıza qoyduğumuz məqsədlərə çatmağa cəhd göstərəcəyik. Ümidvaram ki, bu addımlar, tədbirlər, atəşin dayandırılması və atəşkəsin davam etməsi xalqımız, Azərbaycan vətəndaşları tərəfindən rəğbətlə qarşılanır, müdafiə olunur. Həmin addımlar, tədbirlər respublikamızın ümumi mənafeyinə uyğundur.

Cari işlər, şübhəsiz ki, aparılır. Ancaq təəssüflər olsun ki, onlar istənilən səviyyədə getmir. Ümumiyyətlə, iqtisadiyyatı lazımi səviyyəyə qaldırmaq üçün bəzi addımlar atılsa da, bundan sonra hələ çox işlər görülməlidir. Bir daha qeyd etmək istəyirəm, çünki bəzi adamların ağlına ayrı-ayrı fikirlər gəlir, məhz buna görə bir daha nəzərə çatdırıram: biz respublikamızı dünyəvi, sivilizasiyalı bir dövlətə çevirmək istəyirik. Dünya demokratiyasının təcrübəsindən istifadə edərək respublikamızı demokratiya yolu ilə irəli aparmaq istəyirik. Biz respublikamızda hüquqi-demokratik dövlət qurmaq yolu ilə gedirik. Bu, dövlət quruculuğunda, siyasi sahədə strateji yolumuzdur. Bununla çox sıx əlaqədə olan ikinci sahə iqtisadiyyatın demokratik yollarla idarə edilməsidir, yeni iqtisadiyyatda demokratik islahatlar aparılması, bazar iqtisadiyyatı yoludur. Bütün bunlar kompleks şəkildə respublikamızı gələcəyə aparan yollar, istiqamətlərdir.

Ona görə də biz istəyirik ki, respublikamız müharibədən xilas olsun, xalqımız bu ağır vəziyyətdən çıxsın. Eyni zamanda biz istəyirik ki, elə bu ağır şəraitdə də respublikamızın tutduğu yol ilə daha sürətlə irəliləyək. Odur ki, iqtisadiyyatla ciddi məşğul olmaq əsas, ümumi vəzifədir. İqtisadiyyatla bilavasitə məşğul

olan şəxslər öz üzərilərinə düşən vəzifələri ciddi şəkildə, qətiyyətlə yerinə yetirməlidirlər, – axı onlar siyasi məsələlərlə, müharibə məsələləri ilə məşğul olmurlar. Təəssüf ki, biz buna hələ nail olmamışıq. [29-30]

Burada Rəsul Quliyev qeyd etdi ki, son vaxtlar iqtisadiyyata dair iki fərman verilmişdir. Bu fərmanlar bazar iqtisadiyyatına həqiqətən keçməyimiz üçün, iqtisadiyyatı demokratikləşdirmək üçün, adamlara sərbəstlik vermək üçün, sahibkarlıq və təşəbbüskarlıq prinsiplərini inkişaf etdirmək üçün və bütün bunların sayəsində iqtisadiyyatı sürətlə inkişaf etdirmək üçün çox əhəmiyyətli dövlət sənədləridir.

İkinci fərman iyunun 15-də imzalanmışdır. Əgər birinci fərmanda nəzərdə tutulan vəzifələr indiyədək həyata keçirilmiş olsaydı, onda bizdə nə inflyasiya bu səviyyəyə çatardı, nə də iqtisadi vəziyyətimiz belə olardı. Fərmanların hər ikisi bir-biri ilə bağlıdır və bir-birini tamamlayır. Ona görə də bu fərmanların həyata keçirilməsi çox vacibdir. Təsadüfi deyildir ki, bugünkü müşavirədə mən bunu birinci məsələ kimi müzakirəyə qoymuşam. Fərmanlarda irəli sürülən vəzifələrin həyata keçirilməsi üçün bütün imkanlar yaradılmışdır.

Onu da qeyd etmək istəyirəm ki, bir müddət öncə imzaladığım bir fərmanda strateji malların ixracı mərkəzləşdirilmiş və məhdudlaşdırılmışdır. O vaxt bu sahədə çalışan vəzifəli şəxslər, o cümlədən də Nazirlər Kabineti, nazirliklər, müəssisə rəhbərləri çox şikayətlənirdilər ki, onların əl-qolu bağlanıb, bu məsələlər mərkəzləşdirilib, sərbəst fəaliyyət göstərə bilmirlər. Halbuki aprelin 5-də verilmiş fərman idxal və ixracın sərbəstləşdirilməsi prinsiplərinə tam müvafiq bir sənəddir və burada əvvəllər qoyulan məhdudiyyətlərin hamısı götürülmüşdür. Özü də nəinki məhdudiyyətlər götürülmüş, həm də bütün əlaqədar müəssisələrə, nazirliklərə, hüquqi şəxslərin hamısına sərbəstlik verilmişdir. Amma çox təəccüblüdür ki, bu məsələlərlə məşğul olan nazirliklərin, müəssisə və idarələrin rəhbərləri həmin imkanlardan istifadə etməmişlər. Ona görə də mən bu fikirlə tam razıyam ki, burada şəxsi mənafelər, şəxsi məqsədlər ümumxalq, milli, dövlət, respublika mənafelərindən üstün tutulur.

Bu, çox dəhşətli haldır. Lakin bu, bir həqiqətdir və bu gün mən bunu deməliyəm, etiraf etməliyəm. Amma bu o demək deyil ki, biz özlərini belə aparan rəhbər vəzifəli şəxslərə daim güzəştə gedəcək, onların bu cür fəaliyyətinə dözəcəyik. Yox, belə olmayacaqdır. Biz demokratiyanı hər yerdə bərqərar etmək niyyətində olduğumuza görə çox sərt tədbirlər görmək istəmirik. Əgər vəzifəli şəxslər öz məsuliyyətini dərk etmirlərsə, xalq, respublika qarşısında öz vəzifələrini yerinə yetirə bilmirlərsə, şübhəsiz biz ən sərt tədbirlərə əl atmaqdan çəkinməyəcəyik. Ona görə də mən bu gün həm ürək ağrısı ilə deyirəm ki, fərmanımız indiyədək həyata keçirilməmişdir, həm də xəbərdarlıq və tələb edirəm ki, o fərmanın icrası ilə məşğul olanlar – istər Nazirlər Kabineti, istərsə də nazirliklər, müəssisələr öz məsuliyyətini bilsinlər və bu məsələlərlə ciddi məşğul olsunlar.

Doğrudan da, diqqətəlayiq təklifdir; həmin məsələləri daha mütəşəkkil həll etmək üçün fövqəladə komissiya yaradılmasına ehtiyac var. Bir komissiya aprelin 5-də yaradılmışdır. Bu, Nazirlər Kabinetinin deyil, prezidentin komissiyasıdır. Ona baş nazirin birinci müavini Fuad Quliyev [30-31] rəhbərlik edir. Təəssüf ki, bu komissiyanın işi hələ lazımi səviyyədə təşkil olunmamışdır. Odur ki, bu gün mən onun işini tənqid etməyə məcburam. Eyni zamanda mənə gələn məlumatlar göstərir ki, bu komissiyanın fəaliyyətinə də maneçilik törədən qüvvələr var. Ona görə də mən bu müşavirədə həmin komissiyadan və onun sədri Fuad Quliyevdən tələb edirəm ki, komissiya prezident tərəfindən onun qarşısına qoyulmuş vəzifəni vaxtında və layiqincə yerinə yetirməlidir, bütün maneələri aradan qaldırmalıdır. Əgər buna komissiyanın özünün gücü çatmırsa, onda mən bunun üçün lazımi tədbirlər görərəm.

Lakin fövqəladə bir komissiyanın yaradılması, ixrac edilməyə layiq mallarımızın uzun müddət satılmaması indi, maliyyə vəziyyətimizin doğrudan da ağır olduğu vaxtda bizə çox böyük zərər vurur. O vaxtlar, yəni strateji malların satılması üçün müəyyən bir rejim yaradıldığı zaman şikayətlənirdilər ki, tütün qalıb xarab olmuşdur, satılmır. Aprelin 5-də sərbəstlik verildi. Bəs nə üçün indi o tütün satılmır ? Halbuki başqa ölkələrdə bizim tütünü almaq istəyənlər çoxdur. Satılmırsa, deməli, bu işlə məşğul olan adamlar bir tərəfdən, respublikanın iqtisadiyyatına zərbə vurmaq istəyirlər, digər tərəfdən isə, yəqin ki, çirkin məqsədlər güdürlər.

Sonra. Götürək pambıq məhsulunu, mahlıcı. O vaxtlar deyirdilər ki, bu məhsul çürüyüb xarab olur, satılmır. Aprelin 5-də fərman imzalanıb, sərbəstlik verilib ki, məhsul zay olmasın, satılsın. Bu gün iyun ayının 21-dir. Mən bu yaxın günlərdə keçirdiyim müşavirədə Kənd Təsərrüfatı Nazirliyini və naziri pambığın satılması gecikdirildiyinə görə tənqid etdim. Mənə dedilər ki, bağlaşmalar may ayında imzalanıb, amma indiyədək məhsul satılmamış qalır. Açığını deyəcəyəm, mənə hətta belə məlumatlar verilib ki, bir firma ilə, yaxud bir neçə firma ilə bağlaşma imzalanıb, firmaların nümayəndələri gəldikdə isə nazirlikdə onlara müəyyən məqsədlə bir əngəl törədir, yəqin yenə də müəyyən məqsədlə pambıq zavodlarında da ayrı əngəl yaradırlar. Belə olan halda biz xalqımızı, dövlətimizi necə saxlayacağıq ? Keçən ilin pambıq məhsulu indiyədək satılmayıb. Halbuki buradan Azərbaycanın xəzinəsinə nə qədər gəlir gələcəyi məlumdur və bu gəlir də xalqın iqtisadi cəhətdən ağır vəziyyətdə olduğu dövrdə onun üçün çox gərəklidir.

Bu günlərdə respublikanın çörəklə və taxıl məmulatı ilə təmin olunmasında böhranlı vəziyyət yaranmışdı. Onu bilməlisiniz ki, son vaxtlar həm Taxıl Məhsulları Şirkətinin, həm də bəzi nazirliklərin işinin yarıtmaz olması nəticəsində, habelə ayrı-ayrı nazirliklər tərəfindən bax, bu cür maneələr törədilməsi nəticəsində xalqı çörəklə təmin etmək üçün imzalanmış bağlaşmalar vaxtlı-vaxtında yerinə yetirilmir. Böhranlı vəziyyət əmələ gəlmişdir. Bəzən də elə olur ki, taxıl, un almaq üçün bağlaşmalar imzalamağa xəzinəmizdə valyuta

olmur. Valyuta olmadığına görə biz bu bağlaşmaların vaxtında imzalanmasına icazə verə bilmirik. Halbuki respublikamıza valyuta gətirə bilən mallar – bir neçə yüz milyon [31-32] dollar dəyərində olan mallar, o cümlədən də pambıq məhsulu indiyədək satılmamış qalır.

İqtisadiyyatın indiki keçid dövründə cürbəcür təbii çətinliklər yaranıb. Bunları aradan qaldırmaq üçün isə biz gərək səriştəlilik göstərək, daha çevik hərəkət edək, kadrlarımız, bütün səviyyələrdən olan rəhbər işçilərimiz öz vəzifələrinə, fəaliyyətinə məsuliyyətlə yanaşsınlar. Amma di gəl ki, ayrı-ayrı qüvvələr, mən bir daha nəzərə çatdırıram, – ayrı-ayrı qüvvələr və bəzən də, təəssüflər olsun, mafioz qüvvələr vəziyyətimizi daha da ağırlaşdırır, çətinləşdirirlər, mövcud imkanlarımızdan istifadə edilməsi qarşısına çəpər çəkirlər.

Ona görə də mən bu gün, bu müşavirədə öz fikirlərimi açıq bildirirəm və tələb edirəm ki, hərə öz sahəsində öz məsuliyyətini dərk etsin. İndi iqtisadiyyatımızda vəziyyət nə qədər ağır olsa da, xalqın sosial vəziyyətini müəyyən səviyyədə saxlamaq üçün imkanlarımız var. Lakin bu imkanlardan istifadə etmək üçün vəzifəli şəxslər, nazirlər, idarə rəhbərləri, müxtəlif rəhbər işçilər, o cümlədən şəhər, rayon icra hakimiyyəti başçıları gərək doğru-düzgün, ədalətli yollarla getsin, düz işləsin və xalqın mənafeyini, respublikanın mənafeyini hər şeydən üstün tutsunlar. Bu baxımdan mən aprelin 5-də verilmiş fərmanın icrasının sürətlə həyata keçirilməsini bu gün bir vəzifə olaraq qarşıya qoyuram. Eyni zamanda iyunun 15-də imzalanmış fərmanın icrası üçün əlaqədar nazirlik və idarələrdən lazımi tədbirlər görülməsini tələb edirəm.

İyunun 15-də qəbul olunmuş fərmanı hazırlayarkən biz ətraflı fikirləşdik. Çox götür-qoy etdik, ölçüb-biçdik. Belə düşünürəm ki, həmin fərmanın verilməsi məsələni hərtərəfli təhlil etməyimizin nəticəsidir. Fərmanın bir neçə müddəası aydın və konkretdir: minimum əmək haqqının, pensiyaların artırılması, kompensasiyalar verilməsi, neft məhsullarının, çörəyin və taxıl məmulatının qiymətlərinin qaldırılması. Fərmanın digər müddəaları, yəni inflyasiyanın qarşısının alınmasına, iqtisadiyyatımızı islahatlar yolu ilə irəli aparmaq üçün imkan yaradılmasına yönəldilmiş müddəaları bəlkə o qədər də aydın nəzərə çarpmır. Ancaq mütəxəssislər, iqtisadçılar, iqtisadiyyatla məşğul olan orqan və təşkilatlar, şəxslər bunu yaxşı bilir və bilməlidirlər, dərindən öyrənməlidirlər. Odur ki, bu fərmanın ardıcıl surətdə həyata keçirilməsi indi əsas vəzifədir və onu təkcə nazirliklər, maliyyə, iqtisadiyyat idarələri yox, hər bir müəssisə, hər bir rayon və şəhər rəhbəri icra etməyə çalışmalıdır. Rayon və şəhər icra hakimiyyəti başçılarının bu gün buraya dəvət edilməsindən məqsəd budur.

Bu gün çıxışlarda həmin fərmanla əlaqədar kredit məsələsi ortaya çıxdı. Belə hesab edirəm ki, Maliyyə Nazirliyi, banklarımız bu məsələni iki günün içində nəzərdən keçirib, müəyyən tədbirlər görməlidirlər. Güzəştli kreditlərin qadağan olunmasından və əvvəllər bu barədə çıxarılmış qərarların ləğv edilməsindən məqsəd kreditlərdən ayrı-ayrı qrupların sui-istifadə etməsinin qarşısını almaqdır. Təəssüf ki, ötən aylarda ayrı-ayrı [32-33]kommersiya strukturları, ayrı-ayrı mafioz qruplar belə kreditlərdən istifadə edərək iqtisadiyyatımıza və maliyyə vəziyyətimizə böyük zərbələr vurmuşlar. Ona görə də biz kredit verilməsini qadağan etmişik. Ancaq eyni zamanda kənd təsərrüfatı işlərinin aparılması üçün, taxıl tədarükü üçün müəyyən maliyyə şəraiti yaradılmalıdır. Sözlərim eləcə də başqa məsələlərə aiddir. Odur ki, Maliyyə Nazirliyi, banklarımız, İqtisadiyyat Nazirliyi bu işlərlə məşğul olmalı və lazımi şərait yaratmalıdırlar. Hesab edirəm ki, bütün bunlar imkan daxilindədir və bu işlə məşğul olmaq gərəkdir.

Kənd təsərrüfatı məsələləri bu gün müzakirələrimizdə daha çox yer tutdu. Bu, olduqca əsaslıdır. Mən keçən görüşlərimizdə bu vəzifəni irəli sürmüşdüm və bir daha deyirəm: iqtisadiyyatın bütün sahələrində olduğu kimi, kənd təsərrüfatında da nicat yolumuz, perspektivimiz, gələcəyimiz iqtisadi islahatların aparılmasındadır Kənd təsərrüfatında mövcud və on illərlə hakim kəsilmiş strukturu dəyişdirmək bəlkə də asan məsələ deyildir. Ancaq bu o demək deyil ki, biz bu çətinliklərdən qorxub çəkinərək, yaxud çətinlikləri aradan qaldırmağa cürət etməyərək dayanıb vaxt itirməliyik. Mənə dedilər ki, bu barədə layihələr guya təqdim olunub. Ona görə də istərdim ki, həm Nazirlər Kabinetində, həm də Milli Məclisdə bunlara tezliklə baxılsın. Belə layihələr doğrudan da varsa, onlar həqiqətən işə yarayırsa, diqqətəlayiqdirsə, onda qoy bu barədə lazımi qərarlar qəbul edilsin. Yox, elə deyildirsə, onda qoy onlar təzədən işlənsin, təkmilləşdirilsin. Bir sözlə, biz bu sahədə gecikməməliyik. Amma, nə gizlətməli, çox gecikmişik. Bunu bilmək lazımdır. Bəli, çox gecikmişik. Odur ki, kənd təsərrüfatı sahəsində iqtisadi islahatlar aparılması strateji yolumuzdur və biz bu yolla da getməliyik. Özü də ağıl-kamalla, səriştə ilə. Elə etməliyik ki, hər bir addımımız bizə müsbət nəticələr versin. Lakin eyni zamanda kənd təsərrüfatının mövcud strukturundan, onun mövcud imkanlarından istifadə edərək məhsul istehsalını artırmalıyıq.

Çox arzu edərdim ki, bu gün burada çıxış edənlərin gətirdikləri rəqəmlər doğru olsun, onlar verdikləri sözün üstündə dursunlar. Amma mən həmin rəqəmləri, deyilən sözləri eşidərkən bir daha yəqin etdim ki, biz keçid şəraitində olsaq da, bu il də kənd təsərrüfatında böyük imkanlarımız var. Ən əvvəl, taxıl istehsalı sahəsində. Biz son aylarda respublikanın əhalisini çörək və taxıl məmulatı ilə təmin etmək üçün çox çətinliklər çəkirik. Valyuta çatmır, onu da tapanda firma tapılmır, firma da tapılanda kim isə gedib bağlaşmanı elə imzalayır ki, bu, min bir şübhə doğurur. Bəzi adamlar xalqın ac qalmasına məhəl qoymayıb, bu bağlaşmalardan necə faydalanmaq, mənfəət götürmək barədə düşünürlər. İnanın ki, bütün bunları görüb eşidəndə insan dəhşətə gəlir. Bir tərəfdən, elə adamlar var ki, çörək tapa bilmir, yaxud da çörək almağa pulu yoxdur. Digər tərəfdən isə

bu işlə məşğul olan adamlar məsələni o tərəfə çəkir, bu tərəfə çəkir ki, görsün, bu bağlaşmanın imzalanmasından neçə min dollar götürəcəklər. Bu da həyatımızın reallığıdır. Mən bunu açıq [33-34] deyirəm. Biz belə halların qarşısını almalıyıq və almağa çalışmalıyıq. Lakin bütün bu hallar bizim ümumi vəziyyətimizi ağırlaşdırır.

Bu il 400 min ton taxıl tədarük etmək üçün real imkanımız var. Ancaq burada dedilər ki, 500 min ton, hətta 600 min ton taxıl əldə edə bilərik. Əgər biz buna nail olsaq, onda yarım il ərzində respublikanı taxılla təmin etmiş olarıq. Zənnimcə, bu, real vəzifədir və biz buna nail ola bilərik.

Nazirlər Kabineti, Kənd Təsərrüfatı Nazirliyi, başqa müvafiq nazirliklər, idarələr, bir sözlə, hamı indi taxıl biçini və tədarükünə kömək etməlidir. Əgər ehtiyac olarsa, rayonlara nümayəndələr də göndərərik ki, bu işi əlaqələndirsinlər, kömək etsinlər. Taxıl biçinini qısa müddətdə və yüksək səviyyədə başa çatdıraraq respublikada müəyyən qədər taxıl ehtiyatı yaratmalıyıq. Ona görə də icra hakimlərindən, buraya dəvət olunmuş rayon kənd təsərrüfatı idarələrinin rəislərindən, nazirliklərin rəhbərləri və nümayəndələrindən tələb edirəm ki, bunu əsas vəzifə kimi qəbul etsinlər. Prezident Aparatında, Nazirlər Kabinetində bu işə gündəlik nəzarət olunmalıdır.

Bizdə olan məlumatlar və bugünkü çıxışlar göstərir ki, kənd təsərrüfatının başqa sahələrində – pambıq, üzüm, tütün, tərəvəz, heyvandarlıq məhsulları istehsalı sahəsində də imkanlarımız böyükdür. Burada deyilənlərə əsasən qeyd edirəm ki, şükürlər olsun, kənd yerlərində adamların işə münasibəti yaxşılaşmışdır, pozuculuq, dağıdıcılıq meylləri tamamilə aradan qaldırılmasa da, hər halda azalmışdır.

Belə hesab edirəm ki, biz bu il bol pambıq məhsulu götürməliyik. Bunun əhəmiyyəti çox böyükdür. Çünki pambıq bizim ən başlıca strateji ixrac məhsullarımızdan biridir. Başqa sözlə, pambıqçılıq təkcə bu işdə çalışanlar üçün deyil, respublikanın bütün əhalisi üçün lazımlı sahədir. Ona görə də mən pambıqçılıq rayonlarının rəhbərlərinə və müvafiq nazirliklərin başçılarına müraciət edirəm ki, bu sahədə işi gücləndirsinlər.

Bu deyilənlər üzümçülüyə də aiddir. Bilirsiniz ki, indi şərabçılıq məhsulları bir tərəfdən çox baha satılır, ikinci tərəfdən isə, burada deyildiyi kimi, yığılıb qalır. Şübhəsiz, bu maneə aradan götürüləcəkdir və kimlərinsə öz məqsədləri üçün nə isə etməsinə imkan verməyəcəyik. Üzümçülük iqtisadiyyatımız üçün və ixracımız üçün mühüm sahə olduğuna görə üzüm bağlarına lazımi diqqət yetirilməlidir.

Bir sözlə, bu ilki hava şəraiti və indiyədək görülən işlər keçən illərə nisbətən kənd təsərrüfatında daha çox məhsul götürməyə əsas verir və biz buna nail olmalıyıq.

Ancaq eyni zamanda bütün bu və başqa işləri lazımi səviyyədə görmək üçün hər yerdə möhkəm nizam-intizam olmalıdır. Etiraf etmək lazımdır ki, son illər nizam-intizam pozulub, adamların bir qisminin əxlaqı korlanıb. Ayrı-ayrı meyllər cəmiyyətimizdə bəzi pozucu hallara gətirib çıxarmışdır. Bunlara son qoyulmalı, tələbkarlıq artırılmalı, qanunçuluq möhkəmləndirilməli, cinayətkarlığa qarşı mübarizə gücləndirilməlidir. [34-35]Cinayətkarlıq, xalqımızı narahat edən hallardan biridir və onun kökünü kəsmək üçün çox işləmək lazımdır.

Bütün bu işləri görmək üçün vəzifəli şəxslər özləri nümunə olmalıdırlar. Təəssüf ki, belə deyildir. Bəzi rəhbər vəzifəli şəxslər qanunları pozur və belə hesab edirlər ki, istədiklərini edə bilərlər. Çünki indiyə qədər etmişlər. Ancaq biz bunlara yol verməyəcəyik. Belə hallar var, mən bunların hamısı üzərində dayanmaq istəmirəm. Lakin çox təəccüblü və həddindən artıq narahatedici bir halı qeyd etmək istəyirəm. Bir müddət öncə biz məlumat aldıq ki, Tərtər rayonundan gəlmiş silahlı adamlar axşam və ya gecə vaxtı Bərdə rayon icra hakimiyyətinin başçısı Azay Abdıyevi zorla evindən çıxararaq Tərtərə aparmışlar, onu orada zirzəmiyə salaraq təzyiq göstərmişlər. Səhərisi gün belə məlumat alındı ki, bu işlə məşğul olan Tərtər rayon icra hakimiyyətinin başçısı Sərdar Həmidov, Ağdam rayon icra hakimiyyətinin başçısı Səyavuş Vəliməmmədov və onların ətrafında olan bir neçə hərbçi imiş. Bu, dəhşətli haldır. Necə deyərlər, insanlar gərək nə qədər məsuliyyətsiz olsunlar, yaxud da öz həddini aşsınlar ki, bu yola əl atsınlar. Daxili İşlər Nazirliyi və prokurorluq bu işlə məşğuldur. Baş prokuror mənə məlumat verdi ki, bu hadisədə iştirak edən dörd nəfər hərbi qulluqçu həbs edilərək məsuliyyətə cəlb olunmuşdur. Ancaq, axı, həmin hərbçilər bu işi özbaşına görə bilməzdilər. Məlumat verilmişdir ki, icra başçıları Sərdar Həmidov və Səyavuş Vəliməmmədov həmin vaxt sərxoş olmuşlar və bu işi təşkil etmişlər.

Biz belə hallara dözə bilmərik, qətiyyən dözə bilmərik. Heç kəs fikirləşməsin ki, indiyədək belə işlər bağışlanmışdır, yaxud da kim isə qoçuluq etmişdir və qoçuluq davam edəcəkdir. Hamı qanun çərçivəsində işləməlidir. Qanunu pozan adamlar vəzifəsindən, keçmiş xidmətindən asılı olmayaraq cavab verməlidirlər. Şübhəsiz ki, inzibati orqanlar bu barədə tədbir görəcək, qanunu pozan adamlar məsuliyyət daşıyacaqlar.

Sözsüz ki, biz də bundan lazımi nəticələr çıxarırıq. Ancaq mən bu hadisə haqqında məlumat verərək – baxmayaraq ki, bu hadisə barədə məlumat yəqin bütün respublikaya yayılmışdır, – hamını xəbərdar etmək istəyirəm: heç bir vəzifəli şəxs qanundan kənara çıxa bilməz. İstər baş nazir olsun, istər nazir, istər icra hakimiyyətinin başçısı olsun, – fərqi yoxdur. Əgər biz demokratik dövlət qururuqsa, demokratiya yolu ilə gediriksə, deməli, heç kimin qanunu pozmağa ixtiyarı yoxdur. Onu pozanlara qarşı isə, şübhəsiz ki, qanun tətbiq edilməlidir. Güman edirəm ki, bundan hər kəs özü üçün nəticə çıxaracaq, son vaxtlar cəmiyyətimizdə nizam-intizamın möhkəmləndirilməsinə, mənəvi saflığa doğru irəliləyiş bundan sonra da davam edəcək və biz cəmiyyətimizdəki mənfi halların aradan qaldırılmasına get-gedə nail ola biləcəyik.

Burada çıxış edənlər bir neçə başqa məsələ də qaldırdılar. Mən bunları təkrar etmək istəmirəm. Nazirlər Kabinetinə, şəxsən Abbas Abbasova, nazirliklərə, ilk növbədə kənd təsərrüfatı nazirinə, Prezident Aparatının işçilərinə, müşavirlərə, xüsusən Arif Rəhimzadəyə və başqalarına [35-36] tapşırıram ki, burada qaldırılan bütün məsələlərə üç gün müddətində baxılıb, lazımi tədbirlər görülsün və bu barədə mənə yazılı məlumat verilsin.

Müstəqil respublikanın gərək güclü ordusu olsun. Bu gün, torpaqlarımızı müdafiə etmək üçün belə ordu bizə hava və su kimi lazımdır. Belə ordu sabah, gələcək üçün, müstəqil respublikamızın müstəqilliyini təmin etməkdən ötrü də lazımdır. Dünyada heç bir müstəqil dövlət ordusuz yaşaya bilməz, xüsusən də yenicə müstəqillik qazanmış və belə mürəkkəb regionda yaşayan Azərbaycan dövləti. Ona görə də ordu quruculuğu, ordu yaratmaq hər birimizin müqəddəs borcudur. Biz bunu bilməliyik. Xüsusən müstəqillik haqqında həddindən artıq düşünən, müstəqillik arzusunda olan adamlar bilməlidirlər ki, güclü ordusuz müstəqillik ola bilməz.

Əgər münaqişə başlanandan bizim ordumuz olsaydı, gücümüz olsaydı, respublikanın güclü imkanları olsaydı, belə vəziyyət yaranmazdı. Tarix bunu göstərmişdir. Ancaq bizim gəncləri təşkil etmək, öyrətmək, onlarda hərbi vətənpərvərlik hissini yüksəltmək və onları hərbi peşəyə cəlb etmək işi neçə illər özbaşına buraxılmışdır. Əgər bu vəziyyət indi də davam edərsə, bilin ki, bizim nə müstəqilliyimiz olacaq, nə də Azərbaycan olacaq. Çünki bizim ətrafımız çox mürəkkəbdir, bunu bilirsiniz. Dünyada o cümlədən keçmiş Sovet İttifaqının ərazisində gedən proseslər bir-iki illik proseslər deyil, bunlar davam edəcəkdir. Buna görə də ordunu yaratmaq, onu həqiqi orduya, torpaqlarımızı etibarlı müdafiə edə bilən qüdrətli orduya çevirmək bizim müqəddəs borcumuzdur. Ola bilər çörəyimiz də olmasın, yeməyimiz də olmasın. Ola bilər ac qalaq, ola bilər paltarımız da olmasın, amma gərək ordumuz olsun.

Bir tərəfdən təəccüb doğurur, digər tərəfdən təəssüfləndirir, üçüncü tərəfdən isə insanı hiddətləndirir: başqa ölkələrdən Ermənistana gedib-gələn adamlar danışırlar ki, Yerevanda bütün ağaclar kəsilmişdir, çünki qışda yanacaqları olmamışdır. Ermənistanda hər adama gündə talonla 300 qram çörək verirlər, elektrik enerjisi yoxdur. Xaricdən gələn qonaqlar mənə danışırlar ki, Yerevanda mehmanxanaya gedirik, ancaq işıq yoxdur. Ən qıt şey şamdır. Kimin şamı varsa, gecə onun işığında otura bilir. Yəqin sizin də tanışlarınız var, ola bilər, onlar da Ermənistandakı bu ağır vəziyyət barədə sizə danışmışlar. Lakin onlar belə ağır vəziyyətə dözürlər, özü də torpaqlarını müdafiə etmək üçün yox, əksinə, gəlib bizim torpağımızı işğal etmişlər. Öz vətəndaşlarını, gənclərini gətirib burada, Azərbaycanda qırdırırlar. Özü də istədiklərinə nail olmaq Dağlıq Qarabağı Ermənistana birləşdirmək, bundan sonra isə "Böyük Ermənistan" yaratmaq planlarını həyata keçirmək üçün.

Biz bunu bilməliyik, düşünməliyik, yoxsa yox ? Bir dəfə tanınmış bir jurnalist gəlmişdi, bir müddət əvvəl Yerevanda olmuşdu. O mənə dedi ki, iki-üç gün sizin şəhəri gəzdim. Bakı Yerevanla müqayisədə elə bil kurortdur. Siz burada sanki kurortda yaşayırsınız. [36-37]

Həqiqətən də belədir. Ancaq gəlin fikirləşək. Ermənilər bütün əzab-əziyyətlərə dözərək altı ildir ki, istəyirlər bizim torpaqlarımızı ələ keçirsinlər. Buna da müəyyən qədər nail olublar, torpaqlarımızı işğal ediblər. Biz isə istəyirik ki, həm yemək-içmək olsun, həm paltar olsun, nə bilim, daha nə olsun, kim isə də gedib orada vuruşsun və torpaqlarımızı qorusun. Ay qardaş, ay vətəndaş, sən öz Vətənini, öz evini, ailəni, valideynlərinin məzarlarını qorumalısan. Ona görə də hər şeydən çox bu işlə məşğul olmalısan.

Hərbi komissarlıqların işi bu gün də qeyri-qənaətbəxşdir. Orada hərcmərclik davam edir. Mən bunu müdafiə nazirinə dəfələrlə demişəm və bu gün də sizin hüzurunuzda deyirəm. Orduya gedən ancaq yoxsulların uşaqlarıdır. Varlıların uşaqlan orduya getmirlər. Nə üçün ? Nəhayət, mənə siyahı veriblər. Mən onu burada elan etmək istəmirəm, lakin hərbi komissarlığa, prokurorluğa, başqa inzibati orqanlara verəcəyəm. Orduya getməyənlərin özlərini deyil, onların valideynlərini məsuliyyətə cəlb etmək lazımdır. Çünki özləri gəncdirlər, başa düşmürlər.

Mən icra hakimiyyəti başçılarından, hərbi komissarlardan, polis rəislərindən, prokurorlardan, bu işlərlə məşğul olan nazirlərdən tələb edirəm ki, ordu sıralarını komplektləşdirmək üçün verilən tapşırıqları qısa müddət ərzində yerinə yetirsinlər. Bilin, bu, taxıldan da, pambıqdan da, neftdən də daha mühüm vəzifədir.

Əgər həqiqi mənəviyyatdan danışırıqsa, xalqımızın bu ağır vəziyyətində ümumi səviyyədən yuxarı səviyyədə yaşamağa heç kəsin haqqı yoxdur. Müharibəni qurtararıq, ondan sonra kim çox qazanarsa varlı yaşayar, az qazanan kasıb dolanar. Amma indi, müharibə gedən bir vaxtda bəzən cəbhədə əsgərlərə ərzaq çatışmır, qaçqınlar bəzən bəlkə çörək belə tapa bilmirlər, kasıb adamların çörək almağa da pulu yoxdur. Bəzi adamların isə kefdən başları açılmır. Bütün bunlar ona görədir ki, ayrı-ayrı adamlar oğurluqla, dövlətin, xalqın malını mənimsəməklə, cürbəcür başqa çirkin əməllərlə məşğuldurlar.

Ona görə də mənfi halların qarşısını almaq üçün orduya göstərilən yardım mərkəzləşdirilməlidir. Bilinməlidir ki, yardım kimə göndərilir və haraya göndərilir.

Bununla yanaşı onu da demək istəyirəm ki, hər bir icra hakimiyyəti başçısı, hər bir müəssisə, hər bir imkanlı şəxs orduya yardım etməyə borcludur. Lakin bunu elə etmək lazımdır ki, həmin yardım doğrudan da orduya, əsgərlərə, xüsusən səngərdə olan döyüşçülərə çatsın.

Rayonların cəbhə bölgəsində, yaxud kənarda yerləşməsindən asılı olmayaraq icra hakimiyyəti başçıları respublikanın müdafiəsi üçün eyni dərəcədə məsuliyyət daşıyırlar. Ona görə də respublikanın müdafiəsi ilə bağlı məsələlərin həlli icra hakimiyyəti başçılarının ən əsas vəzifəsidir və onlar bunu hər gün diqqət mərkəzində

saxlamalıdırlar. Bundan ötrü yu[37-38]xarıdan göstəriş gözləmək lazım deyil. Onlar daim düşünməlidirlər ki, qələbəmiz üçün daha nə etmək lazımdır.

Cəbhə bölgəsində olan rayonların icra hakimiyyəti başçılarının məsuliyyəti daha böyükdür. Onlar bəzən ordunun işinə qarışırlar. Mən istərdim ki, belə olmasın. Amma bəzən də onlar ordunun, döyüşçülərin vəziyyətinə biganə qalır, lazımi kömək göstərmirlər. Şübhəsiz ki, belə də yaramaz. Mənə belə gəlir ki, vəzifələr aydındır. Artıq danışmağa ehtiyac yoxdur. Sağ olun. Hamınıza müvəffəqiyyətlər arzulayıram. [38-39]

## SƏTTARXAN ADINA ZAVODUN İŞƏ SALINMASININ 100 İLLİYİ MÜNASİBƏTİLƏ ZAVODUN KOLLEKTİVİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

*24 iyun 1994-cü il*

Əziz qardaşlar, bacılar, əziz səttarxançılar! Bu gün sizinlə görüşməyimdən çox məmnunam və hamınızı səmimi qəlbdən salamlayıram.

Azərbaycan xalqının, respublikamızın qədim sənaye müəssisələrindən biri olan Səttarxan adına maşınqayırma zavodunun 100 ili tamam olur. 100 il bundan əvvəl, Azərbaycanda neft sənayesi çox yüksək sürətlə inkişaf etdiyi bir vaxtda bu zavod həmin sahəni qurğularla, maşınlarla təmin etmək üçün yaranmışdı. Bu müəssisədə Azərbaycanın bir çox nəsilləri çalışmış, ömür sürmüş, xalqımıza xidmət etmiş, zavodun inkişaf etməsinə öz töhfələrini vermişlər. Əgər bir əsr bundan əvvəl müəssisənin yarandığı günləri əks etdirən rəsmlər, fotoşəkillər qalmışsa, o dövrlə zavodun indiki dövrünü müqayisə etsəniz çox əyani surətdə görəcəksiniz ki, yüz il müddətində Bakıda, bu fəhlə şəhərində, neft şəhərində, Azərbaycan xalqının gözü olan Bakıda, ölkəmizin paytaxtı olan şəhərdə bu sənaye müəssisəsi necə böyük yol keçib.

Şəxsən mənim xatirimdə olan dövrü yada salsaq, 70-ci illərdə mən burada dəfələrlə olmuşam. Ondan sonrakı dövrdə bu zavodun nə qədər böyüdüyünü, inkişaf etdiyini hamı görə bilər. Bax, mənim bu gün sizinlə görüşdüyüm, toplaşdığımız bu sex 70-ci illərin bəhrəsidir. Əslində bu sexin özü elə bir zavoddur, böyük sənaye müəssisəsidir. Ancaq yenilik təkcə bu sex deyil. Bilirsiniz ki, keçmiş zavodun əsasında 70-ci illərdə burada çox böyük bir zavod tikilib. Bunların hamısı Azərbaycan Respublikasının, onun iqtisadiyyatının, sənaye potensialının inkişaf etməsi üçün görülən tədbirlərin nəticəsidir. Eyni zamanda bütün bunlar Azərbaycanın neft sənayesinin inkişaf etməsi, nəinki Azərbaycanın, o dövrdə bütün Sovetlər İttifaqının neft sənayesinin tələbatını ödəmək, qurğular, maşınlar, neft avadanlığı yaratmaq üçün tikilmiş, işə salınmış sexlərdir.

Bu gün mən böyük sevinc hissi ilə, böyük məmnuniyyətlə bunları seyr edirəm və o illərdə görülmüş işlərin necə böyük əhəmiyyətə malik olduğunu bir daha qeyd edirəm.

Bilirsiniz ki, Azərbaycanın maşınqayırma sənayesi keçmiş Sovetlər İttifaqında bütün neft maşınqayırmasının mərkəzi idi. O dövrlərdə, o cümlədən 70-80-ci illərdə Sovetlər İttifaqı neft sənayesinin neftçıxarma avadanlığına tələbatının 70-80 faizini Azərbaycanın maşınqayırma zavodları ödəyirdi. Ona görə də biz həm Azərbaycanın neft sənayesini inkişaf etdirmək üçün, həm də o dövrdə mənsub olduğumuz dövlətin – Sovetlər [39-40] İttifaqının neft sənayesinin inkişafı üçün neft maşınqayırma zavodlarımızın yenidən qurulmasına çox böyük səylər göstərdik. Böyük işlər görüldü. Səttarxan adına zavod kimi, "Bakı fəhləsi" adına və digər zavodlar da demək olar ki, yenidən quruldu.

Bunların hamısı o dövrdə görülən işlərdir. Qeyd etdiyim kimi, bütün bunlar o dövrdə Sovetlər İttifaqı neft sənayesinin tələbatını ödəmək üçün lazım idi. Amma eyni zamanda o vaxt da biz irəliyə, Azərbaycanın gələcəyinə baxırdıq. O dövrdə Azərbaycan xalqının gələcəyi üçün Sovetlər İttifaqının, Sovet dövlətinin imkanlarından, mərkəzləşdirilmiş vəsaitindən, texnologiyasından istifadə edərək respublikamızın zavodlarını yenidən qurmaq üçün lazımi avadanlıq, avtomat xətlər alıb gətirdik. Bu barədə indi burada zavodun direktoru da məlumat verdi. Siz də yaxşı bilirsiniz ki, o vaxt biz sovet dövlətinin imkanlarından çox səmərəli istifadə etmişik. O zaman biz bu tədbirləri görərkən Azərbaycanın gələcəyi üçün böyük sənaye potensialı yaratmaq istəyirdik. Allaha şükürlər olsun ki, biz onu yarada bilmişik.

İndi həm Səttarxan adına zavodda, həm də Azərbaycanın digər neft maşınqayırma zavodlarında istehsal olunan avadanlığa, maşınlara nəinki Rusiyada, dünyanın başqa ölkələrində də çox böyük tələbat vardır. Güman edirəm ki, belə bir iqtisadi, sənaye potensialı müstəqil Azərbaycanın bu günü üçün çox gərəklidir.

Bilirsiniz ki, Azərbaycanın neft sərvətləri böyükdür. Bunlar 150 ildən çoxdur ki, sənaye üsulu ilə istismar olunur. Ancaq neft yataqlarının gələcəkdə də istismar olunması, Azərbaycana bəhrə verməsi, xeyir gətirməsi xalqımız üçün, gələcək nəsillər üçün böyük sərvətdir.

Biz son vaxtlarda Qərb dövlətlərinin neft şirkətləri ilə danışıqlar aparırıq. Azərbaycanın neft yataqlarının Qərbin neft şirkətləri ilə müştərək istismar edilməsi barədə tədbirlər görürük. Biz respublikamızın neftçıxarma, neft emalı sənayesinin böyük perspektivləri olduğunu görürük. Bunların hamısını təmin etmək üçün sizin Səttarxan adına maşınqayırma zavodunun, respublikamızın digər neft maşınqayırma zavodlarının çox böyük gələcəyi, əhəmiyyəti vardır.

Bax, 70-ci illərdə bunların hamısını nəzərə alaraq, qabaqcadan görərək bu addımları atmışıq. Sizin Səttarxan adına neft maşınqayırma zavodunuz indi müasir texnoloji, texniki tələblərə uyğun olan gözəl bir sənaye müəssisəsidir.

Biz o vaxt bu işləri görərkən həmin tədbirlərlə hər şeydən əvvəl Azərbaycan vətəndaşlarının, xalqımızın rifah halının yaxşılaşdırılmasına yönəldilən tədbirlər kimi məşğul olurduq. Keçmişdə burada işləmiş mühəndislər, texniklər, fəhlələr yaxşı bilirlər ki, 30 il, 40 il, yaxud da elə 20 il qabaq bu zavodda çalışmaq nə

qədər çətin idi. Proseslər avtomatlaşdırılmamışdı, işlərin çoxu əl ilə görülürdü. Biz bunların hamısını aradan götürmək, neft maşınqayırma zavodunda elmi-texniki tərəqqini tətbiq etmək, müəssisədə çalışan mühəndis, texnik və xüsusən fəhlələrin əməyini səmərələşdirmək, onların iş şəraitini yüngülləşdirmək və gəlirlərini artırmaq üçün burada çox işlər gördük. Gördüyünüz bu şəraitin yaradılması, – təkcə binanın tikilməsi, sexlərin yaradılması yox, həm də yeni [40-41] texnologiyanın, yeni avadanlığın alınıb gətirilməsi böyük bir addım, nailiyyət idi. Bütün bunlar məhz bizim Azərbaycan fəhlələrinin, sənaye əməkçilərinin işini yüngülləşdirmək, onların rifah halını yaxşılaşdırmaq üçün idi.

Bu tarixi dövrü yada salaraq mən Səttarxan adına zavodun yüz illik fəaliyyətinə qiymət vermək istəyirəm. Müəssisə yaranandan indiyədək burada Azərbaycanın fədakar texnikləri, mühəndisləri işləyiblər. 1941-45-ci illərdə, İkinci dünya müharibəsi dövründə müəssisənin böyük xidmətləri olub. O vaxt bu zavod cəbhəyə silah, sursat vermək üçün böyük fəaliyyət göstərib. Bunlarla yanaşı, zavodun respublikamız qarşısında, xalqımız qarşısında ən böyük xidməti, şübhəsiz ki, Azərbaycanın neft sənayesinin inkişafı ilə bağlıdır. Ona görə də zavod yaranan gündən indiyədək burada işləmiş, müəssisənin inkişafı üçün əmək sərf etmiş bütün nəsillərə bu gün minnətdarlığımı bildirmək istəyirəm. Bildirmək istəyirəm ki, yüz illik tarixi olan bu zavod gələcəkdə də Azərbaycanın sənaye müəssisələri üçün nümunə olacaq.

Zavodumuzun kollektivinin başqa bir xüsusiyyəti, xarakterik cəhəti də var. O da bundan ibarətdir ki, müəssisənin kollektivi respublikamızın həyatında prinsipial mövqe tutmuş, həm işdə, həm texnika və texnologiyanın inkişafında, həm də Azərbaycanın ictimai-siyasi həyatında həmişə öndə getmişdir.

Bildiyiniz kimi, 1988-ci, bəlkə də 87-ci ildə respublikamızın, xalqımızın başına bəlalar gəldi. Ermənistan tərəfindən Azərbaycana qarşı qəsbkarlıq niyyətləri meydana çıxdı. Erməni millətçiləri, Ermənistan Azərbaycanın torpaqlarını işğal etmək niyyətinə düşdü və bunun nəticəsində də Dağlıq Qarabağ münaqişəsi yarandı. O dövrdən Azərbaycan böyük çətinliklər içərisindədir. Erməni qəsbkarları Azərbaycan ərazisinin bir qismini, Dağlıq Qarabağı ələ keçirməyə cəhd göstərmiş və təəssüf ki, müəyyən səbəblər üzündən bu proseslər Azərbaycana zərər vurmuş, torpaqlarımızın bir hissəsi Ermənistan silahlı qüvvələrinin işğalı altına düşmüşdür.

O dövrdə Azərbaycanda milli azadlıq hərəkatı inkişaf etməyə başlamışdır. Bu, o vaxtkı mərkəzin sovet dövləti rəhbərlərinin Azərbaycana ədalətsiz münasibəti ilə əlaqədar olmuşdur. Milli azadlıq hərəkatı ayrı-ayrı düşmən qüvvələrin Azərbaycanı parçalamağa, onun torpaqlarının bir hissəsini əlindən almağa yönəldilən səylərinə müqavimət göstərmək, etiraz etmək üçün meydana gəlmişdir. Azərbaycan milli azadlıq hərəkatının ilk addımları Səttarxan adına zavodun kollektivinin, burada çalışan qeyrətli, namuslu, vətənpərvər azərbaycanlıların təşəbbüsü ilə atılmışdır.

Yaxşı məlumdur ki, Azərbaycanın müstəqilliyi, respublikamızın ərazisinin, sərhədlərinin toxunulmazlığı uğrunda xalqımızın mübarizəyə qalxmasının təşəbbüskarları məhz Səttarxan adına zavoddan idilər. [41-42]

Bilirsiniz ki, o vaxt mən Azərbaycanda yaşamırdım. Ancaq respublikamızdan uzaqda olsam da o dövrdə Azərbaycanın fəhlələrinin, bu zavodun cəsarətli, qeyrətli, Vətənini sevən adamlarının torpağı, Vətəni qorumaq üçün ayağa qalxmasını, mitinqlər keçirməsini, etirazını bildirməsini həmişə bəyənmişəm. Həmin günlər sizin zavodun tarixinin parlaq səhifələridir. O dövrdə xalqımızın milli azadlığı, Azərbaycanın dövlət müstəqilliyi uğrunda, torpaqlarımızın bütövlüyü, sərhədlərimizin toxunulmazlığı uğrunda mübarizə aparmış, həlak olmuş adamların fəaliyyətini yüksək qiymətləndirirəm və indi də bu zavodda çalışan, yaxud başqa yerdə fəaliyyət göstərən gənclərin hamısına minnətdarlığımı bildirirəm.

Altı ildir respublikamız müharibə şəraitində yaşayır. Erməni işğalçılarının təcavüzü nəticəsində Azərbaycan müharibəyə cəlb edilmişdir və altıncı ildir ki, Qarabağ bölgəsində sərhədyanı rayonlarımızda müharibə gedir. Bu dövrdə Azərbaycan xalqı öz torpağını müdafiə edərək şəhidlər vermişdir. Sizin zavodun kollektivindən də cəbhəyə gedərək düşmənlə vuruşan və şəhid olan adamlar var. Ona görə də bu yubiley günündə mən Azərbaycanın müstəqilliyi, milli azadlığı, ərazi bütövlüyü uğrunda mübarizə apararaq şəhid olanların hamısının xatirəsini dərin ehtiramla yad edirəm. Xahiş edirəm şəhidlərin xatirəsini bir dəqiqəlik sükutla yad edək. Bildiyiniz kimi, müharibəni qurtarmaq, münaqişəni sülh yolu ilə aradan qaldırmaq üçün son vaxtlar bir çox siyasi, diplomatik addımlar atmışıq və bu fəaliyyətimizi davam etdiririk. Bizim bu fəaliyyətimiz nəticəsində mayın 12-dən cəbhədə atəşkəsə nail olmuşuq. Lakin bu o demək deyildir ki, müharibə qurtarmışdır. Yox. Biz sadəcə olaraq, beynəlxalq təşkilatların – BMT-nin, ATƏM-in, onun Minsk qrupunun vasitəsilə, bu məsələdə fəal vasitəçilik rolu oynayan Rusiyanın, başqa böyük dövlətlərin vasitəçiliyindən istifadə edərək atəşin dayandırılmasına nail ola bilmişik. İndi müharibəyə son qoymaq üçün ciddi sülh danışıqları aparırıq. Bu danışıqlarda isə bizim şərtlərimiz məlumdur: erməni işğalçıları zəbt olunmuş bütün torpaqlarımızdan çıxarılmalı, qaçqınlar öz yerlərinə qaytarılmalı, müstəqil dövlət kimi Azərbaycanın ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı təmin edilməlidir. Biz danışıqları bu şərtlər daxilində aparır və çalışırıq ki, buna nail olaq.

Ancaq eyni zamanda ordumuz daim hazır olmalıdır. Xalqımız bilməlidir ki, biz hələ müharibə şəraitindəyik, torpaqlarımızı etibarlı şəkildə müdafiə etmək üçün bundan sonra da çox iş görməliyik və əgər sülh danışıqları bir nəticə verməsə, erməni işğalçıları yenə də atəşə başlasalar onlara layiqli cavab verilməli, işğal

edilmiş torpaqlarımız azad olunmalıdır. Ona görə siz də bilməlisiniz, bütün Azərbaycan vətəndaşları da bilməlidirlər ki, arxayınlaşmağa əsas yoxdur. İndi biz bütün imkanlardan istifadə etməliyik ki, Azərbaycanın torpaqları etibarlı müdafiə olunsun.

Mən dəfələrlə demişəm, bu gün sizin qarşınızda bir daha təkrar [42-43] edirəm: biz müharibə istəmirik, Ermənistanın torpaqlarına göz dikməmişik. Biz öz torpaqlarımızı, öz ərazimizi, öz Vətənimizi qoruyuruq. Biz başqa ölkələrin, xüsusən də Ermənistanın bir qarış da olsun torpağını istəmirik, ancaq öz torpaqlarımızın hamısını geri qaytarmalıyıq. Bu, bizim müqəddəs vəzifəmizdir və bu yolla axıra qədər gedəcəyik.

Bilirəm ki, sizin zavoddan da cəbhədə vuruşan, hərbi xidmətə çağırılan gənclər var. Güman edirəm ki, zavodunuz Azərbaycanın müdafiə qüdrətini möhkəmləndirmək, Azərbaycan Ordusunu gücləndirmək üçün bundan sonra da bütün imkanlarını sərf edəcək, keçmişdə olduğu kimi, Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü, xalqımızın xoşbəxt gələcəyi uğrunda mübarizədə daim ön cərgədə olacaqdır.

Bilirəm ki, zavodunuzun işində bəzi çətinliklər var. İstehsal etdiyiniz bəzi məhsulları istədiyiniz kimi sata, başqa yerlərə göndərə bilmirsiniz. Başqa çətinlikləriniz də var. Ancaq onu da bilirik ki, zavodunuzda elə təcrübəli, bilikli, bacarıqlı mütəxəssislər, mühəndislər, texniklər, fəhlələr, idarəetmə işçiləri toplaşmışdır ki, onlar bütün bu çətinlikləri aradan qaldıracaqlar.

İndi respublikanın iqtisadiyyatı dərin böhran keçirir. Son illərdə respublikada gedən dağıdıcı proseslər, müharibə iqtisadiyyata böyük zərbə vurmuşdur. Bu vəziyyətdən çıxmaq üçün biz bir çox tədbirlər görürük. İyunun 15-də mən yeni bir fərman imzalamışam. Siz zəhmət adamları bilməlisiniz ki, bizim bütün fəaliyyətimiz respublikanı bu böhran vəziyyətindən çıxarmağa yönəldilmişdir. Biz bu yolla gedirik və gedəcəyik.

Bilin ki, yaman günün ömrü az olar. Biz bu ağır vəziyyətdən çıxacağıq. Ancaq ən başlıca, mühüm məsələ, ən əsas vəzifə respublikanı müharibə vəziyyətindən çıxarmaqdır. Ona görə biz hamımız bütün bu əzab-əziyyətə dözməli, respublikamızı müharibədən çıxarmalı, xalqımızın xoşbəxt gələcəyi üçün əsas yaratmalıyıq. Sizi əmin etmək istəyirəm ki, biz bu sahədə çox ciddi tədbirlər görürük. Mən respublikanın xoşbəxt gələcəyini görürəm və əmin ola bilərsiniz ki, biz bunların hamısına nail ola biləcəyik.

Azərbaycan xalqı dözümlü, dəyanətli xalqdır. Sizin hamınıza daha da dözümlülük, dəyanətlilik arzulayır, hamınızı milli həmrəyliyə, milli birliyə dəvət edirəm. Respublikanın bu ağır dövründə hamı birləşməli, hər yerdə – həm cəbhədə, həm arxada hamı bir istiqamətdə – Azərbaycanın müstəqilliyini daha da möhkəmləndirmək, ərazi bütövlüyünü təmin etmək, respublikanı müharibə vəziyyətindən, Azərbaycan xalqını ağır sosial-iqtisadi böhrandan çıxarmaq istiqamətində fəaliyyət göstərməlidir. Bundan ötrü lazımi tədbirlər görülür və görüləcəkdir.

Zavodumuzun 100 illiyi münasibətilə sizi təbrik edir, bu dövrdə müəssisədə çalışmış bütün nəsillərin nümayəndələrinə dövlət adından minnətdarlığımı bildirirəm. Bu gün zavodda çalışan bütün kollektivə dövlət adından təşəkkür edir, hamınıza cansağlığı, xoşbəxtlik arzulayıram. Sağ olun. [43-44]

## XALQ ŞAİRİ XƏLİL RZA ULUTÜRKLƏ VİDALAŞMA MƏRASİMİNDƏ ÇIXIŞ

*24 iyun 1994-cü il*

Ağır dövrdə yaşayan Azərbaycan bu gün böyük bir matəmə bürünmüşdür. XX əsrdə Azərbaycanın görkəmli simalarından biri – şair, yazıçı, filosof, alim, xalq azadlığı uğrunda fədakar mübariz, böyük vətəndaş Xəlil Rzanı itirmişik. Bu, böyük itkidir. Son illər xalqımız faciələr içərisində yaşayır. Lakin Xəlil Rza kimi şəxsiyyətlər, böyük insanlar xalqımızı daim ruhlandırmış, mübarizəyə dəvət etmiş, milli azadlıq uğrunda öz mübarizəsi ilə nümunə göstərmişlər.

Xəlil Rzanın Azərbaycan xalqı qarşısında xidmətləri əvəzsizdir. Onlar heç vaxt unudulmayacaq. Xəlil Rza xalqımıza böyük ədəbi irs qoymuş, mədəniyyətimizi, ədəbiyyatımızı zənginləşdirmişdir.

Xəlil Rza Azərbaycan xalqının milli azadlıq uğrunda mübarizəsinin ön cərgələrində getmiş, bu mübarizəyə qalxmış gənclərimizə həm alim, həm şair kimi, həm də hörmətli bir insan kimi örnək olmuşdur. O, daim Azərbaycanın müstəqilliyi duyğuları ilə yaşamış, həyatının şüurlu hissəsini buna nail olmağa sərf etmiş, böyük xidmətlər göstərmişdir. Allaha şükürlər olsun ki, o, Azərbaycanın müstəqilliyinin şahidi olmuş, bunu görmüşdür.

Xəlil Rza bir vətəndaş, bir insan kimi bütün xüsusiyyətləri ilə həmişə sevilmişdir. Mən daim onun yaradıcılığına, insanlığına, vətəndaşlığına, ən çox da cəsurluğuna, əyilməzliyinə, öz ideyalarından dönməzliyinə hörmət etmişəm, onu yüksək qiymətləndirmişəm. Ona görə də bu itki bütün Azərbaycan xalqı kimi, mənim üçün də böyük bir itkidir. Güman edirəm ki, Xəlil Rzanın parlaq həyatı, onun böyük vətəndaşlığı, milli azadlıq uğrunda mübarizliyi bütün azərbaycanlılar üçün nümunə olacaqdır. Əminəm ki, Xəlil Rza Azərbaycan xalqının qəlbində daim yaşayacaqdır.

Mən bu gün Xəlil Rzanın cənazəsi qarşısında baş əyirəm. Allah ona rəhmət eləsin. Mən onun ailəsinə başsağlığı verirəm. Bu böyük itki münasibətilə bütün Azərbaycan xalqına başsağlığı verirəm. Başınız sağ olsun. Allah xalqımıza səbirlər versin. Allah Xəlil Rzaya rəhmət eləsin. [44-45]

## YAZIÇI HÜSEYN MƏMMƏDƏLİ OĞLU İBRAHİMOVA

Hörmətli Hüseyn İbrahimov!

Sizi anadan olmağınızın 75 illiyi münasibətilə səmimi qəlbdən təbrik edir, Sizə cansağlığı və uzun ömür arzulayıram.

Qırx illik yaradıcılığınızın bəhrəsi olan ədəbi əsərləriniz oxucularınızın ideya-mənəvi tərbiyəsində böyük əhəmiyyət kəsb etmiş, gənclərə saf duyğular, bəşəri hisslər aşılamış, müdrik ziyalı mövqeyiniz Sizə hörmət gətirmişdir.

Sizi yubileyiniz münasibətilə bir daha təbrik edir və ədəbi yaradıcılığınızda yeni-yeni uğurlar diləyirəm.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*26 iyun 1994-cü il* [45-46]

## İRAN İSLAM RESPUBLİKASINA RƏSMİ SƏFƏR ZAMANI İRAN XARİCİ İŞLƏR NAZİRLİYİNİN SİYASİ ARAŞDIRMALAR MƏRKƏZİNİN DİPLOMATİK KURSLARINDA TƏHSİLİNİ BAŞA ÇATDIRMIŞ MÜDAVİMLƏR QARŞISINDA ÇIXIŞ

*2 iyul 1994-cü il*

İran İslam Respublikasının xarici işlər naziri hörmətli Əli Əkbər Vilayəti!

Siyasi araşdırmalar mərkəzində çalışan hörmətli müəllimlər və diplomatlar!

Hörmətli cənablar və xanımlar!

İran İslam Respublikasına səfərimin son günündə burada sizinlə bir yerdə olmağımdan çox məmnunam və hamınızı Azərbaycan xalqı adından, öz adımdan salamlayıram.

Bu gün burada mühüm bir hadisə baş verir. Azərbaycanın xarici işlərlə məşğul olan bir qrup mütəxəssisi burada təhsili bitirdikləri haqqında müəyyən sənədlər alır. Mən bu hadisənin iştirakçısı olduğumdan çox məmnunam. Siyasi araşdırmalar mərkəzinin diplomatik kurslarını bitirən Azərbaycandan gəlmiş məzunları təbrik edir, İranın Xarici İşlər Nazirliyinə respublikamıza göstərdiyi bu yardıma görə təşəkkürümü bildirirəm.

İran İslam Respublikasının prezidenti hörmətli Haşimi-Rəfsəncaninin dəvəti ilə mən dördüncü gündür ki, İranda rəsmi səfərdəyəm. Burada bizim çox faydalı görüşlərimiz olub və belə hesab edirəm ki, bu səfər İran İslam Respublikası ilə Azərbaycan Respublikası arasında münasibətlərin gələcək inkişafı üçün mühüm mərhələdir.

Bildiyiniz kimi, Azərbaycan öz müstəqilliyini çox gec – yəni bir-iki il bundan əvvəl qazanıbdır. Respublikamız müstəqil bir dövlət kimi dünya birliyində öz yerini tutmaqdadır. Bu dövrdə Azərbaycan çox ağır çətinliklərlə rastlaşıb, Ermənistan tərəfindən hərbi təcavüzə məruz qalıb. Altı ildir ki, Azərbaycan müharibə şəraitindədir. Ermənistan silahlı qüvvələri Azərbaycan Respublikasının ərazisinin yüzdə iyirmi hissəsini işğal edib. Azərbaycanın bu məntəqələrdə yaşayan vətəndaşları qaçqın düşüb. Bir milyondan artıq azərbaycanlı öz yerini-yurdunu, evini-eşiyini itirib qaçqın vəziyyətində yaşayır.

Respublikamızın müharibə şəraitində olması müstəqil Azərbaycanın həyatında böyük çətinliklər yaradıb. Bununla əlaqədar İran İslam Respublikasının Azərbaycana göstərdiyi yardıma görə, İranın Xarici İşlər Nazirliyinin bu sahədəki fəaliyyətinə görə mən öz təşəkkürümü bildirirəm. Burada, Xarici İşlər Nazirliyində olduğum üçün Azərbaycanın xarici siyasəti haqqında bir neçə kəlmə demək istəyirəm. [46-47]

Azərbaycan müstəqil dövlətdir və öz müstəqilliyini heç vaxt əldən verməyəcəkdir. Azərbaycan 70 ildən çox müddətdə kommunist rejimi, sosializm şəraitində yaşamışdır. Azərbaycan xalqı, respublikamız indi bu rejimdən, bu ideologiyadan imtina edərək öz həyatını, taleyini tarixi, mənəvi ənənələri əsasında, Allahın buyruğu ilə qurmaq, həll etmək istəyir. Azərbaycan müstəqillik yolu ilə gedir, demokratik hüquqi dövlət qurur, respublikada daxili siyasət Azərbaycanda demokratik prosesləri inkişaf etdirmək, siyasi plüralizmə yol açmaq, iqtisadiyyatı bazar münasibətləri yolu ilə aparmaq məqsədlərinə, yəni köhnə rejimdən tamamilə imtina olunmasına xidmət edir. İndi biz keçid dövründəyik. Bu dövrün çətinlikləri çoxdur. Əminəm ki, biz bu keçid dövrünü ötüb keçəcəyik və Azərbaycan öz həyatını dünyanın sivilizasiyalı ölkələrində əldə olunmuş nailiyyətlərindən istifadə edərək quracaqdır.

Azərbaycanın xarici siyasəti azad və müstəqildir. Ölkəmiz bütün dünya dövlətləri üçün açıqdır. Biz Azərbaycanın müstəqilliyini tanıyan, onun mənafeyinə toxunmayan, ölkəmizə müsbət münasibət göstərən hər bir dövlətlə əlaqələr qurmağa hazırıq və belə əlaqələr qururuq.

Azərbaycan bütün ölkələrlə ikitərəfli, qarşılıqlı surətdə faydalı əlaqələr qurmaq yolu ilə gedir və bu yolu davam etdirəcəkdir. Azərbaycan öz xarici siyasətində qonşu dövlətlərlə əlaqələrin genişlənməsinə çox böyük fikir verir. Qonşu dövlətlərlə Azərbaycanın tarixi əlaqələri sıx olduğuna görə ölkəmiz həmin münasibətlərin bundan sonra da inkişaf etməsinə çalışır.

Azərbaycanla İran arasındakı münasibətlər dərin köklərə malikdir. Bizim xalqlarımız əsrlər boyu bərabər yaşamış, bir yerdə olmuşlar. Bizim tarixi, mənəvi dəyərlərimiz eynidir. Biz hamımız, yəni İran və Azərbaycan xalqları islam aləminə mənsub olan xalqlardır. İslam aləminin dəyərləri bizim üçün əzizdir, möhtərəmdir. Biz bu dəyərləri öz həyatımızda bundan sonra da bərqərar edəcəyik. Elmi, mənəvi, mədəni əlaqələrimiz bizi tarix boyu birləşdirib. Azərbaycan Respublikası ilə İran İslam Respublikasının çox böyük sərhədi var. Bunları nəzərə alaraq Azərbaycan İran İslam Respublikası ilə dostluq, qardaşlıq əlaqələrini inkişaf etdirmək əzmindədir.

Doğrudur, bu əlaqələrdə son vaxtlar müəyyən soyuqluq əmələ gəlib, ancaq biz bunları aradan qaldırmışıq və qaldırırıq. İran İslam Respublikasının prezidenti Haşimi-Rəfsəncani keçən ilin oktyabr ayında Azərbaycanda rəsmi səfərdə olandan sonra bu əlaqələr müsbət istiqamətdə inkişaf edir və biz bunu davam etdirəcəyik. Məhz buna görə də mən İran İslam Respublikasının prezidenti Haşimi-Rəfsəncaninin dəvətini qəbul

edib buraya gəlmişəm və burada gördüyümüz işlər, aparılan danışıqlar onu göstərir ki, biz düz yoldayıq və bu yolla da gedəcəyik. Tam əmin ola bilərsiniz ki, İranla Azərbaycan arasındakı dostluq, qardaşlıq əlaqələrinin inkişaf etməsi üçün biz bütün səyləri göstərəcəyik. Mən bir prezident kimi. bu siyasətin təminatçısı kimi çıxış edirəm. [47-48]

Azərbaycan digər qonşu ölkələrlə də dostluq əlaqələrini davam etdirir. Bu baxımdan Gürcüstanla əlaqələrimiz dostluq xarakteri daşıyır. Rusiya ilə əlaqələrimizdə əvvəllər müəyyən çətinliklər olmuşdu, indi bunlar aradan qaldırılır və əlaqələrimiz müsbət istiqamətdə inkişaf edir. Türkiyə ilə Azərbaycan arasındakı dostluq, qardaşlıq əlaqələri inkişaf edir və inkişaf edəcəkdir. Azərbaycan Avropa və dünya ölkələri ilə qarşılıqlı surətdə faydalı əlaqələri inkişaf etdirəcəkdir. Bu, bizim xarici siyasətimizin əsas prinsipləridir və biz bunun əsasında irəliyə gedəcəyik.

Bunların hamısını sizə çatdıraraq bir daha demək istəyirəm ki, Azərbaycanla İran arasındakı münasibətlər xüsusi xarakter daşıyır. Məni bu səfərdə Azərbaycanın görkəmli simaları – alimləri, yazıçıları, siyasətlə məşğul olan şəxsləri müşayiət edirlər. Onların əksəriyyəti bu salondadır. Onlar Azərbaycanın tarixi, qədim ədəbiyyatı ilə məşğul olan, böyük əsərlər yazmış adamlardır. Elmi işlə, yaradıcılıq işləri ilə məşğul olan şəxslər həmişə Azərbaycanla İran arasında, xalqlarımız arasında dostluq, qardaşlıq əlaqələrini və tarixi köklərimizin birliyini təhlil edərək öz əsərlərində əks etdirmişlər. Belə hesab edirəm ki, onlar həmin sahədəki fəaliyyətlərini bundan sonra da davam etdirəcəklər. Əgər keçmişdə onlar çox böyük maneələr keçərək elmi tədqiqat işləri aparmışlarsa, indi İranın qapıları Azərbaycan üçün, Azərbaycanın qapıları isə İranın alimləri, şairləri, yazıçıları, tədqiqatçıları, diplomatları üçün açıqdır. Hər iki tərəf bu imkanlardan istifadə edib xalqlarımızın bir-birinə yaxınlaşmasına səy göstərməlidir. Mən əminəm ki, Azərbaycan tərəfindən belə səylər göstəriləcəkdir.

Bizim ən böyük problemimiz Ermənistan silahlı qüvvələrinin Azərbaycana təcavüzüdür. Bu təcavüz davam edir, Azərbaycan torpaqlan işğal edilir. İşğal olunmuş ərazilərimizdə erməni silahlı qüvvələri Azərbaycanın milli, mənəvi sərvətlərini, İslam aləminə aid olan tarixi abidələri vəhşicəsinə dağıdırlar. Bilirsiniz ki, yaradılan şeyi dağıtmaq həmişə etiraz, həyəcan doğurur. Ancaq mənəvi, dini sərvətlərin, İslamın müqəddəs sərvətlərinin, əsrlərdən əsrlərə, nəsillərdən nəsillərə çatdırılan abidələrin dağıdılması qəlbimizi sıxır, bizi dəhşətə gətirir, həyəcanlandırır və bir daha bizi torpaqlarımızın müdafiəsinə dəvət edir.

Şübhəsiz ki, biz Ermənistan kimi kiçik bir dövlətin öhdəsindən gəlməyə qadirik. Azərbaycanın iqtisadi potensialı, qüvvəsi Ermənistandan qat-qat çoxdur. Ancaq siz bilməlisiniz ki, Ermənistanın müharibədəki üstünlüyünün əsas səbəbi dünyanın böyük dövlətlərinin ona kömək göstərməsidir. Ermənistanın heç bir təbii sərvəti yoxdur, iqtisadi vəziyyəti ağırdır. Ancaq xarici ölkələrdə – Amerikada, Avropada, Rusiyadakı erməni diasporunun böyük sərvətləri Ermənistana axır, ona kömək edir. Ermənistana dəstək verən, kömək göstərən ölkələr başqa sahələrdə də ona yardım edirlər, o cümlədən hərbi sahədə Ermənistan bu köməkdən istifadə edərək Azərbaycan torpaqlarını işğal etməyə nail olur. Ancaq bu o demək deyil ki, həmişə belə olacaq. Yox, heç vaxt olmayacaq. [48-49]

Azərbaycan xalqı əsrlər boyu öz milli azadlığı, müstəqilliyi uğrunda vuruşub, döyüşüb, mübarizə aparıb, qurbanlar, şəhidlər verib. Doğrudur, belə də olub ki, Azərbaycan müvəqqəti olaraq məğlubiyyətlərə uğrayıb. Ancaq bütün bunlar müvəqqəti olub. Bundan sonra Azərbaycan xalqı yenə də ayağa qalxıb, yüksəlib, öz qamətini düzəldib, yenə də öz müstəqilliyini, azadlığını əldə edibdir. Güman edirəm ki, bundan sonra da edəcəkdir.

Mən belə hesab edirəm ki, siz bizim dərdlərimizi daha yaxşı başa düşürsünüz. Çünki İran xalqı həmişə öz ərazisini qorumaq üçün müharibələr aparıb. Buna görə də bizim dərdimizi daha yaxşı, daha yaxından, qəlbdən hiss edə bilərsiniz. Siz çoxlu şəhidlər verimisiniz, ölkənizi müdafiə etmisiniz, İran İslam Respublikasının ərazi bütövlüyünü, sərhədlərinin toxunulmazlığını qorumusunuz.

Azərbaycan da öz ərazisinin bütövlüyü, sərhədlərinin toxunulmazlığı uğrunda mübarizə aparır. Azərbaycanın başqa heç bir fikri yoxdur. Ölkəmiz heç bir dövlətin torpağına göz dikməyib, Azərbaycan ancaq öz ərazisini, özünə məxsus olan sərvətləri qorumağa çalışır, müharibə aparır. Ona görə də biz öz xarici siyasətimizdə beynəlxalq normaların əsası olan prinsipi – hər bir müstəqil dövlətin ərazi bütövlüyünün, sərhədlərinin toxunulmazlığının qorunmasını müqəddəs prinsip kimi qəbul etmişik və edirik. Biz buna riayət edirik. İran İslam Respublikasının ərazi bütövlüyünü, sərhədlərinin toxunulmazlığını öz torpaqlarımızın, öz ərazimizin, öz sərhədlərimizin toxunulmazlığı kimi qəbul edirik, ona hörmət etmişik və hörmət edirik. Eyni zamanda biz bütün dövlətlərin, o cümlədən İran İslam Respublikasının Azərbaycanın ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı üçün öz səsini qaldırmasını arzu edirik və güman edirik ki, həmin səslər bundan sonra da gur olacaq.

Bu salonda çıxış edərkən mən həm İran İslam Respublikasının, həm də Azərbaycan Respublikasının ərazi bütövlüyünün qorunması naminə verilmiş şəhidlərin qəhrəmanlığını qeyd edirəm, onların xatirəsini bir dəqiqəlik sükutla yad etməyi sizdən rica edirəm. Allah onlara rəhmət etsin.

Azərbaycan xalqı bütün bu bəlalardan çıxmağa qadirdir. Biz heç vaxt sınmayacağıq, bizim iradəmiz heç vaxt dönməyəcək. Yenə də deyirəm ki, biz başqa ölkənin, başqa dövlətin torpağına göz dikməmişik, ancaq öz

ərazimizi, öz torpağımızı qorumağa çalışacağıq və buna nail olacağıq. Azərbaycan öz müstəqilliyini heç vaxt əldən verməyəcək. Xalqımız öz milli azadlığını qoruyacaqdır.

Bu fürsətdən istifadə edib İran İslam Respublikasına, onun rəhbərlərinə, İran xalqına öz hörmət və ehtiramımı bildirirəm. İran xalqına bundan sonra da xoşbəxtlik və səadət arzu edirəm. [49-50]

## TEHRANDA MƏTBUAT KONFRANSINDA BƏYANAT

*2 iyul 1994-cü il*

Hörmətli xanımlar, cənablar, hörmətli mətbuat nümayəndələri. Dördüncü gündür ki, mən İran İslam Cümhuriyyətinin prezidenti hörmətli ağayi Haşimi-Rəfsəncaninin dəvəti ilə bu ölkədəyəm. Səfər başa çatır və bir neçə saatdan sonra mən Tehranı tərk edəcəyəm. Deyə bilərəm ki, bu səfər İran ilə Azərbaycan arasındakı dostluq və qardaşlıq əlaqələrinin gələcək inkişafında yeni bir mərhələdir.

Səfər haqqında danışarkən onu qeyd etmək istəyirəm ki, İran İslam Cümhuriyyəti, İran xalqı Azərbaycan Respublikası üçün, Azərbaycan xalqı üçün qonşu, dost, qardaş ölkə və xalqdır. Ona görə də biz belə hesab edirik ki, bu ölkə ilə Azərbaycan arasındakı münasibətlər daim səmimi və mehriban olmalıdır. Elə olmalıdır ki, bütün sahələrdə əməkdaşlıq yüksək sürətlə inkişaf etsin. Mən bu məqsədlə buraya gəlmişəm və qeyd edə bilərəm ki, səfərdə olduğum günlərdə İran İslam Cümhuriyyətinin rəhbərləri – cənab Ayətüllah Seyid Əli Xamnei, hörmətli prezident ağayi Haşimi-Rəfsəncani, İran Məclisinin başçısı ağayi Natiq Nuri ilə, xarici işlər naziri Əli Əkbər Vilayəti, kooperasiya naziri Qulam Rza Şafeyi ilə və başqa dövlət adamları ilə səmərəli görüşlərim olmuşdur. Bu görüşlərdə iki ölkə arasında, xalqlarımız arasında iqtisadiyyat, ticarət, mədəniyyət, elm, texnika sahəsində və başqa sahələrdə əməkdaşlığın inkişafı haqqında danışıqlar aparılmış və yaxşı nəticələr əldə edilmişdir. Həmin danışıqların nəticəsində razılaşdırılmış sənədlər bu gün imzalanacaqdır. Güman edirəm ki, məsələ təkcə bu sənədlərdə deyildir, münasibətlərimizin hüdudları həmin sənədlərdən xeyli genişdir.

Şübhəsiz ki, bütün danışıqlarda son illərdə Azərbaycanın ağır müharibə şəraitində yaşaması haqqında, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü və bunun nəticəsində ərazimizin 20 faizinin işğal edilməsi haqqında, zəbt olunmuş torpaqlarımızdan bir milyondan artıq azərbaycanlının didərgin düşməsi barədə və bununla bağlı bütün problemlər haqqında fikir mübadiləsi aparılmışdır.

Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün nəticəsi olan müharibə dövründə Azərbaycanın düşdüyü ağır sosial-iqtisadi böhran şəraitində biz İran İslam Cümhuriyyətinin yardımını daim hiss etmişik. İndiki danışıqlarımızda da bu barədə söhbət getmişdir. Bu yardıma görə, bizimlə həmrəy olduqlarına, bizi beynəlxalq aləmdə müdafiə etdiklərinə görə İranın rəhbərlərinə təşəkkürümü bildirmişəm.

Bir daha qeyd edirəm ki, bu görüşlərimiz Azərbaycan ilə İran arasında dostluq, qardaşlıq əlaqələrinin həm yeni bir mərhələsidir, həm də [50-51] bu əlaqələrin sürətlə inkişaf etməsi üçün yaxşı şərait yaradır və Azərbaycan tərəfi gələcəkdə bu şəraitdən səmərəli istifadə etməyə çalışacaqdır. Vaxt az olduğuna görə mən çıxışımı bu qısa məlumatla tamamlayıram.

**Sual: İsrail də Ermənistan kimi, müsəlman torpaqlarını işğal edib. Necə ola bilər ki, Siz İsrail ilə əlaqələr yaratmaq fikrinə düşmüşsünüz ?**

**Cavab:** Əvvəla demək istəyirəm ki, Azərbaycan beynəlxalq prinsiplərə, müqəddəs beynəlxalq normalara daim riayət edir və edəcəkdir. Həmin prinsiplərin ən mühümlərindən biri ölkələrin, dövlətlərin ərazi bütövlüyünün və sərhədlərinin toxunulmazlığı, bir ölkənin başqa ölkənin ərazisini zorla ələ keçirməsinin yolverilməzliyidir. Bu prinsiplərə riayət edərək biz bütün ölkələrin, o cümlədən İran İslam Cümhuriyyətinin ərazi bütövlüyünün və sərhədlərinin toxunulmazlığını müdafiə edirik. Azərbaycan heç bir ölkənin torpağına göz dikməmişdir, heç vaxt qəsbkarlıq yoluna düşməyəcəkdir, işğalçılığı, qəsbkarlığı həmişə pisləmişdir və hundan sonra da pisləyəcəkdir. Ermənistan həm İranın, həm də Azərbaycanın qonşusudur. Ermənistanın Azərbaycana qarşı altı ildən artıq davam edən təcavüzü həm Azərbaycan üçün, həm də İran üçün böyük bir bəladır. Erməni silahlı qüvvələri Azərbaycanın işğal olunmuş ərazilərində müsəlman abidələrini, tarix və mədəniyyət abidələrini dağıdırlar. Ona görə də buna yol verməmək təkcə bizim işimiz deyil, bütün müsəlman xalqlarının işidir.

Azərbaycan müstəqil dövlətdir, xarici siyasətini demokratik prinsiplər əsasında qurur, dünyanın bütün dövlətləri ilə qarşılıqlı əlaqələr yaradaraq öz müstəqilliyini möhkəmləndirməyə çalışır.

**Sual: Siz çıxışlarınızın birində dediniz ki, Azərbaycan Respublikası dünyanın böyük dövlətlərinin himayəsindən bəhrələnmək istəyir. Deyə bilərsinizmi, böyük dövlətlər adı altında siz hansıları nəzərdə tutursunuz ? Rusiya ilə əlaqələrdə də eyni prinsipləri gözləyirsinizmi ?**

**Cavab:** Mən qeyd etdim ki, biz bütün dövlətlərlə qarşılıqlı əlaqələr yaratmaq istəyirik. Rusiya Azərbaycanın şimalında olan böyük dövlətdir. Azərbaycan iki yüz ilə yaxın müddətdə Rusiyanın tərkibində olmuşdur. Son 70 ildə Sovetlər İttifaqının tərkibində olarkən Azərbaycanın inkişaf etmiş böyük iqtisadi potensialı Rusiya ilə çox bağlıdır. Azərbaycanın bütün dövlətlərlə qarşılıqlı əlaqələr yaratmasından danışarkən mən ilk növbədə qonşu dövlətləri nəzərdə tuturam. Şübhəsiz ki, Azərbaycan bundan sonra da Rusiya ilə yaxşı əlaqələr saxlamalıdır və biz bu istiqamətdə xarici siyasətimizi aparırıq. Gürcüstanda və Ermənistanda Rusiya qoşunları yerləşdirilmişdir. Azərbaycanda Rusiyanın qoşunu yoxdur. Orta Asiyanın müsəlman respublikalarının da hamısında Rusiyanın qoşunu var. Həmin respublikaların, həmçinin Gürcüstanın və Ermənistanın xarici ölkələrlə, yəni İran, Türkiyə və Əfqanıstanla sərhədlərini Rusiya qoşunları qoruyurlar. Respublikamızın isə İran

və Türkiyə ilə sərhədlərini [51-52] Azərbaycanın öz qoşunu qoruyur. Əgər Ermənistanda Rusiyanın böyük qoşun hissələri varsa, siz gərək bunun mənası barədə özünüz düşünəsiniz. Rusiya Ermənistan ilə Azərbaycan arasında müharibənin dayandırılmasında vasitəçilik etməyə çalışır. Beynəlxalq təşkilatlar, xüsusən ATƏM, onun tərkibində olan Minsk qrupu da belə bir vasitəçilik fəaliyyəti göstərir. Biz müharibəyə son qoymaq, xalqımızı bu bəladan qurtarmaq, işğal olunmuş torpaqlarımızı azad etmək istəyirik. Ona görə də, şübhəsiz ki, bütün bu vasitəçilik imkanlarından imtina edə bilmərik.

**Sual: Cənab prezident, İranda yüksək səviyyədə keçirilən görüşlərdə Xəzər dənizinin statusu məsələsinə rəsmi şəkildə toxunuldumu ?**

**Cavab:** Mənim İrana səfərimdən bir neçə gün əvvəl Rusiya prezidentinin Dağlıq Qarabağ üzrə xüsusi nümayəndəsi Vladimir Kazimirov Tehranda olmuşdur. O, Tehrandan qayıdarkən Bakıya gəlib mənimlə görüşmüş və məlumat vermişdir ki, Dağlıq Qarabağ məsələsi və bəzi başqa məsələlər barədə İranla məsləhətləşmək üçün İrana getmişdi. Sizin sualınızla əlaqədar bunu deyə bilərəm ki, toxunduğunuz məsələ mən burada səfərdə olarkən müzakirə edilməmişdir. Ona görə də bu barədə bir şey deyə bilmərəm.

**Sual: Azərbaycan Respublikası Tehran, Ankara və Moskva ilə öz əlaqələrini hansı prinsiplər əsasında qurur və hansı meyarları əsas götürür ?**

**Cavab:** Bir daha təkrar edirəm ki, biz qonşu dövlətlərlə dostluq əlaqələri yaratmaq istəyirik. Deməli, İran da, Türkiyə də bizim üçün dost və qardaş ölkələrdir. Moskva, yəni Rusiya ilə əlaqələr barədə geniş məlumat verdim, ona görə də təkrar etməyə ehtiyac duymuram.

Səfər proqramımda mətbuat konfransına çox az vaxt ayrılmışdır. Xahiş edirəm Bakıya gəlin, suallarınıza cavab vermək üçün orada vaxtım çox olacaq. Sağ olun. [52-53]

## İRAN İSLAM RESPUBLİKASINDAN VƏTƏNƏ YOLA DÜŞƏRKƏN "MEHRABAD" HAVA LİMANINDA JURNALİSTLƏRƏ MÜSAHİBƏ

*2 iyul 1994-cü il*

Mən dörd gündür İran İslam Respublikasında rəsmi səfərdəyəm. Həmin günlərdə İranın rəhbərləri ilə çox səmərəli mənalı danışıqlarımız oldu. İran İslam Respublikasının prezidenti Haşimi-Rəfsəncani ilə mən, habelə hər iki ölkənin bir sıra nazirləri yekun sənədlərini imzaladıq.

Görüşlərimizin, danışıqlarımızın hamısı dostluq və qarşılıqlı anlaşma şəraitində keçdi. İranlı dostlarımız mənə və məni müşayiət edən Azərbaycan nümayəndə heyətinə çox böyük qonaqpərvərlik göstərdilər. Bu günlər ərzində biz mehribanlıq və qayğıkeşliklə əhatə olunmuşduq. Hesab edirəm ki, görüşlərimiz, danışıqlarımız, imza etdiyimiz sənədlər Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında olan dostluq və qardaşlıq əlaqələrinin gələcəkdə də inkişafına kömək edəcəkdir.

Mən Tehranı tərk edərkən əziz dostumuz Haşimi-Rəfsəncaniyə, İran İslam Respublikası dövlətinin başqa rəhbərlərinə öz təşəkkürümü və minnətdarlığımı bildirirəm. İran İslam Respublikasının bütün vətəndaşlarına xoş arzularımı söyləyirəm və onların hamısına həyatda xoşbəxtlik, səadət arzulayıram. [53-54]

**BAKI METROSUNDA TÖRƏDİLMİŞ TƏXRİBATLA ƏLAQƏDAR HADİSƏ YERİNƏ TOPLAŞANLAR QARŞISINDA ÇIXIŞ**

*3 iyul 1994-cü il*

Bu gün Bakı metrosu xəttində bədbəxt hadisə baş vermişdir. "28 May" stansiyası ilə "Gənclik" stansiyası arasında hərəkət edən qatarda partlayış olmuşdur. Şübhə yoxdur ki, bu partlayış ölkəmizə, xalqımıza və millətimizə düşmən olan qüvvələr tərəfindən törədilmişdir. Mən faciənin səbəblərinin araşdırılması, təxribatçıların aşkara çıxarılması üçün xüsusi komissiya təyin etmişəm.

Həyatımızda çətinliklər çoxdur. Bildiyiniz kimi, Azərbaycan Respublikası müharibə alovları içərisindədir. Lakin daxildə də təxribatla məşğul olan qüvvələr var. Şübhə yoxdur ki, komissiya hər şeyi aydınlaşdıracaq, cinayətkarlar tapılacaq və cəzalarını alacaqlar. Odur ki, bəri başdan heç bir fikir söyləmək istəmirəm. Hər halda bu təxribat hər kim tərəfindən törədilsə də, xüsusi olaraq təşkil edilmiş cinayətdir, özü də bir adama qarşı deyil, bütün Azərbaycan xalqına qarşı, respublikamıza qarşı cinayətdir. Şübhə etmirəm ki, Azərbaycanın bütün vətənpərvər sakinləri bu cinayəti də, onu törədən cinayətkarları da pisləyəcəklər. Sizi əmin edirəm ki, bu cinayətkarlar aşkara çıxarılacaqdır (yerdən səslər; bu, ədavət, düşmənçilikdir). Bəli, siz haqlısınız. Əgər kimin kiməsə ədavəti varsa, qoy gedib onunla haqq-hesab çəksin. Amma metroda partlayış, təxribat törətmək ən böyük cinayətdir. Çünki cinayətkarlar bilirlər ki, metro yerin altı ilə gedən nəqliyyat xəttidir. Hər qatarda beş vaqon olur. Bir vaqonda partlayış nəticəsində qatardakı vaqonların beşi də sıradan çıxmış, adamlar tələf olmuşlar.

Bu, acıq-aşkar vəhşilikdir. Şübhəsiz ki, respublikamızın daxilində də, xaricində də belə vəhşilər – bizə düşmən olan, Azərbaycan Respublikasının müstəqilliyinə düşmən kəsilən, onun əleyhinə çıxan qüvvələr var. Lakin qoy onların hamısı bilsin ki, belə vəhşiliklərlə, təxribatlarla heç kəs Azərbaycan Respublikasının müstəqilliyini, onun siyasətini sarsıtmağa, bizi bu yoldan döndərməyə müvəffəq olmayacaqdır. Biz bütün bu ünsürlərin öhdəsindən gələcəyik.

Mən buraya hadisə yerinə baxmaq üçün gəlmişdim. Bir halda ki, siz buraya toplaşmısınız, mən bunu sizin qarşınızda acıq bildirirəm. Həlak olanların ailələrinə başsağlığı verirəm. Həlak olanlara sizinlə birlikdə Allah-təaladan rəhmət diləyirəm. Onların ailələrinə Allah səbir versin. Xalqımıza Allah səbir versin ki, biz belə düşmənlərə qarşı bundan sonra daha kəskin mübarizə apara bilək. [54-55]

Bu cinayəti törədən ya bizim içərimizdə olan, ya da kənardan düşmənlərimiz tərəfindən göndərilmiş adamdır. Şübhəsiz ki, inzibati orqanlar müvafiq təşkilatlar bu işlərlə ciddi məşğul olmalı, nəzarət etməlidirlər. Amma gərək xalqımız, camaat özü də sayıq olsun. Martın 19-da partlayış törədildi, adamlar tələf oldular. Düzdür, o zaman metronun işi tez bərpa edildi. Di gəl ki, cinayətkarlar indiyədək aşkara çıxarılmayıb. Budur, bu gün yenə partlayış baş vermişdir. Bunu edən kimdir? Bu faciəni törədənlər ya öz aramızda olan, Azərbaycan ərazisində yaşayan adamlardır, ya da respublikamızda sabitliyi pozmaq, ona, xalqımıza, millətimizə zərər, zərbə vurmaq üçün göndərilmiş təxribatçılardır.

Şübhəsiz ki, bütün bu hallar bizim hamımızı hiddətləndirir. Bu gün mən hüquq-mühafizə orqanlarının nümayəndələrini yanıma toplamışdım. Əvvəlki faciənin üstü açılmadığına görə onlarla ciddi söhbət getdi. Onlara qəti şəkildə tapşırdım ki, bu hadisə tezliklə araşdırılmalı, diqqətlə, ətraflı istintaq aparılmalı, cinayətkarlar tapılmalıdır. Lakin vətəndaşlarımız da öz məsuliyyətini – vətəndaşlıq məsuliyyətini dərk etməlidirlər. İçərimizdə olan bu müzür, düşmən ünsürlər, xalqımıza zidd olan tör-töküntülər aşkara çıxarılmalıdır. Əgər xaricdən, ölkəmizin hüdudlarının kənarından hansısa bir qüvvə bu təxribatı törətmək üçün buraya gəlibsə, yəqin ki, kimsə ona kömək etmişdir, o, buraya kiminsə vasitəsilə gəlib çıxmışdır. Əgər kömək, vasitəçilik edən bu adam azərbaycanlıdırsa, deməli, o, Vətən xainidir. Əgər başqa bir millətin nümayəndəsidirsə, onun Azərbaycanla əlaqəsi var. Əlaqəsi olmasaydı, o nə buraya gələr, şəhərdə özünə yer tapardı, nə də metroya girərdi. Partlayıcı qurğunu haradansa gətirmək, vaqona qoymaq, onu partlatmaq – bütün bunlar bir adamın işi deyildir.

Bu, təxribat xalqa, millətə qarşı, bütün ölkəyə, Bakı şəhərinə qarşı dəhşətli cinayət, böyük bir xəyanətdir. Buna görə də mən hüquq-mühafizə orqanlarımızdan tələb edirəm ki, bu işlə ciddi məşğul olsunlar. Eyni zamanda Azərbaycan vətəndaşlarına, Bakı şəhərinin sakinlərinə müraciət edirəm ki, öz vətəndaşlıq borclarını yerinə yetirsinlər. İçərinizdə olan, xalqımıza zərbə vurmaq, onu sarsıtmaq istəyən, öz şəxsi mənafeyinə görə respublikamızı, xalqımızı daha ağır vəziyyətə salmaq məqsədi güdən adamları aşkara çıxarmaq lazımdır. Belə cinayətkarlar içərimizdə də var. şübhəsiz ki, var.

Mən həlak olanların ailələrinə başsağlığı verirəm. Allah onlara rəhmət eləsin. Allah onların ailələrinə, qohum-əqrəbalarına səbir versin. Həm həlak olanların ailələrini, həm də bütün Azərbaycan vətəndaşlarını əmin edirəm ki, bu cinayətkarların aşkara çıxarılması, cəzalandırılması üçün var qüvvə ilə çalışacağıq. Lakin sizli-bizli hamımızın borcu budur ki, hər yerdə ayıq-sayıq olaq. Vətənimizi, torpaqlarımızı təkcə erməni

təcavüzkarlarından yox, haradan gəlməsindən, yaxud burada yaşamasından asılı olmayaraq, hər cür təxribatçılardan da qorumaq hər bir vətəndaşın şərəfli borcudur, eləcə də sizin. Odur ki, sizə də müraciət edirəm. [55-56]

## XALQ YAZIÇISI İSMAYIL ŞIXLIYA

Əziz və hörmətli İsmayıl Şıxlı!

Sizi – ömrünün mənasını doğma xalqına təmənnasız xidmətdə görən sənətkarımızı anadan olmağınızın 75-ci ildönümü münasibətilə ürəkdən təbrik edir və Sizə dərin ehtiramımı bildirirəm. Sizin ədəbi, pedaqoji və ictimai fəaliyyətiniz hər bir gənc üçün əvəzsiz məktəb olmuşdur. Azərbaycan xalqının böyük bir nəslinin layiqli övlad, əsl vətəndaş və hərtərəfli şəxsiyyət kimi yetişməsində Sizin əməyiniz böyükdür.

Siz istedadlı yazıçı, müdrik və mahir pedaqoq, mübariz vətəndaş kimi xalqın qəlbində əbədi məskən salmısınız. Belə bir sevgiyə layiq görülmək ən böyük səadətdir.

Hörmətli sənətkarımız!

Sizi bu əziz yubileyiniz münasibətilə bir daha səmimi qəlbdən təbrik edir, Sizə möhkəm cansağlığı, uzun ömür, Azərbaycanın işıqlı gələcəyi naminə əzm və qüdrət arzulayıram.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*4 iyul 1994-cü il* [56-57]

**AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ UİLYAM C. KLİNTON CƏNABLARINA**

Zati-aliləri!

Amerika Birləşmiş Ştatlarının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və bütün dost Amerika xalqını şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi qəlbdən təbrik edir, sülh, əmin-amanlıq və tərəqqi arzulayıram.

Sizi əmin edirəm ki, Azərbaycan Respublikası regiondakı bütün münaqişələrin, həmçinin Qarabağ münaqişəsinin ATƏM çərçivəsində və sülh yolu ilə həll edilməsinin tərəfdarıdır və bundan sonra da iqtisadi islahatlar və demokratiya yolu ilə addımlayacaqdır.

Fürsətdən istifadə edib Sizə bir daha öz dərin ehtiramımı izhar edirəm.

Hörmətlə,

**HEYDƏR ƏLİYEV**

*4 iyul 1994-cü il* [57-58]

## EKOLOGİYA VƏ ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ NAZİRLƏRİNİN İSTANBUL GÖRÜŞÜNÜN İŞTİRAKÇILARINA TƏBRİKİ

Ekologiya və ətraf mühitin mühafizəsi nazirlərinin İstanbulda keçirilən görüşünün bütün iştirakçılarını dərin məmnuniyyət hissi ilə salamlayıram.

BMT-nin mühit və inkişaf məsələlərinə dair 1992-ci ildə Rio-de-Janeyroda keçirilmiş konfransı ekologiya sahəsində beynəlxalq əməkdaşlığın inkişafında mühüm mərhələ olmuşdur. Konfransda qəbul edilmiş "XX əsrin gündəliyi" adlı yekun sənədi bəşəriyyətin müasir inkişafının bir çox aktual problemlərinin həllinə yönəldilən konkret fəaliyyət proqramıdır.

BMT-nin ətraf mühitə və inkişafa dair konfransının tam hüquqlu iştirakçısı olan Azərbaycan Respublikası onun fəaliyyət proqramını və orada şərh edilmiş beynəlxalq əməkdaşlıq prinsiplərini tamamilə bəyənir.

Güman edirəm ki, sizin görüşünüz gələcək üçün fəaliyyətin üstün istiqamətlərini və konkret proqramını müəyyənləşdirəcəkdir. Ekologiya və ətraf mühitin mühafizəsi nazirlərinin görüşünün bütün iştirakçılarını və qonaqlarını təbrik edirəm, sizə və xalqlarınıza ətraf mühitin mühafizəsi kimi çox nəcib işdə müvəffəqiyyətlər arzulayıram.

**HEYDIR ƏLİYEV**

*5 iyul 1994-cü il* [58-59]

## "UTRO ROSSİYA" QƏZETİNƏ MÜSAHİBƏSİ

**- Heydər Əliyeviç, bir il əvvəl Azərbaycan rəhbərliyinə qayıdarkən Siz yəqin ki, üzləşəcəyiniz çətinlikləri qiymətləndirmişdiniz. Bir il ötdükdən sonra Sizin şəxsi proqnozunuz təsdiq olunmuşdurmu?**

- Bilirsinizmi, mən gənc deyiləm, kifayət qədər həyat təcrübəm var. Ona görə də hakimiyyət naminə hakimiyyət mənə gərək deyil. Yeni dövr siyasətçiləri üçün çox cəlbedici olan hakimiyyətin bütün xarici atributları ilə mən, necə deyərlər, hələ 20 il öncə boğaza qədər "doymuşam". Yeri gəlmişkən, iyulun 14-ü mənim "Bastiliyanın alınması" günümdür – Azərbaycana başçılıq etdiyimdən düz 25 il keçir. Düzdür, on illik fasilə olmuşdur, mən Moskvada işləmişəm. Lakin bütün bunlar hamıya məlumdur, bu barədə indi danışmağa ehtiyac yoxdur. Düzünü deyim ki, 1987-ci ildən sonra fəal siyasi həyata qayıtmaq fikrində deyildim. Adətən, öz qərarlarımı dəyişmirəm, ona görə də məni bu mövqeyimi dəyişməyə məcbur edən çox ciddi səbəblər ortalığa çıxmalı idi.

**- Onlar ortalığa çıxdılarmı?**

- Əlbəttə. Hər şeydən öncə Azərbaycana qayıdaraq vəzirovların və mütəllibovların Vətənimlə, xalqımla nə etdiklərini öz gözlərimlə görəndə dəhşətə gəldim. 1982-ci ildə Moskvaya Azərbaycanın xalq təsərrüfatını çox yaxşı vəziyyətdə qoyub getmişdim. Gələndə gördüm ki, hamının gözü qarşısındaca zəngin respublikanın açıq-aşkar və məqsədyönlü şəkildə dağılması prosesi gedir. Yəqin ki, mən elə o zaman müdaxilə etməli, səsimi ucaltmalı idim. Lakin şərait mənim üçün çox mürəkkəb şəkil almışdı. Məsələ ondadır ki, Moskva və Bakının o zamankı rəhbərləri mənim qayıtmağımdan çox qorxurdular və qayıtmamağım üçün əllərindən gələni edirdilər. Moskvada istefa verdikdən sonra ilk dəfə Bakıya gələrkən aydın oldu ki, bu şəhərdə yaşamaq üçün heç bir yerim yoxdur (nəzərə alın ki, müasir Bakının ən azı yarısı onun rəhbərliyi altında inşa edilmişdir! – Red.). Kütləvi çıxışlara da icazə vermirdilər. Mütəllibovsa hətta mənə Bakıya gəlməyi də qadağan etmişdi. Lakin mən hər halda paytaxta uçmağı qərara alanda aeroportda məni qarşılamağa gələn adamı öldürdülər. Başqa sözlə, xalqıma qarşı böyük cinayətlərdən başqa, şəxsən mənim ünvanıma da çoxlu iyrənc əməllərə əl atılırdı. Mən hələ kütləvi informasiya vasitələrində mənə qarşı yönələn antiəliyev kampaniyasından danışmıram. Yalan və böhtanlar axınına hazır idim. Lakin hər bir xırda bəd əməl mənə qəribə görünürdü. Çünki bu respublika rəhbərliyinin nə ilə və necə məşhur olması haqqında təsəvvürlərimlə heç cür uyuşmurdu. Özü də bütün bunlar mənim himayəm sayəsində böyük siyasətə gələnlər tərəfindən baş verirdi. [59-60]

**- Yəqin ki, Siz əvvəllər də onların qiymətini bilirdiniz?**

- Xeyr. Yeri gəlmişkən, bu, mənim siyasətə qayıtmağıma səbəb olan amillərdən biridir (ən başlıcası olmasa da). Bu cür adamların yaranmış şəraitdən istifadə edərək hakimiyyətə gəlməklərində günahımın olması hissi məni tərk etmirdi. İndi də onların Azərbaycana vurduqları ziyanı aradan qaldırmaq üçün bütün qüvvəmi sərf edirəm.

**- Bütün bunlar Vəzirova və Mütəllibova aiddir. Lakin Elçibəy mənə məlum olduğuna görə sovet nomenklaturası ilə əlaqəyə heç vaxt malik olmayıb**?

- Əlbəttə. O tamam başqa adamdır. Şərəfli, intizamlı və əgər bilmək istəsəniz, bədbəxt. O, hansısa məqamda ətrafında olanların girovuna çevrildi və bəlkə də öz iradəsinin əleyhinə olaraq üzərinə ağır bir yük götürdü. Respublikanı idarə etməyə hazır olmadığından bunun nədən ibarət olduğunu aydın təsəvvür etmirdi. Onun bədbəxtliyini mən bunda görürəm. Səmimiyyətinə və abırlı-həyalı olmasına isə heç bir şübhə yoxdur. Əvvəllər taleyimiz yalnız bircə dəfə kəsişib. O, bəlkə də bu barədə indiyə qədər bilmir. 1975-ci ildə mənə məlumat verdilər ki, Bakıda bir neçə nəfər, necə deyərlər, antisovet ünsürlər həbs edilib. Onların arasında Əbülfəz Elçibəy də var idi. Mən xahiş etdim ki, bu iş barədə ətraflı informasiya versinlər. Onların heç bir cinayət etmədiyinə əmin olduqdan sonra respublikanın o zamankı DTK rəhbərliyinə məsləhət gördüm ki, məsələni şişirtməsinlər. DTK başçısı məsləhətimə qulaq asdı və bütün bunlar Elçibəy və onun yoldaşları üçün yaxşı nəticələndi. Mən elə indi də Elçibəyə – keçmiş prezidentə hörmət bəsləyirəm. Onun yaşadığı Naxçıvandakı kəndi (Kələki – Tərc.) toxunulmaz zona hesab edirəm. Bir müddət bundan əvvəl Bakıda mənə qarşı sui-qəsd hazırlanmışdı. Təhqiqat zamanı aydınlaşmışdı ki, bu hadisəylə Elçibəyin əmisi oğlu da bağlıdır. Bu adam Elçibəyin Naxçıvanda yaşadığı kəndə qaçmışdı. Mən onu həmin kənddə zorla tutmamağı xahiş etmişdim. İstəmirdim ki, Əbülfəz Elçibəyə rahatsızlıq gətirim, o, buna layiq deyil.

**- Hər halda Azərbaycanda hakimiyyətə qayıtmaq qərarınızın başlıca səbəbi nə olub?**

- Ötən ilin bahar-yay mövsümündəki hadisələr. Əsl vətəndaş müharibəsinin başlamasını görəndə, növbəti avantüristin heç kimə məlum olmayan Talış Respublikasını yaratdığını elan etdiyini eşidəndə, Vətənimin tikə-tikə parçalanacağına qəti əmin olanda anladım ki, qayda-qanun yaratmaq vaxtı gəlib çatıb. Bunu xalq tələb edirdi. Bunu mənim ölkə qarşısında olan şəxsi borcumu anlamağım tələb edirdi. Həmin dövrdə daima, gündə bir neçə dəfə prezident Elçibəy, parlamentin sədri İsa Qəmbərov mənə zəng edirdilər. Onlar hadisələrin gedişindən çox narahat olmuşdular və Bakıya gəlməyimi qətiyyətlə xahiş edirdilər. Axır ki, gəldim və başlıcası da ən qorxulu şeydən – vətəndaş müharibəsindən və respublikanın dağılmasından yaxa qurtarmaq mümkün oldu.

Əhvalat qısaca belədir. Söhbətimizin əvvəlinə qayıdarkən demək istərdim ki, bu il güman etdiyimdən də ağır il oldu. [60-61]

**- Bu konkret olaraq özünü nədə büruzə verdi?**

- Hər şeydən öncə, onda ki, gün ərzində 18 saat işləsəm də, iqtisadiyyatla hələ də ciddi şəkildə məşğul olmağa vaxt tapmıram. Müharibə və onunla bağlı olan hər şey bütün vaxtımı və qüvvəmi alır. İqtisadiyyatla isə məşğul olmaq lazımdır. Köhnə əlaqələr dağıdılıb, yeniləri isə yaranmayıb. Azərbaycanın, xalq təsərrüfatında bu cür yüksək potensialı olan ölkənin dünya iqtisadi prosesində iştirak etməməyə, sadəcə, haqqı yoxdur. Həm də ki, ənənəvi və bizim üçün çox sərfəli dünya bazarı məntəqəsi – Rusiya və MDB ölkələri vardır. Təcili olaraq istiqaməti dəyişməyə çalışaraq, bu imkanı əldən çıxarmaq ağılsızlıq olar. Əlaqələrin bərabər və qarşılıqlı surətdə sərfəli olmasından ötrü iqtisadi islahatlar prosesində geri qalmaq yaramaz. Bərabərhüquqlu partnyorlar eyni iqtisadi dildə danışmalıdırlar. İqtisadi qanunlar paketi artıq Azərbaycan parlamentinə təqdim edilmişdir. Lakin mən bu islahatları gerçəkləşdirə biləcək gənc və yüksək dərəcəli təsərrüfat kadrlarına kəskin ehtiyac hiss edirəm.

**- Deməli, Azərbaycana öz Qaydarı lazımdır?**

- İqtisadiyyatı lazımi istiqamətə yönəltmək üçün zənnimcə, Azərbaycana dörd Qaydar lazımdır.

**- Hazırda keçmiş SSRİ-nin müsəlman respublikalarının əksəriyyətində iqtisadiyyatın türk inkişaf modeli böyük maraq oyadır. Bu barədə Sizin fikriniz necədir?**

- Bizim türk xalqı ilə də, Türkiyə Respublikasının rəhbərliyi ilə də ənənəvi dost münasibətlərimiz var. Əlbəttə, çiçəklənməkdə olan dünyəvi dövlətin nümunəsi çox cəlbedicidir, lakin mənə elə gəlir ki, biz inkişafın türk modelini bütünlüklə təkrar edə bilmərik və etməməliyik də. Azərbaycan milli-tarixi təcrübəsi olan özgə ölkədir. Nə qədər çətin və birmənalı olsa da, Rusiyanın iqtisadi islahatlar təcrübəsinin daha çox gərəkli olacağı istisna deyil.

**- Yeri gəlmişkən, kadrlar haqqında. Haçansa, elan olunmuşdur ki, onlar "hər şeyi həll edirlər". Əvvəldən, hələ sovet dövründən Sizin haqqınızda köklü kadr dəyişikliklərinə qadir, "sərt rəhbər" obrazı qalmaqdadır. Lakin bu il Siz nəinki heç bir repressiyaya əl atmamısınız, hətta respublika rəhbərliyində də əsaslı dəyişikliklər etməmisiniz. Bu nə ilə izah olunur?**

- Doğrudan da çoxları qorxurdular ki, Əliyev gələcək və qisas almağa başlayacaq, "başlar kəsiləcək", kadrlar dəyişiləcək. Rəsmi olaraq deyə bilərəm: qisas hissi öz tarixində ən ağır dövrlərdən birini yaşayan ölkənin rəhbərinə aid deyil. Bundan başqa, bu cür tarixi məqamlarda Vətənini sevən hər bir adam ölkənin rifahı naminə birləşmək üçün şəxsi rəğbət və nifrətini unutmalıdır. Mən demokratik inkişaf prinsiplərinə sadiqliyimi qətiyyətlə bildirmişəm və bu prinsipləri tapdalamağa hazırlaşmıram.

**- Bəs, müxalifətlə münasibətləriniz nə cürdür?**

- Müxtəlifdir. Azərbaycan demokratik ölkədir və müxalifətin öz fikrini söyləməyə hüququ var. Bunun ölkəyə və xalqa ziyan vurmadan qüvvə[61-62]də olan qanunvericilik çərçivəsi daxilində həyata keçirilməsi isə başqa məsələdir. Müxalifətdə olanlarımız üçün milli-dövlət mənafeyinin kifayət qədər qiymətli olmasına səmimiyyətlə ümid bəsləyirəm və hesab edirəm ki, onlar bu mənafeləri şəxsi ambisiyalardan üstün tuta biləcəklər. Əgər belədirsə, onda hər şey qaydasında olacaq.

**- Altı ildir ki, müharibə gedir. Respublikanızın ərazisinin təxminən 20 faizini qarşı tərəf işğal edib. On minlərlə adam həlak olub, milyondan çox adam doğma ocağından məhrum olub, qaçqına çevrilib. Bəs, sonra?**

- Müharibəni biz başlamamışıq. Əminəm ki, onun qarşısını vaxtında almaq olardı. Lakin bu barədə indi nə demək olar? Azərbaycan hazırda özünün ərazi bütövlüyü uğrunda mübarizə aparır. Milli Ordu strukturlaşdırılıb, potensial kifayət qədərdir. Lakin mən bu bir il ərzində hərbi əməliyyatların siyasi yolla dayandırılması axtarışı ilə məşğul olmuşam və yenə də oluram. Müharibə şübhəsiz ki, çıxış yolu deyil. Bunun təkcə bizə yox, həm də rəqiblərimizə ziyanlı olmasına inanmaq istərdim. Biz ədalətli sülh istəyirik. Erməni qoşunları Dağlıq Qarabağdan başqa bütün Azərbaycan ərazilərini azad etməlidirlər. Yalnız bundan sonra Qarabağın statusu haqqında normal danışıqlar prosesi mümkündür. Zənnimcə, bu şərtlər tamamilə qəbul edilə bilər. Bəzi irəliləyişlər var. Mayın 10-dan hərbi atəş dayandırılıb. ATƏM-in Minsk qrupu və Rusiyanın iştirakı ilə fəal danışıqlar gedir.

**- Ayrıca qüvvələr ideyasına necə yanaşırsınız?**

- Hələ ki, danışıqlar gedir və bu barədə, ümumi mövqe yoxdur. ATƏM müşahidəçilər barədə, Rusiya isə MDB-nin sülhməramlı qüvvələri barədə danışır. Əlbəttə, kimsə razılaşmaya riayət olunmasında təminatçı kimi lazımdır. Zənnimcə, bunlar hər halda beynəlxalq təşkilatların himayəsi altında olan hərbi qulluqçular olmalıdırlar. Qarabağ müharibəsi keçmiş Sovet İttifaqı ərazisində baş verən ən birinci və ən uzun sürən millətlərarası münaqişədir. Bu münaqişə təəssüf ki, özündən sonra gələn əksər münaqişələrin prototipinə çevrilib. Deməli, Qarabağ müharibəsindən yaxa qurtarmaq da beynəlxalq təcrübənin işlədiyi klassik sxem üzrə həyata keçirilməlidir.

**- Moskva qəzetlərindən birində bu yaxınlarda belə bir məlumat oxudum: Əliyev Rusiyanın sülhməramlı bölmələrinin yeridilməsi əleyhinədir. Çünki o, hələ Qorbaçovun Siyasi Bürosu dövründən bəri münasibətləri sahmana sala bilmədiyi Yeltsinə etibar etmir. Bu iddianın əsası vardımı?**

- Bu, sadəcə olaraq, cəfəngiyyatdır. Qeyd etməliyəm ki, kütləvi informasiya vasitələrində Azərbaycanla bağlı çoxlu, yumşaq desəm, yoxla[62-63]nılmamış, bəzən isə açıq-aşkar yalan informasiya oxuyur və eşidirəm. Kiminsə məqsədyönlü şəkildə Azərbaycan xalqı və respublikamız barədə mənfi obraz yaratmağa cəhd göstərdiyi hiss olunur. Halbuki, Azərbaycan çoxmillətli ölkə olaraq qalır. Respublikamızda yaşayan ruslara münasibətdə heç bir zorakılıq halları yoxdur və əminəm ki, gələcəkdə də olmayacaq. Yeri gəlmişkən, deməliyəm ki, prezident seçkiləri zamanı namizədliyim respublikada fəaliyyət göstərən üç dini icma: müsəlman, xristian və yəhudi konfessiyaları tərəfindən irəli sürülmüşdür.

Boris Nikolayeviç Yeltsinlə münasibətlərimə gəlincə, bunlar çox xoş və məhsuldardır. Qorçabovun Siyasi Bürosu məsələsi haqqında Yeltsinin partiya taleyinin həll olunduğu Mərkəzi Komitənin məşhur oktyabr (1987-ci il) plenumunda Siyasi Büronun o zamankı üzvlərinin hamısı onun əleyhinə fikir söyləmişdilər, yalnız Əliyevdən başqa. Məhz həmin plenumda mənim Siyasi Bürodan istefa məsələm qəbul edilmişdi. Sov.İKP-dən isə 1991-ci ilin yayında, avqust qiyamından ay yarım əvvəl çıxmışdım.

**- Qorbaçovun yenidənqurması dalğasında hakimiyyətə gələn indiki üç Zaqafqaziya liderindən yalnız biri qalır – Levon Ter-Petrosyan. Sizə elə gəlirmi ki, Ermənistanın siyasi rəhbərliyinin dəyişilməsi Qarabağ münaqişəsinin nizama salınmasının daha uğurlu həllinə imkan verər?**

- Xeyr, mənə elə gəlmir. Mənim Levon Ter-Petrosyanla şəxsi əlaqələr təcrübəm var. O, tamamilə real, praqmatik siyasətçidir. Onunla danışıqlar aparmaq və razılaşmaq olar. Əgər mənim arzularımdan söhbət açılarsa, məhz bu adamla sülh müqaviləsi imzalamaq istərdim.

**- Heydər Əliyeviç, Siz uzun, gərgin və maraqlı ömür sürmüsünüz. Elədikləriniz içərisində ən mühüm nəyi hesab edirsiniz?**

- Bilirsiniz, vəziyyət elədir ki, əvvəlki günlər haqqında düşünməyə, sadəcə olaraq, vaxt qalmır. Həyatımın başlıca vəzifəsini Azərbaycan xalqına onun layiq olduğu ədalətli sülhü gətirməkdə görürəm. Əminəm ki, buna nail olacağam.

*Söhbəti qəzetin baş redaktoru*
**Yuri Belyavski**
*aparmışdır.*

*"Azərbaycan", 6 iyul 1994-cü il* [63-64]

## SƏUDİYYƏ ƏRƏBİSTANINA RƏSMİ SƏFƏRƏ YOLA DÜŞƏRKƏN BİNƏ HAVA LİMANINDA MÜXBİRİN SUALINA CAVABI

*9 iyul 1994-cü il*

Dünya dövlətləri birliyində Səudiyyə Ərəbistanının özünə layiq yeri var. O, ərəb dünyasının inkişaf etmiş zəngin bir ölkəsidir. Eyni zamanda bu dövlət dünya müsəlmanlarının müqəddəs yerlərinin mühafizidir. Ona görə də bu ölkə ilə Azərbaycan arasında əlaqələr yaradılmalıdır. İndiyədək Səudiyyə Ərəbistanı ilə Azərbaycan arasında, demək olar, heç bir əlaqə olmamışdır. Azərbaycan müstəqillik qazandıqdan sonra bu sahədə müəyyən cəhdlər olsa da, bunlar bir nəticə verməmişdir. Ancaq bu ölkə dünya birliyində böyük nüfuza malik olduğuna görə, dini birliyimizi, tarixi ənənələrimizin oxşarlığını nəzərə alaraq, mən Səudiyyə Ərəbistanı məlikinin rəsmi dəvətini qəbul etmişəm və indi səfərə gedirəm. Güman edirəm ki, bu səfər yaxşı nəticələr verəcəkdir. Ən böyük nəticə kimi onu gözləyirəm ki, bizim müntəzəm əməkdaşlığımız üçün imkanlar yaranacaqdır. Səudiyyə Ərəbistanında bizim səfirliyimiz fəaliyyət göstərir. Bu günlərdə Səudiyyə Ərəbistanının səfiri də Azərbaycana gələrək öz etimadnaməsini təqdim edəcəkdir. Ölkələrimiz arasında iqtisadi-ticarət əlaqələri, turist mübadiləsi, mənəvi əlaqələr genişlənəcəkdir.

Hər il müsəlmanlar Səudiyyə Ərəbistanına ziyarətə gedirlər. Onların arasında Azərbaycandan gələnlər də olur. Ola bilər, bu barədə də danışıqlarımız olsun ki, Azərbaycandan ziyarətə gedənlərə orada necə kömək göstərə bilərlər.

Mən bu səfərə böyük məmnuniyyətlə gedirəm. Səudiyyə Ərəbistanı məni həm bir ölkə kimi maraqlandırır, həm də müsəlmanların müqəddəs yeri kimi oraya ziyarət edəcəyimi çox böyük həyəcanla gözləyirəm. [64-65]

## SƏUDİYYƏ ƏRƏBİSTANININ CİDDƏ ŞƏHƏRİNDƏ MƏTBUAT KONFRANSINDA BƏYANAT

*11 iyul 1994-cü il*

Mən Səudiyyə Ərəbistanında iki müqəddəs şəhərin xadimi, əziz dostum və qardaşım, məlik Fəhd ibn Əbdül Əziz əl-Səudun dəvəti ilə rəsmi səfərdəyəm. Bu səfər müstəqil Azərbaycan Respublikası üçün çox mənalı və əhəmiyyətlidir. Ona görə əhəmiyyətlidir ki, biz müqəddəs torpağa – Səudiyyə Ərəbistanına gəlmişik və buradakı iki müqəddəs şəhəri ziyarət etməyimiz üçün imkan yaranmışdır. Səfərin əhəmiyyəti bir də ondan ibarətdir ki, müstəqil Azərbaycan Respublikasının prezidenti kimi mən ərəb ölkələrindən ilk dəfə Səudiyyə Ərəbistanına gəlmişəm. Səudiyyə Ərəbistanı ərəb dünyasında, islam aləmində çox görkəmli yer tutur. Ona görə də mənim ilk səfərimin buraya olması təsadüfi deyildir. Səudiyyə Ərəbistanı məlikinin, iki müqəddəs şəhərin xadiminin məni buraya rəsmi səfərə dəvət etməsi mənim üçün çox əziz və qiymətlidir.

Biz bu müqəddəs torpağa qədəm qoyduğumuz andan buradakı qardaşlarımızın, dostlarımızın mehribanlığını hər dəqiqə hiss edirik. Səfərim lap başlanğıcdan indiyədək dostluq, mehribanlıq və qardaşlıq şəraitində keçir. Mənim üçün və nümayəndə heyətimizin üzvləri üçün ən qiymətli cəhət ondan ibarətdir ki, biz bu ölkəyə gəlişimizin ilk günü müqəddəs Kəbəni ziyarət etdik və müsəlmanlıq borcumuzu yerinə yetirmək, nəhayət, bizə qismət oldu. Müqəddəs Məkkə şəhərində olmaq, müqəddəs Kəbə daşına toxunmaq və Kəbədə namaz qılmaq bizim üçün böyük şərəfdir. Bu şərəfə nail olduğuma görə, bu niyyət və arzularıma çatdığıma görə Allah-təalaya minnətdarlığımı bildirirəm, taleyimə şükür edirəm və iki müqəddəs şəhərin xadiminə, əziz dostuma minnətdarlığımı bildirirəm. Biz bu ziyarətdən çox məmnunuq və bu ziyarət Səudiyyə Ərəbistanına səfərimizin ilk gününü tamamlamışdır.

Səudiyyə Ərəbistanına səfərimin bir məqsədi də bu ölkə ilə müstəqil Azərbaycan Respublikası arasında əlaqələr yaratmaq və bu əlaqələrin gələcək inkişaf yollarını müəyyənləşdirməkdir. İki müqəddəs şəhərin xadimi, Səudiyyə Ərəbistanının məliki əziz dostum və qardaşım Fəhd ibn Əbdül Əziz əl-Səudla görüşümüz və çoxsaatlıq danışıqlarımız buna yaxşı zəmin yaratdı. Danışıqlarımız dostluq və mehribanlıq şəraitində keçmiş, mənə ən yüksək səviyyədə qonaqpərvərlik göstərilmişdir. Ən başlıcası isə, danışıqlarımız çox məzmunlu və mənalı, müstəqil Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasında əlaqələrin yaranması üçün çox əhəmiyyətli olmuşdur. Biz bütün məsələlər barədə geniş fikir mübadiləsi etdik. Ölkələ[65-66]rimiz arasında əlaqələrin perspektivləri haqqında ümumi fikrə gəldik və hər ikimiz bu əlaqələrin yaranmasına, inkişafına xeyir-dua verdik. Biz həmçinin islam aləmində olan vəziyyət, beynəlxalq vəziyyət haqqında geniş fikir mübadiləsi etdik.

İki müqəddəs şəhərin xadimi, məlik Fəhd ibn Əbdül Əziz əl-Səud müstəqil Azərbaycan Respublikasının keçmişinə və bugünkü vəziyyətinə çox böyük maraq göstərdi. Biz keçmiş Sovetlər İttifaqına daxil olmuş indiki müstəqil respublikalardakı vəziyyət barədə də ətraflı söhbət etdik. Xüsusən Qafqaz regionundakı vəziyyət və Azərbaycan ilə Ermənistan arasında gedən müharibə, Ermənistanın Azərbaycana qarşı təcavüzü haqqında ətraflı məlumat verdim və biz bu barədə geniş müzakirə apardıq. İki müqəddəs şəhərin xadimi və Səudiyyə Ərəbistanının yüksək vəzifəli digər şəxsləri ilə görüşlərim və danışıqlarım Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasında dostluq, qardaşlıq əlaqələrinin yaranması və inkişafı üçün çox əhəmiyyətli oldu.

Səfər zamanı mən Səudiyyə Ərəbistanının Sənaye-Ticarət Palatasında oldum, palatanın üzvləri, ölkənin iş adamları ilə görüşdüm. Güman edirəm ki, bu görüş və Səudiyyə Ərəbistanının iş adamlarını Azərbaycana dəvət etməyim, Azərbaycanda iş aparmaq üçün geniş imkanlar yaradılacağını bildirməyim onları Azərbaycanda işləməyə sövq edəcəkdir və bütün bunlar ölkələrimiz arasında iqtisadi əlaqələrin yaranmasına kömək göstərəcəkdir.

Ciddədə yerləşən və islam dünyasını təmsil edən beynəlxalq təşkilatların – İslam Konfransı Təşkilatının, İslam Birliyi Təşkilatının, Beynəlxalq İslam "Nicat" Təşkilatının, İslam İnkişaf Bankının, İslam Rabitə Təşkilatının rəhbərləri ilə də görüşlərim oldu. Danışıqlar zamanı həmin təşkilatların Azərbaycanla əlaqələri haqqında fikir mübadiləsi apardıq və onlara müraciət edərək Azərbaycana daha diqqətlə yanaşmağa çağırdım.

Səfər müddətində Azərbaycan Respublikasının xarici işlər naziri Həsən Həsənov Səudiyyə Ərəbistanının xarici işlər naziri ilə danışıqlar aparmışdır. Bu ölkənin qanunlarına uyğun olaraq, xarici işlər nazirləri Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasında baş saziş imzalamışlar. Həmin saziş ölkələrimiz arasında iqtisadi, elmi-texniki, mədəni, turizm və başqa sahələrdə əməkdaşlığın inkişafı ilə bağlı olan mühüm sənəddir. Mən burada rəsmi səfərdəyəm, ölkənin qanunlarına, adət-ənənələrinə hörmət edirəm və həmin sənədi dövlətlərarası mühüm bir saziş kimi qəbul edirəm.

Səfərimin yekunları ilə əlaqədar Səudiyyə Ərəbistanı məmləkətinin və Azərbaycan Respublikasının birgə bəyanatı olacaq və şübhəsiz, bu sənəddə ölkələrimiz arasındakı əlaqələr və həmin əlaqələrin perspektivləri öz əksini tapacaqdır.

Bir daha deyirəm ki, mənim Səudiyyə Ərəbistanına səfərim Azərbaycan Respublikası üçün həddən artıq əhəmiyyətlidir. Bu səfərlə biz Azərbaycan Respublikasının islam dünyasına aid olduğunu bir daha nümayiş etdiririk və mən çox məmnunam ki, islam aləmində görkəmli yer tutan [66-67] Səudiyyə Ərəbistanı kimi bir dövlətlə bizim dostluq və qardaşlıq əlaqələrimiz yaranır.

Güman edirəm ki, həm Azərbaycanın, həm də Səudiyyə Ərəbistanının ictimaiyyəti danışıqlarımızın və mənim buraya səfərimin yekunlarını bəyənəcəklər. Qətiyyətlə deyə bilərəm ki, bu səfər və onun yekunları Azərbaycan Respublikasında böyük ehtiramla qəbul ediləcəkdir.

Buradakı danışıqlarımızın və görüşlərimizin ən böyük əhəmiyyəti bir də ondan ibarətdir ki, Səudiyyə Ərəbistanına müstəqil Azərbaycan Respublikası haqqında, onun bugünkü ağır vəziyyəti barədə geniş məlumat vermək imkanı qazandıq. Bilirsiniz ki, Azərbaycan iki il bundan əvvəl müstəqillik əldə etmiş və xalqımız milli azadlığa qovuşmuşdur. Ondan əvvəl Azərbaycan təxminən 200 il ərzində Rusiyanın, sonra isə Sovetlər İttifaqının tərkibində olmuşdur. İndi Azərbaycan xalqının istiqlaliyyət qazanması, milli azadlığa nail olması ölkəmiz üçün böyük tarixi hadisədir. Hazırda Azərbaycan müstəqil dövlət kimi dünya birliyinə daxildir. Beynəlxalq təşkilatların üzvüdür. Xalqımız özü öz taleyinin sahibidir.

Ancaq bu müstəqillik yolunda Azərbaycanın qarşısında çox mürəkkəb, çətin problemlər durur. Problemlərdən biri ondan ibarətdir ki, müstəqil Azərbaycan Respublikası keçmiş ictimai-siyasi və iqtisadi quruluşdan dünyanın bütün ölkələrinin mənsub olduğu bir quruluşa keçid mərhələsindədir. Şübhəsiz ki, 70 il kommunist ideologiyası ilə, sosialist sistemində yaşamış Azərbaycan xalqı tamamilə yeni bir quruluşa keçərkən çətin problemlərlə rastlaşır. Bu isə Azərbaycan Respublikasını dərin sosial-iqtisadi böhran vəziyyətinə gətirib çıxarmışdır. Bu, təbii haldır, biz həmin mərhələni keçməliyik. Çünki bunsuz yeni sistemə keçmək mümkün deyildir. Bu, keçmiş Sovet İttifaqına daxil olan indiki müstəqil respublikaların hamısına aiddir.

Azərbaycanın vəziyyətini daha da ağırlaşdıran bir səbəb də qonşu Ermənistan Respublikasının ölkəmizə qarşı altı ildən artıq davam edən hərbi təcavüzüdür. Bu təcavüz Azərbaycana çox böyük bəlalar gətirmişdir. Altı ildir ki, Azərbaycan öz torpaqlarını qorumaq, ərazisinin bütövlüyünü, sərhədlərinin toxunulmazlığını təmin etmək üçün qanlı döyüşlər aparır. Müstəqil Azərbaycan dövləti məhz belə bir şəraitdə yaranmışdır və istiqlaliyyət yolunda ilk addımlarını atır.

Mən burada səfərdə olarkən bir daha hiss etdim ki, Azərbaycanın indiki vəziyyəti, ümumiyyətlə, ölkəmiz haqqında və Azərbaycanın Ermənistan tərəfindən hərbi təcavüzə məruz qalması haqqında Səudiyyə Ərəbistanında, Azərbaycandan uzaqda yerləşən bütün ölkələrdə çox az məlumat var, bəzi məlumatlar isə ayrı-ayrı dövlətlərin informasiya kanallarından alındığına görə obyektiv xarakter daşımır. Ona görə də Səudiyyə Ərəbistanının informasiya vasitələri üçün Azərbaycan haqqında qısaca məlumat vermək istəyirəm.

Bildiyiniz kimi, Azərbaycan Qafqazda yerləşir, əhalisi 7 milyon nəfərdir, müsəlman ölkəsidir. Sovetlər İttifaqının tərkibində olduğu 70 il ərzində müsəlman ölkəsi kimi onun dini qadağan edilmişdi. Ancaq buna bax[67-68]mayaraq, azərbaycanlılar öz dinini qoruyaraq nəsildən-nəslə qəlblərində saxlamışlar. Azərbaycan istiqlaliyyət qazandıqdan sonra milli adət-ənənələrimizi bərpa edərkən islam dini də öz yerini tutmuşdur.

Azərbaycanın böyük iqtisadi elmi, mədəni potensialı var. Xalqımız öz tarixi keçmişi, kökləri ilə müsəlman ölkələri, o cümlədən Səudiyyə Ərəbistanı ilə çox möhkəm tellərlə bağlıdır. Bildiyiniz kimi, Azərbaycan islam dinini VII əsrdə qəbul etmişdir. Məni müşayiət edən Səudiyyə Ərəbistanının Həcc naziri belə məlumat verdi ki, onun tədqiqatları islam dininin yayıldığı ilk ölkələrdən birinin Azərbaycan olduğunu göstərir. Bizim adət-ənənələrimiz bir-birinə çox oxşayır və ola bilər, eynidir. Bizə məlumdur ki, Səudiyyə Ərəbistanında – müqəddəs Məkkə və Mədinə şəhərlərində əsrlər boyu azərbaycanlılar da yaşamışlar və bu kökdən olan adamlar indi də yaşayırlar. Bütün bunlar bir daha sübut edir ki, bizim mədəniyyətimizin, mənəviyyatımızın mənbəyi eynidir.

Azərbaycan Respublikası yeraltı və yerüstü sərvətlərlə zəngindir. Başlıca sərvətimiz neftdir. Azərbaycanda neft sənayesinin 150 illik tarixi var. Buna baxmayaraq, onun gələcəyi böyükdür. Azərbaycanın inkişaf etmiş sənayesi, kənd təsərrüfatı məhsulları istehsalı üçün geniş imkanları, böyük elmi mərkəzləri, tanınmış alimləri var. Bizdə çoxlu universitet fəaliyyət göstərir. Ölkədə, demək olar, savadsız adam yoxdur. Belə bir potensialı olan respublika, təəssüf ki, Ermənistanın təcavüzü nəticəsində bu potensialdan istifadə edərək öz həyatını istədiyi kimi qurmaq imkanından məhrumdur.

Ermənistan Azərbaycanla qonşu olan kiçik dövlətdir. Bildiyiniz kimi, ermənilər başqa dinə mənsubdurlar. Onların Azərbaycana təcavüzünün məqsədi torpaqlarımızın bir qismini zəbt edərək öz ərazilərinə birləşdirməkdir. Ayrı-ayrı böyük dövlətlərin informasiya vasitələri bəzən qeyri-obyektiv məlumat verərək, Azərbaycana qarşı bu hərbi təcavüzü iki ölkə arasında sərhəd mübahisəsi kimi izah edirlər, yaxud da hər iki dövlətin eyni dərəcədə günahkar olduğunu göstərməyə çalışırlar. Belə məlumatları ayrı-ayrı böyük dövlətlərdə, əsasən Ermənistana kömək edən, bu təcavüzdə onu dəstəkləyən informasiya vasitələri Azərbaycan haqqında qeyri-obyektiv fikir yaratmaq üçün qəsdən yayırlar. Bu vəziyyətin yaranmasının bir səbəbi də Azərbaycan haqqında həqiqətin başqa ölkələrdə, o cümlədən müsəlman ölkələrində yayılması sahəsində imkanlarımızın zəif olmasıdır.

Əsl vəziyyət bundan ibarətdir ki, 29 min kvadrat kilometr ərazisi və 3,5-4 milyon əhalisi olan Ermənistan Respublikası kimi kiçik bir dövlət 86 min kvadrat kilometr ərazisi və bayaq dediyim kimi, 7 milyon əhalisi olan Azərbaycana hücum edərək onun ərazisinin bir qismini zəbt etmişdir.

Azərbaycan ərazisinin 20 faizi indi Ermənistan silahlı qüvvələrinin işğalı altındadır, 1 milyonadək azərbaycanlı, müsəlman yurd-yuvasını itirərək qaçqın vəziyyətində Azərbaycanın başqa bölgələrində yaşamağa məc[68-69]bur olmuşdur. Ermənistan silahlı qüvvələri ilə Azərbaycan ordusu arasındakı döyüşlər respublikamızın ərazisində gedir. Ermənistan Azərbaycanın ərazisində mövcud olan, keçmişdə Dağlıq Qarabağ Vilayəti adlanan əraziyə iddia edir və orada yaşayan əhalinin çox hissəsi erməni olduğuna görə həmin ərazini Ermənistana birləşdirmək istəyir. Həmin Dağlıq Qarabağda yaşayan 50 min nəfər azərbaycanlı da ermənilər tərəfindən oradan zorla çıxarılmışdır və indi qaçqın vəziyyətindədir. Azərbaycanın bir sıra başqa məntəqələri kimi, Dağlıq Qarabağ da erməni silahlı qüvvələrinin işğalı altındadır.

Azərbaycan xalqı öz torpağını müdafiə edərək çox şəhidlər vermişdir. Xalqımız bu gün də öz ərazisini müdafiə etmək əzmindədir. Hazırda yaranmış vəziyyət heç də Ermənistanın Azərbaycandan güclü olduğunu göstərmir. Dünyanın bir neçə böyük dövləti Ermənistana himayədarlıq edir, bu müharibədə ona kömək edir. Məhz buna görə də Ermənistan silahlı qüvvələri müharibədə müəyyən qədər üstünlük əldə edə bilmişlər. Lakin biz bunu müvəqqəti hal sayırıq. Müstəqil dövlət kimi Azərbaycanlı öz sərhədləri daxilindəki ərazisinin sahibi olmalıdır. Beynəlxalq prinsiplərə, normalara riayət edən dünya birliyi gərək Azərbaycanın ərazi bütövlüyünün və sərhədlərinin toxunulmazlığının təmin edilməsi üçün lazımi və təsirli qərarlar çıxarsın.

Müharibəni Azərbaycan yox, Ermənistan başlamışdır. Biz yalnız öz torpaqlarımızı qoruyuruq və bu müharibəyə sülh yolu ilə son qoymaq istəyirik. Ona görə də beynəlxalq təşkilatların fəaliyyətinə, onların qərarlarına çox ümid bəsləyirik. Ermənistan silahlı qüvvələrinin Azərbaycan torpaqlarını işğal etməsi ilə əlaqədar BMT Təhlükəsizlik Şurası dörd qətnamə qəbul etmişdir. Həmin qətnamələrdə erməni işğalçılarının Azərbaycan torpaqlarından qeyd-şərtsiz çıxması tələbi qəti şəkildə irəli sürülmüşdür. Ancaq Ermənistan bu qətnamələri yerinə yetirmək istəmir.

Məsələnin sülh yolu ilə həll olunması üçün ATƏM və onun tərkibində yaradılmış Minsk qrupu da böyük fəaliyyət göstərir. Biz ATƏM-lə yaxından əməkdaşlıq edir və ona böyük ümid bəsləyirik. Eyni zamanda böyük dövlətlər, o cümlədən Rusiya Ermənistan-Azərbaycan müharibəsinə son qoymaq üçün vasitəçilik səyləri göstərirlər.

İslam Konfransı Təşkilatının da bu məsələyə qarışması çox əhəmiyyətli olardı. Həmin təşkilatın rəhbərləri ilə görüşdə mən bu fikrimi onlara bildirdim. Zənnimcə, İslam Konfransı Təşkilatı bu sahədə ATƏM-lə birlikdə fəaliyyət göstərə bilər.

Regionda sülh yaranması, Azərbaycanın müharibədən xilas olması üçün biz ABŞ-ın fəaliyyətinə də çox ümid bəsləyirik. Mənim ABŞ prezidenti cənab Bill Klintona məktublarımda və onun göndərdiyi cavablarda bu məsələ müzakirə olunur. Mən iyunun 9-da Birləşmiş Ştatların dövlət katibi cənab Kristoferlə İstanbulda görüşəndə də bu məsələni onunla geniş müzakirə etdim. Güman edirik ki, ABŞ, Avropanın böyük dövlətləri bizim vəziyyətimizə biganə qalmayacaqlar və regionda sülhün bərqərar olması, Ermənistan silahlı qüvvələrinin işğal edilmiş torpaqlarımızdan çı[69-70]xarılması, Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunması üçün səylərini əsirgəməyəcəklər.

Dediyim kimi, müharibə ilə əlaqədar biz ağır sosial-iqtisadi vəziyyətdə yaşayırıq. Təsəvvür edin, ölkənin 7 milyonluq əhalisinin 1 milyonu qaçqın vəziyyətindədir. Bununla əlaqədar dünyanın bir çox ölkəsi Azərbaycana humanitar yardım göstərir. Buraya səfərim ərəfəsində Səudiyyə Ərəbistanı rəhbərinin, iki müqəddəs şəhərin xadiminin göstərişinə əsasən Azərbaycan qaçqınlarına iki böyük təyyarə ilə humanitar yardım göndərilmişdir. Beynəlxalq İslam "Nicat" Təşkilatı Bərdə rayonunda yerləşdirilmiş 10 min nəfər, Sumqayıtda sığınacaq tapan 3 min nəfər qaçqını himayəyə götürmüşdür. İran İslam Cümhuriyyəti 100 min qaçqına himayədarlıq edir. Türkiyə Cümhuriyyətinin "Qızıl Ay" Təşkilatı 15-20 min qaçqının təminatını öz üzərinə götürmüşdür. Bütün bunlar bizim vəziyyətimizi xeyli yüngülləşdirir və mən buna görə həmin ölkələrə, təşkilatlara minnətdarlığımı bildirirəm. Lakin bu yardımlar yaralarımızı tamamilə sağalda bilmir. Belə bir vəziyyətdə Azərbaycanın böyük dövlətlərin, xüsusən müsəlman ölkələrinin, o cümlədən Səudiyyə Ərəbistanı kimi zəngin ölkənin yardımına ehtiyacı var və ümidvar olduğumu bildirmək istəyirəm ki, bizə kömək göstəriləcəkdir.

Müstəqil Azərbaycan dövlətinin rəhbər tutduğu prinsipləri bir daha xatırlatmaq istəyirəm. Azərbaycan müstəqil dövlətdir, öz milli azadlığını daim qoruyacaq və bir daha başqa dövlətin əsarəti altına düşməsinə yol verməyəcəkdir. Azərbaycan keçmiş kommunist ideologiyasından, sosializm quruluşundan imtina etmişdir və bir daha bu yola dönməyəcəkdir. Azərbaycan bir dövlət kimi müsəlman dünyasına mənsubdur və islam aləmində öz görkəmli yerini tutmağa çalışacaqdır. Ölkəmizdə demokratik prinsiplər – insan azadlığı, söz və xüsusən din, vicdan azadlığı təmin edilir və bundan sonra da təmin ediləcəkdir. İqtisadiyyatımız gələcəkdə də bazar münasibətləri yolu ilə gedəcək, sahibkarlığa, xüsusi mülkiyyətə, təşəbbüskarlığa geniş meydan açmaq prinsipləri əsas götürüləcəkdir. Beləliklə də Azərbaycanın iqtisadiyyatı inkişaf etmiş ölkələrin iqtisadiyyatı ilə yaxından təmasda olacaqdır.

Bütün bu prinsipləri həyata keçirmək, tutduğumuz yolla irəliləmək, məqsədlərimizə çatmaq üçün Azərbaycanın daxili imkanları var və bunlardan səmərəli istifadə etməyə çalışacağıq. Ancaq Azərbaycanın indi müharibə şəraitində olması, torpaqlarının bir hissəsinin işğal altında qalması, ölkənin sosial-iqtisadi böhran keçirməsi onun vəziyyətini çox ağırlaşdırmışdır. Bu vəziyyətdən çıxmaq üçün biz dost və qardaş ölkələrin köməyinə ümid bəsləyirik.

Azərbaycanın indiki vəziyyəti haqqında ərəb ölkələrində, xüsusən də Səudiyyə Ərəbistanında geniş məlumat yaymaq üçün biz burada Azərbaycanın informasiya mərkəzinin, mədəniyyət mərkəzinin yaradılmasını, eyni zamanda Səudiyyə Ərəbistanının Azərbaycanda mətbuat nümayəndəliyinin və ya bu ölkənin istədiyinə uyğun olaraq başqa təşkilatların yaranmasını alqışlayar və minnətdarlıq hissi ilə qəbul edərdik. [70-71]

Güman edirəm ki, mənim səfərim, buradakı görüşlər və bugünkü mətbuat konfransı ölkələrimiz arasında möhkəm körpü yaradır və hər iki tərəf bundan səmərəli istifadə etməyə çalışmalıdır.

Məni və nümayəndə heyətimizin üzvlərini daha bir müqəddəs ziyarət gözləyir. Sabah biz müqəddəs Mədinə şəhərini ziyarət edəcəyik. Güman edirəm ki, Azərbaycana qayıdandan sonra bu müqəddəs yerlər haqqında daha geniş məlumat verəcəyik və eyni zamanda müstəqil dövlətimizin inkişaf etməsi üçün yeni qüvvə ilə çalışacağıq.

Çıxışımı tamamlayarkən səfərimiz zamanı bizə yaradılan hər cür imkan üçün iki müqəddəs şəhərin xadimi, Səudiyyə Ərəbistanının məliki, əziz dostum və qardaşım Fəhd ibn Əbdül Əziz əl-Səuda bir daha minnətdarlığımı bildirirəm. Səudiyyə Ərəbistanının vətəndaşlarına, qardaşlarımıza səadət və xoşbəxtlik arzulayıram.

Biz bu gün iki böyük müəssisədə – neftayırma zavodunda və bitki yağları istehsalı zavodunda olduq. Həmin müəssisələrlə tanışlıq göstərdi ki, Səudiyyə Ərəbistanında əhalinin elmi və texniki səviyyəsi çox yüksəkdir. Əminəm ki, bütün bu imkanlar Səudiyyə Ərəbistanının daha sürətlə inkişafı üçün əsas yaradır.

**Sual: Əvvəlcə icazə verin, bizə ətraflı məlumat verdiyinizə görə təşəkkürümü bildirim. Sizin bu geniş məlumatınız verəcəyimiz sualların çoxuna cavab oldu. Sizə verəcəyim sual Səudiyyə Ərəbistanının iş adamları ilə görüşdən sonra doğmuşdur. Siz dediniz ki, Azərbaycanın çox zəngin təbii sərvətləri və böyük iqtisadi potensialı var. Bizim iş adamlarımızın sizinlə əməkdaşlıq etməsi üçün hansı şərait yaradıla bilər ?**

**Cavab:** Səudiyyə Ərəbistanının iş adamları üçün Azərbaycanda hər cür şərait yaradılacaqdır. Götürək neft yataqlarının istismarını. Bəzi yataqların birgə istismar olunması barədə Qərb şirkətləri ilə danışıqlar aparırıq. Lakin Azərbaycanda hələ istifadəyə verilməmiş neft yataqları da var. Onların birgə işlənilməsi üçün Səudiyyə Ərəbistanının şirkətlərini Azərbaycana dəvət edirəm. Bunu ona görə deyirəm ki, neft-qaz hasilatı, neft emalı sahəsində sizin ölkənin çox böyük təcrübəsi var. Sənayenin başqa sahələrində, kənd təsərrüfatinda, ticarətdə də iş adamları üçün bütün şərait yaradılacaqdır. Bir halda ki, biz bazar iqtisadiyyatı yolu ilə gedirik, xüsusi mülkiyyəti geniş yaymaq, sahibkarlıq, səhmdarlıq prinsiplərini tətbiq etmək istəyirik, deməli, iş adamları Azərbaycana kapital qoysalar çox böyük mənfəət götürə bilərlər. Xahiş edirəm, bunu qəzetinizdə geniş təbliğ edəsiniz.

**Sual: Siz Ermənistanla gedən müharibə, onun aradan qaldırılması sahəsində Rusiyanın vasitəçiliyi haqqında danışdınız. Ermənistan-Rusiya münasibətləri barədə nə deyə bilərsiniz ?**

**Cavab:** Ermənistanın Rusiya ilə əlaqələri çox sıxdır, onun ərazisində Rusiyanın qoşunları yerləşir. Bildiyiniz kimi keçmiş Sovet İttifaqının ərazisində, xüsusən sərhəd boyunda yerləşən respublikalarda sovet ordusunun böyük qoşun hissələri var idi. SSRİ dağıldıqdan sonra bu qoşun his[71-72]sələri Rusiyanın tabeliyinə keçdi. Həmin respublikalar müstəqillik qazandıqdan sonra öz ordularını yaratdılar. Bəzi respublikalardan, o cümlədən Azərbaycandan keçmiş sovet, indiki Rusiya qoşunları çıxarıldı. İndi Azərbaycanda bir nəfər də olsun rus əsgəri yoxdur. Ancaq Rusiya qoşunları Ermənistandan çıxarılmadı, əksinə, bəlkə bir az da artırıldı. İndi orada Rusiyanın çox güclü qoşunları var və onlar hərbi baza statusu almışdır. Mənə belə gəlir ki, bu faktın özü Ermənistanla Rusiya arasında olan əlaqələri çox əyani surətdə göstərir.

**Sual: Siz Səudiyyə Ərəbistanı və Azərbaycan xarici işlər nazirlərinin ümumi bir sənəd imzalamaları barədə məlumat verdiniz. Həmin sənəddə səfirliklərin açılması nəzərdə tutulurmu ?**

**Cavab:** Keçmiş Sovet İttifaqının indi müstəqillik qazanmış müsəlman respublikalarından Səudiyyə Ərəbistanında öz səfirliyini ilk dəfə Azərbaycan açmışdır. Azərbaycanın səfiri Elman Araslı indi burada əyləşmişdir və üç aydan çoxdur ki, ölkənizdə fəaliyyət göstərir. Səfirdən xahiş edirəm ki, ayağa qalxsın, onu görsünlər. Fəxr edirəm ki, keçmiş SSRİ-yə daxil olan ölkələrdən Səudiyyə Ərəbistanında səfirliyi ilk dəfə Azərbaycan açmışdır. Ümidvaram ki, müstəqillik qazanmış digər müsəlman respublikaları da burada öz səfirliklərini açacaqlar.

Səudiyyə Ərəbistanının Azərbaycandakı səfiri də təyin olunmuşdur. Mən Bakıya qayıdan kimi o, öz etimadnaməsini təqdim edəcəkdir. Təəssüf ki, Səudiyyə Ərəbistanının Türkiyədəki səfiri eyni zamanda Azərbaycanda səfir vəzifəsini yerinə yetirəcəkdir. Mən isə istərdim ki, Azərbaycanda Səudiyyə Ərəbistanının müstəqil səfiri olsun. Səudiyyə Ərəbistanı səfirliyinin Azərbaycanda fəaliyyət göstərməsi üçün prezident kimi mən hər cür şərait yaradacağam.

**Sual: Hörmətli prezident, mənim bildiyimə görə, Dağlıq Qarabağ məsələsi Kəraçidə ilk dəfə olaraq İslam Konfransı Təşkilatının gündəliyinə daxil edilmişdir. Bu yaxınlarda Tunisdə islam dövlətləri xarici işlər nazirlərinin növbəti görüşü olacaqdır. Azərbaycan həmin görüşdə iştirak edəcəkmi və əgər edəcəksə, həmin məsələ ilə bağlı həqiqəti bildirəcəkmi və müəyyən bir qərar layihəsi təqdim edəcəkmi ?**

**Cavab:** İslam dövlətlərinin keçirdikləri hər bir tədbirdə Azərbaycanın nümayəndələri iştirak edəcəklər, buna heç kəsin şübhəsi olmasın. Xarici işlər nazirlərinin Tunisdə keçiriləcək görüşündə Azərbaycan xarici siyasət idarəsinin başçısı Həsən Həsənov iştirak edəcəkdir. O, indi burada əyləşmişdir. Ancaq sizdən xahiş edərdim ki, sizin qəzetiniz və başqa qəzetlər Tunisdə olacaq həmin görüşdə bu məsələnin müzakirə edilməsinə və qəti qərar qəbul olunmasına kömək etsinlər. Biz öz təkliflərimizi, layihəmizi təqdim edəcəyik. Ancaq arzu edərdim ki, islam dövlətlərinin hamısı həmin təkliflərin həyata keçirilməsi üçün səy göstərsin.

**Sual: Ermənistan ilə Azərbaycan arasındakı müharibə neçə ildir** [72-73] **davam edir. Bu müddətdə islam dünyasından nə kimi kömək görmüsünüz ?**

**Cavab:** Az-çox kömək görmüşük. Ancaq qeyri-islam dövlətlərinin Ermənistana etdikləri yardım qədər islam dövlətləri Azərbaycana kömək göstərsəydilər, biz erməni silahlı qüvvələrini ərazimizdən çoxdan qovaraq torpaqlarımızı azad etmişdik.

**Sual: Səudiyyə Ərəbistanımdan hər hansı şirkət və ya biznesmen Azərbaycana kapital qoymuşdurmu və ya belə qərara gəlmişdirmi ?**

**Cavab:** Mənə məlumat verdilər ki, belələri yoxdur. Səudiyyə Ərəbistanına səfərimin bir məqsədi də odur ki, müstəqil Azərbaycan Respublikasının qapıları bu ölkə üçün açıq olsun. Hamını Azərbaycana dəvət edirəm.

Hamınıza təşəkkürümü bildirirəm. Siz mətbuat nümayəndələrini də Azərbaycana dəvət edirəm ki, gəlib ölkəmizlə bilavasitə tanış olasınız və Azərbaycan haqqında həqiqəti ərəb ölkələrində, bütün müsəlman dünyasında yayasınız. [73-74]

## MƏDİNƏ ŞƏHƏRİNDƏKİ PEYĞƏMBƏR MƏSCİDİNİN ŞƏRƏF KİTABINA YAZILMIŞ ÜRƏK SÖZLƏRİ

*Bismillahi-rəhmanir-rəhim!*

*Müqəddəs Mədinə şəhərini, islamın müqəddəs abidələrini, Həzrəti Məhəmməd peyğəmbərin məqbərəsini, məscidini ziyarət etdiyim üçün bir müsəlman kimi özümü xoşbəxt hesab edirəm.*

*Allaha şükür olsun ki, uzun illər qəlbimdə yaşayan arzuma, niyyətimə nail oldum. Bu tarixi hadisə qəlbimdə böyük həyəcan və rahatlıq hissi yaratdı. Bir daha islam mənbəyinin nə qədər ümumbəşəri, fəlsəfi, elmi əsaslara malik olduğunu dərk etdim. Böyük Allahın böyüklüyünü dərk etdim.*

*İslamın dünyada yayılması üçün, islam abidələrinin bütün ziyarət edənlərdən ötrü paklıq şəraitində olması üçün Həzrəti Məhəmməd peyğəmbərin məqbərəsinin ətrafında yaradılmış məscid kompleksləri məni heyran etdi. Xüsusən son illərdə görülən işlər, yaradılmış möhtəşəm, əzəmətli məscid binaları böyük heyrət və ehtiram hissi doğurur. İki müqəddəs şəhərin xadimi cənab Fəhd ibn Əbdül Əziz əl-Səudun gördüyü işlər əvəzsizdir, böyük minnətdarlıq hissi doğurur. Bu müqəddəs şəhəri yaşadanlara, əsrlərdən-əsrlərə abadlaşdıranlara, xüsusən əziz dostum, qardaşım, iki müqəddəs şəhərin xadiminə hörmət və ehtiramımı bildirirəm.*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*12 iyul 1994-cü il*

## MƏSCİDLƏ TANIŞLIQDAN SONRA JURNALİSTLƏRLƏ GÖRÜŞDƏ BƏYANAT

Müqəddəs islam abidələrini ziyarət edərkən dinimizin elmi, fəlsəfi dərinliyini hiss edirsən və bu dini yaradanlara, əsrlər boyu belə abidələr yaradıb bugünkü nəsillərə çatdıranlara səcdə edirsən. Çox əzəmətlidir, hər bir müsəlmanda, o cümlədən məndə də böyük iftixar hissi oyadır. Deməli, bizim mənsub olduğumuz din qüdrətlidir, böyükdür, dünyada öz yerini tutub. Burada yaradılmış abidələr islam dininin bütün digər vəsaitləri, yəni müqəddəs kitabımız Qurani-Şərif, Həzrəti Məhəmməd peyğəmbərin qoyduğu yol ilə bərabər dinimizi yaşadacaqdır. Bu müqəddəs yerləri – Məkkəni, Mədinəni, Kəbəni və Həzrəti Məhəmməd peyğəmbərin məqbərəsi[74-75]ni ziyarət edərkən indiki nəslin və peyğəmbərin qoyduğu yolla gedən şəxslərin fəaliyyətinə yüksək qiymət verirəm.

Bu gün məscidə tanışlıqdan sonra iki müqəddəs şəhərin xadiminin, Səudiyyə Ərəbistanının bugünkü rəhbərinin, bizim əziz dostumuz və qardaşımızın nə qədər böyük xidmətləri olduğunu bir daha görürəm, hiss edirəm və bir müsəlman kimi bunlara görə qəlbimdən gələn təşəkkürümü və minnətdarlığımı bildirirəm.

*12 iyul 1994-cü il*

## SƏUDİYYƏ ƏRƏBİSTANINDAN VƏTƏNƏ YOLA DÜŞƏRKƏN MƏDİNƏ HAVA LİMANINDA ÇIXIŞ

*13 iyul 1994-cü il*

Mən beşinci gündür, Səudiyyə Ərəbistanındayam. Buraya iki müqəddəs şəhərin xadimi, Səudiyyə Ərəbistanının məliki Fəhd ibn Əbdül Əziz əl-Səud cənablarının dəvəti ilə gəlmişəm. Bir neçə dəqiqədən sonra ölkənizi tərk edəcəyəm. Mən bu səfəri, bu ziyarəti çox uğurlu hesab edirəm və burada bütün günlərdən çox razıyam. Səfər günlərində mən iki müqəddəs şəhərin xadiminin qayğı və diqqətini hər dəqiqə hiss etmişəm. Bunun nəticəsində bir müsəlman kimi mənə İslam aləminin ən müqəddəs yerlərini ziyarət etmək imkanı yaradılıbdır. Buna görə özümü xoşbəxt hesab edirəm.

Eyni zamanda son illərdə həm Ciddədə, həm də Məkkədə və Mədinədə iki müqəddəs şəhərin xadiminin bu müqəddəs yerləri abadlaşdırmaq, genişləndirmək və dünya müsəlmanlarının ibadətinə şərait yaratmaq üçün nə qədər işlər gördüyünün şahidi oldum. Burada tikilmiş, yaradılmış məscidlər, məbədlər, ziyarət yerləri məni heyran etdi və bir müsəlman kimi məndə böyük hörmət və ehtiram hissi doğurdu. Dost və qardaş ölkəni tərk edərkən iki müqəddəs şəhərin xadimi, Səudiyyə Ərəbistanının məliki, mənim dostum və qardaşım Fəhd ibn Əbdül Əziz əl-Səud cənablarına xüsusi təşəkkürümü və minnətdarlığımı bildirirəm. İslam aləmi üçün gördüyü işlərə görə ona təşəkkür edirəm. Bu fürsətdən istifadə edib Səudiyyə Ərəbistanının xalqına, bütün əhalisinə sevgi və məhəbbətimi bildirirəm. Onları bir daha ürəkdən salamlayıram və bu qardaş xalqa səadət və xoşbəxtlik arzulayıram. Cənab əmir, Mədinədə olduğum vaxt mənə göstərdiyiniz diqqətə görə şəxsən Sizə təşəkkür edirəm.

## SƏUDİYYƏ ƏRƏBİSTANINDAN VƏTƏNƏ YOLA DÜŞƏRKƏN JURNALİSTLƏRLƏ GÖRÜŞDƏ BƏYANATI

Bu səfəri ölkəmizin xarici siyasətində böyük nailiyyət kimi qiymətləndirmək olar. Səudiyyə Ərəbistanı dünyanın görkəmli ölkələrindən [75-76]biridir, həm islam dünyasında, həm də ümumdünya birliyində layiqli yer tutur, iqtisadi cəhətdən inkişaf etmiş bir ölkədir. Səudiyyə Ərəbistanı tarixi ənənələri və islam dini ilə əlaqədar Azərbaycanla bağlı bir ölkədir. Ona görə də belə bir ölkə ilə əlaqə yaratmaq və gələcəkdə əməkdaşlığı daha da inkişaf etdirmək gənc, müstəqil Azərbaycan Respublikası üçün çox gərəklidir.

Qeyd etmək lazımdır ki, indiyədək Səudiyyə Ərəbistanı ilə Azərbaycan arasında heç bir əlaqə olmamışdır. Biz cəmi üç ay qabaq bu ölkəyə öz səfirimizi təyin etmişik. İndi, səfər günlərində gördüm ki, Səudiyyə Ərəbistanında Azərbaycan haqqında çox az məlumat var. Bir çox məlumatlar böyük ölkələrin informasiya orqanlarının mənbələrindən gəlir ki, onların da çoxu qeyri-obyektiv xarakter daşıyır. Ona görə də Səudiyyə Ərəbistanına gəlmək, burada Azərbaycanı tanıtmaq, ölkəmizin həqiqi vəziyyətini təbliğ etmək özü bir nailiyyətdir.

Mən Səudiyyə Ərəbistanının dövlət başçısı ilə və digər rəhbər şəxslərlə görüşlərimi və söhbətlərimi çox yüksək qiymətləndirirəm və hesab edirəm ki, onların hamısı Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasında gələcək əlaqələrin inkişaf etməsi üçün yaxşı əsasdır.

Dini mərasimlərdə iştirakımız və rəsmi görüşlərimiz bir-biri ilə bağlıdır. Bura islam ölkəsidir. İslamın müqəddəs abidələri burada yerləşir. Ona görə də Səudiyyə Ərəbistanının həm daxili, həm də xarici siyasətində islamı, müqəddəs Məkkə və Mədinəni təbliğ etmək və onlarla bağlı söhbətlər aparmaq bu ölkə üçün səciyyəvi cəhətdir. Ziyarətdən başqa, bizim çox səmərəli, əhəmiyyətli danışıqlarımız olub. Bu, xüsusilə Səudiyyə Ərəbistanının məliki Fəhd ibn Əbdül Əziz əl-Səudla danışıqlara aiddir.

Səudiyyə Ərəbistanı Nazirlər Kabinetinin iclasında Azərbaycanın iqtisadi problemləri ilə bağlı məsələ müzakirə edilmiş və cənab məlik Fəhd ibn Əbdül Əziz əl-Səudla görüşdə də bu haqda geniş söhbət olmuşdur. Onun tapşırığı ilə Həcc naziri Nazirlər Kabinetinin həmin iclası barədə mənə məlumat verdi, orada Azərbaycanın Ermənistan silahlı qüvvələri tərəfindən təcavüzə məruz qalması, torpaqlarımızın işğal edilməsi və bununla əlaqədar olaraq Səudiyyə Ərəbistanının beynəlxalq təşkilatlarda, beynəlxalq aləmdə mövqeyinin müəyyən edilməsi məsələsinin müzakirə olunduğunu bildirdi. Mövqe də ondan ibarətdir ki, Səudiyyə Ərəbistanı dövləti və məlik Fəhd ibn Əbdül Əziz əl-Səud Ermənistanın Azərbaycana təcavüzünü qəti pisləyir və hesab edir ki, təcavüzkar məhkum edilməli, işğal olunmuş torpaqlardan çıxmalı və Azərbaycanın ərazi bütövlüyü təmin olunmalıdır. İclasda Azərbaycanla iqtisadi əlaqələr yaradılması barədə də məsələ müzakirə olunmuş və qərara alınmışdır ki, – həm də dövlət başçısının belə bir əmri var – yaxın günlərdə Azərbaycana böyük bir nümayəndə heyəti göndəriləcək, respublikanın bugünkü ictimai-siyasi, habelə iqtisadi vəziyyəti haqqında məlumatlar toplayacaqdır. Nümayəndə heyəti bizim təkliflərimizə yerindəcə baxacaqdır. Məlikə bu barədə məlumat

veriləcək və bundan sonra Fəhd ibn Əbdül Əziz əl-Səud öz ölkəsinin Azərbaycanla iqtisadi əlaqələri barədə qərarlar qəbul edəcəkdir. [76-77]

**FRANSA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ FRANSUA MİTTERAN**
**CƏNABLARINA**

Zati-aliləri!

Fransa Respublikasının milli bayramı – Bastiliyanın alınması günü münasibətilə Sizi və bütün dost fransız xalqını şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi qəlbdən təbrik edir, sülh, əmin-amanlıq və tərəqqi arzulayıram.

Sizi əmin edirəm ki, Azərbaycan Respublikası regiondakı bütün münaqişələrin, həmçinin Qarabağ münaqişəsinin ATƏM çərçivəsində və sülh yolu ilə həll edilməsinin tərəfdarıdır və bundan sonra da iqtisadi islahatlar və demokratiya yolu ilə addımlayacaqdır.

Əminəm ki, Parisdə aparılan danışıqlar xalqlarımız arasında mövcud olan əlaqələrin daha da möhkəmləndirilib inkişaf etdirilməsinə təkan verdi.

Fürsətdən istifadə edib Sizə bir daha öz dərin ehtiramımı izhar edirəm.

Hörmətlə,

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*14 iyul 1994-cü il* [77-78]

**UKRAYNA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ LEONİD KUÇMA**
**CƏNABLARINA**

Hörmətli cənab prezident!

Sizi Ukrayna prezidenti seçilməyiniz münasibətilə ürəkdən təbrik edir, Sizə möhkəm cansağlığı, xoşbəxtlik, bütün Ukrayna xalqının tərəqqisi naminə yorulmaz fəaliyyətinizdə uğurlar arzulayıram.

Azərbaycanı Ukrayna ilə dostluq telləri bağlayır. Ümidvaram ki, ölkələrimiz arasında dostluq və sıx əməkdaşlıq xalqlarımızın sülh işinə, tərəqqisi və əmin-amanlığı işinə xidmət edəcəkdir.

Fürsətdən istifadə edərək, Sizə və bütün Ukrayna xalqına sülh, dinclik və xoşbəxtlik arzulayıram.

Hörmətlə,

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*14 iyul 1994-cü il* [78-79]

**BELARUS RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ ALEKSANDR LUKAŞENKO CƏNABLARINA**

Hörmətli cənab prezident!

Sizi Belarus Respublikasının prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə ürəkdən təbrik edir, Sizə və bütün Belarus xalqına xoşbəxtlik, uğurlar və tərəqqi arzulayıram.

Fürsətdən istifadə edərək, əmin olduğumu bildirirəm ki, Azərbaycan-Belarus əməkdaşlığı bundan sonra da xalqlarımızın rifahı naminə inkişaf edəcəkdir.

Hörmətlə,

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*14 iyul 1994-cü il* [79-80]

## 22 İYUL – MİLLİ MƏTBUAT GÜNÜ MÜNASİBƏTİLƏ TƏBRİK

Əsası Həsən bəy Zərdabinin "Əkinçi" qəzeti ilə qoyulmuş, şərəfli tarixə və zəngin ənənələrə malik milli mətbuatımız Azərbaycan ictimai fikrinin inkişafında, xalqımızın mədəni-mənəvi təkamülündə mühüm rol oynamışdır. Milli azadlıq hərəkatının daim ön sıralarında getmiş Azərbaycan jurnalistikası cəmiyyət qarşısında duran vəzifələrin müəyyənləşdirilməsi və həlli işinə əhəmiyyətli töhfələr vermişdir. Müstəqil Azərbaycanın iqtisadi, siyasi və sosial problemləri, sərhədlərimizin toxunulmazlığı, respublikamızın ərazi bütövlüyü uğrunda gedən qanlı müharibə bu gün də qələm sahiblərimizi qayğılandıran başlıca mövzulardandır. Mətbuat və söz azadlığı şəraitində fəaliyyət göstərən Azərbaycan jurnalistləri bu çətin və şərəfli vəzifələri ləyaqətlə yerinə yetirməklə yanaşı, beynəlxalq aləmdə dövlətimizin demokratik imicinin formalaşdırılmasına da xidmət edirlər.

Milli Mətbuat günü münasibətilə jurnalistləri və bu sahədə çalışan bütün işçiləri ürəkdən təbrik edir, onlara Vətənimizin daha işıqlı gələcəyi naminə ağır və şərəfli fəaliyyətlərində uğurlar diləyirəm.

**HEYDƏR ƏLİYEV**

*21 iyul 1994-cü il* [80-81]

## SƏUDİYYƏ ƏRƏBİSTANINA – MÜQƏDDƏS MƏKKƏ VƏ MƏDİNƏ ŞƏHƏRLƏRİNƏ ZİYARƏTDƏN SONRA BAKIDA TƏZƏPİR MƏSCİDİNDƏ DİN XADİMLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

*29 iyul 1994-cü il*

Hörmətli qardaşlar, hörmətli həmvətənlər.

Sizin hamınızı və sizin simanızda islam dininə etiqad edənləri, bütün azərbaycanlıları, müsəlmanları səmimi qəlbdən salamlayır, hər birinizə, müstəqil Azərbaycanımıza bu ağır dövrdə dözüm, dəyanət arzulayıram. Sizin hamınıza həyatda səadət və xoşbəxtlik diləyirəm.

Mətbuat, televiziya və digər informasiya orqanları vasitəsilə sizə məlumdur ki, mən Səudiyyə Ərəbistanının məliki, iki müqəddəs şəhərin xadimi Fəhd ibn Əbdül Əziz əl-Səud cənablarının dəvəti ilə bu ölkədə rəsmi səfərdə olmuşam və həmin ölkədəki müqəddəs yerləri ziyarət etmişəm, respublikamız üçün çox əhəmiyyətli olan danışıqlar aparmışam. Müsəlman aləmində, ərəb dünyasında, ümumən dünyada görkəmli yer tutan Səudiyyə Ərəbistanı ilə Azərbaycan arasında əlaqələr yaranması üçün lazımi işlər görmüşəm.

Azərbaycan Respublikası öz müstəqilliyinin ilk addımlarını atır. Respublikamız öz müstəqilliyini tam möhkəmləndirmək və gələcəkdə də öz müstəqilliyinin sahibi olmaq üçün dünya dövlətləri ilə qarşılıqlı surətdə faydalı əlaqələr qurmağa çalışır. Bilirsiniz ki, Azərbaycanın prezidenti kimi bu, mənim xarici siyasətimin əsas istiqamətidir. Bu baxımdan Səudiyyə Ərəbistanı məlikinin, iki müqəddəs şəhərin xadiminin məni bu ölkəyə rəsmi səfərə dəvət etməsini məmnuniyyətlə qəbul etdim və həmin səfəri, ziyarəti həyata keçirdim.

Bu səfərim başqa ölkələrə səfərlərimdən xeyli fərqlənir. Fərq ondan ibarətdir ki, Səudiyyə Ərəbistanı dünya birliyində özünəlayiq nüfuzlu yer tutur, bu ölkənin islam aləmində görkəmli yeri var, dünya siyasətinə təsiri böyükdür. Azərbaycanın belə bir dövlətlə əməkdaşlıq etməsi, həm siyasi, iqtisadi sahələrdə, həm də elm, mədəniyyət sahəsində əlaqələr qurması respublikamızın beynəlxalq aləmdə mövqeyinin möhkəmlənməsində böyük əhəmiyyətə malikdir.

Bu səfəri fərqləndirən digər cəhət ondan ibarətdir ki, həmin ölkədə müsəlmanların müqəddəs ziyarətgahları yerləşir: Məkkə, Kəbə, Mədinə, Həzrəti Məhəmməd Peyğəmbərin qəbri və məscidi hər bir müsəlman üçün olduqca əziz və müqəddəsdir. Bu müqəddəs yerlərdə Azərbaycanın [81-82] bu günü və gələcəyi haqqında arzuları bəyan etmək, indiki ağır dövrdə Allahdan xalqımıza rəhm və kömək diləmək mənim üçün böyük şərəf idi.

Səfər çox səmərəli olmuş və onun ən böyük nəticəsi budur ki, Azərbaycan dövləti ilə Səudiyyə Ərəbistanı kimi nüfuzlu bir ölkə arasında, habelə Səudiyyə Ərəbistanının məliki ilə Azərbaycan prezidenti arasında çox yaxşı əlaqələr yaranmışdır. Biz çalışacağıq ki, bu əlaqələri genişləndirək, inkişaf etdirək. Əminəm ki, bu əlaqələr gələcəkdə Azərbaycan Respublikası iqtisadiyyatının, mədəniyyətinin inkişafı üçün çox səmərəli, əhəmiyyətli olacaqdır.

Səfərin əhəmiyyəti bir də ondan ibarətdir ki, mən və məni müşayiət edən şəxslər müsəlmanların müqəddəs yerlərini ziyarət etdik. Mən Məkkədə, Kəbənin önündə müsahibə verərkən demişdim və bunu bir daha təkrar edirəm ki, müqəddəs yerləri ziyarət etmək, özümü o yerlərlə bağlamaq mənim illərlə, on illərlə ürəyimdə gəzdirdiyim ən böyük arzum idi. Ona görə də bu ziyarət mənim üçün çox böyük həmiyyət kəsb edir.

Biz Məkkədə müsəlmanların ən müqəddəs yerlərini ziyarət edə bildik. Məkkə şəhəri özü müqəddəs bir yerdir. Bilirsiniz ki, Məkkənin girəcəyinə hələ 50 kilometr qalmış möhkəm yoxlanış məntəqələri var və qeyri-müsəlman şəxs bu şəhərə daxil ola bilməz.

Kəbəni görmək, müqəddəs Qara Daşı öpmək, ona toxunmaq, onu ziyarət etmək, Kəbənin içərisinə daxil olmaq, orada namaz qılmaq, dua etmək mənə nəsib oldu.

Müqəddəs adət-ənənələrə görə biz Kəbənin ətrafına dolandıq, iki dağ arasında olan məsafəni qət etdik. Biz ziyarətin əsrlərdən-əsrlərə keçən bütün qaydalarına riayət etdik. Əlbəttə, bu, məcburi deyil. Lakin bu, şəxsən mənim illərlə qəlbimdə yaşatdığım arzular idi. Bu arzular həm o yerləri görməkdən, həm də adət-ənənələrə uyğun olaraq ibadət etməkdən ibarət idi. Çox xoşbəxtəm ki, bunların hamısı mənə nəsib oldu. Mən orada namaz qıldım, dua etdim, qəlbimdə olan arzularımı bəyan etdim.

Bildiyiniz kimi, Mədinə şəhərində də olmaq, oranı ziyarət etmək hər bir müsəlman üçün müqəddəs bir işdir. Mən Mədinədə Həzrəti Məhəmməd Peyğəmbərin qəbrini ziyarət etdim. Peyğəmbərin namaz qıldığı məbədin qarşısında namaz qıldım, onun qəbri üzərində o dövrdə tikilmiş məsciddə oldum, orada ibadət etdim, Peyğəmbərin namaz qıldığı minbərin pilləsində oturub, Quranı öpüb gözümə, alnıma basdım. Mədinədəki bütün ziyarət yerlərini ziyarət etdim.

Orada müxbirlər hansı hisslər keçirdiyimi, ürəyimdə hansı arzular olduğunu məndən tez-tez soruşurdular. O zaman da demişdim, sizin qarşınızda da deyirəm ki, mən orada indiyə qədərki həyatımda ən yüksək mənəvi hisslər keçirdim, qəlbim sevindi, ruhum şadlandı. Çünki mən anadan müsəlman kimi doğulmuşam, müsəlman kimi yaşamışam. Nəhayət, müsəlman üçün müqəddəs olan bu yerləri ziyarət etmək mənim ən böyük arzum idi. İndi bu arzuma, bu niyyətimə çatmışam.

Orada dua edərkən Allahdan bir arzum olmuşdur ki, Azərbaycanın [82-83] müstəqilliyini daimi etsin, respublikamızı bugünkü bəlalardan xilas etsin. Azərbaycanın ərazi bütövlüyünü təmin etmək üçün bizə yardımını əsirgəməsin, Azərbaycanın sərhədlərinin toxunulmazlığını daim təmin etməkdə həmişə bizə köməkçi olsun, Azərbaycanın müharibə vəziyyətindən çıxması, müharibəyə son qoyulması üçün həyata keçirdiyimiz tədbirlərin müvəffəqiyyətlə başa çatmasına kömək etsin.

Bilirsiniz ki, indi respublikamız ağır vəziyyətdədir, insanlarımızın həyat şəraiti çətindir, ağırdır. Ancaq Azərbaycanın iqtisadi, elmi, mədəni, mənəvi potensialı çox böyükdür. Azərbaycan bu müharibədən, Ermənistan silahlı qüvvələrinin təcavüzündən xilas ola bilsə, öz ərazilərinin tam sahibi ola bilsə, sərhədlərinin tam hakimi ola bilsə, xalqımızın yaşayış tərzi qısa müddətdə xeyli dəyişəcəkdir. Əminəm ki, Azərbaycan xalqı öz müstəqil dövlətində, ölkəsində maddi və mənəvi mənbələrindən bəhrələnərək firavan və xoşbəxt yaşayacaqdır. Mən həmin məqsədlərə çatmaq üçün bu müqəddəs yerlərdə dua etdim, öz arzularımı bildirdim.

O müqəddəs yerlərdə arzularımdan biri də bu oldu ki, vətən, torpaq yolunda, Azərbaycanın müstəqilliyi yolunda şəhid olanlara Allah bir daha rəhmət eləsin (**Yerdən səslər**: Amin). Bir arzum da bu oldu ki, şəhidlərin ailələrinə, qohum-əqrəbasına Allah səbir versin, onlara bundan sonra da edəcəyimiz köməyin daha çox olmasına şərait yaratsın. (**Yerdən səslər**: Amin). Mənim Allahdan arzum, diləyim bu oldu ki, vətən yolunda yaralanmış, xəsarət almış, əlil olmuş adamların sağalmasına kömək etsin, onların gələcəkdə sağlam yaşamasının təmin olunmasına yardım etsin (**Yerdən səslər**: Amin). Mən o müqəddəs yerlərdə Allah-təaladan arzu etdim ki, Azərbaycan xalqını hifz etsin, xalqımızın bundan sonra heç vaxt heç bir bəlaya düçar olmasına yol verməsin (**Yerdən səslər**: Amin). Azərbaycan xalqı öz ölkəsində, öz müstəqil dövlətində daim şən və firavan yaşaya bilsin (**Yerdən səslər**: Amin). Güman edirəm ki, əməlisaleh olduğumuza görə bizim bu dualarımız, arzularımız qəbul olunacaq (**Yerdən səslər**: İnşallah) və güman edirəm ki, biz hamımız birlikdə Azərbaycanın bu ağır vəziyyətdən çıxmasına çalışacağıq (**Yerdən səslər**: İnşallah).

Mən müqəddəs yerləri ziyarətdən bir neçə gün bundan qabaq qayıtmışam. İş yerimdən kənara ilk addımım buraya – Təzəpir məscidinə olub. Ziyarətdə də biz Allahın birinci evində, müsəlmanların evi Kəbədə, Məkkədə, Mədinədə olmuşuq. Respublikamızda da mən ilk addımı Allah evinə, məscidə atmışam, sizin qarşınızda çıxış edirəm. Bir sizin qarşınızda yox, bütün Azərbaycan xalqı qarşısında öz fikirlərimi deyirəm.

Belə bir şəraitdə, dövrdə bu duyğularla, hisslərlə yaşamalıyıq. Bu ağır vəziyyətdən çıxmaq üçün xalqımıza dözüm, dəyanət lazımdır. Mən bunu Allahdan arzu etmişəm. İndi üzümü sizə, xalqa tutub müraciət edirəm: Xalqımız dözümlü, dəyanətli, cəsarətli olsun ki, biz düşmənin təcavüzünün qarşısını ala bilək.

Bizim siyasətimiz sülhsevər siyasətdir. Müharibəyə son qoymaq istəyirik, müharibəni sülhlə qurtarmaq istəyirik. Ancaq sülh ədalətli olmalıdır. Ədalət də ondan ibarətdir ki, Azərbaycanın işğal olunmuş bütün ərazisi [83-84] Ermənistan təcavüzkarlarından azad edilməli, Azərbaycan xalqı bütün ərazisinin hakimi olmalıdır, Azərbaycan Respublikasının sərhədləri toxunulmaz olmalıdır. Biz bu şərtlər əsasında sülh danışıqları aparırıq, məsələnin sülh yolu ilə başa çatdırılmasına çalışırıq. Güman edirəm ki, biz buna nail olacağıq (**Yerdən səslər:** Amin).

Biz müstəqil dövlətik. Müstəqil dövlətin özünəməxsus qüdrəti olmalıdır. Bu qüdrətin əsasmı xalq və onun bir hissəsi olan ordu təşkil edir. Bizim güclü ordumuz olmalıdır. Güclü ordu ona görə lazımdır ki, biz sülh danışıqlarını cəsarətlə apara bilək. Qüdrətli ordumuz olmalıdır ki, biz ərazimizin təhlükəsizliyini daim qoruya bilək, öz torpaqlarımızı, ölkəmizi müdafiə edək. Bizim qüdrətli, möhkəm ordumuz olmalıdır, ona görə ki, müstəqil Azərbaycan dövləti daim qüdrətli olsun. O müqəddəs yerlərdə mənim Allahdan arzum bu olub ki, müstəqil Azərbaycan dövlətinin qüdrətini daha da artırsın (**Yerdən səslər**: Amin). Biz bu işə bütün səylərimizi qoymuşuq və qoyacağıq. Ancaq bizə ilahinin gücü lazımdır. Güman edirəm ki, bizdə bu güc olacaqdır. Allah ordumuzu gücləndirsin, onun qüdrətini artırsın (**Yerdən səslər**: Amin).

Bu gün bu müqəddəs Allah evindən ordumuza, əsgərlərimizə, zabitlərimizə müraciət edirəm və əmin olduğumu bildirmək istəyirəm ki, onlar Azərbaycanın müstəqilliyinin, ərazi bütövlüyünün keşiyində daim cəsarətlə duracaq və müstəqil dövlətimizin qüdrətini daha da gücləndirəcək, artıracaqlar (**Yerdən səslər**: Amin). Müstəqilliyimizi daimi etmək, ərazilərimizi bütün təcavüzlərdən – bugünkü və gələcək təcavüzlərdən qorumaq üçün cəmiyyətimizə, xalqımıza, ölkəmizə milli birlik, mənəvi həmrəylik, vətəndaş həmrəyliyi lazımdır.

Ölkəmiz demokratiya yolu ilə gedir. Mən bunu Səudiyyə Ərəbistanında da bəyan etmişəm. Ölkəmiz bütün dünya üçün açıqdır. Bizim dövlətimiz, ölkəmiz öz milli, mənəvi, dini dayaqlan üzərində qurulub və bundan sonra da yaşayacaqdır. Amma bunların hamısını təmin etmək üçün gərək hər bir vətəndaşımız öz vətəndaşlıq borcunu yerinə yetirsin, öz vətəndaşlıq məsuliyyətini dərk etsin. Əgər hər bir vətəndaş, hər bir azərbaycanlı dərk edə bilsə ki, müstəqil Azərbaycanın yaşaması, qalib gəlməsi və gələcəyə uğurla getməsi onun kiçik fəaliyyətindən də asılıdır, o bunu edəcəkdir. Sizin də, bizim də borcumuz ondan ibarətdir ki, hər bir

vətəndaşı – gəncləri də, yaşlı adamları da, sizin kimi müdrik ağsaqqalları da, dindarları da – hamını agah edək ki, bu ağır dövrümüzdə hər bir vətəndaşın, hər bir azərbaycanlının mövqeyindən, fəaliyyətindən, cəmiyyətə göstərdiyi xidmətdən dövlətimizin, cəmiyyətimizin müqəddəratı, bu günü və gələcəyi asılıdır.

Son illər respublikamızda cürbəcür qarışıqlıqlar olur. Bunlara son qoymaq lazımdır. Ayrı-ayrı qüvvələrdən biri ordan hakimiyyətə gəlmək istə[84-85]yir, biri burdan müxalifətdə durur. Kim müxalifətdə durursa-dursun, ancaq Vətəninə, xalqına, mənəviyyatına, məsləkinə müxalifətdə durmasın. Ayrı-ayrı adamlar, qruplar öz şəxsi, bəzən də çirkin niyyətlərinə, məqsədlərinə nail olmaq üçün Vətənimizi də, torpağımızı da, mənəviyyatımızı da qurban verməyə çalışırlar və qurban verməyə hazırdırlar. Belələri bizim içərimizdə yaşamamalıdır. Biz belələrini ifşa etməliyik.

Respublikamızda son illər gedən proseslər cürbəcür ziddiyyətlər yaradır. Bəzi adamlarda bir-birinə qarşı kin-küdurət, ədavət, qisasçılıq hissləri yaranıb. Bunların hamısını kənara qoymaq lazımdır. Allah da belə buyurub, Qurani-Kərim də bunu bizdən tələb edir. Dinimizin əsasını qoyan və mənim bu günlərdə məbədini ziyarət etdiyim Həzrəti Məhəmməd peyğəmbər də bizə bu yolu göstərir. Ona görə də mən həm sizə, bütün dindarlara, həm də bütün azərbaycanlılara müraciət edirəm. O müqəddəs yerləri ziyarət edəndən sonra bir daha mənəvi cəhətdən özümü hüquqlu hesab edərək xalqa müraciət edirəm ki, xalq birləşsin. Cəmiyyətimizdə, xalqımızın içində olan, ölkəmizin bu gününə, gələcəyinə zərər vuran adamlar kənara çəkilsinlər, onlara yol verilməsin.

Biz nə qədər bir olsaq, bir-birimizin əllərindən nə qədər möhkəm tutsaq, bir-birimizə nə qədər yaxın olsaq, müstəqil Azərbaycanın yaşamasına o qədər çox nail olacaq, xalqımız onun başına gələn bugünkü bəlalardan xilas olacaq, torpaqlarımız Ermənistanın işğalından azad olacaq, Azərbaycanda əsrlərdən-əsrlərə keçmiş milli, mənəvi dəyərlərimiz möhkəmlənəcək, daha dərin kök salacaq, inkişaf edəcək və Azərbaycan xalqı dünya xalqları içərisində ləyaqətli səviyyəyə qalxacaqdır.

İnsan hər bir səfərdən, ziyarətdən qayıdarkən bir töhfə gətirir. Oradan gələn ən böyük töhfə mənə verilmiş Qurani-Kərimdir. Xoşbəxtəm ki, orada mənə Qurani-Kərimin çox nüsxələrini bağışladılar. Mən bunları gətirmişəm və şeyxülislama təqdim edirəm ki, Azərbaycanın məscidlərinə paylasın. Gətirdiyim bu Quranı və çox gözəl səslə oxunan Quran ayəsi yazılmış kasetləri şəxsən Təzəpir məscidinə hədiyyə edirəm. Yəni müqəddəs yerdə mənə verilmiş bu hədiyyələri gətirib buraya çatdırmağı özümə borc bilirəm. Mən oradan, müqəddəs Kəbənin müqəddəs "Zəm-zəm" suyundan da bir qədər gətirmişəm, onu da Təzəpir məscidinə verirəm. Güman edirəm ki, bu gün Təzəpir məscidinə toplaşanlar mənim Kəbədən, Məkkədən gətirdiyim "Zəm-zəm" suyundan istifadə edəcəklər.

Səfərimizin bir cəhəti də ondan ibarətdir ki, Səudiyyə Ərəbistanının məliki, iki müqəddəs şəhərin xadimi Fəhd ibn Əbdül Əziz Əl-Səud cənabları mənim üçün və məni müşayiət edən şəxslər üçün şərait yaratdı ki, bütün yerlərdə televiziya, foto çəkilişi aparılsın. Son günlər siz o əzəmətli, möhtəşəm məscidləri, məbədləri, gözəl sarayları televiziyada gördünüz. [85-86] Gördünüz ki, Səudiyyə Ərəbistanında müsəlman dinini qoruyan müqəddəs adamlar, o cümlədən Səudiyyə Ərəbistanının indiki məliki, iki müqəddəs şəhərin xadimi Fəhd ibn Əbdül Əziz Əl-Səud son illərdə Kəbənin ətrafında, Həzrəti Məhəmməd peyğəmbərin qəbrinin ətrafında olan məscidləri nə qədər genişləndirib, tikinti işləri aparıb, gözəlləşdiriblər, ziyarətə, Həccə gedənlər, müsəlmanlar üçün nə qədər gözəl şərait yaradıblar. Siz bunların hamısını televiziyada gördünüz və mən belə hesab edirəm ki, bu da səfərimizin Azərbaycan müsəlmanları üçün nəticələrindən biridir.

Mən bir daha sizi salamlayıram. hamınıza səadət, xoşbəxtlik arzulayıram. Bu gün buraya gəldiyimə, sizinlə görüşdüyümə görə özümü çox məmnun hiss edirəm. Çox sağ olun. Təşəkkür edirəm. [86-87]

## BAKIDA DİPLOMATİK KOMPLEKSİN BÜNÖVRƏSİNİN QOYULMASI MƏRASİMİNDƏ ÇIXIŞ

*29 iyul 1994-cü il*

Hörmətli cənablar və xanımlar!

Azərbaycanın paytaxtı Bakı dünyanın ən gözəl şəhərlərindən biridir. Bu gözəlliyi təmin edən amillərdən biri əsrlərdən bəri Bakıda böyük memarlıq abidələrinin yaranmasıdır. Biz XII-XIII əsrlərdən indiyədək yaşayan bu abidələrlə fəxr edirik. Son dövrlərdə, yəni XX əsrdə də Bakı şəhərində bir sıra mühüm memarlıq abidələri tikilmişdir.

Hər bir abidənin özünəməxsus funksiyası və vəzifəsi vardır. Bu binalar təkcə abidə naminə yox, müəyyən məqsədlərə xidmət etmək üçün tikilib. Hər bir binanın memarlıq baxımından gözəlliyi, milli memarlıq məktəbinə mənsubluğu respublikamızın paytaxtı Bakı şəhərini xüsusi görkəmə malik olan şəhərə çevirmişdir. Biz Bakı şəhəri ilə, ulu babalarımızdan indiyədək qalan hər bir abidə ilə fəxr edirik.

Məlumdur ki, XX əsrdə Bakıda çox güclü tikinti işləri aparılmışdır. Xatirinizdədir ki, 70-ci illərdə də Bakıda böyük binalar və öz memarlıq xüsusiyyətləri ilə şəhərimizi daha da bəzəyən, ona xüsusi yaraşıq verən abidələr yaranmışdır. Təəssüf ki, son illər belə tikintilər, abidələr yaradılması işi ləngimiş, hətta demək olar ki, dayandırılmışdır.

Bu gün belə bir tədbir üçün buraya toplaşmağımız son illərdə demək olar ki, ilk hadisədir. Biz buraya yeni bir tikintinin əsasını qoymağa toplaşmışıq. Əlamətdar cəhət ondan ibarətdir ki, bu obyektin bünövrəsi indi müstəqil Azərbaycan [87-88] Respublikası dövlətinin paytaxtında qoyulur.

Bakı həmişə Azərbaycanın paytaxtı olub. Ancaq indi Bakı müstəqil Azərbaycan dövlətinin paytaxtıdır. Bu ağır keçid dövründə bir çox iqtisadi, sosial problemlərlə rastlaşaraq onların həll olunmasına çalışan müstəqil Azərbaycan dövlətinin şübhəsiz ki, indi böyük tikintilər aparmaq imkanı yoxdur. Arzu edərdim ki, xalqımız Bakıda, eləcə də respublikamızın digər yerlərində indiyədək tikilmiş abidələri, binaları qoruyub saxlasın. Şübhə etmirəm ki, biz müstəqilliyimizi ildən-ilə daha da möhkəmləndirəcək, bundan sonra Bakıda da, Azərbaycanın digər şəhərlərində və yaşayış məntəqələrində də yeni-yeni memarlıq abidələri yaratmaq imkanlarımız olacaqdır.

Bu gün burada bünövrəsi qoyulan bina diplomatik mərkəzdir. Qeyd etdiyim kimi, bu, son illərdə inşasına başlanan ilk böyük binadır. Bu binanın bir əhəmiyyəti də budur ki, obyektin tikintisi müstəqil Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında dostluq və qardaşlıq əlaqələrinin inkişafının böyük rəmzidir.

Azərbaycan müstəqillik əldə edəndən sonra ölkəmizin Türkiyə ilə əlaqələri daim müsbət istiqamətdə inkişaf edib. Biz bunu həmişə qiymətləndirmişik. Türkiyə bizim üçün dost və qardaş ölkədir. Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq münasibətləri bu gün də, gələcəkdə də xüsusi yer tutur. İndiyədək bu əlaqələri nümayiş etdirən bir çox işlər görülsə də, təəssüf ki, bu cür tikinti işləri aparılmayıb. Bu gün inşasına başlanan bina Türkiyənin respublikamıza, xüsusən Azərbaycanın paytaxtı Bakı şəhərinə göstərdiyi qayğılardan biridir. Bu bina Türkiyə Xarici İşlər Nazirliyinin Azərbaycana ayırdığı xüsusi kredit əsasında tikilir. Mən Türkiyənin xarici işlər naziri Hikmət Çətinlə görüşlərimdə, danışıqlarımda bu məsələnin həll olunması barədə dəfələrlə öz münasibətimi bildirmişdim. Bunu bildirməyi özümə borc bilirəm deyəm ki, Türkiyənin xarici işlər naziri hörmətli Hikmət Çətin bu işin həyata keçirilməsi üçün böyük fəaliyyət göstərib. Əminəm ki, onun bu fəaliyyəti Azərbaycanın həyatında öz əksini daim tapacaqdır.

Türkiyənin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Altan Karamanoğlu indicə bildirdi ki, hörmətli Hikmət Çətin dünən öz vəzifəsindən istefa vermişdir. Ancaq o, bizim respublikamızın böyük dostudur. Mən dünən onunla telefonla danışarkən bunu bir daha bildirdim. Bu binanın yaranmasını mən ümumən Türkiyə Respublikasının Azərbaycana dostluq münasibəti kimi qiymətləndirirəm. Bunu Türkiyənin prezidenti, mənim əziz dostum, qardaşım, hörmətli Süleyman Dəmirəlin xüsusi qayğısı hesab edirəm. Bu, Türkiyənin baş naziri hörmətli Tansu Çillərin Azərbaycana qayğısıdır. Qeyd etdiyim kimi, xarici işlər naziri hörmətli Hikmət Çətin bu sahədə xüsusi xidmətlər göstərib. Bütün bunlara görə Türkiyə Respublikasının rəhbərlərinə və bu işdə iştirak edən şəxslərin hamısına Azərbaycan Respublikası adından öz hörmətimi, minnətdarlığımı bildirirəm.

Bu tikintini Türkiyənin inşaat şirkəti aparacaqdır. Binanın layihəsini də həmin şirkət hazırlayıb. Mən bu layihə ilə əvvəlcədən də tanış idim, indi də ona baxarkən orada bizim arzularımızın əks olunduğunu gördüm. Tikintisinə başlanan diplomatik mərkəz binasının həm xarici görünüşü, həm də daxili quruluşu, yəni eksteryeri, interyeri Azərbaycan memarlıq sənətinin ənənələrinə uyğundur. Ancaq bu gün mən həm inşaatçılardan, həm də memarlardan bir daha xahiş etmək istəyirəm ki, tikinti zamanı bu xətti nəinki qorusunlar, hətta daha da zənginləşdirsinlər, inkişaf etdirsinlər. Bir halda ki, mən bu işlə məşğul oluram, indicə şirkətin prezidentinə də dedim ki, buna özüm nəzarət edəcəyəm. Tikintinin vaxtında başa çatdırılması, eyni zamanda binanın

keyfiyyətli, dünya standartlarına uyğun olması, bütün bunlarla yanaşı, Azərbaycan memarlıq sənətinin burada tam öz əksini tapması əsas şərtlərdən biridir. Güman edirəm ki, bu şərtlər yerinə yetiriləcəkdir.

Bildiyiniz kimi, mən Azərbaycanda, onun paytaxtı Bakıda bir çox bi[88-89]naların, tarixi-memarlıq abidələrinin tikintisinin təşəbbüskarı olmuşam. Bu işdə yaxından iştirak etdiyimə görə, həmin binalar bu gün də, gələcək üçün də yararlı və gərəkli olduğuna görə özümü xoşbəxt hesab edirəm.

Müstəqil dövlətin başçısı kimi mən Azərbaycanda, Bakıda yeni böyük bir binanın, memarlıq abidəsinin özülünün qoyulmasının iştirakçısıyam. Bundan çox məmnunam və güman edirəm ki, əgər bu ilk addımdırsa, şübhəsiz ki, uğurlu olacaq, davamlı olacaqdır. Biz müstəqil Azərbaycanın iqtisadi, sosial problemlərini həll edərək, respublikamızı indiki böhran vəziyyətindən, müharibə vəziyyətindən çıxararaq, Azərbaycanın müstəqilliyini, ərazi bütövlüyünü, sərhədlərinin toxunulmazlığını, qorunmasını təmin edərək bütün şəhərlərimizdə, yaşayış məntəqələrimizdə yeni-yeni binaların, memarlıq abidələrinin yaranmasına soy göstərəcəyik. Əminəm ki, bunu təmin edəcək, buna nail olacağıq.

Bugünkü hadisə həmin istiqamətdə gələcəkdə görəcəyimiz işlərin ilk addımıdır. Ona görə də bunu yüksək qiymətləndirirəm və bu gün inşaat meydançasına gələrək bu binanın tikintisinin başlanmasına xeyir-dua vermək istəyirəm. Əminəm ki, bizim bu görüşümüz, bu işə təntənə ilə başlamağımız həmin işlərin müvəffəqiyyətlə, sürətlə getməsini təmin edəcəkdir.

Keçmiş vaxtlarda belə böyük binaların bünövrəsinə xatirə müraciəti qoyulmasına o qədər də fikir verməmişdik. Belə hesab edirdik ki, əgər bir bina tikiriksə, bunun xalq üçün xeyirli olması hamıya aydındır, ancaq əvvəllər tikilən bəzi binaların bünövrəsinə belə yaddaş qoymuşuq. Bunu ona görə etməmişdik ki, o binalar nə vaxtsa dağılacaq və o daşlar yerin təkindən üzə çıxacaq. Yox. Ona görə ki, bütün bunlar tarixə həkk olsun.

Müstəqil Azərbaycan dövlətinin bugünkü ağır dövründə belə bir binanın tikintisini vacib hesab edərək mən bu binanın da bünövrəsinə xatirə yaddaşı kimi məktub imzalayıb qoymaq istəyirəm. Azərbaycanın müstəqilliyini müqəddəs hesab etdiyimizə, Azərbaycanın milli, mənəvi, dini ənənələrinə sadiq olduğumuza görə, şübhəsiz ki, bu xatirə yaddaşı bu binanın tikintisinin xeyirli, uğurlu olmasına təminat verəcəkdir.

Bu gün mən bu binanın tikilməsi üçün hazırlıq işləri görənlərin hamısına təşəkkürümü bildirirəm. Türkiyə şirkətini, Türkiyədən gəlmiş qardaşlarımızı, buraya toplaşanların hamısını bu əlamətdar hadisə münasibətilə təbrik edirəm. Əmin olduğumu bildirmək istəyirəm ki, bu addımımız müstəqil Azərbaycanın sosial-iqtisadi inkişafı üçün yararlı, gərəkli olacaq. Gələcək böyük işlərimiz üçün bir cığır açacaqdır.

Sizin hamınızı bir daha təbrik edirəm. İnşaatçılara müvəffəqiyyət arzulayıram. Tam əmin olduğumu bildirirəm ki, bu şirkətin verdiyi söz əməli surətdə həyata keçəcəkdir. [89-90]

## AVROPA BİRLİYİ KOMİSSİYASININ SƏDRİ ZATİ-ALİLƏRİ JAK SANTER CƏNABLARINA

Hörmətli cənab Jak Santer!

Avropa Birliyi Komissiyasının sədri seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edir, Sizə möhkəm cansağlığı, səadət, Avropa xalqlarının tərəqqisi naminə yorulmadan göstərdiyiniz fəaliyyətdə müvəffəqiyyətlər arzulayıram. Ümidvaram ki, regionda sülhün və əmin-amanlığın bərqərar olması, iqtisadi dirçəlişin təmin edilməsi üçün səylərinizi əsirgəməyəcəksiniz.

Hörmətlə,

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*"Azərbaycan", 1 avqust 1994-cü il* [90-91]

## PREZİDENT SARAYINDA DAHİ AZƏRBAYCAN ŞAİRİ MƏHƏMMƏD FÜZULİNİN 500 İLLİYİ İLƏ ƏLAQƏDAR YUBİLEY ÜZRƏ DÖVLƏT KOMİSSİYASININ İCLASINDA GİRİŞ SÖZÜ

*1 avqust 1994-cü il*

Dahi Azərbaycan şairi, böyük mütəfəkkir insan Məhəmməd Füzulinin 500 illik yubileyi ilə əlaqədar təşkil olunmuş komissiyanın (Azərbaycan Prezidenti Heydər Əliyev yubiley üzrə Dövlət komissiyasının sədridir. – Red.) iclası keçirilir. Xeyli vaxtdır ki, respublikada bu yubileyə hazırlıq işləri gedir. Yubiley komissiyasının yaratdığı işçi qruplar da müəyyən işlər görmüşlər. Ancaq komissiya üzvlərinin və dəvət olunmuş şəxslərin iştirakı ilə geniş iclas keçirilməsinə böyük ehtiyac var. İndiyədək görülmüş işləri təhlil etmək və qarşıdakı tədbirləri müzakirə etmək, bunların həyata keçirilməsi üçün şərait yaratmaq komissiyanın əsas vəzifələridir.

Respublikamızın bu ağır dövründə böyük yubileylər keçirilməsi şübhəsiz ki, müəyyən qədər çətinliklərlə üzləşəcək. Ancaq bunlara baxmayaraq, həyatımızın mənəvi, mədəni sahəsi heç vaxt unudulmamalıdır. Çətinliklər nə qədər çox olsa da mədəniyyətə, mədəni irsimizə, mənəviyyata daim xüsusi diqqət yetirməli və bu sahələrin geri qalmasına yol verməməliyik.

Dahi Füzulinin 500 illik yubileyinin keçirilməsi böyük mütəfəkkir şairin Azərbaycan xalqı qarşısında və bütün türk xalqları, dünya mədəniyyəti qarşısındakı xidmətlərinə verilən qiymətdir. Bu eyni zamanda həm də mədəniyyətimizi, tariximizi təbliğ etmək üçün çox əlverişli fürsətdir və biz bundan hərtərəfli istifadə etməliyik. Uzun illərin təcrübəsi göstərir ki, belə tədbirlər mənəviyyatın yüksəldilməsinə, insanların tariximizlə bağlı olmasına kömək göstərir.

Biz bütün bunları nəzərə alaraq Məhəmməd Füzulinin 500 illik yubileyinə hazırlıq işlərini layiqincə aparmalı və yüksək səviyyədə keçirməliyik. Yubiley komissiyasının vəzifəsi bundan ibarətdir. Güman edirəm ki, komissiyanın hər bir üzvü bu vəzifəni həvəslə yerinə yetirəcəkdir.

Bayaq dediyim kimi, biz bu gün hazırlanmış tədbirləri müzakirə etməli, onların həyata keçirilməsi üçün lazımi tədbirlər görməli və bundan sonra aparılan işlərin planını və vaxtını müəyyən etməliyik.

Müzakirəyə başlamamışdan əvvəl bildirmək istəyirəm ki, Məhəmməd Füzulinin 500 illik yubileyinin keçirilməsi ilə əlaqədar yaradılmış Dövlət Komissiyasının üzvü, böyük şairimiz, professor Xəlil Rza və böyük alim, [91-92] professor Rüstəm Əliyev vəfat etmişlər. Ona görə də mən istərdim ki, işə başlamamışdan əvvəl Azərbaycan mədəniyyətinin və elminin bu iki dəyərli xadimlərinin xatirəsini bir dəqiqəlik sükutla yad edək.

Allah rəhmət eləsin.

Təklif edirəm ki, yubiley komissiyası sədrinin müavinləri Elçin Əfəndiyev, Eldar Salayev və Anar indiyədək görülən işlər haqqında məlumat versinlər, sonra müzakirəyə başlayaq...

### YEKUN SÖZÜ

İndi iqtisadi vəziyyət, yaşayışımız, bir sözlə, həyat nə qədər çətin olsa da, biz Məhəmməd Füzulinin yubileyini yüksək səviyyədə keçirməliyik. Ümumiyyətlə, Azərbaycanda yubileylər keçirmək sahəsində təcrübəmiz çoxdur. Xalqımız, ictimaiyyət də bunları həmişə ruh yüksəkliyi ilə qarşılamış və bu tədbirlərdə iştirak etmişdir. Belə tədbirlər respublikamızın ictimai-mədəni və mənəvi həyatını zənginləşdirmiş, görkəmli adamlarımızı xalqımıza daha yaxından tanıtmışdır.

Ona görə də həyatımızın bu keçid dövründə, ağır dövründə, mənəviyyatımızın, mədəniyyətimizin müəyyən dərəcədə sıxıntı keçirdiyi dövrdə belə bir yubileyin təşkili həyatımızı bəlkə də zənginləşdirəcəkdir. Bizdə də belədir və dünya təcrübəsi də göstərir ki, yubileyin keçirilməsi bir tərəfdən yubilyarın xalq, ölkə, dünya qarşısında xidmətlərini bir daha təbliğ və nümayiş etdirmək, digər tərəfdən müasir nəslin ona bəslədiyi hörmət və ehtiramı bildirmək deməkdir.

Məhəmməd Füzuli kimi şəxsiyyəti olan xalq fəxr edə bilər. Lakin dünya birliyində, dünya xalqları arasında onun tarixini, mədəniyyətini, milli ənənələrini təbliğ etmək, yaymaq, sübut etmək üçün belə yubileylər həmişə böyük bir vasitədir. Ona görə də, çətinliklərimizə baxmayaraq, bu yubileyi gərək yüksək səviyyədə keçirək. Əvvəla, Füzuli özünün yaradıcılığına, ədəbi, elmi və fəlsəfi irsinə görə buna layiqdir və Azərbaycan xalqının bugünkü, XX əsrin sonunda yaşayan nəsli ona öz minnətdarlığını bildirməlidir. İkincisi, bu yubileyi keçirərkən biz xalqımızın özünü daha dərindən tanımasını təmin edəcəyik və etməliyik. Xalq gərək daim öz kökünü xatırlasın, tarixini öyrənsin, milli mədəniyyətindən, elmindən heç vaxt ayrılmasın. Şübhəsiz ki, bu yubileyin keçirilməsi indiki nəslin, xüsusən gənclərin tariximizin nə qədər zəngin olduğunu və Azərbaycan xalqının dünya mədəniyyətinə necə töhfələr verdiyini bir daha dərk etməsinə şərait yaradacaq və hər bir

azərbaycanlıda, ilk növbədə gənc nəsildə milli iftixar, vətənpərvərlik hissini daha da yüksəldəcəkdir. Bunun özü müstəqil Azərbaycanda bizim üçün çox gərəkli bir amildir.

Eyni zamanda, qeyd etdiyim kimi, biz daim çalışmışıq ki, Azərbaycan xalqını dünyaya daha yaxından tanıdaq. Bilsinlər ki, xalqımızın çoxəsrlik, zəngin tarixi, mədəniyyəti var. Bilsinlər ki, Azərbaycanın bugünkü mədəniyyəti dahi şəxsiyyətlərimizin yaratdığı və əsrlərdən-əsrlərə keçən [92-93] mədəniyyətimizə, elmimizə, mənəviyyatımıza əsaslanır. Bu ona görə lazımdır ki, hamımıza məlum olan düşmən qüvvələr sübut etməyə çalışırlar ki, Azərbaycan xalqının zəngin tarixi olmamışdır, onun kökü yoxdur. Şübhəsiz ki, bu, cəfəngiyatdır. Bəzən buna heç cavab vermək istəmirsən. Lakin xalqımıza düşmən olan, qəsd etmək istəyən dairələr, qüvvələr, bəzən də millətlər respublikamızı parçalamaq, onun ərazisini qəsb etmək istəyənlər əvvəllər də çalışmışlar və indi də çalışırlar sübut etsinlər ki, guya Azərbaycan xalqı tarixi köklərə malik olan bir xalq deyildir.

Ona görə də Füzuli kimi şəxsiyyəti dünyaya bir daha tanıtmaqla onun necə böyük şair, mütəfəkkir, filosof olduğunu və dünya mədəniyyətinə nə qədər töhfə verdiyini, onu necə zənginləşdirdiyini göstərəcəyik. Buna bizim əvvəllər də ehtiyacımız olmuşdur, lakin bu gün xüsusilə vacibdir. Çünki Azərbaycan müstəqil dövlətdir, xalqımız milli azadlığa nail olmuşdur və biz müstəqilliyimizin daimi, əbədi olması üçün çalışırıq və bundan sonra da çalışacağıq.

Bütün bunları nəzərə alaraq biz Məhəmməd Füzulinin yubileyini çox yüksək səviyyədə təşkil etməliyik. Respublikanın daxilində buna böyük ehtiyac var. Çünki Füzuli xalqımız arasında nə qədər məşhur olsa da, onun dahiliyi, yaradıcılığının dərinliyi heç də hamıya məlum deyildir. Ancaq indi bizdən ötrü ən önəmlisi Füzulini respublikamızdan kənarda təbliğ etmək, onu bütün dünyaya bir daha tanıtmaqdır.

YUNESKO Məhəmməd Füzulinin 500 illiyi ilə əlaqədar qərar qəbul etmişdir. Bildiyiniz kimi, YUNESKO hər il bu qəbildən olan qərarlar qəbul edir. Lakin bu imkandan necə istifadə etmək, şübhəsiz ki, hər bir ölkənin, xalqın özündən asılıdır. Ona görə də biz gərək yubileylə əlaqədar respublikamızdan kənarda keçirilən tədbirlərə xüsusi əhəmiyyət verək. Türkdilli ölkələrdə Füzulinin yubileyinin keçirilməsi də bu tədbirlər sırasına daxildir.

Burada çıxış edən natiqlər də dedilər ki, ərəblər və farslar Füzulini öz şairi sayırlar. Türkdilli xalqlar isə hesab edirlər ki, o, türkdür. Biz də deyirik ki, Füzuli türk, azərbaycanlıdır. Eyni zamanda bunu türkmən, özbək, qazax, Türkiyədə yaşayan türklər, İraq türkmənləri də deyə bilərlər. Qoy Füzuli hamıya məxsus olsun, tarixə bəşəri bir şəxsiyyət kimi düşsün.

Eyni zamanda biz bu yubiley tədbirlərindən istifadə edərək dünyaya bir daha bildirməliyik ki, Füzuli azərbaycanlıdır, Azərbaycan köklüdür, onun yaradıcılığı Azərbaycan ədəbiyyatı və mədəniyyətinin bəhrəsidir. Füzuli başqa ölkələrdə də məşhurdur. Lakin onu azərbaycanlılar qədər özününkü sayan yoxdur. Məsələn, xatirimdədir, 30-cu illərin ortalarında mən orta məktəbdə oxuyarkən Füzuli ilə bağlı tədbirlər keçirilir, Füzuli təbliğ olunurdu. Yaxud həyatımla bağlı bir şeyi qeyd etmək istəyirəm. Gənclikdə rəssamlığa böyük həvəsim var idi. Mənim çəkdiyim ilk rəsmlərdən biri Füzulinin portreti olmuşdur. Təxminən 1936-37-ci illərdə məktəbimizdə şagirdlərin rəsmlərindən ibarət sərgi təşkil etmişdilər. O vaxtlar belə şeylərə çox fikir verirdilər. Mənim çəkdiyim portret [93-94] müsabiqədə birinci yer tutmuşdu. Əlbəttə, mən onu rəssamlıq əsəri adlandırmaq fikrində deyiləm, o, sadəcə olaraq, rəssamlığa həvəs göstərən gəncin çəkdiyi şəkil idi.

Bununla demək istəyirəm ki, Füzuli Azərbaycanda təkcə bu gün deyil, hələ 50-60 il bundan əvvəl də təbliğ olunurdu. Lakin Füzulini tanıyan başqa ölkələrdə onu o qədər də təbliğ etmirlər. 1920-ci ildən əvvəl Azərbaycanda Füzulinin nə dərəcədə təbliğ edildiyini deyə bilmərəm. Ancaq 20-30-cu illərdə o, çox təbliğ olunmuşdur. Doğrudur, burada dedilər ki, onun beş cilddən ibarət əsərlərinin nəşri başa çatdırılmamışdır. Bu, təkcə Füzuliyə aid deyil. Məsələn, 1948-ci ildə Nizaminin də 800 illiyi keçirilmiş, lakin son vaxtlaradək onun külliyyatı çap olunmamışdır. Yəqin xatirinizdədir, biz Nizaminin 840 illiyini qeyd edərkən mən onun "Xəmsə"sinin Moskvada "Xudojestvennaya literatura" nəşriyyatında rus dilində nəşri üçün çox çalışdım. Əlbəttə, Füzulinin əsərləri bu qədər geniş nəşr və tərcümə olunmamışdır. Ancaq Füzuli dahi şair kimi Azərbaycanda həmişə hamının qəlbindədir. Bu da ona görədir ki, Füzuli doğrudan da azərbaycanlıdır və Azərbaycana mənsubdur. Yubiley təntənələrindən istifadə edərək onu dünya miqyasında nə qədər geniş təbliğ edə bilsək, şübhəsiz ki, xalqımızı, onun tarixini, mədəniyyətini, mənəviyyatını bir o qədər çox tanıda, təbliğ edə biləcəyik. Bu bizdən ötrü indi çox vacibdir. Respublikamızı təkcə müstəqil bir dövlət, zəngin təbii sərvətlərə malik ölkə kimi yox, zəngin tarixi, mədəniyyəti olan ölkə kimi tanıtmalıyıq. Mənə belə gəlir ki, bizdən ötrü bu yubileyin ən böyük nəticəsi bundan ibarətdir. Lakin bu, deyilənləri lazımi səviyyədə, istədiyimiz kimi həll edə biləcəyimizdən asılı olacaqdır.

Mən belə hesab edirəm ki, yubileyin keçirilməsi ilə bağlı tədbirlər planını qəbul etmək olar. Lakin vaxtımızın azlığını, maddi və texniki imkanlarımızın məhdudluğunu nəzərə alaraq müəyyənləşdirməliyik ki, Füzulini ölkəmizdən kənarda geniş təbliğ etmək üçün ilk növbədə hansı tədbirlər keçirilməlidir. Eyni zamanda Füzulinin ədəbi irsinin öyrənilməsi və təbliği sahəsində işlər yubileydən sonra da davam etməlidir. Bəzən belə olur, yubileyə qədər çox iş görülür, nitqlər söylənilir, təntənələr başa çatır, sonra isə hər şey soyuyur. Əlbəttə, bunun özü də müəyyən qədər təbiidir. Lakin gərək biz belə etməyək. Çalışmalıyıq ki, nəzərdə tutulan işlərin əksəriyyətini zirvə tədbiri keçirilənədək görək. Çünki bundan sonra nə qədər də çalışsaq, həmin işlərin həyata

keçirilməsi ləngiyəcəkdir. Lakin bir daha qeyd edirəm ki, Füzulini dünyaya bir daha tanıtmaqla bağlı nəzərdə tutulan tədbirlər ilk növbədə keçirilməlidir.

Burada müxtəlif nəşrlər haqqında söhbət getdi. Şübhəsiz ki, Füzulinin əsərləri oxucunun dahi şairə hörmət və məhəbbətini təmin edir. Ancaq Füzuli haqqında yazılan elmi tədqiqat əsərləri onu alim, mütəfəkkir, filosof, şair və böyük bir insan kimi göstərmək üçün çox lazımlıdır. Bunlarla yanaşı, Füzulini ölkəmizdə, xüsusən xaricdə yaxından tanıtmaq üçün onun haqqında populyar bir kitab olmalıdır. Elə bir kitab ki, [94-95] onu oxuyan hər kəs Füzulini tezliklə tanıya bilsin. Tədqiqat əsərlərini alimlər, Füzulinin yaradıcılığı ilə maraqlananlar oxuyurlar. Amma Füzulini hamı tanımalıdır. Zənnimcə, Füzuli haqqında elə bir kitab lazımdır ki, biz onu ingilis, fransız, alman, ərəb, fars dillərinə tərcümə edib yayaq. Deyirsiniz ki, Avropada yubiley tədbiri keçirək. Həmin tədbirdə çox az adam iştirak edər. Ancaq orada elə bir kitab yayılsa, Füzulini daha çox adam tanıyacaqdır.

Ona görə də hesab edirəm ki, bütün bu tədbirlərlə yanaşı, belə bir kitabın hazırlanması mütləq lazımdır. Çünki indi Füzulinin əsərlərini ingilis, fransız, alman dillərinə tərcümə edib yaymaq imkanımız yoxdur. Bunu gələcəkdə etməliyik. Lakin Füzuli haqqında geniş məlumat verən bir kitab varsa, onu tərcümə etmək, yoxdursa yazmaq lazımdır. Özü də həmin kitab bütün keçmiş stereotiplərdən xilas olmalıdır. Məsələn, Fuad Qasımzadə burada dedi ki, o, keçmişdə tədqiqat apararkən Füzulini marksizm-leninizm ideologiyası ilə bağlamağa çalışırdı. Xatirimdədir, bir dəfə haradasa dedim ki, Nizaminin fəlsəfi görüşləri haqqında çoxlu tədqiqatlar aparmışlar. Şübhəsiz, Nizaminin şeirlərini proletar şeirinə döndərmək mümkün deyildir, ona görə də hamı sübut etməyə çalışmışdır ki, Nizami metafizik yox, dialektik olmuşdur. Əlbəttə, bunlar təbiidir və heç kimi günahlandırmaq lazım deyil. Mən də bu fikirdə deyiləm. Bu, o dövrün nəticəsidir və indi heç kəs deməsin ki, o zaman belə düşünməmişdir. Biz hamımız həmin dövrdə yaşayır və onun stereotiplərindən kənara çıxa bilmirdik. Çıxmağa imkan da yox idi, çünki o zaman yazıçı da, alim də, adi adam da belə hesab edirdi ki, başqa cür ola bilməz. Ona görə də indi kiminsə döşünə döyməsi mənasızdır. Belələrinin özləri də o zaman bu cür yazmışlar. Bu bizim tariximizin reallığıdır. Onu təhrif etmək olmaz. 1917-ci ildən sonra buna cəhd göstərdilər. Lakin bacarmadılar. O dövrdə yaşayan və Azərbaycanın mədəniyyətini, ədəbiyyatını inkişaf etdirən adamlara indi irad tutmaq olmaz, bu, günahdır.

İndi alimlərimiz, yazıçılarımız bütün bu stereotiplərdən, ştamplardan azaddırlar. Lakin bu o demək deyildir ki, ağlına gələni yazasan. Həqiqəti, reallığı yazmaq lazımdır. Ona görə də Füzuli haqqında belə bir əsər yazılsa və qısa müddətdə nəşr edilib bir çox ölkələrdə yayılsa, çox yaxşı olardı.

Başqa tədbirlər barədə geniş danışmaq istəmirəm. Onların hamısını həyata keçirmək lazımdır. Lakin Türkiyədə tədbirin keçirilməsi məsələsi məni xüsusi maraqlandırır və bu barədə sual da verildi. Çünki Türkiyədə Füzulini elə Azərbaycandakı qədər tanıyırlar. Məsələn, Elçin Əfəndiyev Fuad Köprülünün Füzuli haqqında yazdığı kitabçanı xatırlatdı. Füzulinin yubileyinin İranda – Tehranda və Təbrizdə keçirilməsi də çox mühümdür. Orta Asiya dövlətlərində, Qazaxıstanda, Tatarıstanda, Başqırdıstanda da belə tədbirlərin keçirilməsi gərəklidir.

Burada dedilər ki, sentyabrda İraqda yubiley tədbiri keçirmək nəzərdə tutulmuşdur. Düzdür, indi beynəlxalq aləmdə İraqın siyasi vəziyyəti ağırdır, ölkənin daxilində ictimai-siyasi vəziyyət də mürəkkəbdir. [95-96] Lakin bunun mədəniyyətə dəxli yoxdur. Ona görə də biz nəzərdə tutulan nümayəndələrimizi oraya göndərərək, həmin tədbirdə iştirak etməliyik.

Şübhəsiz ki, Rusiyada – Moskvada, Sankt-Peterburqda da belə tədbirlər keçirilməlidir. Biz uzun müddət Rusiyanın, Sovet İttifaqının tərkibində olmuşuq. Ona görə də belə tədbirlərin arasını kəsməməliyik, əksinə, vaxtilə Nizaminin, Səməd Vurğunun, Nəsiminin və başqalarının yubileylərini keçirdiyimiz kimi, Füzulinin yubileyini də mütləq keçirmək və onu daha geniş tanıtmaq lazımdır.

Avropa ölkələrinə gəldikdə isə, həm bilavasitə onların mədəniyyət orqanlarının xətti ilə, həm də orada yaşayan azərbaycanlıların, türklərin müxtəlif ictimai təşkilatları vasitəsilə tədbirlər keçirilməlidir. Şübhəsiz ki, bundan ötrü müəyyən vəsait lazım olacaqdır. Lakin vəziyyətimiz çətin olsa da, biz bunu etməliyik və edəcəyik.

Nəşr məsələləri ilə əlaqədar müxtəlif çətinliklərdən – kağızın çatışmamasından və sairədən söhbət getdi. Mən bunları sadalamaq istəmirəm. Elçin Əfəndiyevə tapşırıram ki, yubileyin keçirilməsi üçün smeta hazırlasınlar. Orada, necə deyərlər, maksimum, orta və minimum xərclər nəzərdə tutulsun. Nə qədər milli valyuta və nə qədər dönərli valyuta lazım olduğunu müəyyənləşdirək. Bəzən xarici valyuta ilə müəyyən şeylər alanda təəssüf ki, kimlərsə bundan özləri üçün istifadə edir. Lakin güman edirəm ki, belə bir işdə bundan istifadə etmək ən böyük günah olardı. Biz həmin smetanı imkanlarımızı nəzərə alaraq təsdiq edərik.

Füzulinin qəbrinin Bakıya köçürülməsi barədə də söhbət getdi. Məsələn, Cabir Novruz bu fikrə tərəfdardır. Yaşar Qarayev, Nəbi Xəzri isə başqa fikirdə oldular. Bu, yeni məsələ deyil. Hələ 70-ci illərdə Füzulinin qəbrinin Bakıya köçürülməsi məsələsi çox geniş müzakirə edilirdi. Mən də bu məsələ ilə məşğul olurdum. Xatirimdədir, 1981-ci ildə Yazıçılar İttifaqının qurultayında bu məsələ qaldırılanda mən tanınmış yazıçılarımıza, Allah onlara rəhmət eləsin, narazılığımı bildirərək dedim ki, siz məsələni ortaya atır, lakin təşəbbüs göstərmirsiniz. Məsələ qaldırmaq yaxşı şeydir, lakin fəaliyyət göstərmirsiniz. O zaman mən bu məsələni rəhmətlik Mirzə İbrahimova tapşırdım. Bilirsiniz ki, Mirzə İbrahimov mənim təşəbbüsümlə Moskvada

Asiya və Afrika Xalqları Həmrəyliyi Komitəsinin sədri seçilmişdi. Həmin komitəyə uzun illər Mirzo Tursunzadə başçılıq etmişdi. Onun vəfatından sonra bu vəzifəyə çoxlu namizəd, o cümlədən dünya miqyasında tanınan adamların namizədliyi göstərilmişdi. Şübhəsiz ki, həmin məsələ Sov. İKP MK-da həll olunurdu. Mən öz nüfuzumdan istifadə edərək Mirzə İbrahimovun namizədliyini irəli sürdüm və təklifim qəbul edildi.

Həmin komitə əsasən, ərəb ölkələrində iş aparırdı. Dünya miqyasında isə mərkəz Misirdə – Qahirədə idi. Mən o zaman Mirzə İbrahimova dedim ki, sənin böyük səlahiyyətin var, Suriyaya, Misirə, İraqa tez-tez gedirsən. Bu imkandan istifadə edin və biz də sizə kömək göstərək. Hətta o zaman Mirzə İbrahimova, Süleyman Rüstəmə, Abbas Zamanova [96-97] tapşırdım ki, İraqın Bakıdakı konsulluğu ilə əlaqə yaratsınlar. Həmin dövrdə İraqla İran arasında müharibə gedirdi, vəziyyət gərgin idi.

O zaman belə bir məlumat aldıq ki, Kərbəlanın baş planına əsasən yol çəkilir və həmin yol Füzulinin qəbri olan yerdən keçdiyinə görə, guya şairin cənazəsinin qalıqlarını hansısa məscidə aparmışlar. Adətən belə hallarda qəbri başqa yerə köçürürlər. Lakin həmin məlumat məni çox narahat etdi, çünki bu, Füzuliyə qarşı çox böyük hörmətsizlik olardı. Şübhəsiz ki, bu halda onun cənazəsinin qalıqlarını Bakıya gətirib ən görkəmli yerdə dəfn edərək şairin məqbərəsini yaratmağa mənəvi haqqımız olardı. Lakin bilirsiniz ki, bundan bir il sonra mən Azərbaycandan getdim və işlərin sonrakı gedişindən xəbərim olmadı. Ancaq indi öyrəndim ki, Füzulinin qəbrini başqa yerə köçürmüşlər.

Bu barədə fikirləşmək lazımdır. Belə məsələdə qəti qərara gəlmək çətindir. Xatirimdədir, Nəsiminin 600 illiyini keçirəndə də məsələ qaldırmışdılar ki, onun məzarını Hələb şəhərindən Bakıya köçürək. Hətta onun məzarını görən adamlar da çox az idi. Səhv etmirəmsə, Nəsiminin məzarını ilk dəfə rəhmətlik Rəsul Rza gedib tapmışdı. Bu barədə o özü mənə danışmışdı. Sonra mərhum Süleyman Vəzirov Hələbdə olmuşdur. Mən 1970-ci illərdə Suriyada olarkən Nəsiminin qəbrini ziyarət etmək üçün xüsusi olaraq Hələb şəhərinə getdim. Mənim Hələbə səfərimin təşkili barədə Suriya prezidenti Hafiz Əsədin xüsusi göstərişi var idi. Hələb şəhərinin başçıları axşam mənə bildirdilər ki, səhər Nəsiminin qəbrini ziyarət edəcəyəm. Ertəsi gün üç-dörd saat gözləməli oldum, çünki qəbrin yerini bilmirdilər. Nəhayət, onun yerini bilən bir nəfər tapdılar. Yəqin siz də bilirsiniz, Nəsiminin məzarı ümumi qəbiristandadır. Nəsiminin törəmələri də orada dəfn olunmuşlar. Qəbirüstü abidə və s. yoxdur, orada bu, adət deyil. Ancaq qəbir çox yaxşı vəziyyətdə idi. Ona qulluq edən adam da var.

Qayıdandan sonra özüm də fikirləşdim, müxtəlif adamlarla da məsləhətləşdim ki, həmin qəbri indi Azərbaycana köçürmək lazımdırmı? Nəsimi Hələb şəhərinə Azərbaycandan getmiş və orada da faciəli şəkildə dünyasını dəyişmişdir.

Füzuli isə Kərbəlada doğulmuş, yaşamış və vəfat etmişdir. Əlbəttə, hamımız istərdik ki, Azərbaycanın dahi adamlarının məzarları ölkəmizin özündə olsun. Çünki indi dünyada yaşayan azərbaycanlıların bir Vətəni var, o da müstəqil Azərbaycan Respublikasıdır. Bu barədə fikirləşmək lazımdır. Mən qəti bir şey demək istəmirəm.

Burada yubileyin zirvə tədbirinin dekabrda keçirilməsi ilə bağlı fikirlər səsləndi. Doğrudan da ilin son ayı olan dekabr yubiley tədbirlərinin keçirilməsi üçün o qədər də münasib deyildir. Digər tərəfdən, dekabr qış ayıdır və Azərbaycan yubiley təntənələrinə gələn qonaqlara yaz-yay aylarındakı kimi təsir bağışlamaz. Ona görə də, gəlin, fikirləşək. Lakin ondan narahatam ki, bir şeyin vaxtı dəyişdikcə məsələ uzanacaq. Ancaq tədbirlərin dekabrda keçirilməsi planlaşdırıldığına görə, gəlin beləcə də nəzərdə tutulsun. [97-98]

Doğrudan da burada dedilər ki, əgər tədbirin vaxtı əvvəldən məlum olsa, dünyanın müxtəlif ölkələrinə xəbər göndəriləcək və hər kəs öz işini qabaqcadan planlaşdıracaq. Məsələn, YUNESKO-nun sədrinin bu tədbirdə iştirak etməsi hökmən lazımdır. Nəsiminin yubileyi keçirilərkən YUNESKO-nun sədri bu tədbirdə iştirak etmişdi. Ona görə də biz gərək indiki yubiley barədə YUNESKO-nun sədrinə azı iki ay əvvəl xəbər göndərək ki, işini planlaşdıra bilsin. Bu, xaricdən dəvət olunan başqa adamlara da aiddir. Gəlin belə hesab edək ki, yubileyin zirvə tədbirini dekabrda keçirəcəyik və planlarımız bu istiqamətdə qurulmalıdır. Əgər gözlənilməz hadisə baş verərsə, həmin tədbirin bir neçə aylığa təxirə salınması o qədər də böyük dəyişiklik yaratmayacaqdır.

Anar təklif edir ki, oktyabrın axırında Türkiyədə yubiley tədbiri keçirilsin. Mən bunun mənasını bilirəm və hesab edirəm ki, pis olmazdı. Bu barədə Türkiyə tərəfi ilə danışıqlar aparmaq olar, lakin zirvə tədbirini dekabrın birinci yarısına təyin edək.

Kinofilmlərin çəkilməsi haqqında da məlumat verdilər. Şübhəsiz ki, televiziya öz işini görür və güman edirəm ki, indiki görüşümüzdən sonra Füzulinin əsərlərini, onun qəzəllərinə yazılmış musiqi əsərlərini daha geniş təbliğ etməlidir. Məsələn, mən mərhum Cahangir Cahangirovun "Füzuli" kantatasını yaxşı xatırlayıram. Simfonik orkestrin, xorun və böyük sənətkarımız mərhum Şövkət Ələkbərovanın ifasında bu əsər çox gözəl səslənirdi. Başqa əsərlər də var və bunlar televiziya vasitəsi ilə səsləndirilməlidir. Qısametrajlı sənədli filmlər də hazırlayırlar, çünki başqa imkanları yoxdur. Lakin onlar özləri də fikirləşməlidirlər ki, daha nə etmək olar.

Yubiley tədbirlərinin özləri də video və kino lentinə çəkilməlidir. Smetada bu xərcləri də nəzərə almaq lazımdır. Məsələn, əgər Bağdadda, yaxud Kərbəlada Azərbaycandan gedən böyük bir nümayəndə heyətinin iştirakı ilə yubiley tədbiri keçiriləcəksə, bunun özü də mədəniyyət tariximizdə qalmalıdır.

Televiziya, radio və kino ilə yanaşı teatrlarımız da əsərlər hazırlamalıdır. Məsələn, bildirdilər ki, "Leyli və Məcnun" operasının yeni quruluşda tamaşası hazırlanır. Bu, çox yaxşıdır. Lakin həmin tamaşanı layiqincə

hazırlamaq lazımdır. Çünki bu opera əsrin əvvəlindən səhnəmizdə göstərilir və tamaşaçılar onu çox sevirlər. Əgər yeni tamaşa Füzulinin 500 illiyinə həsr edilirsə, onda daha yüksək professional səviyyədə hazırlanmalıdır.

Çıxış edənlərin bəziləri ziyalıların indiki vəziyyətindən, onlara münasibətdən danışdılar. Bu, həqiqətən bugünkü həyatımızın narahatlıq doğuran cəhətlərindən biridir. Bildiyiniz kimi, son onilliklərdə ziyalılarımız yaxşı yaşamış, müəyyən imtiyazlardan istifadə etmiş və onlar çox şey yaratmışlar. Biz elmimizin, mədəniyyətimizin, incəsənətimizin, ədəbiyyatımızın XX əsrdəki nailiyyətləri ilə fəxr edə bilərik. Şükürlər olsun ki, indi özünüz başqa ölkələri gedib görə, əsrimizdə Azərbaycan [98-99] xalqının elm və mədəniyyətinin necə inkişaf etdiyini, bizə yaxın olan ölkələrdə, xalqlarda bu sahədə vəziyyətin necə olduğunu müqayisə edə bilirsiniz.

İndi biz keçid dövründəyik. Məni də çox narahat edir ki, ziyalılarımızın, mədəniyyət və incəsənət xadimlərimizin bir çoxu, bəlkə də hamısı ağır şəraitdə yaşayır. Bu, onların yaradıcılığına da təsir göstərir. Hər halda bu sahədə müəyyən işlər görməyə çalışacağıq. Mən hələlik qəti söz verə bilmirəm. Çünki bilirsiniz ki, indi Azərbaycanda 70-ci illərdə olan imkanlar yoxdur. O zaman heç bir minnətsiz hər şeyi edirdik və bunu təbii hal sayırdıq. Yazıçıya, alimə, bəstəkara, rəssama mənəvi hörmət indi də var. Şəxsən məndə onlara qarşı belə hörmət həmişə olmuşdur və ömrümün axırınadək də qalacaqdır. Ancaq bunu maddi baxımdan reallaşdırmaq imkanları çox azdır. Bununla belə, biz yaradıcı adamlarımıza kömək etməliyik.

Bu, kitab nəşrinə də aiddir. Özünüz görürsünüz ki, indi Azərbaycanda nə qədər qəzet çıxır və az qala hər gün yenisi yaranır. Fürsətdən istifadə edərək Sabir Rüstəmxanlıya demək istəyirəm: bu qədər qəzet olar? Bir tərəfdən mətbəəmiz pisdir, digər tərəfdən kağız və başqa poliqrafiya materialları çatışmır, amma qəzetlərin sayı gündən-günə artır. Mən mətbuat azadlığının tərəfdarıyam. Lakin hər şeydə ifrata varmaq olmaz.

Məsələn, Amerikanı, İngiltərəni, Fransanı, Türkiyəni, bütün bu proseslərin, dəyişikliklərin getdiyi Rusiyanın özünü götürək, heç yerdə belə şey yoxdur. Kimin bir az pulu var, gəlir ki, mən qəzet çıxarıram. Cabir Novruz bizim gözəl şairimizdir, o danışanda, düzü, mən çox məyus oldum. Belə bir şair öz kitabını nəşr etdirə bilmir, onun başqa problemləri də var. Axı nə üçün belə olmalıdır? Ancaq hansı yollarla isə pul qazanan gəlir ki, mən qəzet nəşr edirəm. Hər şeyi pul həll etməməlidir. Mətbuat Nazirliyi bu məsələ ilə məşğul olmalıdır. Axı həmin nazirliyə şair, mənəviyyat, mədəniyyət adamı başçılıq edir. Əgər doğrudan da, dəyərli bir təşkilat qəzet çıxarırsa, bu, başqa məsələdir.

Bir də təkrar edirəm, bütün bunları deməklə mən mətbuat, söz azadlığının əleyhinə çıxmıram. Lakin hər şeyin həddi olmalıdır. Bu işlərə nəzarət edilməlidir. Əgər bizim bir belə kağızımız, mətbəələrimiz varsa, bunların hesabına kitab nəşr etmək lazımdır. Bəzi qəzetləri heç oxuyan da yoxdur. Həm "Azərbaycan" nəşriyyatının baş direktoru Nazim İbrahimov, həm də mətbuat və informasiya naziri Sabir Rüstəmxanlı bu məsələlərə ciddi nəzarət etməli və müəyyən qədər nizamlamalıdırlar.

Daha mən bir məsələni də demək istəyirəm. Oqtay Mirqasımov çıxışında dedi ki, kinostudiyanın çətin problemləri var və Rasim Balayevlə birlikdə mənimlə görüşmək istəyirlər. Prezident Aparatının humanitar siyasət şöbəsinin müdiri Fatma Abdullazadə kino, teatr xadimlərinin mənimlə görüşmək istədiklərini xəbər vermişdir. Mən özüm də çox istəyirəm ki, bizim elm, mədəniyyət adamları ilə görüşüb onların problemlərinə kömək edim, yaxud heç olmazsa, dərdlərini yaxından bilim və mənəvi ürək-dirək verim. Lakin buna, sadəcə olaraq, vaxtım çatmır. [99-100]

Kinematoqrafiyanın problemlərindən müəyyən dərəcədə xəbərim var. Ancaq bunları təkcə mən həll etməliyəm? Axı bizim çoxlu müvafiq orqanlarımız var. Baş nazirin mədəniyyət məsələlərinə baxan müavini Elçin Əfəndiyev də bununla maraqlanıb. Həll edin, nəyəsə gücünüz çatmırsa, bu başqa məsələdir. Ancaq elə şeylər var ki, orada güc çatmamaqdan söhbət gedə bilməz. Məsələn, deyirlər ki, kinostudiyanın əsas binasında kababxana, daha nələr var, otaqları satıblar. Bunun nə dərəcədə həqiqət olduğunu bilmirəm. Mənə böyük bir arayış təqdim ediblər ki, AzərTAC-ın yerləşdiyi binanın yarısından çoxunu kimlərsə satıblar, bank, mağaza açıblar. Axı necə ola bilər ki, dövlətin mülkiyyəti sayılan binanın yarısını ona-buna satsınlar? Əgər bütün bunlardan agentlik üçün müəyyən bir maddi xeyir gəlirsə, bəlkə də buna göz yummaq olardı. Deyildiyinə görə, bəzi mədəniyyət ocaqları da kommersiya strukturlarına verilir.

Əgər mədəniyyətdən söhbət gedirsə, AzərTAC da, kinostudiya da, teatr da mədəniyyətdir. Onun 70-80-ci ildə yaranmış maddi-texniki bazasını hərə öz şəxsi mənafeyi üçün dağıdacaqsa, biz nə etməliyik? Həmin binalar xalqın, dövlətin vəsaiti hesabına tikilmişdir. Kinostudiyanın binası kimi tikililərə nə qədər vəsait qoyulmuşdur? Axı bütün bunlar xalqın cibindən getmişdir. İndi ola bilərmi ki, bir necə adam şəxsi mənafeyi üçün bundan istifadə etsin? Nizami kinoteatrı və AzərTAC yerləşən binalar memarlıq abidələridir. Böyük memarlarımız Sadıq Dadaşovun və Mikayıl Hüseynovun layihələri əsasında tikilmişdir. Bakını bəzəyən, gözəlləşdirən binalardır.

O vaxtlar Sov. İKP-nin puluna biz indiki "Azərbaycan" nəşriyyatı üçün böyük bina tikdik. AzərTAC (o zaman Azərinform adlanırdı), "Xalq qəzeti" (keçmiş "Kommunist") həmin binaya köçməyərək öz yerlərində qaldılar. İndi deyirlər ki, "Xalq qəzeti" də öz otaqlarını ona-buna paylayır. Həmin "Azərbaycan" nəşriyyatının binasının tikilməsi üçün şəxsən mən özüm çox əziyyət çəkmişəm: Moskvadan – Mərkəzi Komitədən pul almaq, tikinti işlərinin gedişi ilə məşğul olmaq və s. Nəticədə orada böyük bir poliqrafiya bazası yaradılmışdı. İndi

onun da bəzi yerlərini xüsusi strukturlara veriblər. Mən kommersiya strukturlarının əleyhinə deyiləm, onlara şərait yaratmaq lazımdır. Ancaq elmimizin, mədəniyyətimizin, mənəviyyatımızın hesabına yox.

Neçə ildir ki, Azərbaycan Dövlət Dram Teatrı işləmir. 1920-ci ildən indiyədək görünməmiş haldır ki, teatr bir belə müddət işləməsin. Bu, biabırçılıq deyilmi? Mən yenə də şahidi olduğum şeylərdən danışmaq istəyirəm. 1941-45-ci illərdə Bakıda Dram Teatrı da, Opera Teatrı da, Rus Dram Teatrı da, Gənc Tamaşaçılar Teatrı da, Musiqili Komediya Teatrı da işləyirdi. Yadımdadır, müharibə illəri ərzində Naxçıvan kimi ucqar bir yerdə teatr daim fəaliyyət göstərirdi. Burada əyləşənlərin yəqin ki, xatirindədir: 1973-cü ildə biz Azərbaycan Dövlət Dram Teatrının 100 illiyini böyük təntənə ilə qeyd etdik. Teatra Lenin ordeni verildi. Böyük sənətkarlarımız Mehdi Məmmədov, İsmayıl Osmanlı, İsmayıl Dağıstanlı, [100-101] Hökümə Qurbanova yüksək ada layiq görüldülər. İndi isə teatr işləmir, daha doğrusu, deyirlər ki, binası işləmir. Məgər binasız teatr olar? Polad Bülbüloğlu altı ildir mədəniyyət naziridir, bəs nə üçün indiyədək binanın təmirini başa çatdırmamışdır?

Biz o zaman indiki Respublika sarayını, "Gülüstan" sarayını il yarıma, kondisioner zavodu kimi nəhəng müəssisəni iki ilə tikdik. Necə olur ki, dörd ilə teatrın binasını təmir edə bilmirsiniz? Hamınız şəxsi işlərlə məşğul ola bilirsiniz, lakin mədəniyyətimizin belə bir incisi bu günə düşmüşdür. O zaman çoxları gileylənirdi ki, Azərbaycan Dövlət Dram Teatrının binası gözəl, yaraşıqlı tikilməmişdir. Lakin hər halda bina var idi və teatr işləyirdi. Sonradan əgər təmirə ehtiyacı vardısa, üç aya-beş aya, bir ilə təmir edəydiniz. İndi hanı Azərbaycan Dram Teatrı? Kollektiv dağılmışdır.

Vaxtilə, 70-ci illərin əvvəlində mənə deyirdilər ki, Ermənistanda, Yerevanda Azərbaycan Dövlət Dram Teatrı yaratmışıq. Özünə də Cəfər Cabbarlının adını vermişik. Amma teatrın binası yox idi. Ermənistanın rəhbərləri hər dəfə məni görəndə deyirdilər ki, biz Yerevanda Azərbaycan teatrı yaratmışıq, siz nə üçün Bakıda erməni teatrı açmırsınız. Mən də cavabında deyirdim ki, Stepanakertdə erməni teatrı var.

Yüz ildən artıq tarixi olan Azərbaycan Dövlət Dram Teatrı uzun müddət rəhmətlik Hacı Zeynalabdin Tağıyevin tikdirdiyi binada fəaliyyət göstərmiş, 1960-cı ildə isə indiki binaya köçmüşdür. Lakin Azərbaycan Dövlət Dram Teatrı indi səyyar teatr vəziyyətindədir. Siz isə deyirsiniz ki, teatr işləyir. Əgər belə əhval-ruhiyyə ilə yaşayırsınızsa, deməli, teatrı siz özünüz dağıdırsınız.

Bütün bunlar nədən irəli gəlir və mən bu mövzuya nə üçün toxundum? Ona görə ki, mədəniyyətimizin bugünkü vəziyyəti ilə bağlı burada ürək ağrıdan sözlər deyilirdi. Bu, Vətənini sevən hər bir azərbaycanlını, o cümlədən məni qəlbən incidir. Mədəniyyət ocaqlarına başçılıq edən adamlar indiyədək yaradılanları daha da artırmalı, əgər bunu bacarmırlarsa, heç olmasa, qoruyub saxlamalıdırlar. Dağıtmaq çox asandır. Son illərdə bu proses keçmiş SSRİ-nin hər yerində, o cümlədən Azərbaycanda da gedir. Lakin hər kəs fikirləşməlidir ki, nə yaratmışdır. Əgər yaratmamışsa, dağıtmağa mənəvi haqqı yoxdur.

Şübhəsiz ki, mən bu məsələlərin yoxlanılmasını tapşıracaq və ciddi ölçü götürəcəyəm. Elmimizlə, mədəniyyətimizlə, mənəviyyatımızla çox ehtiyatlı, çox diqqətli davranmaq lazımdır. Bu işləri bazar iqtisadiyyatının ixtiyarına vermək olmaz. Gərək Füzulinin yubileyini elə hazırlayıb keçirək ki, xalqımız mənəvi irsimizə, mədəni, milli irsimizə böyük hörmət bəslədiyimizin şahidi olsun. Biz Füzuli kimi dahilərin yaradıcılığından bəhrələnərək mədəniyyətimizin yeni böyük abidələrini yaratmalıyıq. [101-102]

Burada akademik Ziya Bünyadov bildirdi ki, Bertelsin Füzuli haqqında yazdığı əsər çap olunması nəzərdə tutulan kitabların siyahısına düşməmişdir. Bertels həqiqətən böyük şərqşünasdır və xüsusən Nizaminin yaradıcılığının tədqiqi sahəsində çox iş görmüşdür. Məsələn, Fuad Köprülünün yazdığı əsər bizim üçün gərəklidir. Amma Bertelsin yazdığı da çox lazımlıdır.

Yubiley komissiyası sədrinin müavinləri Elçin Əfəndiyev, Eldar Salayev və Anar Prezident Aparatının şöbə müdiri Fatma Abdullazadə ilə birlikdə yubileyin keçirilməsinə dair praktiki məsələlərlə məşğul olacaq və mənə vaxtaşırı məlumat verəcəklər. Sağ olun. [102-103]

## PREZİDENT SARAYINDA RESPUBLİKANIN ALİ VƏ ORTA İXTİSAS MƏKTƏBLƏRİNƏ QƏBULLA ƏLAQƏDAR KEÇİRİLƏN MÜŞAVİRƏDƏ GİRİŞ SÖZÜ

*2 avqust 1994-cü il*

Ali və orta ixtisas məktəblərinə qəbul respublikanın ictimai həyatında çox böyük hadisədir. Müvafiq nazirliklər, Prezident Aparatının işçiləri və Tələbə Qəbulu Üzrə Dövlət Komissiyası bu il də müəyyən hazırlıq işləri görmüşdür. Buna baxmayaraq, qəbulun yüksək səviyyədə aparılması üçün mən belə bir müşavirənin keçirilməsini vacib bilmişəm.

Son illər Azərbaycanda ali və orta ixtisas məktəblərinə qəbul test üsulu ilə keçirilir. 1992-93-cü illərdə bu üsul tətbiq olunub və öz müsbət nəticələrini verib. Ümumi ictimai rəy də, bizim də rəyimiz belədir ki, test üsulundan bu il də istifadə edilsin. Ötən iki ildə bu sahədə müəyyən təcrübə qazanılıb. Bu təcrübədən səmərəli istifadə olunması, əvvəllər buraxılan səhvlərin təkrar edilməməsi, bu üsulun təkmilləşdirilməsi indi əsas vəzifədir.

Bir daha qeyd edirəm ki, ali və orta ixtisas məktəblərinə qəbul böyük hadisədir. Bu məsələ ictimaiyyəti həmişə maraqlandırır, narahat edir. Çünki respublikamızın bu keçid dövründə, ağır sosial-iqtisadi vəziyyət dövründə, müharibə şəraitində təhsil almaq istəyən gənclərin sayı çoxdur. Ona görə də ən bilikli gənclərin ali məktəblərdə təhsil almasını təmin edən qəbul kampaniyası çox mühüm tədbir kimi qiymətləndirilməlidir.

Biz bütün bunları nəzərə alaraq, respublikada uzun illər yaranmış ənənələrə sadiq qalaraq bu məsələni belə geniş toplantının müzakirəsinə çıxarmağı məsləhət bilmişik...

### YEKUN SÖZÜ

... Bu gün biz qəbul imtahanları ilə əlaqədar məsələlərin əsas hissəsini nəzərdən keçirib müzakirə etdik. Bir daha demək istəyirəm ki, ali və orta ixtisas məktəblərinə tələbə qəbulu respublikamızda həmişə böyük ictimai xarakter daşıyan tədbir olub. Bu, təbiidir. Çünki on illərdir ki, Azərbaycanda gənclərin əksəriyyəti orta məktəbi bitirdikdən sonra ali təhsil almaq istəyir və onların sayı ilbəil artır. Amma bir tərəfdən, ali məktəblərimizin imkanları məhduddur, digər tərəfdən isə, bu məsələləri dövlət planlaşdırsa da, hamının ali təhsil alması, ola bilsin, respublikamız, cəmiyyətimiz üçün vacib deyildir. Əlbəttə, hər bir şəxs istəsə də, ali təhsil ala bilmir. Kim qəbul imtahanlarından keçə bilirsə, o da ali məktəb tələbəsi olur. [103-104]

Ali məktəblərə qəbul məsələsi keçmişdə də ictimaiyyətin diqqət mərkəzində olmuşdur. Aydındır ki, bir yerə beş-altı nəfər, hətta daha çox adam ərizə verir və onların yalnız ən layiqliləri, ən savadlıları tələbə adını qazanırlar. Bu sahədə əvvəllər buraxılan səhvlər, ali məktəblər, Ali və Orta İxtisas Təhsili Nazirliyi tərəfindən yol verilən sui-istifadə, rüşvətxorluq halları, abituriyentin biliyindən asılı olmadan, tanışlıqla ali məktəblərə qəbul edilmək, bəzi şəxslərin öz vəzifəsindən istifadə edərək uşaqlarını ali məktəbə düzəltməsi, bilikli gənclərin qəbul olunmasına maneə törədilməsi halları həmişə respublikada ictimaiyyət arasında müzakirə edilib. Bir sözlə, bu sahə həmişə diqqət mərkəzində olub. Ayrı-ayrı adamların müxtəlif qeyri-qanuni yollarla, mənəviyyatımıza zidd olan vasitələrlə ali məktəblərə qəbul edilməsi gənclərin, xüsusən çox istedadlı, lakin belə imkanları olmayan gənclərin bu hüquqdan – ali məktəblərdə təhsil almaq hüququndan məhrum edilməsi ictimaiyyətdə haqlı olaraq, həmişə narazılıq doğurmuş, təkcə ali məktəblərin rəhbərlərinin, yaxud imtahan götürən müəllimlərin ünvanlarına deyil, respublika rəhbərliyinin ünvanına da giley-güzarlara səbəb olmuşdur. Bildiyiniz kimi, biz keçmiş illərdə belə hallara qarşı çox ciddi mübarizə aparırdıq. Bu cür mənfi əməllərlə məşğul olan ali məktəb müəllimləri, işçiləri cəzalandırılmış, işdən uzaqlaşdırılmışdılar. Təəssüf ki, görülən tədbirlər istənilən nəticəni verməmiş, bu hallar davam etmişdir.

Odur ki, dünyada, daha doğrusu, bir sıra ölkələrdə sınaqdan çıxarılmış test üsulunun Azərbaycanda tələbə qəbulunda tətbiq edilməsi, zənnimcə, çox müsbət hadisələrdən biridir. 1992-ci ildə bu üsulun bizdə də tətbiq edildiyini eşitdikdə mən ona müsbət münasibətimi dərhal bildirmişdim və bu gün də bildirmək istəyirəm.

Şübhəsiz ki, bu üsulun tətbiqində səhvlər də, çatışmazlıqlar da olub. Bunlara baxmayaraq, 1992-ci və 1993-cü illərdə test üsulu ilə qəbul əvvəlki bütün illərdəkinə nisbətən daha keyfiyyətli, daha ədalətli olmuşdur və ali məktəblərin müəllimləri və rəhbərləri barəsində bir çox hallarda tamamilə əsassız olan narazılıq və söz-söhbətlər qurtarmasa da, xeyli azalmışdır. Elə baş prokurorun müavini də burada bir neçə rəqəm gətirdi. 1991-ci, 1992-ci ildə nə qədər şikayət gəldiyi yadıma düşdü. 1993-cü ildə isə daha az, təxminən 130 şikayət alınmışdı. Ola bilsin ki, bunlar elə bir ciddi göstərici deyildir, amma hər halda, yaxşılığa doğru meyl yarandığına dəlalət edir.

Doğrudur, ali məktəblərə daxil olmayanların hamısı şikayət etmir. Ancaq ayrı-ayrı adamlar şikayət edirlər. Məsələn, 1991-ci ildə təxminən 500 şikayət alınmışdı. Bu, heç də o demək deyildir ki, onların hamısı

narazı qaldığına görə şikayət etmişdir. Narazı olanlar ondan da çox idi. Şikayət edənlər həddindən artıq narazı qalan, yaxud öz hüquqlarının həddindən çox tapdalandığını görən, ədalətsizliyə dözməyən adamlardır. Ancaq açığını deyək, bu şikayətlər 1991-ci ildə də, sonrakı illərdə də elə [104-105] bir böyük nəticə verməmişdir, yəni şikayətlər verilmiş, prokurorluq orqanları, inzibati orqanlar bu şikayətlərə baxmışlar. Amma nəticəsi nə olub? Əgər həmin şikayətçi barəsində ədalətsizlik aradan qaldırılmış olsaydı, onda bu nəticə hesab edilərdi. Yaxud da şikayətçi barəsində ədalətsizlik edən adam cəzalandırılmışsa, bu da nəticədir. Amma əslində bunların heç birisi olmamışdır.

Deməli, test üsulu indiki dövrdə bizim üçün yəqin ki, ən əlverişli üsuldur. Odur ki, biz bunu müdafiə etməli, tətbiq etməli və daha da səmərəli şəklə salmalıyıq. Əvvəlki illərin təcrübəsinə əsaslanaraq bu il test üsulundan daha səmərəli istifadə edilməlidir. Bu, birinci növbədə Dövlət Tələbə Qəbulu Komissiyasının vəzifəsidir. Prezidentə bilavasitə tabe olan Dövlət Tələbə Qəbulu Komissiyasının yaradılması da Azərbaycanda ali təhsil, ümumiyyətlə, təhsil sahəsində yeni bir hadisədir. Mən bunu müsbət hadisə kimi qiymətləndirirəm. Çünki bu komissiya müstəqildir, heç bir nazirlikdən, yaxud heç bir ali məktəbdən asılı deyildir. Onun müstəqilliyi builki qəbulu da ədalətlə keçirməyə imkan yaradır. Ancaq bu o demək deyil ki, komissiyanın işində səhvlər və ya çatışmazlıqlar yoxdur. Xeyr, belə hallar da var. Demək olmaz ki, bu komissiyanın, onun sədrinin bütün işləri bizi qane edir. Əlbəttə, görülən işlər müsbət qiymətləndirilir. Lakin komissiyanın işi daha da təkmilləşdirilməlidir.

Bu işdə Təhsil Nazirliyi, şübhəsiz, bilavasitə iştirak edir. Çünki bütün imtahanlar Təhsil Nazirliyi ilə birlikdə, onun bazasında, onun kadrlarının iştirakı ilə keçirilir. Düzdür, indi onlar imtahan götürmür, sadəcə olaraq, nəzarətçidirlər. Amma nəzarətçi də gərək sözün əsl mənasında nəzarətçi olsun. Düz və ədalətli olsun. Öz vəzifəsini yerinə yetirərkən heç bir qəbahətə, əyintiyə yol verməsin. Ona görə də Təhsil Nazirliyinin də üzərinə çox böyük məsuliyyət düşür. Bu işi Təhsil Nazirliyi və Dövlət Tələbə Qəbulu Komissiyası birlikdə həyata keçirməlidirlər.

Keçmiş vaxtlar yadımdadır. Adətən bu işə çox adam qarışmağa çalışırdı. Mən vəzifəli şəxsləri nəzərdə tuturam. Biri tanışını, digəri qohumunu, bəziləri uşaqlarını instituta düzəltmək istəyir, rektorlara təsir göstərirdilər, onlar da bundan sui-istifadə edərək, özününküləri də kənarda qoymurdular. Nə gizlədəsən, belə xoşagəlməz hallar baş verib, bunlar məlumdur, qoy heç kəs də deməsin ki, yox, belə şeylər olmayıb. Onların təqsirkarları bu gün də aramızda yaşayırlar. Keçmişdə rektor, ali məktəblərdə digər vəzifələrdə işləyərək belə çirkin yollarla varlananlar indi də göz qabağındadır.

Biz o dövrü yaşadıq, o dövrün bütün əzab-əziyyətlərini görüb çəkdik. Bütün bu mənfi hallara qarsı imkan daxilində mübarizə apardıq. Mən şəxsən özüm barədə deyirəm. Biz bu gün də Azərbaycanda. cəmiyyətimizdə pak və ülvi mənəviyyatı bərqərar etmək üçün tələbə qəbulu kampaniyasına xüsusi fikir verməliyik. Çünki bu, sadə, yəni ayrı-ayrı adamlara dəxli olan iş deyildir. Bu, dövlətin, millətin gələcəyi ilə bağlı bir işdir. Bu il məktəblərimizə daxil olacaq 15 min gənc Azərbaycanımızın gələcə[105-106]yidir. Müstəqil Azərbaycanın həm dövlətini, həm siyasətini, həm iqtisadiyyatını, həm də elm və mədəniyyətini yalnız həqiqi ali təhsil, həqiqi bilik almış adamlar inkişaf etdirib irəlilədə bilərlər.

Biz keçmişdə diplomlu savadsızları da çox görmüşük. Bəzilərinin üç diplomu var idi. Amma başında bilik-savaddan əsər-əlamət yox idi. Diplomları başqa yollarla alanlar da vardı. Onlar indi də yaşayırlar, bəziləri, hətta çox yaxşı, çox firavan yaşayırlar.

Lakin biz bu günümüz, müstəqil Azərbaycanın gələcəyi haqqında düşünsək, gənc nəslin tərbiyəsinə ciddi fikir versək, ən əvvəl ali təhsil almağa qadir, yəni buna öz biliyi, zəkası, fitri istedadı ilə layiq olan gənclərin ali məktəblərə qəbul olunmasını təmin etsək, onda gələcəyimiz üçün böyük işlər görmüş olarıq. Odur ki, mən bu məsələyə xüsusi diqqət yetirirəm. Yadınızda olar, 1970-ci ildən başlayaraq hər il ali məktəblərə qəbul məsələləri ilə ciddi məşğul olur, tədbirlər görürdük. Müəyyən nəticələr də əldə edirdik. Mənfi hallarla yanaşı, daha çox müsbət nəticələrə nail olurduq. O illərdə biz başqa respublikalarda, Moskvanın və digər şəhərlərin ali məktəblərində təhsil almaq üçün hər il 600-900 gənc göndərirdik. İndi onların bir çoxu Azərbaycanda müxtəlif sahələrdə çalışır. Neçə-neçə adam başqa respublikalarda, xarici ölkələrdə yaşayır. Onların hamısı Azərbaycanın yetirmələri, Azərbaycanın sərvətidir. Onlar burada olmasalar da, yenə də azərbaycanlıdır, Azərbaycanın milli sərvətidir.

İndi biz müstəqil dövlətik, öz respublikamızın, öz taleyimizin sahibiyik, xalqımızın bu günü və gələcəyi üçün cavabdehik. Məhz biz cavabdehik. Biz deyəndə, mən birinci növbədə ziyalıları nəzərdə tuturam. Alimlərimizi, ali məktəblərimizdə çalışan yüksək səviyyəli, bilikli və zəngin təcrübəli şəxsləri nəzərdə tuturam. Bəli, biz hamımız Azərbaycanın gələcəyi üçün cavabdehik, gənc nəslin yetişməsi üçün cavabdehik. Biz bu yaxınlarda ayrıca bir nazirlik yaratdıq: Gənclər və İdman Nazirliyi. Fürsətdən istifadə edərək demək istəyirəm ki, bu nazirliyin fəaliyyətinə çox böyük ümidlər bəsləyirəm. Belə hesab edirəm ki, bütün ali məktəblər, Təhsil Nazirliyi, ümumiyyətlə, gənclərlə əlaqədar olan bütün nazirliklər, idarələr, yerli hakimiyyət orqanları, hüquq-mühafizə orqanları, bir sözlə, bütün müvafiq təşkilatlar Gənclər və İdman Nazirliyinə kömək göstərməlidirlər. Bildiyiniz kimi, keçmişdə dövlət, ictimai-siyasi quruluşumuza görə Kommunist Partiyası hakim mövqe tuturdu və gənclərlə iş də bu partiyanın rəhbərliyi altında komsomol vasitəsilə aparılırdı. Bu isə o sistemə, o quruluşa

uyğun bir struktur idi. Bunu inkar etmək olmaz. Həmin struktur da öz dövründə xeyli iş görmüşdür, elə bugünkü gənclərin böyük əksəriyyəti, demək olar, həmin o pillələrdən, o məktəbdən keçmişdir.

Ancaq indi başqa zamandır, şərait başqadır. Biz tamamilə fərqli olan ictimai-siyasi bir quruluşda yaşayırıq, öz iqtisadi, siyasi-ictimai cəmiyyətimiz var. Hüquqi-demokratik dövlət qururuq. Lakin bütün bunlar eyni zamanda gənclərlə daha ciddi məşğul olmağı tələb edir. Gənclərlə ciddi [106-107] məşğul olmaq Azərbaycanın gələcəyi haqqında düşünmək, gələcəyi naminə çalışmaq deməkdir. Ona görə də yenə deyirəm: bu nazirlik yüksək səviyyədə fəaliyyət göstərməlidir və biz gənclərlə işimizi gücləndirməliyik. Bununla yanaşı, ilk növbədə ali məktəblərin, ümumiyyətlə, təhsil ocaqlarının işi yaxşılaşdırılmalıdır. Bilirik, bu sahədə çalışan adamların çoxunun, demək olar, əksəriyyətinin maddi vəziyyəti ağırdır. Amma buna dözmək, gələcəyimiz naminə dözmək gərəkdir. Dözmək lazımdır ki, bu keçid dövrünü müvəffəqiyyətlə ötüb gedək, müstəqilliyimizi möhkəmləndirə bilək.

Burada dedilər ki, bəziləri müəllimliyi buraxıb alverlə məşğuldur. Beləleri də var. Nə etmək olar, onları buna bəlkə də həyat vadar edir. Amma həqiqi müəllim, müəllimlik sənətini doğrudan da sevən adam, nə qədər məhrumiyyətlərə dözdü.

Yaxşı yadımdadır, 1941-45-ci illər müharibəsini görən adamların da xatirindədir, o vaxtlar insanlar nə qədər məhrumiyyətlərə dözdülər. Bəli, dözdülər. Müharibə də qurtardı, ölkədə əmin-amanlıq da yarandı, hamı, o cümlədən müəllimlər də yaxşı yaşadılar. Xatirimdədir, o vaxtlar, yəni müharibə illərində mənə dərs verən müəllimlərdən bəziləri gedib bazarda xırda-xuruş satırdılar, çünki dolana bilmirdilər. Buna baxmayaraq, sonra gəlib müəllimliyini etdilər.

Tələbə qəbulu məsələsinə kənardan müdaxilə meylləri keçmişdə olduğu kimi, indi də var. Yadımdadır. Keçən il bu işlərlə məşğul olan şəxslər mənə bildirdilər ki, müəyyən adamlar tələbə qəbulunun gedişinə müdaxilə etmək istəmişlər, bəziləri yenə də öz vəzifəsindən istifadə edərək bu işə qarışmağa can atmışlar. Biz belə hallara o vaxt da yol vermədik və indi də xəbərdarlıq edirəm: məsuliyyət Dövlət komissiyasının, Təhsil Nazirliyinin üzərinə düşür. Burada bir mərkəz var. Mən Prezident Aparatının müvafiq şöbəsini nəzərdə tuturam. Onun müdiri Fatma Abdullazadədir. Bütün məsələlərin əlaqələndirilməsini mən Fatma xanıma tapşırır və tələb edirəm ki, hamı ona tabe olsun. Fatma xanım bu məsələlərlə ciddi məşğul olmalı və bütün təşkilatların fəaliyyətini əlaqələndirməlidir.

Bir neçə mühüm mərhələ var. Bunlar testlərin hazırlanması, mətbəədə çap edilməsi, imtahan verilən yerlərə çatdırılmasıdır. Mən bu mərhələləri görürəm, amma hesab edirəm ki, bu işlərlə məşğul olan şəxslər həmin mərhələləri daha aydın görməlidirlər. Buna görə də istərdim ki, siz məsələlərə ciddi fikir verəsiniz və bəzi incə məqamlara, bir növ təhlükəli mərhələlərə diqqəti gücləndirəsiniz ki, ardıcıllıq heç yerdə pozulmasın. Necə deyərlər, o nazik tel heç yerdə qırılmasın. Çalışmalısınız ki, hər şey tələb edilən səviyyədə olsun və biz qarşımıza qoyduğumuz məqsədə çata bilək.

Bir daha deyirəm, indi tələbə qəbulu kampaniyasını Azərbaycanın bütün ictimaiyyəti izləyəcəkdir. Əgər 55 min abituriyent sənəd vermişsə, bu rəqəmi təxminən 5 dəfə artıq hesab edin. Axı Azərbaycanda ailə üzvlərinin sayı beş-altı nəfər olur. Əgər bir ailədən bir oğlan və ya qız [107-108] imtahan verirsə, deməli, bütün ailə buna maraq göstərir. Üstəlik, abituriyentlərin qohum-əqrəbası da maraqlanır. Bir sözlə, abituriyentin bütün doğmaları və qohum-əqrəbası onun üçün həyəcan keçirir, onun necə imtahan verdiyini soruşurlar. Belə şeylər həyatımızda təbii və adi hallardır. Ona görə də təkcə abituriyentlərin ailələrini götürsək, görərik ki, bir neçə yüz min adam burada bilavasitə maraqlıdır. Lakin cəmiyyət də buna maraq göstərir. Əksəriyyət ona görə maraqlıdır ki, hamıda vətəndaşlıq hissləri, vətənpərvərlik hissləri yaşayır, Vətənin gələcəyi barədə düşünür. Buna görə də istəyirlər ki, hər şey ədalətli olsun. Ali məktəblərə doğrudan da ən istedadlı gənclər daxil olsunlar.

Başqa niyyətlə maraqlanan adamlar da var. Onlar istəyirlər ki, bu işlərdə hökmən mənfi bir şey olsun və bunu əldə bayraq edərək hay-küy qaldırsınlar. Desinlər ki, əllərindən bir iş gəlmədi, bunu bacarmadılar, onu yarıtmadılar. Cəmiyyətdə heç vaxt hamı bir fikirdə, bir səviyyədə, bir düşüncədə ola bilməz. Bu da təbiidir. Xüsusən də indi, fikir müxtəlifliyi, demokratiya, söz azadlığı və digər bu kimi amillər Azərbaycan Respublikasının, cəmiyyətimizin atributlarına çevrildə.

Bilmək lazımdır ki, bu proseslərə əks mövqedən müdaxilə edən qüvvələr də var və onlar hər bir nöqsandan istifadə edəcəklər. Mən tək buna görə demirəm, çünki buna heç fikir də vermirəm. Ona görə də demirəm ki, nöqsan buraxılmasın və kim isə bu barədə yaza bilməsin. Ona görə deyirəm ki, ədalətsizlik olmasın, gələcəyimiz saydığımız gənclər – bu il ali məktəblərə qəbul edilən gənclərimiz təhsil almağa doğrudan da layiq olsunlar.

Güman edirəm ki, siz bu tövsiyələri nəzərə alacaqsınız. Şəxsən mən bu işə ciddi nəzarət edəcəyəm. İnzibati orqanların vəzifələri məlumdur. Burada daxili işlər naziri də, baş prokurorun müavini də, Bakı icra hakimiyyətinin başçısı da çıxış etdilər. Rayonların icra hakimiyyətlərinin başçıları da buradadırlar. Güman edirəm ki, onlar da öz vəzifələrini bilirlər. Daha elə olmasın ki, ağır işi kim isə başqasının üzərinə atsın. Hər kəs öz üzərinə düşən vəzifəni yerinə yetirməyə, digər sahədə işin öhdəsindən gələ bilməyənlərə də kömək etməyə çalışmalıdır. Bu, ümumxalq, ümummilli, ümumdövlət işimizdir. Hər kəs əlindən gələni etməlidir ki, bu iş uğurla başa çatsın.

Ali təhsil məsələsi ilə məşğul olan şəxslər, ali təhsil ocaqlarımızın rəhbərləri buradadırlar. Odur ki, fürsətdən istifadə edib ali təhsil barəsində fikirlərimi söyləmək istəyirəm. Mən bir neçə aydır ki, bu məsələ ilə çox məşğul olmuşam. Ali təhsilə, ümumiyyətlə, təhsil məsələlərinə dair böyük müşavirə keçirmişəm. Qəbul imtahanları qurtardıqdan sonra daha bir müşavirə keçirəcəyik. Mən bu barədə göstəriş vermişəm. Bildiyiniz kimi, ali təhsil ocaqları, universitetlərimiz Azərbaycan mədəniyyətinin, elminin, milli mənəviyyatının zirvəsidir. Ona görə də bu mənəvi məsuliyyəti təhsil sahəsində, xüsusən ali məktəblərdə işləyən şəxslər gərək yaxşı dərk etsinlər. Arzu edərdim ki, indi cəmiyyətimizdə dəyişikliklərin baş verdiyi, mühüm proseslərin getdiyi, xüsusən Azərbaycanın [108-109] müstəqil bir dövlət kimi formalaşdığı dövrdə ali məktəb işçiləri, ümumiyyətlə, təhsil sahəsində çalışan şəxslər öz mənəvi məsuliyyətini başa düşsünlər, hər cür mənfi hallardan uzaqlaşsınlar. Ali məktəbləri çirkin, mənfi hallardan təmizləsinlər. Bu, mütləq edilməlidir.

Bəzi şəxslər uzun illər ərzində müəyyən mövqe tutmuş, bundan öz şəxsi mənafeləri üçün istifadə etmişlər, milli mənafelərimizə çox böyük zərbələr vurmuş, zərər gətirmişlər. Beləlrun ali məktəb sistemindən, ümumiyyətlə, təhsil sistemindən uzaqlaşdırılmalıdır.

Mən Lidiya Rəsulovanı təhsil naziri təyin etdim. Bu addımı atarkən belə fikirdə idim və öz fikrimdə qalıram ki, Lidiya Rəsulova təcrübəli kadrdır, respublikada tanınmış adamdır və ali təhsil sahəsində çox böyük təcrübəsi var, yüksək mənəviyyata malikdir. Əminəm ki, o, öz təcrübəsindən, biliyindən istifadə edərək, hazırladığımız tədbirləri həyata keçirəcəkdir.

Təəssüf ki, bir qrup neqativ adamlar bizim bu tədbirə qarşı çıxırlar. Lidiya Rəsulova xəstələnib, lakin mən əminəm ki, o, müalicə olunub qayıdacaq və işləyəcəkdir. Mən bunu tək Lidiya Rəsulovaya görə demirəm. Bilirsinizmi, öz şəxsi mövqelərini hər şeydən üstün tutaraq, təhsil sahəsində çirkin işlər görən adamların öz mənfi niyyətlərinə nail olmaq üçün necə alçaq vasitələrə əl atdıqlarını görürəm. Mən bir daha xəbərdarlıq edirəm: qoy heç kəs güman etməsin ki, belə əməllər gözdən qaçacaq, yaxud onları görən yoxdur, bunlara görə cəza verilməyəcəkdir. Xeyr. Belə şey olmayacaqdır. Mən bir prezident kimi Azərbaycan Respublikasının bu ali dövlət vəzifəsini öz üzərimə götürərkən xalqa söz vermişəm, mən öz sözümün üstündə durmuşam və axıra qədər duracağam, son damla qanımadək, son nəfəsimədək sözümdən dönməyəcəyəm. Heç kəs də iradəmi qıra bilməyəcək. Ona görə də belə adamlar bilməlidirlər ki, çirkin əməllərindən çəkinməsələr, onların haqqında ciddi cəza tədbirləri görüləcəkdir. Yenə də deyirəm, bizim ali təhsil sahəsində, ali məktəblərimizdə saf mənəviyyatlı, saf amallı adamlar çalışmalıdırlar. Başqa məqsəd güdənlər, başqa niyyətdə olanlar kənara çəkilməlidirlər.

Ona görə də təhsil nazirinin müavinlərinə, ali məktəblərimizin rektorlarına, ümumiyyətlə, təhsil sahəsində işləyən vicdanlı, namuslu, saf mənəviyyatlı adamlara müraciət edirəm: hər bir kəs mənim bu sözlərimi nəzərə alaraq, öz işinin, öz vəzifəsinin əhəmiyyətini başa düşsün və bilsin ki, kimdən nə tələb olunur. Tələb isə o qədər də böyük tələb deyildir: xalqımıza, Vətənimizə, müstəqil dövlətimizə sədaqətlə, təmiz niyyətlə, saf mənəviyyatla xidmət etmək. Kim bunu bacarmırsa, qoy başqa sahələrə getsin. İndi o qədər sahə var ki, oralarda bu tələblər çox da vacib deyildir. Ancaq bizim bu müqəddəs sahələrimizi bundan sonra da ləkələmək, rüsvay etmək olmaz. İndiyədək olanlar bəsdir. Çirkin əməllərə son qoymaq lazımdır.

Ümumiyyətlə, bu gün burada, ziyalılar qarşısında bildirmək istəyirəm ki, son vaxtlar cürbəcür söz-söhbət gedir. Guya burada hansısa bir qrup yaradılıb, orada başqa bir qrup təşkil olunub. Axır vaxtlar Moskva qəzetləri Azərbaycan əleyhinə məqalələr dərc edir, ayrı-ayrı adamlar bu yazı[109-110]ların təsiri altına düşür və belə fikirləşirlər ki, Azərbaycanda yenə də qarışıqlıq olacaq, yenə də dəyişikliklər baş verəcəkdir. Hətta bir neçə Moskva qəzetinin müxbirləri yanıma gəlmiş, burada məni bir neçə gün gözləmişlər ki, müsahibə alsınlar, görsünlər mən nə fikirdəyəm. Mən onların çoxuna heç müsahibə vermək istəmirəm, çünki bilirəm, bu məqalələr xüsusi olaraq hazırlanmışdır və fitnəkar xarakter daşıyır. Azərbaycanda ictimai-siyasi sabitliyin pozulmasına yönəldilmişdir. Ona görə də mən onlara nə cavab verirəm, nə də əhəmiyyət.

Amma, bununla yanaşı, bəzilərinə dedim, suallarına da cavab verdim ki, Azərbaycan müharibə şəraitindədir, Azərbaycan torpaqlarının 20 faizi işğal olunmuşdur, Azərbaycan öz torpaqlarını geri qaytarmaq istəyir. Respublikanın rəhbərliyi və prezident kimi mən Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi üçün gecə-gündüz çalışıram. İqtisadi çətinliklər, sosial çətinliklər var. Keçmiş Sovet respublikalarını bürüyən böhran Azərbaycanda da var və müharibə ilə əlaqədar daha da dərinləşir, ayrı-ayrı qruplar da müxtəlif yollarla gedərək iqtisadi və sosial vəziyyətimizi çətinləşdirirlər. Amma qoy heç kəs güman etməsin ki, onlar Azərbaycanda ictimai-siyasi sabitliyi poza bilərlər. Yox, poza bilməyəcəklər! Azərbaycan bir il bundan öncə vətəndaş müharibəsinin üzünü gördü. Azərbaycanı parçalamaq, onu dağıtmaq istəyən adamlar gördülər ki, onların qarşısı alındı, hətta bəziləri cəzasını da aldı. Bundan sonra da alacaqlar. Prezident kimi şəxsən mən yol verməyəcəyəm ki, Azərbaycanda kimsə ictimai-siyasi sabitliyi pozsun. İstəyir dövlət strukturunda olsun, istəyir kənarda olsun, istəyirsə də mühacirətdə yaşasın, fərqi yoxdur, biz heç kəsə bunun üçün imkan verməyəcəyik. Bir də ki, onların heç birinin burada sosial bazası yoxdur. Xalqımız da belə şeylərə yol verməz. Mən xalqımızın əhval-ruhiyyəsini bilirəm. İkincisi də, Azərbaycan müstəqil dövlətdir, bu dövlətin isə başçısı var, prezidenti var. O, dövləti, Azərbaycan vətəndaşlarını, müstəqil Azərbaycan cəmiyyətini, onun hüquqlarını qorumağa qadirdir.

Odur ki, qoy orada-burada şayiə yayanlar, yaxud bu şayiələrə uyan, çirkin niyyətlər güdən adamlar bunu eşitsin və bilsinlər: Azərbaycanın bu ağır dövründə heç kəsə heç vaxt ictimai-siyasi sabitliyi pozmağa imkan

verilməyəcəkdir. İndi bizim əsas məqsədimiz müharibədən çıxmaq, işğal olunmuş torpaqları geri qaytarmaq, bu məsələləri sülh yolu ilə həll etməkdir. Bu sahədə müəyyən addımlar atılır, siz bunu bilirsiniz. Mayın 12-dən indiyədək atəş kəsilibdir. Ermənistanla Azərbaycan arasında altı ildən artıq gedən müharibə dövründə ilk dəfədir ki, bu, uzunmüddətli atəşkəsdir və indi də davam edir. İyulun 27-də bu atəşkəs rejimini möhkəmləndirmək üçün yeni bir sənəd imzalandı, yəni Azərbaycanın Müdafiə Nazirliyi, Ermənistanın Müdafiə Nazirliyi Rusiyanın müdafiə və xarici işlər nazirlərinə, ATƏM təşkilatı Minsk qrupunun sədri Yan Eliassona məktub göndərərək bildirdilər ki, atəşkəs davam edəcək və Böyük Siyasi Saziş imzalanana qədər atəşkəs rejimi saxlanılacaqdır. Biz bu istiqamətdə çalışır, fəaliyyət göstəririk. [110-111]

Başqa sahələrdə də işlərimiz çoxdur. Ona görə də kim bizə mane olmaq istəyirsə, Azərbaycanın belə ağır vəziyyətində kimlərsə yenə öz şəxsi mənafeyi naminə hər hansı çirkin yolu tutmağa çalışırsa, onların qarşısı alınacaqdır. Odur ki, qoy heç kəs cürbəcür şayiələrə, Azərbaycanın əleyhinə olan hər cür məqalələrə fikir verməsin. Bir də deyirəm, şəxsən mən onların heç birinə əhəmiyyət vermirəm. Çünki xalqımızın iradəsinə, xalqımızın mənəviyyatına inanıram və şübhəsiz ki, müstəqil Azərbaycan dövlətinin qüdrətinə arxalanıram. Fürsətdən istifadə edib bu sözləri bu gün mən həm sizə, həm də informasiya orqanları vasitəsilə bütün ictimaiyyətə çatdırmağı lazım bilirəm.

Nəhayət, belə hesab edirəm ki, bugünkü müşavirəmiz, burada gedən söhbətlər, vəzifələrin müəyyənləşdirilməsi böyük ictimai-siyasi əhəmiyyəti olan tədbirin müvəffəqiyyətlə həyata keçirilməsini təmin edəcəkdir. Bu işdə hamınıza uğurlar arzulayıram. Sağ olun. [111-112]

## PREZİDENT SARAYINDA RESPUBLİKA İQTİSADİYYATININ VƏZİYYƏTİNƏ HƏSR OLUNMUŞ GENİŞ MÜŞAVİRƏDƏ GİRİŞ SÖZÜ

*11 avqust 1994-cü il*

Respublikamız, iqtisadiyyatımız keçid dövrünü yaşayır. İqtisadiyyatda dəyişikliklər baş verir, müəyyən proseslər gedir. Bunlar və bir çox digər obyektiv səbəblər iqtisadiyyatın ahəngdar fəaliyyət göstərməsini, istənilən səviyyədə inkişaf etməsini müəyyən qədər ləngidir. Ancaq bunlarla yanaşı, mövcud imkanlardan lazımınca istifadə edilmədiyinə görə iqtisadiyyatda irəliləyiş əvəzinə aybaay geriləmə müşahidə olunur.

Həyatımızda, iqtisadiyyatda davam edən dəyişikliklər prosesi şübhəsiz ki, iqtisadiyyatın yeni formalarının tətbiq olunmasını tələb edir və biz bu yolla gedirik. İqtisadiyyatımızın əksər hissəsində hələ ki, iqtisadi münasibətlər, idarəetmə formaları əvvəlki kimi qalmaqdadır. Hələ ki, keçmiş metodlardan, üsullardan istifadə edirik və yəqin ki, hələ bundan sonra da istifadə edəcəyik.

Biz bu gün iqtisadiyyat sahəsində 1994-cü ilin birinci yarısının göstəricilərini, planların yerinə yetirilməsi yekunlarını müzakirə etmək qərarına gəlmişik. Belə müşavirələr, müzakirələr keçmiş dövrün üsul-idarəsindən qalmış əlamətlərdir. Ancaq biz keçid dövründə bu yollardan hələ ki, istifadə edirik və istifadə etməliyik.

İqtisadiyyatımızın əsas hissəsini təşkil edən aparıcı sahə sənayedir, əsaslı tikintidir və bunlarla sıx bağlı olan sosial sahədir. Ona görə də bugünkü müşavirəni biz həmin sahələrə həsr etməyi nəzərdə tuturuq. Kənd təsərrüfatı da iqtisadiyyatımızın böyük bir sahəsidir. Əhalimizin çox hissəsi bu sahə ilə məşğul olur. Kənd təsərrüfatı istər bu sahədə çalışanlar, istərsə də bütün əhali üçün böyük əhəmiyyətə malik bir sahədir. Ancaq biz istəyirik ki, bu gün sənaye, əsaslı tikinti və sosial sahələrdəki vəziyyətə baxaq. Kənd təsərrüfatının, aqrar sahənin vəziyyətinə də belə bir müşavirə həsr olunacaqdır.

Bugünkü müşavirədə gərək açıq söhbət aparaq, vəziyyət tamamilə təhlil olunsun, mövcud nöqsanlar, onların səbəbləri aşkar deyilsin, eyni zamanda hazırkı şəraitdə nöqsanların aradan qaldırılması, sənaye potensialından səmərəli istifadə edilməsi yolları göstərilsin. Müşavirənin məqsədləri bundan ibarətdir.

Gərək müşavirə iştirakçılarının hamısı bu məsələlərə məsuliyyətlə yanaşsın, çıxış edən şəxslər konkret məlumatlar, təkliflər versinlər. Ümumi söhbətlərə ehtiyac yoxdur. Bugünkü müşavirə keçmiş dövrləri xatırlatsa da, biz iqtisadiyyatımızda böyük dəyişikliklər apararaq, qarşıya [112-113] çıxan problemlərin həll olunması yollarında da yeniliklərə ciddi fikir verməliyik. Ona görə rica edirəm ki, müşavirədə çıxış etmək istəyənlər bunları nəzərə alsınlar. Biz gərək vaxtdan səmərəli istifadə edək, konkret söhbət aparaq. Məqsədimiz böyük bir müşavirə keçirmək deyil, iqtisadiyyatda ilin sonunadək işlərin yaxşılaşdırılması üçün müəyyən tədbirlər görməkdir.

Biz bu gün obyektiv vəziyyəti düzgün qiymətləndirməliyik – nə nöqsanları, gerilikləri gizlətmək, nə də ki, çətinlikləri şişirtmək, yaxud da onları faciəli hal hesab etmək lazım deyil. O meyl də, bu meyl də bizim xeyrimizə deyil. Belə təklif var ki, baş nazirin müavini, iqtisadiyyat naziri Səməd Sadıqovun məlumatı dinlənilsin. Sonra bir sıra şəxslərə çıxış etmək, öz təkliflərini söyləmək üçün söz veriləcəkdir. Eyni zamanda müşavirə iştirakçılarının hər biri müzakirədə iştirak edə bilər.

### YEKUN SÖZÜ

Bugünkü çox ətraflı müşavirə bir daha göstərdi ki, cari ilin birinci yarısının iqtisadi göstəriciləri, yekunları qənaətbəxş hesab edilə bilməz. Demək olar, bütün sahələrdə istehsal keçən ilin müvafiq dövründəkinə nisbətən aşağı düşmüşdür, hətta bəzi sahələrdə lap aşağı olmuşdur. Lakin indi biz iqtisadi göstəricilərimizi təkcə istehsalın həcmi ilə ölçmürük. Biz bunu istehsal olunmuş məhsulların satılması, respublika xəzinəsinə vəsait gətirməsi ilə, istehsal müəssisələrinin özlərinin maliyyə vəziyyətinin yaxşılaşması ilə ölçürük. Açıq demək lazımdır ki, bu baxımdan vəziyyət yaxşı deyildir. İstehsal da aşağı düşmüşdür, buraxılan məhsulların bir qismi də, burada deyildiyi kimi, satılmamış qalır.

Sənaye, tikinti sahəsində vəziyyət çox ağırdır. Bütün bunlar isə, birlikdə götürüldükdə, iqtisadiyyatın böhran vəziyyətində qaldığını göstərir. Beləliklə, əhalinin rifahının yaxşılaşması üçün müsbət bir nəticə nəzərə çarpmır. Odur ki, narahatlığımız tamamilə əsaslıdır, belə bir müşavirənin keçirilməsi, vəziyyətin ətraflı təhlil edilməsi və indiki şəraitdə əlavə tədbirlər görülməsi olduqca zəruridir.

Respublikamızın böhranlı vəziyyəti neçə illərdir davam edir. Bunun əsas səbəbi bir neçə il bundan əvvəl iqtisadiyyatda yaranmış proseslərdir. Bu proseslər çoxdan – Azərbaycan hələ Sovet İttifaqının tərkibində olarkən, 1985-86-cı illərdə başlanmışdır. Yəni iqtisadiyyatda səmərəliliyin artırılması, müəssisələrə sərbəstlik

verilməsi, təsərrüfat hesabı ilə iş üsullarının tətbiq edilməsi və beləliklə də, istər iqtisadiyyatın idarəetmə formalarının, istərsə də mülkiyyət formalarının dəyişdirilməsi prosesi hələ o vaxtdan başlanmışdır. Lakin təəssüflər olsun ki, Sovet İttifaqı çərçivəsində də bu işlər çox pərakəndə halda görülür, lazımi səviyyədə aparılmırdı. Buna görə də müsbət nəticələr əldə etmək əvəzinə iqtisadiyyatda mənfi meyllər daha da güclənmişdi. Sonralar Sovet İttifaqı parçalan[113-114]dıqda isə keçmiş İttifaq respublikalarının hamısında, demək olar, eyni vəziyyət yaranmışdır.

Bu gün biz respublikamızın iqtisadiyyatında, xüsusən onun əsas sahəsi olan sənayedə, tikintidə, sosial sahədə vəziyyəti müzakirə edərkən deməliyik ki, kənd təsərrüfatında da vəziyyət belədir, bəlkə bundan da pisdir. Ümumiyyətlə, iqtisadiyyatda vəziyyəti təhlil edərkən müqayisələr aparırıq. Bu, keçmişdə də belə idi. Əlbəttə, biz öz vəziyyətimizi iqtisadi cəhətdən yüksək inkişaf etmiş dövlətlərin vəziyyəti ilə müqayisə edə bilmərik. Lakin keçmişdə bərabər şəraitdə olmuş indiki müstəqil dövlətlərin vəziyyəti ilə öz vəziyyətimizi müqayisə edə bilərik. Bu barədə statistika məlumatı da var.

Bu məlumatlar göstərir ki, Azərbaycanın indiki vəziyyəti Rusiyada da, Ukraynada da, Belorusda da, qonşu Zaqafqaziya respublikalarında da, Orta Asiya respublikalarında və Qazaxıstanda da mövcuddur. Rəqəmlərdə müəyyən fərq ola bilər. Məsələn, istehsalın göstəriciləri bəzilərində yüksək, bəzilərində aşağı ola bilər. Mən bu müşavirəyə hazırlaşarkən həmin rəqəmlərə baxmışam. Bu respublikalarda istər iqtisadiyyat, istərsə də maliyyə sahəsində vəziyyət Azərbaycanda olduğu kimidir. Yenə də deyirəm, əlbəttə, fərq var. Amma o fərq o qədər də böyük deyildir. Bu bir daha göstərir ki, Sovet İttifaqının tərkibində olmuş respublikalar 70 il eyni iqtisadi formadan istifadə etmişlər, indi isə başqa iqtisadi formalara keçir, mülkiyyət formalarını dəyişdirirlər və təbii olaraq böyük çətinliklərlə qarşılaşırlar. Məhz bu çətinliklər iqtisadiyyatı böhran vəziyyətində saxlayır.

Amma Azərbaycanın iqtisadiyyatındakı vəziyyətə altı ildən bəri davam edən müharibə, şübhəsiz, təsir göstərir. Xüsusən də son vaxtlarda. Müharibə, ordu və Azərbaycan torpaqlarının müdafiəsi ilə bağlı tədbirlər çox böyük məbləğdə vəsait tələb edir. Bu bir tərəfdən. Digər tərəfdən isə müharibə bizim hamımızın diqqətini respublikanın müdafiəsi ilə əlaqədar olan məsələlərə yönəldir. Buna görə də iqtisadi məsələlərlə məşğul olmağa az vaxt qalır. Lakin bu, elə böyük bir səbəb deyildir. Ən əsas səbəb iqtisadiyyatımızın müharibə şəraitində fəaliyyətidir, bu müharibənin iqtisadiyyatımıza mənfi təsir göstərməsidir. Əgər bunu da nəzərə alsaq, görərik ki, iqtisadiyyatımızdakı böhranlı vəziyyət digər respublikalardakına nisbətən heç də pis deyildir.

Amma bu, bizə heç vaxt təskinlik verə bilməz, heç vaxt bizi arxayın sala bilməz. Həm də biz razı ola bilmərik ki, başqa respublikalardakı kimi, bizdə də böhran adi, yaxud normal bir hal olsun. Xeyr, buna yol vermək olmaz. Biz respublikamızın bütün imkanlarından istifadə etməliyik. Azərbaycanda isə iqtisadiyyatın inkişafı üçün imkanlar böyükdür. Əvvəla, dəfələrlə qeyd edildiyi kimi, respublikamızın həm yeraltı, həm də yerüstü sərvətləri zəngindir, torpaqlarımız münbit və bərəkətlidir. İkincisi, Azərbaycanda həm sənaye sahəsində, həm kənd təsərrüfatı sahəsində, həm də tikinti və sosial sahələrdə çox böyük, çox güclü iqtisadi potensial vardır.

Cari əsrin son 70 ili ərzində Azərbaycan Respublikasında böyük iqtisadi potensial yaradılmışdır, iri fabrik və zavodlar tikilmiş, geniş istehsal fondları təşkil edilmişdir. Bir sözlə, imkanlarımız böyük və genişdir. Buna görə də həmin imkanlardan istifadə etmək, özü də [114-115] səmərəli istifadə etmək böhrandan çıxmaq üçün əsas yoldur. Lakin təəssüf ki, sənaye müəssisələrimiz əvvəlki illərdəkinə nisbətən öz imkanlarının 20 faizi, bəziləri 30 faizi, bəziləri də, ola bilsin, 50 faizi səviyyəsində fəaliyyət göstərir. Şübhəsiz ki, bütün bunlar istehsalın azalmasına, maliyyə vəziyyətimizin pisləşməsinə gətirib çıxarır.

Dəfələrlə qeyd etdiyimiz kimi, müstəqil Azərbaycan dövlətinin iqtisadiyyat sahəsində strateji yolu, strateji xətti bundan ibarətdir ki, bizdə mülkiyyət forması tədricən dəyişdirilməli, iqtisadiyyatımız bazar iqtisadiyyatı əsasında qurulmalı, təşəbbüskarlığa geniş meydan verilməlidir. Məhz bu, iqtisadiyyatımızın strateji yoludur. Mən dəfələrlə demişəm, bu gün bir daha deməyə məcburam, ona görə ki, bəzən orda-burda danışırlar ki, yox, biz bu yolla getməyəcəyik, guya biz inzibati-amirlik yolu ilə gedəcəyik, dövlət müəssisələrinin dövlətin tabeliyində qalmasını təmin edəcəyik və beləliklə də iqtisadiyyatı inkişaf etdirəcəyik. Odur ki, mən bizim qəbul olunmuş strateji yolumuzu bir daha açıqlamaq istəyirəm. Biz bu yolla getməliyik. Amma elə getməliyik ki, bir tərəfdən, səhvlər buraxmayaq, digər tərəfdən isə, bu yolda uduzmayaq və ciddi nəticələr əldə edək.

Təəssüflər olsun ki, bu sahədə hələ lazımi tədbirlər görülməmişdir. Nəticədə söz-söhbət, danışıq çox, əməli tədbir isə yoxdur. Deyilənlərə görə bu yaxınlarda yeni bir partiya yaradılmışdır, – mən onun haqqında bir qədər sonra danışacağam. Həmin partiya qarşısına Azərbaycanda sosializm quruluşunu bərpa etmək, dövlət sosializmi yolu ilə getmək, keçmiş Sovet İttifaqını bərpa etmək məqsədləri qoymuşdur. Görürsünüzmü, belə fikirlərlə yaşayan adamlar da var. Düzdür, mən bizim dövlət orqanlarında belə adamları görməmişəm. Amma nə bilmək olar, bəlkə də bu fikirlərlə yaşayan adamlar var. Buna baxmayaraq, təəssüflər olsun ki, bəzi dairələrdə belə söz-söhbətlər gedir. Bunların hamısı mənasız, perspektivsiz söz-söhbətlərdir.

Əvvəla, bir müstəqil dövlət kimi Azərbaycan heç vaxt öz müstəqilliyini bir daha əldən verib başqa ittifaqa girməyəcəkdir. Bu qətidir, buna şəkk-şübhə olmasın. İkincisi, sosializm quruluşunun ən yüksək bəhrələrini görmüşük. Onun verdiyi bəhrələri heç kəs, heç vaxt inkar edə bilməz. Xüsusən bizim respublikamızda. Lakin o quruluş, o iqtisadi sistem özünün son həddinə gəlib çatmışdı. Buna görə də onun

sonrakı inkişafı mümkün olmadı, iqtisadiyyat, ümumiyyətlə, inkişaf dayandı və geriləmə prosesi başlandı. Təsadüfi deyildi ki, 1980-85-ci illərdə yeni yollar axtarmağa başladılar. Bu da yeganə bir yola gətirib çıxardı: iqtisadi islahatlar aparmalı, bazar iqtisadiyyatı yolu ilə getməli, bazar iqtisadiyyatı prinsiplərini tətbiq etməli.

Təbiidir ki, bunu bizim kimi ölkələrdə, yəni keçmiş sovet respublikalarında tətbiq etmək çətindir. Çünki 70 il hökm sürən iqtisadi formalardan, idarəetmə formalarından başqa formalara keçmək çətindir. Əsasən ona görə ki, bu formalar bir-birinə ziddir. Ancaq başqa yol yoxdur və biz bu yolla da gedəcəyik. Odur ki, bu sahədə lazımi tədbirlər görülməli, islahatlar aparılmalı, qanunlar hazırlanıb qəbul edilməlidir. Həm də bu yolla gedərkən müəyyən mərhələdə daha ağır vəziyyətə düşə bilərik. [115-116] Buna baxmayaraq, mən bunun gələcəyini çox müsbət görürəm, çünki iqtisadiyyatı inkişaf etmiş respublikaların həyatı, onların vətəndaşlarının həyat tərzi, iqtisadiyyatın səviyyəsi göz qabağındadır.

Mən buna bir də ona görə inanıram ki, Azərbaycan Respublikasının iqtisadi potensialı, təbii sərvətləri, sənaye potensialı infrastrukturu və digər imkanları çox zəngin, çox güclü, çox yüksək səviyyədədir. Əgər biz bütün bunlardan səmərəli istifadə etsək, yaxşı nəticələrə nail olarıq. Bu, bizim strateji yolumuzdur. Biz bu yolla getməliyik. Amma biz hər gün, hər ay, hər rüb və hər il yorulmadan çalışaraq respublikamızın iqtisadiyyatını inkişaf etdirməli və eyni zamanda adamları işlə təmin etməliyik, bunun nəticəsində maliyyə vəziyyətimizi yaxşılaşdırmalıyıq, vətəndaşlarımızın tələblərini, heç olmasa minimum tələblərini ödəməliyik və Azərbaycanı tədricən böhran vəziyyətindən çıxarmalıyıq.

Odur ki, bu tədbirlərimiz paralel surətdə həyata keçirilməlidir. Biz bir tərəfdən, strateji yolumuzu müəyyənləşdirməli və bu yolla getməli, qətiyyən ləngiməməliyik. Digər tərəfdən isə mövcud potensialımızdan hər an, hər gün səmərəli istifadə edərək, iqtisadiyyatımızda müsbət dəyişikliklər yaratmalıyıq. Verilən statistika məlumatlarından görünür ki, məsələn, ötən yarımilin son ayında, yəni iyunda iqtisadiyyatda bir balaca müsbət meyl əmələ gəlmişdir. Ola bilsin ki, bu, müəyyən təbii səbəblərlə bağlıdır. Bəlkə də görülmüş müəyyən işlərin nəticəsidir. Ancaq mən bunu böyük bir hadisə kimi qeyd etmək istəmirəm. Sadəcə olaraq, demək istəyirəm ki, elə bu vəziyyətdə də yaxşı nəticələr əldə etmək mümkündür. Ona görə də bugünkü vəzifəmiz mövcud potensialdan, istehsal müəssisələrimizin gücündən istifadə etməkdən, onları işlətməkdən, məhsul hazırlamaqdan, onu satmaqdan, gəlir götürməkdən və beləliklə də müəssisələrin iqtisadi və maliyyə vəziyyətini, şübhəsiz, yaxşılaşdırmaqdan ibarətdir.

Burada verilən məlumatlara görə, istehsal edilmiş məhsulların təxminən 50 milyard manat məbləğində olan hissəsi satılmamışdır. Bu mallar ya anbarlarda qalmışdır, ya da keçmişdəki kimi, istehsal olunmadığı halda, istehsal göstəricilərini yaxşı qələmə vermək məqsədilə saxtakarlıq edilmişdir. Natiqlərdən birinin dediyi kimi, ola bilər, məhsul göndərilib, lakin onun haqqı hələ alınmayıbdır. Bu da ola bilər. Lakin hər halda bu 50 milyard manatın əldə edilməməsinin nə ilə bağlı olmasının fərqi yoxdur. Fakt bundan ibarətdir ki, istehsal olunmuş mallardan 50 milyard manat məbləğində gəlir götürülməmişdir. Bax bu, çox böyük nöqsandır, ciddi qüsurdur. Bunu mütləq aradan qaldırmaq gərəkdir. Ona görə də hər bir müəssisədə, hər bir birlikdə, konsern və şirkətdə, hər bir nazirlikdə ciddi iş aparılmalıdır ki, bugünkü tələbləri ödəmək üçün mövcud imkanlardan istifadə edilsin.

Güman edirəm ki, istər böyük, istərsə də kiçik müəssisələrimizin zəngin təcrübəli rəhbərləri, – bizim belə kadrlarımız çoxdur – istehsalatın ümumi qayğıları ilə yaşasalar, onun hər bir probleminə diqqətlə yanaşsalar mövcud imkanlardan istifadə edərək daha yaxşı göstəricilərə nail ola bilərlər. [116-117]

Burada kiçik müəssisələrdən söhbət getdi. Şəxsən mən nə kiçik müəssisələrin, nə kooperativlərin, nə də özəl bölmənin əleyhinəyəm. Bunlar olmalıdır və onların inkişafına yol verilməlidir. Ancaq eyni zamanda belə məlumatlar da gəlir ki, böyük bir müəssisənin rəhbərləri onun tərkibində və ya onunla bağlı sahədə kiçik bir müəssisə yaradaraq, bütün gücünü, imkanlarını həmin kiçik müəssisəyə yönəldərək oradan gəlir götürməklə məşğul olur, əsas müəssisənin qayğıları, problemləri isə diqqətdən kənarda qalır, yaxud da bunlarla ciddi məşğul olmurlar. Mən deyə bilmərəm ki, hər yerdə belədir, amma belə hallar var. Bəzi müəssisə rəhbərləri çətinlikləri görərək, özlərini, sadəcə olaraq, əziyyətə salmaq istəmirlər, çətinlikləri, ümumi vəziyyəti bəhanə gətirərək orta vəziyyətdə yaşamağı daha üstün tuturlar. Yox, bununla da razılaşmaq olmaz.

Bilirsinizmi, əgər biz hamımız respublikanın qayğısı ilə yaşayırıqsa, hər birimiz onu bu ağır vəziyyətdən çıxarmaq istəyiriksə, onda hərə öz sahəsində bütün imkanlardan istifadə edərək, var qüvvə ilə səy göstərərək, bütün bilik və təcrübəsini səfərbərliyə alaraq müəyyən bir iş görməlidir ki, ümumi işimiz irəliləsin. Belə ehtiyat mənbələri var. Buna görə də ümidvaram ki, bugünkü müşavirəmizdən sonra müəssisə, şirkət, birlik rəhbərləri, nazirlər öz işlərindəki nöqsanları aradan qaldıracaq və lazımi tədbirlər görəcəklər. Bunun üçün Nazirlər Kabineti də öz fəaliyyətini gücləndirməli, işini təkmilləşdirməlidir.

Ümumiyyətlə, indiki dövrdə iş üslubumuz əvvəlki dövrün iş üslubundan fərqlənməlidir. Mən, məsələn, bugünkü müşavirənin keçirilib-keçirilməməsi barədə çox düşündüm. Məsələ burasındadır ki, əvvəllər dövrün tələblərinə görə çox müşavirələr, çox müzakirələr keçirilirdi. Bəzən də ümumi işin qiyməti görülən tədbirlərlə ölçülürdü: neçə dəfə müzakirə olundu, neçə dəfə qərar qəbul edildi, necə dəfə müşavirə keçirildi, neçə dəfə fəallar yığıncağı çağırıldı. Bəzən bunları hesablayıb sayırdılar və bu da işin müsbət göstəriciləri kimi qələmə verilirdi. Əslində isə əksər hallarda bu tədbirlər əməli işə o qədər də müsbət təsir göstərmirdi.

İndi biz başqa dövrdə, başqa şəraitdə yaşayırıq. İqtisadiyyatımızda da köklü proseslər gedir. Buna görə də hər bir sahədə əməli işlə məşğul olmaq gərəkdir. Əgər müşavirə keçirmək zəruridirsə, nə deyirəm, keçirmək lazımdır. Müzakirə lazımdırsa, keçirək. Lakin belə tədbirlərə çox aludə olmaq, onlara çox vaxt sərf etmək, onlarla baş qatmaq lazım deyildir. Adamlara sərbəstlik verilməlidir ki, hərə öz sahəsində sərbəst işləsin, azad fəaliyyət göstərsin. Azərbaycanda belə sərbəstlik verilmişdir – həm müəssisə və şirkət rəhbərlərinə, həm də bütün pillələrdə. Odur ki, bu gün mən bir daha deyirəm: sizə belə sərbəstlik verilmişdir, amma siz bu sərbəstlikdən dövlətin mənafeyinə yönəldilmiş tədbirlərin həyata keçirilməsi üçün, istehsalın qaldırılması, iqtisadi vəziyyətimizin yaxşılaşdırılması üçün və bununla da kollektivin vəziyyətinin yaxşılaşdırılması üçün istifadə etməlisiniz. [117-118]

Müəssisə rəhbərlərinin bu sərbəstliyinə heç kəs müdaxilə etmir, yaxud da bu sərbəstliyi onların əlindən almaq, onlara təzyiq göstərmək istəmir. Amma eyni zamanda indiki bu böhran şəraitində bir çox rəhbər işçilər vaxtlarını boş yerə sərf edir, üzərlərində olan məsuliyyəti başa düşmürlər. Buna görə də onların rəhbərlik etdikləri sahələrin göstəriciləri aybaay, ilbəil pisləşir. Mən bu tövsiyələri, məsləhətləri, göstərişləri verməklə yanaşı, xəbərdarlıq etmək istəyirəm: beləsləri, yəni işə məsuliyyətsiz yanaşan nazirlər, şirkət, birlik, müəssisə rəhbərləri özləri üçün nəticə çıxarmalıdırlar. Onlar ya işdə dönüş yaratmalı, işə münasibətlərini dəyişdirməli, öz fəaliyyətində dövlətin mənafelərini üstün tutmalı və respublikamızın bu ağır böhran vəziyyətindən çıxmasına çalışmalıdırlar; ya da, elə olmasa, biz onların haqqında lazımi ciddi tədbirlər görəcəyik. Mən hamıya bu barədə xəbərdarlıq edirəm və bildirmək istəyirəm ki, bu şəraitimizdə bizim üçün daha yaxşı olardı ki, hərə öz sahəsində daha əzmlə işləsin və heç kəs də cəza almasın, heç kəsə qarşı ciddi tədbir görülməsin. Lakin bugünkü söhbətdən də bir nəticə çıxmasa, onda biz, şübhəsiz, belə ciddi tədbirlər görmək məcburiyyətində qalacağıq.

Rəhbər işçilərdən çox şey asılıdır. Bu gün biz hamımız buraya toplaşaraq vəziyyəti təhlil etdik. İşlərin gedişi sizdən asılıdır. Mən nazirlik, idarə, müəssisə, şirkət rəhbərlərinə müraciət etməklə yanaşı, yerli hakimiyyət orqanlarının məsuliyyəti haqqında da danışmaq istəyirəm.

Yerli hakimiyyət orqanları öz ərazilərində hər şeyə cavabdehdirlər: sənayeyə də, tikintiyə də, sosial sahəyə də, nəqliyyata da. şübhəsiz ki, kənd təsərrüfatına da, eləcə də ərazidə ictimai-sosial vəziyyətə. Ona görə də bütün bu tələblər yerli hakimiyyət orqanlarına, icra hakimiyyətinin başçılarına da aiddir. Mən onlardan tələb edirəm ki, prezidentin yerlərdə nümayəndələri kimi, iqtisadi məsələlərlə ciddi və yaxından məşğul olsunlar. Eyni zamanda tələb edirəm ki, bizim nazirliklər, müəssisə, şirkət, birlik rəhbərləri ərazidə olan müəssisələrin işi, orada aparılan kadr dəyişiklikləri ilə əlaqədar əlbir fəaliyyət göstərsinlər. Çünki bəzən mənə elə şikayətlər gəlib çatır ki, yerli icra hakimiyyətinin başçıları ilə hesablaşmırlar, nazirlər, şirkət rəhbərləri kadr dəyişikliklərini özləri aparırlar. Belə hallarla razılaşmaq olmaz.

Şübhəsiz ki, biz keçmiş partiya nomenklaturası sisteminə qayıtmırıq və qayıtmayacağıq. Amma yerli hakimiyyət orqanları, icra hakimiyyətinin başçıları öz ərazilərində bütün işlərə cavabdehdirlərsə, onlar orada çalışan rəhbər kadrların təyin edilməsinə, dəyişdirilməsinə və işdən çıxarılmasına da cavabdehdirlər. Odur ki, müvafiq respublika təşkilatları bu məsələləri yerli təşkilatlarla birlikdə həll etməlidirlər.

Bu barədə aldığım məlumatlara, fürsətdən istifadə edib, toxunmaq istərdim. Bəzən məlumatlar gəlir ki, yerlərdə inzibati orqanlar, polis, milli təhlükəsizlik, prokurorluq orqanları yerli hakimiyyət orqanları ilə hesablaşmırlar. Bəzən deyirlər ki, biz sizə tabe deyilik, bəzən onlara qarşı iddialar irəli sürürlər. Əlbəttə, bunlar da yaramaz, qanun-qaydamıza [118-119] uyğun olmayan hallardır. Yerli hakimiyyət orqanları, icra hakimiyyətinin başçıları prezidentin yerlərdə nümayəndələridir. Buna görə də inzibatı orqanlar tərəfindən aparılan işlər onlarla bərabər görülməlidir və aralarında heç bir anlaşılmazlıq olmamalıdır.

Mən bu barədə danışarkən yerli icra hakimiyyəti başçılarının məsuliyyətindən bir daha söhbət açmaq istərdim. Beləliklə, sizin üzərinizə çox böyük məsuliyyət düşür. Lakin təəssüf ki, bəzən bizim yerli icra hakimiyyəti orqanlarının başçıları haqqında, onların fəaliyyəti barəsində bizə mənfi məlumatlar gəlir. Belə məlumatlarda deyilir ki, onlar bəzən yaxşı işləmir, səy göstərmir, qanunsuz hərəkətlər edir və öz vəzifələrinin öhdəsindən gələ bilmirlər. Mən hamıya xəbərdarlıq edirəm: biz belələrinə dözməyəcəyik, onların haqqında lazımi tədbirlər görəcəyik. Odur ki, hər bir kəs ona göstərilən etimadı doğrultmağa çalışmalıdır. Harada işləməsinin fərqi yoxdur, – istər yerli hakimiyyət orqanında, istər iqtisadiyyat sahəsində, istər sənaye və kənd təsərrüfatında, istərsə də nazirliklərdə və inzibati orqanlarda olsun, fərqi yoxdur, bunların hamısı dövlət strukturlarıdır, – hər kəs dövlət tərəfindən, dövlət başçısı tərəfindən göstərilən etimada həm sadiq, layiq olmalıdır, həm də bu etimadı daim doğrultmağa can atmalıdır. Buna görə də indi mən bu sözləri açıq və aydın şəkildə çatdırıram və bildirmək istəyirəm ki, biz belə hallara qarşı bundan sonra ciddi mübarizə aparacağıq.

Güman edirəm ki, bizim bugünkü danışıqlarımız, söhbətlərimizin nəticəsində iqtisadiyyatımızda müəyyən dəyişikliklər olacaq. Mən tam əminəm ki, biz mövcud istehsal fondlarından, istehsal imkanlarından, iqtisadi potensialdan səmərəli istifadə edərək, vəziyyətimizi xeyli yaxşılaşdıracağıq. İqtisadiyyatda vəziyyəti yaxşılaşdırmaq üçün isə son vaxtlar verilmiş fərmanlar ardıcıl surətdə icra edilməlidir. Mən aprelin 5-də böyük bir fərman vermişəm. O, iqtisadiyyat üçün olduqca əhəmiyyətli bir fərmandır. Bildiyiniz kimi, həmin fərman Azərbaycan Respublikasının xarici ticarətinin sərbəstləşdirilməsi haqqındadır. Bu, iqtisadiyyatımızın sərbəstləşdirilməsi üçün, bazar iqtisadiyyatına keçməyimiz üçün, bazar iqtisadiyyatını inkişaf etdirmək üçün çox

əhəmiyyətli bir sənəddir. Amma təəssüflər olsun ki, bu fərman lazımi səviyyədə həyata keçirilmir. Buna görədir ki, mən iyunun 28-də yeni bir fərman verməli oldum: "Xarici ölkələrə məhsul satışının təmin edilməsi sahəsində nəzarətin gücləndirilməsinə dair əlavə tədbirlər haqqında".

Mən nə üçün belə bir fərman verdim? Çünki 5 aprel tarixli fərman, bir daha deyirəm, lazımi səviyyədə yerinə yetirilmədi. Bu fərman istehsal edilən malların ixrac olunması, xarici ölkələrə satılması üçün müəssisələrə də, nazirliklərə də, hər bir hüquqi şəxsə də sərbəstlik verir. Amma di gəl ki, bu imkanlardan istifadə edilməyibdir. Respublikaya valyuta gətirən mallarımızın bir çoxu təəssüf ki, aprel ayından indiyədək ixrac olunmayıbdır. Buna görə də mən məcbur olub iyun ayında Fuad Quliyev başda olmaqla fövqəladə komissiya yaratdım. Hətta inzibati orqanların rəhbərlərini də bu komissiyaya daxil etdim ki, hansı sahədə, hansı müəssisədə, hansı nazirlikdə hansı malların satılmamış qaldığını araşdırsınlar, [119-120] onların satılması üçün həmin təşkilatlara ya kömək göstərsinlər, ya da buna nəzarət etsinlər.

Bu, nəyi göstərir? Bir tərəfdən, bəzi adamlar istəyirlər ki, sərbəstliyə malik olsunlar, amma sərbəstlik verildikdə ondan istifadə etmirlər. Yəni bizim adamlarda keçmişin psixologiyası, əhvalı, iş üslubu və metodları o qədər dərin kök atmışdır ki, onlar bundan ayrıla bilmirlər. Bizim ixrac edilməli olan və respublikaya valyuta gətirə bilən müəyyən mallarımız var – həm sənaye sahəsində, həm də kənd təsərrüfatında. Lakin bu mallar indiyədək ixrac edilməyib, bəziləri də qaldıqca xarab olub öz dəyərini itirir, qiymətdən düşür. Beləliklə, biz çox şey itiririk. İndi görün iqtisadiyyatda çeviklik, bazar iqtisadiyyatının forma, metod və üsullarını mənimsəmək bizə nə qədər lazımdır ki, öz iqtisadi potensialımızdan lazımınca istifadə edə bilək.

Mən iyunun 15-də də bir fərman vermişəm: "Əhalinin sosial müdafiəsinin gücləndirilməsi və iqtisadiyyatın maliyyə vəziyyətinin sabitləşdirilməsi tədbirləri haqqında". Təəssüflər olsun ki, bu fərman da lazımi səviyyədə həyata keçirilmir. Halbuki burada da çox ciddi tədbirlər nəzərdə tutulmuşdur. İqtisadiyyatla əlaqədar aprel ayından bəri üç fərman verilmişdir. Onların həyata keçirilməsi ilə məşğul olmaq lazımdır. Əgər biz bu fərmanları nəzərdə tutulduğu kimi həyata keçirsəydik, iqtisadiyyatda, şübhəsiz, çox yeniliklərə nail olardıq, çox müsbət nəticələr əldə edərdik. Təəssüf ki, belə olmamışdır.

Mən bunları yada salaraq, birincisi, bütün vəzifəli şəxslərdən tələb edirəm: bu fərmanlarda irəli sürülən vəzifələrin həyata keçirilməsi üçün lazımi tədbirlər görsünlər. Fərmanlarda onların icrası haqqında kimin nə vaxt məlumat verməli olduğu göstərilmişdir. İndi mən bu məlumatları gözləyirəm. Eyni zamanda tələb edirəm ki, iqtisadiyyat sahəsində çalışan vəzifəli şəxslər, habelə idarələr, nazirliklər, şirkətlər bu fərmanlardan səmərəli istifadə etsinlər ki, iqtisadiyyatımızda müəyyən sərbəstləşdirmə tədbirləri, dəyişikliklər həyata keçirə bilək və bazar iqtisadiyyatına keçidi gücləndirək.

Hesab edirəm ki, bugünkü söhbətlərdən lazımi nəticələr çıxarılacaqdır. Bunu da bildirməyi vacib hesab edirəm ki, həyatımızın bütün sahələrində, o cümlədən də iqtisadiyyatda qanun-qaydanı, nizam-intizamı möhkəmləndirmək zəruridir. Gələcəkdə hansı tərzdə yaşayacağımızdan asılı olmayaraq, – hərçənd yolumuz məlumdur, – nizam-intizama, qanun-qaydaya riayət edilməsi, işə məsuliyyətli münasibət göstərilməsi, qanunlara hörmət bəslənilməsi bizim üçün daim əsas vəzifədir. Təəssüf ki, bəzi yerlərdə qanunlar pozulur, bəzi yerlərdə adamlar özbaşınalıq edirlər, bəzi yerlərdə də vəzifəli şəxslər öz mövqelərindən şəxsi mənafeləri naminə sui-istifadə edirlər. Bütün bunlar bir tərəfdən cəmiyyətdə narazılıq doğurur, sabitliyi pozur, digər tərəfdən isə cinayətlər törədilməsinə səbəb olur.

Bu ağır şəraitdə iqtisadiyyat sahəsində cinayət və oğurluq hallarının, iqtisadiyyatımızı cürbəcür yollarla dağıdan halların qarşısı qəti şəkildə [120-121] alınmalıdır. Bütün bu halların qarşısını ən əvvəl, iqtisadiyyata rəhbərlik edən vəzifəli şəxslər almalıdırlar. Onların özləri bu sahədə nümunə olmalı və iqtisadiyyatda qanun-qaydanın saxlanmasına çalışmalı, cinayət hallarının meydana çıxmasına yol verməməlidirlər, cinayətkarlığa qarşı mübarizə aparmalıdırlar.

Eyni zamanda inzibati orqanlarımız, hüquq-mühafizə orqanlarımız öz işlərini yaxşılaşdırmalıdır. Gömrük Komitəsinin sədri burada çıxış edərkən rüşvətxorluqdan da danışdı. İqtisadiyyatımızın bu kökə düşməsinin səbəblərindən biri də rüşvətxorluğun geniş yayılmasıdır. Həm dövlət orqanlarında, həm inzibati orqanlarda, həm də iqtisadiyyatla məşğul olan orqanlarda cürbəcür yollarla oğurluq, vəzifədən sui-istifadə və rüşvətxorluq halları bütün həyatımıza çox böyük zərbələr vurur. Bu hallara qarşı ciddi mübarizə aparmaq lazımdır. Bəzən bir para şəxslər elə hesab edirlər ki, bunlar artıq adi bir haldır, həyatımızın müəyyən bir gerçəkliyidir, odur ki, belə hallarla razılaşmaq gərəkdir. Xeyr, heç vaxt razılaşmaq olmaz! Nə xalqımız, nə də cəmiyyətimiz bununla razılaşa bilməz.

Respublikamız ağır şəraitdə yaşayır, biz müharibə aparırıq. Bunun özü böyük bir nailiyyətdir ki, üç aydır atəş dayandırılmışdır. Biz buna böyük çətinliklərlə nail olmuşuq. Ermənistanla Azərbaycan arasında aparılan danışıqlar nəticəsində, Rusiyanın, ATƏM-in Minsk qrupunun vasitəçiliyi sayəsində atəşin dayandırılmasına nail olmuşuq. Lakin atəşin dayandırılması hələ müharibənin qurtarması demək deyildir. Bəziləri belə hesab edirlər, həm də bu fikirdədirlər ki, müharibə daha qurtarmışdır, hər şey həll edilmişdir. Buna görə də cəbhə bölgələrinin bəzi yerlərində müdafiə qüvvələrimiz zəifləyir. Bunlara qətiyyən yol vermək olmaz! Bu sahədə kəsərli tədbirlər görmək lazımdır.

Mən bu gün bir daha bəyan edirəm ki, biz müharibə istəmirik. Biz atəşkəsin davam etməsinin tərəfdarıyıq və indi danışıqlar aparır, çalışırıq ki, bu atəşkəs böyük siyasi saziş bağlanan vaxtadək davam etsin. Biz bu mövqedə dayanmışıq, danışıqları da məhz bu mövqedən aparırıq. Lakin hər şey bizdən asılı deyildir. Buna görə də ola bilər ki, atəşkəs pozulsun. Odur ki, müdafiə qüvvələrimiz möhkəm olmalıdır. Mən bir daha deyirəm: Biz məsələni müharibə aparmaqla deyil, sülh yolu ilə həll etmək istəyirik. Bununla bərabər ərazimiz etibarlı surətdə müdafiə edilməlidir. Onsuz da torpaqlarımızın 20 faizi işğal olunmuşdur. Daha belə hallara yol vermək olmaz.

Bununla əlaqədar respublikamızda böyük gərginlik var. Bu gərginlik də ondan ibarətdir ki, Azərbaycanda bir milyon nəfərdən çox qaçqın yaşayır. İqtisadiyyatda yol verilən qanun pozuntuları, cinayətkarlıq və digər mənfi hallar böyük bir məsələni həll etməyimizə mane olur: bir milyondan çox qaçqını dolandırmaq, yaşatmaq lazımdır. Şübhəsiz ki, əsas məqsədimiz torpaqlarımızı azad edib qaçqınları öz yerlərinə qaytarmaqdır. Amma indi onlar respublikanın ayrı-ayrı rayonlarında ağır vəziyyətdə yaşayırlar. Buna görə də biz çalışmalıyıq ki, onların heç olmasa minimum tələblərini ödəmək üçün iqtisadiyyatımız inkişaf etsin. Heç vaxt dözmək [121-122] olmaz ki, cinayətkarlıq törədilsin, rüşvətxorluq olsun. Bir tərəfdən, ayrı-ayrı adamlar qanunsuz yollarla varlanır, digər tərəfdən isə qaçqınlar, müharibə əlilləri və başqaları ehtiyac içində yaşayırlar. Ayrı-ayrı vəzifəli şəxslər vəzifəsindən sui-istifadə edib cürbəcür yollarla rüşvətxorluq edir, qanunları pozurlar. Bu hallar mövcuddur, bunu heç kəs gizlətməməlidir. Mən də nəinki gizlədə bilmərəm, əksinə, acıq deyirəm və hamını belə hallara qarşı mübarizəni gücləndirməyə dəvət edirəm. Biz respublikamızda haqq-ədaləti, insanlara ədalətli münasibəti təmin etməliyik. Avqustun 9-da verilən fərman, – yəqin ki, siz onunla tanışsınız, – bu sahədə qarşıya ciddi tələblər qoyur. Həm hüquq-mühafizə orqanları, həm yerli hakimiyyət orqanları, həm də həyatımızın müxtəlif sahələrində çalışan vəzifəli şəxslər cinayətkarlıqla mübarizə aparmalıdırlar. Cinayətkarlığın – banditizmin, reketlərin, cürbəcür digər təhlükəli cinayətlərin qarşısı alınmalıdır. Hüquq-mühafizə orqanları öz işlərini ciddi şəkildə qurmalıdırlar.

Hüquq-mühafizə orqanlarının işi bu gün bizi qane edə bilməz. Ona görə də onlardan tələb olunur ki, birinci növbədə cinayətkarlıqla mübarizəni gücləndirsinlər, eyni zamanda bu orqanlarda şəxsi heyətin mənəvi cəhəti ilə çox ciddi məşğul olsunlar. Gömrük Komitəsi haqqında dediyim sözlər, təəssüf ki, hüquq-mühafizə orqanlarımızın hamısına aiddir. Vəzifəsindən sui-istifadə edənlər, ayrı-ayrı hallarda rüşvətxorluq edənlər var, onları aşkara çıxarmaq, ifşa etmək lazımdır.

İndiki şəraitdə cəmiyyətimiz daha da möhkəm olmalıdır. Man hesab edirəm ki, görülən tədbirlər məhz bu məqsədi daşıyır və hamı bu istiqamətdə fəaliyyət göstərməlidir.

Bəzi qruplar son vaxtlar yenə də şayiələr yayırlar. Moskvanın bəzi qəzetlərində son vaxtlar Azərbaycana qarşı böhtan, təbliğat xarakteri daşıyan məqalələr dərc olunur. Bəzən bunları respublikamızda yaşayan adamlar təşkil edir və bunun üçün ciddi səy göstərirlər, – məlumdur nə deyirəm. Ona görə də bu gün mən bu böyük müşavirədə bildirmək istəyirəm ki, belə hərəkətlər, belə cəhdlər heç vaxt, heç kəsə uğur gətirə bilməz. Respublikada ictimai-siyasi sabitliyi pozmağa çalışan adamlara qarşı amansız olacağıq. Hüquq-mühafizə orqanları, yerli hakimiyyət orqanları bu işlərlə ciddi məşğul olmalı və məsuliyyət daşımalıdırlar. Bizim sıralarımızda bəzi adamlar var ki, iki stul üzərində oturmaq istəyir – həm o tərəfdə, həm də bu tərəfdə. Bunlarla da qurtarmaq lazımdır.

Bilirsiniz ki, Azərbaycan Respublikasının artıq həm daxili, həm də xarici siyasəti aydındır. Mən dəfələrlə bunu elan etmişəm. Biz bu yoldan çəkinməyəcəyik, dönməyəcəyik. Çünki respublikanın daxilində aparılan siyasət – demokratiya, sərbəstlik, insan hüquqlarına hörmət, azadlıq, siyasi plüralizm – bunların hamısı Azərbaycanda hüquqi cəmiyyət yaradılmasına yönəldilmiş prinsiplərdir. Biz bunlardan dönməyəcəyik. Xarici siyasətimiz də məlumdur – bütün ölkələrlə bərabər hüquqlu, qarşılıqlı surətdə faydalı əlaqələr qurmaq və onları inkişaf etdirmək. Bu sahədə də lazımi işlər görülür və müəyyən nəticələr əldə olunub. [122-123] Ona görə də mən bir daha deyirəm ki, bu yoldan çəkinməyəcək və dönməyəcəyik. Əgər kimsə bizim bu açıq, aydın yolumuza xələl gətirmək, respublikamızın daxilindəki ictimai-siyasi sabitliyi pozmaq, şayiələr yaymaq istəyirsə, yaxud kimsə bu gün bu siyasətə, sabah – döngəni o tərəfə dönəndə başqa bir siyasətə əl qaldırırsa, bizim sıralarımızda belə adamlar olmamalıdır. Onlar qulaqlarını açıb eşitsinlər: belələrini görürük, şəxsən mən də görürəm. Ancaq mən imkan verirəm ki, bu adamlar özləri özləri haqqında lazımi tədbirlər görsünlər, düz yola gəlsinlər. Əgər kim nəhayət, düz yola gəlməsə, onlar haqqında lazımi ölçülər götürüləcəkdir.

Onlar tutduqları vəzifədə qala bilməzlər, bizimlə bərabər gedə bilməzlər. Bizimlə birlikdə bu yolla o adamlar gedə bilərlər ki, həm daxili, həm də xarici siyasətimizi nəinki qəbul ediblər, eyni zamanda onun fəal iştirakçısıdırlar.

Şübhəsiz ki, bizdə fikir azadlığıdır, siyasi plüralizmdir. Kim nə istəyir, onu da deyə bilər. Ancaq eyni zamanda bunlar hamısı Azərbaycanın milli mənafeyinə zərər gətirməməlidir, Azərbaycanın müstəqilliyinə toxunmamalı, ziyan vurmamalıdır. İndi bəzi adamlar öz şəxsi məqsədlərinə nail olmaq üçün cürbəcür şayiələr yayır, ayrı-ayrı adamları yoldan çıxarmağa çalışaraq aranı qarışdırmaq istəyirlər. Belələri əslində Azərbaycanın müstəqilliyinə qəsd edirlər. Belə hallara yol verilə bilməz. Mən bu gün dedim, burada yeni bir guya partiya yaranıb. Nə qədər yaranır-yaransın, fərqi yoxdur, – xalq bilir ki, hansı partiya nədən ibarətdir. Ancaq sosializm

quruluşunu, Sovetlər İttifaqını bərpa etmək prinsipi əsasında yaranan partiyaya bizim cəmiyyətdə yer ola bilməz. Bizim sıralarımızdakı bəzi adamlar da onlarla oturub-durur, qulaqlarını ora verirlər ki, bu nə təhər, nə cür olacaq?

Azərbaycan Respublikasının xarici siyasəti haqqında danışdım. Rusiya ilə Azərbaycan arasındakı münasibətlər normal xarakter daşıyır və bu istiqamətdə inkişaf edir, dostluq xarakteri daşıyır. Bunlar hamısı Azərbaycanın dövlət müstəqilliyinin qorunması, respublikamızın ərazi bütövlüyünün təmin olunması ilə bağlıdır. Buna görə də həm iqtisadi cəhətdən, həm ticarət, həm də mədəniyyət, elm, texnika sahəsində Rusiya kimi böyük bir dövlətlə əməkdaşlığımız çox zəruridir və biz bu əməkdaşlığı get-gedə daha da gücləndirəcəyik. Ancaq kimsə özünü daha da rusiyapərəst elan edərək haradasa, nəyəsə guya nail olmaq istəyirsə, bunlar yarayan şeylər deyil.

Ona görə də mən birinci növbədə vəzifəli şəxslərə xəbərdarlıq edirəm ki, məsuliyyətlərini bilsinlər. Biz vəzifəli şəxslərdən qanun-qaydaların, respublika daxilində ictimai-siyasi sabitliyin, respublikanın müstəqilliyinin qorunmasını xüsusi tələb edirik. Mən bütün cəmiyyətə də bunu bildirmək istəyirəm ki, respublikamızın belə ağır şəraitində – torpaqlarımızı sülh yolu ilə geri qaytarmaq üçün addımlar atarkən, qaçqınların vəziyyəti ilə məşğul olarkən cürbəcür yollara əl atmaq lazım deyildir. Bəli, qaçqınların vəziyyəti ağırdır, biz bununla məşğul oluruq, dövlət tərəfindən [123-124] onlara lazımi kömək göstərilir və göstəriləcəkdir. Xarici dövlətlər tərəfindən humanitar yardımlar gəlir. Ancaq lazımdır ki, bu humanitar yardımları alanlar, bölüşdürənlər, bu işə rəhbərlik edənlər çox vicdanlı olsunlar və bu sahədə heç bir əyintiyə yol verməsinlər.

Müharibədir, burada itkilər də olur, şəhidlər də var, şahidlərin ailələri də var. Onlara daim qayğı göstəririk və göstərəcəyik. Sizdən də tələb edirəm ki, onlara qayğı göstərəsiniz. Müharibə əlilləri də var. Onlara qayğı göstərilib, göstəriləcək və sizdən də tələb edirəm ki, bundan sonra hərə öz sahəsində qayğı göstərsin.

Bu yaxınlarda neftçilər maaşları gec aldıqları üçün bəzi danışıqlar apardılar. Maaşlar da verildi, hər şey də təmin olundu. Bunların hamısını dövlət səviyyəsində, ümummilli nöqteyi-nəzərdən, qanun çərçivəsində, vicdanla təmin etməliyik. Ancaq öz şəxsi mənafeyi üçün təbliğat xarakterli yollarla gedən qruplara, alver məqsədi ilə çalışan adamlara yol yoxdur. Qoy onlar bu işdən əl çəksinlər. Respublikanın bütün vətəndaşları Azərbaycan Konstitusiyasının, Azərbaycan prezidentinin təminatı altındadır. Ona görə də kimsə pul oğurlayıb, gəlib burada guya cəmiyyət, təşkilat quraraq xal qazanmaq istəyirsə, bütün bunlar heç vaxt müsbət nəticə verməyəcəkdir. Bu gün mən müşavirədən istifadə edərək bu sözləri sizə çatdırıram və avqustun 9-da verilmiş fərmanın icrasına diqqət yetirmənizi tələb edirəm; hamınızdan, xüsusilə vəzifəli şəxslərdən, ən əvvəl hüquq-mühafizə orqanlarından tələb edirəm.

Bu sözləri sizə deyərək, əmin olduğumu bildirmək istəyirəm ki, biz bütün bu çətinliklərdən keçib gedəcəyik. İqtisadiyyatda vəziyyət ağırdır. Lakin heç kəs deməməlidir ki, biz faciə içərisindəyik və bundan çıxa bilməyəcəyik. Xeyr, çıxacağıq. Bundan da, müharibə vəziyyətindən də çıxacağıq. Torpaqlar da qayıdacaq. Dünya ictimaiyyətində Azərbaycan haqqında ümumi rəy artıq dəyişir, Qərb ölkələrində Azərbaycanın vəziyyəti haqqında ümumi rəy dəyişir. Ermənistanın Azərbaycana təcavüz etməsi haqqında bir çox ölkələrdən səslər gəlir, onlar bu fikri açıq irəli sürürlər.

Yenə də deyirəm, bizim siyasətimiz ondan ibarətdir ki, məsələləri sülh yolu ilə həll edək. İndi Moskvada sazişin hazırlanması üzərində iş gedir və bu iş davam edəcəkdir. Mən hesab edirəm ki, respublikamızın müstəqilliyinin möhkəmlənməsinə, ərazi bütövlüyünün təmin edilməsinə nail olacağıq. Yəni mən həmişəki kimi, indi də bəzi mənfi halları burada yada salaraq, bununla əlaqədar öz fikrimi, tələblərimi deyərək, əvvəllər olduğu kimi, yenə də tam nikbinəm və hesab edirəm ki, xalqımız dəyanətli, dözümlü xalqdır, əsrlərlə böyük çətinliklərdən keçərək yaşamış, yaşayan xalqdır. Biz bu çətin mərhələni də yaşayacağıq, bundan da keçib gedəcəyik. Azərbaycanın iqtisadi potensialı, geopolitik-coğrafi vəziyyəti respublikamız, xalqımız üçün böyük, gözəl, xoşbəxt gələcək təmin edir. Güman edirəm ki, biz bu gələcəyi görəcəyik. [124-125]

## PREZİDENT SARAYINDA RESPUBLİKANIN KƏND TƏSƏRRÜFATINDA 1994-cü İLİN BİRİNCİ YARISININ YEKUNLARINA VƏ İSLAHATLARIN KEÇİRİLMƏSİ VƏZİYYƏTİNƏ HƏSR OLUNMUŞ MÜŞAVİRƏDƏ GİRİŞ SÖZÜ

*18 avqust 1994-cü il*

Bildiyiniz kimi, respublika iqtisadiyyatının böyük bir sahəsi olan mənaya və tikintidə mövcud vəziyyəti təhlil etmək, işlərin sürətləndirilməsinə yönəldilən tədbirlər görmək üçün avqustun 11-də geniş müşavirə keçirmişik. Bu gün belə bir müşavirə də kənd təsərrüfatı, aqrar-sənaye kompleksi ilə əlaqədar toplanıb.

Məlumdur ki, respublikanın iqtisadiyyatı ağır böhran keçirir. Bunun səbəbləri aydındır və dəfələrlə izah edilib. Ancaq bu böhran dövründə də respublikanın mövcud potensialından səmərəli istifadə olunmur, qarşıda duran problemlərin həllində səhvlərə yol verilir, çətinliklər meydana çıxır və biz bu sahədə işimizi istənilən səviyyədə qura bilmirik.

Respublikanın müharibə şəraitində olduğu bir dövrdə iqtisadiyyatın mühüm əhəmiyyət kəsb etdiyini sübut etməyə ehtiyac yoxdur. Ona görə ilə biz iqtisadiyyatla daim məşğul olmalı, onun inkişafı üçün lazımi tədbirlərin həyata keçirilməsini təmin etməliyik.

İqtisadiyyat sahəsində siyasətimiz məlumdur, aydındır. İqtisadiyyatımız keçid dövrü yaşayır. Həmin dövrdə iqtisadi islahatlar sürətlə, dayanmadan həyata keçirilməli, onların səmərəliliyi təmin olunmalıdır. Hu sahədə müəyyən işlər görülür, ancaq bunu kafi, qənaətbəxş hesab etmək olmaz. Biz gecikirik, ləngiyirik. Bununla yanaşı, hər gün, hər ay iqtisadiyyatdan müəyyən nəticələr gözləməliyik. İqtisadiyyat respublika həyatının yaşamasını təmin etməlidir. Bunun üçün, iqtisadiyyatın yeni yollarla getməsi üçün tədbirlər görülməli, digər tərəfdən, iqtisadiyyatın, o cümlədən kənd təsərrüfatının, aqrar-sənaye kompleksinin bütün imkanlarından səmərəli istifadə olunmalıdır.

Bugünkü müşavirə kənd təsərrüfatının, aqrar-sənaye kompleksinin cari məsələləri, ilin ikinci yarısında qarşıda duran vəzifələrin yerinə yetirilməsi ilə əlaqədardır. Ona görə də biz əvvəlcə ilin birinci yarısında görülmüş işlərin yekunlarını aydınlaşdırmalı və ilin ikinci yarısı, bəlkə də daha çox müddət üçün qarşıda duran vəzifələri müəyyənləşdirməliyik.

Keçid dövründə iqtisadiyyatda, kənd təsərrüfatında, aqrar bölmədə istifadə olunmayan ehtiyatlarımız çoxdur. Nazirliklərdə, yerli hakimiyyət və kənd təsərrüfatı orqanlarında işlərin yaxşı qurulmaması, pis səviyyədə [125-126] aparılması nəticəsində mövcud imkanlardan lazımınca istifadə olunmur və kənd təsərrüfatı məhsulları istehsalı ildən-ilə aşağı düşür. Ona görə də yenə deyirəm, biz bu gün həmin cari məsələləri müzakirə etməli, təhlil etməli, eyni zamanda, bununla paralel olaraq, iqtisadiyyatın yeni yolla getməsi üçün lazımi tədbirlər görülməsi barədə fikir mübadiləsi, söhbət aparmalıyıq.

Müşavirəmiz bax, bu mövzuya həsr olunmuşdur. Xahiş edirəm bunu nəzərə alasınız. Buraya respublika nazirliklərinin, baş idarələrinin, şirkətlərin rəhbərləri, həm də kənd təsərrüfatı rayonları rəhbər orqanlarının işçiləri böyük tərkibdə dəvət olunmuşdur. İstərdim ki, vəziyyət həm obyektiv təhlil edilsin, həm də indiki vəziyyətdə hansı yollarla getməli, hansı tədbirlər görməli olduğumuz müəyyənləşdirilsin. Biz aydınlaşdırmalıyıq ki, birinci dərəcəli hansı tədbirlər həyata keçirməliyik ki, kənd təsərrüfatının geri qalmış hissəsinin səmərəli işləməsini təşkil edək, məhsul istehsalını artıraq, bu məhsullardan əhalinin tələbatının ödənilməsi, iqtisadiyyatımız, sənayemiz üçün istifadə olunması imkanlarını genişləndirək. Məqsəd bundan ibarətdir...

### YEKUN SÖZÜ

Bugünkü müzakirə bir daha göstərdi ki, iqtisadiyyatımız və onun mühüm sahəsi olan kənd təsərrüfatı, aqrar-sənaye kompleksi həm müstəqil Azərbaycanın həyatı üçün çox əhəmiyyətli sahədir, eyni zamanda bu sahədə çox ciddi problemlər və çatışmazlıqlar var. Tam qətiyyətlə demək olar ki, aqrar-sənaye bölməsi ağır vəziyyətdədir. Bunun obyektiv səbəbləri də var, lakin subyektiv səbəbləri daha çoxdur. Bu da ondan ibarətdir ki, son illərdə kənd təsərrüfatı istehsalına diqqət azalmış, keçid dövründə bəzi qeyri-qanuni hallara yol verilmiş, kənd təsərrüfatı rayonlarının imkanlarından lazımi səviyyədə istifadə olunmamışdır. Builki göstəricilərdən də görünür ki, tənəzzül davam edir. Bu, dözülməz haldır.

Azərbaycan iqtisadiyyatının böyük bir hissəsini kənd təsərrüfatı təşkil edir. Əhalinin, demək olar, yarısı, bəlkə də bir qədər azı kənd yerlərində yaşayır, yəni kənd təsərrüfatı ilə məşğuldur. Bizim çox münbit torpaqlarımız var və bu, xalqımızın milli sərvətidir. Həmin torpaqlardan, ümumiyyətlə, kənd təsərrüfatına aid olan təbii sərvətlərdən səmərəli istifadə etmək bizim borcumuzdur. Xüsusən də indiki dövrdə. Əvvəla, ona görə

ki, indi Azərbaycan müstəqil dövlətdir, xalqımız öz taleyinin sahibidir. Deməli, torpağımızdan nə qədər səmərəli istifadə etsək, respublikamız, xalqımız, hər bir vətəndaş bundan fayda götürəcəkdir. İkincisi, Azərbaycan Respublikası müharibə şəraitindədir. Ermənistan Respublikasının təcavüzü nəticəsində biz müharibə aparırıq. Müharibə gedən bir ölkədə kənd təsərrüfatına çox böyük ehtiyac var. Çünki ərzaq məhsullarının əsas mənbəyi kənd təsərrüfatıdır. Ona görə də bu sahəyə xüsusi diqqət verilməlidir. Məsələn, əgər 1941-45-ci illərin təcrübəsini [126-127] götürsək, görərik ki, sənayenin əsas hissəsi ancaq cəbhə üçün, qələbəni təmin etmək üçün səfərbər olunmuşdu. Ancaq kənd təsərrüfatı çox ciddi nəzarət altında idi. Çünki həm cəbhəni, həm də əhalini ərzaqla və başqa zəruri şeylərlə kənd təsərrüfatı təmin etməli idi. İndi də belədir.

Ancaq, bayaq dediyim kimi, təəssüf ki, son dövrdə Azərbaycanın kənd təsərrüfatı ildən-ilə tənəzzülə uğrayır və bu il də belə vəziyyətdəyik. Ona görə də biz son vaxtlar belə görüşlər keçirərək kənd təsərrüfatının vəziyyətini müzakirə etmişik. Bundan məqsəd mövcud şəraitdə imkanlarımızdan istifadə edərək kənd təsərrüfatında məhsuldarlığı artırmaq və ölkəni, xalqı ərzaqla, sənayeni xammalla təmin etməyə nail olmaqdır. Güman edirəm ki, mövcud imkanlar bu sahədə yüksək nailiyyətlər əldə etməyə şərait yaradır. Lakin biz bu imkanlardan istifadə etmirik. Bugünkü müşavirədən də məqsəd odur ki, özümüzü, bütün kənd əməkçilərini, kənd təsərrüfatı ilə məşğul olan bütün nazirlikləri, idarələri, müəssisələri bir daha səfərbər edək ki, həm ilin sonunadək əldə olunacaq məhsulların miqdarını, istehsalını artıraq, həm də gələn il üçün etibarlı zəmin yaradaq.

Bununla yanaşı, müşavirənin əvvəlində qeyd etdiyim kimi, kənd təsərrüfatında istənilən səviyyəyə qalxmaq üçün, dünyanın inkişaf etmiş ölkələrinin bu sahədəki nailiyyətlərinə çatmaq üçün biz kənd təsərrüfatında da iqtisadi tədbirlər görməliyik. Yəni iqtisadi islahatlar keçirməli, kənd təsərrüfatının idarə olunmasını, mülkiyyət formasını dəyişdirməliyik. Bu, ümumən iqtisadiyyatda, o cümlədən kənd təsərrüfatında strateji yolumuzdur. Biz bu yolla getməliyik, bundan ötrü daha ciddi tədbirlər görməliyik.

Təsadüfi deyil ki, mən nə kimi işlər görüldüyü barədə həm kənd təsərrüfatı nazirinə, həm də baş nazirin müavini Abbas Abbasova sual verdim. Danışıq, şüarlar, çağırışlar çoxdur. Ancaq əməli iş, demək olar, yoxdur, yaxud da ki, çox azdır. Beləliklə, yerimizdə saymaqla kənd təsərrüfatı daha da ağır vəziyyətə düşə bilər. Çünki kənd təsərrüfatının idarə olunmasının, təşkilinin mövcud formaları öz nəticəsini vermir. "Adıgün" kolxozunun sədri Bayraqdarovla bizim söhbətimiz buna əyani sübutdur. Mənim suallarıma onun verdiyi cavablardan, zənnimcə, bütün müşavirə iştirakçıları özləri üçün aydın etdilər ki, islahatları nə qədər tez aparsaq, kənd təsərrüfatı məhsulları istehsalını bir o qədər sürətlə artıracağıq. Təkcə bu deyil. Məsələn, Bayraqdarov deyir: kənddə yaşayan hər bir adama 0,25 hektar torpaq sahəsi verilmişdir. Bunun 0,15 hektarından götürülən məhsul onu tam təmin edir. İctimai təsərrüfatda isə bu qədər sahədən həmin məhsulun heç onda biri də götürülmür. Məgər bu, sübut etmirmi ki, biz mülkiyyət formasını dəyişdirməli, islahatlar aparmalıyıq ?

Yaxud, mən ictimai təsərrüfatda və fərdi təsərrüfatlarda nə qədər mal-qaranın olduğunu soruşdum. Beyləqan rayon icra hakimiyyətinin başçısına verdiyim sualdan məqsəd də bunu aydınlaşdırmaq idi. O dedi ki, ictimai təsərrüfatlarda 230 min baş davar var idi, indi 85 min baş [127-128] qalmışdır. Bu, şübhəsiz, rayonun iqtisadiyyatına böyük zərbədir. Kəndli təsərrüfatlarındakı davarın sayı isə bundan üç dəfə artıqdır.

İndi ictimai təsərrüfatdan fərdi təsərrüfata doğru gedirik. Əgər rayonda mal-qaranın sayı azalmayıbsa, əksinə, artıbsa, onun bir sektordan digərinə keçməsi təhlükəli bir şey deyildir, bəlkə də inkişafdır.

Yaxşı bilirik ki, müşavirə iştirakçılarının əksəriyyəti kənd təsərrüfatı ilə uzun müddət məşğul olmuş şəxslərdir. On il, iyirmi il bundan əvvəl hər bir kəsin öz həyətində saxladığı mal-qaradan götürdüyü məhsul kolxoz və sovxozda saxlanılan mal-qaranın məhsuldarlığından xeyli yuxarı idi. Əgər bu, doğrudan da belədirsə, belə dəyişikliklər varsa, onda bunun qarşısını süni surətdə almaq nəyə gərəkdir ? Biz burada niyə iri addımlar atmayaq ? Yox, mütləq atmalıyıq. Mən bunu bu gün tam qətiyyətlə deyirəm və Nazirlər Kabinetindən, İqtisadiyyat Nazirliyindən, Kənd Təsərrüfatı Nazirliyindən, digər əlaqədar nazirlik və təşkilatlardan, bu sahədə fəaliyyət göstərən elmi-tədqiqat institutlarından, yerli hakimiyyət orqanlarından, icra hakimiyyətinin başçılarından, hətta təsərrüfat rəhbərlərindən də tələb edirəm ki, bu istiqamətdə təcili tədbirlər görsünlər.

Şübhəsiz ki, bu işi kortəbii surətdə, necə gəldi aparmaq olmaz. İşi elə həyata keçirmək lazımdır ki, bu tədbirlərin yüksək nəticələrini görək. Lakin hər dəfə söz verib, əslində isə köhnə idarə üsulundan yenə də əl çəkməmək bizi bundan sonra daha da geri sala bilər. Məsələn, mən Bayraqdarova cəsarətlə dedim ki, siz işi necə lazım bilirsinizsə, eləcə də aparın, öz təklifinizi irəli sürün və biz də sizə tam səlahiyyət verərik. Nə üçün ? Çünki mən Bayraqdarovu da tanıyıram, onun başçılıq etdiyi təsərrüfatda vəziyyətdən də halıyam, onu da bilirəm ki, orada çalışanlar çox əməksevər adamlardır, heç vaxt itkiyə yol verməzlər. Elə Bayraqdarovun özü də belə hallara qətiyyən yol verməz. Axı o, bu təsərrüfata 27 ildir rəhbərlik edir. Özü də çox müvəffəqiyyətlə!

Buna görə də mən ona ixtiyar verirəm ki, necə istəyir, elə də hərəkət etsin. Çünki görürəm ki, bu adam daha köhnə üsullarla işləmək istəmir, təsərrüfatı köhnə üsullarla idarə etmək fikrində deyildir. Hətta öz çıxışından da məlum oldu ki, müəyyən tədbirlər görmüşdür. Mən əminəm ki, o, həmin tədbirləri əsaslandırılmış surətdə həyata keçirmişdir. Ümidvaram ki, Bayraqdarovun özü də, onun rəhbərlik etdiyi kolxoz da bizim kənd təsərrüfatı sahəsində aparacağımız iqtisadi islahatların həyata keçirilməsində nümunə göstərəcəkdir.

Bayraqdarovun kolxozu kimi təsərrüfatı hər rayonda tapmaq olar. Onlar cəsarətlə hərəkət edə bilərlər. Lakin bu işləri həmin strateji yolla aparmaq üçün ciddi fəaliyyət göstərmək gərəkdir. Bir daha deyirəm, mən

bunu Nazirlər Kabinetindən, nazirliklərdən, yerli hakimiyyət orqanlarından tələb edirəm. İnanıram ki, tezliklə bizə təkliflər təqdim olunacaqdır. Biz onlara hökmən baxacağıq. Bu barədə müvafiq qanunlar da qəbul edilməlidir. Bununla əlaqədar narahat olmağa dəyməz, çünki qanunu hazırlayıb qəbul etmək çətin bir məsələ deyildir. Başlıcası – onun prin[128-129]siplərini müəyyən etməkdir. Bunun üçünsə həmin sahədə çalışan mütəxəssislərimiz təşəbbüskarlıq göstərməlidirlər.

Bunu etmək bir de ona görə vacibdir ki, cari kənd təsərrüfatı ili sona yetir, növbəti kənd təsərrüfatı ili başlayır. Əgər indidən ciddi hazırlıq görməsək, payızda, qışda lazımi islahatlar aparmasaq, onda 1995-ci ildə də bu yolla gedəcəyik, hətta indiki səviyyədən də aşağı düşə bilərik.

Bu, birinci və əsas məsələdir, mən onu sizin qarşınızda qəti şəkildə bir vəzifə kimi qoyuram və tələb edirəm ki, bu məsələ ilə ciddi məşğul olasınız.

Bununla yanaşı, qeyd etdiyim kimi, bugünkü müşavirədən əsas məqsəd mövcud imkanlardan istifadə edərək, cari ildə kənd təsərrüfatı məhsulları istehsalını artırmaqdır. Bildiyiniz kimi, kənd təsərrüfatı məsələlərinin müzakirəsi üçün yazdan bəri bir neçə dəfə görüşmüşük. Hər dəfə də qarşıya vəzifələr qoymuşuq. Vəzifə birinci növbədə respublikada taxıl məhsulları istehsalını artırmaqdır. Taxıl bizim üçün gərəkli məhsuldur. Respublikamız keçmişdə də özünü taxılla təmin etməmişdir, elə indi də təmin edə bilmir. Ancaq keçmişdə bu sahədə böyük çətinliyimiz yox idi. Respublikanı təmin etmək üçün kənardan istənilən miqdarda taxıl məhsulları gətirirdik. Bir sözlə, heç bir problem olmurdu. Amma indi problem var. Bu da ondan ibarətdir ki, indi kənardan taxıl almaq bizim üçün çox çətindir, çünki buna valyuta sərf edilir. Odur ki, respublikada taxıl istehsalını artırmaq lazımdır. Bunun üçün isə daxili imkanlarımız genişdir. Biz bu barədə hələ ilin əvvəllərində danışmışdıq, vəzifələri müəyyənləşdirmişdik, həm nazirliklər, həm də rayon rəhbərləri qarşısında vəzifələr qoymuşduq. Bizə hətta vəd etmişdilər ki, bu il yaxşı taxıl məhsulu gözlənilir, taxıl istehsalı artacaqdır. Deməli, taxıl məhsulları tədarükü də artacaq, taxıla və taxıl məhsullarına tələbatın bir hissəsini respublikanın özü ödəyəcəkdir.

Lakin bugünkü müzakirə göstərir ki, verilmiş vədlər yerinə yetirilməmişdir. Burada kənd təsərrüfatı naziri bəzi obyektiv səbəblərdən danışdı – guya yağış yağdı, zəmilərdə taxıl yerə yatdı. Əlbəttə, yağış da yağa bilər, hava da pis keçə bilər. Lakin kənd təsərrüfatı işləri həmişə gərək elə aparılsın ki, bəzi təbii hallar nəzərə alınaraq, müəyyənləşdirilmiş miqdarda məhsul götürülsün.

Axı elə bir il olurmu ki, yağış yağmasın, qar yağmasın, külək əsməsin və ya təbii fəlakət baş verməsin ? Heç cür belə il ola bilməz. Hər il haradasa təbii bir hadisə baş verir. Odur ki, təbii halları bəhanə gətirmək olmaz. Belə hesab edirəm ki, Kənd Təsərrüfatı Nazirliyi və taxılçılıqla məşğul olan rayonlarımız vədlərini yerinə yetirməmişlər: söz verilmişdi ki, 1 milyon 400 min tona qədər taxıl istehsal ediləcəkdir, hələlik isə 1 milyon ton məhsul götürülmüşdür. İndi görək bundan sonra nə qədər məhsul əldə ediləcəkdir. Söz veriblər ki, təxminən 400 min ton taxıl tədarük olunacaqdır. Hələlik ki, 260 min ton tədarük edilmişdir. Bu da bizi, şübhəsiz, qane edə bilməz. [129-130]

Ona görə də bu gün mən həm Kənd Təsərrüfatı Nazirliyinə, həm də kənd təsərrüfatı ilə məşğul olan digər nazirliklərə, şirkətlərə, habelə taxılçılıq təsərrüfatlarına və rayon rəhbərlərinə öz narazılığımı bildirmək istəyirəm və tələb edirəm ki, qalan müddət ərzində bu işlə ciddi məşğul olsunlar, istehsalı artırsınlar. Əlbəttə, dövlətə taxıl təhvil verilməsini də artırmaq lazımdır.

Burada Feyruz Mustafayev rayonların nə qədər taxıl istehsal etdiklərinə və nə qədər təhvil verdiklərinə dair bir çox rəqəmlər gətirdi. Bu göstəricilər əsla razı salmır, biz onlarla heç cür razılaşa bilmərik. Mütəxəssislərimiz, Prezident Aparatının işçiləri müəyyən rəqəmlər hazırlamışlar. Həmin rəqəmlərə görə, istehsal edilmiş taxılın təxminən 60-70 min tonunun da dövlətə təhvil verilməsini təmin etmək olar. Ola bilsin ki, bunun üçün müəyyən şərtlər var. O şərtlərə də əməl etmək gərəkdir. Buna görə də Nazirlər Kabinetinə (Abbas Abbasov), Kənd Təsərrüfatı Nazirliyinə, İqtisadiyyat Nazirliyinə (Səməd Sadıqov), Taxıl Məhsulları Şirkətinə (Feyruz Mustafayev) və rayon rəhbərlərinə tapşırıram ki, bu məsələlərlə ciddi məşğul olsunlar və dövlətə taxıl tədarükünü təmin etsinlər. Dövlət müşaviri Arif Rəhimzadə buna nəzarət etməli və bu işlərlə ciddi məşğul olub, mənə mütəmadi surətdə məlumat verməlidir.

Burada bir prinsipi, bir məsələni nəzərə almaq lazımdır ki, indi respublikanın kənardan taxıl almaq imkanı çox məhduddur. Əvvəla, valyuta çatışmır. İkincisi isə, alınan taxılın mənzil başına çatdırılması nəqliyyat məsələlərinin çox çətinləşməsi ilə əlaqədar olduqca müşküldür. Odur ki, biz gərək daxili imkanlardan maksimum istifadə edək. Eyni zamanda təsərrüfatlarda xeyli taxıl qalır. Bundan isə kənd zəhmətkeşlərinin tələblərinin ödənilməsi üçün istifadə etmək lazımdır. Bir sözlə, yetişdirilmiş taxılın itkisinə, məhsulu hərənin bir yana çəkib aparmasına yol verilməməli, bu məhsul qorunmalı, dövlətə bacardıqca çox təhvil verilməli, qalan hissəsindən isə rayonlarda, təsərrüfatlarda səmərəli istifadə edilməlidir.

Taxılçılıq kənd təsərrüfatımızın əsas sahələrindən biridir. Biz taxıl istehsalını ilbəil artırmalıyıq. Buna görə də taxılçılığı əsas sahə hesab edərək, mən müşavirənin bütün iştirakçılarına, taxılçı zəhmətkeşlərimizə müraciət edirəm ki, bu işlə daha ciddi, yorulmadan məşğul olsunlar.

İndi gələn ilin məhsulu barədə də düşünmək lazımdır. Aydındır ki, taxılı yığılmış sahələr şumlarımamı, payız əkini üçün hazırlıq görülməlidir. Bu günlərdə biz bir müşavirə keçirdik. Müşavirədə mən kənd təsərrüfatı

nazirinə və Taxıl Məhsulları Şirkətinin prezidenti Feyruz Mustafayevə tapşırmışam və bu gün do sizin qarşınızda deyirəm ki, onlar gələn ilin məhsulu üçün, toxum tədarükü üçün başlan ilə cavabdehdirlər. Yəni toxum vaxtında hazırlanmalı, təmizlənməli, dərmanlanmalı, keyfiyyətli olmalı və əkin-səpin işləri də vaxtında aparılmalıdır. [130-131]

Burada çıxış edən rayon icra hakimiyyəti başçılarından biri dedi ki, keçən il əkin işləri dekabr ayında aparılıbdır. Arif Rəhimzadə də qeyd etdi ki, bu iş bəzi rayonlarda dekabrda görülmüşdür. Əgər həmin işlər doğrudan da dekabrda aparılıbsa, bundan böyük məhsul gözləmək də mümkün deyildir. Odur ki, payız şumu, əkini vaxtında aparılmalıdır və gələn il yüksək məhsul götürmək üçün indidən ciddi iş görülməlidir. Yəni taxılçılıq sahəsində vəzifə, bir tərəfdən, sahələrdə qalan məhsulu yığmaqdan, dövlətə taxıl tədarükünü davam etdirməkdən və digər tərəfdən, əldə olunmuş məhsuldan səmərəli istifadə etməkdən, toxum hazırlamaqdan, gələn ilin məhsulunun bünövrəsini etibarlı surətdə qoymaqdan ibarətdir. Ümidvaram ki, siz bu vəzifələrin layiqincə yerinə yetirilməsinə çalışacaqsınız.

Lakin respublikanın taxılla və taxıl məhsulları ilə təmin olunması üçün əlavə tədbirlər də görülməlidir. Biz bu məsələni bundan öncə üç saat ərzində geniş müzakirə etmişik və vəzifəli şəxslərə tapşırıqlar verilmişdir. Baş nazirin müavini Abbas Abbasov şəxsən bu işlərlə ciddi məşğul olmalıdır. Mən bu barədə ona tapşırıq vermişəm. Kənd təsərrüfatı naziri, Taxıl Məhsulları Şirkətinin prezidenti, digər əlaqədar nazirliklər, baş idarələr ilin sonunadək respublika əhalisinin taxılla və taxıl məhsulları ilə təmin olunması üçün kənardan taxıl alınıb gətirilməsini təmin etməlidirlər. Özü də bununla əlaqədar bütün məsələlər yaxın günlərdə həll olunmalıdır.

Təəssüf ki, bu sahə üçün cavabdeh olan orqanlar, vəzifəli şəxslər bəzən həmin məsələlərlə vaxtında məşğul olmurlar. İndi mən sizə açıq deməliyəm, bəzən gəlib bildirirlər ki, on gündən sonra çörək bişirməyə ehtiyatımız yoxdur və təcili tədbirlər görülməlidir. Belə hallar yaramaz və biz onlara daha dözə bilmərik. Odur ki, keçirilən müşavirədə bu barədə göstərişlər verilmişdir. Lakin mən bu sahədə tutduğumuz mövqeni sizə çatdırmaq istəyirəm. Mövqeyimiz bundan ibarətdir ki, ilin axırınadək respublikanı taxılla təmin etmək problemi həll olunmalı, bunun üçün məsuliyyət daşıyan şəxslər müəyyənləşdirilməli və taxılın haradan, hansı nəqliyyat vasitələri ilə gətirilməsi məsələsi aydınlaşdırılmalıdır. Eyni zamanda 1995-ci ilin birinci yarısı üçün indidən zəruri tədbirlər görülməli, bağlaşmalar imzalanmalı, lazımi yerlərə müraciət edilməli və respublika əhalisini uzun müddət ərzində taxılla və taxıl məhsulları ilə təmin etmək üçün proqram hazırlanmalıdır. Dediyim kimi, baş nazirin müavini Abbas Abbasov bu məsələlərlə məşğul olur və onlar üçün məsuliyyət daşıyır.

Bu barədə danışarkən bir məsələyə də toxunmaq istəyirəm. O da çörəyin keyfiyyəti məsələsidir. Yəqin ki, bu məsələ digər şəhər və rayonlarımızın sakinlərini də narahat edir. Hər halda Bakıda bişirilən çörəyin keyfiyyəti çox aşağıdır. Çörəkbişirmə idarəsi gərək ki, Taxıl Məhsulları Şirkətinə tabedir. Onların işində çox ciddi nöqsanlar var. Çörək zavodlarının işində də nöqsanlar az deyildir. Çörəyin keyfiyyəti yalnız ona görə aşağı deyildir ki, respublikamızda istehsal edilən taxılın çörək üçün keyfiyyəti aşağıdır, yaxud başqa komponentlər çatışmır. Yox, [131-132] təkcə buna görə deyildir. Bunu tam açıqlığı ilə demək lazımdır: təəssüf ki, respublikanın bu ağır şəraitində, taxıl və taxıl məhsulları ilə təminatın çətin olduğu indiki dövrdə ayrı-ayrı vəzifəli şəxslər bu fürsətdən istifadə edərək oğurluqla məşğul olur, vəzifələrindən sui-istifadə edir, taxılın alınıb gətirilməsində cürbəcür əyri yollara gedir, şəxsi mənafelərini ümumi mənafedən, dövlətin, xalqın mənafeyindən üstün tuturlar. Çörək zavodlarında un, çörək oğurlanır, müxtəlif əyintilərə yol verilir. Bax, buna görə də çörəyin keyfiyyəti aşağı düşür.

Bu gün mən həmin sahədə çalışan vəzifəli şəxslərdən, məsuliyyət daşıyan şəxslərdən bir daha tələb edirəm ki, qeyd olunan nöqsanları aradan qaldırsınlar, çörəkbişirmə idarələrinin işindəki xoşagəlməz hallara son qoysunlar və belə əməllərə yol verən adamlar barəsində ciddi tədbirlər görsünlər. Bizim inzibati orqanlar, hüquq-mühafizə orqanları bu məsələlərlə ciddi məşğul olmalıdırlar. Bu gün mən bir daha bildirmək istəyirəm ki, xalqın bu ağır şəraitində çörək, un kimi müqəddəs nemətləri oğurlamaq və beləliklə də, xalqa xəyanət etmək ən böyük cinayətdir. Əgər bunlar bu işin mənəvi cəhətini başa düşmürlərsə, onları heç insan hesab etmək olmaz.

Lakin biz öz tədbirlərimizi əməli surətdə həyata keçirməliyik. Yəni vəzifəli şəxslər, hüquq-mühafizə orqanları bu işlə ciddi məşğul olmalıdırlar. Belə biabırçı, çirkin hallar aradan götürülməlidir.

Kənd təsərrüfatının çox mühüm sahələrindən biri də pambıqçılıqdır. Biz neçə-neçə illərin sınağından çıxmışıq. Bir vaxtlar dedilər ki, pambıq Azərbaycan üçün xeyirlidir, bir vaxt da dedilər ki, yox, zərərlidir. Hətta bir ara, daha doğrusu, 1985-90-cı illərdə bir sıra ağzıgöyçək adamlar mətbuatda çıxış edib haray çəkdilər ki, pambıq Azərbaycan xalqına zərər gətirir və s. və i.a. Tarixin özü də, həyatın özü də belələrinə cavab verdi və göstərdi ki, pambıqçılıq Azərbaycanın torpaq və iqlim şəraitinə uyğun olan, Azərbaycanın kənd təsərrüfatında və iqtisadiyyatında qədim dövrlərdən çox mühüm yer tutmuş və bu gün də tutan bir sahədir. Əminəm ki, pambıqçılıq gələcəkdə də iqtisadiyyatımızda öz layiqli yerini tutacaqdır.

Cəsarətlə deyə bilərəm ki, kənd təsərrüfatı məhsulları arasında pambıq bizim üçün ən böyük strateji əhəmiyyətə malik məhsullardan biridir. Bütün kənd təsərrüfatı məhsulları arasında ən üstün yer tutan pambığın xarici bazarda satılmasından biz valyuta əldə edirik. İndi respublikamızın xarici valyutaya necə böyük ehtiyac duyduğu yaxşı məlumdur. Sənayedə də, iqtisadiyyatın başqa sahələrində də, elə kənd təsərrüfatının özündə də çox az miqdarda məhsul tapılar ki, onları xarici bazarda satıb valyuta əldə edir və daxili tələbatımızı ödəyirik.

Belə məhsullardan biri də məhz pambıqdır. Odur ki, pambıqçılıq nəinki kənd təsərrüfatı işçilərimiz, ümumiyyətlə, vətəndaşlarımız üçün, həm də Azərbaycan Respublikasının bütün iqtisadiyyatı üçün, onun iqtisadi potensialı üçün, xarici ticarət potensialımızı genişləndirmək üçün, ölkənin [132-133] maliyyə vəziyyətini yaxşılaşdırmaq üçün zəngin bir mənbədir. Bax, buna görə də pambıqçılığa ciddi fikir vermək lazımdır.

Bütün bunları, eləcə də son illərin təcrübəsini nəzərə alaraq bilməliyik ki, bu sahədə səylərimizi nə qədər gücləndirsək, pambıq məhsulu istehsalını artırsaq, iqtisadiyyatımızın inkişafına bir o qədər sanballı təkan vermiş olarıq. Bir daha deyirəm, pambıqçılıqla və pambıq istehsalı ilə ciddi məşğul olmaq çox vacibdir.

Burada verilən məlumatlara görə, keçən ildəkinə nisbətən bu il daha çox məhsul əldə ediləcəyi gözlənilir. Sentyabr yaxınlaşır. Pambıq yığımına, adətən, bu ayın əvvəlindən başlanır. Deməli, indi yığıma hazırlığın son mərhələsidir, ciddi hazırlıq işləri görülməli, tarlalarda lazımi aqrotexniki tədbirlər həyata keçirilməlidir. Bayaq dedilər ki, iqlim şəraiti taxılın məhsuldarlığına təsir göstərmişdir. İndi elə olmasın ki, burada da desinlər bu və ya digər hallar işə əngəl törətdi.

Uzun illərin təcrübəsi göstərir ki, pambıqçılıq sahəsində iki mərhələ var. Birincisi, pambığın əkilib-becərilməsi, onun yetişdirilməsidir. İkincisi isə məhsulun yığılmasıdır. Məhsul yığımı mühüm prosesdir və qısa müddətdə başa çatdırılmalıdır. Məhsuldarlıq da işin yaxşı təşkil edilməsindən asılıdır. Mən bilirəm, rayonlarımızda təcrübəli adamlar çoxdur. Elə siz də üzərinizə düşən məsuliyyəti bilirsiniz. Pambığın yığılmasına ciddi hazırlaşmaq lazımdır. Yenə deyirəm, məhsul yığımını qısa müddətdə başa çatdırmaq gərəkdir ki, sonra deməsinlər yağış yağdı, külək əsdi, buna görə də məhsul zay olub getdi. Bu il pambıq məhsulu həm daxili tələbatımızı ödəmək üçün, həm də xarici bazarda satıb respublikanın indiki ağır vəziyyətində onun iqtisadiyyatını müəyyən qədər inkişaf etdirmək üçün çox, həddindən çox lazımdır. Buna görə də mən pambıqçılıq rayonlarının rəhbərlərinə, kənd təsərrüfatı idarələrinə, pambıq zavodlarının müdirlərinə müraciət edirəm, Kənd Təsərrüfatı Nazirliyindən tələb edirəm ki, respublikamızın keçən ildəkinə nisbətən daha çox pambıq məhsulu götürməsi üçün bütün işlərlə yaxından, var qüvvə ilə məşğul olsunlar.

Mən burada rəqəmlər gətirmək istəmirəm. Lakin verilən məlumata görə, bu il 450 min tona qədər məhsul götürmək mümkündür. Əslində isə gərək bundan da çox məhsul yığılsın. Ona görə də rəqəmlərdən danışmaq istəmirəm. Sözümün mənası budur ki, bütün imkanlardan istifadə edib hər bir kənd təsərrüfatı məhsulunu, o cümlədən də pambığı tamamilə, axıradək toplamaq, dövlətə təhvil vermək lazımdır.

Əlbəttə, bütün bu məsələləri həll etmək üçün kənd təsərrüfatının maliyyə vəziyyətini nəzərdən keçirmək gərəkdir. Buraya dəvət olunan – rayon rəhbərləri öz üzərilərinə düşən vəzifələri dərk etməli və bilməlidirlər ki, maliyyə məsələləri keçmişdəkinə nisbətən indi həm mürəkkəbdir, həm də çox məsuliyyətlidir. Maliyyə Nazirliyi, banklarımız, xüsusən Aqrar-Sənaye Bankı, kənd rayonlarının bankları bu işlərlə ciddi məşğul olmalıdırlar. Bilirəm, burada çətinliklər mövcuddur. Amma gərək imkan[133-134]larımızdan istifadə edib onları aradan qaldıraq və çalışaq ki, bütün kənd təsərrüfatı məhsullarının tədarükü təmin olunsun.

Kənd təsərrüfatının başqa sahələrində də görüləsi işlərimiz çoxdur. Azərbaycanın kənd təsərrüfatının xüsusiyyəti ondan ibarətdir ki, o, çoxsahəlidir: taxılçılıq, pambıqçılıq, üzümçülük və s. Sizə məlumdur ki, 70-80-ci illərdə respublika çox böyük miqdarda üzüm məhsulu yetişdirmək imkanlarına malik idi. Sizə bu da məlumdur ki, üzümçülüyə böyük ziyan vurmuş, onu dağıdıb viran qoymuşlar. Bütün bunlar xalqın gözləri qarşısında edilmişdir. Mənə belə məlumat veriblər ki, təxminən 120 min hektar üzüm bağları ləğv edilmiş, dağıdılmışdır. İndi görün, bir tərəfdən, milli sərvətimizə, iqtisadiyyatımıza zidd olan tədbirlərin həyata keçirilməsi nəticəsində, digər tərəfdən isə istər respublika orqanlarının, istər də yerli orqanların bu sahəyə biganəliyi nəticəsində nə vəziyyətə düşmüşük.

Mən inanıram ki, vaxt gələcək, Azərbaycan Respublikası yenə də böyük üzümçülük diyarına çevriləcəkdir. Çünki bizi əhatə edən dövlətlərdə, xüsusən də MDB ölkələrində üzüm məhsullarına çox böyük ehtiyac var, onlar bizim üçün uzunmüddətli xarici bazardır. Buna görə də həmin sahəni inkişaf etdirmək gələcəkdə iqtisadiyyatımızın güclənməsi üçün olduqca vacibdir.

Lakin indi mövcud vəziyyətdən danışmaq lazımdır. Aldığım məlumata görə mövcud vəziyyət bu il yaxşı üzüm məhsulu götürüləcəyini söyləməyə əsas verir. Deyilənlərə görə, təxminən 500-550 min ton üzüm tədarük etmək mümkündür. Amma bunun üçün də lazımi işlər görmək, yığıma ciddi hazırlaşmaq, itkiyə yol verilməməsindən ötrü mühüm tədbirlər həyata keçirmək gərəkdir.

Təəssüflər olsun ki, Kənd Təsərrüfatı Nazirliyi şərabçılıq sahəsində lazımi tədbirlər görmür. Keçən illərdə istehsal edilmiş şərab məhsulu indiyədək satılmamış və beləliklə də çox böyük məbləğdə vəsait itirilmişdir. Biz kənd təsərrüfatı naziri Abdullayevə bu barədə dəfələrlə göstərişlər vermişik, xəbərdarlıq etmişik. Ancaq onlar lazımi tədbirlər görməmişlər. Bu gün mən bununla əlaqədar öz tələbimi bir daha bildirirəm və güman edirəm ki, bugünkü söhbətlərdən ciddi nəticələr çıxarılacaqdır. Kənd Təsərrüfatı Nazirliyi bu işlərlə ciddi məşğul olmalı, keçən illərdən yığılıb qalmış şərab məhsulları satılmalı və dövlətin xəzinəsinə vəsait gətirilməlidir. Bu ilin məhsulu isə itkisiz yığılmalı və emal olunmalı, ondan səmərəli istifadə edilməlidir.

Respublikamızda tütünçülük də mühüm yer tutur. Amma təəssüflər olsun ki, tütün istehsalı getdikcə azalır. Halbuki tütünçülük respublikamıza, onun iqtisadiyyatına böyük fayda verən sahədir. Bu sahədə çoxlu səhv buraxılmışdır. Məsələn, keçən il əvvəlki illərdən də xeyli az tütün məhsulu əldə edilmişdir. Ancaq bu

məhsul da indiyədək satılmamışdır. Nəticədə onun bir hissəsi çürüyüb xarab olmuş, öz dəyərini itirmişdir. Digər tərəfdən isə belə halları görən tütünçülük təsərrüfatları, yaxud kənd əməkçiləri bu sahəyə daha maraq göstərmirlər. Ona görə də builki göstəricilər keçən ildəkindən xeyli aşağıdır. Şübhəsiz, bunun səbəbi [134-135] ondan ibarətdir ki, həmin sahəyə cavabdeh olan şəxslər öz vəzifələrini layiqincə yerinə yetirmirlər. Yetişdirilib əldə edilmiş məhsul isə satılmır. Bir tərəfdən deyirlər ki, kənd təsərrüfatı məhsulları almaq üçün vəsait yoxdur, ikinci tərəfdən isə kənd təsərrüfatı məhsulları anbarlarda yığılıb qalmışdır, satılmır. Buna görə də vəsait yoxdur. Şübhəsiz ki, bütün bunlar kənd təsərrüfatı rəhbərliyinin buraxdığı kobud, ciddi, bağışlanılmaz səhvlərdir. Bu gün mən bunları bir daha deyirəm və tələb edirəm ki, belə hallar aradan götürülməlidir.

Deyilənlərə görə, keçən ildən qalan 6-7 min ton, bəlkə bundan da çox məhsul hələ satılmamışdır. Bir neçə gün bundan qabaq Moskvadan məktub aldım, yazırlar ki, onlar bizdən 6 min ton tütün satın almaq istəyirlər. Hələ keçən il biz Moskvanın bələdiyyə rəisi cənab Yuri Lujkovla burada müqavilə bağladıq ki, Azərbaycan Moskvaya müntəzəm olaraq tütün məhsulu göndərəcəkdir. Bəs niyə göndərmirik ? Nə səbəbə görə? Görünür, kimsə burada özü üçün mənfəət götürə bilməyib, ona görə də məhsul satılmamış qalıb.

Bilirsiniz, dərd-sərimiz çoxdur. Əgər onların müəyyən bir qismi obyektiv səbəblərdən irəli gəlirsə, habelə müharibə ilə iqtisadi böhranla bağlıdırsa və bunlar dağıdıcı qüvvələrin əməlinin nəticəsidirsə, digər tərəfdən isə, taxılçılıq sahəsində olduğu kimi, burada da bizim bu vəzifəli şəxslər özləri üçün mənfəət güdürlər. Bu şəxslər daha çox mənfəət götürməyə can ataraq, ümumi işə zərər vururlar. Yox, bunlar dözülməz hallardır. Tələb edirəm ki, belə hallara son qoyulsun. Özü də tamamilə!

Dediyim kimi, bizim kənd təsərrüfatı çoxsahəlidir. İndi mən aldığım cədvəllərə baxıram. İnanın ki, onlara baxdıqca ürəyim ağrıyır. Məsələn, respublikamız vaxtilə ildə 700 min ton tərəvəz tədarük edirdi. Amma indi vur-tut 50 min ton tərəvəz istehsal olunmuşdur. Bu, adama ağır gəlir. Bu gün Dilruba xanım Camalova da qeyd etdi, vaxtilə təkcə Lənkəranda 160-170 min ton tərəvəz istehsal olunurdu. Amma indi heç deyiləsi deyil. Müxtəsəri, bütün bitkiçilik məhsulları istehsalı azalmışdır. Təəssüflər olsun ki, bütün bunlar bizim hamımızın kənd təsərrüfatı sahəsinə laqeyd münasibətimizin nəticəsidir. Əslində isə kənd təsərrüfatının bütün imkanlarından istifadə etmək lazımdır.

Eyni zamanda bostan, tərəvəz, bağçılıq məhsulları yetişdirilməsi sahəsində fərdi təsərrüfatların imkanları genişdir. Şübhəsiz ki, onların imkanları sayəsində respublikanın tələbatını müəyyən dərəcədə ödəmək olar. İndi, bazar iqtisadiyyatına, ümumiyyətlə, sərbəst iqtisadiyyata keçdikdə bunların hamısı müsbət hallardır. Əgər belə imkanlar ictimai təsərrüfatda yoxdursa və fərdi təsərrüfatda mövcuddursa, bu, təqdirəlayiqdir. Sübhə yoxdur ki, fərdi təsərrüfatlarda yetişdirilən məhsul respublikanın bazarına çıxarılacaq, əhalinin bu məhsullara tələbatının ödənilməsinə kömək edəcəkdir. Odur ki, bu təsərrüfatlara da hər cür şərait yaradılmalıdır.

Heyvandarlıq sahəsində çox böyük gerilik var. Burada bəzi natiqlər danışarkən mən onlarla sual-cavab etdim və öz fikrimi bildirdim. Bununla bərabər, bir daha deyirəm: bizim ictimai bölmədə olan mal-qaranın həm [135-136] sayı, həm də məhsuldarlığı xeyli azalmışdır. Məhsuldarlıqdan danışarkən; ötən illər yadıma düşür. Məsələn, onda biz məhsuldarlığın aşağı olmasına görə tənqid edirdik. Amma indi məhsuldarlıq ondan 5-6 dəfə aşağı düşmüşdür. Buna görə də biz, bir tərəfdən, ictimai təsərrüfatda olan mal-qaranın məhsuldarlığının artmasına çalışmalıyıq və siz bu sahədə qarşıda duran vəzifələri həyata keçirməlisiniz. İkinci tərəfdən isə, dediyim kimi, islahatlar aparılmalıdır. Ola bilsin, islahatlara birinci növbədə heyvandarlıqdan başlamaq lazımdır ki, heyvandarlıq məhsulları istehsalını sürətlə artıra bilək.

Bir sözlə, hətta indinin özündə də kənd təsərrüfatı sahəsində potensialımız böyükdür. Bundan istifadə etmək lazımdır. İndi hər birimiz işin bir qulpundan yapışmalıyıq ki, respublikamızı bu ağır vəziyyətdən çıxaraq. Buna imkanımız var və biz buna nail olmalıyıq. Həm də ona görə nail olmalıyıq ki, biz müharibə şəraitindəyik.

Bildiyiniz kimi, apardığımız danışıqlar nəticəsində mayın 12-dən etibarən atəş kəsilmişdir. Altı il davam edən müharibə dövründə ilk dəfədir ki, belə uzunmüddətli atəşkəsə nail olunmuşdur və biz çalışırıq ki, o, bundan sonra da davam etsin. Məqsədimiz nədir ? Mən bunu dəfələrlə demişəm. Lakin bu elə məsələdir ki, onu təkrar etməyə, hər dəfə izah etməyə ehtiyac var. Məqsədimiz ondan ibarətdir ki, müharibəyə son qoyaq, bütün məsələlər sülh yolu ilə həll olunsun. Çünki altı ildən bəri gedən bu müharibənin təcrübəsi göstərir ki, onun müsbət nəticəsi yoxdur. Ona görə də biz həm Rusiyanın, həm də ATƏM-in Minsk qrupunun vasitəçiliyindən istifadə edirik, həm də bilavasitə danışıqlar apararaq atəşkəsə nail olmuşuq və bu müddətdə böyük saziş hazırlayırıq. Ancaq bir daha təkrar edirəm ki, bizim şərtlərimiz var. Yəni erməni silahlı qüvvələri Azərbaycanın işğal edilmiş rayonlarından çıxmalı, ölkəmizin ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı təmin olunmalıdır. Şübhəsiz ki, bu halda Dağlıq Qarabağın statusu haqqında danışıqlar apararaq bu barədə sazişə gəlmək olar. Başqa yol yoxdur. Kim isə başqa yolla getmək istəyirsə, bu, səhvdir.

Müharibə Azərbaycan Respublikasına, Azərbaycan xalqına böyük bəlalar gətirmişdir. İşğal olunmuş rayonlardakı bütün yaşayış binaları, müəssisələr, sosial obyektlər və sairə dağılmışdır, bir milyondan artıq adam qaçqın vəziyyətindədir. Belə vəziyyətdə uzun müddət dözmək mümkün deyil. Ona görə də biz bu yolla gedirik və mən hər gün hiss edirəm ki, xalq bu siyasəti bəyənir və qəbul edir. Qarabağ zonasının əhalisi ilə aparılan söhbətlər də göstərdi ki, onlar atəşin dayandırılmasını bəyənirlər və hər yerdən xahişlər gəlir ki, çalışın, atəşkəs pozulmasın. Biz də buna çalışırıq.

Eyni zamanda biz həmişə torpaqlarımızın müdafiəsinə hazır olmalıyıq. Orduda ciddi intizam olmalıdır. Cəbhə bölgələrindəki hərbi hissələr öz vəzifələrini ləyaqətlə yerinə yetirməlidir ki, ordumuz respublikamıza [136-137] qarşı ola biləcək yeni təcavüzü dəf etməyə hər dəqiqə, hər saat hazır olsun.

Biz atəşkəsin davam etməsinə çalışsaq da, onun pozulmayacağına təminat verə bilmərik. Çünki, ola bilər, Ermənistan tərəfi yeni təcavüz hərəkətlərinə əl atsın. Ona görə də cəbhəyanı rayonların rəhbərləri, ümumiyyətlə, respublikanın bütün vəzifəli şəxsləri müstəqil Azərbaycanın müdafiəsini daim özlərinin əsas vəzifəsi hesab etməlidirlər. Ordu hissələri olan yerlərdə onlara kömək etmək, maddi təminatına yardım göstərmək, nizam-intizamın möhkəmləndirilməsinə kömək etmək lazımdır.

Lakin mən dəfələrlə bəyan etmişəm və bir daha təkrar edirəm: biz müharibənin yenidən başlanmasını istəmirik. Əgər belə bir hal baş verərsə, bu, bizim tərəfimizdən olmayacaq. Mən istərdim bunu hamı dərk etsin və kimlərsə aranı qızışdırmaq istəyirsə, bundan əl çəksinlər. Bunlar qeyri-real şeylərdir. Bu, birincisi.

İkincisi, biz heç vaxt Ermənistan ərazisinə qəsbkarlıq gözü ilə baxmamışıq. Ermənistan Respublikası bizə nə qədər zərər vurmuşsa da, gələcək nəsillər, Azərbaycan və Ermənistan bir-biri ilə qonşu kimi yaşamalıdır. Ona görə də gərək sülh yaransın, aramızdakı münasibətlər nə qədər normal vəziyyətə düşsə, respublikamızın bu günü, gələcək nəsillərin həyatı da bir o qədər normal olacaqdır. Biz bu danışıqları davam etdirəcək, Böyük siyasi sazişin hazırlanıb sona çatdırılmasına çalışacağıq.

Daha bir məsələni xatırlatmaq istəyirəm: müharibə ilə bağlı hər şeyi diqqət mərkəzində saxlamalıyıq. Hər bir döyüşçü, bütünlükdə ordumuz diqqət və qayğı ilə əhatə edilməlidir. Altı il ərzində çoxlu şəhid vermişik. Onların ailələrinə daim qayğı göstərilməlidir. Həm nazirliklərdən, həm yerli hakimiyyət orqanlarının rəhbərlərindən, həm də hər bir vətəndaşdan bunu tələb edirəm. Bu, hamımızın vətəndaşlıq borcudur. Çünki o adamlar Vətən yolunda, torpaq yolunda şəhid olmuşlar. Onların xatirəsi qəlbimizdə əbədi yaşamalıdır. Eyni zamanda onların ailələri dövlət orqanlarının, ictimaiyyətin, hər bir vətəndaşın qayğısı ilə əhatə olunmalıdır. Lakin bizə gələn siqnallar göstərir ki, təəssüflər olsun, bəzi yerlərdə vəzifəli şəxslər bu müqəddəs borclarını unudurlar. Mən bundan qəti narazılığımı bildirir və tələb edirəm ki, şəhid ailələrinə xüsusi qayğı göstərilsin, yerli hakimiyyət orqanları bu işlə hər gün məşğul olsunlar.

Müharibədə döyüşçülərimizin bir hissəsi yaralanmış, əlil olmuşdur. Həm də bəziləri fiziki cəhətdən çox ağır vəziyyətdədir. Ermənistanla gedən müharibə Azərbaycan üçün Vətən müharibəsidir. Bu müharibədə yaralanan, əlil olan adamlara cəmiyyətimiz, şübhəsiz ki, daim qayğı ilə yanaşmalıdır. Lakin təəssüf ki, çox yerlərdə bu adamlara nəinki qayğı göstərilmir, hətta bəzən onlara mənfi münasibət bəsləyirlər. Yaralananların, əlillərin problemləri çoxdur. Lakin eşidəndə ki, onlara kömək edilmir, qayğı göstərilmir və hətta bu adamlardan da rüşvət almağa çalışırlar, – insan dəhşətə gəlir.

Mən bu gün fasilə zamanı bir qrup əlillə görüşdüm. Onlar Nazirlər Kabinetində, Ali Sovetdə olmuş, Prezident Aparatına müraciət etmişlər, [137-138] lakin xahişləri istədikləri səviyyədə yerinə yetirilməmişdir. Ona görə də əlillərin bir qrupu etiraz əlaməti olaraq bu gün Azadlıq meydanına yığışmışdı. Mən onların nümayəndələrini dəvət edərək, bayaq dediyim kimi, fasilə vaxtı onlarla görüşdüm. Onlar dəhşətli şeylər danışırlar. Həkim-əmək ekspert komissiyalarında, səhiyyə orqanlarında, yerli hakimiyyət orqanlarında və başqa yerlərdə onlara qayğı, hörmət, mərhəmət göstərmək əvəzinə rüşvət tələb edirlər. Əlillik dərəcəsini dəyişmək üçün rüşvət istəyirlər. Təsəvvür edin, cəmiyyətimizdə nə qədər vicdansız, insafsız adamlar var! İmkanı olan kəs gərək yaralını, əlili, xəstəni görəndə çalışsın ki, öz cibindən yardım etsin. Amma onların haqlı tələblərini yerinə yetirmək əvəzinə rüşvət istəyirlər. Bu sahədə yol verdiyi nöqsanlara görə əmək və əhalinin sosial müdafiəsi nazirinin birinci müavini Fəzail Ağamalıyevi bir-iki gün bundan əvvəl işdən azad etmişəm. Lakin məsələ təkcə bununla bitmir, günah yalnız onda deyil. Günah bizim bütün bu sistemdə, ayrı-ayrı nazirliklərdə, səhiyyə orqanlarında, yerli icra orqanlarındadır.

Mən bu ürəkağrıdan sözləri sizə çatdıraraq hamınızdan tələb edir və eyni zamanda bütün ictimaiyyətə müraciət edirəm ki, Vətənimizin, torpağımızın müdafiəsi zamanı yaralanmış, əlil olmuş adamlara ciddi qayğı göstərmək lazımdır. Bu sahədə vəzifəsindən sui-istifadə edən adamların məsuliyyətə cəlb edilməsi ilə hüquq-mühafizə orqanları ciddi məşğul olmalıdır.

İqtisadiyyatımızın – həm sənayenin, həm də kənd təsərrüfatının inkişafı üçün xarici ölkələrlə mal mübadiləsi genişləndirilməlidir. Neftçala pambıqtəmizləmə zavodunun direktoru bu gün burada çıxış edərək məlum fərmandan sonra pambığın satıldığını bildirdi. Pambığın vaxtında satılmaması bizə çox böyük maddi zərər vurmuşdur. Lakin xarici bazara çıxara biləcəyimiz mal təkcə pambıqdan ibarət deyil. Bildiyiniz kimi, aprel ayında mənim imzaladığım fərmana əsasən bütün müəssisə və təşkilatlar öz məhsulunu sərbəst şəkildə xarici bazara çıxara bilər. Bu imkandan istifadə etmək, dövlət xəzinəsinə valyuta gətirmək lazımdır. Müəssisələr, təşkilatlar özləri də bu əməliyyatlar nəticəsində valyuta qazana bilərlər.

İqtisadiyyatda olan qanunsuzluqlar haqqında bir neçə kəlmə demək istəyirəm. Avqustun 11-də keçirilən müşavirədə bu barədə danışmışam. Lakin elə hesab etməyin ki, bu, yalnız sənaye işçilərinə aiddir. Yox, bu, iqtisadiyyatın bütün sahələrinə aiddir. İqtisadiyyatda, hüquq-mühafizə, vergi orqanlarında çoxlu qanunsuzluqlar, öz vəzifəsindən sui-istifadə edən, çirkin əməllərlə məşğul olan adamlar var. Bütün bu cinayətkarlığın qarşısını

almaq üçün avqustun 9-da fərman vermişəm. Onun ardıcıl surətdə yerinə yetirilməsi həm hüquq-mühafizə, həm yerli hakimiyyət, həm də təsərrüfat orqanlarının və bütün başqa dövlət orqanlarının əsas vəzifəsidir.

Cinayətkarlıq, rüşvətxorluq, korrupsiya ictimaiyyəti, adamları narahat edən, onlarda narazılıq doğuran əsas məsələdir. Belə hallar müstəqil Azərbaycan Respublikasının həyatının bu mühüm mərhələsində gördü[138-139]yümüz işləri ləkələyir. Ona görə də icra hakimiyyəti başçılarına müraciət edirəm, – onlardan çox şey asılıdır, – yerlərdə bu məsələlərlə ciddi məşğul olmaq lazımdır. Ancaq təəssüf ki, bəzi icra hakimiyyəti başçıları özləri qanunsuzluq edir, cinayətə qurşanırlar. Bizdə bu barədə məlumatlar var və həmin şəxslər haqqında ciddi ölçü götürəcəyik. Sizə bir daha xəbərdarlıq edirəm: hər bir rayonun rəhbəri, icra hakimiyyəti başçısı prezidentin nümayəndəsidir. Əgər o özü nümunə olsa və bütün bu işlərə nəzarət etsə, zənnimcə, cinayətkarlıq və başqa mənfi hallar xeyli azalar. Ona görə də avqustun 9-da verilmiş fərmanın icrası ilə ciddi məşğul olmağı sizdən tələb edirəm.

İndi respublikada ərzaq qıtlığı var. Adamların bir hissəsi əmək haqqını vaxtında ala bilmir. Çünki mal dövriyyəsi istənilən səviyyədə deyil, islahatlar keçirə bilməmişik. Ona görə də ölkənin maliyyə vəziyyəti çox çətindir. Həll olunmamış. başqa problemlərimiz də var. Bütün bunlar həyatımızın reallığıdır. Bu real vəziyyəti dərk edib, hamımız əl-ələ verib böhrandan şərəflə çıxmalı, müstəqil Azərbaycanı irəliyə doğru aparmalıyıq. Bundan ötrü isə gərək hər kəs öz sahəsində məsuliyyətlə çalışsın.

Bizə məlumatlar gəlir ki, təəssüflər olsun, bəzən hətta ayrı-ayrı vəzifəli şəxslər, yaxud başqa işdə olan adamlar belə çətinliklərdən möhtəkirlik məqsədi ilə istifadə etməyə çalışırlar. Lakin biz belə hallara yol verməyəcəyik. Respublikanın sosial-iqtisadi vəziyyətində çətinliklər çoxdur. Xalq, ölkənin rəhbərliyi bunu bilir və biz lazımi tədbirlər görürük. Mənə elə gəlir ki, ən əhəmiyyətli tədbir atəşkəsin üç aydan artıq davam etməsidir: şəhid vermirik, qan tökülmür.

Lakin yenə deyirəm, belə bir vəziyyətdə bu çətinlikləri şişirtmək, onlardan cürbəcür çirkin məqsədlər üçün istifadə etmək respublikamıza zərbə vurmaq deməkdir. Belə hallar var. Ayrı-ayrı qruplar, tək-tək adamlar bundan istifadə etməyə çalışırlar. Xəbərdarlıq edirəm ki, biz belə hərəkətlərin qarşısını alacağıq və xalq, əhali özü həmin adamların belə hərəkətlərinə yol verməyəcəkdir.

Güman edirəm ki, bugünkü görüşümüz öz nəticələrini verməlidir. Burada gedən müzakirələrdən, çıxışlardan hər kəs özü üçün nəticə çıxarmalıdır. Əmin olduğumu bildirmək istəyirəm ki, kənd əməkçiləri ilin sonunadək daha da fədakarlıqla çalışacaqlar və iqtisadiyyatımız yavaş-yavaş. böhran vəziyyətindən çıxacaqdır. Bu işdə hamınıza uğurlar arzulayıram. [139-140]

**ZATİ-ALİLƏRİ**
**DEN SYAOPİN CƏNABLARINA**

Zati-aliləri,

Sizi şərəfli doxsan illik yubileyiniz münasibətilə səmimi qəlbdən təbrik edirəm. Sizə möhkəm cansağlığı və səadət, dost Çin xalqına isə tərəqqi və çiçəklənmə arzulayıram.

Biz Sizin bütün dünyada sabitlik və sülhün möhkəmlənməsinə verdiyiniz töhfələri yüksək qiymətləndiririk.

Hörmətlə,

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*22 avqust 1994-cü il* [140-141]

## "NEDELYA"NIN XÜSUSİ MÜXBİRİNƏ MÜSAHİBƏ

*24 avqust 1994-cü il*

**- Heydər Əliyeviç, Azərbaycanın hüdudlarından kənarda mətbuat iqtisadiyyatın dağılması və ölkə rəhbərliyinin hərbi siyasəti ucbatından Azərbaycan xalqının narazılığı barədə tez-tez xəbərlər yayır. Respublikada indiki vəziyyəti Siz necə şərh edərdiniz?**

- Haqqında danışdığınız yazılar açıq-aydın fitnəkar xarakter daşıyır. İndi respublikada ictimai-siyasi vəziyyət sabitdir. Əlbəttə, keçid dövrü ilə əlaqədar bizim öz çətinliklərimiz də mövcuddur. Üstəlik, ölkə Ermənistanla müharibə vəziyyətindədir. Torpaqlarımızın az qala 20 faizə qədəri işğal altındadır, 1 milyonadək qaçqın ağır vəziyyətdə yaşayır.

**- Ünvanınıza söylənilən digər tənqidlərlə yanaşı, Sizi müxalifəti zor gücünə dağıtmaqda, dövlətin həyatında demokratik prinsiplərin ləğv edilməsində, yüksək ixtisaslı kadrların müasiriniz olan dostlarla və Naxçıvandan olan qohumlarınızla əvəz etməkdə təqsirləndirirlər.**

- Əgər Azərbaycanda 40 siyasi partiyanın mövcudluğunu (onların demək olar ki, hamısı müxalifətdədir), habelə 600 müxtəlif istiqamətli qəzet çıxmasını demokratiyanı boğmaq kimi qiymətləndirsək, onda bu ittiham ədalətlidir. Kadrların yerdəyişməsinə gəldikdə isə, məndən əvvəl məsul dövlət vəzifələrinə təyin edilmiş adamların hamısı yenə öz yerindədir. Yalnız öz vəzifələrini dondurduğunu elan edərək işdən könüllü çıxanlar istisnalıq təşkil edirlər. Başqa sözlə, onlar könüllü getdiklərini dolayısı yolla təsdiq edirlər. Belə ki, heç bir Naxçıvan klanı yoxdur və ola da bilməz.

Azərbaycan Ali Sovetinin sədri, sonra isə prezident vəzifəsini tutandan sonra mən bilirdim ki, respublikamızda demokratiya bərqərar olacaq, insan hüquqlarına hörmət ediləcək və ölkənin vətəndaşları burada yaşayan adamlardır. Milliyyətindən, dini əqidəsindən, siyasi baxışından və s. asılı olmayaraq. Misal üçün, Azərbaycanda yarım milyon nəfərədək rus yaşayır, onlar heç nə ilə sıxışdırılmır, onlara hörmət edilir. Azərbaycan dilini bilməmək onların xidməti vəzifələrinin bölünməsi üçün maneçilik törətmir. Bu sözlər yüksək dövlət vəzifələri tutanlara da aiddir. Respublikadan rusların çıxıb getməsi dayanmışdır. Bu isə mənim deklorasiyamın ciddi şəkildə yerinə yetirilməsinə dəlalət edir.

**- Ermənistan-Azərbaycan müharibəsini söndürmək üçün real perspektivlər varmı? Axı siz Naxçıvan Muxtar Respublikasında məclisə başçılıq edərkən sülh yarada və Ermənistan tərəfi ilə nə isə bir razılığa gələ bilmişdiniz.**

- Müharibə artıq altı ildir davam edir. Kədər də çox olmuşdur, itkilər də. Ermənistan əslində Dağlıq Qarabağ vilayətini Azərbaycandan qoparmaq istəyir. Dünyanın bir çox iri dövlətlərinin köməyi ilə onlar vilayətin [141-142] ətrafındakı 7 rayonu işğal edə bilmişlər. İndi hərbi əməliyyatlar dayandırılmışdır və mayın 12-dən müvəqqəti dinclik yaranmışdır. Çox mürəkkəb danışıqlar aparılır.

**- Sizin Boris Yeltsinlə münasibətləriniz necədir?**

- Biz sıx əlaqə saxlayırıq. Dəfələrlə görüşmüşük və telefonla söhbət etmişik. Bütövlükdə isə bizim dövlətlər arasında həll edilməsi qeyri-mümkün olan problem yoxdur. Məndən əvvəl Azərbaycan rəhbərliyi Rusiyaya qarşı başqa siyasət yeridirdilər, münasibətlər soyuq, bəzən isə ağır idi. Təkcə o faktı demək kifayətdir ki, respublikamız MDB-yə daxil deyildi.

Azərbaycanın taleyi Rusiya ilə artıq 200 ildir bağlıdır. Bu ölkə ilə biz gərgin şəraitdə necə yaşaya bilərik? Özü də qonşu ölkə ilə, dünyanın ən nəhəng dövləti ilə. Bu məsələdə çətinliklər yaratmaq Azərbaycan xalqının mənafeyinə uyğun deyildir. Biz dostluq edəcəyik, lakin bu, o demək deyildir ki, müstəqilliyimizə xələl gələcək.

**- Bildiyimə görə, Sizin respublikada bir neçə kommunist partiyası mövcuddur və onlar əsl partiya adı uğrunda bir-biri ilə mübahisə aparırlar. Onlardan hansına hüsn-rəğbətiniz daha çoxdur?**

- Azərbaycanda ən iri kommunist mən idim. Axı hər halda 14 il Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi işləmişəm. Lakin mən hələ partiya hakimiyyətdə olarkən, 1991-ci ildə onun sıralarından çıxmışam. Heç bir kommunist partiyasının Azərbaycanda perspektivi yoxdur. Prezident seçilənədək mən bir müddət "Yeni Azərbaycan" Partiyasının üzvü idim, lakin onun sıralarını tərk etdim. Doğrudur, səbəb başqa idi. Elə hesab edirəm ki, prezident heç bir partiyaya üzgörənlik etməməlidir.

Söhbəti **Aleksandr Çijeveki** aparmışdır.
Bakı – Moskva [142-143]

## "XALQ QƏZETİ" REDAKSİYASININ KOLLEKTİVİNƏ

"Xalq qəzeti" mənalı yaradıcılıq yolu keçmiş, özünəməxsus üslub və sənətkarlıq xüsusiyyətləri olan nəşrlərimizdəndir. Uzun müddət "Kommunist" adı ilə nəşr edilən bu qəzet bütün sovet dövrü ərzində Azərbaycanın ictimai, iqtisadi və mədəni həyatının güzgüsü olmuşdur.

Respublikada qəzetçilik ənənələrinin formalaşmasında, jurnalistikamızın inkişafında "Xalq qəzet"inin xidmətləri xüsusi qeyd olunmalıdır. Bugünkü çoxsəsli, rəngarəng Azərbaycan mətbuatının bir çox görkəmli nümayəndələri bu qəzetin yaradıcılıq məktəbini keçmişlər. Müstəqilliyimizin qazanılmasından sonra da "Xalq qəzeti" respublikanın ictimai həyatında baş verən hadisələrə cəsarətlə müdaxilə etmiş, bir çox problemlərin aşkarlanmasında mühüm rol oynamışdır. Amansız təcavüzkara qarşı apardığımız ədalətli müharibə qəzetin daimi mövzusuna çevrilmişdir. Bu gün qəzet müstəqil Azərbaycanda hüquqi və demokratik dövlət quruculuğu işində güclü səfərbəredici rol oynayır.

İlk nömrəsinin çapdan çıxmasının 75 illiyi münasibətilə "Xalq qəzetinin yaradıcı heyətini, bütün redaksiya kollektivini ürəkdən təbrik edir, onlara cansağlığı və işlərində yeni-yeni nailiyyətlər arzulayıram.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*25 avqust 1994-cü il* [143-144]

## MÖVLUD BAYRAMI MÜNASİBƏTİLƏ BAKIDA TƏZƏPİR MƏSCİDİNDƏ TƏNTƏNƏLİ MƏRASİMDƏ ÇIXIŞ

*26 avqust 1994-cü il*

Əziz həmvətənlər, möhtərəm dünya və Azərbaycan müsəlmanları! Bu gün bizim üçün müqəddəs gün – Məhəmməd peyğəmbərin mövlud günüdür. Bu münasibətlə sizi və bütün müsəlmanları təbrik edir, Qurani-Şərifin tövsiyələrinin həyata keçirilməsində hamınıza uğurlar arzulayıram.

İslam dini əsrlər boyu bizim mənəviyyatımızın əsasını təşkil etmiş, müsəlmanların dünyada layiqli yer tutmasını təmin etmişdir. Qurani-Kərimin bütün kəlamları bu gün Azərbaycanda Allahın yolu ilə getməyimiz üçün məşəldir. Biz bu yolla gedirik və bundan sonra da gedəcəyik.

Son illər dinimizə qayıtmağımız, müstəqil Azərbaycan Respublikasında İslam dininin öz yerini tutması tarixi hadisədir. Əsrlər boyu xalqımız bu dinə bağlı olaraq, ondan bəhrələnərək yaşayıb-yaratmışdır. Dinimizin yasaq edildiyi son 70 il ərzində də hər bir etiqadlı adam onu öz qəlbində yaşatmışdır. İndi isə müstəqil Azərbaycan Respublikası, İslama etiqad edən azərbaycanlılar müsəlman aləminin və ümmətinin tərkib hissəsidir. Bu da əsrlər boyu yaşamış və bizim üçün böyük dayaq olan milli, dini, mənəvi ənənələrimizin bərpa və inkişafının, möhkəmlənməsinin təzahürüdür. Güman edirəm ki, biz azərbaycanlılar – bu, sonradan gələcək bütün nəsillərə də tövsiyə olunur – heç vaxt inamımızdan, dinimizdən uzaqlaşmayacaq və bu mənəvi mənbələrimizdən istifadə edərək gələcəyimizi quracağıq.

Azərbaycan müstəqil dövlətdir. Azərbaycan xalqı öz milli azadlığına, müstəqilliyinə nail olmuşdur. Bu, milli, mədəni, dini ənənələrimizin bərpasına şərait yaratmışdır. Biz bu şəraitin möhkəmlənməsi üçün bundan sonra da çalışacağıq və əmin ola bilərsiniz ki, prezident kimi mən bu yolda əlimdən gələni əsirgəməyəcəyəm.

İslam dini həmişə insanları saflığa, təmizliyə, ülvi mənəviyyata dəvət etmişdir. Qurani-Kərim insanları düzlük, mənəvi paklıq ruhunda tərbiyə edir. Müstəqil Azərbaycan Respublikasının bu ağır, çox çətin, keşməkeşli dövründə bütün bunların bizdən ötrü böyük əhəmiyyəti var. Ölkəmiz altı ildir ki, müharibə şəraitindədir. Ermənistanın silahlı təcavüzü nəticəsində Azərbaycan ərazisinin iyirmi faizi işğal edilmişdir, bir milyondan artıq vətəndaşımız qaçqın vəziyyətində yaşayır. Xalqımız bu müharibədə qəhrəmanlıq nümunələri göstərmişdir. Cəsur oğullarımız öz torpağına, Vətəninə, milli ənənələrinə, dininə, inamına sadiq qalaraq Azərbaycanın ərazi bütövlüyünü, müstəqilliyini qorumaq naminə fədakarlıqla vuruşmuş [144-145] və canlarından keçmiş, şikəst olmuşlar. Biz bu gün də torpaqlarımızın müdafiəsində, Vətənimizin keşiyində durmuşuq.

Bu altı ildə Azərbaycanın daxilində çox çətin, ağır, mürəkkəb proseslər getmiş, qarmaqarışıqlıq olmuşdur. Azərbaycan müstəqil olduğuna, keçmiş sosial-iqtisadi, siyasi sistemdən yeni sistemə keçdiyinə görə bu dövrdə çox böyük çətinliklərlə üzləşmişdir. Əl-ələ verərək bu çətinliklərdən çıxmaq əvəzinə, bəzi qüvvələr, qruplar Azərbaycanın belə ağır dövründə yalnız öz mənafelərini güdmüşdür. Buna görə və eyni zamanda Ermənistan silahlı qüvvələrinin ayrı-ayrı mənbələrdən aldıqları yardımlar nəticəsində Azərbaycan öz torpaqlarının müdafiəsində bəzi məğlubiyyətlərə uğramışdır.

Məhz bu dövrdə hər bir azərbaycanlı, hər bir müsəlman ilk növbədə İslam dininin tövsiyələrindən istifadə edərək öz mənəviyyatını yüksəltməlidir. Mənəviyyatımız nə qədər yüksək olarsa, biz insanlarda, hər bir azərbaycanlıda, müsəlmanda Vətənə, öz amallarına sədaqət, mənəvi saflıq əhval-ruhiyyəsi tərbiyə edə bilsək, Azərbaycan bu ağır böhran dövründən, çətinliklərdən tezliklə və müvəffəqiyyətlə çıxacaqdır. Sizi əmin edirəm ki, Azərbaycan dövləti, prezident kimi şəxsən mən bu istiqamətdə, bu yollarla Azərbaycan xalqının çətin vəziyyətdən çıxması üçün lazımi tədbirlər görürük və bundan sonra da görəcəyik.

Bu gün biz Məhəmməd peyğəmbərin mövludu gününü bayram kimi qeyd edərkən eyni zamanda dərdlərimizi açıq-aşkar deməliyik və Azərbaycanın tam bütövlüyünü və müstəqilliyini təmin etmək üçün hər bir kəsi fəaliyyət göstərməyə çağırmalıyıq.

Bildiyiniz kimi, son vaxtlar apardığımız siyasi danışıqlar nəticəsində üç ay yarımdır ki, cəbhədə atəş dayandırılmışdır. Ermənistanla Azərbaycan arasında gedən altı illik müharibə ərzində, demək olar, ilk dəfədir ki, belə uzunmüddətli atəşkəs rejimi yaranmışdır və davam edir. Mən bunu böyük nailiyyət sayıram. Çünki Azərbaycanı ağır bəladan qurtarmaqdan ötrü bütün imkanlardan istifadə etməliyik. Şübhəsiz ki, əsas vəzifəmiz ordunu gücləndirməkdən, adamlarda vətənpərvərlik ruhunu daha da yüksəltməkdən, hər bir vətəndaşın, hər bir azərbaycanlının öz Vətənini müdafiə etməyi ən müqəddəs vəzifə saymasına nail olmaqdan, torpaqlarımızı azad etmək əzmindən ibarət olmalıdır.

Hər bir müharibə sülhlə qurtarır. Ona görə də biz ordumuzu möhkəmlətməklə yanaşı, sülh danışıqları aparılması üçün də fəaliyyət göstəririk. Bu, asan məsələ deyil. Biz beynəlxalq təşkilatların, dünyanın böyük, nüfuzlu dövlətlərinin imkanlarından ardıcıl surətdə istifadə edirik. Bu gün sizə deyə bilərəm ki, sülhməramlı danışıqlar, atəşkəs haqqında sazişlər dünya ictimaiyyəti tərəfindən müsbət qarşılanır. Biz beynəlxalq

təşkilatlarla, dünyanın böyük dövlətləri olan Rusiya, Amerika Birləşmiş Ştatları ilə və Avropa ölkələri, qonşu Türkiyə və İranla, başqa dövlətlərlə danışıqlar aparırıq. Onlar da indi sülh danışıqları aparılmasını zəruri sayır və özləri də bu istiqamətdə çalışırlar. Biz bu xəttimizi davam etdirəcəyik.

Atəşin dayandırılması hələ müharibənin qurtarması demək deyildir. [145-146] Biz, sadəcə olaraq, hər bir vasitədən istifadə edirik və atəşkəs də belə vasitələrdən biridir. İki gün əvvəl mən ATƏM-in Minsk qrupunun sədri cənab Yan Eliassonu qəbul etmişəm. Danışıqlarımızdan sonra o, Ermənistana getmiş və bu gün təzədən Bakıya qayıtmışdır. Biz hər gün danışıqlar aparırıq. Bunların bəziləri haqqında məlumat mətbuat vasitəsilə xalqa çatdırılır. Siz də, bütün Azərbaycan xalqı da bilin və əmin olun ki, biz gecəli-gündüzlü bu işlərlə məşğuluq və ölkəmizi bu ağır bəladan qurtarmaq istəyirik.

Müharibə xalqımıza hədsiz müsibətlər gətirmişdir. Bu müqəddəs gündə Allahın evində – Təzəpir məscidində bir daha deyirəm ki, Azərbaycan Respublikasının ərazi bütövlüyü, suverenliyi, xalqımızın milli azadlığı uğrunda şəhid olanların xatirəsi qəlbimizdə əbədi yaşayacaqdır. Allah onlara rəhmət eləsin! Şəhid ailələri hər birimizin qayğısını hiss etməlidir. Şəhid ailələrinə qayğı göstərmək üçün dövlət əlindən gələni edir və edəcəkdir. Eyni zamanda hər bir vətəndaş, imkanlı adam, hər bir təşkilat və cəmiyyət şəhid ailələrinin vəziyyəti ilə daim maraqlanmalıdır.

Bu müharibə dövründə Vətənin müdafiəçilərinin bir qismi döyüşlərdə aldığı yaralardan şikəst, əlil olmuşdur. Onlar cəmiyyətimizdə ən hörmətli adamlardır. Bu adamlara qayğı göstərmək, onların problemlərini həll etmək hamının borcudur. Dövlət də bu sahədə lazımi tədbirlər görür. Güman edirəm ki, ictimai təşkilatlar, dini qurumlar, məscidlər də bu adamlardan qayğı və köməyini əsirgəməyəcəkdir.

Azərbaycanın müstəqilliyini qorumaq üçün ordumuz möhkəmləndirilməlidir. Ona görə yox ki, biz müharibə aparmaq istəyirik. Biz bu fikirdə deyilik, məsələnin sülh yolu ilə həllini istəyirik. Bu da müəyyən şərtlərlə bağlıdır. Yəni, Ermənistan silahlı qüvvələri Azərbaycanın işğal edilmiş torpaqlarından çəkilməli, respublikamızın ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı təmin edilməli, Azərbaycan dövləti öz ərazisinin hər bir nöqtəsində hakim olmalıdır. Biz bu şərtlərlə sülh danışıqları aparır, müharibəyə son qoymağa çalışırıq.

Bununla yanaşı, silahlı qüvvələrimizin daha da möhkəmləndirilməsini unutmamalıyıq. Ona görə ki, cəbhə bölgəsində torpaqlarımızı etibarlı müdafiə edə bilək. Həm də ona görə ki, hər bir müstəqil dövlətin güclü ordusu olmalıdır. Müstəqil Azərbaycanın belə bir güclü ordusunun yaranmasında dinimizin qoyduğu yol insanların torpağa, öz xalqına, mənəviyyatına sədaqətli olmasına kömək etməlidir. Dindarlardan, ruhanilərdən, dini təşkilatlardan, məscidlərdən rica edirəm ki, ordumuzun möhkəmləndirilməsi, burada yüksək mənəviyyatlı əsgər və zabitlərin xidmət etməsi üçün əlinizdən gələni əsirgəməyin. Çünki mənəviyyatımızın əsasını milli ənənələrimiz, İslam dini təşkil edir. Ona görə də siz gənclərə nə qədər saflıq, təmizlik, Vətənə sədaqət kimi keyfiyyətlər aşılasanız, onları bu ruhda tərbiyə etməyə çalışsanız, ordumuz bir o qədər möhkəm, qüdrətli, Azərbaycanın müstəqilliyini həmişə müdafiə etməyə qadir olacaqdır.

Bilməlisiniz ki, Azərbaycan öz müstəqilliyini heç vaxt əldən verməyə[146-147]cək. Azərbaycanın hər bir vətəndaşı, hər bir müsəlman çalışmalıdır ki, bu müstəqillik, ölkəmizin beynəlxalq mövqeyi, daxili ictimai-siyasi vəziyyəti möhkəmlənsin. Bu yolda sizin də böyük rolunuz, xidmətləriniz ola bilər.

Ağır müharibə şəraitində Azərbaycan iqtisadi böhran keçirir. Bir çox obyektiv, bəzən də subyektiv səbəblərə görə istehsal müəssisələrinin bir çoxu dayanmışdır. Ona görə də respublikada yaşayış çətindir, bəzi ərzaq məhsulları çatışmır, işsizlər var. Ancaq sizi əmin etmək istəyirəm ki, bunlar hamısı müvəqqəti çətinlikdir, onları aradan qaldıracağıq. Azərbaycan xalqı belə çətinliklərlə çox üz-üzə gəlmişdir, lakin milli qürurunu, mənliyini, mənəviyyatını, ən nəhayət, ümidini heç vaxt itirməmişdir, daim ümidlə yaşayaraq gələcəyə baxmış və çətinlikləri aradan qaldırmışdır.

Bu, bizim tarixi keçmişimizdir. İndi də biz ağır mərhələdəyik. Belə bir vaxtda hər kəs əlindən gələni etməlidir ki, bu ağır vəziyyətdən çıxaq. Prezident kimi mən də, dövlətimiz, hökumətimiz də çalışırıq ki, ölkəni bu vəziyyətdən qurtaraq və əmin ola bilərsiniz ki, qurtaracağıq. Dözümlü xalqımız bu ağır dövrdə daha da dözümlü, dəyanətli, mətanətli olmalıdır. Siz din xadimləri də bu vəziyyəti adamlara izah etməlisiniz.

Ölkəmizi ağır vəziyyətdən çıxarmaq üçün, möhtərəm şeyxülislam Hacı Allahşükür Paşazadənin də bu gün burada dediyi kimi, bizə birlik, vəhdət lazımdır. Vəhdət Azərbaycan xalqına, bütün müsəlmanlara böyük bəlalardan xilas olmaqda həmişə kömək etmişdir. Vətəndaş birliyi, milli birlik yaradılmasında din xadimlərinin də böyük rolu var. Ona görə də mən sizə müraciət edirəm. Bu ağır dövrdə xalqı dövlətin ətrafında, tutduğumuz yol, amal ətrafında birləşdirmək üçün əlinizdən gələni əsirgəməyin.

Şübhəsiz ki, tarixən hər bir cəmiyyətdə mənfi ünsürlər olmuşdur və bu gün bizim cəmiyyətimizdə də var. Əgər belə olmasaydı, Qurani-Kərimdə də insanları bəd əməldən, xatalı yoldan çəkinməyə çağıran ayələr yazılmazdı. İnsanların həmişə düz yolla, təmiz mənəviyyat yolu ilə getməsinə çalışmaq lazımdır. Cinayətə, cürbəcür təxribata əl atan adamların həm qarşısını almaq, həm də onları tərbiyə etmək lazımdır. Bunu bizdən Allah-təala tələb edir, bizə bu dərsi həzrəli peyğəmbər vermişdir. Bütün bunlar Allahın Məhəmməd peyğəmbərə nazil etdiyi müqəddəs kitabımızda yazılmışdır.

Ona görə də hamınız bir olun. Aranı qarışdırmaq istəyən, respublikanın bu ağır vəziyyətində çirkin məqsədlərini həyata keçirmək istəyən qrupların, şəxslərin qarşısı alınmalıdır. Əminəm ki, din xadimlərimiz,

Allaha inanan, İslama sadiq olan adamlar məhz bu yolla gedəcəklər. Mən sizə inanıram, güvənirəm və arxalanıram. Bilməlisiniz ki, prezident kimi mən müstəqil Azərbaycan dövlətçiliyinin möhkəmlənməsi üçün bundan sonra da əlimdən gələni edəcək, dövlətçiliyimizi, müstəqilliyimizi qorumaq üçün bütün tədbirləri görəcəyəm. Azərbaycanın dövlətçiliyinə, müstəqilliyinə xəyanət etmək istəyən hər bir şəxs Allah-təalanın əmri ilə la[147-148]zımi cəzasını alacaqdır. Bu müqəddəs vəzifələri yerinə yetirməkdə mən sizə, bütün Azərbaycan xalqına, respublikamızdakı müsəlmanlara güvənirəm və əminəm ki, qarşımızda duran vəzifələri layiqincə yerinə yetirəcəyik.

İslam dini başqa dinlərə qarşı heç vaxt düşmən olmamışdır. Çünki bu dinlərin hamısı Allahdan gəlir. Azərbaycanda da müsəlmanlarla yanaşı, başqa dinlərə etiqad edən adamlar da yaşayır. Onlar da Azərbaycanın bərabərhüquqlu vətəndaşlarıdır. Çalışmalıyıq ki, dini, milli mənsubiyyətindən asılı olmayaraq, Azərbaycanın bütün vətəndaşları eynihüquqlu olsunlar və onların hamısının birliyini, vəhdətini təşkil edək. Bu da Allah-təalanın buyuruğu, bizim yolumuzdur.

Bu gün müqəddəs Təzəpir məscidində sizinlə bir yerdə olmağımdan, qarşınızda çıxış edərək ürəyimdəki sözləri sizə və sizin şəxsinizdə bütün müsəlman aləminə, Azərbaycanın bütün vətəndaşlarına çatdırmaq imkanı əldə etdiyimdən məmnun qaldığımı bildirirəm. Bu müqəddəs gündə hamınıza xoşbəxtlik və cansağlığı arzulayıram. Bir daha demək istəyirəm ki, yaman günün ömrü az olar. Azərbaycan bu ağır vəziyyətdən çıxacaq, hamımız əl-ələ verərək müstəqil Azərbaycanın gözəl gələcəyinə doğru birlikdə gedəcək, qarşımıza çıxan bütün maneələri vəhdətimiz, birliyimiz, qardaşlığımız və dostluğumuzla aradan qaldıracağıq.

Müqəddəs bayram münasibətilə sizi bir daha təbrik edir, hər birinizə, bütün xalqımıza, Azərbaycan müsəlmanlarına cansağlığı, xoşbəxtlik arzulayıram. Sizi əmin edirəm ki, mən həmişə sizinləyəm, xalqlayam və inanıram ki, xalq da seçdiyi prezidentlə birdir. Sağ olun! [148-149]

## SURAXANI NEFT YATAĞININ SƏNAYE ÜSULU İLƏ İSTİSMARINA BAŞLANMASININ 90 İLLİYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİMDƏ ÇIXIŞ

*26 avqust 1994-cü il*

Əziz neftçilər, bacılar, qardaşlar!
Hörmətli suraxanılılar!

Suraxanı neft yatağının sənaye üsulu ilə istismarının 90 illik yubileyi münasibətilə sizi, sizin simanızda bütün suraxanılıları, bütün Azərbaycan neftçilərini səmimi qəlbdən təbrik edirəm. Azərbaycan neftçilərinə gələcək işlərində uğurlar, həyatda səadət, xoşbəxtlik arzu edirəm.

90 il bundan əvvəl Azərbaycanın bu müqəddəs torpağında – Suraxanıda, əsrlərdən-əsrlərə Odlar diyarı adlanan və əsrlər boyu bu odları müqəddəs hesab edərək ona itaət olunan bir yerdə ilk dəfə neft fontan vurdu. O gündən indiyədək Suraxanının neft yataqları sənaye üsulu ilə istismar olunur. Suraxanı neft yataqlarının istismarı bu 90 il müddətində xalqımıza, respublikamıza, müstəqil Azərbaycan dövlətinə böyük fayda vermişdir. Azərbaycan sənayesinin, bütün iqtisadiyyatının və sosial həyatının inkişafında Suraxanı neftçilərinin böyük payı, rolu var. Bu bayram günü mən Suraxanı neftçilərinin nəsillərinə və bu gün Suraxanı torpağında yanacaq çıxaran neftçilərə minnətdarlığımı, hörmətimi və məhəbbətimi bildirirəm.

Azərbaycan neft diyarıdır. Azərbaycanın – Bakının, Abşeronun nefti respublikamıza böyük şan-şöhrət gətirmiş, onu bütün dünyada məşhurlaşdırmış, xalqımızın adını yüksəklərə qaldırmışdır. Bu tarixi salnamədə Suraxanı neftçilərinin xüsusi yeri var. Bu gün burada məndən qabaq çıxış edənlər Suraxanı neft yataqlarının istismarı müddətində – 90 il ərzində burada görülən işlər haqqında və xüsusən neft sənayesinin, neftçıxarma, qazçıxarma və neft maşınqayırma sənayesinin inkişafında Suraxanının rolu və yeri haqqında danışdılar. Doğrudan da çox təqdirəlayiq bir tarixdir. Doğrudan da Suraxanı neftçiləri və bütün suraxanılılar Azərbaycanın tarixində özünəməxsus yer tutmuşlar.

Bəli, neft sənayesi, dediyim kimi, Azərbaycanın həyatında böyük rol oynamış, bu gün də böyük rol oynayır. Neftçilərimiz Bakıda həm quruda, həm də dənizdə, respublikamızın başqa məntəqələrində neftçıxarma, neft emalı ilə məşğul olaraq keçmiş Rusiyanın, ondan sonra Sovetlər İttifaqının neft sənayesinin inkişaf etməsinə böyük kömək göstərmişlər. Məlumdur ki, əsrimizin əvvəlində keçmiş Rusiyada ancaq Azərbaycanda, [149-150] Bakıda neft çıxarılırdı və o, nəinki Rusiyanı, hətta Qərb ölkələrini də, Şərq ölkələrini də təmin edirdi.

Sovet hakimiyyəti yaranandan sonra və Azərbaycan Sovet İttifaqının tərkibində olduğu zaman Azərbaycan neftçiləri bu böyük dövlətin sənayesinin və bütün iqtisadiyyatının inkişafında böyük rol oynamışlar. Azərbaycan neftçiləri Sovet İttifaqının bütün məntəqələrindəki neft yataqlarının həm kəşfində, açılmasında, həm də istismar olunmasında böyük xidmətlər göstərmişlər. Heç də təsadüfi deyil ki, uzun bir tarixi dövrdə Bakı bütün dünyada neft mərkəzi kimi tanınır, Sovetlər İttifaqının, Rusiyanın başqa məntəqələrində açılmış neft yataqları da "ikinci Bakı", "üçüncü Bakı", "dördüncü Bakı" adlandırılırdı. O uzaq ellərdə, diyarlarda indiyə qədər də bizim həmvətənlərimiz – azərbaycanlılar, neftçilərimiz fəaliyyət göstərirlər və xalqımızın şan-şöhrətini bu gün də yüksəklərə qaldırırlar.

45 il bundan öncə, 1949-cu ilin sonunda – noyabr ayında həm Azərbaycan neftinin tarixində, həm də, tam qətiyyətlə demək olar ki, dünya neft sənayesinin tarixində ilk dəfə Azərbaycan neftçiləri dənizdən yanacaq çıxarmağa başlamışlar, neft fontan vurmuşdur. O vaxtdan indiyə qədər – 45 il müddətində Azərbaycanın Xəzər sahəsində neftçıxarma çox geniş yayılmış və bu təcrübə Azərbaycanın dəniz neftçilərini dünya miqyasında tanıtmış, onlar nəinki keçmiş Sovetlər İttifaqını əhatə edən dənizlərdə, uzaq ölkələrdəki dənizlərdə də neftçıxarma ilə məşğul olaraq orada öz təcrübələrini tətbiq etmişlər. Bunlar hamısı Azərbaycan neft sənayesinin, neftçilərimizin böyük, qəhrəmanlıq tarixinin nümunələridir. Xalqımız neftçilərimizə, Azərbaycanın neft mütəxəssislərinə, ustalarına bu xidmətlərinə görə daim minnətdar olacaqdır.

Biz Azərbaycan neftçilərinin əmək fəaliyyəti, qəhrəmanlığı ilə, ağlı, zəkası, iş təcrübəsi, fədakarlığı ilə həmişə fəxr etmişik və müstəqil Azərbaycanın prezidenti kimi mən də Azərbaycan neftçilərinin həm tarixi keçmişi, həm də bugünkü fədakar, qəhrəman əməyi ilə fəxr edirəm.

Azərbaycan neftçiləri bu gün ağır şəraitdə işləyirlər. Keçmişdə olduğu kimi, neft sənayesi bu gün də iqtisadiyyatımızın əsas hissəsidir. Əgər əsrin əvvəlində Azərbaycanda neft sənayesi ilə bağlı yalnız xırda bir maşınqayırma emalatxanası var idisə, indi respublikamız böyük sənaye potensialına malikdir. Azərbaycanda neft əsasında, neft emalı, qaz əsasında kimya sənayesi geniş inkişaf edib və böyük bir kompleks təşkil edir. Neft maşınqayırma sənayesi genişlənib. Bizim çox böyük, nəhəng zavodlarımız var. Bu zavodlar nəinki Azərbaycanın, hətta keçmiş Sovetlər İttifaqının neft-mədən avadanlığına tələbatının 70 faizini təmin etmiş zavodlardır.

Azərbaycanda, sənayenin başqa sahələri xüsusən maşınqayırma, elektrotexnika, radiotexnika, cihazqayırma, elektronika, metallurgiya və digər sahələri də inkişaf edib. Böyük potensialı olan, Azərbaycanda kənd təsərrüfatı məhsulları istehsalı, emal sənayesi, yüngül sənaye də çox inkişaf edib. Azərbaycanın bugünkü sənaye mənzərəsi çox genişdir, [150-151] sənaye potensialı çox böyükdür, sənaye sahəsində çalışan alimlərimiz, mühəndislərimiz, mütəxəssislərimiz çox böyük elmi-texniki, intellektual potensial təşkil edir. Biz bunlarla fəxr edirik. Bütün bunlar Azərbaycanın müstəqilliyini möhkəmləndirmək üçün və ölkəmizin bundan sonra daim müstəqil yaşaması üçün böyük əsasdır. Bu bizim milli sərvətimizdir və daim milli sərvətimiz olacaqdır.

Ancaq bu böyük sənaye potensialı içərisində neft sənayesi həmişə görkəmli yer tutmuş və bu gün də görkəmli yer tutur. Azərbaycanda 150 ildən artıqdır ki, sənaye üsulu ilə neft çıxarılır. Lakin Azərbaycan torpağının təkində neft ehtiyatları çox böyükdür – həm quruda, həm dənizdə. Azərbaycanın gələcək nəsilləri də neft sənayesinin inkişafını təmin etməlidir və neft-qazçıxarma sənayesi Azərbaycana daim xidmət edəcəkdir. Bir daha qeyd edirəm ki, müstəqil Azərbaycanın müstəqilliyinin təmin olunmasında, inkişaf etdirilməsində neft sənayesi mühüm yer tutur və gələcəkdə də geniş yer tutacaqdır.

Məlumdur ki, son 5-6 ildə, bəlkə də ondan da əvvəl sənayemizdə inkişaf dayanmışdır. Bəzi proseslər nəticəsində sənayedə, bütün iqtisadiyyatda dağıdıcılıq hərəkətləri neft-qazçıxarma sənayesini də ağır vəziyyətə salmışdır. Bunlar hamısı məlumdur və müvəqqəti xarakter daşıyır. Güman edirəm ki, Azərbaycan neftçiləri, neft sahəsində çalışan alimlər, mühəndislər, texniklər, fəhlələr sahənin bu vəziyyətdən çıxması üçün lazımi tədbirlər görəcəklər. Şübhəsiz ki, biz də bununla ciddi məşğul oluruq və birgə fəaliyyətimiz nəticəsində vəziyyət yaxşılaşacaqdır.

Bildiyiniz kimi, keçmişdə Azərbaycanın neft sənayesi SSRİ neft sənayesinin tərkibində idi. Bəzilərinin yəqin, xəbəri var və siz də bilməlisiniz: son otuz ildə Azərbaycanın qurudakı neft mədənləri Ümumittifaq neft sənayesinin tərkibində dotasiya ilə işləmişdir. Yəni Azərbaycanda quruda neft çıxarmaq üçün o qədər texnika, işçi qüvvəsi tələb olunur ki, çıxarılan neftdən götürülən gəlir sahəyə çəkilən xərcləri ödəmirdi. Elə indi də belədir. Dənizdən çıxarılan neft isə, əksinə, mənfəət vermişdir. Lakin o zaman biz böyük bir dövlətə daxil idik. Neft sənayesi həm texnika ilə, həm də lazım olan bütün başqa şeylərlə təmin edilirdi. Ona görə də bu ağırlıq hiss olunmurdu. Neftçilər həmişəki kimi yaxşı işləyirdilər, neft hasilatının az və ya çoxluğundan asılı olmayaraq, maddi cəhətdən yaxşı təmin edilirdilər.

Bilirsiniz ki, Suraxanıda dərinlik nasosları buraxan zavod var. Bu müəssisə çoxdan yaranmışdır. Yəqin xatirinizdədir ki, 70-ci illərdə həmin zavodun yenidən qurulması və genişləndirilməsi üçün nə qədər vəsait ayrılmışdı. Həmin illərdə Bakının başqa rayonlarındakı neft maşınqayırma zavodlarının da hamısı, tamamilə yenidən quruldu. O zaman bütün bu işlər İttifaq büdcəsindən ayrılan vəsait hesabına görülürdü.

Yaxud neft emalı zavodlarımızı götürək. Siz bilirsiniz, lakin xatirinizə salıram ki, Bakının neftayırma zavodlarında əsrin əvvəlindən qalan qurğular işləyirdi. Köhnəlmiş avadanlıq böyük itkiyə səbəb olur, həm də alınan neft məhsullarının keyfiyyətini aşağı salırdı, eyni zamanda həmin zavodlarda çalışan mütəxəssislərin, fəhlələrin işini ağırlaşdırırdı. O vaxt[151-152]lar biz İttifaq büdcəsindən külli miqdarda vəsait alaraq neftayırma zavodlarını yenidən qurduq. Köhnə avadanlıq tamamilə söküldü, əvəzində hər birinin illik istehsal gücü 8 milyon ton olan ELOU-AVT-6 qurğuları quraşdırıldı. Yüksək keyfiyyətli neft məhsulları istehsal etmək üçün xaricdən 40 milyon dollara riforminq qurğusu alındı.

Dənizin dərin yerlərindən neft çıxarmaq üçün böyük platformalar – "Şelf-1","Şelf-2","Şelf-3" alınıb gətirildi. Ən nəhayət, dərin dəniz özülləri zavodu tikildi. O zaman mən çox çalışaraq həmin zavodun Bakıda tikilməsinə nail ola bilmişdim. Bu zavodun tikintisi üçün ittifaq fondundan 400 milyon ABŞ dolları miqdarında vəsait xərclənmişdir. Hazırda həmin zavod müəyyən qədər yenidən qurulmalıdır. Lakin indi o, müstəqil, Azərbaycanın müəssisəsidir və təkcə Azərbaycanın sahil sularında deyil, Xəzərin başqa dövlətlərə aid sahələrində də neft çıxarmaqdan ötrü platformalar hazırlaya bilən mühüm sənaye obyektidir. Bütün bunları xatırlatmaqla demək istəyirəm ki, o zaman çıxarılan neftdən İttifaq miqyasında birlikdə istifadə etsək də, neft sənayesi üçün lazım olan vəsait heç bir problemsiz ümumi büdcədən ayrılırdı.

Təəssüf ki, son 5-6 ildə kapital qoyuluşu azalmış, əsas fondlar köhnəlmiş, təmir üçün vəsait olmamışdır. Bu səbəbdən də neft sənayesində böyük çətinliklər yaranmışdır.

İndi Azərbaycan müstəqil dövlətdir. Ona görə də heç vaxt nisgillənməməli və həsrətini çəkməməliyik ki, bu sadaladıqlarımı o zaman İttifaq büdcəsindən ala bilirdik, indi isə belə imkan yoxdur. Xeyr, müstəqilliyimiz, mili azadlığımız bizim üçün hər şeydən qiymətli, hər şeydən üstündür. Bir müstəqil dövlət kimi Azərbaycan öz taleyinin, yeraltı və yerüstü sərvətlərinin sahibidir. Neft-qaz yataqları Azərbaycan xalqının böyük sərvətidir və həm bu gün, həm də uzun bir tarixi dövrdə ona xidmət edəcəkdir.

İndiki keçid dövrünün çətinlikləri heç kimi qorxutmamalıdır. İstiqlaliyyət qazandığımız, müstəqil dövləti inkişaf etdirdiyimiz dövrdə üzləşdiyimiz bu çətinliklər təbiidir və bunlara dözməliyik. Biz bu çətinlikləri aradan qaldıracağıq və Azərbaycanın ümumi iqtisadi potensialı, xüsusən neft sənayesi sahəsindəki potensialı özünü göstərəcək və Azərbaycan xalqının yaşayışına yüksək səviyyədə xidmət edəcəkdir.

Ona görə də indi ümumən Azərbaycanın, o cümlədən neftçilərin sosial-iqtisadi vəziyyətində yaranmış çətinlikləri təbii qəbul etmək və bunlara dözmək lazımdır. Əmin ola bilərsiniz ki, bu çətinliklər müvəqqətidir və Azərbaycan xalqı, neftçilər yaxşı yaşayışa nail ola biləcəklər.

Bir də bilməlisiniz ki, Azərbaycan müharibə şəraitindədir. Müharibəni Azərbaycan başlamamışdır. Azərbaycanın torpaqlarına, onun suverenliyinə, ərazi bütövlüyünə Ermənistan təcavüz etmişdir. Beləliklə də, Azərbaycan müharibəyə cəlb olunmuşdur. Təəssüflər olsun ki, altı il davam edən müharibədə, müəyyən obyektiv və subyektiv səbəblərə görə, torpaqlarımızın bir qismi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş, bir milyondan artıq həmvətənimiz qaçqın vəziyyətinə düşmüş[152-153]dür. Şübhəsiz ki, bu, Azərbaycanın sosial-iqtisadi vəziyyətinə ağır zərbə vurur. Ona görə də sənayemizdə görüləcək işlərin də bir çoxunu vaxtında həyata keçirmək mümkün olmur, yaxud da sənaye istehsalında əldə edilən vəsaitin bir hissəsi onun inkişafına deyil, respublikanın müdafiəsinə yönəldilir. Bu da təbiidir. Biz Azərbaycanın müstəqilliyini, torpaqlarımızı qorumalı, respublikamızın ərazi bütövlüyünə nail olmalıyıq. Ona görə də müharibənin əzab-əziyyətinə dözməliyik.

Müharibədə bütün Azərbaycan xalqının nümayəndələri, o cümlədən neftçilər fədakarlıqla iştirak edirlər. Neftçilər də şəhidlər vermişlər, onların nümayəndələri arasında da Milli Qəhrəman adına layiq görülənlər var. Neftçilər həm ön cəbhədə, həm də arxa cəbhədə ilk sırada gedirlər. Mən bu gün bütün şəhidlərin, o cümlədən Azərbaycanın torpaqlarını müdafiə edərkən canlarından keçmiş neftçilərin xatirəsini yad edirəm. Şəhidlərin qəhrəmanlığı qəlbimizdə yaşayacaqdır.

Azərbaycan neftçiləri torpaqlarımızın müdafiəsində fəal iştirak edirlər. Milli Ordumuzun hərbi texnikası sizin çıxardığınız neftdən alınan yanacaqla işləyir. Şübhəsiz ki, müharibə böyük çətinliklər yaratmışdır. Burada çıxış edənlər dedilər – 1941-45-ci illər müharibəsi zamanı bütün Azərbaycan xalqı kimi, neftçilərimiz də gecə-gündüz çalışırdılar ki, Vətənin müdafiəsini təmin etsinlər. Faşizm üzərində qələbədə Azərbaycan neftçilərinin əvəzsiz rolu var. O zaman – müharibə dövründə Sovet İttifaqında neft hasilatının 70 faizini Bakı, Azərbaycan neftçiləri verirdi. Qocaman neftçilərin xatirindədir, o vaxt Azərbaycan neftçiləri necə məhrumiyyətlərə dözərək yanacaq çıxarırdılar. Faşist ordusunun Şimali Qafqaza qədər gəlib çıxdığı və dəmir yol xəttinin kəsildiyi bir vaxtda Azərbaycan neftçiləri Xəzər dənizçiləri ilə birlikdə Şimala neft göndərərək cəbhəni yanacaqla təmin edirdilər. O dövrdə vəziyyət indikindən min dəfə çətin idi, camaat yarıac yaşayırdı, adi tələbatlar ödənilmirdi. Ancaq neft quyuları dayanmır, neftçilər işləyirdilər. O vaxt neftçilər böyük sınaqdan keçdilər. O dövr Azərbaycan neftçilərinin tarixində böyük qəhrəmanlıq dövrüdür.

İndi isə biz Vətənimizi, müstəqil Azərbaycanımızı müdafiə edirik. Torpaqlarımızı müdafiə etmək üçün apardığımız müharibə bizdən ötrü daha müqəddəs müharibədir. Ona görə də bu müharibəni aparmaq üçün, Vətənimizi qorumaq, işğal olunmuş torpaqlarımızı geri qaytarmaq üçün Azərbaycanın hər bir namuslu, qeyrətli vətəndaşı öz köməyini əsirgəməməlidir. Cəbhədə vuruşanlar Azərbaycan torpaqlarının keşiyində durmalı, arxa cəbhədəkilər isə neft, qaz çıxarmalı, başqa məhsullar istehsal etməlidirlər ki, Azərbaycan yaşasın, onun ordusu ölkəmizi müdafiə edə bilsin.

Azərbaycanın iqtisadi və sosial həyatında yaranmış çətinliklər, o cümlədən neftçilərin həyatındakı çətinliklər bütün bu amillərlə bağlıdır. Mən istərdim ki, siz bunları nəzərə alasınız və daha yaxşı çalışasınız ki, həm torpaqlarımızı azad edə bilək, müstəqil Azərbaycanın ərazi bütövlüyünü təmin edə bilək, həm də iqtisadiyyatımızın inkişafına nail olaq. Bundan ötrü imkanlar var, bizim potensialımız böyükdür və ondan istifadə etməliyik. [153-154]

Biz bu çətinliklərin hamısına dözməliyik. Neft sənayesindəki çətinliklər məlumdur. Əmək haqqının vaxtında verilməməsi, kapital qoyuluşunun azalması, bəzi sahələrdə təmir işlərinin aparılmaması kimi çətinliklər var. Mən bu işlərlə şəxsən məşğul oluram, gələcəkdə də məşğul olacağıq. Mən müvafiq tapşırıqlar vermişəm ki, yaxın bir müddətdə neft sənayesində mənfəətdən vergi tutulmasın və bunun hesabına sahənin maliyyə vəziyyəti bir qədər yaxşılaşdırılsın. Maliyyə sahəsində başqa tədbirlər də görülür və bundan sonra da görüləcəkdir, maddi kömək də edilir. Ancaq bilməlisiniz ki, çətinliklər ümumi çətinliklərdir və bunların hamısına dözməliyik. Mən də sizinlə birlikdə bu çətinliyə dözür və sizinlə bir yerdə bu vəziyyətdən çıxmaq üçün tədbirlər görürəm.

1941-45-ci illər müharibəsini təsadüfən yada salmadım. O dövrdə yaşamış, həmin günləri görmüş adamlar onun necə çətin bir vaxt olduğunu bilirlər. Amma xalqımız o günləri keçib getdi və ondan sonra yaşayış çox yaxşılaşdı. İndiki çətinlikləri də aradan qaldıracağıq.

Bildiyiniz kimi, Bakıya gəlməzdən əvvəl son üç ildə mən Naxçıvanda yaşayırdım. Ermənistan ərazisi ilə əhatə olunan Naxçıvan Azərbaycanın digər ərazilərindən ayrı düşmüşdür. Muxtar respublika üç-dörd ildir ki, blokada şəraitində yaşayır. Azərbaycandan oraya gedən elektrik xətti, qaz kəməri, dəmir yolu xətti Ermənistan ərazisindən keçdiyinə görə kəsilmişdir. Bu vəziyyət indi də davam edir. Deməli, kiçik bir ərazi xeyli vaxtdır ki, ağır vəziyyətdə yaşayır.

Naxçıvanın çox sərt iqlimi var, qışda güclü şaxta olur. Sərt qış günlərini mən orada əhali ilə bir yerdə keçirdim. Bəzən aylarla elektrik işığı olmur və biz lampa işığında işləyirdik. Yanacaq olmadığına görə evlər qızdırılmırdı. Uşaqların şaxtadan donmaması üçün ağacları kəsib yandırırdılar. Belə ağır vəziyyətdə mən xalqla

bir yerdə idim və adamlara dəfələrlə dedim: biz bir yerdə yaşayacaq, birlikdə vuruşacaq və bu vəziyyətdən birlikdə çıxacağıq. Donsaq da, ölsək də bir yerdə donacaq, öləcəyik. Ancaq nə qədər ağır olsa da biz buna dözəcək və çətin vəziyyətdən çıxacağıq. Belə də oldu. Bu gün sizə də deyirəm, Azərbaycan prezidenti kimi həm neftçilərə, həm də bütün xalqa müraciət edərək deyirəm ki, bu çətinliklərin səbəbləri məlumdur, lazımi tədbirlər görülür. Ancaq prezident kimi mən sizinlə bir yerdəyəm, sizə güvənirəm, arxalanıram. Əmin ola bilərsiniz ki, bu çətinlikləri aradan qaldırmaq üçün mümkün olan bütün tədbirləri görürəm və bundan sonra da görəcəyəm. Hər bir çətinliyə sizinlə birlikdə dözmüşəm və dözəcəyəm, birlikdə yaşayacaq, bu çətinlikləri birlikdə aradan qaldıracaq, müstəqil Azərbaycan Respublikasının inkişafını təmin edəcəyik.

Neft sənayesinin inkişafını təmin etmək üçün xarici neft şirkətləri ilə danışıqlar aparırıq. Sizə məlumdur ki, bu danışıqlar 1990-cı ildən başlanmışdır. Ötən müddətdə danışıqlar prosesində cürbəcür mərhələlər olmuşdur, bir neçə layihə meydana gəlmişdir. Bildiyiniz kimi, 1993-cü ilin iyununda Azərbaycan ağır vəziyyətə düşmüşdü. Artıq vətəndaş müharibəsi [154-155] başlanmış, qardaş qanı tökülmüşdü. Xalq, Azərbaycanın mötəbər nümayəndələri məni dəfələrlə Bakıya dəvət etdilər. Düzü, mən o zaman gəlmək istəmirdim, çünki bunun müəyyən səbəbləri var idi. Ancaq Azərbaycanı belə ağır vəziyyətdə gördüyüm halda və nəzərə alaraq ki, vətəndaş müharibəsi başlanmışdır, Azərbaycan parçalanır və ola bilsin ki, tamamilə parçalana bilərdi, – mən şübhəsiz ki, bu vəziyyətə biganə qala bilmədim və dəvətləri qəbul edərək Bakıya gəldim. O vaxtdan xalqın etimadı ilə Azərbaycana rəhbərlik edirəm. Mənim keçmişdə Azərbaycana 14 il rəhbərlik etdiyim məlumdur. Azərbaycanın qarşısında alnım açıq, üzüm ağdır, xidmətlərim də göz qabağındadır. Ancaq məni yenidən buraya gəlməyə xalqın düşdüyü ağır vəziyyət vadar etdi. Mənim bir məqsədim var: xalqı bu vəziyyətdən çıxarmaq. Bundan ötrü həyatımı da qurban verməyə hazıram. Son nəfəsimədək çalışacağam ki, Azərbaycanı bu vəziyyətdən çıxaram.

Bayaq dedim ki, Bakıya gəldikdən sonra bir çox məsələ ilə yanaşı, Qərbin neft şirkətləri ilə aparılan danışıqlarla da maraqlandım. Məlum oldu ki, hazırlanmış layihələr Azərbaycanın mənafeyinə müəyyən qədər zərər vurur. Ona görə də mən bu danışıqları dayandırdım. Sizə deyim ki, bunun özü də çox böyük cəsarət tələb edirdi. Çünki Qərb şirkətləri üç il idi ki, Azərbaycanda fəaliyyət göstərirdilər. Danışıqlar aparılmış, layihələr hazırlanmışdı. Mən danışıqları dayandırarkən mötəbər dairələrin bir çoxundan narazılıq eşitdim. Lakin bunların cavabında dedim: Azərbaycanın neft yataqları xalqımızın ən böyük milli sərvətidir və ondan bu gün də, gələcəkdə də çox ehtiyatla istifadə etmək lazımdır. Düşünmək lazımdır ki, bizim sərvətlərimiz təkcə bugünkü nəsillər üçün deyil, nəvə-nəticələrimiz, gələcək nəsillərimiz üçün də gərəkdir. Ona görə də bu məsələyə səthi yanaşmaq olmaz.

Buna görə də mən məsuliyyəti öz üzərimə götürərək danışıqları, müqavilələrin bağlanmasını dayandırdım. Neft sahəsində çalışan alimləri, mühəndisləri, bir sözlə mütəxəssisləri cəlb etdim – qoy bir daha götür-qoy etsinlər ki, biz hansı şərtlərlə neft müqavilələrinin bağlanmasına gedə bilərik. Şərtlər elə olmalıdır ki, bu gün də on il, iyirmi, otuz, qırx il sonra da Azərbaycanın mənafeyinə zərər gətirməsin. Neft yataqlarından birgə istifadə haqqında hər hansı xarici şirkətlə müqavilə bağlanırsa, şübhəsiz ki, tərəflərin ikisi də bundan mənfəət götürməlidir. Bunsuz heç bir xarici şirkət buraya gəlməz. Rusiya nəhəng bir dövlət olmasına baxmayaraq, o da neft yataqlarının birgə istismarı barədə xarici şirkətlərlə müqavilə bağlamışdır.

Lakin bağlayacağımız müqavilənin şərtləri necə olacaq, yəni Azərbaycan tərəfi nə qədər mənfəət götürəcək, xarici şirkətlərin payı nə qədər olacaq? Azərbaycan bu sərvətin sahibidir və ona görə də müqavilədə maksimum mənfəətini təmin etməlidir. Alimlərimizə, mütəxəssislərimizə də göstəriş vermişdim ki, bax, bu prinsip əsasında işləsinlər. Əlbəttə, bu məsələni müəyyən qədər ləngitdik. Ola bilər, bundan da çox ləngisin, ancaq gərək elə qərar qəbul edilsin ki, həm bu gün, həm də gələcəkdə [155-156] Azərbaycanın milli mənafeyini təmin etsin. Elə müqavilə ola bilər ki, o beş-altı il üçün sərfəli olsun, lakin beş, on, bəs, iyirmi il bundan sonra üçün necə? Bunu düşünmək lazımdır. Mən heç vaxt yalnız bu günü düşünərək yaşayıb işləməmişəm. 70-ci illərdə o işləri görəndə də mən bu günü düşünürdüm.

Məsələn, Bakının yaşıllaşdırılmasını götürək. O zaman mən belə bir təklif irəli sürmüşdüm: hər bir bakılı iki ağac əkib becərməlidir. Yadınızdadırsa, o vaxtlar Suraxanı rayonunun ərazisində də iməciliklər keçirilirdi. Ağac əkir, yaşıllıqları suvarırdılar. Mən də gəlirdim. İndi həmin ağaclar necə də boy atmışdır! Bu, bizim sərvətimizdir. İndi isə mənə məlumat veriblər ki, Bakının bəzi yerlərində ağacları kəsir, ev, müxtəlif tikililər inşa edirlər. Bakıda, Abşeron şəraitində ağac kəsmək cinayətdir. Sizə məlumdur ki, əsrin əvvəlində Bakıdakı ağacları az qala barmaqla saymaq olardı. Çox böyük zəhmət bahasına Bakıda yaşıllıqlar yaradılmışdır. Əgər zərurət üzündən kim isə bir ağacı kəsirsə, əvəzində gərək onunu əksin.

Bu, bir misaldır və belə misalları çox sadalamaq olar. Demək istəyirəm ki, mən o vaxt da bu günü düşünmüşəm. Bu gün də gələcəyi düşünürəm.

Bax, bu prinsipləri əsas tutaraq mən neft müqavilələrinin çox dərindən təhlil olunmasını təşkil etdim və indi danışıqlar gedir. Danışıqlar qurtardıqdan sonra, əgər nümayəndələrimiz bizim üçün yararlı layihə təqdim edə bilsələr, onu da bütün neftçilərin müzakirəsinə verəcək, ölçüb-biçdikdən sonra həmin layihənin həyata keçirilməsinə qərar verəcəyik.

Şübhə yoxdur ki, həm quruda, həm də dənizdə neftçıxarmanı inkişaf etdirmək üçün biz güclü, yüksək texnika və texnologiyaya malik olan xarici neft şirkətlərinin imkanlarından istifadə etməliyik. Başqa yolumuz yoxdur. Yenə də deyirəm, əgər Azərbaycanın mənafeyini təmin edən sazişə nail ola bilsək, ölkəmizin neft sənayesi çox güclü inkişaf edəcək, neftçilərin yaşayışı yaxşılaşacaq, bütünlüklə Azərbaycanın sənaye potensialı artacaqdır. Bir sözlə, bu, Azərbaycanın bütün iqtisadiyyatına çox böyük müsbət təsir göstərəcəkdir. Ona görə də biz bu məsələlərlə məşğul oluruq və fürsətdən istifadə edərək bu barədə sizə məlumat verirəm.

Bildiyiniz kimi, dənizdə neftin çox hissəsi "Günəşli" yatağından çıxarılır. Lakin indi orada hasilat azalmışdır. Yaxud başqa bir misal, 1982-ci ilin sonunda mən Azərbaycandan gedəndə respublikada hər il 15 milyon ton neft, 15 milyard kubmetr qaz çıxarılırdı. Amma indi cəmi 6 milyard kubmetr qaz çıxarılır. Biz özümüzü qazla təmin edə bilmir, Türkmənistandan mavi yanacaq alırıq. Bundan ötrü isə valyuta verməliyik. Bəs onu haradan alaq? Neft hasilatı sahəsində imkanlarımız çoxdur. Lakin ildə 10 milyon ton neft çıxarılır, bu il hasilat ondan da az olacaqdır. Belə vəziyyətdə sənayemizi necə təmin edə bilərik, valyutanı necə qazanarıq? Ona görə də xarici şirkətlərlə birgə işləməliyik. Lakin elə olmalıdır ki, başlıca sərvətimizdən istifadə edilməsinin bu günü də, gələcəyi də ölkəmizin milli mənafeyinə uyğun olsun. Mən sizi arxayın etmək istəyirəm, rahat ola bilərsiniz, – biz bu işdə səhvə yol verməyəcəyik. Əgər bu müqavilələrin [156-157] başlanmasına nail olsaq, Azərbaycan neft sənayesinin yeni inkişaf dövrü başlanacaqdır. Mən buna əminəm.

Güman edirəm ki, bu sahədə və başqa sahələrdə görülən işlər yaxın vaxtlarda öz nəticəsini verəcəkdir. Ancaq bu mövzuya yekun vuraraq bir daha demək istəyirəm ki, neft sənayesindəki çətinliklər bizə məlumdur, prezident kimi mən tədbirlər görürəm və bundan sonra da görəcəyəm. Neftçilərdən isə dözümlü olmağı, daha fədakarlıqla işləməyi xahiş edirəm.

Bu gün həzrəti Məhəmməd peyğəmbərin mövludu günüdür. Saat 12-də mən Təzədir məscidində olmuş, bu bayram münasibətilə çıxış etmişəm. İndi isə sizinlə birlikdə buraya, neftçilərin bayramına gəlmişəm. Orada da demişəm, sizin qarşınızda da deyirəm – çünki siz və sizin simanızda neftçilər Azərbaycanın həyatında həmişə çox böyük rol oynamısınız və bundan sonra da oynayacaqsınız – indi əsas məqsədimiz Azərbaycanı müharibə vəziyyətindən qurtarmaqdır. Bunun üçün isə, şübhəsiz ki, ordumuzu, müdafiə qüdrətimizi möhkəmləndirməliyik.

Bu işləri görürük, bunu bilməlisiniz. Eyni zamanda biz sülh danışıqları aparırıq. Ermənistanla Azərbaycan arasında altı ildən artıq gedən bu müharibə ilə məşğul olan beynəlxalq təşkilatlar da sülh danışıqlarının aparılmasını yüksək qiymətləndirirlər. Hər bir müharibənin sonu olmalıdır. Müharibənin sonu isə sülhdür. Amma sülh ədalətli olmalıdır. Bizim üçün sülh o deməkdir ki, Azərbaycanın ərazi bütövlüyü təmin edilməli, erməni silahlı qüvvələri Azərbaycanın işğal olunmuş ərazilərindən çıxmalı, respublikamızın suverenliyi, sərhədlərinin toxunulmazlığı təmin olunmalıdır. Biz bu şərtlərlə sülh danışıqları aparırıq.

Üç ay yarımdır ki, atəşkəsə nail olmuşuq. Onu da deyim ki, altı il davam edən müharibə dövründə belə uzunmüddətli atəşkəs olmamışdır. Ermənistan tərəfi də, biz də bu barədə əldə olunmuş sazişə əməl edirik. Mən öz tərəfimizdən deyirəm ki, biz bundan sonra da atəşkəsə əməl edəcəyik. Qarşı tərəfdən də bunu tələb edirəm.

Sülh danışıqları beynəlxalq təşkilatların – BMT Təhlükəsizlik Şurasının, ATƏM-in və onun Minsk qrupunun vasitəçiliyi ilə gedir. Bu işdə böyük dövlətlər, xüsusilə Rusiya çox böyük vasitəçilik fəaliyyəti göstərir. Eyni zamanda Amerika Birləşmiş Ştatları vasitəçilik edir. ATƏM-ə Avropanın 50 dövləti daxildir. Bu təşkilatın Minsk qrupunda onun üzvü olan doqquz dövlət iştirak edir. Həmin dövlətlər regionumuzda müharibənin qurtarmasına, sülhün tam bərqərar olmasına çalışırlar.

Mən vaxtımın, bəlkə də çox hissəsini sülh danışıqları məsələsinə həsr edirəm. Minsk qrupunun sədri Yan Eliasson srağagün Bakıda idi. Mən onunla dörd saat söhbət etmişəm. Sonra o, Ermənistana getmiş və bu gün yenidən Bakıya qayıtmışdır. Bu gün yenə onunla görüşməliyəm. Biz bu sahədə danışıqları davam etdirəcəyik. Əgər Ermənistan tərəfi də bizim şərtləri qəbul etsə və beynəlxalq təşkilatlar həmin şərtlərin həyata keçirilməsini təmin edə bilsə, biz sülh yoluna daha çox üstünlük veririk.

Eyni zamanda biz müdafiə qüvvələrimizi möhkəmləndiririk və torpa[157-158]ğımızı müdafiə etməyə hər dəqiqə hazır olmalıyıq. Ona görə də orduda xidmət etmək, orduya kömək göstərmək hər bir vətəndaşımız, o cümlədən neftçilər üçün şərəfli vəzifədir. Arzu edərdim ki, hər biriniz bu şərəfli vəzifənin yerinə yetirilməsinə çalışasınız.

Bir tərəfdən Azərbaycanın müharibə şəraitində olduğu, digər tərəfdən iqtisadi vəziyyətin ağır olduğu, əhalinin bir qisminin çətin dolandığı bir dövrdə, şəhidlər verdiyimiz, yaralılarımızın olduğu bir dövrdə respublikamızın daxilində ictimai-siyasi sabitliyin olması başlıca şərtlərdən biridir. Bildiyiniz kimi, keçən ilin iyununda bu sabitlik pozulmuşdu. Ayrı-ayrı qüvvələr, qruplar öz şəxsi mənafelərini, iddialarını, hakimiyyətə gəlmək üçün mübarizə aparmaq meyllərini əsas tutaraq Azərbaycanı cürbəcür bölgələrə parçalamağa çalışırdılar. Bunun qarşısı alındı.

Ancaq indi də bəzi qüvvələr, qruplar – burada çıxış edənlərdən biri də bunu dedi – yenə də aranı qarışdırmağa cəhd göstərmək istəyirlər, respublikadakı gərgin vəziyyətdən istifadə edərək adamları bir-biri ilə toqquşdurmağa çalışırlar. Beləliklə də onlar bu ağır dövrdə xalq, Vətən, müstəqil dövlət haqqında düşünmək

əvəzinə şəxsi hikkələrini, çirkin niyyətlərini həyata keçirməyə cəhd göstərirlər. Ancaq onlar da, Azərbaycanın bütün vətəndaşları, o cümlədən neftçilər də bilməlidirlər ki, biz belə hallara yol verməyəcəyik.

Mən xalqın etimadını bütün sahələrdə doğrultmağa çalışıram və çalışacağam. Bu etimadı doğrultmaq üçün Azərbaycanı müharibə vəziyyətindən çıxarmağa, sosial-iqtisadi böhran şəraitindən qurtarmağa, hər bir vətəndaşın hüquq və azadlığını qorumağa, müstəqil Azərbaycan dövlətinin istiqlaliyyətini, xalqın milli azadlığını müdafiə etməyə və Azərbaycan dövlətinin bir daha əsarət altına düşməsinə yol verməməyə çalışıram və bundan sonra da çalışacağam. Xalqın etimadını doğrultmaq üçün mən Azərbaycanda daxili ictimai-siyasi vəziyyətin sabitliyini qorumağa çalışıram və gələcəkdə də çalışacağam. Əgər kimsə, hansı bir qrupsa bu ali məqsədləri yerinə yetirməyə mane olacaqsa, şübhəsiz ki, onlara qarşı dövlətin müvafiq qanunları tətbiq ediləcəkdir. Heç kəs güman etməsin ki, dövlət qorunmayacaq. Xeyr, dövlət də qorunur, hər bir vətəndaşın hüquqları da qorunur, Azərbaycanın müstəqilliyi də, Prezident kimi mən buna and içmişəm və bunu axıradək yerinə yetirəcəyəm.

Bu sözləri deyərkən mən Azərbaycan xalqının müdrikliyinə, ağlına, zəkasına güvənirəm. Bu sözləri deyərkən əmin olduğumu bildirmək istəyirəm ki, Azərbaycan xalqı, ölkəmizin bütün vətəndaşları bu vəzifələri yerinə yetirmək üçün daha sıx birləşəcək, bir olacaq və bu yolda, Azərbaycanın müstəqilliyi yolunda qarşıya çıxan maneələri aradan qaldırmaq [158-159] üçün lazımi tədbirlər görəcəklər. Bu vəzifələrin yerinə yetirilməsində mən bizim qəhrəman, cəsarətli, qürurlu neftçilərimizə də güvənir, ümid bəsləyirəm. Sizə, qəhrəman Azərbaycan neftçilərinə uğurlar, hünər diləyir, hamınıza xoşbəxtlik arzulayıram.

Güman edirəm ki, bu ilin axırında biz dənizdə neftçıxarmanın 45 illik yubileyini də təntənəli şəkildə qeyd edəcəyik. Neftçilər gününün elan olunması barədə burada irəli sürülən təklifi də bəyənirəm və bu barədə lazımi qərar qəbul edərik. Ümumiyyətlə, mən neftçilərə daim məhəbbət və qayğı göstərmişəm və bundan sonra da göstərəcəyəm. Bayram münasibətilə sizi bir daha təbrik edir, hər birinizə, bütün neftçilərə xoşbəxtlik və səadət, ağır və şərəfli işinizdə uğurlar diləyirəm. Sağ olun! [159-160]

## PREZİDENT SARAYINDA "ƏHALİNİN SOSİAL MÜDAFİƏSİNİN GÜCLƏNDİRİLMƏSİ VƏ İQTİSADİYYATIN MALİYYƏ VƏZİYYƏTİNİN SABİTLƏŞDİRİLMƏSİ TƏDBİRLƏRİ HAQQINDA" 1994-cü İL 15 İYUN TARİXLİ FƏRMANIN YERİNƏ YETİRİLMƏSİ GEDİŞİNƏ HƏSR OLUNMUŞ MÜŞAVİRƏDƏ GİRİŞ SÖZÜ

*29 avqust 1994-cü il*

Bildiyiniz kimi, son vaxtlar biz respublika iqtisadiyyatının müxtəlif məsələləri – maliyyə, istehsal məsələləri ilə mütəmadi məşğul oluruq. Avqustun 11-də və 18-də iqtisadiyyata həsr olunmuş geniş müşavirələr keçirilmişdir. İlk müşavirədə sənayenin, tikintinin, sosial sahənin vəziyyəti müzakirə olunmuşdur. Avqustun 18-də kənd təsərrüfatı və aqrar-sənaye kompleksinin vəziyyəti müzakirə edilib, bu sahədə lazımi tədbirlər görülməsi üçün göstərişlər verilib və yerlərdə müəyyən işlər aparılır. Ancaq respublikamızın iqtisadiyyatı daim diqqət tələb edir. Ona görə də bu məsələlərlə biz ardıcıl surətdə məşğul oluruq və məşğul olmalıyıq.

Bildiyiniz kimi, iyunun 15-də respublika iqtisadiyyatına aid olan böyük və ciddi bir fərman verilibdir. Çox böyük əhəmiyyət kəsb edən bu fərman əhalinin sosial müdafiəsinin gücləndirilməsi və iqtisadiyyatın maliyyə vəziyyətinin sabitləşdirilməsi tədbirləri haqqındadır. Bir çox müzakirələr, tədqiqatlar, fikir mübadiləsi nəticəsində meydana gəlmiş həmin fərmanda görüləcək işlər haqqında konkret müddəalar var. Biz bu sənədi birlikdə müzakirə edib, məsləhətləşdikdən sonra qəbul etmişik və onun həyata keçirilməsi yollarını müəyyənləşdirmişik. Fərmanı qəbul edərkən belə fikirdəydik, mən indi də belə fikirdəyəm ki, bu fərmanın həyata keçirilməsi əhalinin sosial vəziyyətinin yaxşılaşdırılmasını müəyyən qədər təmin edə biləcək və iqtisadiyyatın güclənməsi, xüsusən respublikanın maliyyə vəziyyətinin yaxşılaşdırılması üçün lazımi dəyişikliklər əmələ gətirəcəkdir.

Bugünkü müşavirə də həmin fərmanın həyata keçirilməsi ilə əlaqədardır. Fermanın qəbul olunmasından artıq iki ay yarım vaxt keçib. Ona görə də mən bu gün sizi buraya dəvət etmişəm. İstəyirəm bilək ki, fərman necə həyata keçirilir, hansı nəticələr əldə etmişik, nəyə nail ola bilmişik və nə yerinə yetirilməyib, nə üçün yerinə yetirilməyib, səbəbləri nədir və nə etmək lazımdır.

Şübhəsiz ki, iqtisadiyyat sahəsində tədbirlər də görməliyik, sənədlər də qəbul etməliyik. Ancaq bəzi sənədlər uzunmüddətli proqram xarakteri daşıyır, bəziləri isə cari məsələlərin həll olunması ilə əlaqədardır. İyunun 15-də verilmiş fərman müəyyən bir mərhələdə, uzun bir müddətdə iqti[160-161]sadiyyatımızın dirçəldilməsi, əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması üçün təminat yaradan bir fərmandır. Əgər onu həyata keçirə bilsəydik, mənə elə gəlir ki, daha da çox nailiyyətlər əldə etmiş olardıq. Buna görə də məlumat almaq, məsələni müzakirə etmək üçün sizi buraya dəvət etmişəm.

Mən istərdim ki, bizim hər birimiz – hərəmiz öz sahəmizdə bütün məsələlərə, eyni zamanda respublika həyatının hər sahəsində, o cümlədən iqtisadiyyatda olan vəziyyətə çox ciddi, məsuliyyətlə yanaşaq. Müzakirə edilən məsələ ilə əlaqədar baş nazirin müavini, iqtisadiyyat naziri Səməd Sadıqov məlumat versin. Sonra maliyyə nazirinin məlumatını dinləyək. Fərmanda Nazirlər Kabinetinə, iqtisadiyyat, maliyyə, əmək və əhalinin sosial müdafiəsi nazirliklərinə, başqa nazirliklərə, Milli Banka tapşırıqlar verilib. İstərdim öyrənək ki, bu tapşırıqlar və ümumiyyətlə, fərman necə həyata keçirilir. Həm də aydınlaşdıraq, – indiki mərhələdə nə etmək lazımdır ki, bizim strateji məqsədimiz, yəni əhalinin sosial müdafiəsinin gücləndirilməsi və iqtisadiyyatın maliyyə vəziyyətinin sabitləşdirilməsi təmin olunsun. Məqsəd bundan ibarətdir.

### YEKUN SÖZÜ

Mən müşavirənin əvvəlində dedim: bu məsələni müzakirəyə çıxarmaqda məqsəd respublika əhalisinin sosial vəziyyəti və iqtisadiyyatımız üçün çox böyük əhəmiyyəti olan fərmanın necə həyata keçirildiyinə baxmaqdır. Əhalinin sosial müdafiəsinin gücləndirilməsi, həm də iqtisadiyyatımızın maliyyə vəziyyətinin sabitləşdirilməsi bu fərmanın bütünlüklə həyata keçirilməsindən çox asılıdır. Bu nöqteyi-nəzərdən fərman uzunmüddətli, çox geniş əhatəli bir sənəddir. Bu fərmanın bütün müddəalarını, bəndlərini iki ay yarım ərzində yerinə yetirmiş olsaydıq, şübhəsiz ki, daha yaxşı nailiyyətlər əldə edə bilərdik. Məhz həmin fərmanın yerinə yetirilməsində buraxılmış səhvləri nəzərə alaraq və nəzər-diqqəti onun həyata keçirilməsinə bir daha cəlb etmək üçün bugünkü müzakirəni açmağı məqsədə müvafiq bildik. Müzakirə göstərir ki, doğrudan da buna ehtiyac vardır. Bizim bugünkü bir neçə saatlıq müzakirəmiz, fikir mübadiləmiz hazırkı və gələcək işlərimiz üçün də çox lazımlıdır, gərəklidir.

Fərman əhalinin sosial müdafiəsinin gücləndirilməsinə və iqtisadiyyatın maliyyə vəziyyətinin sabitləşdirilməsinə yönəldilib. Bizim üçün mühüm olan bu iki vəzifəni yerinə yetirə bilsək, respublikamızın vəziyyətini xeyli yaxşılaşdıra bilərik.

Qeyd etmək lazımdır ki, fərmanın bir çox bəndləri, müddəaları artıq həyata keçirilibdir. Elə bəndlər var ki, onlar dərhal yerinə yetirilib. Məsələn, minimum əmək haqqının qaldırılması, yaxud da əhalinin azmaaşlı təbəqələrinə kompensasiyalar verilməsi, pensiyaların artırılması, məktəblilərə əlavə vəsait verilməsi – bu tədbirlərin hamısı dərhal yerinə yetirilib. [161-162]

Enerji daşıyıcılarının, çörək məhsullarının qiymətləri o vaxt artırılıb. Fərmanın bəzi maddələri isə sonrakı dövrlərdə həyata keçirilib. Ancaq fərmanın bir çox maddələri yerinə yetirilməyib, ona görə də, ola bilər ki, biz istənilən nəticələri əldə edə bilməmişik.

Mən heç də o fikirdə deyiləm ki, bu tədbirlərin hamısını yerinə yetirsəydik, çox böyük dəyişikliklər əldə etmiş olardıq. Xeyr. Ancaq bu, bizim üçün yeni bir mərhələ, yeni dəyişikliklər əldə etməyimiz üçün əsas olardı. Burada bir sıra nazirlər çıxış edərkən bəzi məsələlər haqqında, yəni bəzi bəndlərin yerinə yetirilməməsinə obyektiv səbəb olmaması haqqında öz sözlərini dedilər. Bunları təkrar etmək istəmirəm. Hesab edirəm ki, Nazirlər Kabineti də, nazirlər də, yerli hakimiyyət orqanları da və bu fərmanın yerinə yetirilməsi ilə məşğul olmalı olan idarələrin, təşkilatların hamısı bu işləri görməli idilər. Təəssüf ki, bunların bir qismi görülüb, amma çox qismi də görülməyib. Görülməmiş həmin işlərin o qədər də böyük obyektiv səbəbləri yoxdur. Sadəcə olaraq vaxt itirilib, süründürməçiliyə yol verilib. Bununla da biz çox şey itirmişik.

Məsələn, bir maddə üzərində mən yenə də dayanmaq istəyirəm. Bu, çox mühüm məsələdir. Biz o vaxt – fərman qəbul edilərkən iki ay fikir mübadiləsi apardıq ki, enerji daşıyıcılarının, çörəyin qiymətləri, minimum əmək haqqı artırılsın, ya artırılmasın. Nəhayət, bu fərmanda öz əksini tapmış müddəalara, qərarlara gəlib çatdıq. Ancaq eyni zamanda o vaxt hamımız həmfikir olduq ki, bu bizim birinci addımımızdır, gələcək işlərimizə istiqamət verir.

Belə qərara gəldik ki, bu məsələləri tədricən həll etmək onların əziyyətsiz həll olunmasına və iqtisadiyyatın dirçəldilməsinə kömək edəcəkdir. Budur, iki ay yarım vaxt keçib, biz indi fikirləşirik ki, enerji daşıyıcılarının qiymətini nə qədər qaldıraq. Biri bir rəqəm, o birisi başqa bir rəqəm deyir. Əlbəttə, yaxın vaxtlarda etmək istədiyimiz rəqəm əvvəlkinə nisbətən çox böyük olacaq. Ancaq bu fərmanda deyildiyi kimi, əgər Nazirlər Kabineti tədricən – məsələn, bir ay keçəndən sonra bu qiymətləri bir az qaldırmış olsaydı, yaxud tənzimləsəydi, onda biz belə bir vəziyyətlə qarşılaşmazdıq. Fərmanın bir sıra müddəalarının vaxtında həyata keçirilməməsi ümumi işimizə, şübhəsiz ki, çox zərər vurur.

Götürək tikinti sahəsini. Biz burada qəti qərara gəlmişik: o tikintilərin ki, perspektivi yoxdur, onlar dayandırılsın. Tikilməli olan və bütün vəsaitimizi oraya səfərbər etməli, cəmləməli olduğumuz obyektləri də müəyyən etmişdik. İndi bu siyahı nə üçün genişləndirilməlidir? Axı bu siyahının genişləndirilməsi üçün bizim sadəcə olaraq maliyyə vəsaitimiz, imkanımız yoxdur. İmkanımız varsa, şübhəsiz ki, gəlin genişləndirək. Tikinti aparmaq respublikamızın inkişafı üçün həmişə lazımlı işdir. Ancaq indi biz elə bir vəziyyətdə yaşayırıq ki, gərək ayağımızı yorğanımıza görə uzadaq. Qədimdən qalan bu xalq məsəli bugünkü vəziyyətimiz üçün çox əhəmiyyətlidir.

Biz o vaxt bu məsələni ölçüb-biçdik: yaşayış binalarının tikintisi davam etdirilməlidir, çox vacib sosial obyektlər – vəsait qoyaraq tikib qurta[162-163]racağımız, bundan əhalinin sosial vəziyyətinin yaxşılaşması üçün səmərə götürəcəyimiz obyektlər tikilməlidir. Ancaq indi zavod, fabrik, yaxud digər istehsal müəssisələri tikmək lazımdırmı? Bizim mövcud fabriklərimizin, zavodlarımızın bir çoxu hazırda istehsal gücünün 20 faizi, bəziləri 30, digərləri 10 faizi həcmində işləyir, bunların hamısı boş qalıb. Belə olan halda yeni tikintilərin əhəmiyyəti varmı? Şübhəsiz ki, yoxdur. Biz bu məsələləri fərman qəbul olunanadək müzakirə etmişdik. Bunlar fərmanda qəti əksini tapıb. Bundan sonra yeni bir prosesə başlamaq sadəcə olaraq işi pozmaqdır və lazım deyildir.

Çıxış edənlərdən biri tamamilə doğru olaraq dövlət strukturlarının təkmilləşdirilməsi və ixtisar olunması məsələsinə toxundu. Burada deyildi ki, bu sahəyə ümumiyyətlə, 15 milyard manat vəsait sərf olunur. Bu, təkcə o demək deyil ki, biz onları ixtisar edəndə orada 3-4 milyard manat xərc azaldılacaq, həmin vəsait büdcəmizdə qalacaq. Şişmiş dövlət strukturları ümumi işimizə xeyir vermək əvəzinə, zərər gətirir, başdan-ayağa süründürməçilik yaradır. İndicə burada dedilər ki, hazırda ştatlar on il bundan əvvəlkinə nisbətən bir neçə dəfə artıb. Axı bu, nəyə lazımdır, nədən ötrü lazımdır?

İndi biz bazar iqtisadiyyatına keçirik. İqtisadiyyatın çox sahələri sərbəstləşdirilibdir. Zavodlara, fabriklərə çox böyük səlahiyyətlər, sərbəstlik verilib. Belə olan halda bu idarəetmə orqanları daha da məhdudlaşdırılmalıdır. Çünki əvvəlki vaxt deyil ki, hər mismar, düymə və sair alınması Moskvadan, mərkəzdən planlaşdırılsın: nə qədər olmalıdır, qiyməti nə qədərdir – bunlar hamısı Sovetlər İttifaqının Plan Komitəsində müəyyənləşdirilirdi, yuxarıdan aşağıyadək orqanlar lazım idi ki, bunu hesablasın. İndi həmin dövr deyil. Hazırda, son illər ərzində bizim iqtisadiyyatımızda sərbəstləşmə başlayıb və bu proses indi də gedir.

Belə olan halda idarəetmə orqanları şişməməli, əksinə, ixtisar olunmalıdır; genişləndirilməməli, əksinə, daha da sıxlaşdırılmalıdır. Fərmanın bu və digər icra olunmamış müddəaları, şübhəsiz ki, çox əhəmiyyətlidir. O

cümlədən, götürək, qiymətli kağızların buraxılması məsələsini. Bu qiymətli kağızlar respublika daxilində maliyyə vəziyyətinin yaxşılaşdırılmasına müəyyən qədər kömək edərdi. Amma bu elə bir şey deyildir ki, onu iki ay yarım ləngidəsən. Bu məsələni həll etmək, qiymətli kağızları buraxmaq olardı.

Mən tələb edirəm ki, Nazirlər Kabineti, nazirlər – xüsusən iqtisadiyyat, maliyyə nazirləri və bu sahə ilə məşğul olan digər nazirlər, banklar, xüsusən Milli Bank fərmanın müddəalarının yerinə yetirilməsi üçün təcili, konkret tədbirlər görsünlər, yerinə yetirilməmiş tədbirləri qısa müddətdə həyata keçirək və onların nəticəsini əldə edək.

Şübhəsiz, vaxt keçdiyinə görə bəzi maddələrin yerinə yetirilməsində müəyyən əlavələr, yeniliklər də ola bilər. Çünki bu fərman iki ay yarım bundan əvvəl qəbul edilib. Ancaq bunların hamısı barədə məsləhətləşmək və birgə hərəkət etmək lazımdır. [163-164]

Burada neft sənayesi haqqında danışıq getdi, Dövlət Neft Şirkətinin vitse-prezidenti çıxış etdi. Avqustun 26-da mən neftçilərlə görüşmüşəm, onların vəziyyəti ilə ciddi məşğul olduğumuz haqqında bəyanatlar vermişəm. Bildirmişəm ki, bu məsələlərlə bundan sonra da məşğul olacağıq. Bu sahə ilə biz ciddi məşğul olmalıyıq. Bunun üçün Neft Şirkətinin bütün təkliflərinə iqtisadiyyat, maliyyə nazirliklərində ciddi baxmaq lazımdır. Nazirlər Kabineti də bu məsələyə baxmalıdır. Hesab edirəm ki, bu məsələni gecikdirmək olmaz. Xahiş edirəm, yaxın üç-dörd gündə baxıb təkliflər hazırlayasınız. Mənim yanımda yığışıb Dövlət Neft Şirkətinin vəziyyəti və ümumiyyətlə, istehsal, qiymət məsələləri, neftçilərin maddi vəziyyəti və digər məsələləri bir yerdə hazırlayıb baxaq. Bir qərar qəbul edək ki, bununla da bütün məsələlər həll edilsin. Ola bilsin, bunun üçün fərman vermək lazım gələcək və biz elə etməliyik ki, o fərmanda da bütün məsələlər öz əksini tapsın.

Mən indi demək istəmirəm ki, enerji daşıyıcılarının qiymətini nə qədər, neçə dəfə qaldırmaq lazımdır. Bunu gərək oturaq, məsləhətləşək. Söz yox ki, bu qiymətlər qaldırılmalıdır. Amma bunu uzatmaq da olmaz. Yenə də deyirəm, əgər fərmandan bir ay sonra bu qiymətlər bir dəfə qaldırılsaydı, ondan bir ay sonra bir dəfə də qaldırılsaydı, bu məsələnin həlli bir qədər asan olardı. Amma indi vaxt keçib. Vaxt keçdiyinə görə gərək bu məsələyə çox ciddi baxaq. Xahiş edirəm bu məsələ gecikməsin. Üç-dörd gün içərisində kompleks şəkildə həm istehsalın artırılması, həm istehsal sahəsində birinci dərəcəli hansı işlərin görülməsi, həm neftçilərin maddi vəziyyəti, həm də şübhəsiz ki, onların qarşısında qoyulan vəzifələrin – neft, qazçıxarılması haqqında vəzifələrin yerinə yetirilməsi üçün nə etmək lazımdır – bunların hamısını biz ödəməliyik və tələb etməliyik ki, ilin qalan hissəsində onlar daha gərgin, daha səmərəli işləsinlər.

Bildiyiniz kimi, biz avqustun 11-də və 18-də keçirilən müşavirələrdə bütünlükdə iqtisadiyyat barəsində geniş danışmışıq. Lakin bu gün də iqtisadiyyat məsələləri müzakirə olunduğu üçün bir daha qeyd etmək istəyirəm ki, mövcud istehsal fondlarımızdan, istehsal potensialımızdan gərək daha səmərəli istifadə edək. Bunu müvafiq nazirliklərin, dövlət komitələrinin, şirkətlərin, birliklərin, firmaların, müəssisələrin rəhbərlərindən tələb edirik. Hamıya tam aydındır və mənim də qəti fikrim belədir ki, həm sənayedə, həm də kənd təsərrüfatında istifadə edilməyən imkanlar var. Heç kim oturub gözləməməlidir ki, ona yuxarıdan nə verəcəklər. İndi çeviklik, təşəbbüskarlıq, işgüzarlıq bu sahələrdə çalışan rəhbər işçilərin əsas keyfiyyətləri olmalıdır. Bunsuz işimiz irəli getməyəcək. İşgüzar, təşəbbüskar müəssisə rəhbərləri öz aralarında, başqa ölkələrlə, o cümlədən Müstəqil Dövlətlər Birliyinə daxil olan ölkələrlə əlaqələr yaradır, müxtəlif yollar axtarırlar. Nəticədə həmin müəssisələrin fəaliyyəti dayanmır, adamlar işləyir, əmək haqqı alırlar. Bu barədə söhbətlərimiz olub və bu gün mən həmin tələbi bir də irəli sürürəm. Hesab edirəm ki, nazirliklər, dövlət komitələri, şirkətlər, müəssisələr bu işlə ciddi məşğul olacaqlar.

Burada iqtisadi islahatlar haqqında da söhbət getdi. İslahatlar aparıl[164-165]malıdır, biz bu məsələdə gecikmişik. Lakin hər bir islahat keçirmək üçün konkret proqramımız olmalıdır. Belə proqramları Nazirlər Kabineti, İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi, ayrı-ayrı mütəxəssislər verməlidirlər. Məsələn, çıxış edənlər dedi, biz də çoxdan bu fikirdəyik ki, ticarət və xidmət sahəsində kiçik obyektləri özəlləşdirmək lazımdır. Bunun zəruriliyini sübut etməyə ehtiyac yoxdur. Yaxud, yarımçıq qalmış tikintiləri götürək. Onları dərhal özəlləşdirməliyik. Çünki biz onları yaxın üç-beş ildə, bəzilərini isə bəlkə on ildən sonra da tikib başa çatdıra bilməyəcəyik. Lakin özəl bölmə, ola bilsin, xarici investisiyalar da cəlb edərək həmin obyektləri tikib istifadəyə verəcək və nəticədə yeni istehsal sahələri işə düşəcəkdir.

Bununla yanaşı, geniş miqyasda iqtisadi islahat aparılmalıdır. Vahid Axundov burada dedi ki, Beynəlxalq Valyuta Fondunun nümayəndələri Azərbaycana gəlmişlər. Bir müddət əvvəl də həmin fondun nümayəndəsi Bakıda olmuş, müxtəlif səviyyələrdə görüşlər keçirmiş və mən də onu qəbul etmişdim. Bizim ətraflı söhbətimiz olmuş və o, Beynəlxalq Valyuta Fondunun respublikamıza hansı şərtlərlə yardım edəcəyini açıq-aydın bildirmişdir. Əsas şərtlərdən biri də iqtisadi islahatın həyata keçirilməsi idi. Bunsuz Beynəlxalq Valyuta Fondu Azərbaycana yardım etməyəcək və özünün digər beynəlxalq maliyyə mənbələrindən vəsaitin səfərbər olunub Azərbaycana yönəldilməsinə səy göstərməyəcəkdir. İqtisadi islahat sahəsində biz Müstəqil Dövlətlər Birliyinə daxil olan ölkələrin hamısından geri qalırıq. Lakin bunu sürətləndirmək, üçün imkanlarımız var və onlardan istifadə etməliyik. İqtisadi islahat ölkəmizdə mülkiyyətin formalarını dünya praktikasına uyğun olaraq inkişaf etdirmək üçün lazımdır.

Mənə elə gəlir ki, fərmanda kredit haqqında verilən göstərişlər tamamilə doğrudur. Bununla yanaşı, kreditlərin verilməsi tam qadağan edilməmişdir. Söhbət onların necə və nə üçün verilməsindən gedir. Məsələn, burada dedilər ki, 200 milyard manat məbləğində kredit verilmiş, lakin heç bir nəticəsi olmamışdır.

Kənd təsərrüfatı naziri pambığın yığılması ilə əlaqədar təklif verdi. Hesab edirəm ki, bu məsələ təcili həll olunmalıdır. Bu məsələni üç-dörd gün müddətində Prezident Aparatında, Nazirlər Kabinetində nəzərdən keçirib kənd təsərrüfatı məhsullarının, ilk növbədə pambığın, habelə üzümün, tütünün yığılması, taxılçılıqda əlavə işlər görülməsi üçün nə lazımdırsa, edilməlidir. Əgər bundan ötrü 10 milyard manat kredit verəcəyiksə və bunun nəticəsi olacaqsa, biz buna getməliyik. Ancaq mən istərdim ki, bu məsələni kompleks şəkildə həll edək.

Burada Fatma Abdullazadə qeyd etdi və əvvəllər mən də demişdim ki, pambıq yığımı ilə əlaqədar bizim nə qədər imkanlarımız var. Vaxtilə pambıq yığmaq üçün Bakıdan tələbələri göndərirdik, kəndlərdə məktəbləri bağlayırdılar. İndi nə qədər qaçqın var, onların hamısı əməksevər adamlardır. Bu adamlar işləmək istəyirlər. Əgər pambıq yığaraq həftədə bir dəfə əmək haqqını alacaqlarsa, bu onlardan ötrü böyük maddi köməkdir. Bir də təkrar edirəm, biz bu məsələyə təcili baxmalıyıq, əgər la[165-166]zım gələrsə, bu barədə xüsusi fərman və ya sərəncam hazırlayıb təqdim edin.

Burada Müslüm İmanov elektrik enerjisi ilə bağlı məsələlər haqqında çıxış etdi. Zənnimcə, bu məsələ də xüsusi olaraq nəzərdən keçirilməlidir və tapşırıram ki, Nazirlər Kabineti bununla məşğul olsun. Həm qışa hazırlıqla bağlı məsələlər, həm də ümumiyyətlə, enerjidən istifadə və onun qiymətlərinin tənzimlənməsi məsələləri müzakirə edilməlidir. Həqiqətən də, elektrik enerjisindən istifadə qiymətlərini dünya səviyyəsinə çatdırmalıyıq. Digər tərəfdən, enerji itkisinin qarşısını almalıyıq. Biz bu enerjini çətinliklə istehsal edirik. Zaqafqaziya regionunu götürsək, indi Gürcüstanda əhali, demək olar, elektrik enerjisi olmadan yaşayır. Ermənistan da bu sahədə dərin böhran keçirir. Bizdə isə belə vəziyyət yoxdur. Son illər bu cür böhranı yalnız Naxçıvan Muxtar Respublikası hiss etmişdir. Mən dəfələrlə demişəm və yenə təkrar edirəm ki, xüsusilə enerji, yanacaq böhranı son illər orada camaatın yaşayışında böyük çətinliklər yaratmışdır.

Biz qənaət məsələsinə ciddi yanaşmırıq. Ümumiyyətlə bu, təkcə indi belə deyil. Xatirimdədir, mən Moskvada Nazirlər Soveti sədrinin birinci müavini işləyərkən bir neçə sahəyə rəhbərlik edirdim. O zaman çoxlu daş kömür, ildə 620 milyon ton neft çıxarılırdı. Hətta enerji mənbələrinin belə bolluğu dövründə də biz elektrik enerjisinə qənaətlə bağlı ciddi tədbirlər görürdük. Çünki Qərb ölkələrindən fərqli olaraq, o zaman Sovet İttifaqında elektrik enerjisinin qiyməti qəpik-quruş idi və bu səbəbdən hətta mənzillərdə də qənaət barədə düşünmürdülər. Hələ on il əvvəl həm Qərbi, həm də Şərqi Almaniyada hər axşam televiziya verilişləri zamanı xəbərdarlıq edirdilər ki, lazımsız elektrik cihazlarını, lampalarını söndürün.

Doğrudur, bizim yaxşı elektrik stansiyalarımız, yanacağımız var! Lakin biz müharibə şəraitindəyik. İkinci tərəfdən, burada deyildiyi kimi, indi elektrik stansiyalarını işlətmək üçün bizim də yanacağımız çatmır. Qış üçün hələ yanacaq balansı da müəyyən olunmamışdır. Belə bir vəziyyətdə gərək hər yerdə elektrik enerjisinə qənaət edilsin. Bu, hər bir vətəndaşa, hər bir müəssisəyə aiddir. Şəhərlərdə gecələr həddən artıq işıq yandırılır. Əlbəttə, mən istəmirəm ki, Bakı və başqa şəhərlərimiz 1941-45-ci illər müharibəsi dövründəki vəziyyətə düşsün. O zaman Bakıda gecələr adda-budda göy lampalar yanardı. İndi şəhərlərimiz belə vəziyyətə düşməməlidir. Lakin biz müharibə şəraitində, böhran içindəyik. Enerji daşıyıcıları bizim üçün çox qiymətlidir. Onlardan son dərəcə qənaətlə istifadə etməliyik. Bakıda, Sumqayıtda, Gəncədə, başqa şəhərlərdə və rayonlarda icra hakimiyyəti orqanları buna ciddi fikir verməlidirlər. Xaricdən gələn qonaqlar gecələr Bakının çıraqban olduğunu deyəndə mən də məmnun oluram və sevinirəm ki, müharibə vəziyyətinə baxmayaraq, əhalinin yaşayışı bəzilərinin fikirləşdiyi kimi o qədər də ağır deyil. Lakin ciddi qənaət etsək, daha çox xeyir götürərik.

Enerjiyə qənaət məsələsi ilə məşğul olmağı yerli icra hakimiyyəti orqanlarına, nazirliklərin, şirkətlərin rəhbərlərinə bir vəzifə kimi tapşırı[166-167]ram. Ancaq yəqin ki, başqa nəzarət orqanları da bununla məşğul olmalıdır. İndi, ümumiyyətlə, bütün sahələrdə qənaətlə yaşamaq lazımdır. Çünki təkrar edirəm, həm böhran içindəyik, həm də müharibə şəraitindəyik. Belə bir şəraitdə firavan yaşamağa imkanımız yoxdur. İmkanı olan da buna çalışmamalıdır. Əlbəttə, demək istəmirəm ki, hamını bir qəlibə salaq. Lakin bu ağır vəziyyəti hamımız birlikdə yaşamalıyıq. Var-dövləti çox olan da qənaət edərək qoy gələcək üçün saxlasın. İmkanı olmayan da qənaət etsə, yaşaya biləcəkdir.

1941-45-ci illər müharibəsi zamanı fəhlələrə adambaşına gündə 600 qram, qulluqçulara 500 qram qara çörək verirdilər. Uşaqların, işləməyən qadınların və başqalarının isə çörək norması 400 qram idi. Adamlar dörd il bu vəziyyətə dözərək yaşadılar. Doğrudur, döyüşlərin getmədiyi Azərbaycan, ola bilsin, başqa regionlara nisbətən yaxşı vəziyyətdə idi.

İndi bizim vəziyyətimiz elə deyil ki, 500-600 qram çörək norması qoyaq. Lakin bilməliyik ki, böhran içindəyik və müharibə şəraitində yaşayırıq, Vətənimizi qorumalıyıq, bir milyondan artıq qaçqını saxlamalıyıq. Bunu hamımız bilməliyik. Vahid Axundov nəyi isə əsas tutaraq hesabladığı 37 min manatlıq "istehlak səbəti"ndən söz saldı. O, buraya 500 adda şey daxil etmişdir. Bu ki, lap padşah yaşayışı olur! Yaxud hər adama gündə bir kiloqram ağartı məhsulları nəzərdə tutur. Lap yaxşı vaxtlarda belə, burada oturanların hansı biri gündə bu qədər ağartı yeyib? Onun təklif etdiyi "istehlak səbəti"ndə hisə verilmiş kolbasa da nəzərdə tutulmuşdur. Durğunluq dövrü adlandırılan keçmiş illərdə mağazalarda belə kolbasa yox idi. İndi isə bu ağır dövrümüzdə

belə kolbasa yemək istəyirsən. Axı, bu sənin heç boğazından da keçməz. Əgər sən onu yesən, sonra gəlib boğazından yapışacaqlar ki, camaatın çörək almağa pulu yoxdur, sən isə bu cür kolbasa yeyirsən. Yaxud sən deyirsən ki, hər adam ildə bir dənə yorğan almalıdır. Mənim özüm 30 il bundan əvvəlki yorğanla yatıram. Axı kim ildə bir yorğan alır? Eləcə də balış. Onun da yalnız üzünü dəyişdirirlər. Hətta müstəqil respublikamız gələcəkdə zəngin yaşayanda da belə şeylərin mümkünlüyünə şəxsən mən inanmıram. Əgər hansısa milyonçular bunu edəcəklərsə, deyə bilmərəm.

Şübhəsiz ki, biz əhalini təmin etməliyik, ancaq bu, imkan daxilində olmalıdır. Burada minimum əmək haqqı ilə bağlı müxtəlif fikirlər səsləndi. Bu, enerji daşıyıcılarının qiymətləri ilə və bəzi başqa şeylərlə əlaqədardır. Fikirlər bir-birindən çox fərqləndiyinə görə bu məsələni bir də ölçüb-biçmək lazımdır. Xatirimdədir, bu fərman qəbul edilənədək iki ay müzakirə getdi. O zaman minimum əmək haqqının 2.000 manata qaldırılması xeyli mübahisəyə səbəb oldu və nəhayət, biz onu təsdiq etdik. Ona görə də mən Nazirlər Kabinetinə, iqtisadiyyat, maliyyə nazirlərinə, Milli Banka tapşırıram ki, həmin məsələni ətraflı götür-qoy etsinlər.

İcrasını bu gün yoxladığım fərmanın adından da göründüyü kimi, bizim əsas vəzifəmiz əhalinin sosial müdafiəsini gücləndirməkdir. Bundan ötrü isə maliyyə vəziyyətimizi yaxşılaşdırmalıyıq, iqtisadiyyatımızı yüksəltməli, gəlirimizi bilməliyik. Gəlir mənbələrini müəyyənləşdirdikdən [167-168] sonra, şübhəsiz ki, minimum əmək haqqını istənilən səviyyəyə qaldırmaq olar. Hesab edirəm ki, bir neçə gün ərzində bu məsələləri ölçüb-biçmək lazımdır. Sonra isə mənim yanımda xüsusi müşavirə keçirərik. Lakin vəsaitin hansı mənbələrdən götürüləcəyi barədə bəri başdan hər kəs təkliflərini hazırlasın. Azərbaycanın prezidenti, bütün sahələrdə, o cümlədən əhalinin sosial vəziyyəti sahəsində bilavasitə məsuliyyət daşıyan adam kimi, mən respublika əhalisinin vəziyyətinin daim yaxşılaşması üçün indiyədək çalışmışam və bundan sonra da çalışacağam. Bunu əsas vəzifələrimdən biri sayıram. Kim bu barədə yararlı, maliyyə baxımından əsaslandırılmış təkliflər verəcəksə, ümumi işimiz nəticəsində yeni mərhələyə çıxa biləcəyiksə, şübhəsiz ki, bu, bizim üçün böyük nailiyyət olacaq və mən prezident kimi bunu arzulayıram, səylərimi də əsirgəməyəcəyəm.

Bir daha təkrar edirəm ki, yaxın bir neçə gündə bu məsələ ilə məşğul olmaq lazımdır. Sonra mən bu işlə bilavasitə məşğul olan nazirləri dəvət edərək xüsusi müzakirə keçirəcək, mümkün olan hansı səviyyə barədə ümumi rəyə gələ bilsək, bu barədə də qərar qəbul edəcəyəm.

Müzakirəni yekunlaşdıraraq bir daha tələb edirəm ki, hər kəs burada deyilənlərdən lazımi, ciddi nəticə çıxarsın və fərmanda göstərilən vəzifələrin yerinə yetirilməsi üçün tədbirlər görsün. Vahid Axundova da tapşırıram ki, fərmanın yerinə yetirilməsinin gedişi barədə hər on gündən bir mənə yazılı məlumat versin. Həmin məlumatlarda görülən işlərlə yanaşı, yerinə yetirilməyən məsələlər, bunların səbəbi və kim tərəfindən yerinə yetirilmədiyi göstərilməlidir.

Güman edirəm ki, bugünkü müzakirə lazım idi və hər kəs bundan irəli gələn vəzifələri yerinə yetirmək üçün vacib olan işləri görməlidir.

Sağ olun. [168-169]

## BAKI ŞƏHƏRİNİN TƏHSİL İŞÇİLƏRİ İLƏ GÖRÜŞDƏ GİRİŞ SÖZÜ

*31 avqust 1994-cü il*

Hörmətli müəllimlər, maarif işçiləri, görüş iştirakçıları!

Sentyabr ayının 1-də yeni dərs ili başlanır. Bu, respublikamızın həyatında mühüm, əlamətdar bir hadisədir. Dərs ilinin başlanması hər il böyük bayrama çevrilir. Çünki yay tətilindən sonra məktəblərimiz, müəllimlərimiz fəaliyyətə başlayır, uşaqlarımız, gənclərimiz tədris ocaqlarına gəlir, təhsillərini davam etdirirlər.

Hər il sentyabr ayında uşaqlar, yeniyetmələr, təhsil yaşı çatmış uşaqlar məktəblərə gəlir, təhsil almağa başlayırlar. Bu hadisə respublikamızın bütün vətəndaşları üçün mühümdür, əhəmiyyətlidir. Çünki demək olar ki, hər bir ailədən kimsə məktəbdə oxuyur. Ona görə də həmişə olduğu kimi, keçmiş ənənələrimizə sadiq qalaraq bu il də tədris ilinin başlanması münasibətilə lazımi tədbirlər görülüb.

Yeni dərs ilinin başlanması ilə əlaqədar mən çoxminli müəllimlər ordusunun nümayəndələri ilə görüşməyi zəruri hesab etmişəm. Hamınızı, sizin simanızda müstəqil Azərbaycan Respublikasının müəllimlərini, maarif, təhsil işçilərini səmimi qəlbdən təbrik edirəm, sizə bu şərəfli işinizdə uğurlar arzulayıram.

### YEKUN SÖZÜ

Hörmətli müəllimlər, görüş iştirakçıları!

Təhsil nazirinin çıxışında və başqa natiqlərin çıxışlarında orta məktəbin, tədrisin, təhsilin problemləri haqqında danışıldı, vəziyyət müəyyən qədər təhlil olundu, bir çox təkliflər irəli sürüldü. Əgər çıxışların hamısını ümumiləşdirsək, bir fikir aydın olur: respublikamızın təhsil sahəsi həyatımızın ən gərəkli, ən mühüm sahəsidir. Bu sahədə cəmiyyətimizin çoxminli müəllimlər ordusu çalışır. Bu sahə respublikamızın bu günü və xüsusən gələcəyi üçün çox böyük işlər görür.

Burada irəli sürülən təkliflər, mülahizələr hamısı, şübhəsiz ki, ümumiləşdirilməli və onların haqqında lazımi tədbirlər görülməlidir. Ona görə də bugünkü görüşün yekunu kimi, vəzifəli şəxslərə, xüsusən baş nazirin müavini Elçin Əfəndiyevə, təhsil naziri Lidiya Rəsulovaya, Prezident aparatından dövlət müşaviri Qabil Hüseynliyə və humanitar siyasət şöbəsinin müdiri Fatma Abdullazadəyə tapşırıram ki, burada irəli sürülmüş təkliflərin hamısını başqa nazirliklərlə, idarələrlə birlikdə öyrənsinlər, ümu[169-170]miləşdirsinlər və orta məktəblərin, təhsilin vəziyyətini yaxşılaşdırmaq üçün qısa bir müddətdə, bir neçə gün içərisində əməli tədbirlər təqdim etsinlər.

Aydındır ki, indi bizim imkanlarımız məhduddur. Ona görə də təklif olunan bütün məsələləri həll etmək və yaxud təcili həll etmək mümkün deyildir. Ancaq eyni zamanda düşünürəm ki, bu məsələlərin çoxunu həll etməyə imkanlarımız vardır. Həm dövlətin, ayrı-ayrı nazirliklərin, müəssisələrin, idarələrin, təşkilatların, həm də yeni yaranan özəl bölmənin imkanları var. Bunların hamısını cəmləyərək həmin problemlərin çoxunu həll edə bilərik. Hesab edirəm ki, əgər bunların hamısı yaxşı işlənilsə, lazımi tədbirlər təqdim olunsa, mən bu barədə xüsusi fərman da verə bilərəm və müəyyən bir dövr üçün iş proqramı kimi təsdiq edə bilərəm. Ona görə də mən konkret tədbirlər planı gözləyəcəyəm və güman edirəm ki, bunu etmək mümkün olacaqdır.

Azərbaycanın təhsili, məktəbləri sona çatan XX əsr dövründə çox böyük nailiyyətlər əldə edib. Əsrin əvvəllərində Azərbaycanın mütəfəkkir şəxsləri, maarifçiləri, ziyalıları, müəllimləri xalqımızı savadsızlıqdan, ətalətdən çıxarmaq, maarifləndirmək, təhsili inkişaf etdirmək üçün çox işlər görmüşlər. Əgər Azərbaycan Respublikasının təhsil tarixi yazılsa, – bu tarix yazılmalıdır, – şübhəsiz ki, hər mərhələdə görülən işlər orada əksini tapacaq və öz qiymətini alacaqdır. Bu gün isə onu deyə bilərəm ki, əsrimiz sona çatır. Əsrin əvvəlindən indiyə qədər Azərbaycanın ərazisində, xalqımızın həyatında, təhsil, elm, mədəniyyət, şüurun inkişafı sahəsində çox böyük işlər görülüb, böyük nailiyyətlər əldə olunub. Azərbaycan xalqı savadsızlıqdan ümumi savadlılığa keçib. O qaranlıq keçmişdən sonra indi respublikamızda xalqın bütün təbəqələrini əhatə edən yüksək mədəniyyət, təhsil, elm mövcuddur. Bunlar əsrimizin əvvəlindən indiyə qədər yaşamış, yaratmış bütün nəsillərin fədakar əməyinin, xalqa sədaqətlə xidmətinin nəticəsidir. Eyni zamanda bunlar Azərbaycanın bütün nəsillərdən olan müəllimlərinin xalqımızı təhsilləndirmək, maarifləndirmək, savadlandırmaq yolunda xidmətlərinin nəticəsidir.

Elm, təhsil, mədəniyyət sahəsində əldə etdiyimiz nailiyyətlər, Azərbaycan xalqının bugünkü yüksək təhsil, elm, mədəniyyət səviyyəsi, şüur səviyyəsi – bunların hamısı ilk növbədə müəllimlərin, məktəbin səyi ilə olub, onların xidmətlərinin nəticəsidir. Biz bu gün nə qədər çətin bir dövrdə yaşasaq da, həyatımızda nə qədər ağır proseslər getsə də, bu nailiyyətləri heç vaxt unuda bilmərik. Əksinə, biz bunları daim yada salmalıyıq. Çünki bunlar bizim milli sərvətimizdir. Ona görə də mən xalqımızı bu yüksək elm, təhsil, mədəniyyət səviyyəsinə gətirib çıxarmış Azərbaycan məktəbinə, müəllimlərə, Azərbaycan müəllimlərinin bütün nəsillərinə

dərin minnətdarlığımı bildirirəm və xalqın iradəsini ifadə edərək deyirəm ki, biz Azərbaycan məktəbi ilə, təhsili ilə, müəllimləri ilə fəxr edirik.

Məktəb, müəllimlər həmişə xalq, insanlar arasında, ictimaiyyətdə hörmət, ehtiram qazanmışlar və buna layiq olmuşlar. Müəllim adı yüksək [170-171] addır. Azərbaycanda müəllimə daim böyük hörmət olmuşdur. Müəllim cəmiyyətdə tanınan, seçilən, hörmət edilən şəxs olmuşdur. Heç də təsadüfi deyildir ki, dilimizdə insanların bir-birinə müraciət formasında "müəllim" sözü şəxslərin müəllim olub-olmamasından asılı olmayaraq istifadə edilib. Bizdə bu ənənə çoxdan yaranıb və hamı bir-birinə müraciət edərkən qarşısındakı şəxsə hörmət və ehtiram əlaməti olaraq ona "müəllim" deyir. Çoxları heç müəllim deyil, amma biz bir-birimizə müraciət edərkən "ağa", "cənab", "bəy" deyil, "müəllim" deyirik. Bu, təsadüfi deyil. Bəlkə də başqa xalqlarda belə müraciət forması yoxdur. Bu ondan irəli gəlir ki, xalqımız savadsızlıqdan, gerilikdən, ətalətdən bugünkü günə qısa tarixi bir müddətdə gəlib çatmaqda müəllimlərin rolunu qiymətləndirir və qarşısındakı adama hörmət əlaməti olaraq "müəllim" deyir. Ona görə də müəllimin cəmiyyətdə xüsusi yeri olduğu artıq heç kəsdə şübhə oyatmır. Müəllimə hörmət, ehtiram həmişə olub, bu gün də olmalıdır, gələcəkdə də olmalıdır.

Onu da bilmək lazımdır ki, bizim hər birimiz elmi dərəcəmizdən, biliyimizdən, təhsil səviyyəmizdən, tutduğumuz vəzifədən asılı olmayaraq bütün nailiyyətlərimizə görə birinci növbədə məktəbə, müəllimə borcluyuq. Hər birimizin müəllimi olmuşdur. Bu gün yaşayan adamlar – yaşlı nəsil, orta nəsil, gənc nəsil – heç kəs müəllimsiz bu səviyyəyə gəlib çatmayıb. Ona görə də hər bir vicdanlı adam, Vətəninə, xalqına bağlı olan hər bir adam, qədirbilən adam müəllimini həmişə qəlbində saxlayır, onu daim hörmətlə yad edir.

Müəllim adı şərəfli addır, müəllim adı yüksək addır. İndi biz nə qədər çətin bir dövrdə yaşasaq da, müəllim adını daha yüksəklərə qaldırmalıyıq. Mən bu gün bu salonda toplaşan müəllimlərə, maarif işçilərinə müraciət edərək sizin simanızda Azərbaycanın bütün müəllimlərinə indiki ağır şəraitdə fədakar əməklərinə görə minnətdarlığımı bildirirəm və bütün müəllimlərə xalqımız üçün, gələcəyimiz üçün mühüm və əhəmiyyətli işlərində uğurlar diləyirəm.

Ötən tarixi dövrdə Azərbaycanın təhsil sistemi müxtəlif mərhələlər keçmişdir. Cürbəcür islahatlar, dəyişikliklər olub. Onların hamısı bu və ya digər səviyyədə Azərbaycanın orta təhsilini, məktəbini inkişaf etdirib. Bunu inkar etmək olmaz. Bu bizim tarixi keçmişimizdir, bu bizim milli sərvətimizdir. İndi Azərbaycan müstəqil dövlətdir. Respublikamız müstəqil dövlət kimi Azərbaycanın öz milli ideologiya konsepsiyasını yaradaraq, inkişaf etdirərək, şübhəsiz ki təhsil sahəsini də milli məqsədlər, mənafelər əsasında qurmalıdır.

Bu sahədə müəyyən işlər görülüb. Təhsil haqqında qanun qəbul edilib. Bu qanunu həyata keçirmək, icra etmək lazımdır. Ancaq qanunla yanaşı, onun əsasında bir çox tədbirlər görülməlidir. Həm də bu tədbirlərin hamısı tədbir xatirinə yox, müəyyən bir dəyişiklik aparmaq xatirinə yox, yalnız və yalnız təhsili düz yolla aparmağa, xalqımızın gənc nəslini təhsilləndirməyə, tərbiyə etməyə, müstəqil dövlətin prinsipləri əsasında inkişaf etdirməyə yönəldilməlidir. [171-172]

Ona görə də təhsil sahəsində çalışan alimlər, mütəxəssislər, müəllimlər, həmin sahədə ixtisaslaşmış elmi institutlar, təşkilatlar hamısı birləşib bu vəzifələri həyata keçirməlidirlər. Güman edirəm ki, bunun üçün imkanlarımız və şəraitimiz var. İndi bizim təhsil sistemimiz müstəqil Azərbaycanın gələcək inkişafını təmin etməlidir. Bu yolda keçiriləcək islahatlar gərək müstəqil Azərbaycanın milli mənafelərinin inkişafına yönəldilsin. Güman edirəm ki, bizim alimlər, müəllimlər, təhsil sahəsində ixtisaslaşmış institutlar bu işlərin öhdəsindən gələcəklər və gələ bilərlər.

Mən bu barədə heç də geniş mülahizələr irəli sürmək istəmirəm. Belə mülahizələr, təkliflər sizin tərəfinizdən, bu sahədə fəaliyyət göstərən təcrübəli şəxslər və təşkilatlar tərəfindən gəlməlidir. Biz isə bunları ümumiləşdirib, baxıb, qanun, qərar, fərman şəklinə salıb onların həyata keçirilməsi üçün imkan yaratmalıyıq. Yəni bütün sahələrdə olduğu kimi, təhsil sahəsində də biz insanların sərbəst fikirləşməsinə, sərbəst təşəbbüs göstərməsinə şərait yaradırıq. Arzumuz da budur ki, bu şəraitdən bizim təcrübəli adamlar, məktəblərimiz, təhsil ocaqları səmərəli istifadə etsinlər və təhsil sisteminin təkmilləşdirilməsi üçün lazımi təkliflər hazırlayıb irəli sürsünlər.

Bütün bunlarla yanaşı, bu gün təhsilin hansı istiqamətlərdə getməsi haqqında bir neçə kəlmə demək istəyirəm. Şübhəsiz ki, bizim gənclər orta məktəbdə yaxşı təhsil, həqiqi mənada yaxşı təhsil almalıdırlar. Bunu bilmək lazımdır ki, gənclər bizim gələcəyimizdir. Biz müstəqil Azərbaycan Respublikasının ilk illərini yaşayırıq. Müstəqil Azərbaycanın gələcəyi gənclərin əlindədir, gənclərə veriləcəkdir. Ona görə də məktəbdə gənclərimizi nə qədər yaxşı, hərtərəfli hazırlasalar, müstəqil Azərbaycanın gələcəyi də o qədər müvəffəqiyyətli, uğurlu, parlaq olacaqdır. Mən əminəm ki, xalqımızın fitri istedadı və XX əsrdə təhsil sahəsində toplanmış təcrübə, yaranmış məktəblərin potensialı, yüksək təhsil vermək səviyyəsi Azərbaycanın indi orta məktəbdə təhsil alan gənc nəslinin gələcəyə hərtərəfli hazırlanmasına təminat verir.

Ona görə də müəllimlərdən tələb olunur ki, bütün bu imkanlardan istifadə edib orta təhsili yüksək səviyyəyə qaldırsınlar, gənclərimizin yaxşı təhsil almasını təmin etsinlər. Çünki məktəb, müəllimlər Azərbaycanın gələcəyi üçün böyük məsuliyyət daşıyır. Mən əminəm ki, bizim çoxminli müəllimlər ordumuz, məktəblərimiz öz vəzifələrini məhz bu cür qəbul edirlər, öz vəzifələri haqqında bu cür düşünürlər və bu cür də fəaliyyət göstərəcəklər.

Dediyim kimi, bizim milli ideologiyamızın konsepsiyası olmalıdır. Şübhəsiz ki, bu konsepsiya tarixi keçmişimiz, milli, mədəni, dini ənənələrimiz üzərində qurulmalıdır. Biz XX əsrdə cürbəcür mərhələlərdən keçdik, ayrı-ayrı ideologiyaların təsiri altında qaldıq. İndi xalqımız hər cəhətdən azaddır. Ona görə də lazımdır ki, ümumiyyətlə, düşünən beyinlərimiz, alimlərimiz və o cümlədən təhsil sahəsində çalışan müəllim ordusu milli ideologiyamızın formalaşması üçün öz fəaliyyətini göstərsin. Bu ideologiyanı qurmaq, yaratmaq, təşkil etmək, eyni zamanda əməli surətdə həyata [172-173] keçirmək lazımdır. Bu baxımdan indi məktəblərdə çox iş görmək lazımdır. Gözləmək lazım deyil.

Lazımdır ki, bizim gənclərimiz, orta məktəblərdə təhsil alan gənclər bütün fənlərdən yaxşı hazırlaşsınlar. Bu günün tələbləri, gələcəyin tələbləri baxımından, dünyanın hər yerində, bütün ölkələrdə inkişaf etmiş iqtisadiyyatı, texnologiyanı, texnikanı mənimsəmək, onları respublikada tətbiq etmək, ölkəmizin iqtisadiyyatını, mədəniyyətini, təhsilini, elmini dünya standartları səviyyəsinə qaldırmaq üçün bizim gənclərimiz gərək yaxşı hazırlaşsınlar. Məktəblər onlar üçün lazım olan fənlərin hamısının tədrisini gərək yaxşı təşkil etsinlər. Beləliklə də bizim gənclərimiz gərək bütün əvvəlki nəsillərə nisbətən daha yüksək təhsil almış gənclər olsunlar.

Bunu etmək mümkündür. Çünki həm öz əlimizdə olan potensialdan, yəni indiyə qədər yaranmış təhsil, bilik, elm potensialından, həm də bütün ölkələrlə hazırkı azad əlaqələrdən istifadə edərək, inkişaf etmiş ölkələrin təcrübəsini təhsil sahəsində tətbiq etmək mümkündür. Ancaq burada şübhəsiz ki, çoxsistemli iş aparılmalıdır. Bəzən belə müşahidə olunur ki, ayrı-ayrı addımlar yalnız reklam xarakteri daşıyır. Müəyyən qədər özünü göstərmək, nəsə yeni bir şey etmək, amma onun məzmununu bilmədən etmək hallarına yol vermək lazım deyil. Biz təhsil sahəsində bütün yeniliklərin tərəfdarıyıq, dünya təcrübəsindən səmərəli istifadə etməyi sizdən tələb edirik. Ancaq bu işlər gərək sistemli olsun. Bu işləri görərkən, qurarkən siz onların yaxın və uzaq zamanda nəticələrini mütləq nəzərə almalısınız.

Bir sözlə, məktəblərdə bütün fənlərin tədrisində müəllimlərimiz fədakarcasına çalışmalıdırlar. Bu fənlərin arasında bir neçə humanitar fənn var və onlara xüsusi fikir verilməlidir. Mən bayaq dedim – müasir texnikanı, texnologiyanı, müasir bazar iqtisadiyyatının bütün yollarını mənimsəmək, respublikada tətbiq etmək üçün gələcək nəsli hazırlamaq və keçmiş dövrə nisbətən bir çox yeni ixtisaslar üzrə kadrlar hazırlamaq lazımdır. Şübhəsiz ki, bunlar ali təhsil səviyyəsində olacaqdır. Ancaq bunların əsası orta təhsil illərində qoyulmalıdır. Yəni gənclərin bu istiqamətdə təhsilinin artırılmasının təməli qoyulmalıdır. Bu, mütləq lazımdır. Bunu iqtisadiyyatımızın bu günü və gələcəyi tələb edir.

Ancaq bütün bunlarla yanaşı, milli ideologiyamızı hər yerdə tətbiq etmək üçün məktəblərdə Azərbaycan xalqının tarixinin tədrisinə çox ciddi fikir vermək lazımdır. Azərbaycanın tarixi keçmişdə də tədris olunub, bu barədə müəyyən kitablar da yazılıb, məktəblərdə tarix dərsi də olub. Ancaq siz bilirsiniz ki, o vaxt tarix dərslərində Azərbaycan tarixinin tədrisinə çox az yer verilirdi. Şübhəsiz ki, tarix deyəndə həm dünyanın tarixi, həm başqa ölkələrin tarixi tədris olunmalıdır. Amma Azərbaycan tarixi [173-174] gərək orta məktəblərimizdə gənclərimizə yaxşı aşılansın. Gənclərimiz öz tarixini, öz tarixi köklərini və öz keçmişini gərək yaxşı bilsinlər. Çünki mənəviyyatımız, gənclərin bugünkü və gələcək mənəviyyatı bununla bağlıdır.

Bizim tarixi, mədəni ənənələrimiz gərək orta məktəblərdə tədris olunsun. Çünki tariximizi, tarixi köklərimizi yaxşı bilmədən, onlara hörmət etmədən müstəqil dövlətimizi gələcəkdə yaxşı qura bilmərik. Ona görə də gənclər gərək öz köklərini, respublikamızın, xalqımızın tarixini bilərək bu gün də, gələcəkdə də vətənpərvərlik, Vətənə xidmət, Vətənə qayğı hissi ilə yaşasınlar.

Tarixi keçmişimizin çoxu ədəbiyyatda əks olunub. Azərbaycan xalqının zəngin ədəbi irsi var. Ona görə də ədəbi irsimizin bütün gənclərə – bu gənclər hansı istiqamətdə işləyəcək, çalışacaqlarsa, ondan asılı olmayaraq – çatdırılması, bildirilməsi, tədris olunması çox mühüm bir işdir. Buna ciddi fikir vermək lazımdır.

Bunlarla yanaşı, məktəblərdə Azərbaycan dilinin tədrisinə mühüm diqqət yetirilməlidir. Bildiyiniz kimi, 10-20 il bundan qabaq biz çalışırdıq ki, Azərbaycan dili bütün məktəblərimizdə tədris olunsun və gənc nəsil məktəblərdə ilk təhsil addımlarını atarkən öz dilini – ədəbi dilini, milli dilini yaxşı bilsin. Bu barədə çox işlər görülüb. Mən bu gün fürsətdən istifadə edib demək istəyirəm ki, Azərbaycanın dilçiləri, dilçilik sahəsində fəaliyyət göstərən alimləri çox böyük işlər görüblər. Azərbaycan dilinin bu gün bu qədər zəngin, səlis və cazibədar olması bizim mədəniyyət, elm xadimlərimizin, ədəbiyyatşünaslarımızın, şairlərimizin, yazıçılarımızın və xüsusən dilçiliklə məşğul olan alimlərimizin, mütəxəssislərimizin xidmətinin nəticəsidir. Fəxr edə bilərik ki, bizim zəngin, böyük söz ehtiyatına malik olan Azərbaycan dilimiz var.

Azərbaycan dili söz ehtiyatına görə, fikri ifadə etmək imkanlarına görə çox zəngindir. Ancaq lazımdır ki, Azərbaycan dilinin bu zənginliyi, bu böyük imkanları orta məktəbdə ilk təhsilə başlayan hər bir gənc tərəfindən mənimsənilə bilsin və gənclərimiz artıq orta məktəbdə öz dilini – ədəbi dilini, mədəni dilini yaxşı mənimsəsin, öz dilində yaxşı danışa bilsin, öz dilində fikrini ifadə edə bilsin.

Mən nə üçün bu məsələnin üzərində dururam? Çünki əldə etdiyimiz nailiyyətlərlə yanaşı, təəssüf ki, bu sahədə qüsurlarımız, nöqsanlarımız da çoxdur. Hələ çox adamlar var ki, öz ana dilində mədəni, ədəbi dilin ifadələrindən istifadə edərək yaxşı danışmaq imkanına malik deyillər.

Əgər keçmişdə bu, müəyyən qədər bağışlanırdısa – çünki onda nədənsə bəzi adamlar ancaq bir dili bilməyi özləri üçün böyük nailiyyət hesab edirdilər – ancaq indi bu, yolverilməz haldır. Şübhəsiz ki, hər bir azərbaycanlı, hər bir Azərbaycan vətəndaşı öz ana dilindən savayı, bir çox dillər bilməlidir. İndi bu, xüsusən lazımdır. Hələ keçmişdə bizim respublikamız Sovet İttifaqının tərkibində idisə, onun çərçivəsində yaşayırdıqsa, dünyadan müəyyən qədər və ya, həddindən çox təcrid idiksə, onda bütün Sovetlər İttifaqında əsas hakim dil rus dili idi və respublikamızda Azərbaycan [174-175] və rus dilləri işlənirdisə, indi biz bütün dünya ilə əlaqədəyik, müstəqil dövlətik. Bütün sahələrdə, o cümlədən təhsil sahəsində həm Qərb ölkələri ilə, həm Şərq ölkələri ilə, bütün dünya ölkələri ilə əlaqə saxlayırıq. Ona görə orta məktəblərimizdə başqa dillərin öyrənilməsinə də çox ciddi fikir verilməlidir.

Keçmişdə mən bəzən ayrı-ayrı ölkələrin orta təhsilli gəncləri ilə rastlaşarkən müşahidə edəndə ki, o, 3-4 dil bilir, heyran olurdum. Eyni zamanda fikirləşirdim ki, nə üçün bizim orta məktəblərimiz bu cür təhsil vermir? Ancaq bunun müəyyən səbəbləri də var idi. O vaxtlar başqa bir sistem idi, biz Ümumittifaq tərkibində idik. İndi isə müstəqilik. Ona görə də bütün dillərin tədris olunması çox gərəklidir. Xüsusən dünyada çox, geniş işlənən dillərin orta məktəblərimizdə öyrənilməsi vacibdir. Lazımdır ki, gənclərimiz orta məktəbi bitirərkən 2-3 xarici dil bilsinlər. Ancaq bununla yanaşı, öz ana dilini bilmək hər bir azərbaycanlı üçün lazımdır. Bir də deyirəm, biz öz dilimizlə fəxr edə bilərik. Çünki dilimiz zəngin dildir, ədəbiyyatımız zəngindir, mədəniyyətimiz zəngindir və bunların hamısı da ana dilimizlə, Azərbaycan dili ilə bağlıdır. Lazımdır ki, orta məktəblərimizdə bu məsələlərə çox ciddi fikir verilsin.

Xalqımızı, gəncləri vətənpərvərlik, Vətənə sədaqət ruhunda tərbiyə etmək üçün orta məktəblərdə çox iş görülməlidir. Müstəqil dövlətdə yaşayan hər bir vətəndaş birinci növbədə bu dövlətin müstəqilliyinin, suverenliyinin təmin olunmasını öz həyatının əsas vəzifəsi və məqsədi bilməlidir. Ona görə də bizim gənclər, təhsil alan nəslimiz gərək məktəblərdə ilk addımlarından vətənpərvərlik əhval-ruhiyyəsi ilə tərbiyə olunsun. Bütün dərslər, xüsusən humanitar fənlər gərək gənclərimizə Vətənə sədaqət, torpağa sədaqət, vətənpərvərlik ruhu aşılasın, tərbiyə etsin və bunlar hər bir gəncin qəlbində sarsılmaz bir qalaya çevrilsin. Odur ki, məktəblərdə bu fənləri tədris edərkən vətənpərvərlik əhval-ruhiyyəsinin aşılanması ilə də ciddi məşğul olmaq lazımdır.

Vətənpərvərlik çox geniş məna daşıyır. Vətənpərvərlik təkcə o deyil ki, gedib Vətəni silahla müdafiə edəsən. İnsan gərək həyatının hər dövründə, fəaliyyətinin bütün sahələrində öz Vətəninin, ölkəsinin qayğısı ilə yaşasın, onun həm iqtisadiyyatının, həm siyasətinin, həm də mədəniyyətinin qayğısı ilə yaşasın. Bunlar hamısı vətənpərvərlikdən doğan bir şeydir. Vətənpərvər insan öz mədəniyyətinin də, iqtisadiyyatının da, öz dilinin də, təhsilinin də inkişaf etməsini istəyir, xalqının rifah halının yüksəklərə qaldırılmasını istəyir. Bütün bunlar vətənpərvərlik məfhumuna daxil olan anlayışlardır. Bunlarla yanaşı, gənclərdə vətənpərvərlik hissini tərbiyə etmək üçün şübhəsiz ki, indi, respublikamızın düşdüyü ağır dövrdə Vətəni qorumaq, torpaqlarımızı müdafiə etmək üçün hər bir gəncin hazır olmasını tərbiyə etmək lazımdır. Bu, xüsusən bu gün üçün lazımdır. Çünki altı ildir ki, ölkəmiz müharibə şəraitindədir, Vətənimizə qarşı hərbi təcavüz edilibdir, biz müdafiə olunur, torpaqlarımızı qorumaq istəyirik, ərazi bütövlüyümüzü təmin etmək istəyirik. Bunu biz özümüz etməliyik.

Bir halda ki, biz müstəqil dövlətik və müstəqilliyimizi tarixi bir hadisə [175-176] kimi qəbul etmişik – bu, həqiqətən də belədir – Azərbaycanın suverenliyi hər bir Azərbaycan vətəndaşı üçün ən müqəddəs məqsəddir, ən müqəddəs vəzifədir. Belə olan halda biz öz taleyimizin sahibi kimi öz Vətənimizi, öz torpaqlarımızı öz gücümüzlə qorumalıyıq. Bunu xalq, bizim gənclər, ordu sıralarındakı Vətən oğulları etməlidir. Ona görə də orta məktəblərdə bir tərəfdən hərbi tədrisə, gənclərin fiziki hazırlığına, idmana ciddi fikir verilməlidir, digər tərəfdən isə gənclərdə vətənpərvərlik hissini yüksəltmək, onları Vətəni qorumağa hazır olmaq ruhunda tərbiyə etmək lazımdır.

Orta məktəbi bitirən gənclər dərhal orduda xidmətə getməlidirlər. Ola bilər, onların hamısı getmir, lakin əksəriyyəti orduda xidmət etməlidir. Elə təsəvvür yaranmasın ki, indi müharibə şəraitində olduğumuza görə bizə ordu lazımdır. Əlbəttə, bundan ötrü güclü ordu gərəkdir. Ancaq müharibə qurtarandan, sülh yaranandan sonra da, ölkəmizdə əmin-amanlıq olanda da müstəqil dövlət kimi güclü ordumuz olmalıdır. Ona görə də gəncləri hərbi xidmətə orta məktəbdən başlayaraq hazırlamaq lazımdır.

Dünyada o qədər böyük dövlət var ki, heç kimlə müharibə aparmır, ancaq onların güclü ordusu var. Elə bizimlə qonşu ölkələri götürək. Rusiya, Türkiyə, İran müharibə etmir, lakin güclü orduları var. Avropa ölkələrində də həmçinin. Biz yeni, gənc müstəqil dövlətik. Ona görə də bəzilərinə elə gəlir ki, bizə ordu yalnız müharibədən çıxmaq üçün gərəkdir. Xeyr, müharibədən çıxmaq, sülh yaratmaq üçün güclü ordu bizə bu gün lazımdır. Ancaq uzaq gələcəkdə də ordumuz olmalıdır. Ona görə də bu gün birinci sinfə gedən hər bir oğlan 10-12 ildən sonra ordu sıralarında olmalı, hərbi xidmət keçməlidir. Bir daha deyirəm, gənclərin hərbi xidmətə hazırlanması, vətənpərvərlik ruhunda tərbiyə edilməsi məktəblərin, müəllimlərin əsas vəzifələrindən biridir. Xahiş edirəm, bunu nəzərə alasınız.

Burada məktəblərin problemlərindən danışarkən onların maddi-texniki vəziyyətinə, dərs kitablarının hazırlanıb məktəblərə çatdırılması, müəllimlərin maddi təminatı məsələlərinə toxunuldu. Bunların hamısı əsaslı fikirlərdir. Bilirsiniz ki, on illər ərzində Azərbaycan Respublikasında məktəblərin güclü maddi-texniki bazası yaranmışdı. Keçmişdə hər il iri məktəb binaları tikilir, avadanlıqla, ləvazimatla təmin olunurdu. Məktəblərin

dərs ilinin başlanmasına tam hazır olması üçün hər il ciddi iş görülürdü. O zaman respublikanın imkanları var idi və həmin işləri görə bilirdi.

Lakin son illərdə gedən cürbəcür proseslər bir tərəfdən məktəb tikintisini ya zəiflətmiş, ya da dayandırmış, digər tərəfdən isə çoxdan tikilmiş məktəb binalarının təmiri, avadanlıqla təchizi sahəsində işləri xeyli azaltmış, yaxud tamamilə dayandırmışdır. Bu, həyatımızın gerçəkliyidir və onu etiraf etməliyik.

Respublikanın iqtisadi vəziyyəti ağırdır. Avqustun 11-də və 18-də mən geniş müşavirələr keçirmişəm. İki gün bundan əvvəl də əhalinin sosial müdafiəsinin gücləndirilməsi və iqtisadiyyatın maliyyə vəziyyətinin sabit[176-177]ləşdirilməsi ilə əlaqədar geniş müzakirə keçirmişik. Bildiyiniz kimi, iyunun 15-də mən bu məsələ barədə böyük fərman imzalamışam və iki gün bundan əvvəl onun yerinə yetirilməsi gedişi müzakirə edilmişdir. Bunların hamısı açıq-aşkar göstərir ki, iqtisadiyyatımız ağır vəziyyətdədir.

Keçmiş Sovet İttifaqına daxil olan başqa respublikalar kimi, Azərbaycan da indi keçid dövründədir, sosial-iqtisadi böhran içindədir. Digər tərəfdən isə, Azərbaycan müharibə şəraitindədir, onun torpaqlarının 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuşdur, bir milyondan artıq qaçqın var. Məktəb binalarının bir qismində qaçqınlar yerləşdirilmişdir. İşğal olunmuş ərazilərdə qalan məktəb binalarının, alınan məlumatlara görə, təəssüf ki, dağıdılması respublikanın ümumən iqtisadiyyatına, sosial sahəyə, o cümlədən təhsil sahəsinə vurulan ağır zərbədir. Bütün bu səbəblərə görə respublika iqtisadiyyatının indiki vəziyyəti məktəblərin maddi-texniki bazasının keçmişdəki kimi sürətlə möhkəmləndirilməsinə şərait yarada bilmir.

Ancaq burada deyildi ki, tikinti işlərinin 90 faizə qədərinin görüldüyü bir neçə məktəb binası var. Onların inşasını qurtarmaq lazımdır. Biz tikinti ilə əlaqədar belə qərar qəbul etmişik ki, inşasına çoxdan başlanmış və başa çatdırılması çətin olan obyektlərdə iş dayandırılsın. Çünki geniş miqyasda tikinti aparmaq üçün imkan və vəsait yoxdur. Lakin əsas işlərin görülüb qurtardığı məktəb binalarının tikintisini başa çatdırmaq lazımdır. Ona görə də təkliflər siyahısına bunlar da daxil edilməlidir. Məktəblərin ləvazimatla təmin olunmasında da vəziyyət ağırdır. Ancaq dediyim kimi, bu məsələ imkan daxilində həll ediləcək və mən təklifləri gözləyirəm.

Müəllimlərin maddi vəziyyəti bizi daim narahat edir. Bilirsiniz ki, biz bu məsələlərə bir neçə dəfə baxmış, imkan daxilində müəllimlərin əmək haqqını artırmağa çalışmışıq. Ümumən əhalinin maddi vəziyyətini müəyyən qədər yaxşılaşdırmaq barədə fikirləşir və tədbirlər hazırlayırıq. "Müəllim" sözü o qədər güclü, müəllim adı o qədər yüksək, sözün əsl mənasında o dərəcədə müqəddəsdir ki, müəllimlər gərək bu çətinliklərə dözsünlər, gənc nəslin təlim-tərbiyəsi ilə məşğul olsunlar. Respublikamızın bu ağır dövrünü hamımız birlikdə keçməliyik. Dövlət tərəfindən imkan daxilində bütün tədbirlər görüləcək, ancaq müəllimlər, təhsil sahəsində çalışan başqa işçilər də bilməlidirlər ki, həyat həmişə belə ağır olmayacaq, dözmək lazımdır. Məktəblərin, tədrisin səviyyəsi aşağı düşməməli, müəllim adı öz nüfuzunu itirməməlidir. Müəllim çalışmalıdır ki, özünün müqəddəs vəzifəsini ömrünün axırınadək layiqincə yerinə yetirsin.

İndi respublikada özəl bölmə inkişaf edir, ayrı-ayrı iş adamlarının, şirkətlərin, firmaların imkanları var. Əgər onlar xeyirxahlıq etmək istəyirlərsə, bu ağır dövrdə xalqımızın böhrandan çıxmasına kömək göstərmək istəyirlərsə, ilk növbədə təhsil sahəsinə üz tutmalıdırlar. Əlbəttə, bu, ayrı-ayrı məktəb binalarının az və ya çox hissəsinin kommersiya strukturlarına verilməsindən ibarət olmamalıdır. Əksinə, təhsil ocaqlarına kömək etməkdən ibarət olmalıdır. Ona görə də mən bu gün bütün iş adamlarına, kommersiya strukturlarına, bir sözlə, yeni yaranmış özəl bölməyə müraciət [177-178] edirəm. Onlardan hər birinin təhsil sahəsinə göstərdiyi kömək və xidmət dövlət tərəfindən qiymətləndiriləcəkdir. Ancaq bu iş de pərakəndə şəkildə görülməməlidir. Onlar bu işləri Təhsil Nazirliyinin vasitəsilə və ya himayəsi altında görsələr, onda dövlət də iş adamlarının təhsil sahəsi üçün nə etdiklərini biləcəkdir.

Ayrı-ayrı firmaların, assosiasiyaların tələbələrə kömək göstərməsi, gənclərin təhsil almaq üçün xaricə göndərilməsi təqdirəlayiqdir. Lakin bunlar xırda tədbirlərdir. Əlbəttə, deyək ki, 30-40 nəfərin xaricdə təhsil alması respublikanın həyatı üçün hadisədir. Ancaq gənclərin təhsilinə geniş miqyasda kömək etmək bu çərçivədən kənara çıxır. Ona görə də xahiş edərdim ki, iş adamları bu barədə düşünsünlər. Təhsil Nazirliyi isə onlarla əlaqəyə girərək tədris ocaqlarının saxlanması, təminatı, inkişafı üçün nə iş görə biləcəklərini müəyyənləşdirsin və bu sahədə dövlətin və özəl bölmənin imkanlarını birləşdirsin. Güman edirəm ki, mənim bu çağırışıma səs veriləcək və hamımız respublikanın gələcəyini düşünərək gənc nəslin tərbiyəsinə fikir verəcəyik.

Respublikamızın bu günü və gələcəyi ölkəmizdə gedən proseslərlə bağlıdır. Bilirsiniz ki, respublikamız altı ildir müharibə şəraitindədir. Bu müharibə Ermənistanın Azərbaycana təcavüzü, ərazimizin bir qismini ələ keçirmək cəhdləri ilə başlanmışdır. Bu müddətdə müəyyən səbəblər üzündən və xüsusən, ölkənin müdafiəsini təşkil etmək üçün yaradılmış orqanların rəhbərlərinin ayrı-ayrı mərhələlərdə buraxdığı səhvlər nəticəsində ərazimizin 20 faizi işğal olunmuşdur. Bildiyiniz kimi, bu ilin əvvəlindən cəbhədə çox ciddi döyüşlər getdi, ordumuz işğal olunmuş torpaqlarımızın bir hissəsini düşməndən təmizlədi. Ancaq təcavüzkar da çox güclüdür, bir çox ölkələr Ermənistana böyük kömək göstərirlər. Ona görə də apardığımız döyüşlər torpaqlarımızın tam azad olunmasına gətirib çıxarmadı.

Bildiyiniz kimi, aprelin 10-dan etibarən Ermənistan silahlı qüvvələri Azərbaycanın müdafiə mövqelərinə yenidən hücuma başladılar. Bu, çox güclü və yaxşı hazırlanmış hücumlar idi. Düşmən yenə də

Azərbaycan ərazisinin bir hissəsini işğal etmək istəyirdi. Qanlı döyüşlər bir aydan çox çəkdi. Azərbaycanın qəhrəman oğulları canları, qanları bahasına müdafiə mövqelərimizi qorudular, ordumuz geri çəkilmədi. Bu ağır döyüşlərdən sonra atəşkəs haqqında saziş əldə olundu. İlin əvvəlindən bəri biz bir tərəfdən ordumuzu gücləndirməyə, müdafiə mövqelərimizi möhkəmləndirməyə çalışmışıq, digər tərəfdən isə, beynəlxalq təşkilatların, böyük dövlətlərin vasitəçilik imkanlarından istifadə edərək məsələnin sülh yolu ilə həllinə səy göstərmişik. Bu iki proses eyni vaxtda, paralel getmişdir. Torpaqlarımızı müdafiə etməklə bərabər, sülh danışıqları da aparmışıq.

Rusiyanın, ATƏM-in Minsk qrupunun vasitəçiliyi ilə mayın 12-dən başlayaraq atəş kəsilmişdir və üç ay yarımdan artıqdır ki, atəşkəs davam edir. Xırda toqquşmaları nəzərə almasaq, cəbhədə sakitlikdir.

Biz indi də sülh danışıqları aparırıq. Ona görə ki, hər bir müharibə əv[178-179]vəl-axır sülhlə qurtarmalıdır. Bayaq dediyim kimi, müharibəni biz başlamamışıq – Azərbaycan öz ərazisini, öz torpaqlarını müdafiə edir. Başqa sözlə biz müharibəyə qoşulmağa məcbur olmuşuq.

Sülh danışıqlarında Rusiya böyük vasitəçilik rolu oynayır. Eyni zamanda beynəlxalq təşkilatlar, xüsusən ATƏM və onun Minsk qrupu, həmin qrupun rəhbəri Yan Eliasson və onun nümayəndə heyəti daim fəaliyyətdədir. Bir neçə gün bundan əvvəl də Minsk qrupunun rəhbəri və onun heyəti regiona gələrək Bakıda, Yerevanda və yenidən Bakıda olmuş, Azərbaycanın və Ermənistanın rəhbərləri ilə danışıqlar aparmışdır.

Biz sülh danışıqlarını bundan sonra da davam etdirəcəyik. Əgər bu danışıqlar istədiyimiz şərtlərlə nəticələnsə, sülhə nail ola bilərik. Şərtlər də ondan ibarətdir ki, Ermənistan silahlı qüvvələri Azərbaycanın işğal edilmiş bütün ərazilərindən çıxarılmalı, ölkəmizin ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı təmin edilməli və buna təminat verilməlidir. Ermənistan tərəfi Dağlıq Qarabağda yaşayan ermənilərin təhlükəsizliyinə təminat verilməsini, Dağlıq Qarabağa müəyyən status verilməsini tələb edir. Biz həmişə demişik və yenə deyirik: əgər şərtlərimiz qəbul edilsə, status məsələsini də müzakirə etmək olar.

Eyni zamanda silahlı qüvvələrimiz möhkəmləndirilməli, ordumuz indi tutduğu mövqeləri müdafiə etməyə qadir olmalıdır. Ona görə də ictimaiyyətdə, əhalidə və xüsusən gənclərdə Vətəni müdafiə etmək əhval-ruhiyyəsi, döyüş əhval-ruhiyyəsi daim təbliğ edilməlidir. Bu işdə sizdən – müəllimlərdən kömək gözləyirik. Ona görə ki, müəllimlər ziyalılarımızın böyük bir hissəsini təşkil edir. Ziyalılar bütün bu proseslərə öz münasibətini bildirməlidirlər. Biz bütün bu addımları atarkən ictimaiyyətlə, əhali ilə, xüsusən ziyalılarla məsləhətləşirik və bundan sonra da məsləhətləşəcəyik. Müəllimlərə də müraciət edirəm – siz də, təhsil sahəsində çalışan başqa adamlar da bu məsələlər barədə fikrinizi bildirməlisiniz. Biz bütün tədbirləri xalqın rəyinə əsasən görürük və görəcəyik. Sülh danışıqları da xalqın rəyinə əsasən aparılır. Ziyalıların fikri bizdən ötrü mühümdür.

İndiki vəziyyətdə biz gərək qaçqınlarımızın da problemlərini həll edək. Qaçqınlar isə, bildiyiniz kimi, bir milyondan çoxdur. Onların əksəriyyəti işləmir, maddi cəhətdən təmin edilməlidir. Qaçqın uşaqları təhsil almalıdırlar. Ona görə də qaçqınların məskunlaşdığı yerlərdə həmin uşaqların təhsilinə mütləq ciddi fikir verilməlidir. Bu uşaqların hamısı məktəblərə cəlb olunmalı, onların təhsil almaları üçün hər cür şərait yaradılmalıdır. Hər bir məktəb qaçqın uşaqlarının təhsil almasına xüsusi qayğı göstərməlidir. Məlumat verirlər ki, xarici ölkələrin ayrı-ayrı xeyriyyə cəmiyyətləri qaçqınların məskunlaşdığı yerlərdə məktəblər təşkil etmişdir. [179-180] Bununla yanaşı, biz öz imkanlarımızdan da istifadə etməliyik. Qaçqın ailələrinə xüsusi qayğı göstərmək lazımdır. Eyni zamanda, dediyim kimi, qaçqın ailələrindən olan uşaqların təhsilinə də xüsusi qayğı göstərilməlidir.

Ziyalılarımızın, ümumtəhsil məktəblərində çalışan müəllimlərimizin vəzifəsi gəncləri vətənpərvərlik ruhunda tərbiyə etməklə bərabər, respublikada ictimai-siyasi vəziyyətin sabitliyinə çalışmaqdan ibarətdir. Çünki daxildə sabitliyin pozulması həmişə cəbhədə böyük gərginliyə gətirib çıxarmışdır.

Təlim-tərbiyə işləri ilə məşğul olarkən bir məsələni də diqqət mərkəzində saxlamalısınız. Respublikanın belə ağır dövründə cinayətkarlıq artmışdır. Bu, həm Azərbaycanın düşdüyü vəziyyətlə bağlıdır, həm də keçmiş Sovet İttifaqının başqa respublikalarında cinayətkarlığın artması Azərbaycana da öz təsirini göstərmişdir. Ona görə də cinayətkarlıqla mübarizə bizim əsas vəzifələrimizdəndir. Bununla əlaqədar mən avqustun 9-da fərman vermişəm. Hüquq-mühafizə orqanları bu işlə məşğul olurlar və bundan sonra da məşğul olmalıdırlar.

Cinayət edənlərin əksəriyyəti gənclərdir. Ona görə də məktəblərdə gəncləri həm də cinayətkarlıqdan uzaq olmaq ruhunda tərbiyə etmək lazımdır. Burada çıxış edənlər dedilər – təəssüf ki, respublikada spirtli içkilərə meyl artmışdır, narkotik maddələrdən istifadə olunur. Əfsus ki, bunlara meyl edənlərin çoxu gənclərdir. Ona görə də müəllimlər, təhsil ocaqları bu sahədə fəaliyyətlərini gücləndirməlidirlər.

Gənclərin tərbiyəsində milli, dini adət və ənənələrimizdən istifadə etmək lazımdır. Əsrlərin dərinliyindən bu günə gəlib çatan adət-ənənələrimiz həmişə adamları saflığa, təmizliyə dəvət etmişdir. Milli və dini adət-ənənələrimiz məhz bu prinsiplərə əsaslanır. Bu gün biz də gəncləri paklıq, saflıq, yüksək əxlaq, yüksək mənəviyyat ruhunda tərbiyə etməliyik. Bununla biz nəinki cəmiyyətimizi qoruyacağıq, həm də gələcək nəsli sağlam saxlayacaq və həmin nəsildə cəmiyyətimiz, xalqımız üçün zərərli halların kök salmasının qarşısını alacağıq. Bir də təkrar edirəm, cinayətkarlıqla mübarizə, gənclərin sağlam ruhda tərbiyə olunması üçün hər kəs öz sahəsində lazımi tədbirlər görməlidir.

Bütün bu vəzifələri həyata keçirmək üçün Təhsil Nazirliyi, onun rayon və şəhər şöbələri və idarələri öz işini təkmilləşdirməlidir. Yeni yaradılmış Gənclər və İdman Nazirliyi ilə Təhsil Nazirliyi birgə fəaliyyət göstərməli, müxtəlif gənclər təşkilatlarını öz himayələri altına almalıdırlar. Burada haqqında danışılan vəzifələrin yerinə yetirilməsində başqa əlaqədar nazirliklər də fəaliyyət göstərməlidir. Nazirlərin bir çoxunun bu gün buraya dəvət edilməsi də bununla əlaqədardır. Onlardan tələb edilir [180-181] ki, öz üzərlərinə düşən vəzifələri yerinə yetirsinlər. Şəhər və rayonların yerli orqanları, icra hakimiyyəti başçıları təhsil, gənclərin tərbiyəsi məsələləri, məktəblərin vəziyyəti ilə ciddi məşğul olmalıdırlar.

Güman edirəm ki, bugünkü görüşümüz və apardığımız fikir mübadiləsi orta təhsil sahəsində qarşıda duran vəzifələrin həyata keçirilməsində müəyyən mərhələ olacaqdır. Ümidvaram ki, siz və sizin simanızda bütün müəllimlər, təhsil sahəsinin bütün işçiləri bu vəzifələrin yerinə yetirilməsində fədakarlıqla çalışacaqsınız.

Tədris ilinin başlanması münasibətilə sizi bir daha təbrik edir, sizə, bütün müəllimlərə, təhsil işçilərinə şərəfli peşənizdə uğurlar, şəxsi həyatınızda xoşbəxtlik və səadət diləyirəm.

Sağ olun! [181-182]

**LİVİYA ƏRƏB SOSİALİST XALQ CƏMAHİRİYYƏSİNİN İNQİLAB RƏHBƏRİ ZATİ-ALİLƏRİ POLKOVNİK MÜƏMMƏR QƏZZAFİ CƏNABLARINA**

Möhtərəm inqilab rəhbəri!

Böyük məmnuniyyətlə Sizə və xalqınıza dərin ehtiramımı izhar edir və səmimi salamlarımı bildirirəm.

Sizin rəhbərliyiniz altında ölkənizin əldə etdiyi nailiyyətləri böyük maraqla izləyirəm.

Sizi və xalqınızı "Əl-Fətih" inqilabının 25-ci ildönümü münasibətilə ürəkdən təbrik edir, "Yaşıl kitab"ın xalqınız qarşısına qoyduğu vəzifələrin bütövlüklə həyata keçməsini arzulayıram. Tarixi, dini, adət-ənənələri bir olan xalqlarımız arasındakı qardaşlıq əlaqələrinin və qarşılıqlı əməkdaşlığın hərtərəfli inkişaf etməsini Allah-təaladan diləyirəm.

Sizə və xalqınıza müvəffəqiyyətlər, cansağlığı və xoşbəxtlik arzulayıram.

Hörmətlə,

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*1 sentyabr 1994-cü il* [182-183]

## BAKIDAKI 23 SAYLI ORTA MƏKTƏBDƏ AZƏRBAYCANIN MİLLİ QƏHRƏMANI TAHİR HƏSƏNOVUN XATİRƏ LÖVHƏSİNİN AÇILIŞINA HƏSR OLUNMUŞ MİTİNQDƏ ÇIXIŞ

*3 sentyabr 1994-cü il*

Hörmətli Qalibə xanım, hörmətli şəhid anaları, bacılar və qardaşlar! Bu gün müstəqil Azərbaycanın torpaqlarının, ərazisinin bütövlüyü uğrunda canını qurban vermiş Azərbaycan Respublikasının Milli Qəhrəmanı Tahir Həsənovun xatirə günüdür. Biz buraya bu münasibətlə toplaşmışıq. Bakının, Azərbaycanın tanınmış məktəblərindən olan və önündə toplaşdığımız bu məktəbə Tahir Həsənovun adı verilmişdir. İndi biz Tahir Həsənovun xatirəsini əbədiləşdirən lövhəni açdıq. Biz həmişə Azərbaycanın görkəmli adamlarının xatirəsini əbədiləşdirməyə çalışmışıq. Keçmişdə, sülh dövründə xatirə lövhələri adətən mədəniyyət və elm xadimlərinin, ictimai-siyasi xadimlərin xidmətlərini əks etdirirdi.

İndi Azərbaycan müharibə şəraitindədir. Azərbaycan xalqı öz torpaqlarını müdafiə edir və ölkəmizin həyatında yeni dövr başlanmışdır. Bu dövr Azərbaycan xalqının qəhrəmanlığını, cəsurluğunu, mətanətini əks etdirən və milli mənliyini, torpaqlarını qoruması ilə əlaqədar olan bir dövrdür.

Bu dövrdə Azərbaycanın qəhrəman oğulları torpaqlarımızın müdafiəsinə qalxaraq altı ildir ki, qəhrəmanlıq nümunələri göstərir, canlarından keçir, şəhid olurlar, Azərbaycan Respublikasının suverenliyini qorumağa çalışırlar. Onların arasında Tahir Həsənovun xüsusi yeri var. Burada çıxış edənlər onun qəhrəmanlığı haqqında danışdılar, onun cəbhədə, torpaqlarımızı müdafiə edərkən göstərdiyi cəsurluq və fədakarlıqdan, özünü şəhid etməsindən söz açdılar.

Biz Azərbaycan torpaqlarının müdafiəsində şəhid olan qəhrəman oğullarımızın xatirəsini əbədiləşdiririk. Bu gün, burada açılan xatirə lövhəsi də Tahir Həsənovun Azərbaycan xalqı qarşısında xidmətlərinə verilən böyük qiymətdir və onun xatirəsini əbədiləşdirən bir əlamətdir. Qalibə xanım, belə qəhrəman oğul böyüdərək torpaqlarımızın müdafiəsinə hazırladığınıza görə və onun göstərdiyi igidliyə görə sizə Azərbaycan xalqı adından, dövlətimiz adından minnətdarlığımı bildirirəm. Bu gün bütün şəhid analarına, şəhid ailələrinə Azərbaycan dövləti adından, Azərbaycan xalqı adından, öz adımdan hörmət və ehtiramımı bildirir, torpaqlarımızın müdafiəsi üçün qəhrəman övladlar böyütdüklərinə görə təşəkkür edirəm.

Tahir Həsənov 23 illik ömür sürsə də həyatımızda böyük iz qoymuşdur. Onun qəhrəmanlığı, şücaəti indiki və gələcək nəsillərin qəlbində [183-184] daim yaşayacaqdır. Cəbhədə şəhid olanların hamısı bizim üçün əzizdir. Hər bir şəhidin, indi torpaqlarımızın müdafiəsində dayanan hər bir Azərbaycan əsgərinin, döyüşçüsünün xidmətini yüksək qiymətləndiririk. Ancaq Tahir Həsənovun xidməti xüsusi qiymətləndirilir. Çünki burada deyildiyi kimi, o, anasının yeganə övladı olsa da, cəbhəyə könüllü getmişdir. Orada da həmişə ön cərgədə olmuş, şücaətlə döyüşmüşdür. Döyüşdə yaralandıqda isə torpağını, Vətənini, anasının şərəfini öz həyatından üstün tutaraq sonuncu qumbarası ilə düşmənləri də, özünü də məhv etmişdir. Şübhəsiz ki, belə qəhrəmanlıq Azərbaycan torpaqlarının müdafiəsi salnaməsində xüsusi yer tutacaq və Tahir Həsənovun adı tariximizdə qalacaq, qəlbimizdə yaşayacaqdır.

Bu gün Tahir Həsənovun buraya toplaşan döyüş yoldaşlarına minnətdarlığımı bildirirəm. Onunla birlikdə cəbhədə vuruşanlara və bu gün də torpaqlarımızın müdafiəsində dayananlara təşəkkür edirəm. Son illər Azərbaycan ordusu formalaşmışdır. Gündən-günə möhkəmlənən ordumuzun müxtəlif bölmələrinin hər birinin Azərbaycan torpaqlarının qorunmasında öz yeri, öz rolu vardır. Xüsusi təyinatlı polis dəstəsi də torpaqlarımızın qorunmasında böyük şücaət göstərmiş, şəhidlər vermişdir. Xüsusi təyinatlı polis dəstəsində xidmət etmiş Tahir Həsənovun xatirə günündə bu dəstənin bütün üzvlərinə təşəkkür edir və əmin olduğumu bildirmək istəyirəm ki, onlar Azərbaycanın müstəqilliyi yolunda bundan sonra da uğurla mübarizə aparacaqlar.

Bütün çətinliklərə baxmayaraq, Azərbaycan ordusu torpaqlarımızın müdafiəsində dayanmışdır. Müharibə dövründə bəzi səbəblər üzündən torpaqlarımızın bir qismi əldən getmişdir. Ancaq bu, xalqımızın və ordumuzun iradəsini sarsıtmamışdır. Xalqımız öz torpağını müdafiə etmək əzmindədir. Ordumuz torpaqlarımızı etibarlı müdafiə edir.

Doğrudur, altı il davam edən müharibə dövründə cürbəcür proseslər olmuşdur. Qəhrəmanlar da, şəhid olanlar da, müharibə başlanandan bəri əlində silah vətənimizin keşiyində duranlar da var. Beləları əksəriyyət təşkil edir. Azərbaycan xalqı qəhrəman xalqdır, onun igid oğulları bu gün də, sabah da Azərbaycan torpaqlarını müdafiə etməyə hazırdırlar və müdafiə edəcəklər.

Bununla yanaşı, təəssüf ki, aramızda elələri də var, xalqını, torpağını müdafiə etməkdən çəkinir, qaçırlar, qorxaqlıq, iradəsizlik göstərirlər, öz şəxsi mənafelərini milli mənafedən, xalqın, vətənin mənafeyindən üstün tuturlar. Ancaq ölkəmizin siyasi, ictimai, vətənpərvərlik mənzərəsini heç də bunlar əks etdirmirlər. Əksinə, xalqımız da, ordumuz da Vətəni müdafiə etmək əzmindədir və Tahir Həsənov kimi qəhrəmanlar

bugünkü gənclərimiz üçün, cəbhədəki döyüşçülərimiz üçün örnək, nümunədir. Mən bu gün burada tam qətiyyətlə demək istəyirəm ki, Tahir Həsənovun qəhrəmanlığı, özünü vətən yolunda şəhid etməsi hər bir Azərbaycan gənci üçün örnək olacaq və əminəm ki, həm orduda xidmət edən döyüşçülərimiz, həm də arxa cəbhədə olan, hərbi xidmətə hazırlaşan gənclərimiz Tahir Həsənovun qəhrəmanlıq yolunu özlərinə nümunə götürəcək və onun yolu ilə gedəcəklər. [184-185]

Altı illik müharibə dövründə itkilərimiz az olmamışdır. Buna görə də həyatımızın, ölkəmizin müdafiəsində özünü qurban vermiş hər bir adamın xatirəsini daim qəlbimizdə saxlamalı, şəhid ailələrinə xüsusi qayğı göstərməli, onların problemlərinin həlli ilə müntəzəm məşğul olmalıyıq. Mən bunu dəfələrlə demişəm və prezident kimi bu gün sizin qarşınızda da deyirəm ki, bu barədə bütün dövlət və hökumət orqanlarına lazımi göstərişlər və sərəncamlar vermişəm və həmin məsələlərin həllini indən belə də nəzarətdə saxlayacağam. İndi həyatımızın, dolanışığın çətin dövrüdür. Ancaq bütün bunlara baxmayaraq, şəhid ailələrinə, Vətəni müdafiə edərkən əlil olmuş, xəsarət almış adamlara, ordumuza xüsusi qayğı göstərilməlidir. Əmin ola bilərsiniz ki, biz bu tədbirləri həyata keçirəcəyik. Şəhid ailələrinin problemləri ilə yanaşı, onlara daim mənəvi qayğı da göstərilməli, bu ailələr hörmət və ehtiramla əhatə olunmalıdırlar.

Bakıdakı Şəhidlər xiyabanı ziyarətgaha çevrilmişdir. Bu, həyatımızın gerçəkliyidir və həmin Şəhidlər xiyabanı Azərbaycan xalqının tarixində daim qalacaqdır. Əlbəttə, biz çalışacağıq ki, müharibəyə son qoyaq, daha şəhid verməyək, sülh, əmin-amanlıq olsun, işğal edilmiş ərazilərimizdən Ermənistan silahlı qüvvələri çıxarılsın, qaçqınlar öz yerlərinə qayıtsın və Azərbaycanın ərazi bütövlüyü təmin olunsun. Ancaq Vətənin müdafiəsi bu gün də, gələcəkdə də qəhrəmanlıq tələb edir. Şübhəsiz ki, igid oğullarımız gələcəkdə də Vətənin müdafiəsi uğrunda şəhid ola bilərlər. Buna görə də Şəhidlər xiyabanı daim tariximizdə qalacaqdır. Şəhidlər xiyabanının abadlaşdırılması, ziyarət yerinə çevrilməsi üçün tədbirlər görürük.

Mən bu xiyabanda tez-tez oluram. Təxminən səkkiz ay bundan öncə orada bir qrup şəhid anası ilə, o cümlədən Qalibə xanımla görüşüb söhbət etmiş, onların problemlərini dinləmişdim. Şəhidlərin qəbirlərinin üstünün götürülməsi barədə məsələ qaldırılmış, mən bu barədə müvafiq göstərişlər vermişdim. Mən bu tapşırıqları bir neçə dəfə təkrar etsəm də təəssüf ki, icra orqanları bunları vaxtında həll etmədilər. Nəhayət, sizə məlum olduğu kimi, mən müvafiq fərman verdim və Şəhidlər xiyabanında abadlaşdırma işləri aparmaq üçün respublikanın valyuta fondundan yarım milyon dollara yaxın vəsait ayırdım. Bakı şəhər icra hakimiyyətinə tapşırılmışdır ki, ilin axırınadək Şəhidlər xiyabanındakı qəbirlərin hamısının üstünü götürsün və abadlıq işlərini davam etdirsin.

Şübhəsiz ki, bu şəhid ailələrinə göstərməli olduğumuz qayğının bir cəhətidir. Onların başqa problemləri də həll olunmalıdır. Bu gün burada, sizin qarşınızda Nazirlər Kabinetinə, nazirliklərə, icra orqanlarına, xüsusən Bakı şəhər icra hakimiyyətinə bir daha tapşırıram ki, bu məsələlərlə müntəzəm məşğul olsunlar. Ancaq şəhid ailələrinə qəlbən, mənəvi dayaq olmağımız hamısından üstündür. Hamınız, o cümlədən bu gün buraya toplaşmış şəhid anaları əmin ola bilərsiniz ki, prezident kimi mən həmişə sizinləyəm, mənəvi dayağınızam və sizin dərdiniz mənim dərdimdir, Azərbaycan xalqının dərdidir. Əmin ola bilərsiniz ki, biz bu ağır, dərdli günləri keçib gedəcəyik. [185-186]

Bundan ötrü ordumuzu möhkəmlətmək lazımdır. Bildiyiniz kimi, müharibəyə son qoymaqdan ötrü biz sülh danışıqları aparırıq. Eyni zamanda ordumuz güclü olmalıdır. Tahir Həsənov kimi qəhrəman oğullar orduda xidmətə cəlb edilməli, könüllü getməlidirlər. Bu gün ordumuz Vətəni düşməndən qorumaq, işğal olunmuş torpaqları azad etmək üçün, müharibəyə sülh yolu ilə son qoymaqdan ötrü qüdrətli olmalıdır. Ona görə də orduya qayğı, hörmət cəmiyyətin, xalqın şərəfli vəzifəsidir, həm prezident, həm də Ali Baş Komandan kimi mənim şərəfli vəzifəmdir. Əmin ola bilərsiniz ki, mən bu vəzifəni daim yerinə yetirməyə çalışacağam. Ancaq ordumuzun güclü olması üçün gənclərimiz layiqli hərbi xidmət etməlidirlər.

Bəzən deyirlər ki, guya xalqımız döyüşkən deyildir, məğlubiyyətlərə uğrayır. Xeyr, belə deyil. Xalqımız tarix boyu qəhrəmanlıq nümunələri göstərmişdir. Cəsarətli, mətanətli Azərbaycan xalqı öz torpağını müdafiə etməyə, müstəqil dövlətinin ərazi bütövlüyünü təmin etməyə qadirdir. Bunu Tahir Həsənovun, Vətən yolunda şəhid olmuş başqa igid oğulların qəhrəmanlıq nümunəsi göstərir, indi cəbhədə Vətənimizin müdafiəsində dayanan əsgər və zabitlərimizin igidliyi göstərir.

Bu gün biz Tahir Həsənovun xatirə gününü qeyd edərkən bir yandan kədər içindəyik, digər tərəfdən isə başımızı dik tutmalı, qürurlu olmalıyıq. Xalqımız həmişə qürurlu olmuşdur. Bu gün də qürurlu olmalıyıq ki, xalqımızın Tahir Həsənov kimi qəhrəmanları minlərlə, on minlərlədir. Ona görə qürurlu olmalıyıq ki, gənclərimiz belə qəhrəmanlıq nümunələrindən örnək götürərək onların yolu ilə gedəcəklər. Ona görə də bu gün mən ordumuza müvəffəqiyyət, xalqımıza əmin-amanlıq, uğurlar diləyirəm.

Bu gün burada, Tahir Həsənovun xatirə lövhəsi önündə sizin adınızdan, öz adımdan, şəhid anaları adından cəbhədəki əsgər və zabitlərimizə salam göndərir və onlara bildirmək istəyirəm ki, həmişə qayğılarını çəkəcəyik. Onlar isə bundan sonra da Azərbaycan torpaqlarının müdafiəsində Tahir Həsənov kimi qəhrəmancasına dayanacaqlar.

Azərbaycan Respublikasının suverenliyi, müstəqilliyi uğrunda vuruşaraq canlarını qurban vermiş qəhrəman oğullara eşq olsun! Onların xatirəsi qəlbimizdə əbədi yaşayacaqdır. Qəhrəman Azərbaycan xalqına

eşq olsun! Azərbaycan torpaqlarını fədakarlıqla müdafiə edən döyüşçülərimizə eşq olsun! Hamınıza cansağlığı, xoşbəxtlik arzulayıram. Ümidvaram ki, müharibəyə son qoyulacaq, torpaqlarımız tamamilə azad edilərək ölkəmizin ərazi bütövlüyü təmin olunacaq və biz bu qələbəni sizinlə birlikdə bayram edəcəyik. Sağ olun. [186-187]

## QAHİRƏDƏ "DÜNYA ƏHALİSİ VƏ İNKİŞAF" MÖVZUSUNDA BEYNƏLXALQ KONFRANSDA İŞTİRAK ETMƏK ÜÇÜN MİSİR ƏRƏB RESPUBLİKASINA YOLA DÜŞƏRKƏN BİNƏ HAVA LİMANINDA MÜXBİRİN SUALINA CAVAB

*4 sentyabr 1994-cü il*

**- Azərbaycan prezidentinin belə mötəbər beynəlxalq məclisdə iştirak etməsi, şübhəsiz, mühüm hadisədir və yəqin ki, Sizin yüksək səviyyədə görüşləriniz də gözlənilir?**

- Hər bir beynəlxalq toplantı, beynəlxalq konqres, şübhəsiz ki, dünyada gedən proseslərin müəyyən cəhətini müzakirə, təhlil edir və müəyyən qərarlar çıxarır. Müstəqil dövlət kimi Azərbaycan dünya birliyinə daxildir. Ona görə də belə böyük beynəlxalq məclislərdə Azərbaycan Respublikası nümayəndələrinin iştirak etməsi zəruridir. İndiki beynəlxalq konfransı BMT təşkil edir, oraya bir çox dövlətlərin başçıları gələcəkdir. Toplantının özünün əhəmiyyəti var, eyni zamanda, şübhəsiz ki, konfransda bir çox görüşlər də olacaq. Güman edirəm ki, bunlar hamısı beynəlxalq aləmdə Azərbaycanın mövqelərinin möhkəmlənməsinə kömək edəcəkdir və mən də bunu nəzərə alaraq bu səfərə gedirəm. [187-188]

## MİSİR-AZƏRBAYCAN DOSTLUQ CƏMİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

*5 sentyabr 1994-cü il*

Hörmətli Misir Ərəb Respublikası parlamentinin sədri!
Cənab parlament üzvləri, cənab nazirlər!
Cənab Misir – Azərbaycan dostluq cəmiyyətinin sədri!
Hörmətli xanımlar və cənablar!

Sizi və sizin şəxsinizdə dost Misir Ərəb Respublikasının vətəndaşlarını, qardaşlarımızı Azərbaycan xalqı adından, öz adımdan səmimi qəlbdən salamlayıram və ölkənizə xoşbəxtlik, səadət, bütün gələcək günlərdə inkişaf diləyirəm. Mən sizin bu gözəl ölkənizə, burada BMT tərəfindən keçirilən böyük beynəlxalq konfransa gəlmişəm. Bu konfrans "Əhali və inkişaf" məsələlərinə həsr olunub. Dünyanın bu günü və gələcəyi üçün bu konfransın böyük əhəmiyyəti var. Konfransa dəvət olunduğuma və burada iştirak etdiyimə görə çox məmnunam.

Fürsətdən istifadə edib demək istəyirəm ki, dəvətinizi qəbul edib sizinlə, Misir Ərəb Respublikasının görkəmli siyasi, ictimai xadimləri ilə, parlamentin üzvləri və nazirlərlə görüşmək mənim üçün xoşbəxt bir hadisədir.

Sizin xalqınız, sizin ölkəniz qədim tarixə malikdir. Xalqınız, ölkəniz, diyarınız dünya mədəniyyətini zənginləşdirmişdir. Sizin torpaqda olmaq, dünyanın bu gözəl guşəsini ziyarət etmək, sizinlə görüşmək hər bir azərbaycanlı üçün, o cümlədən mənim üçün böyük bir hadisədir.

Misirlə Azərbaycan arasında əlaqələrin tarixi çox böyükdür. Bizim xalqlarımız uzun əsrlər boyu bir-biri ilə əlaqə saxlayıb, bir-birinə kömək ediblər. Bizim milli, dini, tarixi ənənələrimizdə çox oxşarlıq, eynilik vardır.

Bunlar hamısı Azərbaycan Respublikası ilə Misir Ərəb Respublikası, bizim xalqlarımız arasında dostluq və qardaşlıq əlaqələrini möhkəmləndirmək, inkişaf etdirmək üçün, hər bir sahədə əlaqələrimizi daha səmərəli etmək üçün çox böyük əsasdır.

Bizə məlumdur, mən yaxşı bilirəm ki, son illər Misir Ərəb Respublikası, sizin xalqınız, ölkəniz Misir Ərəb Respublikasının prezidenti, bizim dostumuz, qardaşımız əlahəzrət Məhəmməd Hüsni Mübarəkin rəhbərliyi altında çox böyük nailiyyətlər əldə etmişdir. Böyük bir beynəlxalq konfransın məhz Qahirədə, Misir Ərəb Respublikasında keçirilməsi həm sizin ölkənin dünya birliyində çox görkəmli yer tutduğunu göstərir, həm də dünya xalqlarının, dünya birliyinin Misir Ərəb Respublikasına, sizin ölkənizə olan hörmətini, ehtiramını göstərir. Xalqınızın, ölkənizin bu nailiyyətləri ilə mən fəxr edirəm, sizə böyük uğurlar diləyir və bütün gələcək həyatınızda müvəffəqiyyətlər, xoşbəxtlik arzulayıram. [188-189]

Hörmətli dostum cənab Əbülxeyirin dediyi kimi, Misir Ərəb Respublikası ilə Azərbaycan arasında əlaqələrin daha da möhkəmləndirilməsi üçün geniş imkanlar vardır və mən ümidvaram ki, həmin imkanlardan istifadə edib bu əlaqələri inkişaf etdirəcəyik.

Azərbaycan gənc müstəqil bir dövlətdir. Üç ilə yaxındır ki, respublikamız müstəqillik əldə edib. Respublikamızın ən böyük problemlərindən biri Ermənistan silahlı qüvvələrinin Azərbaycana qarşı hərbi təcavüz etməsidir. Azərbaycan xalqının bu təcavüzə qarşı apardığı mübarizədə, beynəlxalq təşkilatlar çərçivəsində həyata keçirilən tədbirlərdə Misir Ərəb Respublikası, onun dövləti və xüsusən dostumuz, qardaşımız Hüsni Mübarək obyektiv, prinsipial mövqe tutur, Azərbaycanı daim müdafiə edir. Ona görə də mən sizə, xalqınıza və xüsusən Misir Ərəb Respublikasının prezidenti, bizim dostumuz, qardaşımız Məhəmməd Hüsni Mübarəkə təşəkkürümü, minnətdarlığımı bildirirəm.

Mən əminəm ki, xalqlarımız, ölkələrimiz arasında dostluq, qardaşlıq əlaqələri bundan sonra da inkişaf edəcəkdir. Sizi əmin edirəm ki, biz, Azərbaycan xalqı və Azərbaycan prezidenti kimi mən bu dostluğa, qardaşlığa daim sadiq olacağıq. Misir Ərəb Respublikasına, sizin xalqınıza, şəxsən sizə öz hörmət və ehtiramımı bildirirəm və hamınıza, sizin xalqınıza gələcək işlərinizdə uğurlar diləyirəm. Sağ olun. [189-190]

## ABŞ-ın MİSİRDƏKİ TİCARƏT PALATASININ NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

*6 sentyabr 1994-cü il*

Misirdə olduğum müddətdə bir sıra görüşlər keçirmişəm və şadam ki, sizinlə görüşərək, təmsil etdiyim Azərbaycan Respublikası barədə danışmaq imkanım var.

Azərbaycan üç il əvvəl istiqlaliyyət qazanmış gənc dövlətdir. Bundan əvvəl Sovet İttifaqının tərkibində idi. Müstəqil dövlət kimi Azərbaycan Birləşmiş Millətlər Təşkilatına, bir çox beynəlxalq təşkilata daxildir və dünya birliyində layiqli yer tutmağa çalışır. Azərbaycan Qafqazda yerləşir, əhalisi 7,5 milyon nəfər, ərazisi 86 min kvadrat kilometrdir.

Azərbaycan 1918-1920-ci illərdə müstəqil respublika olmuşdur. Bundan əvvəl iki əsrə yaxın Rusiya imperiyasının tərkibində idi. Respublikanın milli istiqlaliyyət, milli dövlətçilik qazanması, onun beynəlxalq birliyə daxil olması Azərbaycan xalqı üçün tarixi hadisədir və xalqımız bu imkandan özünün gələcək inkişafı naminə istifadə etmək əzmindədir.

Azərbaycan qədim və zəngin tarixi olan ölkədir. Xalqımız bəşər mədəniyyətinə qiymətli incilər bəxş etmişdir. Respublikanın əhalisi İslam dininə etiqad edir. Azərbaycanda yaşayan müxtəlif millətlərin nümayəndələri eyni hüquqa malikdir.

İstiqlaliyyətini bərqərar edən və möhkəmləndirən Azərbaycan indi dünya üçün açıqdır, bütün ölkələrlə bərabərhüquqlu münasibətlərə tərəfdardır və onlarla hərtərəfli, qarşılıqlı surətdə faydalı əlaqələr yaratmağa çalışır. Respublikada hüquqi dövlət qurulur, demokratiya, şəxsiyyət azadlığı, söz azadlığı, siyasi plüralizm prinsipləri bərqərar olur. İqtisadi sahədə Azərbaycan bazar iqtisadiyyatı, azad sahibkarlıq yolu ilə gedir.

Müstəqil Azərbaycan dövləti indi dünyanın bütün ölkələri ilə iqtisadi ticarət əlaqələri yaratmağa çalışır. Hazırda Azərbaycanın xarici investisiyalara ehtiyacı var və biz istəyirik ki, həm böyük, həm də kiçik biznes ölkəmizdə özünə yer tapsın. Azərbaycanın zəngin təbii ehtiyatlan, kifayət qədər iqtisadi və sanballı sənaye potensialı var. Respublikada neft, neft-ayırma, kimya və neft kimyası sənayesi, neft və kimya maşınqayırması elektrotexnika, radiotexnika, elektronika, cihazqayırma və başqa sənaye sahələri inkişaf etmişdir. Kənd təsərrüfatı istehsalı da çoxsahəlidir. Respublikada pambıq, üzüm, taxıl, tütün, tərəvəz və başqa kənd təsərrüfatı məhsulları istehsal olunur. Bu, ölkədə emal sənayesinin, yüngül sənayenin, o cümlədən toxuculuğun inkişafına şərait yaratmışdır. Respublikada metallurgiya, o cümlədən qara və əlvan metallurgiya inkişaf etmişdir... İndi xalqımız bütün bunlardan öz dövlətini inkişaf etdirmək, rifahını [190-191] yüksəltmək üçün istifadə etmək niyyətindədir. Ona görə də hazırda Azərbaycanda xarici investisiyalar üçün geniş fəaliyyət meydanı açılır və biz Amerika Birləşmiş Ştatlarının, Misirin işgüzar adamlarını bütün sahələrdə əməkdaşlığa dəvət edirik.

Respublika neft sənayesinin 150 illik tarixi var. Azərbaycanın neft və qaz yataqları həm quruda, həm də Xəzər dənizinin akvatoriyasında yerləşir. Biz neft və qaz çıxarır və bunları emal edirik. Lakin bu sahədə xarici şirkətlər də bizimlə fəal əməkdaşlıq edə bilərlər.

Ticarət palatasının prezidenti burada çıxış edərkən sizin kiçik və orta biznesi inkişaf etdirməyə səy göstərməyinizdən danışdı. Azərbaycanda bundan ötrü geniş imkan var və mən sizin diqqətinizi buna cəlb etmək istərdim. Keçmişdə Sovet İttifaqına daxil olan başqa respublikalar kimi, Azərbaycan da İttifaqın dağılması ilə, bir sosial, siyasi və iqtisadi sistemdən digərinə keçidlə əlaqədar indi böhran içərisindədir. Siz yaxşı bilirsiniz ki, sosialist iqtisadiyyatından bazar iqtisadiyyatına keçid böyük çətinliklər və müəyyən məsrəflərlə bağlıdır. Ümidvaram ki, sahibkarlığı inkişaf etdirmək, bazar iqtisadiyyatına keçmək, özəlləşdirmə proqrammı həyata keçirmək, xarici investisiyalardan istifadə etmək və xarici şirkətləri Azərbaycanla iqtisadi əməkdaşlığa daha fəal cəlb etmək yolu ilə biz bu çətinlikləri aradan qaldıracağıq.

Burada Azərbaycanın tərkibinə daxil olan Dağlıq Qarabağdan söhbət gedir, onu respublikadan qopararaq Ermənistana birləşdirmək istəyirlər. Biz Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə və sərhədlərinin toxunulmazlığına əməl olunmaqla bu məsələni sülh yolu ilə həll etməyə səy göstəririk. Biz bu yolda beynəlxalq hüquq normalarını əsas tuturuq və zənn edirik ki, münaqişənin ədalətlə, sülh yolu ilə aradan qaldırılmasına nail olacağıq.

Hərbi münaqişə, şübhəsiz, respublikanın iqtisadi vəziyyətinə də təsir göstərir. Bununla belə, Azərbaycanda sosial-iqtisadi və ictimai-siyasi vəziyyət sabitdir və xarici şirkətlərin geniş fəaliyyəti üçün kifayət qədər əlverişli imkan var.

Azərbaycan xalqının ənənəvi qonaqpərvərliyi də, Azərbaycanın iqlimi – istər sırf təbii iqlimi, istər siyasi iqlimi də buna kömək edəcəkdir. Siz Xəzər sahilində yaxşı işləyə, həm də yaxşı dincələ bilərsiniz.

**Sual: Siz Rusiyanın gələcəyini necə görürsünüz, o, dinc və sabit ölkə olacaq, yoxsa, əksinə, gərgin ölkə olacaq?**

**Cavab:** Axı, mən Azərbaycanın prezidentiyəm, Rusiyanın əvəzinə nə isə demək mənə çətindir. Ola bilər, siz bu sualı ona görə verirsiniz ki, keçmişdə mən uzun müddət Sovet İttifaqının rəhbərlərindən biri

olmuşam. O zaman Sovet İttifaqında sosializm quruluşu idi. Biz ondan imtina etmişik və şəxsən mən bir daha bu quruluşa qayıtmayacağam. Rusiyada nə olacağına gəldikdə isə, mən istəyirəm ki, Rusiya demokratik ölkə olsun, onun böyük iqtisadi potensialından bazar iqtisadiyyatının inkişafı üçün istifadə edilsin. Rusiya sülhsevər ölkə olsun. Zənnimcə, bu, [191-192] Azərbaycana da lazımdır, – axı biz Rusiya ilə qonşuyuq, – bütün dünya birliyinə də lazımdır. Ümidvaram ki, Rusiya bütün çətinlikləri aradan qaldıracaq və düzgün yolla gedəcək.

**Sual: Cənab prezident, mən sizə iqtisadiyyatla bağlı sual vermək istərdim. Siz Azərbaycanın xarici investorlara verə biləcəyi güzəştlərdən və təminatlardan daha ətraflı danışa bilərdinizmi?**

**Cavab:** Görünür, indi bu məsələnin təfərrüatına varmağımın mənası yoxdur. Bu, çox vaxt aparardı. Lakin sizə deyə bilərəm ki, əgər mən xarici investorları, sizi Azərbaycanla əməkdaşlığa dəvət edirəmsə, deməli, biz bundan ötrü hər cür şərait yaradacağıq. Xarici investorların Azərbaycanda işləmək istəyən hər hansı biznesmenin fəaliyyətinin ən əlverişli şəkildə təmin olunması üçün bizdə müvafiq qanunlar, hüquqi zəmin var.

Güzəştlər kifayət qədər, bəlkə də hər hansı başqa yerdəkindən çox olacaq, çünki biz respublikamıza investisiyaların geniş cəlb edilməsini istəyirik.

**Sual: Cənab prezident, siz kommunist rejimi dövründə də işləmisiniz, indi – sərbəst bazar iqtisadiyyatı şəraitində də işləyirsiniz. Belə qısa müddətdə necə dəyişilə bilmisiniz ? Siz hansı rejimi xalq üçün yaxşı sayırsınız ?**

**Cavab:** Əvvəla, mənim belə tez dəyişdiyimi haradan bilirsiniz? (Gülüşmə, alqışlar). Mən dəyişmişəm, lakin sizin təsəvvür etdiyiniz kimi belə tezliklə yox. Mən həqiqətən Sovet İttifaqının, Kommunist Partiyasının rəhbərlərindən biri olmuşam. 14 il Sovet İttifaqının tərkibindəki Azərbaycan Respublikasına rəhbərlik etmişəm. Lakin Moskvada yaşayarkən, 1990-cı ilin yanvarında Azərbaycan xalqına qarşı hərbi təcavüz etmiş Sovet İttifaqı rəhbərliyinin, Kommunist Partiyası rəhbərliyinin düzgün olmayan hərəkətlərinə qarşı etirazla çıxış etdim. 1991-ci ilin iyununda Sovet İttifaqı Kommunist Partiyasının sıralarından çıxdığımı rəsmi şəkildə bəyan etdim. Hələ həmin ilin əvvəlində, Sovet İttifaqının saxlanması haqqında referendum keçirilərkən, mən SSRİ-nin saxlanmasının əleyhinə çıxdım, Sovet İttifaqına daxil olan bütün xalqlara azadlıq verilməsinə, bütün respublikaların müstəqilliyinə tərəfdar olduğumu bildirdim. Keçmişdəki istər dövlət, istərsə də siyasi fəaliyyətimdə mən o vaxtkı mövcud rejim çərçivəsində hər halda ədalətin və demokratiya prinsiplərinin bərqərar olmasına çalışırdım.

Yeddi il əvvəl, 1987-ci ildə mən Sov.İKP MK Siyasi Bürosunun üzvü və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsindən istefaya getdim. Gördüyünüz kimi, MK Siyasi Bürosunu və Sovet İttifaqında dövlət rəhbərliyini tərk etdiyim həmin dövrdən bu gün məni yeddi il ayırır. Bir il bundan əvvəl xalqın iradəsi, təkidi, tələbi ilə mən Azərbaycanda prezident seçkilərinə namizədliyimi verdim və bütün xalq tərəfindən artıq müstəqil və demokratik dövlət olan Azərbaycan Respublikasının prezidenti seçildim. [192-193]

Zənnimcə, bütün bu dediklərim nəyi yaxşı saymağım barədə sizin sualınıza cavab verir. Daha konkret desəm, bu gün malik olduğumuzu yaxşı sayıram. Keçid dövrünün bütün çətinliklərinə baxmayaraq, Azərbaycan xalqı milli istiqlaliyyət qazanmışdır, demokratik hüquqi dövlət quruculuğu və bazar iqtisadiyyatı, azad sahibkarlıq prinsiplərinin bərqərar olması yolu ilə gedir. Belə hesab edirəm ki, bu, ən düzgün yoldur, prezident kimi mən xalqımı bu yolla aparacağam! Bu zəmində də sizə əməkdaşlıq təklif edirəm.

Bir daha sizin hamınızı salamlayır, cansağlığı və firavanlıq arzulayıram. Sağ olun! [193-194]

## QAHİRƏDƏ MƏTBUAT KONFRANSINDA BƏYANAT

*6 sentyabr 1994-cü il*

Hörmətli jurnalistlər, mətbuat işçiləri!

Bildiyiniz kimi, mən sentyabrın 5-dən burada, Qahirədəyəm. Qısamüddətli işgüzar səfər başa çatır. Buraya gələrkən nəzərdə tutulan işlərin hamısı həyata keçirilib. Sabah mən Azərbaycana qayıdıram. Eşitdim ki, burada jurnalistlər mənim səfərimlə maraqlanırlar. Ona görə də sizinlə görüşmək və burada olan görüşlərimiz haqqında məlumatları sizə çatdırmaq istədim.

Əvvəla, onu demək istəyirəm ki, mənim buraya gəlişimin əsas məqsədi BMT tərəfindən Qahirədə keçirilən "Əhali və inkişaf" mövzusunda beynəlxalq konfransda iştirak etməkdir. Hesab edirəm ki, bu konfrans çox böyük və qlobal məsələyə həsr olunan bir tədbirdir, dünya xalqlarının bu günü və gələcəyinə aid olan mühüm məsələləri müzakirə edir.

Konfransın birinci günündə edilən məruzə və çıxışlar mənə çox böyük təsir bağışladı. Hesab edirəm ki, həmin məsələlər müzakirə və həll olunmalıdır. Bu konfransda iştirak etməyimdən çox məmnunam və güman edirəm ki, orada söylənilən fikirlər bizim Azərbaycan Respublikası üçün də əhəmiyyətlidir.

Buraya səfərim zamanı respublikamızın həyatı, beynəlxalq əlaqələri ilə bağlı bir çox əhəmiyyətli görüşlərim olub.

Misir Ərəb Respublikasının prezidenti cənab Hüsni Mübarəklə dünən konfrans vaxtı və konfransdan sonra onun axşam verdiyi qəbulda görüşlərimdən əlavə, bu gün xüsusi görüşümüz oldu. Cənab Hüsni Mübarəklə biz Misir Ərəb Respublikası ilə Azərbaycan Respublikası arasında əlaqələrin bundan sonra daha da genişləndirilməsi və inkişaf etdirilməsi məsələlərini müzakirə etmişik. Bir neçə beynəlxalq məsələyə də toxunmuşuq. Azərbaycan Respublikasının müstəqilliyini daha da möhkəmləndirmək, inkişaf etdirmək üçün həyata keçirdiyimiz tədbirlər haqqında mən ona məlumat vermişəm.

Tarixən bir-birinə yaxın olan, İslam aləminə mənsub olan bu iki dövlət – Misir Ərəb Respublikası ilə Azərbaycan Respublikası arasında əlaqələrin bundan sonra daha da genişləndirilməsinə dair bir neçə fikir barədə razılığa gəlmişik. Bildiyiniz kimi, cənab Hüsni Mübarək məni Misirə rəsmi səfərə dəvət etmişdir. Mən də cənab Hüsni Mübarəki Azərbaycana rəsmi səfərə dəvət etdim. Güman edirəm ki, bu səfərlər həyata keçiriləcək, iki ölkə arasında əlaqələrin genişlənməsi, inkişaf etməsi üçün müəyyən dövlətlərarası sənədlər imzalanacaqdır. Bu gün səhər Misir Ərəb Respublikasının xarici işlər naziri cənab Əmir Musa ilə görüşümüzdə də bu məsələlər müzakirə edilmişdir.

Sentyabrın 5-də mən Qahirəyə gələn kimi Birləşmiş Millətlər Təşki[194-195]latının baş katibi cənab Butros Qali ilə görüşümüz və geniş söhbətimiz olmuşdur. Bu söhbətdə Azərbaycanın beynəlxalq aləmdə vəziyyəti haqqında bəhs etmişik. Xüsusən Azərbaycan ilə Ermənistan arasında gedən müharibə, Ermənistanın Azərbaycana etdiyi təcavüz və bu təcavüzün nəticəsində Azərbaycan torpaqlarının bir qisminin işğal olunması ilə əlaqədar məsələlərə dair danışıqlar aparmışam. Bildiyiniz kimi, Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi ilə əlaqədar olaraq BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi olmuşdur.

Bu qətnamələrdə Ermənistan silahlı qüvvələrinin işğal edilmiş torpaqlarımızdan heç bir şərt qoymadan çıxması tələb olunmuşdur. Ancaq təəssüf ki, bu qətnamələr hələ də yerinə yetirilməyib. Bu məsələlər ümumiyyətlə, Azərbaycan-Ermənistan münaqişəsinin BMT vasitəsilə, digər beynəlxalq təşkilatlar vasitəsilə sülh yolu ilə aradan qaldırılması imkanları cənab Butros Qali ilə müzakirə olunmuşdur. Bu məsələlərin müzakirəsi BMT Baş Məclisinin sentyabrın sonunda keçiriləcək sessiyası zamanı da cənab Butros Qali ilə müzakirə ediləcəkdir.

Bu gün Pakistanın baş naziri xanım Bənəzir Bhutto ilə mənim çox əhəmiyyətli görüşüm və söhbətim olubdur. Biz ölkələrimiz arasındakı dostluq əlaqələrinin inkişaf etdirilməsi yollarını müzakirə etmişik, bu barədə həmfikir olmuşuq. Pakistan bir ölkə kimi, bir dövlət kimi Azərbaycan müstəqillik əldə edəndən indiyə qədər ölkəmizə həmişə müsbət münasibət göstərmişdir. Ona görə də Pakistan ilə əlaqələrimizin bundan sonra daha da inkişaf etməsi üçün yaxşı əsas yaranmışdır.

Bu gün ABŞ-ın vitse-prezidenti cənab Albert Qor ilə mənim görüşüm olmuşdur. Bu görüş çox əhəmiyyətli, məzmunlu olmuşdur. Mən bu görüşdən çox məmnunam. Biz Azərbaycan ilə ABŞ arasında əlaqələrin daha da genişləndirilməsi məsələsini müzakirə etmişik. Azərbaycan ilə Ermənistan arasında gedən müharibəyə son qoyulması, bu məsələnin sülh yolu ilə həll olunması barəsində fikir mübadiləsi aparmışıq. ABŞ-ın bu məsələdə mühüm rol oynaması hər iki tərəfdən bildirilmişdir. Bu görüşdə ABŞ ilə Azərbaycan arasında iqtisadi əlaqələrin inkişaf etdirilməsi məsələsinə də toxunulmuşdur. Xüsusən, Azərbaycan Dövlət Neft Şirkətinin Qərb ölkələri neft şirkətlərinin konsorsiumu ilə apardığı danışıqlar haqqında məlumat verilmişdir. Hər iki tərəf eyni fikirdə olmuşdur ki, bu danışıqlar sona çatdırılmalı, nəzərdə tutulan müqavilələr imzalanmalıdır.

Bu gün mən bu salonda Amerikanın Misirdə olan Ticarət Palatasının nümayəndələri ilə görüşmüşəm. Bu görüşdə Azərbaycanın xarici ölkələrlə iqtisadi əlaqələri haqqında məlumat vermişəm və Ticarət Palatasına mənsub olan biznesmenləri, iş adamlarını Azərbaycana gəlib respublikamızla əməkdaşlıq etməyə dəvət etmişəm.

Burada başqa dövlət xadimləri ilə də görüşlərim olub. Hesab edirəm ki, qısa müddətdə keçirilən bu görüşlərin hamısı Azərbaycanın beynəlxalq mövqelərini möhkəmləndirmək, beynəlxalq əlaqələrini inkişaf etdirmək üçün səmərəlidir. Bu görüşlərin hamısında mən demişəm və sizə də [195-196] bildirmək istəyirəm ki, Azərbaycan bir müstəqil dövlət kimi öz müstəqilliyini tarixi nailiyyət hesab edir. Bu müstəqilliyi saxlamaq, möhkəmləndirmək əsas vəzifəmizdir və biz çalışacağıq ki, bu vəzifəni axıradək layiqincə yerinə yetirək.

Azərbaycanda demokratik hüquqi dövlət qurulur, demokratik cəmiyyət yaranır. Bu sahədə bir çox addımlar atmışıq, bundan sonra da demokratiya yolu ilə getmək əzmindəyik. Demokratiyanın əsas prinsiplərindən olan insan azadlığı, söz azadlığı, insan haqlarının qorunması, siyasi plüralizm, siyasi fikir müxtəlifliyi və başqa bu kimi amillər Azərbaycanın həyatında get-gedə öz yerini tutur, bərqərar olmaqdadır. Biz bu istiqamətdə işləri davam etdirəcəyik.

Azərbaycanın iqtisadiyyatı indi böhran keçirir. Bu, bir tərəfdən Azərbaycanın keçmiş Sovet İttifaqı tərkibindən çıxması və bir iqtisadi-ictimai quruluşdan başqa bir quruluşa keçməsi ilə, digər tərəfdən respublikamızın müharibə şəraitində olması, Azərbaycanın torpaqlarının 20 faizinin işğal edilməsi və həmin ərazilərdən bir milyondan artıq Azərbaycan vətəndaşının didərgin, qaçqın düşməsi ilə əlaqədardır. İqtisadiyyatın böhran vəziyyətindən çıxması üçün lazımi tədbirlər görürük. Bu sahədə bizim siyasətimiz Azərbaycan iqtisadiyyatını bazar iqtisadiyyatı yolu ilə aparmaq, özəl bölmənin fəaliyyətini genişləndirmək və özəlləşdirməni gücləndirmək, sahibkarlığa, təşəbbüskarlığa geniş imkanlar yaratmaq, Azərbaycan iqtisadiyyatını dünyanın inkişaf etmiş ölkələrinin iqtisadi sistemi əsasında qurmaq və dünya iqtisadiyyatına bağlamaqdan ibarətdir.

Biz məhz bu yolla gedirik və bu yolla gedəcəyik. Ümidvaram ki, biz bu yolda uğurlar qazanacağıq. Bütün bunlar üçün başqa ölkələrlə iqtisadi əlaqələrin genişlənməsinə, respublikamıza investisiya qoyulmasına, iş adamlarının gəlib Azərbaycanda müştərək iş aparmasına çox böyük ehtiyac var. Mən bu görüşlərdə bəyan etmişəm və sizə də bildirmək istəyirəm ki, Azərbaycan açıq ölkədir, onun qapıları bütün xarici dövlətlər üçün açıqdır. İş adamları bundan istifadə edərək gəlib Azərbaycana investisiya qoymaqla, həm özləri mənfəət götürə bilər, həm də biz bunun sayəsində Azərbaycanın iqtisadiyyatmı inkişaf etdirə bilərik.

Bütün bunlarla yanaşı, indi Azərbaycanın ən böyük problemi – müharibə vəziyyətindən çıxmaq, erməni silahlı qüvvələri tərəfindən işğal edilmiş torpaqlarımızın geriyə qaytarılmasını təmin etmək, qaçqın düşmüş, doğma yerlərini itirmiş bir milyondan artıq Azərbaycan vətəndaşlarını öz evlərinə, öz yaşayış yerlərinə qaytarmaqdan ibarətdir. İndiki görüşlər, bundan əvvəl mənim bir neçə ölkəyə səfərlərim zamanı olmuş görüşlər bir daha sübut edir ki, Azərbaycan haqqında bu ölkələrdə az məlumat var və bəzən də olan məlumatlar obyektiv xarakter daşımır. Ona görə də bizim əsas vəzifəmiz Azərbaycanın vəziyyəti haqqında dünya ölkələrinə doğru-düzgün və ardıcıl məlumat verməkdir. Eyni zamanda biz arzu edirik ki, xarici ölkələrdə olan jurnalistlər, mətbuat işçiləri, informasiya orqanları, Azərbaycan haqqında doğru-düzgün, obyektiv məlumat verməyə çalışsınlar. [196-197]

Müharibə şəraitində iqtisadiyyatda böhran vəziyyəti olmasına baxmayaraq, Azərbaycanın daxilində ictimai-siyasi vəziyyət sabitdir. Biz bu sabitliyi təmin edirik və bundan sonra da təmin edəcəyik.

Mən bu salona toplaşan jurnalistləri, mətbuat işçilərini bir daha salamlayıram və hamınızı, hər birinizi Azərbaycana dəvət edirəm. Diqqətinizə görə minnətdaram. Əgər suallarınız varsa, cavab verməyə hazıram.

**Sual: ABŞ-ın vitse-prezidenti cənab Albert Qor ilə görüşünüzdə Azərbaycan Dövlət Neft Şirkəti ilə Qərb neft şirkətləri konsorsiumu arasında danışıqlara Rusiyanın təsirindən də söhbət getdimi? Sizcə, bunun üçün Amerika Rusiyaya müəyyən təsir edəcəkmi ?**

**Cavab:** ABŞ-ın vitse-prezidenti cənab Albert Qor ilə danışıqlarımızda Qərb ölkələrinin neft şirkətləri konsorsiumu ilə Azərbaycan Dövlət Neft Şirkəti arasında gedən danışıqlar haqqında bizim fikrimiz eyni olmuşdur. Yəni onlar da, biz də belə fikirdəyik ki, bu müqavilələr artıq imzalanmalıdır. Onlar tərəfindən bizə heç bir təzyiq yoxdur və güman edirəm ki, heç bir təzyiq də ola bilməz. Onlar da, biz də maraqlıyıq ki, bu müqavilələr imzalansın. Ancaq bir şərt var, mən bunu həmişə demişəm, cənab Albert Qor ilə görüşəndə də dedim ki, bu müqavilə Azərbaycanın milli mənafelərini təmin edən bir müqavilə olmalıdır. Çünki neft yataqları Azərbaycan xalqının ən böyük sərvətidir. Bu sərvətdən biz həm bu gün üçün, həm də gələcək nəsillər üçün gərək səmərəli istifadə edək. Ona görə də hazırlanan və imzalanmalı olan müqavilə gərək Azərbaycanın milli mənafelərini təmsil etsin. Güman edirəm ki, belə də olacaqdır.

Amerikanın Rusiyaya təsir etməsinə heç bir ehtiyac yoxdur. Mətbuatda belə bir fikir yaranıb ki, Rusiya bu müqavilələrin bağlanmasına mane olmaq istəyir. Amma Rusiya tərəfindən belə konkret addımlar atılmayıb. Ona görə də Amerikanın bu barədə Rusiyaya təsir etməsinə ehtiyac yoxdur. Neft yataqları Azərbaycana məxsusdur. Biz Qərb neft şirkətlərini neft yataqlarından istifadə olunması işinə cəlb etməyə çalışmışıq və çalışırıq.

**Sual: Aldığım məlumata görə, BMT-nin baş katibi Butros Qali ilə görüşdə Siz BMT qoşunlarının Azərbaycana gəlməsini xahiş etmisiniz, lakin bu, qəbul olunmayıb. Bu təklifin həyata keçirilməsi üçün Siz gələcəkdə daha hansı addımlar atacaqsınız ?**

**Cavab:** Bu belə deyil. Mən cənab Butros Qalidən BMT qoşunlarının Azərbaycana gəlməsini xahiş etməmişəm və belə dəvət olmayıb. Qarabağ məsələsini həll etməkdən ötrü Azərbaycan ilə Ermənistan arasındakı müharibəyə son qoyulması, sülh yaranması üçün beynəlxalq təşkilatların fəaliyyətini gücləndirmək haqqında mənim təkliflərim olub. BMT-nin fəaliyyətinin gücləndirilməsi haqqında təkliflər vermişəm. O cümlədən BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi dörd qətnamənin həyata keçirilməsi barədə təkliflər olubdur. Ancaq xüsusi qüvvələrin oraya gətirilməsi haqqında təkliflər olmayıbdır. Bu barədə verilən məlumatlar yanlışdır.

**Sual: Azərbaycanda neft sənayesindən əlavə, daha hansı sahələr inkişaf etmişdir?** [197-198]

**Cavab**: Bizdə sənaye çox böyük potensiala malikdir. Neft-qazçıxarma sənayesindən əlavə, Azərbaycanın böyük sənaye potensialı var. Neft ilə əlaqədar olaraq kimya sənayesi də var. Maşınqayırma sənayesi var. Bizdə maşınqayırma çoxsahəlidir. Burada həm neft avadanlığı, cihazları istehsalı, həm də neft maşınqayırması, kimya maşınqayırması, elektrotexnika, radiotexnika, elektronika, mikroelektronika, cihazqayırma və maşınqayırmanın başqa sahələri var.

Azərbaycanda metallurgiya sənayesi çox inkişaf etmişdir. Həm qara metallurgiya, həm də əlvan metallurgiya sənayesi vardır. Azərbaycanda kənd təsərrüfatının potensialı geniş olduğuna görə kənd təsərrüfatı məhsullarının emalı, bununla bağlı toxuculuq sənayesi, xalq istehlakı malları istehsal edən sənaye sahələri də çox geniş potensiala malikdir.

Neft-qaz yataqlarından savayı, Azərbaycanın başqa yeraltı sərvətləri də zəngindir. Respublikamızın yataqlarında qara metal, yəni dəmir, əlvan metal ehtiyatları da çoxdur.

**Sual: Siz dediniz ki, iştirak etdiyiniz indiki konfransdakı çıxışlar əməli xarakter daşıyırdı və bu ideyalardan Azərbaycanda da istifadə edirsiniz. Bunu deyərkən nəyi nəzərdə tutursunuz ?**

**Cavab:** Şübhəsiz ki, çıxışlarda səslənən fikirlərin hamısı ilə razılaşmaq olmaz. Ancaq çox əhəmiyyətli fikirlər, təkliflər də vardır. Mən belə hesab edirəm ki, konfrans öz işini, yəqin konsensusla qurtaracaqdır. Hər halda konfransın qətnamələrini biz də nəzərdən keçirəcəyik. Bu sənədlər heç də hər bir ölkə üçün məcburi deyildir. Həmin qətnamələrdə Azərbaycan üçün nə xeyirlidirsə, biz onlardan istifadə edəcəyik. Konfransın əsas məqsədlərindən biri əhali artımının, ailənin planlaşdırılmasıdır. Hesab edirəm ki, bu məsələlərdə inzibati yolla getmək olmaz, lakin hər bir ölkə bu gününü və gələcəyini düşünərək lazımi tədbirlər görməlidir. Bunların sırasında əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması, adamların mədəni səviyyəsinin (o cümlədən ailə daxilində) yüksəldilməsi və başqa tədbirlər var. Biz milli və dini ənənələrimizə uyğun olaraq bu konfransda irəli sürülən fikirlərdən, bayaq dediyim kimi, Azərbaycan üçün faydalı olanları götürəcəyik.

**Sual: Cənab prezident, sizin dövlətiniz MDB-nin üzvüdür. Azərbaycanın başqa dövlətlərlə, o cümlədən Qərb dövlətləri ilə münasibətlərinin inkişafına Moskvanın maneçiliyi hələ də varmı ? Ümumiyyətlə, Ermənistanın Azərbaycana qarşı təcavüzünə MDB üzvlərinin münasibəti necədir? Məsələn, bizi Moskvanın mövqeyi maraqlandırır: o, bitərəfliyi gözləyirmi, yoxsa erməniləri fəal müdafiə edir? İkinci sual: Prezident Hüsni Mübarəklə danışıqlarınız barədə məlumat verərkən dediniz ki, ikitərəfli münasibətlərin inkişaf etdirilməsindən söhbət getmişdir. Sizcə, ölkələrimiz arasında münasibətlərin yüksələn xətlə inkişafı üçün hansı tədbirlər görülməlidir?**

**Cavab:** Əvvələn, MDB üzvü olan ölkələrin başqa ölkələrlə münasibətlərinə heç bir məhdudiyyət qoyulmamışdır. Biz başqa ölkələrlə əlaqə[198-199]lər yaratmağımızda məhdudiyyət hiss etmirik. İqtisadiyyat sahəsində Müstəqil Dövlətlər Birliyinin çox böyük ehtiyat imkanları var və bunlardan istifadə etmək lazımdır. Çünki indi MDB-yə daxil olan on iki dövlət keçmişdə bir dövlətin tərkibində idi. Onların bütünlükdə iqtisadiyyatı bir-biri ilə çox bağlı olmuşdur. İndi, hər bir respublika müstəqil olan bir vaxtda həmin əlaqələr qırılmışdır. Bu əlaqələrin bərpa olunması və inkişafı üçün mövcud imkanlardan istifadə edilməlidir.

O ki, qaldı sualınızın ikinci hissəsinə, çox təəssüf hissi ilə deyə bilərəm ki, Müstəqil Dövlətlər Birliyi bu birliyə daxil olan iki ölkə – Ermənistan ilə Azərbaycan arasında gedən müharibəyə, demək olar, biganədir. Mən Müstəqil Dövlətlər Birliyi rəhbərlərinin toplantısında bu məsələnin müzakirə olunmasını iki dəfə təklif etmişəm. Ancaq həmin məsələ müzakirə olunmamışdır. Eyni zamanda deməliyəm ki, Rusiya bu münaqişənin sülh yolu ilə aradan qaldırılmasına çalışır, Ermənistan ilə Azərbaycan arasında vasitəçi rolu oynayır və onun bu sahədəki fəaliyyəti müəyyən müsbət nəticələr verir. Ancaq biz istəyirik ki, bu məsələ böyük dövlətlərin, o cümlədən Rusiyanın vasitəçiliyi ilə, lakin beynəlxalq təşkilatlar səviyyəsində həll edilsin.

**Sual: Siz Qərb şirkətləri ilə neft müqaviləsi bağlamaq barədə çoxdan danışıqlar aparırsınız. Necə bilirsiniz, müqavilənin imzalanması vaxtı çatmışdırmı ?**

**Cavab:** Bəli, biz artıq son mərhələdəyik. Güman edirəm ki, müqavilənin imzalanmasına lap az qalmışdır.

**Sual: Hörmətli prezident, bilirsiniz ki, dünyada 20 milyon qaçqın var və onların 1 milyonu Azərbaycandadır. Qahirə konfransında qaçqınlara yardım məsələsi də müzakirə olunmalıdır. Azərbaycan qaçqınlarına yardım məsələsi barədə konfransda söhbət getmişdirmi ?**

**Cavab:** Hələlik bu barədə söhbət getməmişdir. Lakin konfransda bizim nümayəndələrimiz iştirak edir və onlar bu məsələni qaldıracaqlar.

**Sual: Azərbaycanda yeni, demokratik parlament seçkiləri nə vaxt keçiriləcək ?**

**Cavab:** İndiki parlamentin səlahiyyət müddəti 1995-ci ilin payızında qurtarır və həmin vaxtadək bütün demokratik prinsiplərə əməl edilməklə seçkilər keçiriləcək.

**Sual: Hazırda Misir və Azərbaycan arasında iqtisadi əlaqələr necə inkişaf edir? Azərbaycanda özəlləşdirmə prosesi necə gedir?**

**Cavab:** Misir Ərəb Respublikası ilə iqtisadi əlaqələrimizdə hələlik ilk addımlar atılır. Bir neçə iş adamı Azərbaycana gəlmiş, müəyyən sazişlər bağlanmışdır. Lakin biz bu əlaqələri inkişaf etdirməyə çalışacağıq. Cənab prezident Hüsni Mübarəklə də bu barədə danışıqlarımız olmuşdur.

Azərbaycanda, bir qədər ləng olsa da, özəlləşdirmə prosesi gedir. Özəl bölmə artıq öz yerini tutmuşdur. Özəlləşdirməyə dair proqramımız var və o, yaxın aylarda sürətlə həyata keçiriləcəkdir. [199-200]

**Sual: Azərbaycan öz ərazisində hər hansı dövlətin təhlükəsizlik qüvvələrini qəbul etməyə hazırdırmı ?**

**Cavab:** Biz müştərək beynəlxalq təhlükəsizlik qüvvələrini Azərbaycanda qəbul etməyə hazırıq. Çünki Ermənistanla Azərbaycan arasında gedən müharibəyə son qoyulması üçün, şübhəsiz ki, beynəlxalq qüvvələr olmalıdır. Belə qüvvələri, yəni bir neçə dövlətin hərbi kontingentindən ibarət olan qüvvələri qəbul etməyə hazırıq.

**Sual: İstiqlaliyyət qazanılmasının Azərbaycan üçün nə kimi əhəmiyyəti var və siz fəaliyyətinizi MDB-nin başqa dövlətləri ilə əlaqələndirirsinizmi ?**

**Cavab:** Zənnimcə, istiqlaliyyətin Azərbaycan üçün əhəmiyyətini izah etməyə ehtiyac yoxdur. Siz cavansınız. Misirin müstəmləkə vəziyyətindən çıxaraq istiqlaliyyət əldə etməsi Misir üçün nə qədər əhəmiyyətli idisə, Azərbaycanın istiqlaliyyət qazanması da ondan ötrü bu dərəcədə əhəmiyyətlidir. İstiqlaliyyətimizi qorumaq və möhkəmləndirmək üçün bütün dövlətlərlə ikitərəfli, qarşılıqlı surətdə faydalı əlaqələr yaradırıq. Müstəqil Dövlətlər Birliyinə daxil olan ölkələrlə də belə əlaqələr yaradırıq. Ancaq həmin respublikaların hər biri müstəqil dövlətdir və onlarla ikitərəfli əlaqələr saxlamaqla yanaşı, eyni zamanda MDB çərçivəsində əlaqələrimizi sahmana salırıq. Lakin MDB üzvü olan dövlətlərlə münasibətlərimizi əlaqələndirməyə ehtiyac yoxdur.

**Sual: Cənab prezident, bizim əlaqələrimizin kökləri qədimdir, – Sizin dediyiniz kimi, 1200 illik tarixi var. Bu gün Misir ilə Azərbaycan arasında mədəni əlaqələr barəsində nə deyə bilərsiniz ?**

**Cavab:** Azərbaycanla Misir arasında tarixi, mədəni əlaqələrin olması məlumdur. Bizim mədəniyyətimiz ərəb mədəniyyəti, ümumən Şərq mədəniyyəti ilə sıx bağlıdır. Azərbaycan dilindəki "mədəniyyət" sözü də, gərək ki, ərəb sözüdür, siz "mədəniyyə" deyirsiniz. Mənə məlumdur ki, son 20-30 ildə Azərbaycanın nümayəndələri, xüsusən incəsənət xadimləri Misir Ərəb Respublikasında – Qahirədə operada, konservatoriyada, incəsənət mərkəzində və başqa sahələrdə fəaliyyət göstərmiş, kadrlar hazırlamışlar. Misir Ərəb Respublikasının mədəniyyət xadimləri də dəfələrlə Azərbaycanda olmuşlar. Bu əlaqələr indi də davam edir.

Dünən axşam Misir prezidenti cənab Hüsni Mübarəkin təşkil etdiyi qəbulda və ondan sonra konfrans iştirakçıları üçün verilən konsertdə oldum. Biz prezidentlə yanaşı oturmuşduq və sizin ölkənizin incəsənət ustalarının çıxışlarına qulaq asırdıq. Mən bir daha özüm üçün müəyyən etdim ki, bizim musiqimizdə, rəqslərimizdə çox bənzərlik və yaxınlıq var. Hətta cənab Hüsni Mübarəkə dedim ki, siz Azərbaycana gələndə bizim incəsənət ustalarının konsertində eyni şeyi görəcəksiniz. Ancaq bu o demək deyil ki, əlaqələrimizi inkişaf etdirməməliyik, – əlaqələrimizi bundan sonra da genişləndirəcəyik.

Sizi bir daha salamlayır və diqqətinizə görə minnətdarlığımı bildirirəm, sağ olun! [200-201]

## MOSKVAYA MDB ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ GÖRÜŞÜNƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRƏ MÜSAHİBƏ

*8 sentyabr 1994-cü il*

Əlbəttə ki, indi hər bir toplantıdan respublikamızın problemlərinin həll olunması, Azərbaycanın başqa ölkələrlə əlaqələrinin möhkəmlənməsi üçün, o cümlədən Müstəqil Dövlətlər Birliyində aparacağımız işlər və əlaqələrimizin inkişaf etdirilməsi üçün çox şey gözləyirik. Nəyə nail olacağıq, – onu gələcək göstərəcək.

**Sual: Azərbaycanın qarşıdakı görüşlər üçün konkret təklifləri varmı?**

**Cavab:** Bizim təkliflərimiz həmişə var. Bu gün də var, sabah da var. Bunları indi istədiyimiz səviyyədə həyata keçirməyə nə qədər imkanımızın olması tək bizdən asılı deyil. Bilirsiniz ki, indi dövlətlərarası, yaxud dövlətlər birliyində olan işlər ümumi razılıq əsasında gedir. Ona görə də biz həmişə çalışırıq ki, respublikamızın mənafeyini təmin edən qərarlar qəbul olunsun və buna da nail olmağa çalışacağam.

**Sual: Moskvada yəqin ki, Ermənistan prezidenti ilə görüşmək fikriniz var?**

**Cavab:** Bəli, şübhəsiz ki, görüşəcəyəm, onunla da danışıqlarımız olacaq. Mən belə görüşləri həmişə səmərəli hesab edirəm və bu dəfə də görüşəcəyəm. [201-202]

## MÜHARİBƏNİ QURTARA BİLSƏK, AZƏRBAYCAN 2000-ci İLƏ TAMAMİLƏ BAŞQA GÖRKƏMDƏ QƏDƏM QOYACAQ

## MOSKVAYA UÇARKƏN TƏYYARƏDƏ "DELOVOY MİR" QƏZETİNİN MÜXBİRİNƏ MÜSAHİBƏ

*8 sentyabr 1994-cü il*

**- Mən Bakıya Azərbaycan Dövlət Neft Şirkətinin vitse-prezidenti İlham Əliyevin dəvəti ilə müqavilənin imzalanmasına gəlmişdim, həmin tədbir avqustun ikinci yarısı üçün nəzərdə tutulmuşdu. Lakin bu iş gecikdirilir. Heydər Əliyeviç, bu nə ilə əlaqədardır?**

- Çox iri bir müqavilə hazırlanır. Azərbaycan belə müqaviləni ilk dəfə bağlayır. Mən Azərbaycan iqtisadiyyatını və onun sənaye potensialını, xüsusilə neft və qaz sənayesini yaxşı bilən adam kimi, bu hazırlığın necə getməsi ilə maraqlanmaya bilməzdim. Mən danışıqları dayandırmaq, onların gedişini təhlil etmək, öz mövqeyini müəyyənləşdirmək və müqavilə konsepsiyamızı təklif etmək qərarına gəldim. Müəyyən vaxtdan sonra Azərbaycanın neft şirkəti onu mənə təqdim etdi. Ona təkcə mən yox, bütün instansiyalar baxdı və biz belə bir ümumi qərara gəldik ki, bu konsepsiya ilə danışıqlara getmək olar.

Qərb şirkətləri konsorsiumu onlara danışıqlara Bakıda başlamağı, sonra İstanbulda davam etdirməyi təklif etdi. Danışıqlar bir dəfə Bakıda, üç dəfə Türkiyədə keçirildi. Sonuncu danışıqlar, əslində, əlverişli keçdi. Bütün prinsipial məsələlər üzrə razılığa gəlindi, bu həm Qərb neft şirkətlərinin, həm də Azərbaycan Respublikasının mənafeyinə uyğun olmalı idi. Danışıqların iştirakçıları xahiş etdilər ki, mən onları birlikdə – həm Azərbaycan Neft Şirkətinin rəhbərliyini, həm də konsorsiumun nümayəndələrini qəbul edim. Bu görüşdə "Bi-Pi"-nin ("Britiş Petroleum") vitse-prezidenti və "AMOKO" iştirak edirdi. Həm onlar, həm də başqaları məlumat verdilər ki, onlar ümumi rəyə gəlmişlər və müqavilənin mətnini praktik şəkildə tərtib etmək vaxtı gəlib çatmışdır. Onların fikrincə, bu işi Hyustonda görmək daha yaxşıdır, çünki orada həm texniki, həm də digər şərait Bakıda olduğundan yaxşıdır. Mən razılaşdım və onlar iyulun 20-də oraya yollandılar. Nəzərdə tutulurdu ki, onlar 20-25 gün müqavilənin mətni üzərində işləyəcək, qəti razılığa gələcək, bundan sonra müqavilənin imzalanacağı günü müəyyənləşdirəcəyik.

Lakin nə isə, gözlənilməz hadisələr baş verdi. Əvvəla, bu vaxtlar müxtəlif mətbuat orqanlarında, o cümlədən Moskva və Qərb mətbuatında müqavilə ilə bağlı müxtəlif rəylər, hər cür fitnəkar yazılar meydana gəldi. Onlar, əlbəttə, əsl həqiqətə uyğun gəlmirdi və ictimaiyyəti müəy[202-203]yən dərəcədə çaşdırırdı. Hyustonda danışıqlar işə başlanmışdı və müvəffəqiyyətlə davam etdirilirdi. Lakin Qərb neft şirkətləri İstanbulda artıq razılaşdırılmış bəzi bəndləri yenidən nəzərdən keçirməyə başladılar. İstanbuldan sonra onların nümayəndələri mənim yanımda olmuş, onların istəyi ilə mən də razılaşmışdım ki, müqavilə ilə əlaqədar bütün prinsipial məsələlər həll edilmişdir və bu əsasla imzalamaq üçün onun mətnini hazırlamağa başlamaq olar.

Lakin Hyustonda hansı səbəbdənsə onlar müqaviləyə yenidən baxmağa, onun bəzi çox mühüm müddəalarına və bəndlərinə dəyişikliklər etməyə başladılar ki, bu da Azərbaycanın iqtisadi və əlbəttə, milli mənafeyinə toxunurdu, lakin o biri tərəfə böyük xeyir verirdi. Ona görə də danışıqlar uzandı. Əvəzində böyük işlər görüldü. İki gün əvvəl mənə məlumat verdilər ki, müqavilənin mətni artıq hazırdır, lakin bəzi mövqelər üzrə razılıq əldə edilməyib. Ona görə də biz belə düşündük ki, avqustda və ya sentyabrın əvvəllərində müqavilənin imzalanması baş tutmayacaq. Deməli, nümayəndə heyətimiz Bakıya qayıtmalı, biz mübahisəli məsələləri nəzərdən keçirməli, onlara öz münasibətimizi bildirməli və görünür, sonra yeni görüş keçirməli olacağıq. Doğrulur, Qərb şirkətləri çox israr edirdi ki, müqavilə heç olmasa sentyabrın 10-15-də imzalansın. Biz də bunu istəyirdik. Sonra mən Amerika Birləşmiş Ştatlarının rəhbərliyi ilə görüşdüm – Amerika Birləşmiş Ştatlarının prezidenti cənab Bill Klintonun rəsmi nümayəndəsi madam Olbrayt Bakıda oldu. O deyirdi: Biz çox istəyirik ki, müqavilə yaxın vaxtlarda imzalansın. Elə həmin tarixi – sentyabrın 10-15-ni göstərirdi. İki gün əvvəl mən Qahirədə Amerika Birləşmiş Ştatlarının vitse-prezidenti cənab Albert Qorla görüşdüm. O da dedi ki, bu işdə bizim marağımız onlarınkından az deyil, çünki bizim iqtisadi vəziyyətimiz işə tezliklə başlamağı tələb edir, bu işin isə yaxşı perspektivi var. Lakin müqavilə qarşılıqlı surətdə sərfəli olmalıdır. Həm Qərb neft şirkətləri üçün, həm də Azərbaycan üçün. Biz müqavilənin nə təkcə özümüz üçün, nə də təkcə o biri tərəf üçün birtərəfli qaydada xeyirli olmasına yol verə bilmərik. Bax, işlər buna görə uzanırdı. Yaxın günlərdə nümayəndə heyətimiz Bakıya qayıdacaq, biz mübahisəli məsələləri nəzərdən keçirəcəyik və öz mövqeyimizi müəyyən edəcəyik.

**- Sizin fikrinizcə, Heydər Əliyeviç, indi kütləvi informasiya vasitələrində, o cümlədən Rusiyanın mətbuat orqanlarında şişirdilən Xəzər dənizinin statusu məsələsi necə həll edilməlidir?**

- Rusiya tərəfindən bu məsələyə, əslində, toxunulmamışdır. Xəzərin Azərbaycan sektorunun birgə istismarı barədə Azərbaycanla Böyük Britaniya arasında saziş imzalanması haqqında Rusiya XİN-in Böyük Britaniya Krallığına kiçik notası var idi. Doğrudan da, bu ilin fevral ayında mənim rəsmi səfərim zamanı belə bir sazişi biz baş nazir cənab Meycorla Londonda imzalamışdıq. Bundan başqa heç nə olmamışdı. Deyəsən, bunun üçün Xəzər dənizinin statusunun müəyyən edilməsinin [203-204] zəruriliyi barədə orada işarə vurulmuşdu. Həmin notaya Böyük Britaniya XİN müvafiq tərzdə cavab vermişdi. Bundan sonra mən Böyük Britaniyanın xarici işlər naziri cənab Duqlas Herdlə görüşdüm. O mənə dedi ki, onlar cavab vermişlər və bu notanın heç bir əhəmiyyəti yoxdur.

Rusiya bizim qarşımızda heç bir məsələ qaldırmamışdır. Üstəlik, konsorsiumda bizim tərəfdən Rusiyanın nəhəng "LUKoyl" neft şirkəti iştirak edirdi. Müqavilə payının on faizi ona məxsusdur. Yəni Rusiya burada kənarda qalmayıb. Onun da marağı var. Bu birincisi, ikincisi, Xəzər dənizinin statusu hələ 10-20 ildən sonra müəyyən edilə bilər. Bu məsələ dəfələrlə müzakirə edilməlidir və həm Rusiyanın, həm Qazaxıstanın, həm Türkmənistanın, həm İranın, həm də Azərbaycanın müstəsna hüququdur. Daha vacib bir cəhət Azərbaycan neftçiləri qırx beş ildir ki, Xəzərdə neft və qaz yataqlarının kəşfiyyatı, çıxarılması, işlənməsi ilə məşğuldurlar. Onlar bu işi Xəzərin bütün akvatoriyasında aparırdılar. Əsasən isə Azərbaycan bölməsinə daxil olan akvatoriyada işləmişlər. Sovet İttifaqı dağıldıqdan, respublikalar müstəqil olandan sonra biz Xəzər dənizinin ortasından sərhəd çəkdik. Türkmənistan sahillərində də neftin işlənməsi və çıxarılması ilə Azərbaycanın neft şirkəti məşğul olurdu, lakin biz oradan çıxıb getdik. Orada türkmən neftçiləri işləyirlər. Başqa sözlə, burada bizim heç bir mübahisəli məsələmiz yoxdur. Xəzərin cənubunda İran neft yataqlarının kəşfiyyatına başlayır. Özü də müstəqil, heç kəsdən heç nə soruşmadan. Yeri gəlmişkən, o, Azərbaycanın neft şirkəti ilə müqavilə bağlamışdır və bizim neftçilər orada quyu qazırlar. Rusiya da, Qazaxıstan da öz bölmələrində belə işlər görə bilər. Burada heç kəs digərinə mane olmur. Bölmə məsələsi hansı qüvvələr tərəfindənsə süni surətdə yaradılıb və bizim işlərə, xüsusilə müqavilə bağlamağa mane olmaq məqsədi güdür. Lakin mən belə hesab edirəm ki, bunun üçün heç kimin heç bir əsası yoxdur. Özü də təkrar edirəm, Rusiya tərəfindən bu məsələ Azərbaycan qarşısında bir dəfə də qaldırılmamışdır.

**- Bizim qəzet işgüzar qəzetdir, bunu onun adından da görmək olar, mən də siyasətsiz keçinmək istərdim. Lakin Qarabağ probleminin nizama salınmadığı bir ölkə haqqında danışarkən, yəqin ki, bunsuz ötüşmək olmaz. Görünür, Allah özü sizi göndərib ki, heç kəsə lazım olmayan müharibəyə son qoyasınız. Hamı da görür ki, siz buna necə də çalışırsınız. Çoxdan gözlənilən bu hadisə baş verəndə – hamı buna çox ümid bəsləyir – təbiətən yaradıcı olan siz iqtisadiyyatın bərpası ilə daha yaxından məşğul olacaqsınız. Hansı iqtisadi modelə üstünlük verəcəksiniz? Siz özəlləşdirmə və dövlətin tabeçiliyindən çıxarmaq yolu ilə gedən Rusiyadan nümunə götürəcəksiniz, yoxsa hansısa başqa yol seçəcəksiniz?**

- Əvvəlcə, sualınızın birinci hissəsinə cavab verirəm. Azərbaycana yenidən rəhbərlik etməyə başladığım andan – bu, təqribən bir il əvvəl baş verib – mən doğrudan da müharibəyə son qoymağa çalışıram. Müharibə altı ildir davam edir. Onun Azərbaycan tərəfindən başlanmadığını [204-205] hamı bilir. Azərbaycan bu müharibəyə cəlb edilmişdir, böyük itkilər verib, onun ərazisinin iyirmi faizi işğal olunub, bir milyon nəfərdən artıq sakini qaçqına çevrilmişdir. Adamlar əziyyət çəkir, hələ həlak olanları, yaralananları və əlil olanları demirik. Erməni silahlı birləşmələri tərəfindən işğal olunan ərazilərdə isə hər şey məhv edilmişdir. Onilliklər, yüzilliklər ərzində yaradılan hər şey. Azərbaycan Respublikasına külli miqdarda ziyan vurulmuşdur. Müharibənin heç bir gələcəyi yoxdur. Şəxsən mən belə hesab edirəm. Sağlam düşüncəli hər bir adam belə hesab etməlidir. Elə bilirəm ki, erməni tərəfi də bunu başa düşür. Çünki dünyada sonsuz müharibə heç vaxt olmamışdır. Çox uzun sürən müharibələr olmuşdur, lakin onların hamısı sülhlə qurtarmışdır. Bu müharibə nə qədər davam etsə də, hər halda onun perspektivi yoxdur, o nə bu, nə də digər tərəfə üstünlük verə bilməz.

Ona görə də mən qarşıma məqsəd qoymuşam ki, bu məsələnin sülh yolu ilə həllinə nail olum, müharibə qurtarsın. Əlbəttə, Azərbaycanın milli mənafeyini təmin etmək şərti ilə. Bu şərtlər Azərbaycanın ərazi bütövlüyü, müstəqil Azərbaycan dövlətinin sərhədlərinin toxunulmazlığı, erməni silahlı birləşmələri tərəfindən işğal olunmuş bütün ərazilərin azad edilməsi, qaçqınların öz yaşayış yerlərinə qaytarılmasından ibarətdir. Erməni tərəfinin də öz şərtləri var. Onlardan hansını qəbul etmək mümkündürsə, biz qəbul edirik. Təbii ki, bu, Dağlıq Qarabağda erməni əhalisinin təhlükəsizliyinin təmin edilməsi, Dağlıq Qarabağa müvafiq status verilməsi, beynəlxalq nəzarət altında (bu bizim rəyimizdir) Dağlıq Qarabağla Ermənistan arasında Laçın rayonu vasitəsilə humanitar dəhlizin təmin edilməsindən ibarətdir. Əgər bu şərtlər ermənilər tərəfindən qəbul olunarsa, onda sülh təmin oluna bilər. Mən sülh üçün çalışıram, ona nail oluram və istəyirəm sülh olsun. Mən elə hesab etmirəm ki, hərbi yolla tərəflərdən hansısa biri müvəffəqiyyət qazana bilər. Mən nikbinəm və ümid edirəm ki, sülh olacaqdır.

Sualınızın ikinci hissəsi: biz hansı modeli seçirik – Rusiya modelini, yaxud hansısa başqasını? Mən artıq çoxdan, Azərbaycana gələn kimi elan etmişəm ki, respublikamız demokratikləşmə, demokratik hüquqi dövlət quruculuğu yolu ilə dünya demokratiyasının təcrübəsindən istifadə etməklə, demokratiyanın bütün atributları ilə demokratik cəmiyyət quruculuğu yolu ilə getməlidir. Əlbəttə, yerli şərait, milli xüsusiyyətlər, milli ənənələr nəzərə alınmaqla.

İqtisadiyyata gəldikdə isə o, şübhəsiz ki, bazar iqtisadiyyatı olmalıdır, təşəbbüs, azad sahibkarlıq üçün şərait yaradılmalıdır. Köhnə iqtisadi prinsiplərə, köhnə sistemə qayıdış ola bilməz. Eləcə də, köhnə ictimai-siyasi sistemə. Bu mənim əqidəmdir. Belə hesab edirəm ki, bütün bunlar Azərbaycanı iqtisadi və sosial böhrandan çıxara bilər. Əlbəttə, müəyyən çətinliklər olacaq, lakin elə düşünürəm ki, azad cəmiyyətə, azad həyata və azad iqtisadiyyata qovuşmaq üçün xalq onlara dözməlidir. İqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə sınaqdan çıxarılmış model budur. Azərbaycan [205-206] şəraitində mən bunları respublikamızda tətbiq etmək və təsdiqləmək niyyətindəyəm.

**- Bu yaxınlarda Azərbaycan mətbuatında baş nazir Surət Hüseynovun proqram çıxışı dərc edilmişdi. Orada o, həm də islahatların və cari işlərin həyata keçirilməsi üçün Nazirlər Kabinetinin səlahiyyətlərinin azlıq etməsindən narazılığını bildirir. Siz buna necə münasibət bəsləyirsiniz?**

- Nazirlər Kabinetinin səlahiyyətləri lazım olduğundan da çoxdur. Lakin məsələ burasındadır ki, o, islahatların keçirilməsi mövqeyində dayanmır. Bundan əlavə o, daha çox komanda-inzibatçılıq sisteminin təsdiqi mövqeyində durur. Əslində o, islahatların həyata keçirilməsinin əleyhinədir. Yeri gəlmişkən, baş nazir bunu biz məsələləri müzakirə edərkən açıq deməmişdir. Sonralar isə qəzetlərdə onun adından materiallar yazırlar. Mənə belə gəlir ki, Azərbaycan ictimaiyyəti kimin nəyə tərəfdar olduğunu yaxşı bilir.

**- Hamının bütün səviyyələrdə müzakirə etdiyi məsələ: Heydər Əliyeviç, MDB çərçivəsində iqtisadi məkanın bərpası barədə sizin fikriniz? Siz onu necə təsəvvür edir, görürsünüz? Misal üçün, mən eşitmişəm ki, sabah – birisigün Dövlətlərarası İqtisadi Komitə yaradılması barədə məsələ həll ediləcəkdir. O necə olacaqdır? Siz Avroasiya dövlətləri ittifaqı təşkil edilməsi haqqında Nazarbayevin ideyası ilə razılaşırsınızmı?**

- Azərbaycan MDB-yə daxil olmamışdı, siz bunu bilirsiniz. Respublikamız onun tərkibinə ötən ilin sentyabrında daxil olmuşdur. İyun ayında mən Azərbaycan Respublikasına başçılıq etməyə başladım və respublikada MDB-yə daxil olmaq üçün psixoloji mühit yaratmaq məqsədi ilə bir neçə ay işləməli oldum. Ölkəmizdə MDB-yə qarşı münasibət çox mənfi idi. Bilirsinizmi, insanların psixologiyasında dönüş yaratmaq asan olmadı. Həm Azərbaycan parlamentində, həm də ictimai rəydə. Bunun xalqın iradəsinə uyğun olması üçün birləşmək barədə mən dəfələrlə parlamentdə məsələ qaldırdım. O, ictimaiyyət, əmək kollektivləri arasında, politoloqlar, ziyalılar tərəfindən müzakirə edildi. Nəticədə adamlarımızı inandıra bildik ki, Azərbaycanın MDB tərkibində olması zərurətdir. Mən belə bir mandat aldım və sentyabrın 24-də Moskvada respublikanın MDB-yə birləşdirilməsi barədə sənədləri imzaladım. Lakin bununla belə, mən MDB-nin fəaliyyəti ilə yaxından tanış olanda hiss etdim ki, çox təəssüf, orada heç də hər şey nizama salınmamışdır. "MDB"-nin adı var, lakin yaxşı fəaliyyət mexanizmi, qarşılıqlı əlaqə yoxdur. Müxtəlif ideyalar, müxtəlif fikirlər, o cümlədən Nursultan Nazarbayevin təklifləri meydana gəlmişdir. Bu ideya diqqətəlayiqdir. Lakin daha diqqətlə öyrənilməlidir. Təəssüf ki, mənim hələ buna imkanım olmamışdır. Lakin oktyabrda dövlət başçılarının görüşü olacaqdır. Görünür, o vaxtadək bu məsələ ilə əlaqədar biz öz mövqeyimizi işləyib hazırlaya biləcəyik. Ona görə MDB çərçivəsində iqtisadi inteqrasiya olmalıdır. Xüsusilə MDB tərkibinə daxil olan dövlətlər arasında ikitərəfli sıx əlaqələr yaradılmalıdır. MDB də şübhəsiz, bu [206-207] iqtisadi inteqrasiyanı təmin etməyə borcludur. Bununla belə, bu işi mərkəzləşdirmək olmaz, yenidən hansısa mərkəz, hansısa tənzimləyici yaratmağa cəhd göstərmək yaramaz. Bunu həyata keçirmək qeyri-mümkündür. Ona görə də indi haradasa haqqında müzakirə gedən iqtisadi komitə barədə heç nə deyə bilmərəm.

**- Siz bunu mərkəz kimi qəbul edirsiniz?**

- O, elə mərkəz təsiri bağışlayır. Ona görə də bu işi diqqətlə öyrənmək lazımdır. Başqa sözlə, mənim mövqeyim belədir: iqtisadi inteqrasiya daha səmərəli olmalıdır. O, indi aşağı səviyyədədir, lakin o, dövlətlərin suverenliyinə və iqtisadi müstəqilliyinə xələl gətirməməlidir. Burada bacarıqlı əlaqə, tarazlıq yaradılmalıdır.

**- Siz öz planlarınızda hansı istiqamətə üstünlük verirsiniz: Cənuba, Qərbə, yaxud Şimala?**

- Mən dəfələrlə bəyan etmişəm: Azərbaycan müstəqil dövlətdir və bütün dünya üçün qapıları açıqdır. Rusiya bizim şimal qonşumuzdur, bizi iki yüz illik birgə həyat, çoxlu cəhətlər birləşdirir, Rusiya ilə dostluq münasibətləri, iqtisadi əlaqələr olmalıdır. Kim desə ki, bunsuz keçinmək olar, onda o, səhv edər. Lakin bununla birlikdə Azərbaycan müstəqil dövlət kimi öz qonşuları Türkiyə, İran, Gürcüstan, habelə MDB-yə daxil olan digər dövlətlərlə ikitərəfli münasibətlər saxlayır və saxlayacaqdır. Təəssüf ki, Ermənistanla bizim aramızda müharibə gedir, lakin mənə elə gəlir ki, sülh yaranacaqdır. Əlbəttə, Şimal ölkələri ilə – Amerika Birləşmiş Ştatları, Avropa ilə əlaqələrimiz möhkəmlənməlidir. Müstəqil dövlət hansısa bir tərəfə meyllənməməlidir, mən də çoxtərəfli əlaqələr tərəfdarıyam.

**- Bakılılar danışırlar ki, siz 70-ci illərdə nadir elmi-texniki kadrlar potensialı və çoxmillətli ziyalılar ordusu yaratmısınız. İndi isə biz böyük təəssüf hissi və kədərlə müşahidə edirik ki, istedadlı adamlar ölkəni tərk edir, özü də bu axın heç də azalmır. Əksinə, daha da güclənir. O cümlədən sizin ölkənizdən də. Mən də bilirəm ki, ölkəniz neçə-neçə gözəl alimdən, rəssamdan, bəstəkardan məhrum olmuşdur. Burada qalan adamlar acı-acı şikayətlənirlər ki, ziyalılığın səviyyəsi kəskin surətdə aşağı düşmüşdür, təmasda olmağa adam tapılmır, rus və xarici elmi nəşrlər hətta Elmlər Akademiyasının kitabxanasına da gətirilmir, yaranmış intellektual vakuumda nəfəs almaq olmur. Nəhayət, çoxdan gözlənilən dinc sakitlik**

**nə vaxt bərqərar olacaq, ölkənizdə vəziyyət nə vaxt sabitləşəcək, rahatlıq yaranacaq? Siz, əvvəla, bu axının qarşısını almaq üçün, ikincisi, hazırladığınız kadrların Azərbaycana qayıtması üçün hansı tədbirləri görürsünüz? Gəlin bir daha xatırlayaq ki, bəşəriyyət tərəfindən informasiya əsri kimi qiymətləndirilən XXI əsrin astanasındayıq.**

- Bu məsələ mənim üçün çox ağırdır, mənə mənəvi zərbə vurur. Bəli, yəqin ki, adamlar xatırlayırlar. Azərbaycanda intellektual potensialın yaradılması üçün mən az iş görməmişəm. Həm elmdə, həm mədəniyyətdə, həm sənayedə, həm də kənd təsərrüfatında. Hər yerdə, hər sahədə. Mən buna bütün həyatımı həsr etmişəm. Bu mənim həyatımın [207-208] bir hissəsidir, özü də əsas hissəsi. Bəlkə ona görə daha ağırdır ki, yaratdıqlarım müəyyən dərəcədə məhv olmuş, dağılmışdır. Lakin bu, daha məndən asılı deyildir. Bu vəziyyətə səbəb son altı-yeddi il ərzində baş verən proseslərdir. Mənə elə gəlir ki, Azərbaycanın elmi, iqtisadi, intellektual potensialı həm Azərbaycanın özündə, həm də onun hüdudlarından kənarda yaşayır. Lap Rusiyanın özündə də. Vaxtilə mən xüsusi olaraq Rusiyanın ali məktəblərinə oxumağa çoxlu adam göndərmişdim, onlar orada təhsil almış, elmlər doktoru, professor olmuş, yaşamaq üçün də orada qalmışlar. Qərb ölkələrində də bizim çoxlu mütəxəssisimiz var. Elə bilirəm ki, bizdə iqtisadi şərait yaxşılaşanda, iqtisadiyyat inkişaf edəndə, biz cəmiyyətə böyük zərbə vuran mənfi hallardan qismən də olsa yaxa qurtaranda, həmin potensial yenidən qayıdacaqdır. Mən nikbinəm – mən buna inanıram.

**- Ona görə ki, sizin gözəl torpağınız və zəngin imkanlarınız var**.

- Həm torpağımız gözəldir, həm də elə bilirəm ki, özüm də buna kömək edəcəyəm.

**- Xammal ehtiyatlarının zənginliyinə görə Azərbaycanı tez-tez gah Küveytlə, gah da Klondaykla müqayisə edirlər. Lakin respublikanın əhalisi kasıb yaşayır. Dilənçi vəziyyətinə düşmüşdür. Xüsusilə ziyalılar həm mənəvi, həm də fiziki cəhətdən əzab çəkir, həyat və yaradıcılıq üçün vəsait qazanmaq yollarını tapa bilmir. Bu, onun xüsusiyyətidir. Bu, sosial problemi siz necə həll edəcəksiniz?**

- Sosial problemlər əsasən iqtisadi islahatların həyata keçirilməsi yolu ilə həll ediləcəkdir. Onun həyata keçirilməsi istehsalın həcmini qaldırmağa imkan verəcək, bu isə respublikanın iqtisadi və maliyyə vəziyyətini yaxşılaşdıracaqdır. Bütün bunlar tədricən həyat səviyyəsinin yaxşılaşmasına gətirib çıxaracaqdır.

**- Siz həyatda çox şey görmüsünüz, Heydər Əliyeviç, başınız bəlalar çəkib. Gərək ki, 80-ci ildə "Literaturnaya qazeta"-ya verdiyiniz müsahibəni xatırlayıram. O, ölkəmizdə böyük əks-səda doğurdu, bildiyimə görə, xarici ölkələrdə də buna diqqət yetirdilər. Misal üçün, onda biz öyrəndik ki, sizin təşəbbüsünüzlə İttifaqda ilk dəfə olaraq ictimai rəyi öyrənən Mərkəz yaradılmışdır. O, həm də proqnozlaşdırma ilə məşğul olurdu. Onda bunu qeyri-mümkün, təəccüblü hal kimi qiymətləndirirdilər – gələcəklə bağlı olan fikirlər**.

- Gördüyünüz kimi, gələcək təsdiq edir ki, onlar doğru imiş.

**- Budur, siz yenə də ən məsul vəzifədəsiniz və mənə elə gəlir ki, bir dəqiqə də boş vaxtınız yoxdur. Lakin əgər belə bir dəqiqə tapılsa, – nəyi arzu edərdiniz, nə barədə düşünərdiniz? Yaxın gələcəyi, deyək ki, ikimininci ilə qədərki dövrü, sonrakı illəri necə təsəvvür edirsiniz? Xahiş edirəm, fikrinizi bildirin.**

- Doğrudan da, çox şeylər görmüşəm. Lakin elə indi, yenidən ikinci dəfə Azərbaycana – bu dəfə müstəqil dövlət kimi – başçılıq etməyə başlayanda bircə məqsədim olub: öz doğma xalqımı, öz doğma respublikamı ağır vəziyyətdən çıxarmaq. Mən təkcə bunu arzu edirəm, mənim həyat[208-209]da başqa heç bir planım, heç bir arzum yoxdur. Boş dəqiqələrim yox dərəcəsindədir. Görürsünüzmü, hətta burada, təyyarədə biz həmkarlarımızla məsələləri müzakirə edirdik, onlarla söhbəti qurtaran kimi sizi dəvət etdim. 10 dəqiqədən sonra isə biz artıq Moskvada yerə enəcəyik. Ona görə də boş vaxtım, əslində, yoxdur. Mən həmişə fikirləşirəm, beynim fikirlərdən demək olar ki, heç vaxt ayrılmır.

**- Yeri gəlmişkən, əhatənizdə olan işgüzar adamlar, elə xalq özü də sizi super-kompüter adlandırırlar. Deyirlər, sizin gözəl hafizəniz var.**

- Lakin başlıca fikrim Azərbaycanı ağır vəziyyətdən xilas etməkdir. Əgər biz müharibəyə son qoya bilsək, əgər möhkəm, uzunmüddətli sülh yarada bilsək, elə bilirəm ki, Azərbaycan ikiminci ilə tamamilə başqa görkəmdə qədəm qoyacaqdır. Mən buna inanıram. İnşallah, belə də olacaqdır.

**- Söhbətə görə sağ olun.**

Müsahibəni Antonina Qalayeva aparmışdır.
("Delovoy mir" qəzeti, 20 sentyabr) [209-210]

## BAKIDA "SAHİBKARLIĞIN STRATEGİYASI VƏ İQTİSADİYYATIN YENİDƏN QURULMASI" MÖVZUSUNDA BEYNƏLXALQ KONFRANSIN AÇILIŞI MƏRASİMİNDƏ NİTQ

*13 sentyabr 1994-cü il*

Hörmətli xanımlar və cənablar, "Sahibkarlığın strategiyası və iqtisadiyyatın yenidən qurulması" mövzusunda beynəlxalq Bakı konfransının iştirakçıları!

Sizi bu mühüm hadisə – beynəlxalq Bakı konfransının açılışı münasibətilə ürəkdən təbrik edir və sizə Azərbaycan Respublikası üçün çox mühüm olan işinizdə uğurlar arzulayıram. Beynəlxalq xarakter daşıyan konfrans, sözsüz, böyük əhəmiyyətə malikdir. Lakin azad inkişaf yoluna qədəm qoyan müstəqil Azərbaycan üçün konfrans xüsusilə böyük əhəmiyyət daşıyır.

Məlumdur ki, Azərbaycan istiqlaliyyət əldə etdiyi vaxtdan bəri öz həyatını, dövlətini, iqtisadiyyatını, öz milli mənafelərini əsas tutaraq, demokratiya prinsipləri əsasında qurur. Bu da bütün iqtisadi sistemin ciddi şəkildə yenidən qurulmasını qarşıya bir şərt kimi qoyur. Bununla əlaqədar olaraq Azərbaycan azad iqtisadiyyat, bazar iqtisadiyyatı prinsipləri əsasında yenidənqurma strategiyasını elan etmişdir və bu yolla gedir. Təbiidir ki, 70 il ərzində başqa sosial-iqtisadi sistem şəraitində yaşamış olan respublika üçün bu yol son dərəcə çətin və mürəkkəbdir. Lakin bununla yanaşı, bu iqtisadiyyatdakı çətinlikləri aradan qaldırmaq, sosial-iqtisadi böhrandan çıxmaq və Azərbaycanı dünya iqtisadi sisteminə qoşmaqdan ötrü iqtisadiyyatın inkişafını beynəlxalq standartlara müvafiq surətdə təmin etmək üçün yeganə yoldur.

Bu sahədə respublikada az iş görülmür. Biz azad iqtisadiyyatın, bazar iqtisadiyyatının bərqərar olmasının və inkişaf etdirilməsinin müxtəlif yollarını nəzərdən keçirməyə çalışırıq. Təbiidir ki, çətinliklərlə qarşılaşır və dünya təcrübəsindən daha fəal istifadə etməyə böyük ehtiyac duyuruq. Bununla əlaqədar olaraq "Sahibkarlığın strategiyası və iqtisadiyyatın yenidən qurulması" mövzusunda beynəlxalq Bakı konfransı bizim üçün xüsusilə böyük əhəmiyyətə malikdir. Mən bunu əsas tutaraq, konfransın açılışında sizinlə birlikdə olmağı və öz fikirlərimlə sizə müraciət etməyi qərara aldım. Təbiidir ki, Azərbaycan iqtisadiyyatının yenidən qurulmasına konfransın, sizin birgə işinizin mühüm xidmət göstərəcəyinə ümid bəsləyirəm.

Azad iqtisadiyyat, bazar iqtisadiyyatı şəraitində böyük iş təcrübəsi olan xarici ölkə nümayəndələrinin konfransın işində iştirakı dünya iqtisadiyyatının, inkişaf etmiş ölkələrin təcrübəsindən daha səmərəli istifadə edərək öz gələcək fəaliyyət yollarımızı müəyyənləşdirmək üçün, şübhə[210-211]siz, mühüm, bəlkə də, həlledici amildir. Bu ölkələr məhz bazar iqtisadiyyatı, azad sahibkarlıq yollarında çox böyük müvəffəqiyyətlər qazanmışlar. Buna görə də mən Bakıya gələn və bu beynəlxalq konfransın işində iştirak edən xarici qonaqlarımızı ürəkdən salamlayır, onlara Azərbaycan iqtisadiyyatının problemlərinə səmimi münasibət göstərdiklərinə görə minnətdarlığımı bildirir və ümid edirəm ki, bizim birgə səylərimiz konkret əməli nəticələrə gətirib çıxaracaqdır.

Mən bazar iqtisadiyyatını, azad sahibkarlığı bərqərar etmək yolu ilə getdiyimizdən danışarkən bizim keçid dövrünün çətinliklərindən söz açdım. Bu çətinliklər həqiqətən var, obyektiv və müəyyən dərəcədə qanunauyğun xarakter daşıyır. Lakin bununla bərabər, bu salonda olanlara məlumdur və mən bir daha demək istərdim ki, Azərbaycanda iqtisadiyyatın yenidən qurulmasına başlanan dövrdə, xüsusən təxminən son iki ildə respublikada az iş görülməmişdir.

Həmin müddət ərzində minlərlə kiçik müəssisə, xarici firmalarla birlikdə çoxlu müştərək müəssisə, sahibkarlığın inkişafı üçün müəyyən şərait yaradılmışdır ki, bu da konkret əməli nəticələr vermişdir. Azad sahibkarlığa dövlət yardım fondu yaradılmış, digər tədbirlər görülmüşdür. Ən başlıcası isə sahibkarlığın inkişafı, bazar iqtisadiyyatı prinsiplərinin bərqərar edilməsi üçün əməli şərait yaradılmışdır. Bu yolla irəliləyişi təmin etməkdən ötrü müəyyən hüquqi əsaslar da yaradılmış, "Sahibkarlıq haqqında" qanun qəbul edilmişdir. Azərbaycan Respublikasının Milli Məclisi sahibkarlıq fəaliyyətinin əsas istiqamətlərini müəyyənləşdirmiş, sahibkarlığı, təşəbbüskarlığı fəallaşdırmaq, iqtisadiyyatımızı bazar iqtisadiyyatı yolu ilə inkişaf etdirmək üçün həm hüquqi zəmin, həm də müvafiq şərait yaratmaqdan ötrü bir sıra digər tədbirlər görmüşdür.

Bununla yanaşı, dövlət tərəfindən müvafiq tədbirlər müəyyənləşdirilmişdir. Məsələn, mən bunu vacib sayıram ki, biz ümumiyyətlə, iqtisadiyyatı sərbəstləşdirmək və xüsusən xarici ticarəti sərbəstləşdirmək üçün şərait yaratmışıq. Bu il aprelin 5-də verilmiş fərmanda iqtisadiyyatımızın sərbəstləşdirilməsi, xarici ticarətin sərbəstləşdirilməsi sahəsində tədbirlər kompleksi nəzərdə tutulur. Fərman şərait yaradır ki, bütün hüquqi şəxslər öz mallarını, o cümlədən də strateji malları müstəqil surətdə ixrac edə bilsinlər.

Bundan sonra da həmin yolla getmək üçün, təbii olaraq, digər addımlar da atılmalıdır. Məsələn, biz bazar iqtisadiyyatının sahibkarlıq infrastrukturunu yenidən qurmaq üçün tədbirlər görürük, bank sisteminin təkmilləşdirilməsinə böyük əhəmiyyət veririk ki, bazar iqtisadiyyatına yönəldilmiş xəttin həyata keçirilməsinin

ən mühüm vasitəsi kimi bu sistem beynəlxalq bank sisteminə müvafiq olsun və azad sahibkarlıq üçün şəraiti təmin etsin. Vergi sistemi sahəsində biz azad sahibkarlıq üçün maksimum əlverişli şərait yaradılmasına çalışırıq.

Bütün bunlar ancaq ilk addımlardır, hələ çox iş görülməlidir. Məsələn, [211-212] biz respublikamızda dövlət mülkiyyətinin özəlləşdirilməsi, mülkiyyət formasının dəyişdirilməsi yolu ilə cəsarətlə və qətiyyətlə getməli, bunu əsas tutmalıyıq ki, bu, istehsalın inkişafına, deməli, həm də iqtisadiyyatın inkişafına kömək edəcəkdir.

Azərbaycan böyük iqtisadi potensiala, məhsuldar qüvvələrə, əmək ehtiyatlarına, təbii sərvətlərə malikdir. Bütün bunlardan xalqın rifahı üçün, Azərbaycan iqtisadiyyatının inkişafı və onun iqtisadi qüdrətinin möhkəmlənməsi üçün səmərəli istifadə etməkdən ötrü biz bu tədbirləri həyata keçirməliyik. Ona görə də dövlət mülkiyyətinin özəlləşdirilməsi, eləcə də bununla əlaqədar bir sıra iqtisadi islahatlar keçirilməsi çox mühüm vəzifədir. Biz bunu dəfələrlə demişik. Konkret əməli tədbirlər gərəkdir. Etiraf etməliyəm ki, bu tədbirlər son dərəcə azdır və bu, bəlkə də, iqtisadiyyatın mürəkkəb vəziyyətdə olmasının səbəblərindən biridir. Biz aqrar islahat keçirilməsi yolu ilə getməli, aqrar bölmədə sahibkarlıq üçün şərait yaratmalı, nəzərdə tutmalıyıq ki, iqtisadiyyatın inkişafı üçün, ümumən Azərbaycan iqtisadiyyatının bütün sahələrində bazar iqtisadiyyatı prinsiplərini həyata keçirmək üçün aqrar bölmədə də böyük ehtiyat mənbələri vardır.

İqtisadi baxımdan inkişaf etmiş Qərb ölkələrinin təcrübəsindən bəhrələnməklə, sözün yaxşı mənasında sahibkarlıq bizim üçün ən mühüm amildir, buna görə də dövlət hər şeyi edəcəkdir ki, biz bu yolla gedə bilək. Bununla əlaqədar olaraq mən xarici investisiyalar üçün hüquqi imkanlar yaradan, onların müdafiə edilməsini nəzərdə tutan qanunu da xatırlatmaq istərdim. Zənnimcə, bu qanun əlverişli şərait yaradır ki, bizdə sahibkarlıq nəinki Azərbaycanın məhdud çərçivəsi daxilində inkişaf etsin, həm də bazar iqtisadiyyatı prinsiplərinin bərqərar edilməsi xarici firmalarla birlikdə, xarici investisiyalardan fəal istifadə olunmaqla həyata keçirilsin. Xarici investisiyaların Azərbaycanda tətbiq olunması üçün burada şərait var. Mən Azərbaycanın imkanlarını və iqtisadi potensialını xatırlatdım. Bu, bir tərəfdən. Digər amil isə bu sahədə dövlət siyasətidir. Dediyim kimi, dövlət siyasətində xarici investisiyalar, müştərək sahibkarlıq, xarici təcrübədən istifadə üçün maksimum əlverişli şərait yaradılması nəzərdə tutulur.

Aydındır ki, biz Azərbaycanda dövlət əmlakının özəlləşdirilməsinə, mülkiyyət formalarının dəyişdirilməsinə başlayarkən dövlət bölməsinin də qeydinə qalmalı, onu bazar iqtisadiyyatının tələblərinə, dünya təcrübəsinə müvafiq surətdə yenidən qurmaq üçün tədbirlər müəyyənləşdirməliyik.

Bütün bu vəzifələr qarşımızda durur və konfrans iştirakçılarını əmin etmək istəyirəm ki, biz bütün sahələrdə – sənayedə, aqrar bölmədə, ticarətdə, məişət sahəsində, bütün infrastrukturda iqtisadi islahatların fəal şəkildə həyata keçirilməsi yolu ilə getmək əzmindəyik. Biz Azərbaycan iqtisadiyyatının bu islahatlar, bu imkanlar vasitəsilə dirçəlməsi üçün fəal surətdə irəliləyəcəyik. Ümid edirik ki, Azərbaycanın böyük iqtisadi, intel[212-213]lektual potensialı, zəngin təbii ehtiyatları və məhsuldar qüvvələri məhz həmin yolla hərəkətə gətiriləcək və ölkə iqtisadiyyatının səviyyəsi qaldırılacaq. Onun böhran vəziyyətindən çıxması təmin ediləcək və respublikamızın əhalisinin daha yaxşı yaşaması üçün şərait yaradılacaqdır. Belə imkanlar var və şəxsən mən əminəm ki, biz bu yolla gedərək müvəffəqiyyətlərə nail olacağıq. Biz bu sahədə də tutduğumuz yoldan dönməyəcəyik.

Mən hesab edirəm ki, bu konfransın keçirilməsi qarşımızda duran vəzifələrin yerinə yetirilməsində bizə kömək göstərəcəkdir. Burada görkəmli iqtisadçılar, mütəxəssislər iştirak edirlər. Onlar bazar iqtisadiyyatı əsasında iqtisadi sistem yaradılması yollarını kifayət qədər yaxşı bilirlər. Buna görə də arzu edirəm ki, bu konfrans, xüsusən əcnəbi qonaqlarımız Azərbaycanın şəraitinə, bir çox onilliklər ərzində totalitar sosialist sistemi şəraitində inkişaf etmiş olan Azərbaycan iqtisadiyyatına uyğun məhz konkret yolların müəyyənləşdirilməsi üçün bizə faydalı, səmərəli kömək göstərsinlər. Ümidvaram ki, əcnəbi qonaqlarımızın çıxışları və onların sahibkarlarımıza, Azərbaycanın iqtisadiyyatla məşğul olan bütün dövlət orqanlarına faydalı məsləhətləri, tövsiyələri bizim üçün böyük kömək və böyük yardım olacaqdır.

Dövlət başçısı kimi mən bu məsələlərdə qəti mövqe tutur, Azərbaycan sahibkarları ilə, sahibkarlıq fəaliyyəti sahəsində müəyyən təcrübə toplamış olan adamlarla görüşlər keçirməyi planlaşdırıram. Bu görüşlərdən işgüzar dialoq, belə bir informasiya gözləyirəm ki, sahibkarlıq sahəsində nə iş görülüb, biz nəyə nail olmuşuq və konkret surətdə nə etmək lazımdır. İqtisadiyyatla məşğul olan dövlət strukturlarımız və ümumən biz bu cür informasiyanı ilk mənbələrdən almağa ehtiyac duyuruq. Əlbəttə, hər bir faydalı fikirdən, hər bir faydalı rəy və təklifdən istifadə edəcəyik. Yəni Azərbaycanın hər bir sahibkarı özünü respublika iqtisadiyyatının bir hissəsi bilməli və ölkənin iqtisadi tərəqqisi üçün səylər göstərməlidir. Məhz belə sahibkarlar uğurla fəaliyyət göstərə bilər, girişdikləri məsələlərlə sərbəst məşğul ola bilər, öz iqtisadi, intellektual potensialından heç bir məhdudiyyət olmadan istifadə etmək imkanına malik olar, eyni zamanda Azərbaycanda sahibkarlığın, bazar iqtisadiyyatının inkişafına, böhranın aradan qaldırılmasına kömək göstərə bilərlər.

Mən sahibkarlıq fəaliyyəti ilə məşğul olan hər bir Azərbaycan vətəndaşına məhz belə yanaşıram, onlara öz ehtiramımı bildirir, onların fəaliyyətinə səmimi münasibət göstərirəm. Bu gün konfransın işində artıq müəyyən nəticələrə nail olmuş Azərbaycan sahibkarları iştirak edirlər. Zənnimcə, onlar bu konfransın işindən, xüsusən əcnəbi qonaqlarımızın burada söhbət açacaqları təcrübədən çox şey əxz edə biləcək, həm öz işinin, həm də

bütövlükdə müstəqil Azərbaycan dövlətində sahibkarlığın müvəffəqiyyətini təmin etmək üçün müvafiq fikir mübadiləsi aparacaqlar. [213-214]

Mən xalqın rifahı naminə fəaliyyət göstərən hər bir Azərbaycan sahibkarına uğurlar və tərəqqi arzulayıram. Həmçinin əmin olduğumu bildirmək istəyirəm ki, «Sahibkarlığın strategiyası və iqtisadiyyatın yenidən qurulması» mövzusunda beynəlxalq Bakı konfransı Azərbaycan iqtisadiyyatının daha da inkişaf etməsində öz rolunu oynayacaqdır. Sizə işinizdə müvəffəqiyyətlər arzulayıram. Diqqətinizə görə sağ olun. [214-215]

## RESPUBLİKANIN ALİ MƏKTƏBLƏRİNƏ DAXİL OLMUŞ BİRİNCİ KURS TƏLƏBƏLƏRİ İLƏ GÖRÜŞDƏ NİTQ

*14 sentyabr 1994-cü il*

Hörmətli gənclər, tələbələr!
Hörmətli müəllimlər!

Bu il Azərbaycan Respublikasının ali məktəblərinə qəbul prosesi başa çatmaqdadır. Test üsulu ilə imtahan verib ali məktəblərə qəbul edilən gənclər artıq məlumdurlar. Onlar bu hüquqa nail olublar və sabah ali məktəblərdə yeni dərs ilinə başlayacaqlar. Bu münasibətlə mən sizi və sizin simanızda Azərbaycan Respublikasının bu il ali məktəblərə daxil olmuş gənclərini, yeni tələbələri səmimi-qəlbdən təbrik edirəm. Sizin hamınıza ali məktəblərdə təhsil almaqda uğurlar diləyirəm.

Ali məktəblərə qəbul prosesi və xüsusən hər il Azərbaycan Respublikası vətəndaşlarının, gənc nəslin ali məktəblərə qədəm qoyması respublikanın ictimai-siyasi həyatında böyük, əlamətdar hadisədir. Bu hadisəni biz qeyd edirik və bu münasibətlə də mən bu gün sizinlə görüşə gəlmişəm. Qəbul sahəsində aparılan işlər və əldə olunan nəticələr haqqında indi məlumat veriləcəkdir. Sonra isə buraya dəvət olunan gənclərdən söz demək istəyənləri məmnuniyyətlə dinləməyə hazıram.

* * *

Əziz gənclər, tələbələr, qızlar və oğlanlar, müstəqil Azərbaycan Respublikasının əziz övladları!

Bu gün sizin üçün tarixi bir gündür. Həyatınızda yeni mərhələyə başlayırsınız. Ali məktəblərə qəbul olunmusunuz. Orta məktəbdə təhsili bitirən hər bir gənc ali məktəbdə təhsil almağa, bu məqsədə nail olmağa çalışır. Orta məktəbi qurtarıb ali məktəbə daxil olmaq hər bir gənc üçün böyük hadisədir və tam qətiyyətlə deyə bilərik ki, bu, xoşbəxtlikdir. Siz bu xoşbəxtliyə nail olmusunuz. İndi siz Azərbaycanın ali məktəblərinin tələbələrisiniz, sabah auditoriyalara daxil olub dərsə başlayacaqsınız.

Mən sizi və sizin simanızda ali məktəblərə daxil olan Azərbaycan gənclərinin hamısını ürəkdən təbrik edirəm və sizə cansağlığı, ali təhsil almaq yollarında uğurlar arzulayıram!

Hər birinizin ali məktəbə daxil olmağınızda orta məktəblərimizin rolu çox böyükdür. Azərbaycan Respublikasının, Azərbaycan xalqının XX əsrdə böyük nailiyyətlərindən biri də budur ki, bizdə yaxşı orta təhsil sistemi yaranmışdır və orta məktəblərimiz gənclərə yaxşı təhsil verir, onları tərbiyələndirir, gələcək müstəqil həyata hazırlayır, ali təhsil almağın bünövrəsini qoyur. [215-216]

Bu gün burada çıxış edən gənclərin hamısı öz müəllimlərinə, təhsil aldıqları məktəblərə minnətdarlığını bildirdi. Bu, olduqca təbii haldır. Ona görə də bu gün mən gənclərimizi orta məktəblərdə hazırlamış, ali təhsil almaq üçün onlara lazımi bilik, tərbiyə vermiş müəllimlərə, məktəblərə minnətdarlığımı bildirirəm və bütün orta məktəb müəllimlərimizi bu hadisə münasibətilə təbrik edirəm.

Siz həyatınızda böyük bir addım atmısınız, gələcəyə doğru addım atmısınız. Qədəmləriniz uğurlu olsun! Qarşınızda böyük yol durur. ali təhsil almaq, müstəqil Azərbaycan Respublikasının həyatında özünü sınaqdan çıxarmaq, cəmiyyətdə istədiyiniz və layiq olduğunuz yeri tutmaq. Bunun üçün siz ilk imkanı əldə etmisiniz. Lakin qarşınızda hələ böyük yol durur. Mən arzu edərdim ki, siz indiyədək səylə təhsil aldığınız kimi, ali məktəblərdə də bütün fənləri dərindən mənimsəməyə çalışasınız və ali təhsilə malik layiqli mütəxəssis olasınız.

Bu, sizdən asılıdır. Əlbəttə, başqa amillərdən də asılıdır. Amma hər şeydən əvvəl sizin özünüzdən asılıdır. Güman edirəm ki, siz həyat yolunuzun ilk hissəsini müvəffəqiyyətlə keçdiyiniz kimi, ali məktəbdə təhsil dövrünü də uğurla başa çatdıracaq və xalqımız üçün, cəmiyyətimiz üçün, ölkəmiz üçün gərəkli, dəyərli adamlar olacaqsınız.

Bu gün burada çıxış edən gənclərin hamısı imtahanların test üsulu ilə keçirilməsindən məmnun olduğunu bildirdi. Onların əksəriyyəti dedi ki, əgər bu üsul olmasaydı, ali məktəbə daxil ola bilməzdilər. Bu fikirlər bir daha təsdiq edir ki, son vaxtlar Azərbaycanda ali məktəblərə qəbulda test üsulunun tətbiq olunması müsbət nəticələr verir, cəmiyyətimiz üçün xeyirlidir. Odur ki, biz bunu davam etdirməliyik.

Bu, bizim fikrimizdir, test üsulu ilə ali məktəblərə daxil olmuş gənclərin fikridir. Ancaq güman edirəm ki, test üsulu ilə imtahan verib qəbul oluna bilməyənlər də götür-qoy edərək, bu üsulun əhəmiyyətli olduğunu özləri müəyyənləşdirməlidirlər. Əgər bu üsulda, – ümumiyyətlə, onun özündə, ondan istifadə olunmasında nöqsanlar, səhvlər varsa, bunları da bildirməlidirlər. Lakin son illərdə əldə edilən nəticələr göstərir ki, bu, mütərəqqi üsuldur, gənclər sırasından ən biliklilərinin ədalətlə seçilib ali məktəblərə qəbul olunmasını təmin edən ən münasib üsuldur.

Siz bilirsiniz ki, mən keçmiş illərdə də Azərbaycan Respublikasının ali təhsil, ümumiyyətlə təhsil sistemi ilə çox məşğul olmuşam, fəaliyyətimin, həyatımın, demək olar, əksər hissəsi ərzində xalqımızın,

gənclərimizin dünya bilik səviyyəsinə müvafiq surətdə təhsil almasına, layiqli mütəxəssislər hazırlanmasına, gələcəkdə elmimizi, təhsilimizi, mədəniyyətimizi, iqtisadiyyatımızı, ictimai-siyasi həyatımızı inkişaf etdirməyə qadir olan adamlar yetişdirilməsinə var qüvvəmlə çalışmışam. Mən təhsilimizin tarixini də bilirəm. 70-80-ci illərdə ali məktəblərdə ədalətli prinsiplərin tətbiq olunması üçün çox çalışmışam. Ali məktəblərə qəbulda nöqsanların aradan qaldırılması uğrunda ciddi mübarizə aparmışam, daim də arzu [216-217] və istəyim bundan ibarət olmuşdur ki, ali məktəblərimiz həqiqətən yüksək təhsil ocaqlarına çevrilsin, ali məktəblərdə oxuyan gənclərimiz həm yüksək səviyyədə təhsil ala bilsin, həm də yaxşı tərbiyə edilsinlər.

Minlərlə gənclərimiz sırasından ali məktəblərimizə yalnız və yalnız biliyinə, zəkasına görə, hazırlığına görə ən layiqlilər seçilib götürülməlidir. Aydındır ki, hər bir gənc ali təhsil almaq istəyir. Məlumdur ki, keçmişdə təhsildən kənarda qalmış, savadsız olmuş adamlarımız çox idi. Lakin son onilliklərdə hamılıqla savadlanma, gənclərin təhsilə mütləq cəlb edilməsi ona gətirib çıxarmışdır ki, orta məktəbi bitirən hər bir gənc, daha doğrusu, onların böyük əksəriyyəti ali məktəblərə daxil olmağa çalışmışdır. Amma ali məktəblərimiz ali təhsil almaq istəyənlərin hamısını qəbul etmək imkanına malik olmamışdır. Bu, təbiidir. Axı, bu məsələlər de planlaşdırılır. Odur ki, hər bir ali məktəbin qəbul üçün müəyyən imkanı var. Ona görə də bizi daim düşündürən məsələlərdən biri də budur ki, ali məktəblərə gənclərimizin yalnız ən bilikliləri, zəkalı və savadlıları, layiqliləri daxil olsunlar.

Keçmiş vaxtlarda bu sahədə nailiyyətlər də olub, nöqsanlar, qüsurlar da. Əlbəttə, çox razı və narazı qalanlar da olub. Biz əksər hallarda ədaləti təmin etməyə nail olmuşuq. Ancaq eyni zamanda bəzi qruplar, adamlar bizim bu işimizin ədalətlə getməsinə əngəl törədirdilər. Buna görə ədalətsizlik halları da olmuşdur. Belə hallar isə ali təhsil sistemində çalışan müəllimlərimizin, məsul işçilərin bu sahədə buraxdıqları nöqsanlardan, öz vəzifələrindən sui-istifadə etmələrindən irəli gəlirdi. Buna görə də biz belə halların kökünü kəsmək üçün hələ o vaxtlar da müxtəlif yollar axtarırdıq ki, ali məktəblərə qəbul tam ədalətli olsun. Şübhəsiz ki, müxtəlif sistemlər yaradılırdı. Lakin o vaxtlar Sovet İttifaqının heç bir yerində test üsulu tətbiq edilmirdi.

İndi üçüncü ildir ki, test üsulu Azərbaycanda tətbiq olunur. Bu üç ilin təcrübəsi göstərir ki, – mən bunu bir daha deyirəm, – bu üsul ədaləti tam olmasa da, hər halda təmin edir. Lakin bu üsulun tətbiqi sahəsində də, şübhəsiz, təcrübə toplamaq, səriştə və təcrübəni daha da artırmaq lazımdır. Bu üsulun tətbiqi zamanı bəzi qüvvələrin yenə də əlyeri tapıb, qeyri-qanuni hallara yol verməsinin qarşısını almaq gərəkdir. Ötən üç ilin təcrübəsi həmçinin göstərir ki, belə hallar olmaqla yanaşı, müəyyən təcrübə də toplanıbdır, test üsulunun tətbiqi ildən-ilə təkmilləşdirilmişdir. Amma bu üsuldan istifadə edərək, qanunsuz yollarla getmək istəyənlər də olmuşdur. Bununla bərabər, zənnimcə, nailiyyət ondan ibarətdir ki, belə xoşagəlməz, mənfi halların qarşısı alınmışdır. Bəlkə də tamamilə alınmamışdır, – mən bunu qətiyyətlə deyə bilmərəm, lakin hər halda test üsulu müsbət nəticələr verir.

Test üsulu ilə keçirilən builki imtahanlar ötən illərdəkindən daha uğurlu olmuşdur. Bu da onunla bağlıdır ki, birinci il təcrübə, şübhəsiz, az idi. Test üsulunun tətbiq edildiyi birinci il yerlərin cəmi 30 faizi tutulmuşdu, 70 faizi isə boş qalmışdı. Nəticədə də məsələ uzanmış və dərslər [217-218] 92-ci ildə deyil, 93-cü il fevralın 1-də başlanmışdı. Beləliklə, ali məktəblərə daxil olanlar tam kurs keçə bilməmişdilər. 93-cü ildə irəliləyiş olmuş və yerlərin 60 faizi tutulmuşdu. Lakin məsələ yenə də uzanmış, dərslər dekabrın 15-də başlanmışdı.

Bu il isə test üsulunun tətbiqi təkmilləşdirilmişdir. Görünür, bu işlə məşğul olanların təcrübəsi artmışdır. Nəticədə ali məktəblərə qəbulun 87 faizi təmin edilmişdir. Odur ki, sentyabrın 15-də siz, eləcə də bütün birinci kurs tələbələri təhsil almağa başlayacaqsınız, sizin üçün tədris ili başlanacaqdır.

Bunlar onu göstərir ki, test üsulunun tətbiqi, bir tərəfdən, hər il müsbət nəticələr verir, digər tərəfdən isə, test üsulu ilə məşğul olan orqanlarımızın fəaliyyəti təkmilləşir və biz yaxşı nailiyyətlər əldə edirik. Mənə verilən məlumatlardan aydın oldu ki, bu gündən sonra da test üsulu ilə qəbul imtahanları keçiriləcəkdir. Qəbul olunmayanlar test üsulundan bir də keçiriləcəklər. Onlar hazırlıq şöbəsinə gedəcək, sonra isə test üsulu ilə imtahan verəcəklər. Gürcüstandakı abituriyentlər Gürcüstanda, dağıstandakılar isə Dağıstanda qəbul ediləcəklər. Hərbi məktəblərə qəbul da test üsulu ilə olacaqdır. Güman edirəm ki, bu tədbirlər də qısa müddətdə həyata keçiriləcəkdir. Beləliklə də, biz test üsulunun bəhrəsini görəcəyik, ali məktəblərimizə tələbələrin yeni bir dəstəsi qəbul ediləcəkdir.

İndi bu yeni qəbulla əlaqədar olaraq ali məktəblərin üzərinə çox böyük vəzifələr düşür. Bu vəzifələr aydındır. Əgər test üsulu ilə tələbələr qəbul edilmişdirsə, deməli, onlara qayğı göstərmək, təhsil almaları üçün şərait yaratmaq, onlara yaxşı təhsil vermək lazımdır. Mən qeyd etdim ki, bizim istər orta təhsil, istərsə də ali təhsil sahəsində böyük nailiyyətlərimiz var. Lakin son illərdə respublikamızın ictimai-siyasi həyatında baş verən proseslər, Azərbaycanın altı ildən bəri müharibə vəziyyətində olması, iqtisadi və sosial sahələrdə gedən proseslər və meydana gəlmiş mənfi hallar təhsil sahəsinə, o cümlədən ali məktəblərin işinə də mənfi təsir göstərmişdir. Ali məktəblərin işində keçən dövrlərə nisbətən nöqsanlar çoxalmışdır. Hətta bəzi hallarda tədrisin, təhsilin səviyyəsi də aşağı düşmüşdür. Bunlar reallıq, həqiqətdir. Biz onları etiraf etməliyik. Nöqsanları özümüz deməliyik. Əvvəla, biz daim gərək həqiqəti açıq söyləyək. İkincisi də, hamımız birləşib bu nöqsanları aradan qaldırmalıyıq.

Gənc nəsil gəlir. Bu, Azərbaycanın gələcəyidir. Ali məktəblərə daxil olan gənclər Azərbaycanın elmini, mədəniyyətini, iqtisadiyyatını, ictimai-sosial həyatını inkişaf etdirəcək yeni nəslin bir dəstəsidir. Bu gənclərin qeydinə qalmaq, onlara qayğıkeş münasibət göstərmək, başlıcası isə, yaxşı təhsil vermək, ali məktəblərdə mənəvi mühiti möhkəmlətmək, gənclərimizi gələcəkdə müstəqil həyatda sərbəst və layiqincə çalışmağa hazırlamaq – bunlar ali məktəblərin professor və müəllim heyətinin, bütün ali məktəb işçilərinin müqəddəs vəzifəsidir. [218-219]

İndi ali məktəblər tələbə qəbulu işindən azad olublar, yükləri müəyyən qədər azalıbdır. Deməli, qəbul olunmuş gəncləri hazırlamaq, savadlandırmaq, yüksək mənəvi səviyyəyə çatdırmaq ali məktəblərin borcudur. Ona görə də bu gün mən bütün ali məktəblərə, professor və müəllimlərimizə, alimlərimizə müraciət və tövsiyə edirəm ki, onların bu sahədə işi qoy həmişə şərəfli olsun, baş ucaltsın, onlar hər gün, hər dərs saatında respublikamızın gələcəyi barədə düşünsünlər. Respublikamızın gələcəyi isə gənclərin nə dərəcədə keyfiyyətlə hazırlanmasından asılıdır. Biz çalışmalıyıq ki, müstəqil Azərbaycan Respublikasının gələcəyi daha uğurlu, daha gözəl olsun, xalqımız gündən-günə daha yüksək səviyyələrə qalxsın.

Ümidvaram ki, ali məktəblərin professor-müəllim kollektivləri öz vəzifələrini şərəflə yerinə yetirəcək və Azərbaycanın gənc nəslinin hazırlanmasına öz xidmətlərini göstərəcəklər.

Lakin çox şey tələbələrin özlərindən asılıdır. Siz, əziz tələbələr, bilməlisiniz ki, Azərbaycan gəncləri arasında sizin üçün xüsusi şərait yaradılmışdır. Siz ali məktəblərə daxil olmusunuz və buna görə də sizin vəzifəniz, borcunuz yaxşı təhsil almaqdan ibarətdir. Aydındır ki, Azərbaycan gənclərinin böyük bir hissəsi başqa sahələrdədir. Sizin kimi gənclər Azərbaycan torpaqlarını müdafiə etmək üçün onun keşiyində durur, ordu sıralarında, cəbhədədirlər. Gənclərin başqa bir hissəsi sənaye, kənd təsərrüfatı sahələrində çalışır, əmək fəaliyyətinə başlamışdır. Siz isə xüsusi bir şəraitə düşürsünüz. Odur ki, gərək bunun qədrini biləsiniz və bu şəraitdən həm özünüz üçün, həm də öz xalqınız, öz valideynləriniz üçün, Azərbaycanın gələcəyi üçün səmərəli istifadə edəsiniz.

Ali məktəblərə daxil olmağınız münasibətilə keçirilən bu görüşdə mən sizi təbrik etməklə yanaşı, Azərbaycan Respublikasının müdafiəsi, onun ərazi bütövlüyünün qorunması üçün keşikdə duran gənclər barəsində də düşünürəm. Onlar mənim daim qəlbimdədir.

Bildiyiniz kimi, altı ildir müharibə gedir. Müharibəni də əsasən gənclərimiz aparırlar, onlardan təşkil olunmuş ordumuz aparır, Azərbaycanın qeyrətli, cəsur oğulları aparırlar. Bu altı ildə biz itkilər vermişik. Bakıdakı Şəhidlər xiyabanı, şəhər və qəsəbələrimizdəki, kəndlərimizdəki şəhid məzarları gənclərimizin qəhrəmanlığının nişanəsidir, onların Vətən yolunda, xalq yolunda, müstəqil Azərbaycan uğrunda şəhid olduqlarını göstərən abidələrdir. Biz onların qəhrəmanlığını, igidliyini heç vaxt unutmayacağıq və unuda da bilmərik. Siz gənclər şəhidlərin xatirəsini daim yad etməli, həmişə qəlbinizdə saxlamalısınız. Torpaqlarımızı qoruyan, sərhədlərimizin keşiyini çəkən, cəbhədə olan sizin kimi gənclər haqqında daim düşünməlisiniz, onlara mənəvi dayaq olmalı, onları ruhlandırmalısınız. Bu da sizli-bizli hamımızın müqəddəs vəzifəsidir.

Bu gün – sizin üçün, hamımız üçün, respublikanın bütün ictimaiyyəti üçün əlamətdar olan bu gündə mən müstəqil Azərbaycanın müdafiəsi uğrunda canından keçib şəhid olan Azərbaycan övladlarını yad edirəm və [219-220] bildirirəm ki, onların qəhrəmanlığı qəlbimizdə əbədi yaşayacaqdır. Gəlin, şəhidlərin xatirəsini bir dəqiqəlik sükutla yad edək. Allah bütün şəhidlərə rəhmət eləsin!

Bildiyiniz kimi, Ermənistanla Azərbaycan arasında gedən müharibədə dörd aydır atəş dayandırılmışdır və bu atəşkəs davam edir. Altı ildən bəri gedən müharibə dövründə ilk dəfədir ki, belə uzunmüddətli atəşkəs əldə olunmuşdur. Bu onu göstərir ki, biz müharibə aparmaq istəmirik. Müharibəyə də biz başlamamışıq. Azərbaycan xalqı öz torpaqlarını qorumaq, ərazi bütövlüyünü saxlamaq uğrunda müharibə aparır. Ermənistan tərəfindən Azərbaycana təcavüz edilmişdir və bu təcavüz indiyədək davam edir. Lakin bunlara baxmayaraq, biz müharibəyə son qoymağa daim çalışırıq, ortaya çıxan məsələləri sülh yolu ilə həll etmək istəyirik. Ermənistanla Azərbaycan arasında sülh yaratmaq istəyirik, ortaya atılmış Qarabağ məsələsini sülh yolu ilə həll etmək istəyirik. Bu, bizim mövqeyimizdir, biz bunu beynəlxalq təşkilatlarda da bildirmişik. Bunu dünya ictimaiyyəti də bilir. Atəşin kəsilməsinə məhz bunun sayəsində nail olmuşuq. Biz beynəlxalq təşkilatların, böyük dövlətlərin – Qərb dövlətlərinin, Rusiyanın vasitəçiliyi ilə uzunmüddətli sülh əldə etmək istəyirik. Ancaq bu, yalnız və yalnız Azərbaycan Respublikasının ərazi bütövlüyünün, sərhədlərinin toxunulmazlığının, Azərbaycan Respublikasının suverenliyinin təmin edilməsi şərti ilə həyata keçirilə bilər. Biz çalışacağıq ki, buna nail olaq. Lakin eyni zamanda xalqımız, ordumuz, gənclərimiz müstəqil Azərbaycan Respublikasının dövlətini, ərazi bütövlüyünü, suverenliyini, sərhədlərinin toxunulmazlığım qorumağa, müdafiə etməyə həmişə hazır olmalıdırlar.

Buna görə də biz ordu quruculuğuna daim diqqət yetiririk. Ordumuzun möhkəmlənməsi həm bu gün Azərbaycanın müdafiəsi üçün lazımdır, həm də gələcəkdə müstəqil Azərbaycanın suveren bir dövlət kimi yaşaması üçün vacibdir. Azərbaycan müstəqildir və daim müstəqil olacaqdır. Bunun üçün Azərbaycanın güclü dövlət orqanları olmalıdır, dövlət quruculuğu prosesi həyata keçirilməlidir. Azərbaycanın müstəqilliyini qorumaq üçün onun güclü ordusu olmalıdır. Odur ki, hər birimiz Azərbaycan Ordusunun möhkəmlənməsi, təkmilləşməsi üçün, ordunun qüdrətinin artması üçün çalışmalıyıq. Siz gənclər də ali təhsil almaqla yanaşı

bilməlisiniz ki, hər biriniz Azərbaycan Ordusu sıralarında xidmət etməyə hazır olmalısınız, özünüzü buna hazırlamalısınız.

Gənclərimizi vətənpərvərlik ruhunda, xalqımızı, xüsusən gəncləri bu ruhda, müstəqil Azərbaycanın qorunub saxlanması ruhunda, bu məqsədlə hər bir vətəndaşın, hər bir gəncin fədakarlığa hazır olması ruhunda tərbiyə etmək lazımdır. Bu, hamımızın, xüsusən müəllimlərimizin borcudur. Təhsil ocaqlarında bu məsələyə xüsusi fikir verilməlidir.

Çıxış edən tələbələrdən biri dedi ki, o, hərbi kadrlar hazırlanan fakültəyə daxil olmuşdur, özünü hərbi işə həsr etmək istəyir, niyyəti Azərbaycan ordusunda xidmət etməkdir. Bu çox təqdirəlayiq haldır. Vətənini mü[220-221]dafiə etməyə çalışan hər bir vətəndaş, hər bir gənc bizim üçün əziz, qiymətli və dəyərlidir.

İndi biz öz taleyimizin sahibiyik. Xalqımız öz milli azadlığına nail olmuşdur. Müstəqil dövlətimiz qurulur və biz müstəqilliyimizi qoruyub saxlamalıyıq. Ona görə də gənclərimizin bu prinsiplər əsasında tərbiyə edilməsi həm müəllimlərimizin, həm ictimaiyyətin, həm də informasiya orqanlarımızın başlıca vəzifəsidir.

Ali məktəblərin qarşısında duran vəzifələr çoxdur. Bizə məlumdur ki, ali məktəblərin işində çətinliklər də az deyildir. Biz bunları bilirik. Ali məktəb müəllimlərinin işi keçmişdəkinə nisbətən daha da çətinləşmişdir. Bizə bunlar da məlumdur. Lakin hamı bilməlidir ki, indi bizim həyatımız da çətindir, ağırdır, respublikamız sosial-iqtisadi böhran içərisindədir. İqtisadiyyatımızda çətinliklər var, dəyişikliklər gedir və bütün bunlar, ümumiyyətlə, həyatımızda böyük çətinliklər yaradır. Biz bu çətinliklərin aradan qaldırılmasına çalışırıq və bundan sonra da çalışacağıq. Mən tam əminəm ki, Azərbaycan Respublikasının təbii sərvətləri, iqtisadi və elmi potensialı, əməksevər adamları bu vəziyyətdən çıxmağımız üçün böyük zəmindir. Biz belə vəziyyətdən çıxmağa nail olacağıq. Buna görə də biz, bir tərəfdən, çalışmalıyıq ki, bu çətin yollarla, müstəqillik yolu ilə uğurla irəliləyək, digər tərəfdən isə gənclərimiz Azərbaycan xalqına xas olan mənəvi, milli ənənələr əsasında tərbiyə edilsinlər.

Ali məktəblərdə, ümumiyyətlə, təhsil ocaqlarında gənclərimizi xalqımızın mənəvi dəyərləri əsasında tərbiyələndirmək, mənəvi cəhətdən sağlam və saf insanlar tərbiyə etmək məsələsi mühüm yer tutmalıdır. Mən bütün müəllimlərimizdən rica edirəm ki, bu prinsipi özlərinin fəaliyyətində, öz həyatında da əsas tutsunlar, gənclərimizi də yüksək mənəvi ruhda tərbiyələndirməyə, hazırlamağa çalışsınlar. Çünki cəmiyyətimiz həm zəngin bilikli, ali təhsilli mütəxəssislərə, həm də yüksək mənəviyyata malik insanlara ehtiyac duyur. Ümumiyyətlə, cəmiyyətimizdə saf mənəviyyatı bərqərar etmək, inkişaf etdirmək, bütün mənfi hallara qarşı, cinayətkarlığa, o cümlədən gənclər arasında mənfi hallara, cinayətkarlıq hallarına qarşı mübarizəni gücləndirmək əsas vəzifəmizdir.

Biz çalışmalıyıq ki, cəmiyyətimizdə bu mənfi halların kökü kəsilsin. Təəssüf ki, bəzi gənclər özləri də bilmədən hərdən pis yollara gedir, cinayət törədir, yaxud da bələd olmadıqları ayrı-ayrı qruplara qoşulur və cəmiyyətimizdəki sabitliyi pozmağa cəhd göstərirlər. Bütün bunlar milli mənafeyimizə zidd hallardır.

Müstəqil Azərbaycan Respublikasının milli-mənəvi dəyərləri var. Onları qoruyub saxlamaq lazımdır. Buna görə də gənclərimiz arasında mənfi meyllərin qarşısı alınmalı, belə meyllərə qarşı ciddi tədbirlər görülməlidir. Ən əsas vəzifə isə təhsil ocaqlarımızın, valideynlərin gəncləri elə tərbiyə etməsindən ibarətdir ki, belə mənfi meyllər ümumiyyətlə, meydana çıxmasın.

Ümidvaram ki, ali məktəblərə daxil olan gənclərin hamısı öz gələcək həyatlarını xalqımızın əsrlərdən-əsrlərə ötürülən milli-mənəvi dəyərləri [221-222] əsasında quracaq və özlərini Azərbaycanın gələcəyi naminə layiqincə hazırlayacaqlar.

Sizi və ali məktəblərə daxil olmuş bütün gəncləri bir daha təbrik edirəm və sizə uğurlar diləyirəm. Ali məktəb müəllimlərini gənclərin yeni bir dəstəsinin bu təhsil ocaqlarına daxil olması münasibətilə təbrik edirəm və onlara şərəfli işlərində müvəffəqiyyətlər arzulayıram.

Ümidvaram ki, Dövlət Tələbə Qəbulu Komissiyası tərəfindən aparılan işlər yüksək səviyyədə həyata keçiriləcək, bütün qəbul məsələləri lazımınca həll ediləcək və ali məktəblərə gənclərin yeni bir dəstəsi də qəbul olunacaqdır.

Bu gün mən ali məktəblərə daxil olmuş gənclərin valideynlərini də təbrik edirəm. Bilirəm ki, bu gün gənclərin özündən çox, valideynlər üçün daha xoşbəxt bir gündür. Sağ olsunlar ki, belə övladlar yetişdirib tərbiyə etmişlər.

Bütün vətəndaşlarımıza, bütün Azərbaycan xalqına bu ağır həyatımızda dözüm, dəyanət arzulayır və əmin olduğumu bildirmək istəyirəm ki, biz bu çətin günləri keçib gedəcəyik, müstəqil Azərbaycan Respublikası dünya birliyində öz layiqli yerini tutacaq, hər bir Azərbaycan vətəndaşı özünün bu müstəqil dövlətə mənsub olduğunu böyük qürur hissi ilə bəyan edəcəkdir.

Hamınızı bu əlamətdar gün münasibətilə bir daha təbrik edir, sizə cansağlığı, xoşbəxtlik arzulayır, bütün Azərbaycan xalqına xoşbəxt gələcək günlər diləyirəm. Sağ olun. [222-223]

## AZƏRBAYCAN NEFT SƏNAYESİNİN TƏŞKİLATÇILARINDAN BİRİ, DÖVLƏT MÜKAFATI LAUREATI, SOSİALİST ƏMƏYİ QƏHRƏMANI QURBAN ABASQULU OĞLU ABASOVLA VİDALAŞMA MƏRASİMİNDƏ ÇIXIŞ

*15 sentyabr 1994-cü il*

Görkəmli neftçi Qurban Abasqulu oğlu Abasovun vəfat etməsi xəbəri məni və deyə bilərəm ki, bütün Azərbaycan xalqını sarsıtdı. Biz Azərbaycan xalqı qarşısında, Azərbaycan Respublikası qarşısında böyük xidmətləri olan bir insanı itirdik. Bu, xalqımız üçün, ölkəmiz üçün çox böyük itkidir.

Qurban Abasovun həyat yolu parlaqdır, nümunəvidir və xalqımızın nəyə qadir olduğunu əyani surətdə nümayiş etdirir. Adi bir gənc Azərbaycan sənayesinin, iqtisadiyyatının ən mühüm, eyni zamanda ən ağır sahəsi olan neft sənayesi sahəsində ən kiçik işdən, fəhləlikdən ən yüksək zirvəyə çatmışdır. Şübhəsiz ki, bu, bizim Azərbaycan neftçilərinin, neft sənayesində işləyənlərin, bu sahənin ictimai-siyasi mühiti ilə bağlıdır. Eyni zamanda Qurban Abasovun öz fitri istedadı, zəhmətkeşliyi, əməksevərliyi, vətənpərvərliyi ilə bağlıdır. Məhz xalqını sevən adam, vətənpərvər adam, zəhmətkeş adam 50 il ərzində bu ağır sahədə öz çiynində böyük yükü daşımağa qadir ola bilərdi.

Neft sənayesi Azərbaycan xalqının fəxridir. Neftçilər həmişə xalqımızın ən mötəbər nümayəndələri olublar. Neft sənayesi Azərbaycan iqtisadiyyatının ən böyük dayağı olub. Neft və neft sənayesi Azərbaycan Respublikasını, Azərbaycan xalqını dünyaya tanıtdırıb. Azərbaycan neftçiləri neft sənayesində – həm neft yataqlarının kəşfində, həm də bu yataqların istismar olunmasında böyük nümunələr göstəriblər. Onların təcrübəsi, əldə etdiyi nailiyyətlər keçmiş Sovet İttifaqının, Rusiyanın bir çox regionlarında yayılıb və istifadə olunur.

Bizim neft sənayesinin ən ağır, ən çətin sahəsi dənizdə, su altında olan neft yataqların istifadə edilməsidir. Azərbaycan neftçilərinin Xəzərdə ilk dəfə neft çıxarmağa başlamasının 45 illiyi bu il tamam olur. Bu, dünya tarixinə, dünya salnaməsinə yazılmış bir hadisədir. 45 il müddətində Azərbaycanın Xəzər sahəsində çalışan neftçiləri böyük qəhrəmanlıqlar göstərmişlər. Neftçilər həmişə xalqımızın qəhrəmanları olmuşlar. Amma Xəzərdə neft çıxaranlar qəhrəmanların da qəhrəmanlarıdırlar. Onların içərisində ən seçilən adamlardan biri, demək olar ki, ən çox seçiləni Neftçi Qurban olmuşdur. Təsadüfi deyil ki, hələ 50-ci illərdə "Neftçi Qurban" mahnısı bizim rəhmətlik böyük sənətkarımız Bülbülün ifasında hər birimizin qəlbindən gələn hissləri əks etdirirdi. O vaxtlar bu mahnını din[223-224]ləyənlərin bir çoxu Neftçi Qurbanı bəlkə də şəxsən tanımırdı. Ancaq Neftçi Qurban hələ o vaxt öz qəhrəmanlığı, fədakarlığı ilə o qədər şöhrət qazanmışdı ki, onun fəaliyyətinə şairlərimiz tərəfindən şerlər yazılmış, mahnı qoşulmuş və o mahnı da illərdən-illərə keçmişdir.

50 il belə bir ağır sahədə fədakarlıqla çalışmaq böyük qəhrəmanlıqdır. Bu müddətdə Neftçi Qurban Azərbaycan xalqına əvəzsiz xidmətlər etmişdir. 50 il müddətində Azərbaycanın ən böyük sərvəti olan nefti çıxarmaq, iqtisadiyyatımızın inkişafına xidmət etmək, respublikamızın neft sənayesini yeni texnologiya üzərində qurmaq, həm də neft hasilatı sayəsində xalqımızın rifah halını qaldırmaq – bunlar hamısı Azərbaycan xalqının, respublikamızın tarixində mühüm yer tutan işlərdir. Bu işlərin görülməsində Neftçi Qurban görkəmli yer tutur – həm fəhlə kimi, həm mühəndis kimi, həm təşkilatçı kimi, həm də neft sənayesi sahəsində böyük alim kimi. Doğrudur, Neftçi Qurban – Qurban Abasov alimlik dərəcəsi almağa can atmamışdır. Bu da onun üstün cəhətlərindəndir. Çünki o, öz əməlləri ilə, gördüyü işlərlə, neft sənayesindəki xidmətləri ilə ən yüksək alimlik dərəcəsinə çatmışdı.

Neftçi Qurbanın 50 il müddətində neft sənayesində gördüyü işlər, qeyd etdiyim kimi, öz bəhrəsini vermişdir. Ancaq bu işlər Azərbaycan xalqının uzaq gələcəyi üçün də böyük əsas qoymuşdur. Xəzərdə açılmış neft yataqları, onların gələcəkdə istifadə olunması Azərbaycan iqtisadiyyatının yüksəlişinə, xalqımızın bir neçə nəslinin rifah halının təmin olunmasına xidmət edəcəkdir. Mən ümidvaram ki, gələcək nəsillər bu neft yataqlarını açanları, istifadəyə hazırlayanları daim xatırlayacaq və onların içərisində Neftçi Qurbanın – Qurban Abasovun adı xüsusi yer tutacaqdır.

Mən Qurban Abasovu şəxsən yaxından tanıyıram. Mənim tanışlığım işlə əlaqədar olub. 1969-cu ildən Azərbaycan Respublikasına rəhbərlik edərkən mən daim neftçilərlə əlaqədə olmuşam və bu sırada Neftçi Qurbanı da işdə müşahidə etmişəm. Onun həm Neft Daşlarında olduğu vaxt, həm də neft sənayesinin problemləri müzakirə edilərkən irəliyə sürdüyü fikirlər, məsləhətlər, təkliflər həmişə çox dəyərli, ağıllı, mənfəətli olub. Bunların hamısı da Azərbaycan iqtisadiyyatının inkişafına, xalqımızın rifah halının yüksəlməsinə yönəldilmişdir.

Neftçi Qurban təvazökar bir adam idi, sözün əsl mənasında işgüzar bir adam idi. Yüksək vəzifələr tutduğu vaxtda da, böyük dövlət xadimi olduğu vaxtda da nəinki Azərbaycanın, o vaxtkı Sovetlər İttifaqının neft sənayesinin problemləri ilə məşğul olduğu vaxtda da həmişə özünü sadə aparırdı. O həmişə fədakar olub,

həmişə öz işgüzarlığı ilə fərqlənib. Mənə yaxşı məlumdur və bunların şahidiyəm ki, Sovetlər İttifaqının neft sənayesinin başında duran böyük neftçilər, dövlət xadimləri, ölkə rəhbərləri Neftçi Qurbanı şəxsən tanıyırdılar, onun xidmətlərini qiymətləndirirdilər və biliyindən, təcrübəsindən həmişə istifadə edirdilər. [224-225]

Sovetlər İttifaqının – çox böyük neft potensialına malik olan bu dövlətin neft problemlərinin həllində Neftçi Qurban fəal iştirak edirdi. Mən bunların da şəxsən şahidiyəm. Bütün bunlarla yanaşı, bir daha deyirəm ki, o çox təvazökar bir adam idi. Şöhrət dalınca getmək, yaxud özünü qabağa salmaq, gördüyü işləri nəzərə çarpdırmaq, özünü gözə soxmaq – bunlar ona xas olan xüsusiyyətlər deyildi. O, ancaq işlə məşğul idi. Doğrudan da bu adam gecə də, gündüz də özünü işə, xalqa xidmətə həsr etmişdi.

Neftçi Qurban Azərbaycan xalqının qəlbində böyük neftçi, böyük mühəndis, böyük təşkilatçı, böyük dövlət xadimi və gözəl insan – yüksək mənəvi keyfiyyətləri olan bir insan kimi daim yaşayacaqdır. Neftçi Qurbanın həyat yolu xalqımız üçün, gənclərimiz üçün nümunədir.

Müstəqil Azərbaycan Respublikası öz müstəqil həyatını qurur. Qarşımızda böyük vəzifələr var. Neft sənayesi Azərbaycan Respublikası iqtisadiyyatının həlledici sahəsidir. Bu sənayenin inkişaf etdirilməsi üçün bizim böyük proqramlarımız, böyük layihələrimiz var. Onların həyata keçirilməsi Azərbaycan iqtisadiyyatını və xalqımızın rifah halını qaldıracaq və inkişaf etdirəcəkdir. Ancaq bunları həyata keçirmək üçün vətənpərvər, işgüzar, fədakar, saf mənəviyyatlı insanlar, mütəxəssislər, alimlər lazımdır. Bax, bütün bunlar üçün Neftçi Qurbanın həyat yolu, iş təcrübəsi, onun siması, mənəviyyatı nümunədir və ümidvaram ki, nümunə olacaqdır.

Mən bu gün kədər içərisindəyəm. Çünki əziz bir dostumuzu itirmişik. Bu gün mən Neftçi Qurbanın cənazəsi qarşısında baş əyirəm. Demək istəyirəm ki, Neftçi Qurban və onun kimiləri xalqımızın qəlbində, tarixində daim yaşayacaqlar. Allah xalqımıza dözüm, səbir versin. Allah Qurban Abasova rəhmət eləsin. [225-226]

**NEFT MÜQAVİLƏSİNİN İMZALANMAĞA HAZIRLANMASI İLƏ BAĞLI BRİFİNQDƏ BƏYANAT**

*16 sentyabr 1994-cü il*

Hörmətli jurnalistlər, mətbuat işçiləri!

Üç ildən artıqdır ki, respublika Dövlət Neft Şirkəti ilə Qərb ölkələrinin neft şirkətləri arasında Azərbaycanın Xəzərdə olan neft yataqlarının müştərək istismar olunması haqqında danışıqlar aparılır. Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ayrı-ayrı Qərb ölkələrinin neft şirkətləri ilə danışıqlar aparmış, sonra isə 1992-ci ildə həmin şirkətlər birləşib ümumi bir konsorsium təşkil etmişlər və danışıqlar bu konsorsiumla davam etdirilmişdir.

Bilirsiniz ki, 1993-cü il iyulun axırlarında Azərbaycanda müəyyən dəyişikliklər əmələ gələndən sonra, mən respublika Ali Sovetinin sədri olarkən, eyni zamanda Azərbaycan Prezidentinin səlahiyyətlərini həyata keçirən vaxt bu danışıqların dayandırılması haqqında qərar qəbul etmişdim. Bu qərar ona görə qəbul olundu ki, o vaxt gələn siqnallar, məlumatlar göstərirdi ki, artıq hazırlanmaqda olan müqavilə layihəsində müəyyən çatışmazlıqlar, səhvlər var və həmin layihə hazırlandığı şəkildə Azərbaycan Respublikası üçün əlverişli deyil. Bu məlumatları araşdırmaq, layihənin Azərbaycan Respublikasının mənafelərinə nə qədər uyğun olduğunu müəyyən etmək üçün mən həmin danışıqların dayandırılması haqqında qərar qəbul etdim. Bundan sonra respublika Dövlət Neft Şirkətində hazırlanmış materiallara bir daha baxdılar, müəyyən təhlillər aparıldı.

O vaxt Qərb neft şirkətlərinin prezidenti və başqa rəhbərləri Azərbaycana gəldilər, mənimlə təkbətək görüşdülər. Sonra isə Azərbaycanın neft sənayesində çalışan bizim alimlər, mütəxəssislər, bu sahənin rəhbərləri və bu işlə məşğul olan başqa şəxslər müəyyən bir toplantıya yığışdılar. Biz orada geniş danışıq apardıq və mən Azərbaycanın bu barədə mövqeyini bəyan etdim. Orada müqavilələrin dayandırılması səbəbləri aydınlaşdırıldı – yəni mən bunun səbəblərini dedim və Qərb şirkətlərini əmin etdim ki, onlar narahat olmasınlar, bu iş davam edəcək, ancaq neft Azərbaycanın ən böyük, ən dəyərli sərvəti olduğuna görə bu məsələyə dərindən baxmaq, ətraflı müzakirə etmək lazımdır. Belə bir saziş əldə olundu və bundan sonra işlər davam etdirildi.

Azərbaycan Dövlət Neft Şirkəti bu işləri aparmaq üçün ilk mərhələdə Qərb ölkələrinin bitərəf ekspertlərini – Amerika Birləşmiş Ştatlarından, Kanadadan və digər ölkələrdən ekspertləri cəlb etdi. Bu məsələlər onla[226-227]rın iştirakı ilə təhlil, müzakirə olundu. Sonra danışıqlar Londonda bir müddət yenidən başlandı. Ancaq Londonda gedən danışıqların nəticələri mənə təqdim olunarkən mən bunların Azərbaycan Respublikasının milli mənafelərinə yenə də uyğun olmadığını görərək, orada hazırlanmış layihəni kənara qoydum və onu qəbul etmədim. Bundan sonra Azərbaycan Dövlət Neft Şirkəti mənim tapşırığımla respublikanın alimləri, mütəxəssisləri ilə, neft sənayesində çalışan təcrübəli adamlarla birlikdə Azərbaycanın bu danışıqlarda mövqeyini bir daha müəyyənləşdirdi. Onlar Azərbaycan Respublikasının Prezidenti kimi mənə rəsmi raport yazaraq öz təkliflərini verdilər ki, Azərbaycan Respublikası bu danışıqları hansı prinsiplər əsasında davam etdirə bilər. Mən bu prinsiplərə baxıb təhlil edəndən, bizim rəhbər orqanlarda məhz bu işlərlə məşğul olan məsul şəxslərlə məsləhətləşəndən sonra bu il fevralın 4-də Azərbaycan Dövlət Neft Şirkətinin danışıqları həmin prinsiplər əsasında davam etdirməsi barədə fərman verdim. Azərbaycan Dövlət Neft Şirkətinə, onun prezidenti Natiq Əliyevə bilavasitə səlahiyyət verdim ki, o, bu danışıqları davam etdirsin və təqdim olunan təkliflər əsasında aparsın. Bundan sonra işin yeni mərhələsi başlandı.

Azərbaycan Dövlət Neft Şirkəti Qərb ölkələrinin neft şirkətləri ilə danışıqları Bakıda apardı. Sonrakı mərhələdə Qərb neft şirkətlərinin xahişi ilə bu danışıqlar Türkiyə Respublikasının İstanbul şəhərində getdi və iyulda sona çatdı. Azərbaycan Dövlət Neft Şirkətinin prezidenti Natiq Əliyev iyul ayında mənə bu danışıqların nəticəsi haqqında yenə də yazılı məruzə verdi. Həmin məruzəyə baxıb təhlil etdikdən sonra mən belə qərara gəldim ki, bu danışıqlar zamanı əldə olunmuş razılıqlar əsasında müqavilələrin hazırlanması mərhələsinə başlamaq olar.

Mən o vaxt həm Azərbaycan Dövlət Neft Şirkətinin rəhbərlərini – prezidenti, prezidentin müavinlərini və sonra Dövlət Neft Şirkətinin Qərb ölkələrinin neft şirkətləri ilə danışıq aparan heyətini bütün tərkibdə qəbul etdim. Onları dinləyəndən sonra bu heyəti Qərb neft şirkətlərinin danışıq aparan nümayəndələri ilə birlikdə qəbul etdim. Həm Azərbaycan Dövlət Neft Şirkətinin rəhbərliyi və danışıqlar aparan nümayəndə heyətinin tərkibinə daxil olan şəxslərin hamısı, həm də Qərb neft şirkətləri konsorsiumunun nümayəndələri mənə məlumat verdilər ki, İstanbulda aparılan danışıqlarda tərəflər arasında razılıq əldə olunub. Ona görə də bu razılıq əsasında müqavilənin layihəsini hazırlamaq mümkündür. Mən bununla razı oldum və razılıq verdim ki, Azərbaycan Dövlət Neft Şirkətinin Qərb neft şirkətləri konsorsiumu ilə, onların nümayəndəsi ilə İstanbul danışıqlarının sona çatması və müqavilə layihəsinin hazırlanmasına başlanması haqqında Bakıda protokol imzalansın. Belə bir protokol iyulun ortalarında burada imzalandı.

İyulun 21-də Azərbaycan Dövlət Neft Şirkətinin danışıqlar aparan heyəti Qərb neft şirkətləri konsorsiumunun dəvəti ilə [227-228] Amerika Birləşmiş Ştatlarının Hyuston şəhərinə getdi. Orada 45 gün layihənin hazırlanması üzərində işlədilər. Oradan daim aldığımız məlumatlardan və nəhayət, nümayəndə heyətimiz Bakıya qayıdandan sonra onların verdiyi məlumatlardan aydın oldu ki, layihənin üzərində işləyərkən bir çox çətinliklər meydana çıxmışdır. Azərbaycan Dövlət Neft Şirkətinin səlahiyyətli heyəti bu çətinlikləri aradan qaldırmağa çalışmışdır. Mən hesab edirəm ki, onların çalışqanlığı, səriştəliliyi nəticəsində bu gərgin vəziyyətdə çətinliklər aradan qaldırılmış və nəhayət, müqavilənin layihəsi hazır olmuşdur.

Nümayəndə heyətimiz Hyustondan qayıdandan sonra mən Azərbaycan Dövlət Neft Şirkətinin prezidenti Natiq Əliyevi qəbul etdim. O, Hyuston danışıqlarının nəticəsi haqqında, orada baş vermiş çətinliklər və onların aradan qaldırılması barədə mənə yazılı məlumat təqdim etdi, izahat verdi. Eyni zamanda Azərbaycan Dövlət Neft Şirkəti nümayəndə heyətinin fikrini bildirdi ki, hazırlanmış layihələr imzalana bilər. Sonra mən bu məsələləri və əldə olunan nəticələri Azərbaycan dövlətinin rəhbər dairələri – Ali Sovetin, Nazirlər Kabinetinin rəhbərləri ilə, Prezident Aparatında bu işlərlə məşğul olan məsul şəxslərlə, əlaqədar nazirliklər, nazirlərlə müzakirə etdim. Nəhayət, qərar qəbul etdim ki, hazırlanmış layihəni imzalamaq olar. Mən bu barədə müvafiq fərman vermişəm. Bu məlumatı ictimaiyyətə rəsmi çatdırmaq üçün də sizi – mətbuat nümayəndələrini buraya dəvət etmişəm.

Mənim qəbul etdiyim qərar, verdiyim fərman belədir ki, Qərb Neft Şirkətinin Konsorsiumu ilə Azərbaycan Dövlət Neft Şirkəti arasında hazırlanmış müqavilə bu il sentyabrın 20-də Bakıda "Gülüstan" sarayında imzalanacaqdır.

Uzun illər, yəni üç ildən artıq aparılan iş, mən hesab edirəm ki, müsbət nəticə vermişdir. Şübhəsiz ki, təqdim olunan müqavilə layihəsi bizim bütün istəklərimizi, arzularımızı təmin etmir. Aydındır, mən bunu dəfələrlə bəyan etmişəm, bu gün də – layihə hazır olandan və bu barədə qərar qəbul edəndən sonra da demək istəyirəm ki, biz indi də, gələcəkdə də Azərbaycanın təbii sərvətlərindən, xüsusən, ən böyük təbii sərvətimiz olan neft yataqlarından çox ehtiyatlı, səriştəli istifadə olunmasına çalışmalıyıq. Çalışmalıyıq ki, bu sərvətlərdən Azərbaycan xalqının bu günü və gələcəyi üçün maksimum mənfəət götürək.

Mən bu prinsipləri həmişə əsas tutmuşam, bu gün də əsas tuturam. Həmin prinsiplər baxımından, şübhəsiz ki, bütün istəklərimiz, arzularımız bu layihədə əks olunmayıb. Biz həmin layihədən bundan artıq mənfəət götürmək istəyirik. Ancaq bilirsiniz, müştərək iş görmək belədir ki, hər iki tərəf öz mənfəətini götürməyə çalışır və götürməlidir. Əgər qarşılıqlı mənfəət prinsipi olmasa, şübhəsiz ki, saziş də, müqavilə də ola bilməz.

Bilirsiniz ki, "AMOKO", "Britiş Petroleum", "Statoyl", "Pennzoyl", "Remko", Yunokal", "Makdermot" Qərb neft şirkətidir. İştirakçı şirkətlərin biri Türkiyə, digəri – "LUKoyl" Rusiya şirkətləridir. Qərb şirkət[228-229]ləri çox böyük neft şirkətləridir, dünyanın bir çox regionlarında neftçıxarma işi ilə məşğul olurlar.

Şübhəsiz ki, bunlar Azərbaycana öz mənfəətləri üçün gəliblər, – bu təbiidir və onlar öz mənfəətlərini həyata keçirməyə çalışıblar. Azərbaycan tərəfi də ilk dəfə, hər halda bizim əsrimizdə, – keçmiş vaxtlarda da Azərbaycanda neft hasilatında yabançı, əcnəbi ölkələrin şirkətləri iştirak ediblər. Bilirsiniz ki, 1920-ci ildən sonra belə olmayıb, – ilk dəfə belə bir böyük sazişin, layihənin əldə olunmasına doğru gedir. Şübhəsiz ki, bir il içərisində, şəxsən mənim bu məsələyə qarışmağım nəticəsində aparılan əlavə işlər ancaq və ancaq Azərbaycanın bu sazişdə maksimum mənfəət əldə etməsinə yönəldilmişdir.

Mən hesab edirəm ki, bizim bütün istəklərimiz bu layihədə əks olunmasa da, ancaq təqdim edilən layihə Azərbaycan Respublikasının, Azərbaycan xalqının iqtisadi mənafelərini bu gün də, gələcəkdə də təmin edir və ona görə də mən bu müqavilənin imzalanması haqqında qərar vermişəm.

Bu layihə böyükdür, onun haqqında danışmağa ehtiyac yoxdur. Ancaq bir neçə iqtisadi göstəriciləri sizə çatdırmaq istəyirəm. Birinci müqavilə Azərbaycanın Xəzərdə olan neft yataqlarının istifadə edilməsi, yəni neftin müştərək çıxarılması və çıxarılan neftin bölünməsi ilə əlaqədardır. Bu neft yataqları "Çıraq", "Azəri", və "Günəşli" yataqlarıdır. Bilirsiniz ki, indi "Günəşli" yatağını biz istismar edirik və oradan təxminən 6,5 milyon ton neft hasil edirik. Ancaq "Günəşli" yatağının bir hissəsindən – dənizin çox dərin sahəsində yerləşən hissəsindən istifadə edə bilmirik. Yatağın həmin hissəsi bu konsorsiumda müştərək istifadə olunmaq üçün verilir.

Demək, "Azəri" yatağı bütövlükdə, "Çıraq" yatağı bütövlükdə, "Günəşli" yatağının isə suyun dərinliyi 200 metrdən çox olan hissəsi – bu yataqlardan müqaviləyə əsasən 511 milyon ton neft çıxarılacaqdır.

Müqavilə 30 il müddətinə nəzərdə tutulmuşdur. 511 milyon ton neft həmin 30 il ərzində çıxarılacaqdır. Bu müqaviləni həyata keçirmək üçün kapital qoyuluşunun 80 faizini Qərb şirkətləri, yəni bu konsorsiuma daxil olan şirkətlər təmin edəcəklər. Kapital qoyuluşu bugünkü qiymətlərlə təxminən 7,4 milyard dollardır. Çıxarılan neftin 253 milyon tonu Azərbaycana çatacaqdır.

Mən başqa iqtisadi rəqəmlər gətirmək istəmirəm, lakin dolların bugünkü məzənnəsini nəzərə alsaq, onda görərik ki, bu müqavilənin həyata keçirilməsindən Azərbaycan 34 milyard dollar məbləğində mənfəət götürəcəkdir. Şübhəsiz ki, bu 30 il müddətində dolların da məzənnəsi dəyişəcəkdir. Bu halda müəyyən nisbətdə bu rəqəmlər də dəyişə bilər.

Müqavilənin ən mühüm cəhətlərindən biri də budur ki, neftlə bərabər qaz da çıxarılır. Bunun nə demək olduğunu siz bilirsiniz. Ola bilər ki, bu, bəzilərinə məlum deyildir. Bir var ki, quyulardan birbaşa qaz çıxır, bir də var ki, quyuların əksəriyyətindən neftlə bərabər qaz da çıxarılır. Hesablamalar göstərir ki, bu müddətdə 55 milyard kubmetr qaz hasil olunacaqdır. Onun hamısı Azərbaycana çatacaqdır, yəni bu qaz daha bölünməyəcəkdir. Həmin üç yataqla konsorsiumla müştərək su[229-230]rətdə neft çıxarılan dövrdə Azərbaycan Dövlət Neft Şirkəti, Azərbaycan Respublikası özü orada müstəqil olaraq qazma işləri apararaq qaz çıxara bilər və bu qaz da yalnız onun özünün olacaqdır.

Ola bilər ki, qazın çıxarılması haqqında da gələcəkdə hər hansı bir şirkətlə, yaxud elə bu konsorsiumun özü ilə müəyyən saziş bağlansın. Onu demək istəyirəm ki, həmin yataqlardakı qazın hamısı, eləcə də neftlə yanaşı çıxan qazın hamısı Azərbaycana çatacaqdır.

Mənə elə gəlir ki, iqtisadi göstəricilər bundan ibarətdir. Azərbaycan Dövlət Neft Şirkəti "Çıraq" neft yatağında bir platforma qurmuşdur. Amma o platforma hələ istifadə edilmir. Onun istismarı da bu konsorsiuma həvalə olunur. Bunun da müəyyən şərtləri var.

Dediyim kimi, müqavilə 30 il müddətinə imzalanır. Şübhə yoxdur ki, iş başlanandan sonra ayrı-ayrı mərhələlərdə işin gedişindən asılı olaraq çıxarılan neftin miqdarı artacaqdır. Mən sizə hansı rəqəmləri gətirə bilərəm? Müqaviləyə görə, "Çıraq" neft yatağındakı platformadan neft çıxarılması 18 ay ərzində təmin ediləcəkdir. Bu, Qərb Konsorsiumu ilə Azərbaycan Dövlət Neft Şirkətinin birgə çıxardığı neft olacaqdır. Bütün bu yataqlarda neftin çıxarılması üçün işlər 48 ay ərzində görülüb başa çatdırılacaqdır. 54 aydan sonra isə bütün yataqlardan neft çıxarılması təmin ediləcəkdir. Yəni bu 54 ay ərzində neft nəqd edilən boru kəməri çəkilib qurtaracaq və bundan sonra çıxarılan neftin Qərb şirkətlərinə düşən payını onlar istədikləri yerlərə apara biləcəklər.

Beləliklə, hamı gərək açıq-aydın bilsin ki, bu müqavilə necə həyata keçiriləcəkdir. Müqavilənin həyata keçirilməsinə başlanması da çox prinsipial məsələdir. Aparılan danışıqlar nəticəsində belə bir razılıq əldə olunmuşdur ki, müqavilə imzalanandan sonra Azərbaycan parlamenti tərəfindən təsdiqlənəcək və elə həmin gündən qüvvəyə minəcəkdir, yəni Qərb şirkətləri Konsorsiumu Azərbaycan Dövlət Neft Şirkəti ilə artıq işə başlamalıdır. Müqavilənin həyata keçirilməsinə başlanması vaxtı həmin gündən hesab ediləcəkdir. Ümidvaram ki, bu müqaviləni imzaladıqdan az müddət sonra parlament də onu nəzərdən keçirib təsdiqləyəcəkdir.

Bütün bu mənfəətdən savayı, Qərb neft şirkətlərinin Azərbaycan Respublikasına gəlməsi, Azərbaycan Dövlət Neft Şirkəti ilə müştərək iş aparması iqtisadiyyatımızda böyük dəyişikliklər əmələ gətirəcəkdir. Birinci dəyişiklik bundan ibarətdir ki, bununla biz xarici ölkələrin Azərbaycanda investisiya qoymasına böyük yol açırıq. Heç də az investisiya qoyulmayacaq, – onun məbləği 7,4 milyard dollar olacaqdır. Bu, çox böyük məbləğdir.

Azərbaycanın azad iqtisadiyyat, bazar iqtisadiyyatı yolu ilə getməsi üçün, dünya iqtisadiyyatına sıx bağlanması üçün bu sənədin çox böyük əhəmiyyəti var. Azərbaycan özünün həm ictimai-siyasi həyatında, həm də iqtisa[230-231]diyyatında bir demokratik respublika kimi bütün dünya miqyasında daha çox tanınacaq və bu, öz əksini əməli surətdə tapacaqdır.

Əlbəttə, burada müqavilənin həyata keçirilməsi üçün çox böyük işlər görüləcəkdir, neft yataqlarında iri platformalar tikiləcəkdir. Bildiyiniz kimi, bu platformaların tikilməsi üçün 80-ci illərin əvvəllərində nəhəng dərinlik özülləri zavodu inşa edilmişdir. Sizə bildirmək istəyirəm ki, o vaxtlar həmin zavodun Azərbaycanda tikilməsi üçün şəxsən mən çox səy göstərmişəm və bu müəssisənin Bakıda inşa edilməsi Azərbaycan üçün böyük qənimətdir. O vaxtlar zavod keçmiş Sovet İttifaqının bütün dənizlərində neft quyuları qazmaq, neft çıxarmaq üçün platformalar hazırlayan yeganə müəssisə idi. Biz zavodun məhz Azərbaycanda tikilməsinə çox çətinliklə nail olduq. Onun alınması üçün o vaxtın dəyəri ilə 400 milyon dollar xərcləndi. Amma indi biz bu zavoddan istifadə edə bilmirik. Çünki o, yenidən qurulmalıdır. Müqavilə qüvvəyə mindikdən sonra bu müəssisə tamamilə yeni bir fəaliyyətə başlayacaqdır. Bundan ötrü orada əlavə işlər görüləcək, müəssisə yenidən qurulacaqdır. Onun buraxacağı platformalardan Xəzərin nəinki Azərbaycana aid hissəsində, həm də digər hissələrində suyun dərin yerlərindən neft çıxarılması üçün istifadə edilə biləcəkdir.

Ola bilsin, sizlərdən bəzilərinin yadındadır ki, 70-ci illərin təxminən ikinci hissəsində və 80-ci illərin əvvəllərində Azərbaycanda Xəzərin dərin yerlərindən neft çıxarmaq üçün biz "Şelf-1" və "Şelf-2" platformaları almışıq. Onlar Qərbdə hazırlanmış və buraya böyük çətinliklə gətirilərək istifadəyə verilmişdi.

İndi dərinlik özülləri zavodunda onlardan da nəhəng platformalar istehsal ediləcəkdir. Odur ki, müəssisənin yenidən qurulması, genişləndirilməsi Azərbaycan iqtisadiyyatı üçün yeni bir sərvət olacaqdır. Bayaq dediyim kimi, onun məhsulundan Xəzərin digər ölkələrə aid olan hissələrində də istifadə ediləcəkdir.

Məsələ bununla bitmir. Böyük miqdarda neft çıxarmaq, bu nefti sahilə göndərmək və nəhayət, onun Qərb şirkətlərinə düşən hissəsini neft kəməri vasitəsilə nəql etmək üçün hələ çox işlər görülməli, iri qurğular yaradılmalı, nəhəng müəssisələr tikilməlidir. Söz yox ki, bunların hamısı yaradılacaqdır.

Bildiyiniz kimi, indi Azərbaycan neft çıxarmaq üçün keçmiş Sovet İttifaqından qalan qurğulardan, gəmilərdən istifadə edir. Bunların əksəriyyəti köhnəlmişdir, təzələrini almağa isə imkanımız yoxdur. Şübhəsiz,

bu müqavilə qüvvəyə mindikdən sonra Xəzərdə müştərək işlər görülməsi üçün yeni gəmilər, tankerlər, yeni qurğular alınıb gətiriləcəkdir. Bunların hamısı da gələcəkdə yenə Azərbaycanın sərvəti olacaqdır.

Yadımdadır, hələ 70-ci illərdə Neft daşlarında qurulmuş estakadaların bərbad vəziyyətə düşməsi bizi bərk narahat edirdi və o vaxtlar çox çalışırdıq ki, həmin estakadaları dəyişdirib təzələyək. Amma buna vəsait çatmırdı və ona görə də səy göstərirdik ki, Sovet İttifaqının paytaxtından, Moskvadan əlavə vəsait alıb estakadaları dəyişdirək. Yadıma düşən bu hadisələr 15-20 il bundan əvvəl olmuşdur. Təsəvvür edin ki, bu [231-232] estakadalar indi nə vəziyyətə düşmüşdür. Bunların hamısını bərpa etmək, yararlı hala salmaq üçün bizə çox böyük məbləğdə vəsait gərəkdir. Şübhəsiz ki, bu işlərin də hamısı görüləcəkdir.

"Azəri", "Çıraq", "Günəşli" neft yataqlarından savayı bizim digər yataqlarımız da var. Onların da gələcəkdə istismar edilməsi qarşımızda bir vəzifə kimi durur. Buna görə də Qərb neft şirkətlərinin ən müasir, ən yüksək səviyyədə olan texnikasının və texnologiyalarının Azərbaycana gətirilməsi, burada tətbiq edilməsi həm neft sənayemizdə texnikanın və texnologiyanın inkişafına təkan verəcək, həm də gətirilən bütün bu avadanlıq gələcəkdə Azərbaycanın sərvəti olacaqdır. Yəni biz onlardan 30 il müddətində müştərək istifadə edəcəyik və sonra bütün bu texnika və texnologiyalar respublikamıza qalacaqdır.

Əlbəttə, nəzərdə tutulan işlərin hamısını yerinə yetirmək üçün xeyli mütəxəssis lazım olacaqdır. Belə ki, həm neftayırma və maşınqayırma zavodlarımız işləyəcək, digər müəssisələrimiz müəyyən işlər görəcək, həm də sənayenin başqa sahələri fəaliyyət göstərəcəkdir. Sənayemizin bütün sahələrinin tam gücü ilə işləməsi iqtisadiyyatımızın inkişafına, şübhəsiz çox böyük kömək edəcəkdir. Bu layihənin həyata keçirilməsinə cəlb edilən mühəndislər, mütəxəssislər, iqtisadçılar, texniklər, fəhlələr, bir sözlə, bütün şəxslər həm yaxşı işə malik olacaq, həm də maddi cəhətdən yaxşı təmin ediləcəklər. Bütün bunlar Azərbaycanın həm bu günü, həm də gələcəyidir.

İndi biz doqquz milyon ton neft çıxara bilirik. Lakin sizə deməliyəm ki, bizim neft qurğularının, buruqlarımızın, yataqlarımızın böyük təmirə ehtiyacı var. Böyük işlər görülməsinə ehtiyacımız var. Bunları da görmək üçün bizə vəsait lazımdır. Bu konsorsiumdan alınan vəsait, payımıza düşən neftdən istifadə edilməsi neft sənayemizin həyatında yeni bir mərhələ açacaqdır.

Bütün bunlar Azərbaycanın həm bu günü üçün, həm də gələcəyi üçün olduqca gərəklidir. Bu müqavilənin imzalanması sayəsində qabaqcıl Qərb ölkələrinin çox təcrübəli şirkətləri ilə müştərək işə başlayacağıq və bunun həm iqtisadi, həm texniki, həm elmi, həm də digər müsbət nəticələrini hər kəs özü müəyyən edə bilər. Mən bunu özüm üçün müəyyən etmişəm və belə hesab edirəm ki, biz indi bu addımı atarkən Azərbaycanın bu günündən çox, gələcəyi üçün çalışırıq. Mən sizə bu rəqəmləri dedim – 18 ay, 48 ay, 34 ay. Göründüyü kimi, bunun çoxu gələcək nəsillər üçündür.

Əlbəttə, indi, yaxın vaxtlarda da böyük işlər görüləcəkdir. Elə bu işlərə başlanması Azərbaycanın həyatında da, iqtisadiyyatda da köklü dəyişikliklər əmələ gətirəcəkdir. Deməli, biz təkcə bu gün üçün, özümüz üçün yox, gələcək nəsillər üçün də çalışırıq. Ona görə də ümidvaram ki, bu 30 illik müqavilə yeganə müqavilə olmayacaqdır. Biz başqa müqavilələr də imzalayacağıq. Mən heç şübhə etmirəm ki, bunun da davamı olacaqdır. Yəni biz Azərbaycan xalqının XXI əsrdə həyatının, iqtisadiyyatının, rifah halının təmin edilməsi üçün çox ciddi, çox məsuliyyətli, və eyni zamanda, zənnimcə, çox gərəkli bir addım atırıq. [232-233]

Bax, bunların hamısını nəzərə alaraq, Azərbaycan neft sənayesinin keçmiş tarixini də varaqlayaraq, Azərbaycanın neft sənayesi ilə 25 ildən artıq bir müddətdə məşğul olduğunu və bütün gördüyüm işləri, keçmiş Sovet İttifaqının neft sənayesinin düşdüyü vəziyyəti nəzərə alaraq, mən müqavilənin təqdim edilmiş indiki layihəsinin imzalanması barədə fərman vermiş, qərar qəbul etmişəm. Mən üzərimə böyük bir məsuliyyət götürürəm və onu bu gün də, gələcəkdə də daşımağa hazıram.

Mən sizi buraya bu məlumatları vermək üçün dəvət etmişəm. Əgər suallar olarsa, mən onlardan heç birinə cavab vermək istəmirəm. Hesab edirəm ki, söylədiyim bu sözlərlə bütün suallara cavab verdim. Mən bu müqavilənin əsas məğzini sizə çatdırdım və əgər biz onu sentyabrın 20-də imzalayırıqsa, deməli, bütün suallara cavab vermişəm. Müqavilə imzalandıqdan sonra kimin nə sualı varsa verə bilər. Sağ olun. Ayın 20-də sizi müqavilənin imzalanması mərasiminə dəvət edirəm. [233-234]

## AZƏRNEFTYANACAQ İSTEHSALAT BİRLİYİNDƏ GÖRÜŞLƏRİ

*17 sentyabr 1994-cü il*

Mən burada olan xarici ölkə nümayəndələrini salamlayıram və təşəkkür edirəm ki, siz buraya gəlmisiniz. Bir müddət bir yerdə olarıq, respublikanın iqtisadi həyatı ilə yaxından tanış olarsınız, Azərbaycanın sənaye potensialını görərsiniz. Bu potensial hələ tükənməyib, güman edirəm ki, bundan sonra da artacaqdır. Sizi burada görməyimə çox məmnunam.

### YÜKSƏK OKTANLI BENZİN İSTEHSAL EDƏN KATALİTİK RİFORMİNQ QURĞUSUNUN ƏMƏKÇİLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

Burada, qurğunu idarəetmə mərkəzində mən 1981-ci ildə, qurğunuz işə düşəndə olmuşam. Bu qurğunun Azərbaycanda yaradılması üçün o vaxt biz demək olar ki, on il çalışmışdıq. Həmin vaxt Azərbaycan Sovetlər İttifaqının tərkibində idi və respublikamız müstəqil deyildi. Belə bir qurğunu xaricdən almaq üçün özümüzün elə bir vəsaitimiz yox idi. Belə tikintilər Sovetlər İttifaqının paytaxtında planlaşdırılırdı və onun hansı respublikaya verilməsi məsələsi də orada həll olunurdu.

Mən belə bir qurğunun Azərbaycanda tikilməsi məsələsini Moskvada, Sovetlər İttifaqının rəhbərləri qarşısında bir neçə dəfə qoymuşdum. SSRİ-nin Bakıya gələn rəhbər işçiləri, xüsusən neft emalı naziri Viktor Fyodorov, Dövlət Plan Komitəsinin sədri Nikolay Baybakov, baş nazirin birinci müavini Nikolay Tixonov və başqaları ilə – çox adlar çəkə bilərəm – həmin məsələni burada dəfələrlə müzakirə edib bu qurğunun Bakıda yaradılmasının zəruriliyini sübut etməyə çalışmışdım. Bunların hamısına baxmayaraq, bu qurğunu almaq üçün mən o vaxtlar Sovetlər İttifaqına rəhbərlik edən baş katibin razılığını əldə etmişdim. L. İ. Brejnev, A. N. Kosıgin bu işə qarışandan sonra biz bu qurğunun Azərbaycanda tikilməsinə başladıq.

O vaxtlar xaricdən alınan belə avadanlıq üçün vəsait o qədər də çox ayrılmırdı. Ancaq ABŞ texnologiyası əsasında Fransanın "Litfin" firmasından bu qurğunun alınması üçün Ümumittifaq fondundan 40 milyon Amerika dolları vəsait ayrıldı. Respublikanın alimləri, mütəxəssisləri, neftayırma sahəsində çalışan çox mötəbər adamlar mənə daim sübut edirdilər ki, belə bir qurğunun Azərbaycanda olması neft məhsulları istehsalında böyük keyfiyyət dəyişiklikləri əmələ gətirəcəkdir. Mən Azərbaycanda belə bir qurğunun yaranmasına çalışdım və nəhayət, biz bunun tikintisinə başladıq. [234-235]

Qurğu tikilən vaxt mən dəfələrlə burada olmuşam. Azərbaycanın inşaatçıları, neftçilər, mühəndislər, alimlər, fəhlələr, qurğunun tikintisinin qısa vaxtda başa çatması üçün fədakarcasına çalışdılar. Qurğuda o vaxt bizə məlum olmayan texnologiya olduğuna görə onu Azərbaycanda tikib quraşdırmaq o qədər də asan məsələ deyildi. Tikinti vaxtı "Litfin" firmasının mütəxəssisləri burada daim iştirak edirdilər. Nəhayət, qurğu 1981-ci ildə tikilib təntənəli surətdə açıldı. Mənim xatirimdədir ki, burada izdihamlı mitinq keçirildi, böyük təbriklər gəldi və bu, Azərbaycanın iqtisadiyyatı üçün böyük bayrama çevrildi.

O vaxtdan 14 ilə yaxın vaxt keçir. Mən çox xoşbəxtəm ki, yenidən bu qurğuya gəlmişəm. Burada bu illər ərzində işləyən fəhlələrə, mühəndislərə, mütəxəssislərə və ümumiyyətlə neft sənayesinin bu sahəsində çalışanların hamısına bu qurğunu yaxşı işlətdiklərinə görə və onun respublikamız üçün mənfəət verməsini təmin etdiklərinə görə minnətdarlığımı bildirirəm.

Respublikamız neft müqaviləsini imzaladıqdan sonra neftçıxarma sahəsində işlərimiz sürətlə irəliyə gedəcək və o vaxt bu qurğu Azərbaycan üçün daha əhəmiyyətli olacaq. Şübhəsiz ki, qurğunun müəyyən hissələrini yenidən qurmaq, dəyişdirmək, müasirləşdirmək lazımdır. Bu da təbiidir. Çünki bu qurğunu tikərkən layihədə onun istismar müddəti 12 il nəzərdə tutulurdu. Ancaq o, 14 ilə yaxındır ki, işləyir, hələ də yorulmayıb. Əslində bu, Azərbaycan xalqına mənsub olan xüsusiyyətdir. Xüsusən bizim neftçilər heç vaxt yorulmurlar. Ancaq buna baxmayaraq, biz bu qurğunun müasirləşdirilməsi, avadanlığının dəyişdirilməsi üçün lazımi tədbirlər görməliyik. Biz bunu edəcəyik. Sentyabrın 20-də bağlanacaq müqavilə bunun üçün də müəyyən imkanlar yaradacaqdır.

### KATALİTİK KREKİNQ QURĞUSUNUN KOLLEKTİVİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

Mənim ən böyük vəzifəm, vaxtımın çox hissəsini sərf etdiyim iş bundan ibarətdir ki, müharibə tezliklə başa çatsın, torpaqlarımız geri qayıtsın, qaçqınlar öz ev-eşiklərinə dönsünlər. Azərbaycanın ərazisi tamamilə öz əlində olsun, müstəqil dövlətimiz öz taleyini özü həll etsin və bütün bu sərvətlərdən də səmərəli istifadə etsin.

Vaxtilə ELOU-AVT-6, katalitik riforminq qurğularının hər biri qısa vaxtda – iki il müddətində tikilib başa çatdırılmışdır. Katalitik krekinq qurğusu nədənsə 12 ilə tikilmişdir. Demək işin təşkilindən çox şey asılıdır, 70-

ci illərdə və 80-ci illərin əvvəllərində respublikada belə mühüm obyektlərin tikintisi sürətlə aparılırdı. Əgər bu qurğu da belə sürətlə inşa olunsaydı, daha çox mənfəət gətirərdi.

Vaxt çox sərf olunsa da, kənardan mütəxəssislər dəvət edilmədən belə bir işin başa çatdırılması mühüm işdir. Çalışın ki, bu qurğunu da yaxşı işlədin. Güman edirəm ki, neft müqaviləsi bağlandıqdan sonra görəcəyimiz işlər sırasında bu qurğunun yenidən qurulması, müasirləşdirilməsi problemi də həll olunacaqdır. [235-236]

Bir sıra xarici səfirlik başçılarının Bakıda diplomatik klub açılması zəruriliyi barədə irəli sürdükləri təklifləri məmnuniyyətlə qarşılayıram və bildirirəm ki, yaxın gələcəkdə Bakıda belə bir klub fəaliyyətə başlayacaqdır. Həm də güman edirəm ki, neft müqavilələri bağlandıqdan sonra buraya çox adamlar gələcək və həmin klub tək sizin üçün yox, həm də onlar üçün lazım olacaqdır.

Katalitik krekinq qurğusu 1993-cü ildə istifadəyə verilib. Bu da Azərbaycan neft emalı sənayesinin kompleks şəkildə yenidən qurulması barədə 1970-ci illərdə başlanmış işin tərkib hissəsidir. O vaxt biz çalışırdıq ki, texnologiyanın çoxunu xaricdən gətirək. Məsələn, dediyim kimi, riforminq qurğusunu o vaxt Fransanın "Litfin" firmasından aldıq. Bizdə iki böyük ELOU-AVT-6 qurğusu var. Bunlar neftin ilkin emalı qurğularıdır. Onların biri buradadır, digəri başqa zavoddadır. Bunları o vaxt Şərqi Almaniyadan aldıq. Doğrudur, biz bunlara o vaxt dönərli valyuta vermirdik. 70-ci illərdə biz krekinq qurğusunun tikintisi üçün çox çalışdıq. Bu qurğunun layihəsi 70-ci ildə hazırlanıb, amma tikintisinə 1981-ci ildə başlanıb. Əvvəlki qurğuları iki il müddətində tikdik. Amma bu qurğunun tikintisi uzanıb, 12 ilə başa gəlib. Qurğu rəisinin dediyinə görə, bu qurğunun istismara verilməsi prosesi də çətin olub. Amma onlar bunu müstəqil olaraq öz imkanları, öz mütəxəssislərinin qüvvəsi ilə istismara veriblər.

Bu qurğu indi bizim üçün çox lazımdır. Amma burada benzin istehsalı üçün xammal çatışmır. Yenə də belə bir məsələ ortaya çıxır ki, biz gərək neftçıxarmanı artıraq. Əgər çox neft istehsal etsək, bu qurğunun istehsal gücünü təmin edə bilərik.

## ELOU-AVT-6 QURĞUSUNUN ƏMƏKÇILƏRI ILƏ GÖRÜŞDƏ ÇIXIŞ

Xatırlayıram ki, bu qurğu 1976-cı ilin oktyabrında istifadəyə verilib. O vaxt biz burada böyük bir mitinq də keçirdik. Deməк bu qurğu 18 ildir ki, işləyir.

Mən də sizinlə, Azərbaycanın neftçiləri, zəhmətkeş adamları, vətənpərvər insanları ilə fəxr edirəm. Doğrudur, belə qurğuların inşası, avadanlıq gətirilməsi, layihələrin hazırlanması üçün mən çalışmışam. Amma bütün bunlar sizin əllərinizlə yaradılıb. Ona görə mən də sizinlə fəxr edirəm, çünki xalqımız belə böyük işləri görməyə qadirdir. Xalqımızın içərisində əməksevər, vətəninə sadiq adamlar çoxdur və onlar xalqın böyük əksəriyyətini təşkil edirlər. Mən sizi görəndə sevinirəm, ürəyim dağa dönür. Düşünürəm ki, çəkdiyim zəhmət əbəs deyil, xalqımız üçündür?

Qurğuda çalışan və bir qədər əvvəl mənə müraciət edərək xoş arzularını bildirən zəngilanlı qaçqın qadına cavab olaraq bəyan edirəm ki, mən bütün zəngilanlılara, işğal olunmuş torpaqlardan qaçqın düşən bütün Azərbaycan vətəndaşlarına, bacılarıma, qardaşlarıma minnətdaram ki, bu ağır, çətin sınaqlara dözürlər. Xalqımızın başına bəla gəlib. Bunun səbəb[236-237]lərini indi mən demək istəmirəm, amma bunun səbəbləri var. Siz ki, bütün bu çətinliklərə dözürsünüz və ümidlə yaşayırsınız ki, torpaqlarımız azad olunacaq, öz yerinizə, yurdunuza qayıdacaqsınız, bunun özü mənə də böyük ruh verir. Ona görə sənə, zəngilanlılara, bütün qaçqınlara deyirəm ki, mən çalışıram və bundan sonra da çalışacağam ki, sülh olsun, müharibə qurtarsın, torpaqlarımız azad olunsun, hər bir vətəndaş öz evinə qayıtsın?

Mən sizə bildirdim ki, biz o vaxt bu məsələlərlə məşğul olanda bu qurğular Şərqi Almaniyada istehsal edilirdi. Bu qurğunu hazırlayan firma indi də fəaliyyətdədir. ELOU-AVT-6 qurğusu 18 ildir ki, fəaliyyət göstərir və Azərbaycana çox böyük mənfəət verib. Qurğunun istehsal gücü böyükdür. Ancaq indi neft az olduğuna görə təəssüf ki, o, ildə dörd milyon ton neft emal edir. Ona görə biz gərək neft hasilatını artıraq ki, qurğunun bütün gücündən istifadə edə bilək. Mənə dedilər ki, burada istehsal olunan kerosin dünya standartlarına uyğun deyil. Ondan keçmiş Sovetlər İttifaqında buraxılmış təyyarələrdə istifadə edilir, ancaq "Boinq" tipli təyyarələr üçün bu məhsul yaramır. Demək, bu yanacağın keyfiyyətini qaldırmaq lazımdır. Burada dedilər ki, digər keyfiyyət göstəriciləri yüksəkdir?

Mənim xatirimdədir ki, bu qurğunu tikərkən, yaradarkən biz nə qədər sevinirdik. Çünki belə bir qurğunun tikilməsi o vaxt Azərbaycanda ilk addım idi. Bu qurğunun istifadəyə verilməsi böyük təntənəyə çevrildi. Mən yenə çox sevinirəm ki, 18 il bundan qabaq yaratdığımız qurğu bu gün də işləyir və mənə buraya yenidən gəlmək nəsib olub. Hamınıza bir daha uğurlar diləyirəm. Sözsüz ki, biz neft istehsalını artıracağıq, siz də keyfiyyəti artırın. Sağ olun. [237-238]

## RADİOQURAŞDIRMA İSTEHSALAT BİRLİYİNİN KOLLEKTİVİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

*17 sentyabr 1994-cü il*

Bu müəssisələrin hamısının yaranmasında mənim iştirakım olub. Bu gün mən bunların hamısının yüksək səviyyədə olduğunu görəndə daha da sevinirəm. Radio zavodu 60-cı illərdə yaranıb. O vaxt burada çox primitiv, xırda radioqəbuledici istehsal edilirdi, adı da "Xəzər" idi. Bakı radiostansiyasından başqa bir yeri tutmurdu. 70-ci illərdə biz bu zavodları, o cümlədən radioquraşdırma zavodunu müasirləşdirmək üçün çox işlər gördük. Ümumiyyətlə, respublikada radiotexnika sənayesini həmin illərdə çox geniş inkişaf etdirdik. Bu sahədə Radioquraşdırma Birliyinin xüsusi yeri vardır. İndi burada rəngli televizor, əhali üçün lazım olan digər məişət avadanlığı istehsal olunur ki, bunlar da respublikamıza çox lazımdır. Həm də bu, bizim mühəndislərin, texniklərin, mütəxəssislərin səviyyəsinin yüksəldiyini göstərir. Bunlar məni sevindirir. [238-239]

## AZƏRNEFTYAĞ İSTEHSALAT BİRLİYİNDƏ AVTOMATİK İDARƏETMƏ MƏRKƏZİNİN KOLLEKTİVİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

*17 sentyabr 1994-cü il*

Hörmətli neftçilər, bacılar, qardaşlar, həmvətənlər! Bu günü mən Azərbaycan neft sənayesinin böyük hissəsi olan neftayırma, neft emalı zavodlarının vəziyyəti ilə tanış olmağa həsr etmişəm. Bir neçə saatdır ki, biz neftayırma zavodlarının işi ilə tanış oluruq. Buraya toplandığınıza görə sizinlə də görüşə gəlmişəm.

Mən ELOU-AVT-2 qurğusunda tikilən yeni emal qurğularında çalışan inşaatçılara minnətdarlığımı bildirirəm, burada işləyən koreyalı mütəxəssislərin işini yüksək qiymətləndirirəm və əmin olduğumu bildirirəm ki, qarşıda duran işlər də qısa vaxtda, yüksək keyfiyyətlə başa çatdırılacaqdır.

Azərbaycan Respublikasının neft sənayesi iqtisadiyyatımızın əsas sahəsidir. Azərbaycanda neft sənayesinin böyük tarixi vardır. Azərbaycanda, ümumiyyətlə, sənaye neft sənayesinin əsasında inkişaf edibdir və bunun əsasında Azərbaycan böyük sənaye ölkəsinə çevrilibdir. Neft sənayesi Azərbaycan xalqına böyük nemətlər veribdir. Azərbaycan xalqının həm iqtisadi, həm elmi, həm mənəvi inkişafında əvəzsiz rol oynayıbdır. Bu gün də Azərbaycanın neft sənayesi iqtisadiyyatımızın dayağıdır, Azərbaycan sənayesinin demək olar ki, onurğa sütunudur. Ona görə də neft sənayesi daim bizim diqqət mərkəzimizdədir və neft sənayesində çalışan Azərbaycan vətəndaşları həmişə hörmət və ehtirama layiqdirlər. Neftçi sözü Azərbaycanda şöhrətli sözdür, neftçiyə Azərbaycanda həmişə baş əyilibdir, neftçi sayılmış, tanınmış adamdır. Güman edirəm ki, gələcək illərdə də neftçi peşəsi, neft istehsalı ilə məşğul olanlar həmin hörmət və ehtiram səviyyəsində olacaqlar.

İndi Azərbaycan müstəqil dövlətdir, müstəqil dövlət kimi öz sərvətlərinin sahibidir, öz taleyinin sahibidir. Bu gün biz tam qətiyyət və iftixar hissi ilə deyə bilərik ki, Azərbaycanın neft sənayesi indiyədək inkişaf edib yüksək səviyyələrə qalxıbdır, neft sənayesində böyük sənaye, iqtisadi potensial yaranıbdır.

Dediyim kimi, neft sənayesinin tarixi böyükdür, 150 ildən artıqdır. Bilirsiniz ki, çıxarılan neft əsrimizin əvvəlindən Bakı şəhərində tikilmiş neft emalı qurğuları vasitəsilə emal olunubdur. Bu qurğular vaxtilə öz işini görmüş, Azərbaycanda çıxarılan böyük miqdarda neft məhsulunun emalını təmin etmiş və Azərbaycan xalqına fayda vermişdir. Ancaq zaman keçdikcə bu qurğular öz əhəmiyyətini itirmişdir. Həmin qurğular bir tərəfdən Azərbaycanın iqtisadiyyatında böyük rol oynamış, eyni zaman [239-240] da Azərbaycanın paytaxtı Bakının bir hissəsini qara şəhərə çevirmişdir. İndi biz toplaşdığımız yer Qaraşəhərdir. Azərbaycanda, Bakıda "Qaraşəhər" sözü qəbul olunmuş bir məfhum idi və Qaraşəhər Bakının bir hissəsi idi. Xalq, ictimaiyyət ona görə "Qara şəhər" deyirdi ki, buradakı neft emal edən zavodlar həm atmosferə, həm də bizi əhatə edən mühitə o qədər tullantılar buraxırdı ki, həmin tullantılar burada hər şeyi qara rəngə boyayırdı, bəzən burada torpaq da, evlər də qaraya çalırdı, burada işləyən insanların sifətinə baxanda bəzən onların da qara rəngə bulaşdığını görürdüm.

Ona görə də biz vaxtilə çalışdıq ki, bu Qaraşəhər abadlaşsın. Bunun üçün də bu ərazidə yerləşən neftayırma zavodlarının tamamilə sökülməsi və onların yerində müasir tipli, həmin dövrün tələbləri səviyyəsində texnologiyaya malik olan zavodların tikilməsi qarşımızda duran əsas vəzifə idi. Sizə bildirmək istəyirəm ki, – bəlkə də bəziləriniz bunu dəqiq bilmirlər, – bu, asan bir iş deyildi. On illərlə fəaliyyət göstərən qurğuları, zavodları dağıtmaq lazım idi. Burada adlarını çəkdilər, onların adları belə idi: Qarayev adına zavod, həmin bu durduğumuz yerin adına o vaxt Stalin adına zavod deyirdilər, sonra onun adını dəyişdirdilər, Partiyanın XXII qurultayı adına zavod qoyuldu. Bundan başqa Caparidze adına zavod və digər zavodlar var idi. Bax bu, Qaraşəhərdə yerləşən zavodlar idi. Yenə deyirəm, bunlar doğrudan da öz tarixi rolunu oynadılar. Azərbaycanda çıxan neftin emalını təmin etdilər. Azərbaycan iqtisadiyyatının inkişaf etməsi üçün xeyli iş gördülər. Ancaq eyni zamanda Bakı şəhərinin bir hissəsini qara rəngə boyadılar. Beləliklə, Qaraşəhər meydana çıxdı. Burada insanların yaşayışı çətinləşdi.

Mənim xatirimdədir, 60-cı illərdə və 70-ci illərin əvvəllərində burada bir bina tikiləndə insanlar həmin evdə yaşamağa gəlmək istəmirdilər. Əvvəldən burada məskunlaşmış, yaşayan insanlar isə buradakı hisə, tullantılara, qara rəngə öyrənmişdilər və öz yaşayışlarını ancaq bu cür qəbul edir, bu cür düşünürdülər.

Allaha şükür olsun ki, bunlara son qoyulubdur. Görürsünüz ki, indi burada yaşıllıqlar, ağaclar var. Həmin bax o qara yer indi təbiətin ən gözəl rəngləri kimi gözümüzün qarşısındadır. Mənim xatirimdədir, bu zavoda ilk dəfə gələndə, – o vaxt bunun adı Partiyanın XXII qurultayı adına zavod idi, – ərazini gəzən zaman, – bilirsiniz ki, bu zavod dənizin sahilinə çıxır, – dəhşətə gəldim. Çünki o vaxt burada yer də qara idi, dənizin sahili də.

Bax, bunların hamısını görərək, nəzərə alaraq, Azərbaycan sənayesinin yenidən qurulması proqramını işləyib hazırladıq. Bu işə 70-ci ildən başlanmışdır. Həmin illərdə onun əsası qoyuldu. Sonrakı illərdə biz ardıcıl olaraq bu proqramı həyata keçirməyə çalışdıq. Nəhayət, 1976-cı ildə Azərbaycan Respublikası sənayesinin mütərəqqi sahələrini inkişaf etdirmək proqramı qəbul olundu. Həmin proqramın qəbul edilməsində mənim

xidmətlərim var. Bunu ona görə demirəm ki, siz məni təvazökar [240-241] olmayan bir adam kimi qəbul edəsiniz. Ona görə deyirəm ki, siz həqiqəti bir daha yadınıza salasınız.

Bəli, biz o proqramı hazırladıq, mən həmin proqramı irəli sürdüm. Mən bu barədə məruzə edərkən, – onu arxivlərdən götürüb baxa bilərsiniz, – Qaraşəhərin vəziyyətini də təsvir etdim və dedim ki, vaxt gələcək, bu Qaraşəhər qara rəngdən xilas olacaq, burada güllər əkiləcək, yaşıllıq, ağaclar olacaq, yaraşıqlı yaşayış binaları tikiləcək və insanlar burada yaşamağa can atacaqlar.

O vaxtdan – biz bu işə başlayandan 25 il keçmişdir. Bu, əsrin dörddə birinə bərabər vaxtdır. İndi biz tamamilə başqa bir şəraitdəyik, başqa bir dövrdəyik. İndi bura "Qaraşəhər" deyən yoxdur. Artıq o söz unudulub, buralar abadlaşıb və bu iş davam etdirilir. Bunların əsasını qoyan neft emalı zavodlarının tamamilə yenidən qurulmasıdır.

Bu yenidənqurma Yeni Bakı neftayırma zavodunun ərazisində quraşdırılmış iki böyük qurğu ilə başlandı. ELOU-AVT-6 neft emalı qurğusunun tikintisi qısa müddətdə başa çatdırıldı və qurğu istismara verildi. 1976-cı ildə biz o qurğunu təntənə ilə açdıq və neft emalı sahəsində yeni bir dövr başlandı. Ondan sonra həmin zavodun ərazisində xarici ölkələrdən alınmış yeni bir qurğu – yüksək oktanlı benzinlər və digər məhsullar istehsal etmək üçün katalitik riforminq qurğusu tikildi. Həmin qurğuya o vaxt 40 milyon dollar sərf olunmuşdu. Burada, Partiyanın XXII qurultayı adına zavodun ərazisində olan köhnə qurğular söküldü və onların yerində ELOU-AVT-6 qurğusu quruldu. 1981-ci ildə bu qurğunun ikinci növbəsi də istifadəyə verildi.

Beləliklə, Azərbaycanın neft emalı sahəsində yeni bir dövr, yeni bir mərhələ başlandı. O vaxtın tələbatına, o dövrün texnika və texnologiyasına uyğun səviyyədə qurğular qısa müddətə tikildi. Bununla da Azərbaycanın neft emalı sənayesində yeni işlər başlandı və indi də davam etdirilir. Mən bu gün Yeni Bakı neftayırma zavodunda oldum. ELOU-AVT-6 və riforminq qurğularının işi ilə tanış oldum. Tikintisi 1980-ci ildə başlanmış və 1993-cü ildə başa çatmış katalitik krekinq qurğusunun da işi ilə tanış oldum. O da çox böyük qurğudur.

Sizə dediyim bu qurğuların – ELOU-AVT-6 və riforminq qurğularının texnologiyası xaricdən alınmışdır. Ancaq katalitik krekinq qurğusunun texnologiyası o vaxt Sovetlər İttifaqının özünə mənsub olan texnologiyadır. Təəssüf ki, onun tikintisi uzanmışdır. Həmin qurğu da iki il müddətində tikilib başa çatmalı idi. Eyni zamanda, mən böyük məmnuniyyət hissi ilə qeyd edirəm ki, tikintisi uzansa da, həmin qurğu artıq inşa olunub başa çatmışdır, hazırda işləyir, fəaliyyət göstərir və Azərbaycanın neft emalı sənayesinə böyük mənfəət verir.

Nəhayət, son vaxtlar burada yeni bir neftayırma qurğusu – istehsal gücü 2 milyon ton olan, Amerika texnologiyasına, ən müasir texnologiyaya uyğun olan bir qurğu tikilibdir. Keçən il oktyabrın sonunda biz bu qurğunun açılışında iştirak etdik. Bu qurğu sizin Birliyin və onun rəhbəri Rəsul Quliyevin təşəbbüsü ilə meydana gəlmiş, tikilmiş qurğudur. [241-242] Bu gün həmin qurğunun işi ilə bir daha tanış oldum. Bu qurğunun texnologiyası, onun idarəetmə sistemi daha yüksək səviyyədədir.

Bu ərazidəki ikinci bir qurğu istehsal gücü 2 milyon ton olan, Koreyanın texnologiyası və həmin ölkə mütəxəssislərinin iştirakı ilə tikilən qurğudur. Bu qurğuda da inşaat işi ilə tanış oldum. Mənə məlumat verdilər ki, qısa müddətdən sonra həmin qurğunun da inşası başa çatacaqdır.

Deməli, Azərbaycanın neftayırma, neft emalı sənayesi təxminən son 25 ilin içərisində tamamilə yenidən yaranıbdır, yenidən qurulubdur. Bu, Azərbaycan xalqının böyük sərvətidir. Bu, Azərbaycan neftçilərinin, neft-ayıranlarının, Azərbaycan alimlərinin, mühəndis və mütəxəssislərinin, fəhlələrinin böyük əməyinin, xidmətlərinin nəticəsidir. Onların fədakar əməyinin nailiyyətidir. Mən bütün bu nailiyyətlər münasibətilə sizi və sizin simanızda Azərbaycan neftçilərini, neftayırma sahəsində çalışan mütəxəssisləri, fəhlələri, kollektivləri təbrik edirəm, hamınıza gələcək işlərinizdə müvəffəqiyyətlər, həyatınızda səadət və xoşbəxtlik arzu edirəm. Son 25 il ərzində görülən işlər bizim bu gün və gələcəkdə qarşımızda duran böyük işlər üçün yaxşı əsas yaradıbdır. Bir də qeyd edirəm ki, Azərbaycanın neft sənayesi iqtisadiyyatımızın əsas sahəsidir. Azərbaycanın neft yataqlarında neft və neft məhsulları hələ çoxdur. Onları çıxarmaq, istifadə etmək, iqtisadiyyatı, xalqımızın sosial vəziyyətini qaldırmaq, adamlarımızın rifahını yüksəltmək bizim vəzifəmizdir. Biz bu vəzifəni yerinə yetirməyə çalışırıq. Bunun üçün neft yataqlarının istismar olunması məsələsi qarşımızda böyük problem kimi durur. Sizə bildirmək istəyirəm ki, indi həmin neft yataqlarının istismar olunması 20-25 il, 50 il bundan əvvəlkinə nisbətən çətindir. Çünki qurudakı neft yataqlarından təkrar neft çıxarılması çox müasir texnologiya tələb edir. Dənizdəki yataqlardan neft çıxarılması isə, suyun dərinliyinin olduqca çox olması ilə əlaqədar, keçən illərə nisbətən çətindir. Çünki biz indiyədək dayaz yerlərdəki yataqlardan istifadə etmişik. İndi isə Xəzərin dərin yerlərindəki yataqlardan istifadə etməliyik. Bizim alimlərimiz orada zəngin neft yataqları tapıblar, kəşf ediblər. Ancaq onların istifadə olunması, istismar olunması böyük işlər tələb edir. Müasir texnika və texnologiyadan, təcrübədən istifadə etməyi tələb edir.

Ona görə də biz bu işləri Qərb şirkətlərinin köməyi ilə aparmaq qərarına gəlmişik. Bu barədə üç ildir ki, danışıqlar gedir. Qərb ölkələrinin təcrübəli böyük şirkətləri Azərbaycanda neftçıxarma işi ilə məşğul olmağa meyl edirlər, səy göstərirlər, bizimlə müştərək iş aparmaq üçün təkliflər veriblər. Biz bu təklifləri üç il müddətində təhlil etmişik, müzakirə etmişik və nəhayət, belə fikrə gəlmişik ki, bu təklifləri qəbul etmək olar.

Danışıqlarımız sona çatıbdır. Mən dünən artıq bəyan etdim ki, sentyabrın 20-də Bakıda Qərb neft şirkətləri ilə Azərbaycan Dövlət Neft Şirkəti arasında 30 il müddətinə böyük bir müqavilə imzalanacaqdır. Bu, demək [242-243] olar ki, tarixi müqavilədir. Bu müqavilə XX əsrin sonunda imzalanacaq və XXI əsrin birinci hissəsində Azərbaycan iqtisadiyyatının inkişaf etməsi üçün böyük əsas yaradacaqdır.

Güman edirəm ki, siz neftçilər də bizim belə bir böyük, məsuliyyətli addımımızı bəyənirsiniz, alqışlayırsınız, çünki siz yaxşı bilirsiniz ki, əgər biz bu üsula əl atmasaq, həmin neft yataqlarından istədiyimiz səviyyədə istifadə edə bilməyəcəyik. Ona görə də mən bu gün bu məsələləri sizə çatdırıram və əmin olduğumu bildirmək istəyirəm ki, siz bu məsələlərdə bizimlə həmfikirsiniz, bizimlə birsiniz və sizin iradənizi ifadə edərək, biz sentyabrın 20-də o müqavilələrin imzalanmasını təmin edəcəyik. Bu müqavilələrin sayəsində Azərbaycanda neft hasilatı xeyli artacaqdır. 30 il müddətində o yataqlardan – "Azəri", "Çıraq" yataqlarından və "Günəşli" yatağının da bir hissəsindən 500 milyon tondan artıq neft çıxaracağıq. Bunun demək olar ki, yarısı Azərbaycan Respublikasına çatacaq və burada emal olunacaq, neft məhsulları alınacaqdır.

Bütün bunlara görə neft emal edən zavodlar, neftayırma zavodları, qurğuları bu gün bizə çox lazımdır, sabah daha çox lazım olacaqdır. Bu müqavilələrin icrası nəticəsində neftayırma zavodlarımızın, onların texnologiya və texnikasının səviyyəsi daha da yüksələcək, inkişaf etdiriləcək, müəssisələr yenidən qurulacaq, modernləşdiriləcək və bütün bunlar məhsulların keyfiyyətini daha da artıracaq və burada, neft sahəsində çalışan vətəndaşlarımızın həm iş, həm də yaşayış şəraitini daha da yaxşılaşdıracaqdır.

Bütün bunlar bizim qarşımızda duran vəzifələrdir. Bu gün mən bizim zavodların işi ilə tanış olarkən həmin vəzifələrin nə cür həyata keçiriləcəyinə nəzər salıram, bu barədə düşünürəm. Ona görə də bu zavodlarla bir daha tanış oluram, bu gün sizinlə görüşürəm və öz fikirlərimi, öz mülahizələrimi sizə çatdırıram. Tam əmin ola bilərsiniz ki, biz neft sənayesinin inkişafı üçün bundan sonra bütün tədbirləri görəcəyik, sentyabrın 20-də imzalanacaq müqavilə xalqımız üçün mənfəətli olacaq, Azərbaycanı dünya iqtisadiyyatına bağlayacaq, Azərbaycanın dünyanın təcrübəli, görkəmli, inkişaf etmiş neft şirkətləri ilə müştərək işini təmin edəcəkdir. Bütün bunlar Azərbaycanın gələcəyinin daha gözəl olmasına imkan verəcəkdir.

Bizim bu addımımız ümumiyyətlə, gördüyümüz işlər müstəqil Azərbaycanın müstəqilliyini möhkəmləndirməyə yönəldilmişdir. Bu tədbirlər Azərbaycanda demokratik dövlət qurub-yaratmaq üçün, ölkəmizi bazar iqtisadiyyatına keçirmək, Azərbaycanda azad iqtisadiyyat normalarını tətbiq etmək, sahibkarlıq prinsiplərini bərqərar etmək üçün görülür.

Əmin ola bilərsiniz ki, iqtisadi islahatları həyata keçirərək, ümumiyyətlə, demokratik prinsipləri respublikamızın həm dövlət quruculuğunda, həm də ictimai-siyasi həyatında ardıcıl surətdə tətbiq edərək biz Azərbaycanı istər ictimai-siyasi cəhətdən, istərsə də iqtisadi cəhətdən inkişaf etmiş, demokratik prinsiplər əsasında qurulmuş bir dövlət kimi dünyada [243-244] tanıdacağıq və müstəqil Azərbaycan dünya birliyində öz layiqli yerini tutacaqdır. Bütün görülən tədbirlər yalnız və yalnız bu məqsədə yönəldilmişdir. Biz bu yolla gedirik və gələcəkdə də bu yolla gedəcəyik.

Respublikamızın ən ağır problemi müharibə ilə bağlıdır. Burada çıxış edənlərin də, zavodlarda keçirdiyim görüşlərdə, vətəndaşlarla söhbətlərdə də hamının sözü bir olmuşdur: müharibəyə tezliklə son qoyulsun, Azərbaycan bu bəladan çıxsın, sülh yaransın. İşğal olunmuş torpaqlarımız azad edilsin, balalarımız bir daha şəhid, əlil olmasınlar, yaralanmasınlar. Bəli, bu, bizim ən böyük problemimiz, qarşımızda duran ən böyük vəzifədir. Bilməlisiniz ki, biz bu məsələlərlə daim məşğul oluruq. İş vaxtımın xeyli hissəsi məhz bu məsələlərin həllinə sərf olunur. Əmin ola bilərsiniz ki, bütün biliyimi, bacarığımı, təcrübəmi, şəxsi nüfuzumu ancaq bu məsələnin həllinə həsr edirəm və bundan sonra da həsr edəcəyəm. Yenə deyirəm, buna tam əmin ola bilərsiniz.

Eyni zamanda bilməlisiniz ki, bu, asan məsələ deyildir. Azərbaycan torpaqlarının 20 faizi erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. Bu torpaqlardan bir milyon nəfərdən çox vətəndaşımız qaçqın düşmüşdür. Onlar ağır vəziyyətdə yaşayırlar.

Dörd aydan artıqdır ki, biz atəşin kəsilməsinə nail olmuşuq. Buna nail olmaq da çox çətin idi. Ermənistanla bilavasitə aparılan danışıqlar, beynəlxalq təşkilatların, Rusiyanın vasitəçiliyi atəşin kəsilməsinə və bunun dörd aydan artıq davam etməsinə çox böyük imkan vermişdir.

Biz bu yaxınlarda Moskvada görüşlər keçirdik. Orada da birgə bəyanatlar verdik ki, biz atəşkəsin davam etməsini təmin edəcəyik. Öz tərəfindən Azərbaycan bunu bəyan etmişdir. Biz öz bəyanatımızı yerinə yetirəcəyik. Lakin biz atəşkəsin davam etdiyi dövrdən səmərəli istifadə etməyə çalışırıq ki, böyük, uzunsürən və etibarlı sülh yaradaq. Bu o deməkdir ki, müharibəyə son qoyulmalıdır, işğal edilmiş torpaqlardan erməni silahlı qüvvələri çıxmalıdır, Azərbaycan Respublikasının ərazi bütövlüyü, sərhədlərimizin toxunulmazlığı təmin olunmalıdır. Biz Ermənistan tərəfinin də bəzi şərtlərini qəbul edirik. Yəni Dağlıq Qarabağda yaşayan ermənilərin təhlükəsizliyinin təmin olunması, Dağlıq Qarabağın statusu məsələlərini və başqa məsələləri də müzakirə etməyə hazırıq.

Bizim şərtlərimiz ədalətli şərtlərdir. Şərtlərimiz ölkəmizin, xalqımızın sülhsevər olduğunu göstərir. Müharibəni biz başlamamışıq. Azərbaycan Respublikası müharibəyə cəlb edilib. Biz müharibəyə son qoymaq istəyirik. Sülh addımlarım da buna görə atırıq. Bilməlisiniz ki, uzunmüddətli və etibarlı sülh yaranması,

müharibənin qurtarması, Azərbaycan xalqının sülh şəraitində yaşaması, qurub-yaratması üçün bütün imkanlarımdan istifadə etməyə çalışıram. Əminəm ki, biz buna nail olacağıq.

Lakin bunlar çətin məsələlərdir. Bunlarla məşğul olmaq üçün biz gə[244-245]rək gücümüzü cəmləşdirək, hamımız bir olaq, hamımız bir yolla gedək, bir nöqtəyə vuraq. Yolumuz hansı yoldur? Əlbəttə ki, yolumuz Azərbaycanın müstəqilliyini qoruyub saxlamaq, Azərbaycanın ərazi bütövlüyünü, sərhədlərinin toxunulmazlığını təmin etmək, xalqımızı bu bəlalardan qurtarmaq, onun rifahını yüksəltmək, Azərbaycanda demokratik dövlət qurmaq, demokratiya prinsiplərini bərqərar etmək, Azərbaycan xalqının malik olduğu böyük təbii sərvətləri, böyük imkanları iqtisadiyyatımızın inkişafına və xalqımızın güzəranının yaxşılaşdırılmasına yönəltmək yoludur. Bu yol ilə hamımız birlikdə getməliyik. Hamımız əl-ələ verməli, hamımız bilməliyik ki, bizim başqa yolumuz yoxdur. Əminəm ki, Azərbaycan xalqının əksəriyyəti bu yolu bəyənir, bu yol ilə getməyə hazırdır, bu siyasətimizi dəstəkləyir və bizim bundan sonra da bu yol ilə getməyimiz üçün bizə arxa-dayaq olacaqdır.

Təəssüf ki, indi, Azərbaycanın bu ağır və çətin dövründə bizim bax, bu yolla getməyimizə mane olan qüvvələr də, bu işləri pozmağa can atan qüvvələr də var. Eşidəndə ki, bəziləri müharibənin qurtarmasını istəmir, bəziləri də onun davam etməsini istəyirlər, adam dəhşətə gəlir. Eşidirsən, bilirsən, duyursan ki, bəziləri respublikada yaranmış bu sabit ictimai-siyasi vəziyyəti pozmaq istəyir. Nə üçün? Nəyə görə? Yalnız və yalnız öz şəxsi məqsədlərini, öz çirkin niyyətlərini həyata keçirmək üçün.

Bəli, aramızda beləlləri də var. Biz insanlara azadlıq vermişik. Azərbaycan Respublikasının ərazisində söz azadlığı, vicdan azadlığı, mətbuat azadlığı, bir sözlə, bütün azadlıqlar bərqərar edilmişdir. Amma bu azadlıqlardan yalnız və yalnız xalqın mənafeyi naminə istifadə olunmalıdır, xalqı daha dərin quyuya salmaq üçün yox. Xalqı bu bəladan qurtarmaq üçün istifadə etmək lazımdır, xalqı daha da uçuruma aparmaq üçün yox.

Buna görə də mən belə qüvvələrə öz sözümü qəti şəkildə deyirəm və bildirirəm ki, Azərbaycanın daxili ictimai-siyasi sabitliyini pozanlara, Azərbaycan dövlətçiliyinə xəyanət edənlərə qarşı biz amansız olacağıq. Azərbaycanın Konstitusiyası, qanunları, dövlətçiliyi qorunacaqdır, Azərbaycan xalqının hüquqları qorunacaqdır. Azərbaycan xalqının, hər bir Azərbaycan vətəndaşının təhlükəsizliyi təmin ediləcəkdir. Biz bunları pozmağa can atanlara qətiyyən yol verməyəcəyik. Buna hamınız əmin ola bilərsiniz.

Bizim istər dövlət, istər daxili, istərsə də xarici siyasətimiz çətin şəraitdə həyata keçirilir. Aparılan işlər asan işlər deyildir. Atılan addımlar ciddiyyət, qətiyyət, məsuliyyət tələb edir. Bütün bunlar bizim üzərimizə, Azərbaycanın bir prezidenti kimi şəxsən mənim üzərimə böyük vəzifələr və böyük məsuliyyət qoyur. Ancaq bilin ki, mən 25 il bundan əvvəl ilk dəfə Azərbaycan Respublikasının rəhbəri təyin olunmuşam, seçilmişəm. İndi, 25 il keçəndən sonra Azərbaycan xalqı mənə bir daha etimad göstərmiş və məni prezident seçmişdir. Mən Azərbaycan xalqının bu etimadını yüksək qiymətləndirir, ona öz minnətdarlığımı bildirirəm. Bilin ki, mənim bütün həyatım, ömrümün həmin 25 ili də Azərbay[245-246]can xalqının xoşbəxt həyatına, xoşbəxt gələcəyinə həsr olunmuşdur və bundan sonrakı fəaliyyətim də, həyatım da yalnız və yalnız buna həsr ediləcəkdir.

Bugünkü görüş üçün sizə təşəkkür edirəm. Hamınıza cansağlığı, səadət arzulayır və sizi əmin edirəm ki, Azərbaycan xalqının gələcəyi xoşbəxtdir, çox parlaqdır. Müstəqil Azərbaycan Respublikası yaşayacaq, inkişaf edəcək, dünya birliyində öz layiqli yerini tutacaqdır. Sağ olun, xoşbəxt olun, sizin hamınıza xoş günlər arzulayıram. [246-247]

## BÖYÜK DİRİJOR VƏ BƏSTƏKAR NİYAZİNİN EV-MUZEYİNİN TƏNTƏNƏLİ AÇILIŞINDA ÇIXIŞ

*18 sentyabr 1994-cü il*

Hörmətli dostlar. Bu gün respublikamızın həyatında əlamətdar gündür. Azərbaycan xalqının professional musiqisinin banisi, dahi bəstəkarımız Üzeyir Hacıbəyovun anadan olduğu gün, onun xatirəsi yad edilən gündür. Bu gün Üzeyir bəyin silahdaşı, professional musiqimizin yaranmasında və inkişaf etməsində ömrü boyu onunla birlikdə əvəzsiz xidmətlər göstərmiş böyük bəstəkar Müslüm Maqomayevin də anadan olduğu və xatirəsinin yad edildiyi gündür.

On illərdir ki, sentyabrın 18-i Azərbaycanda musiqi bayramı, Üzeyir Hacıbəyovun və Müslüm Maqomayevin xatirə günü elan olunubdur. Həm də çox sevindirici haldır ki, həyatımızın bu keşməkeşlərinə, çətinliyinə, ağırlığına baxmayaraq, mədəniyyətimiz yaşayır, mədəni irsimizə hörmət və ehtiram yaşayır, bu gün cari ildə də təntənə ilə qeyd edilir.

Əsla təsadüfi deyildir ki, məhz bu gün – Azərbaycanın təqviminə həkk olunmuş musiqi bayramı günü böyük bəstəkar, dahi dirijor, Azərbaycan xalqının böyük mədəniyyət xadimi, respublikamızın görkəmli ictimai xadimi Niyazinin ev-muzeyi açılır. Çox məmnunam ki, bu muzeyin açılışında mən də iştirak edirəm, ev-muzeyinin açılışı üçün qırmızı lenti kəsmək kimi şərəfli bir vəzifə mənə nəsib olmuşdur. Mən bu gün muzeyin eksponatları ilə tanış olarkən böyük sənət ustadımız Niyazinin həyat yolunu xatırladım və onun Azərbaycan xalqı üçün necə böyük xidmətlər göstərdiyini bir daha yəqin etdim.

Niyazi respublikamızda da, keçmiş Sovet İttifaqında da, dünyanın ən böyük ölkələrində də tanınan, sayılan, hörmət qazanmış bir sənət ustasıdır. Niyazinin ən böyük xidməti bundan ibarətdir ki, o, həm bəstəkar kimi milli musiqimizi zənginləşdirmiş, Azərbaycanın mədəniyyətinə, milli musiqimizə böyük töhfələr vermiş və eyni zamanda, Üzeyir Hacıbəyovdan başlayaraq gənc bəstəkarlaradək Azərbaycanın ən görkəmli bəstəkarlarının yaratdıqları əsərlərin meydana çıxması, xalqa çatdırılması, səhnələrdə tamaşaya qoyulması üçün misilsiz işlər görmüşdür.

Mən Niyazi ilə uzun illər ərzində tanış idim, onunla lap gənc vaxtlarımızdan dostluq etmişəm. Sonra isə, yəni 25 il öncə Azərbaycana rəhbərliyə başlayarkən və bütün sonrakı dövrdə Niyazini həmişə qiymətləndirmişəm, onunla sıx təmasda olmuşam. Sənətinə pərəstiş etmişəm. Onun yaradıcılıq fəaliyyətinin coşğun və dolğun inkişaf etməsi üçün, milli mədəniyyətimizə, musiqimizə təsir göstərməsi üçün əlimdən gələni əsirgəməmişəm. Bunu ictimaiyyətdə də bilir, rəhmətlik Niyazi də yaxşı bilirdi. Bu, [247-248] indi burada olan və on illər boyu Niyazi ilə birlikdə Azərbaycan musiqisinin inkişafı üçün fəaliyyət göstərmiş, çalışmış görkəmli bəstəkarlarımıza, dirijorlarımıza, musiqiçilərimizə də bəllidir.

Niyazi çox qəribə bir insan idi. O, həm fitri istedadına görə, həm musiqi sənətində xüsusi üslubuna görə, həm də bənzərsiz yaradıcılıq yoluna görə bütün başqa bəstəkarlardan, dirijorlardan seçilirdi. Başqa sözlə desək, onun özünəməxsus dəst-xətti vardı. Bu da onu nəinki fərqləndirirdi, həm də qeyri-adiliyini göstərirdi. Bu qeyri-adilik onun yalnız və yalnız böyük bəstəkar, böyük dirijor, böyük musiqiçi olduğuna dəlalət edirdi.

Azərbaycan xalqı qarşısında Niyazinin əvəzsiz xidmətləri vardır. O, Azərbaycan professional musiqisinin yaranmasında və inkişafında böyük səylər göstərmiş və bu xidmətləri xalqımız heç vaxt unutmayacaqdır. Düzdür, indi Niyazinin ailəsindən həyatda heç kəs yoxdur. Lakin Niyazi elə bir insan idi, adamlarla elə mehriban və səmimi əlaqədə idi ki, bəlkə də hamı onu öz doğması, qohumu bilirdi. O, Azərbaycanın bütün sakinlərini öz ailəsinin üzvləri sanırdı. Ona görə də biz gərək qətiyyən heyfsilənməyək ki, indi Niyazinin bir kəsi qalmayıb. Yox, belə deyildir. Qədirbilən xalqımız, xüsusən Niyazi ilə sıx təmasda olmuş, onunla bərabər fəaliyyət göstərmiş adamlar onun doğmaları, qohum-əqrəbasıdır. Odur ki, gələcək nəsillər də Niyazini heç vaxt unutmayacaqlar.

Mən bu gün bu evə gələrkən binanın qarşısında uşaqları gördüm. Onlar milli geyimdə və xoş əhval-ruhiyyədə idilər. Azərbaycanın gələcəyi olan bu uşaqlar Niyazini görməsələr də onun musiqisinin pərəstişkarlarıdır. Buna görə də onlar Niyazini qəlblərində daim yaşadacaqlar. Dediyim kimi, Niyazi ilə şəxsən tanış idim, şəxsi əlaqəm vardı, onunla dostluq edirdim. O, həyatda da qeyri-adi bir insan idi. Onun həyat yoldaşı Həcər xanımın da Niyazinin həm bir bəstəkar kimi, həm də bir insan kimi inkişaf etməsində çox böyük xidmətləri olmuşdur. Mən bəzən zarafatla deyirdim ki, Həcər xanım olmasaydı, Niyazi də olmazdı. Bu zarafatı Niyazi də çox məmnunluqla qəbul edirdi. Doğrudan da, Niyazinin yaradıcılığında, həyatında, böyük əsərlər bəstələməsində, xalqa dəyərli xidmətlər göstərməsində rəhmətlik Həcər xanımın əvəzsiz rolu olmuşdur. Ona görə də mən burada Həcər xanımın da xidmətlərini qeyd edirəm, onun da xatirəsi qarşısında baş əyirəm.

Niyazi böyük işlər görmüş, böyük xidmətlər göstərmiş və onun xidmətləri yüksək qiymətləndirilmişdir. Niyazi Azərbaycanda ilk on böyük dirijor idi. Özü də bir dirijor kimi tək Azərbaycanda yox, keçmiş Sovet İttifaqında, habelə bir çox ölkələrdə, dünyanın hətta ən böyük dövlətlərində – İngiltərədə də, Fransada da,

Amerikada da, Türkiyədə do olduqca müvəffəqiyyətli çıxışlar etmişdir. Yadımdadır, Niyazi Leninqrad Opera və Balet Teatrının baş dirijoru olan dövrdə teatrın truppası İngiltərəyə qastrola getmişdi. Diqqətəlayiq hal idi ki, Rusiyanın bu görkəmli sənət ocağının İngiltərəyə birinci qastrol səfərində onun orkestrinə Niyazi dirijorluq, özü də çox yüksək səviyyədə, çox məharətlə dirijorluq edirdi. [248-249] O vaxtlar mən bunu izləyir və çox fəxr edirdim ki, bizim azərbaycanlı belə yüksək professionallıq səviyyəsinə çatmışdır.

Bildiyiniz kimi, professional musiqi Avropaya məxsusdur. Bizim başa düşdüyümüz mənada professional musiqi Avropada meydana gəlmişdir. Lakin azərbaycanlı, Azərbaycan dirijoru və bəstəkarı Niyazi Avropanın mərkəzində dünya şöhrətli professional musiqiçilər qarşısında heyrətamiz səviyyədə dirijorluq etdi. Onun belə məşhur orkestri məharətlə idarə etməsi xalqımız üçün böyük fəxrdir.

Türkiyədə opera əsərlərinin, o cümlədən də Avropa, Rusiya bəstəkarlarının klassik əsərlərinin səhnə təcəssümünün əsasını Niyazi qoymuşdur. O, Türkiyədə dəfələrlə olmuşdur. O vaxtlar, yəni Türkiyə ilə heç bir əlaqəmiz olmadığı dövrdə bunları Niyazi etmişdir. Böyük türk bəstəkarı Adnan Sayqunun "Koroğlu" operasını da məhz Niyazi səhnəyə qoymuşdur. Niyazi bu işin də öhdəsindən çox məharətlə gəlmişdir.

Əlbəttə, bu gün mən Niyazinin həyat və yaradıcılığı haqqında məruzə etmək fikrində deyiləm. Bunu musiqişünaslarımız edəcək və etməlidirlər. Mən əsla şübhə etmirəm ki, Niyazinin yaradıcılığı, Azərbaycan musiqisinin inkişafında xidmətləri haqqında, onun yaradıcılığının bənzərsizliyi haqqında məqalələr, kitablar yazılacaqdır.

Burada bəzi anlar yadıma gəlir. İndi mən bu ev-muzeyində onları açıb söyləmək istəyirəm, qoy hamı bilsin. Məlumdur ki, keçmiş Sovet İttifaqında professional musiqi çox inkişaf etmişdi. Ancaq bizdə olan professional musiqinin inkişaf səviyyəsini bir çox müttəfiq respublikalarla müqayisə etdikdə böyük fərqlər olduğunu daim görürdük və bununla haqlı olaraq fəxr edirdik. Bu, şübhəsiz, Üzeyir Hacıbəyovdan başlamış böyük bəstəkarlarımızın xidmətidir, eyni zamanda böyük dirijorlarımızın və sənətin ən yüksək zirvəsində duran Niyazinin xidmətidir.

Bildiyiniz kimi, o vaxtlar biz Sovet İttifaqında yaşayırdıq. Buna görə də tariximizi heç vaxt nə unutmalı, nə də ona qara yaxmalıyıq. Nə gizlədəsən, bəzən belə hallar olur. Görürsünüz ki, Niyazinin bütün həyatı, bütün yaradıcılığı Sovet İttifaqında olmuşdur. İndi biz bunu danmalı, buna qaramı yaxmalıyıq? Yoxsa, biz bunu pozmalıyıqmı, dağıtmalıyıqmı? Yox, əsla, yox! Bu musiqimizin inkişaf, hətta intibah dövrüdür. Biz bunu etiraf etməliyik. Bunu heç kəs, heç vaxt dağıda, poza bilməz! O vaxtlar Niyazinin ən yüksək mükafatlar, dövlət mükafatları alması, orden və medallarla təltif edilməsi, şübhəsiz onun yaradıcılığına verilmiş qiymətdir. Əgər hər hansı bir ölkədə Niyaziyə xalat bağışlayıblarsa, biz onu bu gün burada bir eksponat kimi qiymətləndiririk. Başqa bir ölkədə ona dəyərli töhfə veriblərsə, o da burada bir eksponat kimi öz yerini tutmuşdur. Lakin Niyazinin yaşadığı dövr, yaşadığı ölkə və onun dövləti Niyazini yüksək qiymətləndirmişdir. Biz bunu hər şeydən əziz tutmalıyıq.

Niyazinin öz yaradıcılığına görə, xidmətlərinə görə aldığı mükafatlar yüksək mükafatlar olmuşdur. Yadımdadır, Niyazinin Sosialist Əməyi [249-250] Qəhrəmanı adı alması üçün təşəbbüs göstərdim. Bilirsiniz ki, o vaxtlar bizim bir neçə yazıçımız, şairimiz və bəstəkarlarımızdan mərhum Qara Qarayev, Fikrət Əmirov Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüşdülər. Niyazinin də bu adı almasına çalışdım. Qəribə bir hal meydana çıxdı. Məlum olduğu kimi, o vaxtlar Sosialist Əməyi Qəhrəmanı adı ən yüksək ad idi, bu ada layiq görülənlər ən xoşbəxt adamlar idi. Mən bu təklifi irəli sürəndə Moskvada araşdırdılar ki, bəstəkarlardan, yazıçılardan, şairlərdən, alimlərdən Sosialist Əməyi Qəhrəmanı var, ancaq dirijorlardan yoxdur. Mənə dedilər ki, bəs necə ola bilər ki, Rusiyanın, Ukraynanın və başqa böyük millətlərin, yaxud respublikaların dirijorlarından, Moskvanın məşhur simfonik orkestrlərinə və ya Böyük Teatrın orkestrinə rəhbərlik edən dirijorlardan heç biri Sosialist Əməyi Qəhrəmanı adı almayıb, amma siz təklif və xahiş edirsiniz ki, Niyaziyə belə ad verilsin.

O vaxtlar mən bu söhbətləri Sovet İttifaqının ən yüksək səviyyələrində aparırdım. Onlarla danışarkən və öz təklifimi əsaslandırarkən deyirdim ki, əgər həmin dirijorlar Sosialist Əməyi Qəhrəmanı adına layiqdirlərsə və siz indiyədək bu adı onlara verməmisinizsə, bu, bəlkə də sizin səhvinizdir və öz işinizdir. Amma mən hesab edirəm və Azərbaycan Respublikası adından bildirirəm ki, Niyazi bu ada layiqdir və bəlkə də təsadüfi deyil ki, bu adama layiq olan ad indiyədək ona təqdim edilməmişdir. Axı Niyazi layiqlilərdən ən layiqlisidir. Şübhəsiz ki, mənim bu sözlərimin qarşısında durmaq çətin idi. Odur ki, təklifim qəbul edildi və Niyazi keçmiş Sovet İttifaqının dirijorları arasında birinci olaraq Sosialist Əməyi Qəhrəmanı adını aldı.

Niyazi dirijor olmaqla yanaşı, həm də böyük bəstəkar idi, bəstəkar kimi fəaliyyəti də diqqətəlayiq idi. Lakin onun yaradıcılığında dirijorluq əsas sahə idi və Niyazini də bütün dünyada tanıtdıran onun məhz dirijorluq sənəti olmuşdur. Böyük dirijor olan Niyazi Sosialist Əməyi Qəhrəmanı adına layiq görüldü. Mən də çox sevindim, çox məmnun oldum ki, Azərbaycan xalqının dəyərli oğlu, layiqli nümayəndəsi, Azərbaycan mədəniyyətinin ulduzlarından biri olan Niyazinin o dövrdə ölkənin, dövlətin ən yüksək adını almasını təmin edə bildim. Buna Niyazi də çox sevinirdi. Xatirimdədir, o bunu necə intizarla, həyəcanla gözləyirdi və qərar qəbul edildikdən sonra necə sevinirdi.

Niyazi bunların hamısına, bütün mükafatlara həqiqətən layiqdir, xalqının böyük ehtiram və məhəbbətinə də layiqdir. O, xalq üçün böyük işlər görmüş, həyatını xalqımızın mədəniyyətinin inkişafına həsr etmişdir. Xalq da onu daim qiymətləndirir və bundan sonra da qiymətləndirəcəkdir.

Qeyd edildiyi kimi, Azərbaycanda mədəniyyət və elm xadimlərimizə həsr olunmuş ev-muzeylərinin yaradılmasına 70-ci illərdə başlanmışdır. Bu da həqiqətdir. Yadımdadır, böyük bəstəkarımız, gözəl insan, Azərbaycan xalqının fəxri və tacı olan Üzeyir Hacıbəyov 1949-cu ildə vəfat etmişdir. Fikir verin, 49-cu ildə. Amma onun həyat yolunu və yaradıcılığını əks etdirən, şəxsən ona məxsus olan muzey 74-cü ilədək yaradılmamışdı. Halbuki Üzeyir bəyin yaşadığı ilk ev də, "monolit" adlandırılan binada ya[250-251]şadığı mənzil də məlum idi, onun xidmətləri də məlum idi. Bu muzeyin yaradılmasına təşəbbüs göstərdiyim üçün özümü xoşbəxt hesab edirəm. Bununla da biz Azərbaycan xalqının həyatında gözəl bir ənənənin bünövrəsini qoyduq.

Ondan sonra bir neçə ev-muzeyi yaradıldı. Böyük şairimiz Səməd Vurğunun, görkəmli dramaturqumuz, yazıçımız və şairimiz Cəfər Cabbarlının, böyük sənətkarımız, müğənnimiz, Azərbaycan operasının yaranmasında və inkişafında əvəzsiz xidmətləri olan Bülbülün ev-muzeyləri açıldı. Nəhayət, biz Cəlil Məmmədquluzadənin ev-muzeyinin yaradılması haqqında qərar qəbul etdik. İndi deyirlər ki, orada iş gedir. Amma yadımdadır ki, biz 1980-ci ildə qərar qəbul etmişdik. İndi siz buraya toplaşmısınız, hərçənd bu gün iş günü deyil, lakin mən işləyirəm. Açıq deyim. Cəlil Məmmədquluzadənin ev-muzeyinin yaradılması üçün mən orada yaşayan ailələri çətinliklə köçürtdüm, onların hamısına yeni, daha yaxşı mənzil verilməsi haqqında qərar qəbul etdim. Budur, aradan 14 il keçmişdir, amma ev-muzeyi bu vaxtadək yaradılmamışdır.

Mən bunu kiməsə, irad tutmaq üçün demirəm. Demək istəyirəm ki, biz nə qədər çətinlik içərisində yaşasaq da, mədəniyyətimiz gərək həmişə yüksək səviyyədə olsun. Öz mədəni irsini qoruyub saxlaya bilməyən xalq nəyə qadir olduğunu heç vaxt sübut edə bilməz. O muzeylər yaradıldı, mən əminəm ki, Cəlil Məmmədquluzadənin də, Qara Qarayevin də, Fikrət Əmirovun da, başqa mədəniyyət xadimlərimizin də ev-muzeyləri yaradılacaqdır. Çox sevindirici haldır ki, bu gün Niyazinin ev-muzeyi artıq yaradılmışdır. Sizli-bizli hamımız buraya toplaşmışıq və onu təntənəli surətdə açmışıq. Mən əminəm ki, bu muzeyə insan axını həmişə olacaq, təkcə bizim Azərbaycan vətəndaşları deyil, həm də ölkəmizə – müstəqil Azərbaycana gələn qonaqlar buranı daim ziyarət edəcək və ev-muzeyindəki eksponatlar vasitəsilə Niyazinin həyat yolu, yaradıcılığı, xidmətləri ilə tanış olacaq və Azərbaycan xalqının mədəniyyətinin nə qədər yüksək səviyyədə və nə qədər qüdrətli olduğunu bir daha yəqin edəcəklər. Azərbaycan xalqına, müstəqil Azərbaycana hörmət və ehtiram həmişə artacaqdır.

Bu muzeyin mənası, əhəmiyyəti sadəcə olaraq Niyazinin həyat yolunu və yaradıcılığını təbliğ etməkdən ibarət deyildir. Azərbaycan xalqının tarixini təbliğ və əks etdirməkdən, mədəniyyətimizin səviyyəsini göstərməkdən ibarətdir. İnanıram ki, muzeyin əməkdaşları bu məqsədlər uğrunda çalışacaqlar və muzey bu vəzifəni yerinə yetirəcəkdir.

Mən sizi – Azərbaycan Respublikasının bütün mədəniyyət xadimlərini, Azərbaycan xalqını bu əlamətdar hadisə – yeni bir mədəniyyət ocağının açılması, Niyazinin ev-muzeyinin fəaliyyətə başlaması münasibətilə təbrik edirəm, muzeyə gələcək fəaliyyətində uğurlar diləyirəm. Azərbaycan Respublikası mədəniyyətinin daha da yüksəlməsi naminə mədəniyyət xadimlərimizə cansağlığı və uğurlar arzulayıram. [251-252]

* * *

*NİYAZİNİN EV-MUZEYİNDƏKİ XATİRƏ KİTABININ İLK SƏHİFƏSİNƏ YAZILMIŞ ÜRƏK SÖZLƏRİ*

*"Azərbaycanın böyük mədəniyyət xadimi, bəstəkarı, dirijoru, ictimai xadimi Niyazinin ev-muzeyinin açılmasını təbrik edirəm. Bu, respublikanın həyatında əlamətdar hadisədir, dövlətin, xalqın mədəniyyətə ehtiramı rəmzidir.*

*Ümidvaram ki, Niyazinin həyat yolunu, yaradıcılığını əks etdirən muzey eksponatları xalqımızın yüksək mədəniyyətə və incəsənətə malik olmasını təbliğ edəcək, gələcək nəsillərə Azərbaycan xalqının zəngin tarixini, mədəniyyətini tanıtdıracaqdır.*

*Muzeyə öz fəaliyyətində uğurlar arzulayıram.*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*18 sentyabr 1994-cü il* [252-253]

## BİRİNCİ AZƏRBAYCAN BEYNƏLXALQ "XƏZƏRNEFTQAZ-94" KONFRANSININ İŞTİRAKÇILARINA

Dəniz neft yataqlarının işlənməsi problemlərinə həsr olunmuş "Xəzərneftqaz-94" Beynəlxalq Konfransının iştirakçılarını səmimi-qəlbdən salamlayır və konfransın işində onlara uğurlar diləyirəm.

Əminəm ki, dünya elminin nailiyyətlərini və texniki yeniliklərini aşkar etməyə imkan verən konfrans müxtəlif ölkə alimlərinin birlik və həmrəyliyinin nümayişinə çevriləcək, Xəzərin neft və qaz sənayesi problemlərinin həllini təmin etməyə xidmət edəcəkdir. Bütün konfrans iştirakçılarına bu nəcib işdə yeni-yeni müvəffəqiyyətlər arzulayıram.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*19 sentyabr 1994-cü il* [253-254]

## XƏZƏR ŞELFİNDƏ YATAQLARIN BİRGƏ İŞLƏNMƏSİ HAQQINDA BAKIDA AZƏRBAYCAN DÖVLƏT NEFT ŞİRKƏTİ İLƏ XARİCİ NEFT ŞİRKƏTLƏRİNİN KONSORSİUMU ARASINDA MÜQAVİLƏ İMZALANMASI NİTQ

*20 sentyabr 1994-cü il*

*"Gülüstan" sarayı*

Xanımlar və cənablar, hörmətli qonaqlar!

Bu gün Azərbaycan Respublikasının həyatında tarixi bir hadisə baş verir. Xəzərin Azərbaycan Respublikasına aid sektorunda "Azəri", "Çıraq" neft yataqlarının və "Günəşli" neft yatağının bir hissəsinin müştərək işlənməsi haqqında Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə xarici ölkələrin neft şirkətləri arasında üç il davam edən danışıqlar sona çatmış və müştərək işlər aparılması üçün müqavilənin layihəsi hazırlanıb təqdim edilmişdir.

Bu gün biz Azərbaycanın paytaxtında, Bakıda, bu gözəl "Gülüstan" sarayında müqavilənin imzalanması mərasiminə toplaşmışıq. Müqavilənin imzalanması ilə əlaqədar olaraq Bakıya xarici ölkələrdən dövlət nümayəndələri, qonaqlar gəlmişlər. Bakıya, bu mərasimdə iştirak etməyə gələn qonaqlarımızın hamısını ürəkdən salamlayır, onlara "Xoş gəlmisiniz" deyirəm.

Azərbaycan Dövlət Neft Şirkətinin xarici ölkələrin neft şirkətləri ilə apardığı danışıqlar bu ölkələrin dövlət və hökumətlərinin himayəsi altında olmuş və onlar tərəfindən dəstəklənmişdir. Müqavilənin imzalanması mərasiminə xarici ölkələrin nümayəndə heyətləri gəlmişlər. Bu mərasimdə iştirak edən Amerika Birləşmiş Ştatlarının, Rusiya Federasiyasının, Böyük Britaniya Krallığının, Türkiyə Cümhuriyyətinin, Norveçin nümayəndə heyətlərini ürəkdən salamlayır, onlara "Xoş gəlmisiniz!" deyirəm.

Bu tarixi mərasimdə iştirak edən Türkiyə Cümhuriyyətinin dövlət naziri hörmətli Nəcməddin Cövhərini salamlayıram. Böyük Britaniya Krallığının energetika naziri hörmətli cənab Timoti Eqqarı salamlayıram. ABŞ energetika nazirinin müavini hörmətli cənab Uilyam Uaytı salamlayıram. Norveç dövləti sənaye və energetika nazirinin birinci müavini hörmətli cənab Qunnar Mirvantı salamlayıram. Rusiya Federasiyasının Yanacaq və Energetika Nazirliyi Baş İdarəsinin rəisi hörmətli cənab Stanislav Puqaçı salamlayıram. Bu mərasimdə iştirak etmək üçün zəhmət çəkib Bakıya gələn və bizim sıralarımızda olan Böyük Britaniya parlamentinin üzvlərini, İngiltərə-Azərbaycan Dostluğu Cəmiyyətinin nümayəndə heyətini salamlayıram. Bizim mərasimdə iştirak edən İslam İnkişaf [254-255] Bankının prezidenti hörmətli cənab Osam Cəfər Fakihi salamlayıram. Azərbaycandakı diplomatik korpusun nümayəndələrini, hörmətli səfirləri, beynəlxalq təşkilatların nümayəndələrini və rəhbərlərini salamlayıram.

Azərbaycan Dövlət Neft Şirkəti xarici ölkələrin neft şirkətləri ilə və onların sonradan birləşdikləri konsorsium ilə üç il müddətində danışıqlar aparmış, müqavilənin layihəsini birlikdə hazırlamışlar. Bu böyük neft şirkətlərinin nümayəndə heyətləri bizim bugünkü mərasimdə iştirak edirlər. Mən onları ürəkdən salamlayıram. "AMOKO" şirkətinin prezidenti cənab Uilyam Laurini salamlayıram. "Bi-Pi" şirkətinin nümayəndə heyətini, onun başçısı, şirkətin prezidenti cənab Con Braunu salamlayıram. "Statoyl" şirkətinin nümayəndə heyətini, onun başçısı cənab Yohan Nik Voldu salamlayıram. "LUKoyl" şirkətinin nümayəndə heyətini, onun başçısı, şirkətin prezidenti cənab Vahid Ələkbərovu salamlayıram. "Mak Dermott" şirkətinin nümayəndə heyətini, onun başçısı cənab Uilyam Vitnisi salamlayıram. «Pennzoyl» şirkətinin nümayəndə heyətini, onun başçısı, şirkətin prezidenti cənab Tomas Hamiltonu salamlayıram. "Remko" şirkətinin nümayəndə heyətini, onun başçısı, şirkətin prezidenti Stiven Remponu salamlayıram. "Türkiyə Petrolleri" şirkətinin nümayəndə heyətini, onun başçısı cənab Sidqi Səncəri salamlayıram. «Yunokal» şirkətinin nümayəndə heyətini, onun başçısı, şirkətin prezidenti cənab Con Ameli salamlayıram. "Delta intənəşnl" şirkətinin nümayəndə heyətini, onun başçısı, şirkətin prezidenti cənab Fateh əl-Albanı salamlayıram.

Hörmətli xanımlar və cənablar!

Neft Azərbaycan Respublikasının və Azərbaycan xalqının ən böyük milli sərvətidir. Azərbaycan qədim dövrlərdən neft diyarıdır, neft və qaz kimi təbii sərvətlərə malikdir. Buna görə də Azərbaycanı Odlar diyarı adlandırırlar. Azərbaycanda neft çıxarılması, ondan istifadə edilməsi, neftin emal olunması böyük tarixə malikdir. 1847-ci ildə Azərbaycanda-Bakıda, Bibiheybətdə ilk dəfə olaraq neft fontan vurmuşdur. Azərbaycanda neftin sənaye üsulu ilə çıxarılması prosesi də o vaxtdan başlanmışdır. 1872-ci ildə Nobel qardaşları Bakıda ilk neft şirkəti yaratmışlar və bununla da Azərbaycan neftindən istifadə etmək üçün, xarici ölkələrin firmaları, xarici kapital ölkəmizə gəlməyə başlamışdır.

Beləliklə, XIX əsrin ikinci yarısında bir sıra dünya ölkələri, inkişaf etmiş dövlətlərin firmaları Azərbaycanda, Bakıda neft çıxarılmasına böyük maraq göstərmişlər. Həmin əsrin sonundan etibarən Bakı

neftinin çıxarılması üçün bir çox xarici ölkələrin şirkətləri fəaliyyətə başlamışlar. 1872-ci ildə Azərbaycanda 26 min ton neft çıxarılmışdır. Cari əsrin əvvəlində, 1900-cü ildə Azərbaycanda artıq 10 milyon ton neft hasil olunmuşdur ki, bu da Rusiyada çıxarılan neftin 95 faizini, dünyada çıxarılan neftin isə 50 faizini təşkil etmişdir. XX əsrin birinci 20 ilində də Azərbaycanda xarici ölkələrin neft şirkətləri və yerli sahibkarlar Bakı neftinin [255-256] çıxarılması, emalı üçün çox böyük fəaliyyət göstərmişlər və Azərbaycanda neft sənayesi inkişaf etmişdir.

Bu dövrü şərti olaraq Azərbaycanda neft sənayesi tarixinin birinci mərhələsi adlandırmaq olar. Həmin dövrdə Bakı neftindən bütün dünyada istifadə edilmişdir. Azərbaycan nefti xarici ölkələrin şirkətlərinə böyük mənfəət gətirmişdir. Azərbaycanda böyük sahibkarlar meydana çıxmış, onlar külli miqdarda mənfəət əldə etmişlər. Həmin dövrdə Azərbaycan neft sənayesinin inkişafı Bakının, ümumiyyətlə, Azərbaycanın inkişafına böyük təkan vermişdir. Azərbaycanın paytaxtı Bakı böyük sənaye şəhərinə çevrilmiş və o vaxtlar Rusiya imperatorluğunun ərazisində ən iri sənaye mərkəzlərindən biri olmuşdur. Qədim tarixə malik olan Bakımız həmin dövrdə yeni sima kəsb etmiş, genişlənmiş, gözəlləşmişdir və burada o vaxtın tələblərinə uyğun müasir binalar, istehsal müəssisələri, zavodlar, digər sənaye obyektləri tikilmişdir. Bu gün biz həmin mərhələdə görülmüş işləri layiqincə qiymətləndirməli və Azərbaycanın, Bakının inkişafında neftimizin böyük rol oynadığını qeyd etməliyik.

1918-ci ildə ölkəmizdə demokratik dövlət yaradılmış, Azərbaycan öz müstəqilliyini əldə etmiş, iki ilə yaxın müddətdə müstəqil dövlət kimi yaşamış, bu dövlət xalqımıza mənsub olan sərvətlərdən onun rifahı naminə istifadə edilməsi üçün səylər göstərmişdir. Lakin təəssüflər olsun ki, bu səylər istənilən nəticəni verməmişdir. Çünki 1920-ci ildə Azərbaycan demokratik dövləti süquta uğramışdır.

Həmin il Azərbaycanda sovet sosialist hakimiyyəti qurulmuşdur. Bundan sonra 70 il ərzində Azərbaycan həmin quruluş şəraitində, Sovet İttifaqının tərkibində olmuşdur. Azərbaycan xalqının ən böyük sərvəti olan neftdən Sovet İttifaqının mənafeyi naminə istifadə edilmişdir. Həmin dövrü neft sənayesinin həyatında ikinci dövr adlandırmaq olar. Bu dövrdə Azərbaycanın neft sənayesi sürətlə inkişaf etmişdir. Sovet İttifaqının sənayesinin və iqtisadi qüdrətinin, sənaye potensialının inkişafı üçün Azərbaycanın neft sənayesi çox lazımlı olduğuna görə buraya böyük səylər yönəldilmişdir. Odur ki, Azərbaycanda neft sənayesinin inkişafında mühüm nailiyyətlər qazanılmışdır.

O dövrdə Azərbaycan neftçilərinin böyük ordusu yaranmışdır. Azərbaycan neft və qaz sənayesi sürətlə inkişaf etmiş, böyük müəssisələr inşa olunmuşdur. Neft sahəsində böyük elm ocaqları, elmi-tədqiqat institutları yaradılmışdır. Neft sənayesi üçün yüksək səviyyəli mütəxəssislər hazırlamaq məqsədi ilə institut, indi Neft Akademiyası adlandırılan institut açılmışdır. Azərbaycan neftçiləri, mütəxəssisləri, alimləri, bir sözlə neft sahəsində çalışan bütün adamlar respublikanın neft sənayesinin inkişafı üçün fədakarcasına işləmiş, Azərbaycanın tarixinə şanlı səhifələr yazmışlar.

Dediyim kimi, Azərbaycan neftindən onun özünün deyil, bütün Sovet İttifaqının inkişaf etməsi üçün istifadə olunmuşdur. 1941-1945-ci illərin ikinci dünya müharibəsi dövründə Azərbaycan nefti bütün ölkədə çıxarılan neftin 75 faizini təşkil etmişdir. Həm də Azərbaycanın neft səna[256-257]yesi, bizim neftçilərimiz bütün dünya üçün təhlükəli olan alman faşizminin məğlubiyyətə uğradılmasında, məhv edilməsində böyük xidmət göstərmişlər.

Sovet İttifaqının hər yerində yeni neft yataqlarının aşkara çıxarılmasında, onların istismar edilməsində Azərbaycanın neft sahəsində çalışan alimlərinin, mütəxəssislərinin, neftçilərimizin güclü fəaliyyəti olmuşdur.

Təsadüfi deyildir ki, onların səyləri və əməyi sayəsində Sovet İttifaqı ərazisində aşkara çıxarılan yeni neft yataqları "İkinci Bakı", "Üçüncü Bakı" və "Dördüncü Bakı" adlandırılmışdır. Rusiyanın ən böyük neft yataqları olan Sibir, Tümen yataqlarının kəşf və istismar olunmasında, orada böyük neft və qaz komplekslərinin yaradılmasında Azərbaycan neftçilərinin əvəzsiz xidmətləri var və indiyədək də onlar həmin bölgələrdə çalışan neftçilərin əksəriyyətini təşkil edirlər.

Bu gün mən bütün bu məlumatları qonaqlarımıza çatdırmağı, Azərbaycan xalqına bir daha xatırlatmağı lazım bilirəm. Çünki bunların hamısı Azərbaycan xalqının fəxridir, şöhrətidir, xalqımızın, neftçilərimizin dünya iqtisadiyyatına göstərdikləri böyük xidmətlərdən xəbər verir.

Azərbaycan neftçilərinin böyük nailiyyətlərindən biri də ondan ibarətdir ki, onlar Xəzərdə neft çıxarılması üçün çox çalışmışlar. Bu sahədə istər 1920-ci illərin əvvəllərində, istərsə də 1930-cu illərdə bir çox addımlar atılmış, lakin Xəzər dənizində bol neft çıxarılmasına 1949-cu il noyabrın 7-dən başlanmışdır. Həmin gün Xəzərin indi Neft Daşları adlandırdığımız sahəsində neft quyusu ilk dəfə fontan vurmuşdur.

Azərbaycanın dəniz neftçilərinin təcrübəsi ötən 45 il ərzində istər keçmiş Sovet İttifaqında, istərsə də dünyanın bir çox ölkələrində dənizin dərin qatlarından neft çıxarılması üçün örnək olmuşdur. Azərbaycan alimlərinin, neftçilərinin bu sahədə xidmətləri böyükdür. Bildiyiniz kimi, üç il bundan qabaq xalqımız öz azadlığını əldə etmiş, Azərbaycan müstəqil respublika olmuşdur. Azərbaycan xalqı öz taleyinin sahibinə çevrilmişdir. Xalqımız öz təbii sərvətlərindən özü istədiyi kimi istifadə etmək imkanları qazanmışdır. Beləliklə, Azərbaycanın həyatında yeni dövr başlanmışdır. Neft sənayemizin tarixində də şərti olaraq üçüncü mərhələnin bünövrəsi qoyulmuşdur. İndi biz yeni mərhələdə müstəqil Azərbaycan Respublikasının iradəsini ifadə edərək,

onun öz təbii sərvətlərindən istifadə etməsi üçün lazımi tədbirlər görürük. Son üç il ərzində xarici ölkələrin neft şirkətləri ilə danışıqlar aparılmış və sazişlər əldə edilmişdir.

Bu gün, bu tarixi gündə, Azərbaycanda neftin sənaye üsulu ilə hasil və emal edilməsinə başlandığı dövrdən təxminən 150 il sonra, mən Azərbaycan neftçilərinin bütün nəsillərinə, respublikamızın neft sahəsində çalışan alimlərinin, mütəxəssislərinin, mühəndislərinin və fəhlələrinin hamısına bu dövrdə təbii sərvətlərimizi çıxarıb xalqımızın rifahının müəyyən qədər yaxşılaşmasına səy göstərdiklərinə görə, fədakar əməklərinə [257-258] görə, böyük elmi kəşflərinə görə təşəkkürümü bildirirəm və onları indiyədək qazandıqları nailiyyətlər münasibətilə ürəkdən təbrik edirəm.

Azərbaycanda neftin sənaye üsulu ilə istehsalına başlandığı vaxtdan indiyədək ölkəmizin ərazisində yerin təkindən – quruda və suda 1 milyard 325 milyon ton neft çıxarılmışdır. Xəzərin Azərbaycana aid hissəsində 45 ildə 400 milyon ton neft hasil edilmişdir. Bu müddətdə eyni zamanda 400 milyard kubmetrədək qaz çıxarılmışdır. Bütün bunlar böyük nailiyyətlərdir və gələcəkdə Azərbaycan Respublikasının iqtisadiyyatının, neft sənayesinin inkişafı üçün böyük əsas və təməldir.

Biz ötən dövrlərdə nə qədər çox neft çıxarsaq da, nə qədər böyük nailiyyətlər əldə etsək də, bir həqiqəti nəzərə çarpdırmalıyıq ki, son vaxtlaradək, yəni Azərbaycanın müstəqilliyi əldə olunan dövrədək xalqımız heç vaxt öz təbii sərvətlərinin sahibi olmamışdır. 1920-ci ilə qədər neftimiz həm xarici neft şirkətləri tərəfindən, həm də Azərbaycanın öz sahibkarları tərəfindən hasil edilsə də, Azərbaycanın, xüsusən Bakının inkişafı üçün böyük işlər görülsə də, xalq bu sərvətin sahibi deyildi.

1920-ci ildən başlayaraq, Azərbaycanın həyatında çox böyük dəyişikliklər baş vermişdir. Azərbaycan iqtisadiyyatı inkişaf etdirilmiş, respublikada nəhəng sənaye potensialı, elmi potensial yaradılmış, neft sənayemiz böyük tarixi yol keçmişdir. Ancaq yenə də Azərbaycan öz neftinin yeganə və tam sahibi olmamışdır. Bütün bu sərvətlərimiz özümüzə yox, sovet dövlətinə məxsus olmuşdur. İndi isə biz yeni bir mərhələdə yaşayırıq. Azərbaycan Respublikası müstəqil dövlətdir. Azərbaycan xalqı öz təbii sərvətlərinin sahibidir. Bu sərvətlərdən necə istifadə edilməsini xalqımızın özü sərbəst surətdə müəyyənləşdirir.

Neft yataqlarımızın müştərək işlənməsi haqqında Azərbaycan Dövlət Neft Şirkəti ilə xarici ölkələrin aparıcı neft şirkətləri arasında danışıqlar üç il ərzində məhz bu prinsiplər əsasında aparılmışdır. Şübhəsiz, danışıqlar hamar yolla getməmişdir. Burada çətinliklər də olmuşdur, enişlər və yoxuşlar da. Lakin danışıqlar, nəhayət, başa çatdırılmışdır. Xarici ölkələrin zəngin təcrübəli böyük neft şirkətlərinin Azərbaycan neftinə marağı təbii haldır və biz bunu məmnuniyyətlə qəbul etmişik. Elə özümüz də buna böyük maraq göstərmişik və göstəririk.

Keçmiş dövrlərdən fərqli olaraq, indi bu məsələlər barədə Azərbaycan Respublikası hər bir ölkə ilə, o cümlədən bu neft şirkətlərinin mənsub olduqları ölkələrlə, xarici dövlətlərin neft şirkətləri ilə müstəqil surətdə danışıqlar aparır və danışıqlarda öz prinsiplərinin qəbul edilməsinə çalışır. Xəzərin Azərbaycana aid sektorundakı "Azəri" və "Çıraq" neft yataqlarının, "Günəşli" neft yatağının bir hissəsinin müştərək işlənməsi haqqında müqavilə Azərbaycan Dövlət Neft Şirkəti ilə xarici ölkələrin neft şirkətləri arasında danışıqlar nəticəsində, nəhayət, hazırlanıb başa çatdırılmışdır. Bu müqavilə mənə, Azərbaycan prezidentinə təqdim edilmişdir. Sizə məlum olduğu kimi, sentyabrın 14-də müqavilənin layihəsi təhlil [258-259] edildikdən sonra mən onun Azərbaycan Dövlət Neft Şirkəti tərəfindən imzalanması haqqında fərman vermişəm. Xarici ölkələrin neft şirkətləri də layihənin imzalanması haqqında qərar qəbul etmişlər. Bu şirkətlərin mənsub olduqları ölkələrin dövlət rəhbərləri də xeyir-dua vermişlər. Bütün bunların nəticəsində indi biz buraya, müqavilənin imzalanması mərasiminə toplaşmışıq.

Açıq demək istəyirəm, müqavilədə Azərbaycan tərəfinin istək və arzularının heç də hamısı öz əksini tapmamışdır. Lakin biz başa düşürük ki, hər hansı bir müqavilə hər iki tərəfin mənafelərini təmin etməlidir. Qərb neft şirkətlərinin konsorsiumu öz mənafelərini təmin etməyə çalışmış, Azərbaycan Dövlət Neft Şirkəti isə Azərbaycan Respublikasının milli mənafelərini təmin etməyə səy göstərmişdir. Deyə bilərəm ki, görülən böyük və gərgin işin nəticəsində, tərəflərin məsələyə yüksək məsuliyyətlə yanaşması nəticəsində, nəhayət, hər iki tərəfin mənafelərinə cavab verən layihə hazırlanmışdır. Ona görə də mən bu gün imzalanacaq müqaviləni Azərbaycan Respublikasının indisi və gələcəyi üçün iqtisadi baxımdan mənfəətli hesab edirəm və onun imzalanmasına qərar vermişəm.

Biz belə bir addım atmaqla Azərbaycanın dünya üçün, dünya iqtisadiyyatı üçün açıq ölkə olduğunu nümayiş etdiririk. Biz bu müqaviləni imzalamaqla Azərbaycan Respublikasının suveren hüquqlarının bərqərar olduğunu, Azərbaycanın tam müstəqil dövlət olduğunu, xalqımızın öz sərvətlərinə özünün sahib olduğunu dünyaya bir daha nümayiş etdiririk. Biz müqaviləni imzalamaqla Azərbaycan Respublikası ilə dünyanın inkişaf etmiş dövlətləri, onların ən böyük şirkətləri arasında əlaqələr yaradır, Azərbaycan iqtisadiyyatının dünya iqtisadiyyatına, azad bazar iqtisadiyyatına qoşulması üçün əsas yaradırıq. Biz bu müqaviləni imzalamaqla dünyaya bir daha nümayiş etdiririk ki, müstəqil Azərbaycan Respublikası demokratik və hüquqi dövlətdir. Azərbaycanda demokratik prinsiplərin bərqərar olması və inkişaf etməsi üçün geniş meydan açılmışdır. Azərbaycan Respublikası bazar iqtisadiyyatı yolu ilə getmək əzmindədir. Bu müqavilənin imzalanması bazar iqtisadiyyatının Azərbaycanda həyata keçirilməsi üçün ilk böyük addımdır. Biz bu müqaviləni imzalamaqla xarici ölkələrdən Azərbaycana investisiya qoyulması üçün böyük yol açırıq, digər sahələrdə çalışan şirkətlərin

də Azərbaycanda fəaliyyət göstərməsi üçün zəmin yaradırıq, müstəqil Azərbaycan Respublikasının iqtisadiyyatında və ictimai-siyasi həyatında hökm sürən sabitliyi dünyaya bir daha nümayiş etdiririk. Biz bu müqaviləni imzalamaqla müqavilədə iştirak edən şirkətlərin mənsub olduqları böyük ölkələrlə – Amerika Birləşmiş Ştatları, Rusiya, İngiltərə, Türkiyə, Norveç kimi dövlətlərlə dostluq əlaqələrinin, iqtisadi əməkdaşlığın və ümumiyyətlə, bütün sahələrdə əlaqələrin möhkəmlənəcəyinə ümid bəsləyirik.

Beləliklə, müqavilənin imzalanması üçün gözəl şərait yaranmışdır və biz bu gün böyük bir hadisənin şahidiyik. Müqavilənin imzalanması [259-260] Azərbaycan Respublikasının həyatında, iqtisadiyyatında və xüsusən neft sənayesində yeni bir mərhələ açır. Müqavilə 30 il müddətinə bağlanır. Deməli, qarşımızda uzun bir yol var və böyük işlər, böyük vəzifələr durur. Müqaviləni hazırlayanlar yaxşı bilirlər, lakin mən buraya toplaşanlara, bütün Azərbaycan xalqına bəyan etmək istəyirəm ki, bu müqavilənin bağlanması nə qədər çətin idisə, onun həyata keçirilməsi ondan da çətin olacaqdır. Müqavilənin hər iki tərəf üçün, o cümlədən Azərbaycan xalqı üçün, müstəqil Azərbaycan Respublikası üçün mənfəəti və müsbət nəticələri onun ardıcıl surətdə icrasından asılıdır. Müqavilə ikitərəfli hərəkət olan yola bənzəyir: gərək hər iki tərəf eyni sürətlə hərəkət etsin. Şübhəsiz ki, burada xarici neft şirkətlərinin üzərinə çox böyük vəzifələr düşür. Ümidvar olduğumu bildirmək istəyirəm ki, həmin şirkətlər və onların mənsub olduqları ölkələrin dövlət orqanları bu müqavilənin həyata keçirilməsi üçün vaxtında lazımi tədbirlər görəcəklər.

Azərbaycan Respublikasının üzərinə düşən vəzifələr daha çətin, daha ağırdır. Bilirsiniz ki, Azərbaycan iqtisadiyyatı ağır böhran içərisindədir. Neft sənayesində də böyük çətinliklər yaranmışdır. Məhz bu böhrandan çıxmaq, Azərbaycan iqtisadiyyatını inkişaf etdirmək, xalqımızın rifahını qısa müddətdə lazımi səviyyəyə qaldırmaq üçün hamı əl-ələ verib müqavilənin həyata keçirilməsinə çalışmalıdır. Ümidvaram ki, Azərbaycanın qəhrəman və təcrübəli neftçiləri, alimləri, mütəxəssisləri, iqtisadiyyatımızda bu sahə ilə məşğul olan şəxslər, bir sözlə, hamı bu vəzifəni ən böyük, ən şərəfi vəzifə kimi qəbul edib, onun həyata keçirilməsinə çalışacaqdır. Mən Azərbaycan prezidenti kimi, bu müqavilənin imzalanmasına qərar verərək öz məsuliyyətimi hiss edirəm, sizə söz verirəm ki, onun həyata keçirilməsi üçün əlimdən gələni əsirgəməyəcəyəm.

Bu gün bu təntənəli və möhtəşəm mərasimdə mən Azərbaycan neftçilərini, Azərbaycan xalqını, bütün Azərbaycan vətəndaşlarını bu əlamətdar tarixi hadisə münasibətilə təbrik edirəm. Azərbaycan Dövlət Neft Şirkətinin bu sahədə çalışan nümayəndə heyətinin əməyini, ümumiyyətlə, şirkətin bu sahədə gördüyü işləri qiymətləndirirəm və onları nail olduqları müvəffəqiyyətlər münasibətilə təbrik edirəm. Bu müqavilənin hazırlanıb başa çatdırılması üçün böyük işlər görmüş olan xarici ölkələrin neft şirkətləri konsorsiumunun rəhbərlərini, həmin şirkətlərin işçilərinin hamısını ürəkdən təbrik edir, onlara xoş arzularımı yetirir və əmin olduğumu bildirmək istəyirəm ki, əməkdaşlığımız uğurlu olacaqdır.

Xarici neft şirkətlərinin mənsub olduqları ölkələrin – ABŞ-ın, Rusiyanın, Böyük Britaniyanın, Türkiyənin, Norveçin dövlət və hökumət başçılarını bu hadisə münasibətilə ürəkdən təbrik edirəm.

Biz bu müqavilə əsasında sıx birləşir, böyük əməkdaşlığa başlayırıq və mən şübhə etmirəm ki, əməkdaşlığımız uğurlu olacaqdır, buna maneçilik törədən bütün qüvvələr dəf ediləcəkdir, müstəqil Azərbaycan Respubli[260-261]kası öz taleyinin, öz sərvətlərinin sahibi kimi, bu əməkdaşlıq sayəsində dünya birliyində, dünya iqtisadi birliyində öz layiqli yerini tutacaqdır.

Sizi, bu mərasimə toplaşanları, bütün bu məsələlərə müsbət maraq göstərənlərin hamısını bir daha ürəkdən təbrik edir, müqavilənin imzalanması uçun xeyir-dua verirəm. Xeyirli olsun, uğurlu olsun. Azərbaycan xalqının xoşbəxt gələcəyi naminə bu müqavilənin bu gün burada imzalanmasını ürəkdən təbrik edirəm. Sağ olun.

## MÜQAVİLƏ İMZALANDIQDAN SONRA TƏBRİK SÖZÜ

Hörmətli xanımlar, cənablar, qonaqlar!

Müqaviləyə imza atıldı, müqavilə imzalandı. Müqaviləni bütün şirkətlərin – həm xarici ölkələrin şirkətlərinin rəhbərləri, həm də Azərbaycan Dövlət Neft Şirkətinin rəhbərləri imzaladılar. Eyni zamanda, müqaviləyə bizim mərasimdə iştirak edən xarici ölkələrin dövlət nümayəndə heyətlərinin başçıları da imza atdılar.

Artıq yolun çox hissəsini keçdik, bu yolun son nöqtəsinə çatdıq. Müqavilə imzalandı. Bu münasibətlə mən sizi, Azərbaycan Respublikasının bütün vətəndaşlarmı təbrik edirəm.

## MÜQAVİLƏNİN İMZALANMASI MƏRASİMİNDƏ YEKUN NİTQİ

Hörmətli xanımlar, cənablar!

Hörmətli qonaqlar!

Üç il müddətində hazırlanan müqavilənin imzalanma mərasimi sona çatır. Müqavilə artıq imzalanıbdır. Mən müqavilə imzalanmamışdan əvvəl çıxış etmişəm. Ona görə də müqavilənin imzalanması münasibətilə sizi,

Azərbaycan xalqını, bu müqavilənin digər tərəfi olan xarici ölkələrin şirkətlərini, bu müqaviləyə qoşulan xarici ölkələrin dövlət başçılarını, nümayəndə heyətlərini, hamınızı səmimi-qəlbdən təbrik edirəm.

Xarici ölkələrdən gəlmiş nümayəndə heyətlərinin başçıları, şirkətlərin rəhbərləri müqavilə imzalanandan sonra çıxış etdilər, müqavilənin məzmunu, mahiyyəti və gələcək əhəmiyyəti haqqında gözəl fikirlər söylədilər. Bütün çıxışlarda eyni fikir bəyan edildi ki, müqavilə həm Azərbaycan Respublikası üçün, həm də sənədə imza atmış xarici ölkələrin şirkətləri üçün mənfəətlidir.

Çıxışlarda Azərbaycan xalqının, müstəqil Azərbaycan Respublikasının ünvanına xoş sözlər deyildi, xoş arzular bildirildi. Mən bu sözlərə [261-262] görə minnətdaram və mərasimin sona çatdığı anda bir daha demək istəyirəm ki, bu müqavilə Azərbaycan Respublikasının Dünya Birliyində layiqli yer tutmasına kömək edəcək, ölkəmizin iqtisadiyyatını dünya iqtisadiyyatı, sərbəst bazar iqtisadiyyatı ilə sıx bağlayır. Ən ümdəsi isə ondan ibarətdir ki, bu müqavilə Azərbaycan xalqının bu gününə, gələcəyinə böyük mənfəətlər verəcək, onun rifah halının yüksəlməsi üçün zəmin yaradacaqdır.

Mən bu müqavilənin hazırlanmasında, imzalanmasında iştirak etdiyimə görə özümü çox xoşbəxt hesab edirəm. Üzərimə götürdüyüm məsuliyyəti dərk edirəm və ümidvaram ki, gələcək nəsillər bu gün burada baş verən tarixi hadisəni layiqincə qiymətləndirəcəklər.

Sizi bir daha təbrik edirəm. Bununla da müqavilənin imzalanma mərasiminin birinci hissəsini bitmiş hesab edirəm. Sizin hamınıza, bütün Azərbaycan xalqına xoşbəxtlik, səadət, bütün işlərinizdə uğurlar arzulayıram. Sağ olun. Xeyirli, uğurlu olsun.

## MÜQAVİLƏNİN İMZALANMASI MƏRASİMİ BAŞA ÇATDIQDAN SONRA MƏTBUAT KONFRANSINDA BƏYANAT[1]

Hörmətli qonaqlar, mətbuat işçiləri!

Bu gün biz sizinlə birlikdə tarixi bir hadisənin şahidiyik. Azərbaycan Dövlət Neft Şirkəti ilə xarici ölkələrin neft şirkətlərinin uzun müddət birlikdə hazırladıqları müqavilə imzalandı. Bu müqavilənin məzmunu, mahiyyəti və onun imzalanması üçün əsaslar haqqında bir neçə gün öncə mən mətbuat nümayəndələri qarşısında məlumat verdim və bu barədə ətraflı danışdım. Müqavilənin imzalanması üçün sentyabrın 14-də fərman vermişəm. Bu fərmanda da müqavilənin əsas məzmun və mənasını, istər Azərbaycan üçün, istərsə də xarici neft şirkətləri üçün əhəmiyyətini qeyd etmişəm. Fərman qəzetdə dərc olunmuş və onun rus və ingilis dillərində mətni bu gün burada paylanmışdır. Mən bu barədə bu gün müqavilənin imzalanması mərasimində də müəyyən fikirlər söylədim. Buna görə də təkrar etməyə ehtiyac yoxdur.

Xarici ölkələrin nümayəndə heyətlərinin başçıları da buradadırlar. Onlar da mərasimdə çıxış edərək öz fikirlərini söyləmişlər. Zənnimcə, bütün bunları nəzərə alaraq, yenidən məlumat verməyə ehtiyac yoxdur. [262-263] Mətbuat konfransı üçün yarım saat vaxt ayrılmışdır. Bu müddət ərzində mən və mənim qonaqlarım sizin suallarınıza cavab verməyə hazırıq.

**Sual**: **Bu müqavilənin imzalanması Azərbaycana nə kimi siyasi fayda verəcək?**

**H. Əliyev**: Bilirsinizmi, müqavilə iqtisadi xarakter daşıyır. Mən onun iqtisadi cəhətdən səmərəliliyi barədə bir neçə dəfə danışmışam. Bunu 14 sentyabr tarixli fərmanımda da qeyd etmişəm. Müqavilədə nəzərdə tutulan iqtisadi göstəricilər də məlumdur. Mən bugünkü çıxışımda da qeyd etdim ki, müqavilə Azərbaycan Respublikası ilə xarici şirkətlərin mənsub olduqları dövlətlər arasında əlaqələrin inkişafına, şübhəsiz, xeyli təkan verəcəkdir. Elə bunun özü böyük bir nailiyyətdir. Lakin bir halda ki, 30 il müddətində müştərək fəaliyyət göstəriləcək, ölkələrimiz inkişaf edəcəksə, şübhəsiz, bunun siyasi nəticələri də olacaqdır. Hər bir iqtisadi müqavilə eyni zamanda siyasi nəticələr verir.

**Sual: Məlum olduğu kimi Rusiyanın istər xarici işlər naziri, istərsə də yanacaq və energetika naziri dəfələrlə bildirmişlər ki, Xəzərin statusu müəyyənləşdirilməyincə, buradakı neft yataqlarının birgə işlənməsi sahəsində xarici şirkətlərin fəaliyyətini Rusiya tanımayacaqdır. Lakin bu gün müqavilə artıq imzalanmışdır. İndi Rusiyanın müqavilə ilə əlaqədar mövqeyi necə olacaq?**

**H. Əliyev**: Əvvəla, Rusiyanın "LUKoyl" şirkəti konsorsiumun iştirakçısıdır. İkincisi, Rusiya Yanacaq və Energetika Nazirliyinin nümayəndəsi, bu nazirliyin Baş İdarəsinin rəisi Stanislav Puqaç bizim mərasimdə iştirak edir. O, sənədin imzalanması mərasimində çıxış etmişdir. Əgər siz cənab Stanislav Puqaçın çıxışına diqqətlə qulaq assaydınız, öz sualınıza cavab almış olardınız. O bildirdi ki, keçən ilin oktyabrında Azərbaycan ilə Rusiya arasında bu barədə müqavilə imzalanmışdır.

**Sual**: **Hörmətli prezident, bir neçə gündən sonra Sizin ABŞ-a səfəriniz gözlənilir. Siz bugünkü tarixi müqavilənin imzalanmasından sonra Ermənistan-Azərbaycan münaqişəsinin aradan qaldırılması**

---

[1] Mətbuat konfransında ABŞ energetika nazirinin müavini Uilyanı Uayt, Böyük Britaniyanın energetika naziri Timoti Eqqar, Türkiyənin dövlət naziri Nəcməddin Cövhəri, İslam İnkişaf Bankının prezidenti Osam Cəfər Fakih də iştirak etmişlər. Burada onların da jurnalistlərin suallarına cavabları dərc edilir.

**məsələsində Qərb ölkələrinin, ən əvvəl, ABŞ və İngiltərənin daha fəal mövqe tutacağına ümid bəsləyirsinizmi? Ümumiyyətlə, Amerikaya Sizin səfərinizdən nə gözləmək olar?**

**H. Əliyev:** Azərbaycanla Ermənistan arasında münaqişənin, Ermənistanın Azərbaycana etdiyi təcavüzün qarşısının alınmasında Qərb dövlətlərinin, ən əvvəl beynəlxalq təşkilatlarda böyük nüfuzu olan ölkələrin səy göstərəcəklərinə mən həmişə ümid bəsləyirəm. Mən indi də bu ümidlə yaşayıram. Bu ümidlər məndə qarşıdakı səfər ərəfəsində də qalır.

**Sual**: **Heydər bəy, Siz sentyabrın 16-da keçirdiyiniz brifinqdə verdiyiniz bəyanatda bildirdiniz ki, bağlanan müqavilə Azərbaycanı heç də tam qane edən şəkildə deyildir. Buna baxmayaraq, Siz bu addımı atır və müqaviləni imzalayırsınız. Lütfən, bu fikrinizi açıqlayın və yeni müqavilənin Elçibəy dövründə hazırlanmış müqavilədən nə kimi üstün cəhətləri olduğunu göstərin. Heydər bəy, ikinci sualım belədir: Müxalif [263-264] qüvvələr bu müqavilənin imzalanmasını prinsipcə müsbət qiymətləndirirlər. Sizin bu xəbərlərə münasibətiniz necədir?**

**H. Əliyev**: Əvvəla, deməliyəm ki, hər bir müqavilə, saziş bağlandıqda tərəflərdən hər biri çalışır ki, daha çox mənfəət götürsün. Dəfələrlə demişəm ki, neft Azərbaycanın ən böyük milli sərvətidir. Mən də, Azərbaycanın prezidenti kimi, bu sərvətdən istifadə edərək daha çox mənfəət götürülməsinə çalışmışam. Danışıqların İstanbulda və Hyustonda aparılmış son mərhələlərində bunun üçün göstərdiyimiz səylər müsbət nəticə vermişdir. Amma müqavilə hər iki tərəfin razılığı əsasında olmalıdır. Odur ki, hər bir şərtimizi əks tərəf qəbul etməsə, onda müqavilə də baş tutmaz. Hər halda istədiklərimizin çoxuna nail olmuşuq. Amma hər iki tərəf üçün bunun da bir həddi var. O həddi keçdikdə müqavilə də pozula bilər. Buna görə də biz bu həddə razılığa gəlmişik.

O ki qaldı ikinci sualınıza, əvvəlki layihə ilə indiki layihənin fərqi çoxdur. Mənim bu il 4 fevral tarixli fərmanımdan sonra Bakıda, İstanbulda və Hyustonda aparılan danışıqlar nəticəsində əvvəlki layihədən fərqli olaraq Azərbaycan üçün çox mənfəətli göstəricilər əldə edilmişdir. Keçən il müqaviləyə dair danışıqlar dayandırıldıqdan sonra aparılan danışıqlar, zənnimcə, çox uğurlu olmuşdur. Bunu xarici ölkələrin neft şirkətlərinin nümayəndələri də etiraf edirlər. Əgər konkret məlumat almaq istəyirsinizsə layihəni götürüb nəzərdən keçirə bilərsiniz.

Mən belə başa düşdüm ki, siz müxalifətin adından çıxış edir və deyirsiniz ki, müxalifət müqaviləni bəyənir. Mən Azərbaycan xalqının milli mənafeləri mövqeyində duran adamam. Buna görə də Azərbaycan Respublikası vətəndaşlarının hər bir qrupu, hər təbəqəsi mənim üçün Azərbaycan vətəndaşları kimi qiymətlidir. Əgər sizin dediyiniz müxalifət bunu bəyənirsə, bu, şübhəsiz, onu göstərir ki, bu məsələlərə onlar da dövlətçilik mövqeyindən yanaşırlar. Bu, müsbət haldır.

**Sual**: **Cənab prezident, çıxışınızda qeyd etdiniz ki, neft müqaviləsinin imzalanması xarici dövlətlərə Azərbaycanda ictimai-siyasi vəziyyətin sabit olduğunu nümayiş etdirir. Bilmək istərdim, bu gün cəbhədə atəşin dayandırılması ilə neft müqaviləsinin imzalanması arasında nə kimi bağlılıq var? İkinci sualım xarici şirkətlərin nümayəndələrinədir. Əgər gələcəkdə bu müqavilənin taleyi üçün hər hansı təhlükə yaranarsa, onların mənsub olduqları dövlətlər buna necə münasibət göstərəcəklər?**

**H. Əliyev**: Atəşin dayandırılması ilə bu müqavilənin imzalanması arasında elə bir əlaqə yoxdur. Atəş bundan dörd ay əvvəl dayandırılmışdır. Atəşkəs indi də davam edir. Bu, Ermənistanla Azərbaycan arasında gedən müharibəyə son qoymaq, münaqişəni sülh yolu ilə aradan qaldırmaq üçün atdığımız addımdır.

Bildiyiniz kimi, müqavilə ilə əlaqədar üç ildir danışıqlar aparılır. Qeyd etdim ki, mən bu işin daha da sürətləndirilməsi üçün fevralın 4-də fərman vermişəm. Son 45 gündə Hyustonda danışıqlar getmişdir. Hər iki [264-265] tərəfi qane edən bu razılaşma sadəcə olaraq indi əldə edilmişdir və buna görə də müqavilə indi bağlanır. Əgər razılıq altı ay bundan əvvəl əldə edilsəydi, müqavilə də onda imzalanardı.

İkinci sualınıza qonaqlardan birisi cavab verəcəkdir.

**Uilyam Uayt (ABŞ energetika nazirinin müavini):** Bu müqavilənin həyata keçirilməsini təmin etmək üçün ABŞ hökuməti ilə Azərbaycan hökuməti birgə çalışacaqlar. Müqavilənin həyata keçirilməsi sayəsində neft hasilatının artırılması hər iki tərəfin mənafeyinə uyğundur. Təhlükəsizlik və ətraf mühitin çirklənməsi məsələlərinə də xüsusi diqqət yetiriləcəkdir.

**Sual**: **Müqavilə artıq imzalandı, çox güman ki, hasil ediləcək neftin xarici bazara çıxarılması məsələsi də tezliklə qarşıda duracaqdır. Bununla əlaqədar olaraq təklif edilən marşrutlardan hansına üstünlük veriləcəkdir?**

**H. Əliyev**: Bilirsinizmi, müqavilədə üç məsələ qeyd edilmişdir. İlk 18 ayda neft hasilatına başlanacaq. 48 ay müddətində neftin çıxarılması tam şəkildə təmin ediləcək. Çıxarılan neftin xarici şirkətlər tərəfindən ixrac edİlməsi üçün boru kəməri 54 aydan gec olmayaraq çəkiləcəkdir. Boru kəmərinin çəkilişi haqqında əlavə danışıqlar aparılacaq. Şübhəsiz ki, bütün mövcud variantlar təhlil ediləcək və hansı daha əlverişli olsa, biz də onun barəsində razılığa gələcəyik. Nəcməddin bəy, Siz nə deyə bilərsiniz?

**Nəcməddin Cövhəri (Türkiyənin dövlət naziri)** Mən onu əlavə edə bilərəm ki, Anadoludan keçəcək boru kəməri yalnız Azərbaycan nefti üçün deyildir. Bu kəmər Qazaxıstan neftinin də Aralıq dənizi sahilinə, Qərbə nəql edilməsi üçün nəzərdə tutulmuşdur. Çünki 1936-cı il Montrö müqaviləsinə görə boğazlardan

(Türkiyənin Bosfor və Dardanel boğazları nəzərdə tutulur – AzərTAC) keçmək hüququna malik gəmilər boğazların mənsub olduğu ölkənin təhlükəsizlik və gömrük qaydalarına riayət etməlidir. Montrö müqaviləsinin imzalandığı dövrdə dünyanın ən böyük tankerlərinin subasımı 20-30 min ton idi. Bu gün 200-300 min tonluq tankerlərin İstanbuldan keçməsi mümkün deyildir. Çünki boğazların sahilində 12 milyon əhalisi olan bir şəhər yerləşir. Buna görə də Anadoludan keçəcək neft kəmərlərinə ehtiyac var. İstər Azərbaycandan olsun, istərsə də Qazaxıstandan – fərqi yoxdur. Hörmətli cümhurbaşkanının bəyanatına əlavə olaraq demək istədiklərim bunlardır.

**Sual**: **Cənab prezident, çıxışlarda bildirildi ki, həll edilməli olan hələ bir sıra məsələlər, problemlər, bəzi maneələr aradan qaldırılmalıdır. Xahiş edirəm, bu fikri açıqlayasınız. Maneələri hansı müddətlərdə aradan qaldırmaq niyyətindəsiniz?**

**H. Əliyev**: Zənnimcə, müqavilənin həyata keçirilməsi üçün elə bir maneə yoxdur. Qarşıya çıxan xırda və cari məsələləri həll edəcəyik. Qoy heç kəs elə güman etməsin ki, Azərbaycan parlamenti müqavilənin nəzərdən keçirilməsini uzadacaqdır. Ümidvaram ki, parlament onu təsdiqləyəcək [265-266] və burada göstərildiyi kimi, müqavilə elə həmin gündən də qüvvəyə minəcəkdir.

**Timoti Eqqar (Böyük Britaniyanın energetika naziri):** Mənə elə gəlir ki, neft şirkətləri nümayəndələrinin də çıxışlarında qeyd edildiyi kimi, ən mühüm məsələ odur ki, bu müqavilə Azərbaycanın neft yataqlarının birgə işlənməsinə, Azərbaycanda neft hasilatının daha da artırılmasına doğru aparan yolun başlanğıcıdır. İngiltərənin Şimal dənizindəki təcrübəsinə əsaslanaraq deyə bilərəm ki, burada qarşıya çıxacaq bir sıra problemləri aradan qaldırmaq mümkün olacaqdır. Azərbaycan Respublikası ilə konsorsiumdakı neft şirkətlərinin mənsub olduqları ölkələr arasında yüksək səviyyəli əlaqələr, habelə Azərbaycan Dövlət Neft Şirkəti ilə xarici neft şirkətlərinin konsorsiumu arasında yaranmış qarşılıqlı anlaşma məndə heç bir şübhə yeri qoymur ki, ortaya çıxan bütün problemlər tezliklə və asanlıqla həll ediləcəkdir.

**H. Əliyev:** Diqqətinizə görə təşəkkür edirəm. Sağ olun. [266-267]

## PREZİDENT SARAYINDA KƏND TƏSƏRRÜFATI İŞLƏRİNİN GEDİŞİNƏ, XÜSUSƏN PAMBIQ YIĞIMI İLƏ ƏLAQƏDAR MƏSƏLƏLƏRİN MÜZAKİRƏSİNƏ HƏSR OLUNMUŞ MÜŞAVİRƏDƏ GİRİŞ SÖZÜ

*22 sentyabr 1994-cü il*

Bu müşavirə kənd təsərrüfatı işlərinin gedişinə, xüsusən pambıq yığımı ilə əlaqədar məsələlərin müzakirəsinə həsr olunub. Ona görə də biz respublikanın müvafiq nazirliklərinin, komitələrin, baş idarələrin rəhbərlərini, pambıqçılıqla məşğul olan rayonların və əraziləri işğal edilmiş bölgələrin icra hakimiyyəti başçılarını müşavirəyə dəvət etmişik.

Məqsədimiz çox qısa müddətdə, vaxt itirmədən, birinci növbədə pambıq yığımının vəziyyəti və görüləsi işlər haqqında danışmaq, lazımi tədbirlər müəyyənləşdirmək, eyni zamanda kənd təsərrüfatının başqa sahələrində də həyata keçirilməli olan müvafiq tədbirləri müzakirə etməkdir. Çox rica edərdim ki, bu barədə çıxışlar konkret olsun. Çünki indi kənd təsərrüfatı işlərinin çox məsul mərhələsidir. Bu sahədə işlərimiz o qədər də yaxşı getmir, bəlkə də heç yaxşı getmir. Bu müşavirəyə də sizi ona görə toplamışam. Çıxışlar qısa olsun ki, biz fikirlərimizi cəmləyə bilək və rayonlardan dəvət olunmuş adamlar bu gün tezliklə yerlərə qayıdıb işlərini davam etdirə bilsinlər. Çünki vaxt çox azdır, yəni payız mövsümü artıq gəlib çatıb, görüləsi işlər isə çoxdur.

### YEKUN ÇIXIŞI

Dediyim kimi, biz bu gün çox qısa bir müddətə toplaşmışıq. Buradakı çıxışlar məsələyə müəyyən aydınlıq gətirir. Ona görə də bu məsələni yekunlaşdırmağa imkan var.

Əvvəla, mən bir daha qeyd etmək istəyirəm ki, Azərbaycanda kənd təsərrüfatının böyük potensialı var. Azərbaycan torpağının nəyə qadir olduğunu vaxtilə xalq da görüb, siz də görmüsünüz, biz də görmüşük. Respublikanın kənd təsərrüfatı potensialından, imkanlarından istifadə etmək bizim, sizin, kənd əhalisinin, bu sahədə çalışan mütəxəssislərin, alimlərin borcudur. Çünki kənd təsərrüfatı məhsulları Azərbaycan əhalisinin ərzaqla, sənayemizin bir çox sahəsinin xammalla təmin olunması üçün lazımdır və biz kənd təsərrüfatının bu imkanlarından səmərəli və maksimum dərəcədə istifadə etməliyik.

Son illərdə gedən proseslər elə bir şəraitə gətirib çıxarmışdır ki, bu [267-268] imkanların əksər hissəsindən istifadə olunmur. Bir tərəfdən ona görə ki, bu proseslər obyektiv maneçiliklər yaradır, digər tərəfdən ona görə ki, mövcud imkanlar istifadəsiz qalır. Ona görə də biz gərək mövcud imkanlardan bu keçid dövründə istifadə edib, kənd təsərrüfatı məhsullarının artırılmasına hər gün çalışaq. Ancaq bizim strateji yolumuz, – mən bunu dəfələrlə qeyd etmişəm, bir daha deyirəm, – kənd təsərrüfatı sahəsində iqtisadi islahatlar keçirmək yoludur. Bu, vacibdir. Buradakı çıxışlar bir daha sübut etdi ki, heyvandarlıq sahəsində özəlləşdirməni tezliklə aparmaq lazımdır. Biz bunu gərək qarşıdakı payız-qış mövsümündə aparaq. Heç kəs də qorxmasın ki, özəlləşdirməni aparanda geriyə düşəcəyik. Xeyr, bizdən asılı olmayaraq gedən obyektiv proseslər onu göstərir ki, mal-qaranın, iribuynuzlu, xırdabuynuzlu heyvanların sayı ictimai təsərrüfatda azalır, fərdi təsərrüfatlarda isə artır.

Fərdi təsərrüfatlarda heyvandarlığın məhsuldarlığı ictimai təsərrüfatdakından yüksəkdir. Demək, ictimai təsərrüfatda olan mal-qaranı, əsaslı fondları özəlləşdirsək, şübhəsiz ki, yararlı şəkildə özəlləşdirsək, ictimai sektor üçün ayrılan yem sahələrini özəl sektora münasib qaydada verə bilsək və onları müəyyən texnika ilə, ləvazimatla təmin edə bilsək, yaxşı kəndli təsərrüfatları yarada bilsək, heyvandarlıq sahəsində çox irəliyə gedə bilərik. Elə bunun özü Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə təmin edilməsi üçün böyük iş olacaqdır.

Bu, kənd təsərrüfatı sahəsində, ümumiyyətlə, iqtisadiyyatda bizim strateji yolumuzdur. Ancaq bugünkü danışıqlardan və ötən müşavirələrdə, yerlərdə olarkən aparılan söhbətlərdən mən belə qənaətə gəlirəm ki, bu islahatları birinci növbədə heyvandarlıq sahəsində aparmalıyıq. Həmin sahədə məsələ artıq yetişib, bunu gecikdirmək lazım deyil. Həm dövlət müşaviri, həm də Milli Məclisin aqrar siyasət komissiyasının rəhbəri olan Arif Rəhimzadəyə, kənd təsərrüfatı və iqtisadiyyat nazirlərinə və bu işlərlə məşğul olan digər müvafiq nazirliklərə, idarələrə göstəriş verirəm ki, sözdən əmələ, işə keçmək lazımdır.

Sentyabr ayı qurtarır, qarşıda oktyabr, noyabr, dekabr aylan durur. Biz ilin axırınadək bu barədə geniş proqram qəbul etməli, onu həyata keçirməli və bu işi başa çatdırmalıyıq.

Kənd təsərrüfatının başqa sahələrində də islahatların aparılması vacib vəzifəmizdir. Burada da gərək lazımi hazırlıq işləri görək ki, özəlləşdirmə vasitəsilə, fərdi sektorun inkişaf etməsi vasitəsilə məhsuldarlığı artıraq. Bu sahədə qabaqcıl texnologiyanın tətbiq edilməsi bizim üçün əsas vəzifələrdən biri olmalıdır.

Diqqət verin, Neftçala rayonunda 100 hektar sahədə İsraildən gətirilən pambıq toxumu sortları əkilib. Deyirlər ki, hər hektardan 40 sentner pambıq götürüləcək. Bu qədər məhsul keçən dövrlərdə bizdə, ola bilər, ayrı-ayrı manqalarda götürülürdü. Manqanın da sahəsi 15-20 hektar olurdu. Həmin manqabaşçısı Sosialist Əməyi Qəhrəmanı və digər fəxri adlar alırdı. Şübhəsiz ki, bunlar ədalətli idi. Onların hamısına mən bu gün [268-269] də təşəkkür edirəm ki, belə qabaqcıl təcrübəni yaratmağa və inkişaf etdirməyə çalışıblar, öz xidmətlərini göstəriblər.

Ancaq görün, xırda bir sahədə – 100 hektarda, – yeri gəlmişkən deyim ki, biz İsrailin həmin firması ilə danışıqlar apararkən onlar min hektarda pambıq əkmək fikrində idilər, – 40 sentner hesabı ilə məhsul götürürlərsə, min hektardan 40 sentner hesabı ilə pambıq bizi nə qədər qabağa salardı. Amma buna maneçilik oldu. Yaxşı ki, heç olmasa 100 hektarda əkin aparıldı.

Ona görə də gərək biz qabaqcıl texnologiyanı sürətlə tətbiq edək. Bu, sizin vəzifənizdir. Kənd Təsərrüfatı Nazirliyinin, rayonların təsərrüfat işçilərinin, kənd rayonları icra hakimiyyəti başçılarının vəzifəsidir. Mən bunu sizin qarşınızda bir vəzifə kimi qoyuram. Bu ilin kənd təsərrüfatı mövsümü qurtarır, payız əkini gedir, gələn ilin məhsulu üçün hazırlıq görürüksə, demək, qabaqcıl texnologiyanın harada, necə tətbiq olunacağını təşkil etmək lazımdır. Konkret olaraq kənd təsərrüfatı nazirinə tapşırıram ki, İsrailin həmin firması ilə əlaqələri bərpa edin, yaradın və təkliflərinizi verin. Gələn il təkcə Neftçala rayonunda yox, başqa rayonlarda da bu texnologiya ilə pambıq əkilməsini nəzərdə tutaq, toxum gətirək, əkək. Hər hektardan 40 sentner məhsul almaq görün nə qədər sərfəlidir.

Kürdəmir rayon icra hakimiyyətinin başçısı burada çıxış etdi. Həmin rayon 10 min hektar sahədə pambıq əkib, 13 min ton pambıq təhvil verməlidir. Ola bilər ki, Neftçala və Kürdəmir rayonlarının torpaqları arasında fərq var. Ola bilər ki, Kürdəmirdə hər hektardan 40 sentner məhsul götürmək mümkün olmasın, 30 sentner ki, ola bilər. Bu da əsas vəzifələrdən biridir.

Bir halda ki, toplaşmışıq, bir daha demək istəyirəm. Həm də təkcə sizin üçün yox, ümumiyyətlə, kənd təsərrüfatı sahəsində çalışan bütün vəzifəli şəxslər üçün, kənd zəhmətkeşləri üçün, kənd təsərrüfatı ilə məşğul olan dövlət orqanları üçün deyirəm ki, kənd təsərrüfatı sahəsində gələcək inkişafımız yalnız və yalnız iqtisadi islahatların həyata keçirilməsi ilə bağlıdır. Biz bunu nə qədər tez etsək, o qədər çox nailiyyət əldə edəcəyik. Gecikmək olmaz. Bu, mənim üçün əsas prinsipdir. Mən bu prinsipdən geri çəkilməyəcəyəm. Kim müqavimət göstərmək, yaxud mühafizəkarlıq etmək istəyirsə, biz onlara yol verməyəcəyik.

Pambıqçılıq sahəsində qarşıda hansı vəzifələr durur? Burada bir neçə rayonun icra hakimiyyəti başçıları çıxış edib dedilər. Görünür, onlar işi yaxşı təşkil ediblər. Bəziləri hətta planı 50 faiz yerinə yetiriblər. Bu sahədə ümumi vəzifə ondan ibarətdir ki, pambıq yığımının sürəti zəifdir və bu sürəti artırmaq lazımdır. Pambıqçılıqda işləyən adamlar bilirlər, pambıq yetişəndən, qozalar açılandan sonra onu nə qədər tez yığsan, məhsul da bir o qədər çox olacaq. Bunu uzun illərin təcrübəsi göstərmişdir. Xatirinizdədir ki, əvvəllər biz pambığın əksəriyyətini sentyabrda yığırdıq, oktyabrın 20-25-dək çox az bir hissəsi qalırdı. Təəssüf ki, indi o təcrübə müəyyən qədər itirilib. Amma bizim təcrübəli pambıqçılarımız yenə də var. Kənd zəhmətkeşləri yaxşı işləyirlər. Onları yaxşı işlətmək mümkün[269-270]dür. Burada hamı etiraf etdi ki, yığılan pambıq üçün hər həftənin axırında əmək haqqı verilməsi barədə qərarımız yaxşı zəmin yaradıbdır. Ancaq bundan istifadə etmək lazımdır. Pambığın həm maşınla yığılması təmin edilməlidir, həm də əllə yığılması üçün indi qüvvə var. Xatirinizdədir ki, vaxtilə biz şəhərdən, universitetlərdən, institutlardan tələbələri cəlb edirdik. İndi pambıqçılıq rayonlarında nə qədər işsiz qaçqınlar var. Onlar həm pambıq yığaraq işləyəcəklər, həm də pul qazanacaqlar.

İndi burada dedilər ki, qaçqınların bir hissəsi pambıq yığımına cəlb edilib. Amma mən görürəm ki, onların çox hissəsi bu işə cəlb olunmayıb. İşğal olunmuş ərazilərin başçıları da bu müşavirədə iştirak edirlər. Biz onları ona görə dəvət etmişik ki, qaçqınların məskunlaşdıqları yerlərdə iş aparmalı və qaçqınları əmək fəaliyyətinə cəlb etməlidirlər. Bu əmək fəaliyyəti isə kənd təsərrüfatı işləri – pambıq yığımı və digər işlərdir. Qaçqınlar bu işlərə nə qədər çox cəlb edilsələr, əməklə məşğul olacaq, boş qalmayacaqlar, digər tərəfdən isə, yenə deyirəm, pul qazanacaqlar. Mən pambıqçılıq rayonlarının icra hakimiyyəti başçılarından, işğal olunmuş ərazilərin rayon icra hakimiyyəti rəhbərlərindən tələb edirəm ki, bu işi sürətləndirsinlər.

Ayın axırına doqquz gün vaxt var. Sentyabrın axırınadək biz ümumi planın 60-70 faizinin ödənilməsini təmin etməliyik. Bilirsiniz ki, iqtisadiyyatımız, o cümlədən sənayemiz ağır vəziyyətdədir. Əhalini təmin etmək üçün bizə ərzaq və valyuta lazımdır. Valyuta mənbələrimizin əsaslarından biri də pambıq məhsuludur. Biz nə qədər çox pambıq əldə etsək, valyuta gəlirimiz də o qədər artacaq, bununla da əhalini ərzaqla təmin edə biləcəyik. Bir məsələni bir daha xatırladıram. Sizə məlum olan fərmanım əsasında, yığılan və xaricə valyutaya satılan pambıqdan alınan gəlirin 35 faizi müvafiq təsərrüfatlara, Kənd Təsərrüfatı Nazirliyinə çatır.

Kənd təsərrüfatı naziri burada bildirdi ki, satılan pambıqdan valyuta gəlir və bundan sonra da gələcəkdir. Təəssüf ki, bu il pambığın xaricə satılmasında çoxlu nöqsanlara yol verildi. Ona görə də pambığın satışı və göndərilməsi gecikdirildi. Bu nöqsanlardan ciddi nəticə çıxarmaq lazımdır. Gərək bunlar bir daha baş verməsin.

Burada borclardan danışıldı. Göstərildi ki, pambıq zavodlarının, kolxozların nə qədər borcu var, nə qədər maşınlar, ehtiyat hissələr, gübrə almaq lazımdır. Bunlar hamısı zəruridir. Torpaqlar şoranlaşır, onları

sağlamlaşdırmaq vacibdir. Bunların hamısı üçün bizə vəsait, ən əvvəl, sərbəst dönərli valyuta lazımdır. Valyutanı isə birinci növbədə pambıqdan alırıq. Ona görə də mən işin gərgin vaxtında, – bilin ki, mən iki gündən sonra xaricə gedəcəyəm, o qədər görüləsi işlər var ki, – bu gün burada pambıqçılıq rayonlarının rəhbərləri ilə görüşməyi çox vacib, zəruri bildim, sizi buraya dəvət etdim.

Sentyabr ayı üçün planımda var idi ki, kənd təsərrüfatı rayonlarında, pambıq becərən, istehsal edən rayonlarda olum. Bilirsiniz ki, ötən vaxtlar[270-271]da tez-tez bu rayonlarda olurdum, pambıqçılarla görüşürdüm, məsələləri yerində həll etməyə çalışırdım. Bu təcrübəni davam etdirmək istəyirəm. Ancaq indi siz görürsünüz ki, ölkəmizin düşdüyü bu vəziyyət, respublikanın müharibədən çıxması ilə əlaqədar lazımi tədbirlər, xarici siyasətimizlə bağlı olan işlər mənə bir dəqiqə də imkan vermir. Məsələn, nə qədər çalışdım ki, sentyabrın əvvəlində heç olmasa bir-iki gün vaxt tapım, pambıq istehsal edən rayonlara gedim, ancaq qarşıya çıxan məsələlər bu planları pozdu. Ona görə də mən sizi buraya dəvət etdim. Çünki vaxt yoxdur. Dediyim kimi, iki gündən sonra xaricə gedirəm, Sizə deyirəm, sizdən tələb edirəm, xahiş edirəm, kənd zəhmətkeşlərinə, xüsusən pambıqyığanlara çatdırın ki, indi, sentyabrın axırınadək ən həlledici mərhələdir. Şübhəsiz ki, oktyabrın birinci mərhələsi də həlledicidir.

Bu müddətdə pambıq yığılmalıdır. Burada verilən məlumatlar, məndə olan arayışlar göstərir ki, bu il bol məhsul yetişdirilibdir. Bu məhsul tarladadır, onu yığıb anbarlara, zavodlara təhvil vermək lazımdır. Həmin məhsul emal olunmalı və Azərbaycan Respublikasının iqtisadiyyatına mənfəət gətirməlidir. Vəzifə bundan ibarətdir ki, pambıq yığımının sürəti artırılsın, yığıma əlavə adamlar cəlb olunsun, maşınlardan daha səmərəli istifadə edilsin, sentyabrın axırınadək nəzərdə tutulan planın 60-70 faizi təmin olunsun, oktyabrın 15-dək isə qalan məhsulun əsas hissəsi toplansın.

Burada verilən məlumatlardan mən belə başa düşürəm ki, planı yerinə yetirməyə, bu il 400 min tondan çox məhsul toplamağa imkanımız var. Buna nail olmaq lazımdır. Bilin ki, əgər həmin məhsulu əldə edə bilsək, bu, Azərbaycanın iqtisadiyyatına çox böyük kömək olacaqdır.

Kənd təsərrüfatının başqa sahələri barədə. İndi üzüm yığılır. Doğrudur, üzümçülük rayonlarının icra hakimiyyəti başçılarını buraya dəvət etməmişik. Mən bu sözləri Kənd Təsərrüfatı Nazirliyinin, komitələrin və bu işlə məşğul olan idarələrin rəhbərlərinə, eyni zamanda kənd təsərrüfatında çalışan vətəndaşlara, vəzifəli şəxslərə çatdırıram ki, üzüm yığımının sürətini artırmaq lazımdır. Təəssüf ki, üzüm məhsulu bu il istədiyimiz səviyyədə deyildir.

Təsəvvür edin, vaxtilə ildə 1 milyon 700 min, 1 milyon 800 min, hətta 2 milyon ton üzüm istehsal olunan Azərbaycan torpağında bu il 350-400 min ton üzüm istehsal etmək nəzərdə tutulur. Görün biz nə qədər geri düşmüşük. Görün son illər gedən proseslər, xüsusilə 1985-ci ildə üzümçülüyə vurulan zərbələr Azərbaycan xalqına nə qədər böyük zərər gətirdi. Ancaq bunlara baxmayaraq, bar verən üzüm bağlarımız çoxdur. Yetişmiş üzüm qısa vaxtda yığılıb təhvil verilsə, mən belə hesab edirəm ki, bu il 400 min tona qədər məhsul toplamaq olar. Hər halda mən verilən arayışlardan bunu görürəm. Ona görə də bir daha deyirəm ki, üzüm yığımını sürətləndirmək lazımdır. Kənd Təsərrüfatı Nazirliyi, rayon icra hakimiyyəti başçıları bu işlə ciddi məşğul olmalıdırlar və məhsul vaxtında toplanmalıdır. [271-272]

Burada məsələ qaldırıldı ki, kənd təsərrüfatı işlərinin gedişi, üzüm, pambıq yığımı ilə əlaqədar kənd zəhmətkeşlərinə lazımi kömək göstərmək lazımdır. Bu, həqiqətdir. Respublikanın səhiyyə, ticarət nazirliklərinin, başqa nazirliklərin, “Azərittifaq”ın nümayəndələri gərək ilin bu mövsümündə tarlada, qızğın iş gedən yerlərdə olsunlar, kənd əməkçilərinin ehtiyaclarını ödəmək üçün lazımi tədbirlər görsünlər, işin sürətlə getməsinə imkan yaratsınlar. Əlaqədar nazirliklərin, idarələrin rəhbərləri də müşavirəyə elə bununla əlaqədar dəvət ediliblər. Mən sizdən tələb edirəm ki, bu işlərlə ciddi məşğul olasınız. Bir dövlət adamı, vətəndaş kimi bilməlisiniz ki, indi tarlalarda, kənd rayonlarında gedən işlərə kömək etmək ümumi iqtisadiyyatımızın inkişaf etməsinə, gözlənilən nəticələrin əldə olunmasına əsas yaradır. Ona görə də bir daha tələb edirəm ki, bu işlərlə ciddi məşğul olasınız.

Burada deyildi ki, pambıq yığımına vəsait ayrılıb, lakin üzüm yığımına belə vəsait ayrılmayıb. Hesab edirəm ki, bu məsələ həll olunmalıdır. İqtisadiyyat, maliyyə nazirləri fikirləşsinlər görək nə etmək lazımdır ki, üzüm yığımına da vəsait ayıraq, üzümçülər həvəslənsinlər. Ancaq kənd təsərrüfatına ayrılmış 30 milyard manatın məgər hamısı pambıqçılıq üçündür? Bu barədə kənd təsərrüfatı naziri məlumat verdi. Yaxşı, əgər 30 milyarddan 5 milyardı üzümçülüyə ayrılıbsa, onu nə üçün saxlayırsınız və kim saxlayır? Mən Milli Banka da, Maliyyə Nazirliyinə də göstəriş verirəm ki, kənd təsərrüfatına ayrılmış 30 milyard manat verilməlidir və üzümçülük üçün də şərait yaradılmalıdır. Kənd təsərrüfatı ilə məşğul olan adamlar bilirlər ki, yığım zamanı pambıq bəlkə də bir neçə gün gecikə bilər. Amma üzümü yetişən kimi yığmasan, o, batıb gedəcək. Bunu bilmək lazımdır. Məsələlər həll edilməlidir. Tapşırıram ki, siz bu məsələni bir-iki günün içərisində həll edəsiniz və bu işi ləngitməyəsiniz. Əgər məsələnin həlli ləngisə, mənə dərhal xəbər verin.

Taxıl səpini məsələsi. Mənə məlumat verdilər ki, istənilən qədər toxum var. Çatışmayan 20 min ton toxumu almaq üçün də biz vaxtilə vəsait ayırdıq, – prezidentə məlumat verildi ki, dünən bu barədə qərar qəbul edilmişdir. Axı bu qərarın qəbul edilməsi barədə biz 15-20 gün bundan qabaq söhbət etmişik və göstəriş də vermişik. Bəs bu qərar nə üçün gecikib və niyə dünən qəbul olunub? Məsələni süründürmək, gecikdirmək nəyə

lazımdır? Biriniz deyirsiniz ki, müqavilə yoxdur, o biriniz deyirsiniz ki, müqavilə var. Çatışmayan cəhətlər olubsa, bunları həll edin. Axı toxum lazımdır. Əkin getməlidir.

Bilməlisiniz ki, indi itirilən hər gün bizə nə qədər ziyandır. Bir sözlə, payız əkini gərək lazımi səviyyədə getsin. Bu barədə biz dəfələrlə söhbət aparmışıq. Bu gün bir daha deyirəm, sizin üçün, kənd təsərrüfatında çalışanlar, taxılçılıqla məşğul olanlar üçün deyirəm – taxıl səpini keyfiyyətli olmalı, yaxşı toxumlarla aparılmalıdır ki, gələn il də yaxşı məhsul əldə edilsin. Çünki görürsünüz ki, əhalini çörəklə təmin etmək üçün nə qədər çətinliklər çəkirik. [272-273]

Taxıl istehsalı bizim üçün əsas sahədir. Nə qədər çox taxıl istehsal etsək, kənardan da o qədər taxıl alınmasını ixtisara salacaq, azaldacağıq. Ona görə də bu işlərlə ciddi məşğul olun.

Mən burada çıxış edənlərlə apardığım söhbətlərdə heyvandarlıq barədə öz fikirlərimi dedim, bir daha təkrar edirəm: heyvandarlıq sahəsində ciddi işlər görmək lazımdır ki, ilin qalan aylarında məhsuldarlıq artsın. Ümumiyyətlə, heyvandarlıq sahəsində islahatlar aparıb bu sahəni yeni mərhələyə çıxarmaq zəruridir. Bununla ciddi məşğul olmaq lazımdır.

Kənd təsərrüfatının başqa sahələrində – tərəvəzçilik, meyvəçilik, tütünçülük sahəsində də geniş imkanlarımız var. Bu imkanlardan səmərəli istifadə etmək lazımdır. Bütün məhsulu yığıb gələn ilin məhsulu üçün lazımi işlər görülməlidir.

Güman edirəm ki, bu gün burada gedən söhbətləri yerlərə çatdıracaqsınız. Biz kənd təsərrüfatında işlərin sürətlənməsinə nail ola bilərik və nail olmalıyıq.

Bir neçə kəlmə də başqa bir mövzu haqqında demək istəyirəm. Keçən gecə Azərbaycanda ağır bir hadisə, böyük cinayət baş vermişdir. Mühakimə altında olan dörd nəfər müttəhim, məhbus, görünür, müəyyən qüvvələrin təxribatı nəticəsində Milli Təhlükəsizlik Nazirliyinin təcridxanasından çıxarılıb və yox olub. Bunlar Rəhim Qazıyev, Əlikram Hümbətov, Baba Nəzərli, – keçmişdə müdafiə nazirinin müavini olub, – və Arif Paşayevdir, – deyilənə görə o, AXC-nin üzvü olub, Laçın rayonunun əldən getməsində günahlandırılır. Bilirsiniz ki, Rəhim Qazıyevin və 30 nəfərə qədər bir qrup adamın məhkəmə prosesi gedir. Əlikram Hümbətovun cinayətləri sizə məlumdur. Onun istintaqı bir neçə aydır ki, qurtarıb. İş ali məhkəmədədir, orada öyrənilir. Bu günlərdə məhkəmə prosesi başlanmalı idi.

Görünür, belə bir cinayəti düşmən qüvvələr, Azərbaycanda bu sabitliyi pozmağa çalışan, təxribatlar aparmaq istəyən qüvvələr ediblər. Mən bu gün bu barədə müşavirə keçirdim. Biz bu məsələni müzakirə etdik. Hüquq-mühafizə orqanlarına lazımi göstərişlər verilmişdir. Bu axşam mən televiziya ilə tək bu məsələ barədə yox, ümumiyyətlə, son vaxtlar respublikamızda gedən bəzi proseslərlə əlaqədar çıxış edəcəyəm, danışacağam. Ancaq fürsətdən istifadə edib sizə demək istəyirəm ki, belə bir cinayət baş verib, dövlətçiliyimizə qarşı xəyanət aksiyası həyata keçirilib. Respublikamıza düşmən olan qüvvələr artıq özlərini göstərirlər və böyük bir cinayət ediblər.

Heç təsadüfi deyildir ki, xarici ölkələrin neft şirkətləri ilə müqavilə bağlanandan bir gün sonra belə böyük cinayət baş vermişdir. Şübhəsiz ki, bu cinayətin arxasında müəyyən qüvvələr durur. Bu, Azərbaycanın daxilində olan, onun müstəqilliyinə, dövlətçiliyinə təcavüz edən qüvvələrdir, Bu cinayətin arxasında Azərbaycanın xaricində olan qüvvələr də durur. Ancaq onlar da, o birilər də, digərləri də, siz də və başqaları da bilsinlər ki, Azərbaycanın müstəqilliyini heç bir yolla, heç bir vəchlə əlindən almaq olmaz, Azərbaycanın dövlətçiliyini heç bir vasitə ilə pozmaq olmaz. [273-274] Biz Azərbaycanda demokratik hüquqi dövlət qururuq, müstəqil Azərbaycan Respublikasının dövlətçiliyini yaradırıq, inkişaf etdiririk, ordu qururuq.

Dörd aydan artıqdır ki, atəşin dayandırılmasına nail olmuşuq. Sülh danışıqları aparırıq. Görünür, bu qüvvələr həm atəşin dayandırılmasını istəmir, müharibənin yenidən başlanmasını arzulayırlar, həm də daxili sabitliyi pozmaq istəyirlər. Ancaq biz bunların heç birinə yol verməyəcəyik. Hüquq-mühafizə orqanları bu işlə məşğuldurlar. Lakin mən icra hakimiyyəti başçılarına da göstəriş verirəm və onlardan tələb edirəm ki, öz ərazilərində bu məsələlərlə ciddi məşğul olsunlar, ümumiyyətlə, cinayətkarlığa qarşı mübarizəni gücləndirsinlər və xüsusən bu cinayətkarların axtarılıb tapılması üçün hərə öz rayonu ərazisində lazımi tədbirlər görsün.

Bilirsiniz ki, son vaxtlar Azərbaycanda ictimai-siyasi sabitliyi pozmaq istəyən başqa qüvvələr də var. Bəzi yerlərdə, bəzi rayonlarda mitinq etmək istəyirlər. Bakıda da mitinq keçirmək istəyirlər. Mən soruşmaq istəyirəm: bu mitinqlər nədən ötrüdür, nə üçündür? Bu mitinqləri kimlər edir? Azərbaycan Respublikasının ağır vəziyyətində onların ölkəni idarə etməyə, yaxud respublikanın bu çətin problemlərini həll etməyə imkanı varmı? Kimdir onlar?

Azərbaycanın dövlətçiliyini qorumaq üçün biz belə cinayət hallarına yol verməyəcəyik. Sizə də tapşırıram ki, Azərbaycan Respublikasının dövlət mənafelərini müdafiə etmək üçün hərəniz öz rayonunuzda lazımi tədbirlər görəsiniz. Azərbaycanda ictimai-siyasi sabitliyi pozmaq istəyən hər bir kəs lazımi qiymətini almalıdır və ona qarşı zəruri tədbir görülməlidir. Bizim məqsədimiz Azərbaycanı bu ağır vəziyyətdən çıxarmaq, müharibəyə son qoymaq, sülh yaratmaqdır. Bunun üçün də lazımi tədbirlər görülüb, indən sonra da görüləcəkdir. Mən sizi də dəvət edirəm və sizdən də tələb edirəm ki, bu proseslərin iştirakçısı olasınız və bizə mane olan qüvvələrin, ünsürlərin, qrupların qarşısını alasınız, lazımi tədbirlər görəsiniz. Siz dövlət

adamlarısınız, dövlətə xidmət edirsiniz. Dövlət tutduğunuz vəzifələrdə hər birinizə etimad göstərib. Ona görə də sizdən bu vəzifələri layiqincə yerinə yetirməyi tələb edirəm.

Bununla da gəlin bu söhbətimizi qurtaraq. Sağ olun. [274-275]

## AZƏRBAYCAN MİLLİ TELEVİZİYASI VƏ RADİOSU İLƏ ÇIXIŞ

*22 sentyabr 1994-cü il*

Mən Azərbaycanda son vaxtlarda baş vermiş bəzi hadisələrlə əlaqədar öz fikirlərimi, mülahizələrimi sizə çatdırmaq üçün bu axşam televiziya studiyasına gəlmişəm.

Azərbaycan Respublikasının həyatında ən mürəkkəb, ən çətin məsələ onun müharibə şəraitində olmasıdır. Bildiyiniz kimi, aparılan danışıqlar nəticəsində dörd aydan çoxdur ki, Ermənistanla Azərbaycan arasındakı müharibədə atəşin dayandırılmasına nail olmuşuq. Bu müddətdə atəşkəs davam edir. Altı illik müharibə dövründə ilk dəfədir ki, belə uzunmüddətli sülh, atəşkəs əldə olunmuşdur. Biz bunun üçün Ermənistanla bilavasitə danışıqlar aparmışıq, beynəlxalq təşkilatların imkanlarından istifadə etmişik. Rusiyanın vasitəçiliyi bu məsələdə bizə kömək etmişdir. Nəhayət, bu razılığı əldə etmişik.

Bəli, dörd aydan artıqdır ki, cəbhələrdə dava yoxdur, müharibə yoxdur. Ancaq şübhəsiz ki, Azərbaycan Ordusu tutduğu mövqeləri müdafiə etmək, torpaqlarımızın keşiyində durmaq üçün fəaliyyət göstərir, öz xidməti borcunu yerinə yetirir.

Atəşin dayandırılması və bu müddətdə davam etməsi ümumiyyətlə, müharibəyə son qoyulması üçün bir imkandır, bir vasitədir. Atəş dayandırılan gündən indiyədək biz bir çox addımlar atmışıq ki, məsələnin sülh yolu ilə həllinə nail olaq, müharibəyə son qoyulsun. Azərbaycanın bu təklifləri respublikamızın müəyyən məlum şərtləri ilə bağlıdır.

Bu dörd ayda çox işlər görülüb. Bunları bir daha qeyd etməyə ehtiyac yoxdur. Sadəcə olaraq, son bir ay içərisində görülmüş bir neçə mühüm tədbir haqqında məlumatı sizə çatdırmaq istəyirəm. Bəlkə də düzgün olar desəm ki, bunları sizin xatirinizə salmaq istəyirəm.

Bir ay bundan əvvəl, keçən ayın sonunda biz ATƏM təşkilatının Minsk qrupunun başçısı Yan Eliassonla çox intensiv danışıqlar apardıq. O bizim regionda oldu, həm bizimlə görüşdü, həm Ermənistanda bu ölkənin rəhbərləri ilə görüşdü. Nəhayət, onun iştirakı ilə və eyni zamanda Rusiyanın vasitəçiliyi ilə birgə bəyanat verdik ki, atəşkəsi bundan sonra da təmin edəcəyik. Bunu biz də bəyan etdik. Ermənistan tərəfi də bəyan etdi. Minsk qrupunun başçısı cənab Yan Eliasson da, Rusiyanın Xarici İşlər Nazirliyi də bu barədə bəyanat verdi. Biz bəyan etdik ki, Böyük Sülh Müqaviləsi hazır olanadək atəşkəs rejiminin saxlanmasını təmin edəcəyik. Biz buna riayət edirik, eyni zamanda bu müddətdə yeni addımlar atırıq ki, həqiqətən Böyük Sülh Müqaviləsi əldə olunsun, müharibəyə tamamilə son qoya bilək. [275-276]

Cənab Yan Eliasson ilə aparılan danışıqlar səmərəli, əhəmiyyətli oldu. Bildiyiniz kimi, bundan sonra, sentyabrın əvvəlində Amerika Birləşmiş Ştatlarının prezidenti cənab Bill Klintonun xüsusi nümayəndəsi, kabinetin üzvü, ABŞ Milli Təhlükəsizlik Şurasının üzvü və bu dövlətin Birləşmiş Millətlər Təşkilatındakı nümayəndəsi xanım Olbrayt Azərbaycana gəldi. Xanım Olbrayt prezident Bill Klintondan mənə məktub gətirdi, onunla bizim səmərəli danışıqlarımız oldu. Bu danışıqlar da Böyük Sülh Müqaviləsinin bağlanması, müharibəyə son qoyulması ilə əlaqədar idi.

Bundan az müddət sonra, sentyabrın 5-də mən Misir Ərəb Respublikasında, Qahirədə oldum. Orada beynəlxalq konfransın işində iki gün iştirak etdim, bir neçə ölkənin rəhbərləri ilə görüşdüm, Azərbaycanın vəziyyəti barədə məlumatı onlara çatdırdım və bu vəziyyətdən çıxmaq yollarına dair müzakirələr apardım.

Orada Amerika Birləşmiş Ştatlarının vitse-prezidenti cənab Albert Qor ilə də görüşdüm. Bu görüşümüz əvvəldən planlaşdırılmışdı və böyük əhəmiyyət kəsb edirdi. O, çox səmərəli, əhəmiyyətli oldu. Mən cənab Albert Qora Azərbaycan Respublikasının bu məsələlər barədə mövqeyini, bizim prinsipial münasibətimizi açıqladım. Bir daha bildirdim ki, Azərbaycan müharibə etmək istəmir, məsələnin sülh yolu ilə həll olunmasına çalışır və beynəlxalq təşkilatlar, böyük dövlətlər, o cümlədən Amerika Birləşmiş Ştatları burada özünəməxsus rol oynamalıdır.

Oradan qayıdan kimi Moskva görüşləri oldu. Moskvada Ermənistanın prezidenti cənab Levon Ter-Petrosyanla, Dağlıq Qarabağın erməni icmasının nümayəndəsi cənab Robert Koçaryanla, Rusiyanın xarici işlər naziri cənab Andrey Kozırevlə mənim ayrı-ayrılıqda görüşlərim oldu. Sonra bir yerdə görüşlərimiz oldu. Həmin görüşlər iki gün davam etdi. Bu görüşlərdə mən həm Ermənistan Respublikasının rəhbərlərinə, həm də Rusiyanın xarici işlər nazirinə bir daha bildirdim ki, biz atəşkəsə sadiq qalacağıq, atəşkəs rejimini saxlayacağıq. Ancaq bu, müvəqqəti bir haldır, Böyük Sülh Müqaviləsini hazırlayıb başa çatdırmaq lazımdır.

Orada Azərbaycanın şərtlərini bildirdim. Bunları mən dəfələrlə demişəm. Həmin şərtlər ondan ibarətdir ki, Ermənistan silahlı qüvvələri Azərbaycanın işğal olunmuş rayonlarından çıxmalıdır, qaçqınlar öz yerlərinə, öz evlərinə qayıtmalıdırlar. Azərbaycan Respublikasının ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı təmin olunmalıdır. Eyni zamanda biz Ermənistan tərəfinin bəzi şərtlərinin qəbul olunmasına – Dağlıq Qarabağda yaşayan ermənilərin təhlükəsizliyini təmin etmək üçün lazımi tədbirlər görülməsinə razılıq verdik. Bu məsələlər həll olunandan sonra Dağlıq Qarabağın statusu məsələsini müzakirə edəcəyimizi bildirdik.

Bu prinsiplər arasında bizim üçün ən mühümü işğal olunmuş ərazilərimizdən, o cümlədən Laçın rayonundan erməni silahlı qüvvələrinin çıxması, eyni zamanda Şuşa rayonunun azad edilməsi və Şuşaya azərbaycan[276-277]lı qaçqınların qayıtmasıdır. Bu şərtlər barəsində çox böyük mübahisələr getdi və indi də gedir. Mən bu şərtləri bizim prinsipial mövqeyimiz kimi bir daha bildirdim və vasitəçilik edənlərdən xahiş etdim ki, bizim tələblərimizin həyata keçirilməsinə səy göstərsinlər, iş görsünlər və bu şərtlərin əsasında biz Böyük Sülh Müqaviləsinin bağlanmasına razıyıq.

Biz həmin danışıqlardan sonra da bu sahədə fəaliyyətimizi davam etdiririk. Moskvada hər iki tərəf – Ermənistan tərəfi də, Azərbaycan tərəfi də Rusiyanın iştirakı ilə bir daha bəyan etdi ki, atəşkəs rejiminin saxlanmasını təmin edəcəyik və danışıqlar davam edəcəkdir. Sentyabrın 20-də Rusiya prezidenti Boris Yeltsinin xüsusi nümayəndəsi Vladimir Kazimirov Bakıya gəldi, mən onu qəbul etdim. O, Rusiya prezidenti Boris Yeltsindən mənə məktub gətirmişdi. Bu məktub əsasında danışıqlarımız oldu. Sonra Kazimirov Ermənistana getdi, bu gün yenə Bakıya qayıdıb. Mən sabah onunla görüşəcəyəm.

Eyni zamanda bilirsiniz ki, biz başqa vasitələrdən, o cümlədən ABŞ-ın bu barədə imkanlarından istifadə etməyə çalışırıq və Minsk qrupunun da fəaliyyətini çox əhəmiyyətli hesab edirik.

Moskva görüşlərindən sonra Minsk qrupunun üzvləri Vyanada toplaşdılar. Azərbaycanın nümayəndəsi, dövlət müşaviri Vəfa Quluzadə bu toplantıda iştirak etdi, ölkəmizin mövqeyini orada bir daha açıqladı və bildirdi ki, Azərbaycan məhz bu şərtlər əsasında, Minsk qrupu çərçivəsində, böyük dövlətlərin vasitəçiliyi ilə böyük sülhün yaranmasına razıdır və buna gedə bilər.

Bütün bunlar, demək olar ki, son iyirmi gündə görülən işlərdir. İnformasiya orqanlarımız bu tədbirləri vaxtaşırı sizə çatdırıb. Ancaq mən bunları yığcam şəkildə bir daha sizə bildirmək istəyirəm ki, biz Azərbaycanın mövqelərini möhkəmləndirmək üçün, ölkəmizi müharibədən çıxarmaq üçün, xalqımızı bu müharibə bəlasından xilas etmək üçün daim fəaliyyət göstəririk və bundan sonra da göstərəcəyik.

Sentyabrın 20-də Azərbaycanda böyük bir tarixi hadisə baş verdi. Respublika Dövlət Neft Şirkətinin xarici ölkələrin böyük neft şirkətləri ilə üç ildən artıq davam edən danışıqları sona çatdı. Nəhayət, bu danışıqlar əsasında biz Azərbaycan Respublikası üçün münasib olan müqavilənin layihəsini əldə etdik. Sentyabrın 20-də bu müqavilə Azərbaycanın paytaxtı Bakıda təntənəli şəkildə imzalandı.

Mən imzalanma mərasimindəki çıxışımda müqavilənin əhəmiyyətindən danışmışam, bu gün bir daha qeyd etmək istəyirəm ki, bu müqavilə tarixi əhəmiyyətə malikdir. O, ötən 150 ildə Azərbaycan neft sənayesinin tarixində ilk belə böyük müqavilədir. Xarici neft şirkətləri rəhbərlərinin fikrincə, ümumiyyətlə, öz xüsusiyyətinə görə bu, nadir bir müqavilədir, dünyada oxşarı olmayan bir müqavilədir. Bu da ondan ibarətdir ki, Azərbaycan Dövlət Neft Şirkəti dünyanın yeddi böyük neft şirkətinin daxil olduğu konsorsium ilə müqavilə bağlayıb. Həmin şirkətlər ABŞ, Böyük Bri[277-278]taniya, Rusiya, Norveç və Türkiyəyə mənsubdur, sonradan Səudiyyə Ərəbistanının "Delta" neft şirkəti də onlara qoşulub. Yeddi neft şirkəti bir konsorsiuma daxil olub, Azərbaycan Dövlət Neft Şirkəti ilə 30 il müddətinə müqavilə imzalayıb.

Demək, bu konsorsium həm yeddi neft şirkətini, həm də Amerika Birləşmiş Ştatları, Rusiya, Böyük Britaniya, Türkiyə, Norveç və Səudiyyə Ərəbistanı kimi ölkələri təmsil edir. Biz həm neft şirkətləri ilə müqavilə bağlamışıq, həm də bu şirkətlər bizim həmin dövlətlərlə iqtisadi və digər əlaqələrimizin gələcək inkişafı üçün əsas yaratmışlar.

Bu müqaviləni Amerika Birləşmiş Ştatlarının prezidenti cənab Bill Klinton təbrik etmişdir. O, sentyabrın 20-də mənə göndərdiyi məktubda bu müqaviləni yüksək qiymətləndirmiş və Azərbaycan ilə ABŞ arasında əlaqələrin gələcək inkişafı üçün onun çox əhəmiyyətli olduğunu bildirmişdir. O, eyni zamanda qeyd etmişdir ki, bu müqavilənin imzalanması nəticəsində Azərbaycanın probleminin – Dağlıq Qarabağ münaqişəsinin həll olunması üçün də lazımi səylər göstəriləcəkdir.

Böyük Britaniyanın baş naziri cənab Con Meycor bu müqavilə ilə əlaqədar mənə təbrik məktubu göndərib və o da həm müqavilənin əhəmiyyəti haqqında fikirlərini bildirib, həm də müqavilənin Böyük Britaniya ilə Azərbaycan arasındakı əlaqələrin gələcək inkişafı üçün əsas yaratdığını qeyd edib. Eyni zamanda Dağlıq Qarabağ məsələsinin həlli üçün bu müqavilənin əhəmiyyətli olduğunu bildirib.

Başqa təbriklər də olub. ABŞ-ın prezidenti cənab Bill Klinton əvvəlcə də xəbər vermişdi və məktubunda da bildirir ki, yaxın vaxtlarda onun mənimlə görüşü olacaqdır. Bilirsiniz ki, yaxın günlərdə Amerika Birləşmiş Ştatlarında, Nyu-Yorkda Birləşmiş Millətlər Təşkilatı Baş Məclisinin sessiyası başlanacaqdır. Mən bu məclisdə iştirak etmək fikrindəyəm. ABŞ-da bir çox görüşlərim olacaqdır. O cümlədən Amerikanın prezidenti Bill Klinton ilə görüşəcəyəm.

Bunlar hamısı Azərbaycan Respublikasının beynəlxalq aləmdə mövqelərinin möhkəmlənməsini nümayiş etdirir. Dövlətimizin xarici siyasət, xarici ölkələrlə iqtisadi əlaqələr sahəsində atdığı addımları əks etdirir.

Mən dəfələrlə demişəm, – Azərbaycan Respublikası öz müstəqilliyini möhkəmləndirib inkişaf etdirərək, eyni zamanda bütün dünya ölkələri, dövlətləri ilə qarşılıqlı surətdə faydalı, ikitərəfli əlaqələr qurmaq əzmindədir və biz öz tərəfimizdən bu addımları atırıq, bu əlaqələri qururuq.

Mənim son vaxtlar xarici ölkələrə səfərlərim, müxtəlif dövlətlərin Azərbaycanda olan nümayəndələri ilə görüşlərimiz, həyata keçirdiyimiz tədbirlər, o cümlədən şirkətləri neft müqaviləsinin iştirakçısı olan ölkələrin nümayəndə heyətlərinin Bakıda bu müqavilənin imzalanması mərasimində iştirak etməsi onu göstərir ki, xarici siyasətimiz öz nəticələrini verir, uğurludur, müvəffəqiyyətlidir və biz indən sonra da bu yolla gedəcəyik. [278-279]

Sentyabrın 20-də xarici ölkələrdən Azərbaycana çoxlu qonaq gəlmişdi. Onlar hamısı Azərbaycana, xalqımıza, müstəqil respublikamıza öz hörmət və ehtiramını bildirdi. Müqavilənin imzalanma mərasimində iştirak və çıxış edən dövlət nümayəndə heyətlərinin başçıları Azərbaycanla öz ölkələri arasında əlaqələrin bundan sonra da inkişaf etməsinə səy göstərəcəklərini bir daha bildirdilər. Bütün bunlar Azərbaycan Respublikasının bu günü və gələcək həyatı üçün çox əhəmiyyətlidir.

Respublikamız müharibə şəraitində olduğuna görə və son illər gedən proseslər nəticəsində iqtisadi-sosial böhran içərisindədir. Böhrandan çıxmaq üçün biz lazımi tədbirlər görürük. Xarici ölkələrlə qarşılıqlı surətdə faydalı iqtisadi əlaqələr yaratmaq və o cümlədən Azərbaycanın neft yataqlarından səmərəli istifadə olunması üçün əməkdaşlıq etmək respublikamızın iqtisadiyyatının inkişaf etməsi üçün, sosial-iqtisadi böhrandan çıxmağımız üçün çox yararlı yoldur və biz bu yolla gedəcəyik.

Eyni zamanda bunlar hamısı Azərbaycan Respublikasının müstəqil dövlət olduğunu bütün dünyada bir daha sübuta yetirir. Nümayiş etdirir ki, Azərbaycan müstəqil dövlət kimi özü öz taleyinin sahibidir, xalqımız öz sərvətlərindən özü müstəqil surətdə istifadə etməyə qadirdir və bu məqsədlə istədiyi dövlətlə, xarici şirkətlə müştərək fəaliyyət göstərmək imkanına malikdir. Bir daha qeyd edirəm ki, bunlar hamısı müstəqilliyimizin möhkəmlənməsinin və eyni zamanda Azərbaycan Respublikasının beynəlxalq aləmdə nüfuzunun yüksəlməsinin rəmzidir. Biz bu yolla gedəcəyik və bu tədbirləri ardıcıl surətdə həyata keçirəcəyik.

Dediyim kimi, bir neçə gündən sonra mən Amerika Birləşmiş Ştatlarına gedəcəyəm. Qarşıda çox əhəmiyyətli görüşlər var. Ümidvaram ki, bu görüşlərdə də Azərbaycan Respublikasının mənafelərini müdafiə etmək imkanım olacaq və mən bunu edəcəyəm. Bu görüşlər də Azərbaycan Respublikasını indiki ağır vəziyyətdən çıxarmaq və xüsusən müharibəyə son qoymaq üçün, böyük sülh əldə etmək üçün çox əhəmiyyətli olacaqdır.

Eyni zamanda bunlar hamısı Azərbaycanda, cəmiyyətimizdə, respublikamızda ictimai-siyasi sabitliyin rəmzidir. Bəli, iri neft şirkətləri, böyük dövlətlər Azərbaycanda ictimai-siyasi sabitliyə arxayın olmasaydılar və ölkəmizin sabit, müstəqil gələcəyinə inanmasaydılar, belə böyük bir müqaviləyə imza atmazdılar.

Bizim də borcumuz bu ictimai-siyasi sabitliyi, cəmiyyətimizdə yaranmış normal vəziyyəti qoruyub saxlamaqdan ibarətdir. Mən dəfələrlə demişəm və sentyabrın 20-də – müqavilənin imzalanma mərasimində də qeyd etdim ki, Azərbaycan öz müstəqilliyini daim müdafiə edəcəkdir. Azərbaycanda hüquqi demokratik dövlət qurulur və dövlət quruculuğu bundan sonra da həmin istiqamətdə davam etdiriləcəkdir. Azərbaycanda siyasi plüralizm mühiti yaranıb və bu mühit bundan sonra da möhkəmlənəcəkdir. Çoxpartiyalı sistem bundan sonra da bərqərar olacaqdır. İnsan azadlığı, insan hüquqlarının qorunması prinsipləri bizim üçün əsas vəzifələrdəndir və biz bu vəzifələrimizi daim yerinə yetirməyə çalışacağıq.

Bunların nəticəsində Azərbaycan dünya miqyasında demokratik hüquqi dövlət kimi, bazar iqtisadiyyatına qoşulmuş bir dövlət kimi, sərbəst [279-280] iqtisadiyyat yolu ilə inkişaf edən bir ölkə kimi tanınacaq və Dünya Birliyində öz layiqli yerini tutacaqdır. Bunun üçün də biz cəmiyyətimizdə, ölkəmizin daxilində ictimai-siyasi sabitliyi qoruyub saxlamalıyıq. Bu, bizim borcumuzdur, dövlətin borcudur. Eyni zamanda bu, hər bir vətəndaşın, hər bir vətənpərvər azərbaycanlının borcudur. Mən güman edirəm ki, vətənini sevən, vətəni haqqında düşünən adamlar ictimai-siyasi sabitliyi qoruyub saxlamağa çalışmalı və bu yolda Azərbaycan dövlətinə kömək etməlidirlər, dövlətimizlə birgə olmalıdırlar.

Ancaq təəssüf ki, Azərbaycanda bəzi qüvvələr bu daxili sabitliyi pozmağa çalışırlar. Onlar qruplaşaraq, öz mənafelərinə əsaslanaraq, şəxsi məqsədlər güdərək ayrı-ayrı qeyri-qanuni hərəkətlər edirlər, bəzən təxribat yoluna düşürlər və öz vətəninə, öz xalqına xəyanət edirlər.

Şübhəsiz ki, biz həm vətəndaşların hüquqlarını, həm də dövlətin hüquqlarını, müstəqil Azərbaycan dövlətini qoruyacağıq. Hamı bunu bilməlidir və hamı Azərbaycanın Konstitusiyasına, qanunlarına, dövlətimizə hörmət və itaət etməlidir. Vətəninə sadiq olan hər bir vətəndaş ancaq bu yolla gedəcək və bu yolla da getməlidir.

Ona görə də həmin o qruplar bilməlidirlər ki, onların cəhdləri heç vaxt nəticə verməyəcəkdir. Belə qruplar bilməlidirlər ki, onlar öz şəxsi mənafelərini güdərək xalqa, müstəqil Azərbaycan Respublikasına zərər verirlər, hətta bəzən zərbələr də vururlar. Düzdür, xalqımız son illərdə böyük sınaqlardan çıxmışdır, əminəm ki, bundan sonra da sınaqlardan, imtahanlardan keçəcəkdir. Ancaq yaxşı olardı ki, hamımız öz məsuliyyətimizi anlayaq, başa düşək ki, hər bir azərbaycanlı üçün, hər bir Azərbaycan vətəndaşı üçün müstəqil dövlətimizin mənafeyi, xalqımızın ümumi mənafeyi, Azərbaycanın müharibə şəraitindən çıxması, respublikamızın ərazi bütövlüyünün təmin edilməsi hər şeydən üstün olmalıdır.

Qeyd etdiyim kimi, təəssüf ki, bəzi adamlar, siyasətə qoşulmuş bəzi şəxslər, bəzi qruplar bunları anlamırlar, yaxud da anlamaq istəmirlər. Biz dözümlüyük, özümüzə inanırıq və bundan sonra da bu yolla gedəcəyik. Azərbaycanın prezidenti kimi mən bunu öz həmvətənlərimə bir daha çatdırıram.

Keçən gecə bir cinayət hadisəsi baş vermişdir. Bu barədə televiziya ilə məlumat oxunub. Hüquq-mühafizə orqanlarının rəhbərləri televiziya ilə çıxış edərək bu cinayətin baş verməsi və onun məzmunu haqqında məlumat veriblər. Dəhşətli hadisədir. Ola bilər ki, tarixdə görünməmiş bir hadisədir. Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin təcridxanasından gecə və yaxud da axşamdan xeyli keçmiş dörd nəfər məhbus – Rəhim Qazıyev, Əlikram Hümbətov, Baba Nəzərli, Arif Paşayev əvvəlcədən hazırlanmış, planlaşdırılmış aksiya nəticəsində çıxarılıb naməlum istiqamətə aparılmışlar.

Bu, Azərbaycanın müstəqilliyinə xəyanətdir, təcavüzdür, bugünkü həyatımızda olan ictimai-siyasi sabitliyi pozmağa yönəldilmiş təxribat hərəkətidir. Aydındır ki, bu, sadə bir hal deyil. Belə bir əməliyyatı həyata ke[280-281]çirmək üçün şübhəsiz ki, çox hazırlıq aparılıb, işlər görülüb. Ayrı-ayrı satqınlar, xalqımıza xəyanət edən adamlar bu işə qoşulublar və nəhayət, bu hadisə baş veribdir.

İstintaq öz sözünü deyəcək, qiymətini verəcəkdir. Ancaq mən buna ictimai-siyasi nöqteyi-nəzərdən Azərbaycan xalqına, respublikamıza, müstəqil Azərbaycan dövlətinə qarşı yönəldilmiş təxribat, təcavüz əməliyyatı kimi qiymət verirəm. Hesab edirəm ki, bu işi görən adamlar cinayətkardırlar. Azərbaycan xalqına xəyanət ediblər.

Mən belə fikirdəyəm ki, bu işi görənlər ölkəmizin daxilində olan, dövlətimizə düşmən qruplardır, eyni zamanda Azərbaycanın xaricində olan düşmən qruplardır. Təəssüf ki, Ermənistanın Azərbaycana qarşı təcavüzünü dəstəkləyən qüvvələr, bu təcavüzü ardıcıl surətdə aparmaqda ona kömək edən qüvvələr və eyni zamanda Azərbaycanın müstəqil mövqe tutduğuna görə və beynəlxalq aləmdə öz sözünü prinsipial şəkildə dediyinə görə bizə düşmən mövqeyində duran qüvvələr var. Azərbaycanın müstəqilliyini pozmaq və onu dağıtmaq istəyən qruplar sizə məlumdur. Bunlar ayrı-ayrı qruplar, ayrı-ayrı dövlət dairələridir. Bütün bunlar sizə məlumdur. Bununla yanaşı, Azərbaycandan qaçmış, cinayət törətmiş, xalqımıza xəyanət etmiş, indi başqa ölkələrdə özünə yuva tapmış, öz şəxsi məqsədlərini həyata keçirmək üçün Azərbaycanı dağıtmağa cəhd edən qüvvələr də var. Güman edirəm ki, keçən gecə baş vermiş hadisə Azərbaycanın daxilində və ya xaricində olan cürbəcür qüvvələrin birgə fəaliyyəti, təxribatı nəticəsində baş vermişdir.

Bu hadisə bizim üçün nə qədər ağır olsa da, mən istəyirəm ki, xalqımız bilsin. Heç kəs sarsılmamalıdır, heç kəs sınmamalıdır, heç kəs narahat olmamalıdır. Dediyim kimi, Azərbaycan xalqı, müstəqil respublikamız çox sınaqlardan çıxmışdır, bu sınaqdan da keçəcəkdir. Əminəm ki, bu təxribatı törədən qüvvələr öz payını alacaqlar. Onlar istədiklərinə nail ola bilməyəcəklər. Biz öz mövqeyimizdən dönməyəcəyik, Azərbaycanın müstəqilliyini qoruyub saxlayacağıq. Cinayətkarlar tapılacaq, cəzalandırılacaq və o qaçmış adamlar da Azərbaycan xalqının əlindən canlarını qurtara bilməyəcəklər.

Siz o adamları tanıyırsınız. Rəhim Qazıyevin Azərbaycan xalqına vurduğu zərbələr hamıya məlumdur. Mən tarixi vərəqləmək istəmirəm, ancaq 1990-cı ildən indiyə qədər Rəhim Qazıyevin cinayətkar fəaliyyəti göz qabağındadır. O, daim öz şəxsi məqsədlərinə nail olmaq üçün Azərbaycanda sabitliyi pozub, insanları bir-birinə qarşı qoymağa çalışıbdır. Ancaq bir şey üçün – hakimiyyət, vəzifə, mənsəb əldə etmək üçün.

Əlbəttə ki, Rəhim Qazıyevi vaxtilə Azərbaycanın müdafiə naziri təyin edən adamlar böyük səhv buraxıblar, bəlkə də cinayət ediblər. Çünki müharibə vəziyyətində olan, Ermənistan tərəfindən təcavüzə məruz qalan Azərbaycanın silahlı qüvvələrinə belə bir səriştəsiz, eyni zamanda avantürist adamın rəhbərlik etməsi ölkəmizə heç vaxt xeyir gətirə bilməzdi və xeyir də gətirmədi. Bunu bilirsiniz. [281-282]

Əgər Azərbaycan ordusu vaxtında yaransaydı və ordunun başında layiqli bir adam olsaydı, Azərbaycan belə bir vəziyyətə düşməzdi. İndi sayırlar ki, nə vaxt hansı rayonlar əldən gedibdir. Hamısı onların günahı üzündən gedibdir. Hamısı! Başqa adamların günahı yoxdur və cinayətkarlar öz günahlarından yaxa qurtarmaq üçün cürbəcür qüvvələrin köməyi ilə Milli Təhlükəsizlik Nazirliyinin təcridxanasından qaçıblar.

1993-cü ilin iyun ayında Azərbaycanda vətəndaş müharibəsi baş verdi. Azərbaycanı bu vəziyyətə gətirib çıxaranlardan biri və vətəndaş müharibəsini ən fəal qızışdıran da məhz Rəhim Qazıyev idi. O vaxt o, böyük iddialarla yaşayırdı.

Mən xalqın dəvəti və iradəsi ilə o vaxt Bakıya gəldim, Azərbaycandakı bu ağır vəziyyəti aradan qaldırmaq üçün fəaliyyətə başladım. Bilirsiniz ki, vətəndaş müharibəsinin davam etməsinə imkan verilmədi, qardaş qırğınının qarşısı alındı. Ancaq bu, Rəhim Qazıyevi rahat buraxmadı. O, gərginliyi davam etdirmək istəyirdi. Gördü ki, burda bir şey çıxmadı, cənub bölgəsində, Lənkəranda Əlikram Hümbətov kimi bir qulduru ayağa qaldırdı, onunla daim əməkdaşlıq etdi.

Azərbaycanın cənubundakı yeddi rayonun əhalisi bu quldur dəstəsinin əlində, demək olar ki, əsir olmuşdu. Azərbaycan Silahlı Qüvvələrinin bir hissəsi, üç mindən artıq hərbçi, xeyli tank, piyada döyüş maşını, toplar, digər silahlar və döyüş ləvazimatı cəbhədən ayrıldı. Orada Əlikram Hümbətovun rəhbərliyi altında quldurluqla məşğul oldular. Rəhim Qazıyev buna rəhbərlik edirdi. Mən dəfələrlə bunu onun üzünə dedim. Rəhim Qazıyev Hümbətovla əlaqədə idi, ona rəhbərlik edirdi. Nə üçün? Azərbaycanı parçalamaq üçünmü?

Bəli, qüvvələrin bir hissəsinin cəbhədən ayrılıb o tərəfə keçirilməsi, bir hissəsinin bir dəstəyə – Xalq Cəbhəsinin dəstəsinə qoşulması, bir hissəsinin başqa adamın dəstəsinə qoşulması, şübhəsiz ki, cəbhədə vəziyyəti gərginləşdirdi, erməni silahlı qüvvələri də bundan istifadə etdilər. Çox gülünc olardı ki, onlar bundan istifadə etməsinlər. Bunlar hamısı Azərbaycan xalqına xəyanət edən Rəhim Qazıyev kimi adamların gördükləri

çirkin işlərin nəticəsində oldu. O, nə iddialarda idi o vaxt – vəzifə iddiasında, hakimiyyət iddiasında. Bir daha Müdafiə Nazirliyinə gəlmək iddiasında.

Bir şeyi də xatırlatmaq istəyirəm. Ədalət naminə demək lazımdır ki, 1993-cü ilin hələ fevral ayında Azərbaycanda dövlət böhranı yaranmışdı. Rəhim Qazıyev bu böhranın da fəal iştirakçısı idi. Düzdür, onda bu vətəndaş müharibəsinə gəlib çıxmadı. Amma iyun ayında hadisələr vətəndaş müharibəsi ilə nəticələndi. Rəhim Qazıyev bunların hamısının müəlliflərindən biridir. Sonra o, cənubda Əlikram Hümbətovu Azərbaycan dövlətinə qarşı qaldırmaq istədi. Lakin bundan da bir şey çıxmadı. Çünki xalq buna yol vermədi, sıx birləşdi. Əlikram Hümbətov qaçıb aradan çıxdı. Bu hadisə nəticəsində bir neçə adam həlak oldu. Hümbətov daha bir cinayət törətdi. Nəhayət, o, uzun axtarışdan sonra tapıldı və ələ keçdi. [282-283]

Hələ o vaxtlar Rəhim Qazıyev çox böyük cinayətlər etdi. Bir tərəfdən, vəzifə iddiasında oldu. Ona elə gəldi ki, müdafiə naziri vəzifəsi də onun üçün azdır. O, bütün güc nazirliklərinin birləşdirilib onun tabeliyinə verilməsi iddiasına düşmüşdü. Şübhəsiz ki, mən dövlət başçısı kimi, buna yol verə bilməzdim. Çünki yaxşı görürdüm ki, Rəhim Qazıyev əvvəlki illərdə Azərbaycana necə böyük ziyan vurmuşdur, nə qədər xəyanət etmişdir. Təəssüflər olsun, vaxtilə Azərbaycan rəhbərlərindən bəzilərinin iradəsi və cürəti çatmadı ki, Rəhim Qazıyevin barəsində lazımi tədbirlər görsünlər. Ona görə ki, bəziləri onunla əməkdaşlıq etmişdilər, bəziləri də bu əməkdaşlığı hələ davam etdirirdilər. Onunla əlaqələri kəsdikdən sonra bu adamların iradəsi və cürəti çatmadı ki, onu yerinə oturtsunlar, cəzasını versinlər. Azərbaycanı belə bir cinayətkardan xilas etsinlər.

Amma mən bunu etdim. Bəli, məhz Azərbaycanın qanunları əsasında Rəhim Qazıyev məsuliyyətə cəlb olundu, istintaq aparıldı və nəhayət, bir müddət bundan öncə məhkəmə prosesi başlandı.

Bütün bu tədbirlər məhz Azərbaycanın müstəqilliyini qorumaq üçün, ölkəmizi belə ünsürlərdən xilas etmək üçün həyata keçirildi. Onların hansı məqsədlərə, hansı qüvvələrə xidmət etdiklərini gələcək, istintaq göstərəcəkdir. Onlar kimlərə – o tərəfə də, bu tərəfə də, bu ölkəyə də, o ölkəyə də xidmət etmirdilər?!

Odur ki, Rəhim Qazıyev bir cinayətkar kimi məsuliyyət daşımalıdır. Elə bu gün hüquq-mühafizə orqanlarının rəhbərləri də bildirdilər ki, o, ittiham olunduğu cinayətlərdən canını qurtara bilməyəcəyini başa düşmüşdü. Həm də istər Azərbaycanda, istərsə də respublikanın hüdudlarından kənarda onun arxasında duran, onunla əlaqəyə girən adamlar dərk edirdilər ki, Rəhim Qazıyev bir cinayətkar kimi cəzalansa, onların hamısının da cinayətləri üzə çıxacaqdır. Bəli, onlar məsuliyyəti başa düşürdülər.

Əlikram Hümbətovun da kimlərə, hansı qüvvələrə xidmət etdiyi məlumdur. O, simasız bir adamdır, cəmiyyətə zidd ünsürdür. Lakin son illərdə Azərbaycan Respublikasının ən böyük bəlası bundan ibarətdir ki, yeddi milyon əhali sırasından bu cür adamlar ortaya çıxdılar. Özü də beləlləri öz cinayətkar fəaliyyəti ilə bəzilərini qorxutduqlarına, bir paraları da onlardan istifadə edərək, öz məqsədlərinə nail olmaq üçün bunlara kömək etdiklərinə görə onlar əl-qol açmışlar. Əlikram Hümbətov və onun kimiləri nəkarədirlər, nəçidirlər? O, hansı savad, hansı mənsəb sahibidir, səviyyəsi nədir, xalq qarşısında nə kimi xidmətləri var ki, Azərbaycanın cənub bölgəsini ələ keçirsin və orada hökmranlıq etməyə başlasın? Beləlləri ancaq ayrı-ayrı qüvvələrin, Azərbaycanı parçalamağa can atan qüvvələrin köməyi ilə bu cür niyyətə düşə, belə iddiada ola bilərdilər. Şübhəsiz ki, Əlikram Hümbətovla əlaqəyə girmiş adamlar vardı – Azərbaycanın daxilində də, xaricində də.

Bu gün məlumat verdilər, televiziya ilə də eşitdik ki, artıq məhkəmə prosesi başlanmalı idi. Özü də tək Əlikram Hümbətov deyil, onunla bir[289-284]likdə bu cinayəti törətmiş olan şəxslər də məsuliyyət daşımalı idilər. Deməli, onlar həm Rəhim Qazıyevi, həm özlərini, həm də Əlikram Hümbətovu xilas etmək üçün bu cinayətə əl atdılar. Baba Nəzərli, Arif Paşayev də onlarla əlbir oldular, bu cinayətkarlığa qoşuldular. Onların cinayəti göz qabağındadır. Amma əlaqədar orqanlar Azərbaycanın dövlətçiliyinin qorunması işində çox böyük səhvlər etdilər, sayıqsızlığa, səhlənkarlığa yol verdilər. İndi istintaq göstərəcəkdir – necə oldu ki, Milli Təhlükəsizlik Nazirliyi kimi güclü bir nazirliyin təcridxanasından bu adamları çox asanlıqla çıxara bildilər?

Müstəqil Azərbaycanda Milli Təhlükəsizlik Nazirliyi üç ildir ki, fəaliyyət göstərir. Lakin o keçmiş Sovet İttifaqındakı müvafiq orqanın davamçısıdır, əməkdaşların çoxu da o vaxtdan işləyən adamlardır. Diqqət yetirsək, görərik ki, bu orqanın tarixi 20-ci ildən başlanır. Deyə bilərəm ki, həmin ildən bəri bu orqanların tarixində, belə əcaib, belə dəhşətli hadisə heç vaxt olmayıb. Milli Təhlükəsizlik Nazirliyinin rəhbərləri məsuliyyətsizlik göstərib, bu ciddi məsələyə nəzarət etməyib, böyük səhvlər buraxıblar. Odur ki, bu cinayətin törədilməsində onlar günahkardırlar.

Ona görə də mən bu gün qəti tədbirlər görməliyəm. Tədbirlərdən biri budur ki, milli təhlükəsizlik naziri Nəriman İmranov işdən azad olunmalıdır. Mən bu qərarı qəbul etmişəm. Əlbəttə başqa tədbirlər də görülməlidir və yalnız bundan ibarət ola bilməz. Əsas tədbir ondan ibarətdir ki, cinayətkarlar axtarılıb tapılmalı, cəzalandırılmalıdır. Onları qaçıran cinayətkarlar da, onlarla əlaqəyə girənlər də tapılmalı və cəzalarını almalıdırlar.

Ola bilsin ki, bu hadisə bəzi adamlarda təlaş, qorxu, bəzilərində də narahatlıq hissi doğurur. Bunlar müəyyən qədər təbii hallardır. Lakin bu gün mən sizin qarşınızda çıxış edərək bildirirəm ki, qoy heç kəs narahat olmasın. Müstəqil Azərbaycanın qarşıdakı yolunda hələ çox çətinliklər olacaqdır. Azərbaycanın prezidenti kimi, mən bunları qabaqcadan görürəm, dərk edirəm. Həm də belə halları görərək, dərk edərək, xalqın iradəsinə tabe olaraq, Azərbaycanın prezidenti olmağa razılıq vermişəm. Bilin və yəqin edin ki, mən heç vaxt belə vəzifəni

tutmaq arzusunda və iddiasında olmamışam, – bunu dəfələrlə demişəm. Amma bu ağır dövrdə xalqın mənə müraciətini qəbul edərək və eyni zamanda qarşımda duran çətinlikləri, böyük problemləri dərk edərək mən bu ağır yükü boynuma götürmüşəm. Ona görə də əmin ola bilərsiniz, – heç bir şeydən qorxmuram, çəkinmirəm. Belə hadisələr gələcəkdə də ola bilər. Qoy bunlar heç kəsi narahat etməsin, qorxutmasın. Cinayətkarlarla mübarizə aparmışıq, aparacağıq da.

Rəhim Qazıyev, Əlikram Hümbətov kimiləri xalq tərəfindən ittiham olunacaq, cəzalanacaqlar. İstər Azərbaycanda, istərsə də ölkəmizin hüdudlarından kənarda olanlar, fərqi yoxdur, – Azərbaycana xəyanət etmiş, xalqımıza qarşı təxribat törətmiş adamlar öz layiqli cəzalarını alacaqlar. Odur ki, qoy heç kəs narahat olmasın. [284-285]

Amma bununla yanaşı, bu hadisə bizi bir daha sayıqlığa çağırır, bir daha göstərir ki, bəli, Azərbaycanda daxili ictimai-siyasi sabitliyi pozmaq, ölkəmizi beynəlxalq aləmdə nüfuzdan salmaq istəyən belə cinayətkar qüvvələr hələ var. Heç də təsadüfi deyildir ki, bu hadisə Azərbaycan Dövlət Neft Şirkəti ilə xarici neft şirkətləri konsorsiumu arasında müqavilə bağlandıqdan bir gün sonra baş vermişdir. İndi gördüyünüz kimi, bu müqavilə nə qədər dairələri narahat edir. Görürsünüz ki, Azərbaycanın belə müstəqil addım atması nə qədər qrupları təşvişə salmışdır – həm Azərbaycanın daxilində, həm də xaricində.

Buna görə də ola bilsin ki, biz müstəqilliyimiz yolunda belə çətinliklərlə yenə də qarşılaşacağıq. Lakin onların hamısının qarşısını alacağıq. Qoy hamı əmin olsun ki, Azərbaycan öz müstəqilliyini qoruyub saxlayacaqdır və biz respublikamızı, cəmiyyətimizi belə düşmən ünsürlərdən təmizləyəcəyik.

Bununla belə, yenə də deyirəm ki, bu hal, bu hadisə bizi sayıqlığa, düşünüb-daşınmağa dəvət edir. Bu əhvalat bizi fikirləşməyə məcbur edir ki, Azərbaycanın sabitliyini pozmaq üçün respublikamızın istər daxilində, istərsə də xaricində bəzi qüvvələr güclü fəaliyyət göstərirlər. Onları dəf etmək üçün biz hamımız birləşməli, əlbir olmalıyıq.

Ola bilsin ki, bu əməliyyatın təşkilatçıları ondan istifadə etməyə, əhalinin ayrı-ayrı təbəqələrinə təsir göstərməyə can atır, ayrı-ayrı qrupları ayağa qaldırmağa çalışırlar. Ola bilər, amma mən belə hesab edirəm ki, Azərbaycan dövləti də, Azərbaycan xalqı da belə hallara layiqli cavab verməyə qadirdirlər və biz hər bir belə hadisəyə lazımınca cavab verəcəyik. Yəni qoy heç kəs düşünməsin, heç kəs də sevinməsin ki, bu hadisə Azərbaycanda qarmaqarışıqlıq yaradacaqdır. Yox, biz buna yol verməyəcəyik. Qarışıqlıq yaratmaq istəyənlər var, amma biz onlara imkan verməyəcəyik, onların cəhdlərinin qarşısını alacağıq. Biz buna qadirik. Çünki biz Azərbaycan dövlətinin Konstitusiyasını, Azərbaycanın dövlətçiliyini, ölkəmizin vətəndaşlarının hüquqlarını qoruyuruq. Biz bütün bunların keşiyində ayıq-sayıq duracağıq və belə hadisələrin qarşısını almaq üçün imkanlarımızın hamısından istifadə edəcəyik.

Mən tam əminəm ki, vətənini sevən, xalqına sadiq olan Azərbaycan sakinləri, bütün vətəndaşlarımız bu gün hiddətlənmişlər, onların hər biri bu cinayətkarlara nifrət edir. Mən həm də əminəm ki, bütün ictimaiyyətimiz bu cinayətkarlara lənət yağdıracaqdır, bu hadisə xalqımızı bir daha oyadacaq və birləşməyə dəvət edəcəkdir. Xalqımız daha sıx birləşəcəkdir ki, həm respublikamızın ərazi bütövlüyünü qoruyaq, həm də Azərbaycanda ictimai-siyasi sabitliyi təmin edək.

Ola bilər ki, bu cinayətkar qüvvələr ordu sıralarında da təxribat törətməyə çalışsınlar. Ancaq mən bilirəm ki, ordumuz artıq nizami ordudur, onun sıralarında Azərbaycan xalqına sadiq, vətənpərvər zabitlərimiz, döyüşçülərimiz respublika ərazisinin keşiyində sayıq durmuşlar, onlar belə qüvvələrin fəaliyyət göstərməsinə heç vaxt yol verməzlər. Mən ordumuza, silahlı qüvvələrimizə, hüquq-mühafizə orqanlarımıza inanıram və [285-286] xalqımıza arxalanaraq, respublikanın prezidenti kimi hamını əmin edirəm ki, biz hər hansı bir hadisənin qarşısını almağa qadirik və bunun üçün də bütün səlahiyyətlərimizdən istifadə edəcəyik.

Bir sözlə, həyatımız çətin şəraitdə keçir, yaşayış ağırdır, insanların iqtisadi vəziyyəti məşəqqətlidir. Gecə-gündüz fikirləşir, çalışırıq ki, Azərbaycan Respublikasının vətəndaşlarını ərzaqla necə təmin edək, başqa problemləri necə aradan qaldıraq. Bildiyiniz kimi, bir aydan çoxdur ki, Azərbaycandan gedən dəmir yolu Şimali Qafqazda bağlanmışdır. Deməli, biz dəmir yolunda tamamilə blokadaya alınmışıq. Bu isə iqtisadiyyatımız üçün də, taxıl məhsullarının gətirilməsi üçün də böyük çətinliklər yaradır. Lakin biz bu çətin vəziyyətdən də çıxacağıq. Əhalinin ağır şəraitdə yaşadığı məlumdur. Biz bu vəziyyətdən çıxmaq üçün lazımi tədbirlər görürük. Buna görə də ictimaiyyət arasında, respublikamızın həyatında sabitlik lazımdır, xalqın birliyi gərəkdir. Partiya mənsubiyyətindən asılı olmayaraq bütün qüvvələr bir şeyi anlamalıdırlar: Azərbaycanın müstəqilliyinin, ərazi bütövlüyünün qorunması və respublikamızda sülhün qorunub saxlanması hər şeydən üstün olmalıdır. Bu məqsədlərə nail olmaq üçün hər bir namuslu, qeyrətli vətəndaş, vətənini sevən hər bir azərbaycanlı səy göstərməlidir.

Mən əminəm ki, xalqımızın əksəriyyəti məhz belə düşünür. Ona görə də xalqımıza arxayın olaraq sizi əmin edirəm ki, biz bu çətinliklərdən çıxacağıq. Sizin hamınıza bu ağır vəziyyətimizdə uğurlar diləyirəm. Azərbaycan xalqına xoşbəxt həyat, səadət arzulayıram.

Gecəniz xeyrə qalsın. Gələn görüşlərədək.[286-287]

## BMT BAŞ MƏCLİSİNİN 49-cu SESSİYASINDA İŞTİRAK ETMƏK ÜÇÜN AMERİKA BİRLƏŞMİŞ ŞTATLARINA SƏFƏRƏ YOLA DÜŞƏRKƏN BİNƏ HAVA LİMANINDA JURNALİSTİN SUALINA CAVAB

*25 sentyabr 1994-cü il*

Azərbaycanın müstəqil dövlət olduğu üç il ərzində respublikanın dövlət başçısı BMT Baş Məclisində iştirak və çıxış etməmişdir. Mən sessiyada çıxış edəcəyəm. Şübhəsiz ki, bu, Azərbaycanın belə yüksək səviyyədə ilk dəfə təmsil olunması deməkdir. Təbii ki, mən çıxışımda Azərbaycanın həm daxili, həm də xarici siyasətindən və xüsusən, bizim üçün ən ağır problem olan Ermənistanın Azərbaycana təcavüzündən danışacağam.

Son vaxtlar Amerika Birləşmiş Ştatları Azərbaycana daim müsbət münasibət göstərir. Cənab Klinton mənə dəfələrlə məktub göndərmişdir. Təkcə sentyabr ayında ondan iki məktub almışam. Bunlar hamısı onu göstərir ki, Amerika Birləşmiş Ştatlarında Azərbaycana münasibət müsbət istiqamətdə dəyişir və güman edirəm ki, daha da dəyişəcəkdir. [287-288]

## NYU-YORKDAKI ”TÜRK EVİ“NDƏ AMERİKADA YAŞAYAN TÜRK VƏ AZƏRBAYCANLI İCMASININ NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

*26 sentyabr 1994-cü il*

Hörmətli dostlar, bacılar, qardaşlar!
Xanımlar və cənablar!

Müstəqil Azərbaycan Respublikasının dövlət başçısı, prezidenti ilk dəfədir ki, Amerika Birləşmiş Ştatlarına, ən nüfuzlu beynəlxalq təşkilat olan Birləşmiş Millətlər Təşkilatının Baş Məclisinin sessiyasında iştirak etməyə gəlmişdir. Müstəqil Azərbaycan Respublikası üçün bu, böyük hadisədir. Bu, Azərbaycanın müstəqil bir dövlət kimi yaşadığını, inkişaf etdiyini bütün dünyaya nümayiş etdirəcəkdir.

Çox məmnunam ki, bu gün burada, Nyu-York şəhərində sizinlə – qardaşlarımız, bacılarımızla görüşmək mənə nəsib olmuşdur. Hamınızı Azərbaycan xalqı adından, Azərbaycan Respublikası adından ürəkdən salamlayıram, hamınıza Odlar yurdu Azərbaycan torpağından salamlar çatdırıram.

Üç ildir ki, Azərbaycan müstəqil dövlət kimi yaşayır. Bu, Azərbaycanın həyatında tarixi hadisədir. Sizə məlumdur ki, Azərbaycan xalqı uzun illər, əsrlər boyu milli azadlıq uğrunda mübarizə etmiş, öz müstəqil dövlətini qurmağa çalışmışdır. Son əsrdə ilk dəfə 1918-ci ildə bu, xalqımıza nəsib olmuş, Azərbaycanda ilk demokratik cümhuriyyət yaranmışdır. Azərbaycanın ilk demokratik cümhuriyyəti Şərqdə sivilizasiyalı bir dövlət kimi dünyada tanınmışdır. Ancaq Azərbaycan demokratik dövləti çox yaşaya bilməmiş, süquta yetmişdir. Azərbaycanda Sovet hakimiyyəti qurulmuş və yetmiş il davam etmişdir. Nəhayət, üç il bundan öncə, keçmiş Sovetlər İttifaqının dağılması ilə əlaqədar olaraq Azərbaycan xalqı müstəqillik yoluna çıxmış, istiqlaliyyətini əldə etmiş, müstəqil Azərbaycan Respublikası yaranmışdır.

Azərbaycan Respublikası ağır şəraitdə yaranıb və üç ildir ki, ağır şəraitdə yaşayır. Bildiyiniz kimi, altı ildən çoxdur ki, Azərbaycan Respublikası, Azərbaycan xalqı Ermənistan tərəfindən hərbi təcavüzə məruz qalmış və bu, xalqımızın həyatını ağırlaşdırmış, gərginləşdirmişdir. Azərbaycan Respublikası məhz belə bir dövrdə yaranıb, məhz belə bir zamanda – ağır müharibə şəraitində üç ildir ki, öz müstəqilliyini möhkəmləndirməyə, inkişaf etdirməyə çalışır.

Mən sizə bildirə bilərəm ki, Azərbaycan Respublikası bir müstəqil dövlət kimi demokratik prinsiplər əsasında yaşamağa can atır. Biz respub[288-289]likada demokratik, hüquqi, sivilizasiyalı dövlət qurmaq yolu ilə gedirik, cəmiyyətimizi dünyada sınaqdan çıxmış demokratik prinsiplər əsasında təşkil etməyə çalışırıq və bu sahədə bir çox mühüm addımlar atmışıq. Azərbaycanda demokratiyanı bərqərar etmək, cəmiyyətimizdə demokratik prinsipləri inkişaf etdirmək üçün bir çox qanunlar qəbul olunub və onların əsasında indi ölkəmizdə çoxpartiyalı cəmiyyət mövcuddur. Azərbaycanda söz, mətbuat, vicdan azadlığı, insan hüquqlarının qorunması, cəmiyyətimizin əsas atributlarını təşkil edir. Dini mənsubiyyətindən, dilindən, irqindən asılı olmayaraq bütün Azərbaycan vətəndaşları bərabər hüquqlara malikdirlər. Azərbaycan xalqı öz həyatını tarixi, milli, mənəvi dəyərləri əsasında qurur və bundan sonra da bu yolla gedəcəkdir.

Azərbaycanın iqtisadiyyatı dərin böhran içərisindədir. Bu da iqtisadiyyatımızın, sosial həyatımızın bir ictimai-iqtisadi sistemdən digər sistemə keçməsi ilə əlaqədardır. Bildiyiniz kimi, Azərbaycan 70 il Sovetlər İttifaqının tərkibində olmuşdur. Azərbaycan dövləti, cəmiyyəti, həm də iqtisadiyyatı sosialist quruluşunun tələblərinə uyğun olaraq qurulmuşdu. İndi hər şey dəyişir, o cümlədən iqtisadiyyatda da böyük dəyişikliklər baş verir. Şübhəsiz ki, bu dəyişikliklər çox çətin yollarla gedir. Azərbaycan sərbəst iqtisadiyyat yolu, bazar münasibətləri yolu ilə getməyi qərara almışdır və biz bu yolla irəliləyirik. Biz, bunun üçün iqtisadi islahatlar keçirməyə, iqtisadiyyatda özəlləşdirməyə, təşəbbüskarlığa, sahibkarlığa geniş yer verməyə çalışırıq və yolumuz belədir: iqtisadiyyat bazar iqtisadiyyatı, sahibkarlıq əsasında qurulacaqdır. Özəl bölmə inkişaf edəcək və iqtisadiyyatın əsasını təşkil edəcəkdir. Bunlar hamısı böyük və mürəkkəb proseslərdir. Biz bu proseslərə başlamışıq, bu yolla gedəcəyik. Beləliklə də, Azərbaycan iqtisadiyyatı dünyanın iqtisadi cəhətdən inkişaf etmiş ölkələrinin, dövlətlərinin iqtisadiyyatına bağlanacaqdır.

Ümumiyyətlə, biz öz daxili siyasətimizdə çalışırıq ki, Azərbaycanın həm dövlət quruculuğu, həm cəmiyyətin təşkil edilməsi və həm də iqtisadiyyatın inkişafı dünya dövlətlərinin təcrübəsi əsasında olsun və beləliklə də Azərbaycan Respublikası dünya miqyasında öz layiqli yerini tuta bilsin.

Azərbaycanın xarici siyasəti sülhsevər siyasətdir. Biz bütün dünya ölkələri ilə bərabər hüquqlu, qarşılıqlı surətdə faydalı əlaqələr yaratmağa çalışırıq. Bu sahədə ilk addımlar atılıb, müəyyən nəticələr əldə edilib. Bilirsiniz ki, Azərbaycan 1992-ci ildə BMT-yə qəbul olunub, onun üzvüdür. Respublikamız bir çox beynəlxalq təşkilatların da üzvüdür və bu təşkilatlarda fəaliyyət göstərir, öz mövqelərini müdafiə edir. Bununla bərabər – xarici ölkələrlə Azərbaycan arasında iqtisadi, ticarət, elmi, texniki, mədəni, insani əlaqələrin

yaranmasına və inkişaf etməsinə çalışırıq. Bu sahədə bir çox işlər görülüb. Ancaq qarşıda görüləsi işlərimiz hələ çoxdur, vəzifələrimiz böyükdür.

Bildiyiniz kimi, biz Azərbaycanın qonşu dövlətlərlə əlaqələrini möhkəmləndirməyə çalışırıq. Şimalda olan qonşumuz Rusiyadır. Azərbaycan 200 ilə yaxın müddətdə Rusiyanın tərkibində olub. Ona görə də indi, [289-290] müstəqil olduğumuz dövrdə bu ölkə ilə iqtisadi, insani, elmi-texniki əlaqələrin qırılmasına yol vermək olmaz. Təəssüf ki, həmin əlaqələrin bir hissəsi artıq pozulub. Ancaq Azərbaycanın mənafelərini təmin etmək üçün bu əlaqələri bərpa edib inkişaf etdirmək lazımdır.

Qonşu Türkiyə ilə Azərbaycan arasında dostluq və qardaşlıq əlaqələri var. Bu, bizim tarixi keçmişimizlə bağlıdır, ənənəvi xarakter daşıyır, milli, dini mənsubiyyətimiz əsasında qurulur və bu əlaqələrin indən sonra da inkişaf etdirilməsi xarici siyasətimizdə görkəmli yer tutur.

İran Azərbaycanın böyük qonşusudur. İran ilə Azərbaycan arasında da əsrlər boyu çox sıx əlaqələr, dini, milli, mənəvi əlaqələr olub. Ənənələrimiz bir-birinə çox bənzərdir, yaxındır. Bunları və insani əlaqələrin çox geniş olduğunu nəzərə alaraq İran ilə Azərbaycan arasındakı əlaqələri inkişaf etdiririk və bu, bizim üçün çox önəmlidir.

Qonşumuz Gürcüstan Respublikası da bizim kimi, yenicə müstəqillik qazanmış bir dövlətdir. Bizim əlaqələrimiz normaldır və bu əlaqələri inkişaf etdirəcəyik.

Ermənistan ilə isə müharibə şəraitindəyik. Sizə bir daha çatdırmaq istəyirəm ki, bu müharibəyə biz başlamamışıq. Azərbaycan xalqı, Azərbaycan Respublikası bu müharibəyə cəlb olunmuşdur. Bunlar hamısı yalnız və yalnız Ermənistanın ölkəmizə qarşı hərbi təcavüzü nəticəsində baş vermişdir.

Azərbaycan dünyanın böyük dövlətləri ilə əlaqələr qurmağa və inkişaf etdirməyə çalışır, keçmiş Sovetlər İttifaqına mənsub olan, indi müstəqillik qazanmış dövlətlərlə MDB daxilində birgə fəaliyyət göstərir. Azərbaycanın bu birlikdə olması iqtisadi, ticarət əlaqələri üçün çox önəmlidir. Ona görə də biz bu birliyə daxil olmuşuq və orada öz yerimizi tutmuşuq. MDB-yə daxil olan keçmiş sovet respublikaları ilə əlaqələri inkişaf etdiririk.

Qərb ölkələri ilə, iqtisadi cəhətdən inkişaf etmiş və demokratik nailiyyətlər qazanmış böyük dövlətlərlə əlaqələr qurub inkişaf etdirmək bizim üçün çox vacibdir. Bu baxımdan Amerika ilə Azərbaycan arasında əlaqələrə çox yüksək qiymət veririk. Bu əlaqələrin inkişaf etdirilməsi üçün son vaxtlar xeyli iş görülmüşdür. Bilirsiniz ki, mənim Amerika Birləşmiş Ştatlarının dövlət xadimləri, xarici siyasətlə məşğul olan nümayəndələri ilə görüşlərim olub. Sentyabrın əvvəlində Qahirədə ABŞ-ın vitse-prezidenti cənab Albert Qor ilə görüşdüm. Ondan bir az öncə ABŞ Dövlət Departamentinin başçısı cənab Kristoferlə İstanbulda görüşmüşdüm. Bu ayın əvvəlində ABŞ prezidenti cənab Bill Klintonun şəxsi nümayəndəsi, onun kabinetinin üzvü, Milli Təhlükəsizlik Şurasının üzvü, ABŞ-ın BMT-də təmsilçisi xanım Olbrayt Bakıya gəlmişdi və onunla görüşlərimiz oldu. Nəhayət, sabah ABŞ prezidenti cənab Bill Klintonla da görüşüm olacaqdır. Bunlar hamısı Azərbaycanın ABŞ-la əlaqələrinin yaranmasına və inkişaf etməsinə həsr olunubdur. Güman edirəm ki, biz öz xarici siyasətimizi bu istiqamətdə aparacağıq. [290-291]

Bilirsiniz ki, cənab Fransua Mitteranın dəvəti ilə mənim Fransaya səfərim olub. Bu səfər zamanı Azərbaycan ilə Fransa arasında əməkdaşlıq, iqtisadi əlaqələri, dövlətlərarası əlaqələri inkişaf etdirmək haqqında bir çox sazişlər imzalanmışdır.

Sonra İngiltərənin baş naziri Con Meycorun dəvəti ilə İngiltərədə rəsmi səfərdə olmuşam. Londonda bu ölkə ilə Azərbaycan arasında bir çox mühüm müqavilələr imzalanmışdır.

Türkiyə Cümhuriyyətinin prezidenti cənab Süleyman Dəmirəlin dəvəti ilə mən Türkiyəyə rəsmi səfərə getmişdim. Türkiyə ilə Azərbaycan arasında əlaqələr əvvəllər də çox yaxşı idi. Ancaq bizim Ankaradakı görüşlərimiz bu əlaqələrin inkişaf etməsi üçün yeni bir mərhələ olmuşdur. Biz orada bir çox müqavilələr imzaladıq.

İran İslam Respublikasının prezidenti cənab Haşimi-Rəfsəncaninin dəvəti ilə mən İrana rəsmi səfərə getmişdim. Orada da Azərbaycan ilə İran arasında əlaqələrin inkişaf etdirilməsi üçün bir çox müqavilələr imzalanmışdır.

Dünyanın böyük dövlətlərindən olan ÇXR-in başçısının – respublikanın sədrinin dəvəti ilə mən bu ölkəyə rəsmi səfərə getmişdim. Azərbaycan ilə Çin arasında əlaqələrin yaradılması və inkişaf etdirilməsi üçün orada müəyyən müqavilələr imzalanmışdır. Bir çox başqa dövlətlərlə də əlaqələrimizin qurulması, inkişaf etdirilməsi üçün son vaxtlar mühüm tədbirlər görmüşük.

Azərbaycanın xarici siyasətində ən mühüm addımlardan biri də NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramına respublikamızın qoşulmasıdır. Bunun üçün mən mayın 5-də Brüsselə səfər etdim. NATO-nun Baş Qərargahında görüşlər keçirdim, bu proqrama imza atdım. Beləliklə, Azərbaycan "Sülh naminə tərəfdaşlıq" proqramına qoşuldu.

Dediyim kimi, Azərbaycan beynəlxalq təşkilatlarda da fəaliyyət göstərir və biz çalışırıq ki, fəaliyyətimiz uğurlu olsun, dövlətimizin mövqelərinin möhkəmlənməsinə yönəldilsin.

Azərbaycanın ən böyük problemi müharibə vəziyyətindən çıxmaqdır. Altı il davam edən müharibə nəticəsində, Ermənistan silahlı qüvvələrinin təcavüzkar hərəkətləri nəticəsində Azərbaycan Respublikası

ərazisinin 20 faizi işğal olunubdur və indi də Ermənistanın işğalı altındadır. Keçmiş Dağlıq Qarabağın ərazisi və Azərbaycanın daha yeddi rayonu – Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlı rayonları işğal olunmuşdur. Ağdam rayonunun çox hissəsi işğal olunub, bir hissəsi isə Azərbaycanın hakimiyyəti altındadır. Füzuli rayonunun da bir qismi işğal olunandan sonra geri qaytarılıb. Ancaq o birisi rayonlar tamamilə işğal altındadır. Bu məsələ respublikamız üçün ən ağır, ən çətin məsələdir.

Mən indi Azərbaycanın məğlubiyyətinin səbəblərini araşdırmıram, sizin vaxtınızı almaq istəmirəm. Ancaq bunun müəyyən obyektiv və subyektiv səbəbləri var. Obyektiv səbəblər ondan ibarətdir ki, Ermənistan bu təcavüzü edərək dünyanın bir çox ölkələri tərəfindən dəstək, kömək alır, beynəlxalq təşkilatlarda da müdafiə olunur. Subyektiv səbəblər [291-292] isə ondan ibarətdir ki, Azərbaycanda bu təcavüzün qarşısının alınması üçün ötən altı il müddətində lazımi tədbirlər görülə bilməyib. Azərbaycan xalqı o qədər də zəif deyil. Xalqımız əsrlər boyu həmişə öz torpağını qoruyub, öz milli azadlığını, qürurunu müdafiə edib və bu gün də müdafiə etməyə qadirdir. Ancaq keçmiş Sovetlər İttifaqının tərkibində olarkən Azərbaycana lazımi qayğı və yardım göstərilmədiyinə görə, respublikanın daxilində Azərbaycanın zərərinə olan bir çox proseslər baş verdiyinə görə Azərbaycan Respublikasının imkanları ona öz torpaqlarını müdafiə edib ərazisinin bütövlüyünü saxlamağa imkan verməyib.

İşğal olunmuş ərazilərimizdən bir milyondan artıq adam qaçqın düşmüşdür. Onlar çətin, ağır şəraitdə, çadırlar altında yaşayırlar. Bunlar hamısı Azərbaycanın sosial-iqtisadi vəziyyətini çox ağırlaşdırır. Buna baxmayaraq, xalqımız tam əmindir ki, bütün bu çətinliklərdən çıxacaq və Azərbaycan Respublikası müstəqil dövlət kimi öz ərazi bütövlüyünü təmin edəcəkdir.

Bildiyiniz kimi, keçən ilin noyabrında bu müharibədə müəyyən dönüş yaratmağa nail ola bildik. Bizim qoşunlarımız artıq əvvəlki kimi yox, böyük şücaətlə vuruşmağa başladılar. İşğal olunmuş torpaqların bir hissəsi geriyə qaytarıldı. Ancaq yenə də deyirəm. Ermənistana dünyanın hər yerindən o qədər kömək olunur ki, Azərbaycan öz torpaqlarını geri qaytarmaq ərəfəsində olarkən bunu görən və Ermənistanı dəstəkləyən qüvvələr təcavüzkara köməyi artırdılar və bizim o hücumumuz axıra çata bilmədi. Ona görə də biz çalışırıq ki, bu məsələni sülh yolu ilə həll edək.

Bu məqsədlə beynəlxalq təşkilatların imkanlarından istifadə etməyə çalışırıq. Deyə bilərəm ki, bir il müddətində bu sahədə çox işlər görülüb. Siz bilirsiniz ki, Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi ilə əlaqədar BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi olub. Bu qətnamələrdə tələb edilib ki, işğalçı Ermənistanın silahlı qüvvələri heç bir şərtsiz torpaqlarımızdan çıxsın. Ancaq Ermənistan tərəfi bunu icra etməyib və BMT Təhlükəsizlik Şurası da öz qətnamələrini yerinə yetirmək üçün əlavə tədbir görə bilməyib.

Bilirsiniz ki, ATƏM təşkilatı bu sahədə bizim problemlərlə məşğul olur. Bu təşkilatın tərkibində Minsk qrupu yaradılıbdır. Biz Minsk qrupunun başçısı cənab Yan Eliassonla dəfələrlə görüşmüşük, bu məsələlər Minsk qrupunda dəfələrlə müzakirə olunub. Biz çalışırıq ki, onların vasitəsilə məsələ həll edilsin.

Biz məsələnin sülh yolu ilə həll olunması üçün hər bir dövlətin imkanlarından istifadə etməyə çalışırıq. Rusiya bu barədə çox təşəbbüs göstərib, vasitəçilik etmək istəyir. Biz bu vasitəçilikdən də imtina etmirik, əksinə, ondan istifadə etmək istəyirik. Ancaq bir şərtlə: Azərbaycanın müstəqilliyinin, suverenliyinin qorunması şərti ilə.

Dörd aydan artıqdır ki, Ermənistanla Azərbaycan arasında silahlı toqquşma, müharibə dayandırılıb, atəşkəs rejimi davam edir. Atəşkəs rejimi bir tərəfdən Azərbaycan ilə Ermənistan arasında aparılan danışıqlar, digər tərəfdən Minsk qrupunun vasitəçiliyi, Rusiyanın vasitəçiliyi nəticə[292-293]sində əldə olunmuşdur. Biz atəşkəsə müvəqqəti sülh deyirik. Onu daimi sülhə çevirmək, tam sülh yaratmaq istəyirik. Çünki altı il ərzində gedən müharibə göstərir ki, bu müharibənin perspektivi yoxdur – Ermənistan üçün də, Azərbaycan üçün də yoxdur.

Biz Ermənistan torpaqlarını zəbt etmək fikrində deyilik, ancaq öz torpaqlarımızın da işğal altında saxlanmasına yol verə bilmərik. Ona görə də beynəlxalq təşkilatların imkanlarından, böyük dövlətlərin imkanlarından istifadə edərək, işğal olunmuş torpaqlarımızı sülh yolu ilə geri qaytarmağa çalışırıq. Bu barədə çoxlu danışıqlar aparılıb, bir neçə layihə var. Ancaq bu layihələrdə bizim tələblərimiz, şərtlərimiz tam əks olunmadığına görə onlar indiyədək həyata keçirilməyib.

Qısaca desək, Ermənistan tərəfi işğal olunmuş torpaqların bir hissəsini azad etməyə hazırdır. Ancaq burada bəzi məsələlər çox böyük mübahisə doğurur: onlar Laçın rayonunu azad etmək istəmirlər. Bizim üçün çox əziz olan qədim şəhərimiz, Azərbaycanın tarixi abidələr şəhəri Şuşanı da azad etmək istəmirlər. Ona görə də biz son vaxtlar Moskvada Rusiyanın xarici işlər naziri Kozırevin vasitəçiliyi ilə Ermənistan rəhbərləri ilə görüşdük.

Bu məsələlər barədə ABŞ-ın yüksək vəzifəli şəxsləri ilə görüşlərimdə də Azərbaycan Respublikasının mövqeyini qəti bildirmişəm və bu sahədə indi danışıqlar gedir. Biz çalışacağıq ki, Azərbaycanın mövqeləri müdafiə olunsun. Yenə də deyirəm, biz məsələnin sülh yolu ilə həll olunmasının tərəfdarıyıq.

Ancaq bir şərtlə. Şərt ondan ibarətdir ki, Ermənistan silahlı qüvvələri işğal olunmuş torpaqlarımızdan çıxmalı, Azərbaycan vətəndaşları öz evlərinə, obalarına, yaşadıqları yerlərə qayıtmalı, respublikamızın ərazi bütövlüyü, sərhədlərimizin toxunulmazlığı təmin edilməlidir. Yəni müstəqil Azərbaycan Respublikasının dövlət

suverenliyi təmin olunmalıdır. Biz bu şərtlər əsasında müharibəyə sülh yolu ilə son qoymağa çalışırıq. Altı illik müharibəyə baxmayaraq, Ermənistanla sülh yaradaraq qonşu dövlət kimi yaşamağa hazırıq. Ancaq bir də deyirəm, gərək bu şərtlərimiz qəbul olunsun. Biz həmin şərtlərdən geri çəkilmirik və çəkilməyəcəyik. Mən BMT Baş Məclisinin sessiyasındakı çıxışımda eyni zamanda burada dövlət başçıları ilə və başqa dövlət adamları ilə görüşlərimdə də bu şərtləri deyəcəyəm. Bu məsələ cənab Bill Klintonla görüşümdə də söhbətin əsas mövzularından biri olacaqdır.

Azərbaycan indi belə şəraitdə, belə vəziyyətdə yaşayır. Respublikamızın daxilində ictimai-siyasi vəziyyət sabitdir. Düzdür, bəzi qüvvələr bu sabitliyi pozmaq istəyirlər. Bilirsiniz ki, son üç-dörd ildə Azərbaycanda bir çox proseslər, hakimiyyət uğrunda mübarizə getmişdir, ayrı-ayrı qüvvələr hakimiyyətə gəlmək üçün Azərbaycana çox zərbələr vurmuşlar. Onların bəziləri indi də öz şəxsi mənafeləri naminə, niyyətlərini həyata keçirmək üçün daxili sabitliyi pozmağa çalışırlar. Ancaq Azərbaycan xalqı son illərdə çox böyük sınaqlardan çıxmışdır və sabitliyin pozulması[293-294]na imkan verməyəcək. Arxayın olun ki, biz Azərbaycanın daxilində ictimai-siyasi sabitliyi qoruyub saxlaya biləcəyik.

Bildiyiniz kimi, Azərbaycan böyük iqtisadi potensiala malikdir, onun zəngin təbii sərvətləri var. Əsrin əvvəlindən indiyədək sənaye və kənd təsərrüfatı sahəsində güclü potensial yaradılmışdır. Bundan istifadə etmək üçün çalışırıq ki, xarici ölkələrlə iqtisadi əlaqələri inkişaf etdirək. Ona görə də Azərbaycanın qapıları xarici ölkələrin şirkətləri üçün açıqdır. Biz Azərbaycanı dünyaya açıq dövlət kimi təqdim etmişik. Bu gün sizin qarşınızda bir daha təsdiq edirəm ki, Azərbaycan bazar iqtisadiyyatı, sərbəst iqtisadiyyat qurmaq əsasında irəliləyən açıq ölkədir. Xarici ölkələrin şirkətlərinin Azərbaycanda fəaliyyət göstərməsi, investisiyalar qoyması prosesi başlanmışdır və davam edəcəkdir.

Bu istiqamətdə gördüyümüz işlərdən biri də Xəzər dənizinin Azərbaycan sektorunda olan zəngin neft yataqlarının birgə işlənməsi barədə sentyabrın 20-də Bakıda Azərbaycan Dövlət Neft Şirkəti ilə xarici ölkələrin neft şirkətləri arasında müqavilə imzalanmasıdır. Bu, 30 il müddətinə bağlanmış böyük müqavilədir. Müqavilədə Amerikanın "AMOKO", "Yunokal", "Pennzoyl", "Makdermott" şirkətləri, İngiltərənin "Britiş Petroleum", Rusiyanın "LUKoyl", Norveçin "Statoyl" şirkətləri, Türkiyənin neft şirkəti iştirak edirlər. Son vaxtlar bu müqaviləyə Səudiyyə Ərəbistanının şirkəti də daxil olmuşdur. Həmin şirkətlər böyük bir konsorsium yaratmışlar.

Müqavilənin hazırlanması ilə bağlı üç ildən artıq müddətdə danışıqlar getmişdir. Həmin danışıqların müxtəlif mərhələləri olmuşdur. Ancaq son dövrdə – bu ilin əvvəlindən başlayaraq danışıqlar çox intensiv aparılmış və bunun nəticəsində, nəhayət, mən müqaviləni imzalamaq barədə qərar qəbul etdim. Bununla əlaqədar verdiyim fərman əsasında sentyabrın 20-də Bakıda çox təntənəli bir mərasim keçirildi. Həmin şirkətlərin prezidentləri və nümayəndə heyətləri, o cümlədən şirkətlərin mənsub olduqları dövlətlərin nümayəndə heyətləri Bakıya gəlmişdi. Amerika Birləşmiş Ştatlarından energetika nazirinin müavini cənab Uaytın başçılığı ilə böyük bir nümayəndə heyəti, İngiltərənin energetika naziri cənab Eqqar başda olmaqla nümayəndə heyəti, Türkiyənin dövlət naziri Nəcməddin Cövhərinin rəhbərliyi ilə nümayəndə heyəti, Norveç energetika nazirinin müavini başda olmaqla nümayəndə heyəti gəlmişdi. Mərasimdə Rusiyadan və Səudiyyə Ərəbistanından nümayəndə heyətləri də iştirak edirdi.

Bu müqavilənin imzalanması tarixi hadisədir, həmin sənəd "Əsrin müqaviləsi"dir və xarakterinə görə çox nadir müqavilədir. Belə müqavilələr adətən bir şirkət ilə başqa şirkət arasında, yaxud bir ölkə ilə digər ölkə arasında bağlanır. Bakıda isə Azərbaycan Dövlət Neft Şirkəti ilə xarici ölkələrin yeddi iri şirkəti arasında müqavilə imzalanmışdır. Başqa sözlə, Azərbaycanın iqtisadiyyatı həmin şirkətlərin təmsil etdikləri ölkələrlə bağlanır.

Ona görə də biz bu müqaviləni çox yüksək qiymətləndiririk və hesab [294-295] edirik ki, onun həyata keçirilməsi həm xarici ölkələrin şirkətləri, həm də Azərbaycan Respublikası üçün faydalı olacaqdır. Lakin müqavilənin ən əsas cəhəti ondan ibarətdir ki, Azərbaycan öz müstəqilliyini bir daha bütün dünyada sübut edir.

Azərbaycanda neft qədim vaxtlardan çıxarılır. Onun sənaye üsulu ilə çıxarılmasına 1847-ci ildən başlanmışdır. Ancaq o vaxtdan indiyədək Azərbaycan öz neftinin sahibi olmamışdır. Azərbaycan xalqının bu zəngin təbii sərvətdən özü üçün istifadə etməyə imkanı yox idi. İlk dəfədir ki, xalqımız, müstəqil Azərbaycan Respublikası öz təbii sərvətindən istifadə etmək üçün sərbəst surətdə qərar qəbul edərək belə bir müqavilə imzalamışdır. Ona görə də bu müqavilə Azərbaycanın müstəqilliyini bir daha nümayiş etdirir və göstərir ki, respublikamız müstəqil dövlət kimi yaşayır və öz taleyinə aid məsələlərin həllində heç kəs ona mane ola bilməz.

Bu müqavilə eyni zamanda Azərbaycanın dünya iqtisadiyyatına bağlandığını göstərir. 30 il müddətinə imzalanmış müqavilənin həyata keçirilməsi üçün 7,4 milyard dollar kapital qoyulacaqdır. Müqavilənin icrası ilə bağlı başqa böyük işlər də görüləcəkdir. Çıxarılan neftin xaricə göndərilməsi üçün boru kəməri çəkiləcək. Azərbaycanın infrastrukturunu inkişaf etdirməkdən ötrü mühüm tədbirlər həyata keçiriləcəkdir. Bir daha qeyd edirəm ki, bu müqavilə Azərbaycanın bazar iqtisadiyyatı, sərbəst iqtisadiyyat yolu ilə irəliləməsində mühüm hadisədir. Həmin müqaviləni alqışlayanlar da, istəməyənlər də var. Bu, təbii haldır. Güman etmək olmaz ki, belə bir böyük hadisəni hamı alqışlasın.

Hesab edirəm ki, bu müqavilə ilə bağlı əməkdaşlığımız, birgə işimiz Azərbaycan Respublikasının adlarını çəkdiyim ölkələrlə əlaqələrinin inkişaf etməsinə imkan yaradacaqdır. Lakin iqtisadi potensialımızın digər sahələri də var və bunlar başqa yollarla inkişaf etdiriləcəkdir. Bundan ötrü iqtisadi cəhətdən inkişaf etmiş, texnika, texnologiya sahəsində yüksək nailiyyətlər qazanmış ölkələrin şirkətlərinin Azərbaycana gəlməsinə, kapital qoymasına böyük ehtiyac var. Ona görə də fürsətdən istifadə edərək sizə yenə bildirmək istəyirəm ki, Azərbaycan açıq ölkədir, iş adamları buraya gələrək səmərəli iş görə bilərlər. Biz Azərbaycanın mənafeyini qorumaq əsasında hər bir şirkətlə iş görməyə hazırıq.

Əziz dostlar! Bugünkü görüşümüz mənim üçün çox əhəmiyyətlidir. Mən burada dostlarımızı, həmvətənlərimizi, müstəqil Azərbaycana hüsn-rəğbət bəsləyən, hörmət edən adamları görürəm. Görüşə gəldiyinizə görə hamınıza ürəkdən minnətdarlıq edirəm və hamınızı Azərbaycana dəvət edirəm. Qonaq gəlin, Azərbaycanın bugünkü vəziyyəti ilə tanış olun. Güman edirəm ki, həyatımız nə qədər çətin olsa da, Azərbaycanda yenə də görməli məsələlər var. Bunları görsəniz yaxşı olar. Hansı ölkədə yaşamağınızdan asılı olmayaraq, hamınıza qayğı göstərməyə hazırıq. Əmin ola bilərsiniz ki, Azərbaycanın müstəqilliyi möhkəmləndikcə, biz müharibədən çıxandan sonra suveren dövlət kimi Azərbaycan Respublikası xaric[295-296]dəki dostlarına, həmvətənlərinə daim qayğı göstərməyə, bu əlaqələri daha da möhkəmlətməyə və inkişaf etdirməyə çalışacaqdır.

Görüşümüzdə dost, qardaş Türkiyə Cümhuriyyətinin xarici işlər naziri, mənim dostum, hörmətli Mümtaz Soysal iştirak edir. Bizimlə birlikdə bu görüşə gəldiyinizə görə sizə təşəkkürümü bildirirəm. Sizə deyə bilərəm ki, mən buraya İstanbul yolu ilə gəlmişəm. İstanbulda hörmətli Mümtaz Soysal ilə və Türkiyə Cümhuriyyətinin bir necə digər dövlət nümayəndəsi ilə görüşüb söhbət etdik. Oradan da təyyarə ilə, birlikdə buraya gəldik.

Sağ olun, sizə demək istədiyim bunlardır. [296-297]

## YUNİSEF TƏŞKİLATINDA UŞAQLARIN HƏYATI, MÜDAFİƏSİ VƏ İNKİŞAFINA DAİR BMT BƏYANNAMƏSİNİN İMZALANMASI MƏRASİMİNDƏ ÇIXIŞ

*27 sentyabr 1994-cü il*

Mən çox məmnunam ki, YUNİSEF təşkilatı Azərbaycanda da fəaliyyətə başlamışdır və biz bunu yüksək qiymətləndiririk. Çünki uşaqların problemləri ilə məşğul olmaq və bu sahədə fəaliyyət göstərmək insanlar üçün çox xeyirxah bir tədbirdir. Uşaqların həyatına diqqət dünyanın gələcəyi ilə məşğul olmaq deməkdir. Belə fəaliyyət Azərbaycan üçün xüsusilə əhəmiyyətlidir. Çünki Azərbaycan müharibə vəziyyətindədir, onun ərazisinin 20 faizindən çoxu Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuşdur. Bir milyondan artıq adam qaçqındır ki, onların da xeyli hissəsi uşaqlardır. Onlar indi çadırlarda çətin vəziyyətdə yaşayırlar. Azərbaycanda ailələr çoxuşaqlıdır. Orta hesabla hər ailənin 4-5 uşağı var. Bu isə bir milyon qaçqından nə qədərinin uşaq olduğunu aydın göstərir.

YUNİSEF-in Azərbaycanda fəaliyyətinin genişləndirilməsinə böyük ehtiyac var. Ümumdünya miqyasında fəaliyyətinizə hörmət və ehtiramımı, Azərbaycanda gördüyünüz işlərə görə isə sizə təşəkkürümü bildirirəm. Bu bəyannaməni imzaladıqdan sonra bir daha ümidvar olduğumu bildirmək istəyirəm ki, Azərbaycanda fəaliyyətiniz daha da genişlənəcək və güclənəcəkdir. [297-298]

## ABŞ-ın KOLUMBİYA UNİVERSİTETİNİN HARRİMAN İNSTİTUTUNDA ÇIXIŞ

*28 sentyabr 1994-cü il*

İlk öncə məni dəvət etdiyinizə görə, sizinlə görüşərək bəzi fikir və mülahizələrimi bölüşdürmək imkanına görə məşhur Harriman İnstitutunun rəhbərliyinə minnətdarlığımı bildirmək istəyirəm. Axı, sizin institut və əlbəttə, buraya toplaşanlar keçmiş Sovet İttifaqının öyrənilməsi, yəni sovetologiya sahəsində mütəxəssislərdir. Ona görə də vaxtilə Sovet İttifaqının tərkibində olmuş Azərbaycan Respublikası, yəqin, sizin üçün maraq doğurur. Məni isə sizin Azərbaycan, onun bugünkü həyatı, müstəqil Azərbaycan Respublikasının hansı yolla getməsi barədə nə bildiyiniz maraqlandırır.

Təxminən üç il əvvəl, Sovet İttifaqı dağılanda dövlət istiqlaliyyəti qazanmış Azərbaycan bütün bu illər ərzində öz müstəqilliyini möhkəmləndirməyə, dövlət həyatını, ictimai və iqtisadi həyatın yeni prinsiplərini bərqərar etməyə çalışır. Ölkə demokratik, hüquqi, sivilizasiyalı dövlət qurmaq əzmindədir. Burada bütün sistemin, o cümlədən iqtisadi və sosial sahələrin demokratikləşdirilməsindən söhbət gedir. Bu baxımdan bizim strateji xəttimiz ölkənin dünya iqtisadi sisteminə daha yaxından inteqrasiya edə bilməsi üçün bazar iqtisadiyyatına, sərbəst iqtisadiyyata keçməyi nəzərdə tutur.

Bu yol Azərbaycan üçün, eləcə də keçmiş Sovet İttifaqının indi müstəqil dövlət olan respublikaları üçün asan yol deyildir. Burada bir sosial-iqtisadi sistemdən başqasına keçməkdən, yeni, tamamilə başqa bir dövlət qurmaqdan, yeni iqtisadi sistem yaratmaqdan və təbii ki, 70 il ərzində Sovet İttifaqının sosialist sisteminin, sosialist iqtisadiyyatının tərkibində olarkən formalaşmış psixologiyanın aradan qaldırılmasından söhbət gedir.

Azərbaycanda bütün bunları çətinləşdirən bir də odur ki, altı il əvvəl Dağlıq Qarabağda başlanmış münaqişə müharibəyə çevrilmiş və Azərbaycan Respublikasına, Azərbaycan xalqına çox böyük zərər vurmuşdur. Bu müharibə, təbii ki, erməni xalqına da çoxlu müsibətlər və bəlalar gətirmişdir. Yəqin təsəvvür edirsiniz, müharibə şəraitində ölkənin dövlət həyatında, sosial-siyasi, iqtisadi həyatında əsaslı dəyişikliklər aparmaq son dərəcə çətindir.

Bütün bu çətinliklərə baxmayaraq, Azərbaycan tutduğu yolla inamla irəliləyir və öz ölkəsinin istiqlaliyyətini axıradək qorumaq, siyasi, iqtisadi sahələrdə, dövlət quruculuğunda ardıcıl islahatlar aparmaq, mülkiyyət formalarının kökündən dəyişdirilməsi, dövlət mülkiyyətinin özəlləşdiril[298-299]məsi, sahibkarlığa sərbəstlik verilməsi ilə bağlı olan bazar iqtisadiyyatı prinsiplərini bərqərar etmək niyyətindədir. Respublika bu yoldan dönməyəcəkdir. Ölkədə demokratiyanın bir çox elementi bərqərar olmuşdur. Azərbaycanda qırxdan artıq partiya var, mətbuat, söz, şəxsiyyət azadlığı təmin edilmişdir. Azərbaycan çoxmillətli dövlətdir, milliyyətindən, dilindən və dinindən asılı olmayaraq bütün vətəndaşlar bərabər hüquqa malikdirlər. Şəxsiyyət azadlığının təmin olunmasına, insan hüquqlarının, vicdan azadlığının qorunmasına böyük əhəmiyyət verilir. Azərbaycan tutduğu yolla irəlilədikcə bütün bu prinsiplər dönməz xarakter alacaqdır.

Bunlar Azərbaycanın dünya ictimai-siyasi sisteminə yaxından qovuşmasına və beləliklə dünyanın inkişaf etmiş ölkələrinin demokratiya təcrübəsindən bəhrələnməsinə, dünya iqtisadiyyatına daxil olmasına, Dünya birliyində özünün layiqli yerini tutmasına imkan verəcəkdir.

Xarici siyasətdə respublika dünyanın bütün ölkələri ilə qarşılıqlı surətdə faydalı əməkdaşlıq etmək xətti götürmüşdür və bu sahədə xeyli iş görülmüşdür. Dünya sivilizasiyasının nailiyyətləri, ümumbəşəri dəyərlər respublikanın həyatının bütün sahələrində əksini tapır. Təbii ki, bütün bunlar Azərbaycan xalqının tarixinə, milli ənənələrinə, çoxəsrlik tarixi ərzində onun topladığı mənəvi, mədəni dəyərlərə əsaslanır.

Azərbaycan dünya üçün açıqdır və bu siyasət bütün sahələrdə həyata keçirilir. Azərbaycanın iqtisadiyyatına xarici investisiyaların cəlb olunması stimullaşdırılır və Azərbaycan özünün zəngin təbii sərvətləri, böyük iqtisadi potensialı ilə xarici şirkətlərin bir çoxunda maraq doğurmalıdır. Azərbaycanın neft yataqlarının birgə işlənməsi barədə sentyabrın 20-də Bakıda Azərbaycan Dövlət Neft Şirkəti ilə Amerika və Avropanın səkkiz şirkətinin daxil olduğu konsorsium arasında imzalanmış böyük müqavilə Azərbaycan Respublikasının bu istiqamətdəki qəti mövqeyinin aydın təzahürüdür.

Həmin müqavilə bir çox ölkədə, o cümlədən Amerika Birləşmiş Ştatlarında böyük maraq doğurur və informasiya orqanlarının məlumatından göründüyü kimi, ümumən razılıqla qarşılanır. Bir çoxları bunu "Əsrin müqaviləsi" adlandırır və onlar tamamilə haqlıdırlar, çünki bu, həqiqətən nadir sənəddir. Bu müqavilə iki şirkət və ya iki ölkə arasında bağlanmamışdır. Onu bir tərəfdən Azərbaycan Dövlət Neft Şirkəti, digər tərəfdən dünyanın ən iri neft şirkətləri – Amerikanın "AMOKO", "Pennzoyl", "Yunokal", "Makdermott" şirkətləri, Böyük Britaniyanın "Britiş Petroleum", Norveçin "Statoyl", Rusiyanın "LUKoyl", Səudiyyə Ərəbistanının "Delta" şirkətləri, Türkiyənin neft şirkəti imzalamışdır.

Səciyyəvi haldır ki, sənədin imzalanmasına neft şirkətlərinin mənsub olduqları ölkələrin dövlət orqanlarının bilavasitə aidiyyatı var. Bu, onu deməyə əsas verir ki, müqavilənin respublikamız üçün iqtisadi

əhəmiyyəti ilə yanaşı, Azərbaycan, Amerika Birləşmiş Ştatları, Böyük Britaniya, [299-300] Norveç, Türkiyə, Rusiya, Səudiyyə Ərəbistanı arasında sıx əlaqələr yaradılması baxımından da böyük əhəmiyyəti var.

Müqavilə imzalananadək bir neçə il danışıqlar getmişdir. Lakin son nəticədə o imzalanmışdır və həm Azərbaycan tərəfi üçün, həm də konsorsiumdan ötrü faydalı olacaqdır. Bu müqavilənin bizdən ötrü əhəmiyyəti bir də ondadır ki, biz Azərbaycanın xarici investisiyalar üçün açıq olmasını, Azərbaycan Respublikasının müstəqilliyini və xalqımızın həyatı və fəaliyyəti, o cümlədən özünün təbii ehtiyatlarından istifadə etməsi ilə bağlı məsələləri sərbəst həll etməyə qadir olmasını nümayiş etdiririk.

Respublika böyük iqtisadi potensiala – təbii ehtiyatlara, sənaye və kənd təsərrüfatı potensialına malikdir. Bir sözlə, Azərbaycanda iqtisadi əməkdaşlıq üçün geniş imkanlar vardır. Neft müqaviləsi birgə iqtisadi əməkdaşlıq etmək üçün digər iri şirkətlərin də Azərbaycana üz tutmasına şərait yaradacaqdır. Şübhəsiz ki, xarici investorlar ölkənin daxilindəki siyasi duruma böyük əhəmiyyət verirlər. Bütün çətinliklərə baxmayaraq, Azərbaycanda ictimai-siyasi vəziyyət sabitdir. Ölkə üçün ən çətin problem altı il ərzində davam edən müharibədir. Bu müddətdə həm Ermənistan tərəfi, həm də Azərbaycan onun perspektivsizliyinə, bu məsələni sülh yolu ilə həll etməyin zəruriliyinə əmin olmuşlar. Qeyd olunmuşdur ki, Azərbaycan sülh təşəbbüsü ilə çıxış etmişdir və indi də bu mövqedə durur. Bütün bu altı il ərzində ilk dəfədir ki, uzunmüddətli atəşkəsə nail olunmuşdur və o, dörd aydan artıq davam edir. Azərbaycan bu imkandan möhkəm sülhə nail olmaq və münaqişəyə tamamilə son qoymaq üçün istifadə etməyə çalışır.

Azərbaycana çox böyük maddi və mənəvi zərər dəyməsinə baxmayaraq, biz sülh təklif edirik. Yəqin sizə məlumdur, bu müharibə nəticəsində Ermənistan silahlı birləşmələri Azərbaycan ərazisinin 20 faizini işğal etmişlər. Buraya Dağlıq Qarabağın – Azərbaycanın keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin və həmin keçmiş vilayətin hüdudlarından kənarda olan daha yeddi rayonumuzun ərazisi daxildir. İşğal edilmiş həmin ərazilərdən bir milyondan çox azərbaycanlı qovulmuşdur və indi onlar son dərəcə ağır vəziyyətdə çadır şəhərciklərində yaşayırlar. Bu şəhərciklərdə ərzaq çatışmır, xəstəliklər yayılır, bir çox başqa sosial problemlər də qarşıya çıxır.

Ona görə də Azərbaycan sülh təklifi verərkən tələb edir ki, Ermənistan silahlı birləşmələrinin işğal etdiyi ərazilər azad olunsun və həmin yerlərin sakinləri öz yurdlarına qayıda bilsinlər. Əslində işğal olunmuş rayonlarda və şəhərlərdə hər şey tamamilə dağıdılmış, yandırılmışdır. İlkin hesablamalara görə, müharibə nəticəsində respublikaya təxminən 16 milyard Amerika dolları miqdarında maddi zərər dəymişdir. Sülh müqaviləsi yalnız Ermənistan silahlı birləşmələri Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarıldıqdan sonra bağlana bilər. Şübhəsiz ki, bundan sonra Dağlıq Qarabağın erməni əhalisinin təhlükəsizliyi məsələsini həll [300-301] etmək, Azərbaycan Respublikasının tərkibində Dağlıq Qarabağın statusunun müəyyənləşdirilməsini müzakirə etmək mümkündür.

Azərbaycanın dəfələrlə irəli sürdüyü və beynəlxalq təşkilatlarda baxılan bütün bu təkliflər beynəlxalq hüquq normalarına uyğun olaraq respublikamızın ərazi bütövlüyünü, sərhədlərinin toxunulmazlığını təmin etməyin zəruriliyi ilə bağlıdır. Müharibə regionda vəziyyəti son dərəcə gərginləşdirmiş və Azərbaycan ilə Ermənistan arasında qarşıdurmaya gətirib çıxarmışdır. Bütün bunları aradan qaldırıb sülh bağlamaq olar, gələcəkdə isə Azərbaycan ilə Ermənistan arasında mehriban qonşuluq münasibətləri üçün şərait yaratmaq mümkündür. Azərbaycan Respublikası münaqişənin sülh yolu ilə həll edilməsi barədə dəfələrlə təkliflər vermişdir. Bizim fikrimizcə, beynəlxalq təşkilatlar, Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasına, ATƏM-ə və onun Minsk qrupuna daxil olan ölkələr, habelə dünya siyasətinə böyük təsir göstərən ölkələr regionumuzda qan tökülməsinə son qoymaq və həm Azərbaycan, həm də erməni xalqlarının həyatı üçün sülh şəraiti təmin etməkdən ötrü səylərini birləşdirməlidirlər.

Müharibə ilə əlaqədar olaraq böyük itkilərə, ağır vəziyyətə baxmayaraq, mən gələcəyə nikbinliklə baxır və hesab edirəm ki, müstəqil Azərbaycan Respublikası bütün bu çətinlikləri aradan qaldırmaq və öz müstəqil gələcəyini təmin etmək iqtidarındadır.

Azərbaycan xalqı öz milli istiqlaliyyətini əldə etmişdir. Azərbaycan müstəqil dövlətdir və Dünya Birliyinə daxil olmuşdur. Odur ki, biz öz dövlətimizin müstəqilliyini də, öz xalqımızın milli azadlığını da qoruyacaq və möhkəmləndirəcəyik.

Harriman İnstitutu əməkdaşlarının Qara dəniz hövzəsində yerləşən dövlətlərin, o cümlədən də Azərbaycanın öyrənilməsinə dair sosial proqramlar hazırlamaq niyyətində olduqları barədə məlumata cavab olaraq bəyan edirəm ki, bu niyyəti alqışlayır və respublika belə bir proqramın işlənməsində yaxından iştirak etməyə hazırdır.

*Sonra Azərbaycan prezidenti ona göstərilən diqqətə görə təşəkkür etmiş, suallara cavab verməyə hazır olduğunu bildirmişdir.*

**Sual** : **Məlumdur ki, ATƏM-in vasitəçiliyi nəticəsində atəşkəs əldə edilmişdir. Bu da məlumdur ki, Rusiya təkid edir ki, bölgəyə gələcək sülhyaratma qüvvələri əsasən Rusiya qüvvələrindən ibarət olsun. Bundan əlavə, Rusiya bu yaxınlarda imzalanmış neft müqaviləsi ilə əlaqədar narazılığını bildirir, hərçənd konsorsiuma Rusiya şirkəti də daxildir. Rusiyanın çəkiləcək neft kəmərinin marşrutu məsələsi ilə**

**əlaqədar da etirazı var. Rusiya israr edir ki, bu neft kəməri onun ərazisindən keçsin... Rusiyanın Azərbaycanda və bütövlükdə Zaqafqaziyada oynadığı rol barədə fikrinizi bilmək istərdik.**

**Cavab** : Birinci çıxış edən başqalarını bu barədə sual vermək imkanından məhrum etdi. Sual kompleks xarakter daşıdığına görə, mən də ona kompleks şəkildə cavab verirəm. Bu ölkələrin həyatında Rusiyanın [301-302] nə kimi rol oynadığını bilmirəm, Rusiya MDB-nin tərkibindədir, buraya isə keçmişdə Sovet İttifaqı respublikaları olmuş 12 müstəqil dövlət daxildir. Şübhə yoxdur ki, Rusiya istər öz iqtisadi potensialına, istər əhalisinin sayına, istərsə də ərazisinə görə aparıcı dövlətdir. Əlbəttə, Rusiya böyük rol oynayır. Azərbaycan ilə Ermənistan arasında cari il mayın 12-də əldə olunmuş və bu günədək davam edən barışıq dediklərimə sübutdur. Bəli, bu, gərgin danışıqlarımızın, ən əvvəl, bilavasitə Ermənistan ilə Azərbaycan arasında danışıqların, ATƏM-in Minsk qrupunun vasitəçiliyinin, eləcə də Rusiya Federasiyasının fəal vasitəçiliyinin nəticəsidir. Ermənistan ilə Azərbaycan arasında münaqişənin tamamilə aradan qaldırılması, sülhyaratma qüvvələrindən istifadə edilməsi məsələsində ATƏM-in Minsk qrupu ilə Rusiya arasında müəyyən ziddiyyətlər var. Lakin mən belə düşünürəm ki, bu, hələ işin başlanğıcıdır. Buna görə də indi müəyyən bir qiymət vermək istəməzdim. Azərbaycan öz mövqelərində möhkəm durmuşdur. Biz Azərbaycanın ərazi bütövlüyünü təmin etməli, müharibəyə son qoymalı, insanlara sülh şəraitində yaşamaq imkanı verməliyik. Biz bundan ötrü beynəlxalq təşkilatların imkanlarından istifadə etməyə həmişə çalışmışıq və bu gün də çalışırıq. Bu məsələ ilə ATƏM-in və onun Minsk qrupunun fəal məşğul olduğuna görə biz onlara böyük ümidlər bəsləyirik. Lakin biz, əlbəttə, Təhlükəsizlik Şurasının üzvü olan böyük dövlətlərə də ümidlə müraciət edirik ki, bu məsələdə onlar da yaxından iştirak edəcəklər. Mən bu barədə Rusiya prezidenti Boris Yeltsinlə də dəfələrlə danışmışam. Mən bu barədə Amerika Birləşmiş Ştatlarının prezidenti cənab Bill Klintonla da görüş zamanı danışmışam.

O ki qaldı müqaviləyə, bu müqavilədə Rusiyanın "LUKoyl" şirkəti də iştirak edir və o, sanballı paya malikdir. Bu məsələ barəsində Rusiya Xarici İşlər Nazirliyinin mətbuat xidməti tərəfindən hər hansı bir bəyanat verilməsi yalnız təəccüb doğurur... Axı bu müqavilənin bağlanması haqqında danışıqlar üç ildən çox davam etmiş, Xəzərin Azərbaycana aid bölgəsində neft yataqlarının birgə istismarına dair 1993-cü ilin oktyabrında Rusiya və Azərbaycan hökumətləri arasında saziş imzalanmışdır. "LUKoyl" şirkətini bu konsorsiuma daxil etmək məsələsi də məhz onda həll olunmuşdur. Elə müqavilənin hazırlandığı bütün dövrdə, xüsusən hazırlığın yekun mərhələsində biz Rusiya tərəfindən heç bir etiraz almadıq. Mən hesab edirəm ki, müqavilə imzalanmışdır və o, yaşayacaq və fəaliyyət göstərəcəkdir.

Boru kəmərinin marşrutu məsələsi həm konsorsiumun özünün, həm də Azərbaycan Respublikasının müzakirə mövzusudur. Böyük layihələrin həyata keçirilməsinə maneçilik törətmək cəhdləri həmişə olur, bu cəhdlər indi də istisna deyildir. Zənnimcə, bu boru kəməri Azərbaycan Respublikasının milli mənafelərinə cavab verən, iqtisadi sərfəliliyi ilə fərqlənən və konsorsiuma daxil edilmiş neft şirkətlərinin marağına uyğun olan marşrutdan keçəcəkdir.

**Sual**: **Sizcə, Xəzər dənizinin yurisdiksiyası kifayət qədər aydın**[302-303]**dırmı, yoxsa Xəzəryanı dövlətlərin iştirakı ilə danışıqlar aparılmalıdır?**

**Cavab**: Ən əvvəl deyim ki, burada olan cənab Cek Metloku salamlamağıma şadam. O, keçmiş Sovet İttifaqında məşhur adamdır, Amerika Birləşmiş Ştatlarının çox şöhrətli səfiridir. O, Azərbaycanda da məşhurdur.

Xəzər dənizinin hüquqi prinsiplərini müəyyənləşdirən heç bir beynəlxalq sənəd yoxdur. Keçmiş Sovet İttifaqında Xəzər ölkənin bir növ daxili dənizi sayılırdı, hərçənd SSRİ-dən başqa İran da onun sahillərində yerləşir. Dənizdəki neft yataqlarının istismarı ilə əlaqədar o vaxtlar Sovet İttifaqı ilə İran arasında heç bir ziddiyyət olmamışdır. Xəzərdə iri neft yataqları 45 il bundan əvvəl kəşf edilmiş və bu yataqlar o dövrdən bəri Azərbaycan alimləri, neftçiləri tərəfindən işlədilir. Bu yataqlar Xəzərin Azərbaycan sahilinə yaxındır. Sovet İttifaqı parçalandıqdan və onun tərkibinə daxil olmuş respublikalar müstəqillik əldə etdikdən sonra Azərbaycan, Türkmənistan, Qazaxıstan və Rusiya dənizdə işləri davam etdirmişlər. Təbiidir ki, hərə, necə deyərlər, öz sahəsində. Əgər indi Xəzər dənizinin hansısa bir hüquqi statusunu hökmən müəyyənləşdirmək məsələsi qaldırılarsa, bu, əlbəttə, müzakirə mövzusu ola bilər. Lakin belə düşünürəm ki, Xəzər dənizinin sahillərində yerləşən dövlətlərdən heç birisi başqa dövlətə hökm etmək, öz iradəsini qəbul etdirmək hüququna malik deyildir. Xəzər dənizinin Azərbaycana aid bölgəsi şərti olaraq çoxdan müəyyən edilmişdir. Sovet İttifaqı parçalandıqdan və həm Azərbaycan, həm də Türkmənistan müstəqillik əldə etdikdən sonra neftçilərimiz Xəzərin Türkmənistan sahillərinə yaxın olan yataqlardan çıxıb getmişlər. İndi həmin yataqlarda işləri Türkmənistan neftçiləri aparırlar. Həm də nə bizim onlara iddiamız var, nə də onların bizə.

Buna görə də biz müqaviləni həyata keçirəcəyik. Əgər kimsə Xəzər dənizinin statusuna baxılmasını çox istəyirsə, biz buna hazırıq, lakin bu, imzalanmış müqavilənin həyata keçirilməsinə mane olmaq üçün heç kimə haqq vermir.

**Sual**: **Konqres tərəfindən 1993-cü ildə qəbul olunmuş və Azərbaycana dövlət səviyyəsində humanitar yardım göstərilməsini qadağan edən düzəliş barəsində siz nə fikirdəsiniz?**

**Cavab**: Təəssüflənirəm ki, bizim bölgəmizdə vəziyyət barəsində, xüsusən Azərbaycanda vəziyyət barəsində Amerika Birləşmiş Ştatlarında kifayət qədər tam və obyektiv informasiya yoxdur. Azərbaycan ilə

Amerika Birləşmiş Ştatları arasında yaxşı münasibətlər yaranmışdır, biz bu münasibətlərin daha çox möhkəmlənməsi istiqamətində addımlar atırıq. Biz ABŞ-ın Azərbaycandakı səfirliyi ilə daim əlaqə saxlayırıq, Amerika Birləşmiş Ştatlarının rəhbər xadimləri ilə bir sıra görüşlər olmuşdur. Bütün bunları biz qiymətləndirir və dövlətlərarası münasibətlərimizin daha da inkişaf etdirilməsi imkanı kimi nəzərdən keçiririk. Lakin çox istərdik ki, Amerika Birləşmiş Ştatlarının həm ictimaiyyəti, həm də kütləvi informasiya vasitələri Ermənistan ilə Azərbaycan arasında münaqişənin [303-304] səbəbləri və vəziyyəti barədə, Azərbaycanda real vəziyyət barədə obyektiv informasiyaya malik olsunlar.

Bəlkə də, Amerika Birləşmiş Ştatları ictimaiyyətinin birtərəfli məlumat alması ölkənizdə bizim kifayət qədər imkanlarımızın olmaması ilə bağlıdır... Mən sizdən, yüksək nüfuzlu institutun əməkdaşlarından xahiş edirəm ki, Azərbaycan haqqında həqiqəti yayasınız. Biz bundan artıq heç nə istəmirik. Biz sizin hər birinizlə görüşməyə hazırıq, hər birinizi Azərbaycanın qonağı kimi qəbul edərik, təki siz həyatımızla tanış ola biləsiniz, obyektiv informasiya ala biləsiniz. Mən burada professor Svyatixovski ilə görüşməyimə şadam və onu salamlayıram. O, Azərbaycanda özünün məhz obyektivliyi, ədalətliliyi və doğruçuluğu ilə məşhurdur. İstərdik ki, Azərbaycanın ABŞ-da belə dostları çox olsun.

O ki qaldı Konqresin Azərbaycan barəsində qəbul etdiyi maddəyə, zənnimcə, sübuta yetirməyə ehtiyac yoxdur ki, bu, ədalətsiz, qeyri-humanist qərardır. Mənim Konqresi günahlandırmağa əsaslarım yoxdur, lakin hesab edirəm ki, bu qərarın lehinə səs vermiş olan Konqres üzvləri hadisələrin real vəziyyətini sadəcə olaraq bilməmişlər, kimsə onları aldatmışdır. Təcavüzə məruz qalan, ərazisinin 20 faizi işğal olunan Azərbaycan barəsində bu cür qərar qəbul etmək ona qarşı ayrı-seçkilik deməkdir. Mən öz torpağında qaçqınlara çevrilən azərbaycanlılardan danışdım. Konqresin bu cür qərar qəbul etməsi üçün formal əsas bu olmuşdur ki, guya Azərbaycan Ermənistan Respublikasını blokadada saxlayır. Halbuki Azərbaycanın özü blokada vəziyyətindədir. Deməliyəm ki, sərhədimizin 120 kilometri erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir, bu sərhəd boyunca isə kommunikasiya xətləri – dəmir yolu, şose yolları keçir. Azərbaycanın Ermənistanla sərhədinin həmin hissəsinə erməni silahlı birləşmələri nəzarət edirlər. Vəziyyət belə olan halda, biz kommunikasiyaları necə təmin edə bilərik? Axı onlar bizim əlimizdə deyildir.

Onu da demək istəyirəm ki, Azərbaycanın Şimal ilə, yəni Rusiya ilə əlaqəsini təmin edən dəmir yolu Çeçenistanda baş verən hadisələr nəticəsində iki aydan çoxdur bağlıdır, buna görə də əslində bütün respublikamız blokada vəziyyətindədir. Konqresin qərarının nə dərəcədə ədalətli olduğu barədə siz özünüz nəticə çıxara bilərsiniz. Sizdən bir xahişim var ki, ABŞ-ın bir çox dövlət xadimlərinin ədalətsiz hesab etdikləri bu qərarın ləğv olunmasında bizə kömək göstərəsiniz.

**Sual**: **Avropa-Asiya konfederasiyaları yaradılması haqqında Qazaxıstanın təklifi ilə əlaqədar MDB strukturlarının yenidən qurulması məsələsində Azərbaycanın mövqeyi necədir?**

**Cavab**: Müstəqil Dövlətlər Birliyi kimi, MDB tam şəkildə hələ formalaşmamışdır. Bəzi proseslər gedir ki, onlar da qeyri-müəyyənlik şəraiti yaradır. Buna görə də belə birlik formasından əməli nəticələr əldə etmədən strukturların yenidən qurulması ilə məşğul olmağa başlamaq, məncə, hələ tezdir. Siz bilirsiniz ki, Azərbaycan MDB-nin tərkibinə cəmi bir ildir, ötən ilin sentyabrında daxil olmuşdur. Biz MDB-də iştirakımızın [304-305] əməli nəticələrini hələ hiss etməmişik. Odur ki, indi birliyin hər hansı digər formasını yaratmağa başlamaq zənnimcə, məqsədəuyğun deyildir. Hələ gərək baxıb görəsən ki, bu birlik nə verir.

Çıxışımın sonunda görüşün təşkilatçılarına təşəkkür edirəm. Azərbaycan ilə Amerika Birləşmiş Ştatları arasında bütün istiqamətlərdə və bütün sahələrdə münasibətlərin möhkəmlənəcəyinə əmin olduğumu bildirirəm və görüşün iştirakçılarına onların böyük və nəcib fəaliyyətində uğurlar arzulayıram. [305-306]

## BMT BAŞ MƏCLİSİNİN 49-cu SESSİYASINDA ÇIXIŞ

*29 sentyabr 1994-cü il*

Hörmətli cənab sədr!
Hörmətli cənab baş katib!
Xanımlar və cənablar!

Hər şeydən əvvəl icazə verin, BMT Baş Məclisi 49-cu sessiyasının sədri vəzifəsinə seçilməsi münasibətilə Amar Essi cənablarını təbrik edim və ona fəaliyyətində uğurlar arzulayım. Həmçinin ötən sessiyanın sədri cənab Samuel İnsanelliyə də gördüyü işə görə təşəkkürümü bildirmək istəyirəm.

BMT-nin baş katibi, zati-aliləri Butros Qali cənablarına bütün dünyada sülhün və təhlükəsizliyin möhkəmləndirilməsinə yönəlmiş yorulmaz səylərinə görə təşəkkürümü bildirirəm.

Mən öz tarixinin çətin dövrünü yaşayan gənc dövlətimizin problemlərinə diqqətlə yanaşdığına görə ona xüsusən minnətdaram.

Xanımlar və cənablar!

Ən mötəbər beynəlxalq məclisin tribunasından sizin qarşınızda həyəcan və qürur hissi ilə çıxış edirəm. İlk dəfədir ki, müstəqil Azərbaycanın Prezidenti Dünya Birliyi tərəfindən tanınmaz və bərqərar hüquqlarla onun tərkibinə daxil olmuş öz ölkəsini Dünya Birliyinə təqdim edir.

Azərbaycan xalqı əsrlərlə azadlığa can atmışdır. Sovet İttifaqı dağıldıqdan sonra o, milli müstəqillik qazanmışdır. Bizim respublikamız qətiyyətlə hüquqi, demokratik, sivilizasiyalı dövlət quruculuğu yolunu tutmuşdur. Bütün bunlar mürəkkəb prosesdir, bir günün işi deyil, lakin biz qarşıya qoyulmuş məqsədə doğru ardıcıl surətdə irəliləyirik və qısa bir dövr ərzində çox işlər görülmüşdür, hüquqi demokratik cəmiyyətin formalaşdırılması üçün hər cür şərait yaradılmışdır. Respublikamızda artıq çoxpartiyalı sistem mövcuddur, siyasi plüralizm, şəxsiyyət, söz, mətbuat, vicdan azadlıqları, insan hüquqlarının müdafiəsi və qanunun aliliyi prinsipləri möhkəm bərqərar olmuşdur. Dərisinin rəngindən, din və dil mənsubiyyətindən asılı olmayaraq, çoxmillətli Azərbaycanın bütün vətəndaşları bərabər hüquqlardan istifadə edirlər.

Siyasi dəyişikliklər ölkənin demokratikləşdirilməsi, bazar münasibətlərinə keçidi təmin edən dərin iqtisadi islahatlar aparılması üçün şərait yaratmışdır. Biz sərbəst sahibkarlığın inkişafını, şəxsi təşəbbüskarlığı hər vasitə ilə təşviq edirik, ümumbəşəri sərvətlərə əsaslanan dünya təcrübəsindən, sivilizasiyalı, çiçəklənən demokratik cəmiyyət quruculuğunda [306-307] böyük uğurlara nail olmuş qabaqcıl dünya ölkələrinin təcrübəsindən istifadə edərək genişmiqyaslı özəlləşdirmə proqramının həyata keçirilməsinə başlayırıq.

Biz bir çox dövlətlərin böyük marağını doğuran ərazidə – Avropa və Asiyanın mühüm coğrafi-siyasi qovuşuğunda yerləşərək, geniş təbii ehtiyatlara və böyük sənaye potensialına malik olaraq, Azərbaycan xalqının qəti əzminə və inamına arxalanaraq öz müstəqilliyimizin möhkəmləndirilməsinə və demokratik islahatların, bazar islahatlarının həyata keçirilməsinə doğru yönəldilmiş bu strateji xətti aparırıq. Bu gün mən bu yüksək tribunadan qətiyyətlə bildirirəm ki, heç kəs Azərbaycan xalqını tutduğu yoldan geri çəkilməyə məcbur edə bilməz və biz ölkəmizin gələcəyinə nikbinliklə baxırıq.

Bizim nikbinliyimiz dünyada baş verən tarixi proseslərlə, beynəlxalq münasibətlər sistemindəki ciddi dəyişikliklərlə də bağlıdır. Şübhəsiz ki, artıq hərbi cəbhələşməni və ideoloji qarşıdurmanı əvəz etməkdə olan bərabərhüquqlu dünya qaydası beynəlxalq münasibətlər sisteminin gələcək əsasını təşkil edəcəkdir. Beynəlxalq hüquqa, Birləşmiş Millətlər Təşkilatı Nizamnaməsinin prinsiplərinə və məqsədlərinə uyğun olaraq tərəfdaşlıq, möhkəm sülh və hamı üçün təhlükəsizlik yeni dünya qaydasının fundamental prinsiplərinə çevrilir. Biz zor işlədilməsinə əsaslanan düşmənçilik dünyasından əməkdaşlıq və tərəqqi dövrünə aparan tunelin axırında işıq görürük və bu yol ilə birlikdə, dünyanın bütün ölkələri və xalqları ilə birlikdə, dünyanın bütün ölkələri və xalqları ilə əl-ələ verib getməyə hazırıq.

Lakin bəşəriyyət qarşısında duran təhlükələr hələ heç də tamamilə aradan qaldırılmamışdır. Hələ də köhnə stereotiplər mövcuddur, on illərlə davam etmiş qarşıdurma dövrü ərzində yığılıb qalmış çoxsaylı problemlər, xüsusən tərksilah, kütləvi qırğın silahının məhv edilməsi sahəsindəki problemlər aradan qaldırılmamışdır. İqtisadi imkanları müxtəlif olan dövlətlərin münasibətləri də əvvəlki kimi, yenə də keçmişin bəlalarına düçar olmuşdur. Zaman ekoloji təhlükələr, əhali və inkişaf problemləri ilə əlaqədar bizi yeni-yeni sınaqlara çəkir.

Köhnə dünya qaydasının pozulmasının reallıqlarına çevrilmiş azğın millətçilik və separatçılıq Qafqazı, Balkan yarımadasını, Yer kürəsinin başqa nöqtələrini od-alova və qana bürüyən münaqişələr doğurmuşdur. Bu münaqişələr nəinki müstəqil dövlətlərin inkişafını ləngidir, hələ möhkəmlənməmiş demokratik cəmiyyətlərin varlığı üçün birbaşa təhlükə doğurur, həm də bütün dünyada sülh və təhlükəsizlik üçün qorxu yaradır.

Buna görə də cəbhələşmədən sonrakı dünyada nüfuzlu beynəlxalq təşkilatların, böyük dövlətlərin üzərinə xüsusi məsuliyyət düşür. Onlar öz siyasi sanbalından, iqtisadi, maliyyə və hərbi imkanlarından istifadə edərək

münaqişələrin aradan qaldırılmasına, Yer üzünün bütün guşələrində sülhün, sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsinə öz potensialını daha fəal yönəltməlidirlər.

Gələn il özünün 50 illiyini qeyd edəcək Birləşmiş Millətlər Təşkilatı, [307-308] bir sıra münaqişələrin və böhran vəziyyətlərinin aradan qaldırılmasında təcrübəyə malik olan Təhlükəsizlik Şurası yeni dünya qaydasının qurulmasında, şübhəsiz ki, aparıcı rol oynayır. Lakin Təhlükəsizlik Şurası qarşısında hələ çətin sınaqlar durur: yeni şəraitdə öz səmərəli fəaliyyətini Dünya Birliyinə sübut etmək. Bu gün Təhlükəsizlik Şurası öz qətnamələrinin təminatlı şəkildə yerinə yetirilməsinə nail olmaqla həmişəkindən daha çox əzmkarlıq göstərməlidir. Ümid edirik ki, Şuranın tərkibinin genişləndirilməsi onun möhkəmləndirilməsinə kömək edəcəkdir.

Biz Baş Məclisin roluna böyük əhəmiyyət veririk. Bu rolu hər şeydən əvvəl onda görürük ki, qarşılıqlı güzəştlərə və mənafelərin tarazlığına əsaslanan qərarlar qəbul edilərkən dövlətlərin ən sıx qarşılıqlı fəaliyyəti təmin edilsin.

İndiki şəraitdə BMT baş katibinin öz səlahiyyətlərindən səmərəli istifadə etməsinin, habelə beynəlxalq sülhün və təhlükəsizliyin möhkəmləndirilməsində baş katib ilə birlikdə məsuliyyət daşıyan üzv dövlətlərin ona göstərməli olduqları köməyin əhəmiyyəti də artır.

Bütövlükdə Azərbaycan Respublikası gələcək üçün BMT-nin perspektivlərini nikbinliklə qiymətləndirir və bundan sonra da Birləşmiş Millətlər Təşkilatının yüksək prinsiplərini müdafiə etmək, təşkilatın nüfuzunun səmərəsinin artırılmasına nail olmaq əzmindədir.

Hörmətli xanımlar və cənablar!

Sizin bir çoxunuza "müharibə", "silahlı münaqişə" məfhumları xoşbəxtlikdən, tarixi və ya evinizdən uzaqda baş verən hadisələri xatırladırsa, mənim xalqım üçün bu, amansız reallıq, qanlı-qadalı adi günlərdir.

Altı ildir ki, Azərbaycan torpağını müharibə alovu bürüyüb. Ermənistan Respublikası Azərbaycan Dağlıq Qarabağ regionunda yaşayan ermənilərin etnik qrupunun öz müqəddəratını təyin etmək hüququnu reallaşdırması bəhanəsi ilə dövlətimizin ərazilərinin ilhaqı, onun dövlət sərhədlərinin zorakılıqla dəyişdirilməsi və azərbaycanlı əhalinin öz doğma ev-eşiyindən qovulması planlarını açıq-aşkar həyata keçirir.

Bütün bunlar xalqların öz müqəddəratını təyin etməsi hüququnun əsassız olaraq hər hansı bir etnik icmanın öz müstəqilliyini özbaşına elan etmək və başqa dövlətin tərkibinə daxil olmaq hüququ kimi yozulması ilə pərdələnir. Öz müqəddəratını təyin etmək hüququnun bu cür yozulması dövlətin suverenliyi və ərazi bütövlüyü prinsipləri ilə kəskin ziddiyyət təşkil edir. Bu hüququ mütləqləşdirmək sahəsində hər hansı bir cəhd amansız münaqişələrə gətirib çıxarır. Biz regionumuzda və planetimizin başqa guşələrində bunun şahidi olmuşuq.

BMT-nin baş katibi cənab Butros Qali də bu məsələ ilə əlaqədar öz narahatlığını bildirmişdir. "Əgər hər bir etnik, dini və ya linqvistik qrup dövlətçilik tələb etsə, onda bölgünün həddi olmayacaq və dünyada sülhün, təhlükəsizliyin və iqtisadi firavanlığın əldə edilməsi daha çətin olacaqdır".[308-309]

Mən hörmətli Butros Qalinin belə bir fikri ilə də tam şərikəm ki, "təşəkkül tapmış beynəlxalq sistem çərçivəsində xalqların öz müqəddəratını təyin etməsi və dövlətlərin suverenliyi, ərazi bütövlüyü və müstəqilliyi kimi eyni dərəcədə qiymətli və mühüm olan məsələlərin bir-birinə ziddiyyət təşkil etməsinə yol vermək olmaz".

Regionumuzda baş verən hadisələr haqqında dünya ictimaiyyətinin kifayət qədər məlumatlı olmadığını, bəzi hallarda işə birtərəfli məlumatı olduğunu bilərək sizi real vəziyyətlə qısaca tanış etmək istərdim. Ermənistan Respublikası Azərbaycanın Dağlıq Qarabağ regionunun ərazisində qoşun qruplaşması yaradaraq respublikamıza qarşı fəal döyüş əməliyyatları aparmışdır. Şuşa şəhəri və Laçın rayonu işğal edildikdən sonra Dağlıq Qarabağın ilhaqı başa çatdırılmış, Dağlıq Qarabağda yaşayan təxminən 50 min azərbaycanlı oradan qovulmuşdur. Erməni silahlı birləşmələri Dağlıq Qarabağ platsdarmından istifadə edərək bundan sonra hücumun gedişində Azərbaycanın digər altı rayonunu – keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin hüquqlarından Laçın rayonu kimi kənarda olan və sahəsi keçmiş vilayətin sahəsindən dörd dəfə çox olan Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl və Qubadlı rayonlarını işğal etmişlər.

Təcavüz nəticəsində Azərbaycan ərazisinin 20 faizindən çoxu Ermənistan Respublikasının silahlı qüvvələri tərəfindən işğal edilmişdir. Mən Azərbaycan tərəfinin dəhşətli itkilərini sizə deməliyəm: 20 mindən çox adam həlak olmuşdur, 100 minə yaxın adam yaralanmış və xəsarət almışdır, 6 min adam əsir düşmüşdür, bir milyondan çox azərbaycanlı – ölkə əhalisinin təxminən 15 faizi qaçqın vəziyyətinə düşmüşdür və çadır şəhərciklərində yaşayır. Onlar öz vətənində evsiz-eşiksiz qalmışlar, yayın istisindən, qışın soyuğundan, epidemiyalardan əzab çəkirlər, ən zəruri şeylərə ehtiyac duyurlar. Azərbaycanın işğal edilmiş ərazilərində 700 şəhər və kənd dağıdılmışdır. Həmin şəhər və kəndlərdə demək olar, bütün evlər, məktəblər, xəstəxanalar yandırılmış və talan edilmiş, qədim mədəniyyət abidələri məhv edilmişdir.

Zənnimcə, sübut etməyə ehtiyac yoxdur ki, belə bir vəziyyətdə biz "öz müqəddəratını təyin etmək hüququnun həyata keçirilməsi" ilə deyil, beynəlxalq hüququn kobudcasına pozulması ilə, BMT üzvü olan dövlətin suverenliyinə, ərazi bütövlüyünə və siyasi müstəqilliyinə qarşı təcavüzlə qarşılaşmışıq.

Müharibə xalqımı dözülməz vəziyyətə salır, sosial gərginliyi gücləndirir, Azərbaycan cəmiyyətinin demokratikləşdirilməsinə yönəldilmiş iqtisadi və siyasi islahatların həyata keçirilməsinə mane olur.

Müharibə nəticəsində Azərbaycan xalqına milyardlarla Amerika dolları məbləğində çox böyük maddi ziyan vurulmuşdur. İnsan talelərinə vurulmuş mənəvi ziyan, xalqın dərd-bəlası isə heç nə ilə ölçülməzdir.

Bu gün təkcə Azərbaycanda deyil, dünyanın digər qaynar nöqtələrində də qan tökülür. Xalqlar müharibə gedən yerlərdə baş verən [309-310] faciəli hadisələrə biganə qalmamalıdırlar. Silahlı münaqişələrin güclənməsinə yol verməmək, onların ədalətlə və qəti şəkildə aradan qaldırılmasına nail olmaq üçün kollektiv səylərlə hər şey etmək lazımdır.

Xanımlar və cənablar!

Ermənistan Respublikasının silahlı qüvvələri tərəfindən Azərbaycan ərazilərinin işğal edilməsi ilə əlaqədar son iki il ərzində Təhlükəsizlik Şurasının 4 qətnaməsi və onun sədrinin 6 bəyanatı qəbul edilmişdir.

Bütün qətnamələrdə Təhlükəsizlik Şurası Azərbaycan Respublikasının suverenliyini və ərazi bütövlüyünü təsdiq edir, ərazi ələ keçirmək üçün zor tətbiq edilməsinin yolverilməzliyini qeyd edir, Azərbaycanın işğal edilmiş bütün rayonlarından bütün işğalçı qüvvələrin dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılmasını, qaçqınların daimi yaşayış yerlərinə qaytarılmasını qətiyyətlə tələb edir.

Lakin bütün bu qərarlara Ermənistan Respublikası hələ də qətiyyən məhəl qoymur. Bundan əlavə o, Azərbaycanın işğal edilmiş ərazilərində öz hərbi qüvvələrini artırmaqda davam edir.

Digər tərəfdən, Təhlükəsizlik Şurası da qəbul edilmiş qətnamələrin mexanizmini işə salmamışdır. Belə bir sual meydana çıxır: Təhlükəsizlik Şurası nə dərəcədə ardıcıl və qətiyyətlidir, hər bir konkret halda onun səlahiyyətlərinin tətbiq dərəcəsi nə ilə müəyyən edilir?

Təhlükəsizlik Şurasının qərarlarının yerinə yetirilməməsi BMT-yə qarşı işləyir və onun beynəlxalq sülhü və təhlükəsizliyi qoruyub saxlamaq kimi əsas vəzifəsini yerinə yetirmək bacarığına inamı poza bilər.

Regional münaqişələrin aradan qaldırılmasında toplanmış təcrübə göstərir ki, qətnamələrin yerinə yetirilməsi sahəsində səylər yalnız BMT Nizamnaməsi ilə nəzərdə tutulmuş qətiyyətli tədbirlərlə möhkəmləndirildikdə müvəffəqiyyət gətirir.

Beynəlxalq hüquq normalarını kobud surətdə pozan dövlət barəsində təsirli tədbirlər çox nüfuzlu beynəlxalq təşkilatın Dünya birliyi qarşısında borcudur.

Ermənistan-Azərbaycan münaqişəsinin aradan qaldırılması üçün göstərilən səylərlə biz ATƏM kimi nüfuzlu təşkilata da bel bağlayırıq. Ermənistan-Azərbaycan münaqişəsinin aradan qaldırılması üçün ATƏM-in yaratdığı Minsk qrupu da işğal edilmiş bütün ərazilərin azad olunması və işğalçı qüvvələrin Azərbaycanın hüquqlarından tamamilə çıxarılması, onun suverenliyinə, ərazi bütövlüyünə və beynəlxalq miqyasda tanınmış sərhədlərinə hörmət edilməsi zəruriliyinə əsaslanır.

Lakin ATƏM-in müvafiq mexanizmləri olmadığından onun çoxsaylı vasitəçilik səyləri, təəssüf ki, indiyədək hər hansı bir nəzərəçarpacaq konkret nəticələrə gətirib çıxarmamışdır. Bu gün biz yalnız bir müsbət nəticə əldə etmişik: Rusiya Federasiyasının və ATƏM-in Minsk qrupunun çox böyük səyləri bahasına və fəal vasitəçilik missiyası sayəsində münaqişə zonasında atəşkəs əldə olunmuşdur. [310-311]

Dörd aydan çoxdur ki, atəş səsləri eşidilmir, qan tökülmür. Bütün bunları biz yüksək qiymətləndiririk. Lakin vəziyyət hər halda son dərəcə mürəkkəb olaraq qalır, atəşkəs isə olduqca kövrəkdir.

Ermənistan Respublikası Azərbaycanın işğal edilmiş ərazilərinin bir hissəsini Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunun müstəqillik statusu ilə dəyişdirmək kimi əsassız şərtlər irəli sürür. O, Azərbaycanın bu regionunda öz hərbi qüvvələrinin qalmasını və Azərbaycanın Şuşa şəhəri və Laçın rayonu üzərində nəzarətinin saxlanmasını tələb edir ki, bu da əslində ərazilərimizin ilhaqının təsbit edilməsi deməkdir.

Ermənistan münaqişənin başlanmasınadək Dağlıq Qarabağda mövcud olmuş demoqrafik vəziyyətin bərpasını və azərbaycanlı əhalinin oraya qaytarılmasını, o cümlədən Azərbaycan mədəniyyətinin ən qədim mərkəzlərindən biri olan Şuşaya qaytarılmasını tamamilə istisna edir.

Ermənistan BMT Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirmədən, bu şərtlərlə beynəlxalq aralayıcı qüvvələri Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ regionunun perimetri boyunca yerləşdirməyi təklif edərək onları vəziyyətin konservasiyası alətinə, öz ilhaqçı siyasətinin girovuna çevirməyə cəhd göstərir.

Azərbaycan Respublikasının mövqeyi həmişə əməli mövqe olmuşdur və sülhsevər xarakter daşıyır. Bizə vurulmuş bütün ziyanlara baxmayaraq, biz beynəlxalq hüquq, ədalət və humanizm əsasında erməni tərəfinə sülh təklif edirik. Biz Dağlıq Qarabağın erməni təhlükəsizliyinə zəmanət verməyə hazırıq. Biz regionda kommunikasiyaların, o cümlədən Dağlıq Qarabağ ilə Ermənistan Respublikası arasında humanitar dəhlizin normal işini qarşılıqlı əsasda bərpa etmək tərəfdarıyıq. Biz, lazım gələrsə, münaqişə zonasında beynəlxalq sülhpərvər qüvvələrin yerləşdirilməsinə razıyıq. Biz Azərbaycan dövlətinin tərkibində Dağlıq Qarabağın statusunu da müzakirə etməyə hazırıq.

Lakin bizim üçün sarsılmaz normalar və prinsiplər də var – bu, Azərbaycanın suverenliyi və ərazi bütövlüyüdür, işğal olunmuş bütün ərazilərin azad edilməsidir, qaçqınların öz doğma ocaqlarına, o cümlədən 50 min azərbaycanlı qaçqının Dağlıq Qarabağa – öz vətəninə qaytarılmasıdır.

Azərbaycan Respublikası münaqişənin sülh yolu ilə, siyasi yolla aradan qaldırılmasına tərəfdar olaraq belə hesab edir ki, yalnız Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirmək yolu ilə təcavüzün nəticələrini

aradan qaldıraraq, uzunmüddətli möhkəm sülhün bərqərar edilməsi və regionun bütün əhalisinin təhlükəsizliyinin təmin edilməsi məqsədi ilə sabit və əməli danışıq prosesi aparmaq olar.

Həm də biz beynəlxalq normalara uyğun olaraq sülhpərvərlərin dəqiq mandata malik olması şərti ilə razılaşdırılmış sülh qərarlarının həyata keçirilməsinin təmin edilməsində Dünya Birliyinin köməyinə ümid bəsləyirik.

Biz atəşin kəsilməsi haqqında əldə edilmiş razılığı yüksək qiymətləndirərək başa düşürük ki, bu hələ sülh demək deyil, lakin atəşkəs tezliklə [311-312] sülh əldə edilməsi üçün lazımi şərait yaradır. Biz sülh sazişi əldə edilənədək və silahlı münaqişəyə tamamilə son qoyulanadək atəşkəs rejiminə əməl etmək əzmində olduğumuzu dəfələrlə bildirmişik. Bu gün mən Birləşmiş Millətlər Təşkilatının yüksək tribunasından bunu bir daha bəyan edirəm.

Biz ATƏM-in Minsk qrupunun və Rusiya Federasiyasının sülhpərvər fəaliyyətini müdafiə edərək onların səylərinin birləşdirilməsinə tərəfdarlıq, münaqişənin aradan qaldırılmasında birincilik uğrunda hər hansı bəhsləşmənin əleyhinə çıxırıq. Belə bəhsləşmə Azərbaycan və Ermənistan xalqlarının eyni dərəcədə ehtiyac duyduqları sülhün əldə edilməsini yalnız çətinləşdirə bilər.

Azərbaycanın işğal olunmuş ərazilərinin tamamilə azad edilməsi barədə tələblərimiz hüquqa uyğun tələblərdir, onlar BMT Təhlükəsizlik Şurasının qətnamələrinə tamamilə uyğundur. Hər hansı bir rayonun ilhaqına cəhd göstərilməsi bizim üçün məqbul deyil və beynəlxalq hüquq normalarına ziddir.

Müharibəyə cəlb olunmağımız nəticəsində respublikada son dərəcə humanitar vəziyyət yaranmışdır. Yeddi milyonluq ölkədə hər yeddi nəfərdən biri ev-eşiyi, işi, yaşamaq üçün vəsaiti olmayan qaçqındır. Qaçqınlar və köçkünlər misilsiz məhrumiyyətlərə düçar olaraq çadır düşərgələrində yaşayırlar. Amansız qış şəraiti, kifayət qədər qida, dava-dərman olmaması əhalinin ən imkansız olan bu qrupu arasında epidemiya və aclıq təhlükəsi yaratmışdır. Qaçqınlar ilə əlaqədar ekstremal vəziyyətin aradan qaldırılması Azərbaycan dövlətinin başlıca qayğılarından birinə çevrilmişdir.

Respublikamızın təcili çağırışına beynəlxalq təşkilatlar, bir sıra dövlətlər səs verdilər və biz Azərbaycana humanitar yardım göstərilməsində BMT proqramlarının ən iri donorları olan İsveç, Böyük Britaniya, Almaniya, Yaponiya, İsveçrə, Niderland, Danimarka hökumətlərinə ən səmimi minnətdarlığımızı bildiririk.

Biz, həmçinin ikitərəfli əlaqələr xətti ilə Azərbaycana xeyli humanitar yardım göstərən Türkiyənin, İranın, Səudiyyə Ərəbistanının və digər ölkələrin hökumətlərinə də minnətdarıq.

Biz Azərbaycanda qaçqınlara və köçkünlərə mühüm kömək göstərmiş BMT-nin qaçqınların işi üzrə ali komissarının idarəsinə, Beynəlxalq Qırmızı Xaç Komitəsinə, BMT-nin uşaq fonduna, "Həkimlər sərhəd tanımır" təşkilatına, çoxsaylı qeyri-hökumət təşkilatlarına da minnətdarıq.

Hörmətli xanımlar və cənablar!

Şərq və Qərb sivilizasiyasını vəhdət halında birləşdirən ölkəmizin coğrafi mövqeyindən, sosial-siyasi yönümündən və tarixi-mədəni ənənələrindən irəli gələn xüsusiyyətlər beynəlxalq münasibətlər sistemində mənim respublikamın roluna və yerinə səciyyəvi təsir göstərir.

Məhz öz xüsusiyyətlərimizi başa düşərək və dəyişikliklərin irəli sürdüyü tələbləri nəzərə alaraq biz addım-addım irəliləyərək xarici dünya ilə əməkdaşlıq binasını ucaldırıq. [312-313]

Azərbaycan Respublikası beynəlxalq miqyasda tanındığı vaxtdan etibarən biz əksər ölkələrlə bərabərhüquqlu, tarazlaşdırılmış münasibətlər yaratmış və bir çox ümumdünya və regional təşkilatlara daxil olmuş, beynəlxalq münasibətlərimizin genişləndirilməsi, müəyyən səbəblər üzündən itirilmiş əlaqələrin bərpa edilməsi üçün ciddi səylər göstərmişik.

Biz keçmiş SSRİ-nin ərazisində yaranmış müstəqil dövlətlərlə tarixi, coğrafi, iqtisadi və humanitar əlaqələrə xüsusi əhəmiyyət verərək, istər ikitərəfli münasibətlər əsasında, istərsə də Müstəqil Dövlətlər Birliyi çərçivəsində onlarla, xüsusən Rusiya ilə bərabərhüquqlu əməkdaşlığın inkişaf etdirilməsinə tərəfdar çıxırıq.

Amerika Birləşmiş Ştatları, Böyük Britaniya Birləşmiş Krallığı, Fransa, Çin ilə Azərbaycanın dostluq əlaqələri müvəffəqiyyətlə inkişaf edir. Regionumuzun və yaxın regionların Türkiyə, İran, Səudiyyə Ərəbistanı, Misir, Pakistan kimi ölkələri ilə bizi sıx, mehriban qonşuluq telləri birləşdirir. Bu ölkələrlə biz İslam Konfransı Təşkilatı çərçivəsində də sıx əməkdaşlıq edirik.

Bu ilin mayında NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramına Azərbaycanın qoşulması onun siyasi həyatında mühüm hadisə oldu. Bu proqramda bizi ümumi təhlükəsizlik mənafeyi naminə əməkdaşlıq və qarşılıqlı fəaliyyət cəlb edir. Mən Varşava müqaviləsinin keçmiş üzvlərinin bu proqrama qoşulmasını alqışlayıram. Bu, bütün Avrasiya qitəsində ümid yaradır ki, gələcəkdə onu sülh şəraitində əməkdaşlıq gözləyir və bu əməkdaşlıq bütün xalqların təhlükəsizliyini, inkişafını və tərəqqisini təmin edəcək, yeni cəbhələşmə bloklarının yaranması imkanını həmişəlik aradan qaldıracaqdır. Biz ümid edirik ki, NATO proqramında iştirak Avropada təhlükəsizliyin yeni binasının yaradılmasında ölkəmizin rolunu artıracaqdır.

Bu il Azərbaycan Respublikasına bloklara qoşulmamaq hərəkatında müşahidəçi statusu verilmişdir ki, bu da müxtəlif sahələrdə ikitərəfli əlaqələri qaydaya salmaq və həmin hərəkatın üzvləri olan ölkələrlə mövqelərimizi yaxınlaşdırmaq üçün qarşımızda geniş imkanlar açır.

1992-ci ilin yanvarında gənc Azərbaycan dövlətinin Birləşmiş Millətlər Təşkilatına tamhüquqlu üzv qəbul edilməsi onun təşəkkülü prosesində mühüm mərhələ oldu. BMT-yə daxil olan bir çox beynəlxalq təşkilatlarla əməkdaşlığımızın miqyası həmin vaxtdan etibarən artır. Beynəlxalq Valyuta Fondu, Ümumdünya Bankı, Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı ilə qarşılıqlı fəaliyyətimiz bizim üçün xüsusən dəyərlidir. Dünyanın bu ən iri maliyyə təsisatları mütəxəssislərinin Azərbaycandakı əməli işi nəticəsində ölkəmizin sosial-iqtisadi inkişafı üçün böyük əhəmiyyət daşıyan konkret layihələr müəyyənləşdirilmişdir.

Güman edirik ki, beynəlxalq maliyyə təsisatları ilə səmərəli əməkdaşlığımız üçün böyük imkanlar vardır. Biz Azərbaycan Respublikasının düçar olduğu faktiki müharibə vəziyyəti ilə əlaqədar Beynəlxalq Valyuta [313-314] Fondunun və Ümumdünya Bankının rəhbərlərinin ehtiyat etdiyini və narahatlıq keçirdiyini başa düşürük. Lakin eyni zamanda, Beynəlxalq Valyuta Fondu bizimlə müharibə aparan Ermənistana sabitləşdirmə krediti vermişdir. Belə hesab edirik ki, ədalət bu məsələdə heç olmasa simmetrik münasibət tələb edir.

Biz bazar iqtisadiyyatı infrastrukturunun təşəkkül tapması, ölkənin müasir idarəetmə səviyyəsinə çıxarılması, qabaqcıl texnologiyaların tətbiqi sahəsində milli proqramların hazırlanmasına texniki yardım göstərilməsi işində BMT-nin ətraf mühitə dair proqramından çox şey gözləyirik.

Biz beynəlxalq iqtisadi əməkdaşlığa xüsusi əhəmiyyət veririk və mən böyük məmnuniyyət hissi ilə sizə bildirmək istəyirəm ki, Azərbaycan Respublikası sentyabrın 20-də Xəzər dənizinin Azərbaycan sektorunda neft yataqlarının birgə istismarı sahəsində bir sıra iri dünya şirkətlərinin konsorsiumu ilə 30 illik müqavilə imzalamışdır. Bu, uzun sürən çətin danışıqların yekunudur.

Bu iri iqtisadi tədbir dünya üçün açıq olmaq siyasətimizin, iqtisadiyyatın sərbəstləşdirilməsi, xarici investisiyaların cəlb edilməsi siyasətimizin sübutudur.

Belə bir nadir müqavilənin imzalanması əməkdaşlığın möhkəmləndirilməsinə, onun həyata keçirilməsində iştirak edən Azərbaycanın, ABŞ-ın, Rusiyanın, Böyük Britaniya Krallığının, Türkiyənin, Norveçin, Səudiyyə Ərəbistanının xalqlarının və ölkələrinin yaxınlaşmasına kömək edəcəkdir. Bu barədə danışarkən mən bir daha qeyd etmək istəyirəm ki, Azərbaycan Respublikası Dünya Birliyi ilə tamhüquqlu inteqrasiyaya istiqamət götürmüşdür və bunun üçün bütün imkanlara malikdir. Buna görə də onun siyasəti sülhə əsaslanır və biz buna nail olmaq üçün Birləşmiş Millətlər Təşkilatına böyük ümidlər bəsləyirik.

Hörmətli xanımlar və cənablar!

Azərbaycan xalqı məni özünün gənc müstəqil dövlətinin prezidenti seçərək mənə çox böyük etimad göstərmişdir və bu gün mən onun ən xoş arzu və diləklərini sizə çatdırmaq şərəfinə nail oldum.

BMT Baş Məclisinin bu yüksək tribunasını belə bir ümidlə tərk edirəm ki, siz xalqımın səsini eşidəcəksiniz, xalqımın səsi ürəklərinizə yol tapacaqdır.

Diqqətinizə görə minnətdaram. [314-315]

## BMT BAŞ MƏCLİSİNİN 49-cu SESSİYASINDA MİLLƏTLƏR BİRLİYİNİN XÜSUSİ SALONUNDA MƏTBUAT KONFRANSINDA BƏYANAT

*29 sentyabr 1994-cü il*

Hörmətli xanımlar, cənablar!

Mən bir neçə dəqiqə bundan öncə BMT-nin Baş Məclisində Azərbaycan Respublikasının prezidenti kimi çıxış etdim. Bu nitqimdə mən Azərbaycan Respublikasının beynəlxalq aləmdə, beynəlxalq miqyasda əsas prinsiplərini bildirdim. Buna görə də təkrarən geniş bir bəyanat verməyə ehtiyac yoxdur. Belə düşünürəm ki, siz mənim həmin çıxışımla tanışsınız. Lakin qısaca bir neçə kəlmə demək istərdim.

Azərbaycan üç ildir ki, müstəqil bir dövlət kimi yaşayır. Azərbaycan Respublikasının başçısı, prezidenti ilk dəfədir ki, Birləşmiş Millətlər Təşkilatı Baş Məclisinin işində iştirak edir və Azərbaycanın adından bu məclisə müraciət edir. Xalqımız milli azadlıq əldə etdikdən sonra Azərbaycan Respublikasının daxili və xarici siyasəti xalqın tarixi, milli, mənəvi ənənələri əsasında qurulur. Azərbaycanda demokratik, hüquqi, sivilizasiyalı dövlət yaradılır. Respublikamızın cəmiyyəti demokratik prinsiplər əsasında formalaşır və bu prinsipləri Azərbaycanda bərqərar etmək üçün ölkəmizdə qanunlar qəbul olunmuşdur. Bu qanunlar demokratik prinsiplərin mövcudluğu və onlardan əhalinin istifadə etməsi üçün şərait yaradır. Biz bu sahədə də öz işimizi Azərbaycan xalqının tarixi, milli, mənəvi ənənələri, milli dəyərləri əsasında qururuq. Eyni zamanda dünyanın inkişaf etmiş, çox yüksək səviyyələrə qalxmış dövlətlərinin demokratik prinsiplərindən bəhrələnirik.

Azərbaycan iqtisadi sahədə böyük potensiala malikdir. Biz bu sahədə bazar iqtisadiyyatı yolu ilə, sərbəst iqtisadiyyat yolu ilə gedirik və bunun üçün lazımi tədbirlər görürük. Yəni 70 il sosialist quruluşunda sosialist iqtisadi, siyasi prinsipləri əsasında yaşayan bir respublika indi müstəqil dövlət kimi dünyanın inkişaf etmiş ölkələrinin həm ictimai-siyasi prinsiplərindən, həm də iqtisadi-sosial prinsiplərindən istifadə edərək öz həyatını özü qurur.

Respublikamız üçün ən ağır problem ölkənin altı ildən bəri müharibə vəziyyətində olması ilə bağlıdır. Müharibəyə Azərbaycan başlamayıbdır. Azərbaycan müharibəyə cəlb edilibdir. Ermənistan Respublikasının təcavüzü nəticəsində hərbi münaqişə yaranıb və indi müharibə gedir. Azərbaycan ərazisinin bir qismi erməni silahlı qüvvələri tərəfindən işğal olunubdur, torpaqlarımızın 20 faizi erməni silahlı qüvvələrinin işğalı altındadır. İşğal edilmiş torpaqlardan bir milyon nəfərdən artıq Azərbaycan və[315-316]təndaşı qaçqın düşüb, öz doğma yerlərindən baş götürüb qaçmışdır. İndi onlar qaçqın vəziyyətində çadırlarda ağır şəraitdə yaşayırlar.

Bu çətinliklərə baxmayaraq, biz sülh təklif edirik və buna görə də dörd ay əvvəl Ermənistan ilə Azərbaycan arasında atəşin kəsilməsinə nail ola bilmişik. Biz atəşkəsin saxlanmasına çalışırıq və bundan sonra da çalışacağıq. Lakin atəşkəs dövründə Böyük Sülh Müqaviləsi əldə etmək istəyirik. Sülh müqaviləsi yalnız bəzi şərtlərlə ola bilər. Yəni işğal edilmiş Azərbaycan torpaqlarından erməni silahlı qüvvələri çıxmalı, həmin torpaqlarımız azad edilməli və qaçqınlar öz yerlərinə qayıtmalıdırlar. Beynəlxalq hüquq normalarına əsasən Azərbaycanın ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı təmin edilməlidir. Biz məhz bu şərtlər əsasında sülhə nail olmaq istəyirik və bunun üçün də çalışırıq. Bu gün mən Birləşmiş Millətlər Təşkilatının tribunasından bütün dünya ictimaiyyətinə, böyük dövlətlərə, beynəlxalq təşkilatlara bu sülhün əldə olunmasında bizə kömək göstərmək barədə müraciət etdim.

Mənim sizə deyəcəyim bu qədərdir, vaxtınızı çox almaq istəmirəm. Odur ki, vaxtımı sizin suallarınıza cavab vermək üçün saxlamaq fikrindəyəm.

**Sual: Cənab prezident, Birləşmiş Millətlər Təşkilatı adından sizi burada salamlamağa çox şadam. Sizin ölkəniz neft şirkətlərinin konsorsiumu ilə müqavilə bağlamışdır. İndi gündəlikdə neftin nəql edilməsi üçün boru kəmərinin çəkilməsi məsələsi durur. Sizcə, bu boru kəməri haradan keçəcək ?**

**Cavab**: Bilirsinizmi, indiyədək, yəni üç il idi ki, söhbət bu neft müqaviləsinin bağlanmasından gedirdi və hər dəfə də ortaya müxtəlif məsələlər çıxırdı. Artıq müqavilə imzalanmışdır, buna görə də indi bütün suallar neft kəmərinin haradan keçməsi barədədir. Həmin suallara hazırda heç kəs cavab verə bilməz. Elə mən özüm də. Çünki bu neft kəməri marşrutunun bir neçə variantlı var. Biz gərək onu konsorsiumla, yəni bizimlə müqavilə imzalamış olan neft şirkətləri ilə birlikdə həll edək. Mən onu deyə bilərəm ki, boru kəmərinin marşrutu birinci növbədə Azərbaycanın milli mənafelərinə uyğun olmalıdır. Əlbəttə, bu məsələ müqaviləni imzalamış və böyük işlərə girişmiş neft şirkətlərinin fikrindən, iradəsindən də asılı olacaqdır. Eyni zamanda bu neft kəmərinin marşrutu gərək iqtisadi baxımdan da səmərəli olsun. Zənnimcə, biz əgər üç il ərzində aparılan danışıqlardan sonra bu müqaviləni imzalaya bildiksə, deməli neft kəmərinin haradan keçəcəyini də müəyyənləşdirəcəyik.

**Sual: Cənab prezident, dünən "Vaşinqton post" qəzetində dərc edilmiş bir məqalədə deyilir ki, Azərbaycan Dağlıq Qarabağı əldən vermək istəyir. Bunu necə başa düşmək olar?**

**Cavab**: Güman edirəm ki, o məqaləni yazan adam çox böyük səhv buraxıb. Necə ola bilər ki, biz öz ərazimizi əldən verək ? Belə olsaydı, onda heç altı ildən bəri müharibə aparmaq lazım gəlməzdi. Bu altı ildə

Azərbaycan tərəfi 20 min adam itirib. Yüz min nəfərdən çox adam yara[316-317]lanıb. İşğal edilmiş ərazilərimizdə 700-dən çox şəhər, kənd və qəsəbə dağıdılıb. Belə böyük müharibədən sonra Dağlıq Qarabağı necə əldən vermək olar ? Bu birincisi, ikincisi də, Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz tərkib hissəsidir. Siz dünyada elə bir ölkə tapa bilərsinizmi ki, o öz torpağının bir hissəsini başqasına versin ? Odur ki, bu, yanlış məlumatdır.

**Sual**: **Cənab prezident, dörd aydan çoxdur ki, atəşkəsə əməl edilir. Amma bununla yanaşı, bəzi məlumatlar gəlir ki, Azərbaycan Dağlıq Qarabağın şərq hissəsinə ordu toplayır. Bu barədə nə deyə bilərsiniz ?**

**Cavab**: Bu məlumatı sizə kim verib?

**Müxbir**: Bu məlumatlar Qarabağ tərəfdən gəlir.

**Cavab**: Bunlar yanlış məlumatlardır. Əvvəla, atəşin kəsilməsinin təşəbbüskarı məhz biz olmuşuq. Həm də dəfələrlə bildirmişik ki, atəşkəsin davam etməsinin tərəfdarıyıq. Mən bunu bu gün BMT-nin tribunasından bir daha bəyan etdim və bildirdim ki, biz bu müddətdə böyük sülhə nail olmaq istəyirik. Biz müharibənin yenidən başlanmasına tərəfdar deyilik və bu istiqamətdə heç bir iş görmürük. Sizdə olan məlumatlar əsassızdır.

**Sual**: **Belə məlum olur ki, heç bir ordu toplanmır?**

**Cavab**: Qətiyyən belə şey yoxdur.

**Sual**: **Cənab prezident, siz burada, Nyu-Yorkda, BMT-də Ermənistan prezidenti ilə görüşdünüzmü? Əgər görüşdünüzsə, onunla dialoq faydalımı oldu? Siz Dağlıq Qarabağ ilə Azərbaycan arasında yaxın aylarda dialoqu necə təsəvvür edirsiniz ?**

**Cavab**: Mən Ermənistan prezidenti cənab Ter-Petrosyanla burada görüşdüm. Bu, srağagün səhər oldu. Söhbətimiz uzun çəkdi. Biz əvvələ nümayəndə heyətlərinin iştirakı ilə, sonra isə təkbətək söhbət etdik. Biz məhz. sülh haqqında böyük sazişin hazırlanması məsələlərini müzakirə etdik. Ən çox da, bu sazişin əldə olunmasında bizə maneçilik törədən problemlərdən danışdıq. Məsələn, söhbət ondan gedir ki, Azərbaycanın işğal olunmuş ərazilərindən erməni silahlı qüvvələrinin çıxarılmasının zəruriliyindən danışarkən biz bunu həm Laçın rayonuna, həm də Şuşa şəhərinə aid edirik. Bu məsələlərdə Azərbaycan və Ermənistan tərəfləri arasında sazişə hələlik nail ola bilməmişik. Biz burada, Nyu-Yorkda görüşərkən diqqəti məhz həmin məsələlərə yönəltdik. Həm də razılığa gəldik ki, bu məsələ barəsində danışıqlarımızı davam etdirəcəyik. Cənab Ter-Petrosyan da, mən də belə bir yekdil fikirdə olduq ki, atəşkəs rejimini saxlamaq və Böyük Sülh Sazişinin imzalanmasına nail olmaq üçün razılığa gəlmək lazımdır. Mən sizə yalnız bunu deyə bilərəm.

**Sual**: **Cənab prezident, Siz dediniz ki, Azərbaycan neft kəmərinin marşrutu barədə qərarı o vaxt qəbul edər ki, bu, Azərbaycanın milli mənafelərinə uyğun və eyni zamanda iqtisadi cəhətdən Azərbaycan üçün sərfəli olsun. Sizcə, neft kəməri Türkiyədən keçərsə, bu, Azərbaycan üçün iqtisadi cəhətdən faydalı ola bilərmi ?** [317-318]

**Cavab**: Mən dedim ki, neft kəməri gərək həm Azərbaycanın milli mənafeyinə uyğun olsun, həm konsorsiumda iştirak edən şirkətlərin iqtisadi mənafelərinə cavab versin, həm də iqtisadi cəhətdən səmərəli olsun. Əgər neft kəmərinin Türkiyə ərazisindən keçməsi bu tələblərə uyğun olsa, onda mən bunu alqışlayaram.

**Sual**: **Cənab prezident, sizin fikrinizcə, burada, Nyu-Yorkdakı görüşləriniz, danışıqlarınız və çıxışlarınız, Azərbaycanın gələcəyi üçün nə kimi əhəmiyyətə malikdir?**

**Cavab**: Belə düşünürəm ki, bunların böyük əhəmiyyəti olacaq. Ən əvvəl, Azərbaycan dövlətinin başçısı, prezidenti BMT Baş Məclisinin sessiyasında ilk dəfədir çıxış edir. Bu, gənc və müstəqil dövlət üçün mühüm hadisədir. Mən Baş Məclisin tribunasından çıxış edərək, Azərbaycanın bugünkü vəziyyəti ilə, ölkəmizin dövlət və siyasi qurulusunun prinsipləri ilə bağlı fikir və mülahizələrimi, Ermənistanla Azərbaycan arasında hərbi münaqişə barəsində mövqeyimizi Dünya Birliyinə çatdırmaq imkanına malik oldum. Zənnimcə, elə bunun özü müstəqil Azərbaycan Respublikasını Dünya Birliyinə təqdim etmək üçün kiçik məsələ deyildir. Bundan əlavə, Nyu-Yorkda olarkən mən bir çox görüşlər keçirdim və onlar da Azərbaycanın mövqeyini dünya miqyasında möhkəmlətmək üçün çox böyük əhəmiyyətə malikdir.

Bu baxımdan mən ABŞ prezidenti cənab Bill Klintonla görüşə olduqca böyük əhəmiyyət verirəm. Bizim çox ətraflı və səmərəli söhbətimiz oldu. Bu, Azərbaycan prezidentinin ABŞ prezidenti ilə ilk görüşü idi. Mən cənab prezident Bill Klinton tərəfindən Azərbaycanın və bütün bölgəmizin problemlərinə böyük maraq göstərildiyini hiss etdim. Ermənistan ilə Azərbaycan arasında münaqişənin aradan qaldırılması və Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində yaranmış vəziyyətdən çıxmaq yolları barədə prinsiplərimizi, mülahizələrimizi və fikirlərimizi ona izah etmək imkanı tapdım.

Mən artıq dedim ki, Ermənistan prezidenti Levon Ter-Pelrosyanla görüşdüm. Burada bir sıra dövlətlərin xarici işlər nazirləri ilə, beynəlxalq təşkilatların rəhbərləri, bəzi maliyyə dairələrinin nümayəndələri ilə də görüşlərim oldu. Bütün bunlar Azərbaycanın bu günü və gələcəyi üçün kifayət qədər böyük əhəmiyyətə malikdir.

**Sual**: **Cənab prezident, mən sizin Amerika prezidenti ilə görüşünüz mövzusuna qayıdıram. Siz Amerika prezidentindən nə xahiş etdiniz, bu münaqişədə Amerikanın vasitəçi olmağını istədiyinizi bildirdinizmi ? Müsaidənizlə, daha bir sual vermək istərdim: elan edilmişdir ki, prezident Yeltsin ilə**

**prezident Klinton öz aralarında görüşdə "Yaxın xaric" deyilən ölkələrdə Rusiyanın fəaliyyəti barədə razılığa gəlməmişlər. Bu fakt sizi məyus edirmi ?**

**Cavab**: Men cənab prezident Bill Klintona dedim ki, bütün münaqişələrin, eləcə də Qafqazda gedən münaqişələrin aradan qaldırılmasında ABŞ beynəlxalq təşkilatların, o cümlədən ATƏM-in və Minsk [318-319] qrupunun fəaliyyətində daha yaxından iştirak etməlidir. Belə hesab edirəm ki, bu proseslərdə ABŞ-ın iştirakı fayda gətirəcəkdir. O ki qaldı cənab Bill Klinton ilə cənab Boris Yeltsin arasında fikir ayrılıqları barədə sizin məlumatınıza, mənim bundan xəbərim yoxdur və mən sizin bu məlumatınız əsasında bir nəticə çıxarmaq istəməzdim.

Diqqətinizə görə təşəkkür edirəm. [319-320]

## ABŞ-ın Sİ-EN-EN TELEVİZİYA ŞİRKƏTİNİN MÜXBİRİNƏ MÜSAHİBƏ

*29 sentyabr 1994-cü il*

**Sual: Cənab prezident, Siz ABŞ prezidenti Bill Klintonla görüşdən nə gözləyirsiniz? Rusiyanın mövqeyini yumşaltmaqmı istəyirsiniz?**

**Cavab:** Mən Amerikanın prezidenti cənab Bill Klintonla görüşümdən çox şey gözləyirəm. İlk növbədə Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında dövlətlərarası əlaqələrin inkişaf etdirilməsi məsələsinin müzakirə olunmasını, o cümlədən Azərbaycan Dövlət Neft Şirkəti ilə Qərbin Neft Şirkətləri Konsorsiumu arasında bu yaxınlarda Bakıda imzalanmış müqavilənin həyata keçirilməsində onun bizi dəstəkləməsini, eyni zamanda Azərbaycanın düşdüyü ağır bəladan çıxması üçün, Ermənistanın təcavüzündən xilas olması üçün beynəlxalq təşkilatların fəaliyyətinin artırılmasını, o cümlədən bu məsələdə Amerika Birləşmiş Ştatlarının da daha fəal iştirakını gözləyirəm.

**Sual: Dünən prezident Bill Klintonla prezident Boris Yeltsin görüşərkən belə bir bəyanat vermişlər ki, Dağlıq Qarabağda gedən münaqişə ilə bağlı məsələdə müəyyən bir razılığa gəlmişlər. Siz razı olarsınızmı ki, Dağlıq Qarabağ Ermənistana verilsin və bununla da sülh əldə edilsin?**

**Cavab:** Yox, mən Dağlıq Qarabağın Ermənistana verilməsinə heç vaxt razı ola bilmərəm. Lakin mənə məlum olduğuna görə, dünən mətbuat konfransında cənab Bill Klinton və cənab Boris Yeltsin çıxış edərək belə bir fikrə gəlmişlər ki, Dağlıq Qarabağ məsələsi, yəni Ermənistanla Azərbaycan arasında münaqişə məsələsi sülh yolu ilə, beynəlxalq təşkilatlar çərçivəsində həll edilsin və Birləşmiş Millətlər Təşkilatının bu barədə xüsusi qərarı olsun. Biz Azərbaycanla Ermənistan arasında münaqişənin həllinə yalnız bu şərtlərlə, habelə bir şərtlə razı ola bilərik ki, Azərbaycan Respublikasının ərazi bütövlüyü, suverenliyi, sərhədlərinin toxunulmazlığı təmin edilsin. Eşitdiyimə görə, cənab Bill Klinton bu fikirləri orada söyləyib.

**Sual: Sizin dediyinizə görə, Siz gözləyirsiniz ki, prezident Bill Kliton Dağlıq Qarabağın Ermənistana verilməyəcəyini daha açıq şəkildə bildirsin. Mən sizi düzmü başa düşdüm?**

**Cavab:** Mən təəccüb edirəm ki, mənə belə bir sual verilir: Dağlıq Qarabağ Ermənistana veriləcək, ya yox? Altı ildir gedən və çox böyük bəlalar gətirən müharibə Ermənistanın yalnız Dağlıq Qarabağı ələ keçirməsi üçün aparılır. Bu müddətdə Azərbaycan öz torpaqlarını, öz ərazi bütövlüyünü, öz suverenliyini qoruyubdur. İndi necə ola bilər ki, Dağlıq [320-321] Qarabağın Ermənistana verilməsi haqqında danışıqlar aparılsın? Mən sualın bu cür qoyuluşuna təəccüb edirəm. Axı altı ildə bu məsələ heç bir beynəlxalq təşkilatda, heç bir dövlət başçısı tərəfindən belə qoyulmamışdır.

**Sual: Lakin altı ildə 20 mindən çox adam həlak olub, Ermənistan hər cəhətdən üstünlüyə malikdir və ölkənizdə xeyli qaçqın var. Bəs siz müəyyən bir güzəştə getmək istəmirsinizmi?**

**Cavab:** Bəli, altı ildə Azərbaycan tərəfindən 20 minə qədər adam həlak olub, təxminən 100 min adam yaralanıb, Azərbaycan ərazisinin 20 faizi erməni işğalçı qüvvələri tərəfindən zəbt edilib. İşğal olunmuş bu torpaqlardan bir milyon nəfərdən artıq Azərbaycan vətəndaşı, azərbaycanlı öz ev-eşiyindən didərgin düşüb, qaçqın vəziyyətindədir. Bütün bunlar Ermənistanın Azərbaycana qarşı etdiyi hərbi təcavüzün nəticələridir. Həm də heç bir beynəlxalq təşkilat, heç bir ədalətli dövlət hərbi təcavüzü bəyənə bilməz və ona bəraət qazandıra bilməz. Bəzi obyektiv səbəblərə görə və ayrı-ayrı dövlətlərin, dairələrin Ermənistana göstərdikləri kömək sayəsində Ermənistan silahlı qüvvələri bu üstünlüyü əldə edirlər. Ancaq beynəlxalq hüquq normalarında göstərildiyi kimi, bir dövlətin başqa bir dövlətin torpaqlarını zorla ələ keçirməyə ixtiyarı yoxdur, eləcə də bir dövlətin başqa bir dövlətin sərhədlərini zorla pozmağa ixtiyarı yoxdur. Mən sadəcə olaraq onu istəyirəm ki, Ermənistan bu beynəlxalq hüquq normalarına riayət etsin. Cənab Bill Klintonla apardığım danışıqlarda mən belə qənaətə gəldim ki, Amerika prezidenti bu prinsiplərə müvafiq surətdə hərəkət edilməsinə tərəfdardır və bizim vəziyyətimizi başa düşür, bu məsələnin beynəlxalq təşkilatlar tərəfindən ədalətlə həll olunmasını istəyir, o cümlədən Azərbaycan Respublikasının ərazi bütövlüyünün, suverenliyinin, sərhədlərinin toxunulmazlığının təmin olunmasına tərəfdardır.

**Sual: Mən Sizin mövqeyinizi tamamilə başa düşürəm və daha bir sual vermək istəyirəm: Qafqazda, o cümlədən də Gürcüstanda, habelə Tacikistanda çox böyük münaqişələr gedir. Sizin fikrinizcə, bu münaqişələrə səbəb nədir, Rusiya həmin münaqişələri bölgədə öz mövqelərini bərpa etmək üçünmü yaradır?**

**Cavab:** Bilirsinizmi, öz münaqişəmiz özümüzə elə böyük dərddir və bu, başımızı elə qatıb ki, o münaqişələrin anatomiyasını müəyyənləşdirməyə mənim sadəcə olaraq vaxtım yoxdur və bəzən də bunu çox da lüzumlu hesab etmirəm. Amma şübhəsiz ki, hər bir münaqişənin səbəbi var. Əgər indiyədək bu münaqişələrə son qoyulmayıbsa, deməli bunda hansısa kənar dairələrin marağı var.

**Sual: Xüsusi olaraq qeyd edə bilərsinizmi ki, Rusiya həmin dairələrdən biridir?**

**Cavab:** Mən indi heç bir dövləti günahlandırmaq fikrində deyiləm. Çünki bunun üçün çox böyük əsaslar lazımdır.

**Sual: Siz artıq böyük neft müqaviləsini imzalamısınız. Bu müqavi[321-322]lədə Qərb şirkətləri, o cümlədən də Rusiyanın bir şirkəti iştirak edir. Sizcə, bu müqavilə bölgədə sabitlik yaranmasına kömək edəcəkmi?**

**Cavab:** Bəli, sentyabrın 20-də Bakıda imzalanmış neft müqaviləsinə mən çox böyük ümidlər bəsləyirəm. Bu müqavilə Azərbaycan Respublikası ilə Qərbin 10 neft şirkəti, o cümlədən də Rusiya şirkəti arasında əlaqə yaradır və onların 30 il müddətində müştərək işləməsinin bünövrəsini qoyur. Eyni zamanda, həmin şirkətlər Amerika Birləşmiş Ştatları, Böyük Britaniya, Rusiya, Türkiyə, Norveç, Səudiyyə Ərəbistanı kimi böyük ölkələrə mənsub olduğuna görə bu ölkələrlə Azərbaycan arasında iqtisadi əlaqələrin inkişafı üçün şərait yaradır. Mən bu müqaviləyə ümidlər bəsləyirəm və hesab edirəm ki, o, hər iki tərəf üçün faydalı olacaq, Azərbaycan Respublikasının dünya iqtisadiyyatına qoşulması üçün yaxşı şərait yaradacaqdır.

**Aparıcı: Azərbaycan Respublikasının prezidenti, cənab prezident, Sizə təşəkkür edirəm.**

**Cavab:** Sizin televiziya vasitəsilə çıxış etməyimə imkan yaratdığınıza görə mən də sizə təşəkkür edirəm.

**Aparıcı: Cənab prezident, Nyu-York studiyası Sizə öz təşəkkürünü bildirir.**

**Cavab:** Mən də Nyu-York studiyasına təşəkkür edirəm, öz məmnunluğumu bildirirəm. [322-323]

## ABŞ-ın NEFT ŞİRKƏTLƏRİ RƏHBƏRLƏRİNİN AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN ŞƏRƏFİNƏ VERDİKLƏRİ NAHARDA ÇIXIŞ

*29 sentyabr 1994-cü il*

Hörmətli xanımlar, cənablar!

Sentyabrın 20-də Azərbaycanda, onun paytaxtı Bakıda tarixi bir hadisə baş vermişdir. Azərbaycan Respublikası ilə dünyanın iri neft şirkətləri arasında otuz il müddətinə artıq hamıya məlum olan böyük bir müqavilə imzalanmışdır.

Bilirsiniz ki, Azərbaycan neft ölkəsidir və ta qədimdən ona "Odlar diyarı" deyirlər. Azərbaycan dünyada ilk dəfə sənaye üsulu ilə çıxarılan neftin məkanı olub – 1847-ci ildə Bakıda ilk dəfə neft fontan vurmuşdur. Ondan bir neçə il sonra isə ABŞ-da, Pensilvaniyada neft fontanı olmuşdur. Doğrudur, Azərbaycandakı ilk neft fontanı dünyada o qədər də məşhur olmayıb. Ona görə də çoxları elə bilir ki, ilk neft fontanı Pensilvaniyaya məxsusdur. Ancaq sonradan bu tarixi fakt araşdırılıb və mən sentyabrın 20-də Bakıda neft müqaviləsi imzalanması mərasimində bu faktı tarixi sənədlər əsasında dünyaya bəyan etdim, dedim ki, Bakıda neft Pensilvaniyadan bir neçə il qabaq fontan vurmuşdur.

1900-cü ildə, əsrin əvvəlində dünyada çıxarılan neftin 50 faizi Azərbaycanda hasil edilirdi. İndi XX əsr başa çatır və ötən dövrdə Azərbaycan nefti bütün dünyada məşhur olubdur, Azərbaycan neftindən dünyanın hər yerində istifadə edilib. Ancaq təəssüf ki, Azərbaycanın adı, respublikamızın gördüyü işlər dünya miqyasında, o cümlədən ABŞ-da o qədər də məlum olmayıb. İndi, XX əsrin sonunda, XXI əsrin astanasında Azərbaycan nefti yenidən dünyada məşhurlaşır. Üç ildən artıq gedən danışıqlar başa çatıb, tarixi müqavilə imzalanıb. Bu, həm Azərbaycan üçün, həm də ölkəmizlə müştərək iş görməkdən ötrü müqaviləyə imza atmış neft şirkətləri üçün böyük tarixi hadisədir.

Bu müqavilənin baş tutması Azərbaycanın müstəqilliyi ilə əlaqədardır. 150 ildir ki, Azərbaycanda sənaye üsulu ilə neft çıxarılır. Ancaq xalqımız bu sərvətin sahibi olmayıb. Azərbaycan xalqı, respublikamız ilk dəfədir ki, xarici ölkələrin neft şirkətləri ilə tarixi əhəmiyyətli müqavilə imzalamışdır. Mən çox sevinirəm ki, bu üç il müddətində müqavilənin hazırlanması ilə əlaqədar Azərbaycan ilə ABŞ arasında çox sıx əlaqələr yaranmışdır. İndi Azərbaycanın Amerikada çoxlu dostları var. Doğrudur, bu, istədiyimiz qədər çox deyil. Ancaq əvvəlkilərə nisbətən indi dostlarımızın sayı xeyli çoxdur.

Məni çox sevindirir ki, burada Amerika konqresmeni cənab Qreq Laflin Azərbaycan haqqında gözəl sözlər dedi. Mən dünən Kolumbiya [323-324] Universitetinin Harriman İnstitutunda – keçmiş Sovet İttifaqını öyrənən institutda oldum, institutun professorları, elmi işçiləri ilə, Azərbaycanı çox sevən, ölkəmiz haqqında çoxlu yazılar yazan professor Tadeuş Svyatixovski ilə görüşdüm. Çox sevindim ki, Svyatixovski kimi bir şəxs var və o, Azərbaycan haqqında həqiqətləri yazır. Ancaq eyni zamanda təəssüflə bildirdim ki, nə üçün Amerikada Svyatixovskilər azdır və Azərbaycan üçün cəmi bir Svyatixovski var. Orada mənə dedilər ki, indən sonra burada Svyatixovskilər çox olacaq. İndi cənab Laflin çıxış edəndə fikirləşdim ki, nə üçün Azərbaycanın Amerikada cəmi bir Laflini var. Mən istərdim ki, Amerikada Azərbaycan üçün Laflinlər yüzlərlə olsun.

Ola bilər, cənab Laflin istəyir ki, tək olsun və Azərbaycanda yalnız onu sevsinlər. Amma güman edirəm ki, cənab Laflin çox geniş qəlbli adamdır, o heç vaxt qısqanclıq etməyəcək və istəyəcək ki, Azərbaycanı onun kimi sevən konqresmenlər çox olsunlar. Mən bu gecə burada sizinlə bərabər olarkən sentyabrın 20-də axşam "Gülüstan" sarayındakı ziyafəti xatırlayıram. "Gülüstan" sarayının salonu 4-5 dəfə bu salondan böyükdür. O ziyafətdə iştirak edən qonaqların yarısı Amerikadan gəlmiş adamlar idi. Mən o axşam da düşünürdüm, bu gün də düşünürəm ki, artıq Amerikada Azərbaycanın dostları çoxalıb. Düşünürəm ki, bu gün Laflin tək deyil, dostlarımızın sayı artıb. Güman edirəm ki, biz hələ bu işin başlanğıcındayıq. Biz günbəgün, aybaay iş dairəmizi genişləndirəcəyik və dostluq əlaqələrimiz daha da möhkəmlənəcək. Bakıda imzalanmış müqavilənin həm iqtisadi, həm humanitar, həm də siyasi əhəmiyyəti var. Mən o müqavilənin bağlanması barədə sentyabrın 14-də fərman imzalayarkən düşündüm ki, Azərbaycanın müstəqilliyini bütün dünyada nümayiş etdirmək üçün ciddi bir addım atıram. Bu, həqiqətdir. Çünki bu müqavilənin bağlanmasına mane olan qüvvələr çox idi. Bizi hətta bəzən hədələyirdilər. Ancaq Azərbaycanın müstəqilliyi indi o qədər möhkəmdir ki, heç bir hədədən, maneədən çəkinmədik və müqaviləni imzaladıq.

Şübhəsiz ki, bu, Azərbaycan üçün cəsarətli bir addımdır. Ancaq mən əminəm ki, bu, Azərbaycanın gələcəyi üçün çox ümidverici bir addımdır. Bu müqavilədə iştirak edən Qərb ölkələrinin və ABŞ-ın neft şirkətləri də belə fikirdədirlər. Müqavilənin iqtisadi cəhəti kimi, digər cəhətləri də bizim üçün çox əhəmiyyətlidir. Bu müqavilə Azərbaycan ilə ABŞ arasında və digər Qərb ölkələri arasında əlaqələri inkişaf etdirmək üçün böyük əsas yaradır.

Təsəvvür edin. Müqavilə sentyabrın 20-də imzalanıb, sentyabrın 25-də Azərbaycan Prezidenti ilk dəfə ABŞ-a gəlib, sentyabrın 26-da ABŞ Prezidenti cənab Bill Klintonla Azərbaycan Prezidenti görüşüb, çox

əhəmiyyətli danışıqlar aparıb. Bu gün biz burada toplaşmışıq və "Gülüstan" sarayında olduğu kimi, burada da həmin tarixi hadisəni qeyd edirik. Baxın, bir həftə içərisində nə qədər hadisə baş verib. Bunlar hamısı müstəqil Azərbaycan üçün tarixi hadisələrdir. Bunlar hamısı Azərbaycan xalqının qəlbindən gələn hisslərdir. Bunlar hamısı Azərbaycan xalqının, Azərbaycan [324-325] Respublikasının Qərbə, ABŞ-a olan hörmət və ehtiramının əlamətidir. Bunlar hamısı xalqlarımız arasında yaranan dostluğun ilk körpüsüdür. Mən hesab edirəm ki, bu yolda bizə heç bir qüvvə mane ola bilməz. Biz cəsarətli addım atmışıq və axıra qədər getməyə hazırıq. Mən Azərbaycanın Prezidenti kimi bu sahədə üzərimə düşən vəzifələri axıradək yerinə yetirəcəyəm. Azərbaycan xalqı ilə Amerika xalqı arasında dostluq əlaqələrinin genişləndirilməsi üçün bütün səylərimi sərf edəcəyəm. Əminəm ki, bundan sonra Amerika vətəndaşları, siz, buradakı dostlarımız Azərbaycan ilə daha yaxından tanış olaraq xalqımızın nə qədər geniş ürəkli, səmimi olduğunu hiss edəcəksiniz.

Sizin hamınızı bu tarixi hadisə münasibətilə təbrik edirəm. Bu günlərdə ABŞ-da, Nyu-Yorkda olmağımdan çox məmnunam. ABŞ Prezidenti cənab Bill Klintonla görüşlərimi Azərbaycan üçün çox əhəmiyyətli hesab edirəm. Əminəm ki, bunlar hamısı Azərbaycan ilə ABŞ arasında dostluq əlaqələri üçün çox yaxşı əsasdır. Cənab Laflin dedi ki, o, Azərbaycanda ilk dəfə olub. Mən onu üçüncü dəfə ölkəmizə dəvət etdim. Sizin hamınızı Azərbaycana dəvət edirəm. Bəziləriniz mənim dəvətim olmadan da gələcəksiniz, çünki ölkəmizdə işləriniz var. Ancaq bilin ki, hər birinizi Azərbaycanda əziz qonaq kimi qəbul etməyə hazırıq.

Bugünkü görüş bizim üçün tarixi hadisədir. Hamınıza cansağlığı və xoşbəxtlik arzulayıram. ABŞ kimi böyük dövlətin qüdrətinin artmasını arzu edirəm. Bütün Amerika xalqına xoş arzularımı bildirirəm. [325-326]

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN BƏYANATI

Əziz həmvətənlər!

Doğma respublikamızın müstəqillik yolundakı uğurlu addımları daxildən və xaricdən olan bəzi düşmənlərimizin açıq təxribatlarına səbəb olmuşdur. Sentyabrın 29-da görkəmli dövlət xadimləri – Ali Sovetin sədr müavini Afiyəddin Cəlilov və respublika xüsusi idarəsinin rəisi Şəmsi Rəhimov vəhşicəsinə qətlə yetirilmişlər. Həlak olanların ailələrinə dərin hüznlə başsağlığı verirəm. Allah onlara rəhmət eləsin!

Şübhəsiz ki, bu terrorçuluq aktları son vaxtlar Azərbaycanın müstəqilliyi əleyhinə yönəldilmiş cinayətlərin yeni bir həlqəsidir. Son vaxtlar bir sıra ağır cinayətlər törətmiş, bu yaxınlarda isə dövlət əleyhinə xəyanətdə ittiham edilən dörd dustağın təcridxanadan qaçırılmasına nail olmuş bu qüvvələr respublikada ictimai-siyasi sabitliyi pozmaq, süni qarşıdurma və vahimə əhval-ruhiyyəsi yaratmaq, son nəticədə ölkəni siyasi və iqtisadi müstəqillik yolundan döndərmək üçün ən çirkin üsullara əl atırlar. Bu, həm də Azərbaycan Respublikasının hərbi təcavüzə qarşı apardığı mübarizəni zəiflətməyə yönəldilmişdir.

Öz suverenliyini qorumaq üçün kifayət qədər gücə və hər cür imkanlara malik olan Azərbaycan dövləti bu cür satqın və xəyanətkar hərəkətlərin qarşısını almaq üçün lazım olan ən qəti tədbirlər görəcəkdir.

Əziz həmvətənlər! Bu çətin sınaq günlərində hər birinizə möhkəm dəyanət, vətəndaşlıq qeyrəti, sarsılmaz iradə arzulayır və sizi əmin edirəm ki, tutduğumuz haqq yolundan bizi heç bir qüvvə döndərə bilməyəcəkdir.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Amerika Birləşmiş Ştatları,
Nyu-York şəhəri.

*30 sentyabr 1994-cü il* [326-327]

## ABŞ-a SƏFƏRDƏN VƏTƏNƏ QAYIDARKƏN İSTANBULDA TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ SÜLEYMAN DƏMİRƏLLƏ GÖRÜŞDƏN SONRA JURNALİSTLƏRƏ BƏYANAT

*1 oktyabr 1994-cü il*

Əziz qardaşım, dostum, Türkiyə Cümhuriyyətinin hörmətli prezidenti Süleyman Dəmirəl! Mən Amerikadan Azərbaycana dönərkən sizinlə görüşmək üçün bir-iki saatlıq burada dayandım. Bildiyiniz kimi, mən Azərbaycandan Amerikaya gedəndə də, Vətənə qayıdanda da "Türk Hava Yolları" şirkətinin təyyarəsindən istifadə etmişəm. Bu təyyarə çox rahatdır.

Bu fürsətdən istifadə edərək sizinlə görüşməyimdən çox məmnunam. Mənimlə görüşərək bir çox məsələ barəsində fikir mübadiləsi etmək üçün vaxt ayırdığınıza görə təşəkkürümü bildirirəm. Hesab edirəm ki, sizinlə danışıqlarımız çox əhəmiyyətli və səmərəlidir. Siz danışıqlarımızın məzmununu mətbuat nümayəndələrinə çatdırdınız. Amerika Birləşmiş Ştatlarına səfərim zamanı gördüyüm işlərə verdiyiniz qiymət üçün təşəkkür edirəm, çox məmnunam. Doğrudan da, Amerika Birləşmiş Ştatlarında Azərbaycanın indiki vəziyyətini anlatmaq və Ermənistanın Azərbaycana təcavüzünün qarşısını almaqdan ötrü tədbirlər həyata keçirilməsi üçün bəzi işlər görə bildim. Amerika Birləşmiş Ştatlarının prezidenti cənab Bill Klintonla, digər ölkələrin dövlət başçıları, dövlət adamları ilə danışıqlar apardım və hesab edirəm ki, bu, çox faydalı oldu. Bütün bu görüşlərimiz, danışıqlarımız barədə əziz dostum, qardaşım Süleyman bəylə bizim ətraflı söhbətimiz oldu. Məmnunam ki, Süleyman bəy bu barədə fikirlərini sizə çatdırdı.

Azərbaycanda baş verən son hadisələr şübhəsiz ki, xalqımızı narahat etmişdir. Ancaq bilməlisiniz ki, bunlar bizim iradəmizi qıra bilməz. Biz Azərbaycanın müstəqilliyini qoruyub saxlamışıq və bundan sonra da qoruyacağıq. Azərbaycanda baş verən son hadisələr böyük, ağır cinayətlərdir. Bu, ayrıca bir şəxsin öldürülməsi, yaxud cinayətkarların təcridxanadan qaçması demək deyildir. Bu cinayətlər Azərbaycan Respublikasının müstəqilliyinə qarşı təcavüzdür, ölkənin daxilində sabitliyi pozmağa yönəldilmiş əməllərdir. Bütün bunlar həm Azərbaycanın daxilində, həm də onun hüdudlarından kənarda ölkəmizə düşmən olan qüvvələrin birgə fəaliyyətinin nəticəsidir. Bir daha qeyd edirəm ki, onların məqsədi Azərbaycanın müstəqilliyinə son qoymaqdır. Çünki Azərbaycanın müstəqilliyi çox ölkələri narahat edir. Biz öz müstəqilliyimizi nə qədər çox müdafiə ediriksə, buna qarşı təxribatlar bir o qədər güclənir. [327-328]

Lakin bunlar bizi qorxutmur, sarsıtmır. Azərbaycan xalqı bizim tutduğumuz yolu daim müdafiə edir, dəstəkləyir və əminəm ki, bundan sonra da dəstəkləyəcəkdir. Azərbaycan tutduğu müstəqillik yolu ilə gedir və gedəcəkdir, istiqlaliyyətini heç vaxt əldən verməyəcəkdir. Bunu mən dəfələrlə Azərbaycanda da demişəm, Nyu-Yorkda Birləşmiş Millətlər Təşkilatı Baş Məclisi sessiyasının yüksək tribunasından da dedim və Süleyman bəy, sizin hüzurunuzda da deyirəm. Qoy Türkiyədəki qardaşlarımızın hamısı da bilsin ki, Azərbaycan öz müstəqilliyi uğrunda indiyədək nə qədər mübarizə aparmışdırsa, bundan sonra daha çox mübarizə aparacaqdır. Çünki müstəqilliyi qazanmaq nə qədər çətin idisə, onu qoruyub saxlamaq daha çətindir. Biz bunu başa düşürük və işimizi də bu baxımdan qururuq.

Azərbaycanda baş verən son hadisələrlə əlaqədar müxtəlif şayiələr yayılır. Bunlar heç kimi narahat etməsin. Biz Azərbaycanın daxilində sabitliyi qorumağa qadirik, mətinliyimiz, dəyanətimiz var. Buna əmin ola bilərsiniz.

Mənim Amerikaya səfərimdən öncə, sentyabrın 20-də Bakıda böyük bir tarixi hadisə baş verdi: Azərbaycandakı neft yataqlarının işlənməsi barədə xarici ölkələrin iri neft şirkətləri ilə 30 il müddətinə müqavilə imzalandı. Bu, tarixi müqavilədir və onu haqlı olaraq "Əsrin müqaviləsi" adlandırırlar. Müqaviləni altı ölkənin şirkətləri imzalamışdır. Bu sənəd tərəflər üçün qarşılıqlı surətdə faydalı olmaqla yanaşı, Azərbaycanın istiqlaliyyətinin qorunub saxlanmasına da kömək edən amildir. Hesab edirəm ki, müqaviləni həyata keçirərkən Azərbaycanın müstəqilliyini daha da təmin edəcəyik.

Müqavilənin imzalanması barədə üç ildən çox idi ki, danışıqlar gedirdi. Ona maneçilik törədən adamlar, qüvvələr, hətta ölkələr də var idi. Lakin onların cəhdləri baş tutmadı. Bu müqavilənin imzalanması bir daha göstərdi ki, Azərbaycan xalqı öz taleyinin sahibidir, ölkənin işlərini özü həll edir və kənar qüvvələrin təzyiqinə baxmayaraq, müstəqil şəkildə belə böyük bir müqaviləni imzalayır.

Müqavilənin önəmli bir cəhəti də neft şirkətləri konsorsiumunda Türkiyənin iştirak etməsidir. Bu, bizim üçün çox əhəmiyyətlidir və güman edirəm ki, bunun sayəsində əməkdaşlığımız daha sürətlə inkişaf edəcəkdir.

Müqavilənin əsas cəhətlərindən biri gələcək neft kəmərinin marşrutu ilə bağlıdır. Şübhəsiz ki, biz neft kəmərinin Türkiyə ərazisindən keçməsini istəyirik. Biz bu istiqamətdə birgə səy göstərəcəyik. Süleyman bəy ilə də bunu müzakirə etmişik. Biz neft kəmərinin Türkiyə ərazisindən keçməsini önəmli sayırıq. Çünki bu, həm kəmərin təhlükəsizliyini təmin edəcək, həm də ölkələrimiz arasındakı əlaqələri daha da möhkəmləndirəcəkdir.

Türkiyənin Azərbaycanı daim müdafiə etməsi, ona diqqət yetirməsi [328-329] təbiidir. Çünki Azərbaycan üçün Türkiyə ən yaxın dost və qardaş ölkədir. Türkiyə də Azərbaycanı belə bir ölkə və xalq kimi qəbul edir. Dostluğumuz və qardaşlığımız daimi, əbədidir və biz bunun belə olması üçün əlimizdən gələni əsirgəməyəcəyik.

Süleyman bəy, mənə göstərdiyiniz ehtirama görə sizə təşəkkür edir, Azərbaycanın bu ağır günündə, cinayətlər baş verən bir vaxtda ölkəmizə yaxından diqqət yetirməyinizdən məmnun qaldığımı bildirirəm. [329-330]

## RESPUBLİKA MİLLİ TELEVİZİYASI VƏ RADİOSU İLƏ ÇIXIŞ

*3 oktyabr 1994-cü il*

Hörmətli həmvətənlər, bacılar və qardaşlar!

Bildiyiniz kimi, sentyabrın 25-dən 30-dək mən Amerika Birləşmiş Ştatlarında – Nyu-Yorkda işgüzar səfərdə olmuşam. Bu müddətdə Birləşmiş Millətlər Təşkilatı Baş Məclisinin 49-cu sessiyasının işində iştirak etmiş, sessiyada çıxış edərək Azərbaycan Respublikasının daxili və xarici siyasəti, beynəlxalq aləmdə tutduğu mövqe barədə məlumat vermişəm. Onu da deyim ki, bu, üç ildən bəri müstəqil dövlət kimi yaşayan Azərbaycan Respublikasının rəhbərinin BMT Baş Məclisində ilk çıxışı idi. Hesab edirəm ki, həmin çıxış və ümumiyyətlə, BMT Baş Məclisinin sessiyasında iştirak etmək, bu nüfuzlu beynəlxalq təşkilatın baş katibi Butros Qali ilə aparılan söhbətlər Azərbaycan Respublikasının beynəlxalq aləmdə mövqelərini daha da açıqlamışdır. Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü, bunun nəticəsində Azərbaycanın düşdüyü vəziyyət, həm də respublikamızın xarici siyasəti ilə bağlı fikirləri BMT Baş Məclisinin sessiyasında çıxış etməklə dünya ictimaiyyətinə, dünya dövlətlərinə çatdırmaq Azərbaycan üçün çox gərəkli bir hadisə idi.

Bununla yanaşı, Nyu-Yorkda olarkən Amerika Birləşmiş Ştatlarının prezidenti cənab Bill Klintonla görüşərək ətraflı söhbət etmişəm. Bildirmək istəyirəm ki, bu, əvvəlcədən təyin edilmiş görüş idi. Bunu Amerika tərəfi qabaqcadan elan etmişdi və biz də bu barədə məlumat vermişdik. Həm Amerika tərəfi, həm də biz bu görüşü yüksək qiymətləndiririk. Zənnimcə, görüş ümidlərimizi doğrultdu. Bu da müstəqil respublikamızın dövlət başçısının Amerika Birləşmiş Ştatlarının prezidenti ilə ilk görüşü idi.

Bildiyiniz kimi, son vaxtlar Azərbaycan ilə ABŞ arasında əlaqələri genişləndirmək, inkişaf etdirmək üçün bir neçə addım atmışıq. Həm Bakıda, həm də başqa ölkələrdə Birləşmiş Ştatların yüksək vəzifəli rəsmi şəxsləri ilə görüşlər olmuşdur. Mən Qahirədə ABŞ-ın vitse-prezidenti Albert Qor ilə, İstanbulda ABŞ-ın dövlət katibi cənab Kristoferlə, Bakıda cənab Klintonun xüsusi nümayəndəsi, onun kabinetinin üzvü xanım Olbraytla, dövlət departamenti rəhbərinin müavini cənab Talbott ilə, həmin departamentin yüksək vəzifəli işçisi cənab Kollinzlə görüşmüşəm. Bütün bunlar iki ölkə arasında əlaqələri inkişaf etdirmək üçün qarşılıqlı surətdə atılan addımlardır.

Lakin Amerika Birləşmiş Ştatlarının prezidenti ilə görüş bu prosesin zirvəsini təşkil edir. Bu mənalı və məzmunlu görüşün bizim üçün əhə[330-331]miyyəti odur ki, mən ABŞ prezidentinə Azərbaycanın həm daxili, həm də xarici siyasəti haqqında geniş məlumat verdim, respublikamızın Birləşmiş Ştatlarla münasibətlərinin, xüsusən iqtisadi əlaqələrimizin gələcəkdə daha sürətlə inkişaf etdirilməsi barədə fikirlərimi, mülahizələrimi söylədim. Eyni zamanda Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü, onun ağır nəticələri və bununla əlaqədar Azərbaycanın düşdüyü çətin vəziyyət haqqında ətraflı məlumat verdim. Bundan əlavə Amerika prezidentinə bildirdim ki, bu çətinliklərə, bizə vurulan ağır zərbələrə baxmayaraq, sülhsevər siyasət yürüdürük, əməli mövqedən çıxış edirik və Ermənistan Respublikasının hərbi təcavüzünə qarşı sülh təklif edir, bu sülhə nail olmağa çalışırıq.

Münaqişə zonasında atəşin dayandırılması və onun dörd aydan artıq davam etməsi haqqında məlumatı cənab Bill Klinton çox razılıqla qarşıladı və yüksək qiymətləndirdi. Mən isə bildirdim ki, biz bu atəşkəsi, sadəcə olaraq, gələcək işlərimiz üçün bir şərait kimi qiymətləndirir və hesab edirik ki, bu imkandan istifadə etmək lazımdır. İstəyirik ki, Azərbaycan ilə Ermənistan arasında uzunmüddətli sülh yaransın və bu sülhə Azərbaycan Respublikasının mənafeyinin qorunması şərti ilə nail olunsun. Yəni Azərbaycan Respublikasının ərazi bütövlüyü təmin edilsin, işğal olunmuş ərazilərimizdən Ermənistan silahlı qüvvələri çıxarılsın, bir milyondan artıq azərbaycanlı qaçqın öz yurdlarına qaytarılsın, ölkəmizin sərhədlərinin toxunulmazlığı təmin edilsin. Əvvəllər bəyan etdiyimiz kimi, mən Amerika prezidentinə də bildirdim ki, biz bütün bu şərtlər əsasında sülhə nail olmaq istəyirik. Bütün dövlətlərə, o cümlədən dünyada böyük nüfuzu olan Birləşmiş Ştatlara və onun prezidentinə müraciət edirik ki, bizim bu təklifimizin həyata keçirilməsi üçün lazımi təşəbbüslər göstərilsin və tədbirlər görülsün.

ABŞ prezidenti bu məsələlərə çox diqqətlə yanaşdı. Mən başa düşdüm ki, Birləşmiş Ştatların dövlət başçısı bu məsələ ilə artıq ciddi məşğul olur. O bu barədə öz fikirlərini, mülahizələrini bildirdi və qeyd etdi ki, bütün bunlar beynəlxalq təşkilatların vasitəsilə həll edilməlidir.

Mən bildirdim ki, biz də bu fikirdəyik. Azərbaycan bu sahədə Rusiyanın vasitəçiliyini qiymətləndirir. Eyni zamanda istəyirik ki, bu vasitəçilik beynəlxalq təşkilatlarla birlikdə həyata keçirilsin. Biz ATƏM-in Minsk qrupunun rəhbəri Yan Eliassonla dəfələrlə görüşərək öz fikirlərimizi bildirmişik. Mən BMT Baş Məclisinin sessiyasındakı çıxışımda da dedim ki, biz beynəlxalq təşkilatların, xüsusən ATƏM-in Minsk qrupunun Rusiya ilə əməkdaşlıq etməsinə, Rusiyanın bu məsələlərin birlikdə həllinə qoşulmasına tərəfdarıq. Bu fikrimi cənab Bill Klintona da çatdırdım. O da bu fikirdədir və söhbət zamanı bunu qeyd etdi.

Cənab Bill Klintonla danışıqlarımız zamanı aydın oldu ki, Azərbaycan ilə Amerika Birləşmiş Ştatları arasında əlaqələrin inkişaf etdirilməsi barədə rəylərimiz üst-üstə düşür. Cənab Bill Klinton sentyabrın 20-də Bakıda xarici ölkələrin iri neft şirkətləri ilə Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti arasında imzalanmış müqaviləni xüsusilə yüksək qiymət[331-332]ləndirdi. O bildirdi ki, bu, çox böyük tarixi əhəmiyyəti olan müqavilədir. Həmin müqavilədə ABŞ şirkətləri də iştirak edir, ona görə də Amerika dövlətinin buna marağı var. Təsadüfi deyildir ki, Birləşmiş Ştatların dövlət nümayəndəsi müqavilənin imzalanmasında iştirak etmiş və həmin sənədi imzalamışdır. ABŞ prezidenti bu müqavilənin həyata keçirilməsinin zəruri olduğunu bildirdi və onun dövləti tərəfindən bunun himayə ediləcəyini söylədi.

Biz başqa məsələləri, o cümlədən Azərbaycanın blokada vəziyyətində olmasını, ABŞ konqresinin ədalətsiz olaraq 907-ci maddəyə düzəlişi Azərbaycana qarşı tətbiq etməsi məsələsini də müzakirə etdik. Cənab Bill Klinton bildirdi ki, Ermənistan-Azərbaycan münaqişəsinin aradan qaldırılması və regionda sülh yaradılması ilə bağlı onun müəyyən fikirləri var və bu barədə Rusiya prezidenti Boris Yeltsinlə görüşündə də danışacaqdır. Cənab Klinton qeyd etdi ki, Amerika Birləşmiş Ştatları bu məsələyə ciddi qoşulmuşdur və beləcə də məşğul olacaqdır.

Biz başqa məsələlər barəsində də danışdıq. Mən bunları ətraflı şərh etməyə ehtiyac duymuram. Söhbətlərimizin əsas məqamlarını xatırlatdım. Bununla demək istəyirəm ki, cənab Bill Klintonla görüşümüz Azərbaycan Respublikasının beynəlxalq aləmdə mövqeyinin möhkəmləndirilməsində və Azərbaycanla bağlı məsələlərin həllində, xüsusən respublikamızda sülh yaranmasında beynəlxalq təşkilatların iştirakından ötrü çox əhəmiyyətli və faydalıdır. Güman edirəm ki, biz bu görüşdə yaranmış əhval-ruhiyyəni, əlaqələri davam etdirəcəyik. Bu gün bir daha bildirmək istəyirəm ki, biz bütün dövlətlərlə, o cümlədən Amerika Birləşmiş Ştatları ilə ikitərəfli, çoxsahəli əlaqələrin inkişaf etdirilməsinə tərəfdarıq.

Nyu-Yorka səfərim zamanı bir çox başqa görüşlərim də olmuşdur. Orada bir sıra ölkələrin xarici işlər nazirləri ilə görüşmüşəm. Bunları sadalamağa ehtiyac yoxdur, informasiya orqanları bu barədə məlumat verəcəkdir. Ancaq bildirmək istəyirəm ki, Böyük Britaniyanın xarici işlər naziri cənab Duqlas Hörd, Fransanın xarici işlər naziri cənab Alen Jüppe, Almaniyanın xarici siyasət idarəsinin başçısı Klaus Kinkel, Türkiyənin xarici işlər naziri cənab Mümtaz Soysal, İran İslam Respublikasının xarici işlər naziri ağayi Əli Əkbər Vilayəti və bir sıra başqa ölkələrin xarici işlər nazirləri ilə görüşdüm. Bu görüşlərin hamısında Azərbaycanın düşdüyü vəziyyət, xüsusən Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü və bu münaqişənin aradan qaldırılmasında həmin dövlətlərin iştirakı barədə danışıqlar apardım.

Səfər zamanı bir çox beynəlxalq təşkilatların nümayəndələri ilə görüşlərim oldu. O cümlədən ATƏM-in Minsk qrupunun başçısı Yan Eliasson ilə görüşüb söhbət etdik. ABŞ-ın dövlət kabinetinin üzvü xanım Olbraytın vasitəçiliyi ilə Nyu-Yorkda Ermənistan prezidenti Levon Ter-Petrosyanla görüşdüm. Görüşdə hər iki tərəfdən nümayəndə heyətləri də iştirak edirdi. Biz fikir mübadiləsi etdik. Bu il sentyabrın [332-333] 8-9-da Moskvada apardığımız danışıqların davamı kimi mən Azərbaycanın mövqeyini Ermənistan prezidentinə yenə də açıq şəkildə bildirdim. Dedim ki, bu prinsipial mövqe əsasında, o cümlədən Laçın rayonunun, Şuşanın azad edilməsi şərtləri daxilində biz geniş sülh müqaviləsinin hazırlanıb imzalanmasına tərəfdarıq. Bildirdim ki, bundan ötrü biz müvafiq addımlar atırıq. Ermənistan tərəfi də belə addımlar atmalıdır ki, nəhayət, razılığa gələk. Mən bu görüşü də əhəmiyyətli sayıram. Söhbət zamanı hər iki tərəf öz mövqeyini açıqladı. Bu mövqelərin yaxınlaşması üçün müəyyən addımlar atdıq. Belə qərara gəldik ki, hər iki tərəfin nümayəndələri əldə edilmiş müəyyən razılıqlar əsasında təkliflər hazırlayaraq bizə təqdim edəcəklər.

Mən Amerika Birləşmiş Ştatlarının bir çox təşkilatında, habelə orada yerləşən beynəlxalq təşkilatlarda, məsələn, YUNİSEF təşkilatında oldum, onun sənədini imzaladım. Bu, Azərbaycan üçün çox əhəmiyyətli addım idi. ABŞ-ın Kolumbiya Universiteti nəzdindəki Harriman İnstitutunun kollektivi ilə görüşdüm. Bu institut uzun illər keçmiş Sovet İttifaqını öyrənməklə məşğul olmuşdur. Burada çox yüksək səviyyəli mütəxəssislər, keçmişdə Sovetlər İttifaqında işləmiş səfirlər və diplomatlar fəaliyyət göstərirlər. Onlar məni dəvət eləmişdilər. Mən Azərbaycanın mövqeyi, indiki vəziyyəti, xüsusən Ermənistanın hərbi təcavüzü və bunun acı nəticələri barədə məlumat verdim. Eyni zamanda, yaranmış vəziyyətdən çıxmağa dair respublikamızın mövqeyini açıqladım. Hesab edirəm ki, bu görüş də çox səmərəli oldu.

Səfər zamanı bir qrup iş adamı, Dünya Bankının rəhbərləri, Nyu-Yorkdakı Federal Dövlət Ehtiyat Bankının başçıları ilə görüşdüm. Başqa görüşlərim də oldu. Bu görüşlər beynəlxalq maliyyə təşkilatlan ilə Azərbaycanın əməkdaşlığına, ABŞ-dakı iş adamları ilə respublikamızın müştərək fəaliyyət göstərməsinə həsr edilmişdir. Zənnimcə, bu görüşlər də faydalı idi.

Daha sonra Amerika neft şirkətlərinin rəhbərləri ilə görüşdüm. Biz çox faydalı danışıqlar apardıq. Hər iki tərəf bəyan etdi ki, neft müqaviləsi imzalanmışdır və həyata keçirilməlidir. Azərbaycanda bu sənədi parlament təsdiq etməlidir. Mən həmin müqaviləni Milli Məclisə təqdim etmişəm. Parlament müqaviləni təsdiq edən kimi neft şirkətləri işə başlamağa hazırdırlar. Danışıqlar zamanı neft müqaviləsi ilə bağlı konkret işlər barədə söhbət getdi.

Nyu-Yorkda mənim başqa görüşlərim də oldu və bunların hamısı bir məqsəd daşıyır. Demək istəyirəm ki, səfər günlərinin proqramı çox gərgin idi və mən dövlət başçısı kimi bunu öz borcum sayıram. Güman edirəm ki, bu borcu imkanım daxilində yerinə yetirməyə çalışmışam.

Bildiyiniz kimi, mən İstanbula qədər bizim xüsusi təyyarə ilə, oradan Amerikaya isə "Türk Hava Yolları" şirkətinin adi sərnişin təyyarəsi ilə getdim. Biz həmin təyyarə ilə də İstanbula qayıtdıq. Qayıdanbaş, əvvəlcədən razılaşdığımız kimi, İstanbulda Türkiyə prezidenti cənab Süleyman [333-334] Dəmirəl ilə görüşdüm. Ətraflı söhbət zamanı mən Amerika Birləşmiş Ştatlarındakı danışıqlarım barədə ona məlumat verdim. Müəyyən məsələlər barədə fikir mübadiləsi etdik, Türkiyə ilə Azərbaycan arasında əməkdaşlığın genişləndirilməsi və inkişaf etdirilməsi məsələlərinə toxunduq: Şübhəsiz ki, danışıqlarımızın əsas mövzusu Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü və bunun qarşısının alınması ilə bağlı idi. Süleyman Dəmirəl bizim sülh təkliflərimizi bəyəndiyini bir daha bildirdi. Sonra biz mətbuat nümayəndələri qarşısında çıxış etdik. Türkiyə prezidenti danışıqlarımız barədə öz fikrini söylədi. Güman edirəm ki, Azərbaycan televiziyası bu çıxışları verəcək, cənab Süleyman Dəmirəlin fikirləri sizə məlum olacaqdır. Ona görə də bu barədə geniş danışmağa lüzum görmürəm.

Beləliklə, hesab edirəm ki, mənim bu səfərim Azərbaycanın xarici siyasətində yeni bir addımdır və zənnimcə, qarşıya qoyduğumuz vəzifələr layiqincə yerinə yetirilmişdir. İndi biz görülmüş bu işlərin Azərbaycanda əməli surətdə həyata keçirilməsi ilə məşğul olmalıyıq. Mən Prezident Aparatına, Nazirlər Kabinetinə, Xarici İşlər Nazirliyinə və başqa nazirliklərə bu barədə lazımi göstərişlər vermişəm.

Ümumiyyətlə, hesab edirəm ki, bu bir il ərzində bizim xarici siyasətimiz çox əhəmiyyətli, uğurlu olmuşdur və onu bu şəkildə davam etdirəcəyik. Dediklərimi yekunlaşdıraraq qeyd etmək istəyirəm ki, məhz bu müddətdə apardığımız ardıcıl və fəal xarici siyasət nəticəsində dünyanın ən böyük dövlətləri ilə bilavasitə əlaqə yaratmışıq, dövlət başçıları ilə görüşmüşük və beynəlxalq aləmdə, beynəlxalq təşkilatlarda, xüsusən bu səfər zamanı Birləşmiş Millətlər Təşkilatında Azərbaycan dövlətinin səsi eşidilmiş, onun mövqeyi bildirilərək dünya ictimaiyyətinə çatdırılmışdır. Bir daha deyirəm ki, bütün bunlar apardığımız işlərin müsbət nəticəsidir. Bu istiqamətdə də işimizi davam etdirəcəyik.

Bildiyimiz kimi, son günlər Azərbaycanın həyatında bəzi narahatedici, hətta faciəli hadisələr baş vermişdir. Azərbaycan dövlətinə qarşı cinayət törətmiş dörd nəfər sentyabrın 22-də respublika Milli Təhlükəsizlik Nazirliyinin təcridxanasından qaçırılmışdır və onlar indiyədək tapılmamışdır. Şübhəsiz ki, bu, Azərbaycanda sabitliyi pozmaq, dövlətimizə zərbə vurmaq məqsədi ilə keçirilən əməliyyatdır və mən bunu televiziya ilə ötən çıxışımda demişəm. Bir daha qeyd etmək istəyirəm ki, bu, həm xarici qüvvələrin, həm də daxildə olan, respublikamızın müstəqilliyinə düşmən olan çirkin qüvvələrin birgə fəaliyyətinin nəticəsidir. Bundan məqsəd Azərbaycanda qarışıqlıq yaratmaq, ölkəmizin müstəqilliyinə təcavüz etməkdir. Biz bu hadisəyə öz qiymətimizi verdik və hüquq-mühafizə orqanlarına tapşırdıq ki, lazımi tədbirlər görsünlər.

Mən sentyabrın 29-da Amerika Birləşmiş Ştatlarında olarkən çox ağır xəbər aldım. Həmin gün axşam Azərbaycan Respublikasının iki dövlət xadimi – Ali Sovetin sədr müavini Afiyəddin Cəlilov və Xüsusi İdarənin [334-335] rəisi Şəmsi Rəhimov qəddarcasına, vəhşicəsinə qətlə yetirilmişlər. Mən bu xəbəri BMT Baş Məclisinin sessiyasında çıxış etməyə gedərkən eşitdim. Bu acı xəbər məni çox üzdü, sıxdı, eyni zamanda məni səfərbər etdi və bildirdi ki, bəli, respublikamızda sabitliyi pozmaq, Azərbaycan dövlətinə, ölkəmizin müstəqilliyinə təcavüz etmək istəyən qüvvələr var. Onlar həm Azərbaycanın daxilində, həm də onun xaricindədir. Bu hadisə ilə bağlı mən Nyu-Yorkda bəyanat verdim, onun mətni Azərbaycanda mətbuatda dərc olunmuş, əhaliyə çatdırılmışdır. Ona görə də bir daha təkrar etmək istəmirəm, sadəcə olaraq demək istəyirəm ki, bu, adi bir terror hadisəsi, iki nəfər dövlət xadiminin qətlə yetirilməsi deyil, müstəqil Azərbaycan dövlətinə qarşı yönəldilmiş siyasi terrordur. Şübhəsiz ki, Azərbaycan xalqı buna qarşı öz cavabını, sözünü deməlidir.

Əlbəttə, bu hadisələr bizi üzür, sıxır, kədərləndirir. Ancaq eyni zamanda, mən bunu Nyu-Yorkda və İstanbulda da dedim, bu gün sizə də deyirəm, – bütün bunlar heç vaxt bizim iradəmizi, Azərbaycan xalqının iradəsini, Azərbaycan dövlətinin iradəsini, mətanətini qıra bilməz. Biz bütün bu çətinliklərə sinə gərəcək, onların qarşısını alacaq və bu vəziyyətdən çıxacağıq. Mən bunu sizə bir daha bildirmək istəyirəm.

Ancaq təəssüflər olsun ki, dövlətçiliyimizə qəsd edən qüvvələr yenə də öz əməllərindən əl çəkmirlər. Dünən də belə bir cinayət hadisəsi baş vermişdir. Dünən təxminən axşam saat 8 radələrində Daxili İşlər Nazirliyinin Xüsusi Təyinatlı Polis Dəstəsinin bir qrup üzvü qanunsuz olaraq silahlı halda, qəflətən Azərbaycan Respublikası Prokurorluğunun binasına daxil olmuş, orada atəş açaraq bir çox yerləri dağıtmışdır. Nəhayət, onlar baş prokurorun iş otağına girərək ona ağır fiziki xəsarət yetirmişlər. Silahlı dəstənin bir hissəsi prokurorluğun binasını ələ keçirmiş, bir hissəsi onu bayırdan mühasirə etmiş və hətta binanın damında, həmçinin ətraf binaların damlarında iriçaplı silahlar qoyaraq əməliyyat keçirməyə hazırlaşmışdır.

Onların məqsədinin nədən ibarət olması məlum deyildir. Aldığımız məlumatlardan və həmin dəstəyə başçılıq edən Xətai rayon prokuroru Mahir Cavadovun baş prokurorun birbaşa telefonu ilə mənə verdiyi məlumatdan, daxili işlər nazirinin müavini Rövşən Cavadov oraya gəldikdən sonra onun mənimlə danışığından belə məlum olur ki, guya son vaxtlar inzibati orqanlar, xüsusən prokurorluq Rövşən Cavadovu və Mahir Cavadovu təqib etməyə başlamışdır və ona görə də onlar bu cinayətkar hərəkətə əl atmışlar.

Əslində isə, baş prokurorun verdiyi məlumatdan aydın olur ki, bu iki terror hadisəsi – yəni Afiyəddin Cəlilovun və Şəmsi Rəhimovun qətlə yetirilməsi ilə əlaqədar prokurorluq təhqiqat aparır, bir çox şübhəli adamları saxlayır. Xüsusi Təyinatlı Polis Dəstəsindən olan üç nəfər də şübhəli şəxs kimi saxlanmışdır və onların barəsində müəyyən təhqiqat, araşdırma [335-336] aparılır. Bu, təbii haldır. Əgər kim isə bundan narazıdırsa, bunu ədalətli şəkildə, qanun yolu ilə bildirməlidir. Ancaq bu narazılığı belə cinayət hərəkəti ilə ifadə etmək, şübhəsiz ki, ağlasığan iş deyil. Yəni sadəcə olaraq prokurorluğun həmin tədbirinə cavab deyil, əvvəlcədən hazırlanmış hərəkətdir.

Doğrudur, bu çox ağır cinayətdir, Azərbaycan dövlətçiliyinə qarşı cinayətdir. Çünki Respublika Prokurorluğu və baş prokuroru Azərbaycan dövlətçiliyinin əsas sütunlarından biridir. Əgər bu orqana və onun başında duran adama qarşı təcavüz edilirsə, deməli, Azərbaycan dövlətinə qarşı təcavüz olunur. Biz bunu belə qiymətləndiririk. Şübhəsiz ki, Azərbaycan dövləti bunun qarşısını almağa qadirdir və lazımi tədbirlər görə bilərdi. Lakin bu dəstə çox güclü silahlandığına görə, qəti tədbirlər görülərsə, qan töküləbiləcəyini nəzərə alaraq biz məsələnin dinc yolla, danışıqlar vasitəsilə həllinə çalışdıq. Axşam saat 8-dən, yəni bu hadisə başlanandan səhər saat 7-dək bütün gecəni müəyyən tədbirlər gördük, danışıqlar apardıq. Rövşən Cavadov bir neçə dəfə telefonla zəng etdi. Mən izah etdim ki, onun bu hərəkəti yaramaz hərəkətdir. O, daxili işlər nazirinin müavinidir və mən Azərbaycanın Prezidenti kimi ona bu işdən əl çəkməyi əmr edirəm. Bildirdim ki, bu hərəkətlərin onlardan ötrü heç vaxt müsbət nəticəsi ola bilməz, onlar ağılsızlıq edirlər, bunu bəlkə də təcrübəsizlikdən, yaxud başqa təsirlər altında edirlər.

Mən çalışdım ki, bunu ona izah edim və o, hərəkətindən əl çəksin. Vasitəçilik etmək üçün onların yanına adamlar göndərdik, danışıqlar apardıq və təklif etdik ki, silahları təhvil versinlər. Bildirdik ki, onların binadan salamat çıxmaları üçün şərait yaradılır. Ancaq onlar cinayət törətmişlər və gələcəkdə bunun üçün cavab verəcəklər. Bu, qanuni yolla olacaqdır. Lakin bu gecə heç bir tədbir görülməməli, heç bir toqquşma olmamalıdır.

Biz bu mövqeni axıradək həyata keçirməyə çalışdıq. Baxmayaraq ki, dövlətçiliyimizə qarşı, Azərbaycan Respublikasının müstəqilliyinə qarşı cinayət törədilmişdir, mən hesab edirəm ki, biz doğru addım atdıq. Çünki Azərbaycanın hər bir vətəndaşı mənim üçün, Azərbaycanın Prezidenti üçün əzizdir. Mən hər bir vətəndaşı qorumalıyam. Əgər kim isə cinayət etmişdirsə, onu bu əməldən çəkindirməliyəm və o, belə hərəkəti üçün qanun çərçivəsində cavab verməlidir. Mən hər bir məsələnin dinc yolla, qarşılıqlı anlaşma və danışıqlar vasitəsilə həllinə tərəfdar olduğumu bildirmişəm və indi də bu mövqedən çıxış etdim.

Bütün bunların nəticəsində həmin silahlı qüvvələr, nəhayət, heç bir maneçilik olmadan oradan çıxaraq öz nəqliyyat vasitələri ilə bazalarına getdilər. Danışıqlardan belə başa düşdüm ki, Rövşən Cavadov mənim yanıma gəlmək istəyir. Mənə bir necə dəfə xəbər göndərdi ki, gəlib izahat vermək istəyir. Mən dedim ki, qanunsuz hərəkət etməyinizə, cinayət törətməyinizə baxmayaraq sizi qəbul etməyə və sizinlə danışmağa, məlumatınızı dinləməyə, eyni zamanda bu cinayətkar yoldan çəkinməyin zə[336-337]ruriliyini sizə izah etməyə hazıram. Bunu bir neçə dəfə bildirdim və nəhayət, dedilər ki, səhər silahlı dəstələr oradan çıxanda o, mənim yanıma gələcəkdir. Lakin o gəlib çıxmadı. Bu gün də onun yanıma gəlmək təşəbbüsü barədə mənə xəbər çatmamışdır. Mən bununla maraqlanmışam və belə bir təşəbbüs barədə məlumat verən olmamışdır.

Onlar bu cinayəti etmişlər. Ancaq Azərbaycanın Prezidenti kimi mən hər bir vətəndaşın, o cümlədən həmin Xüsusi Təyinatlı Polis Dəstəsindən bu cinayəti edən adamların, onlara başçılıq edən Mahir Cavadovun, Rövşən Cavadovun da qayğısına qalıram. Bu baxımdan mən məsələnin qanun çərçivəsində, Azərbaycan dövlətçiliyinin qorunması şərtləri daxilində ağılla həllinin tərəfdarıyam və bunu istəyirəm. Ona görə də bu təklifləri onlara verdim. Zənnimcə, biz məsələnin bir hissəsini düzgün həll etməyə, yəni onların oradan hadisəsiz, toqquşmasız çıxıb getməsinə, prokurorluğun binasının azad edilməsinə nail olduq.

Ancaq cinayət cinayətliyində qalır. Respublika prokuroru ağır fiziki xəsarət almışdır. O, indi müalicə edilir. Binaya böyük zərər dəymişdir. Respublika Prokurorluğunun rəhbər işçiləri, 30-40 nəfərə qədər adam səhərədək orada həbs vəziyyətində qalmışdır. Şübhəsiz ki, onlar da təhqir olunmuşlar. Bütün bu hərəkətlər cinayətdir. Respublika prokuroru xəstə olduğuna görə onun vəzifəsini icra edən Eldar Həsənov məlumat verdi ki, bu hadisə barədə cinayət işi qaldırılmışdır. İstintaq gedir və qanun çərçivəsində məsələni araşdıracaqdır. Hesab edirəm ki, belə də olmalıdır.

Məsələ bununla qurtarmır. Odur ki, biz şərt qoymuşduq, təklif etmişdik: onlar silahlarını təhvil verməli, təslim olmalıdırlar. Lakin onlar çıxıb getmişlər və bundan sonra qanun qarşısında cavab verməlidirlər. Halbuki silahları təhvil vermək üçün onlara şərait yaradılmışdır. Budur, indi onlar 8-ci kilometr qəsəbəsində Xüsusi Təyinatlı Polis Dəstəsinin – XTPD-nin bazasında qərar tutmuş, silahları, o cümlədən ağır silahları hazır vəziyyətə gətirmiş və yenə də öz cinayətlərini davam etdirirlər.

İnzibati orqanlarımızın nümayəndələri onlarla əlaqəyə girmiş və danışıqlar aparırlar, izah etmişlər ki, bu hərəkətlərdən əl çəksinlər. Amma onlar öz əməllərindən əl çəkmirlər. Buna görə də bu gün mən səfərimlə bağlı məsələləri, habelə Azərbaycanda baş vermiş terrora dair fikir və mülahizələrimi sizə çatdırmaqla yanaşı, bu məsələ barəsində də geniş məlumat vermək istəyirəm. Eyni zamanda, Azərbaycan Prezidenti kimi, öz mövqeyimi bildirmək istəyirəm.

Onların dünənki hərəkəti, o hərəkətin bugünkü davamı göstərir ki, burada dövlət çevrilişinə cəhd edilir. Çünki onlar oradan ultimatumlar, o cümlədən də dövlətin rəhbərliyinə qarşı ultimatum verir, dövlət başçılarından bəzilərinin istefasını tələb edirlər. Halbuki, bunun üçün heç bir [337-338]əsas yoxdur. Əgər bu ultimatumlar yerinə yetirilməsə, onlar yenə də cinayət edəcəklər. Bilirsinizmi, respublikamız belə ağır vəziyyətdə olduğu halda, Ermənistanın təcavüzü nəticəsində Azərbaycan torpaqlarının 20 faizi işğal edildiyi halda, ölkəmiz ağır böhran keçirdiyi dövrdə, işğal olunmuş torpaqlardan bir milyon nəfərdən artıq qaçqının ağır şəraitdə yaşadığı bir dövrdə, son aylarda beynəlxalq aləmdə Azərbaycan haqqında obyektiv fikir yaratdığımız bir dövrdə, Azərbaycanın düşdüyü vəziyyət böyük dövlətlərdə, onların ictimaiyyətində, beynəlxalq təşkilatlarda daha obyektiv şəkildə dərk edildiyi bir vaxtda, Azərbaycan Respublikasının mövqeləri beynəlxalq meydanda möhkəmləndiyi vaxtda, böyük bir neft müqaviləsi imzalandığı bir dövrdə Azərbaycanda dalbadal bu cür faciəli hadisələrin baş verməsi onu göstərir ki, ölkəmizə təcavüz edən qüvvələr fəaliyyətindən qalmır, istər xaricdə, istərsə də daxildə Azərbaycanı dağıtmağa, parçalamağa, məhv etməyə can atan qüvvələr var. Bunlar öz şəxsi mənafelərinə çatmaq, şəxsi hikkələrini həyata keçirmək üçün, çirkin məqsədlərinə nail olmaq üçün bu yollara gedir, imzalanmış müqavilənin əleyhinə çıxırlar. Ona görə də bu cür əməllərə əl atırlar.

Məhbuslar təcridxanadan qaçırılır, adamlar vəhşicəsinə qətlə yetirilir. Bu qədər vəhşilik azərbaycanlılarda heç vaxt olmayıbdır. Heç bir günahı olmayan, dövlətin idarə edilməsi sahəsində böyük fəaliyyət göstərən adamları qəflətən, vəhşicəsinə öldürmək – inanın ki, bu, bizim xalqımıza yaraşmayan və xas olmayan vəhşilik nümunəsidir, xalqımızın müsbət keyfiyyətlərini, heç bilirsinizmi, nə qədər ləkələyir. Biz çalışırıq ki, xalqımızın bütün gözəl ənənələrini, gözəl keyfiyyətlərini, çox yüksək mədəniyyətə malik olduğunu bütün dünyada təbliğ edək, yayaq, müstəqil Azərbaycanı hər yerdə tanıdaq, Azərbaycan xalqının nail olduğu milli azadlığın qorunmasını təmin edək.

Belə olduğu halda bu hərəkət arxadan endirilmiş zərbədir. Təəssüf ki, içərimizdəki bəzi adamlar xarici qüvvələrin əlində bir alətə çevrilərək, belə əməllər tuturlar. Bunlar həm də hakimiyyət uğrunda mübarizəni dayandırmırlar. Əziz qardaşlar, əziz bacılar, əziz həmvətənlər, bir deyin görək, Azərbaycanda hakimiyyət uğrunda nə qədər mübarizə gedə bilər? Nə qədər, nə vaxtadək? Heç bir il keçməyibdir ki, biz vətəndaş müharibəsinin qarşısını almışıq. Ötən ilin iyununda Gəncədə baş vermiş qardaş qırğınının qarşısını aldıq. Biz Azərbaycanı parçalamaq istəyən qüvvələri təkləyib təcrid etdik. Halbuki Azərbaycan artıq parçalanmışdı – cənubda da, başqa yerlərdə də. Bəzi cinayətkar qüvvələr Azərbaycanın ayrı-ayrı yaşayış məntəqələrini əllərinə keçirmişdilər. Biz bunların qarşısını aldıq, cinayətkarları təcrid etdik, onları qanun qarşısında cavab verməyə gətirdik. Budur, yeni hadisələr baş verir. Azərbaycanı yenə də sarsıtmaq, dağıtmaq, onun müstəqilliyinə qəsd etmək istəyirlər – bütün bunları ayrı cür qiymətləndirmək olmaz.

Ayın 22-də məhbusların qaçırılması, sonra dövlət xadimlərinə qarşı [338-339] sui-qəsd və nəhayət, dünən axşam saat 8-dən başlanmış və indi davam edən cinayət əməliyyatı bir-biri ilə bağlı olan, bir-birini tamamlayan hərəkətlərdir – Azərbaycanın müstəqilliyinə qarşı qəsd, təcavüz hərəkətləridir. Odur ki, biz bu hərəkətlərin qarşısını almalıyıq. Bu, bizim borcumuzdur. Biz belə də edirik və edəcəyik.

Zənnimcə, indi Azərbaycan xalqı ayağa qalxmalıdır. Hər bir vətəndaş, vətəninə sadiq olan hər bir qeyrətli, vətənpərvər insan bu məsələləri özü götür-qoy etməli, öz mövqeyini bildirməli, Vətənimizdə, ictimai-siyasi həyalımızda öz yerini tutmalıdır. Biz hamımız əl-ələ verməliyik, bu ağır vəziyyətdən çıxmaq üçün birləşməliyik. Buna görə də mən xalqı milli həmrəyliyə, milli birliyə dəvət edirəm. Xalqı dəvət edirəm ki, bu ağır günlərdə bütün dedi-qodular bir kənara atılsın, bütün umu-küsülərə son qoyulsun, xalq birləşsin. Çünki respublikanın, müstəqil Azərbaycanın dövlətçiliyi təhlükə qarşısındadır. Bəzi qüvvələr hərəsi bir tərəfdən hərəkət edərək Azərbaycanı dağıtmağa can atırlar. Buna görə də kim Azərbaycanı sevirsə, kim onun müstəqilliyini istəyirsə, kim bir Azərbaycan vətəndaşı kimi öz vətənpərvərlik hisslərini və duyğularını bildirmək istəyirsə, hamı ayağa qalxmalı, səsini ucaltmalı, münasibətini göstərməlidir. Əvvəlki hadisələr kimi, bu son hadisə də Azərbaycanda daxili sabitliyi pozmaq, dövlət çevrilişi etmək cəhdidir. Mən bunu məhz belə qiymətləndirirəm. Bildiyimiz kimi, son aylar ərzində ictimaiyyət arasında da, cəmiyyətdə də çox danışıqlar, söz-söhbətlər gedir, mətbuatda da yazılır, ayrı-ayrı ölkələrin kütləvi informasiya vasitələrində qızışdırıcı məqalələr verilirdi ki, dövlət çevrilişi hazırlanır, dövlət çevrilişi olacaqdır və s. və i. a. Mən bütün bu söz-söhbətləri, məqalələri həmişə çox soyuqqanlılıqla qarşılayırdım. Elə bu gün də sizinlə çox soyuqqanlı, təmkinlə danışıram. Çünki mən Azərbaycan xalqının iradəsinə arxayınam. Çünki mən müstəqil Azərbaycan dövlətinin qüdrətinə arxayınam.

Ona görə də bunların hamısını soyuqqanlılıqla qarşılayır və hesab edirəm ki, Azərbaycanda sabitliyi pozmağa, yaxud yenə də çevriliş etməyə çalışan qüvvələr anlamalıdırlar: Azərbaycan Respublikasının müstəqilliyi, mənafeyi hər şeydən üstün olmalıdır. Azərbaycanın müstəqil dövlət kimi mənafeyi dünyada hər şeydən uca olmalıdır. Mən həmişə belə düşünmüşəm və bu gün də belə düşünürəm. Ona görə də belə hesab edirəm ki, o cinayəti törədənlər tutduqları yoldan, nəhayət qayıtmalıdırlar.

Onlar, bir qrup adam cinayət törədirsə, bu cinayəti Azərbaycan dövləti əleyhinə, milli azadlığımız əleyhinə törədirlər. Beləliklə də bunlar Azərbaycanı dağıtmaq məqsədinə xidmət edirlər. Bunu onlar, o cümlədən dünən bu cinayəti edənlər də, o dəstəyə girən adamlar da bilməlidirlər. Bunu hamı bilməlidir.

XTPD Azərbaycanda neçə illərdir fəaliyyət göstərir. Azərbaycan torpaqlarının qorunmasında onun xidmətləri olmuşdur. Bu dəstinin üzvləri arasında çox namuslu, qeyrətli, cəsarətli Azərbaycan oğulları var. Onlar [339-340] döyüşüblər, torpaqlarımızın müdafiəsi uğrunda qanlarını axıtmış, bəziləri bu yolda canından keçərək şəhid olmuşlar. Bu vətənpərvər oğullar torpaqlarımızın müdafiəsi naminə hünər göstərmişlər. Bax, buna görə də Xüsusi Təyinatlı Polis Dəstəsinin tarixi, fəaliyyəti, göstərdiyi xidmətlər qiymətləndirilməlidir. Bunları Azərbaycan xalqı, eləcə də Azərbaycan dövləti lazımınca qiymətləndirir və qiymətləndirməlidir. Şəhid olanlara mən həmişə "Allah rəhmət eləsin" demişəm.

Bu yaxınlarda mən XTPD-nin üzvü – torpaq uğrunda, Vətən yolunda vuruşmuş Tahir Həsənovun xatirə günündə iştirak etdim. Bakıda, şəhərin mərkəzində məktəblərdən birinə onun adı verilmişdir. Həmin məktəbin binası qarşısında onun xatirə lövhəsinin açılış mərasimində çıxış etdim. Mərasimdə həm Tahir Həsənov haqqında, həm də ümumiyyətlə, XTPD-nin xidmətləri barədə, şəhidlər haqqında öz fikirlərimi söylədim, o şəhidlərin ruhu qarşısında baş əydim. Mən onların ruhu qarşısında bu gün də baş əyirəm. Amma təəssüflər olsun ki, ayrı-ayrı cinayətkar adamlar Xüsusi Təyinatlı Polis Dəstəsinin bəzi üzvlərini ələ keçirmiş, onları yoldan çıxarmış, cinayətə cəlb etmişlər. Çox təəssüflənirəm ki, son vaxtlar onların bir qismi cinayətlər törətdiyinə görə inzibati orqanlar tərəfindən həbs olunmuş, cinayət məsuliyyətinə cəlb edilmiş, cəza almışdır, yaxud da onların barəsində təhqiqat aparılır. Bu, olduqca təəssüflü haldır.

Dünən mən Xüsusi Təyinatlı Polis Dəstəsinin nümayəndələrindən biri ilə danışdım. O, çox yaxşı fikirli adamdır. Mən rəisin birinci müavinini nəzərdə tuturam. Gərək ki, familiyası Cəfərovdur. Yenə deyirəm, o, yaxşı fikirli, sağlam düşüncəli adamdır. Onu Tahir Həsənovun xatirə günündə də görmüşdüm, – mərasimdə çıxış etmişdi. Mən onu da başa salmağa çalışaraq dedim ki, sizin xidmətləriniz böyükdür, biz bunu qiymətləndiririk. Amma bu xidmətləriniz heç vaxt heç kəsə əsas verməz ki, siz gəlib qanunu pozasınız, qanun çərçivəsindən kənara çıxasınız, hətta cinayətə əl atasınız. Əgər kiməsə qarşı ədalətsizlik edilibsə, bu ədalətsizliyi qanun yolu ilə, haqq-ədalətlə aradan qaldırmaq lazımdır. Amma ədalətsizliyə qarşı böyük bir cinayət törətmək ədalətsizlikdən də betərdir, ondan qat-qat artıqdır. Bunun özü də böyük cinayətdir. Dünən mən bunu Rövşən Cavadova da, görüşdüyüm digər adamlara da başa salmağa çalışdım.

Odur ki, bu gün mən çıxış edərkən Xüsusi Təyinatlı Polis Dəstəsinin istər keçmiş, istərsə də indiki üzvlərinə, döyüşçülərinə üz tuturam, bir prezident kimi, Azərbaycanın həyatında zəngin təcrübə toplamış, zəngin həyat təcrübəsi olan bir adam kimi müraciət edir və deyirəm ki, bu cinayəti törədənlər cinayət yolundan çəkilsinlər. Bilsinlər ki, onların xidmətləri yüksək qiymətləndirilir və bundan sonra da yüksək qiymətləndiriləcəkdir.

Lakin hər bir xidmət nə qədər yüksək olsa da, heç vaxt heç kəsə bəraət qazandıra bilməz ki, kimsə belə xidməti olduğuna görə gedib qanun[340-341]suz əməl tutsun, yaxud cinayət törətsin. Vəzifəsindən, xidmətindən, ad-sanından asılı olmayaraq, heç kəs qanunsuz hərəkət etməməlidir. Hər bir şəxs qanun çərçivəsində yaşamalı, qanun çərçivəsində işləməlidir.

Ona görə də bu gün mən Xüsusi Təyinatlı Polis Dəstəsinə, onun nümayəndələrinə, rəhbərlərinə ürək ağrısı ilə müraciət edirəm: bilin ki, mən sizin hər birinizi Azərbaycan vətəndaşı kimi qiymətləndirirəm, hətta günahı olan adamların da qayğısına qalmağa hazıram. Amma bu cinayət yolundan əl çəkmək lazımdır. Bu yol heç bir nəticə verə bilməz, heç bir! Siz artıq qan tökmüsünüz. Mən bunu hamıya şamil etmirəm, – ayrı-ayrı adamlar qan tökmüşlər. Dünən XTPD-nin bəzi üzvləri prokurorluğun binasını zəbt edərkən çoxlu atəş açmışlar. Lakin mən qoymadım ki, dövlət orqanları, hüquq-mühafizə orqanları tərəfindən lazımi addım atılsın. Amma XTPD üzvləri atəş açdılar, iki polis nəfərini yaraladılar.

Bu gün onlar dediyim həmin bazaya yığışıblar. Bazanın ətrafındakı binaların üstünə silah, hətta ağır silahlar qoyublar, yəni müharibəyə başlayıblar. Hələ bir ultimatum da veriblər. Bu gün baş nazir Surət Hüseynov mənə məlumat verdi ki, Rövşən Cavadov ona zəng vurub, böyük bir ultimatum göndərib ki, Ali Sovetin sədri, daxili işlər naziri, baş prokuror istefaya getməlidirlər. Nə üçün, nə səbəbə görə? Kimin nə sözü varsa, qoy gəlsin, danışaq. Heç belə məsələləri güc ilə, zor ilə həyata keçirmək olar? Özü də kim həyata keçirməyə çalışır? XTPD-nin öz yeri, öz vəzifələri var. Əvvəla, o, siyasətə qarışmamalıdır. O, Daxili İşlər Nazirliyinin bir hissəsidir. Daxili İşlər Nazirliyi də artıq məlumat vermişdir ki, həmin dəstədə olan polislər nazirliyin tabeliyindən çıxmışlar. Deməli, burada qanun pozulmuşdur. Onlar siyasətə qarışmamalıdırlar. Ancaq dövlət haqqında, dövlətin siyasəti haqqında, rəhbər işçiləri haqqında kimin nə sözü var, nə təklifi varsa, gəlib deyə bilər, yaza da bilər. Axı aşkarlıqdır, söz azadlığıdır. Amma ağır silahdan, özü də dövlətdən götürülən silahdan, dövlətin bu dəstəyə verdiyi silahdan istifadə edib zor işlətmək, öz iddialarını yeritmək, həyata keçirməyə çalışmaq böyük bir cinayətdir. Şübhəsiz ki, buna yol vermək olmaz.

Hüquq-mühafizə orqanlarımızın nümayəndələri mənə məlumat verdilər ki, həmin yaşayış məntəqəsində asayişi qorumaq və bu dəstənin yenidən cinayət törətməsinin qarşısını almaq üçün oraya müəyyən qüvvələr gətirilmişdir. Bu da təbiidir. Bəs necə ola bilər ki, dövlətin Xüsusi Təyinatlı Polis Dəstəsi onun tabeliyindən çıxsın, dövlət orqanlarına qarşı cinayət törətsin və dövlət orqanları da durub buna tamaşa etsinlər? Bu, əsla ola bilməz və mümkün deyildir. Onda dövlət daha dövlət olmaz. Buna görə do şübhə yoxdur ki, hüquq-mühafizə

orqanlarının müəyyən qüvvələri oraya toplaşmışdır. Ancaq sadəcə olaraq müşahidə etmək üçün toplaşmışlar, başqa bir məqsəd üçün yox.

Lakin bir neçə saat bundan qabaq mənə məlumat verdilər ki, XTPD-nin üzvləri atəş açmışlar. Ordunun dörd nəfər gənc üzvü yaralanıb. Onlar 18-19 yaşlı cavanlardır. Bu döyüşçülərdən biri – Bayramov ağır yaralıdır. [341-342] İki saat bundan öncə mənə xəbər verdilər ki, indi cərrahlar onun həyatı uğrunda mübarizə aparır, xilas etməyə çalışırlar. Qan tökülüb. Nəyə görə, nəyin naminə? Bu adamlar – cinayətə cəlb edilənlər qardaş qanını nə səbəbə görə tökürlər? Mahir Cavadov, Rövşən Cavadov nə üçün bu qanı tökürlər? Öz iddialarını yerinə yetirmək üçün? Əgər onların bir iddiası varsa, məgər bunu qanuni yolla həyata keçirmək olmazmı? Axı respublikamızda demokratik, hüquqi dövlət qurulur. Demokratiya hamıya şərait yaradıb ki, sözünü desin, qəzetdə çıxış etsin, öz təkliflərini versin. Amma Daxili İşlər Nazirliyinin Xüsusi Təyinatlı Polis Dəstəsi, yenə deyirəm, siyasətə qarışa bilməz. Rayon prokuroru siyasətə qarışa bilməz. Daxili işlər nazirinin müavini siyasətə qarışa bilməz. Bütün bunlar qanun-qaydadan, ümumi təcrübədən kənar hallardır. Onlar anlamalı, dərk etməlidirlər ki, çox səhv yola düşmüşlər, kiminsə əlində alətə çevrilmişlər. Onların hansı qüvvələrin əlində alətə çevrildiyi aydındır. Buna görə də mən belə hesab edirəm ki, dünəndən bəri aparılan müşahidələr də onu göstərir ki, hansı qüvvələrsə onları bu əmələ vadar edib və söz veriblər ki, onları müdafiə edəcəklər. Bununla da dövlət çevrilişi ediləcəkdir. Lakin onlar buna nail ola bilmədilər. Bu gün də nail ola bilməyəcəklər, sabah da.

Mən yenə də istəmirəm ki, Azərbaycanda qan tökülsün. İnanın, mən bunu istəmirəm. XTPD-nin ayrı-ayrı üzvləri tərəfindən artıq altı adam yaralanmışdır, bir nəfər ölümcül vəziyyətdədir. Onlar qan tökmüşlər, törətdikləri cinayətin üstünə daha bir cinayət də gəlmişdir. Bütün bu cinayətləri törətmələrinə baxmayaraq, mən onları yenə də haqqa, ədalətə dəvət edirəm. Mən bir dövlət başçısı kimi onların hamısına müraciət edirəm: ayılın, bir fikirləşin, düşünüb-daşının, bilin ki, həyat bununla bitmir. Əgər siz, doğrudan da, torpaqlarımızın müdafiəsi üçün döyüşmüşsünüzsə, qanınız tökülübsə və xalq bunu qiymətləndirirsə, elə isə nə üçün bu gün, hələ möhkəmlənməmiş olan müstəqil Azərbaycan dövlətinin dağılmasına cəhd göstərilsin? Nə üçün? Sizə nə lazımdır?

Mən müraciət edirəm Rövşən Cavadova, – baxmayaraq ki, o, böyük cinayət törətmişdir, – onun rəhbərliyi altında olan polislərin hər birinə müraciət edirəm: düz yola gəlin, ayılın, hələ gec deyildir. Siz özünüzü də, bu xalqı da uçuruma aparırsınız. Bunu bilməlisiniz. Mən sizə bəyan edirəm ki, tutduğunuz bu yoldan dönüb çəkilmək hələ gec deyildir. Əgər indi bu yoldan çəkilsəniz, bu, lazımınca qiymətləndiriləcək və sizə müəyyən güzəştlər edilə bilər. Amma bu yoldan çəkilməsəniz, onda bilin ki, siz Azərbaycanı dağıtmaq istəyirsinizsə, buna nail ola bilməyəcəksiniz. Əvvəla, buna Azərbaycan xalqı heç vaxt yol verməz, – mən hesab edirəm ki, bu gün Azərbaycan xalqı bir nəfər tək ayağa qalxmalıdır. İkincisi, əgər sizin kimi cinayətkar adamlar Azərbaycanı doğrudan da dağıda bilərlərsə, onda bu, tarixi bir cinayət olacaqdır.

Mən Xüsusi Təyinatlı Polis Dəstəsinin ayrı-ayrı üzvlərinə müraciət [342-343] edirəm, cavan olduqlarına görə onların ailələrinə, atalarına, analarına müraciət edirəm: əziz bacılar və qardaşlar, bilin və agah olun ki, sizin övladlarınız göstərdikləri böyük xidmətləri indi necə də ləkələyirlər.

Mən atalara, analara, o polislərin həyat yoldaşlarına müraciət edirəm: siz öz oğullarınızı, qohum-əqrəbanızı, ərlərinizi başa salın ki, bu cinayətdən çəkinmək lazımdır.

Bu gün mən Azərbaycanda böyük hörmət sahibi olan Bəxtiyar kişiyə – Bəxtiyar Cavadova müraciət edirəm. Mən onu tanıyıram, Azərbaycanın hörmətli adamlarındandır, uzun müddət hüquq-mühafizə orqanlarında işləyib, özü də çox sədaqətlə işləyib, hörmət qazanıbdır. Xatirimdədir, təxminən iki ay bundan öncə televiziya ilə çıxış edirdi. Onun çıxışını mən də gördüm. Azərbaycan haqqında, ölkəmizin müstəqilliyinin qorunması haqqında çox ürək ağrısı ilə danışırdı. Bu hörmətli Bəxtiyar kişi Rövşən və Mahir Cavadovların atasıdır. Bəxtiyar kişi, mənim səsimi eşidirsiniz, mən sizə müraciət edirəm. Siz dünyagörmüş adamsınız. Amma biganə qala bilməzsiniz ki, övladlarınız, iki oğlunuz bu gün çox qanunsuz bir yola düşmüşdür. Yox, siz buna biganə qala bilməzsiniz. Əvvəla, onlar sizin övladlarınızdır, onların həyatları sizin üçün əzizdir. İkincisi isə, siz Azərbaycanın müstəqilliyi yolunda xidmətləri olan adamsınız, ağsaqqal, hörmətli adamsınız. Bilin ki, bu hərəkətlər sizi və bütün nəslinizi ləkələyir. Düşünürəm ki, siz bunu dərk edirsiniz. Sizin kimi, mən də təcrübəli adamam, sizin təki təcrübəli adam, həyat görmüş adam kimi sizə müraciət edirəm: bunun qarşısını alın, oğullarınızı bu yoldan çəkindirin. Belə əməllərin axırı yoxdur, qətiyyən yoxdur. Mən sizə müraciət və sizi əmin edirəm ki, bu sahədə xidmətlərinizi Azərbaycan xalqı heç vaxt unutmayacaq və lazımınca qiymətləndirəcəkdir. Sizin xidmət göstərməyə, öz sözünüzü deməyə imkanınız var. Mən sizi buna dəvət edirəm.

Mən bütün Azərbaycan xalqına müraciət edirəm, Azərbaycanın hörmətli şəxslərinə – ziyalılara, alimlərə, mədəniyyət xadimlərinə, yazıçılara, xalqımızın və cəmiyyətimizin önündə gedənlərə müraciət edirəm: indi Azərbaycanın bu vəziyyətinə biganə qalmaq olmaz. Təəssüflər olsun ki, son illər bu biganəlik bir çox adamlara sirayət etmişdir. Ola bilsin ki, bunun obyektiv səbəbləri var. Çünki Azərbaycanda həyat o qədər qarışıq, o qədər çətindir ki, bax, bu cür cinayət halları adamları elə qorxudub, elə həyəcanlandırıb ki, bəziləri bir kənara çəkilir, bəziləri də hər şeyə biganə qalırlar.

Əziz bacılar və qardaşlar, belə olmaz, əsla olmaz. Xalqın taleyinə, müqəddəratına biganə qalmaq olmaz. Xüsusən də xalq içərisində tanınmış adamlar, xalq arasında barmaqla göstərilən, həmişə xalqın hörmətini

görmüş, həmişə dövlətin qayğısı ilə yaşamış adamların biganə qalmağa mənəvi haqqı yoxdur. Bir daha deyirəm, yoxdur! Ona görə də mən sizə müraciət edirəm. Axı sizin çoxunuz dünyagörmüş adamlardır. Siz – ziyalılarımız, hörmətli adamlarımız, ictimai-siyasi xadimlərimiz Azərbaycanın keçmişini də görmüsünüz, bu gününü də görürsünüz, gələcəyini də dü[343-344]şünürsünüz. Ona görə də səsinizi qaldırın, ayağa qalxın. Mən sizə deyirəm: bu gün Azərbaycanın dövlətçiliyi təhlükə qarşısındadır. Çünki cürbəcür düşmən qüvvələri birləşirlər.

Bizim bir hədəfimiz, bir məqsədimiz var – Azərbaycanı erməni təcavüzündən qurtarmaq. Mən bunu hamıya müraciətlə deyirəm. Azərbaycanın işğal olunmuş torpaqlarını azad etmək, bir milyon nəfərdən çox qaçqını öz yurd-yuvasına, doğma yerlərinə qaytarmaq, dağılmış evləri, binaları, yaşayış məntəqələrini bərpa etmək, Azərbaycanın ərazi bütövlüyünü təmin etmək – bax, budur bizim məqsədimiz, Azərbaycan Respublikasını, müstəqilliyimizi qorumaq – bax, budur bizim məqsədimiz. Hamımız bir hədəfi vurmalı, bu məqsəd uğrunda çalışmalıyıq. Bu, hamı üçün hər şeydən üstün olmalıdır. Bu amal naminə başqa şeyləri bir kənara atmaq lazımdır. Kimin kimdən xoşu gəlir, kimin kimdən xoşu gəlmir, kimsə hakimiyyətə gəlmək istəyir, – qoy oturub fikirləşsin, görsün ki, o, hakimiyyəti idarə etmək iqtidarındadırmı, bunun üçün imkanı, bacarığı, təcrübəsi var, ya yox? Əgər varsa, onda qoy hakimiyyətə qanuni yolla gəlsin. Heç bir cəmiyyətdə zorla iqtidara gəlmək mümkün deyildir. İqtidara zorla gələn iqtidarı saxlaya bilməz. Bunu tarix göstəribdir. Bunu bütün ölkələrin təcrübəsi, o cümlədən bizim müstəqil Azərbaycanın son illərdəki təcrübəsi də göstərib.

Odur ki, ümumi məqsədlərimiz uğrunda mübarizə aparmaq lazımdır. Bunun üçün hamı ayağa qalxmalıdır. Mən yenə də ziyalılarımıza, hörmətli adamlarımıza, ictimai-siyasi xadimlərimizə müraciət edirəm ki, bu gün ayağa qalxsınlar, bu cinayətin qarşısını alsınlar. Mən bu cinayətin qarşısını silah gücünə almaq istəmirəm, bunu istəmirəm. Mən istəmirəm ki, qan tökülsün. Lakin qoy hörmətli adamlar ayağa qalxsınlar, gedib onlarla danışsınlar, o gəncləri başa salsınlar, düz yola çağırsınlar. Biz bu cinayətin qarşısını ancaq belə yolla ala bilərik. Mən bu yolu təklif edirəm.

Məlumdur ki, dövlətin gücü var, ordusu var, hüquq-mühafizə orqanları var. Dövlət özünü müdafiə etməyə qadirdir. Dediyim kimi, o cinayətkar ünsürlər artıq qan töküblər, bunu dayandırmaq lazımdır. Qoymaq olmaz ki, qan tökülməsi davam etdirilsin. Qan onsuz da tökülür, torpaqlarımız qana batıbdır. Ermənistan silahlı qüvvələrinin işğal etdiyi ərazilərdə torpaqlarımız qana bulaşıbdır. Məgər o qanlar bəs deyilmi? İndi niyə biz burada, öz aramızda qan tökməliyik?

Buna görə də ziyalılarımıza, hörmətli adamlarımıza, ictimai-siyasi xadimlərimizə, ağsaqqallarımıza üz tutub deyirəm ki, onlar ayağa qalxsınlar, bir kənara çəkilib durmasınlar, gedib evlərində oturmasınlar, gəlib meydana çıxsınlar və bu cinayətin qarşısını almaq üçün xalqı birləşdirsinlər. Mən xalqı birləşdirmək istəyirəm. Ancaq onu da istəyirəm ki, xalqın önündə gedən adamlar bu işdə iştirak etsinlər.

Mən bütün hakimiyyət orqanlarına, hüquq-mühafizə orqanlarına, yerli hakimiyyət orqanlarının rəhbərlərinə, rayon və şəhərlərin, Bakının və digər yaşayış məntəqələrinin bütün hakimiyyət orqanlarının rəhbər[344-345]lərinə, nazirlərə, dövlət işçilərinə, idarə və müəssisə rəhbərlərinə, zavod və fabrik direktorlarına müraciət edirəm: gücünüzü toplayın. Bu gün Azərbaycan dövlətçiliyini qorumaq üçün gərək hərə öz köməyini və xidmətini göstərsin. Hərəniz bir vəzifə tutursunuz, hər birinizə etimad göstərilib. Siz, bu vəzifələrə dövlətin siyasətini, tədbirlərini həyata keçirmək üçün təyin edilmisiniz. Buna görə də fəaliyyət göstərməlisiniz.

Mən siyasi partiyalarımıza müraciət edirəm. Onların arasında hakimiyyətə qarşı müxalifətdə duran qüvvələr var. Bu, təbiidir. Demokratik cəmiyyətdə müxalifət olmalıdır. Müxalifətin olması da məhz demokratiya deməkdir. Söz azadlığı, siyasi plüralizm, insan hüquqlarının qorunması – bunların hamısı respublikamızda bərqərar edilmişdir. Bizdə siyasi partiyalar da, ictimai təşkilatlar da, o cümlədən Xalq Cəbhəsi də fəaliyyət göstərir. Lakin mən hesab edirəm ki, bu gün, Azərbaycanın müstəqilliyini qorumaq, Azərbaycanı indiki təhlükədən xilas etmək zərurəti meydana çıxdığı bir vaxtda müxalifət prinsipləri ikinci sıraya keçməlidir. Bu gün biz hamımız birləşib Azərbaycanın müstəqilliyini qoruyub saxlamalıyıq və qoymamalıyıq ki, bəzi qüvvələr Azərbaycan Respublikasını dağıtsınlar. Ona görə də mən bütün ictimai-siyasi xadimlərə, siyasi partiyalara, ictimai təşkilatlara, Xalq Cəbhəsinə və onların rəhbərlərinə müraciət edirəm: hər bir təşkilat, hər bir partiya öz vətənpərvərlik, vətəndaşlıq borcunu yerinə yetirməlidir, respublikanın bu ağır günündə öz sözünü deməli, öz xidmətini göstərməlidir, xalqı birləşdirmək üçün fəaliyyətdə olmalıdır.

Şübhəsiz ki, cəmiyyətimizdə bu cinayəti törədən qüvvələr var. Ancaq onlar azlıq təşkil edirlər. Cəmiyyətimizin böyük əksəriyyəti sağlam qüvvələrdən ibarətdir. Müxalifətdə olan partiyaların əksəriyyəti sağlam fikirlərlə, amallarla yaşayan partiyalardır. Əlbəttə, bəzi prinsiplərdə fikir ayrılığı var. Bu, tamamilə təbii haldır. Lakin Azərbaycanın müstəqilliyini qorumaq, Azərbaycanı daha ağır vəziyyətə salmamaq üçün indi hamı birləşməlidir. Təsəvvür edin ki, dünən bu hadisə baş verən kimi Goranboy tərəfdə ermənilərin iri silahlı dəstələri hücuma keçmişlər. Düzdür, hücumun qarşısı alındı, danışıqlar aparıldı, atəş dayandırıldı. Amma təsəvvür edin ki, daxilimizdə bütün qayda-qanunları pozurlarsa, deməli, bu, xarici düşmənlərimizə, torpaqlarımızı zəbt edənlərə daha əlverişli şərait yaradır. Biz bunu ötən illərdə də görmüşük. Həmin illərdə bunların hamısı olmuşdur. İndi kimsə bunları bir daha təkrar etmək istəyir. Belə şeylərə yol vermək olmaz.

Güman edirəm ki, siyasi partiyaların, ictimai-siyasi təşkilatların hər biri öz mövqelərini müəyyənləşdirəcək, Azərbaycanın müstəqilliyini və dövlətçiliyini qorumaq üçün xalqın ümumi işinə qoşulacaq

və bu cinayətkar ünsürlərin qarşısını almaq üçün lazımi tədbirlər görəcəkdir. Mən buna ümid bəsləyirəm və arzu edərdim ki, bu ümidlər doğrulsun. [345-346]

Mən ordumuza müraciət edirəm. Azərbaycanın Milli Ordusu artıq formalaşmışdır. O, son döyüşlərdə – bu ilin əvvəlindən indiyədək gedən döyüşlərdə özünü cəsarətli bir ordu kimi göstərmişdir. Məhz Milli Ordumuzun qətiyyətli müqaviməti nəticəsində erməni silahlı qüvvələrinin hücumları dayandırıldı və mayın 12-də atəşkəs haqqında saziş əldə olundu. Beş aya yaxındır ki, atəşkəs davam edir. Biz bildirmişik, mən Amerika Birləşmiş Ştatlarında olarkən cənab Bill Klintonla görüşümdə də demişəm, Ermənistan prezidenti Ter-Petrosyanla görüşümüzdə də hər ikimiz bəyan etdik ki, biz bu atəşkəsin pozulmamasını təmin edəcəyik. Mən Minsk qrupunun başçısı cənab Yan Eliassonla görüşümdə də dedim, Nyu-Yorkda Rusiya prezidenti cənab Boris Yeltsin ilə qısa görüşüm zamanı ona da bildirdim ki, biz atəşkəsin saxlanmasını təmin edəcəyik. Bunu o da çox böyük məmnuniyyətlə təqdir etdi.

Bir daha deyirəm ki, ordumuzun cəsarəti nəticəsində təcavüzkarın hücumlarının qarşısı alındı, ordumuzun göstərdiyi müqavimət atəşkəs üçün şərait yaratdı. Mən, bütün əsgər və zabitlərimizə müraciət edir və bildirmək istəyirəm ki, bu gün onlar Azərbaycan torpaqlarının müdafiəsində ayıq-sayıq durmalıdırlar. Öz xidməti vəzifələrini daha cəsarətlə və daha böyük ağıl-kamalla həyata keçirməlidirlər. Bilməlidirlər ki, Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü onların hərbi xidmətindən çox asılıdır. Əminəm ki, Azərbaycan Ordusunun əsgərləri, zabitləri mənim bu çağırışıma cavab olaraq öz hərbi hazırlıq səviyyələrini daha yüksəyə qaldıracaq, hərbi peşəyə daha dərindən yiyələnəcək, Azərbaycan torpaqlarının keşiyində daha qətiyyətlə və cəsarətlə duracaqlar.

Yenə deyirəm: biz müharibə etmək istəmirik. Mən bunu Amerika Birləşmiş Ştatlarında da bəyan etmişəm. Biz öz tərəfimizdən heç bir hücuma yol verməyəcəyik. Lakin eyni zamanda mövqelərimizi, torpaqlarımızın etibarlı müdafiəsini təmin etməliyik. Ona görə də bu gün mən ordumuzun döyüşçülərinə müraciət edirəm ki, Azərbaycanın bu ağır vəziyyətdən çıxması üçün, bu cinayətkar ünsürlərin zərərsizləşdirilməsi üçün, Azərbaycanın müstəqilliyini qorumaq üçün onlar öz üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirsinlər. Mən onlara ümid bəsləyir və güvənirəm. Əminəm ki, zabit və əsgərlərimiz bu çox məsuliyyətli məqamda Azərbaycanın müstəqilliyi keşiyində möhkəm duracaqlar.

Mən hüquq-mühafizə orqanlarının işçilərinə müraciət edirəm. Onlar çətin peşə sahibidirlər, çox əziyyətli bir sahədə çalışırlar, Azərbaycanın daxilində sabitliyi saxlamaq, cinayətkarlığa qarşı mübarizə aparmaq, ictimai asayişi qorumaq üçün, qanunçuluğun tətbiqini təmin etmək, konstitusiyanı qorumaq üçün çox işlər görürlər. İnanıram ki, bu ağır günlərdə, belə bir mütəşəkkil cinayətin baş verdiyi vaxtda hüquq-mühafizə orqanlarımız, xüsusən Azərbaycan polisi öz qüdrətini, cəsarətini, xalqa, millətə, Azərbaycan dövlətinə sədaqətini nümayiş etdirəcəkdir.

Mən heç kəsi toqquşmaya dəvət etmək istəmirəm. Fikirlərimi çatdır[346-347]dım və müraciətlərim də acıq-aydındır. Hesab edirəm ki, bu cinayətin də qarşısı danışıqlar yolu ilə, sülh yolu ilə alınacaqdır.

Xüsusi Təyinatlı Polis Dəstəsinə, bu dəstənin 8-ci Kilometr qəsəbəsində toplaşmış üzvlərinə bir daha müraciət edərək deyirəm ki, silahı yerə qoysunlar, təslim olsunlar, vuruşmaqdan imtina etsinlər, qan tökməsinlər, cinayət törətməsinlər və bizə də ultimatum verməsinlər. Heç bir ultimatum qəbul olunmayacaqdır. Azərbaycanın dövləti var, qanunları var. Hər bir kəs – mən də, hər bir vətəndaş da, o cümlədən polis işçisi də Azərbaycanın qanunlarına tabe olmalıdır. Mən Azərbaycanın Konstitusiyasına, qanunlarına uyğun olaraq onlardan tələb edirəm: bu cinayətkar əməllərdən əl çəksinlər, silahları yerə qoysunlar, təslim olsunlar. Onlara zəmanət verirəm ki, bu işə hər bir cəhətdən ədalətlə baxılmasına təminat yaradacaq və nəzarət edəcəyəm. Mən Azərbaycan dövlətçiliyinin təminatçısıyam.

Bu gün oktyabrın 3-dür. Sizə xatırladıram, bəlkə də yaddan çıxıb, elə mənim özümün də yadımdan çıxıb. Keçən il məhz bu gün, yəni oktyabrın 3-də mən xalq tərəfindən Azərbaycanın dövlət başçısı, Prezidenti seçilmişəm. Bu hadisələr olmasaydı, bu gün mən başqa əhval-ruhiyyə ilə, xoş arzularla sizə müraciət etmək fikrindəydim. Ancaq son on gün ərzində gedən proseslərin yekunu olaraq bu gün sizin qarşınızda çıxış edir, sizə müraciət edirəm, yaranmış vəziyyətdən çıxış yollarını sizinlə birlikdə arayıb axtarıram.

Lakin bu o demək deyil ki, bu hadisə, yaxud da bundan əvvəl baş vermiş hadisələr iradəmizi qırır, bizi sarsıdır, təhlükə qarşısında qoyur. Yox, belə deyildir. Mən keçən il oktyabrın 3-də Azərbaycan Prezidenti seçiləndə də, oktyabrın 10-da Qurana və Azərbaycan Konstitusiyasına əl basaraq xalqımıza and içəndə də demişəm ki, mənim indi bir vəzifəm var: xalqa xidmət etmək, ömrümün bundan sonrakı hissəsini ancaq və ancaq xalqın bu vəziyyətdən çıxmasına həsr etmək. Özüm üçün bundan şərəfli bir vəzifə bilmirəm. Mən verdiyim bu sözə də sadiqəm və bunu axıradək həyata keçirəcəyəm. Odur ki, heç kəs bu andımı həyata keçirməyə mane ola bilməyəcəkdir.

Ancaq mən insanları yenə də qarşıdurmaya yox, milli həmrəyliyə, vətəndaş həmrəyliyinə çağırıram, insanları toqquşmaya yox, bir-birinə silah qaldırmağa, güllə atmağa yox, bir-birinə əl verməyə, bir-birinə yaxınlaşmağa dəvət edirəm, qan tökülməsinə yox, meydana çıxan problemlərin danışıqlar vasitəsilə, sülh yolu ilə həll olunmasına dəvət edirəm.

Kiməsə ədalətsizlik edilibsə, bu ədalətsizliyin qarşısını ədalətlə almaq lazımdır. Azərbaycan Prezidenti kimi bunu da təmin etməyə hazıram və təmin edə bilərəm. Lakin mən bu cür cinayətkar hərəkətlərə dözməyəcəyəm. Ona görə də mən hamıya xəbərdarlıq edirəm. Bu cinayətkarlıqdan çəkinmək, silahları təhvil vermək lazımdır. Mən Xüsusi Təyinatlı Polis Dəstəsi ilə görüşüb, danışıq aparmağa hazıram. Amma güclə, zor ilə yox. Heç kəs Azərbaycan dövlətinə qarşı zor işlədə bilməz. Azərbaycan [347-348] dövlətinin zora zorla cavab verməyə gücü var. Bu məsələləri zorla yox, yalnız qarşılıqlı anlaşma vasitəsilə həll etmək lazımdır.

Mən hesab edirəm ki, bu sözlərimi indi hamı eşidir, bu gün eşitməsə, sabah, axşam eşidəcəkdir. Mən gözləyirəm ki, müraciətimə hamı səs verməlidir, hamı! Mən bunu gözləyirəm. Əziz qardaşlar və bacılar, əziz həmvətənlər, əziz dostlar, mən sizdən bunu gözləyirəm.

Mən yaranmış vəziyyətdə Bakıda qanunu tətbiq etmək üçün fərman imzalamışam. Bu gündən Bakıda fövqəladə vəziyyət elan edilir. Həmin fərman bu gün televiziya vasitəsilə sizə çatdırılacaqdır. Bu fərmanı imzalamağıma səbəb sentyabrın 22-dən indiyədək – oktyabrın 3-dək baş vermiş faciəli hadisələr, bunların ağır nəticələri, cəmiyyətdə yaranmış gərginlik, o cümlədən dünən törədilmiş mütəşəkkil cinayətdir. Ona görə də mən Bakıda fövqəladə vəziyyət elan etməyi qərara almışam. Bakı əhalisindən və paytaxta gələn bütün vətəndaşlardan rica edirəm ki, fövqəladə vəziyyət rejiminə hörmət etsinlər. Bu, ancaq və ancaq bütün Azərbaycan vətəndaşlarının hüquqlarını, ictimai asayişi qorumaq, cinayətkar ünsürlərin qarşısını almaq üçün həyata keçirilən tədbirdir. Mən bunu tətbiq etməyə məcburam, bunun zəruriliyi gəlib çatmışdır.

Mən öz fikirlərimi, sözlərimi sizə çatdırdım. Bir daha bütün Azərbaycan xalqına müraciət edirəm. Bu günlər hər kəs öz mövqeyini bildirməlidir. Hesab edirəm ki, Azərbaycan vətəndaşlarının əksəriyyəti dövlətçiliyimizi, Azərbaycanın müstəqilliyini müdafiə edəcək və ölkəmizin müstəqilliyinə təcavüz edənlərin qarşısını alacaqdır.

Bu vəziyyətlə əlaqədar bəziləri ayrı-ayrı rayonlarda aranı qarışdırmaq istəyirlər. Bəzi qrupları qaldıraraq bu cinayətkar dəstələrlə birləşdirməyə cəhd göstərirlər. Şəhərlərdə, rayonlarda yaşayan bütün əhalidən, vətəndaşlardan, həmin yerlərin rəhbərlərindən tələb edirəm ki, bunların hamısının qarşısı alınmalıdır və biz Azərbaycanın müstəqilliyini qorumalıyıq.

Əminəm ki, mənim səsimə səs veriləcək, bu günlər xalqımız sıx birləşəcək, onun tam əksəriyyəti Azərbaycanın müstəqilliyinin, dövlətçiliyimizin qorunmasının keşiyində dayanacaqdır. Əminəm ki, hamımız əl-ələ verərək bu ağır vəziyyətdən çıxacağıq. Diqqətinizə görə təşəkkür edir və bir daha sizi milli həmrəyliyə, vətəndaş həmrəyliyinə dəvət edirəm. Sağ olun. [348-349]

## RESPUBLİKADA FƏALİYYƏT GÖSTƏRƏN SİYASİ PARTİYALARIN RƏHBƏRLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

*3 oktyabr 1994-cü il*

Bilməlisiniz ki, neçə aydır mən siyasi partiyalarla görüşməyə çalışırdım. Şübhəsiz ki, görüşmək arzusunda olan partiyalarla görüşmək istəyirdim. Amma təəssüflər olsun ki, vaxt tapa bilmirdim. İndi vəziyyət elə gətirdi ki, müraciətlə çıxış etməli oldum və mənim müraciətim geniş əks-səda doğurdu. Siz də dərhal ona reaksiya verdiniz. Beləliklə, görüşümüz baş tutdu.

Ümumiyyətlə, hesab edirəm ki, belə görüşlər lazımdır. Onlar mənim üçün də faydalıdır və zənnimcə, sizin üçün də səmərəli ola bilər. Görüş mənim üçün o mənada faydalıdır ki, siyasi partiyaların buraya toplaşan nümayəndələrinin istək və arzularını, mövqelərini onların öz dilindən eşitmək, eyni zamanda hansı əsaslarla əməkdaşlıq edə biləcəyimizi öyrənmək imkanına malikəm. Odur ki, belə görüşləri bu və bir çox digər səbəblərə görə, o cümlədən, ümummilli həmrəyliyə nail olmaq baxımından faydalı hesab edirəm. Öz tərəfimdən isə çalışacağam ki, bu görüşlər tez-tez keçirilsin.

Burada siz ümumi xarakterli, yəni prezidentlə siyasi partiyaların əməkdaşlığına dair bir neçə təklif verdiniz. Mən bu təklifləri də dəyərli sayıram. Güman edirəm ki, biz düşünməliyik. Qoy Prezident Aparatındakı şəxslər bu barədə fikirləşsinlər, görək biz əməkdaşlıq üçün hansı vasitələrdən və formalardan istifadə edə bilərik. İstəyirəm bir məsələdə əmin olasınız ki, mən ümumiyyətlə, təbiətim, xasiyyətim etibarı ilə məsləhətləşməyi çox sevən adamam. Buna görə də həmişə çalışıram ki, məsləhətləşim. İndi həyatımızın bu çətin dövründə və respublikamızın inkişafının bu mühüm mərhələsində belə məsləhətləşmələrə xüsusi ehtiyac var. Odur ki, sizinlə vaxtaşırı məsləhətləşib bəzi işləri görməyi özüm üçün məqbul hal hesab edirəm və görüşmək, məsləhətləşmək məqsədi ilə imkan tapmağa çalışacağam. Sizin verdiyiniz təkliflərdən istifadə etməyə və onlardan bəzilərini həyata keçirməyə də çalışacağam.

Xahiş edirəm biləsiniz ki, mən məsləhətləşməyi sevirəm və bu məsələlərin həlli üçün sizinlə məsləhətləşməyi də böyük bir kömək sanıram. Buna görə də çalışacağam ki, belə də olsun.

Görüşümüz xüsusi xarakter daşıyır, yəni Azərbaycanda dünən və bu gün baş vermiş hadisələrlə bağlıdır. Mən öz fikirlərimi televiziya ilə müraciətimdə bildirmişəm. Mən Rövşən Cavadovu tanıyıram. Ola bilsin ki, onun qardaşına o qədər də yaxından bələd deyiləm. Düzdür, onunla bu [349-350] yaxınlardan, xüsusən Bakıya işə gələndən bəri tanışam. Çünki bəzi məsələlərlə əlaqədar onunla bir neçə xüsusi görüşüm olubdur.

Lakin bunu şəxsən özümə qarşı yönəldilmiş bir hərəkət kimi qəbul etmirəm. Elə burada çıxış edənlərin bəziləri də demək istədilər ki, bu hərəkət mənə qarşı yönəldilməmişdir. Mən də bunu belə qəbul edirəm. Lakin Rövşən Cavadovun atası ilə danışanda da dedim ki, mən bir prezident kimi Azərbaycan dövlətçiliyinin təminatçısıyam. Dövlətçiliyin də şaxələri, qolları, sütunları var. Müstəqil bir dövlət olan Azərbaycan Respublikasının Prokurorluğu da, ona kimin rəhbərlik etməsindən asılı olmayaraq, dövlət orqanıdır, dövlətimizin böyük sütunlarından biridir. Ona görə də bu orqana qarşı təcavüz etmək, silah işlətmək ən böyük qanun pozuntusudur. Odur ki, mən bunu dövlətçiliyimizə qarşı hərəkət kimi qiymətləndirirəm və öz fikrimdə də qalıram.

Lakin bir daha demək istəyirəm ki, hər bir şəxsin nə qədər böyük xidmətləri olsa da, bu xidmətlər heç vaxt qanunu pozmağa əsas vermir və bəraət qazandırmır. İnsanların nə qədər böyük xidmətləri olsa da, onlar qanuna da bir o qədər itaət etməli, tabe olmalı, qanunu sevməlidirlər. Bu, heç də bizim icad etdiyimiz fikir deyildir. Bunlar əsrlərdən əsrlərə keçən, dövlətçiliyə aid olan prinsiplərdir və biz hamımız onlara sadiq olmalı, hörmət bəsləməliyik.

Lakin eyni zamanda son aylarda, – mən bunu müraciətimdə də dedim, – ayrı-ayrı mətbuat orqanlarında Azərbaycanın daxili vəziyyəti təhlil edilərkən bizdə guya dövlət çevrilişi gözlənildiyi barədə fikirlər yayılırdı. Bunu bizim mətbuatın da, xarici ölkələrin kütləvi informasiya vasitələrinin də səhifələrində görmək olardı. Hətta mən televiziya ilə çıxışımda da dedim ki, Amerikaya gedərkən yolüstü İstanbulda oldum və orada məni dövlət adamları, o cümlədən Türkiyənin xarici işlər naziri, İstanbulun valisi, ölkə prezidentinin digər nümayəndələri qarşıladılar. Biz onlarla söhbət etdik. Orada mənə qəzetlər gətirdilər. Qəzetlərin yazdığına görə, guya Azərbaycana zərbə endiriləcəyi gözlənilir. Yadınızdadırsa, biz buradan ayın 24-də yola düşmüşdük. Bəs zərbəni kimlər endirəcəkdir? Qəzetlərdə onların adları da yazılmışdır.

Mən belə yazıları həmişə çox soyuqqanlılıqla qarşılamışam, yəni belə hesab etmişəm ki, indi Azərbaycanda dövlət çevrilişi ola bilməz və olmamalıdır. Bununla bərabər, son aylarda baş verən cərəyanlar, gedən siyasi proseslər onu göstərir ki, müəyyən şayiələr, yaxud müəyyən mühit, ayrı-ayrı adamların bir-birinə münasibətləri, ziddiyyətlər və fikir ayrılıqları Azərbaycanda qarmaqarışıqlıq salan istər daxili, istərsə də xarici qüvvələrə bəlkə də şərait yaradır ki, onlar bu imkanlardan istifadə edərək respublikada sabitliyi pozsunlar.

Zənnimcə, sizdə də şübhə olmamalıdır ki, Azərbaycanda qarışıqlıq yaratmaq, ayrı-ayrı qüvvələri bir-birinə qarşı qoymaq, gərginlik yaratmaq üçün çalışan dairələr ölkəmizin daxilində də var, xaricində də. Mən bunu konkret bir dairənin, bir şəxsin ünvanına demək istəmirəm. Ümu[350-351]miyyətlə deyirəm ki, bunlar var. Əgər biz bunu dansaq, səhv etmiş olarıq. Ola bilsin ki, bəzən ayrı-ayrı adamlar təsir altına düşür, bir paraları isə özləri də hiss etmədən ayrı-ayrı şəxslər, qüvvələr tərəfindən alətə çevrilir, istifadə olunur. Bunlar ola bilən hallardır və ona görə də hesab edirəm ki, biz hamımız, eləcə də hər bir kəs bu işlərdə çox sayıq olmalıyıq. Hamı Azərbaycan Respublikasının milli mənafeyini, dövlətçiliyin, müstəqilliyin qorunmasını hər şeydən üstün tutmalıdır. Bilirsinizmi, dövlətçiliyin, müstəqilliyin qorunub saxlanması dedikdə məsələ yalnız ondan ibarət deyildir ki, kimsə kənardan gəlib dövlətimizi yıxacaqdır. Elə dövlətçiliyimizi içəridən sarsıtmağa can atanlar da müstəqilliyimizə, dövlətçiliyimizə qəsd edənlərdir.

Təəssüflər olsun ki, belə məqsəd güdən qüvvələr var. Siz bunu bilirsiniz. Onların bəziləri qonşu ölkələrdədir. Siz bunu da bilirsiniz. Ona görə də mən bu fürsətdən istifadə edib, sizi də sayıqlığa çağırıram. Mən hiss etdim və əminəm ki, burada təmsil olunan partiyaların hər biri Azərbaycanın müstəqilliyinin, suverenliyinin, dövlətçiliyinin möhkəmlənməsinə doğrudan da çalışmaq istəyir və bu, sizin partiyaların proqramlarında öz əksini tapmışdır. Bu, sizin əməli fəaliyyətinizdə də görünür. Ancaq bu proqramları yerinə yetirmək üçün biz gərək daha sıx əlaqədə olaq, bir-birimizə daha çox kömək edək.

Mən dəfələrlə demişəm, Birləşmiş Millətlər Təşkilatının yüksək tribunasından da bildirmişəm ki, Azərbaycanın müstəqilliyi tarixi hadisədir və biz xalqımızın milli azadlığını, Azərbaycan Respublikasının müstəqilliyini heç vaxt əldən verməyəcəyik və bütün əks qüvvələrə qarşı müqavimət göstərəcəyik. Mənim fikrim belədir. Özü də bu, quruca söz deyildir. Bu mənim əməli fəaliyyətimdə sizin də müşahidə etdiyiniz cəhətlərdir. Hətta xarici ölkələrin jurnalistləri də, dövlət xadimləri də görüşlərimizdə bu cəhətləri vurğulayır, qeyd edirlər. Elə onlar da Azərbaycanın öz müstəqilliyini heç vaxt əldən verməməsini istəyirlər. Amma onlar da görürlər ki, bizim müstəqilliyimizə mənfi təsir göstərmək, yaxud onu məhdudlaşdırmaq və ya tamamilə pozmaq istəyən hansı dairələrdir, onlar haradandırlar. Görəndə ki, bu dairələrin cəhdlərinin qarşısı alınır, yol verilmir və bu, bəzən böyük cəsarət tələb edir, bəzən də güclü təzyiqlərin qarşısı alınır, – onlar bunu qiymətləndirirlər.

Mən sizi bir daha əmin etmək istəyirəm ki, biz bu barədə həmfikirik, bir yolun yolçusuyuq və bu yolla da birlikdə gedəcəyik. Dövlətimizin qorunması ilə bağlı bütün digər prinsiplər də məhz bu prinsipə – Azərbaycanın müstəqilliyi, dövlətçiliyi prinsipinə əsaslanmalıdır. Ona görə də hesab edirəm ki, əməkdaşlığımızın dairəsi çox genişdir.

Bu ağır vəziyyətdən çıxmaq barədə verdiyiniz tövsiyələr mənim üçün çox əhəmiyyətlidir. Siz televiziya ilə bugünkü müraciətimdən də hiss etdiniz ki, mən məruz qaldığımız gərginlikdən sülh yolu ilə, danışıqlar yolu ilə çıxmaq tərəfdarıyam. Dünən axşam saat 8-dən bu gün səhər saat 7-dək bu işlə ardıcıl surətdə, bir dəqiqə belə fasilə vermədən məşğul oldum və məmnunam ki, əməyim hədər getmədi. Axı dünən, yəni bu günə [351-352] keçən gecə prokurorluğun binası ətrafında çox gərgin vəziyyət yaranmışdı, orada balaca bir qığılcım böyük bir partlayışa gətirib çıxara bilərdi. Gərginlik lap son həddə çatmışdı. Lakin görülən tədbirlər imkan verdi ki, partlayış təhlükəsi sovuşsun.

Bu gün də müəyyən gərginlik var, onun da səbəbləri bizdən asılı deyildir. Siz həm Xüsusi Təyinatlı Polis Dəstəsinə, həm Rövşən Cavadova müraciətimdə, həm xalqa, həm də cəmiyyətimizin bütün təbəqələrinə müraciətimdə birmənalı şəkildə hiss etdiniz ki, mən bu məsələnin danışıqlar yolu ilə, qarşılıqlı anlaşma vasitəsilə aradan qaldırılmasını, qan tökülməməsini istəyirəm.

Dediyim kimi, artıq qan tökülmüşdür, dünən iki, bu gün isə dörd polis nəfəri yaralanmışdır. Onlardan biri ağır vəziyyətdədir. Biz vəziyyətin daha da gərginləşməsinə yol verə bilmərik. Əgər altı ildən bəri gedən müharibədə atəşin dayandırılmasına nail olmuşuqsa, beş aya yaxındır atəşkəsə əməl edilirsə, – yeri gəlmişkən, bu, altı ildə görünməmiş bir haldır, – cəbhəyanı bölgələrdə, cəbhələrdə qan tökülməsini dayandırmışıqsa, indi özünüz deyin, biz necə razı olarıq ki, belə bir şəraitdə öz daxilimizdə qan tökülməsinə yol verək? Bu, qətiyyən yol veriləsi hal deyildir! Elə mən də buna nail olmağa çalışıram. Amma qanun çərçivəsində, qanuna müvafiq surətdə.

Qanuna isə hamı tabe olmalıdır. Kimin nə qədər böyük xidməti olsa da, kim nə qədər böyük hünər, cəsarət sahibi olsa da, nə qədər ülvi amalı olsa da, cəmiyyət üçün gərəkli və dəyərli adam olsa da, onların hamısı qanuna tabe olmalıdır. Biz dövlətçiliyimizi qurarkən, onun qeydinə qalarkən gərək bu prinsipi çox möhkəm tutaq. Onu nə qədər möhkəm tutsaq, ona nə qədər əzmlə, qətiyyətlə əməl etsək, müstəqil dövlətimizin qüdrətini bir o qədər tez təmin etmiş, belə bir dövləti qurmuş olarıq.

Ona görə də mən sizin irəli sürdüyünüz tövsiyələrdən, təkliflərdən istifadə etməyə çalışacağam. Bununla bərabər, sizin bundan sonra da göstərəcəyiniz fəaliyyətə ümid bəsləyirəm.

Burada deyildiyi kimi, müraciətləriniz olacaq, mətbuatda çıxış edəcəksiniz, yeni-yeni təkliflər, tövsiyələr verəcəksiniz. Mən bunların hamısını bəyənirəm və bu gün görülən işləri də qiymətləndirirəm. Bu səbəbdən də güman edirəm ki, biz əl-ələ verib, yaranmış vəziyyətdən birlikdə çıxacağıq. Özü də elə çıxacağıq ki, nə qanun pozulacaq, nə qan töküləcək, nə də kimsə xəsarət alıb şikəst olacaqdır.

Burada ümumi əfv barədə təklif irəli sürüldü. Etiraf edim ki, maraqlı təklifdir. Amma təsəvvür edin ki, sentyabrın 22-də Bakı təcridxanalarının birindən cinayətkarlar qaçmışlar. Elə bunun özü ikinci bir cinayətdir.

Bilin ki, mən heç vaxt insanların mütləq məhkum edilməsinin tərəfdarı deyiləm, ədalətli mühakimə tərəfdarıyam. Bu adamlar cinayət törətmişlər, həbsə alınmışlar. Odur ki, məhkəmə qarşısında cavab verməlidirlər. Əgər məhkəmə onların cinayət törətmədiyini sübuta yetirsəydi, onda biz bununla razılaşardıq. Yaxud da bu şəxslər cinayətkar olduqları halda, az cəzaya məhkum edilmələri barədə qərar qəbul edərdik. Ola da bilərdi ki, [352-353] məhkəmə onlara ən ağır cəza kəssəydi və onlar bir prezident kimi mənə müraciət etsəydilər, mən bu cinayətkarları bağışlayar, yaxud cəzalarını azaldardım. Amma bütün bunlar yalnız qanun çərçivəsində ola bilərdi. Lakin onlar başqa yolla getmiş, bu cür hərəkət etmişlər. Bilirsinizmi, bu hərəkət dövlətimizə çox böyük ləkədir, çox böyük zərər vurmuşdur. Buna görə də mən milli təhlükəsizlik nazirini işdən çıxartdım. Bir çox orqanların rəhbərlərini də işdən azad etdim. Bu proses hələ davam edir, hələ istintaq gedir, indi görək bu istintaq nə göstərəcək.

Nəhayət, ayın 29-da iki nəfər dövlət xadimimiz qətlə yetirilmişdir. Bu hadisələrin günahkarlarını necə əfv etmək olar? Bəs o həbsxanadan qaçanlar kimlərdir? Yoxsa siyasi məhbuslardır? Axı bizdə siyasi məhbuslar yoxdur!

Bir daha bildirirəm ki, mən burada irəli sürülən təkliflərin hamısına hörmətlə yanaşıram, çalışacağam ki, onlardan işimizdə, fəaliyyətimizdə istifadə edək. Hamınıza təşəkkürümü bildirirəm ki, gecənin bu vaxtı zəhmət çəkib gəlmisiniz. Gecənin bu vaxtı mənim üçün adi iş vaxtıdır. Amma siyasi partiyalar gərək ki, müəyyən qədər sərbəst rejimdə işləyirlər. Ona görə də ola bilsin ki, bu, onlar üçün qeyri-adi haldır. Amma yaranmış vəziyyət gecənin bu vaxtı bizi görüşməyə vadar edir.

Sizə təşəkkür edir və əmin olduğumu bildirmək istəyirəm ki, əməkdaşlığımız davam edəcək və bu konkret məsələnin həlli naminə fəaliyyətinizi dayandırmayacaqsınız. Çox sağ olun. [353-354]

## DÜNYANIN BÜTÜN DÖVLƏTLƏRİNƏ, HÖKUMƏTLƏRİNƏ VƏ BEYNƏLXALQ TƏŞKİLATLARINA MÜRACİƏT

Hörmətli cənablar!

Demokratik, hüquqi dövlət quran, bütün dünya ilə açıq siyasət yeridən Azərbaycan Respublikası təhlükədədir.

Birbaşa xaricdən yönəldilən qüvvələr zor işlədərək silahlı qiyam yolu ilə dövlət çevrilişi etməyə cəhd göstərirlər.

Mən Azərbaycan Respublikasının prezidenti kimi xalqıma, onun öz dövlətçiliyini, müstəqillik və azadlığını müdafiə etməyə yönəlmiş möhkəm qətiyyətinə arxalanaraq onun iradəsini yerinə yetirmək üçün bütün zəruri tədbirləri həyata keçirirəm.

Bu çətin dəqiqələrdə mən sizə müraciət edərək hamınızı Azərbaycanın qanuni rəhbərliyini, onun xalqının müstəqillik və suverenliyini qorumaq, zorakılıq və irticanın təntənəsinə yol verməmək naminə bütün imkanlarınızdan istifadə etməyə çağırıram.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*4 oktyabr 1994-cü il* [354-355]

## RESPUBLİKA MİLLİ TELEVİZİYASI VƏ RADİOSU İLƏ XALQA MÜRACİƏT

*4 oktyabr 1994-cü il*

Hörmətli həmvətənlər, əziz bacılar, qardaşlar!

Azərbaycan vətəndaşları!

Bu axşam vaxtı mən yaranmış vəziyyətlə əlaqədar olaraq, televiziya vasitəsilə sizə birbaşa müraciət etmək məcburiyyətindəyəm. Dünən televiziya ilə xalqa müraciət edərək son günlər Azərbaycanda yaranmış gərgin vəziyyət haqqında məlumat verdim, öz mülahizələrimi bildirdim və Azərbaycan xalqını bu vəziyyətdən çıxmaq üçün fəaliyyət göstərməyə dəvət etdim.

Televiziya ilə dünənki çıxışımda mən yaranmış vəziyyət, Azərbaycanda gərginlik törədən son hadisə haqqında, Xüsusi Təyinatlı Polis Dəstəsinin bir qrupunun Rövşən və Mahir Cavadovların rəhbərliyi altında Prokurorluğun binasında törətdiyi cinayətlər haqqında danışdım. Bundan sonra həmin məsələnin sülh yolu ilə həll olunması üçün görülən tədbirlər barədə sizə məlumat verdim. Bildirdim ki, törədilən hərəkətlər qanuna nə qədər zidd olsa da, biz yaranmış vəziyyəti sülh yolu ilə, danışıqlar yolu ilə aradan qaldırmaq istəyirik. Buna görə də mən Xüsusi Təyinatlı Polis Dəstəsindən olan vətəndaşlarımıza, Rövşən Cavadova müraciət etdim və bildirdim ki, bu yoldan çəkinmək lazımdır. Danışdığımız kimi, silahları təhvil verib kənara çəkilmək lazımdır və Azərbaycanda vəziyyəti gərginləşdirmək lazım deyil. Mən Rövşən Cavadovun atasına – Bəxtiyar kişiyə müraciət etdim və ondan xahiş etdim ki, bu məsələnin həll olunmasında öz xidmətini göstərsin.

Mən Azərbaycanın hörmətli adamlarına, partiyalara, ictimai təşkilatlara, bütün Azərbaycan xalqına müraciət etdim. Mənim dünənki müraciətimdən sonra minlərlə teleqram gəlib, telefon zəngləri olub. Mənim müraciətim əhali tərəfindən hörmət və ehtiramla qəbul olunub. Teleqramlarda, telefon zənglərində bildirilir ki, vətəndaşlar Azərbaycanın bu vəziyyətdən çıxması üçün öz xidmətlərini göstərməyə hazırdırlar.

Dünən Rövşən Cavadovun atası Bəxtiyar kişi gedib oğlanları ilə görüşmüş, sonra mənim yanıma gəlmişdi. O, xalq şairi Bəxtiyar Vahabzadə ilə bərabər apardığı danışıqlar haqqında mənə məlumat verdi. Mənə dedilər, Rövşən Cavadovun xahişi bundan ibarətdir ki, onların 8-ci Kilometr qəsəbəsində Xüsusi Təyinatlı Polis Dəstəsinin bazasından sərbəst getmələrinə şərait yaradılsın, həmin dəstənin üzvləri oradan çıxıb getsinlər, silahları təhvil versinlər.

Mən bu təklifləri qəbul etdim, bu işləri təmin etmək üçün müdafiə nazirinin birinci müavini general Nəcməddin Sadıqovu onlara qoşdum və [355-356] həmin bazaya göndərdim. Bildirdim ki, orada onların təhlükəsizliyi təmin ediləcək, xüsusi təyinatlı polisin üzvlərinin hamısı sərbəst surətdə öz evlərinə gedə bilərlər. Bu məsələlər sonra araşdırılacaqdır. Yaranmış ağır vəziyyəti bununla da tamamilə həll etməyə nail olmağa çalışdım.

Güman etdim ki, ağsaqqal, hörmətli bir adam olan Bəxtiyar Cavadovun bu təşəbbüsü öz nəticəsini verəcəkdir. Təəssüflər olsun ki, gecədən xeyli keçmiş mənə məlumat gəldi ki, bu danışıqlar bir nəticə verməmişdir, onlar atalarının təklifinə də, xalq şairi Bəxtiyar Vahabzadənin təklifinə də qulaq asmamışlar, demişlər ki, sabah, yəni bu gün Rövşən Cavadov mənimlə – Azərbaycan Prezidenti ilə görüşmək istəyir. Görüşüb danışdıqdan sonra bu məsələləri həll edəcəklər.

Mən dünən axşam Bəxtiyar Cavadova da bildirdim ki, televiziya ilə elan etmişəm, Rövşən Cavadovu qəbul etməyə, danışıqlar aparmağa hazıram. Bu gün onunla görüş təyin etdim. Mən onunla telefon əlaqəsinə girdim. Rövşən Cavadova bildirdim ki, bu məsələləri həll etmək üçün o, görüş istəyirsə, mən də görüşməyə hazıram. Gəlsin, görüşək, danışaq, məsələlər həll olunsun və gərginlik aradan götürülsün.

Mənə bildirdi ki, ola bilər ki, gəlməsi onun üçün müəyyən qədər təhlükəli olsun, yoldaşları təhlükəsizlik baxımından onun gəlməsini məsləhət görmürlər. Özü xahiş etdi ki, Prezident Aparatının İşlər İdarəsinin müdiri Akif Muradverdiyev onun yanına göndərilsin və onu müşayiət etsin. Mən Akif Muradverdiyevi oraya göndərdim və tapşırıq verdim ki, onun buraya gəlməsi üçün bütün şərait yaradılsın.

Bir müddətdən sonra Akif Muradverdiyev mənə telefonla zəng edərək bildirdi ki, guya bazanın ətrafında bəzi hərbi qüvvələr olduğuna görə Rövşən Cavadov narahatdır. Mən yenə də dedim ki, onun sərbəst, təhlükəsiz gəlməsi təmin olunur, əgər bir narahatçılıq varsa, mən müdafiə nazirinin birinci müavini general Sadıqovu əlavə ora göndərirəm.

General Sadıqov mənim əmrimlə ora getdi. Danışıqlar aparıldı. Təəssüflər olsun ki, axşam saat 7-dək mən gözlədim. Saat 7-də general Nəcməddin Sadıqov və Akif Muradverdiyev mənim yanıma gələrək bildirdilər ki, Rövşən Cavadov yenə də görüşmək istədiyini bildirir. Ancaq deyir ki, o, bu gün artıq yorulub, Prezidentlə görüşmək üçün çətinlik çəkir. Ona görə də sabah saat 12-də görüşə gələcəkdir. Mən də buna inandım və dedim ki, ola bilər, sabah görüşək. Çünki mən təmkinlilik göstərirəm, bu işə səbirlə yanaşıram və çalışıram ki, bu iş barışıq yolu ilə, danışıqlar yolu ilə həll olunsun və heç bir xəta çıxmasın.

Sonrakı saatlarda gələn məlumatlar onu göstərdi ki, bu, belə deyil. Çünki iki gün bundan qabaq baş vermiş hadisə ilə əlaqədar Bakı şəhərində və Azərbaycanın bir neçə məntəqəsində ayrı-ayrı qüvvələr baş qaldıraraq sabitliyi pozmağa çalışırlar. Mən Rövşən Cavadovun atası ilə danışanda da dedim ki, bu vəziyyətdən ayrı-ayrı qüvvələr istifadə edə bilərlər, ona görə də bu məsələni tez qurtarmaq lazımdır. [356-357]

Bu gün bizə məlumatlar gəlir ki, 8-ci Kilometrdəki həmin bazaya – Xüsusi Təyinatlı Polis Dəstəsinin yerləşdiyi bazaya çoxlu kənar adamlar gəlirlər, orada qızışdırıcı danışıqlar aparırlar. Ayrı-ayrı adamlar bundan sui-istifadə etməyə, onları qızışdırıb pis yollara salmağa çalışırlar. Ona görə də bunların hamısını müşahidə edərək mən tez danışıqlar aparıb, bu məsələnin qurtarmasına çalışıram.

Ancaq yenə də deyirəm, son saatlarda alınan məlumatlar onu göstərir ki, həm o bazada olan bəzi qüvvələr sabitliyi pozmağa çalışır, həm də bu şəraitdən istifadə edib bəzi məntəqələrdə bizim daxili ictimai siyasətimizi pozmağa cəhd göstərən ayrı-ayrı qüvvələr fəaliyyətə başlayıblar.

İki saat bundan öncə xəbər gəldi ki, Gəncədə hərbi geyimli bir dəstə adam şəhər icra hakimiyyətini, oradakı bəzi dövlət orqanlarını, hava limanını zəbt ediblər və öz hakimiyyətlərini qurmağa çalışırlar. Bu dəstələrin kimə mənsub olduğu hələ məlum deyil. Mən Baş nazir Surət Hüseynovla əlaqə saxladım, dedim ki, Gəncə şəhərində şəxsən ona mənsub olan bəzi hərbi qüvvələr var. Bu nə məsələdir? Çünki oradan gələn məlumatlarda bildirilir ki, bu işləri törədənlərin içərisində Surət Hüseynova mənsub olan qüvvələrdən də var. Ona görə də mən ondan xahiş etdim ki, məsələni araşdırsın və lazımi tədbir görsün. Bir azdan sonra o, mənə telefonla zəng etdi və bildirdi ki, guya orada doğrudan da bəzi qüvvələr var, onlar Xüsusi Təyinatlı Polis Dəstəsinə mənsub olan adamlardır. Onlar orada doğrudan da qanunsuz hərəkətlər ediblər. O, mənə bildirdi ki, öz adamlarına göstəriş verib, onlarla əlaqəyə girib ki, bu məsələni həll etsinlər və bu vəziyyəti aradan qaldırsınlar. Ancaq Gəncə ilə əlaqəyə girəndən sonra məlum oldu ki, o qüvvələrin hamısı birləşib. Gəncə polisinin də, hərbi polisin də bir hissəsi o qüvvələrlə birləşib. Onlar orada qeyri-qanuni hərəkətlər edirlər, dövlət orqanlarını zəbt etməyə başlayıblar. Beləliklə də, Bakıda yaranmış dövlət çevrilişi cəhdi artıq Gəncədə özünü büruzə verir.

Mən yenə də Surət Hüseynovu axtardım. Ancaq bundan sonra onu tapa bilmədim. İndi onun yeri də mənə məlum deyil. Burada, Bakıda bizə daxil olan bir neçə siqnallar onu göstərir ki, ayrı-ayrı təxribatçı qüvvələr Bakıda və Azərbaycanın bəzi şəhərlərindi, rayonlarında sabitliyi pozmaq istəyirlər. Deməkək, əvvəlcədən hazırlanmış, qurulmuş, dövlət çevrilişinə yönəldilmiş hərəkətlər artıq sürətlə həyata keçirilir.

Ona görə də mən bu gün, bu dəqiqə, gecənin bu vaxtında birinci növbədə Rövşən Cavadova və onun ətrafında olan xüsusi Təyinatlı polislərə bir daha müraciət edirəm. Müraciət edirəm ki, onlar ağıllarını başlarına yığsınlar, hərəkətlərindən əl çəksinlər. Bilsinlər ki, Azərbaycan xalqı qarşısında nə qədər tarixi məsuliyyət daşıyırlar. Onların bu hərəkətləri birbaşa Azərbaycan dövlətçiliyinin əleyhinədir. Eyni zamanda bu hərəkətlər Azərbaycanın ayrı-ayrı məntəqələrində, o cümlədən Bakı şəhərin[357-358]də sabitliyi pozmağa çalışan təxribatçı qüvvələrin fəallaşmasına kömək edir və beləliklə, onlar özləri istəsə də, istəməsə də bu hərəkətlərin baş verməsində günahkar olacaqlar.

Ona görə də onlara təklif edirəm ki, bu hərəkətlərindən əl çəksinlər, qısa müddətdə silahlarını təhvil verib yerləşdikləri bazadan çıxsınlar. Onların oradan sərbəst, təhlükəsiz çıxması üçün bütün şərait var. Onsuz da bu gün şəhərə çıxmış, sərbəst gedib-gəlmişlər. Onlara heç kim mane olmamışdır. Ancaq əgər oradan çıxıb getmələri üçün xüsusi şərait lazımdırsa, o da yaradılmışdır və bu şəraitdən istifadə edərək öz əməllərindən əl çəkməlidirlər. Əgər əməllərindən əl çəkməsələr, bundan sonra Bakıda, bütün Azərbaycanda yarana biləcək cinayət hərəkətlərini, təxribatları, dövlət çevrilişinə yönəldilmiş hərəkətləri istiqamətləndirmələri kimi qiymətləndiriləcək və onlar bunun üçün günahkar olacaqlar.

Ona görə də, onlara bir daha sülh yolu, doğru yol göstərirəm, məsləhət verir və tələb edirəm ki, yaranmış bu ağır vəziyyətdə özlərinin vətənpərvərliyini, vətəndaşlığını başa düşsünlər. Əgər onlar, doğrudan da, müstəqil Azərbaycanın dövlətçiliyinə sadiqdirlərsə, müstəqil Azərbaycan uğrunda çalışmaq istəyirlərsə, düz yola gəlsinlər. Mən bunu təklif edirəm və onlardan bunu tələb edirəm. Çünki indi yaranmış vəziyyət məni, Azərbaycan dövlətinin başçısını buna vadar edir.

Mən eyni zamanda Bakının sakinlərinə müraciət edirəm. İndi bizə gəlib çatan siqnallar göstərir ki, Bakı şəhərində Azərbaycanın dövlətçiliyi artıq təhlükə altındadır. Ayrı-ayrı düşmən qüvvələr, silahlı qüvvələr dövlət çevrilişinə başlamışlar. Ona görə də, nə qədər gec olsa da, nə qədər çətin olsa da mən sizi ayağa qalxmağa dəvət edirəm. Əziz bakılılar, əziz Bakı sakinləri! Sizin hamınızı bizim bu gərəkli işimizə qoşulmağa çağırıram. Xahiş edirəm, zəhmət çəkəsiniz, nə qədər çətin olsa da Prezident Aparatının qarşısına toplaşasınız. Bu gün kim Azərbaycanın müstəqilliyini, dövlətçiliyini qorumaq istəyirsə, mən onu Azərbaycan Respublikası Prezidenti Aparatının önünə dəvət edirəm.

İndi bizim üçün çox həlledici məqamdır, həlledici dəqiqələrdir. Kim Azərbaycana doğrudan da ürək yandırırsa, bu həlledici dəqiqələrdə bizimlə olmalıdır, Azərbaycanın müstəqil dövləti ilə birlikdə olmalıdır. Bunun üçün Azərbaycan Prezidentinin ətrafında toplaşmalıdır. Mən sizi buraya, Prezident Aparatının qarşısına dəvət edirəm. Sizinlə görüşmək istəyirəm, sizdən kömək gözləyirəm. Sizdən xahiş edirəm ki, Azərbaycan dövlətçiliyinin başı üstünü almış qara buludları dağıtmaq üçün birləşəsiniz, əlbir olasınız, buraya gələsiniz.

Mən bütün Azərbaycan xalqına müraciət edirəm. İndi, bu dəqiqələrdə sizi buraya gəlməyə dəvət edirəm, sizi gözləyirəm. Azərbaycanın müstəqilliyini qorumaq üçün hərə öz evində-eşiyində, öz şəhərində, qəsəbəsində, kəndində ayağa qalxsın, fəaliyyət göstərsin. Yaşadığınız yerlərdə Azərbaycanın dövlət orqanlarını qoruyun, onları saxlayın, təxribatçı qüvvələrin qarşısını alın. Eyni zamanda Azərbaycanın şəhərlərindən, [358-359] rayonlarından Bakıya gəlib bizimlə birlikdə olmaq istəyən vətənpərvər adamların buraya gəlməsini razılıqla qarşılayardım. Kimin buna imkanı varsa, gəlin, sizi Bakıya dəvət edirəm.

Gəncə şəhərinin sakinlərinə müraciət edirəm. Keçən ilin iyununda Gəncə şəhəri bir dəfə ağır vəziyyətə düşdü. Orada qan töküldü, çox dəhşətli hadisələr baş verdi. Gəncə şəhərinin sakinləri həmin günləri görmüşlər və bilirlər ki, bu hadisələr təkcə gəncəlilər üçün yox, bütün Azərbaycan üçün necə baha başa gəldi. İndi təxribatçı qüvvələr yenə də Gəncədə aranı qarışdırmışlar, dövlət orqanlarının binalarını zəbt etmişlər. Ona görə də gəncəlilərin hamısını ayağa qalxmağa, küçəyə çıxmağa, təxribatçı qrupları dəf etməyə, onların qarşısını almağa, Azərbaycanın ikinci böyük şəhəri, tarixi şəhəri olan Gəncədə Azərbaycanın dövlətçiliyini qorumağa çağırıram. Mən gəncəlilərə ümid bəsləyirəm, onlara inanıram və güman edirəm ki, gəncəlilər özlərinin namusunu, qeyrətini göstərəcəklər, mənliklərini qoruyacaqlar və baş vermiş bu hadisənin öhdəsindən gələcəklər.

Əziz həmvətənlər, Azərbaycanın vətəndaşları! Bu ağır dəqiqələrdə bir daha sizə müraciət edirəm. Sizi əmin edirəm ki, Azərbaycanın dövlətçiliyini qorumaq üçün son nəfəsimə qədər, son damla qanıma qədər öz yerimdəyəm. Xalqla birlikdəyəm. Xalqın təhlükəsizliyini qorumağa çalışacağam. Bundan ötrü lazımi imkanlardan istifadə edəcəyəm. Eyni zamanda, əziz həmvətənlər, mən sizə güvənirəm, sizə arxalanıram. İstəmirəm ki, indi, bu günlər qan tökülsün. Mən bunu istəmirəm. Ona görə də sizi sülh məramı ilə küçələrə çıxmağa, mənim ətrafımda toplaşmağa dəvət edirəm.

Bakının 8-ci Kilometr qəsəbəsində çoxlu adam yaşayır. Əziz həmvətənlərimiz, sizdən rica edirəm, evlərinizdən çıxın, Xüsusi Təyinatlı Polis Dəstəsinin bazasının ətrafında toplaşın, onları başa salın, onlara təsir edin. Onlara anladın ki, ata-analarına, bacı-qardaşlarına atəş açmamalıdırlar, güllə atmamalıdırlar, cinayət etməməlidirlər. Mən hesab edirəm ki, 8-ci Kilometr qəsəbəsinin əhalisi, sakinləri özlərini müdafiə etməyə qadirdirlər və onlar həmrəy olub Xüsusi Təyinatlı Polis Dəstəsinin bazasının ətrafına toplaşaraq oradakı polisləri başa sala biləcəklər.

Mən üzümü Azərbaycanın ağsaqqallarına tuturam. Bu gün hörmətli adamların, ağsaqqalların sözünə böyük ehtiyac var. Mən sizə müraciət edirəm, öz müdrikliyinizi, cəsarətinizi, vətənpərvərliyinizi göstərin.

Mən Azərbaycanın qadınlarına müraciət edirəm. Analar, bacılar cəmiyyətdə sülh yaranması üçün həmişə böyük vasitəçi olmuşlar. Ağbirçək analar həmişə öz övladlarına öyüd-nəsihət verməklə onları düz yola dəvət etmiş, bu yolla getmələrinə çalışmışlar. Hörmətli analar, bacılar, hörmətli gəlinlər, qızlar! Mən sizə müraciət edirəm. Bu ağır dəqiqələrdə ayağa qalxın, fəaliyyət göstərin, küçələrə çıxın, Prezident Aparatının [359-360] qarşısına gəlin. Öz cəsarətinizlə, qadınlıq qeyrətinizlə bu vəziyyətdən çıxmağa kömək edin.

Mən Azərbaycanın gənclərinə müraciət edirəm. Azərbaycanın ağır anlarında gənclər həmişə özlərinin qəhrəmanlığını, cəsarətini göstərmişlər, bu gün də göstərməlidirlər. Əziz övladlarımız, sizə müraciət edirəm, güman edirəm ki, mənim səsimə səs verərək ayağa qalxacaqsınız, Azərbaycanın dövlətçiliyini, müstəqilliyini qorumaq üçün fəaliyyət göstərəcəksiniz. Əminəm ki, bu yolla gedəcək, düzgün mövqe tutacaqsınız.

Mən bu müraciəti edərək, eyni zamanda Azərbaycan dövlətinin qüdrətli olduğunu bildirmək istəyirəm. Mən Azərbaycan dövlətinin qüdrətinə güvənirəm və bu vəziyyətdən çıxmaq üçün onun bütün imkanlarından istifadə etməyə çalışacağam. Ancaq yenə de deyirəm: mənim yolum sülh yoludur, əmin-amanlıq yoludur. Bunun naminə sizə müraciət edərək ayağa qalxmağa dəvət edirəm. Əmin ola bilərsiniz ki, Azərbaycan Respublikasının müstəqilliyini qorumaq üçün özümdə həmişə qüdrət hiss etmişəm və bu gün də hiss edirəm. Bilin ki, indi Azərbaycanın sərhədlərində bizim qəhrəman ordumuz, cəsur oğlanlarımız, övladlarımız torpaqlarımızın keşiyində durduğu bir vaxtda, Azərbaycan torpaqlarını təcavüzdən qoruduğu bir vaxtda ölkəmizin daxilində belə bir vəziyyətin yaranması Azərbaycanın torpaqlarına olan təcavüzə köməkdir, respublikamızın ərazi bütövlüyünə, müstəqilliyinə xəyanətdir. Ona görə də ordumuza müraciət edərək bir daha bildirirəm ki, əsgər və zabitlərimiz öz səngərlərində, öz postlarında cəsarətlə dayanmalı, torpaqlarımızı müdafiə etməlidirlər, bu ağır dəqiqələrdə, ağır saatlarda Azərbaycanın torpaqlarına qarşı təcavüz olunmasına yol verməməlidirlər. Eyni zamanda onlar da öz qeyrətləri, namusları, cəsarətləri ilə bu ağır dəqiqələrdə həmrəyliklərini bildirməlidirlər.

Mən Azərbaycanın bütün siyasi partiyalarına müraciət edirəm. Dünən onların bir qrupunun nümayəndələri ilə görüşdüm, danışdım. Onlar dövlətimizlə, dövlətçiliyimizlə həmrəy olduqlarını bildirdilər. Onlar bu gün ayağa qalxaraq küçəyə çıxmalıdırlar. Mən onları Prezident Aparatının qarşısına dəvət edirəm. Bütün ictimai-siyasi təşkilatlara, cəmiyyətlərə müraciət edirəm, onların üzvlərini buraya dəvət edirəm.

Bir sözlə, hamıya müraciət edirəm və bu ağır gündə hamıdan mətanət, dəyanət, cəsarət, qəhrəmanlıq, namus, qeyrət gözləyirəm. Azərbaycan xalqı qeyrətli xalqdır, mətin xalqdır. Əminəm ki, bu ağır sınaqlardan çıxacağıq. Mən sizə inanıram və siz də əmin ola bilərsiniz ki, Azərbaycanın dövlətçiliyinin keşiyində daim dayanmışam və dayanacağam. Sağ olun. [360-361]

## PREZİDENT SARAYI QARŞISINDA BAKI ZƏHMƏTKEŞLƏRİNİN MİTİNQİNDƏ ÇIXIŞ

*4 oktyabr 1994-cü il*

Əziz bacılar, qardaşlar, əziz həmvətənlər, əziz bakılılar!

Bu gecə vaxtı, yuxunuza haram qataraq, istirahətinizi pozaraq Azərbaycan dövlətçiliyinin qorunması naminə mənim çağırışımla buraya, Prezident sarayının qarşısına toplaşdığınıza görə sizə səmimi-qəlbdən təşəkkür edirəm, çox sağ olun. Siz, Azərbaycan vətəndaşları bir il bundan öncə – oktyabrın 3-də mənə böyük etimad göstərdiniz, məni müstəqil Azərbaycan Respublikasının Prezidenti seçdiniz. Bir ildir ki, sizin etimadınızı doğrultmağa çalışaraq, Azərbaycan Respublikasının müstəqilliyini möhkəmləndirmək, xalqımızın vəziyyətini yaxşılaşdırmaq, Azərbaycanın torpaqlarını qorumaq üçün əlimdən gələni etmişəm. Bunu özümə şərəfli borc bilirəm və Azərbaycan xalqına xidmət göstərməyə imkanım olduğuna görə özümü xoşbəxt sayıram.

Respublikamız öz tarixinin ağır dövrünü yaşayır. Torpaqlarımızın bir qismi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuşdur. Bir milyondan artıq vətəndaşımız qaçqın vəziyyətindədir. İqtisadi, sosial vəziyyət ağırdır. Dövlət başçısı kimi mən bilirəm ki, Azərbaycan vətəndaşları çətin vəziyyətdə yaşayırlar. Belə bir vəziyyətdən çıxmaq üçün, Azərbaycanın müstəqilliyini möhkəmləndirmək, ərazi bütövlüyünü təmin etmək üçün bu bir il ərzində çox addımlar atılmışdır. Ancaq istədiyimizə hələ nail ola bilməmişik. Belə ağır vəziyyətdə yaşayan xalqımız vətənpərvərliyini, Vətənə sədaqətini daim nümayiş etdirmiş və bütün bu əzab-əziyyətə, çətinliklərə dözərək yalnız və yalnız Azərbaycanın müstəqilliyini, dövlətçiliyini qorumağa çalışmışdır. Bu gecə vaxtı sizin buraya toplaşmağınız da onu göstərir ki, həyatımız nə qədər çətin olsa da, nə qədər əziyyət içində yaşasaq da qəddimizi əymirik, başımızı aşağı dikmirik. Biz hamımız birik, hamımız birlikdə Azərbaycanı bu vəziyyətdən çıxarmağa çalışırıq, onun dövlət müstəqilliyini qoruyuruq.

Çox məmnunam ki, mənim çıxışıma səs verdiniz, şəhərin müxtəlif yerlərindən buraya toplaşdınız. Burada alovlu nitqlər səslənir, insanlar həyəcana gəlib, coşub. Azərbaycanın hər yerində insanlar küçələrə, meydanlara çıxaraq öz mənliyini, milli qürurunu, öz dövlətçiliyini, müstəqilliyini qoruyur. Çox sağ olun, minnətdaram.

Atalardan qalmış müdrik məsəl var: el gücü sel gücüdür. El gücünün [361-362] qarşısında heç kəs, heç bir qüvvə dayana bilməz. Mənim də dayağım, güvəndiyim xalqımdır, sizsiniz, əziz Azərbaycan vətəndaşlarıdır. Sağ olun.

Dünən və bu gün, respublika çətin vəziyyətə düşdüyü vaxtda mən televiziya ilə sizə, bütün Azərbaycan vətəndaşlarına müraciət etdim. Həmin müraciətlərimdə yaranmış vəziyyəti təhlil etdim, sizə çatdırdım və dövlət başçısı kimi atdığım addımları, gördüyüm tədbirləri bildirdim. Doğrudan da, son günlər Azərbaycanda gərgin vəziyyət, qarşıdurma yaranmışdır. Ancaq mən dünən də, bu gün də sizə dedim və indi də sizin qarşınızda çıxış edərək deyirəm ki, bütün imkanlarımdan, təcrübəmdən, biliyimdən istifadə edərək bu vəziyyətdən yalnız və yalnız dinc yolla, danışıqlar, qarşılıqlı anlaşma yolu ilə çıxmaq xətti götürmüşdüm. Çox məmnunam ki, bu tədbirlər öz nəticəsini verdi və biz bu gərginliyi aradan götürdük.

Respublikamız vətəndaş müharibəsi həddinə gəlib çatmışdı, qan tökülə bilərdi, mən artıq bunu görürdüm, dərk edirdim, bu, məni narahat edirdi, incidirdi və çalışırdım ki, belə ağır problemləri qan tökülmədən, sülh yolu ilə həll edim. Buna nail olmaq üçün sizə güvənirdim, arxalanırdım. Sizin gücünüzlə, mənə göstərdiyiniz həmrəyliyinizlə bu məsələləri həll etdik.

Mənim bu gün televiziya ilə xalqa müraciətim ürəklərə yol tapdı, insanlara təsir etdi, onları oyatdı və hamı başa düşdü ki, respublikamızın indi bir problemi var: xalqımızı Ermənistanın təcavüzündən qurtarmaq, işğal olunmuş torpaqlarımızı azad etmək, qaçqınları öz yerlərinə qaytarmaq, Azərbaycanın müstəqilliyini qorumaq. Bu gün, bu axşam bunu artıq hamı dərk etdi və Xüsusi Təyinatlı Polis Dəstəsindən olan, yolunu azmış, səhv etmiş gənclərimiz də bunu anladılar, başa düşdülər. Rövşən Cavadov mənim televiziya ilə çıxışımdan sonra özü buraya gələrək bizimlə birlikdə olduğunu göstərdi və bəyan etdi ki, Azərbaycanın müstəqilliyi yolunda çalışmış, vuruşmuşdur, bundan sonra da Azərbaycanın dövlətçiliyi uğrunda səylərini əsirgəməyəcəkdir və bu gün bizimlədir, Azərbaycanın Prezidenti ilədir.

Mən dünən də, bu gün də televiziya ilə müraciətimdə bildirdim ki, Azərbaycanın xaricində və daxilində olan qara qüvvələr yaranmış vəziyyətdən dərhal istifadə etməyə başlamışlar. Çox təəssüf ki, aramızda belə qüvvələr, belə qruplar var. Onlar bu münaqişədən istifadə edərək öz xeyirləri üçün müəyyən tədbirlər gördülər, aranı daha da qarışdırdılar, daha da qızışdırmağa, adamları bir-biri ilə toqquşdurmağa çalışdılar. Beləliklə, Azərbaycanda sabitliyin pozulması, dövlətçiliyimizin təhlükə altına alınması real vəziyyətə çevrilmişdi. Ona görə də mən sizə müraciət etdim. Güman edirəm ki, həmin o qara qüvvələr, belə çirkin əməllərlə yaşayan

adamlar və xaricdən ölkəmizi dağıtmağa çalışanlar bu gün xalqımızın həmrəyliyini, onun birliyini görərək özləri üçün nəticə çıxaracaqlar. Mən xalqa inanıram, xalqa güvənirəm, sağ olun ki, siz bu gün buradasınız.

Mən dünən Azərbaycan xalqını xəbərdar etdim ki, bu hadisə [362-363] bizə çox bəlalar gətirə bilər. Dediyim bu sözlər, təəssüf ki, bu gün təsdiq olundu. Gəncədə ayrı-ayrı şəxslər tərəfindən idarə edilən silahlı qüvvələr, daxildən, bəlkə də xaricdən idarə olunan qüvvələr dövlət çevrilişi etdilər. Gəncədə şəhərin, rayonların icra hakimiyyətlərini, hava limanını, dəmir yol vağzalını, Milli Təhlükəsizlik Nazirliyinin idarəsini zəbt edərək dövlət çevrilişini reallaşdırdılar. Ancaq onlar da çox böyük səhv etdilər, xalq qarşısında, dövlət qarşısında günah etdilər, onlara himayədarlıq edən də günah etdi. O, anlamalıdır ki, Azərbaycanın bu ağır günündə belə yol tutmaq olmazdı. O, indiyədək ona göstərilən hörməti başa düşmədi, anlamadı və belə pis yol tutdu.

Ancaq mən sizə xəbər verə bilərəm ki, Gəncədə sağlam qüvvələr ayağa qalxmışlar. Azərbaycanın dövlətçiliyinə qəsd edənləri cilovlayır, yaxalayır, onları aradan qaldırırlar. Yəqin ki, indi Gəncə əhalisi televiziya qarşısında məni dinləyir. Mən onları buradan, Bakıdan, Azərbaycanın paytaxtından salamlayır, gəncəlilərə hörmət və ehtiramımı bildirirəm. Əmin olduğumu bildirmək istəyirəm ki, onlar düşmən qüvvələrin öhdəsindən gələcəklər, Gəncədə əmin-amanlıq yaranacaq, orada Azərbaycan dövlətinin, Azərbaycan Prezidentinin hakimiyyəti bərqərar olacaqdır.

Həmin o qüvvələr Gəncənin yaxınlığında olan Yevlax şəhərində də aranı qarışdırmaq istədilər, orada da bəzi cəhdlər göstərdilər. Lakin bu əməllər baş tutmadı, oranın əhalisi, dövlət orqanları sinə gərərək bu hərəkətlərin qarşısını aldılar. Mən Azərbaycanın dövlətçiliyinə təcavüz edən, ona qarşı təxribat törədən qüvvələrə bu gün xəbərdarlıq edirəm: bütün bunlar baş tutmayacaq, heç kəs buna ümid bəsləməsin!

Azərbaycanın bu ağır dövründə öz şəxsi mənafelərini güdərək şəxsi məqsədlərinə nail olmaq üçün, vəzifə, hakimiyyət uğrunda mübarizə apararaq respublikamıza zərər vuranlar xalqımıza, Azərbaycan dövlətinə xəyanət edirlər. Biz bu xəyanətkarların çirkin əməllərinin həyata keçməsinə heç vaxt yol verməyəcəyik. Sizin həmrəyliyiniz, Azərbaycan xalqının həmrəyliyi buna zəmin və təminatdır.

Dünən də, bu gün də mən xalqa müraciət edərək vətəndaşlarımızın bütün təbəqələrini, hamını birliyə, həmrəyliyə dəvət etdim. Bütün siyasi partiyaları, ictimai-siyasi təşkilatları, hər bir vətənpərvər insanı birliyə, vətəndaş həmrəyliyinə çağırdım. Çox məmnunam ki, bu çağırışım əks-səda tapdı. Buraya, bu meydana, Azərbaycan Prezidentinin iqamətgahı qarşısına toplaşanlar respublikamızın çoxrəngli ictimai-siyasi mənzərəsinin, demək olar, bütün təbəqələrini əks etdirirlər. Bu, çox gözəl hadisədir, çox böyük nailiyyətdir. Mən buna sevinirəm və əmin ola bilərsiniz ki, müstəqilliyimizi təmin etmək naminə bundan sonra da Azərbaycan xalqının bütün təbəqələrini, bütün təşkilatlarını, bütün qüvvələrini birləşdirmək üçün, yaxınlaşdırmaq üçün əlimdən gələni edəcəyəm. [363-364]

Bu gün xalqa müraciət edərkən üzümü xüsusi olaraq qadınlara – ana və bacılara, qız və gəlinlərə tutdum. Qadınlar cəmiyyətimizdə həmişə çox fəal olmuşlar. Həyatımızın çox ağır vaxtlarında qadınların nə qədər cəsarətli, nə qədər mətin olduqlarını dəfələrlə görmüşəm. Bu gün də, gecənin bu vədəsində qadınların burada olmasını, hətta qucağında körpə ilə buraya gəlmələrini görəndə xalqımızın necə yüksək keyfiyyətlərə malik olduğunu bir daha hiss edirəm. Eşq olsun bizim qadınlara, eşq olsun bizim analara, bacılara! Eşq olsun bizim ağsaqqallara, hörmətli adamlarımıza, gənclərə! Eşq olsun Azərbaycan xalqına!

Bu gün bakılıların, bütün Azərbaycan xalqının öz qüdrətini nümayiş etdirməsi doğrudan da bizim mətinliyimizi göstərir. Ancaq əziz bacılar və qardaşlar, əziz həmvətənlər, bilin ki, qarşıda bizi hələ böyük sınaqlar, böyük imtahanlar gözləyir. Hələ Azərbaycanın müstəqilliyinə həm daxildən, həm də xaricdən təcavüz etmək istəyən qüvvələr var. Bugünkü mütəşəkkilliyinizə, coşqunluğunuza, vətənpərvərliyinizə görə təşəkkür edirəm. Ancaq bu gün sizi bir daha sayıq olmağa, həyatımıza zidd olan qüvvələrin qarşısını vaxtında almağa, Azərbaycanın daxili ictimai-siyasi sabitliyini təmin etməkdə iştirak etməyə çağırıram. Bu, Azərbaycanın ən böyük probleminin – onun müharibədən çıxması, müstəqilliyinin, ərazi bütövlüyünün təmin olunması probleminin həlli üçün əsas yaradacaqdır. Əmin olduğumu bildirmək istəyirəm ki, siz bu işdə bizimlə, mənimlə çiyin-çiyinə gedəcəksiniz.

Əziz həmvətənlər! Mən bu gecə vaxtı bu böyük meydanda, müqəddəs bir yerdə toplaşan azərbaycanlıları, respublikamızın vətəndaşlarını, bakılıları, hamınızı qucaqlayır, hər birinizi ürəkdən öpürəm, bağrıma basıram. Sizə hörmət və ehtiramımı, məhəbbətimi bildirirəm. Hər birinizə həyatınızda səadət, işinizdə uğurlar arzulayıram.

Məğrur və qüdrətli Azərbaycan xalqına eşq olsun!

Yaşasın müstəqil, əyilməz Azərbaycan Respublikası!

Bu görüş üçün hamınıza bir daha təşəkkür edir, hər birinizə cansağlığı, xoşbəxtlik arzulayıram. Sağ olun. [364-365]

## ÜMUMRESPUBLİKA HƏMRƏYLİK MİTİNQİNDƏ ÇIXIŞ

*5 oktyabr 1994-cü il*

*Azadlıq meydanı*

Hörmətli həmvətənlər, əziz bacılar və qardaşlar! Sevimli Azərbaycan xalqı!

Son günlər Azərbaycanın həyatında mürəkkəb hadisələr baş vermiş, cəmiyyətimiz çox gərgin vəziyyətə düşmüşdür. Bununla əlaqədar olaraq mən Azərbaycan xalqına dəfələrlə müraciət etmişəm. Müstəqil Azərbaycan dövlətinin qorunması üçün Azərbaycan xalqından ayağa qalxmağı rica etmişəm. Mən xalqa həmişə ümid bəsləmişəm, həmişə də xalqa güvənmişəm. Xalqın nə qədər qüdrətli və müdrik olduğunu daim bilib yəqin etmişəm. Odur ki, bu günlərdə Azərbaycan xalqı öz sıx birliyini, həmrəyliyini bir daha nümayiş etdirib, bir daha bildirir ki, milli azadlığa nail olan Azərbaycan xalqı yenilməzdir, mətindir, cəsarətlidir.

Azərbaycan xalqı milli azadlığa çıxdıqdan sonra, Vətənimiz müstəqil dövlət olduqdan sonra biz çox ağır və mürəkkəb, keşməkeşli yollar keçmişik. Bu yolumuzda həm müstəqilliyimizin qarşısını almağa çalışan qüvvələr – ölkəmizin istər xaricində, istərsə də daxilində olan qüvvələr, eləcə də ayrı-ayrı qruplar bu fürsətdən istifadə edərək öz şəxsi mənafelərini, öz şəxsi məqsədlərini həyata keçirmək üçün dəridən-qabıqdan çıxır. Müstəqilliyimizə əngəl törətməyə can atır, müstəqilliyimizə təcavüz edir, zərər vururlar.

Odur ki, ötən bu illər ərzində həyatımız mürəkkəb və ağır olmuşdur. Ancaq bizə bir şey təskinlik verir, bir şey bizi sevindirir ki, Azərbaycan xalqı bütün bu çətinliklərdən, ağır sınaqlardan şərəflə, namusla, qeyrətlə çıxacaq, bundan sonra qarşılaşacağımız maneələri də bax, beləcə dəf edəcək, Azərbaycanın müstəqilliyi uğrunda iri addımlarla, inamla irəliləyəcəkdir.

Dünən milli televiziya və radio ilə müraciətimdən sonra bütün Azərbaycan xalqı ayağa qalxmışdır. Saysız-hesabsız teleqramlar gəlir, saysız-hesabsız adamlar zəng vururlar. Vətənimizin bütün bölgələrində, bütün rayonlarında və yaşayış məntəqələrində həmrəylik mitinqləri keçirilir, bütün el-oba, bütün xalq öz həmrəyliyini bildirir. Xalq Vətənimiz Azərbaycanın müstəqilliyini qorumaq əzmindədir, bu amal, bu ülvi məqsəd naminə ayağa qalxmışdır. Elə bu gün də buraya bakılılarla yanaşı, Azərbaycanın neçə-neçə şəhər və rayonlarından nümayəndələr gəlmişlər.

Əziz bacı və qardaşlarım, əziz həmvətənlərim, mən sizi bu Azadlıq meydanında səmimi-qəlbdən, xoş arzularla salamlayıram, bu gün buraya [365-366] toplaşdığınıza görə, Azərbaycanın müstəqilliyini qorumağa qətiyyətlə hazır olduğunuza görə sizə minnətdarlığımı və təşəkkürümü bildirirəm. Çox sağ olun.

Son günlərdə baş vermiş hadisələr Azərbaycanın müstəqilliyini puça çıxarmağa, onu müstəqillik yolundan döndərməyə, bu yolla irəliləyişinin qarşısını almağa, ölkəmizin daxili ictimai-siyasi sabitliyini pozmağa yönəldilmiş əməllərdir. Onu da bilin ki, bu hadisələr ümumiyyətlə, Azərbaycanı dağıtmaq, parçalamaq, ölkəmizi müstəqil bir dövlət kimi məhv etmək üçün qurulan planların bir hissəsidir. Qoy hamı bilsin və əmin olsun ki, bu bəd niyyətlərin və bu çirkin planların heç birisi həyata keçməyəcəkdir! Azərbaycan xalqı buna yol verməyəcəkdir! Azərbaycan müstəqil bir dövlət kimi yaşayacaqdır!

Son aylar Azərbaycanımızın istər daxilində, istərsə də xaricində ayrı-ayrı mətbuat orqanları Azərbaycanda guya dövlət çevrilişi hazırlandığı barədə aləmə car çəkmiş, məlumat vermişdir. Sözün düzü, mən bəzən bu xəbərlərə inanmırdım, bəzən də çox soyuqqanlılıqla yanaşırdım. Ona görə ki, mən bilirdim və bu gün bir daha təsdiq olundu ki, xalqımız öz müstəqil dövlətini qorumağa qadirdir və heç bir qüvvə Azərbaycanda dövlət çevrilişi edə bilməz.

Uç gün bundan qabaq Azərbaycan polisinin xüsusi təyinatlı dəstəsinin bəzi qrupları tərəfindən qanunsuz hərəkətlər nəticəsində törədilmiş silahlı qarşıdurma sülh yolu ilə dayandırıldı. Halbuki vəziyyət son dərəcə gərgin idi. Mən başa düşürdüm ki, o gəncləri, o cavanları yoldan çıxaranlar var, pis yola çəkənlər var, onları öz əllərində alətə çevirib idarə edən olduqca mənfur və düşmənçilik məqsədləri güdən qüvvələr var. Ona görə də mən çalışdım, səy göstərdim, nə qədər vaxt sərf etdik, qayğı göstərdik ki, bu məsələləri aydınlaşdıraq. Aydınlaşdırdıq da!

Bəli, mən çalışdım, özü də var qüvvəmlə çalışdım, nəticədə münaqişəni sülh yolu ilə aradan qaldırmağa müvəffəq olduq. İndi bu problem daha mövcud deyildir. Xüsusi Təyinatlı Polis Dəstəsi əlindəki silahların bir qismini təhvil vermişdir və qalan hissəsini də təhvil verəcəkdir. Azərbaycanın qeyrətli və təpərli vətəndaşları kimi, onlar əvvəllər cəbhədə necə vuruşmuşdularsa, bundan sonra da Azərbaycan Respublikasının müstəqilliyi uğrunda döyüşəcək, əzmlə çalışacaqlar.

Lakin bilməlisiniz ki, son vaxtlar Azərbaycanda baş vermiş faciəli hadisələr, bir daha deyirəm, Vətənimizin suverenliyinə, müstəqilliyinə qarşı yönəldilmiş təcavüzdür, əməllərdir. Dörd cani həbsxanadan qaçırılıbdır. Bu, çox alçaq, dəhşətli hadisədir. Bundan sonra Azərbaycanın iki dövlət xadimi – Afiyəddin Cəlilov və Şəmsi Rəhimov qəddarcasına qətlə yetirilmişlər. Bu da faciədir. Bu, siyasi terrordur. Bu, təkcə o

adamların həyatına qarşı deyil, bütün Azərbaycanın müstəqilliyinə qarşı, müstəqil siyasətimizə qarşı yönəldilmiş siyasi terror hərəkətidir.

Nəhayət, son günlər baş vermiş hadisələrin hamısı kənardan təhrik edilmiş, daxili düşmənlər tərəfindən hazırlanmış planlar əsasında həyata [366-367] keçirilmişdir. Bu planların bəziləri Moskvada qurulmuşdur. Mən Moskva dedikdə Azərbaycandan qaçan, Azərbaycana xəyanət edən Ayaz Mütəllibov kimi, Vaqif Hüseynov kimi düşmənləri nəzərdə tuturam. Siz bilməlisiniz ki, onlar və onlarla əlaqəyə girən cinayətkar qüvvələr indi Azərbaycanda fəaliyyətə başlamışlar. Amma qoy onlar da, hamı da bilsin ki, biz bütün bu əməllərin qarşısını almışıq və alacağıq da. Onlar öz mənfur əməllərini burada heç vaxt həyata keçirə bilməyəcəklər. Onlar törətdikləri cinayətlər üçün gəlib Azərbaycan xalqı qarşısında cavab verməli, mühakimə olunmalıdırlar!

Cinayətlərdən ən dəhşətlisi terrordur, xüsusən də siyasi terror. Bəzi qüvvələr mənim də əleyhimə terror hərəkətləri hazırlayır. Bildiyiniz kimi, ötən ilin payızında Bakıda bir terrorçu qrup yaxalandı və bu terrorçular mühakimə edildilər. Çünki onlar mənim həyatıma sui-qəsd törətməyə hazırlaşmışdılar. Məhz həmin anda, yəni cinayət başında yaxalandılar. Xalq Cəbhəsinin bəzi adamları Həsən Toku adlı bir nəfər Türkiyə vətəndaşını aldadıb gətirmiş və burada mənim həyatıma sui-qəsd etmək istəmişdilər. Amma onların mühakimə edilməsindən bəziləri lazımi nəticə çıxarmadı, buna görə də yenidən terrora əl atmağa çalışırlar. Şübhə yoxdur ki, xalqımız buna yol verməyəcəkdir. Lakin xalq da bilsin ki, mən Azərbaycanın müstəqilliyi uğrunda, Vətənimizin suverenliyi uğrunda, torpaqlarımızın bütövlüyü uğrunda var qüvvəmlə çalışmışam və heç bir terrordan, heç bir hədə-qorxudan vahiməyə düşüb geri çəkilməyəcəyəm.

Bu gün çox təəssüf hissi ilə demək istəyirəm ki, mənim həyatıma sui-qəsd etmək istəyən həmin o terrorçu cinayətkarlardan iki-üç nəfəri Kələki kəndində gizlənir. Onlar keçmiş prezident Əbülfəz Elçibəyin başına toplaşıblar. Mən Azərbaycanın milli azadlığı uğrunda mübarizədə Əbülfəz Elçibəyin xidmətlərini qiymətləndirirəm. Ancaq yenə də deyirəm ki, heç kəs silaha əl atmamalıdır, heç kəs terrorla məşğul olmamalıdır. Bütün silahlı dəstələr tərksilah edilməlidir. Ona görə də bu gün mən siyasi terror yolu tutan adamlara nifrətimi bildirir və bütün xalqı onları ifşa etməyə çağırıram.

Sizi əmin edirəm ki, Afiyəddin Cəlilovun, Şəmsi Rəhimovun həyatlarına qəsd edən canilər də tapılacaq və cəzasını alacaqlar. Bu, bütün terrorçulara xəbərdarlıqdır. Qoy onlar bilsinlər ki, bu dəhşətli cinayətlər ayrı-ayrı şəxslərin həyatına deyil, müstəqil Azərbaycana qarşı yönəldilmiş xəyanətdir. Bu xəyanətlərə əl atanlara ar olsun!

Çox təəssüf ki, son günlər yaranmış vəziyyətdən bəzi düşmən qüvvələr Gəncə şəhərində də istifadə etdilər. Çox təəssüflər olsun! Lakin biz dünən axşam burada baş vermiş hadisəni sülh yolu ilə həll etdiyimiz vaxtda mənə məlumat gəldi ki, Gəncədə iri bir silahlı dəstə şəhəri işğal edib, burada dövlət çevrilişi həyata keçirmiş, dövlət orqanlarını tutmuş, bütün giriş-çıxış yollarını kəsmiş, hava limanını, vağzalları zəbt etmiş və [367-368] qanunsuz hərəkətlərə yol vermişdir. Mən bundan xəbər tutan kimi onu araşdırmağa başladım. Gəncə ilə rabitə əlaqəsi saxlamaq çox çətin idi, çünki bütün rabitə xətləri kəsilmişdi. Bunu kim etmişdir? Nə üçün edib?

Mən baş nazir Surət Hüseynova zəng vurdum. Bildiyiniz kimi, o gəncəlidir, orada onun tərəfdarları, silahlı qüvvələri var, – təəssüf ki, onlar qanunsuz silahlı qüvvələrdir. Buna görə də mən ona müraciət etdim. Ona dedim ki, Gəncədə belə bir hadisə baş vermişdir. Surət Hüseynov dedi ki, xəbərim yoxdur, məsələni araşdıraram. Bir azdan bir daha xahiş etdim ki, bu məsələ ilə məşğul ol, gör nə işdir. Cavab verdi ki, araşdırdım, orada bu işi Xüsusi Təyinatlı Polis Dəstəsi görmüşdür.

Bir azdan məlumat aldım ki, bu, XTPD deyil, orada olan gizli silahlı dəstələrdir və onlara da Surət Hüseynova yaxın olan ayrı-ayrı şəxslər başçılıq edirlər. Bundan başqa, Nazirlər Kabinetində, Surət Hüseynovun yanında işləyən adamlar oraya gedərək, bu əməllərə başçılıq etmişlər. Mən bunu eşidən kimi Surət Hüseynovu yanıma çağırdım ki, gəlsin birlikdə aydınlaşdıraq görək nə məsələdir. Ancaq təəssüf ki, o, yanıma gəlmədi. Bundan sonra onunla telefon vasitəsilə əlaqə saxlaya bilmədim. Mən televiziya ilə çıxış edib bu barədə qısa məlumat verəndən sonra o, mənə zəng vurdu. Mən ona bildirdim ki, belə işlər yaramaz. Axı biz bir dövlətdə, bir yerdə işləyirik. Dövlət rəhbərliyində olan şəxs dövlət çevrilişində iştirak etməməlidir. Buna görə də bir daha dəvət etdim ki, yanıma gəlsin. Amma o, yenə də gəlmədi. İndi yanımdadır. Mən hər şeyi açıq deyirəm.

Heç bir şeyi gizlətmirəm. Mən belə hadisələri pisləyirəm. Bizim içərimizdə belə şeylər olmamalıdır.

Gəncədə baş vermiş bu hadisələrin qarşısını almaq üçün biz ordunun gücündən istifadə etməyə məcbur olduq. Dünən axşamdan ordu orada əməliyyat keçirməyə başladı. Əməliyyat nəticəsində bu cinayətkarlar – Gəncədə dövlət çevrilişi etmiş adamların bir qismi yaxalandı, bəziləri qaçdı. O cümlədən Surət Hüseynovun qohumu, bu işə rəhbərlik edən Kəramət də qaçıb. Ancaq görün, bu cür cinayətlər bizə nə qədər zərbə vurur. Həmin gecə keçirilən əməliyyatda ordumuzun üç nəfər cavan döyüşçüsü həlak oldu: çavuş Aqil Musayev, çavuş Natiq Məmmədov, çavuş Elnur Nuriyev – biri Qazaxdan, biri Zaqataladan, digəri Zəngilandan. Bu çavuşlar, bizim gənc döyüşçülərimiz bu cinayəti aradan qaldırmaq üçün vuruşaraq qəhrəmancasına həlak olublar. Mən onların ruhu qarşısında baş əyirəm. Allah onlara rəhmət eləsin. Onların xatirəsini bir dəqiqəlik sükutla yad etməyi xahiş edirəm.

Allah onlara rəhmət eləsin. Qəbirləri nurla dolsun. Valideynləri bilsinlər ki, onlar Azərbaycanın müstəqilliyini qorumaq uğrunda həlak olublar. Buna görə də mən bu gün öz fərmanımla ordunun bu üç gənc döyüşçüsünə "Azərbaycanın Milli Qəhrəmanı" adı vermişəm. Bu əməliyyatlara rəhbərlik edən komandirlər Rövşən Əkbərov və Fəxrəddin Cəbrayılov Azərbaycanın yüksək mükafatları ilə təltif olunublar. [368-369]

Cinayətkarların bəziləri təəssüf ki, qaçıblar. Amma bir qismi həbs olunub, indi artıq Bakıya gətirilib, istintaq aparılacaq və bu dövlət çevrilişini edən adamların hamısı cinayət məsuliyyətinə cəlb olunacaqdır.

Əziz həmvətənlər, indi görün, vəzifə uğrunda, hakimiyyət uğrunda öz bəd əməllərini həyata keçirmək üçün çirkin yollara gedən adamlar cəmiyyətimizə, ölkəmizə, millətimizə nə qədər zərbələr, yaralar vurublar. Onların hamısına nifrət olsun!

Həmin bu qüvvələr dünən Yevlaxda, Xanlar rayonunda da aranı qarışdırmaq, hakimiyyəti dağıtmaq istəyiblər. Ancaq bunların qarşısı alınıb. Yevlax yun zavodunun direktoru – bu işlərlə məşğul olan adam qaçıb, axtarışdadır.

Bunlar hamısı bir daha göstərir ki, bizim içərimizdə öz şəxsi mənafeləri üçün Azərbaycanın daxili sabitliyini pozan adamlar var. Ancaq bu gecə keçirilən əməliyyat onu göstərir ki, Azərbaycan dövləti, onun silahlı qüvvələri, dövlətin gücü yüksək dərəcədədir və hər bir təxribatçı, qiyamçı qüvvələrin qarşısını ala bilərik, alacağıq və belə çirkin hərəkətlərin yerinə yetirilməsinə yol verməyəcəyik!

Azərbaycanda baş verən bu hadisələr bütün dünya ictimaiyyətinin diqqət mərkəzindədir. Dünyanın bütün informasiya orqanları son günlər Bakıdakı vəziyyət və hadisələrlə əlaqədar məlumatlar verirlər. Eyni zamanda dünya dövlətləri Azərbaycan dövləti ilə həmrəy olduqlarını bildirirlər. Bu gün burada bizim sıralarımızda xarici ölkələrin Bakıdakı səfirləri də vardır. Onlar da bizimlə birlikdə buraya gəliblər. Ona görə də xarici ölkələrin Azərbaycandakı səfirlərinə, diplomatlarının hamısına təşəkkürümü bildirirəm, onları salamlayıram. Bu ağır gündə bizimlə bir yerdə olduqlarına görə minnətdarlığımı bildirirəm. Sağ olsunlar.

Dünyanın böyük dövlətlərinin başçıları və dövlət orqanları bu barədə bəyanatlar vermişlər. Türkiyənin Prezidenti cənab Süleyman Dəmirəl dərhal mənə telefonla zəng edib, bizimlə həmrəy olduğunu bildirib. Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, İngiltərənin Xarici İşlər Nazirliyi, Fransanın, İranın və başqa ölkələrin xarici siyasət orqanları öz dövlətləri adından bəyanatlar veriblər. Bu gün səhər Rusiya Prezidenti Boris Yeltsinin şəxsi nümayəndəsi onun tapşırığı ilə mənə zəng edib və bildirib ki, Rusiya hökuməti, onun Prezidenti burada baş verən hadisələri çox narahatlıqla izləyirlər, cinayətkarları pisləyirlər və Azərbaycan dövlətinin fəaliyyətini bəyənirlər.

Beləliklə, biz dünyanın böyük ölkələrinin, dünya ictimaiyyətinin Azərbaycanda gedən hadisələrə marağını görürük. Eyni zamanda dövlət başçılarının Azərbaycan dövlətini dəstəklədiklərini də görürük. Bütün bunlara görə mən bu gün bizimlə həmrəy olan dövlət başçılarına, dövlət orqanlarına öz təşəkkürümü, minnətdarlığımı bildirirəm.

Əziz həmvətənlər, sizin bu meydana toplaşmağınız, dünən gecə səhərədək Prezident Aparatının qarşısında keçirilən mitinq, bugünkü mitinq, [369-370] rayonlarda, şəhərlərdə gedən mitinqlər bir daha göstərir ki, Azərbaycan xalqı bu ağır dövrdə, Ermənistanın bizə qarşı təcavüzünün gücləndiyi bir dövrdə, torpaqlarımızın 20 faizinin işğal edildiyi bir dövrdə, Azərbaycanda bir milyondan artıq qaçqın olduğu bir dövrdə, respublikamızın sosial-iqtisadi vəziyyətinin ağır olduğu bir dövrdə bütün əzab-əziyyətlərə dözür, dövlətimizin müstəqilliyi uğrunda çalışır və hamı həmrəydir. Bu həmrəyliyə görə, Azərbaycanın müstəqilliyi naminə göstərdiyiniz xidmətlərə görə, bu gün, dünən gecə mitinqlərə toplaşdığınıza görə, burada dövlətin haqqında, mənim ünvanıma dediyiniz sözlərə görə sizə təşəkkür edirəm, minnətdarlığımı bildirirəm.

Ancaq mən xahiş edirəm biləsiniz, düşmən hələ yenə də daxili ictimai-siyasi sabitliyimizi pozmaq, iqtisadiyyatımıza zərər vurmaq, Azərbaycanın müstəqilliyinə qəsd etmək istəyir. Ona görə də biz daha sıx birləşməliyik, daha sayıq olmalıyıq, hər bir hadisəyə ciddi münasibət göstərməliyik. Çalışmalıyıq ki, bundan sonra respublikamızda belə hadisələr baş verməsin. Mən sizə arxalanıram, mən sizə güvənirəm.

Azərbaycan xalqının ən böyük problemi müharibədən çıxmaqdır. Bildiyiniz kimi, apardığımız danışıqlar, siyasət nəticəsində beş aya yaxındır ki, atəş dayandırılmışdır. Cəbhələrdə atəş yoxdur. Biz bu müddətdən istifadə edirik ki, böyük sülh əldə edək, məsələni sülh yolu ilə həll edək, torpaqlarımızı geri qaytaraq. Biz müharibə aparmaq istəmirik. Mən bunu bütün dünyaya bəyan etmişəm.

Bu günlərdə ABŞ-da olarkən Birləşmiş Millətlər Təşkilatının tribunasından demişəm, Amerika Birləşmiş Ştatlarının Prezidenti hörmətli cənab Bill Klintonla danışıqlarımda, başqa dövlət xadimləri ilə görüşlərimdə də demişəm, bu gün də deyirəm: biz sülh istəyirik. Biz müharibəni sülh yolu ilə qurtarmaq istəyirik. Ancaq bir şərtlə – Azərbaycanın işğal olunmuş torpaqları geri qaytarılmalıdır, Ermənistan silahlı qüvvələri Azərbaycan torpağından çəkilməlidir, qaçqınlarımız öz yerlərinə qayıtmalıdırlar, Azərbaycanın ərazi bütövlüyü təmin olunmalıdır, o cümlədən Şuşa, Laçın rayonları azad edilməlidir, Azərbaycan sərhədlərinin toxunulmazlığı təmin olunmalıdır.

Biz bu şərtlər əsasında danışıqlar aparırıq və bundan sonra da aparacağıq. Mən əminəm ki, sizin göstərdiyiniz etimadla bu danışıqları başa çatdırıb sülh yaradacağıq. Biz sülh tərəfdarıyıq, biz sülh istəyirik. Azərbaycan xalqı sülhsevərdir. Biz bundan sonra da sülh yolu ilə gedəcəyik.

Ancaq bu məsələləri həll etmək üçün, Azərbaycanı sosial-iqtisadi böhrandan çıxarmaq üçün respublikamızın hər yerində ictimai-siyasi sabitlik lazımdır. Mən hamıdan xahiş edirəm, hamıya müraciət edirəm: hərə öz yerində vətəndaşlıq, vətənpərvərlik borcunu yerinə yetirsin, ictimai-siyasi sabitliyi qorusun, hamımız birləşib Azərbaycan üçün ən böyük problem olan müharibənin qurtarması problemini, torpaqlarımızın azad [370-371] olunması problemini həll edək. Mən sizi bu yola dəvət edirəm, sizinlə bir yerdəyəm, sizə güvənirəm, sizə arxalanıram.

Əziz həmvətənlər, bacılar, qardaşlar!

Mən sizi bağrıma basıram, sizi qucaqlayıram. Sizin bu günlərdəki dəyanətinizə, cəsarətinizə, qəhrəmanlığınıza görə, vətənpərvərliyinizə görə, yüksək vətəndaşlığınıza görə hər birinizə öz hörmət və ehtiramımı bildirirəm, hər birinizə təşəkkürümü bildirirəm.

Mən bir daha bütün Azərbaycan xalqını həmrəyliyə dəvət edirəm, bütün siyasi qüvvələri, siyasi partiyaları, ictimai-siyasi təşkilatları həmrəyliyə dəvət edirəm. Bütün ağsaqqalları, bütün hörmətli adamları həmrəyliyə dəvət edirəm. Mən Azərbaycanın gənclərinə güvənirəm, onları milli həmrəyliyə dəvət edirəm.

Mən İslam dininin xadimlərinə müraciət edirəm. Onları sülh, əmin-amanlıq yaratmaq üçün Azərbaycanın milli, mənəvi dəyərlərindən istifadə edərək xalqımızı milli birliyə çağıran işə dəvət edirəm. Sizin hamınızı birliyə dəvət edirəm. Hamınıza öz hörmət və ehtiramımı bildirirəm. Hamınızı öpürəm, qucaqlayıram. Hamınıza hörmətimi bildirirəm. Azərbaycanın müstəqilliyi uğrunda irəli!

Qəhrəman Azərbaycan xalqına eşq olsun!

Yaşasın müstəqil Azərbaycan Respublikası!

Sağ olun. [371-372]

## AZƏRBAYCAN SİLAHLI QÜVVƏLƏRİNİN 3-cü İLDÖNÜMÜ MÜNASİBƏTİ İLƏ TƏBRİK

İgid vətən oğulları!
Fədakar Azərbaycan döyüşçüləri!
Hörmətli müharibə veteranları!
Gələcəyinə ümid bəslədiyimiz hərbi kursantlar!
Əziz və doğma xalqım!

Sizi 9 Oktyabr – Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının 3-cü ildönümü münasibətilə ürəkdən təbrik edir və salamlayıram.

Gənc Azərbaycan dövlətinin müstəqilliyi keşiyində şərəf və namusla durmuş Azərbaycan Ordusunun mərd əsgər və zabitlərinə, Daxili Qoşunların cəsur döyüşçülərinə, igid sərhədçilərimizə ən səmimi hisslərimi bildirirəm, onlara ölkəmizin və xalqımızın dinc həyatı, aydın sabahı, xoşbəxt və firavan gələcəyi naminə möhkəm cansağlığı, sarsılmaz dözüm və dəyanət arzulayıram.

Əminəm ki, zəngin hərbi tarixə malik Azərbaycan xalqı öz Silahlı Qüvvələrinin əzm və qüdrətinə arxalanaraq çətin və ağır dövlət quruculuğu yollarında daha inamla addımlayacaq və yeni zəfərlər qazanacaq.

**HEYDƏR ƏLİYEV**

*7 oktyabr 1994-cü il* [372-373]

## AZƏRBAYCAN SİLAHLI QÜVVƏLƏRİNİN 3-cü İLDÖNÜMÜNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ YIĞINCAQDA NİTQ

*8 oktyabr 1994-cü il*

Əziz əsgərlər, əziz zabitlər!

Hörmətli xanımlar, cənablar!

Hörmətli xarici ölkələrin səfirləri və diplomatik nümayəndələri!

Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin yaranmasının üçüncü ildönümü münasibətilə sizi təbrik edirəm və Silahlı Qüvvələrimizə Azərbaycan Respublikasının müstəqilliyinin, suverenliyinin, ərazi bütövlüyünün qorunmasında uğurlar diləyirəm!

Müstəqil Azərbaycan Respublikasının Silahlı Qüvvələri üç il ərzində ağır və şərəfli yol keçmişdir. Azərbaycanın Silahlı Qüvvələri mürəkkəb bir zamanda yaranmağa başlamışdır. Altı ildir ki, Azərbaycan Respublikası Ermənistan Respublikası tərəfindən hərbi təcavüzə məruz qalmışdır. Bu dövrdə Azərbaycan xalqı bütün imkanlarından istifadə edərək öz torpaqlarını qorumağa çalışmış, qurbanlar, şəhidlər vermişdir.

Azərbaycanda Silahlı Qüvvələr üç il bundan qabaq təşkil olunmağa başlamışdır. Ötən üç il müddətində bu sahədə xeyli iş görülmüşdür. Silahlı Qüvvələrin təşkil olunması, yaranması, qurulması ağır, mürəkkəb şəraitdə keçmişdir. Birincisi, ona görə ki, respublika müharibə şəraitində olub, döyüşlər gedib, torpaqlarımızı, Vətəni qorumaq əsas məqsəd olmuşdur. İkincisi, Silahlı Qüvvələrin təşkilində, təəssüflər olsun ki, böyük səhvlər buraxılıb, günahlar olub, hətta böyük cinayətlərə yol verilib. Ona görə də ötən üç ildə Silahlı Qüvvələr çətinliklər içərisində yaranıb. Ancaq buna baxmayaraq Azərbaycan xalqının əlinə silah götürmüş, əsgər, zabit olmuş oğulları Silahlı Qüvvələrimizin yaranması üçün qeyrətlə, namusla çalışmış, döyüşmüş. və bu müddətdə məğlubiyyətlər olsa da, Azərbaycan torpaqlarının qorunmasında Azərbaycan əsgərləri, ordumuz, Silahlı Qüvvələrimiz, Azərbaycan övladları qəhrəmanlıq nümunələri göstərmişlər.

Altı ildən bəri davam edən müharibə dövründə və Silahlı Qüvvələrin yarandığı gündən indiyədək xalqımız Azərbaycan Respublikasının suverenliyinin qorunması yolunda, torpaqlarımızın, Vətənin müdafiəsi yolunda şəhidlər vermişdir. Bu gün, bu bayram günündə şəhidlərin ruhunu böyük minnətdarlıq hissi ilə yad edirəm, onların qəhrəmanlığı, cəsurluğu və ruhu qarşısında baş əyirəm. Bəyan edirəm ki, şəhidlərin xatirəsi Azərbaycan xalqının qəlbində əbədi yaşayacaqdır. [373-374]

Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsini bir dəqiqəlik sükutla yad etməyi rica edirəm.

Allah şəhidlərə rəhmət etsin, onların valideynlərinə, ailələrinə səbir versin! Bizim borcumuz şəhidlərin qəhrəmanlığını əbədiləşdirmək, şəhid ailələrinə qayğı göstərmək və onların bütün problemlərini həll etməkdən ibarətdir. Əminəm ki, qədirbilən Azərbaycan xalqı öz şəhidlərini heç vaxt unutmayacaq və onların valideynləri, ata-anaları, övladları, ailələri həmişə xalqın, dövlətin qayğısı ilə əhatə olunacaqlar.

Azərbaycan Silahlı Qüvvələrinin tarixində yeni bir mərhələ 1993-cü ilin noyabrından başlanır. Bildiyiniz kimi, ötən üç il müddətində ordunun qurulmasında, yaradılmasında cürbəcür hadisələr baş vermişdir. Ordu əvvəllər ayrı-ayrı silahlı dəstələrdən, qruplardan ibarət olub, ayrı-ayrı çox cəsarətli, qəhrəman komandirlərin idarəsi altında olub, bəzən də ayrı-ayrı səriştəsiz adamların əlində olub. Bizim Silahlı Qüvvələrin tərkibində və onun yaranmasındakı pərakəndəlik, yol verilmiş səhvlər, orduya istənilən qayğının olmaması məğlubiyyətlərimizin səbəblərindən biridir. Buna görə də canlarını Vətən yolunda qurban vermiş şəhidlərimiz bəzən bir çox səhvlərin də qurbanları olmuşlar.

Ancaq bildiyiniz kimi, Azərbaycan torpaqlarının bir hissəsi işğal ediləndən sonra, 1993-cü il noyabrın 2-də mənim prezident kimi, Ali Baş Komandan kimi Azərbaycan xalqına müraciətim oldu. Bu müraciətdən sonra, deyə bilərəm ki, Azərbaycan Respublikasında ordunun yaranmasında, xalqın vətənpərvərlik hissinin yüksəlməsində və orduya münasibətdə çox böyük dəyişikliklər əmələ gəldi. Mən bu gün tam qətiyyətlə deyə bilərəm ki, keçən ilin noyabrından sonra ordunun yaranması sahəsində böyük işlər görülmüşdür.

Artıq nizami ordu hissələri yaranmışdır. Zabitlərimiz, əsgərlərimiz hərbi peşəni, ordu işini, texnikadan istifadəni mənimsəməyə, öyrənməyə başlamışlar, təlim keçmişlər. Məhz bunların nəticəsində bizdə, demək olar ki, həqiqi ordu quruculuğu yaranmışdır. Şübhəsiz, mən bu gün deyə bilmərəm ki, ordumuz tam yaranıbdır, istənilən səviyyədədir. Hələ bunları deməyə əsas yoxdur. Ancaq bu müddətdə – bəlkə bir ildən də az müddətdə görülən iş Azərbaycan Silahlı Qüvvələrinin keyfiyyətcə tamamilə dəyişməsinə gətirib çıxarmışdır. Bu gün biz cəsarətlə deyə bilərik ki, Azərbaycanın güclü Silahlı Qüvvələri var, Azərbaycanın qəhrəman Milli Ordusu var, Azərbaycanın dəyərli generalları, zabitləri var, Azərbaycanın mətin, qəhrəman, hazırlıq keçmiş əsgərləri var. Bu hadisə münasibətilə sizi təbrik edirəm və əmin olduğumu bildirmək istəyirəm ki, bundan sonra da əldə ediləcək nailiyyətlər əsasında ordu qurulacaq, yaranacaq, Azərbaycanın qüdrətli ordusu olacaq və bu ordu ölkəmizin müstəqilliyini, suverenliyini qorumağa qadir olacaqdır.

Silahlı Qüvvələr, ordu hər bir müstəqil dövlətin əsas atributlarından biridir. Ordu olmalıdır, ordu yaranmalıdır. Əgər müharibə olmasa da, [374-375] torpaqlarımıza heç kəs təcavüz etməsə də, Azərbaycanın müstəqilliyini, suverenliyini təmin etmək üçün onun qüdrətli ordusu olmalıdır. Ancaq indiki dövrdə Azərbaycan üçün qüdrətli ordunun olması respublikamızın müqəddəratının həll edilməsində, bu gün Azərbaycanın olub-olmamasında əsas rol oynayır. Ona görə də bundan sonra bizim qarşımızda daha çox vəzifələr durur. Müdafiə, daxili işlər nazirlikləri, sərhəd qoşunları qarşısında, bütün Silahlı qüvvələr qarşısında böyük vəzifələr durur və bu vəzifələrin yerinə yetirilməsi məhz Azərbaycanın ərazi bütövlüyünün qorunmasını təmin edəcək, dövlətimizin müstəqilliyinin qorunub saxlanmasını təmin edəcəkdir. Bu gün mən əmin olduğumu bildirmək istəyirəm ki, bu vəzifələr layiqincə yerinə yetiriləcək. Azərbaycanda silahlı qüvvələr günbəgün güclənəcək, artacaq, qüdrətlənəcək və respublikamızın müstəqil Azərbaycana layiq güclü Silahlı Qüvvələri olacaqdır.

Qeyd etdiyim kimi, Azərbaycanın Silahlı Qüvvələri müharibə şəraitində, döyüş şəraitində yaranmışdır. Ancaq dünyaya da məlumdur və mən bu gün bir daha bəyan edirəm ki, Azərbaycan müharibə etmək istəmir. Azərbaycan dövləti sülh tərəfdarıdır. Azərbaycan xalqı sülhsevər xalqdır. Biz Ermənistan Respublikasının Azərbaycana qarşı hərbi təcavüzünü və bunun nəticəsində baş vermiş müharibəni sona çatdırmaq istəyirik. Məsələləri sülh yolu ilə həll etmək istəyirik. Məqsədimiz budur, yolumuz budur, biz bu yolla gedirik.

Bu barədə gördüyümüz işlər həm sizə, həm respublikamızın ictimaiyyətinə, həm də bütün dünya ictimaiyyətinə məlumdur. Biz sülhsevər təşəbbüslər etmişik. Məhz bunların nəticəsində, aparılan danışıqlar nəticəsində bilavasitə Ermənistanla Azərbaycan arasında aparılan danışıqlar nəticəsində, Rusiya hökumətinin vasitəçiliyi nəticəsində, ATƏM təşkilatının Minsk qrupunun vasitəçiliyi nəticəsində mayın 12-də atəşkəs haqqında saziş əldə edilmişdir. Beş aya yaxındır ki, bu sazişə riayət olunur, atəşkəs rejimi davam edir. Cəbhələrdə artıq atəş yoxdur və bu, altı ildən bəri gedən müharibədə ilk belə uzunmüddətli atəşkəsdir.

Bu, bizim sülhsevər siyasətimizin böyük nəticəsidir, böyük nailiyyətidir və əmin ola bilərsiniz ki, biz öz sülhsevər siyasətimizi bundan sonra da davam etdirəcəyik. Bizim məqsədimiz bu vasitədən, bu imkandan, yaranmış bu şəraitdən istifadə etmək, böyük, uzunmüddətli, etibarlı sülh əldə etmək, məsələni sülh yolu ilə həll etmək, Azərbaycan xalqını bu ağır bəladan, bu müharibədən, döyüşlərdən xilas etməkdən ibarətdir.

Bunlara nail olmaq üçün biz bütün imkanlardan istifadə edirik. Bizim bu sahədə gördüyümüz işlər mətbuat, informasiya orqanları vasitəsilə sizə çatdırılmışdır, məlumdur. Mən bu gün sizin qarşınızda çıxış edərək bildirmək istəyirəm ki, biz bu yolla gedəcəyik və bu sahədə səylərimizi davam etdirəcəyik. Əmin olduğumu bildirmək istəyirəm ki, biz bu işdə [375-376] nailiyyət əldə edə biləcəyik. Biz bunu istəyirik, bunu Azərbaycan xalqı istəyir, bunu dünya bilməlidir: biz bu yoldan dönməyəcəyik.

Məhz bu yolla getmək üçün, məhz etibarlı, uzunmüddətli sülh əldə etmək üçün Azərbaycan Silahlı Qüvvələri daha da güclü olmalıdır. Azərbaycan Silahlı Qüvvələri öz hərbi, peşəkarlıq səviyyəsini artırmalıdır. Azərbaycan Ordusu yaxşı təlim keçməli, hazırlaşmalıdır, tutduğu mövqeləri müdafiə etməyə hazır olmalıdır. Mən əminəm ki, ordumuz buna hazırdır.

Bu gün biz burada, bu möhtəşəm Respublika sarayında Azərbaycan Silahlı Qüvvələrinin yaranmasının ildönümünü bayram edirik. Bu günü bütün Azərbaycan xalqı bayram edir. Eyni zamanda, bu günü cəbhədə, ön cərgədə Azərbaycan torpaqlarının keşiyində dayanan bizim qəhrəman əsgərlər, zabitlər, generallar da bayram edirlər. Onlar mənim səsimi eşidirlər. Mən bu salondan, bu təntənəli mərasimdən torpaqlarımızın keşiyində duran, cəbhədə Ermənistan silahlı qüvvələri ilə üz-üzə dayanan əsgərlərimizi, zabitlərimizi, generallarımızı, vətəndaşlarımızı, döyüşçülərimizin hamısını təbrik edirəm. Mən onları ürəkdən salamlayıram, bağrıma basıram və onlara bu şərəfli işlərində uğurlar arzulayıram.

Bizim məqsədimiz atəşkəs rejimini saxlamaqdan ibarətdir. Cəbhədə olan ordu hissələrimizə müraciət edərək onlara bir daha deyirəm: atəşkəs rejimini saxlamaq lazımdır. Heç bir fitnəkarlığa, heç bir təxribata yol vermək olmaz. Hər bir təxribatdan, hər bir fitnəkarlıqdan, hər bir gözlənilməz hadisədən bəzi qüvvələr istifadə edə bilərlər, aranı qarışdıra bilərlər, yenə də müharibə başlaya bilər. Biz bunu istəmirik. Mən əminəm ki, bizim cəbhədə olan zabitlərimiz, komandirlərimiz, Silahlı Qüvvələrin rəhbərləri mənim bu əmrimə riayət edəcəklər. Mən əminəm ki, əgər hansı bir təxribatçı, hansı bir düşmən qüvvə bu atəşkəs rejimini pozmaq istəsə, onları aradan çıxaracaq, dəf edəcəklər. Eyni zamanda mən əmin olduğumu bildirmək istəyirəm ki, Ermənistan tərəfi də, Ermənistan Silahlı qüvvələri də atəşkəs rejiminə riayət edəcəklər. Ermənistanın rəhbərləri bunu bəyan ediblər. Son dəfə Nyu-Yorkda mən Ermənistanın prezidenti ilə görüşəndə o, bunu bir daha bəyan etdi. Mən istəyirəm ki, buna inanım. Bu gün bir daha xəbərdarlıq edirəm ki, biz atəşkəs rejiminə riayət edirik, qarşı tərəf də buna riayət etməlidir və biz bu müddətdən istifadə edib böyük sülhə nail olmalıyıq.

Qeyd etdiyim kimi, bunlarla yanaşı ordumuzda quruculuq işləri getməlidir. Ordumuz güclənməlidir, öz peşəkarlıq səviyyəsini artırmalıdır. Zabitlərimiz əsgərlərlə, yeni səfərbər olmuş gənclərlə həmişə təlim-tərbiyə işləri aparmalıdırlar. Ordumuzu lazım olan vaxt Vətənimizi qorumaq üçün, düşmənə layiqli cavab vermək üçün hazırlamaq lazımdır. Bu, bizim Silahlı Qüvvələrin, komandanların, Müdafiə Nazirliyinin, Daxili İşlər Nazirliyinin, Milli Təhlükəsizlik Nazirliyinin borcudur. Mən bu gün onlardan bunu tələb edirəm. Mən əminəm ki, ordumuzda quruculuq işi, ordunun təlim-tərbiyə işi lazımi səviyyədə gedəcəkdir. Mən əminəm ki, [376-377]

ordumuza gələn gənclər öz şərəfli vəzifələrini başa düşürlər, anlayırlar və vətəndaşlıq borcunu, şərəfli borcunu layiqincə yerinə yetirəcəklər.

Təəssüf ki, ordumuzdan yayınanlar, fərarilik edənlər, bəzən də cinayət edənlər olur. Orduda qulluq etməkdən boyun qaçıranlar da olur. Biz bu hadisələrin şahidi olmuşuq, bu gün də şahidiyik. Ona görə də mən bütün vətəndaşlara, bütün ata-analara müraciət edirəm: ordu bizim üçün ən müqəddəs, ən gərəkli dövlət strukturudur. Ordu hər bir vətəndaşın əmin-amanlığı üçün yaranır. Ordu Azərbaycanın müstəqilliyini, ərazi bütövlüyünü qorumaq üçün yaranıb. Ona görə də hər bir vətəndaş ordu sıralarında xidmət etməyi özünə şərəf bilməlidir. Hər bir valideyn öz oğlunu, öz yetirməsini ordu sıralarına göndərməyi özünün vətənpərvərlik, vətəndaşlıq borcu hesab etməlidir, bu şərəfli borcunu yerinə yetirməlidir.

Respublikamız, xalqımız böyük bəlalar çəkmişdir. Xalqımız uzun illər milli azadlıq uğrunda mübarizə aparmışdır, uzun illər müstəqil dövlət arzusunda olmuşdur. Allaha şükür olsun ki, biz bu arzularımıza çatmışıq. Azərbaycan xalqı milli azadlığına nail olub. Müstəqil dövlətimiz var. Azərbaycan dövləti artıq dünya miqyasında tanınır, beynəlxalq təşkilatlarda təmsil olunmuşdur. Dünyanın bütün dövlətləri müstəqil Azərbaycan Respublikasına hörmət və ehtiramla yanaşırlar. Ona görə də biz bunları yüksək qiymətləndirərək ordumuzu gücləndirməliyik. Ordu Azərbaycan Respublikasının müstəqilliyinin təminatçısıdır, bunu hamı bilməlidir.

Son günlər Bakıda, Gəncədə baş vermiş hadisələr Azərbaycan Respublikasında böyük narahatlıq hissi yaratdı. Bu hadisələr bir çoxlarını sarsıtdı. Bunlar ümumiyyətlə, bizim daxili ictimai-siyasi vəziyyəti pozmağa yönəldilmişdir. Bu hadisələr onu göstərdi ki, Azərbaycanın müstəqilliyinə, suverenliyinə qəsd etməyə cəhd göstərən qüvvələr hələ vardır – Azərbaycanın daxilində də, xaricində də. Bu qüvvələr yatmayıblar. Bizim içimizdə olan bu qüvvələr Azərbaycanın bu ağır dövründə birləşmək, yumruq kimi olmaq, Azərbaycanın müstəqilliyi üçün harada olur-olsun çalışmaq əvəzinə, təəssüflər olsun ki, belə fürsətlərdən istifadə edib respublikamızı dağıtmağa cəhd edirlər. Son günlərin faciəli hadisələri gözünüzün qabağındadır.

Sentyabrın 20-də Azərbaycan Respublikası beynəlxalq aləmdə, öz iqtisadiyyatında çox güclü, cəsarətli bir addım atdı, neft yataqlarının istifadə olunması üçün xarici ölkələrin şirkətləri ilə böyük bir müqavilə imzaladı. Bundan iki gün sonra isə dövlətə qarşı cinayət etmiş 4 nəfər şəxs respublika Milli Təhlükəsizlik Nazirliyindən oğurlandı, çıxarıldı və indiyə qədər tapılmamışdır.

Sentyabrın 29-da Azərbaycanda dəhşətli terror hadisələrinin şahidi olduq. İki dövlət xadimi, Azərbaycan dövlətində fəal işləyən adamlar – Afiyəddin Cəlilov və Şəmsi Rəhimov qətlə yetirildilər, vəhşicəsinə öldürüldülər. Azərbaycanda siyasi terror, özü də çox ağır, dəhşətli, vəhşicəsinə həyata keçirilmiş bir terror baş verdi. Bundan sonra Bakıda daha bir [377-378] hadisə baş verdi. XTPD-nin bir qrup dəstəsi Respublika Prokurorluğunu zəbt etdi, qeyri-qanuni hərəkətlər etdi. Biz bu məsələləri sülh yolu ilə həll etdik. Bunları yoluna qoymaq, həll etmək ərəfəsində Gəncədə hərbi çevriliş başlandı. Bizim dövlət orqanlarında işləyən adamlar, Azərbaycanın polisində, Nazirlər Kabinetində işləyən, keçmiş ordudan tərxis olunmuş, ancaq ayrı-ayrı mafioz qruplara toplaşmış adamlar, Gəncənin hərbi polisi, ümumi polisi, Gəncədə dövlət strukturunda, hərbi qulluqda olan bəzi adamlar, eyni zamanda gizli silah saxlayan, silahli dəstələr saxlayan qüvvələr Gəncədə dövlət çevrilişinə cəhd etdilər. Bunlar hamısı onu göstərir ki, biz xarici düşmənlər haqqında danışırıq və bu, həqiqətdir, ancaq əsas düşmənlər Azərbaycanın daxilində olan düşmənlərdir.

Azərbaycanın daxilində olan düşmənlər – Azərbaycandan qaçmış, cinayət etmiş Mütəllibov kimi, Vaqif Hüseynov kimi adamlar tərəfindən, onların burada olan havadarları tərəfindən idarə olunan, istiqamətləndirilən adamlar ölkəmizdə bu vəziyyətdə qarışıqlıq yaradıb öz çirkin niyyətlərinə nail olmaq istədilər. Təəssüf ki, bu işlərdə baş nazir vəzifəsini tutan Surət Hüseynov da iştirak etdi. Çox təəssüflər olsun. Sizə bildirmək istəyirəm ki, o, baş nazir işlədiyi vaxtda mən ona çox tövsiyələr verdim, çox məsləhətlər verdim, bir çox hallarda bəzi qeyri-qanuni hərəkətlərindən çəkinməyi bildirdim, xəbərdarlıq etdim, başa saldım. Ancaq o, bunları anlamadı, başa düşmədi, həmin mafioz qruplara qoşuldu. Onlarla bərabər hərəkət etdi və bu ağır vəziyyətdə – respublikanın rəhbərliyi mütəşəkkil bir halda, Bakıda baş vermiş hadisələri sülh yolu ilə həll etdiyi bir məqamda o, Gəncədəki hadisələrin təşkil olunmasının səbəbkarlarından biri oldu.

Şübhəsiz ki, bunların hamısının qarşısını aldıq. Qan töküldü, Gəncədə də qan töküldü. Dediyim kimi, bizim ordunun üç əsgəri, çavuşu həlak oldu, onlara Milli Qəhrəman adı verildi. Yaralananlar oldu. Qanunsuz silahlı dəstələrdən də həlak olanlar vardır. Təəssüf ki, qanunsuz dəstələrdə olduqlarına görə onların kim olduqları indiyədək aşkar edilməyib.

Biz ağır günlər keçirdik. Respublikamız bu günlər böyük bir imtahandan keçdi, yeni imtahandan çıxdı. Sizə deyə bilərəm ki, Azərbaycan xalqı, Azərbaycan vətəndaşları bu sınaqdan, bu imtahandan qürurla, məğrurluqla, qəhrəmanlıqla, cəsarətlə çıxdılar. Azərbaycan xalqına eşq olsun!

Hakimiyyəti devirməyə çalışan adamlar dar düşüncəli adamlardır. Onlar bir həqiqəti başa düşmürlər ki, Azərbaycan xalqı, Azərbaycan vətəndaşları indi hər şeyi dərk edir, hər şeyi bilirlər, bu son altı il içərisində çox əzab-əziyyətdən keçiblər, hər şeyi görüblər. Bugünkü müstəqilliyi heç kəs itirmək istəmir. Namuslu, şərəfli Azərbaycan vətəndaşları bu günlərini itirmək istəmirlər. Ona görə də mənim bir çağırışımla, gecə vaxtı, gecədən keçmiş Bakı vətəndaşları yataqdan durdular, analar körpə uşaqları ilə, veteranlar, ağsaqqallar, gənclər Prezident sarayının qarşısındakı meydana toplaşdılar. Azərbaycanın dövlətçiliyi uğrunda fədakarcasına müba[378-379]

rizə aparmağa, dövlətçiliyimizi qorumağa hazır olduqlarını, Azərbaycan Prezidenti ilə həmrəy olduqlarını bildirdilər. Azərbaycanın dövlətçiliyini, müstəqilliyini, xalq tərəfindən seçilmiş Azərbaycan Prezidentini müdafiə etdilər.

Ertəsi gün Azadlıq meydanında yüz minlərlə adamın iştirakı ilə keçirilən izdihamlı mitinq Azərbaycan xalqının, Azərbaycan vətəndaşlarının birliyini, həmrəyliyini bir daha nümayiş etdirdi. Azadlıq meydanına toplaşmış bakılılar və Azərbaycanın bütün guşələrindən – bütün rayonlarından, şəhərlərindən gəlmiş vətənpərvər insanlar bir daha nümayiş etdirdilər ki, heç bir qüvvə Azərbaycanın müstəqilliyini, dövlətçiliyini sarsıda bilməz, yıxa bilməz və buna cəhd edən hər bir qüvvə öz layiqli cəzasına çatacaqdır.

Həm Azərbaycanın daxilində, həm ölkəmizin xaricində olan, Azərbaycandan qaçmış, indi burada təxribat aparmaq istəyən qüvvələr, həm də Azərbaycanın daxilində onlarla əlbir olan qüvvələr, onların himayəsi altında olan qüvvələr bilsinlər: onların hamısı xalq qarşısında cavab verəcəklər. Onlar xalq qarşısında cinayət edirlər. Onlar vətənlərinə xəyanət edirlər. Xəyanətkarlar xəyanətkar kimi cəzalanacaqlar.

Bu ağır dövrdə Azərbaycan dövlətinin əsas dayağı xalq, xalqın həmrəyliyi, xalqın birliyi oldu. Eyni zamanda Azərbaycan Silahlı Qüvvələri də öz rəşadətini, öz qeyrətini göstərdilər. Gəncədə baş vermiş hadisələrin qarşısını almaq üçün şəhərdə və Gəncənin ətraf rayonlarında olan silahlı qüvvələrimiz qəhrəmancasına hərəkət etdilər. Qiyamçıları, təxribatçıları, dövlət çevrilişi edənləri dəf etdilər, onların qarşısını aldılar, onların silahlarını əllərindən aldılar. O hadisələrin təşkilatçılarının bəziləri yaxalanıb, bəziləri qaçıb gizləniblər. Ancaq heç kəs haqq-ədalət məhkəməsindən gizlənə bilməyəcək. Onlar mütləq xalq qarşısında, ədalət məhkəməsi qarşısında cavab verəcəklər.

Mən bu gün bu son hadisələrdə vətənpərvərlik, milli həmrəylik göstərmiş bütün Azərbaycan vətəndaşlarına, Azərbaycan xalqına öz təşəkkürümü, minnətdarlığımı bildirirəm. Bildirirəm ki, bir dövlət başçısı kimi, bir prezident kimi mən bundan sonra da xalqa güvənirəm, xalqa arxalanıram, xalqı öz dayağım hiss edirəm. Sağ olun, sizə təşəkkür edirəm.

Eyni zamanda, bu dövlət çevrilişi cəhdini dəf etmək üçün Azərbaycanın Silahlı Qüvvələrinin, Azərbaycan Ordusunun böyük xidmətlərini bu gün bir daha qeyd edirəm, onlara öz təşəkkürümü bildirirəm. Qeyd edirəm ki, onlar həmin günlərdə böyük sınaqdan keçdilər, hər bir düşmən qüvvəyə cavab verməyə hazır olduqlarını nümayiş etdirdilər. Azərbaycan Ordusuna, Azərbaycan Silahlı Qüvvələrinə həmin günlərdə dövlət çevrilişinin qarşısının alınmasında göstərdikləri fəaliyyətə görə təşəkkür edirəm.

Güman edirəm ki, son günlərin hadisələri xalqımızı həm çaşdırdı, bir az qorxutdu, narahat etdi, eyni zamanda xalqımızı bərkitdi, ictimaiyyəti [379-380] möhkəmləndirdi. Bu hadisələr göstərdi ki, Azərbaycan dövləti möhkəm dövlətdir, qüdrətli dövlətdir və onu heç kəs yıxa bilməz.

Son günlərin hadisələri dünya ictimaiyyətinin, dünya dövlətlərinin müstəqil Azərbaycana münasibətini də bildirdi. Bildiyiniz kimi, bu hadisə münasibətilə böyük dövlətlər və bütün dünya ictimaiyyəti Azərbaycan Respublikasında olan hadisələrə münasibətini ifadə edib. Amerika Birləşmiş Ştatlarının, Türkiyənin, Rusiyanın, İngiltərənin, Fransanın, İranın, Yunanıstanın, başqa dövlətlərin, – hamısını deyib sizin vaxtınızı almaq istəmirəm, – bəyanatları verildi. Onlar hamısı bildirdi ki, Azərbaycanın xalq tərəfindən seçilmiş prezidenti müdafiə olunur, Azərbaycanın dövlətçiliyinə qarşı çıxan qüvvələr pislənilir və həmin dövlətlər Azərbaycanda sabitlik olmasını istəyirlər.

Ona görə də mən bütün dünya ictimaiyyətinin bu ağır günlərdə Azərbaycana göstərdiyi münasibətə, həmrəyliyə görə, böyük dövlətlərin Azərbaycanda yaranmış vəziyyət münasibətilə verdikləri bəyanatlara görə onlara təşəkkürümü bildirirəm.

Burada xarici ölkələrin səfirləri bizimlə birlikdə iştirak edirlər. Mən onlara öz təşəkkürümü bildirirəm. Bilirəm ki, onlar da böyük həyəcan hissi keçirdilər. Amma eyni zamanda onlar Azərbaycanda sabitliyin qorunmasına həmişə çalışmışlar. Onlara da təşəkkür edirəm. Bütün bunlarla onu bildirmək istəyirəm ki, dünya ictimaiyyəti də bu ağır günlərdə Azərbaycana dayaq oldu, kömək oldu. Bu, bir daha onu göstərdi ki, Azərbaycanın müstəqilliyi nəinki tanınıb, hətta Azərbaycanın müstəqilliyi ilə hesablaşırlar.

Bizimlə həmrəy olan dövlətlərə, ictimai təşkilatlara, beynəlxalq təşkilatlara, xarici ölkələrin Azərbaycanda yerləşən səfirliklərinə bu hadisələr zamanı göstərdikləri fəaliyyətə görə təşəkkürümü bildirirəm.

Əziz və hörmətli həmvətənlər!

Bizim Silahlı Qüvvələrimiz, ordumuz Azərbaycanın suverenliyini qorumaq üçün, Azərbaycan torpaqlarının bütövlüyünü təmin etmək üçün bundan sonra böyük yol keçməlidir. Azərbaycan Silahlı Qüvvələrinin qarşısında böyük vəzifələr vardır. Mən bu barədə danışdım. Bir daha demək istəyirəm ki, hamımızın borcu ordunu möhkəmləndirməkdir. Hər bir vətəndaş ordunu, Silahlı Qüvvələri möhkəmləndirmək üçün öz fəaliyyətini göstərməlidir. Silahlı Qüvvələrə, orduya qayğı, yardım hər bir nazirliyin, hər bir icra orqanının, hər bir dövlət orqanının, hər bir ictimai təşkilatın, vətəndaşın borcudur. Ona görə də mən sizin hamınızı Silahlı Qüvvələrimizin möhkəmləndirilməsinə, inkişaf etdirilməsinə kömək göstərməyə dəvət edirəm. Əmin olduğumu bildirmək istəyirəm ki, siz bu şərəfli vəzifəni yerinə yetirəcəksiniz.

Bu bayram münasibətilə sizi bir daha təbrik edirəm. Azərbaycanın Silahlı Qüvvələrinə uğurlar diləyirəm.

Azərbaycanın qəhrəman əsgərlərinə və zabitlərinə eşq olsun!
Yaşasın müstəqil Azərbaycan Respublikası! [380-381]

# PREZİDENT SARAYINDA KƏND TƏSƏRRÜFATI İŞLƏRİNİN GEDİŞİNƏ, XÜSUSƏN PAMBIQ YIĞIMINA HƏSR OLUNMUŞ MÜŞAVİRƏDƏ GİRİŞ SÖZÜ

*11 oktyabr 1994-cü il*

Respublikada baş vermiş son hadisələr hamıya məlumdur və bununla əlaqədar dövlət tərəfindən görülən tədbirləri də bilirsiniz. Bu barədə mən bu gün söhbət açmaq istəmirəm. Belə hesab edirəm ki, bütün bu hadisələr respublikamızın vətəndaşlarını daha da səfərbər etdi, onları mütəşəkkilləşdirdi və cəmiyyətimizi, millətimizi birləşdirdi, Azərbaycanın dövlətçiliyinə, suverenliyinə, müstəqilliyinə qarşı təcavüzün qarşısının alınmasına xalqımızın və dövlətimizin qadir olduğunu bir daha nümayiş etdirdi.

Ancaq son illərdə respublikadakı ictimai-siyasi proseslər iqtisadiyyata da mənfi təsir göstərmişdir. Təəssüf ki, bunlar hamısı xalqın maddi rifah halının aşağı düşməsinə gətirib çıxarır. Bu baxımdan kənd təsərrüfatı sahəsində də görüləsi işlər çox böyük əhəmiyyət kəsb edir.

Biz respublika iqtisadiyyatının bu ağır dövründə dəfələrlə yığışmışıq, danışmışıq. Bu, iqtisadiyyatın və əhalinin rifah halının müəyyən səviyyədə saxlanması üçün çox böyük əhəmiyyətə malikdir. Ona görə də kənd təsərrüfatı işləri zəifləməməli, əksinə, güclənməlidir.

Kənd təsərrüfatının əsas sahələrindən biri də pambıqçılıqdır. İndiki dövr bizim üçün, şəxsən mənim üçün çox gərgin günlər olsa da, sentyabrın 22-də mən pambıqçılıqla məşğul olan rayonların rəhbərlərini, müvafiq təşkilatların başçılarını və respublikanın əlaqədar nazirliklərinin, idarələrinin rəhbərlərini buraya dəvət etdim və biz pambıq yığımının gedişi haqqında geniş müzakirə apardıq. Müzakirə zamanı pambıqçılıqla məşğul olan rayonların əksəriyyətinin başçıları çıxış edərək vəziyyət haqqında məlumat verdilər və özlərinin nəzərdə tutduqları göstəriciləri bildirdilər.

Bu gün artıq oktyabrın 11-dir. Verilən vədlərin çoxu bu müddətdə yerinə yetirilməyib. Ona görə də indi, işimizin çox gərgin olmasına baxmayaraq, bəzi ictimai-siyasi məsələlər vaxtımızı çox alsa da, bu gün mən pambıqçılıqla məşğul olan bir sıra rayonların başçılarını, həmin rayonlardan kənd təsərrüfatı və ərzaq idarələrinin rəhbərlərini və respublikanın rəhbər orqanlarının nümayəndələrini buraya dəvət etmişəm. Vaxt azdır, istəyirəm qısaca aydınlaşdıraq, – sentyabrın 22-də bizim burada danışdıqlarımız rayonların və nazirliyin rəhbərləri tərəfindən nə üçün həyata [381-382] keçirilmir ? Söz verirlər, bəzən çox alovlu sözlər verirlər, ancaq yerinə yetirmirlər. Biz belə adamlarla işləyə bilmərik. Belələri yaraya bilməz. Sən ya gərək vəziyyəti düzgün qiymətləndirəsən, düzgün məlumat verəsən, yaxud da vəziyyəti düzgün qiymətləndirib, düzgün məlumat vermisənsə və onu yerinə yetirə bilmirsənsə, onda belə adamlar bizim üçün yaramaz. Ona görə də mən sizi çox qısa müddətə buraya dəvət etmişəm və hesabat tələb edirəm.

## YEKUN SÖZÜ

Buraya respublikanın iyirmi pambıqçılıq rayonundan 10-nun nümayəndələri dəvət olunub. Qalanları da burada gedən söhbətləri yəqin ki, televiziya vasitəsilə eşidəcəklər. Mən istəyirdim ki, sabah onları da dəvət edim. Amma ehtiyac yoxdur, burada deyilən sözlər onlara da aiddir. Mən sizin hamınıza, birinci növbədə pambıqçılıq rayonlarının rəhbərlərinə xəbərdarlıq edirəm: siz məsuliyyət daşıyırsınız. Tarlalarda məhsul var. Siz sentyabrın 22-də bu barədə mənə məlumat verdiniz. Əgər bu müddətdə pambığın yığım sürəti aşağı düşübsə, istənilən səviyyəyə qalxa bilməminsinizsə, bu, sizin günahınızdır. Siz işi təşkil edə bilməmisiniz. Rayonlarda kənd əhalisinin pambığı vaxtında yığmaq üçün imkanları və işçi qüvvəsi var. Kolxozlarda, sovxozlarda olan adamları siz yaxşı səfərbər edə bilməmisiniz. Bundan əlavə, həmin rayonların hamısında xeyli qaçqın və işsiz adamlar vardır. Onları da səfərbər edə bilməmisiniz. Bu, sizin günahınızdır və buna görə sizə xəbərdarlıq edirəm, sizdən tələb edirəm ki, bu gündən həmin məsələlərdə dönüş yaranmalıdır. Ağır, çətin vəziyyətdə əkilmiş, becərilmiş pambıq məhsulu yığılmalıdır. Onun hər bir kiloqramının, hər bir tonunun yığılması kənd zəhmətkeşi üçün xeyir gətirəcəkdir. O, yığdığı məhsula görə pul alacaqdır. Demək, özünün rifah halını yaxşılaşdıracaqdır. Məhsulun yığılıb dövlətə təhvil verilməsi və dövlət tərəfindən istifadə olunması Azərbaycana valyuta gətirəcək, bu valyutadan isə respublikamızın iqtisadiyyatı və xalqın rifahı üçün istifadə ediləcəkdir. Ona görə də bunları başa düşməli, məsuliyyətinizi bilməlisiniz.

Dövlət müşaviri Arif Rəhimzadəyə tapşırıram ki, hər bir rayon nəzarət altında olmalıdır. Siz hər gün mənə məlumat verməlisiniz ki, bu tapşırıqlar hansı rayonda necə yerinə yetirilir. Men rayon rəhbərlərinin, kənd təsərrüfatı idarələrinin və başqa təşkilatların rəhbərlərinin işə münasibətini bunun əsasında qiymətləndirəcəyəm. Kənd Təsərrüfatı Nazirliyinin işini qeyri-qənaətbəxş hesab edirəm. Kənd təsərrüfatı naziri pambıq [382-383] yığımı ilə ciddi məşğul olmalıdır. Danışıqla yox, işlə məşğul olmalıdır. Mən respublikanın kənd təsərrüfatı naziri Müzamil Abdullayevi xəbərdar edirəm ki, o, şəxsən məsuliyyət daşıyır və bu məsuliyyəti bilməlidir.

Respublika baş nazirinin müavinlərinin hamısı bu işlərə nəzarət etməlidir. Hərə öz sahəsində lazımi tədbirlər görməlidir. Buraya dəvət olunan əlaqədar nazirliklərin rəhbərləri və bu işlə məşğul olan digər vəzifəli şəxslər pambıq yığımına "yaşıl işıq" açılmasına nail olmalı, əsaslı kömək etməlidirlər. İşin gedişində qarşıya çıxan maneçiliklər aradan qaldırılmalıdır. [383-384]

## PREZİDENT SARAYINDA ƏHALİNİN ÇÖRƏKLƏ TƏMİNATI SAHƏSİNDƏ YARANMIŞ ÇƏTİNLİKLƏRİN ARADAN QALDIRILMASI MƏSƏLƏLƏRİNƏ HƏSR OLUNMUŞ MÜŞAVİRƏDƏ ÇIXIŞ

*16 oktyabr 1994-cü il*

Respublikanın sosial-iqtisadi vəziyyəti xeyli gərgindir. Dəfələrlə qeyd olunub ki, biz iqtisadi böhran içərisindəyik. Ancaq bu böhrandan çıxmaq, sosial-iqtisadi vəziyyəti müəyyən qədər normallaşdırmaq, sabitləşdirmək üçün görülən tədbirlər istənilən nəticəni vermir. Bunun əsas səbəbi ondan ibarətdir ki, demək olar, bir ildən artıq müddətdə Nazirlər Kabinetinin işi qeyri-qənaətbəxşdir. Ola bilər ki, bu gün məni də günahlandırsınlar ki, Heydər Əliyev nə üçün bir prezident kimi Nazirlər Kabinetinin belə vəziyyətinə dözüb. Məlumdur ki, Nazirlər Kabinetində belə rəhbərliyin yaranması müəyyən şərtlər əsasında əmələ gəlmişdir. Mən bunun izahını lüzumlu hesab etmirəm. Lakin Nazirlər Kabinetində baş nazirdən savayı, müavinlər də, nazirlər də vardır. Ancaq mən deyə bilərəm ki, bu bir il müddətində onların işi qeyri-qənaətbəxş olmuşdur. Onların bir çoxu öz vəzifələrini yerinə yetirmək əvəzinə, bir tərəfdən öz şəxsi mənafelərini güdüb, digər tərəfdən də respublikanın daxili ictimai-siyasi vəziyyətini pozmaqla, intriqa yaratmaqla, insanları toqquşdurmaqla məşğul olub.

Biz bunların acı nəticələrini artıq oktyabrın əvvəlində gördük. Həmin günlərdə baş vermiş hadisələr respublikada gedən mənfi proseslərin nəticəsidir, ayrı-ayrı qüvvələrin, ayrı-ayrı vəzifəli şəxslərin öz mövqeyindən sui-istifadə edərək, vəzifəsini yerinə yetirmək əvəzinə bu vəzifədən şəxsi məqsədlər üçün istifadə edərək, eyni zamanda Azərbaycanda təxribat işləri aparmaq, daxili sabitliyi pozmaq, qarışıqlıq yaratmaq, beləliklə də özünə yeni mövqe tutmaq cəhdlərinin nəticəsidir.

Bu gün onu da demək lazımdır ki, respublikanın çörək məmulatı ilə, çörəklə təmin olunması ilə əlaqədar hazırda Bakıda yaranmış bu vəziyyət bir-iki gündə buraxılan səhvlər nəticəsində baş verməmişdir. Bu, bir il müddətində buraxılan ciddi səhvlərin, nöqsanların nəticəsidir, ayrı-ayrı nazirliklərin, nazirlərin, Nazirlər Kabinetinin və bütünlükdə Nazirlər Kabineti rəhbərliyinin – baş nazirin, onun müavinlərinin yararsız, yaramaz işlərinin nəticələridir. Ona görə də bu hadisələrdən hamı ciddi nəticə çıxarmalıdır, bilməlidir ki, belə vəziyyətə nə xalq dözəcək, nə cəmiyyət dözəcək, nə də ki, bir prezident kimi mən dözəcəyəm.

Həqiqət bundan ibarətdir ki, baş nazir çox yaramaz bir adam idi, bu[384-385]nu bilin. Müəyyən səbəblərə görə çalışırdıq ki, onu işə cəlb edək. Ancaq burada tamamilə doğru deyildi ki, baş nazir gündə üç dəfə müşavirə yığanda, orda boş-boş sözlər danışanda, axmaq işlərlə məşğul olarkən onun yanında oturan müavinlər ya ağızlarına su alırdılar, ya da ki, "baş üstə, baş üstə" deyirdilər. Məgər siz bu işləri görmürdünüz ? O cümlədən, məgər nazirlər bu işləri, bu biabırçılıqları görmürdülər ? Hesab edirdiniz ki, bütün bunlar belə davam edəcək və axırda da belə olacaq? Axırı gəlib çıxdı bu vəziyyətə: cəmiyyəti qarışdırdılar. Bu adamların işi nəyə lazımdır ? Vəzifə də vermişik, səlahiyyət de vermişik – hər bir şey vermişik. Bunun əvəzində gəlib gecə-gündüz ancaq təxribat işləri görürlər. Nazirlər Kabineti artıq cinayətkarlar yuvasına, quldurlar yuvasına dönmüşdü. Nazirlər Kabinetində olan baş nazirdən başqa, müavinlər məgər görmürdülər ki, cinayətkar cinayətlərin üstündə oturubdur ? İndi bu böyük günahın üstündə bir çoxları işdən çıxarıldı. Amma hələ ora təmizlənməlidir. Ancaq bunların hamısını baş nazir Surət Hüseynov tək edə bilməzdi. Mənə məlumatlar gəlirdi ki, işə götürmək barədə viza vermək üçün Fuad Quliyevin yanına gətirilmişlər, lakin o, viza vermirmiş. Başqa müavinlər isə viza verirmiş.

Nazirlər Kabinetində 15 nəfərdən ibarət inzibati şöbə var. Mən Surət Hüseynovla son günlərdəki danışıqlarımda ona da dedim: Prezident Aparatının inzibati şöbəsində – bütün güc nazirliklərinə, Müdafiə Nazirliyinə də, bütün hüquq-mühafizə orqanlarına da buradan rəhbərlik edilir, həmin şöbədə 3-4 nəfər, müdafiə işləri üzrə şöbədə isə bir dövlət müşaviri, iki nəfər də əməkdaş işləyir. Nazirlər Kabinetində isə 14-15 nəfər cinayətkar adamı gətirib inzibati şöbəyə doldurublar. Məgər siz onları görmürdünüz ? Onların nə işlə məşğul olduqlarını görmürdünüz ? Yaramaz adamlar gəlib Nazirlər Kabinetində işə başlamışdılar, vəzifələr almışdılar. Nəriman İmranovu çağırmışdım. Bəli, Surət Hüseynovu götürdülər, qaçırtdılar. Surət Hüseynov Gəncədə işlərini görəndə Əli Həsənovu icra hakimiyyətinin başçısı təyin etmişdi. Sonra mən onu təsdiq etmədim, başqa adamı təyin etdim. Mənim xəbərim yoxdu, sən demə, həmin Əli Həsənovu gətirib Nazirlər Kabinetində işə qəbul ediblər. Məgər siz bunları Nazirlər Kabinetində görmürdünüz ? İndi bu adamlar özləri də gəlib bu günə düşdülər. Özləri də, əlbəttə ki, buna layiq imişlər. Ancaq bizim xalqımızı, cəmiyyətimizi, müharibə vəziyyətində olan respublikamızı belə bir ağır vəziyyətə çatdırdılar.

Əgər Surət Hüseynov sağlam adam idisə, nə üçün çıxıb qaçırdı ? Onun əlaltıları – Nazirlər Kabinetində inzibati şöbənin bütün işçiləri hamısı çıxıb qaçıblar. Əgər günahları, pis işləri yox idisə, nə üçün qaçıblar ? Bunlar hamısı onunla əlaqədardır ki, bu son illər Azərbaycanda cürbəcür dəyişikliklər oldu, hakimiyyət uğrunda mübarizə getdi. Birini yıxdılar – o birisi gəldi, digərini yıxdılar – o birisi qalxdı. Bəziləri hesab edirlər ki, nə

olur-olsun – istəyir respublika dağılsın, istəyir camaat ac qalsın, ancaq onların burada öz vəzifəsi olsun, öz vəzifəsindən istifadə etsin, cürbəcür işlər görsün və belə də yaşasın. Bəli, elə bu salonda da Surət Hüseynov [385-386] axmaq sözlər danışanda və yaxud Nazirlər Kabinetinin iclaslarında axmaq sözlər danışanda müavinlərinin hansı durub onun cavabını verib, hansı biri etiraz edib ki, sən düz demirsən ? Ya müavinlər onun kimi savadsız, biliksiz adamlardır, demək, mən onları təyin etməkdə, yaxud vəzifədə saxlamaqda səhv etmişəm, ya da ki, bunlar, necə deyərlər, öz vəzifələrinə, öz şəxsi mövqelərinə elə can atırlar ki, ümumi mövqeni qurban verirlər.

Kənd təsərrüfatı naziri indi həbsxanadadır. Ona dəfələrlə xəbərdarlıq olunmuşdur ki, sən bu pis yoldan çəkin, düz işlə. Hər dəfə durub burada yağlı-yağlı sözlər verdi, amma iş də görmədi. İndi təsəvvür edin ki, kənd təsərrüfatı nazirinin oğlu, demə, Surət Hüseynovun qoruyucu dəstəsinin üzvü imiş. Bunu mən görməmişəm, mən bunu haradan görüm ? Bəs siz niyə görməmisiniz ? Burada oturanlar niyə bunu görməyiblər, niyə deməyiblər ? Görün bu mafiya gəlib nə qədər bir-biri ilə birləşib və işlər nə yerə çatıb. Daxili İşlər Nazirliyinin verdiyi məlumata görə, o da oktyabrın 4-də gedib camaata silah paylayırmış.

Çörəklə təminat sahəsində yaranmış vəziyyət də, bəli, bu proseslərin nəticəsidir. Feyruz Mustafayev burada indi and-aman edir ki, mən Heydər Əliyevi belə istəyirəm, belə istəmişəm. Buna mənim şübhəm yoxdur. Bəli, mən Azərbaycanda vaxtilə işləyəndə Feyruz Mustafayev mənim tərəfimdən irəli çəkilmiş və yüksək qiymətləndirilmiş bir adamdır. Raykom katibi oldu, fəxri adlar verildi və s. İndiki vəzifəyə də Feyruz Mustafayev mənim şəxsi təşəbbüsümlə təyin olunub. Onu məhz mən təklif etmişəm, başqa adam təklif etməyib. Ancaq mən Feyruz Mustafayevi bu cür məsul vəzifəyə təyin edəndə hesab edirdim ki, o, uzun müddət rayonlara rəhbərlik edib, kənd təsərrüfatı işini bilir, taxılçılıq işini bilir, başqa işləri bilir. Sonrakı dövrdə Nazirlər Kabinetində Aqrar-Sənaye Birliyində işləyib, baş nazirin müavini olub, təcrübəli adamdır. Yaxşı, indi Feyruz, bəs işin nəticəsi nə olub ? Yaxşı, mən səni bu vəzifəyə təyin edəndən sonra sənin yanına iki nəfər əlavə dayə də qoyaydım ? Əgər təcrübəsiz adam olsaydın, deyərdin ki, bəli, təcrübəm olmayıb. Sən həyat görmüsən, təcrübə keçmisən. Məhz o ağır sahəyə mən səni çağırdım. Dedim ki, get ora, ağır sahədir, burada oğurluq olub, qanunsuzluqlar var. İndicə burada deyildi ki, o vaxt biz gələndə orada on milyon dollarlıq müqavilə bağlanmışdı, onun hesabına bir qram da buğda gəlməmişdi. Dedim get otur, oranı düzəlt. İndi düzəltmək əvəzinə sən min cür bəhanə gətirirsən.

Mən camaatdan çoxlu məktublar, təkliflər alıram. Onlar yazırlar ki, nə üçün öz vəzifəsini yerinə yetirə bilməyən, yaxud da ki, vəzifəsindən sui-istifadə edən ayrı-ayrı adamlara, vəzifəsindən şəxsi mənafeyi üçün istifadə edən adamlara qarşı qəti tədbirlər görülmür ? Mən dəfələrlə demişəm və yenə deyirəm: respublikamız, xalqımız ağır vəziyyətdədir. Mən insanları çox sıxışdırmaq istəmirəm. İstəyirəm imkan verim ki, hərə öz məsuliyyətini başa düşsün, öz vətəndaşlıq, vətənpərvərlik borcunu başa düşsün, müstəqil Azərbaycanın indi hər bir adamın fəaliyyətinə möhtac olduğunu anlasın. Ancaq görünür, ötən bu illər bəzi adamların mənəviy[386-387]yatını, əxlaqını, psixologiyasını o qədər pozub ki, onlar bunu başa düşən deyillər.

Ona görə də tədbirlər görülür, görülməlidir. Bildiyiniz kimi, kənd təsərrüfatı naziri işdən azad olunub, həbs olunub. Hüquq-mühafizə orqanları bu gün Nəriman İmranovu həbs ediblər.

Mən bir sıra fərmanlar qəbul etmişəm. İrşad Əliyevi kənd təsərrüfatı naziri təyin etmişəm. Ticarət naziri Rizvan Hüseynovu yol verdiyi ciddi nöqsanlara görə işdən azad etmişəm, onun yerinə Miri Qənbərovu təyin etmişəm. Baş nazirin müavini Əsgər Məmmədovu işdən azad edirəm. Baş nazirin müavini Əli Təhməzovu işdən azad edirəm. Taxıl Məhsulları Dövlət Şirkətinin prezidenti Feyruz Mustafayevi işdən azad edirəm.

Nazirlər Kabinetində ciddi dəyişikliklər aparmaq lazımdır. Baş nazirin müavinləri Fuad Quliyev, Abbas Abbasov, Elçin Əfəndiyev, Səməd Sadıxov bunlardan nəticə çıxarmalıdırlar. Belə prinsipsiz hərəkətlər etmək bəsdir. Mən Səməd Sadıxovu təcrübəli iqtisadçı, Dövlət Plan Komitəsində uzun müddət işləmiş təcrübəli bir adam kimi bu vəzifəyə təyin etdim. Yarayarmı ki, Surət kimi savadsız bir adam ona deyir ki, bu qaradır, bu isə ağdır, o da təsdiq edir. Utanmırsan, ayıb deyilmi ? Sənin özünün elmin, biliyin, təcrübən var, yoxsa yox ? Bütün camaat da bilir ki, Surət desəydi ki, sən bu döşəmənin üstünə uzan, sən də uzanacaqdın. İnsanda bir mənlik olmalıdır, insanda bir şəxsi qürur olmalıdır. İnsan bu dünyada ya gərək mənliklə yaşasın, işləsin, ya da gərək məhv olsun.

Elçin Əfəndiyevi yazıçı, ziyalı necə deyərlər, hörmətli bir adam kimi dəvət elədim, bu vəzifəni ona təklif etdim. Yaxşı, Elçin Əfəndiyev, sənə nə olub ki, Surət kimi yaramaz adamın əlində əsir olmuşdun ? Nə vaxt səsini qaldırdın ki, Surət burada qanunsuz işlər görür, bunları edir ? Yaxşı, ziyalı da, yaxud şair, yazıçı da səsini qaldırmayanda bəs nə olsun ? Bəs belə adamlarla yalnız Heydər Əliyev mübarizə aparmalıdır, hamı ilə Heydər Əliyev döyüşməlidir ? Belə şeymi olar ? Sən yazıcısan, bilirsən ki, rəhmətlik Nazim Hikmetin bir sözü vardır. Azərbaycanda onu dəfələrlə deyirdilər, ancaq bu gün yerinə düşür, yenə deyim: sən yanmasan, mən yanmasam, o yanmasa, bəs kim yanacaq ? Bəs sənin yanmağın haradadır ? Bir ildən artıqdır ki, orada oturmusan, baş nazirin müavinisən. Görürsən ki, min dənə çirkin işlər görülür. Harada sən öz səsini qaldırdın, harada dedin ki, belə şey yaramaz ?

Ona görə do hamı özü üçün nəticə çıxarsın. Baş nazirin birinci müavinləri Abbas Abbasov və Fuad Quliyev dedilər ki, respublikanın çörəklə təmin olunması üçün tədbirlər görülür. Ancaq mən belə fikirdəyəm ki,

respublikanın çörəklə iki-üç günlük təminatı ilə razılaşmaq olmaz. Ona görə də mən Fuad Quliyeva və Abbas Abbasova tapşırıram ki, bu məsələlərlə ciddi məşğul olsunlar, köklü iş aparsınlar və respublikanın çörəklə təminatı məsələsi etibarlı olsun – iki gün, üç gün, dörd günlük təminat barədə söhbət ola bilməz. Qəbul etdiyimiz bu qərarlardan da hərə özü üçün nəticə çıxarsın. [387-388]

Nazirlər Kabinetində işlər müdiri vəzifəsinə Ağabala Hacıyevi təyin edirəm.

Bu gün bir daha bildirmək istəyirəm ki, görünür, əvvəllər də bu, Azərbaycanda xəstəlik olub, ancaq indi əcaib vəziyyət yaranmışdır. Ağılsız bir adam olan Surət Hüseynov ilk aylarda hay-küy saldı ki, bütün səlahiyyəti – o səlahiyyəti, bu səlahiyyəti mənə verin, bir tərəfdən Nazirlər Kabinetini zibillədi, gətirib zibilli adamları buraya doldurdu. İkinci tərəfdən də Nazirlər Kabinetini muxtar bir orqana çevirməyə çalışdı. Mən ona dedim ki, sən gəlmisən buraya, prezidentə qarşı müxalifətçi təşkilat yaradırsan, nədir ? Prezidentə qarşı müxalifətdə olan qəzet buraxmağa, Nazirlər Kabinetini prezidentə qarşı qoymağa başladı. Bu, bizim konstitusiyaya, struktura, bizim dövlət quruculuğuna tamamilə zidd olan şeydir. Azərbaycanda Nazirlər Kabineti hökumət deyil. Hökumət prezidentdir, bunu bilin. Götürün Konstitusiya Aktını oxuyun, üç illiyi tamam olur, 18 oktyabr 1991-ci ildə qəbul olunub. Konstitusiyaya görə Nazirlər Kabineti prezidentin kabineti kimi işləməlidir. Orada muxtar bir təşkilat yaradıb, "biz bunu belə edəcəyik, elə edəcəyik" deyə iddia etmək, – bu, heç kommunist partiyası vaxtında da olmayıb.

İndi bizdə prezident üsul-idarəsi olduğu halda belə şeylər yarayarmı ? Ona görə mən Fuad Quliyevə tapşırıq vermişəm ki, aparatı təmizləməklə ciddi məşğul olsun. İşlər müdirini də mən özüm təyin edirəm. O da Fuad Quliyevlə və başqa müavinlərlə birlikdə əl-ələ verib işləməlidir. Nazirlər Kabinetində olan biabırçı, necə deyərlər, bizim mənəviyyatımıza zidd olan bütün ünsürlər hamısı oradan çıxarılmalı, orada sağlam mühit, sağlam əhval-ruhiyyə yaradılmalıdır. [388-389]

## AZƏRBAYCANIN DÖVLƏT MÜSTƏQİLLİYİ GÜNÜ MÜNASİBƏTİLƏ XALQA TƏBRİK

İlk kövrək addımlarını atan gənc Azərbaycan dövləti artıq neçə ildir ki, öz müstəqilliyini bayram kimi qeyd edir. Ən çətin və ən ağır anlarda belə təmkin və qürurla dövlətçiliyimizin müdafiəsinə qalxmağı bacaran və onu qorumağı özünə borc və şərəf sayan doğma xalqımı – mərd və qeyrətli Vətən övladlarını Azərbaycanın bu əziz günündə ürəkdən təbrik edirəm.

Azərbaycan həm çətin, həm də şərəfli günlərini yaşayır. Tarix milli mənliyimizi və qürurumuzu yenidən sınağa çəkir. Bir tərəfdən Ermənistanın təcavüzünə məruz qalan respublikamız ərazisinin bir hissəsini itirmiş, doğma torpaqlarımızdan yüz minlərlə həmvətənimiz didərgin salınmışdır. Digər tərəfdən isə Azərbaycanın suverenliyinə qənim kəsilmiş daxili və xarici qüvvələr öz təxribatları, xəyanətkar əməlləri ilə xalqı sarsıtmağa, onu azadlıq və müstəqillik yolundan döndərməyə çalışırlar.

Lakin əminəm ki, taleyinə düşmüş ağrı-acılara, əzab-əziyyətə mətanətlə sinə gərən, üz-üzə gəldiyi çətinlikləri cəsarətlə dəf edən xalqımızın polad iradəsini nə düşmən hədə-qorxusu, nə də nankor övladlarının bəd əməlləri sarsıda bilməz. Qurub-yaratmaq eşqi, qələbə əzmi ilə yaşayan və döyüşən insanların sarsılmaz inamı qarşısında heç bir qüvvə dura bilməz. Bunu hamı bilməlidir.

Qələbəmizin yaxınlaşması, müstəqilliyimizin reallaşması və xalqımızın bu tarixi sınaqdan şərəflə çıxması üçün milli birliyimiz, vətəndaş həmrəyliyi bu gün həmişəkindən daha vacibdir.

Əziz xalqım! Əzəmət və qüdrətinə, namus və qeyrətinə arxalandığım və güvəndiyim Azərbaycan övladları! Sizi bu bayram günündə bir daha ürəkdən təbrik edir, müstəqil Azərbaycan dövlətinin qüdrətlənməsi yolunda hamınıza cansağlığı, əzmkarlıq və dönməzlik arzulayıram.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*16 oktyabr 1994-cü il* [389-390]

## AZƏRBAYCANIN DÖVLƏT MÜSTƏQİLLİYİ GÜNÜNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ YIĞINCAQDA ÇIXIŞ

*17 oktyabr 1994-cü il*

Əziz və hörmətli həmvətənlər!
Xanımlar və cənablar!

Bu gün biz Azərbaycan Respublikasının dövlət müstəqilliyinin üçüncü ildönümünü bayram edirik. Bu bayram münasibətilə sizi, bütün Azərbaycan xalqını, bütün Azərbaycan vətəndaşlarını təbrik edirəm.

Azərbaycan xalqı əsrlər boyu müstəqillik arzusu ilə yaşamış, milli azadlıq uğrunda mübarizə aparmışdır. XX əsrin əvvəlində Azərbaycan torpağında ilk Azərbaycan Demokratik Respublikası yaranmış, Azərbaycan xalqı, Azərbaycan Respublikası öz müstəqilliyini dünyaya elan etmişdir. 1918-ci il mayın 28-də yaranmış Azərbaycan Demokratik Respublikası Azərbaycan xalqının çoxəsrlik arzusunun, istəyinin həyata keçirilməsinin ilk addımı olmuşdur. İlk Azərbaycan Demokratik Respublikası ölkəmizin müstəqilliyini dünyaya bəyan etmək üçün və müstəqil demokratik dövlət qurmaq üçün ilk addımlarını atmış, bir çox tədbirlər görmüşdür.

Artıq bütün dünyaya bəyan olmuşdur ki, Azərbaycan xalqı öz müstəqil dövlətini qurmağa qadirdir. Lakin ilk Azərbaycan Demokratik Respublikası çox yaşamamış, 1920-ci il aprelin 28-də süquta yetmişdir. Azərbaycan Demokratik Respublikasının fəaliyyəti bununla da bitmişdir. O vaxt Azərbaycanda Sovet hakimiyyəti qurulmuş, Azərbaycan Respublikası Sovetlər İttifaqının tərkibinə daxil olmuş və 70 il ərzində xalqımız bu İttifaqın tərkibində yaşamış, yaratmışdır.

Bu, Azərbaycan xalqı üçün əhəmiyyətli və məhsuldar dövr olmuşdur. Doğrudur, Azərbaycan, onun xalqı müstəqillikdən məhrum olmuş, böyük əzab-əziyyətlə yaradılan demokratik respublika fəaliyyətini dayandırmış, ancaq xalqımız yaşamış, yaratmış və mövcud iqtisadi, sosial-siyasi sistem daxilində öz həyatını qurmuş, inkişaf etdirmişdir. Bu dövrdə Azərbaycanın iqtisadiyyatı, xalqın həyat tərzi yüksəlmiş, elm, mədəniyyət inkişaf etmişdir. Azərbaycanda böyük iqtisadi potensial yaranmış, intellektual potensial ölkəmizin bu gün müstəqil dövlət olması üçün böyük, əsas zəmin yaratmışdır.

Ancaq Azərbaycan xalqının qəlbində milli azadlıq ruhu, müstəqillik ruhu daim yaşamışdır. Azərbaycanın qabaqcıl adamları, mütəfəkkir şəxsiyyətləri, ziyalıları, milli şüura malik olan insanları daim ümidlə yaşamışlar ki, Azərbaycan öz müstəqilliyini əldə edəcəkdir, milli azadlığa nail [390-391] olacaqdır. 1980-1990-cı illərdə baş verən proseslər Azərbaycanda milli azadlıq uğrunda mübarizəni yenidən gücləndirmiş və o zaman Sovetlər İttifaqında, bütün dünyada gedən obyektiv tarixi proseslər nəticəsində Azərbaycanın öz müstəqilliyini əldə etməsi üçün şərait yaranmışdır.

Doğrudur, bu dövr Azərbaycan Respublikası üçün çox çətin və ağır dövr olmuşdur. Bir tərəfdən xalqın əksəriyyəti milli azadlıq, müstəqillik uğrunda çarpışmış, ikinci tərəfdən isə sovetlər hakimiyyətini, imperiyanı saxlamaq meylində olan Azərbaycandakı mühafizəkar qüvvələr yenə də bu hərəkatların qarşısını almağa çalışmışlar. Ancaq bu manеələr bir nəticə vermәmişdir.

Tarixin bir neçə səhifəsini yada salmaq istəyirəm. Artıq 1980-ci illərin axırlarında məlum idi ki, sovet imperiyası, Sovet İttifaqı dağılmaqdadır. Ancaq onu saxlamağa cəhd göstərən qüvvələr hələ güclü və çox idi: Məhz buna görə də Azərbaycanın o vaxtkı dövründə milli azadlıq hərəkatını, milli şüuru boğmaq üçün qanlı yanvar hadisələri törədildi. 1990-cı il yanvarın 20-də Azərbaycan xalqına qarşı hərbi təcavüz oldu. Bu, Azərbaycanı sıxmağa, boğmağa, Azərbaycanda ayağa qalxmış xalqın iradəsini sındırmağa yönəldilmiş təcavüz idi.

Doğrudur, bu, xalqımıza çox baha oturdu, böyük faciələrə gətirib çıxardı. Ancaq xalqımızın milli azadlıq ruhunu öldürə bilmədi. Bundan sonra Sovetlər İttifaqını, imperiyanı saxlamağa cəhd göstərənlər, o dövrdə Azərbaycan Respublikasının taleyinə rəhbərlik edənlər respublikamızı yenə də Sovetlər İttifaqının tərkibində saxlamağa çalışırdılar.

1991-ci ilin martında Sovetlər İttifaqının qalıb-qalmaması məsələsi həll edilərkən, Azərbaycanda xalqın əksəriyyəti müstəqillik arzusunda olduğu bir zaman Azərbaycanın o vaxtkı rəhbərliyi xalqın iradəsinə zidd olaraq, martın 17-də respublikanın guya Sovetlər İttifaqı tərkibində saxlanmasına səs verdiyini bildirdi. Ancaq bu da, şübhəsiz ki, Azərbaycanda müstəqillik, milli azadlıq əzminin qarşısını saxlaya bilmədi. Nəhayət, 1991-ci ilin avqustunda Moskvada həyata keçirilən dövlət çevrilişi və onun qarşısının alınması sovet imperiyasının dağılmasına gətirib çıxardı və bundan sonra gedən proseslər nəticəsində ittifaq dağıldı. Bununla əlaqədar olaraq Azərbaycan Respublikası da öz müstəqilliyini bəyan etməyə nail oldu.

Bildiyiniz kimi, 1991-ci il avqustun 30-da Azərbaycanın müstəqilliyi haqqında bəyanat qəbul olundu. 1991-ci il oktyabrın 18-də isə "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında" Konstitusiya Aktı qəbul edildi. Bununla da Azərbaycan bir müstəqil dövlət kimi özünü dünyaya bəyan etdi. Azərbaycanın

müstəqilliyini dünya ictimaiyyəti bəyəndi, qəbul etdi, tanıdı. Ötən üç il müddətində Azərbaycan Dünya Birliyində öz layiqli yerini tutub, Birləşmiş Millətlər Təşkilatının, digər beynəlxalq təşkilatların üzvüdür, dünya dövlətləri tərəfindən müstəqil dövlət kimi tanınıb, bir çox dövlətlərlə diplomatik əlaqələr qurmuşdur. Azərbaycan üç ildir ki, müstəqil dövlət kimi fəaliyyət göstərir. Bu, Azərbaycan xalqının həyatında böyük tarixi, əlamətdar bir hadisədir və mən bu gün, müs[391-392]təqilliyin üçüncü ildönümü günü tam qətiyyətlə deyə bilərəm ki, Azərbaycan xalqı bundan sonra da müstəqillik yolu ilə gedəcək, öz müstəqilliyini əldən verməyəcək və Azərbaycan Respublikası müstəqil dövlət kimi daim yaşayacaqdır.

Üç il – müstəqillik yolu çox ağır, çətin olmuşdur. Bu üç il müddətində respublikamız dünyada tanınmaq üçün bir çox addımlar atmış və uğurlu nəticələr əldə etmişdir. Ancaq eyni zamanda bu üç il müddətində Azərbaycan Respublikası Ermənistan tərəfindən hələ 1988-ci ildən başlanmış hərbi təcavüzün davamı olaraq yenə də həmin hərbi təcavüzə məruz qalmışdır. Bu, həm respublikamızın daxilində olan vəziyyəti gərginləşdirmiş, həm də Azərbaycanın xarici siyasətinə çox böyük maneələr törətmişdir. Bu müharibə – Ermənistanın Azərbaycana təcavüzü nəticəsində, altı il davam edən müharibə dövründə buraxılmış böyük səhvlər, nöqsanlar və çatışmazlıqlar nəticəsində, bəzən də ayrı-ayrı qrupların xalqımıza qarşı etdiyi xəyanətlər nəticəsində Azərbaycan Respublikasının ərazisinin bir qismi – 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş, bu torpaqlardan bir milyondan artıq Azərbaycan vətəndaşı didərgin düşmüş və hazırda qaçqın vəziyyətində respublikanın başqa regionlarında yaşayırlar.

Şübhəsiz ki, bunlar hamısı ilk addımlarını atan müstəqil Azərbaycan Respublikasının həyatını daha da gərginləşdirir, daha da çətinləşdirir. Bunlarla yanaşı, Azərbaycanın daxilində də üç il müddətində ictimai-siyasi vəziyyət sabit olmamışdır. Çox təəssüf ki, bu bayram – bizim üçün əziz olan bu gün ərəfəsində xalqın qüvvəsini toplayıb, birləşdirib Ermənistanın təcavüzünə qarşı mübarizə aparmaq əvəzinə, beynəlxalq aləmdə müstəqil Azərbaycanın mövqeyinin möhkəmləndirilməsi əvəzinə, respublikamızın içərisində ayrı-ayrı qüvvələr hakimiyyət mübarizəsi ilə məşğul olmuşlar. Onlar vəzifə hərisliyinə düşərək, şəxsi mənafelərini ümummilli, ümumxalq, ümumrespublika mənafeyindən üstün tutaraq respublikada qarmaqarışıqlıq yaratmağa çalışmış, ölkəni bir çox hallarda vətəndaş müharibəsi həddinə gətirib çıxarmışlar.

Məhz bunların nəticəsində və ondan qabaqkı dövrdə buraxılmış böyük səhvlər, Ermənistanın təcavüzü nəticəsində Azərbaycan bir çox məğlubiyyətlərə uğramış və torpaqlarımızın bir qismi işğal olunmuşdur. Şübhəsiz ki, bunlar Azərbaycanın öz müstəqillik imkanlarından həm daxildə, həm də ümumdünya miqyasında istifadə etməsi üçün çox maneələr törətmişdir. Bunlar həqiqətdir. Bunlar hamımızın gözümüzün qabağında olan hadisələrdir. Bu gün mən bunlar haqqında ürək ağrısı ilə, böyük kədər hissi ilə söhbət açıram.

Lakin bunlara baxmayaraq, Azərbaycan xalqının iradəsi heç vaxt sınmayıbdır. Xalqımızın Azərbaycan vətəndaşlarının tam əksəriyyəti dövlətimizin müstəqilliyini qoruyub saxlamağa, Azərbaycan Respublikasının bir müstəqil dövlət kimi yaşayıb inkişaf etməsinə, müstəqil dövlət kimi dünyada tanınmasına çalışmışdır. [392-393]

Ona görə də bu bayram günündə mən Azərbaycan Respublikasının müstəqilliyi uğrunda çalışanlara, bu 3 il ərzində Azərbaycan Respublikasının müstəqilliyinin möhkəmləndirilib saxlanılması yolunda fəaliyyət göstərənlərə, vətənpərvər, Vətənini sevən, qeyrətli, namuslu Azərbaycan vətəndaşlarına öz təşəkkürümü, minnətdarlığımı bildirirəm və Azərbaycan xalqını bu üç il müddətində keçdiyi ağır, çətin müstəqillik yolunda əldə etdiyi nailiyyətlər münasibətilə bir daha təbrik edirəm.

Qeyd etdiyim kimi, altı ildir ki, Azərbaycan Respublikası Ermənistan tərəfindən hərbi təcavüzə məruz qalmışdır. Azərbaycanın mərd, cəsur, qeyrətli, qəhrəman oğulları torpaqlarımızın müdafiəsi uğrunda döyüşüb həlak olmuşlar. Azərbaycanın müstəqilliyini əldə etmək üçün çalışıb vuruşan adamlar da əsrimizin əvvəlindən indiyədək böyük fəaliyyət göstərmişlər və bu yolda xalqımız qurbanlar, şəhidlər vermişdir. Bu gün, müstəqilliyimizin üçüncü ildönümünü bayram etdiyimiz bir anda mən Azərbaycan Respublikasının müstəqilliyi yolunda canını qurban vermiş, şəhid olmuş adamların, Azərbaycan Respublikasının ərazi bütövlüyünü, Vətən torpağını qorumaq uğrunda şəhid olmuşların ruhunu bir dəqiqəlik sükutla yad etməyi rica edirəm.

Allah bütün şəhidlərə rəhmət eləsin.

Biz müstəqilliyimizin dördüncü ilinə qədəm qoyuruq. Həyatımız çətindir, ağırdır. Bir tərəfdən müharibə şəraiti, digər tərəfdən respublikanı bürümüş sosial-iqtisadi böhran, bunlarla yanaşı olaraq respublikamızda ictimai-siyasi sabitliyi pozmağa cəhd edən qüvvələr və onların cinayətkar əməlləri – bunlar hamısı respublikanın vəziyyətini ağırlaşdırır, gərginləşdirir. Ancaq müstəqil Azərbaycan dövləti bu çətinliklərin hamısının öhdəsindən gəlməyə qadirdir. Xalqımız bütün bu çətinlikləri ötüb keçəcək və Azərbaycanın müstəqilliyinin qarşısını heç kəs ala bilməyəcəkdir. Buna tam əmin ola bilərsiniz.

Qeyd etmək lazımdır ki, son vaxtlarda aparılan tədbirlər Azərbaycanın beynəlxalq aləmdə mövqelərinin möhkəmlənməsini təmin etmişdir.

Bildiyiniz kimi, son bir ildə Azərbaycanın beynəlxalq aləmdə mövqelərini möhkəmləndirmək üçün çox ciddi və uğurlu addımlar atılıbdır. Respublikamız dünyanın böyük və nüfuzlu dövlətləri ilə birbaşa əlaqələr yaradıb, rəsmi səfərlər olub, mühüm müqavilələr və sazişlər imzalanıbdır. Bütün bunlar Azərbaycan Respublikasının dünyanın böyük və nüfuzlu dövlətləri tərəfindən həm tamamilə tanındığını, həm də işgüzar əlaqələr yaradıldığını geniş və aşkar şəkildə nümayiş etdiribdir.

Birləşmiş Millətlər Təşkilatı Baş Məclisinin 49-cu sessiyasında Azərbaycan Respublikasının beynəlxalq aləmdə mövqeyi ilk dəfə geniş bəyan olunubdur. Bununla da biz Azərbaycan Respublikasının indən sonra da müstəqillik yolu ilə gedəcəyini dünyaya bildirmişik.

Xarici siyasət sahəsində atdığımız addımlar yaxşı nəticələr verir. Məhz buna görə indi biz Ermənistanın Azərbaycana qarşı təcavüzünü sülh yolu ilə aradan qaldırmaq üçün müəyyən imkanlara nail olmuşuq. [393-394]

Bildiyiniz kimi, aparılan danışıqlar nəticəsində, beynəlxalq aləmdə həyata keçirilən siyasət nəticəsində, böyük dövlətlərin, beynəlxalq təşkilatların vasitəçiliyi sayəsində, Rusiyanın, ATƏM-in vasitəçiliyi sayəsində Ermənistanla Azərbaycan arasında müharibədə atəşkəs haqqında saziş əldə olunubdur. Beş aydır ki, biz bu atəşkəs rejiminə riayət edirik və son görüşlərimizdə, o cümlədən Nyu-Yorkda keçirilmiş görüşlərdə də bir daha bildirmişik və zəmanət almışıq ki, atəşkəs rejimi davam edəcək və Böyük Sülh Müqaviləsi əldə olunana qədər buna əməl edəcəyik.

Biz dəfələrlə demişik ki, Azərbaycan sülhsevər siyasət yeridir, Azərbaycan müharibəyə cəlb olunubdur. Böyük itkilər verməyimizə, böyük çətinliklərimiz olmasına baxmayaraq, biz müharibəyə son qoymaq və Ermənistan ilə Azərbaycan arasında gedən müharibəni sülh yolu ilə qurtarmaq istəyirik. Bunun şərtləri də məlumdur: Azərbaycanın ərazi bütövlüyü, onun sərhədlərinin toxunulmazlığı təmin edilməli, işğal olunmuş torpaqlarımızdan erməni silahlı qüvvələri şərtsiz çıxmalıdır. Bu sahədə çox intensiv işlər görülür. Bu işlər indi də gedir, gələcəkdə də gedəcəkdir. Güman edirəm ki, onlar öz nəticəsini verəcəkdir.

Beləliklə, ötən üç il müddətində, xüsusən də son bir ildə Azərbaycanın apardığı düzgün, müstəqil siyasət nəticəsində biz bu nailiyyətləri əldə edə bilmişik. Artıq hamıya məlumdur ki, Azərbaycan bütün dünya dövlətləri ilə ikitərəfli, çoxtərəfli əlaqələr saxlamaq niyyətindədir və bu əlaqələr bundan sonra da saxlanılacaqdır. Qarşılıqlı surətdə faydalı əlaqələr bundan sonra da yaradılacaqdır.

Azərbaycan beynəlxalq təşkilatlarda – Birləşmiş Millətlər Təşkilatında, ATƏM-də, Müstəqil Dövlətlər Birliyində, İslam Konfransı Təşkilatında və digər beynəlxalq təşkilatlarda iştirak edir. Azərbaycan onların hamısında iştirak etməklə yanaşı, öz müstəqil mövqeyini, öz müstəqilliyini qoruyub saxlayır, müstəqil siyasət yeridir və bu siyasəti bundan sonra da davam etdirəcəkdir. Mən bir daha bildirirəm ki, bu nailiyyətləri məhz müstəqil siyasətin nəticəsində əldə etmək mümkün olmuşdur.

Lakin Azərbaycanın bu müstəqil siyasəti, təəssüflər olsun, həm respublikamızın xarici düşmənləri tərəfindən, həm də Azərbaycanın daxilindəki düşmən qüvvələr, düşmən qruplar tərəfindən nəinki bəyənilmir, qəbul edilmir, hətta bu siyasətə, bu mövqeyə qarşı biz təcavüzlər, təsirlər hiss edirik, təxribatçı qüvvələrin meydana çıxdığını görürük.

Bildiyiniz kimi, apardığımız müstəqil siyasət nəticəsində sentyabrın 20-də Bakıda Azərbaycan Respublikası ilə xarici neft şirkətləri konsorsiumu arasında böyük neft müqaviləsi imzalandı. Bu, tarixi bir hadisədir və Azərbaycanın gələcəyi üçün, iqtisadiyyatımızın, elm və mədəniyyətimizin inkişafı üçün çox böyük və əhəmiyyətli bir addımdır. Belə bir müqavilənin imzalanması Azərbaycan Respublikasının məhz müstəqil dövlət olduğunu və müstəqil siyasət yeritdiyini dünyada bir daha nümayiş etdirdi.

Şübhəsiz ki, xalqımız bunu alqışladı, bəyəndi. Bu, Azərbaycanda böyük nikbinlik hissi yaratdı. Lakin eyni zamanda Azərbaycanın müstə[394-395]qilliyinə təcavüz, qəsd etmək istəyən qüvvələr, Azərbaycanın müstəqilliyini pozmağa can atan qüvvələr dərhal hərəkətə gəldilər.

Bildiyiniz kimi, bu müqavilə imzalandıqdan sonra Azərbaycanın həyatında çox faciəli, dəhşətli hadisələr baş verdi. Azərbaycanın dövlətçiliyinə qarşı cinayət törətmiş dörd cinayətkar sentyabrın 22-də həbsxanadan qaçırıldı. Şübhə yoxdur ki, bu, düşmən qüvvələr tərəfindən xüsusi olaraq hazırlanmış, təşkil edilmiş, planlaşdırılmış bir təxribat idi. Ondan sonra, yəni sentyabrın 29-da Azərbaycanın iki nəfər dövlət xadimi vəhşicəsinə qətlə yetirildi, başqa sözlə desək, siyasi terror həyata keçirildi. Nəhayət, oktyabrın əvvəllərində Azərbaycanda daxili ictimai-siyasi sabitliyi pozmağa çalışan qüvvələr hərəkətə gəldilər. Bütün bu əməllərin kulminasiyası, ən yüksək nöqtəsi isə oktyabrın 4-də Azərbaycanın sabiq baş naziri Surət Hüseynov və onun əlaltıları tərəfindən hazırlanmış, həyata keçirilmiş dövlət çevrilişi cəhdidir. Bu dövlət çevrilişi Gəncədə artıq baş tutmuşdu. səhərin hakimiyyət orqanları təxribatçılar, çevriliş edənlər tərəfindən ələ keçirilmişdi. Gəncə artıq bu təxribatçıların, qiyamçıların əlində idi.

Lakin bu cinayətkar qüvvələr bilməlidirlər ki, Azərbaycan xalqı, Azərbaycan dövləti onların qarşısını almağa qadirdir və onların qarşısı alındı da. Cinayətkarların bəziləri yaxalandılar, bəziləri isə qaçıb gizlənmişlər, ya cəzadan canlarını qurtarmaq istəyir, ya da təzədən qüvvə toplayıb yeni təxribat, terror əməllərinə əl atmaq istəyirlər.

Bilirsinizmi, bu, çox ürəkağrıdıcı haldır. Uç ildir ki, biz müstəqil dövlət şəraitində yaşayırıq. Amma bir nəzər salın, görün bu üç ildə Azərbaycan xalqının başına nə kimi bəlalar gəlibdir. Keçən ilin iyun ayında Azərbaycan Respublikası vətəndaş müharibəsi həddinə gəlib çıxmışdı. Bu vətəndaş müharibəsinin qarşısını xalqın iradəsi, Azərbaycanın mütəfəkkir qüvvələrinin birliyi aldı. Qardaş qanı töküldü, biz böyük çətinliklərə məruz qaldıq, lakin vətəndaş müharibəsinin qarşısı alındı. Bir il keçmədi ki, ayrı-ayrı cinayətkar qruplar, qüvvələr Azərbaycanı parçalamaq, dağıtmaq üçün yenə də təxribatlara əl atdılar, dövlət çevrilişi etməyə cəhd

göstərdilər, keçən il həmin dövlət çevrilişi cəhdində iştirak etmiş, Azərbaycanı parçalamağa can atmış adamları həbsxanadan qaçırtdılar və bundan sonra da belə cinayətkar hərəkətlərə başladılar. Bunların da qarşısı alındı.

Mən bu gün tam qətiyyətlə deyə bilərəm ki, son bir il müddətində ikinci dəfədir Azərbaycanda vətəndaş müharibəsi təhlükəsinin qarşısı alınır. Bütün bunlar onu göstərir ki, Azərbaycanın daxilində ictimai-siyasi sabitliyi pozmağa çalışan düşmən, cinayətkar qüvvələr olmasına baxmayaraq, Azərbaycan vətəndaşları, onların əksəriyyəti sağlam əhval-ruhiyyə ilə yaşayır, öz dövlətçiliyini, ictimai-siyasi sabitliyi qorumağa çalışır, Azərbaycanı bu ağır vəziyyətdən çıxarmağa çalışır. Məhz buna görə də oktyabrın 4-ü gecəsi mənim xalqa müraciətim böyük əks-səda doğurdu. Bakı sakinləri, ümumiyyətlə, şəhər və rayonlarımızda, qəsəbə və kəndlərimizdə sakinlər həmin gecə ayağa qalxdılar, Azərbaycanın dövlətçiliyinin keşiyində durdular və baş verə biləcək böyük bir faciənin qarşısını aldılar. [395-396]

Bütün bunlar bir daha onu göstərir ki, üçillik müstəqillik yolu ağırdır, çətindir, bəlalıdır. Buna baxmayaraq, xalqımızda, Azərbaycan vətəndaşlarında müstəqil dövlət şəraitində yaşamaq əhval-ruhiyyəsi güclüdür. Dövlətçiliyi qorumaq əzmi xalqımızın yenilməz iradəsinə əsaslanır. Buna görə də biz bu gün bu bayramı qeyd edərkən mən Azərbaycan xalqının iradəsi qarşısında, qəhrəman Azərbaycan övladları qarşısında bir daha baş əyirəm və əmin edirəm ki, bundan sonra da Azərbaycanın dövlətçiliyinin qorunması üçün bütün tədbirlər görüləcək və heç kəs, heç bir qüvvə Azərbaycanın müstəqilliyini, dövlətçiliyini poza bilməyəcək, Azərbaycanın müstəqil dövlət kimi yaşamasının qarşısını ala bilməyəcəkdir.

Biz bu gün müstəqilliyimizin üçüncü ildönümünü bayram edirik. Lakin bununla yanaşı, respublikamız müharibə şəraitindədir. Düzdür, beş aydır ki, atəş kəsilib. Dediyim kimi, biz bu atəşkəsi davam etdirəcəyik, sülh danışıqları aparırıq. Bununla bərabər, Azərbaycan xalqı ayıq-sayıq olmalıdır. Azərbaycanın Silahlı Qüvvələri torpaqlarımızın keşiyində, müdafiəsində ayıq-sayıq, hazır durmalıdırlar. Ordumuzun hissələri cəbhə boyunca mövqelərimizin keşiyində dayanmışlar. Bu gün, bu bayram günü mən Azərbaycan Ordusunu xüsusi salamlayıram və Azərbaycan Respublikasının torpaqlarının keşiyində duran əsgərləri, zabitləri, bütün cəbhə boyu Azərbaycan torpaqlarını qoruyan vətəndaşlarımızın hamısını təbrik edir, onlara buradan, bu salondan təbrik salamı göndərirəm. Əmin olduğumu bildirmək istəyirəm ki, onlar bundan sonra da torpaqlarımızın müdafiəsində mətanətlə, cəsarətlə duracaq və Azərbaycanın ərazi bütövlüyünün təmin olunması üçün bundan sonra da vuruşacaq, döyüşəcək, çalışacaqlar.

Son günlər Azərbaycan xalqı böyük bir imtahandan keçdi. Lakin bu o demək deyil ki, respublikamızda cinayətkarlar məhv edilib, təxribatçı qruplar yoxa çıxıblar, yaxud respublikamızda, Bakıda, başqa şəhərlərdə ictimai-siyasi sabitliyi pozmağa yenə də can atan adamlar yoxdur. Xeyr, onlar hələ mövcuddurlar. Buna görə də mən o cinayətkar qrupları, Azərbaycanın daxili ictimai-siyasi vəziyyətini pozmağa çalışanları xəbərdar etmək istəyirəm ki, onlar heç nəyə nail ola bilməyəcəklər və bu cinayətkar yoldan çəkinməlidirlər.

Bizim məqsədimiz Azərbaycanda hüquqi, demokratik, sivilizasiyalı dövlət qurmaqdır və biz bu yol ilə gedirik. Bizim məqsədimiz Azərbaycanda demokratik cəmiyyət yaratmaqdır, biz bu yolla gedirik. Biz Azərbaycan iqtisadiyyatında islahatlar aparıb, iqtisadiyyatımızı dünya iqtisadiyyatına bağlamaq istəyirik, biz bu yolla gedirik. Biz Azərbaycanda insan azadlığını, söz azadlığını, insan hüquqlarının qorunmasını təmin [396-397] etmək yolundayıq, bu yolla da gedirik. Mən Azərbaycanda çoxpartiyalı sistemin yaranmasının və inkişaf etməsinin təminatçısı kimi çıxış edirəm və buna gələcəkdə də təminat verəcəyəm.

Lakin bunların hamısı Azərbaycanın məhz dövlətçiliyinin, müstəqilliyinin qorunmasına və respublikamızın bu ağır iqtisadi, sosial böhrandan çıxarılmasına yönəldilməlidir. Odur ki, Azərbaycanda bu ağır vəziyyətdən istifadə edərək öz şəxsi mənafelərini güdən adamları xəbərdar edirəm: onlar heç nəyə nail ola bilməyəcəklər. Cəmiyyət, xalqımızın milli birliyi, vətəndaş birliyi onların hamısını yolumuzun üstündən kənara atacaqdır. Qoy buna heç kəsin şəkk-şübhəsi olmasın. Ancaq belə ünsürlər indi Azərbaycanda iqtisadiyyatın ağır vəziyyətdə olmasından istifadə edərək qarmaqarışıqlıq yaratmaq istəyirlər.

Son vaxtlar respublikamızda əhalinin çörəklə təchizatında bəzi çətinliklər yaranmışdır. Bütün bunlar həmin o cinayətkar qrupların təxribatçı fəaliyyətinin nəticəsidir. Əlbəttə ki, Nazirlər Kabineti və onun başçısı – bas nazir iqtisadiyyatla məşğul olmaq əvəzinə Nazirlər Kabinetini cinayət yuvasına çevirib, orada ayrı-ayrı təxribatçı qruplar hazırlayıb. Dövlət çevrilişinə hazırlaşdığına görə, başqa məsələlərin həlli üçün onun nəinki vaxtı yox idi, hətta bu məsələlərin həllinə əngəllər törədilirdi.

Bu məsələlər dünən müzakirə edildi, müəyyən tədbirlər görüldü. Öz vəzifələrini yerinə yetirə bilməyən bəzi adamlar vəzifələrindən götürüldü. Bundan sonra da belə qətiyyətli addımlar atılacaq, belə qətiyyətli tədbirlər görüləcəkdir. Bütün bunlar respublikamızı yalnız və yalnız bu ağır vəziyyətdən çıxarmaq naminədir. Azərbaycanda ictimai-siyasi sabitliyi təmin etmək naminədir, respublikamızda ümumi həmrəylik, vətəndaşlıq birliyi yaratmaq naminədir. Bu addımlar atılıb və bundan sonra da atılacaqdır. Odur ki, ümumi işimizə mane olan adamlar bilməlidirlər ki, onlara qarsı ciddi tədbirlər görüləcəkdir. Respublikada ictimai-siyasi sabitliyi pozmağa cəhd göstərən adamlar, təxribatla məşğul olmağa çalışan ayrı-ayrı qüvvələr, yaxud terror əməllərinə əl atan qüvvələr bilməlidirlər ki, onların qarşısı alınacaqdır. Onlar bu hərəkətləri ilə bizi nə qorxuda, çəkindirə biləcək, nə də bizi tutduğumuz yoldan döndərə biləcəklər. Mən onların hamısına xəbərdarlıq edirəm.

Eyni zamanda bu gün, bu bayram günü bütün Azərbaycan vətəndaşlarına üz tutaraq, onları bir daha milli həmrəyliyə, vətəndaş birliyinə dəvət edirəm. Biz müstəqilliyimizi yalnız milli həmrəylik əsasında, vətəndaş birliyi əsasında qoruyub saxlaya biləcəyik. Biz Azərbaycanın xoşbəxt gələcəyini yalnız bu əsasda təmin edə biləcəyik. Məhz bu əsasda biz Azərbaycanı müharibə şəraitindən çıxara biləcəyik. Məhz bu əsasda biz Azərbaycanın ərazi bütövlüyünü təmin edə biləcəyik. [397-398]

Ona görə də mən bu gün bir daha xalqa müraciət edirəm, xalqın müdrikliyinə inanıram, xalqın iradəsinə inanıram, xalqın iradəsinə güvənirəm və ona güvənərək Azərbaycanın müstəqilliyinin və daxili sabitliyinin təminatçısı kimi, bir prezident kimi bu gün xalq qarşısında bir daha söz verirəm ki, Azərbaycanın müstəqilliyini bundan sonra da qoruyacağam, Azərbaycanın daxili və xarici siyasətində aparılan müsbət işlər bundan sonra da davam etdiriləcək, Azərbaycan müstəqil dövlət kimi yaşayıb və daim yaşayacaqdır.

Bu bayram münasibətilə sizi, bütün Azərbaycan vətəndaşlarını bir daha ürəkdən təbrik edir, hamıya cansağlığı, səadət arzulayıram, işlərinizdə uğurlar diləyirəm. Əmin ola bilərsiniz ki, Azərbaycan bu ağır şəraitdən çıxacaq, müstəqillik yolu ilə irəliləyəcəkdir.

Yaşasın müstəqil Azərbaycan Respublikası! [398-399]

## TÜRK DÖVLƏTLƏRİ BAŞÇILARININ 2-ci ZİRVƏ TOPLANTISINDA İŞTİRAK ETMƏK ÜÇÜN İSTANBULA YOLA DÜŞƏRKƏN BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRƏ MÜSAHİBƏ

*18 oktyabr 1994-cü il*

Zirvə toplantısı türkdilli, türk mənşəli respublikaların ümumi toplantısıdır. Onun əsası iki il bundan əvvəl Ankarada qoyulmuşdur. Mən belə hesab edirəm ki, bu, əhəmiyyətli bir addım və təşəbbüsdür, davam və inkişaf etməlidir. Türkiyənin prezidenti hörmətli Süleyman Dəmirəl zirvə toplantısının növbəti yığıncağını bu gün İstanbulda keçirmək təşəbbüsünü qaldırmışdır. Türkdilli respublikaların prezidentləri, o cümlədən də mən bu toplantının keçirilməsinə və orada iştirak etməyə razılıq vermişik. Şübhəsiz ki, zirvə toplantısı bizim xalqlarımızın, müstəqil ölkələrimizin bu günü və gələcəyi üçün əhəmiyyətli yoldur. Yəni bizim türk mənşəli, türkdilli xalqlarımızın, tarixi, milli, mənəvi ənənələri eyni və yaxud bənzər olan xalqlarımızın hər birinin müstəqil dövlət kimi mövcud olması, onların həm dövlətlərarası əlaqələrinin inkişaf etdirilməsi, möhkəmləndirilməsi, həm də bu əlaqələrdən istifadə edərək tarixi irsimizi, keçmişimizi canlandırmaq və onun əsasında xalqlarımızı daha da yaxınlaşdırmaq dünyanın indi mürəkkəb proseslər gedən bir dövründə çox mühümdür. Ona görə də mən bu görüşə böyük əhəmiyyət verirəm. Orada hansı sənədin imzalanıb-imzalanmamasından asılı olmayaraq, elə bu görüşlərin özü, fikir mübadiləsi, həmin ölkələrin prezidentlərinin ünsiyyəti – bunlar hamısı respublikalarımızın həm iqtisadi, həm mədəni, elmi, həm də bütün başqa sahələrdə bundan sonra da bir-biri ilə sıx əlaqələr yaratması üçün imkanlar açacaqdır. Ona görə də mən çox böyük məmnuniyyət hissi ilə dəvəti qəbul etmişəm və bu duyğularla, bu fikirlərlə oraya yola düşürəm. [399-400]

## TÜRK DÖVLƏTLƏRİ BAŞÇILARININ 2-ci ZİRVƏ TOPLANTISININ AÇILIŞINDA NİTQ

*18 oktyabr 1994-cü il*

Hörmətli prezident Süleyman Dəmirəl, hörmətli məclis iştirakçıları, hörmətli dövlət başçıları, hörmətli nazirlər, qonaqlar!

Mən bu gün İstanbulda bu toplantının keçirilməsi münasibətilə buraya toplaşmış altı müstəqil dövlətin başçılarını və ümumiyyətlə, bizim ölkələrin vətəndaşlarını Azərbaycan Respublikası adından təbrik edirəm. Sonra bu təşəbbüsə görə, bu toplantının yaranmasına görə Türkiyənin prezidenti, hörmətli dostumuz və qardaşımız Süleyman Dəmirələ öz minnətdarlığımı bildirmək istəyirəm. Mən çox məmnunam ki, bu gün İstanbulda bir kökdən olan, bir mənşədən olan, eyni dilə mənsub olan altı ölkənin başçıları, dövlət başçıları səviyyəsində bu toplantı keçirilir və bu, iki il öncə Ankarada keçirilmiş Zirvə toplantısının yaxşı ənənəsinin davamıdır. Mən bunu Azərbaycan Respublikası adından bəyənirəm və bu ənənənin davam etməsinin vacibliyini bildirmək istəyirəm.

Mən burada, İstanbulda bu toplantıya gəlmiş hörmətli dostumuz, qardaşımız, Qazaxıstan Respublikasının prezidenti Nursultan Nazarbayevi, Qırğızıstan Respublikasının prezidenti Əsgər Akayevi, Türkmənistan Respublikasının prezidenti Saparmurad Niyazovu, Özbəkistan Respublikasının prezidenti İslam Kərimovu salamlayıram. Burada toplaşan bütün şəxsləri salamlayıram və hesab edirəm ki, bu görüş də Ankaradakı görüş kimi, gələcəkdə bizim əlaqələrimizin inkişaf etməsi üçün yaxşı bir əsas yaradacaq.

Ankara görüşündən iki il keçir. İki il müddətində bir çox işlər görülüb. Ancaq bu gün etiraf etmək lazımdır ki, Ankara görüşündə əldə olunmuş qərarların hamısı tam yerinə yetirilmir. Ona görə də bu gün hörmətli prezident Süleyman Dəmirəlin dediyi fikirlərlə, müddəalarla və onun təklifləri ilə tam razıyam. Eyni zamanda hesab edirəm ki, biz hamımız hərə öz tərəfindən bu fikirləri, müddəaları yerinə yetirməyə çalışsaq, bundan sonra daha çox nailiyyətlər əldə edə bilərik.

Şübhəsiz ki, bizim toplantı xalqlarımızın, ölkələrimizin tarixi kökləri, əsrlər boyu toplanmış adət-ənənələrinin birliyi, dil birliyi və fəaliyyət birliyi əsasında qurulub. Bu, çox böyük əsasdır. Ona görə də bu əsasda bizim ölkələr arasında bütün sahələrdə əməkdaşlığı inkişaf etdirməyə, genişləndirməyə, bütün istiqamətlərdə bu əməkdaşlığı təmin etməyə bizim böyük imkanlarımız var. Azərbaycan Respublikası belə qərara gəlib ki, bundan sonra da bu imkanlardan istifadə etsin və əməkdaşlığı genişləndirsin. [400-401]

Üç ildir ki, Orta Asiya, yaxud da Mərkəzi Asiya dövlətləri və Azərbaycan dövləti artıq müstəqil dövlətlərdir və dünya dövlətləri birliyinə müstəqil dövlət hüququ ilə daxil olublar. Ötən iki il müddətində bizim dövlətlərimiz, mən xüsusən Azərbaycan haqqında demək istəyirəm, Türkiyə Cümhuriyyəti ilə əlaqələri çox sürətlə inkişaf etdiriblər. Bu dövrdə bu iki ölkə – Türkiyə ilə Azərbaycan arasında olan əlaqələr, mən deyə bilərəm ki, çox böyük sürətlə inkişaf etdirilir. Azərbaycanın üç il müstəqil dövlət kimi yaşadığı bir dövrdə biz Türkiyənin daim hörmətini, ehtiramını hiss etmişik.

Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan respublikaları da indi müstəqil dövlətlər içərisindədirlər. Bu respublikalarla Azərbaycan arasında tarixi ənənələr, dostluq və qardaşlıq əlaqələri əsrlər boyu mövcud olmuşdur. Biz əsrlər boyu bir yerdə yaşamışıq, bir adət-ənənələrdən istifadə etmişik və bir-birimizə həmişə kömək etmişik. Müstəqil olmadığımız 70 illik bir dövrdə də, sovetlər birliyinin tərkibində olduğumuz vaxtda da ölkələrimiz arasında, yəni Azərbaycan ilə Mərkəzi Asiya ölkələri arasında dostluq, qardaşlıq əlaqələri həmişə sıx olub, həmişə çox möhkəm olubdur və biz bir-birimizə həmişə dayaq olmuşuq. Doğrudur, o vaxt biz Sovetlər İttifaqının tərkibində idik, Türkiyə Cümhuriyyəti ilə əlaqələr saxlamağa bizim istənilən səviyyədə imkanlarımız olmayıbdır. Ancaq Azərbaycan ilə Xəzər dənizinin o tərəfində olan Qazaxıstan, Türkmənistan, Özbəkistan, Qırğızıstan arasında əlaqə həmişə sıx olub, çox etibarlı olub və mən bu gün artıq müstəqil dövlət olan dost, qardaş ölkələrin başçıları ilə görüşərkən, burada, İstanbulda bu tarixi bir daha yada salmaq istəyirəm və bir daha bildirmək istəyirəm ki, biz bu dostluq, qardaşlıq ənənələrinə həmişə sadiq olmuşuq, bundan sonra da sadiq olacağıq.

Ancaq bir həqiqəti də qeyd etmək istəyirəm ki, ölkələrimiz müstəqillik əldə edəndən sonra, iki il bundan öncə Ankarada bizim ölkələrimizin rəhbərləri toplaşıb, görüşüb birgə bəyanat qəbul edəndən sonra ola bilər ki, Azərbaycan tərəfinin buraxdığı səhvlər nəticəsində Azərbaycan Respublikasının Qazaxıstanla, Özbəkistanla, Türkmənistanla, Qırğızıstanla əlaqələri çox zəif olub. Təxminən bir il bundan öncə, mən Azərbaycan Respublikasına başçılıq etməyə başladığım gündən bu qardaş respublikalarla əlaqələrin bərpa olunması üçün çox çalışmışam və bildirmək istəyirəm ki, bu əlaqələrin zəifləməsi və bəzən də qırılması səbəbləri ancaq Azərbaycandadır. Ona görə də Azərbaycan tərəfindən bu əlaqələrin uzun müddət zəiflədilməsinə görə və xüsusən 1992-ci ildə Ankara bəyannaməsindən sonra Azərbaycan tərəfindən bu dövlətlərlə əlaqələri inkişaf etdirmək üçün təşəbbüs göstərilmədiyinə görə mən dostlarımdan, qardaşlarımdan üzr istəyirəm və bunu etiraf

edirəm. Eyni zamanda bildirmək istəyirəm ki, Azərbaycan bu əlaqələrin gücləndirilməsinə çalışır və bundan sonra da çalışacaqdır. Bu toplantı bizim əlaqələrin inkişaf etməsinə, daha da geniş olmasına çox böyük şərait yaradacaqdır.

Ümumiyyətlə, bir kökdən, bir mənşədən olan və adət-ənənələri bir [401-402] olan xalqların, ölkələrin, dövlətlərin əməkdaşlığının böyük gələcəyi var və mən hesab edirəm ki, biz bu imkanlardan səmərəli istifadə etməliyik.

Hörmətli prezident Süleyman Dəmirəlin dediyi kimi, bizim həm iqtisadiyyat sahəsində, həm ticarət sahəsində, həm elm sahəsində, həm ekologiya sahəsində, həm mədəniyyət sahəsində, həm də təhsil sahəsində əməkdaşlıq etmək üçün böyük imkanlarımız var. İndi bizim cümhuriyyət də, yeni müstəqillik əldə etmiş digər cümhuriyyətlər də, respublikalar da keçid dövrü yaşayırlar. Məsələn, Azərbaycanı götürsək, biz iqtisadi cəhətdən böyük sosial-iqtisadi böhran içərisindəyik. Ona görə də bu keçid dövründə bir-birimizə köməyimiz və iqtisadi əlaqələrimizin inkişaf etməsi hər bir ölkənin bu böhran vəziyyətindən çıxmasına kömək edəcəkdir.

Azərbaycan üç ildir ki, müstəqillik yolu ilə gedir, hüquqi, sivilizasiyalı, demokratik dövlət qurmaq yolu ilə gedir. Azərbaycanda siyasi plüralizm, şəxsiyyət azadlığı, insan hüquqlarının qorunması, söz azadlığı, mətbuat azadlığı bərqərar olubdur, çoxpartiyalı sistem artıq fəaliyyət göstərir. İqtisadiyyat sahəsində biz iqtisadi islahatlar yolu ilə gedirik və bazar iqtisadiyyatı yolu ilə getmək əzmindəyik. Beləliklə də dünya birliyinə, dünya iqtisadiyyatına qoşulmağa çalışırıq. Ona görə də biz iqtisadi əlaqələrimizi, ticarət əlaqələrimizi bütün dünya dövlətləri ilə ikitərəfli, sərfəli əsaslarla qurmağa çalışırıq. Ancaq bu əlaqələri – həm ikitərəfli, həm də çoxtərəfli əlaqələri burada təmsil olunan dövlətlərlə səmərəli, faydalı qurmaq Azərbaycan üçün daha da əhəmiyyətlidir, daha da mənfəətlidir. Ona görə də mən bildirmək istəyirəm ki, biz o əlaqələri bundan sonra da qurmağa, yaratmağa çalışacağıq.

Qeyd etdiyim kimi, Azərbaycan müstəqillik qazandıqdan sonra üç il müddətində Türkiyə Cümhuriyyəti ilə Azərbaycan arasında çox geniş proseslər gedibdir və biz bunlardan ümumiyyətlə məmnunuq. Ancaq hesab edirik ki, bizim bütün imkanlarımızdan hələ indiyə qədər istifadə olunmayıb. Azərbaycanın professorları, alimləri Türkiyənin universitetlərində uzunmüddətli əməkdaşlıq ediblər. Eləcə də Azərbaycanda Türkiyədən gələn tələbələr oxuyublar. Elm sahəsində, təhsil sahəsində, mədəniyyət sahəsində əlaqələrimiz böyükdür. Bu əlaqələr müəyyən inkişaf mərhələsi keçibdir, bunun əsasında biz bundan sonra daha çox işlər görə bilərik. İqtisadiyyat sahəsində, şübhəsiz ki, bizim imkanlarımız böyükdür. Məsələn, Qara dəniz hövzəsindəki ölkələrin əməkdaşlıq etməsi təcrübəsi artıq dünyaya məlumdur və bu sahədə müəyyən nailiyyətlər əldə olunubdur. Ancaq eyni zamanda mən hesab edirəm ki, Xəzər dənizi hövzəsində də əməkdaşlığı təşkil etmək mümkündür.

Sizə məlumdur ki, Azərbaycan bazar iqtisadiyyatına keçərək, xarici ölkələrin investisiyalarını Azərbaycana cəlb etməyə çalışaraq həm öz sənaye potensialından, həm intellektual potensialından, həm do təbii sərvətlərindən başqa ölkələrlə müştərək istifadə etməyə çalışır və bu sahədə müəyyən addımlar atır.

Bildiyiniz kimi, sentyabr ayının 20-də Bakıda Azərbaycan ilə xarici ölkələrin şirkətləri arasında Xəzər dənizinin Azərbaycan sektorunda üç [402-403] neft yatağından müştərək istifadə olunması üçün 30 illik müqavilə bağlanmışdır. Bu müqaviləni on bir şirkət imzaladı: Azərbaycan Dövlət Neft Şirkəti və xarici ölkələrin on şirkəti. Bunlar yeddi dövlətə mənsub olan şirkətlərdir. Bu, Azərbaycan, Türkiyə, Amerika Birləşmiş Ştatları, Böyük Britaniya, Rusiya, İsveç və Səudiyyə Ərəbistanının şirkətləridir. Biz hesab edirik ki, bu müqavilə Azərbaycanın müstəqilliyini bir daha nümayiş etdirir. Azərbaycanın dünya iqtisadiyyatına bağlanmaq üçün açıq bir ölkə olduğunu göstərir. Eyni zamanda o, həm xarici şirkətlər üçün, həm onların mənsub olduqları dövlətlər üçün, həm de Azərbaycan üçün müştərək fəaliyyət göstərməyə, böyük nailiyyətlər əldə etməyə imkan yaradır. Mən hesab edirəm ki, bu təcrübədən daha da geniş istifadə oluna bilər. Ona görə də Xəzər dənizi sahəsində əməkdaşlıq problemi, mənə belə gəlir ki, mühüm bir problemdir və bu, müzakirə olunarsa, bu barədə müəyyən fikir əldə edilə bilərsə, biz buna tərəfdar ola bilərik. Ancaq Xəzərin təbii sərvətləri böyükdür – onun həm neft sərvəti, həm də başqa təbii sərvətləri. Şübhəsiz ki, bizim işlərimiz dünyanın müasir, qabaqcıl texnologiyasının tətbiq olunması vasitəsilə həyata keçirilməlidir və ona görə də biz Xəzər dənizinin ekologiyasının təmin olunmasını, başqa təbii sərvətlərinin toxunulmazlığının təmin edilməsini əsas götürməliyik və Azərbaycan neft müqaviləsini imzalayarkən bütün bu məsələlərin həll olunması üçün Xəzər dənizi ətrafında olan bütün ölkələrlə sıx əməkdaşlıq etmək məramındadır və biz bu əməkdaşlığı təqdir edirik.

Ancaq hesab edirəm ki, təkcə Xəzər dənizinə bilavasitə çıxan ölkələr yox, başqa ölkələr də indi bu işə qoşula bilər və ümumiyyətlə, həm Azərbaycanın, həm də digər ölkələrin təbii sərvətlərindən, o cümlədən enerji daşıyıcılarından istifadə edilməsi və onların ixrac olunması, dünya bazarına birgə çıxarılması şübhəsiz ki, bizim ölkələrimiz üçün çox əhəmiyyətli ola bilər. Hər halda, bizim qonşu dövlətlərin bu barədə Azərbaycanın ərazisindən istifadə etmək fikirləri olsa, bu enerji daşıyıcılarını Azərbaycan ərazisindən başqa ölkələrə keçirmək fikirləri olsa, Azərbaycan buna şərait yaradacaqdır və bu barədə əməkdaşlıq etməyə hazırdır. Eyni zamanda mən ümumiyyətlə, bizim regionda olan bu təbii sərvətlərdən istifadə olunmasında Türkiyənin ərazisindən istifadə edilməsinə çox üstünlük verirəm və hesab edirəm ki, biz bu barədə də birgə əməkdaşlıq edə bilərik.

Bizim tarixi, milli, mədəni ənənələrimiz əsasında son vaxtlar görülən işlər təqdirəlayiqdir. Məsələn, "Türksoy" proqramının yaranmasını və onun artıq fəaliyyət göstərməsini biz böyük məmnuniyyətlə qəbul

edirik. Yaxud da ki, bizim xalqlarımızın, türkdilli xalqların ümumi qüdrətinin yaranması sahəsində başlanan işlər də bizim tərəfimizdən bəyənilib və biz orada öz səylərimizi göstərəcəyik. Bir sözlə, mən bu barədə çox geniş danışıb vaxt almaq istəmirəm. Hesab edirəm ki, hörmətli prezident Süleyman Dəmirəl çox əhəmiyyətli fikirlər söylədi. Bu fikirlərlə razı olduğumu və hamımızın birlikdə həm iqtisadiyyat, həm ticarət, həm elm, həm də [403-404] mədəniyyət sahəsində əməkdaşlıq etməyimizə Azərbaycanın hazır olduğunu bildirmək istəyirəm.

Bilirsiniz ki, Azərbaycan müstəqilliyini əldə edib və mən sizə çatdırmaq istəyirəm ki, Azərbaycanın müstəqilliyi üç il bundan qabaq bu gün – oktyabrın 18-də elan edilib. Bu gün Azərbaycanın bayram günüdür və səciyyəvidir ki, biz burada, İstanbulda, Türkiyədə məhz bu gün toplaşmışıq. Onu da qeyd etmək istəyirəm ki, Azərbaycan öz müstəqilliyini elan edərkən dünya dövlətlərindən birinci olaraq Türkiyə Azərbaycanı müstəqil dövlət kimi tanımış, Azərbaycanın dünya dövlətləri tərəfindən müstəqil dövlət kimi tanınmasına yol açmışdır. Ona görə də bu gün Azərbaycanın müstəqilliyinin 3-cü ildönümü münasibətilə mən burada, İstanbulda Türkiyə Cümhuriyyətinə və Türkiyənin prezidenti Süleyman Dəmirələ, Türkiyə xalqına Azərbaycan xalqı adından təşəkkürümü bildirirəm. Əmin ola bilərsiniz ki, Azərbaycan xalqı bu tarixi hadisəni heç vaxt yadından çıxarmayacaqdır.

Ancaq bu üç illik müstəqillik dövrü Azərbaycanın siyasi həyatında çox çətin dövr olmuşdur. Bunu bizim qardaş ölkələrin başçıları da, bütün dünya ictimaiyyəti də bilir. Bütün dünya bilir ki, Azərbaycanın daxilində ictimai-siyasi sabitliyi pozmağa çalışan qüvvələr olubdur, böyük dəyişikliklər olubdur. Bu, hamıya məlumdur. Mən bu barədə geniş danışıb vaxtınızı almaq istəmirəm. Ancaq qeyd etmək istəyirəm ki, 1993-cü ilin iyun ayında Azərbaycanın daxilində böyük çəkişmələr baş verdi və bəzi cinayətkar qüvvələr, siyasi qüvvələr Azərbaycanı parçalamağa, ölkəmizin daxilində ictimai-siyasi sabitliyi pozmağa və Azərbaycanın dövlətçiliyinə qəsd etməyə çalışdılar. Azərbaycan vətəndaş müharibəsi həddinə gəlib çatmışdı. Böyük məmnuniyyətlə qeyd edə bilərəm ki, biz vətəndaş müharibəsinin qarşısını aldıq və keçən ilin iyun ayından indiyə qədər Azərbaycanın daxili vəziyyətini sabitləşdirməyə çalışmışıq. O zaman da, Azərbaycanın bu ağır vəziyyətində də biz rəhbərləri burada olan dost ölkələrimizin, qardaş ölkələrimizin müsbət münasibətini daim hiss etmişik. Buna görə mən təşəkkür edirəm.

Təəssüf ki, bu hadisələr yenidən təkrar olunmağa başladı. Bu il oktyabr ayının əvvəlində yenə də bəzi qüvvələr ölkəmizin daxilində ictimai-siyasi sabitliyi pozmaq, dövlətçiliyimizə qəsd etmək və Azərbaycanda dövlət çevrilişi etmək üçün cəhd göstərməyə çalışdılar. Ancaq siz yəqin müşahidə etdiniz və mən bunu bildirmək istəyirəm ki, Azərbaycan xalqı artıq öz müstəqilliyini əldən vermək istəmir. Buna görə də mənim televiziya ilə çağırışımdan bir neçə dəqiqə sonra Bakının vətəndaşları, yüz minlərlə vətəndaş Azərbaycan prezidenti Sarayının önünə toplaşdılar, Azərbaycan dövlətçiliyini, Azərbaycan prezidentini qorumaq əzmində olduqlarını bildirdilər. Biz dövlət çevrilişi edən silahlı qüvvələrin qarşısını xalqın gücü ilə, xalqın iradəsi ilə aldıq, qan tökülmədən bu hadisənin qabağını ala bildik. Bu o demək deyil ki, indi bizim respublikamızda tam əmin-amanlıq yaranıb, ictimai-siyasi vəziyyət tam normallaşıbdır. Ancaq bir həqiqət dünyaya məlum oldu ki, Azərbaycan xalqı öz müstə[404-405]qilliyini əldən vermək istəmir, öz dövlətçiliyini qoruyur və bundan sonra da qoruyacaqdır. Xalqımız üçün həmin o gərgin və ağır günlərdə dünya ictimaiyyəti Azərbaycanın dövlətcikliyinin qorunmasına tərəfdar çıxdı və Azərbaycan dövləti ilə həmrəyliyini bildirdi. Buna görə də mən bu gün bu fürsətdən istifadə edib hamin günlərdə bizimlə həmrəy olanların hamısına öz minnətdarlığımı və təşəkkürümü bildirirəm.

Ancaq Azərbaycanda daxili vəziyyətin belə gərgin olması eyni zamanda onun altı ildən artıq müddətdə Ermənistan tərəfdən təcavüzə məruz qalması ilə əlaqədardır. Bu müddətdə Azərbaycan torpaqlarının 20 faizi işğal edilibdir, 20 mindən artıq adam vətəni müdafiə edərkən həlak olubdur, 100 minə qədər adam yaralanıbdır, 5 min Azərbaycan vətəndaşı Ermənistanda əsir saxlanılır. İşğal olunmuş torpaqlarımızda şəhərlər, kəndlər, qəsəbələr, binalar hamısı dağıdılıbdır və həmin torpaqlardan bir milyondan artıq vətəndaşımız qaçqın düşərək Azərbaycanın başqa regionlarında yerləşdirilibdir.

Bunlar, təbii ki, Azərbaycanın daxili vəziyyətini, o cümlədən iqtisadi, sosial vəziyyətini gərginləşdirir. Biz bu vəziyyətdən çıxmağa çalışırıq. Birinci növbədə bir milyondan artıq qaçqını saxlamağa, ağır vəziyyətdə olan bu adamları təmin etməyə çalışırıq. Bu sahədə bizə beynəlxalq təşkilatlar da kömək edir. Mən böyük məmnuniyyət hissi ilə deyə bilərəm ki, Türkiyə, İran, Səudiyyə Ərəbistanı Azərbaycanda qaçqınlar üçün çadır şəhərcikləri yaradıblar, onların bir qismini öz öhdələrinə götürüblər və bizə kömək edirlər. Beynəlxalq təşkilatlar, Birləşmiş Millətlər Təşkilatının Qaçqınlara Yardım Komissarlığı, YUNİSEF və başqa təşkilatlar da Azərbaycana kömək göstərirlər. Bir neçə ölkə bu beynəlxalq humanitar yardımı təşkil edib Azərbaycana göndərməyə çalışır və elə indi də fəaliyyətdədirlər. Ona görə də mən bütün beynəlxalq təşkilatlara təşəkkürümü və minnətdarlığımı bildirirəm və bu gün dost, qardaş ölkələrə müraciət edərək demək istəyirəm ki, hazırda bizim qaçqınları təmin etmək üçün köməyə ehtiyacımız var – həm iqtisadi köməyə, həm də mənəvi köməyə. Hər bir kömək üçün minnətdar olacağıq. Güman edirəm ki, mənim bu fikirlərim də nəzərdən qaçmayacaqdır.

Ancaq Azərbaycanın əsas problemi müharibə vəziyyətindən çıxmaqdır. Bildiyiniz kimi, biz bu məsələni sülh yolu ilə həll etmək istəyirik, bu məqsədlə beynəlxalq təşkilatlarla əməkdaşlıq edirik. Rusiya bu sahədə vasitəçi rolu oynayır. Başqa böyük dövlətlər də vasitəçilik edirlər. ATƏM təşkilatı, onun tərkibində olan Minsk

qrupu çox böyük fəaliyyət göstərir və onların vasitəçiliyi nəticəsində beş ay bundan öncə Ermənistanla Azərbaycan arasında müharibədə atəşin kəsilməsinə nail olmuşuq. Artıq beş aydır ki, atəş kəsilib. Biz bu atəşkəs rejiminə sadiqik, atəşkəs rejimini saxlayırıq. Sentyabrın 29-da mən Birləşmiş Millətlər Təşkilatının tribunasından Azərbaycan Respublikası adından atəşkəs rejiminin saxlanılmasına riayət olunacağını bəyan etmişəm və bu gün də bəyan edirəm. Biz çalışırıq ki, bu atəşkəs vaxtında beynəlxalq təşkilatların iştirakı ilə böyük sülh yaranmasına nail olaq. Biz ümumiyyətlə, dünyada gedən bütün silahlı mü[405-46]naqişələrin həll edilməsinin tərəfdarıyıq. Ancaq sizə məlumdur ki, bu münaqişələrdən ən dəhşətlisi və ən uzun sürən münaqişə Ermənistanla Azərbaycan arasında altı illik tarixi olan münaqişədir.

Mən qeyd etdim ki, biz məsələni sülh yolu ilə həll etmək istəyirik. Ancaq bizim şərtlərimiz ondan ibarətdir ki, erməni silahlı qüvvələri işğal olunmuş torpaqlardan şərtsiz çıxmalıdırlar. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası bu barədə dörd qətnamə qəbul etmişdir. Ancaq bu qətnamələr Ermənistan tərəfindən indiyə qədər yerinə yetirilməyibdir. Biz bunların yerinə yetirilməsini tələb edirik. ATƏM təşkilatı Minsk qrupunun fəaliyyətini, Rusiyanın vasitəçiliyini qiymətləndiririk və onların vasitəsilə Azərbaycanla Ermənistan arasında sülh bağlanmasına çalışırıq. Ancaq yenə də deyirəm, bizim şərtlərimiz işğal edilmiş torpaqlarımızdan erməni silahlı qüvvələrinin şərtsiz olaraq çıxması ilə bağlıdır. O cümlədən Laçın rayonundan və Şuşa rayonundan erməni silahlı qüvvələri çıxmalıdır. Belə bir şəraitdə Azərbaycan Respublikası Dağlıq Qarabağın statusunu müzakirə etməyə hazırdır və ona müəyyən statusun verilməsinə tərəfdardır.

Güman edirəm ki, burada təmsil olunan dövlətlər də bizim bu ağır məsələmizin həllinə səy göstərəcəklər. Bu məsələnin həll edilməsi beynəlxalq prinsiplərin bərqərar olunmasını tələb edir. Beynəlxalq hüquq normaları, beynəlxalq hüquq prinsipləri hər bir yerdə dövlətlərin ərazi bütövlüyünün təmin olunmasını, hər bir dövlətin sərhədlərinin toxunulmazlığını tələb edir və bir dövlətin başqa bir dövlətin ərazisini zorla ələ keçirməsinə yol verilməməsini tələb edir. Ona görə də biz həmin beynəlxalq hüquq normalarına sadiq olaraq, bu məsələnin sülh yolu ilə həll edilməsinə çalışırıq. Ümidvarıq ki, bizə dost, qardaş olan dövlətlər də bu barədə bizə bundan sonra kömək edəcəklər.

Mən hesab edirəm ki, bizim dostluğumuzun, bütün sahələrdə əməkdaşlığımızın böyük gələcəyi var. Mən bu ənənənin davam etdirilməsinin tərəfdarıyam. Gələcək görüşün təxirə salınmadan keçirilməsinin tərəfdarıyam. Təəssüf ki, Ankara görüşündən sonra bu görüşə qədər iki il vaxt keçdi. Hörmətli prezident Süleyman Dəmirəl 95-ci ildə belə bir görüşün Türkiyədə keçirilməsini və Türkiyənin ev sahibi olmasını bəyan edib. Mən də bunun Azərbaycanda keçirilməsini və Azərbaycanın ev sahibi olmasını təklif edirəm. Ancaq burada ümumi razılıqla bu görüşün bir ildən sonra hansı dövlətdə keçirilməsi lazım bilinərsə, mən o qərarı qəbul etməyə hazıram. Yəni əsas məqsədimiz bu ənənənin davam etməsidir, bu görüşlərin daimi olmasıdır. Gələn il bu görüş hansı ölkədə keçiriləcəksə, o ölkəyə mən də getməyə hazıram.

Diqqətinizə görə sağ olun. [406-407]

## TÜRK DÖVLƏTLƏRİ BAŞÇILARININ 2-ci ZİRVƏ TOPLANTISINDA QƏBUL EDİLMİŞ "İSTANBUL BƏYANNAMƏSİ"NİN İMZALANMA MƏRASİMİNDƏ ÇIXIŞ

*19 oktyabr 1994-cü il*

Hörmətli sədr, hörmətli prezident Süleyman Dəmirəl!
Hörmətli dövlət başçıları!
Hörmətli nazirlər, qonaqlar, mətbuat nümayəndələri!

Mən bu gün 2-ci Zirvə toplantısının müvəffəqiyyətlə başa çatması münasibətilə məmnun olduğumu bildirmək istəyirəm. Bu toplantı Türkiyənin prezidenti, hörmətli dostum, əziz qardaşım Süleyman Dəmirəlin təşəbbüsü ilə baş vermişdir. Biz, dövlət başçıları, o cümlədən mən – Azərbaycanın dövlət başçısı bu toplantının zəruri olduğunu bildirmişəm və buraya çox böyük həvəslə gəlmişəm. Biz bu toplantının artıq müvəffəqiyyətlə başa çatmasının şahidiyik.

Şübhəsiz ki, biz bu barədə geniş söhbətlər apardıq. Xalqlarımızın, ölkələrimizin bir kökdən, bir mənşədən olması, qohum xalqlar olması, onların əsrlər boyu tarixi, milli, mədəni, dini ənənələrinin bərabər, birgə olması indi müstəqillik əldə etmiş cümhuriyyətlərin daha yaxın əməkdaşlıq etməsinə şərait yaradır və bizim üçün geniş imkanlar açır. Biz bu imkanlardan istifadə etməliyik. Azərbaycan Respublikası adından tam qətiyyətlə deyə bilərəm ki, biz bu ənənənin davam etməsinin tərəfdarıyıq və bu imkanlardan istifadə etməyə bundan sonra da çalışacağıq.

Burada dünən aparılan faydalı, çox səmərəli, çox əhəmiyyətli danışıqlar, mənə belə gəlir ki, xalqlarımızı, ölkələrimizi bir-birinə daha da yaxınlaşdırır. Mən bu gün bir həqiqəti qeyd etmək istəyirəm ki, bizim xalqlarımız əsrlər boyu bir-birinə yaxın dost olmuşlar. Biz bir kökdənik, biz birdilli xalqlarıq. Bizim milli ənənələrimiz çox yaxındır, bir-birinə bənzərdir, oxşardır. Ona görə də bunlar hamısı xalqlarımızı hələ biz müstəqil olmadığımız vaxtda, ayrı-ayrı dövlətlərin əsarəti altında yaşadığımız vaxtda da bir-birimizdən ayırmayıb, bir-birimizə bağlayır, bir-birimizlə daha sıx əlaqədə saxlayır. İndi isə, xalqlarımız öz müstəqilliyini əldə edəndən sonra, müstəqil dövlət kimi dünyada tanınandan sonra biz bu tarixi ənənələr əsasında, həmin fundamental əsaslar üzərində bundan sonra da irəliyə getməliyik, inkişaf etməliyik.

Bizim həm iqtisadi, həm ticarət, həm də elmi, mədəni, təhsil sahəsində əlaqələrimiz bundan sonra genişlənəcəkdir. Bu gün burada imzalanmış [407-408] bəyannamə, hesab edirəm ki, bunun üçün yeni əsas yaradır. Mən əmin olduğumu bildirmək istəyirəm ki, bu bəyannamə həyata keçiriləcəkdir. Biz, Azərbaycan tərəfi bu bəyannamənin, anlaşmanın, sazişin ardıcıl olaraq həyata keçirilməsinə çalışacağıq və əlimizdən gələni əsirgəməyəcəyik.

Bizim üçün çox əhəmiyyətli cəhət ondan ibarətdir ki, burada türk mənşəli, türkdilli altı cümhuriyyətin başçıları və təmsil olunan heyətlərin üzvlərinin hamısı eyni fikrə gəldilər. Əsas məsələlər üzrə eyni fikrə gəlmək və belə bir bəyannaməni imzalamaq, hesab edirəm ki, tarixi bir hadisədir. Biz bunu yüksək qiymətləndiririk.

Mən öz tərəfimdən bunu yüksək qiymətləndirirəm.

Şübhəsiz ki, bu mərasimin, bütün bu toplantının təşkili, onun müvəffəqiyyətlə başa çatdırılması, həyata keçirilməsi və belə bir anlaşmanın, bəyannamənin imzalanması Türkiyə Cümhuriyyətinin və xüsusən prezident, əziz dostumuz, qardaşımız, dünyanın böyük siyasi, ictimai, dövlət xadimi, türk dünyasında məşhur bir şəxs, Türkiyənin həyatında on illərlə siyasi fəaliyyətdə olan Süleyman Dəmirəlin böyük əməyi nəticəsində mümkün olmuşdur. Ona görə də mən bu gün, görüşümüz sona çatan vaxtda Azərbaycan Respublikası adından Türkiyə Cümhuriyyətinə, türk xalqına və Türkiyə Cümhuriyyətinin prezidenti əziz Süleyman Dəmirələ türk cümhuriyyətlərinin atdığı yeni addım münasibətilə və bu görüşün, bu toplantının müvəffəqiyyətlə keçməsi münasibətilə təşəkkürümü və minnətdarlığımı bildirirəm.

Biz dünən buraya gələndən qardaş Türkiyə Cümhuriyyətində, Türkiyə torpağında böyük qonaqpərvərlik, dostluq və mehribanlıqla əhatə edilmişik. Burada aparılan işlər çox ahəngdar, çox səlis, çox gözəl təşkil olunmuşdur. Bu, bir daha onu göstərir ki, Türkiyə Cümhuriyyəti 70 il ərzində demokratik yolla gedərək, respublikanın tarixində böyük təcrübə toplamışdır. Türkiyə Cümhuriyyətinin həyatında yaranmış bu sağlam mühit Türkiyənin, türk xalqının, türkdilli xalqların dünyada necə böyük zirvələrə qalxmasını göstərir. Ona görə də mən bir daha Türkiyə xalqına, Türkiyə Cümhuriyyətinə Azərbaycana daim yardım, dəstək göstərməsinə görə, Azərbaycanın ağır vəziyyətdə olduğu dövrdə respublikamıza həmişə əl uzatdığına, dayaq olduğuna görə Azərbaycan xalqı adından təşəkkürümü bildirirəm. Dünən, bu gün bizə göstərilən qonaqpərvərliyə, burada görülən işlərə görə hörmət və ehtiramımı, təşəkkürümü bildirirəm.

Əziz dostum və qardaşım Süleyman Dəmirəl, sizə bu fəaliyyətinizdə uğurlar diləyirəm, uzun ömür, cansağlığı və xalqınıza Türkiyə Cümhuriyyətinin inkişafı naminə böyük müvəffəqiyyətlər arzulayıram.

Burada toplaşan türkdilli dövlətlərin başçıları hərəsi öz problemləri [408-409] haqqında danışdı, o cümlədən mən də danışdım. Bizim ayrı-ayrı görüşlərimiz, söhbətlərimiz də oldu. Mən Qazaxıstan xalqına, Qazaxıstan Respublikasına, Özbəkistan xalqına, Özbəkistan Respublikasına, Qırğızıstan xalqına, Qırğızıstan Respublikasına, Türkmənistan xalqına, Türkmənistan Respublikasına, onların başçılarına – hörmətli prezident Nursultan Nazarbayevə, hörmətli prezident İslam Kərimova, hörmətli prezident Əsgər Akayevə, hörmətli prezident Saparmurad Niyazova öz hörmət və ehtiramımı bildirirəm və bu qardaş xalqlara gələcək problemlərin həll olunmasında müvəffəqiyyətlər arzulayıram.

Diqqətinizə görə təşəkkür edirəm. Bu böyük görüşün müvəffəqiyyətlə keçməsi münasibətilə bir daha hamınızı təbrik edirəm. Hamıya cansağlığı, səadət arzulayıram. [409-410]

## İSTANBULDA TÜRK DÖVLƏTLƏRİ BAŞÇILARININ 2-ci ZİRVƏ TOPLANTISININ İŞİ BAŞA ÇATDIQDAN SONRA MƏTBUAT KONFRANSI

*19 oktyabr 1994-cü il*

**Sual: Keçmiş SSRİ dağıldıqdan sonra yaranmış müstəqil dövlətlərin qarşısında hazırda hansı problemlər durur?**

**N. Nazarbayev:** Bəzən deyirlər ki, bütün dövlətlərdə bizi – prezidentləri, hökumətləri tənqid edirlər. Məsələn, mən belə hesab edirəm ki, bu hərcmərclik şəraitində, idarəetmənin pozulduğu, iqtisadiyyatın dağıldığı şəraitdə son dörd-beş ildə yalnız biz nisbi sakitliyi qoruyub saxlamış. və hər halda adamların yaşayışını təmin etmişik. Bu dövlətlərin əksəriyyətində və Allaha şükür ki, Mərkəzi Asiyada biz adamlar arasında, millətlər arasında mehriban münasibətləri qoruyub saxlayırıq. Bu, həmin ölkələrin indiki rəhbərlərinin gördükləri böyük işdir.

Bir vaxtlar vahid Sovet İttifaqında xalqlar, adamlar qarışıq halda yaşayırdılar. İndi bu adamlar 15 dövlətdə yaşayırlar, onları 16 sərhəd ayırır. Onlar tarixi vətənlərinin harada olduğunu axtarır, harada məskən salmaq, uşaqlarının harada yaşayacağı barədə düşünürlər. Bu, məsələnin birinci, ən başlıca – humanitar, insani tərəfidir. Məsələnin digər tərəfi – bir-biri ilə bağlı olan iqtisadiyyatın dağılması da əsas cəhətdir. İnteqrasiya 60-70 faiz olarkən iqtisadiyyatlar arasında üfüqi əlaqələrin yeni səviyyədə – bazar iqtisadiyyatı səviyyəsində saxlanması bizi böyük işsizlikdən, adamları hədsiz məşəqqətlərdən xilas edə bilərdi. Biz XXI əsrin astanasındayıq, əgər biz sivilizasiyalı adamlarıqsa, bu dövlətlər arasında həqiqətən bərabərhüquqlu, işgüzar, etibarlı iqtisadi münasibətlər yaratmalıyıq. Bu etimad vasitəsilə, gömrük maneələrini və sərhədləri ləğv etmək vasitəsilə adamlara sərbəst yerdəyişmə imkanı, istədikləri yerdə məskunlaşmağa vaxt verməliyik. Başqa sözlə, Qərbi Avropanın 12 dövləti arasında adamlar necə gedib-gəlirlərsə, elə bir şərait yaratmalıyıq. Bu, gələcəkdə millətlərarası münaqişələrin, dövlətlərarası münaqişələrin qarşısının alınmasına xidmət edərdi. Belə etimadın olması bütün qonşularda bir-birinə etimad doğurar, son nəticədə keçmiş Sovet İttifaqı kimi çoxmillətli dövlətdə olmuş əmin-amanlıq, firavanlıq yaradardı. Bizə isə müstəqilliyin, suverenliyin bərqərar olmasının daha əlverişli şəraitdə davam etməsi üçün vaxt qazanmağa imkan verərdi.

Əgər keçmiş Sovet İttifaqındakı vəziyyət davam edərsə, separat millətçilik bundan sonra da genişlənərsə, yeni müharibə və qırğın ocaqları yaranarsa, zənnimcə, dünyada – istər Asiyada, istərsə də Avropada bunun [410-411] heç kimə xeyri olmayacaq. Əminəm ki, mütərəqqi qüvvələrin heç biri belə vəziyyət yaranmasını istəmir.

Lakin keçmiş SSRİ-nin müxtəlif regionlarının sərhədləri təkcə keçmiş Sovet İttifaqının sərhədləri deyildir. Buraya başqa dövlətlər də qoşula bilərdi. Məsələn, bəzi Şərqi Avropa ölkələri, Baltikyanı ölkələr, Çin və başqaları buna böyük maraq göstərirlər. Əgər bu, bərabərhüquqlu, müstəqil, suveren, bazar iqtisadiyyatı quran dövlətlərin ittifaqı olsaydı, bizim bugünkü toplantının iştirakçıları da ona qoşula bilərdilər.

**Sual: Son hadisələr zamanı Orta Asiya dövlətləri Azərbaycanı dəstəkləyirdilərmi?**

**H. Əliyev:** Orta Asiya, Mərkəzi Asiya dövlətləri ilə Azərbaycan arasında dostluq, qardaşlıq əlaqələri var. Mən dünənki iclasda qeyd etdim ki, iki il bundan öncə keçirilən Ankara görüşündən sonra bu əlaqələr müəyyən qədər zəifləmişdir. Bu da Azərbaycan tərəfinin ucbatından olmuşdur. Yəni Azərbaycanın o vaxtkı rəhbərliyi qardaş Orta Asiya, Qazaxıstan respublikaları ilə dostluq əlaqələrini davam etdirməmişdi. Mən bunu dünənki qapalı iclasda dedim, amma bu gün tam aydın olmaq üçün bildirmək istəyirəm ki, Qazaxıstan, Orta Asiya, Mərkəzi Asiya dövlətləri ilə Azərbaycan arasında daim dostluq, qardaşlıq əlaqələri olmuşdur. Bu əlaqələr əsrlər boyu davam etmiş, o cümlədən bizim xalqlarımız, cümhuriyyətlərimiz 70 il ərzində Sovetlər İttifaqının tərkibində olanda da əlaqələrimiz çox sıx və yaxın idi, biz həmişə bir-birimizə yardım etmişik, bir-birimizin təcrübəsini öyrənmişik. Ancaq müstəqillik qazanıldıqdan sonra bu əlaqələr daha da güclənməli idi. Mən etiraf edirəm ki, Azərbaycan tərəfinin buraxdığı bəzi səhvlər nəticəsində bu əlaqələr istənilən səviyyədə olmamışdır. Bəlkə də keçmiş Sovetlər İttifaqının tərkibində olanda bu əlaqələr daha güclü idi.

Hesab edirəm ki, bu əlaqələrin inkişaf etməsi, genişlənməsi üçün bizim tərəfimizdən, həmçinin Orta Asiya respublikaları və Qazaxıstan tərəfindən böyük addımlar atılır. Azərbaycanda dövlət çevrilişinə cəhd göstərən qüvvələrin qarşısını almaq üçün mən Azərbaycan prezidenti kimi fəaliyyət göstərərkən dünya ictimaiyyətinin əksəriyyəti, ən böyük dövlətlər Azərbaycanın xalq tərəfindən seçilmiş prezidentini, Azərbaycanın dövlətçiliyini dəstəklədilər. Orta Asiya, Mərkəzi Asiya ölkələri də məni dəstəklədilər və ona görə də bu gün onlara təşəkkürümü bildirirəm.

**Sual: Cənab prezident, sentyabrın 20-də Azərbaycan xarici neft şirkətləri konsorsiumu ilə müqavilə imzalamışdır. Qazaxıstanın neft yataqlarının işlənməsi ilə bağlı sizin də müqaviləniz var. Bu müqavilələrin həyata keçirilməsini, Azərbaycanın imzaladığı "Əsrin müqaviləsi"nə mane olan qüvvələrin hərəkətini hüquqi baxımdan necə qiymətləndirirsiniz?**

**N. Nazarbayev:** Yadımdadır, Xəzər şelfindəki neft yataqlarının işlənməsinə dair Azərbaycanın xarici şirkətlərlə imzaladığı müqavilə barədə bəzi bəyanatlar olmuşdur. Xəzəryanı dövlətilərin hamısı, o cümlədən Rusiya da, Qazaxıstan da, Türkmənistan da, Azərbaycan da və İran [411-412] da dənizdə mineral ehtiyatlar hasilatı ilə məşğul olur. Xəzər hamımız üçün çox mühüm su hövzəsidir. Məlum olduğu kimi, dənizin sualtı sərvətlərindən əlavə, çox böyük bioloji ehtiyatları da var və indiki halda bunları hər kəs istədiyi kimi talayır. Xəzər dünyada nərə balığı yetişdirilən ən böyük su hövzəsi idi. Bunun hesabına da külli miqdarda kürü istehsal olunurdu. Buna görə də, həqiqətən, Xəzər dənizi barədə ümumi sazişə gəlmək lazımdır.

Qazaxıstana gəldikdə isə, o, özünün dövlət sərhədləri hüdudunda iş görür və bununla bağlı heç bir məsələ ortaya çıxmamışdır. İndi yeddi şirkətdən ibarət böyük konsorsium işləyir. Ona görə də indi bütün dövlətlər Xəzər dənizinin statusunu müəyyənləşdirmək barədə ekspertlər səviyyəsində danışıqlar aparırlar. Belə hesab edirəm ki, bu iş əvvəl-axır başa çatdırılmalıdır. Bu məsələni çəkişmə mövzusuna çevirmək lazım deyildir. Xüsusən ona görə ki, bu dövlətlərin hamısı Müstəqil Dövlətlər Birliyinə daxildir. Bunun özü birlik üçün daha bir sınaqdır. Ümidvaram ki, biz bu məsələ barəsində birlik çərçivəsində ortaq fikrə gələcəyik. Bir cəhəti nəzərə almalıyıq ki, Xəzər dənizində marağı olan dövlətlərin heç birinin mənafeyinə zərər toxunmamalıdır. Mənim mövqeyim belədir.

**Sual: Cənab prezident Kərimov dedi ki, bəzi qüvvələr bizim sazişimizi üçüncü dövlətlərə, üçüncü qüvvələrə qarşı qoymağa çalışaraq ona hansısa başqa bir məna verməyə cəhd göstərirlər. Lakin nə bir dövlətin, nə də bir üçüncü qüvvənin adı çəkildi. Halbuki hamıya məlumdur ki, söhbət Rusiyadan gedir. Ələlxüsus da bu gün Türkiyənin bütün qəzetləri belə başlıqlarla çıxmışdır: "Türk-Rusiya dueli". Siz bu barədə nə deyə bilərdiniz? Sualım Özbəkistan prezidenti cənab Kərimovadır. Digər prezidentlər də öz fikirlərini söyləmək istəsəydilər, buna şad olardım.**

**İ. Kərimov:** Biz İstanbulda toplaşmazdan əvvəl mən mətbuatdakı, o cümlədən Türkiyə mətbuatındakı bəzi yazılarla tanış olmuşam. Məni həmin yazıların tərcüməsi ilə tanış etmişlər. Bunları oxuduqdan sonra əmin oldum ki, Türkiyənin özündə də bizim bu görüşümüzdən müxtəlif dövlətlər arasında, o cümlədən MDB-yə daxil olan dövlətlər arasında nifaq salmaq üçün istifadə etmək istəyən müəyyən qüvvələr var. Mən məhz bu məlumatlara əsaslanaraq xəbərdar etmək istəyirəm ki, belə uydurmalar hər şeydən əvvəl məhdud siyasi məqsədlər daşıyır. Bu uydurmaların ünvanlandığı dövlətlərə xəbərdarlıq etmək istərdim ki, belə uydurmaları, belə fitnələri ciddi qarşılamasınlar.

**Sual: Mənim sualım Qazaxıstan prezidenti cənab Nazarbayevə və Türkmənistan prezidenti cənab Niyazovadır. Yenidən Xəzər məsələsinə qayıtmaq istəyirəm. Bakıda imzalanmış neft müqaviləsinə Xəzəryanı dövlətlərin başçıları kimi, hər iki prezidentin konkret münasibətini bilmək maraqlı olardı. Çünki Rusiyanın bəzi dairələri belə hesab edir ki, bu müqavilə Xəzəryanı dövlətlərin mənafeyinə toxunur. Bu, həqiqətən də belədirmi?**

**İkincisi, Rusiya belə bir fikir irəli sürür ki, Xəzər sektorlara bölün**[412-413]**məməlidir. İstərdim ki, hər iki dövlət başçısı bu barədə öz mövqelərini bildirsin. Nəhayət, Azərbaycanın müstəqilliyinə düşmən olan bəzi xarici dövlətlər Azərbaycanda dövlət çevrilişi baş tutmadıqdan sonra ona qarşı ciddi iqtisadi sanksiyalar tətbiq etmək niyyətindədirlər. Əgər belə olarsa, türk dövlətləri Azərbaycana iqtisadi kömək göstəriləcəyinə zəmanət verə bilərlərmi?**

**N Nazarbayev:** Mən bu məsələ barədə öz mövqeyimi bildirdim. Deyiləsi başqa sözüm yoxdur. Hamımız danışıqlar apararaq mehriban qonşular kimi bütün bu məsələləri həll etməliyik. Yalnız onu əlavə edə bilərəm ki, nəqliyyat kommunikasiyalarımız ümumi olduğuna görə Rusiyanın iştirakı və Rusiya ilə birgə iş görmək Qazaxıstan üçün çox mühüm cəhətdir. Biz Rusiya şirkətlərini çox böyük Qaraçaqnaq qaz-kondensat yatağının işlənməsində hüquq bərabərliyi əsasında iştirak etməyə cəlb edirik. Biz Rusiya şirkətlərini bütün bu məsələlərdə öz vəsaitləri ilə iştirak etməyə dəvət edirik. Ona görə də mən belə hesab edirəm ki, bütün bu məsələləri danışıqlar yolu ilə həll etmək lazımdır. Suverenliyə gəldikdə isə, ümumiyyətlə, hər bir müstəqil dövlət öz mallarını beynəlxalq bazara müxtəlif yollarla çıxarmaq imkanına malik olmalıdır. Bu, birtərəfli xarakter daşımamalıdır. Bu gün hər bir dövlətə onun ərazisindən neft, qaz kəmərləri çəkilməsi faydalıdır. Həmin dövlətlər bundan çoxlu vəsait götürürlər. Ona görə də Mərkəzi Asiyanın zəngin regionlarından neft-qaz kəmərləri çəkilməsinə dünyada çox böyük maraq var. Bu işi görmək üçün investisiyalar da, istək də kifayət qədərdir. Biz burada həmin məsələləri də həll edirik.

**S. Dəmirəl**: Hazırda Azərbaycana qarşı yönəldilmiş iqtisadi qadağan barədə təklif yoxdur. Belə bir təklifin nəyə görə olacağını da bilmirəm. Çünki əgər bu, Ermənistanla Azərbaycan arasındakı münaqişə ilə əlaqədar olacaqsa, bunun əsası yoxdur. Torpaqları işğal edilən Azərbaycandır. Onun ərazisinin 20 faizi işğal edilmişdir. 1 milyon 200 min qaçqını olan Azərbaycandır. Deməli, Azərbaycanın həm torpaqları işğal edilir, həm əhalisi qaçqın düşür, ölkəyə bu qədər haqsız zərər dəyir və üstəlik, ona qarşı iqtisadi qadağanlar tətbiq olunsun? Bunu təsəvvür etmək mümkün deyildir. İşdir, belə bir şey olarsa, Türkiyə bu haqsızlığa qarşı lazımi mübarizə aparar. Mən bunu hamıya bildirirəm ki, Azərbaycan bizim üçün, türk xalqı üçün çox önəmlidir. Azərbaycana qarşı yönəldiləcək hər cür haqsızlığa qarşı Türkiyədə hamı bir nəfər kimi ayağa qalxar. Nəhayət, Türkiyə Azərbaycana maddi və mənəvi baxımdan hər zaman yardım göstərməkdə davam edəcəkdir.

**S. Niyazov** : Biz Azərbaycanın Qərb neft şirkətləri ilə imzaladığı müqaviləni diqqətlə nəzərdən keçirmişik. Müqavilədən məqsəd odur ki, ölkənin ağır vəziyyətində, heç olmasa, minimum iqtisadi məsələlər həll edilsin, çətinlikləri aradan qaldırmaq mümkün olsun. Ona görə də müqavilənin necə imzalanması, kimlə razılaşdırılması barədə biz o zaman Heydər Əliyeviçlə telefonla fikir mübadiləsi etmişik. Heydər Əliyeviç bu fikirlə tamamilə razıdır ki, o. bu müqaviləni çətinliklər olduğuna, bunları [413-414] tezliklə aradan qaldırmaq zərurətinə görə imzalamışdır. Eyni zamanda o, Xəzər dənizinin statusunun tezliklə müəyyənləşdirilməsi ilə də razıdır və bununla əlaqədar istənilən vaxt danışıqlara başlamağa hazırdır. Heydər Əliyeviç oktyabrın 27-də Türkmənistan Respublikasının üçüncü ildönümü bayramında iştirak etmək üçün Aşqabata gələcək. İran prezidenti hörmətli Haşimi-Rəfsəncani, Rusiyanın nümayəndə heyəti də gələcəkdir. Biz bu məsələlər barədə Nursultan Nazarbayevlə də danışmış, məsləhətləşmişik. O da öz rəyini bildirmişdir. Oktyabrın 25-də Qazaxıstan Respublika gününü qeyd etdiyinə görə o, Aşqabata gelə bilməyəcək, lakin neft və qaz nazirini göndərəcək. Biz bu məsələləri sürətlə işləyib hazırlayacağıq ki, Xəzər dənizi dünyada yeni mübahisə, münaqişə zonasına çevrilməsin.

Azərbaycan uzun illərdir ki, Xəzər şelfində neft çıxarır və onun bu gün hasilatı artırmaq arzusunu başa düşürəm. Bu, təbii arzudur. Həmin məsələdə Rusiya da qəti mövqe tutmur. Mən Viktor Stepanoviç Çernomırdin ilə fikir mübadiləsi etmişəm, razılaşmışıq ki, ilk növbədə Xəzərin statusu müəyyənləşdirilməlidir, sonra isə Xəzərin ekologiyasına zərər vurmadan məsələlər həll olunmalıdır. Biz bu barədə Heydər Əliyeviçlə əvvəllər də, bu gün də danışmışıq. Zənnimcə, yaxın vaxtlarda məsələni həll edəcəyik.

Bundan əlavə, biz Xəzər dənizindən təbiəti mühafizə tədbirləri, beynəlxalq hüquq çərçivəsində istifadə olunması üçün konsorsium yaradılmasına dair Rusiya ilə, İranla danışıqlar aparırıq. Mən bu barədə Nursultan Nazarbayevə də məlumat vermişəm. Bu sahədə iş görüldüyünü bu gün səhər Heydər Əliyeviçə də demişəm. Əgər biz indi Xəzər dənizinin statusunu müəyyənləşdirə bilmiriksə, onda iri layihələri hər bir ölkənin mənafeyi nəzərə alınmaqla razılaşdıra biləcək konsorsium yaratmaq lazımdır.

Prinsip etibarilə biz Azərbaycanın Qərb konsorsiumu ilə imzaladığı müqavilənin əleyhinə deyilik. Yeganə məqsəd bu olmalıdır ki, heç kim bir-birindən şübhələnməsin, heç kim fikirləşməsin ki, biri digərinin hesabına fayda götürməyə çalışır və Xəzər dənizi hansısa çəkişmə, mübahisə, qeyri-sabitlik obyektinə çevrilməsin. Heydər Əliyeviç də, Nursultan Nazarbayev də məsələnin bu yerə gəlib çıxmasının əleyhinədirlər. Mən Boris Nikolayeviçlə də danışmışam. O da bu məsələnin həllini sürətləndirməyə tamamilə tərəfdardır. Biz bu fikirdəyik ki, həmin məsələ yaxın vaxtlarda həll olunmalıdır. Lakin Azərbaycanın Qərb şirkətləri ilə müqavilə imzalaması çəkişmə mövzusu olmamalıdır. Xəzərlə bağlı məsələlərdə müvafiq dövlətlərin ehtiyat etməsini başa düşmək mümkündür. Bu gün bizlərdən kimsə bir iş görərkən qonşular buna həmişə şübhə ilə yanaşırlar. Bizim də Hollandiya və Argentina firmaları ilə sazişlərimiz var, onlar Xəzər dənizinin sahilində işləyirlər. Lakin biz mövcud neft mədənlərində hasilatın artırılması barədə saziş bağlamışıq və gəliri yarı böləcəyik. Xəzərin Türkmənistan sahillərindəki şelfində iş görmək barədə də danışıqlar aparacağıq. Əgər Rusiya ilə saziş bağlamaq sərfəli olarsa, – onunla, [414-415] İranla sərfəli olarsa, onunla saziş bağlayacağıq. Zənnimcə, yalnız ümumi statusu müəyyənləşdirmək və etimad yaratmaq lazımdır.

**Sual: Dünən Azərbaycanın istiqlaliyyətinin ildönümü idi. Oktyabrın 27-si Türkmənistanın istiqlaliyyət günüdür. Orta Asiyanın digər dövlətlərinin istiqlaliyyət günləri barədə məlumat ala bilərəmmi?**

**S. Dəmirəl:** İstiqlaliyyət günü çox önəmlidir. İstiqlaliyyət gününü qeyd edən qardaş xalqlara ən səmimi təbriklərimizi yetiririk. Oktyabrın 18-də Azərbaycan, 27-də Türkmənistan, 29-da Türkiyə, daha sonra Qazaxıstan bu ildönümlərini keçirirlər. Qırğızıstan və Özbəkistan öz istiqlaliyyət günlərini daha öncə qeyd etmişlər. Bizim üçün – Türkiyə üçün və şəxsən mənim üçün son dərəcə sevindirici haldır ki, vaxtilə dünya dövlətləri içərisində tək bir bayraqla təmsil olunmuş böyük türk xalqları indi altı bayraqla təmsil edilir. Bu, qürur hissi doğurur. Bu dövlətlərə əbədi istiqlaliyyət, qardaş xalqlara isə uğurlar və tərəqqi diləyirik.

**Sual: Rusiya Xarici İşlər Nazirliyinin bugünkü bəyanatında Zirvə toplantısının onları narahat etdiyi bildirilir. Türk dövlətlərinin başçıları bu bəyanatla bağlı nə fikirdədirlər?**

**S. Dəmirəl:** Zirvə toplantısı Türkiyədə keçirildiyinə görə suala mən cavab verirəm. Nəzakət qaydalarından kənara çıxmaq istəmirəm. Türkiyə müstəqil ölkədir və Orta Asiya dövlətlərinin, Azərbaycanın buraya gəlmiş hörmətli prezidentləri də müstəqil dövlətləri təmsil edirlər. Əgər Rusiya Xarici İşlər Nazirliyinin bəyanatı İstanbulda keçirilən və birlik, bərabərlik, sülh, istiqlal və ölkələrimizin xalqlarının, bölgə xalqlarının birliyinə yardımçı olmaq məqsədi daşıyan bir toplantı özlərinə qarşı düşmənçilik kimi başa düşülürsə, bu səhvdir. Bu toplantı hamının gözü qarşısında keçir. Burada 24 maddədən ibarət bəyannamə qəbul edilmişdir. Müstəqil dövlətlərin sülh, istiqlal, ölkələrinin tərəqqisi üçün keçirdikləri tədbiri başqa bir ölkənin ona qarşı təzyiq kimi başa düşməsini heç cür anlamaq mümkün deyildir, Toplantının qəbul etdiyi bəyannamə çox diqqətlə işlənib hazırlanmışdır. Orada pantürkizmdən əsər-əlamət yoxdur. Burada əyləşən hörmətli dövlət başçılarının hamısı bir daha söylədilər ki, biz müştərək mədəniyyətə, müştərək taleyə, keçmişə, müştərək dinə malik olan xalqlarıq. Müştərək dildən, dindən, mədəniyyətdən vazmı keçək? Bunu tarix belə yetirmişdir. Ona görə də lüzumsuz işlərə yer yoxdur. Biz ayrı-ayrılıqda, yaxud birlikdə kimisə təkləmək fikrində deyilik. Zirvə

toplantımızı keçirdik və hər birimizin tam razılığı ilə sənəd imzaladıq. Axırda da mətbuat konfransı təşkil etdik ki, heç kim bizim sülh və rifah tərəfdarı olmağımıza şübhə etməsin. [415-416]

## TÜRK XALQLARININ DOSTLUQ, QARDAŞLIQ VƏ ƏMƏKDAŞLIQ QURULTAYININ İŞTİRAKÇILARINA TƏBRİK

Hörmətli qurultay iştirakçıları!

Türk xalqlarının dostluq, qardaşlıq və əməkdaşlıq qurultayının keçirilməsi münasibətilə Sizi ürəkdən salamlayır və uğurlar arzulayıram.

Türk xalqları tarixin ağır sınaqlarından çıxmış, elmi, mədəni, iqtisadi və siyasi əlaqələrini inkişaf etdirərək qədim dünyanın və orta dövr tarixinin mühüm hərəkətverici qüvvələrindən olmuşdur. Həmin dövrlərdə tarixə türk xalqlarının adından yazılmış bir çox qəhrəmanlıq salnamələri və bəşəri nümunələr ümumdünya sivilizasiyasının şanlı səhifələrinə və bütün dünyanın iftixar mənbəyinə çevrilmişdir.

Özünün yeni yüksəliş dövrünü yaşayan çağdaş türk dünyası bəşər sivilizasiyasına yeni misilsiz nümunələr vermək iqtidarındadır. Bu gün öz suverenliyini əldə etmiş bir çox türk cümhuriyyətlərinin bu sıraya qoşulması türk dünyasının gələcəyinə işıqlı ümidlər oyadır. İqtisadi, siyasi və mədəni həyatın sıx telləri ilə birləşməyə başlamış türk xalqları yeni dünyanın mühüm amillərindən birinə çevrilməkdədir.

Ümidvaram ki, türk xalqlarının növbəti qurultayı bu ülvi arzuya yeni təkan verəcəkdir.

Bu günlərdə öz müstəqilliyinin üçüncü ildönümünü qeyd etmiş müstəqil Azərbaycan Cümhuriyyəti türk xalqlarının qardaşlıq ailəsinin möhkəmləndirilməsi üçün əlindən gələni edəcəkdir. Tarixi inkişafın yeni yoluna qədəm qoymuş türk xalqlarının sarsılmaz dostluğunun bundan sonra daha da möhkəmlənəcəyinə heç bir şübhəm yoxdur. Ulu Tanrıdan bütün türk xalqlarına sülh, əmin-amanlıq və rifah arzulayıram.

**HEYDƏR ƏLİYEV**

*20 oktyabr 1994-cü il* [416-417]

## MOSKVAYA MDB DÖVLƏT BAŞÇILARININ GÖRÜŞÜNƏ YOLA DÜŞƏRKƏN BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRƏ MÜSAHİBƏ

*21 oktyabr 1994-cü il*

Azərbaycanın özünəməxsus mövqeyi var. Biz Müstəqil Dövlətlər Birliyinə daxil olandan sonra bu mövqeyi həmişə müdafiə etmişik və indi də müdafiə edəcəyik. Hansı məsələlər Azərbaycanın müstəqilliyinə toxunmayacaqsa və Azərbaycanın Dünya Birliyinə, dünya iqtisadiyyatına birləşməsinə, qatılmasına şərait yaradacaqsa, biz onlarla razı olacağıq, hansı məsələlər ki, bizim mənafeyimizə toxunacaq, biz buna razı olmayacağıq. [417-418]

**RESPUBLİKANIN XALQ ARTİSTİ**
**ZƏROŞ HƏMZƏYEVAYA**

Hörmətli Zəroş xanım!

Sizi – Azərbaycan xalqının sevimli sənətkarını – şanlı yubileyiniz münasibətilə ürəkdən təbrik edir, Sizə ən səmimi arzularımı bildirirəm.

Siz Azərbaycan səhnəsində yaratdığınız unudulmaz qadın obrazları ilə sənətsevərlərin qəlbində əbədi məskən salmış, ecazkar sənətinizlə xalqımızın sevimlisi olmusunuz.

Sizə həyatınızda möhkəm cansağlığı, uzun ömür, yeni sənət uğurları diləyirəm.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*24 oktyabr 1994-cü il* [418-419]

## ŞƏRQ ÖLKƏLƏRİ BEYNƏLXALQ MEMARLIQ AKADEMİYASININ BİRİNCİ SESSİYASININ İŞTİRAKÇILARINA

Şərq Ölkələri Beynəlxalq Memarlıq Akademiyasının hörmətli üzvlərini akademiyanın birinci sessiyasının açılışı münasibətilə ürəkdən təbrik edirəm.

Bu forumun Qoca Şərqin qapısı Bakıda – nadir memarlıq abidələri ilə zəngin qədim şəhərdə keçirilməsi rəmzi səciyyə daşıyır. Bu, uzun illər Şərq ölkələrinin süni surətdə kəsilmiş mədəniyyət və memarlıq əlaqələrinin yenidən bərpası deməkdir.

Bu görüşün Azərbaycanda – altı illik bir müddətdə erməni təcavüzünə məruz qalmış, ərazisinin 20 faizi zəbt olunmuş respublikamızda yüzlərlə mədəniyyət və memarlıq abidələrinin yerlə-yeksan olunduğu və xalqımızın sosial-iqtisadi vəziyyətinin ağırlaşdığı bir dövrdə keçirilməsi böyük əhəmiyyətə malikdir. Bu, qələbəyə, Azərbaycanın işıqlı sabahına, ehtişamlı memarlıq abidələrinin yaradılmasına, şəhər və kəndlərin yenidən dirçəlişinə ümidimizi bir daha artırır.

Şərq Ölkələri Beynəlxalq Memarlıq Akademiyasının birinci sessiyasının iştirakçılarına Şərq ölkələri memarlarının beynəlxalq əlaqələrinin inkişafı və möhkəmləndirilməsi, qədim ənənələrə malik Şərq memarlığının tərəqqisi, memarlıq elminin layiq olduğu mövqeyə yüksəldilməsi yolunda yeni uğurlar diləyirəm.

Hörmətli memarları Azərbaycan Respublikasının paytaxtında bir daha salamlayır, Şərq Ölkələri Memarlıq Akademiyasının birinci sessiyasına müvəffəqiyyətlər arzu edirəm.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*25 oktyabr 1994-cü il* [419-420]

## TÜRKMƏNİSTANIN MÜSTƏQİLLİK QAZANMASININ 3-cü İLDÖNÜMÜ MÜNASİBƏTİLƏ ŞƏNLİKLƏRDƏ İŞTİRAK ETMƏK ÜÇÜN AŞQABATA YOLA DÜŞƏRKƏN BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRƏ QISA MÜSAHİBƏ

*26 oktyabr 1994-cü il*

Tarixən Azərbaycan ilə Türkmənistan arasında çox sıx əlaqələr olmuşdur. İndi müstəqil dövlət kimi bu əlaqələri daha da möhkəmləndirməyimizə ehtiyac var. Coğrafi baxımdan yaxınlığımız, milli keçmişimiz və s. bunu tələb edir. Eyni zamanda bu səfər yaxşı bir imkandır. Bayram təntənələrində iştirak etmək üçün digər ölkələrin dövlət başçıları da gələcəkdir. Ümumi işlərimizlə, coğrafi-siyasi məsələlərlə bağlı onlarla görüşüb, söhbət etməyə ehtiyac var. Bu məqsədlə də mən Türkmənistan prezidenti Saparmurad Niyazovun dəvətini qəbul etmişəm və indi oraya səfərə gedirəm. [420-421]

## AŞQABADDA PAKİSTANIN BAŞ NAZİRİ BƏNƏZİR BHUTTO İLƏ GÖRÜŞDƏN SONRA JURNALİSTLƏRƏ MÜSAHİBƏ

*26 oktyabr 1994-cü il*

Pakistan Asiyanın çox böyük müsəlman ölkələrindən biridir. Hazırda bu ölkə ilə Azərbaycan arasında yaxşı münasibətlər vardır. Pakistanın nümayəndələri beynəlxalq təşkilatlarda, xüsusən Birləşmiş Millətlər Təşkilatında və onun Təhlükəsizlik Şurasında Ermənistanla Azərbaycan arasındakı problemlərin müzakirəsində həmişə respublikamızın mövqeyini müdafiə etmiş, dəstəkləmişlər. Bundan əlavə, Pakistanla Azərbaycan arasında tarixi köklərimizə görə də bağlılıq olmuşdur və indi də ticarət-iqtisadi əlaqələrin inkişaf etdirilməsinə ehtiyac vardır.

Ona görə də mən sentyabrın 5-də Qahirədə Pakistanın baş naziri Bənəzir Bhutto ilə görüşdüm, ətraflı söhbət etdik. Bu gün də görüşdük. Görüşümüzün əsas məqsədi dövlətlərimiz arasındakı əlaqələrin inkişafı yollarını müzakirə etmək idi. Mən Bənəzir Bhuttonu Azərbaycana dəvət etmişəm. O da məni Pakistana rəsmi səfərə dəvət edib. Belə razılığa gəldik ki, Pakistan Azərbaycana iqtisadi və ticarət sahələri üzrə böyük bir nümayəndə heyəti göndərəcək və biz respublikamızda onlarla birgə işləyəcəyik. Bundan sonra Bənəzir Bhuttonun ölkəmizə gəlməsi gözlənilir. Daha sonra mənim Pakistana səfərim olacaq. Yəni Asiyanın böyük, dünyada nüfuzu olan ölkəsi, bizə çox yaxşı münasibəti olan Pakistanla əlaqələrimizi inkişaf etdirmək istəyirik. Ona görə də mən Qahirədə də, burada da Bənəzir Bhutto ilə görüşdüm və bu görüşlərdən çox məmnunam.

Bənəzir Bhutto çox yaxşı bir insandır, yaxşı bir rəhbərdir. Mən vaxtilə onun atası ilə də, anası ilə də tanış idim. İndi özü ilə də görüşüb tanış olduq və bu görüşlərdən çox razıyam.

Görüşümüzdə Bənəzir Bhutto mənim bioqrafiyamla maraqlandı. Çünki o bilmirdi ki, tarixdə ilk dəfə müsəlman bir şəxs Sovetlər İttifaqı kimi, Rusiya kimi böyük bir ölkənin başçılarından biri olub və bu necə olub. O dedi ki, onlar sizi bu yüksək vəzifəyə şəxsi keyfiyyətlərinizə görə, yoxsa nəyə görə aparmışdı ? Mən bunların hamısını izah etdim. Bu məsələləri siz bilirsiniz, ona görə mən bir daha təkrar etməyəcəyəm. Mənim Siyasi Büronun tərkibində necə olmağım sizə yaxşı məlumdur. Onun bilmədiklərini mən dedim.

Pakistanın xarici işlər naziri baş nazir Bənəzir Bhuttoya demişdi ki, Sovet İttifaqı Əfqanıstana qoşun yeridəndə mən bunun əleyhinə çıxmışam. Xarici işlər naziri bunu düzgün bilir. Dedim ki, həqiqətən o vaxt mən Əfqanıstana Sovet qoşunları yeridilməsinin əleyhinə çıxmışam. [421-422] 1990-cı il yanvarın 20-də Sovet qoşunlarının Azərbaycana yeridilməsinin də əleyhinə çıxmağımı, etiraz etməyimi Bənəzir Bhutto bilir. O, bunu da soruşdu və mən ona izah etdim. Yəni mənim müsəlman kimi Sovet İttifaqının rəhbərlərindən biri olmağım onun üçün maraqlı idi və bunların hamısı haqqında ona danışdım.

**Sual: Bənəzir Bhutto ilə görüşdə Xəzərin statusu məsələsinə toxunuldumu ?**

-Yox, İran İslam Respublikasının prezidenti Haşimi-Rəfsəncani və Türkmənistanın prezidenti Saparmurad Niyazovla sabahkı görüşlərimdə, ola bilər ki, Xəzərin statusu məsələsinə toxunulsun. Ancaq Bənəzir Bhutto bu məsələyə toxunmadı. Süleyman Dəmirəlin isə bu məsələdə mövqeyi aydındır.

**Sual: Bu səfərinizdə Azərbaycan üçün mühüm olan hansı məsələni müzakirə etmək niyyətindəsiniz ?**

-Süleyman Dəmirəllə biz altı gün bundan qabaq İstanbulda görüşmüşdük. Bu gün də görüşdük. Bu görüşlər daimi xarakter daşıyır. Türkiyə bizim üçün ən yaxın bir ölkədir. Şəxsən Süleyman Dəmirəl bir siyasi xadim kimi Azərbaycana çox böyük qayğı göstərir. Ona görə do hər dəfə görüşərkən biz bütün məsələlər haqqında söhbət aparırıq – həm Ermənistanla Azərbaycan arasında indiki münasibətlər, hazırkı vəziyyət, həm ATƏM təşkilatı Minsk qrupunun fəaliyyəti, həm də müharibəyə sülh yolu ilə son qoyulması yolları haqqında.

Süleyman Dəmirəl Azərbaycandakı vəziyyətlə çox maraqlanır və son vaxtlar respublikamızda baş vermiş dövlət çevrilişi cəhdi ilə əlaqədar narahatlığını bildirir. O, respublikamızın daxilində sabitliyin daha möhkəm təmin olunması barədə öz tövsiyələrini verir, fikirlərini deyir. Bilirsiniz ki, indi respublikamızda un, taxıl çatışmazlığı var. Süleyman Dəmirəl iki gün bundan qabaq mənə telefonla zəng etmişdi, bu gün də dedi ki, onlar Azərbaycana bu günlərdə yüz min ton taxıl göndərməyə başlayacaqlar. O, bunu görüşdə bir daha təsdiq etdi, bilirsiniz ki, bu günlərdə yenə do Ankaraya gedəcəyik, orada da görüşlərimiz olacaq.

Mən sabah Türkmənistanın prezidenti Saparmurad Niyazovla görüşəcəyəm. Türkmənistan bizim üçün yaxın bir ölkədir. Bizim əlaqələrimiz keçmişdə də çox güclü olubdur – Sovet İttifaqı vaxtında da, əsrin lap əvvəlində də. Vaxtilə burada çoxlu azərbaycanlı yaşamış, indi də yaşayanlar çoxdur. Hazırda Türkmənistanın iqtisadi imkanları böyükdür. Çeçenistanda dəmir yolu bağlı olduğu üçün indi artıq Krasnovodsk-Bakı dəniz yolundan istifadə etməyə məcburuq. Ona görə də mən sabah Saparmurad Niyazovla bir neçə məsələni müzakirə edəcəyəm. [422-423]

**Sual: Bu yaxınlarda Moskvada Azərbaycan və Türkmənistanın hər iki ölkənin müstəqilliyi məsələsində eyni mövqe tutması doğrudurmu və sizin Aşqabada indiki səfərinizin bununla əlaqəsi varmı?**

-Xeyr, bu, heç nə ilə bağlı deyil, bu, mənim mövqeyim, Azərbaycanın mövqeyidir. Əgər kim isə buna şərikdirsə, bu, onun öz mövqeyidir. Burada irəlicədən heç bir razılaşma yoxdur. Mən kimin necə mövqe tutduğunu bilmirəm, öz mövqeyimi bundan asılı olmayaraq bildirirəm. Konkret olaraq indiki halda mən buraya ona görə gəlməmişəm ki, Azərbaycan ilə Türkmənistan Moskvada eyni mövqe tutmuşlar. Ona görə gəlmişəm ki, ölkələrimiz arasında sıx münasibətlər olmasını istəyirəm. Keçmişdə belə münasibətlər olmuşdur. Burada – Türkmənistanda xeyli azərbaycanlı yaşayır. Türkmənistan bizə qonşu, dilimizə və keçmişimizə görə yaxın bir ölkədir. Ona görə də mən istəyirəm ki, ölkələrimiz arasındakı əlaqələrimizi möhkəmləndirək. Vaxtilə böyük səhvlər buraxılıb, Azərbaycanı Orta Asiya, ümumiyyətlə, mərkəzi Asiya ölkələrindən uzaqlaşdırıblar. Mən istəyirəm ki, bu, aradan götürülsün. Ona görə do buraya gəlmişəm. Güman edirəm ki, belə tədbirlər gələcəkdə keçmiş "İpək yolu"nun canlandırılmasına kömək edəcəkdir. [423-424]

## "AZƏRBAYCAN GƏNCLƏRİ"
## QƏZETİNİN KOLLEKTİVİNƏ

"Azərbaycan gəncləri" respublikamızın mətbuat aləmində şərəfli yaradıcılıq yolu keçmiş, qəzetçilik ənənələrimizin inkişafında silinməz izlər buraxmış özünəməxsus sənətkarlıq xüsusiyyətləri ilə seçilən nəşrlərdəndir. Bu qəzet qəhrəman Azərbaycan gəncliyinin onlarla nəslinİn ayrılmaz yol yoldaşı olmuş, bu nəsillərin rəşadətli həyatının mətbuat salnaməsinə çevrilmişdir.

Respublikamızda jurnalistika sənətinin inkişafında da "Azərbaycan gəncləri" qəzeti mühüm rol oynamışdır. Sonradan ölkə mətbuatının tanınmış nümayəndələrinə çevrilmiş bir çox gənc, ədəbi-publisistik qüvvələr ilk sənət addımlarını "Azərbaycan gəncləri" qəzetində atmışlar.

Qəzet bu gün də öz ənənələrinə sadiq qalaraq, gənc nəslin tərbiyəsi işində fəaliyyətini davam etdirir. Müstəqil Azərbaycanın ictimai-siyasi həyatının bir çox sahələri qəzetin səhifələrində öz əksini tapır. Amansız təcavüzkara qarşı apardığımız ölüm-dirim müharibəsində Azərbaycan gənclərinin göstərdikləri mərdlik və qəhrəmanlıq, Vətənə alovlu məhəbbət və təmənnasız xidmət hissinin aşılanması qəzetin başlıca mövzularındandır.

İlk nömrəsinin çapdan çıxmasının 75 illiyi münasibətilə "Azərbaycan gəncləri" qəzetinin bütün əməkdaşlarını ürəkdən təbrik edir, sizə cansağlığı, müstəqil Azərbaycanın daha xoş gələcəyi naminə fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram.

**HEYDƏR ƏLİYEV**

*27 oktyabr 1994-cü il* [424-425]

## TÜRKMƏNİSTAN-İRAN-TÜRKİYƏ-AVROPA QAZ KƏMƏRİNİN RƏMZİ AÇILIŞI MƏRASİMİNDƏ ÇIXIŞ

*27 oktyabr 1994-cü il*

Hörmətli xanımlar, cənablar!
Hörmətli dostlar, qardaşlar!

Bu gün biz böyük bir hadisənin şahidiyik. Dünən və bu gün biz qardaş Türkmənistan Respublikasının müstəqilliyinin üçüncü ildönümü mərasimində iştirak etdik. Azərbaycan ilə Türkmənistan arasında dostluq, qardaşlıq əlaqələrinin çoxəsrlik tarixi var. Biz qonşu, dost, bir kökdən olan xalqlar, ölkələr kimi daim dostluq və qardaşlıq etmişik. İndi də Türkmənistanın müstəqilliyinin üçüncü ildönümündə iştirak etmək Azərbaycan nümayəndə heyəti üçün, mənim üçün böyük bir xoşbəxtlikdir. Mən bu münasibətlə Türkmənistan xalqını, türkmənistanlı qardaşlarımızı, bacılarımızı və Türkmənistanın prezidenti hörmətli Saparmurad Türkmənbaşını ürəkdən təbrik edirəm. Onlara gələcək işlərində müvəffəqiyyətlər arzulayıram.

Mən Türkmənistanın bu üç illik müstəqillik dövründə əldə etdiyi nailiyyətləri, prezident, dostum və qardaşım Saparmurad Türkmənbaşının xidmətlərini xüsusi qeyd etmək istəyirəm. Hörmətli prezident Saparmurad Türkmənbaşı ilə biz çox illərdir ki, dostuq, tanışıq. Vaxtilə bir yerdə də işləmişik. İndi də qonşu ölkələrə rəhbərlik edirik. Ona görə dünən də, bu gün də Türkmənistanın son dövrdə (mən əvvəllər də Türkmənistanda olmuşam), xüsusilə müstəqillik qazanandan sonra hörmətli prezident Türkmənbaşının rəhbərliyi altında əldə etdiyi nailiyyətlər məni qəlbən çox sevindirdi. Mən bu nailiyyətlərin hamısında dostum və qardaşım Saparmurad Türkmənbaşının xidmətlərini qeyd edirəm. Əziz qardaşım, səni bu münasibətlə təbrik edirəm.

Mən çox məmnunam ki, bu bayram bizi bir yerə toplayıbdır. Pakistanın baş naziri hörmətli Bənəzir Bhutto, Türkiyənin prezidenti, mənim əziz dostum və qardaşım, hörmətli Süleyman Dəmirəl, İran İslam Respublikasının prezidenti, mənim əziz dostum və qardaşım ağayi Haşimi-Rəfsəncani və mən Saparmurad Türkmənbaşının təşəbbüsü ilə burada, türkmən torpağında toplaşmışıq. Bu, çox böyük bir hadisədir. Bu hadisə münasibətilə də mən məmnun olduğumu bildirmək istəyirəm.

Bugünkü hadisə Türkmənistanın müstəqilliyini bir daha bütün dünyaya nümayiş etdirir. Bilirik ki, keçmişdə Türkmənistanın çoxlu qaz ehtiyatları var idi, ancaq bu ehtiyatları Türkmənistan xalqının icazəsi olmadan [425-426] hara istəyirdilər, ora da göndərilirdi. İndi isə türkmən xalqı, Türkmənistan dövləti öz taleyinin sahibidir, öz sərvətlərinin sahibidir və öz sərvətlərindən özü istədiyi kimi istifadə edir. Bu baxımdan Türkmənistan, İran və Türkiyə arasında əldə olunmuş müqavilə çox böyük bir hadisədir, Türkmənistanın müstəqilliyini dünyaya bir daha göstərir və bu gün biz bu tarixi hadisənin şahidi olduq. Mən burada bir şahid kimi iştirak edirəm və şahid kimi də söz verirəm ki, bu müqavilənin həyata keçirilməsi üçün çalışacağam.

Müsəlman dövlətlərinin – Pakistan, Türkiyə, Türkmənistan, İran və Azərbaycanın rəhbərlərinin burada, Türkmənistan torpağında, qədim türk torpağında toplaşması çox böyük hadisədir. Əziz dostum Süleyman Dəmirəl bu barədə çox gözəl fikirlər söylədi. Mən bu fikirlərlə tamamilə razıyam. Hesab edirəm ki, bu, bizim dostluğumuzun rəmzidir, dostluğumuzu və qardaşlığımızı dünyaya bir daha nümayiş etdirir və Azərbaycan Respublikası bu dostluğa həmişə sadiq olacaqdır.

Azərbaycan Respublikasının qarşısında çox ağır problemlər var. Bilirsiniz, altı ildir ki, Azərbaycan Ermənistan tərifindən hərbi təcavüzə məruz qalmışdır. Torpaqlarımızın bir qismi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuşdur. Azərbaycanda bir milyon 200 mindən artıq qaçqın var. Burada təmsil olunan dövlətlər, yəni Türkiyə, İran, Pakistan, Türkmənistan bu dövrdə həmişə Azərbaycanı dəstəkləyiblər, ölkəmizə kömək ediblər və Azərbaycanı beynəlxalq təşkilatlarda müdafiə ediblər. Əziz dostlar, qardaşlar, fürsətdən istifadə edib mən sizə və sizin ölkələrinizə öz minnətdarlığımı və təşəkkürümü bildirirəm.

Əziz dostlar və qardaşlar, bu mübarək, gözəl hadisə münasibətilə sizi təbrik edirəm. Bütün dost xalqlara xoşbəxtlik, səadət arzulayıram. Türkmənistana müstəqilliyinin davam etməsini arzu edirəm, türkmən xalqına öz hörmət, ehtiramımı bildirirəm və sizi bu bayram münasibətilə, bugünkü tarixi hadisə münasibətilə bir daha təbrik edirəm. Sağ olun, xoşbəxt olun, sizə yaxşı günlər arzulayıram. [426-427]

## AŞQABATDAN BAKIYA YOLA DÜŞƏRKƏN TƏYYARƏDƏ İRAN İSLAM RESPUBLİKASI VƏ TÜRKMƏNİSTAN PREZİDENTLƏRİ İLƏ GÖRÜŞLƏR BARƏDƏ JURNALİSTLƏRƏ MÜSAHİBƏ

*27 oktyabr 1994-cü il*

Bilirsiniz ki, İran İslam Respublikası ilə Azərbaycan Respublikası arasında dostluq və qardaşlıq əlaqələri var. Mənim son dəfə Tehrana rəsmi səfərim vaxtı orada bir çox sənədlər imzalanmışdır. Biz onların həyata keçirilməsi ilə məşğul oluruq. Ancaq eyni zamanda bəzi məsələlər do vardır ki, biz onlar barədə danışmalı və məsləhətləşməli idik. Bugünkü görüşlərimizdə belə danışıqlar, məsləhətləşmələr oldu. İranın neft və qaz sənayesi naziri cənab Ağazadə bir neçə gündən sonra Azərbaycana gələcək, ölkələrimizin neft sahəsində əməkdaşlığı ilə əlaqədar bəzi məsələləri müzakirə edəcəkdir. Biz digər məsələlərə də toxunduq. Ancaq mən bir məsələ üzərində dayanmaq istəyirəm.

Son vaxtlar bəzi qüvvələr Azərbaycan ilə İran arasında münasibətlərə ləkə salmaq, onları pozmaq istəyirlər. Mən hesab edirəm ki, bütün bunlar təxribatçı qüvvələrdir. İran bizim yaxın qonşumuzdur, dost ölkədir, münasibətlərimiz çox yaxşıdır və bundan sonra da yaxşı olmalıdır. Şəxsən mən bir prezident kimi bu vəzifəyə gələndən İran ilə Azərbaycan arasında əvvəllər olan soyuqluğu aradan götürməyə, münasibətlərin inkişaf etdirilməsinə çalışmışam.

Təəssüf ki, Azərbaycanda bəzi qüvvələr, dairələr var, onlar əks istiqamətdə hərəkət edirlər. Bu, Azərbaycan xalqının xeyrinə deyil, zərərinədir. Ədalətli olaraq da bunlar İran ictimaiyyətində, o cümlədən İranın rəhbərliyində narazılıqlar yaradır. Bu barədə bizim bir-iki dəfə söhbətimiz olub. Mən müəyyən göstərişlər vermişəm, ancaq təəssüf ki, buna riayət etmirlər. Mən bu günlərdə Bakıda İran İslam Respublikasının səfirini qəbul edəndə o, bu barədə bəzi narazılıqlarını mənə bildirdi. Dedi ki, guya bu yaxınlarda Azərbaycan televiziyası ilə bir veriliş olub və orada İranla Azərbaycanın əlaqələrinə toxunan, zərər gətirən fikirlər, sözlər söylənilib. Mən bildirmək istəyirəm və güman edirəm ki, bunu televiziya bütün əhaliyə çatdırar, mətbuatda da verərlər. Mən bunları təxribat xarakteri daşıyan hərəkətlər kimi qiymətləndirirəm, bunların tamamilə əleyhinəyəm. Dövlət Teleradio Şirkətinə do bu barədə əlavə göstərişlər verəcəyəm ki, belə hərəkətləri dayandırsınlar. [427-428]

İndiki görüşdə Haşimi-Rəfsəncani dedi ki, oktyabrın 4-də Azərbaycanda dövlət çevrilişi cəhdinin əleyhinə keçirilən mitinqlərdə bu hadisələrin guya İran tərəfindən təşkil edilməsi barədə bəzi sözlər deyilmişdir. Bilmirəm, bu olub, ya olmayıb, ancaq əgər belə danışıqlar olubsa, bunların heç bir əsası yoxdur. Hesab edirəm ki, son vaxtlar respublikamızın daxilində baş verən qarışıqlığın və ayrı-ayrı cinayətkar qüvvələrin dövlət çevrilişi etmək cəhdinin İran İslam Respublikası ilə heç bir əlaqəsi yoxdur və ola bilməz. Ona görə do kim belə bir söz deyibsə, mən bunu təkzib edirəm. Ola bilər ki, deyiblər, deməsələr, bu, İran ictimaiyyətinə çata bilməz.

Haşimi-Rəfsəncani ilə görüşdə bu barədə söhbətimiz oldu. Mən ona bir daha bildirdim ki, bizim dostluq və qardaşlıq əlaqələrimiz bundan sonra da davam edəcəkdir. Həm İranda, həm də Azərbaycanda bizim bu əlaqələrə mane olmaq istəyənlərin qarşısı alınmalıdır və biz öz tərəfimizdən bunun qarşısını almalıyıq. Mən bu sözləri sizin hamınıza çatdırıram. Güman edirəm ki, sizin də hər biriniz təmsil etdiyiniz kütləvi informasiya vasitələri xətti ilə dinləyicilərə, oxuculara, tamaşaçılara çatdıracaqsınız.

İran İslam Respublikasının prezidenti ilə görüşdə iqtisadi əlaqələrimizlə bağlı başqa danışıqlarımız da oldu. Danışıqlarımız dostluq, mehribanlıq və səmimilik şəraitində keçdi. Mən bu görüşdən və danışıqlardan razıyam.

Türkiyənin prezidenti hörmətli Süleyman Dəmirəllə biz son vaxtlar İstanbulda görüşmüşdük. Orada bizim danışıqlarımız olmuşdur. Amma burada yenə də söhbət apardıq, bəzi məsələləri müzakirə etdik. Süleyman Dəmirəl Azərbaycanın hazırkı daxili vəziyyəti ilə maraqlandı. Haşimi-Rəfsencani də çox narahatlığını bildirdi. Mənə dedi ki, oktyabrın 4-də gecə onlar da çox narahatlıq çəkiblər. O, indiki vəziyyətlə də maraqlandı. Mən bildirdim ki, indi sakitlikdir. Bu məsələyə Süleyman Dəmirəl də çox maraq göstərdi. Mən ona da bildirdim ki, indi sakitlikdir. Biz cinayətkar qrupların hərəkətinin qarşısını almışıq. Ancaq onların bəziləri indi qaçıblar, gizləniblər, ya respublikanın ərazisindədirlər, ya da ərazimizdən kənardadırlar. Ola bilər ki, müəyyən bir fəaliyyət göstərmək istəyirlər. Doğrudur, bunu çox da dramatikləşdirmək lazım deyil ki, guya onlar birləşib Azərbaycanda nə isə edə bilərlər, çevriliş edə bilərlər. Yox, bunu edə bilməzlər.

Oktyabrın 4-də xalqın həmrəyliyi göstərdi ki, heç bir qüvvə Azərbaycanda indiki dövlət quruluşunu dağıda bilməz, poza bilməz. Mən buna əminəm. Ancaq cürbəcür məlumatlar xaricə, o cümlədən İrana da gedir, Türkiyəyə də gedir. Ona görə də həm Haşimi-Rəfsəncani, həm də Süleyman Dəmirəl bu məsələlərlə maraqlanırdılar, mən də onlara bu barədə məlumatlar verdim. Süleyman Dəmirəl respublikamıza əsl dost, qardaş münasibəti göstərərək yenə də bildirdi ki, sayıq olmaq lazımdır, daxili sabitliyi qorumaq lazımdır. Mən

ona dedim ki, sabitliyi saxlayırıq və bundan sonra da saxlayacağıq. Kim də bu sabitliyi pozmaq istəsə, biz onun qarşısını alacağıq. [428-429]

Süleyman Dəmirəllə iqtisadi əlaqələr barədə də danışıqlarımız, söhbətlərimiz oldu. Həmişəki kimi, indi də söhbətlərimiz dostluq, mehribanlıq, səmimilik şəraitində keçdi. Bu yaxın vaxtlarda, Füzulinin 500 illiyi ilə əlaqədar bizim ora səfərimiz olacaqdır. Danışıqlarımız yenə davam edəcəkdir.

Pakistanın baş naziri Bənəzir Bhutto ilə mənim ikinci görüşüm oldu. Birinci görüşüm sentyabrın əvvəlində Qahirədə olmuşdur. Ölkələrimiz arasındakı əlaqələri inkişaf etdirmək üçün böyük imkanlar var. Bu imkanlardan hər iki tərəf istifadə etmək istəyir. Bənəzir Bhuttoya da Azərbaycandakı vəziyyət barədə məlumat verdim. O da vəziyyətlə çox maraqlanırdı. Mən Pakistanla Azərbaycan arasında müqavilələrin layihəsinin olduğunu bildirdim. Dedim ki, biz bu layihələri hazırlamışıq. Əgər Bənəzir Bhuttonun Azərbaycana rəsmi səfəri olarsa, biz onları imzalaya bilərik. Ümumiyyətlə, bizim Pakistanla münasibətlərimiz çox yaxşıdır. Onlar beynəlxalq təşkilatlarda bizi müdafiə edirlər. Biz də Pakistanı müdafiə edirik. Onların da Kəşmirlə əlaqədar problemləri var. Belə sözləşdik ki, o, iqtisadi-ticarət əlaqələri ilə bağlı yaxın vaxtlarda Azərbaycana böyük bir nümayəndə heyəti göndərəcək. Nümayəndə heyəti həmin məsələlərə Azərbaycanda bizimlə birlikdə baxacaq, araşdıracaq. Bundan sonra Bənəzir Bhuttonun Azərbaycana rəsmi səfəri barədə danışıqlar aparılacaqdır.

Mən hesab edirəm ki, bizim bu görüşümüz də çox səmərəli oldu, dostluq, mehribanlıq, səmimilik şəraitində keçdi. Bu da əlaqələrimizin inkişafına kömək edəcəkdir.

Biz Türkmənistanın müstəqilliyinin üç illiyi bayramında iştirak etdik. Mən Türkmənistanın əldə etdiyi nailiyyətləri dostluq və məmnuniyyət hissi ilə gördüm, onların şahidi oldum. Türkmənistanın prezidenti Saparmurad Niyazov – Türkmənbaşı ilə, Ali Məclisin sədri ilə (o məni daim müşayiət edirdi) söhbətlərimdə do mən hiss etdim ki, Türkmənistan iqtisadiyyat sahəsində yaxşı nailiyyətlər əldə edib. Ölkənin iqtisadiyyatı yaxşı səviyyədədir. Onlar xarici ölkələrin investisiyalarından, kreditlərindən çox səmərəli istifadə ediblər, ölkədə sabitlikdir. Özəlləşdirmə məsələsi ilə, xüsusən torpaqların şəxsi mülkiyyətə verilməsi ilə məşğuldurlar. Məsələn, prezidentin özü 50 hektar torpaq götürüb və ondan şəxsi mülkiyyət kimi istifadə edir. Məclisin sədri də 50 hektar torpaq sahəsi götürüb və hamıya da torpaq sahəsi verirlər. Bu, çox yaxşı haldır. Ancaq onların iqtisadi nailiyyətləri yalnız bundan ibarət deyil. Başqa sahələrdə do çox işlər görürlər. Mən hesab edirəm ki, onlarda ümumi daxili, ictimai-siyasi vəziyyət yaxşıdır, sabitdir.

Bizimlə əlaqələri inkişaf etdirmək barədə Saparmurad Niyazovla geniş söhbətlər apardıq. Respublikamıza münasibətləri çox müsbətdir, mehriban əlaqələrimiz var və bunları inkişaf etdirəcəyik. Mən şəxsən bu bayram mərasiminə gəlməyimdən çox məmnunam. Bir dost, qardaş ölkə kimi Türkmənistanın əldə etdiyi nailiyyətlərə mən də sevinirəm.

Güman edirəm ki, gələcəkdə əməkdaşlığımız üçün çox böyük imkan[429-430]lar var və Saparmurad Niyazovla danışdıq ki, bu imkanlardan hər iki tərəf istifadə etməyə çalışacaqdır. Saparmurad Niyazov Azərbaycana taxıl verilməsi məsələsinə də kömək göstərəcəyinə söz verdi.

Guya həm Rusiyanın, həm də İranın Azərbaycan Dövlət Neft Şirkətinin xarici neft şirkətləri konsorsiumu ilə bağladığı müqavilənin əleyhinə olması barədə Rusiya mətbuatında dərc edilən yazılarla əlaqədar jurnalistlərin sualına cavab verən Azərbaycan prezidenti bildirdi ki, Haşimi-Rəfsəncani bu fikirləri təkzib edib və deyir ki, biz Rusiya ilə belə söhbətlər aparmamışıq. Biz sadəcə olaraq (bu, bir il bundan əvvəl başlanmış prosesdir) Xəzər dənizində əməkdaşlıq etmək üçün görüşlərin lüzumluluğunun tərəfdarı olmuşuq və ona görə də belə bir görüşün keçirilməsini istəmişik. Ancaq bu, sizin müqavilənin bağlanmasından sonrakı vaxta düşüb. Rusiya mətbuatı da belə məlumatlar, verib. Onlar doğru məlumat verməyiblər. Haşimi-Rofsəncani bu məlumatları təkzib edir və İran bağladığımız müqavilənin qətiyyən əleyhinə deyildir. [430-431]

**TÜRKİYƏ RESPUBLİKASININ**
**PREZİDENTİ ƏLAHƏZRƏT**
**SÜLEYMAN DƏMİRƏL CƏNABLARINA**

Əziz və hörmətli Süleyman bəy!

Türkiyə Respublikasının milli bayramı – Respublikanın elan olunması günü münasibətilə Sizi və bütün dost Türkiyə xalqını Azərbaycan xalqı adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edirəm.

Zati-aliləri, azərbaycanlıların qəlbində Türkiyənin xüsusi yeri var. Əminəm ki, ölkələrimiz arasında dostluq və sıx əməkdaşlıq əlaqələri xalqlarımızın tərəqqisi işinə xidmət edəcək, onların hər ikisi üçün faydalı olacaqdır.

Bu əzəmətli bayram günündə bütün dost Türkiyə xalqına bir daha səmimi-qəlbdən dinclik, firavanlıq, tərəqqi arzulayıram.

Sizi qucaqlayır və öpürəm.

Hörmətlə,

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*28 oktyabr 1994-cü il* [431-432]

## TÜRKİYƏ RESPUBLİKASININ İSTİQLALİYYƏT QAZANMASININ 71-ci İLDÖNÜMÜ MÜNASİBƏTİLƏ TÜRKİYƏNİN AZƏRBAYCANDAKI SƏFİRLİYİNİN TƏŞKİL ETDİYİ MƏRASİMDƏ ÇIXIŞ

*29 oktyabr 1994-cü il*

*Gülüstan sarayı*

Hörmətli xanımlar və cənablar!

Bu gün biz Türkiyə Respublikasının 71-ci ildönümünü bayram edirik. Bu, Türkiyə xalqının bayramıdır, eyni zamanda Azərbaycan xalqının bayramıdır. Biz əsrlərdən əsrlərə davam edən dostluğu, qardaşlığı bu günlərədək gətirib çıxarmışıq. Xalqlarımızın aqibəti, tarixi kökləri, adət-ənənələri bir olub, dini, dili birdir. Bunlar hamısı bizim xalqları həmişə bir-birinə dost, qardaş edib, bir-birinə yaxın edibdir.

Son üç il ərzində dostluğumuzun, qardaşlığımızın yeni mərhələsi başlanmışdır. Uç il bundan əvvəl Azərbaycan Respublikası öz dövlət müstəqilliyini əldə etmişdir. Bu gün böyük məmnuniyyət hissi ilə qeyd edə bilərəm ki, dünya dövlətlərindən Azərbaycanın müstəqilliyini birinci olaraq Türkiyə Respublikası tanıyıbdır.

Türkiyə Respublikası Azərbaycanın müstəqilliyini tanıyaraq, eyni zamanda dünyada öz nüfuzundan, təsirindən istifadə edərək respublikamızın mövqeyinin müdafiə olunmasında mühüm rol oynamışdır. İki qardaş ölkənin dostluq, qardaşlıq əlaqələri bizi daha da yaxınlaşdırmış, daha da birləşdirmişdir. Respublikamızın bu ağır şəraitində, Azərbaycanın müharibə içərisində olduğu, iqtisadi-siyasi böhran keçirdiyi bir dövrdə şübhəsiz ki, Dünya Birliyinin köməyinə, həmrəyliyinə ehtiyacımız var. Bizim səsimizə səs verənlər arasında Türkiyə Respublikasının səsi həmişə daha yüksəklərə qalxır, daha güclü olur və bunlar hamısı bizim dostluğumuzun, qardaşlığımızın rəmzidir, əlamətidir.

Bunların hamısına görə də bugünkü bayramı biz öz bayramımız hesab edirik. Bu həm Türkiyə Respublikasının bayramıdır, həm də Azərbaycan Respublikasının bayramıdır. Biz bu bayramı qeyd edərkən Türkiyə Respublikasının banisi, böyük insan Mustafa Kamal Atatürkün xidmətlərini yad edirik, onunla bərabər Türkiyə Respublikasını yaradanları yad edirik və 71 il müddətində Atatürkün qoyduğu yol ilə gedənləri yad edirik.

Böyük məmnuniyyət hissi ilə qeyd etmək olar ki, bu gün Türkiyə Dünya Birliyində görkəmli yer tutur. Böyük bir dövlət, demokratik prinsiplər əsasında yaşayan bir dövlət, Dünya Birliyində böyük nüfuza malik olan bir dövlətdir və bunlar hamısı 71 il ərzində Türkiyə Respublikasının [432-433] əldə etdiyi nailiyyətlərdir. Türkiyə Respublikası 71 il içərisində həm siyasi cəhətdən, həm ictimai cəhətdən, həm də iqtisadi cəhətdən böyük nailiyyətlər əldə etmişdir. Türklərin, türk xalqlarının nəyə qadir olduğunu dünyaya bir daha sübut edib, nümayiş etdirib. Bunlar hamısı bizi qəlbən sevindirir. Çünki biz indi üç ildir ki, müstəqillik yoluna qədəm qoymuşuq. Müstəqillik yolu ilə gedərkən Türkiyənin təcrübəsindən, 71 il ərzində respublika qurmaq, demokratik cəmiyyət yaratmaq, hüquqi dövlət qurmaq yolunda Türkiyənin əldə etdiyi nailiyyətlərdən və təcrübədən istifadə edirik və bundan sonra da istifadə edəcəyik.

Bizim dostluq və qardaşlıq əlaqələrimiz möhkəmdir, qırılmazdır, əbədidir. Bu bayram günü bir daha bəyan etmək istəyirəm ki, Azərbaycan xalqı bu dostluğa daim sadiq olacaq, dostluğumuzun əbədi olmasına bundan sonra da çalışacaq və öz xidmətlərini göstərəcəkdir.

Bu bayram günü mən buradan, Azərbaycanın paytaxtı Bakıdan Türkiyənin hər bir guşəsinə Azərbaycan xalqının salamlarını, təbriklərini bir daha çatdırmaq istəyirəm. Türk xalqını, Türkiyə Respublikasının rəhbərlərini ürəkdən təbrik edirəm. Bura toplaşan türk qardaşlarımızı ürəkdən təbrik edirəm və burada iştirak edənlərin hamısını təbrik edirəm. Çünki, bir də qeyd edirəm, bu, bizim ümumi bayramımızdır. Ona görə də bu bayramı yüksək əhval-ruhiyyə ilə qarşılamışıq və öz bayramımız kimi qeyd edirik.

Bu gözəl bayram münasibətilə sizin hamınızı bir daha ürəkdən təbrik edirəm. Türkiyə xalqına uğurlar diləyirəm. Hər bir türk vətəndaşına səadət, xoşbəxtlik arzulayıram və ümidvaram ki, Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında olan dostluq, qardaşlıq əlaqələri bundan sonra da genişlənəcək, möhkəmlənəcək və inkişaf edəcəkdir.

Bayramınız mübarək olsun! Sağ olun. [433-434]

## BMT-nin BAŞ KATİBİ BUTROS BUTROS-QALİNİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ ZAMANI BAKIDA BİNƏ HAVA LİMANINDA QARŞILANMASI MƏRASİMİNDƏ ÇIXIŞ

*29 oktyabr 1994-cü il*

Birləşmiş Millətlər Təşkilatının Baş katibi doktor Butros Butros-Qali cənablarını Azərbaycan torpağında səmimi-qəlbdən salamlayıram. Bir neçə gün bundan öncə Azərbaycan Respublikası öz dövlət müstəqilliyinin üçüncü ildönümünü qeyd etdi. Uç il ərzində Azərbaycan Respublikası Dünya Birliyinə daxil olmuşdur, Birləşmiş Millətlər Təşkilatının üzvüdür və BMT-nin Baş katibi cənab Butros ButrosQali ilk dəfədir Azərbaycan torpağına səfər edir. Biz cənab Butros Butros-Qalinin Azərbaycana səfərini yüksək qiymətləndiririk və bu səfərə çox ümidlər bəsləyirik.

Azərbaycan Respublikasının indiki ağır vəziyyəti, müharibə şəraitində olması, respublikada bir milyondan çox qaçqının olması, başqa problemlər dünyanın nəzər-diqqətini Azərbaycana cəlb edir. Biz Birləşmiş Millətlər Təşkilatının və onun Baş katibi Butros Butros-Qalinin bu məsələlərə diqqət yetirdiklərini həmişə hiss edirik. Ümidvaram ki, burada keçiriləcək görüşlərdə və aparılacaq danışıqlarda Azərbaycanın müstəqilliyini möhkəmlətmək, onun qarşısında duran məsələlər barəsində ətraflı söhbətlər gedəcəkdir və Birləşmiş Millətlər Təşkilatının Baş katibi cənab Butros Butros-Qali bu məsələlərə böyük diqqət yetirəcəkdir.

Hörmətli dostumuz cənab Butros Butros-Qali, Azərbaycan torpağına, Azərbaycan Respublikasına xoş gəlmisiniz. Bura sizin üçün doğma torpaq, doğma bir yerdir və burada hər bir vətəndaş, hər bir ailə sizin bu gəlişinizi alqışlayır, sizə mehribanlıq və qonaqpərvərlik hissləri göstərməyə hazırdır. [434-435]

## PREZİDENT SARAYINDA BMT-nin BAŞ KATİBİ BUTROS BUTROS-QALİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

*30 oktyabr 1994-cü il*

Hörmətli Baş katib, cənab doktor Butros Butros-Qali!

Mən sizi Azərbaycan Respublikasında, Azərbaycan torpağında bir daha səmimi-qəlbdən salamlayıram. Azərbaycan Respublikasına göstərdiyiniz maraq, diqqət üçün və respublikamıza etdiyiniz səfər üçün sizə təşəkkürümü bildirirəm.

Müstəqil Azərbaycan Respublikası üç il bundan qabaq yaranmışdır, Birləşmiş Millətlər Təşkilatının üzvüdür. BMT Baş katibinin Azərbaycana səfəri Azərbaycan Respublikasının qarşısında duran problemlərin həll edilməsi üçün şübhəsiz ki, çox əhəmiyyətli olmalıdır. Biz, respublikamızın ictimaiyyəti buna çox böyük ümidlər bəsləyirik.

Məlumdur ki, Birləşmiş Millətlər Təşkilatı Azərbaycanın problemləri ilə daim məşğul olur. Azərbaycan Respublikası altı ildən artıqdır ki, Ermənistan tərəfindən hərbi təcavüzə məruz qalmışdır. Azərbaycan Respublikası müstəqilliyini əldə edən gündən indiyədək, üç ildir ki, BMT və onun Təhlükəsizlik Şurası bu problemin həlli ilə daim məşğul olur. Bu sahədə çox iş görülmüşdür. BMT, onun Təhlükəsizlik Şurası və cənab Baş katib bu sahədə çox fəaliyyət göstərmişlər. Görülən bu işlərə görə, qəbul olunan qərarlara görə mən Azərbaycan Respublikası adından, cənab Butros Qali, sizə təşəkkürümü bildirirəm.

Azərbaycan Respublikası müstəqilliyini yeni əldə etmiş bir dövlət kimi bir çox problemlərlə qarşılaşmışdır. Yaxın keçmişdə Sovetlər İttifaqının tərkibində olan və indi müstəqilliyini əldə edən digər respublikalar kimi, Azərbaycan da keçid dövrünü yaşayır. Bu üç il müddətində biz çalışmışıq ki, Azərbaycanın müstəqilliyini təmin edək, möhkəmləndirək, digər tərəfdən, respublikamızı yeni yol ilə, demokratik yol ilə aparaq. Uzun illər Sovetlər İttifaqının tərkibində olan, sosialist, kommunist ideologiyasının təsiri altında yaşayan Azərbaycan xalqı, Azərbaycan Respublikası artıq indi bu prinsiplərdən imtina etmişdir. Azərbaycanda müstəqil dövlət quruculuğu prosesi gedir. Bizim məqsədimiz Azərbaycanda hüquqi demokratik dövlət qurmaq, sivilizasiyalı, hüquqi cəmiyyət yaratmaqdır.

Azərbaycanın iqtisadiyyatında böyük dəyişikliklər etmək nəzərdə tutulur. Respublikamız öz iqtisadiyyatını bazar iqtisadiyyatı prinsipləri əsasında inkişaf etdirməyə başlamışdır. İqtisadi islahatlar aparmaq, sərbəst iqtisadiyyata yol açmaq, təşəbbüskarlığa, sahibkarlığa imkanlar yaratmaq iqtisadiyyat sahəsində əsas yolumuzdur. Bu məqsəd üçün biz iqtisadiyyat[435-436]da özəlləşdirmə prinsiplərini həyata keçirməyə başlamışıq. Bir sözlə, Azərbaycan iqtisadi sahədə sərbəst iqtisadiyyat yolu ilə gedir, gedəcəkdir və dünya iqtisadiyyatı ilə əlaqələr qurmaq, inteqrasiyaya girmək, dünya iqtisadi birliyinə daxil olmaq əzmindədir.

Keçid dövrü Azərbaycanın daxili həyatında şübhəsiz ki, böyük problemlər, çətinliklər yaratmışdır. Bir ictimai, iqtisadi, siyasi sistemdən digərinə keçmək şübhəsiz ki, həm müəyyən vaxt, həm də çox ciddi addımlar atmağı tələb edir. Ancaq bizim üçün nə qədər çətin olsa da, biz bu yolla gedirik və gedəcəyik. Azərbaycanın müstəqilliyini də məhz bu yolla təmin etmək istəyirik.

Azərbaycan Respublikası hazırda sosial-iqtisadi böhran içərisindədir. Dediyim kimi, bunlar bir tərəfdən keçid dövrü ilə, digər tərəfdən Azərbaycanın ötən altı ildə müharibə şəraitində olması ilə əlaqədardır. Ancaq bütün bu çətinliklərə baxmayaraq, Azərbaycan öz müstəqilliyini bundan sonra da inkişaf etdirmək yolu ilə gedir. Azərbaycan xalqı uzun illər, əsrlər boyu milli azadlıq, dövlət istiqlaliyyəti arzusu ilə yaşayıbdır. Azərbaycanın dövlət müstəqilliyi qazanması xalqımız üçün tarixi hadisədir. Bizim məqsədimiz, yolumuz müstəqilliyimizi daim qoruyub saxlamaqdır və əminəm ki, biz bu yolda uğurlar əldə edəcəyik.

Azərbaycanın xarici siyasəti bütün ölkələrlə bərabər hüquqlu əlaqələr yaratmaqdan ibarətdir. Mən sentyabrın 29-da BMT Baş Məclisinin sessiyasında çıxış edərkən bu barədə Azərbaycanın mövqeyini bildirdim.

Bir daha demək istəyirəm ki, üç illik müstəqillik dövründə, xüsusilə son bir ildə Azərbaycan bu sahədə ciddi addımlar atmış və bir çox ölkələrlə qarşılıqlı surətdə faydalı, səmərəli əlaqələr yaratmışdır. Azərbaycan bu yolla gedərək bütün dünyaya özünü açıq bir ölkə kimi elan etmişdir. Biz Azərbaycana investisiyalar qoymaq, respublikamızla müştərək işlər görmək barədə bütün Dünya Birliyinə, beynəlxalq təşkilatlara, bu işlə maraqlanan şirkətlərə və firmalara müraciət edirik, əlaqələr yaradırıq.

Bu il sentyabrın 20-də Azərbaycan Respublikasının Xəzər dənizində olan neft yataqlarından xarici ölkələrin nüfuzlu neft şirkətləri ilə müştərək istifadə olunması üçün böyük bir müqavilə imzalanmışdır. Biz bundan sonra da Azərbaycana xarici ölkələr, şirkətlər, firmalar tərəfindən investisiyalar qoyulması üçün imkanlar yaradacağıq. Bir sözlə, Azərbaycan müstəqil dövlət kimi Dünya Birliyində, Birləşmiş Millətlər Təşkilatında öz layiqli yerini tutmağa çalışır.

Ancaq siz bilirsiniz ki, respublikamız üçün ən ağır, ən çətin, ən mühüm məsələ Azərbaycana qarşı olan hərbi təcavüzün qarşısının alınması məsələsidir. Mən qeyd etdim ki, BMT, onun Təhlükəsizlik Şurası və cənab Baş katib, şəxsən siz bu işlə daim məşğul olursunuz və bu məsələlər sizə məlumdur. Mən hesab edirəm ki, bu görüş zamanı bizim söhbətlərimizin əksər hissəsi bu məsələyə həsr olunmalıdır. Məlumdur ki, sizin bu səfəriniz də müəyyən mənada həmin məsələlərlə bağlıdır. Siz Azərbaycandan sonra Gürcüstanda, Ermənistanda olacaqsınız. Deməк, bizim regionda olan vəziyyət sizi maraqlandırır və biz də çox maraqlı[436-437]yıq ki, regionumuzda sülh, əmin-amanlıq yaradılmasında sizin imkanlarınızdan istifadə edək.

Qeyd etdim ki, altı illik bu müharibə nəticəsində Ermənistan silahlı qüvvələri Azərbaycan Respublikası ərazisinin yüzdə iyirmi faizini işğal etmişlər. İşğal olunmuş torpaqlar həm Azərbaycanın daxilində olan Dağlıq Qarabağın ərazisidir, həm də Dağlıq Qarabağın ətrafında olan yeddi rayonun ərazisidir. İşğal olunmuş rayonlardan bir milyondan artıq Azərbaycan vətəndaşı qaçqın düşmüşdür. Onlar çox ağır vəziyyətdədirlər, əksəriyyəti çadırlarda yaşayır və çadırlarda olmayanların da yaşadıqları yerlərdə minimum şəraitləri yoxdur. Bunlar hamısı Azərbaycan Respublikasında həm iqtisadi-sosial vəziyyəti, həm də ictimai-siyasi vəziyyəti həddindən artıq gərginləşdirir.

Siz bunu bilirsiniz və bir daha qeyd etmək istəyirəm ki, müharibəni Azərbaycan başlamayıbdır. Azərbaycan sadəcə olaraq müharibəyə cəlb olunmuşdur. Azərbaycanın torpağı, ərazisi olan Dağlıq Qarabağı ələ keçirmək üçün Ermənistan altı il bundan əvvəl bu təcavüzə başlamışdır. Təəssüf ki, Azərbaycana aid olan səbəblərə görə də və daha çox – Ermənistana ayrı-ayrı qüvvələr tərəfindən göstərilən yardım nəticəsində Ermənistan Azərbaycan torpaqlarının bir qismini işğal etməyə nail olmuşdur.

Bu müharibə nəticəsində Azərbaycan 20 mindən artıq vətəndaşını itirmişdir, onlar həlak olublar. Yüz mindən artıq Azərbaycan vətəndaşı yaralanıb, əlil olmuşdur. İşğal olunmuş torpaqlarımızda yaşayış binaları, zavodlar, fabriklər, sosial obyektlər yandırılıb, dağıdılıb. Beləliklə, bu müharibə Azərbaycan xalqına, Azərbaycan Respublikasına həm mənəvi, həm də çox böyük maddi zərər vurmuşdur. Bunların hamısına baxmayaraq, Azərbaycan sülhsevər mövqedədir, bu məsələlərin sülh yolu ilə həll olunmasına çalışır. Ancaq bizim atdığımız sülhsevər addımlar hələ indiyədək öz nəticələrini verməmişdir.

Sizə məlumdur ki, Ermənistanın Azərbaycana təcavüzü ilə əlaqədar məsələ Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasında dəfələrlə müzakirə olunmuşdur. Təhlükəsizlik Şurası bu məsələlərlə əlaqədar dörd qətnamə qəbul etmişdir. 1993-cü ilin aprelində Kəlbəcər rayonunun işğalı ilə əlaqədar 822-ci qətnamə qəbul edilib, bundan sonra Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı rayonlarının işğalı ilə əlaqədar 874, 884 nömrəli qətnamələr qəbul olunmuşdur. BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi bu qətnamələrin hamısında tələb olunmuşdur ki, erməni silahlı qüvvələri heç bir şərt qoymadan, şərtsiz olaraq, işğal edilmiş torpaqlardan çıxmalıdır və həmin torpaqlar azad olunmalıdır.

Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisində işğalçılıq hərəkətləri ilə bağlı olaraq bu qətnamələrdən başqa, Təhlükəsizlik Şurası sədrinin altı dəfə bəyanatı olmuşdur. Cənab Baş katib, şəxsən sizin özünüz də bu məsələlərlə əlaqədar bir neçə dəfə ciddi bəyanatlar vermisiniz. Ancaq təəssüf ki, bu qətnamələrin və bəyanatların heç birisi [437-438] həyata keçirilməyibdir. Ermənistan tərəfi BMT Təhlükəsizlik Şurasının, ümumiyyətlə, BMT-nin qərarlarına tabe olmayıbdır və indiyə qədər də tabe olmur. Təəssüf ki, onların beynəlxalq normaları pozması və bu normalara tabe olmaması indiyədək cəzasız qalmışdır.

Məsələlərin sülh yolu ilə həll olunması üçün biz həm BMT ilə, həm də ATƏM təşkilatı ilə çox sıx əməkdaşlıq edirik. ATƏM təşkilatının çərçivəsində bu münaqişə ilə əlaqədar olaraq xüsusi Minsk qrupu yaradılmışdır. Azərbaycan Respublikası Minsk qrupu ilə, ATƏM təşkilatı ilə daim əməkdaşlıq edir və Minsk qrupunun bu sahədə ciddi fəaliyyət göstərməsi üçün biz öz tərəfimizdən bütün şəraiti yaratmağa çalışmışıq.

Son illər bir neçə dövlət də müstəqil olaraq bu məsələlərin həll olunması üçün təşəbbüslər göstərmişdir. Amerika Birləşmiş Ştatları, Rusiya, Türkiyə dövlətləri belə təşəbbüslər etmişdir. Biz bu təşəbbüslərdən də istifadə etməyə çalışmışıq.

Son vaxtlar Rusiya öz təşəbbüsü ilə bağlı çox fəaliyyət göstərir, bizim məsələlərin həll olunmasında vasitəçilik rolu oynamağa və bu sahədə ciddi səy göstərməyə çalışır. Biz Rusiyanın bu vasitəçilik fəaliyyətindən də səmərəli istifadə etməyə çalışmışıq və çalışırıq. Çünki bizim məqsədimiz məsələni yalnız və yalnız sülh yolu ilə həll etməkdir. Ona görə də bu məsələni ədalətli, faydalı həll etmək təşəbbüsündə olan ölkənin fəaliyyətini qəbul edirik.

Sizə məlumdur ki, Minsk qrupunun, Rusiyanın vasitəçiliyi ilə, Ermənistan ilə Azərbaycan arasında bilavasitə aparılan danışıqlar nəticəsində beş aydan çoxdur ki, atəş dayandırılmışdır. Biz bunu mühüm bir nailiyyət hesab edirik. Ancaq eyni zamanda bu atəşkəs dövründən böyük bir sülhün yaranması üçün səmərəli istifadə etməyə çalışırıq. Bu sahədə həm Minsk qrupu ilə, həm də Rusiya ilə əməkdaşlıq edirik. Bizim məqsədimiz böyük sülh yaratmaqdır, müharibəyə tamamilə son qoymaqdan ibarətdir.

Şübhəsiz ki, burada bizim öz şərtlərimiz var. Şərtlər də ondan ibarətdir ki, böyük sülh yaratmaq və müharibəyə tamamilə son qoymaq üçün Ermənistan işğalçı hərbi hissələri Azərbaycan torpaqlarından çıxmalıdır. Məsələni bu cür qoyarkən biz belə hesab edirik ki, birinci mərhələdə erməni silahlı qüvvələri Azərbaycanın işğal olunmuş rayonlarından, o cümlədən Laçın və Şuşa rayonlarından çıxmalıdır. Dağlıq

Qarabağ haqqında məsələ ikinci mərhələdə həll olunmalıdır. İşğal olunan ərazilər azad edilərkən qaçqınlar öz yerlərinə qayıtmalıdır. Əgər biz buna nail ola biləriksə, o cümlədən Laçın və Şuşa rayonları da daxil olmaq şərti ilə, bundan sonra danışıqların ikinci mərhələsində Dağlıq Qarabağın statusunu müzakirə etmək olar və biz bu sahədə də müəyyən addımlar ata bilərik.

Biz bu təklifləri edərkən şübhəsiz ki, Dağlıq Qarabağda yaşayan ermənilərin təhlükəsizliyinin təmin olunmasını da nəzərdə tuturuq. Aydındır ki, öz yerlərinə qayıda bilən qaçqınların hamısı qayıtmalıdır, Azərbaycan vətəndaşlarının hamısının təhlükəsizliyi təmin olunmalıdır. Dağlıq Qarabağda olan demoqrafik mənzərə bərpa edilməlidir. Çünki [438-439] Dağlıq Qarabağda ermənilərlə yanaşı azərbaycanlılar da yaşamışlar. Onlar da öz yerlərinə qayıtmalıdır. Şübhəsiz ki, altı il gedən müharibə nəticəsində qarşılıqlı inamsızlıq, ziddiyyətlər yaranmışdır. Ona görə də bu məsələlər mərhələ-mərhələ həll olunmalıdır.

Bütün bunların nəticəsində Azərbaycan Respublikasının ərazi bütövlüyü, ölkəmizin sərhədlərinin toxunulmazlığı təmin edilməlidir. Azərbaycan Respublikası müstəqil, suveren respublika kimi öz ərazisinin, öz sərhədlərinin sahibi olmalıdır. Biz ümidvarıq ki, bu məsələlərin həll olunmasında BMT, Təhlükəsizlik Şurası, xüsusən cənab Baş katib, siz bundan sonra bir çox işlər görə bilərsiniz. Bu məsələlərin həlli ATƏM təşkilatı ilə bağlı olduğuna görə və ATƏM-in tərkibində bu məsələlərin həlli üçün, xüsusi Minsk qrupu yarandığı üçün biz bu məsələlərin ATƏM çərçivəsində, Minsk qrupu vasitəsilə həll edilməsinə üstünlük veririk.

Rusiyanın vasitəçilik səylərini yüksək qiymətləndirərək və onun bizim regionda imkanlarının olduğunu nəzərə alaraq biz ATƏM təşkilatı Minsk qrupunun Rusiya ilə əməkdaşlığının da tərəfdarıyıq. Hesab edirik ki, bu əməkdaşlıq bizim regionda olan məsələlərin səmərəli həllinə yönəldilməlidir.

Şübhəsiz ki, bütün dünyada gedən proseslər üçün ən yüksək zirvə, ən yüksək təşkilat Birləşmiş Millətlər Təşkilatıdır. 49 ildən bəri fəaliyyət göstərən BMT dünyanın hər yerində, bir sıra regionlarında çox səmərəli fəaliyyət göstərmişdir. Mən ümidvar olduğumu bildirmək istəyirəm ki, BMT-nin 50-ci ildönümünə qədər Birləşmiş Millətlər Təşkilatı bütün imkanlarından istifadə edərək bizim regionda olan məsələləri də həll etməyə qadirdir.

Cənab Baş katib Butros Qali, biz və bütün Azərbaycan xalqı sizi böyük bir diplomat, dünya siyasətində böyük xidmətləri olan bir şəxs kimi tanıyırıq. Dünyada sülhün, əmin-amanlığın bərqərar olması üçün sizin gördüyünüz işlər məlumdur və Azərbaycan xalqı da bunu yüksək qiymətləndirir. Mən ümidvar olduğumu bildirmək istəyirəm ki, siz öz şəxsi nüfuzunuzdan, hörmətinizdən, imkanlarınızdan istifadə edərək Azərbaycanın bu ağır vəziyyətdən çıxmasına yardım edəcəksiniz. Biz sizi bu arzularla, bu fikirlərlə gözləyirdik və mən sizinlə danışıqlara da bu arzularla başlayıram. [439-440]

## BMT-nin BAŞ KATİBİ BUTROS BUTROS-QALİ İLƏ DANIŞIQLAR BAŞA ÇATDIQDAN SONRA BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANAT

*30 oktyabr 1994-cü il*

Birləşmiş Millətlər Təşkilatının Baş katibi cənab Butros Butros-Qali ilə çox səmərəli danışıqlar apardıq. İndi isə sizinlə görüşə gəlmişik.

Mən görüşümüz və apardığımız danışıqlar barədə cənab doktor Butros Butros-Qalinin verdiyi məlumatla tamamilə razıyam. Bir daha bildirmək istəyirəm ki, danışıqlarımız çox mehribanlıq və səmimilik şəraitində keçmişdir.

Danışıqlarımızın əsas mövzusu Azərbaycanın müharibə vəziyyətindən çıxması və Ermənistanın təcavüzündən xilas olması məsələsi idi. Mən bu barədə cənab Butros Butros-Qaliyə ətraflı məlumat verdim, bizim mövqeyimizi bir daha bəyan etdim.

Mən çox məmnunam ki, cənab Butros Butros-Qali Ermənistanın Azərbaycana qarşı təcavüzünün qarşısının alınması üçün dörd əsas prinsipi* bu gün bir daha bəyan etdi. Biz məhz bu dörd prinsip əsasında Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməsini tələb edirik. Azərbaycanın işğal olunmuş ərazilərindən Ermənistan silahlı qüvvələrinin qeyd-şərtsiz çıxmasını, qaçqın vəziyyətində yaşayan bir milyondan artıq vətəndaşımızın həmin torpaqlar azad edilən kimi öz yurd-yuvalarına qayıtmasını tələb edirik. Cənab doktor Butros Butros-Qali bizim bu problemlərimizə çox böyük diqqət və maraq göstərdi. Bizim danışıqlarımız, apardığımız fikir mübadiləsi mənə belə deməyə əsas verir ki, cənab doktor Butros Butros-Qali Ermənistanda olarkən bu məsələlərin həllinə səy göstərəcəkdir.

Mən Birləşmiş Millətlər Təşkilatına və onun Baş katibinə Azərbaycan xalqı, Azərbaycan Respublikası adından bir daha hörmət və ehtiramımı bildirirəm: bir daha qeyd edirəm ki, Azərbaycan xalqı, respublikamızın vətəndaşları bu ağır vəziyyətdən çıxmaq üçün Birləşmiş Millallor Təşkilatına, onun Təhlükəsizlik Şurasına və BMT-nin Baş katibi cənab doktor Butros Butros-Qaliyə çox böyük ümid bəsləyirlər. Azərbaycan Respublikasına göstərilən bu qayğıya görə təşəkkürümü bildirirəm və ümidvaram [440-441] ki, respublikamızın bu ağır iqtisadi vəziyyətdən çıxması üçün, cənab Butros Butros-Qalinin qeyd etdiyi kimi, Birləşmiş Millətlər Təşkilatının imkanlarından istifadə olunacaq və Azərbaycana, xüsusən qaçqınlara maddi yardım göstəriləcəkdir. Cənab Butros Butros-Qali, Sizə bir daha təşəkkür edirəm.

**Sual: Danışıqlar zamanı Azərbaycanın ağır iqtisadi vəziyyətdən çıxmasına yardım göstərilməsi barədə də fikir mübadiləsi olmuşdur. Mənim sualım cənab Butros Butros-Qaliyədir. Dünyanın hər hansı bir ölkəsində Azərbaycan Dövlət Teleradio Şirkətinin nümayəndəliyinin ofisinin açılmasına kömək edə bilərsinizmi?**

**B. Butpos-Qali:** Mən Nyu-Yorka qayıtdıqdan sonra bu məsələni Birləşmiş Millətlər Təşkilatının rabitə və kommunikasiya məsələləri şöbəsinin direktoru ilə müzakirə edəcəyəm. Hələlik sizə hər hansı vəd vermək istəməzdim. Çünki bu, büdcə və maliyyə çətinlikləri kimi məsələlərdən çox asılıdır. Amma söz verirəm ki, səfərim başa çatdıqdan sonra bu məsələni adını çəkdiyim şöbənin direktoru qarşısında qaldıracağam. Ondan sonra sizə məlumat verə bilərəm.

**Sual: Cənab prezident, Azərbaycanda Sizi haqlı olaraq general de Qoll ilə müqayisə edirlər. Siz sübut edə bildiniz ki, böyük siyasi xadim, böyük rəhbər heç də diktator olmamalıdır. Respublikadakı bütün siyasi hadisələri qan tökülmədən aradan qaldıra bildiniz. Siz hesab edirsinizmi ki, neft müqaviləsinin imzalanması ilə iqtisadi irəliləyiş başlanır?**

**İkinci sualım cənab Butros Butros-Qaliyədir. Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi haqqında Ermənistan parlamentinin qəbul etdiyi qərar hələ də qüvvədədir. Uydurma "Dağlıq Qarabağ Respublikasının deputatları Ermənistan parlamentinin işində iştirak edirlər. Ermənistan Respublikasını işğalçı kimi tanımaq üçün daha nə lazımdır?**

**H. Əliyev:** Azərbaycan Respublikasında sosial-iqtisadi vəziyyət həddindən artıq ağırdır. Bunun səbəbləri bizim ictimaiyyətə məlumdur. Siz də bunu yaxşı bilirsiniz, ona görə də əlavə izahata ehtiyac yoxdur. Son illər Azərbaycanın iqtisadiyyatında dağıdıcı proseslər davam etmiş, quruculuq işləri isə getməmişdir. Oktyabrın əvvəlində Azərbaycanda dövlət çevrilişinə cəhd göstərən qüvvələr də son illərdə onun iqtisadiyyatını dağıdanlardandır. Təəssüf ki, Azərbaycanın müharibə şəraitində olduğu, ağır dövrdə yaşadığı bir vaxtda

---

* *Butros Butros-Qalinin irəli sürdüyü prinsiplər aşağıdakılardır:*
*1) Azərbaycan Respublikasının ərazi bütövlüyü;*
*2) beynəlxalq sərhədlərin toxunulmazlığı;*
*3) zor işlətməklə ərazi işğal etməyin yolverilməzliyi;*
*4) xarici qoşunların işğal olunmuş bütün ərazilərdən heç bir qeyd-sərt irəli sürmədən dərhal çıxarılması.*

respublikada belə qüvvələr mövcuddur və onlar Azərbaycanın həm iqtisadi-sosial, həm də ictimai-siyasi vəziyyətini gərginləşdirirlər. Ancaq onlar böyük səhvə yol vermişlər, bu da ondan ibarətdir ki, xalqın iradəsini, xalqın gücünü indiyədək dərk edə bilməmişlər. Oktyabrın 4-də dövlət çevrilişi cəhdinin qarşısının alınması Azərbaycan xalqının müdrikliyini, birliyini, onun möhkəm iradəsini bir daha nümayiş etdirdi.

Bu, eyni zamanda onu göstərdi ki, xalqımız nə qədər ağır vəziy[441-442]yətdə olsa da, Azərbaycanın dövlətçiliyini, ölkənin qanuni yolla seçilmiş prezidentini qorumağa qadirdir. Güman edirəm ki, əgər dağıdıcı qüvvələrin qarşısını ala bilsək, – əminəm ki, biz bunu edə biləcəyik, – Azərbaycanda sosial- iqtisadi vəziyyət, yavaş-yavaş olsa da, yaxşılaşacaqdır.

Sentyabrın 20-də xarici ölkələrin neft şirkətləri ilə imzalanmış müqavilə Azərbaycanın iqtisadi inkişafı yolunda böyük bir mərhələdir. Ancaq heç də belə düşünmək lazım deyil ki, bu müqavilə iqtisadiyyatımızın, həyatımızın bütün məsələlərini həll edəcəkdir. Bu, iqtisadiyyatımızı inkişaf etdirmək üçün atdığımız ilk, ancaq böyük addımlardan biridir. Güman edirəm ki, bu ilk addım gələcəkdə görəcəyimiz işlər üçün yaxşı bünövrə yaradacaqdır.

İmzalanmış müqavilədən istifadə edilməsi də Azərbaycan Respublikasının özündən asılı olan məsələdir. Əgər biz səmərəli işləsək, həmin müqavilədən do səmərəli istifadə edə bilərik. Əminəm ki, biz bunlara nail ola biləcəyik.

**B. Butpos-Qali:** Mənə verilən suala gəldikdə isə, zənnimcə, Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının bu məsələ barədə mövqeyi tam aydındır. Bu mövqe işğalçı qoşunların Dağlıq Qarabağdan təcili olaraq və qeyd-şərtsiz çıxarılmasından ibarətdir.

**Sual: Mənim sualım cənab Butros Butros-Qaliyədir. Hörmətli Baş katib, bu gün Xarici İşlər Nazirliyində verdiyiniz bəyanatda da, indiki görüşün əvvəlindəki çıxışınızda da belə bir fikir söylədiniz ki, Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması mütləqdir, əcnəbi qoşunlar işğal edilmiş ərazilərdən çıxmalıdır. Bundan başqa, Ermənistanı təcavüzkar adlandırdınız. Qarşıda sizi Ermənistan Respublikasına səfər gözləyir. Eyni mövqeyi orada da eyni tərzdə ifadə edəcəksinizmi?**

**B. Butpos-Qali:** Mənə belə gəlir ki, bu gün burada dediklərim radio vasitəsilə bir saatdan sonra Ermənistana çatır. Burada verdiyim bəyanatlar və söylədiyim fikirlər Röyterdən tutmuş bir sıra agentliklər vasitəsilə bütün dünyaya yayılır və xüsusi bülleten şəklində dərc olunur, mənim mətbuat katibim vasitəsilə Nyu- Yorkda da geniş yayılır. Başqa sözlə desək, mənim burada dediklərim bütün dünyaya açıq-aydın bəyan olur. İkincisi, mən burada nə isə yeni bir şey demirəm. Mənim dediklərimin hamısı Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 nömrəli qətnamələrində öz əksini tapmışdır.

**Sual: Cənab Baş katib, siz qətnamələri sadaladınız. Mənim sualım birinci, yəni 822 nömrəli qətnamə ilə bağlıdır. Onun 4-cü maddəsi vaxtilə Kəlbəcərin Dağlıq Qarabağın etnik erməniləri tərəfindən deyil, Ermənistan Respublikası tərəfindən işğal edilməsini dəqiqləşdirmək üçün oraya öz nümayəndələrinizi göndərməyi tələb edirdi. Lakin vaxt ötdü, bu nümayəndələr göndərilmədi və cəzasız qaldığını görən təcavüzkar öz əməllərini davam etdirdi, Azərbaycanın yeni-yeni torpaqları işğal olundu, yüz minlərlə insan faciəyə düçar oldu. Siz bu gün verdiyiniz bəyanatlarda da ATƏM-i dəstəklədiyinizi, BMT-nin sülh**[442-443]**məramlı qüvvələrinin fəaliyyətini əlaqələndirməyə hazır olduğunuzu deyirsiniz. Adları çəkilən qətnamələrin yerinə yetirilməsi yolunda konkret addımlar atmaq sahəsində BMT nə kimi tədbirlər görür?**

**B. Butpos-Qali:** Məlum qətnamənin 4-cü maddəsinə gəldikdə, onu qeyd etmək istəyirəm ki, həmin maddəyə əsasən BMT-nin Baş katibi ATƏM-in sədri ilə əməkdaşlıq çərçivəsində, onunla əlaqə saxlayaraq, Kəlbəcər rayonunun işğalı məsələsinin tam, düzgün qiymətləndirilməsi üçün oraya nümayəndə göndərməli idi. Bundan sonra Təhlükəsizlik Şurası bir sıra başqa qətnamələr də qəbul etmişdir. Həmin qətnamələr qəbul ediləndə də regiondakı vəziyyət barədə məlumat Təhlükəsizlik Şurasına çatdırılmışdır.

**Sual: Siz dediniz ki, bütün qətnamələr işğalçı qüvvələrin Azərbaycan torpaqlarından qeyd-şərtsiz çıxarılmasını tələb edir. Lakin qeyd etdiniz ki, hələlik buna əməl olunmamışdır. Belə olan halda BMT rəhbərliyinin sərəncamında Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirməyən ölkəyə qarşı iqtisadi və hətta hərbi təsir göstərmək üçün tədbirlər imkanı var. Siz İraqda, keçmiş Yuqoslaviyada və başqa yerlərdə bunu tətbiq etmisiniz. Nə üçün indiki halda BMT heç bir tədbir görmür ki, Təhlükəsizlik Şurasının qətnamələri yerinə yetirilsin?**

**B. Butpos-Qali:** Bildiyiniz kimi, qərarları Təhlükəsizlik Şurası qəbul edir. Baş katibin rolu və vəzifəsi isə həmin qərarları həyata keçirməkdən ibarətdir. Təhlükəsizlik Şurası siyasi təşkilatdır. O, bu qərarların həyata keçirilməsində maraqlı ola bilər, onların istər iqtisadi, istərsə də hərbi cəhətdən yerinə yetirilməsində təkid edə bilər.

**Sual: Əgər Ermənistan BMT Təhlükəsizlik Şurasının qərarlarını yerinə yetirməməkdə davam edərsə, İraqda, keçmiş Yuqoslaviyada olduğu kimi, ona qarşı hər hansı sanksiyalar tətbiq ediləcəkmi?**

**B. Butpos-Qali:** Mənim dediyim odur ki, belə bir qərarı məhz Təhlükəsizlik Şurası çıxarmalıdır. Ona görə də sizin sualınıza cavab verə bilmərəm.

**Sual: Rusiya prezidenti Boris Yeltsin Birləşmiş Ştatlara rəsmi səfərindən sonra bildirmişdir ki, onlar BMT-nin himayəsi altında regiona göndəriləcək qüvvələrin sırf Rusiya hərbçilərindən ibarət olacağı barədə razılığa gəlmişlər. Siz isə ATƏM-in beynəlxalq sülhyaratma qüvvələri barədə danışır və deyirsiniz ki, bu qüvvələrin formalaşdırılmasında ATƏM-ə hər cür kömək göstərməyə hazırsınız. Necə bilirsiniz, bu məsələdə Rusiyanın mövqeyi ilə BMT-nin mövqeyi arasında ziddiyyət yaranmırmı? Əgər Rusiya regiona beynəlxalq qüvvələrin göndərilməsinə etiraz edərsə, bu məsələni necə həll edəcəksiniz?**

**B. Butpos-Qali**: Bu məsələnin həllinin üç variantı mövcuddur. Birincisi, tamamilə BMT-nin qoşunlarından ibarət qüvvələrin bu regiona göndərilməsi. Əgər belə olarsa, bu qüvvələr bilavasitə BMT-nin təyin etdiyi komandanın nəzarəti altında olacaqdır. İkinci mümkün variant regiona MDB qoşunlarının göndərilməsidir. Üçüncüsü Gürcüstanda tətbiq edilən variantdır, yəni MDB qoşunlarının və BMT müşahidəçilərinin [443-444] birgə səyləri. Bu məsələyə bir sıra başqa yönümlərdən də yanaşmaq mümkündür. Lakin bir daha qeyd etmək istərdim ki, bunlar bilavasitə BMT Təhlükəsizlik Şurasının səlahiyyətinə daxildir və o, indiyədək bu barədə heç bir qərar qəbul etməyib.

**Sual: Cənab Butros Butros-Qali, Siz Rusiya Federasiyasının Ermənistan-Azərbaycan münaqişəsinə münasibəti barədə nə fikirdəsiniz?**

**B. Butpos-Qali:** Mənə belə gəlir ki, Rusiya Federasiyası BMT ilə tam əməkdaşlıq çərçivəsində fəaliyyət göstərir. Bildiyiniz kimi, Rusiya Federasiyası BMT Təhlükəsizlik Şurasının 822, 853 nömrəli və digər qətnamələrinin qəbul olunmasını bəyənmiş və bunlara səs vermişdir. Bu dediklərim BMT səviyyəsindədir. ATƏM səviyyəsinə gəldikdə isə, Rusiya Federasiyası ilə ATƏM və onun Minsk qrupu arasında çox yaxşı əməkdaşlıq mövcuddur. Bundan əlavə, Rusiya Federasiyası Ermənistan ilə Azərbaycan arasındakı münaqişəyə sülh yolu ilə son qoyulması üçün öz tərəfindən bir sıra təşəbbüslər də göstərmişdir. Biz regionda sülhün və təhlükəsizliyin bərqərar olması, bunlardan ötrü mövcud olan təhlükənin aradan qaldırılması üçün Rusiya Federasiyasının istər Birləşmiş Millətlər Təşkilatı, ATƏM çərçivəsində, istərsə də ikitərəfli münasibətlər çərçivəsində göstərdiyi təşəbbüsləri alqışlayırıq. [444-445]

## BMT-nin BAŞ KATİBİ BUTROS BUTROS-QALİNİN ŞƏRƏFİNƏ VERİLƏN ZİYAFƏTDƏ ÇIXIŞ

*30 oktyabr 1994-cü il*

*Gülüstan sarayı*

Hörmətli xanımlar və cənablar!

İkinci gündür birgə ki, Birləşmiş Millətlər Təşkilatının Baş katibi hörmətli cənab Butros Butros-Qali Azərbaycan Respublikasında, qədim Azərbaycan torpağındadır. Bu gün cənab Butros Butros-Qali ilə bizim çox əhəmiyyətli, səmərəli söhbətlərimiz olubdur. Nəticələrinə görə mən deyə bilərəm ki, Birləşmiş Millətlər Təşkilatının Baş katibinin ilk dəfə Azərbaycana səfəri çox uğurludur və gələcəkdə bizim üçün əhəmiyyətli nəticələr verəcəkdir.

Cənab Baş katib, mən sizi burada – Azərbaycanın gözəl bir guşəsi olan "Gülüstan" sarayında Azərbaycan xalqı adından, öz adımdan bir daha səmimi-qəlbdən salamlayıram. Sizin Azərbaycana səfəriniz, Birləşmiş Millətlər Təşkilatının 49 illik tarixində ilk dəfə bu beynəlxalq təşkilatın Baş katibinin Azərbaycana ilk səfəri Azərbaycan Respublikasının həyatında böyük bir hadisədir. Mən bu gün sizinlə söhbətlərimdə də dedim və bir daha təkrar edirəm ki, Azərbaycan ictimaiyyəti Sizin səfərinizə çox böyük maraq göstərir və Azərbaycan vətəndaşları Sizin bu səfərinizə böyük ümidlərlə baxırlar. Bugünkü danışıqlarımız mənə bunu deməyə əsas verir ki, bu ümidlər öz nəticəsini verəcəkdir və Siz bizim respublika ilə, xalqımızla yaxından tanış olandan sonra, Azərbaycanın dərdlərini duyub hiss edəndən, görəndən sonra, Azərbaycan məsələləri ilə daha da yaxından məşğul olacaqsınız.

Hörmətli cənab Butros Butros-Qali, sizi bütün dünyada böyük bir siyasət adamı və böyük bir diplomat, eyni zamanda böyük bir alim kimi tanıyırlar. Azərbaycan ictimaiyyətinə yaxşı məlumdur ki, Siz həyat və fəaliyyətiniz dövründə, həm elmi işlə məşğul olarkən, həm də böyük diplomatik vəzifələr həyata keçirərkən, Misir Ərəb Respublikasının rəhbərlərindən biri olduğunuz zaman çox böyük işlər görmüsünüz və gördüyünüz işlərə görə də böyük hörmət qazanmısınız. Birləşmiş Millətlər Təşkilatının Baş katibi vəzifəsində Sizin fəaliyyətiniz bütün dünyaya məlumdur və Sizin bu fəaliyyətinizə Azərbaycanda da böyük hörmət və ehtiram var.

Birləşmiş Millətlər Təşkilatının əsas vəzifələrindən biri bütün dünya ölkələrinin, dünya millətlərinin arasında sülh və əmin-amanlıq yaratmaq və dünya ölkələrinin, dünya dövlətlərinin inkişaf etməsinə kömək etməkdən ibarətdir. Üç il bundan öncə müstəqillik qazanmış Azərbaycan [445-446] xalqının, müstəqil Azərbaycan dövlətinin bu baxımdan BMT-nin fəaliyyətinə çox böyük ehtiyacı var. Bizim arzumuz budur ki, dünyanın hər bir yerində sülh olsun, əmin-amanlıq olsun. Ancaq bizim regionda, Azərbaycanın ərazisində sülh, əmin-amanlıq olması həm bizim xalq üçün, həm də bütün dünya ictimaiyyəti üçün ən zəruri bir vəzifədir. Altı il müharibə şəraitində yaşayan, böyük itkilər vermiş, torpaqlarının bir qismini itirmiş Azərbaycan xalqı sülhün bu gün bizim üçün nə qədər lazım olmasını hamıdan çox hiss edir və bilir. Azərbaycanda hər bir vətəndaş sülh və əmin-amanlıq arzusu ilə yaşayır, ərazi bütövlüyümüzün bərpa olunması arzusu ilə yaşayır, işğal edilmiş torpaqlarımızın geri qaytarılması arzusu ilə yaşayır, insanların firavan yaşaması arzusu ilə yaşayır. Bütün bu arzuların yerinə yetirilməsinə nail olmaq üçün xalqımız Birləşmiş Millətlər Təşkilatına böyük ümidlər bəsləyir. Mən şübhə etmirəm ki, Siz – dünyada çox təcrübəli bir insan, bir alicənab insan kimi, tutduğunuz vəzifədə əlinizdə olan imkanlardan istifadə edib, Azərbaycanın bu ağır vəziyyətdən çıxmasına bundan sonra daha güclü fəaliyyətlə yardım edəcəksiniz.

Azərbaycan xalqı Sizi əziz qonaq kimi, hörmətli bir dost kimi qəbul edibdir və bu gün Sizin şərəfinizə bu salonda toplaşanların hamısı bu hissiyyatla buraya gəlibdir. Bu hissiyyatlarla mən Sizi bir daha salamlayıram, Sizə öz hörmət və ehtiramımı bildirirəm və badələri Birləşmiş Millətlər Təşkilatının Baş katibi, dünya miqyasında tanınmış ictimai-siyasi xadim, böyük alim, Azərbaycan xalqının dostu olan cənab Butros Butros-Qalinin şərəfinə qaldırmağı rica edirəm. [446-447]

## AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN BMT-nin BAŞ KATİBİ BUTROS BUTROS-QALİNİN AZƏRBAYCAN SƏFƏRİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ İCLASINDA ÇIXIŞ

*31 oktyabr 1994-cü il*

Möhtərəm Baş katib, cənab doktor Butros Butros-Qali, hörmətli Məclis üzvləri, mətbuat nümayəndələri.

Birləşmiş Millətlər Təşkilatının Baş katibi cənab Butros Butros-Qali Azərbaycan Respublikasında, Azərbaycan torpağında rəsmi səfərdədir. Cənab Butros Butros-Qalinin respublikamıza rəsmi səfəri, buradakı görüşləri, bizimlə apardığı geniş söhbətlər – bütün bunlar BMT Baş katibinin, bu nüfuzlu beynəlxalq təşkilatın, şəxsən cənab Butros Butros-Qalinin müstəqil Azərbaycan Respublikasına, Azərbaycan xalqına göstərdiyi qayğının, hörmətin və mərhəmətin nümayişidir.

İndi Azərbaycan parlamentində, respublika ictimaiyyətinin nümayəndələri qarşısında cənab Butros Butros-Qali çox məzmunlu, dəyərli nitq söylədi, Birləşmiş Millətlər Təşkilatının fəaliyyəti barəsində məlumatlar verdi, həm də bu beynəlxalq təşkilatın Azərbaycan Respublikasının müstəqilliyinə, respublikamızın müstəqil dövlət kimi Dünya Birliyində yerinə əhəmiyyət verdiyini bildirdi.

Hörmətli cənab Butros Butros-Qali, sizin Azərbaycana səfərinizə görə, burada apardığınız çox səmərəli işə görə, bu gün burada söylədiyiniz nitqə və Azərbaycan xalqına göstərdiyiniz diqqətə görə sizə Azərbaycan Respublikası adından, şəxsən öz adımdan dərin minnətdarlığımı və təşəkkürümü bildirirəm.

Cənab doktor Butros Butros-Qali BMT-nin 49 illik fəaliyyətindən danışdı və bu təşkilatın yarandığı dövrdən indiyə qədər dünyada sülhün, təhlükəsizliyin, əmin-amanlığın təmin olunması üçün apardığı işlərdən, əldə etdiyi nailiyyətlərdən danışdı.

Azərbaycan xalqı, müstəqil Azərbaycan Respublikası BMT-nin fəaliyyətinə yüksək qiymət verir, cənab Butros Butros-Qalinin bu gün buradakı nitqini çox məmnuniyyətlə qəbul edir və həmin məlumatlardan bir daha dərk edir ki, Birləşmiş Millətlər Təşkilatı 49 illik fəaliyyəti dövründə böyük işlər görübdür, dünyanın indiki şəraitdə olması üçün təminatlar yaradıbdır. Birləşmiş Millətlər Təşkilatı dünya tarixində bu təşkilatın yarandığı dövrə qədər mövcud olmuş bütün beynəlxalq təşkilatların hamısından üstün nailiyyətlər əldə edib və yaşadığı dövrdə daha da səmərəli bir təşkilata çevrilibdir, fəaliyyət göstərdiyi 49 ildə bütün dünya ölkələri üçün, dünya xalqları üçün nə qədər gərəkli olduğunu sübut edibdir. [447-448] Buna görə də bütün dünyada hörmət və ehtiram qazanıbdır. Yarandığı dövrdən indiyə qədər, "soyuq müharibə" dövründə də, onun dəf olunması yolunda da və "soyuq müharibə"dən sonrakı dövrdə də dünya qarşısında, dünya ölkələri və xalqları qarşısında böyük işlər görübdür.

"Soyuq müharibə" dövründən sonrakı vaxtda BMT qarşısında yeni, çox mürəkkəb və mühüm vəzifələr durmuşdur. BMT-nin tərkibi get-gedə artmış, ayrı-ayrı xalqların və ayrı-ayrı ölkələrin müstəqillik əldə etməsində bu təşkilatın böyük fəaliyyəti olmuşdur. Əgər yaranan vaxtda bu təşkilat 50 dövlətdən ibarət idisə, indi BMT 180-dan çox dövləti, ölkəni birləşdirir. Son illərdə dövlətlər arasındakı münaqişələrin dayandırılmasında, millətlər arasındakı ziddiyyətlərin, münaqişələrin aradan götürülməsi sahəsində BMT çox böyük işlər görmüşdür.

Azərbaycan xalqı, Azərbaycan Respublikası BMT-nin fəaliyyətinə, xüsusən də onun son dövrlərdə əldə etdiyi nailiyyətlərə yüksək qiymət verir və bu təşkilatın Baş katibi cənab Butros Butros-Qalinin fəaliyyətini yüksək qiymətləndirir. Üç il bundan əvvəl Azərbaycan Respublikası dövlət müstəqilliyini əldə edib, 1992-ci ilin yanvar ayında Birləşmiş Millətlər Təşkilatının üzvlüyünə daxil olub və bu müddətdə respublikamız, xalqımız daim BMT-nin qayğısını və müsbət münasibətini hiss edibdir. Bunlara görə mən fürsətdən istifadə edib, Birləşmiş Millətlər Təşkilatına və onun Baş katibinə Azərbaycan xalqı adından Azərbaycan Respublikası adından təşəkkürümü bildirirəm.

Azərbaycan xalqının azadlığa nail olması, respublikamızın dövlət müstəqilliyi əldə etməsi bizim üçün tarixi hadisədir. Azərbaycan Respublikasının BMT üzvlüyünə qəbul olunması tarixi hadisədir. Mən bu gün bir daha bəyan etmək istəyirəm ki, Azərbaycan xalqı heç vaxt öz müstəqilliyini əldən verməyəcəkdir. Respublikamız günü-gündən dövlət müstəqilliyini möhkəmləndirəcək və inkişaf etdirəcəkdir. Biz dəfələrlə bildirmişik və bu gün bir daha, BMT Baş katibinin hüzurunda bildirmək, bəyan etmək istəyirəm ki, Azərbaycan Respublikası daxili və xarici siyasətində demokratik prinsipləri əsas götürmüşdür, bu cür də fəaliyyət göstərəcək və Dünya Birliyində öz layiqli yerini tutacaqdır. Biz respublikamızda demokratik dövlət qurmaq yolu ilə gedirik. Azərbaycanda demokratik, hüquqi, sivilizasiyalı cəmiyyət qurmaq yolu ilə gedirik. Azərbaycanda insan, söz, vicdan azadlığını, siyasi plüralizmi bərqərar etmək yolu ilə gedirik. Azərbaycan Respublikasının iqtisadiyyatını sərbəst bazar iqtisadiyyatına yönəltməyə, inkişaf etdirməyə çalışırıq. Mən əminəm ki, bizim tutduğumuz strateji

yol Azərbaycan xalqının mənafeyinə uyğundur və xalqımızı, respublikamızı Dünya Birliyinə, dünya iqtisadiyyatına bağlayan yoldur.

Altı ildir ki, Azərbaycan müharibə şəraitində yaşayır. Ermənistan Respublikası tərəfindən hərbi təcavüzə məruz qalıbdır, böyük itkilər veribdir, böyük çətinliklərlə qarşılaşıbdır. Bu dövrdə respublikamızın daxilində də ictimai-siyasi vəziyyət sabit olmamışdır. Xarici və daxili [448-449] qüvvələr ölkəmizdə daxili sabitliyi pozmağa, aranı qarışdırmağa çalışmışlar. Bu qüvvələr Azərbaycanın müstəqilliyini pozmağa, ölkəmizi parçalamağa çalışan qüvvələrdir. Ancaq son hadisələr, xüsusən oktyabrın 4-də dövlət çevrilişinə cəhd göstərən qüvvələrin darmadağın olması və Azərbaycan xalqının milli həmrəyliyi, vətəndaş həmrəyliyi, öz dövlətçiliyini qorumaq əzmi bir daha sübut etdi ki, Azərbaycan xalqının müstəqilliyini heç kim poza bilməz, xalqımız öz müstəqilliyini, öz dövlətçiliyini qorumağa qadirdir. Bundan sonra da xalqımız tutduğu yolla daha böyük əzmlə gedəcəkdir.

Oktyabrın əvvəlində baş vermiş hadisələr zamanı, Azərbaycanda dövlət çevrilişinə cəhd göstərən qüvvələrin hərəkətləri ilə əlaqədar yaranmış gərgin vəziyyət dövründə Azərbaycan xalqının müdrikliyi müşahidə olundu, eyni zamanda bütün dünyaya nümayiş etdirildi. Dünyanın böyük dövlətləri, habelə BMT də Azərbaycan Respublikasının dövlətçiliyinin qorunmasını dəstəklədilər və Azərbaycanda qanuni dövlətin qorunub saxlanmasına tərəfdar çıxdılar.

Azərbaycan xalqı öz tarixinin çətin bir dövrünü yaşayır. Respublikamızın qarşısında böyük bir problemlər var. Ölkəmiz dərin iqtisadi-sosial böhran içindədir. Azərbaycan Respublikası müharibə vəziyyətində yaşayır. Ermənistan tərəfindən təcavüz nəticəsində respublikamızın torpaqlarının 20 faizi işğal olunubdur. İşğal olunmuş torpaqlardan bir milyondan çox azərbaycanlı qaçqın düşmüşdür.

Biz əminik ki, Azərbaycan xalqı, Azərbaycan dövləti bütün bu çətinliklərin öhdəsindən gələcək, biz bu çətinlikləri ötüb keçəcəyik və müstəqil respublikamız öz fəaliyyətini gələcəkdə daha sürətlə davam etdirəcəkdir.

Bizim həyatımızda ən ağır, ən çətin məsələ Azərbaycanı hərbi vəziyyətdən, müharibədən çıxarmaqdan, respublikamıza qarşı yönəldilmiş təcavüzün qarşısını almaqdan ibarətdir. Bu məsələlər BMT-nin Baş katibi cənab Butros Butros-Qali ilə bu günlərdə çox ətraflı müzakirə olundu. Mən bu müzakirələrdən razıyam və ümidvar olduğumu bildirmək istəyirəm ki, bu görüşlər və müzakirələrdən sonra Azərbaycan Respublikasının Ermənistan təcavüzündən xilas olması, Azərbaycanın sülh və əmin-amanlıq, təhlükəsizlik şəraitində yaşaması, ölkəmizin ərazi bütövlüyünün təmin olunması üçün müəyyən addımlar atılacaqdır. Bu məsələlərin həll edilməsi üçün Birləşmiş Millətlər Təşkilatı, onun Təhlükəsizlik Şurası və şəxsən Baş katib cənab Butros Butros-Qali çox işlər görürlər.

Bildiyiniz kimi, Ermənistanın Azərbaycana təcavüzü, Azərbaycan torpaqlarının işğalı ilə əlaqədar BMT Təhlükəsizlik Şurası dörd qətnamə qəbul edibdir. Bu qətnamələrdə işğalçı silahlı qüvvələrin qeyd-şərtsiz Azərbaycan torpağından çıxması tələb olunur, Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı prinsipi bir daha təsdiq edilir. Təəssüf ki, BMT Təhlükəsizlik Şurasının bu qətnamələri və təşkilatın Baş katibi cənab Butros Butros-Qalinin verdiyi bir neçə bəyanat da Ermənistan tərəfindən yerinə yetirilməyibdir. [449-450]

Ancaq bunlara baxmayaraq, BMT və xüsusən cənab Butros Butros-Qali ilə sentyabrın əvvəlində Qahirədəki, sonra isə Nyu-Yorkdakı görüşlərimdə və onun Azərbaycana rəsmi səfəri zamanı Bakıda keçirdiyimiz görüşlərdə də tam əmin oldum ki, BMT və onun Baş katibi cənab Butros Butros-Qali respublikamıza Ermənistan tərəfindən edilən hərbi təcavüzün aradan qaldırılması ilə əlaqədar və bölgədə sülhün, təhlükəsizliyin bərqərar olunması yolunda öz fəaliyyətlərini göstərəcəklər.

Aparılan danışıqlarda cənab Butros-Qali dəfələrlə bəyan edibdir ki, BMT Təhlükəsizlik Şurasının qətnamələrində əks olunmuş prinsiplər dəyişməzdir və bu beynəlxalq təşkilat həmin prinsiplər əsasında bundan sonra da fəaliyyətini davam etdirəcəkdir. Bu prinsiplər Azərbaycan Respublikasının ərazi bütövlüyünün, sərhədlərinin toxunulmazlığı, Azərbaycan Respublikasının suverenliyinin saxlanılmasının təmin olunması, bir dövlətin başqa bir dövlətin sərhədini pozmasına, ərazisini zorla ələ keçirməsinə yol verilməməsi, Azərbaycan torpaqlarını işğal etmiş erməni silahlı birləşmələrinin qeyd-şərtsiz bu torpaqlardan çıxarılmasıdır.

Cənab Butros-Qali dəfələrlə bəyan etmişdir ki, bu prinsiplər dəyişməzdir və həmin prinsiplər əsasında BMT bundan sonra da fəaliyyətini davam etdirəcəkdir.

Azərbaycan daim sülhsevər siyasət aparmışdır. Bu siyasəti axıra çatdırmaq, müharibəyə son qoymaq üçün, bölgədə sülh və əmin-amanlıq, təhlükəsizlik şəraiti yaratmaq üçün biz bütün addımları atmışıq və bundan sonra da atacağıq. Bunun üçün biz bütün vasitələrdən istifadə edirik. Beynəlxalq təşkilatların – BMT-nin, ATƏM təşkilatının imkanlarından, ATƏM çərçivəsindəki Minsk qrupunun fəaliyyətindən, ayrı-ayrı ölkələrin, o cümlədən ABŞ-ın, Rusiyanın, Türkiyənin təşəbbüslərindən və xüsusən son zamanlar Rusiyanın vasitəçilik səylərindən səmərəli istifadə edirik və bundan sonra da istifadə etməyə çalışacağıq. Bunların nəticəsində Ermənistanla Azərbaycan arasında müharibə dayandırılıb, yəni atəşkəs rejimi yaranıbdır. Biz bu atəşkəs rejiminin saxlanması üçün fəaliyyət göstəririk və verdiyimiz bəyanatlara sadiq qalacaq, atəşkəs rejiminin davam etdirilməsinə çalışacağıq. Eyni zamanda atəşkəs rejimi dövründə Böyük Sülh Müqaviləsinin əldə olunmasını zəruri hesab edirik və bu barədə bütün beynəlxalq təşkilatlara müraciət edirik. Müharibəyə son qoymaq üçün,

etibarlı sülh yaratmaq üçün bizim şərtlərimiz çox sadədir. Erməni silahlı qüvvələri Azərbaycanın işğal olunmuş torpaqlarını qeyd-şərtsiz tərk etməli, Azərbaycan Respublikasının ərazi bütövlüyü təmin olunmalı, işğal edilən ərazilərdən qovulmuş azərbaycanlılar öz doğma ocaqlarına qaytarılmalıdır. Erməni silahlı qüvvələri bütün rayonlarımızdan, xüsusən də Laçın və Şuşadan çıxarılmalıdır. Bu məsələlər həll olunduqda Dağlıq Qarabağın statusu müzakirə oluna bilər və burada yaşayan erməni əhalisinin təhlükəsizlik [450-451] məsələsi də müzakirə edilməlidir. Bütün bu məsələlərin hamısı birlikdə həll olunmalıdır. Əgər bu məsələlər birlikdə həll olunsa, biz bölgədə uzunmüddətli sülh əldə etmiş olarıq.

Bir daha qeyd edirəm ki, bizim əsas şərtimiz işğal olunmuş ərazilərdən Ermənistan silahlı qüvvələrinin qeyd-şərtsiz çıxarılması və bir milyondan artıq Azərbaycan vətəndaşının, qaçqının öz yaşayış yerlərinə qayıtmasıdır.

Ümidvar olduğumu bildirmək istəyirəm ki, BMT və onun Baş katibi cənab Butros Qali bizim burada apardığımız danışıqlar əsasında bu sahədə Azərbaycan Respublikasına əlindən gələn köməyi edəcəkdir.

Birləşmiş Millətlər Təşkilatının humanitar sahədə fəaliyyətinə mən yüksək qiymət verirəm və humanitar məsələlər üzrə BMT Ali Komissarlığının Azərbaycandakı fəaliyyətini qiymətləndirirəm. BMT-nin Azərbaycandakı nümayəndəliyinin də fəaliyyətini yüksək qiymətləndiririk.

Mən Baş katib Butros Qalidən bir daha xahiş edirəm ki, Azərbaycanın ağır sosial-iqtisadi vəziyyətində – bunu Baş katibin özü qaçqınlarla görüşündə də gördü. O, özü bir daha yəqin etdi ki, qaçqınlar necə ağır vəziyyətdə yaşayır – Azərbaycana humanitar yardım edilməsi sahəsində tədbirlər görsün.

Beləliklə, mən qısaca olaraq respublikamızın bugünkü vəziyyəti haqqında hörmətli qonağımız cənab Butros Qaliyə bir daha məlumat verərək əmin olduğumu bildirmək istəyirəm ki, Azərbaycan Respublikasının müstəqilliyinin möhkəmlənməsi, respublikamızın ərazi bütövlüyünün təmin olunması, ölkəmizin müharibə şəraitindən çıxarılması, əmin-amanlığın yaranması üçün, ümumiyyətlə, bölgədə sülhün bərqərar olması üçün Birləşmiş Millətlər Təşkilatı və şəxsən onun Baş katibi cənab Butros Qali bundan sonra da öz köməyini əsirgəməyəcəkdir.

Azərbaycan Respublikası vətəndaşları adından BMT-nin bütün orqanlarına və bu təşkilatın Baş katibi cənab Butros Qaliyə bir daha dərin hörmət və ehtiramımı bildirirəm. Cənab Butros Qali dünyada tanınmış məşhur ictimai-siyasi xadim, böyük alimdir, BMT-nin Baş katibi vəzifəsində dünyada böyük hörmət qazanıbdır. Onun respublikamıza səfərini yüksək qiymətləndirirəm və əmin olduğumuzu bildirmək istəyirəm ki, Birləşmiş Millətlər Təşkilatının Baş katibi vəzifəsində cənab Butros Qali bundan sonra da uzun illər səmərəli fəaliyyət göstərəcəkdir, dünyada sülhün, əmin-amanlığın bərqərar olması üçün öz səylərini göstərəcək və Azərbaycan xalqının dostu kimi Azərbaycan Respublikasının ərazi bütövlüyü və müstəqilliyinin təmin olunması üçün əlindən gələni əsirgəməyəcəkdir.

Cənab Butros Qali!

Sizə böyük vəzifənizdə və dünya üçün əhəmiyyətli fəaliyyətinizdə uğurlar diləyirəm, şəxsi həyatınızda səadət və xoşbəxtlik arzulayıram.

Siz bizim ölkəmizə xoş gəlmisiniz. Sizi dostluq və səmimiyyət arzuları ilə yola salırıq. Sağ olun! [451-452]

**TÜRKİYƏ CÜMHURİYYƏTİNİN PREZİDENTİ**
**ƏLAHƏZRƏT SÜLEYMAN DƏMİRƏL CƏNABLARINA**

Hörmətli cənab prezident!
Əziz qardaşım Süleyman bəy!

Sizi anadan olmağınızın 70 ili münasibətilə öz adımdan və bütün Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edir, Sizə uzun ömür, cansağlığı və işlərinizdə müvəffəqiyyətlər arzulayıram.

Sizin, Türkiyə xalqı və ümumiyyətlə, türk dünyasının bu günü və gələcəyi naminə həsr etdiyiniz bu şərəfli ömür yolunuz bütün bəşər övladlarına bir örnəkdir. Dahi Mustafa Kamal Atatürkün ideyalarına sadiq olaraq, onun işinin davamçısı kimi Siz Türkiyə xalqı qarşısında, Türkiyə Cümhuriyyətinin inkişaf etməsində böyük xidmətlər göstərmisiniz. Görkəmli ictimai-siyasi xadim kimi on illər boyu yorulmaz fəaliyyətinizlə xalqın hörmət və ehtiramını qazanmısınız. Sizin beynəlxalq aləmdə səmərəli fəaliyyətiniz Türkiyə Respublikasının Dünya Birliyində layiqli yer tutmasına xidmət edir.

Azərbaycan xalqı yaşadığı bu ağır günlərdə hər zaman sizin qayğınızı, mənəvi dəstəyinizi yaxından hiss edir. Bu dostluq, qardaşlıq münasibətlərini yüksək qiymətləndirir, Sizə təşəkkürünü bildirir.

Əminəm ki, uzun illər ərzində əldə etdiyiniz siyasi təcrübələrlə zəngin fəaliyyətiniz bundan sonra da xalqınızın rifahının daha da yüksəlməsinə, bütün dünyada sülh, əmin-amanlıq və xoşbəxt gələcəyin əldə edilməsi işinə xidmət edəcəkdir.

Əziz qardaşım, doğum gününüzü bir daha ürəkdən təbrik edir, Ulu Tanrıdan sizə xoşbəxtlik və səadət arzulayıram.

Dərin hörmətlə,

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri,*
*1 noyabr 1994-cü il* [452-453]

## DAHİ AZƏRBAYCAN ŞAİRİ MƏHƏMMƏD FÜZULİNİN ANADAN OLMASININ 500 İLLİYİ MÜNASİBƏTİLƏ TÜRKİYƏDƏ KEÇİRİLƏN YUBİLEY TƏDBİRLƏRİNDƏ İŞTİRAK ETMƏK ÜÇÜN YOLA DÜŞƏRKƏN BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRƏ QISA MÜSAHİBƏ

*1 noyabr 1994-cü il*

Mənim bu səfərim Füzulinin 500 illiyi ilə əlaqədardır. Məhz yubileylə. Lakin Türkiyə Cümhuriyyəti ilə Azərbaycan Respublikası arasındakı dostluq əlaqələri elə sıxdır ki, səfərimiz Füzulinin yubiley şənlikləri ilə məhdudlaşmayacaq. Orada dövlət, hökumət başçıları ilə, ictimaiyyətlə görüşlərim olacaqdır. Ona görə də bu imkan eyni zamanda Azərbaycanla Türkiyə Cümhuriyyəti arasında əlaqələrin daha da inkişaf etməsi üçün yeni bir addım olacaqdır. Mən bunu çox əhəmiyyətli, səmərəli sayıram və belə düşünürəm ki, bu səfərdən həm Türkiyə Cümhuriyyəti, həm də Azərbaycan Respublikası tərəfindən istifadə ediləcəkdir. [453-454]

## ANKARADA "HİLTON" MEHMANXANASINDAKI İQAMƏTGAHDA TÜRKİYƏ VƏ AZƏRBAYCANDAKI XARİCİ ÖLKƏ SƏFİRLƏRİNİN QƏBULU ZAMANI ÇIXIŞ

*1 noyabr 1994-cü il*

Azərbaycan Respublikası cəmisi üç ildir ki, müstəqil bir dövlət kimi fəaliyyət göstərir, ona görə də xarici ölkələrin respublikamız üzrə səfirlərinin bir çoxu hələlik Azərbaycanın ərazisində yerləşmir. Siz öz ölkələrinizin Ankarada səfirisiniz, eyni zamanda Azərbaycan Respublikasında səfir vəzifəsini ifa edirsiniz. Sizin çoxunuz artıq Azərbaycanda olub, mənimlə görüşüb və bizim bilavasitə əlaqələrimiz yaranıb. Doğrudur, bəziləriniz hələ vaxt tapıb Azərbaycana gələ bilməmisiniz. Ümidvar olduğumu bildirmək istəyirəm ki, siz – öz ölkələrinizin Ankaradakı səfirləri Azərbaycana təşrif gətirəcəksiniz və biz sizinlə Azərbaycanda görüşə biləcəyik.

Türkiyə Respublikası Azərbaycan üçün dost və qardaş bir ölkədir. Biz Türkiyə ilə çox yaxın əlaqədəyik. Bunu bütün dünya ictimaiyyəti də bilir. Bu, sizin ölkələrinizə də məlumdur. Ölkələrinizin məhz Ankarada səfiri vəzifəsini aparanların çoxu eyni zamanda Azərbaycan Respublikasına səfir təyin olunmuşdur. Biz bunu çox məmnuniyyətlə qəbul edirik, çünki bu, bizim üçün hər cəhətdən əlverişlidir. Türkiyə ilə Azərbaycan arasındakı dostluq və qardaşlıq əlaqələri o qədər sıxdır ki, siz elə Ankarada oturanda hesab edin ki, Bakıdasınız.

Ancaq bununla bərabər, mən istərdim ki, siz Bakıya tez-tez gələsiniz. Azərbaycanın vəziyyəti ilə daha yaxından tanış olasınız və Azərbaycan ilə sizin təmsil etdiyiniz ölkələr arasında əlaqələrin inkişaf etməsinə daha ciddi səy göstərəsiniz. Güman edirəm ki, siz mənim bu arzu və istəklərimi yerinə yetirəcəksiniz.

Güman edirəm ki, respublikamızdakı vəziyyət mətbuat, informasiya orqanları vasitəsilə sizə məlumdur. Respublikamızın vəziyyətini ən çox xarakterizə edən cəhət ondan ibarətdir ki, Azərbaycan hələ indiyədək qonşu Ermənistan Respublikası ilə müharibə vəziyyətindədir. Doğrudur, son dövrdə aparılan böyük işlər nəticəsində, Ermənistanla Azərbaycan arasında bilavasitə əlaqələr nəticəsində biz cəbhədə atəşin kəsilməsinə nail olmuşuq. Beş aydan artıqdır ki, atəşkəs rejimi davam edir. Ancaq biz bunu böyük sülh yaradılması üçün sadəcə bir mərhələ, vasitə hesab edirik, danışıqlar aparıb beynəlxalq təşkilatların, böyük dövlətlərin vasitəçiliyi ilə Ermənistanla Azərbaycan arasında Böyük Sülh Müqaviləsi əldə etmək istəyirik.

Belə bir müqavilənin bizim tərəfdən əsas şərtləri ondan ibarətdir ki, [454-455] işğal olunmuş Azərbaycan torpaqlarından Ermənistan silahlı qüvvələri qeyd-şərtsiz çıxmalıdır, Azərbaycan Respublikasının ərazi bütövlüyü bərpa olunmalı, təmin edilməlidir, Azərbaycan Respublikasının sərhədlərinin toxunulmazlığı təmin olunmalıdır və Ermənistan silahlı qüvvələrinin hücumu nəticəsində öz yaşayış yerlərindən didərgin düşmüş, hazırda qaçqın vəziyyətində olan bir milyondan çox Azərbaycan vətəndaşı öz yerlərinə, yəni indi işğal altında olan şəhərlərə, qəsəbələrə, kəndlərə qayıtmalıdır. Biz Ermənistan silahlı qüvvələrinin Azərbaycan torpaqlarından çıxarılması məsələsini qaldıranda Azərbaycanın rayonlarının, o cümlədən Şuşa və Laçın rayonlarının da işğalçılardan mütləq azad olunmasını nəzərdə tuturuq.

Azərbaycanın ərazisi, onun ayrılmaz hissəsi olan Dağlıq Qarabağda məsələlərin həll olunmasını isə biz ikinci mərhələdə nəzərdə tuturuq. Bu məsələlərə Dağlıq Qarabağın statusunun müəyyən edilməsi və erməni millətindən olan əhalinin təhlükəsizliyinin təmin olunması daxildir. Əgər bizim şərtlərimiz qəbul olunarsa, şübhəsiz ki, bu məsələləri həll etmək üçün müəyyən qüvvələr Ermənistanla Azərbaycan arasındakı əraziyə daxil olmalıdır. Burada da biz beynəlxalq qüvvələrə üstünlük veririk.

Bütün bu məsələlər barədə biz Ermənistanın rəhbərliyi, şəxsən bu ölkənin prezidenti Levon Ter-Petrosyan ilə, beynəlxalq təşkilatlarla danışıqlar aparmışıq. Bu günlərdə Bakıda səfərdə olan BMT-nin Baş katibi Butros Butros-Qali ilə görüşlərimizdə, danışıqlarımızda da bu problemləri müzakirə etmişik. Bir sözlə, biz altı il davam edən bu müharibəni sülh yolu ilə həll etmək istəyirik.

Respublikanın daxilində bir çox çətinliklər, gərginliklər vardır. Bildiyiniz kimi, Azərbaycanda son illər yaranmış iqtisadi, sosial böhran indi də davam edir və dərinləşmişdir. Bunun səbəbləri aydındır. Həmin səbəblərdən biri də ondan ibarətdir ki, Azərbaycan, demək olar, blokada şəraitindədir. Azərbaycanı şimal ölkələri ilə, yəni Rusiya və başqa ölkələrlə bağlayan dəmir yolu Çeçenistanda baş verən hadisələr nəticəsində üç aydan çoxdur ki, qapanıbdır. Biz əsas dəmir yol magistralından məhrum olmuşuq. Başqa ölkələrlə əlaqələrimiz də məhdudlaşıb. Çünki dəniz nəqliyyatı vasitələrimizdə də çətinliklərimiz çoxdur. Türkiyə ilə əlaqələrimiz dəniz vasitəsizlədir və Gürcüstan ərazisindən keçir. Burada da çətinliklərimiz vardır. Bunların hamısı isə Azərbaycanın iqtisadiyyatında gərginliyi daha da artırır.

Respublikamızda hüquqi dövlət qurulması, demokratik, sivilizasiyalı cəmiyyət yaradılması, insan azadlığının, söz, vicdan azadlığının, siyasi plüralizmin təmin edilməsi, çoxpartiyalı sistemin bərqərar olunması bizim əvvəldən qəbul etdiyimiz prinsiplərdir və biz bu prinsipləri ardıcıl surətdə həyata keçiririk. İqtisadiyyat sahəsində seçdiyimiz strateji yol indi də dəyişməzdir, yəni biz iqtisadiyyatımızı bazar iqtisadiyyatı yolu ilə aparmaq əzmindəyik. İqtisadi islahatlar aparmağa başlamışıq və bunları sürətlə həyata keçirəcəyik.

Azərbaycanda sahibkarlığa, iqtisadiyyatda [455-456] təşəbbüskarlığa geniş imkanlar yaranır və beləliklə də biz ölkəmizi sərbəst iqtisadiyyat, bazar iqtisadiyyatı yolu ilə dünya iqtisadiyyatına daha sıx bağlamağa çalışırıq.

Azərbaycanın daxilindəki ictimai-siyasi vəziyyət, gərginlik də sizə məlumdur. Ölkəmizin daxilində və xaricində olan bəzi qüvvələr – cinayətkar, mafioz, respublikamızın müstəqilliyinə qəsd edən qüvvələr oktyabrın əvvəllərində ictimai-siyasi sabitliyi pozmağa çalışdılar və Azərbaycanda dövlət çevrilişinə cəhd etdilər. Dövlət çevrilişinə bu cəhd bir neçə qüvvə tərəfindən hazırlanmışdı. Lakin bunun iştirakçılarından biri keçmiş baş nazir Surət Hüseynov oldu. Onun ətrafına toplaşan bir qrup hərbi rütbəli adam – polisdə, Müdafiə Nazirliyində olan adamlar Gəncə şəhərində dövlət orqanlarını gecə ələ keçirdilər. Bakıda və Azərbaycanın digər bölgələrində də belə hərəkətlər etmək istəyirdilər.

1993-cü ilin iyun ayında olduğu kimi, Azərbaycan yenə də vətəndaş müharibəsi həddinə gəlib çatmışdı. Bu cinayətkar qüvvələrin, dövlət çevrilişinə cəhd edən qüvvələrin qarşısını almaq üçün şübhəsiz ki, güc işlədilməli, qan tökülməli idi. Ancaq mənim bütün Azərbaycan xalqına, vətəndaşlarına gecə yarısı müraciətim, onların dövlətçiliyimizi, Azərbaycanın müstəqilliyini qorumaq əzmində olması, milli həmrəylik, vətəndaş həmrəyliyi göstərməsi, Azərbaycanın qanuni seçilmiş prezidentini müdafiə etmək əzmi – bunlar hamısı birlikdə dövlət çevrilişinin də, vətəndaş müharibəsinin də qarşısını aldı.

O günlər cinayət etmiş adamların bir çoxu yaxalanmışdır. Amma onların bəziləri, xüsusən təşkilatçıları, o cümlədən keçmiş baş nazir Surət Hüseynov qaçıb gizlənmişdir. Doğrudur, Surət Hüseynovun həmin günlərdə həbs olunması mümkün idi. Ancaq mən prezident kimi rəhm göstərdim və gücdən istifadə olunmasını istəmədim. O gəlib mənimlə bir neçə dəfə danışıqlar apardı, sonra isə öz cinayətkar qüvvələri ilə birlikdə qaçıb aradan çıxdı və gizləndi.

Azərbaycan xalqı respublikamızın müstəqilliyinə qəsd edən bu adamları lənətləyir və onlara nifrət edir. Biz həmin günlərdə Azərbaycan xalqının, vətəndaşlarının tam əksəriyyətinin milli həmrəyliyinin şahidi olduq. Bütün bunlar, şübhəsiz ki, bizim ümumi vəziyyətimizi gərginləşdirmişdir. Amma sizə bildirmək istəyirəm ki, mən çox nikbinəm, hesab edirəm ki, bütün bu çətinliklərin qarşısı alınacaq, respublikamız bu çətin mərhələlərdən keçəcək, Azərbaycan öz müstəqilliyini qoruyub saxlayacaq və möhkəmləndirəcəkdir.

Biz ağır günlərdə dünya ictimaiyyətinin dəstəyini hiss etdik. Bir çox Ölkələrdən Azərbaycanın dövlətçiliyini qorumaq, dəstəkləmək haqqında bəyanatlar aldıq. Ona görə də mən bütün bu dövlətlərə, bizimlə həmrəy olan dövlətlərin hamısına minnətdarlığımı bildirirəm.

Siz ölkəmizdə baş verən hadisələrlə maraqlanırsınız. Bir daha ümidvar olduğumu bildirmək istəyirəm ki, sizin təmsil etdiyiniz ölkələrlə Azərbaycan Respublikası arasında əlaqələr bundan sonra daha da inkişaf edəcəkdir. [456-457]

**Sual**: **Hörmətli prezident, MDB ölkələri dövlət başçılarının bu yaxınlarda Moskvada keçirilmiş görüşü barədə bizə məlumat verə bilərsinizmi ?**

**H. Əliyev**: MDB ölkələri dövlət başçılarının bu görüşü növbəti bir görüş idi. Orada bir çox məsələlər müzakirə olundu. Əsas məsələlərdən biri MDB-yə daxil olan ölkələrin inteqrasiyasının inkişafı haqqında memorandum idi. Şübhə yoxdur ki, MDB-nin üzvü olan ölkələr inteqrasiyanı inkişaf etdirməlidirlər. Ancaq bu əlaqələr, inteqrasiya hər bir dövlətin müstəqilliyinin qorunması və saxlanılması əsasında olmalıdır. İkinci məsələ isə MDB ölkələrinin vahid iqtisadi komitəsinin yaradılması idi. Belə bir orqanın yaradılması zərurəti meydana çıxır, ancaq bu komitə do gərək hər bir ölkənin müstəqilliyinə zərər gətirməsin. Təqdim olunmuş layihələrdə bəzi müddəalar bizdə müəyyən qədər narazılıq doğurdu. Çünki nəzərdə tutulurdu ki, yaradılacaq iqtisadi komitə dövlətlərüstü bir təşkilat olsun. Ona görə də biz bu layihələrin qəbul edilməsində öz xüsusi fikrimizi bildirdik və onların bəzi müddəalarına razı olmadıq. Başqa məsələlər də müzakirə edildi. Biz MDB-ni sadəcə olaraq dövlətlər birliyi kimi qəbul edirik və onun yeni bir fövqəldövlətə çevrilməsi təhlükəsinə qarşı çıxırıq.

**Sual**: **Hörmətli prezident, Siz dediniz ki, atəşkəsdən sonra ikinci mərhələdə Ermənistanla Azərbaycan arasında beynəlxalq qüvvələr yerləşdirilməsi mümkündür. Bu barədə Minsk qrupunun rolu haqqında nə deyərdiniz ?**

**H. Əliyev**: Biz Minsk qrupunun roluna böyük əhəmiyyət veririk və onunla mütəmadi əlaqədəyik. Minsk qrupunun fəaliyyətinin gücləndirilməsinə çalışmışıq və indi do çalışırıq. Bu məsələ Butros Butros-Qali ilə son günlərdə Bakıda apardığımız danışıqların da mərkəzində dururdu. Güman edirəm ki, Minsk qrupu daha yaxşı fəaliyyət göstərsə, təkcə Minsk qrupu yox, 50-dən artıq ölkəni birləşdirən ATƏM təşkilatı bu məsələlərlə daha ciddi məşğul olsa, bizim regionda etibarlı və uzunmüddətli sülhün yaradılmasına nail olmaq mümkündür.

**Sual: Bu yaxınlarda Azərbaycan xarici neft şirkətləri konsorsiumu ilə müqavilə bağladı. Həmin müqavilənin təsdiq olunması barədə nə deyə bilərsiniz?**

**H. Əliyev**: Bilirsiniz ki, bu müqavilənin bağlanması tarixi bir hadisədir və bizim tərəfimizdən atılmış çox cəsarətli bir addımdır. Müqavilənin bağlanması ərəfəsində də, müqavilə imzalandıqdan sonra da onun əleyhinə çıxanlar da oldu. Ancaq bu müqavimətlərə baxmayaraq, biz müqaviləni imzaladıq. Azərbaycanın parlamenti hazırda bu müqaviləni müzakirə edir. Güman edirəm ki, yaxın vaxtlarda müqavilə təsdiq olunacaq.

Sizin hamınızı Azərbaycana dəvət edirəm. [457-458]

## ANKARA YAXINLIĞINDAKI BİLKƏND UNİVERSİTET ŞƏHƏRCİYİNDƏ DAHİ AZƏRBAYCAN ŞAİRİ MƏHƏMMƏD FÜZULİNİN ANADAN OLMASININ 500 İLLİYİNƏ HƏSR OLUNMUŞ YUBİLEY ŞƏNLİKLƏRİNİN TƏNTƏNƏLİ AÇILIŞINDA ÇIXIŞ

*1 noyabr 1994-cü il*

Türkiyə Cümhuriyyətinin hörmətli prezidenti, əziz dostum
və qardaşım Süleyman Dəmirəl!
Hörmətli xanımlar və cənablar!

Bu gün xalqlarımız üçün böyük bayram günüdür. Türk dünyasının, Azərbaycan xalqının, Türkiyə xalqının, bütün türk xalqlarının böyük şairi, alimi, mütəfəkkiri, filosofu Məhəmməd Füzulinin anadan olmasının 500 illiyini Türkiyədə, Ankarada, bu gözəl Bilkənd Universitetinin sarayında təntənə ilə qeyd edirik. Bu salonda toplaşan soydaşlarımıza, qardaşlarımıza, bütün Türkiyə xalqına bu bayram münasibətilə Azərbaycan xalqı adından, Azərbaycan Respublikası adından salamımı yetirir, hörmət və ehtiramımı bildirirəm. Sizin hamınızı, bütün Türkiyə xalqını, türk dünyasını bu böyük bayram münasibətilə təbrik edirəm.

Xalqlarımız çoxəsrlik tarixi ərzində böyük sınaqlardan keçmiş, böyük çətinliklərlə rastlaşmış, özlərinin milliliyini, mənəviyyatını, dilini, dinini yaşatmış, saxlamış və bugünkü xoşbəxt günlərə gətirib çıxarmışlar. Bizim xalqlarımız dünya mədəniyyətinə böyük şəxsiyyətlər bəxş etmiş, dünya sivilizasiyasını elm, mədəniyyət sahəsində dəyərli əsərlərlə zənginləşdirmişlər.

Bu sırada, xalqlarımızın böyük şəxsiyyətləri sırasında Məhəmməd Füzulinin xüsusi yeri var. Beş yüz ildir ki, xalqlarımız Məhəmməd Füzulinin əsərlərindən ilham alaraq, bunların təsiri altında yaşayıb yaradırlar, öz mənəviyyatlarını, öz mədəniyyətlərini yaşadırlar. Məhəmməd Füzuli öz əsərləri, böyük mədəni-mənəvi irsi ilə xalqlarımızın daim bir-biri ilə yanaşı olmasının, birlikdə olmasının əsasını qoymuşdur. Onun əsərləri xalqlarımızın çətinliklərdən keçərək bu günə gəlib çıxmasına daim kömək etmiş, həmişə bizdən ötrü məktəb olmuşdur, bu əsərlərdən dərs almışıq. Füzuli irsinin qiyməti əvəzsizdir. Azərbaycan xalqı Məhəmməd Füzulinin yaratdığı əsərlərin təsiri altında əsrlər boyu və xüsusən XX əsrdə öz mədəniyyətinin inkişafında böyük nailiyyətlər əldə etmişdir. Bəli, Füzulinin 500 il öncə yazdığı "Leyli və Məcnun" poeması əsasında Azərbaycanın böyük bəstəkarı, dahi insanı Üzeyir Hacıbəyov Şərq aləmində, türk [458-459] dünyasında ilk professional opera yaratmışdır. Füzulinin əsərlərinin təsiri altında Azərbaycanın yazıçıları, alimləri, bəstəkarları, rəssamları böyük-böyük əsərlər yaratmış, respublikamızın mədəniyyətini inkişaf etdirmiş, dünya mədəniyyətinə böyük töhfələr vermişlər. Bunlar hamısı Məhəmməd Füzulinin bizə bəxş etdiyi böyük irsdir, Azərbaycan xalqının, türk dünyasının, türk xalqlarının bu günü və gələcəyi üçün böyük örnəkdir.

Bildiyiniz kimi, Azərbaycan xalqı öz tarixində cürbəcür mərhələlərdən keçmişdir. XX əsrin əvvəlindən indiyədək xalqımızın həyatında böyük ictimai-siyasi dəyişikliklər olmuşdur. Ancaq siyasi rejimlərə baxmayaraq, ictimai-siyasi vəziyyətin dəyişməsindən asılı olmayaraq Azərbaycan xalqı heç vaxt öz mədəniyyətini, öz dilini, dinini, mənəviyyatını unutmamışdır, xalqımız Füzuli irsini heç vaxt unutmamış, əksinə, bu irsdən bəhrələnərək bütün çətinliklərdən keçmiş, indi milli azadlığa nail olmuş, özünün müstəqil dövlətini yaratmışdır.

Türkiyə xalqının böyük tarixi var. Türkiyə Cümhuriyyətinin yaranmasından 71 il keçmişdir. Ötən əsrlərdə do, cümhuriyyət dövründə də Türkiyə, Türkiyə xalqı daim türk dünyası üçün örnək olmuşdur. Dahi insan, böyük öndər Mustafa Kamal Atatürkün yaratdığı Türkiyə Cümhuriyyəti 71 il ərzində türkün, türk dünyasının, türk xalqının nəyə qadir olduğunu bütün dünyaya əyani şəkildə nümayiş etdirmişdir.

Azərbaycan xalqı öz milli azadlığı uğrunda mübarizə apararkən, milli istiqlaliyyətinə nail olmağa, milli dövlətçiliyini yaratmağa çalışarkən daim Türkiyə xalqının dəstəyinə, dayağına arxalanmış, Mustafa Kamal Atatürkün qoyduğu yolla gedən Türkiyə Cümhuriyyətinin təcrübəsindən bəhrələnmişdir. Bütün bunlar artıq üç il ərzində mövcud olan müstəqil Azərbaycan Respublikasının yaranmasında və bu illər ərzində möhkəmlənib inkişaf etməsində böyük rol oynamışdır.

Azərbaycan xalqı ilə Türkiyə xalqı arasında, müstəqil Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında qırılmaz tellərlə bağlı olan dostluq və qardaşlıq əlaqələri var. Bu əlaqələri ulu babalarımız yaratmışlar. Bu əlaqələri Məhəmməd Füzuli yaratmış, o bizə nəsihət etmiş, o bizə bəxş etmişdir. Bu gün Türkiyənin, Azərbaycanın dəyərli insanları, vətənpərvər, sülhsevər insanları, vətənlərinə qeyrətlə, namusla xidmət etməyə çalışan adamları bu dostluq və qardaşlıq əlaqələrini genişləndirir və bundan sonra da inkişaf etdirəcəklər.

Azərbaycan Respublikası, Azərbaycan xalqı Türkiyə xalqı ilə, Türkiyə Cümhuriyyəti ilə dostluq və qardaşlıq əlaqələrini, Türkiyə Cümhuriyyətinin Azərbaycana göstərdiyi yardımı və köməyi yüksək qiymətləndirir və həyatının bu ağır dövründə, torpaqlarına erməni təcavüzü davam etdiyi bir zamanda

Türkiyəni, türk xalqını, Türkiyə Cümhuriyyətini özünə böyük dayaq sayır. Bu gün mən burada Azərbaycanın müstəqillik yolu ilə inkişafında bizə dayaq olan, kömək olan qardaş-bacılarımıza, Türkiyə xalqına, Türkiyə Cümhuriyyətinə, Türkiyə dövlətinə bütün Azərbaycan xalqı adından, respublikamızın vətəndaşları adından hörmət [459-460] və ehtiramımı, təşəkkürümü bildirirəm. Əminəm ki, xalqlarımızın əsrlər boyu davam etmiş və indi yüksək zirvəyə qalxmış dostluğu və qardaşlığı sarsılmaz olacaq, bundan sonra da davam edəcəkdir. Sizi əmin edə bilərəm ki, Azərbaycan xalqı milli azadlığı ilə fəxr edir, bu azadlığı heç vaxt eldən verməyəcək, öz müstəqilliyini qoruyub saxlayacaq və bu yolda Türkiyə xalqı, Türkiyə Cümhuriyyəti ilə daim birlikdə olacaqdır.

Bu yubiley mərasimində iştirak etmək üçün Azərbaycandan gəlmək istəyənlərin sayı həddindən artıq çox idi. Alimlər, yazıçılar, dövlət adamları bu mərasimdə iştirak etmək istəyirdilər. Şübhəsiz ki, onların hamısının gəlməsi üçün imkan yox idi. Ancaq hesab edirəm ki, indi bu salona toplaşanlar arasında Azərbaycandan gələnlərlə Türkiyədən olanların sayı. yəqin bərabərdir, yaxud buna yaxındır. Bu onu göstərir ki, Azərbaycan xalqı həmişə Türkiyəyə maraq göstərir, Türkiyə həmişə azərbaycanlıları cəlb edir. Bugünkü bayram günündə Füzulinin yubileyinin burada qeyd olunması və Azərbaycandan böyük bir nümayəndə heyətinin buraya gəl-məsi do bizim dostluq və qardaşlığımızın rəmzidir. Bütün bunlar bizi sevindirir, Türkiyə xalqına sevgi və məhəbbət hissimizi daha da artırır.

Mən İhsan Doğramaçıoğlunun rəhbərliyi altında bu mərasimin təşkilində mühüm xidmətləri olan bütün qardaş və bacılarımıza böyük hörmət və ehtiramımı bildirirəm.

Azərbaycanda Füzulinin 500 illiyini keçirmək üçün böyük komissiya yaradılmışdır. Belə bir komissiyanın Türkiyədə do yaradılması xəbəri bizi sevindirdi. Bu komissiyanın həm başçılarına, həm də üzvlərinə Azərbaycan xalqı adından hörmət və ehtiramımı, təşəkkürümü çatdırıram.

Bu gün daha bir baxımdan əlamətdar gündür. Türkiyə Cümhuriyyətinin prezidenti, əziz dostumuz və qardaşımız, Azərbaycan xalqının sevimli dostu, hörmətli Süleyman Dəmirəlin doğum günüdür. Biz buna "anadan olan günüdür" deyirik. Bu, təsadüfi deyil. 500 il bundan öncə Füzuli doğulub, 70 il bundan öncə də müasir dövrdə türk dünyasının böyük şəxsiyyəti, böyük insan, böyük ictimai-siyasi dövlət xadimi, hörmətli Süleyman Dəmirəl doğulmuşdur. Bu onu göstərir ki, Füzuli dünyası, Füzuli nəsli davam edir, dünya birliyinə, dünya mədəniyyətinə böyük insanlar bəxş edir. Belə böyük insanlar sırasında Türkiyənin həyatında 40 ildən artıq siyasi fəaliyyət göstərən, dövlətə sədaqətlə xidmət edən Süleyman Dəmirəl kimi insan da vardır.

Əziz dostum, qardaşım Süleyman bəy! Doğum günü münasibətilə sizi bütün Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edir, sizə cansağlığı, xoşbəxtlik arzulayır, Türkiyə xalqının gələcəyi naminə, bütün türk dünyasının gələcəyi naminə işlərinizdə uğurlar diləyirəm.

Azərbaycan Elmlər Akademiyası əziz dostumuz, qardaşımız İhsan [460-461] Doğramaçıoğlunu Respublika Elmlər Akademiyasının fəxri akademiki seçmişdir. Biz İhsan Doğramaçıoğlunu Azərbaycanda gözləyirdik. O, vaxtı olmadığından gələ bilmədi. Ona görə də xahiş edirəm, imkan verəsiniz, Azərbaycan Elmlər Akademiyasının prezidenti, akademik Eldar Salayev İhsan Doğramaçıoğluna akademiyamızın fəxri akademiki diplomunu təqdim etsin.

Eşq olsun türk dünyasına, eşq olsun Türkiyə xalqına!

Yaşasın ədəbiyyatımız, mədəniyyətimiz, mənəviyyatımız!

Yaşasın sarsılmaz Türkiyə-Azərbaycan dostluğu!

Sağ olun. [461-462]

## TÜRKİYƏNİN XARİCİ İQTİSADİ ƏMƏKDAŞLIQ KOMİTƏSİNİN ÜZVLƏRİ – İŞGÜZAR DAİRƏLƏRİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

*1 noyabr 1994-cü il*

Hörmətli xanımlar və cənablar!
Hörmətli dostlar və qardaşlar!

Məni və mənimlə birlikdə Türkiyəyə gəlmiş nümayəndələri bu gün buraya dəvət etdiyinizə, bizə göstərdiyiniz qonaqpərvərliyə görə təşəkkürümü bildirirəm. Bu, sizinlə, yəni Türkiyənin iş adamları ilə mənim ikinci görüşümdür. Birinci görüşümüz bu ilin fevralında, mənim Türkiyəyə rəsmi səfərim zamanı olmuşdur. O zaman biz İstanbulda görüşmüş, geniş söhbət etmişdik.

Bildiyiniz kimi, indi mən buraya Azərbaycan xalqının, bütün türk xalqlarının böyük şairi Məhəmməd Füzulinin anadan olmasının 500 illik yubileyi münasibətilə gəlmişəm. Yubiley Azərbaycanda geniş qeyd olunur və Türkiyədə də qeyd edilir. Bu, bizim bir kökdən olduğumuzu, eyni tarixə, eyni əbədi irsə malik olduğumuzu bir daha sübut edir. Mən bu yubiley münasibətilə Türkiyəyə gəlmişəm və sizin bu fürsətdən istifadə edərək təşəbbüs göstərib mənimlə belə görüş təşkil etməyiniz məni çox sevindirmişdir. Ona görə də sizə təşəkkür edirəm.

Hörmətli başqanımız Əli Hücət burada çox gözəl nitq söyləyərək, Azərbaycan ilə Türkiyə arasındakı iqtisadi əlaqələrin vəziyyətini təhlil etdi, olduqca maraqlı fikirlər irəli sürdü. Doğrusu, xarici işlər naziri Həsən Həsənov bu görüşün keçiriləcəyini bildirərkən belə hesab edirdim ki, bizim bu sahədə işlərimiz çox normal vəziyyətdə, normal durumdadır və burada sadəcə olaraq görüşüb bəzi söhbətlər aparacaq, bir-birimizə suallar verəcəyik. Ancaq hörmətli Əli Hücətin, – iqtisadi əlaqələrimizlə bağlı işə qəlbdən, candan yanaşan bir insanın öz çıxışında bizə verdiyi məlumatlar, bilgilər, doğrusunu deyim, məni bir tərəfdən narahat etdi, ikinci tərəfdən, mənim üçün çox əhəmiyyətli oldu. Çünki Azərbaycan öz müstəqilliyini əldə etməkdən əvvəl də – artıq 90-cı illərdən başlayaraq xarici ölkələrlə, ilk növbədə Türkiyə ilə iqtisadi əlaqələr yaratmağa, bunları inkişaf etdirməyə çalışırdı.

Ancaq üç il öncə Azərbaycan müstəqil dövlət olduqdan sonra, şübhəsiz ki, bütün ölkələrlə iqtisadi əlaqələri inkişaf etdirməyə ehtiyac duymuşdur. Lakin bu ölkələrdən həm milli köklərimizə, adət-ənənələrimizə, dilimizə, dinimizə görə, tarixi keçmişimizin eyniliyinə görə, həm də coğrafi baxımdan yaxınlığımıza, həmsərhəd olduğumuza görə Azərbaycan üçün ən doğması Türkiyədir. Azərbaycan öz əlaqələrini ilk növbədə [462-463] Türkiyə ilə yaratmalı, inkişaf etdirməli idi və mən hesab edirəm ki, bu proses getmişdir. Lakin təəssüflər olsun, bu proses istənilən səviyyəyə qalxmamışdır və indi mənə aydın oldu ki, bunun təqsirinin çoxu sizdə deyil, Azərbaycandadır.

Doğrusu, buraya gələrkən düşünürdüm – sizə narazılığımı bildirəcəyəm ki, Türkiyənin iş adamları Azərbaycana maraq göstərmir, ölkəmizə gəlmir, sərmayə qoymurlar. Çünki mən bilirəm ki, Türkiyənin iş adamları bir çox ölkədə, yəni keçmiş Sovetlər İttifaqına daxil olan ölkələrdə, məsələn, Rusiyada, Orta Asiya respublikalarında böyük işlər görürlər.

Bir neçə gün öncə biz Türkiyənin cümhur başqanı, hörmətli dostum, əziz qardaşım Süleyman Dəmirəl ilə Aşqabatda idik, Türkmənistanın istiqlaliyyətinin üçüncü ildönümü münasibətilə keçirilən mərasimlərdə iştirak edirdik. Mən orada hiss etdim ki, Türkiyənin iş adamları Türkmənistanda çox işlər görürlər. Türkmənistan və Azərbaycan dost, qardaş ölkələr olduğuna görə, mən buna çox sevindim. Eyni zamanda düşündüm ki, bəs nə üçün Azərbaycanda onların bu işləri görünmür? Ya bu işlər yoxdur, ya da bunları elə xəlvət görürlər ki, Azərbaycan prezidenti kimi mənim bundan xəbərim yoxdur.

Ancaq indi bildim ki, Azərbaycanda bu işlər çox zəif gedir. Əgər səbəblər doğrudan da Azərbaycanın qanunlarının buna imkan verməməsindən, ayrı-ayrı şərtlərin olmamasından ibarətdirsə, şübhəsiz ki, bunları tezliklə aradan qaldıra bilərik və mütləq aradan qaldırmalıyıq. Çünki siz bunu qəti bilməlisiniz, yəqin ki, məlumatınız var, – Azərbaycanın vəziyyəti keçmiş Sovetlər İttifaqına daxil olan digər türk cümhuriyyətlərinin durumundan çox fərqlidir. Bu fərq də ondan ibarətdir ki, Azərbaycan altı ildir müharibə şəraitindədir. Ermənistan silahlı qüvvələri Azərbaycana təcavüz etmişdir, torpaqlarımızın 20 faizi işğal olunmuşdur. Həmin ərazilərdən bir milyondan çox Azərbaycan vətəndaşı qaçqın düşmüşdür. Onların xeyli hissəsi çadırlarda yaşayır. Ümumiyyətlə, qaçqınlar çox ağır vəziyyətdədirlər. Bütün bunlar Azərbaycanın iqtisadiyyatının geriləməsinə səbəb olmuşdur.

Lakin Azərbaycanın uzun illər ərzində yaranmış böyük iqtisadi potensialı var. Əvvəla, Azərbaycanın təbii sərvətləri zəngindir, ikincisi sənaye potensialımız güclüdür. Azərbaycana gəlib-gedənlər bilirlər ki, bizdə neftayırma, neft kimyası, maşınqayırma, metallurgiya, elektrotexnika, elektronika, yüngül sənaye sahələrinin iri istehsal müəssisələri, digər fabrik və zavodlar var. İndi bunların çoxu tam gücü ilə işləmir. Azərbaycanın başqa imkanları da var. Ona görə də Azərbaycana kapital qoymaq, iş görmək üçün imkanlar çox genişdir. Ancaq

hələlik buna nail ola bilməmişik. Bəzi ölkələrin iş adamları, guya Azərbaycan müharibə şəraitində, olduğuna görə, bəziləri isə Azərbaycanın daxilində sabitlik olmadığına görə gəlmək istəmirlər.

Lakin bu, belə deyil, Azərbaycan müharibə vəziyyətindən çıxacaq. Beş aydan artıqdır ki, atəşkəs yaranmışdır. Biz çox çalışırıq ki, bu atəşkəs [463-464] dövründə böyük sülh yaradaq, müharibəyə tamamilə son qoyaq. Ancaq bu da bir şərtlə bağlıdır ki, Azərbaycanın işğal edilmiş torpaqları azad olunmalı, onun ərazi bütövlüyü təmin edilməlidir. Azərbaycanın Ermənistanla müharibə vəziyyətində olması müvəqqəti haldır.

Daxili sabitliyə gəldikdə isə, doğrudur, bəzi hadisələr var. Ancaq son hadisələri, yəni oktyabrın əvvəlində Azərbaycanda dövlət çevrilişi cəhdlərinin qarşısını Azərbaycan xalqının necə aldığını siz gördünüz. Dövlət çevrilişi etmək istəyən cinayətkar qüvvələr – həm Azərbaycanın daxilində, həm də onun xaricində olan bu qüvvələr bir gecənin içində məhv oldular. Bəziləri yaxalandı, bəziləri də qaçıb gizləndi.

Azərbaycanın iqtisadiyyatında çətinliklər yaranmasının bir səbəbi də odur ki, uzun müddət, yəni bir ildən artıq baş nazir vəzifəsində Surət Hüseynov kimi çox səriştəsiz adam olmuşdur. O, həm də cinayətkar ünsürlərlə əlaqədə idi. Ona görə də bəzi məsələlərdə bizdən ötrü maneə, əngəl idi. Son vaxt belə oldu ki, o, dövlət çevrilişi etmək istədi, lakin xalq onun cavabını verdi. Onu həmin gecə həbs etmək olardı, lakin mən ona rəhm etdim, insanpərvərlik göstərib həbs olunmasına imkan vermədim. Ancaq o, bunu da başa düşmədi, bir neçə gündən sonra bəzi cinayətkarları da başına toplayaraq qaçdı. İndi gizlənir. Azərbaycanın daxilində, yaxud xaricində olmasını arayıb tapacağıq.

Yəni demək istəyirəm ki, oktyabrın əvvəlində olan hadisələr Azərbaycanın daxilindəki sabitliyi pozmağın mümkünsüzlüyünü sübut etdi. Azərbaycan dövləti güclü, möhkəmdir. Xalq onu dəstəkləyir. Həmin gecə bütün dünya bunu gördü.

Ona görə də Azərbaycanda iş görmək imkanları var. Ancaq siz də, biz də əl-ələ verib bu imkanlardan istifadə etməliyik. İndi Azərbaycan öz iqtisadiyyatını dünya iqtisadiyyatı ilə bağlayır. Əgər dünyanın doqquz-on böyük neft şirkəti Azərbaycanda iş görmək üçün müqavilə bağladısa, 3 milyard dollardan çox kapital qoymaq qərarına gəldisə, demək, onlar Azərbaycanın bu gününə də, gələcəyinə də inanırlar. Elə buna görədir ki, daxildə və xaricdə olan düşmənlərimiz aranı qarışdırmaq istədilər. Lakin biz bunun qarşısını aldıq.

Yəni demək istəyirəm ki, neft müqaviləsini imzalamağımız bütün iş adamları üçün, o cümlədən Türkiyənin iş adamları üçün həm böyük örnəkdir, həm də sübut edir ki, Azərbaycanda iş görmək, buraya çoxlu kapital qoymaq olar. Ancaq bundan ötrü Azərbaycan tərəfindən maneələr, əngəllər varsa, – mənim dostum Əli Hücət bunların bir neçəsi barədə burada məlumat verdi, mən onun nitqinin mətnini götürüb Azərbaycana qayıdandan sonra orada müzakirə edəcəyəm, – bu işlərin hamısını qaydaya salacağıq. Yəni, əgər xarici ölkələrin kapitallarının qorunması üçün qanun yoxdursa, qəbul edəcəyik, yaxud vergi məsələsindəki əngəlləri aradan qaldıracağıq.

Bir sözlə, Azərbaycanın prezidenti kimi mənim fikrim budur ki, Azərbaycanın qapıları bütün xarici ölkələrin iş adamları üçün, ilk növbə[464-465]də Türkiyənin iş adamlarından ötrü açıq olmalıdır. Kim harada, nə iş görə bilirsə, gəlsin görsün. Hesab edirəm ki, bundan həm iş adamları, həm də Azərbaycan mənfəət götürəcək. Kimin nə qədər mənfəət götürməsi, şübhəsiz ki, aydınlaşdırılacaq. Çünki mən hesab etmirəm ki, iş adamları gəlib Azərbaycana zərər vura bilər, yaxud da respublikamızda onlara zərər vurula bilər. Ola bilməz. Əgər haradasa belə şey olarsa, biz bunun qarşısını ala bilərik. Ona görə də sizə müraciətim, sizdən ricam budur ki, qorxmayın, çəkinməyin, gəlin, Azərbaycanda birlikdə iş görək.

Azərbaycan sərbəst iqtisadiyyat yolu ilə gedir. Mənim dostum burada dedi ki, biz bilmirik, – siz kapitalist sistemindəsiniz, yoxsa sosialist sistemində. Doğrudan da, indi biz keçid mərhələsindəyik. Siz kapitalist sistemi deyirsiniz, mən sərbəst iqtisadiyyat, bazar iqtisadiyyatı deyirəm, – indi biz həmin bu sistemə keçirik. Bu o qədər də asan iş deyil, bunu bilirsiniz. Türkiyənin özündə 71 ildir ki, cümhuriyyət quruluşunda yaşayırsınız, lakin bu günlərdə özəlləşdirmə haqqında yeni bir qanun qəbul edirsiniz. Mən bunu eşidəndə fikirləşdim ki, əcəba, Türkiyədə hələ özəlləşdirilməmiş bir şey qalmışdırmı? Üstəlik, həmin qanunla bağlı məclisdə, mətbuatda çəkişmələr gedir ki, bu, olacaq, yaxud olmayacaq, bu işi kim görsə, Türkiyənin qəhrəmanı olacaq, görməsə, nə bilim nə olacaq.

Amma Azərbaycanın bütün iqtisadiyyatı hələlik sosialist iqtisadiyyatıdır. Bundan bazar iqtisadiyyatına keçmək üçün, şübhəsiz ki, vaxt lazımdır. Lakin ola bilər bu vaxtı uzadasan, bir də var ki, həmin mərhələni qısa müddətdə – bir ilə, iki-üç ilə keçəsən. Bundan ötrü isə siz bizə yardım etməlisiniz. Sizin yardımınız olmasa, sizin təcrübənizdən istifadə etməsək, çətin olacaq. Bilirsiniz, bizim adamlar sosializm quruluşunda doğulub həmin quruluşda da yaşamışlar. Mən 1923-cü ildə doğulanda sosializm quruluşu var idi. Mən o quruluşda yaşamışam. Bilirəm ki, sosializm quruluşu Azərbaycana nə verdi, orada nə yaratdı, sosializm quruluşunun yaratdığı potensialdan indən belə sərbəst iqtisadiyyat, bazar iqtisadiyyatı yoluna keçərək nə əldə edə bilərik. Mən bunu bilirəm. Ancaq hamı bunu bilmir. Bəziləri mühafizəkardır, deyirlər ki, yox, elə bu yaxşıdır, onu əldən verməyəcəyik. Bəziləri yeni iqtisadiyyata keçməyin yolunu bilmirlər, yanlış yolla gedirlər.

Ona görə də sizin Azərbaycanda çalışmağınız həm iş olacaq, bir nəticə verəcək, həm də Azərbaycanın bu keçid mərhələsini daha sürətlə adlamasına kömək edəcəkdir. Mən sizi buna dəvət edirəm. Vaxtınızı çox almaq istəmirəm, prinsip sizə məlum olsun, əvvəla, Azərbaycan müstəqil dövlətdir, nə olursa-olsun, bu

müstəqilliyi heç vaxt əldən verməyəcəkdir. Qırılsaq da, ölsək də müstəqilliyimizi əldə saxlayacağıq. Əgər bizi də qırsalar, balalarımız müstəqilliyimizi davam etdirəcəklər. İkincisi, Azərbaycan keçmiş sosializm quruluşuna bir daha qayıtmayacaq. Bunu da bilməlisiniz. Sosializm sisteminin ən böyük adamlarından biri mənəm, özü də təkcə Azərbaycanda yox, bütün keçmiş Sovetlər Birliyində. Mən [465-466] vaxtilə Sovetlər dövləti kimi bir fövqəldövlətin başında duran adamlardan biriyəm. Əgər mən bu sözləri deyirəmsə, buna inanın. Kim bunu anlamırsa, prezident kimi, böyük siyasi təcrübəsi olan adam kimi mən Azərbaycanda onları anladacağam ki, Azərbaycan bir daha sosializm sisteminə qayıtmayacaqdır. Azərbaycanın yolu sərbəst iqtisadiyyat yoludur. Bu yolda bizim çətinliklərimiz olacaq. Heç bir ölkə, heç bir dövlət sərbəst iqtisadiyyata asanlıqla keçməmişdir. Ola bilər, bizim payımıza, şəxsən mənim payıma belə çətin dövr düşmüşdür. Mən bu dövrü yaşayacağam, amma məndən sonra gələn adamlar daha asan, daha sərbəst zəmanədə yaşayacaqlar. Ancaq hər kəs öz payına düşən vəzifəni yerinə yetirməlidir. Mən də öz vəzifəmi yerinə yetirəcəyəm, buna arxayın ola bilərsiniz.

Demək, bu şərtlər olduğu halda Azərbaycanın daxilində sabitliyi təmin edəcəyəm, bundan xatircəm ola bilərsiniz. Müharibədən də, inşallah, çıxacağıq. Ona görə də gecikməyin, gəlin Azərbaycanda iş quraq. Sizə bir də söz verirəm: mən dostumun bugünkü nitqinin mətnini özümlə götürürəm və Azərbaycana qayıdan kimi toplantılar keçirərək, sizdən ötrü əngəl törədən bütün məsələlərin aradan qaldırılmasını təmin edəcəyəm. Ancaq bir şərtlə ki, bu, bizim qanunlara uyğun olsun, eyni zamanda iqtisadiyyatımıza zərər vurmasın. Bunu da bilməlisiniz. Əməkdaşlıq həm iş adamları üçün, həm də Azərbaycan üçün qarşılıqlı surətdə faydalı olmalıdır. Bunu yaxşı təşkil etmək üçün qayda-qanunlar necə olmalıdırsa, elə də edəcəyik. Mən bunu sizə söz verir və sizi Azərbaycana dəvət edirəm. Xahiş edirəm cəsarətli olun, Azərbaycana gəlin, birlikdə onun iqtisadiyyatını qaldıraq, inkişaf etdirək. Sağ olun. [466-467]

## TÜRKİYƏDƏ YAŞAYAN AZƏRBAYCANLILARLA GÖRÜŞDƏ ÇIXIŞ

*1 noyabr 1994-cü il*

Hörmətli cənablar, xanımlar!
Hörmətli dostlar, qardaşlar, həmvətənlər!

Bildiyiniz kimi, bu gün mən və mənimlə bərabər Azərbaycandan bir qrup ziyalı, dövlət adamları böyük şairimiz, böyük insan Məhəmməd Füzulinin anadan olmasının 500 illiyi münasibətilə Türkiyədə keçirilən yubiley mərasimlərində iştirak etmək üçün buraya, Ankaraya gəlmişik. Bu böyük bir hadisədir. Yəni Azərbaycanın və bütün türk dünyasının böyük şairi, yazıçısı, mütəfəkkir insanı Məhəmməd Füzulinin yubileyinin həm Azərbaycanda, həm Türkiyədə, həm də başqa türk dövlətlərində keçirilməsi onu göstərir ki, biz keçmişimizə, ədəbi irsimizə böyük hörmət və ehtiramla yanaşırıq, eyni zamanda milli köklərimiz, birgə tariximiz əsrlər boyu bizi bir-birimizə yaxın edib, bir-birimizə bağlayıb, indi daha da sıx bağlayır.

Bu bayram münasibətilə, – bu, bizim üçün bayramdır, – mən sizi və bütün Türkiyə xalqını ürəkdən təbrik edirəm və əmin olduğumu bildirmək istəyirəm ki, Məhəmməd Füzulinin yaratdığı əsərlər bundan sonra gələn nəsilləri də xalqa, millətə, torpağa, Vətənə sədaqət ruhunda tərbiyə edəcək, hazırlayacaqdır. Şübhəsiz ki, bu münasibətlə mənim burada dövlət başçıları ilə görüşlərim olacaqdır. Bunlar hamısı Azərbaycan ilə Türkiyə arasındakı dostluq və qardaşlıq əlaqələrinin günü-gündən inkişaf etməsinə yönəldilməlidir.

Bildiyiniz kimi, Azərbaycan oktyabrın 18-də öz müstəqilliyinin üçüncü ildönümünü qeyd etdi. Üç ildir ki, Azərbaycan müstəqil bir dövlətdir. Bu illər ərzində Azərbaycan böyük, çətin bir yol keçmişdir və həmin yol ilə getməkdədir. Müstəqilliyini əldə edən gündən indiyədək Azərbaycanın ən yaxın dostu, bizə ən yaxın ölkə, ən yaxın qardaş Türkiyə xalqı, Türkiyə Cümhuriyyəti olub. Dünya dövlətləri içərisində Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkə Türkiyə Cümhuriyyəti olub. Azərbaycanın müstəqilliyinə yardım edən də Türkiyə Respublikasıdır. Biz bu dostluq, qardaşlıq əlaqələrinin bəhrələrini bu gün də görürük və gələcəyə də böyük ümidlə baxırıq. Ona görə də biz həmişə buraya gələndə elə bilirik ki, öz doğma torpağımıza, öz məmləkətimizə gəlirik. Eyni zamanda mən belə hesab edirəm ki, Türkiyədən Azərbaycana gələn hər bir adam da orada özünü öz məmləkətində, öz doğma torpağında olduğu kimi hiss edir.

Bütün Türkiyə bizim qardaşımız, dostumuzdur. Amma eyni zamanda burada Azərbaycandan çıxmış, yəni kökləri, əcdadları, dədə-babaları [467-468] Azərbaycan torpağından olan insanlar da yaşayırlar. Onlar Azərbaycana daha çox maraq göstərirlər. Çünki dədələrini, babalarını, ulu babalarını görməyiblərsə də, nəsildən-nəsillərə keçən söhbətlər, sözlər onların qəlbində, ürəyində Azərbaycan torpağına bağlılığı həmişə saxlayıbdır.

Doğrudur, biz Sovet hakimiyyəti şəraitində yaşadığımız 70 ildə, Azərbaycan ilə Türkiyə arasında əlaqələrin olmadığı bir dövrdə çoxları belə hesab edirdi ki, bəlkə də insanlar bir-birini unudublar. Ancaq sərhədlər açılandan, əlaqələr düzələndən sonra məlum oldu ki, 70 il yox, heç 700 il də insanların bir-birinə bağlılığını qıra bilməz, insanlar bir-birini unuda bilməz. Ona görə də biz Türkiyəyə gələndə kökü Azərbaycandan olan buradakı soydaşlarımızla, dostlarımızla, qardaşlarımızla görüşməyi şübhəsiz ki, çox böyük bir hadisə hesab edirik.

Mənə dedilər ki, Ankarada yaşayan azərbaycanlıların, bizim dostlarımız, qardaşlarımızın bir qrupu buraya toplaşıb, mənimlə görüşmək istəyir. Mən bu təklifi çox məmnuniyyətlə qəbul etdim. Hamınızı ürəkdən salamlayıram, ulu babalarınızın torpağı olan Azərbaycandan sizə salamlar gətirmişəm, hamınıza ürəkdən, qəlbdən cansağlığı, xoşbəxtlik arzulayıram.

Yaxşı bilirik ki, Türkiyədə hər bir vətəndaş, xüsusən Azərbaycanla bağlı olan hər bir insan Azərbaycanın vəziyyətini həmişə izləyir, ölkəmizin müstəqilliyinin qorunması üçün rahatsızlığını bildirir, həmişə müəyyən düşüncələrlə yaşayır ki, görəsən Azərbaycanın müstəqilliyi davam edəcəkmi, bu müstəqillik gələcəkdə də olacaqmı, yeni bir şey olmayacaq ki? Mən bu hissləri başa düşürəm, bilirəm ki, bu suallar burada olan dostlarımızı, həmvətənlərimizi həmişə narahat edir. Bu da təbiidir. Çünki əvvələn, Azərbaycan öz müstəqilliyini hələ 1918-ci ildə əldə etdi və qısa müddətdən sonra itirdi. İkincisi də indi yenidən öz müstəqilliyini əldə edən Azərbaycanın başına ötən üç ildə o qədər bəlalar gəldi ki! Ermənistanın Azərbaycana qarşı təcavüzü altı ildir ki, davam edir. Azərbaycan torpaqlarının bir hissəsi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuşdur. İşğal olunmuş bu torpaqlardan bir milyondan artıq qaçqın vardır. Bunlarla yanaşı, Azərbaycanın daxilində çoxlu gərgin, mürəkkəb ictimai-siyasi proseslər gedib, dəyişikliklər olub. Üç ildə üç dəfə hakimiyyət dəyişib. Ona görə də sizin narahatlığınız, əlbəttə ki, təbiidir.

Ancaq mən sizi əmin edə bilərəm ki, rahat olun, birincisi, Azərbaycanın müstəqilliyi əbədidir, heç kəsin buna şübhəsi olmasın. Yəni tarixin inkişafı artıq elə bir yoldadır ki, bu müstəqilliyi pozmaq, dağıtmaq mümkün deyil. O demək deyil ki, biz hamar yolla gedirik. O demək deyil ki, biz böyük bir qatara minib rahat oturmuşuq

və bu da bizi müstəqillik yolu ilə xoşbəxt gələcəyə aparır. Yox, bu müstəqilliyin əldə olunması nə qədər çətin idisə, onun saxlanılması, daimi, yəni əbədi olması bundan da çətindir. Ona görə də bu, sizə o qədər də asan gəlməsin. Ancaq mən sizə deyə bilərəm ki, Azərbaycanda yaşayan Azərbaycan vətəndaşlarının, azərbaycanlıların tam əksəriyyəti, – deyə bilmərəm ki, hamısı, çünki ürəyində başqa fikirlərlə yaşayan adamlar da var, – tam əksəriyyəti bu [468-469] müstəqilliyi əldən vermək istəmir. Bu, xalqın fikridir, xalqın rəyidir. O ki qaldı bizim iradəmizə, bir prezident kimi şəxsən mənim iradəmə, arxayın ola bilərsiniz, – Azərbaycanın müstəqilliyini bundan sonra da göz bəbəyimiz kimi qoruyacağıq və heç kəs bizim bu müstəqilliyimizi əlimizdən ala bilməyəcəkdir. Buna əmin ola bilərsiniz.

200 il ərzində böyük bir dövlətin tərkibində olan bir xalqın içində bəzi adamlar var ki, o tərəfə meyl edir, yəni ürəyində o keçmiş hissləri yaşadır. İkinci tərəfdən, 200 il Azərbaycanı öz pəncəsi altında saxlayan imperiya Azərbaycanın müstəqilliyinə heç cür razı ola bilmir: necə ola bilər ki, Azərbaycan onun tərkibindən çıxsın, müstəqil olsun? Ola bilər bir il, iki il, üç il dözsün...

Yəni bizim qarşımızda belə ağır, çətin yol var. Mən sizi rahatsız etmək istəmirəm, sadəcə, real vəziyyəti sizə deyirəm. Ancaq nə qədər çətin, ağır olsa da biz bu müstəqillik yolu ilə gedəcəyik. Mən sizə xalqın iradəsini, öz iradəmi deyirəm. Nə qədər çətin olsa da, biz bu yolla gedəcəyik. Buna arxayın olun. Müstəqilliyimizi əlimizdən verməyəcəyik. Mən bilirəm ki, bu yolda Türkiyə həmişə bizim dayağımız olub, olacaq. Türkiyədə yaşayan həmvətənlərimiz, soydaşlarımız daimi bizimlə olacaq, bizə yardımçı olacaq, bizə mənəvi dayaq göstərəcəklər və hamımız birlikdə bu yolu başa çatdıracağıq.

Mən sizin qarşınızda bir neçə saat məlumat verə bilərəm. Ancaq o qədər vaxt yoxdur. Ona görə də qısa olaraq bir neçə kəlmə demək istəyirəm. Bizim ən böyük dərdimiz Ermənistanın Azərbaycana təcavüzüdür. Altı il davam edən müharibədə, deyə bilmərəm ki, Azərbaycan xalqı, necə deyərlər, fərsiz, yaxud da aciz olub, ona görə də torpaqları işğal edilib. Yox, Azərbaycan xalqı əsrlər boyu öz qəhrəmanlığını, cəsurluğunu göstərib, öz mənliyini sübut edib, dünyaya nümayiş etdirib. Ancaq bu altı il müddətində çoxlu mürəkkəb proseslər gedib, çətinliklər yaranıb. Bir tərəfdən Azərbaycana rəhbərlik edən adamların bəzilərinin fərsizliyi, fəaliyyətsizliyi, satqınlığı, ikinci tərəfdən Ermənistana müxtəlif yerlərdən göstərilən kömək, yardım və s. – bunlar hamısı bizi gətirib bu bəlaya çıxarıbdır.

Keçmiş haqqında çox danışmaq istəmirəm. Bunu tarix təhlil edəcək, göstərəcək, bugünkü gün də göstərəcək. Bizdən sonra gələn nəsillər də bunu təhlil edəcək. Hər halda Azərbaycan gərək bu vəziyyətə düşməyəydi, öz torpaqlarını əldən verməyəydi, gərək Ermənistanın təcavüzünün qarşısını alaydı. Azərbaycan xalqı bunlara qadir idi. Ancaq bunlar əldən verilib. İndi Azərbaycanın torpaqlarının 20 faizi işğal altındadır, bir milyondan artıq qaçqın var. Qaçqınların çoxu çadırlarda yaşayır. Qarşıdan qış gəlir, vəziyyət ağırdır. Onlar belə çətin vəziyyətdə yaşayırlar.

Azərbaycanın iqtisadi vəziyyəti ağırdır. Bilirsiniz ki, bu 70 ildə biz bir-birimizdən ayrı olmuşuq. Bu 70 ilin mənfi cəhətləri də var. Amma nailiyyətləri də var. Azərbaycan xalqı bu 70 il ərzində təhsillənib, elmlənib, biliklənib. Bax, görürsünüz, onların bir çoxu burada oturub, bizim [469-470] şairlərdir, alimlərdir. Bunlar hamısı 70 il ərzində yetişən adamlardır. Dahi Füzulini yaşadan bu adamlardır. Azərbaycanda Füzuli haqqında nə qədər əsərlər yazılıb. Mən cəsarətlə deyə bilərəm ki, heç bir ölkədə Füzulinin yaradıcılığı, onun dünya mədəniyyətinə verdiyi töhfələr Azərbaycandakı kimi təhlil olunmayıb. Bunlar hamısı Azərbaycanda həyata keçib.

Ötən 70 ildə Azərbaycanın elmi potensialı yaranıb, respublikamızın böyük iqtisadi potensialı da yaranıb. Azərbaycan qurulub, yaşayıb, yəni Azərbaycan xalqı bu rejimi qəlbən qəbul etməsə də, bu rejimin içərisində öz işini görüb, irəliyə gedib, inkişaf edib. Ancaq Azərbaycanın bu böyük iqtisadi potensialından istifadə etmək imkanları indi çox məhdudlaşıbdır. Biz bir sistemdən o biri sistemə keçmişik. Bir çox iqtisadi islahatlar həyata keçirməliyik. Son altı ildə Azərbaycan iqtisadiyyatında quruculuq prosesləri yoxdur, dağıdıcı proseslər gedir. Bizim yüksək texnologiyaya malik fabrik və zavodlarımız var, lakin onlar indi dayanmışdır. Biz onları işlədə bilmirik. Xammal yoxdur, yaxud da Rusiya ilə, başqa ölkələrlə əlaqələr qırıldığına görə ayrı-ayrı mallar alınmır. Digər tərəfdən, yollarımız da bağlıdır.

Bizim əsas dəmir yolumuz Şimali Qafqazdan keçir. Çeçenistanda baş verən hadisələrlə əlaqədar üç aydır ki, dəmir yolu bağlıdır. Azərbaycan blokada şəraitindədir. Dəmir yolu bağlanıb. Başqa dəmir yolumuz da yoxdur. Xəzər dənizində nəqliyyat əlaqələrimiz, əlbəttə ki, dəmir yolu qədər deyil, məhduddur. Təsəvvür edin, əgər biz indi Rusiyadan çətinliklə buğda gətirmək istəyiriksə, gərək onu Rusiyadan Qazaxıstana keçirək, oradan Özbəkistana, Türkmənistana aparılsın, bundan sonra Krasnovodsk limanına və buradan da gəmi ilə gətirilib Bakıya çatdırılsın. Bu buğdanın nəqliyyat xərcləri onun öz qiyməti qədərdir. Bax, Azərbaycan belə bir ağır vəziyyətdə yaşayır.

Azərbaycan xalqı bu ağır şəraitdə də öz müstəqilliyini, öz torpaqlarını qorumaq əzmindədir. Müharibə şəraitində iqtisadi böhrandan çıxmaq üçün biz bir çox tədbirlər görürük. Danışıqlar nəticəsində beş aydan artıqdır ki, atəşin kəsilməsinə nail olmuşuq. Altı il davam edən müharibədə bu, ilk hadisədir. Yəni ilk elə bir dövrdür ki, beş aydan çox atəş, müharibə yoxdur. Amma bundan əvvəl biz hər gün şəhidlər verirdik. Bizim vətəndaşlar hər gün həlak, şəhid olurdular. İndi müharibə dayanıb, qan tökülmür. Ancaq bu o demək deyil ki,

biz buna dözə bilərik. Bizim torpaqlarımız işğal altındadır. Bir milyondan artıq qaçqın var. Biz bu işğalın davam etməsinə imkan verə bilmərik. İmkan verə bilmərik ki, ermənilər bu torpaqların elə həmişə onların əlində olacağını düşünsünlər. Yox! Biz siyasi tədbirlər görürük ki, sülh yaradaq. İşğalçı qüvvələri sülh yolu ilə oradan çıxardaq. Qaçqınlar öz yerlərinə qayıtsınlar. Bu barədə bir çox tədbirlərimiz var. Biz beynəlxalq təşkilatlar – BMT, ATƏM, onun Minsk qrupu ilə sıx əlaqədəyik. Bu yaxınlarda BMT-nin Baş katibi Butros Qali üç gün Bakıda səfərdə oldu. Onunla danışıqlar apardıq. Bu işləri görürük. [470-471]

Mən bir neçə saat bundan əvvəl burada iş adamları ilə görüşdüm. Azərbaycan Türkiyə üçün ən yaxın bir ölkə olduğu halda, Türkiyənin iş adamları indi Azərbaycanda az iş görürlər. Amma keçmiş Sovet İttifaqının digər respublikalarında daha çox iş görürlər. Ola bilər ki, bunun günahları bəzən Azərbaycandadır. Bu gün mənə məlumat verdilər ki, bu məsələlərin həll olunmasında əngəllər vardır. Biz buna baxacağıq. Ancaq Azərbaycan ilə Türkiyənin iqtisadi əlaqələri inkişaf etməlidir. Biz bunun üçün lazımi tədbirlər görürük. Azərbaycan iqtisadiyyatının inkişafı üçün bu, bizim əsas yollarımızdan biridir.

Mən dedim ki, ötən üç ildə müstəqil Azərbaycan Respublikasında müəyyən dəyişikliklər olub, üç dəfə hakimiyyət dəyişib. Bu isə insanlarda ümidsizlik yaradıb. Adamların bəzilərində biganəlik əmələ gəlib. Ancaq siz əmin ola bilərsiniz ki, biz bunlara da son qoymuşuq.

Keçən ilin iyun ayında Azərbaycanda hərbi çevrilişə cəhd olundu, vətəndaş müharibəsi baş verdi. Bununla əlaqədar mən Bakıya dəvət olundum. O vaxtdan Azərbaycanın rəhbərliyini öz üzərimə götürdüm. Bu il oktyabrın əvvəlində respublikada yenə də belə bir çevriliş cəhdi baş verdi. Bunu siz bilirsiniz, qəzetlər yazıb və oxumusunuz. Burada geniş məlumat verməyə ehtiyac yoxdur. Ancaq bu, xalqımızın içindəki cinayətkar, mafioz qrupların öz şəxsi mənafelərini, şəxsi məqsədlərini ümummilli, ümumxalq, ümumvətən, ümumölkə mənafelərindən üstün tutduqlarını göstərdi. Bu adamlar siz deyən qədər də bacarıqlı şəxslər deyil. Son illərdə Azərbaycanın daxilində vəziyyət elə olub ki, ziyalı, bilikli adamlar kənarda qalıblar, – bax, burada oturan ziyalılar kənara çəkiliblər, bəziləri öz başlarını saxlamaqla məşğul olublar, Azərbaycan üçün yararlı olmayan adamlar meydana çıxıb, silah, pul toplayıb, hakimiyyət iddiasında olublar.

Bax, belə bir hadisə bu il oktyabrın əvvəlində yenə də başlandı və bunlar əvvəlcədən qurulmuş, planlaşdırılmış hadisələr idi. Bilirsiniz ki, uzun illər gedən danışıqlar nəticəsində sentyabrın 20-də Azərbaycan Respublikası Xarici Ölkələrin Neft Şirkətləri Konsorsiumu ilə müqavilə bağladı. Bu konsorsiuma Türkiyənin şirkəti də daxildir. Otuz il müddətinə bağlanan bu müqavilə tarixi bir hadisədir, yəni "Əsrin müqaviləsi" kimi qiymətləndirilir. Bir halda ki, bu müqavilə otuz ilə bağlanıbdır, deməli, gələcək nəsillər üçün də çox faydalı bir müqavilədir. Bu müqavilə imzalandıqdan sonra nə oldu? İki gün sonra ölkəmizin bir həbsxanasından Azərbaycana qarşı cinayət etmiş dörd nəfər canini çıxardılar. Tarixdə bu, birinci dəfə olubdur. Deməli, bunu professional qüvvələr təşkil etmişlər. O caniləri çıxardılar, qaçırdılar. Bunlar Azərbaycanın bütövlüyünün əleyhinə çıxan, Azərbaycanı parçalamağa çalışan adamlardır. Onlar vaxtilə Azərbaycanda hakimiyyət iddiasında idilər. Düzgün başa düşün, bu adamları əvvəl də həbs etmək, xalqdan təcrid etmək lazım idi. Amma bunu etməmişdilər. Mən bunu etdim, bu adamların həbs edilməsinə nail oldum. Onların üzərində məhkəmə quruldu. Məhkəmə onları artıq Vətən [471-472] xaini kimi ifşa edirdi, ancaq bu mərhələdə bəzi adamların satqınlığına görə onlar həbsxanadan qaçırıldı.

Bundan sonra mən Nyu-Yorka getdim. O hadisəni bunun qarşısını almaq üçün etmişdilər. Amma buna baxmayaraq mən Nyu-Yorka getdim, Birləşmiş Millətlər Təşkilatının Baş Məclisində çıxış etdim. Amerikanın prezidenti Bill Klintonla görüşdüm. Bir çox səmərəli görüşlərimiz, danışıqlarımız oldu. Mən Amerikada olarkən bizim iki nəfər çox dəyərli dövlət xadimini – Ali Sovet sədrinin müavini Afiyəddin Cəlilovu və xüsusi idarənin rəisi polkovnik Şəmsi Rəhimovu qətlə yetirdilər, xaincəsinə öldürdülər, terrora əl atdılar.

Bunu Azərbaycanda qarışıqlıq yaratmaq üçün etdilər. Mən bunu eşidəndə hiddətləndim, tezliklə ölkəyə qayıtmaq istədim. Ancaq bəziləri şayiə yaymışdılar ki, Heydər Əliyev artıq Amerikadan geri qayıtmayacaq, Heydər Əliyev orada qaldı, biz də burada dövləti devirəcəyik. Lakin mən qayıtdım. Deməli, bu da baş vermədi. Bundan sonra onlar dövlət çevrilişinə başladılar. Bunun da qarşısı alındı. Şübhəsiz ki, böyük qanlar tökülə bilərdi. Çünki böyük silahlı qüvvələr hazırlanmışdı, vətəndaş müharibəsi olacaqdı.

Ancaq mənim xalqa müraciətimdən sonra gecə yarısı xalq ayağa qalxdı, – gənci də, qocası da, cavanı da, kişisi də, qadını da, çocuğu da, – hamısı Prezident sarayının önündəki meydana toplaşdı, Azərbaycanın müstəqilliyini, dövlətçiliyini, qanuni seçilmiş dövlət rəhbərliyini qorudu. Cinayətkarların bir qismi yaxalandı, həbs olundu. Mən rəhmdarlıq, insanpərvərlik etdim. Bu işin təşkilatçılarından biri olan Surət Hüseynovu o gün də həbs etmək olardı. Mən bunu etmədim. Çünki mən, ümumiyyətlə, rəhmdar adamam. Ancaq o bunu anlamadı, üç-dörd gündən sonra başına bir dəstə topladı, qaçdı. İndi biri deyir respublikanın xaricindədir, o birisi deyir daxilindədir. Ancaq o, xalqın məhkəməsindən qaça bilməyəcək. Şübhəsiz ki, o da, onun ətrafında olan adamlar da, Moskvada oturmuş Mütəllibov da, Rəhim Qazıyev də, Surət Hüseynov da, Azərbaycanı parçalamaq, cənub zonasını ayırmaq istəyən Əlikram Hümbətov da, – onların heç birisi qaça bilməyəcək, xalq ədalət məhkəməsi onların hamısının cavabını verəcəkdir.

Böyük məmnuniyyət hissi ilə demək istəyirəm ki, o gərgin günlərdə, xüsusən o gecə Türkiyə Cümhuriyyəti bizimlə oldu. Türkiyənin prezidenti, mənim əziz dostum, qardaşım Süleyman Dəmirəl bir neçə

dəfə mənə telefonla zəng etdi, məsələ ilə maraqlandı, vəziyyəti öyrəndi, bəyanat verdi. Ondan sonra başqa dövlətlər, dünyanın böyük dövlətləri bəyanat verdilər ki, Azərbaycanda sabitliyin qorunmasının, qanuni seçilmiş dövlət rəhbərliyinin tərəfdarıdırlar, qanuni seçilmiş prezidenti dəstəkləyirlər. Demək dünya ictimaiyyəti də bizim tərəfimizdə oldu.

O günlər Türkiyə, şübhəsiz ki, böyük gərginliklə Bakıdakı hadisələri izləyirdi. Amma gördünüz ki, biz bunları asanlıqla, bir-iki günə yerinə qoyduq. Xalq ayağa qalxdı. Xalqımız cinayətkarları indiyədək lənətləyir! [472-473] Biz minlərlə, on minlərlə məktublar, teleqramlar alırıq, cinayətkarları məhkum etmək, vətən xaini kimi cəzalandırmaq barədə xalq öz sözünü deyir, yazır və onların hərəkətini pisləyir. Bir tərəfdən də bu hadisə bəlkə də olmamalıydı, amma bu hadisənin olması belə adamları üzə, aşkara çıxardı. Bir çox adamların da canı qurtardı.

Məsələn, o cinayət edənlərin yuvası Gəncə şəhəridir. Gəncə şəhərindən indi mənə məlumatlar gəlir, insanlar deyirlər ki, biz artıq rahat nəfəs ala bilirik. Bu qeyri-qanuni silah saxlayan, oğru, quldur, cinayətkar adamlar insanları terror edir, gəlib camaatın uşaqlarını oğurlayır, hətta evdən adamları oğurlayır, cürbəcür başqa cinayətlər edirdilər. Camaat müəyyən qədər rahatlandı. Deyə bilmərəm ki, tamam rahatlanıb, çünki içərimizdə belə cinayətkarlar hələ var. Siz heç güman etməyin ki, biz bununla qurtarmışıq. Yox, indi bu cinayətkarların bəzisi yaxalanıb, bəzisi qaçıb, bəzisi gizlənib. Ancaq bu gün bir şey məlumdur ki, Azərbaycan xalqı öz müstəqilliyinin keşiyindədir. Azərbaycan xalqı öz dövlətini dəstəkləyir, müdafiə edir və bu da xalqımızın əbədi müstəqilliyinin təminatıdır.

Azərbaycanda xalqın çörəklə təminatında çətinliklər vardır. Çünki həmin Surət Hüseynovu və onun yanında olan adamların bir neçəsini mən işdən çıxardım, bir neçəsi həbs olundu – onlar Azərbaycanı taxılla təmin etmək məsələləri ilə vaxtında məşğul olmadıqlarına görə, indi bizim yollarımız bağlandığına görə, bir tərəfdən də vəsaitimizin çatışmamasına görə bu sahədə böyük gərginlik əmələ gəlmişdir. Biz Türkiyəyə müraciət etmişik. Kredit hesabına və başqa vasitələrlə buradan təcili buğda, un alıb aparmalıyıq ki, əhalini təmin edək. Ölkənin rəhbərləri ilə mənim bu barədə bu gün də, sabah da danışıqlarım olacaq. Ümidvaram ki, bu sahədə bizə kömək olunacaqdır.

Ancaq bilirsiniz, xalqımız nə deyir. Məsələn, BMT-nin Baş katibi Butros Butros-Qali Bakıda olarkən, gedib qaçqınlarla görüşəndə ona dedilər ki, biz aclığa da dözərik, bax bütün bu ağır günlərə də dözərik, təki müharibə qurtarsın, torpaqlarımız azad olsun və biz öz doğma yerlərimizə qayıdaq. Bu, xalqımızın ən böyük arzusudur və bu da Azərbaycan prezidenti kimi mənim qarşımda ən böyük vəzifədir. Əmin ola bilərsiniz ki, mən bu vəzifəni həyata keçirmək üçün əlimdən gələni əsirgəməyəcəyəm. Bu yolda çalışmışam və həyatımın son dəqiqəsinə qədər çalışacağam.

Mən bu görüşdən məmnun olduğumu bir daha bildirmək istəyirəm. Sizin hamınıza cansağlığı, xoşbəxtlik arzulayıram. Kim Azərbaycana nə vaxt gəlmək istəyirsə, gözümüz üstə yeri var. Gəlsinlər. Azərbaycan sizin öz doğma torpağınızdır, doğma vətəninizdir. Sağ olun. [473-474]

## ANKARADA TÜRKİYƏ, AZƏRBAYCAN VƏ XARİCİ ÖLKƏ JURNALİSTLƏRİ ÜÇÜN MƏTBUAT KONFRANSINDA BƏYANAT

*1 noyabr 1994-cü il*

Hörmətli mətbuat nümayəndələri, mən sizi salamlayıram və Azərbaycana böyük maraq göstərdiyinizə görə məmnun olduğumu bildirirəm. Azərbaycan Respublikasında gedən proseslər, oradakı vəziyyət Türkiyə mətbuatında geniş işıqlandırılır. Türkiyə Respublikasının kütləvi informasiya vasitələrinin Azərbaycan Respublikasına göstərdiyi marağa görə mən Türkiyənin bütün mətbuat orqanlarına, radio və televiziyasına təşəkkürümü bildirirəm. Bəzən obyektiv, doğru-düzgün yazmasalar da, hər halda, Azərbaycanı yada saldıqlarına, Azərbaycan haqqında yazdıqlarına görə sağ olsunlar. Odur ki, sizə ətraflı məlumat verməyə ehtiyac duymuram və vaxt az olduğuna görə, – mənə dedilər ki, yarım saat vaxt var, – sizin mənə sual verməyinizə imkan yaradacağam.

**Sual: Xəzər dənizi və bununla əlaqədar Rusiyanın mövqeyi barədə müxtəlif söz-söhbət yayılmışdır. Siz bu barədə və Azərbaycanda daxili vəziyyət barədə nə deyə bilərsiniz ?**

**Cavab**: Çox təşəkkür edirəm, çox yaxşı suallardır. Çalışın, yaxşı sual verin. Xəzər dənizi haqqında. Bildiyiniz kimi, Xəzərdə neft yataqları var və bu dənizin Azərbaycana aid sektorundakı neft yataqları respublikamızın neft sənayesi tərəfindən 45 ildir istismar edilir. Xəzərin Azərbaycana aid sektorundakı neft yataqlarından müştərək istifadə edilməsi üçün bir çox xarici şirkətlərlə, xüsusən Qərb ölkələrinin şirkətləri ilə, o cümlədən Türkiyənin neft şirkəti ilə son üç il ərzində danışıqlar aparılmışdır. Neft yataqlarının 30 il müddətinə müştərək istismarı haqqında konsorsiuma daxil olan xarici ölkə şirkətləri ilə Azərbaycan arasında sentyabrın 20-də müqavilə imzalanmışdır. Bu yataqlar Azərbaycana mənsub olduğuna görə biz üç il ərzində danışıqlar apararkən və son mərhələdə, yəni müqavilə imzalanmağa hazırlanarkən Azərbaycana başqa dövlətlər tərəfindən heç bir müraciət edilməmişdir.

Lakin sentyabrın 20-də neft müqaviləsi imzalandıqdan sonra Rusiya Xarici İşlər Nazirliyinin mətbuat katibliyi bu müqaviləni tanımadığı barədə bəyanat vermişdir. Biz bu bəyanatı əsassız hesab etmişik və ona heç fikir verməmişik. Sonra mən bu barədə Rusiyanın baş naziri Viktor Çernomırdinlə həm telefonla danışmışam, həm də oktyabrın 21-də Moskvada olarkən onunla görüşüb danışıqlar aparmışam. Mən bu barədə Rusiyanın xarici işlər naziri Andrey Kozırevlə də telefonla danışmışam. Bir daha bildirmişəm ki, o neft yataqları Azərbaycana mənsubdur, Azərbaycan da [474-475] onlardan istifadə etməkdə tamamilə sərbəstdir. Oktyabrın 21-də mən Rusiyanın baş naziri Viktor Çernomırdinlə görüşərkən o, mənə bildirdi ki, bu məsələdə Rusiya tərəfindən heç bir problem yoxdur.

Eyni zamanda Xəzəryanı dövlətlər, yəni Rusiya, Qazaxıstan, Türkmənistan və İran təklif irəli sürmüşlər ki, Xəzər dənizində ekologiya, balıqçılıq və gəmiçilik məsələləri haqqında bir razılığa gəlmək, müqavilə bağlamaq lazımdır. Biz buna etiraz etmirik. Amma burada heç bir ölkənin üstünlüyünü də qəbul etmirik.

Xəzər dənizinin statusu haqqında mətbuatda çox yazılar verilir. Biz Xəzərin statusunun müzakirə olunmasına etiraz etmirik. Ancaq bunun imzaladığımız neft müqaviləsi ilə heç bir əlaqəsi ola bilməz. Xəzər dənizinin statusunun müzakirəsi çox vaxt aparacaqdır. Biz bu müzakirələrdə iştirak edib öz mövqeyimizi bildirməyə hazırıq.

İkinci sualınıza cavab verirəm. Azərbaycanda iqtisadi vəziyyət çox ağırdır. Son aylar Azərbaycan Nazirlər Kabinetinin buraxdığı səhvlər nəticəsində respublika əhalisinin çörəklə təminatında çox böyük çətinliklər meydana çıxıb. Şimali Qafqazda, Çeçenistanda üç aydan artıqdır ki, vəziyyət gərgin olduğuna görə Azərbaycandan şimala gedən dəmir yolu tamamilə qapanıb. Ona görə də Azərbaycan əhalisini çörəklə təmin etmək, buğda, un almaq üçün yeganə yerimiz Türkiyədir. Burada biz Türkiyənin köməyinə çox möhtacıq. Mən bu barədə Türkiyə rəhbərlərinə müraciət etmişəm. Həmin məsələni bu gün və sabah görüşlərimizdə qaldıracağam. Çünki bu, bizim üçün çox mühüm məsələdir. Ümidvaram ki, Türkiyə hökuməti və dövləti Azərbaycanı belə ağır vəziyyətdə qoymaz və bizə kömək edəcəklər.

**Sual: Azərbaycanın xaricdə təbliğ edilməsini, Azərbaycan dövlətçiliyinin indiyədək dünya miqyasında apardığı təbliğatı necə qiymətləndirirsiniz və erməni təcavüzkarlığına son qoyulmasında hansı yolları daha əlverişli bilirsiniz?**

**Cavab**: Sualınızı bir az dəqiqləşdirin. Çünki təbliğat məsələsi ilə Ermənistanın təcavüzü məsələsi ayrı-ayrı məsələlərdir. Bu sualın hansı hissəsi sizə lazımdırsa, mən ona cavab verim.

**Sual: Azərbaycanın xaricdə təbliği məsələsinə necə baxırsınız ?**

**Cavab**: Necə baxacağam ki ? Mən istəyirəm ki, Azərbaycan xaricdə daha yaxşı təbliğ olunsun. Özü do bütün ölkələrdə – həm Avropada, həm də Asiyada, o cümlədən Türkiyədə də. Bir sözlə, bütün dünyada. Axı Ermənistanın təbliğat imkanları Azərbaycanın imkanlarından çox üstündür. Bildiyiniz kimi, Ermənistanın Avropa, Amerika ölkələrində çox güclü lobbiləri var. Onlar Ermənistanı təbliğ edir. Ermənistanla Azərbaycan

arasında gedən müharibə haqqında yanlış məlumatlar verirlər. Mən çox istərdim ki, bu barədə Azərbaycanın təbliği daha da güclənsin.

**Sual**: **Cənab prezident, Türkiyədən nə kimi xahişlər edəcəyinizi söyləməzsinizmi ?**

**Cavab**: Birinci növbədə bəlkə də xahiş etdim ki, Türkiyə Azər[475-476]baycana təcili olaraq buğda, un göndərsin. Bildiyiniz kimi, 1992-ci ildə Türkiyə Azərbaycana 250 milyon dollar məbləğində kredit ayırıb. Bu kreditin az bir qismindən istifadə edilib. Əksər hissəsi indiyədək istifadə edilməmiş qalır. Azərbaycan iqtisadiyyatının ağır vəziyyətə düşdüyünü nəzərə alaraq Türkiyə rəhbərlərindən bu kreditdən istifadə olunmasını xahiş edəcəyəm.

**Sual**: **Cənab prezident, dediniz ki, Azərbaycan ərazisinin 20 faizi Ermənistanın işğalı altındadır. Ermənistan bu silahlı qüvvələri haradan alır ? Hansı ölkələrin Ermənistana silahlı qüvvələr və silah göndərdikləri barədə məlumatınız varmı ?**

**Cavab**: Bilməlisiniz ki, əgər Ermənistana başqa ölkələrdən həm silah, həm də digər ləvazimat sarıdan kömək olmasaydı, Ermənistan öz gücü ilə Azərbaycan ərazisinin böyük bir hissəsini, 20 faizini işğal edə bilməzdi. Ermənistana kömək edən ölkələr çoxdur. Siz bunu bilirsiniz. Haradan silah gəldiyini, haradan əsgəri yardım gəldiyini, haradan başqa vəsait gəldiyini dəqiq deyə bilmərəm. Amma siz onu bilirsiniz.

**Sual**: **Ermənistana kredit verilir, silah göndərilir. Bununla əlaqədar Birləşmiş Millətlər Təşkilatının mövqeyi barədə nə deyə bilərsiniz ?**

**Cavab**: Birləşmiş Millətlər Təşkilatının baş katibi cənab Butros Qali ilə Bakıda görüşlərimiz, danışıqlarımız çox səmərəli oldu. Mən Butros Qali ilə çox açıq danışdım, ona bildirdim ki, BMT Təhlükəsizlik Şurasının erməni işğalçı qüvvələrinin Azərbaycan torpaqlarından çıxarılmasını tələb edən dörd qətnaməsi indiyədək yerinə yetirilməyib. Eyni zamanda cənab Butros Qali ilə danışıqlarımızda mən ona bildirdim ki, Birləşmiş Millətlər Təşkilatı, ATƏM, ümumiyyətlə, beynəlxalq təşkilatlar Azərbaycanla Ermənistan arasında gedən müharibəyə son qoymaq üçün və etibarlı, uzunmüddətli sülh yaratmaq üçün bundan sonra daha güclü fəaliyyət göstərməlidirlər. Butros Qali mənim bu təkliflərimi qəbul etdi, fikirlərimlə razılaşdı və bildirdi ki, bu sahədə lazımi tədbirlər görəcəkdir.

**Sual**: **Bu günlərdə Afinadan belə bir xəbər alınmışdır ki, Azərbaycan nefti borularla Qara dənizə, oradan isə Bolqarıstan və Yunanıstan vasitəsilə Aralıq dənizinə nəql ediləcəkdir. Beləliklə, Azərbaycan nefti Qərbə Türkiyə və İstanbuldan yan keçərək nəql olunacaqdır. Siz buna necə baxırsınız ?**

**Cavab**: Biz xarici ölkələrin neft şirkətləri konsorsiumu ilə müqavilə imzaladıqdan sonra qarşımızda duran əsas məsələ boru xəttinin marşrutunun müəyyən edilməsidir. Lakin bu məsələni konsorsium Azərbaycanla birlikdə həll etməlidir. Biz isə hələlik bir qərara gəlməmişik. Məsələ heç müzakirə də olunmayıb. Ona görə də qəzetlərdə bu barədə yazılanlara fikir verməyin.

**Sual**: **Biz Azərbaycanda olarkən bir çox adamlarla görüşdük və hər bir adamın sizi sevdiyini, sizə hətta dua etdiyini gördüm. Siz oktyabrın 4-də saat 24-də xalqa müraciət edərkən minlərlə insan sizin** [476-477] **yanınıza gəldi. Xalq tərəfindən bu qədər sevilməyinizə baxmayaraq, bəzi neqativ şəxslər tərəfindən sevilməməyinizi nə ilə izah edərdiniz ?**

**Cavab**: Neqativ adamlar, neqativ fikirli qüvvələr bunu anlamırlar. Əgər onlar bunu anlaya bilsəydilər, bu cür neqativ hərəkətlər etməzdilər. Oktyabrın əvvəlindən başlanmış proseslər və oktyabrın 4-də baş vermiş hadisə bir daha göstərdi ki, belə neqativ qüvvələr Azərbaycanda, doğrudur, müəyyən cinayət törədə bilərlər, amma Azərbaycan dövlətinə heç bir ziyan vura bilməzlər.

**Sual**: **Sentyabrın 20-də Bakıda neft müqaviləsi imzalandı. Bundan sonra nə kimi işlər görüləcək ?**

**Cavab**: Biz o müqaviləni imzaladıq və indi Azərbaycan parlamentində onun müzakirəsi gedir. Müqavilə parlamentdə təsdiqləndikdən sonra onun icrasına başlanacaqdır.Məndə olan məlumata görə, konsorsiumun üzvləri yaxın günlərdə Azərbaycana gələcək və konkret işlərə başlayacaqlar.

**Sual**: **Bəs müzakirələr nə vaxt başlanacaq ?**

**Cavab**: Bu yaxın günlərdə olacaq.

Mən sizin hamınıza öz ehtiramımı bildirirəm və hamınızı Azərbaycana dəvət edirəm. Gəlin və Azərbaycan haqqında həqiqətləri yazın. Sağ olun. [477-478]

## TÜRKİYƏ PARLAMENTİNDƏ DAHİ AZƏRBAYCAN ŞAİRİ MƏHƏMMƏD FÜZULİNİ ANMA MƏRASİMİNDƏ ÇIXIŞ

*2 noyabr 1994-cü il*

Türkiyə Böyük Millət Məclisinin başqanı hörmətli
Hüsaməddin Cindoruk!
Hörmətli millət vəkilləri!
Hörmətli nazirlər, cənablar və xanımlar!

İki gündür ki, biz sizin ölkənizdə, bizim öz ölkəmizdə müsafirik, qonağıq. Bizim bir kökdən, bir tarixdən olduğumuzu bir daha dünyaya nümayiş etdirən Məhəmməd Füzulinin anadan olmasının 500 illiyini iki gündür ki, birlikdə, bərabər qeyd edirik.

Məhəmməd Füzuli haqqında dünən də, bu gün də çox sözlər deyildi. 500 ildir ki, Məhəmməd Füzuli yaşayır. 500 ildir ki, Məhəmməd Füzulinin törəmələri – onun ideyaları ilə yaşayan, onun əsərlərindən ilham alan türklər, türk xalqları öz həyatını sürür və bugünkü xoşbəxt bir səviyyəyə gəlib çatmışlar. Füzuli haqqında Türkiyədə, Azərbaycanda böyük elmi əsərlər yazılıbdır. Şairlərimiz, yazıçılarımız ona öz əsərlərini həsr ediblər. Bəstəkarlarımız, rəssamlarımız onun əsərləri əsasında böyük əsərlər yaradıblar. Azərbaycanda elə bir yazıçı, şair tapmaq olmaz ki, o, Füzuli haqqında bir əsər yazmamış olsun. Ancaq bunların hamısından ən önəmlisi odur ki, Füzuli əsərinə, Füzuli yaradıcılığına, Füzuli irsinə əsrin əvvəlində – hələ o vaxt, xalqımızın, demək olar, çox qaranlıqda yaşadığı bir dövrdə, bilik, savad çox az adama qismət olduğu dövrdə dahi bəstəkar Üzeyir Hacıbəyov Füzulinin "Leyli və Məcnun" əsəri əsasında Şərq aləmində, türk dünyasında ilk dəfə böyük klassik, professional opera – "Leyli və Məcnun" operası yaradıbdır.

1909-cu ildə Bakıda opera teatrı yaranıbdır və ilk operanı yaradan Üzeyir Hacıbəyov öz əsəri ilə Azərbaycan professional musiqisinin əsasını qoymuşdur. Bir əsrdir ki, biz bu əsasda Azərbaycan musiqisinin inkişaf etməsinin şahidiyik.

Füzuli 500 il bundan qabaq da nurlu bir ulduz kimi parlayıbdır, dünyaya öz şüalarını yayıbdır. Füzuli təkcə Şərqdə yox, müsəlman aləmində, türk dünyasında yox, bütün dünyada, o cümlədən inkişaf etmiş Qərb ölkələrində çox məşhur olmuşdur. Amma Azərbaycan xalqı üçün, bizim üçün Füzuli daha əziz olmuş, sevilmiş, son əsrdə xüsusilə yüksək zirvələrə qaldırılmışdır. Bu gün çox böyük iftixar hissi ilə deyə bilərik ki, Füzuliyə bizim Azərbaycan xalqının, Azərbaycan alimlərinin verdiyi qiymət, onun əsərlərindən daim bəhrələnmələri xalqımızın öz kökünə, adət-ənənəsinə, öz keçmişinə, öz tarixinə, dininə, dilinə nə qədər sadiq qalmasını sübut edir. [478-479]

Azərbaycan xalqının həyatı böyük, çətin mərhələlərdən keçibdir. Ancaq bütün çətinlikləri keçməkdə Azərbaycan xalqına onun böyük insanlarının, böyük şəxsiyyətlərinin yaratdıqları sənət əsərləri kömək edibdir. Füzuli bunların arasında görkəmli yer tutur.

Füzuli keçmişdə də türkləri birləşdirən bir şəxsiyyət olub. Amma indi türk dünyası XX əsrdə parçalanmış olduğu bir halda, türk dünyasına mənsub ölkələrin demək olar ki, tam əksəriyyəti, – bir Türkiyədən savayı, – onların həyatına, tarixinə, adət-ənənəsinə uyğun olmayan rejimlər içərisində yaşayan vaxtda Füzuli bizi yaşadıb, bu günlərə gətiribdir. Bu gün biz həm Azərbaycanda, həm Füzulinin doğulduğu yerdə – Kərbəlada, Bağdadda, həm Ankarada, Türkiyədə Füzulinin 500 illiyini qeyd edərkən, artıq keçmişdəki kimi parçalanmış vəziyyətdə deyilik. İndi böyük Türkiyə Cümhuriyyətinin yanında digər türk cümhuriyyətləri də vardır. Əziz dostum və qardaşım Süleyman Dəmirəlin dəfələrlə dediyi sözü demək istəyirəm ki, ay-ulduzlu Türkiyə bayrağının yanında indi artıq beş müstəqil türk cümhuriyyətinin bayrağı durubdur. Bu bayraqlardan biri də Azərbaycanın bayrağıdır. Azərbaycanın müstəqillik bayrağı Türkiyə ilə bağlı, Türkiyənin təsiri altında qalxıbdır.

Azərbaycanda ilk dəfə müstəqil demokratik dövlət yarananda – 1918-ci ildə də bu, Türkiyə ilə bağlı, Türkiyənin təsiri altında, Türkiyənin köməyi ilə olubdur. Ondan sonrakı dövrdə biz müəyyən siyasi, ideoloji səbəblərə görə, düşdüyümüz vəziyyətə görə Türkiyədən ayrı olduğumuz halda qəlbimiz həmişə bir olub, Füzuli Türkiyədə də, Azərbaycanda da səslənib. Tək Füzuli yox, bizim xalqlarımızın Füzuli kimi böyük sənət adamları, şəxsiyyətləri bizi ayrılığa qoymayıbdır. Yəni bizi daim birləşdirib və bizi ayıran qüvvələrin qarşısını almağa kömək edib.

Ona görə də bu iki gündə burada bizim bu böyük mərasimi bərabər keçirməyimiz sadəcə bir təntənəli mərasim deyil. Bunun böyük tarixi, mənəvi, milli və deyə bilərəm ki, siyasi əhəmiyyəti vardır. Biz böyük məmnuniyyət hissi ilə bu gün Füzuli günlərini Türkiyədə başa çatdırırıq. Lakin o, başa çatmır, bizimlə gələn adamların bir çoxu burada elmi konfranslar, simpoziumlar keçirəcək, orada iştirak edəcəklər, Füzuli günləri hələ davam edəcəkdir.

Güman edirəm, biz buraya böyük bir heyətdə gəldiyimiz kimi, Türkiyədən də, şübhəsiz ki, bundan da böyük bir heyət Azərbaycana gələcəkdir. Çünki əgər yeddi milyonluq Azərbaycandan buraya belə bir heyət gəlibsə, özünüz hesablayın, 60 milyonluq Türkiyədən Azərbaycana, Füzuli yubileyinə nə qədər qardaşlarımız gələcəkdir.

İndi bizim vəziyyətimiz ağırdır, çətindir. Həyatımızın çox çətin dövrünü yaşayırıq. Ancaq qəlbimiz genişdir. Türkiyənin hörmətli, dəyərli insanları, siz qəlbimizdə həmişə yaşayırsınız. Sizi qəlbimizdə, könlümüzdə həm Füzuli bayramında, həm də bütün bayramlarda qəbul etməyə, qarşılamağa həmişə hazırıq. İnanıram ki, siz bu dəvətimizi qəbul edəcəksiniz. Füzuli günləri Azərbaycanda davam edəcək, başa çatacaq və gələcəyimiz üçün böyük yolların açılmasına böyük kömək edəcəkdir. [473-480]

Bu iki gün müddətində Füzulinin yaradıcılığına verilən qiymət, eyni zamanda müstəqil Azərbaycan dövlətindən buraya gəlmiş heyətə göstərilən hörmət və ehtiram bizi həm sevindirir, həm də bizdə böyük təşəkkür hissi oyadır. Biz bunu bir tərəfdən təbii hesab edirik. Çünki biz dost və qardaşıq. Bir millətik və bir-birimizlə çox bağlıyıq. Eyni zamanda bunu Türkiyə xalqının, Türkiyə Cümhuriyyətinin, Türkiyə dövlətinin Azərbaycana böyük qayğısı, diqqəti kimi qiymətləndiririk. Ümumiyyətlə, Füzuli yubileyi təkcə Füzulinin şəxsiyyətinə, onun yaradıcılığına verilən qiymət deyil. Füzuli yubileyi xalqlarımızın birləşdirilməsinə, yaxınlaşmasına, gələcəkdə bir yolla əzmlə getməsinə şərait yaradan böyük bir hadisədir. Ona görə də mən bütün türk qardaşlarımızı, Türkiyə vətəndaşlarını bu bayram münasibətilə bir daha təbrik edirəm. Bizə göstərilən qonaqpərvərliyə, hörmət və ehtirama görə təşəkkür edirəm. Türkiyədə Füzuli yaradıcılığına verilən belə yüksək qiymətə görə öz sevgimi, məhəbbətimi bildirirəm.

Bu mərasimin təşkili, şübhəsiz ki, Türkiyə dövlətinin sayğısı, diqqəti və qayğısı nəticəsində olmuşdur. Türkiyənin cümhur başqanı, əziz dostumuz, qardaşımız Süleyman Dəmirəlin bu mərasimdə bilavasitə iştirak etməsi, Füzuli haqqında geniş nitq söyləməsi, mən hesab edirəm ki, həm Türkiyə üçün, həm Azərbaycan üçün, həm də bütün türk dünyası üçün böyük bir hadisədir.

Bu gün Türkiyənin Böyük Millət Məclisində belə bir böyük mərasimin toplaşması və Füzuliyə həsr olunmuş belə bir gecənin keçirilməsi Türkiyə Cümhuriyyəti Böyük Millət Məclisinin, onun başqanı, hörmətli dostumuz, qardaşımız Hüsaməddin Cindorukun bu hadisəyə və Türkiyə-Azərbaycan dostluğuna göstərdiyi qayğının, hörmətin rəmzidir, təzahürüdür.

Bilirsiniz, bu gün mən qardaşım Hüsaməddin Cindoruka dedim, bu il fevral ayında mən Azərbaycanın prezidenti kimi Türkiyədə rəsmi səfərdə olarkən Türkiyə Cümhuriyyətinin Böyük Millət Məclisində mənə millət vəkillərinə xitab etmək imkanı yarandı. Mən Türkiyənin Böyük Millət Məclisi qarşısında, millət vəkilləri qarşısında böyük həyəcan hissi ilə çıxış etdim. Oraya gələrkən hansı hisslər keçirdiyimi mən bu gün qardaşım Hüsaməddin Cindoruka dedim. Cocuq ikən, gənc yaşlarımda Türkiyəyə böyük hörmətim, məhəbbətim var idi. İndi ola bilər ki, elə böyük sirr deyil açım, o vaxtlar mən türk dili lüğətini, türk dili dərsliyini götürmüşdüm – türk dilini öyrənirdim. Bunu da açıq deyə bilərəm ki, müəllim də var idi, bir müddət – iki-üç il mənə türk dili öyrədirdi. Türkiyənin tarixini öyrənirdim, şairlərini öyrənirdim. Gənc ikən – indi mənim yaşımda olan adamlar ola bilər ki, bunu xatırlasın. Məsələn, Rəşad Nuri Güntəkinin "Çalıquşu" romanı bizim hamımızı heyran edən bir əsər idi. Son vaxtlarda "Çalıquşu" yenə yada düşdü, onun əsasında böyük bir film yarandı. O film təkcə türk ölkələrində yox, məsələn, mən bilirəm, Rusiyada da çox böyük hörmət, çox böyük şöhrət qazandı. Ancaq mən "Çalıquşu"nu 13-14 yaşında oxumuşdum. O məni heyran etmişdi. [480-481]

Bir "Çalıquşu" deyil, biz o vaxtlar Türkiyənin böyük şairlərini, yazıçılarını öyrənirdik. Əbdülhəq Hamid, Tofiq Fikrət və bir neçə başqaları bizim o vaxt, orta məktəbdə oxuduğumuz illərdə ədəbiyyat dərsliklərimizə daxil idi. Ədəbiyyat dərsliklərində Türkiyənin bu böyük yazıçılarının, şairlərinin rəsmləri indi də gözümün qabağındadır. Yəni mən gənc vaxtlarımda, – bu da təbiidir, burada heç bir qeyri-təbii şey yoxdur, içərimdən, kökümdən, qəlbimdən, mənəviyyatımdan gələn bir hissiyyatlardır ki, Türkiyəyə böyük maraqla, heyranlıqla baxırdım. Qəzetlərdə və başqa yerlərdə Türkiyənin Böyük Millət Məclisi haqqında oxuyanda həmişə onu əzəmətli bir millət məclisi sanırdım, düşünürdüm, fikirləşirdim ki, Türkiyənin bu Böyük Millət Məclisi nə böyük işlər görür.

Həyat elə gətirdi ki, mən gəlib Türkiyənin Böyük Millət Məclisində millət vəkilləri qarşısında söz demək imkanı aldım. Türkiyəyə və millət vəkillərinə xitab etdim. Bu, mənim üçün böyük şərəfdir. Mən bunu heç vaxt unutmayacağam. O gün orada ürəyimdə olan sözləri böyük həyəcanla öz dostlarıma, qardaşlarıma çatdırdım.

Biz bu gün yenə də Türkiyənin Böyük Millət Məclisindəyik. Hüsaməddin bəy mənə dedi, Türkiyənin 80-dən çox millət vəkili bu salonda bizimlə birlikdədir, biz onlarla birlikdəyik. Həm Füzuli yubileyini qeyd edirik, həm də Türkiyə-Azərbaycan dostluğunun daha da möhkəmlənməsi üçün hər tərəfdən səylər göstəririk. Bunlar bizim yaşadığımız günlərin reallığı, gerçəkliyidir. Allaha şükürlər olsun ki, biz gəlib bu günlərə çatdıq, bu günləri gördük. Mən sizə deyə bilərəm ki, Azərbaycanda nə qədər adamlar bu günlərin həsrəti ilə yaşadı, lakin gəlib bu günləri görə bilmədi. Azərbaycanda belələri çox olub, – çox dəyərli adamlar, xalqlarımızın dostluğunu görmək istəyən adamlar.

Biz Türkiyə ilə Azərbaycan arasında həsrət körpüsünü, ümid körpüsünü yaradanda da mən bu hissiyyatlarla yaşadım. O vaxt mən Naxçıvanda yaşayırdım. Həyatım belə gətirdi ki, mən Naxçıvanda doğuldum, böyük bir yol keçdim, Moskvaya getdim. Ondan sonra gəlib, doğulduğum yerdə yaşamağa məcbur oldum. Mənim üçün bu da çox gözəl bir dövrdür. Ona görə gözəl bir dövrdür ki, Türkiyə ilə Azərbaycan arasında əsrlər boyu həsrətində olunan körpünün tikilməsində iştirak etdim, o körpünün inşasını apardım və Türkiyənin böyük oğlu Süleyman Dəmirəllə, Türkiyənin millət vəkilləri ilə, nazirləri ilə birlikdə həsrət, ümid körpüsünü bir yerdə açdıq.

Demək istəyirəm ki, yəni Azərbaycanda belə həsrətlərlə yaşamış adamlar çox olub. Onların bir çoxu bu günləri görmədən həyatını dəyişib. Ancaq biz xoşbəxtlərdənik ki, bu günləri gəlib görmüşük. Türkiyə ilə Azərbaycanın bərabərliyini, dostluğunu görürük, onun şahidiyik və bu dostluğu daha da inkişaf etdirmək üçün fəaliyyət göstəririk. Bu gün Tür[481-482]kiyənin Böyük Millət Məclisinin salonunda millət vəkilləri ilə birlikdə Türkiyə-Azərbaycan dostluğunu bayram edirik. Füzuli sənətinin bayramını keçiririk.

Bu bayramlar münasibətilə, Füzuli bayramı münasibətilə mən sizi təbrik edirəm və sizi əmin etmək istəyirəm ki, mənim türkiyəli qardaşlarım, dostlarım, Azərbaycan xalqı bu dostluğu daim möhkəmləndirməyə çalışacaq, bu dostluq sarsılmaz olacaq, əbədi olacaq və gələcək nəsillərimiz bu dostluğun, bu qardaşlığın daha gözəl bəhrələrini görəcəklər. Sizi bir daha təbrik edirəm, hamınıza cansağlığı, xoşbəxtlik arzulayıram. Sağ olun. [482-483]

## TÜRKİYƏ PREZİDENTİ SÜLEYMAN DƏMİRƏLİN DOĞUM GÜNÜ MÜNASİBƏTİLƏ "ÇANKAYA" KÖŞKÜNDƏ KEÇİRİLƏN GÖRÜŞDƏ TƏBRİK NİTQİ

*2 noyabr 1994-cü il*

Türkiyə Respublikasının prezidenti, Azərbaycan xalqının əziz dostu, qardaşı, mənim şəxsi əziz dostum, qardaşım Süleyman Dəmirəl!

Bu gün Azərbaycan Respublikasının böyük nümayəndə heyəti buraya, iqamətgahınıza Sizin doğum gününüzü təbrik etmək üçün gəlmişdir. Azərbaycan Respublikasının nümayəndə heyətində ölkəmizin çox görkəmli, dəyərli adamları, dövlət adamları, nazirlər, alimlər, şairlər, rəssamlar, bəstəkarlar, yəni Azərbaycan xalqının hər təbəqəsini təmsil edən çox hörmətli adamlar var. Bizim hamımız buraya böyük sevgi, məhəbbət, hörmət hissi ilə gəlmişik.

Bu gün sizin doğum gününüzdür. Azərbaycan xalqı sizi türk dünyasının böyük bir oğlu kimi tanıyır. Siz türk dünyasının həyatında 40 ildən artıqdır ki, əvəzsiz xidmətlər göstərmisiniz. Türkiyə Cümhuriyyətinin böyük öndər Mustafa Kamal Atatürkün qoyduğu yol ilə inkişaf etdirilməsində sizin uzun illər, on illər ərzində böyük rolunuz olmuşdur. Ona görə də Türkiyə xalqı sizi dəyərli bir insan, böyük türk oğlu kimi tanıyır. Siz böyük hörmət, ehtiram və məhəbbət qazanmısınız. Təkcə Türkiyədə yox, bütün türk dünyasında siz böyük dövlət xadimi, ictimai-siyasi xadim və türk dünyasının inkişafı üçün yorulmaz bir insan kimi tanınırsınız.

Türkiyə Cümhuriyyətinin beynəlxalq aləmdə xarici siyasətini aparmaqda, onu beynəlxalq təşkilatlarda təmsil etməkdə, Türkiyə Cümhuriyyətinin ilbəil Dünya Birliyində layiqli yer tutmasında sizin böyük xidmətləriniz var və buna görə də siz təkcə Türkiyədə yox, yalnız türk dünyasında yox, bütün dünyada məşhur bir siyasi-ictimai xadimsiniz, dövlət xadimisiniz.

Azərbaycan xalqının sizə xüsusi hörmət və məhəbbəti vardır. Çünki xalqımız sizi çox yaxşı tanıyır, siyasi fəaliyyətinizi, dövlət fəaliyyətinizi həmişə izləyir. Təsadüfi deyil ki, hələ "soyuq müharibə" vaxtı, Sovetlər İttifaqı ilə Türkiyə Respublikası arasında münasibətlərin gərgin olduğu bir dövrdə Azərbaycan Respublikası, xalqımız Sovetlər İttifaqının tərkibində olduğu bir vaxtda – 25 il bundan öncə siz Türkiyənin baş naziri kimi Sovet İttifaqına ilk səfər etmisiniz. Moskvada, Sovetlər İttifaqının başqa şəhərlərində olmusunuz. Biz o zaman hiss etdik ki, qəlbiniz, ürəyiniz Azərbaycana da gəlməyi sizə əmr etmiş, Bakıya gəlməyi sizə tövsiyə etmişdir. Siz Bakıya, Azərbaycana gəldiniz. [483-484]

Xatirinizdədir ki, 1968-ci ildə Azərbaycan xalqı o vaxt sosialist rejimi şəraitində, Sovet İttifaqının tərkibində ikən sizi nə qədər böyük hörmət və ehtiramla qarşıladı və sizə öz məhəbbətini bildirdi, beləliklə, bütün Türkiyədə olan qardaş və bacılarına, Türkiyə Cümhuriyyətinə, Türkiyə xalqına öz hörmət və ehtiramını bildirdi. Mən çox xoşbəxtəm ki, o günlərdə sizinlə şəxsən tanış oldum. Bizim bu tanışlığımız, dostluğumuz 25 ildir ki, davam edir.

Son dövrdə Azərbaycan Respublikasında xalqımız milli azadlıq uğrunda mübarizə aparanda ən böyük dəstəyi Türkiyədən aldı. Ən böyük köməyi Türkiyənin siyasi, ictimai, partiya, dövlət xadimləri arasında, əziz Süleyman Dəmirəl, sizdən alıbdır. Azərbaycan xalqı milli azadlıq mübarizəsinə qalxarkən siz xalqımızla bir yerdə olmusunuz, ona dayaq durmusunuz, kömək etmisiniz, onu dəstəkləmisiniz. Bizim müstəqilliyimiz əldə olunan kimi Türkiyə Cümhuriyyəti dünya dövlətləri içərisində birinci olaraq dərhal Azərbaycan Respublikasının müstəqilliyini tanıdı. Biz yaxşı bilirik ki, bu böyük beynəlxalq hadisədə, Azərbaycanın Dünya Birliyi tərəfindən tanınmasında, Türkiyənin Azərbaycanı müstəqil dövlət kimi tanımasında sizin xüsusi xidmətləriniz vardır.

Azərbaycan xalqı bu üç illik müstəqillik dövründə Türkiyə ilə sarsılmaz tellərlə sıx əlaqədədir. Türkiyə Cümhuriyyətindən ən böyük dəstək alır. Bu dövrdə sizin daim qayğınız, diqqətiniz, Azərbaycanın müstəqilliyi üçün fəaliyyətiniz göz qabağındadır. Bunu Azərbaycanda yaxşı bilirlər və çox gözəl qiymətləndirirlər. Azərbaycanda biz hamımız sizi böyük öndər Mustafa Kamal Atatürkün işinin etibarlı davamçısı kimi, onun böyük şagirdi kimi tanıyırıq. Bizə çox xoşdur və bunu böyük məmnuniyyətlə qəbul edirik ki, 1923-cü ildə yaranmış, Mustafa Kamal Atatürk tərəfindən əsası qoyulmuş Türkiyə Cümhuriyyəti indi etibarlı əllərdədir. Siz Türkiyənin cümhur başqanısınız, prezidentisiniz, Mustafa Kamal Atatürkün tutduğu vəzifəni tutursunuz və bu vəzifəni layiqincə həyata keçirirsiniz. Bunlar hamısı bizi sevindirir və bu sevgi, məhəbbət, hörmət hissi də Azərbaycan nümayəndələrinin böyük bir dəstəsinin buraya gəlib sizi şəxsən mütləq təbrik etməsinə əsas yaratmışdır.

Əziz qardaşım, əziz dostum, mən sizi doğum gününüz, yubileyiniz münasibətilə Azərbaycan xalqı adından, Azərbaycan Respublikası adından, şəxsən öz adımdan səmimi qəlbdən təbrik edirəm, sizə cansağlığı, uzun ömür, səadət və xoşbəxtlik arzulayıram. Əmin olduğumu bildirmək istəyirəm ki, hələ bundan sonra da bir çox illər siz Türkiyə Cümhuriyyətinə etibarlı rəhbərlik edəcəksiniz, onun gələcək yollarının sükançısı olacaqsınız, təkcə Türkiyənin yox, türk dünyasının, türk dövlətlərinin bir-birinə daha yaxın olması üçün böyük

xidmətlər göstərəcəksiniz. Şübhə etmirik ki, Azərbaycan Respublikasına, xalqına indiyədək göstərdiyiniz qayğı və diqqət bundan sonra da davam edəcəkdir. Siz həmişə Azərbaycan ilə bir yerdə olmusunuz, bundan sonra da bir yerdə olacağınıza biz tam əminik. Sizi bir daha ürəkdən təbrik edirəm, sizə cansağlığı, xoşbəxtlik arzulayıram. [484-485]

Mən bu gün bu xoşbəxt dəqiqələrdə sizin həyat yoldaşınız Nəzmiyyə xanımı da, bütün ailənizi də təbrik edirəm, sizin ailənizə də, bütün qohum-əqrəbanıza da xoşbəxtlik, səadət arzulayıram.

Azərbaycan xalqının ürəyində olan hissiyyatlar çoxdur. Bunu sözlə də, şerlə də, musiqi ilə də, rəsm əsərləri ilə də demək olar. Ancaq biz fikirləşdik ki, ürək sözlərimizi sizə dəqiq çatdırmaq üçün böyük rəssamımız Kamil Əliyev sizin portretinizi xalıda yaratsın. Azərbaycan incəsənətinin əsrlərdən-əsrlərə keçən ənənələrindən biri də xalı üzərində rəsmlər, mənzərələr əks etdirmək, tarixin böyük şəxsiyyətlərinin portretlərini yaratmaqdan ibarətdir. Azərbaycan incəsənəti, rəssamlıq məktəbi bununla fəxr edə bilər. Belə bir nümunə, yəni sizin portretiniz Azərbaycan ornamentləri ilə bəzədilmiş xalı üzərində toxunub hazırlanıb. Mən doğum gününüz münasibətilə bu xalını sizə hədiyyə edirəm. İcazənizlə, bu hədiyyəni sizə təqdim edim. Əziz dostum, doğum gününüzü təbrik edirəm. Sizə uzun ömür, cansağlığı, xoşbəxtlik arzulayıram. [485-486]

## TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNİN SƏDRİ HÜSAMƏDDİN CİNDORUKLA GÖRÜŞDƏ ÇIXIŞ

*2 noyabr 1994-cü il*

Burada biz doğma torpağımız, doğma ölkəmiz olan Türkiyədəyik. Bunu dəfələrlə mən də demişəm, əziz dostum, qardaşım Süleyman Dəmirəl də deyib: biz iki ölkəyik, bir xalqıq. Ona görə də buraya gələndə özümüzü öz məmləkətimizdə hiss edirik. Siz də Azərbaycana gələndə özünüzü elə hiss edirsiniz.

Biz dünən dahi Füzulinin 500 illiyini bərabər, çox yaxşı keçirdik. Mən bundan çox məmnunam. Bunu birinci növbədə Füzuli şəxsiyyətinə verilən qiymət hesab edirəm. İkincisi də biz bütün dünyaya bir daha nümayiş etdirdik ki, bir kökdən olan xalqlarıq, bizim ədəbiyyatımız da, mədəniyyətimiz də, adət-ənənələrimiz də – hamısı eynidir və Füzulinin 500 il bundan qabaq yaratdığı əsərlər indi də yaşayır. Dünən biz bunun şahidi olduq. Böyük bəstəkarımız Üzeyir Hacıbəyovun əsrin əvvəlində yaratdığı "Leyli və Məcnun" operasından parçalar dinlədik və yaxşı bir konsertə baxdıq. Bunlar hamısı Ankarada, Bilkənddə oldu. Bilkənddə yeni bir şəhər yaranıb, yeni bir salon yaranıb və dünən onun açılışı olub. Bunların hamısını bizim əziz dostumuz İhsan Doğramaçıoğlu yaratmışdır. Ona görə də mən onun Şərəf kitabına öz ürək sözlərimi yazdım. Bu gün öz hörmət və ehtiramımı İhsan Doğramaçıoğluna bir daha bildirirəm, dahi Füzulinin 500 illik yubiley mərasiminin təşkilindəki xidmətlərinə görə ona öz təşəkkürümü bildirirəm.

Bu gün biz əziz dostum və qardaşım Süleyman bəyi doğum günü münasibətilə təbrik etdik. O, bizim bütün heyətimizi qəbul etdi, biz qəlbimizdən gələn qardaş sözlərimizi ona söylədik. Öz hədiyyəmizi verdik. Hədiyyə bir xalıdır ki, onun üzərində türk dünyasının dəyərli oğlunun portreti əks olunmuşdur.

İndi də sizin hüzurunuza gəlmişik. Bu ilin əvvəlində Böyük Millət Məclisində olmağımdan çox məmnunam. Türkiyə Böyük Millət Məclisi mənim hafizəmdə, beynimdə uşaq vaxtlarımdan həmişə əzəmətli bir qurum kimi qalmışdır. Ola bilər, o zaman güman edə bilməzdim ki, bir vaxtlar mən Böyük Millət Məclisində bütün millət vəkilləri, bütün Türkiyə qarşısında söz söyləyəcəyəm, xalqa xitab edəcəyəm. Bu imkanı siz mənə yaratdınız. Buna görə də çox məmnunam. Bu gün də qonaqpərvərliyinizə görə sizə minnətdaram. [486-487]

Biz sizin vaxtınızı alırıq. Amma güman edirəm ki, bu heç də hədər deyildir. Yəni bunlar hamısı həm Türkiyə, həm Azərbaycan üçün, həm də xalqlarımızın bu günü, gələcəyi üçün lazım olan işlərdir. Bu işləri də biz bərabər görürük. Bütün bunlara görə də mən sizə təşəkkürümü bildirirəm. Azərbaycan xalqı adından Türkiyə xalqına hörmət və ehtiramımı, sevgimi bildirirəm. Əmin olduğumu bildirmək istəyirəm ki, Türkiyə Cümhuriyyəti bundan sonra da bütün türk xalqlarına, Azərbaycan xalqına örnək olacaqdır. [487-488]

## "NEFT DAŞLARI" NEFT-QAZÇIXARMA İDARƏSİNİN ƏMƏK KOLLEKTİVİNƏ

Əziz dəniz neftçiləri!

Sizi "Neft Daşları"nın 45 illiyi münasibətilə ürəkdən təbrik edir və hamınıza ən xoş arzularımı bildirirəm.

1949-cu ilin noyabrında acıq dənizdə qazılmış ilk kəşfiyyat quyusundan vuran neft fontanı Azərbaycanın şöhrət salnaməsində yeni parlaq səhifə açdı. Sahildən çox-çox uzaqlarda, Xəzərin mavi dalğaları qoynunda dirəklər üzərində qısa müddətdə salınmış şəhər tezliklə dünyanın möcüzələri sırasına daxil oldu.

"Neft Daşları"nı şöhrətləndirən onun əmək adamlarıdır. Qazmaçıların, neftçıxaranların, dəniz nəqliyyatçılarının və digər peşə sahiblərinin birgə gərgin əməyi nəticəsində yerin dərin sualtı qatlarından hasil edilən milyon tonlarla "qara qızıl" doğma Azərbaycanın iqtisadiyyatının dirçəlişində əvəzsiz yer tutur. Burada yetişib püxtələşən mütəxəssislər sonradan Xəzərin digər bölgələrində, Qara dənizdə, şimal dənizlərində, Vyetnamın dəniz şelfində, Uzaq Şərqdə, Hind okeanında yeni yataqların aşkar edilib mənimsənilməsində aparıcı rol oynamışlar. Bu gün xalqımız haqlı olaraq dünyada şöhrət qazanmış neft ustaları ilə – Qurban Abasov, Ağaqurban Əliyev, Bəhmən Hacıyev, Bəxtiyar Məmmədov, İsrafil Hüseynov, Xanoğlan Bayramov kimi onlarla adlı-sanlı dəniz neftçiləri ilə fəxr edir.

Qarşıda dəniz neftçilərini "Azəri", "Çıraq", "Günəşli" yataqlarının mənimsənilməsi ilə əlaqədar daha böyük işlər gözləyir. Şübhəsiz, "Neft Daşları"nda qazanılmış zəngin təcrübə bu nəhəng layihələrin uğurla həyata keçirilməsinə kömək edəcəkdir.

Əminəm ki, siz Azərbaycan neftçisi adını həmişə uca tutacaq, ilk müstəqil addımlarını atan respublikamızın iqtisadiyyatının möhkəmlənməsində öz səylərinizi əsirgəməyəcəksiniz.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*4 noyabr 1994-cü il* [488-489]

## PREZİDENT SARAYINDA RESPUBLİKANIN KƏND TƏSƏRRÜFATINDA APARILAN İSLAHATLARIN VƏZİYYƏTİNƏ HƏSR OLUNMUŞ MÜŞAVİRƏDƏ GİRİŞ SÖZÜ

*5 noyabr 1994-cü il*

Respublikanın sosial-iqtisadi böhran vəziyyətindən çıxarılması ilə əlaqədar biz dəfələrlə danışıqlar aparmışıq, fikirlər söyləmişik və bildirmişik ki, böhrandan xilas olmaq üçün, Azərbaycanın iqtisadi potensialından səmərəli istifadə etmək üçün yolumuz iqtisadi islahatlar, bazar iqtisadiyyatına keçid yoludur, sərbəst iqtisadiyyata, təşəbbüskarlığa, sahibkarlığa geniş imkanlar yaratmaq yoludur. Respublika ictimaiyyətinin də, xüsusən iqtisadçıların, təsərrüfatla, iqtisadiyyatla məşğul olanların əksəriyyətinin də fikri belədir. Ancaq təəssüflər olsun ki, əməli tədbirlər həyata keçirmək sahəsində irəliyə gedə bilməmişik. Bəzən məndə belə təsəvvür oyanır ki, bir çoxları bu sözləri deyir, ancaq əməli tədbir, iş görmür və ya görmək istəmir, yaxud da bacarmır, yolunu tapa bilmir. Bir çoxları isə fikirləşir ki, mən bunun tərəfdarı olduğumu deyim, amma kim isə bunu eləmək istəmir. Bunu biz hamımız bir yerdə eləməliyik.

Aydındır, bunu sübut etməyə ehtiyac yoxdur ki, iqtisadi islahatların həyata keçirilməsi asan məsələ deyildir. Kim isə hesab edir ki, iqtisadi islahatları bir günə, iki günə, bir aya, iki aya, üç aya həyata keçirmək, ondan istədiyimiz nəticəni əldə etmək olar. Şübhəsiz ki, bu, səhv fikirdir. İqtisadi islahatlar keçirmiş ölkələrin təcrübəsi də bunu sübut edir. Əvvələn, bu təcrübə, iqtisadi islahatların həyata keçirilməsinin necə çətin olduğunu, ikincisi, onun nə qədər vaxt tələb etdiyini göstərir. Üçüncüsü isə bu islahatların aparılması dövründə müsbət nəticə alana qədər nə qədər yeni çətinliklərin meydana çıxdığını göstərir. Biz bunların hamısını nəzərə almalıyıq. İllüziya yaratmalı deyilik ki, guya iqtisadi islahatlar keçirən kimi hər bir şeyə nail olacağıq. Ancaq eyni zamanda bu çətinliklər bizi qorxutmamalıdır. Çünki nə qədər qorxsaq, o qədər də yerimizdə dayanacaq, quyunun o qədər də dərinliyinə düşəcəyik.

Təsəvvür edin, biz gəlib elə bir mərhələdə dayanmışıq ki, buradan nə geriyə çəkilmək, nə də yerində durmaq mümkündür. Amma irəliyə getmək üçün, necə deyərlər, gərək qolumuzu da, qıçımızı da çırmalayıb çox cəsarətlə hərəkət edək. Bunun, şübhəsiz ki, çətinliyi olacaqdır. Mən indi bir neçə saatdır BMT-nin Azərbaycandakı nümayəndəsi Mahmud əl-Səidlə söhbət aparırdım və ona görə də müşavirəyə bir qədər ləngidim. O, BMT-nin Baş katibi Butros Qali ilə birlikdə Gürcüstana və Ermənistana getmişdi.

İndi mən onunla bir çox məsələlər barədə söhbət apardım və Gürcüs[489-490]tanda, Ermənistanda iqtisadi vəziyyətin necə olması ilə maraqlandım. Bilirsiniz ki, bizim Gürcüstanla yaxşı, dostluq əlaqələrimiz var. Biz Ermənistanla müharibə vəziyyətindəyik. Amma buna baxmayaraq, orada vəziyyətin necə olması ilə maraqlanmaq pis deyil, Mahmud əl-Səid mənə dedi ki, hər iki respublikada iqtisadi, sosial vəziyyət həddən artıq gərgindir. Ermənistanda iqtisadi islahatlar və özəlləşdirmə aparılmasını elan ediblər. Ancaq onlar bu tədbirləri görsələr də, daha çətin vəziyyətə düşüblər. Bu o demək deyil ki, islahatların keçirilməsi daim çətin vəziyyətə gətirib çıxarır. Onun bir dövrü var və həmin dövrü keçmək lazımdır. Çıxışımın əvvəlində mən bunu sizə çatdırıram ki, öz fikrimi heç kəsə calamaq istəmirəm. Sadəcə olaraq bildirirəm ki, biz bu məsələlərə ciddi yanaşaq.

Bugünkü müşavirə də məhz ona görə toplanıb ki, bizim iqtisadiyyatla məşğul olan ayrı-ayrı təşkilatlar da, nazirliklər də, yerli orqanlar da iqtisadi islahatların keçirilməsinin zəruriliyini bildirirlər, ancaq hərəkət etmirlər. Biz onlara müəyyən hərəkət vermək üçün bu gün bu müşavirəni keçiririk. Hazırda bu islahatların xüsusən kənd təsərrüfatında həyata keçirilməsi məsələsi meydana çıxır. Ona görə də bugünkü müşavirədə biz əsasən kənd təsərrüfatı ilə əlaqədar məsələlərdən söhbət aparacağıq.

Şübhəsiz ki, biz başqa məsələlərlə də məşğul olacağıq. Ancaq indi hamısını əhatə etmək mümkün deyil. Bizim fikrimiz bu gün kənd təsərrüfatı məsələləri ilə əlaqədar söhbət aparmaqdır. İstəyirəm imkan verək ki, buraya dəvət olunmuş şəxslər öz fikirlərini desinlər görək, bizim nə kimi layihələrimiz, təkliflərimiz var, hansı təkliflər nədən ibarətdir, nə edə bilərik.

Mən bir məsələni də bildirmək istəyirəm ki, hamı bunu nəzərə alsın: kimin nə fikri var, açıq desin. Heç kəs nə qorxsun, nə çəkinsin. Bilirsiniz, keçmiş dövrlərdə belə bir əhval-ruhiyyə yaranmışdı ki, bu sözü deyirəm, görəsən filankəsin xoşuna gələcək, ya yox. Yaxud təsirli bir adamın başqa bir fikri var, görüm onun fikri necədir. Mənim deyəcəyim söz görüm onun xoşuna gəlirmi, o bununla razıdırsa, mən bu sözü deyim və sair. Bax, bunları aradan qaldırmaq lazımdır.

Mən bu respublikanın başçısıyam, prezidentəm. Sizə açıq deyirəm: heç kəs heç nədən qorxmasın, heç kəsdən çəkinməsin. Fikrə, sözə görə heç kəs nəinki cəza ala bilməz, heç kəs töhmətlənə də bilməz, heç kəs heç kəsi incidə bilməz. Biz demişik ki, söz azadlığıdır. Əgər, bunu bütün dünyaya elan etmişiksə, ictimaiyyətimiz də bunu deyir, indi biz bir yerə toplaşanda oturaq fikirləşək ki, mən bunu deyəndə görüm kimin xoşuna gələcək, bununla razı olacaq, yoxsa yox? Bilirsiniz, belə şeylər bizi daim pis vəziyyətdə saxlayacaq. Ona görə də sərbəst

olun, hərə öz fikrini desin. Bu o demək deyil ki, burada deyilən fikirlərin hamısı doğru, yararlı olacaq, hamısı qəbul olunacaq. Ancaq nə qədər çox fikir olsa, bu fikirləri araşdırıb, təhlil edib, ələkdən, süzgəcdən keçirəndən sonra ən yaxşılarını ortaya çıxararıq və onlardan istifadə edə bilərik. Heç kəs heç bir iddiada olmamalıdır ki, o hər şeyi bilir. Mən şəxsən belə bir iddiada deyiləm. Ona görə də sizi buraya dəvət edib müşavirə keçirməkdə məqsəd o deyil ki, [490-491] sonra kim isə desin ki, yaxşı, təsirli çıxış etdin. Məqsəd odur ki, hər kəs sərbəst fikir söyləsin, sərbəst söz söyləsin.

Kənd təsərrüfatında vəziyyət məlumdur. Kənd təsərrüfatımızın potensialı da məlumdur. Buraya toplaşan adamlar yəqin ki, bunu bilirlər. Kənd təsərrüfatında işləri necə quraq ki, bu bizi təmin edə bilsin? Əgər sosializm sistemində təbiətin bizə verdiyi sərvətlərdən 4-5 qat artıq fayda götürürdüksə və indi ondan aşağı nəticə əldə ediriksə, bununla razılaşmaq olmaz. 70-ci illərin axırlarında 80-ci illərin əvvəllərində respublikada ildə orta hesabla 850 min ton pambıq yığırdıq. Doğrudur, sonralar deyirdilər ki, orada rəqəmlərin şişirdilməsi olub və sair. Bəli, bir kolxozda, bir rayonda rəqəmlərin şişirdilməsi var idi. Mən işləyən dövrdə bunun üstündə neçə adam işdən, partiyadan çıxarılmışdı. Amma rəqəmlərin belə şişirdilməsinin hamısını üst-üstə qoysaq 10 min, 15 min, 20 min, 30 min, 50 min ton olsun. 800 min ton pambıq ki, var idi! Amma dünən mən soruşuram, deyirlər ki, bu il indiyədək 285 min ton pambıq yığılıb. Məgər belə biabırçılıq olarmı?!

1969-cu il iyulun 14-də məni Azərbaycana birinci katib seçdilər. Onda ilin yarısı idi və biz çalışdıq, çarpışdıq, ilin axırında 290 min ton pambıq topladıq. Amma 1974-cü ildə 500 min ton pambıq yığıldı. Sonra məhsul ilbəil artdı, gəlib orta hesabla 800-850 min tona çatdı. Bu pambıq var idi. Ondan istifadə olunurdu. Camaat bundan qazanırdı, yaşayırdı, evlər tikdirirdi. Saraylar, binalar, məktəblər tikildi və sair. İndi torpaq həmin torpaqdır, insanlar həmin insanlardır. Hətta o vaxta nisbətən adamların sayı da artıb. Amma onların əksəriyyəti işsizdir.

Yaxud elə üzümçülüyü götürək. Biz 1970-ci ildə 250 min ton üzüm toplamışdıq. Bu, mənim yaxşı yadımdadır. Sonra qalxdı 2 milyon tona, 1 milyon 800 min, 1 milyon 700 min tona. İndi bu il 192 min ton üzüm toplanıb. Belə şey olarmı? Tutaq ki, bəzi səbəblər olub. 1985-ci ildə sərxoşluğa qarşı mübarizə adı ilə üzüm bağlarını qırdılar, dağıtdılar. Amma indi mövcud olan bağlardan biz 2-3 dəfə bundan artıq üzüm götürə bilərdik. Götürə bilmirik. İndi yenidən o sistemə qayıdaq? Yox, dəfələrlə demişik ki, bu olmayacaq. Amma eyni zamanda bu torpaqdan, təbiətimizdən istifadə edib çox məhsul götürə bilərik. Bunun üsulları da məlumdur. İslahatları keçirib bu məhsulu əldə edən adamlar da, ölkələr də, yerlər də vardır. Ona görə də bunu deməklə mən sizi geri qaytarmaq istəmirəm. Sadəcə olaraq demək istəyirəm ki, Azərbaycan təbiətinin, torpaqlarının potensialı böyükdür.

Əgər biz Zaqafqaziyanı götürsək, bu respublikaların heç biri kənd təsərrüfatı sahəsində təbiətin Azərbaycana verdiyi imkanlara, potensiala malik deyil. Amma biz bu potensialdan istifadə etməliyik. Mən bunu sonra deyəcəyəm. Bu günlərdə Türkmənistanda oldum. Orada çox yaxşı nəticələr əldə ediblər.

Ona görə də mən istəyirəm ki, hərə öz fikrini sərbəst desin. Bir şey aydındır: mühafizəkarlığa yol vermək olmaz. Olandan yapışıb dayanmaq düzgün deyil. Geriyə, keçmiş sistemə yol yoxdur. Yolumuz məlumdur. Bu [491-492] yolla islahatları necə keçirməliyik? Bunun üçün ən əlverişli vaxt noyabr ayı, qış dövrüdür. Biz bu vaxtı əldən versək, keçirsək, yenə də itirəcəyik. Çünki yaz, yay dövründə istehsalın qızğın çağında islahat keçirmək vaxtı deyil.

... İslahatların əsasını mülkiyyət formasının dəyişdirilməsi təşkil edir. Bu, necə olacaq? Mülkiyyət formasının dəyişdirilməsi kolxozların və sovxozların aqibətindən asılıdır. Çünki keçmişdə xüsusi mülkiyyət olub, torpaq da, mal-qara da şəxsi olub. Hər kəs özü bilib ki, hansı vasitələrlə əkəcək, biçəcək, məhsul alacaq, necə satacaq. 20-ci ildən sonra bu, pozulmağa başlayıb, 30-32-ci illərdə kollektivləşmə gedib, mülkiyyət forması dəyişib. Biz indi həmin mülkiyyət forması şəraitində yaşayırıq. Respublikada bazar iqtisadiyyatına, sərbəst iqtisadiyyata keçmək üçün mülkiyyət forması dəyişməlidir, özəlləşdirmə getməlidir. Bunlar aydındır.

Mülkiyyət forması necə, hansı yollarla dəyişəcəkdir? Məsələn, bizim bir rayonda, bir kənddə elə bir təcrübəmiz varmı ki, kolxoz ləğv olunub, torpaq paylanılıb, oradan nə qədər mənfəət gəlir, əvvəlki ilə indinin arasında fərq nədir? Mən Naxçıvanda işləyəndə bir neçə dəfə toplaşmışdıq, danışıqlar aparmışdıq. Bir dəfə biz burada müşavirə apararkən Naxçıvanın nümayəndəsi Məmməd Abbasova söz verdim. O, bəzi məsələlərdən danışdı. Məsələn, o zaman Naxçıvanda biz qərara aldıq ki, iribuynuzlu mal-qaranın əksəriyyəti kolxozlardan, sovxozlardan camaata satılsın. Bunun əleyhinə çıxanlar çox oldu. Gəlib dedilər ki, buradan satırlar, oradan da Arazdan o taya keçib satırlar, kəsirlər, mal-qaranın sayı azalacaq. Amma mal-qaranın sayı azalmadı. Xırdabuynuzlu heyvanlarla da vəziyyət belə oldu. Sonra biz fikirləşdik ki, rentabelli olmayan bir neçə kolxozu ləğv edək və əmlakını camaata paylayaq.

Mənim yadımdadır, bəlkə də Naxçıvanı tanıyan adamlar da bilir. Şahbuz rayonunun bir dağ kəndi var. Kolanı Biçənək. Bu kənd Ermənistanla sərhəddədir. Mən bir dəfə oraya getmişdim və kəndlilərlə danışırdım ki, vəziyyət ağırdır, necə edək, nə təhər eləyək? Onların bir qismi deyirdi ki, kolxozu saxlamaq lazımdır, biz kolxozsuz yaşaya bilmərik. Mən araşdırdım ki, bunlar niyə belə deyirlər. Məlum oldu ki, bu, kolxozda qarovulçudur və yaxud xırda bir vəzifədədir və oradan bir qədər pul alıb yaşayır. Beləleri də çoxdur. Onlar belə

hesab edirlər ki, kolxoz dağılsa, gedib işləməlidirlər. İndi isə işləmir, gedib haradasa durur, heç durmasa da pulunu alır. Bax, mən orada belələri ilə rastlaşdım.

Mən rayonlara çıxanda təəssüf ki, belə məsələləri müzakirə etməyə imkanım olmayıb. Amma Naxçıvanda bir neçə rayonda, kəndlərdə olmuşdum, bir sıra məsələləri müzakirə etmişdim, adamların fikirlərini öyrənməyə çalışmışdım. Orada artıq bir çox kolxozlar ləğv olunub. Amma camaatın gəliri azalmayıb, artıb. İndi deyə bilmərəm ki, bu məsələ nə qədər tənzimlənib. Çünki mən oradan çıxıb getdim. O vaxt isə həmin işə təzə başlamışdım.

Ona görə də indi biz bu əsas məsələni – mülkiyyət formasının dəyişdirilməsi məsələsini necə edəcəyik, hansı sürətlə aparacağıq. Nə edək ki, [492-493] torpaqlarımızdan daha çox məhsul götürək. Elə taxılı götürək. Keçən ilin əkin dövründən biz bu işlə məşğul oluruq. Bir neçə dəfə yığışdıq. Dedilər ki, istehsal 1 milyon 400 min, 1 milyon 500 min ton olacaq. Məsələn, 1980-ci ilin rəqəmi mənim yadımdadır. Əvvəl taxıl üçün 650 min hektar sahə var idi. Onu azaldıb 400 min hektar elədik. Çünki bir qismi pambığa, bir qismi üzümə ayrıldı. Ümumiyyətlə, o vaxt meyl belə idi ki, az sahədən çox məhsul götürülsün. Bu, elə indi də bizə lazımdır.

Yadımdadır, 1980-1981-ci illərdə 1 milyon 500 min, 1 milyon 600 min ton taxıl istehsal etmişdik, dövlətə 400 min, 420 min ton taxıl satmışdıq. O vaxt ümumi taxıl balansı çatmırdı. Moskvadan tapşırıq verirdilər, biz də nəzərdə tutulandan çox taxıl verirdik. Amma istehsal 1 milyon 500 min, 1 milyon 600 min ton olurdu. İndi mənə məlumat verirlər ki, bu il 1 milyon 14 min ton taxıl olub, amma əkin sahəsi 600 min hektardan çox olub. Axı bu yaramaz. O vaxt məhsuldarlıq hər hektardan 24-25 min sentner olurdu. İndi deyirlər elə yerlər var ki, 4, 5, 6 sentner taxıl götürülür. Biz vəziyyəti belə saxlaya bilmərik. Torpağımız var, bu torpaqdan istifadə etməliyik. Yenə də deyirəm, geri qayıtmayacağıq. Amma nə cür edək, bu mülkiyyət forması necə dəyişilməlidir? Necə edək ki, bu torpaqdan istədiyimiz qədər taxıl götürək? Mən axırda deyəcəyəm, indi respublikamızda taxıl sarıdan gərgin vəziyyət yaranıb.

Mən istəyirəm, burada danışıqlar ümumi olmasın – bunu eləmək, onu eləmək lazımdır. Danışan hər bir adam təcrübə varsa, təcrübədən danışsın. Bir də konkret təkliflər versin ki, görək nə etmək lazımdır. Danışıqlarınız konkret olsun, ümumi olmasın...

## YEKUN SÖZÜ

Müşavirəyə başlayarkən mən bu gün toplaşmağımızın məqsədini dedim və bildirdim ki, çox mühüm bir məsələni müzakirə edirik. Məqsəd respublikanın iqtisadi potensialından səmərəli istifadə etməkdən ibarətdir.

Ölkəmizin iqtisadi potensialının böyük bir qismi, təbii sərvətlərimizlə bağlı olan hissəsi kənd təsərrüfatında, aqrar-sənaye bölməsindədir. Ona görə də müstəqil Azərbaycanımızın gələcəyi bu sahənin səmərəli işləməsindən asılıdır. Mən əvvəl də dedim, indi də qeyd edirəm: bunun yolu iqtisadi islahatlar yoludur. Burada çıxış edənlərin, demək olar, hamısı kənd təsərrüfatında iqtisadi islahatlar aparılmasının zəruriliyini etiraf etdi, buna tərəfdar çıxdı. Mən buna əks olan fikirlər eşitmədim. Düzdür, bu islahatların keçirilməsi barədə hərə öz fikrini sərbəst deyir. Bu da təbiidir. Lakin əsas strateji yolumuzun iqtisadi islahatlar yolu olmasına heç kim etiraz etmir.

Mən belə hesab edirəm ki, bu, respublikamızın kənd təsərrüfatı ilə bağlı alimlərinin, mütəxəssislərinin, bu sahə ilə bilavasitə məşğul olan adamların ümumi fikrini əks etdirir və cəsarətlə deyə bilərəm ki, bütünlüklə ictimaiyyətimizin ümumi fikridir. Mənə bunu deməyə əsas ve[493-494]rən odur ki, bir çox görüşlərdə, söhbətlərdə camaatın əksəriyyətinin bu fikirdə olduğunu hiss etmişəm. Şübhəsiz ki, biz bu islahatları keçirərkən həmin fikirləri ictimai rəyin süzgəcindən keçirə bilərik. Ümidvaram və tam əminəm ki, buna heç bir etiraz olmayacaq. Yəni biz bu islahatları keçirməliyik, özü də çox səriştə ilə və qısa müddətdə keçirməliyik.

Bununla əlaqədar qanun layihəsi hazırlanmışdır. Doğrudur, mən hələ onu oxumamışam, lakin burada Arif Rəhimzadənin çıxışında həmin layihənin müəyyən müddəaları bildirildi. Burada belə bir fikir də deyildi ki, yeni qanunun qəbul edilməsinə ehtiyac yoxdur. Çünki bir neçə qanun qəbul olunmuşdur, lakin bunlar işləmir. Ola bilər, indiyədək qəbul edilmiş qanunların hamısına mütləq yenidən baxılsın, onlar bir daha təhlil edilsin, işləməməsinin səbəbləri araşdırılsın, hansı maddələrin bu günün tələblərinə cavab verdiyi müəyyənləşdirilsin və onlardan istifadə edilsin.

Bununla belə, iqtisadi islahatların keçirilməsi üçün xüsusi bir qanunun qəbul olunması zəruridir. Ola bilər, bu qanun əvvəllər qəbul edilmiş qanunların bəzi müddəalarını özündə əks etdirsin. Ancaq əvvəl qəbul edilmiş qanunlar ayrı-ayrı sahələrə aid idi: Torpaq Məcəlləsi, fermer təsərrüfatlarının yaranması, kəndli təsərrüfatlarının yaranması və s. haqqında qanunlardır. Bunların hər biri aqrar bölmədə islahatların keçirilməsinə, şübhəsiz ki, şərait yaradır. Amma bizə ümumi bir proqram lazımdır. Bu proqram, haqqında söhbət gedən qanunda öz əksini tapmalıdır. Ona görə də belə bir qanunu mütləq qəbul etməliyik. Güman edirəm ki, bugünkü müzakirədə söylənilən təkliflərdən, fikirlərdən istifadə edilərək həmin qanun layihəsi qısa bir müddətdə hazırlanıb təqdim olunmalıdır. Ola bilər, biz onu qəbul etməzdən əvvəl ümumxalq müzakirəsinə də çıxaraq. Ancaq bütün bu işləri çox qısa müddətdə, vaxt itirmədən görmək lazımdır.

Bayaq dedim, bir də təkrar edirəm, – kənd təsərrüfatında islahatların keçirilməsinin mövsümdən asılılığı var. Payız-qış dövrü bu islahatların keçirilməsi üçün ən əlverişli vaxtdır. Biz bu vaxtı ötürə bilmərik. Əvvələn ona görə ki, biz onsuz da gecikmişik və daha gecikə bilmərik. İkincisi, əgər biz bu vaxtı ötürsək, yaz-yay aylarında islahatların keçirilməsi daha da çətin olacaqdır.

Biz müstəqil dövlət kimi yaşayırıq və dəfələrlə demişik ki, müstəqil dövlətçiliyimiz əbədi olacaqdır. Yəni biz daha başqa bir dövlətin tərkibində, himayəsi altında yaşamayacağıq. Başqa bir dövlətin də imkanlarından istifadə etməyə nə imkanımız, nə də istəyimiz var. Deməк, əgər biz müstəqil dövlət olmaq istəmişiksə və buna nail olmuşuqsa, öz ölkəmizin sərvətlərindən səmərəli istifadə edərək həm müstəqil dövlətimizi möhkəmləndirməliyik, həm də bu müstəqilliyin təkcə siyasi-mənəvi deyil, habelə maddi nəticəsi də olmalıdır, insanların yaşayışının yaxşılaşmasını təmin etməlidir. Əgər bu olmasa, belə müstəqilliyin heç bir əhəmiyyəti [494-495] yoxdur. Müstəqillik ona görədir ki, biz öz taleyimizin sahibi olaq, öz sərvətlərimizin sahibi olaq və bu sərvətlərdən istifadə edərək xalqımız daha yaxşı yaşasın. Əgər müstəqilliyimiz sadəcə olaraq formal xarakter daşıyacaqsa, yaxud müstəqillik dövründə iqtisadiyyatımız gündən-günə geriləyəcəksə, əhalinin yaşayış səviyyəsi pisləşəcəksə, onda bu müstəqillik nəyə lazımdır? Belə də yaxşı olar ki, başqa bir dövlətin müstəmləkəsi olasan, xalqın bundan da yaxşı yaşasın.

Amma biz buna yol verə bilmərik. Əvvələn ona görə ki, müstəqillik əsrlər boyu bizim arzumuz olmuşdur. İkincisi, bizim ölkəmiz – Azərbaycan öz sərvətlərindən istifadə edərək iqtisadiyyatını yaxşı qura və əhalisinin, vətəndaşlarının rifahını daha da yaxşılaşdıra bilər. Sovetlər İttifaqının dağılması prosesi gedərkən bir çox iqtisadçılar bunu təhlil etmiş və hələ o zaman belə nəticəyə gəlmişdilər ki, 15 sovet respublikasından ikisi-üçü müstəqillik dövründə özünü tam yaşada bilərsə, bunlardan biri də Azərbaycandır. Bunu hələ o zaman həm sovet alimləri, həm də Qərb sovetoloqları demişlər. Bu, havadan götürülmüş fikir deyildir. Azərbaycanın həm təbii sərvətləri, həm də iqtisadi potensialı ilə bağlıdır. Əgər təbii sərvətlərimizin bir hissəsi sənaye istehsalının əsasını təşkil edirsə, digər hissəsi müşavirənin əvvəlində dediyim kimi, kənd təsərrüfatına aiddir. Ona görə də biz təbii sərvətlərimizdən konkret olaraq indi əhalini ərzaqla təmin etmək üçün istifadə etməli, həm də təkcə bununla kifayətlənməyərək, kənd təsərrüfatı istehsalından əldə edilən məhsullardan istifadə edərək iqtisadiyyatımızı qaldırmaq üçün kənd təsərrüfatının səmərəliliyini təmin etməliyik. Buna nail olmaq üçün bizim yolumuz iqtisadi islahatlar yoludur.

Bilməlisiniz ki, kənd təsərrüfatı potensialı haqqında söhbətlərimiz nəzəri xarakter daşımır. Bunu deməyə əsasımız var. Yaxın keçmişdə kənd təsərrüfatı sahəsində istehsal etdiyimiz məhsulların miqdarı buna canlı sübutdur. Əgər o zaman, sərbəst olmadığımız bir vaxtda, biz bolluca kənd təsərrüfatı məhsulları istehsal etmişiksə, indi nə üçün istehsal etməyək? 70-ci illəri – 80-ci illərin əvvəlini götürürəm: təsəvvür edin, Azərbaycanda ildə orta hesabla 1,3-1,4 milyon ton, bəzən 1,5 milyon ton, – orta hesabla 1,3 milyon ton götürürəm, – taxıl istehsal olunurdu, ildə 800 min ton pambıq, 1,5 milyon ton üzüm, 700 min ton tərəvəz məhsulları, 300 min ton meyvə, 50-55 min ton tütün, 25-26 min ton yaşıl çay yarpağı, 150-160 min ton ət, 700 min tonadək, fərdi təsərrüfatlar da nəzərə alınarsa 1 milyon tonadək süd istehsal olunurdu. Bu rəqəmləri toplayın, görün neçə milyon ton edir. Bunlar, dediyim kimi, 70-ci illərdə – 80-ci illərin əvvəlində istehsal etdiyimiz məhsullardır. Amma bizim torpağımız, kənd təsərrüfatı potensialımız bundan da çox məhsul istehsal etməyə imkan verir. Bir şərtlə ki, biz bu imkandan səmərəli istifadə edə bilək.

Biz buna nail olmalıyıq. Bilirsiniz, belə vəziyyətdə yaşamaq olmaz. Bu cür təbii imkanları olan respublikada biz, – mən burada işlədiyim gündən, yəni keçən ilin iyunundan indiyədək olan dövrü deyirəm, – hər [495-496] ay fikirləşirik ki, camaatı çörəklə necə təmin edək. Bu il çalışdıq ki, yüksək taxıl məhsulu götürək, 1 milyon ton taxıl istehsal olundu. Bundan isə cəmi 265 min tonu tədarük edildi. 265 min tonla, yaxud əhalidə qalan taxıldan da istifadə edilməklə camaatı dolandırmaqmı olar? Bizim aylıq tələbatımız 90-100 min tondur. Özünüz hesablayın, nə qədər buğda olmalıdır ki, biz əhalini çörəklə müntəzəm təmin edək. Bunu edə bilmirik.

Özünüz bilirsiniz ki, son vaxtlar çox gərgin vəziyyət yaranmışdır. Son bir ayda mənim iş günümün bəlkə də yarısı oradan-buradan buğda, un tapıb respublikaya gətirməyə həsr edilmişdir. Axır vaxtlar elə bir vəziyyət yarandı ki, biz daha haralara müraciət etmədik. Mən oktyabrın 18-19-da İstanbulda – türk cümhuriyyətləri dövlət başçılarının görüşündə olarkən Türkiyəyə müraciət etdim. Oktyabrın 21-də Moskvada MDB dövlət başçılarının iclasında oldum və orada Rusiyanın rəhbərlərinə müraciət etdim. Rusiya hökumətinin başçısı Viktor Çernomırdin ilə xüsusi olaraq danışıqlar apardım. Bu danışıqlarda mərkəzi yeri Azərbaycana buğda satılması məsələsi tuturdu. Böyük çətinliklə olsa da, Azərbaycana 300 min ton buğda satılması barədə razılıq aldıq. Amma həmin buğdanı almaq, buraya gətirmək də nə qədər böyük çətinlik yaradır.

Füzulinin 500 illiyi ilə əlaqədar Türkiyəyə getdim. Ancaq səfərim təkcə bu yubiley ilə əlaqədar deyildi, həm də iqtisadi əlaqələrimizin, başqa məsələlərin həll olunması ilə bağlı idi. Yubiley tədbirlərində iştirak etmək sadəcə olaraq bir vasitə idi. Türkiyənin prezidenti Süleyman Dəmirəl, baş nazir Tansu Çillər ilə, nazirlərlə danışıqlarımızda əsas məsələ bu idi ki, bizə buğda, un satsınlar. Ondan bir neçə gün əvvəl, oktyabrın 26-27-də mən Aşqabatda oldum. Ayın 27-də Bakıdan mənə zəng etdilər ki, vəziyyət çox gərgindir. Mən İran prezidenti Haşimi-Rəfsəncanidən təkidlə xahiş etdim ki, təcili olaraq bizə un göndərsinlər və onlar Astaradan gündə 150-

200 ton un verməyə başladılar. 25 min ton un verməyə razılaşmışlar. İndi onu gəmilərlə gətirməliyik. Türkiyə də 100 min ton taxıl verəcək.

Lakin bununla da yaşamaq olmaz. Ola bilər, bu, 2-3 ay bizi təmin etsin. Bəs sonra nə etmək lazımdır? Bilirsiniz ki, unun, buğdanın qiyməti gündən-günə artır. Bir-iki ay bundan əvvəl təklif ediləndə ki, tonu 90 dollara buğda gətirmək olar. Biz bunu baha sayırdıq. Lakin indi Türkiyədə buğdanın hər tonunu bizə 155-160 dollara təklif etmişlər. Nəqliyyat xərcləri ilə birlikdə görün nə qədər olacaq! İndi biz belə ağır vəziyyətdəyik. Yenə deyirəm, son bir ayda mən şəxsən əsasən bu işlərlə məşğul olmuşam.

Ona görə də münbit torpağı, təbii imkanları olan bir ölkədə bunlardan istifadə etməyərək, ordan-burdan taxıl axtarmağa haqq qazandırmaq olmaz. Kənardan taxıl, un almaq üçün vəsait də lazımdır. Vəsait göydən də düşmür, yerdən də çıxmır, onu da bilməlisiniz ki, heç kəs bizə müftə heç nə vermir. Bütün bunları nəzərə alaraq, ciddi tədbirlər görməliyik ki, kənd təsərrüfatında, aqrar bölmədə olan imkanlarımızdan bundan sonra da səmərəli istifadə edək. [496-497]

Bilirsiniz, doğrudan da, son illərdə Azərbaycanda iqtisadiyyat ilbəil geriləmişdir. Lakin bu geriləmə avtomatik olmamışdır, sadəcə olaraq, bu işlərə fikir verilməmişdir. Mən 70-ci illərdə və 80-ci illərin əvvəlində olan rəqəmləri dedim.

Burada Rəsul Quliyev yada saldı, doğrudan da bu, o vaxtlar təkcə kənd təsərrüfatı məhsulları istehsalı demək deyildi, onların emalı üçün nə qədər müəssisələr yaradılmışdı. O qədər pambıq zavodu tikmişdik ki, 1 milyon ton məhsul emal etməyə imkanımız yaranmışdı. Yaxud da, yadımdadır, biz bir tərəfdən üzüm bağları salırdıq, o biri tərəfdən də şərab zavodları tikirdik. Əvvəl istehsal gücü 10 min ton, sonra 20 min ton, daha sonra isə 30 min ton olan zavodlar tikirdik. Əgər 1 milyon 500 min ton, hətta bir il 1 milyon 800 min ton, – mən respublikadan gedəndən sonra 2 milyon tona da çatmışdı, – üzüm istehsal edilmişdisə, demək, biz bunun hamısını emal etməyə müəssisələr yaratdıq. Buna nə qədər xərc qoyuldu. Lənkəranda, Xudatda, Xaçmazda, Qazaxda, Naxçıvanda, Göyçayda, Sabirabadda və başqa yerlərdə nə qədər konserv zavodu tikildi. Bu zavodlarda həm meyvə, həm də tərəvəz emal edilirdi. Bunlar hamısı bizim əsas fondlarımız, istehsal bazalarımızdır.

Yəni demək istəyirəm ki, bizim münbit torpağımız, əlverişli təbiətimiz imkan verir ki, çoxlu kənd təsərrüfatı məhsulu istehsal edək. Eyni zamanda emal müəssisələrimiz var. Sadəcə olaraq bunlardan istifadə etmək lazımdır. İstifadə etmək üçünsə, şübhəsiz ki, yeni üsullar tətbiq olunmalıdır.

Bir məsələni də nəzərinizə çatdırmaq istəyirəm, yəqin ki, bu, yeni üsullardan istifadə etməyimizin zəruriliyinə sizi daha da inandıracaqdır. Mən Aşqabatda olanda orada kənd təsərrüfatının vəziyyəti ilə maraqlandım. Mənə məlumat verdilər ki, bu il Türkmənistanda dövlət 850 min ton taxıl tədarük etmişdir. Təəccübləndim, çünki 1969-cu ildən mən burada işləyərkən biz hər il Türkmənistanla yarışırdıq. Göstəricilərimizi bir-birimizə verirdik və yadınızdadır ki, hər il də görüşlər olurdu. Türkmənistandan Azərbaycana gəlirdilər, buradan Türkmənistana gedirdilər. Onların göstəricilərinin hamısını mən indi də əzbər bilirəm. Türkmənistan dövlətə ildə 100 min tondan artıq taxıl təhvil verməmişdi. O zaman belə bir fikir var idi ki, Türkmənistanda əsas yeri pambıqçılıq tutur, taxılçılıq üçün şərait yoxdur. Onların verdiyi 100 min tonun Sovetlər İttifaqının taxıl balansında elə bir əhəmiyyəti yox idi, o böyüklükdə ölkə üçün 100 min ton nə idi ki? İndi türkmən dostlar mənə deyirlər ki, 850 min ton taxıl təhvil vermişik. Soruşdum ki, axı bunu necə əldə etdiniz, yeni sahələrmi əkirsiniz? Deyirlər ki, islahatlar keçiririk. Düzdür, onlar biz istədiyimiz kimi islahatlar keçirməmişlər, mən bunu tam dəqiqləşdirə bilmədim. Ancaq torpaqların çoxunu icarəyə vermişlər. Bir sözlə, kəndliyə sərbəstlik vermək nəticəsində buna nail olublar.

Soruşdum ki, bəs pambıq nə vəziyyətdədir? Oktyabrın 27-də mənə dedilər ki, 1 milyon 200 min ton pambıq tədarük olunmuşdur. Mən təəccüb etdim. Çünki o vaxtlar Türkmənistan bir dəfə ildə bir milyon [497-498] 50 min ton pambıq təhvil vermişdi. Özü də bu göstəriciyə dekabr ayında çatmışdılar. Bizim yarışdığımız illərdə 900 min ton, ən çoxu 950 min ton pambıq yığırdılar. Orta göstəriciləri 800 min ton idi. Özü də Orta Asiyada, Türkmənistanda pambığı dekabrda soyuqlar düşənədək yığırdılar. İndi isə mənə dedilər ki, oktyabrın 27-də 1 milyon 200 min ton pambıq tədarük etmişlər.

O vaxtlar pambıqdan ötrü Moskvadan nə qədər tələblər olurdu. Siz bilmirsiniz, hər gün ən yüksək səviyyələrdən zəng edib soruşurdular ki, pambıq yığımı nə vəziyyətdədir? Çünki o böyüklükdə Sovet dövlətinə pambıq lazım idi. Pambıq isə yalnız Orta Asiyada və Azərbaycanda becərilirdi. Belə təzyiq, belə tələblər qarşısında Türkmənistan ildə 900 min tondan yuxan pambıq yığa bilmirdi. İndi isə oktyabrın axırınadək bayaq dediyim qədər məhsul yığmışlar. Onu da dedilər ki, hələ bundan sonra da yığılacaqdır.

Doğrudur, mənə dedilər ki, meliorasiyaya da çox xərc qoymuşlar, yəqin buna maddi imkanları var. Deyilənə görə, keçmiş Sovet İttifaqı dövründəkinə nisbətən meliorasiyaya kapital qoyuluşunu dörd dəfə artırmışlar. Ancaq əsas bu deyil. Mən onlardan soruşdum və belə təhlil etdim ki, başlıcası, adamlara sərbəstlik vermişlər. Bunun nəticəsində də belə göstəricilər əldə etmişlər.

Mən hesab edirəm ki, Azərbaycanın kənd təsərrüfatı çoxsahəlidir və bizim imkanlarımız daha çoxdur. Hətta orada mənim ağlıma belə bir fikir də gəldi ki, bəlkə nümayəndə heyəti göndərək. Türkmənistanda,

Özbəkistanda vəziyyətlə tanış olsun. Elə indi də bu fikirdəyəm, yaxın günlərdə kənd təsərrüfatı naziri ilə danışarıq, o, təkliflərini versin. Qoy getsinlər, pambıqçılıqla bağlı işləri öyrənsinlər.

Kənd təsərrüfatında islahatlar keçirərkən sahələri nəzərə almalıyıq. Məsələn, Rusiyada kənd təsərrüfatının əsas sahələri taxılçılıq, kartofçuluq, şəkər çuğunduru istehsalı, heyvandarlıqdır, meyvəçilik azdır. Ukrayna və Belarus respublikalarında da təxminən belədir. Pambıqçılıq isə Azərbaycanda və Orta Asiyada yayılmışdır. Ona görə də Orta Asiyanın təcrübəsi ilə maraqlanmaq lazımdır. İstanbulda olarkən mən Özbəkistan prezidenti İslam Kərimovdan soruşdum, o dedi ki, bu il 3 milyon tondan artıq məhsul yığacaqlarını gözləyirlər. Doğrudur, əvvəllər onlar ildə 5 milyon ton pambıq yığırdılar. İslam Kərimov dedi ki, pambıq istehsalını artırmaq üçün imkanları var. Onların da təcrübəsi ilə maraqlanmalıyıq. Ola bilər, bizim nəzərdə tutduğumuz islahatlar onlardakından daha ciddidir, ancaq hər bir təcrübədən istifadə etmək lazımdır.

Bir sözlə, mən bəzi təəssüratları nəzərinizə çatdırmaqla onu demək istəyirəm ki, bu sərbəstlik şəraitində biz Azərbaycanın kənd təsərrüfatına məxsus olan təbii sərvətlərdən və bu sahədəki imkanlardan səmərəli istifadə etməliyik. Bu yolun da əsas açarı islahatların əlindədir.

Burada çox danışıldı, mən bütün məsələləri xırdalamaq istəmirəm ki, islahatlar nə cür, hansı yolla keçirilməlidir. Mən əvvəl də öz fikrimi dedim. Şübhəsiz ki, heyvandarlıq sahəsində bunu sürətlə etmək olar. [498-499] Bitkiçiliyin bir çox sahələrində də islahatları sürətlə tətbiq etmək mümkündür. Pambıqçılığa çox diqqətlə yanaşmaq lazımdır. Çünki, bilirsiniz, taxıl istehsalını, şübhəsiz, artırmalıyıq və buna imkanımız var. Taxıl əkilən 600 min hektar sahəni genişləndirməsək də, bu ilkindən iki dəfə artıq məhsul götürə bilərik. Buna heç bir şübhə olmamalıdır. Ancaq taxıl əkini sahələrinin necə özəlləşdiriləcəyini, burada islahatların necə keçiriləcəyini ciddi düşünməliyik. O cümlədən də pambıqçılıqda və bitkiçiliyin başqa sahələrində.

Burada deyildi, mən də tamamilə bu fikirdəyəm ki, gərək kəndli, yəni kənd təsərrüfatı ilə məşğul olan adam torpağın sahibi olsun, mal-qarasının sahibi olsun və bilsin ki, bütün bunlar onundur və istədiyi kimi istifadə edə bilər. Bizim əkin sahələrimiz məhduddur. Məsələn, Zaqatala rayon icra hakimiyyətinin başçısı orada hər bir adama nə qədər torpaq sahəsi düşdüyünü dedi. Türkmənistan kimi ölkədə torpaq çoxdur. Məlumat üçün sizə deyirəm ki, Türkmənistan prezidenti Saparmurad Niyazov 50 hektar torpaq götürərək özünə şəxsi təsərrüfat yaradır. Bununla da o, təşəbbüs göstərmişdir ki, heç kəs qorxmasın, yəni Türkmənistanda sahibkarlıq əbədidir. Əgər Türkmənistan prezidenti 50 hektar torpaq götürüb özünə təsərrüfat yaradırsa, – o, bizi, yəni bütün qonaqları aparıb öz təsərrüfatını göstərdi, – başqaları qorxmamalıdır ki, sabah torpağı onların əlindən ala bilərlər. Mən bunu belə başa düşdüm, o özü də bu cür izah etdi. Orada olarkən Türkmənistan Ali Sovetinin sədri məni müşayiət edirdi. O dedi ki, mən də 50 hektar torpaq götürmüşəm. Lakin hələ prezident kimi işi təşkil edə bilməmişəm. Onun müavini dedi ki, mən də 45 hektar sahə götürmüşəm. Onların ərazisi, torpağı çoxdur, necə deyərlər, Allah daha da çox eləsin. Azərbaycanın ərazisi 86 min kvadratkilometrdirsə, Türkmənistanın sahəsi 450 min kvadratkilometrdir. Doğrudur, onların ərazisinin bir hissəsi səhradır, lakin əkinə yararlı torpaqları da çoxdur.

Necə deyərlər, gərək hərə ayağını yorğanına görə uzatsın. Bizim torpaqlarımız az da deyil, çox da deyil. Məsələn, elə rayon var ki, orada adambaşına daha çox torpaq düşəcək, amma eləsi də var, az düşəcəkdir. Ona görə də hərə öz rayonunun xüsusiyyətini nəzərə alaraq iş görməlidir. Rayonların təkcə torpaq sahəsinə görə deyil, kənd təsərrüfatı istehsalının, o cümlədən bitkiçiliyin istiqamətinə görə, iqlim şəraitinə görə də fərqi çoxdur. Deyək ki, Lənkəranda bir hektardan 200 sentner pomidor, yaxud 300, hətta 400 sentner xiyar götürülürsə, başqa bir yerdə, məsələn, hər hektardan 15 sentner buğda və ya çox yaxşı işləyəndə 25 sentner pambıq götürülür. Şübhəsiz ki, bunların fərqi var. Məsələn, Lənkəran, Astara kimi rayonlarda torpaq sahəsi çox məhduddur. Lakin məhsuldarlıq yüksəkdir. Orada tərəvəz, çay, yaxud o vaxtlar bizim tətbiq etdiyimiz sitrus bitkiləri əkəndə çox məhsul götürülür.

Demək istəyirəm ki, hər rayonun öz xüsusiyyəti var və bunlar nəzərə alınmalıdır. Təsadüfi deyil ki, mən Zaqatala rayonunun və Xızı rayonunun icra başçılarına tapşırıq verdim. Çünki bu rayonların özünəməxsus [499-500] xüsusiyyətləri var. Güman edirəm ki, bu tapşırıqlar digər rayonların başçılarına da aiddir. Yəqin ki, televiziya vasitəsilə onlar da mənim bu sözlərimi eşidəcək, tapşırıqlarımı alacaqlar. Yəni cürbəcür təşkilati məsələlərin yuxarıdan həllini gözləmədən hər rayonda başçılar, – kolxoz sədridirmi, kənd sovetinin sədridirmi, – yığılıb fikirləşməlidirlər, onu rəhbər tutmalıdırlar ki, biz iqtisadi islahatları keçirməliyik. Gərək hər kəs fikirləşsin ki, kəndində, yaxud rayonda bu islahatları nə cür aparacaqdır.

İndi bizim işlərimiz bir-birini tamamlamalıdır. Burada biz qanunu hazırlamalıyıq, respublika səviyyəsində təşkilati tədbirlər həyata keçirməliyik. Eyni zamanda aşağıdan, – təsərrüfatlardan, rayon rəhbərlərindən təşəbbüslər gəlməli, bunlar bir-biri ilə qovuşmalıdır. Bu proses belə getməlidir. Özü də 2-3 ay içərisində getməlidir. Bundan çox vaxt qoya bilmərik.

Ona görə mən hesab edirəm ki, biz bu məsələlər haqqında danışdıq. Rayon rəhbərləri tapşırığı aldı, nazirlər öz vəzifələrini bilirlər. Bugünkü müzakirədən sonra qanunu tezliklə hazırlayıb təqdim etmək lazımdır. Biz onu müzakirə edəndən sonra qanunun qəbul olunması təmin ediləcəkdir. Bu işlərin həyata keçirilməsinə hazırlıq görülməlidir. Buraya respublikanın bir çox nazirliklərinin nümayəndələri dəvət olunmuşlar. Yəqin ki, hərənin bir sahəyə aidiyyatı var. Hərə öz sahəsində bu işlə məşğul olmalıdır. Yəni demək istəyirəm ki, bu bizim

ümummilli işimizdir, ümumxalq işidir. Heç kim gözləməməlidir ki, ona bu göstərişi verdilər və o bunu yerinə yetirdi və ya yetirmədi. Hərə öz təşəbbüsünü göstərməli, necə deyərlər, öz addımını atmalıdır.

Nəhayət, bir fikri də bildirmək istəyirəm. Bilirsiniz, insanlarda inam yaranması üçün, prezident kimi qəti deyirəm ki, iqtisadi islahatlara doğru getməyimiz barədə heç kəsdə şübhə olmasın. Çünki, yenə də deyirəm, bəzi adamlarda şübhə yaranır ki, bəlkə mən işə başladım, xərc çəkdim, sonra gəlib torpağı yenə əlimdən aldılar, ümumiləşdirdilər və s., xüsusən kənddə yaşayan, kənd təsərrüfatında çalışan adamlarda belə psixologiya güclüdür. Belə şeylər olmayacaq. Prezident kimi bəyan edirəm ki, mən iqtisadi islahatların keçirilməsinin, özəlləşdirmə aparılmasının, sahibkarlığın inkişaf etdirilməsinin təminatçısı kimi çıxış edirəm. Bunu nəzərə alaraq, qoy hərə özü fikirləşsin, öz addımını atsın ki, nə edə bilər. Şübhəsiz, bu addım ondan ibarətdir ki, bu şəxs, yaxud bu qrup iş görüb mənfəət götürməyə çalışacaq və bu da bizim ümumi istehsalımızı artıracaq, iqtisadi potensialımızın səmərəliliyini yüksəldəcəkdir. Bunun üçün də maliyyə imkanları yaradılmalıdır. Həm Maliyyə Nazirliyi, həm Vergi Müfəttişliyi, həm banklar, Gömrük Komitəsi, – burada deyilənlərdən belə başa düşdüm ki, onlar da bəzi maneələr törədirlər, – sahibkarlığın inkişafına, özəlləşdirməyə, iqtisadi islahatların həyata keçirilməsinə şərait yaratmalı olan başqa orqanlar hərə öz sahəsində iş görməlidir, əngəllər törətməməlidir. [500-501]

Burada müəyyən bir qurum yaratmaq barədə təkliflər də oldu. Biz bu barədə fikirləşəcəyik. Ancaq Kənd Təsərrüfatı Nazirliyi Torpaq Komitəsinin, – bu yarımçıq yaranmış, yaxud yarımçıq doğulmuş komitənin, Əmlak Komitəsinin, Antiinhisar Siyasəti və Sahibkarlığa Kömək Komitəsinin qüvvəsindən də istifadə olunmaqla bu işlə ciddi məşğul olmalı və yaxın vaxtlarda əməli təkliflərini mənə təqdim etməlidir.

Mən hesab edirəm ki, bugünkü söhbətimiz çox faydalıdır. Qaranlıq qalan məsələlər də aydın oldu. Bu vəzifələrin yerinə yetirilməsində hamınıza uğurlar arzulayıram. Sağ olun. [501-502]

**QAÇQINLAR HAQQINDA QANUNVERİCİLİK, İNSAN HÜQUQLARI VƏ MİQRASİYA MƏSƏLƏLƏRİNƏ DAİR BAKIDA KEÇİRİLƏN BEYNƏLXALQ KONFRANSDA ÇIXIŞ**

*14 noyabr 1994-cü il*

Hörmətli xanımlar və cənablar!
Hörmətli konfrans iştirakçıları!
Möhtərəm qonaqlar!

Mən Azərbaycan Respublikasında belə bir mötəbər konfransın keçirilməsini çox yüksək qiymətləndirirəm. Üç gün müddətində konfrans iştirakçılarının apardığı işləri, müzakirələri Azərbaycan Respublikasının həyatı üçün çox əhəmiyyətli hesab edirəm. Konfransın iştirakçılarına və təşkilatçılarına öz hörmət və ehtiramımı bildirirəm.

Konfrans indi dünya ictimaiyyətini çox maraqlandıran və dünya ictimaiyyəti üçün, xüsusən Azərbaycan Respublikası, xalqımız üçün çox əhəmiyyətli olan bir mövzuya həsr olunmuşdur – qaçqınlar haqqında qanunvericilik, insan hüquqları və miqrasiya məsələləri. Bunlar indi dünyada gedən ictimai-siyasi proseslər üçün çox mühüm məsələlərdir və Azərbaycan üçün xüsusi əhəmiyyət kəsb edir. Ona görə də bu konfransın keçirilməsi ilə əlaqədar təşəbbüs göstərmiş və konfransın təşkil olunmasını təmin etmiş Birləşmiş Millətlər Təşkilatına, onun Qaçqınlar Üzrə Ali Komissarlığına, BMT-nin Azərbaycandakı nümayəndəliyinə, BMT-nin Qaçqınlar Üzrə Ali Komissarlığının Azərbaycandakı nümayəndəliyinə və Azərbaycan Respublikasının Ali Sovetinə təşəkkürümü bildirirəm.

Bəşər tarixində qaçqınlar məsələsi həmişə mühüm bir problem olmuşdur. Ancaq XX əsrin ortalarında, İkinci dünya müharibəsi bitəndən sonra bu məsələyə beynəlxalq təşkilatlar xüsusi münasibət göstərmişdir. Birləşmiş Millətlər Təşkilatının 1961-ci ildə qaçqınlarla əlaqədar xüsusi qərar qəbul etməsi və 1967-ci ildə qaçqınların statusunu müəyyən etmək haqqında qəbul olunan qərarlar bu məsələyə daha dərin, ətraflı münasibətin təzahürüdür.

BMT-nin bu mühüm və məşhur qərarlarından sonra dünyada, Yer kürəsinin qaçqınlarla əlaqədar olan regionlarında, ayrı-ayrı ölkələrdə çox işlər görülmüş, böyük təcrübə əldə olunmuşdur. İndi BMT-nin Qaçqınlar Üzrə Ali Komissarlığı çox yüksək səviyyədə fəaliyyət göstərir, bu məsələlərlə məşğul olur. Bu, cəmiyyət, insanlar üçün, hər bir insan üçün və insan hüquqlarının qorunması üçün çox əhəmiyyətli proseslərdir, tədbirlərdir. Bugünkü konfrans da həmin tədbirlərin tərkib hissəsidir. [502-503]

Dünya Birliyinin, bəşəriyyətin bir hissəsi kimi, Azərbaycan xalqı, müstəqil Azərbaycan Respublikası BMT-nin Qaçqınlar Üzrə Ali Komissarlığı yaranandan indiyədək gördüyü işləri yüksək qiymətləndirir. Mən bu gün bir daha buna öz münasibətimizi bildirirəm. Ümidvar olduğumuzu bildirmək istəyirik ki, BMT, onun Qaçqınlar Üzrə Ali Komissarlığı bundan sonra daha böyük işlər görəcəkdir. Çünki son on illər ərzində dünyada qaçqınlar problemi daha da kəskinləşib, qaçqınların sayı daha da artıb. Dünyanın bir çox regionlarında qaçqınlar problemi böyük bəlalara, xalqların, insanların, ölkələrin faciələrinə gətirib çıxarıbdır. Ona görə də indi bu, ümumbəşəri, ümumdünyəvi problemlərin içərisində ən mühüm problemlərdən biridir.

Azərbaycan xalqı, müstəqil Azərbaycan Respublikası son illərdə öz həyatında, tarixində bu problemlərlə üzləşmişdir. Həmin problemlər indi Azərbaycan Respublikasının həyatında yaranan çətinliklərin, gərginliklərin əsas səbəblərindən biridir. Ona görə də bu problemlər bizim üçün daha yaxındır, onlara münasibət bizim üçün daha böyük əhəmiyyət kəsb edir. Həmin məsələyə bizim xüsusi marağımız var və bu problemin ardıcıl surətdə həll olunması Azərbaycan Respublikasının bu günü və gələcəyi üçün çox əhəmiyyətlidir.

Məhz buna görə də belə mötəbər konfransın Azərbaycanda keçirilməsi həm respublikamızın vəziyyətindən doğan zərurətdir, eyni zamanda ölkəmizdə qaçqınlar probleminin nə qədər kəskin bir səviyyəyə gəlib çatdığının BMT tərəfindən, beynəlxalq təşkilatlar tərəfindən artıq hiss edildiyini göstərir. Belə bir konfransın Azərbaycanda keçirilməsi BMT-nin, bütün beynəlxalq təşkilatların Azərbaycan Respublikasına, ölkəmizdə olan qaçqınlar probleminə göstərdiyi böyük qayğının təzahürüdür. Bu qayğıya, bu diqqətə, belə münasibətə görə mən bir daha hörmət və təşəkkürümü bildirirəm. Əmin olduğumu bildirmək istəyirəm ki, bu mötəbər konfrans Azərbaycan Respublikasında qaçqınlar probleminin həll olunması üçün və ümumiyyətlə, ölkəmizin düşdüyü bu ağır vəziyyətdən çıxması üçün əməli nəticələr verəcəkdir.

Siz, konfrans iştirakçıları bu günlərdə həmin məsələlərin hüquqi aspektlərini, humanitar cəhətlərini, qaçqınların, məcburi köçkünlərin statusu ilə, onların hüquqları ilə, bu barədə qanunvericilik prinsipləri ilə əlaqədar məsələləri həm respublika miqyasında, həm də beynəlxalq miqyasda təhlil etmisiniz. Mən bildiyimə görə, xüsusən qaçqınlara humanitar yardım məsələlərinə diqqətinizi cəlb etmisiniz, insan hüquqları problemlərini qaçqınlar problemi ilə əlaqədar müzakirə etmisiniz. Şübhəsiz ki, bunlar hamısı çox

əhəmiyyətlidir. Biz bunları gələcək işlərimiz üçün yeni böyük bir addım hesab edirik və güman edirik ki, belə mühüm elmi, nəzəri, eyni zamanda praktiki təhlil və müzakirələrdən sonra bu sahələrdə ümumən dəyişiklik olacaq. Çünki Azərbaycanın timsalında BMT, onun Qaçqınlar Üzrə Ali Komissarlığı, beynəlxalq təşkilatlar, beynəlxalq hüquq orqanları yəqin ki, lazımi nəticələr çıxarıb bu barədə müəyyən yeni qərarlar qəbul edə bilərlər. Biz bunları böyük əhəmiyyətli hesab edi[503-504]rik. Ancaq bizim üçün ən mühüm cəhət ondan ibarət olacaqdır ki, bu konfransdan sonra bizim qaçqınlar probleminin həllində müəyyən dəyişikliklər, müəyyən müsbət nəticələr əldə edilsin.

Son illər, onilliklər ərzində dünyada qaçqınların və məcburi köçkünlərin sayı şübhəsiz ki, artmışdır. Bu, həm dövlətlər arasında gedən münaqişələr, həm də ayrı-ayrı regionlarda milli və etnik problemlərlə bağlı münaqişələr nəticəsində baş verir. Eyni zamanda bu, ayrı-ayrı qüvvələrin, ayrı-ayrı dövlətlərin, yəni bir dövlətin, bir qüvvənin o biri dövlətin, millətin hüquqlarını tapdalamaq, onların torpaqlarını ələ keçirmək, onlara qarşı zorakılıq etmək kimi hərəkətləri ilə əlaqədardır.

Azərbaycan xalqı son illər düşdüyü vəziyyətin bütün əzab-əziyyətini görərək, hiss edərək qaçqınlar probleminin bəşəriyyət üçün nə qədər ağır bir problem olduğunu dərindən dərk edir. Xalqımız dünyanın hər bir yerində qaçqınların, məcburi köçkünlərin vəziyyətini dərindən anlayır, onların çəkdiyi əzab-əziyyətləri öz əzab-əziyyətləri hesab edir. Dünyanın hər bir regionunda qaçqınların, məcburi köçkünlərin özünəməxsus xüsusiyyətləri var. Bunun həm səbəbləri, həm də qaçqınların düşdüyü vəziyyətlər cürbəcürdür və bəzən bir-birindən çox fərqlidir. Ancaq biz hesab edirik ki, Azərbaycan Respublikasının ərazisində olan qaçqınların, məcburi köçkünlərin vəziyyəti ən ağırdır, ən çətindir, ən dözülməzdir. Ölkəmizdə qaçqınların, köçkünlərin əmələ gəlməsi səbəbləri də başqa regionlardakından çox fərqlidir və bunlar hamısı Azərbaycan Respublikası üçün – kiçik bir ölkə, dövlət üçün olduqca çətin və ağır problemlər yaradır.

Siz, konfrans iştirakçıları qaçqınlar, məcburi köçkünlər problemlərini, insan hüquqları problemlərini müzakirə edərkən bunları müəyyən qədər qruplaşdırmaq barədə, yəni qaçqınların ayrı, məcburi köçkünlərin isə ayrı bir statusu haqqında söhbətlər aparmısınız, bu da təbiidir. Respublikamızda həm qaçqınlar var, həm də məcburi köçkünlər var və bunların hamısının hüquqları, şübhəsiz ki, pozulub, tapdalanıbdır. Hüquq, status bir tərəfə, amma mənəvi, siyasi cəhətdən biz bunların hamısına qaçqın deyirik, hamısını qaçqın kimi qəbul edirik. Hesab edirik ki, respublikamızda qaçqın vəziyyətində yaşayan adamların hamısına qaçqın kimi münasibət göstərmək lazımdır.

Konfrans iştirakçılarına və xüsusən BMT-nin Qaçqınlar Üzrə Ali Komissarlığına dünya miqyasında statistika daha yaxşı məlumdur, ancaq biz də bu məsələləri təhlil edərkən, müəyyən qədər müqayisə apararkən belə fikir deməyə əsasımız var ki, Azərbaycan Respublikası kimi kiçik bir ölkədə 7 milyonluq əhalinin bir milyondan çoxunun qaçqın vəziyyətində olması ən dəhşətli haldır. Bəlkə də dünyanın heç bir regionunda belə bir hala rast gəlmək mümkün deyildir.

Məlumdur ki, bizim respublikada bu qədər qaçqının olmasının səbəbi Ermənistanın, erməni millətçi dairələrinin Azərbaycan Respublikasına, Azərbaycanın ərazisinə qəsd etmək məqsədi ilə başladıqları əvvəl siyasi, sonra isə hərbi əməliyyatların nəticəsidir. Bunların hamısı öz başlanğıcı[504-505]nı 1988-ci ildən götürür. Ermənistanda yaşayan bütün azərbaycanlılar həmin il zorakılıq nəticəsində, onlara qarşı göstərilən təzyiq, təqiblər, ciddi təxribatlar və başqa fiziki əməliyyatlar nəticəsində oradan məcburi çıxarılıb. Onlar Azərbaycana köçməyə məcbur olublar. Bundan sonra Axıska türklərinin bir qismi başqa regionlardan Azərbaycana köçüb. Azərbaycan ağır vəziyyətdə olduğu, özü Ermənistandan zorakılıqla çıxarılan qaçqınları qəbul etdiyi halda, başqa ölkələrdən, başqa regionlardan Axıska türklərini – bu qaçqınları da qəbul edib. Bundan sonra isə Azərbaycanın öz ərazisində öz vətəndaşları müharibə nəticəsində, Azərbaycana qarşı olan hərbi təcavüz nəticəsində, torpaqlarımızın işğal olunması üçün aparılan hərbi əməliyyatlar nəticəsində yurd-yuvalarını tərk edib, qaçqın vəziyyətinə düşməyə məcbur olublar.

Dediyim kimi, indi Azərbaycanda bir milyondan artıq qaçqın var. Bu, qaçqın olmuş hər bir ailənin faciəsidir. Qaçqın vəziyyətinə düşmüş hər bir vətəndaşın faciəsidir. Bu, Azərbaycan xalqının, Azərbaycan Respublikasının faciəsidir. Şübhəsiz ki, dünya ictimaiyyəti, beynəlxalq təşkilatlar Azərbaycanın düşdüyü bu vəziyyətə, ölkəmizin bu faciəli halına gərək daha diqqətli olsunlar, daha da kömək etsinlər. BMT-nin, onun Qaçqınlar Üzrə Ali Komissarlığının, bütün beynəlxalq təşkilatların qaçqınlarla əlaqədar, Azərbaycana Ermənistan tərəfindən təcavüzlə əlaqədar, torpaqlarımızın işğal olunması ilə əlaqədar burada son illərdə apardığı fəaliyyəti mən yüksək qiymətləndirirəm və bu gün konfrans iştirakçıları qarşısında və dünya ictimaiyyəti qarşısında bütün bu təşkilatlara Azərbaycan xalqı adından, Azərbaycan Respublikası adından, öz adımdan xüsusi təşəkkürümü və minnətdarlığımı bildirirəm.

Ancaq eyni zamanda, həqiqət naminə, bütün beynəlxalq təşkilatların, dünya ictimaiyyətinin Azərbaycanda olan qaçqınların vəziyyətinə daha yaxından münasibət göstərməsi üçün bunu da bildirmək istəyirəm: təəssüf ki, Azərbaycanın belə vəziyyəti dünya ictimaiyyətinin bütün təbəqələrində məlum deyil. Bəlkə də bizim bu barədə apardığımız işlərin zəif olduğuna görə, eyni zamanda, bəlkə də beynəlxalq təşkilatlar Azərbaycanın bu faciəli vəziyyətini o qədər də dərindən hiss etmədiklərinə görə Azərbaycan Respublikasında qaçqınlarla əlaqədar vəziyyətin və ümumiyyətlə, ölkəmizdə qaçqınlar probleminin belə kəskin olduğunu

bilmirlər. Biz bunu mətbuatdan da görürük və ayrı-ayrı ölkələrdəki görüşlərdə də, danışıqlarda da hiss edirik. Bu, görülən işlərin müsbət tərəfi ilə yanaşı, bizim ümumi çatışmazlığımızdır, deyə bilərəm ki, bizim respublikanın qaçqınlar probleminə hələ lazımi diqqətin olmamasıdır.

Mən hesab edirəm ki, bu konfrans – ilk dəfə Azərbaycanda keçirilən çox səlahiyyətli, geniş tərkibli və mötəbər konfrans gərək Azərbaycana münasibət nöqteyi-nəzərindən, dünya ictimaiyyətinin ölkəmizdəki qaçqınların vəziyyətini tam obyektiv bilməsi nöqteyi-nəzərindən bir dönüş nöqtəsi olsun. Bu baxımdan biz bu konfransın fəaliyyətindən, xarici ölkələrin, beynəlxalq təşkilatların burada iştirak edən nümayəndələrinin [505-506] konfransdan sonrakı fəaliyyətindən çox şey gözləyir, buna çox böyük ümid bəsləyirik.

Güman edirəm ki, Azərbaycanın düşdüyü vəziyyət konfransın işində dərindən təhlil olunmuşdur. Ermənistanın təcavüzü nəticəsində Azərbaycan torpaqlarının 20 faizinin işğal edilməsi, əhalinin bu torpaqlardan qovulması, qaçqın düşməsi, onların nə qədər ağır vəziyyətdə olması təhlil edilmişdir. İşğal olunmuş ərazilərin dağıdılması, viran qoyulması halları artıq sizə məlumdur və yəqin ki, bunları təhlil etmisiniz. Azərbaycan Respublikasına bu baxımdan dəyən həm maddi, həm mənəvi ziyan, tariximizə, mənəviyyatımıza, keçmişimizə dəyən zərər də sizə – konfrans iştirakçılarına məlumdur. Ona görə də mən rəqəmlər, yaxud ayrı-ayrı faktlar üzərində dayanmağa ehtiyac görmürəm.

1988-ci ildən sonra Ermənistan Respublikasının ərazisindən qovulan 200 mindən artıq azərbaycanlı, 50 mindən çox Axıska türkü, Dağlıq Qarabağın ərazisindən – doğma yurdlarından qovulmuş azərbaycanlılar və nəhayət, Dağlıq Qarabağın ətrafındakı yeddi rayondan zorakılıqla qovulmuş azərbaycanlılar birlikdə bir milyon qaçqınlar ordusu təşkil edir. Bunların indi Azərbaycanın başqa bölgələrində ağır şəraitdə yaşaması bir tərəfdən ölkəmizin nə qədər çətin, faciəli vəziyyətdə olduğunu, ikinci tərəfdən də Azərbaycan xalqının nə qədər dözümlü, dəyanətli olduğunu göstərir, qaçqın düşmüş, çox əzab-əziyyətlər çəkmiş, faciəli həyat keçirən bu adamların nə qədər mətanətli və nə qədər də insanpərvər olduğunu göstərir.

Müharibə şəraitində olan, sosial-iqtisadi böhran içərisində yaşayan və müəyyən səbəblərə görə iqtisadiyyatı inkişaf etdirmək, yaxud iqtisadiyyatı yaratmaq üçün imkanları tamamilə məhdudlaşan və xüsusən son zamanlar, demək olar, dəmiryol blokadası şəraitində olan Azərbaycanın belə böyük qaçqınlar ordusunu saxlamasının Azərbaycan Respublikası üçün, onun dövləti, hökuməti üçün və onun insanları üçün necə ağır vəziyyət yaratdığını təsəvvür etmək o qədər də çətin deyildir.

Ancaq tarix sübut etmişdir ki, Azərbaycan xalqı dözümlü xalqdır, çox ağır mərhələlərdən mətanətlə keçib gəlmiş, indi ən böyük nailiyyətə – milli azadlığa, öz müstəqilliyinə nail olmuşdur. Xalqımız bütün bu çətinliklərə də dözəcək, onlardan keçib gedəcək və bunların hamısının öhdəsindən gələcəkdir.

Mən bu gün konfrans iştirakçıları qarşısında Azərbaycan Respublikasında qaçqın düşmüş, ağır şəraitdə, əzab-əziyyət içərisində, çadırlarda yaşayan, bəzən hətta ərzaq malları almağa imkanı olmayan, ancaq dözən, xalqına, respublikasına, torpağına sədaqət hissi ilə yaşayan qaçqınların hamısına hörmət və ehtiramımı bildirirəm. Konfrans iştirakçıları adından, bu möhtəşəm salondan Azərbaycanda yaşayan qaçqınların hamısına salamımı çatdırıram və onları əmin etmək istəyirəm ki, Azərbaycan Respublikasının dövləti qaçqınların vəziyyətini yaxşılaşdırmaq üçün əlindən gələni əsirgəməyəcəkdir, qara günün ömrü az olacaqdır. Onlar qaçqın vəziyyətindən çıxacaq, öz yerlərinə qayıdacaqlar, bütün bu ağır, əzab-əziyyətli günlər arxada qalacaqdır. [506-507]

Bir milyondan artıq qaçqını dolandırmağın bütün çətinlikləri Azərbaycan Respublikasının, Azərbaycan dövlətinin üzərinə düşmüşdür. Bu, təbiidir, bizim doğma işimizdir və hər bir Azərbaycan vətəndaşı, birinci növbədə Azərbaycanın dövlət orqanları qaçqınlara qayğı göstərməyi, onların problemləri ilə məşğul olmağı özlərinin ən müqəddəs, ən şərəfli vəzifəsi hesab etməlidir. Güman edirəm ki, biz qaçqınlara qayğı, diqqət məsələsinin nə qədər mühüm olduğunu günü-gündən dərk edirik və həmin problemlərin həlli bundan sonra da bizim diqqət mərkəzimizdə olacaqdır.

Eyni zamanda konfrans iştirakçılarının və xüsusən xarici ölkələrdən gələn qonaqlarımızın qarşısında demək istəyirəm ki, qaçqınların yaşaması üçün, onlara müəyyən, minimum bir şərait yaradılması üçün bir çox dövlətlərin, beynəlxalq təşkilatların humanitar yardımları bizdən ötrü böyük köməkdir. Biz bunu yüksək qiymətləndiririk. Biz qaçqınlarla görüşərkən onlar da xarici ölkələrin, beynəlxalq təşkilatların bu xeyirxah, insanpərvər işlərini, humanitar köməyini çox yüksək qiymətləndirirlər. Ona görə mən bu gün Azərbaycan Respublikasının qaçqınlarına yardım göstərən bütün ölkələrə, bu ölkələrin başçılarına, beynəlxalq təşkilatlara, xarici ölkələrin ayrı-ayrı iş adamlarına, ümumiyyətlə, qaçqınlarımıza kömək edən, diqqət və qayğı göstərən təşkilatlara, qruplara, insanlara, dövlətlərə, hökumətlərə, ölkələrə qaçqınlar adından, öz adımdan, hörmət və ehtiramımı, təşəkkür və minnətdarlığımı bildirirəm.

Ümidvar olduğumu bildirmək istəyirəm ki, konfransın materialları, qəbul etdiyi bəyanatlar, onun işi dünya ictimaiyyətini, ölkələri, beynəlxalq təşkilatları Azərbaycan qaçqınlarının vəziyyəti haqqında daha geniş məlumatlandıracaq və bunun nəticəsində Azərbaycan Respublikasında olan qaçqınlara indən sonra hər cür yardım artacaqdır. Qaçqınlar belə ümidlərlə yaşayırlar. Arzu edirəm ki, bu ümidlər doğrulsun, Azərbaycan qaçqınları nə qədər ki, bu vəziyyətdədirlər – bundan sonra daha artıq yardım ala bilsinlər.

Güman edirəm ki, konfransın işi bir həqiqəti də göstərdi ki, Azərbaycan Respublikasında olan qaçqınların həm sayı, həm də indiki ağır vəziyyəti ilə müqayisədə onlara, Azərbaycan Respublikasına xarici ölkələr tərəfindən edilən humanitar yardım o qədər də yetərli deyildir. Arzu edərdim ki, bunlar nəzərə alınsın və güman edirəm, nəzərə alınacaq, Azərbaycan qaçqınlarına bundan sonra göstərilən humanitar yardımın miqdarı, keyfiyyəti daha da artacaqdır. Eyni zamanda biz heç də belə fikirdə deyilik ki, Azərbaycan həmişə qaçqınlar diyarı olacaqdır, ölkəmizdə həmişə qaçqınlar yaşayacaqdır. Mən əminəm ki, bu məsələlər həll olunacaq, birinci növbədə Azərbaycanın Ermənistan silahlı qüvvələri tərəfindən, Ermənistan tərəfindən işğal olunmuş torpaqlan azad ediləcək, qaçqınların öz yerlərinə qayıtması üçün imkan yaranacaq və onlar ev-eşiklərinə, el-obalarına qayıdacaqlar. Ermənistan Respublikasından çıxarılmış qaçqınlar da, – əgər haqq-ədalət varsa, əgər dünyanın beynəlxalq təşkilatları hər şeyi doğrudan da ədalətli həll edə bilərlərsə, – onlar da öz ev[507-508]lərinə qayıdacaqlar. Axıska türkləri artıq 50 ildir ki, öz yerlərindən didərgin düşmüşlər. Bu qədər vaxt keçməsinə, bir neçə nəsil meydana gəlməsinə baxmayaraq, onlar yenə də öz torpaqlarına qayıtmaq istəyirlər. Biz bu arzuların da yerinə yetməsinə tərəfdarıq, eyni zamanda o vaxtacan onları öz ölkəmizdə saxlamağa hazırıq.

Şübhə yoxdur ki, gələcək tarixi proseslər, dünyada gedən tarixi, ictimai-siyasi dəyişikliklər XX əsrdə ayrı-ayrı ölkələrin sərhədlərinin pozulması, insanların öz yerlərindən qovulması, böyük sayda adamların bir yerdən başqa yerə məcburən köçürülməsi kimi halların qarşısını alacaq, həyat hər şeyi öz yerinə qoyacaqdır. Azərbaycanlılar əsrlər boyu yaşadıqları ərazilərdə məskunlaşacaqlar, öz yerlərinə qayıdacaqlar. Azərbaycan xalqı bu ümidlərlə yaşayır, yaşayacaq və əgər bu, bizim nəsillərə nəsib olmasa da, gələcək nəsillər buna nail olacaqdır.

Ancaq indi bizim qarşımızda duran vəzifə Azərbaycanın 1988-ci ildən indiyə qədər Ermənistan tərəfindən, Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş torpaqlarının azad edilməsidir, Azərbaycan Respublikasının beynəlxalq hüquq normaları əsasında tanınmış, qəbul olunmuş sərhədlərinin toxunulmazlığının, Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsidir. Bu məsələlərin həll edilməsi bizdən ötrü, Azərbaycan Respublikası üçün ən ümdə vəzifədir və biz həmin məsələnin həlli ilə məşğul oluruq, bundan sonra da tam qətiyyətlə məşğul olacağıq.

Bilirsiniz ki, Ermənistanla Azərbaycan arasında altı ildən artıq gedən müharibədə altı aydır ki, atəşkəs rejimi yaranmışdır və davam edir. Bu müddətdə biz respublikanı müharibə şəraitindən çıxarmaq, müharibəyə son qoymaq üçün, münaqişəni sülh yolu ilə aradan qaldırmaq üçün bir çox təşəbbüslər etmişik, bir çox tədbirlər görmüşük, danışıqlar aparmışıq. Danışıqlar, təşəbbüslər prosesi davam edir və bu gün də, sabah da, gələcəkdə də bununla məşğul oluruq və olacağıq. Çalışırıq ki, respublikamızın ərazi bütövlüyünün təmin olunması şərtləri ilə bu məsələ həll edilsin. Bunun üçün Ermənistan silahlı qüvvələri Azərbaycanın işğal olunmuş ərazilərindən qeyd-şərtsiz çıxarılmalı, həmin ərazilərdən qaçqın düşmüş Azərbaycan vətəndaşları öz yerlərinə qayıtmalıdırlar. Bu ərazilər dedikdə biz Dağlıq Qarabağın ətrafında olan rayonları, o cümlədən Şuşa və Laçın rayonlarını nəzərdə tuturuq. Dağlıq Qarabağda yaşayan ermənilərin hüquqlarının qorunması, şübhəsiz ki, təmin olunmalıdır. Dağlıq Qarabağın statusu məsələsi müzakirə edilməlidir. Ancaq bütün bunlar ən mühüm şərt daxilində – Azərbaycan Respublikasının ərazi bütövlüyünün, sərhədlərinin toxunulmazlığının təmin edilməsi və ölkəmizin didərgin düşmüş vətəndaşlarının hər birinin öz yerinə qayıtması şərti ilə həll edilməlidir. Biz çalışırıq bu məsələləri həll edək və bunların hamısı qaçqın vəziyyətində yaşayan bir milyon vətəndaşın həyatı, aqibəti, bu günü və gələcəyi ilə bağlı həll edilməlidir. [508-509]

Konfransın mövzusu insan hüquqları məsələsidir. İnsan hüquqları indi dünyada demokratik proseslərin hər yerdə bərqərar olunması üçün əsas prinsiplərdən biridir. Azərbaycan Respublikası öz həyatını demokratik prinsiplər əsasında quraraq, daim çalışacaqdır ki, insan hüquqlarının qorunmasına əməl edilsin. Bugünkü konfransda yəqin müqayisə etmək mümkün olardı ki, əgər bir adamı sözdən məhrum edirlərsə və ya o, müəyyən məhdudiyyətlərə məruz qalırsa, onun hüquqları pozulur: ancaq bir milyon insan – azərbaycanlı öz yerindən, yurdundan qovulmuşdur, evini, əmlakını itirmişdir, dədə-babalarının qəbirlərindən məhrum olmuşdur, əsrlər boyu yaşadığı yerlərdən məhrum olmuşdur. Bəs bu, insan hüquqlarının kütləvi surətdə, dəhşətli şəkildə pozulması deyilmi?

Biz ayrı-ayrı ölkələrdə ayrı-ayrı şəxslərin, fərdlərin insan hüquqlarının pozulmasının digər ölkələrdə böyük siyasi xadimlər tərəfindən, yaxud da ölkələrin parlamentlərində və ya yüksək beynəlxalq təşkilatlarda pislənməsinin və bu hüquqların qorunması üçün lazımi tədbirlər görülməsinin şahidi olmuşuq. Bu, həqiqətən demokratiyanın, insan hüquqları haqqında Helsinki aktının qorunmasıdır. Belə olan halda bir milyon vətəndaşın – azərbaycanlının hüquqlarının kütləvi surətdə pozulması haqqında nə üçün həyəcan təbili vurulmur, nə üçün hay-küy qalxmır, nə üçün bu, parlamentlərdə müzakirə olunmur? Beynəlxalq təşkilatlar nə üçün bu barədə öz cəsarətli fikirlərini bildirmirlər? Bunu anlamaq mümkün deyildir.

Mən bu fürsətdən istifadə edərək, bütün dünya ictimaiyyətinə, beynəlxalq təşkilatlara müraciət edirəm, inkişaf etmiş demokratik ölkələrin parlamentlərinə, dövlət başçılarına müraciət edirəm, dünyada demokratiya yolunda fədakar fəaliyyət göstərən məşhur ictimai-siyasi xadimlərə müraciət edirəm, dünyadakı bütün insanlara, bəşəriyyətə müraciət edirəm və bir milyondan artıq azərbaycanlının hüquqlarının pozulmasını bəyan edərək bu hüquqların bərpa olunmasına dəvət edirəm. Güman edirəm ki, bu konfransı təşkil edən Birləşmiş Millətlər

Təşkilatının Qaçqınların İşi Üzrə Ali Komissarlığı, BMT-nin, beynəlxalq təşkilatların nümayəndələri mənim səsimi bütün dünyaya, öz təşkilatlarına çatdıracaqlar. Mən bu konfransın əsas nəticələrindən birini də Azərbaycan vətəndaşlarının, bir milyondan artıq azərbaycanlının hüquqlarının tapdalanmasının dünyada aşkar olunması hesab edirəm və onların hüquqlarının bərpa olunmasına dəvət edirəm. Ümidvaram ki, konfrans özünün bu vəzifəsini də yerinə yetirəcəkdir.

Konfransın işi sona çatır. Konfrans müvəffəqiyyətlə keçdiyinə görə və onun nəticələrinə böyük ümid bəsləyərək sizin hamınızı bu tədbirin uğurla sona çatması münasibətilə təbrik edirəm, beynəlxalq təşkilatlara, Birləşmiş Millətlər Təşkilatına və bu konfransın bütün digər təşkilatçı[509-510]larına bir daha öz təşəkkürümü bildirirəm. Azərbaycan Respublikasının ərazisində yaşayan bir milyondan artıq qaçqına hörmət və ehtiramımı bildirirəm, onların hamısını bağrıma basıram, dözümlülüyünə, dəyanətinə, vətənpərvərliyinə görə öz torpaqlarına, dövlətinə sədaqətinə görə onlara təşəkkür edirəm. Əmin edirəm ki, onlar bu ağır vəziyyətdən çıxacaqlar, müstəqil Azərbaycan Respublikasının bütün vətəndaşları öz taleyinin, öz hüquqlarının sahibi olacaqdır. Sağ olun. [510-511]

## MİLLİ DİRÇƏLİŞ GÜNÜ MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA MÜRACİƏT

Şərəfli keçmişə, zəngin tarixə və mədəniyyətə malik qəhrəman xalqımız artıq üç ildir ki, Milli Dirçəliş gününü bayram kimi qeyd edir. Hər dəfə bu bayramın qeyd edilməsi milli həmrəyliyin, demokratiya və suverenliyimizin qorunması uğrunda mübarizənin təntənəsinə çevrilir.

Bir neçə il öncə torpaqlarımızın toxunulmazlığı və ictimai-siyasi həyatın bütün sahələrinin demokratikləşdirilməsi uğrunda başlanan mübarizə son anda vüsətli xalq hərəkatına çevrildi. Xalqın milli şüurunun oyanması ilə müşayiət olunan bu hərəkat özünün siyasi məzmununa görə dünyada gedən qlobal proseslərin ümumi kontekstinə qovuşdu.

Tarix bizi ağır sınaqlara çəksə də, müstəqilliyə qovuşduğumuz az müddətdə milli demokratik dövlət quruculuğu, ictimai-siyasi və iqtisadi həyatın bir çox sahələrinin yenidən qurulması istiqamətində ciddi addımlar atılmışdır. Xarici siyasətimizin uğurları, müharibədə atəşkəsin əldə edilməsi, nüfuzlu neft şirkətləri konsorsiumu ilə "Əsrin müqaviləsi"nə imza atılması, ölkədə siyasi sabitliyin bərqərar edilməsi uğurlu dövlət quruculuğunun gələcək perspektivlərindən xəbər verir.

Bunlarla yanaşı, Azərbaycanın müstəqilliyinə qənim kəsilmiş daxili və xarici qüvvələr ardı-arası kəsilməyən təxribatlarla xalqı sarsıtmağa, onun azadlıq əzmini qırmağa çalışırlar. Ancaq bu xəyanətkar qüvvələr bilməlidir ki, bütün ağrı-acılara, əzab-əziyyətlərə mətanətlə sinə gələn döyüşkən və mübariz xalqımızın iradəsi qarşısında gücsüzdürlər. Bunu 3-4 oktyabrda dövlət çevrilişinə cəhd zamanı xalqımızın öz dövlətçiliyini qorumaq naminə hakimiyyət ətrafında sıx birləşməsi bir daha sübut etdi. Milli dirçəliş yolu milli birlik və milli həmrəylikdən keçir.

Əziz xalqım! Mərd və qeyrətli Azərbaycan övladları!

Sizi bu bayram günündə ürəkdən təbrik edir, müstəqil Azərbaycan dövlətinin qüdrətlənməsi yolunda hamınıza cansağlığı, əzmkarlıq və dönməzlik arzulayıram.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*16 noyabr 1994-cü il* [511-512]

## MOSKVAYA İŞGÜZAR SƏFƏRƏ YOLA DÜŞƏRKƏN BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRİN SUALLARINA CAVAB

*17 noyabr 1994-cü il*

**Sual: – Möhtərəm prezident, Moskvaya səfərinizin əsas məqsədi nədir?**

**Cavab**: - Bu, mənim Moskvaya qısamüddətli işgüzar səfərimdir. Rusiyanın prezidenti Boris Yeltsin ilə mənim danışıqlarım olub, biz razılığa gəlmişik ki, görüşüb söhbət edək. Oktyabrın 21-də Moskvada MDB ölkələri dövlət başçılarının görüşündə Boris Yeltsin ilə danışıqlarımız olmuşdu, biz belə qərara gəlmişdik ki, müəyyən bir vaxtdan sonra xüsusi görüşüb Azərbaycan-Rusiya münasibətləri haqqında, şübhəsiz ki, o cümlədən Dağlıq Qarabağ məsələsi, yəni Ermənistanın Azərbaycana təcavüzü, müharibəyə son qoyulması barədə müəyyən fikir mübadiləsi, müzakirələr aparaq. Altı aydır ki, atəşkəs davam edir. Biz bu fürsətdən istifadə edib Böyük Sazişin əldə olunması haqqında danışıqlar aparacağıq.

Bilirsiniz ki, bu danışıqları bir neçə istiqamətdə aparırıq. Burada Rusiya fəal iştirak edir, onun vasitəçiliyi daim mövcuddur. Ona görə də Rusiya ilə, xüsusən Rusiyanın prezidenti Boris Yeltsin ilə bu barədə danışıqlar çox əhəmiyyətlidir. Mənim səfərimin əsas məqsədi bundan ibarətdir.

Eyni zamanda bu səfərim böyük şairimiz Məhəmməd Füzulinin 500 illiyinin Moskvada qeyd olunduğu vaxta təsadüf edir. Bu səbəblər bir-biri ilə bağlı deyil, ancaq eyni vaxta düşübdür. Ona görə də mən həm Rusiyanın rəhbərləri ilə görüşəcəyəm, həm də fürsət tapsam, Məhəmməd Füzulinin 500 illik yubileyində iştirak edəcəyəm. Oraya böyük nümayəndə heyətimiz gedib, Moskvada Füzulinin yubileyi böyük təntənə ilə qeyd olunacaqdır. Yenə də deyirəm, imkanım olsa, orada iştirak edəcəyəm. Məqsədim bundan ibarətdir.

Bu gün Azərbaycanda Milli Dirçəliş günüdür. Bununla əlaqədar mən xalqımıza təbrik müraciəti göndərmişəm. Bu fürsətdən istifadə edib, Azərbaycan xalqını Milli Dirçəliş günü münasibətilə bir daha təbrik edirəm. Bu gün əlamətdar bir gündür. Ola bilər ki, bu gün haqqında, ona hazırlıq barədə müxtəlif təbəqələrin ayrı-ayrı fikirləri olsun. Şübhəsiz ki, buna birmənalı qiymət də vermək olmaz. Gələcəkdə tarix hər şeyə lazımi qiymət verəcəkdir.

Ancaq indi bu günün mənasını həqiqi, eyni zamanda obyektiv qiymətləndirmək lazımdır. Bunun mənası ondan ibarətdir ki, həmin gün Azərbaycan xalqının milli azadlıq duyğularını, hisslərini əks etdirir. Bu, Dağlıq Qarabağ məsələsinin həll olunması ilə əlaqədar o vaxtkı Sovet hökumətinin rəhbərliyi, Sovet hakimiyyəti Azərbaycana qarşı ədalətsiz [512-513] münasibət bəslədiyinə görə, eyni zamanda o dövrdə, Azərbaycanda ictimai-siyasi vəziyyətin gərgin bir dövründə respublikanın kommunist rəhbərliyi, kommunist rejimi xalqımızın bu milli azadlıq duyğularını, milli azadlıq arzularını başa düşmədiyinə görə xalqın içindən, daxilindən doğan və bir gün ərzində yox, uzun illər boyu milli azadlıq ruhunu yaşadan duyğuların məhz həmin gün meydana çıxmasıdır.

Şübhəsiz ki, bu, ümumi, dərin bir prosesin təzahürü günüdür. Ona görə də biz bu günü qiymətləndirməliyik. Yəni o gün və bundan sonra gedən proseslər onu göstərir ki, Azərbaycan xalqı öz milli mənliyini nümayiş etdirə bilər. Xalq milli azadlıq ruhunu artıq gizli yox, açıq bəyan edə bilər. Bunun da çox böyük əhəmiyyəti oldu. Bu, ümumiyyətlə, Azərbaycanın ictimai-siyasi həyatının dəyişilməsinə gətirib çıxardı. O dövrdə Azərbaycanın ictimai-siyasi həyatında həmin proseslərin o gündə aşkara çıxması, şübhəsiz ki, böyük dəyişikliklər əmələ gətirdi. Bu dəyişikliklər də o vaxt Sovetlər İttifaqında, ümumiyyətlə, dünyada gedən obyektiv ictimai-siyasi, tarixi proseslərin bir hissəsi idi. Bu lokal bir hal deyildi. Bu, dünya prosesi ilə bağlı idi.

Xalqımızın bu coşqunluğunun, hissiyyatlarının, ağrılarının, milli azadlıq arzularının aşkara çıxması, bəyan edilməsi və xalqın buna dərhal qoşulması onu göstərdi ki, bu hisslər əksəriyyətin qəlbində yaşayırmış. Bunun aşkara çıxması üçün sadəcə bir qığılcım lazım imiş. Ona görə də bu hadisəni qiymətləndirmək lazımdır. Mən bunu qiymətləndirirəm və bu bayram münasibətilə xalqımızı, millətimizi bir daha təbrik edirəm. Ümidvar olduğumu bildirmək istəyirəm ki, milli azadlıq, müstəqillik hissi bundan sonra daha heç vaxt boğula bilməyəcəkdir.

**Sual: – Danışıqlarda iqtisadi sahədə çətinliklərlə əlaqədar Rusiyanın imkanlarından istifadə edilməsi məsələsinə toxunulacaqmı?**

**Cavab**: – Bu barədə söhbət aparmaq çətindir. Hər halda biz qarşılıqlı əlaqələr vasitəsilə Rusiyanın müəyyən imkanlarından istifadə etməyə çalışırıq. Məsələn, indi taxıl çatışmazlığı var. Biz bir çox mənbələrə müraciət etmişik. Bizə lap dost olan mənbələrdən də indiyədək lazımi köməklər ala bilməmişik. Biz bu və başqa məsələləri də müzakirə edəcəyik. Ola bilər, orada çox məsələlər olsun. Əvvəldən nə deyim, səfər başa çatandan sonra danışarıq. [513-514]

## DAHİ AZƏRBAYCAN ŞAİRİ MƏHƏMMƏD FÜZULİNİN ANADAN OLMASININ 500 İLLİYİNƏ HƏSR EDİLMİŞ TƏNTƏNƏLİ YIĞINCAQDA NİTQ

*17 noyabr 1994-cü il*

*Moskva, Sütunlu Salon*

Əziz dostlar, əziz moskvalılar, əziz rusiyalılar, Moskvada yaşayan əziz həmvətənlər, azərbaycanlılar!

Füzulinin 500 illik yubileyi münasibətilə Azərbaycan xalqından, müstəqil Azərbaycan dövlətindən səmimi salamı və hərarətli təbrikləri qəbul edin. Rusiya və Azərbaycan xalqları gözəl dostluq, əməkdaşlıq ənənələrinə, mədəniyyət sahəsində qarşılıqlı münasibətlərin zəngin tarixinə malikdirlər. Bu işdə xalqlarımıza həyatın bütün mərhələlərində mədəniyyət, ədəbiyyat, incəsənət xadimləri kömək etmişlər.

Bu gün biz fasilədən sonra, müəyyən müddətdən sonra yenidən birlikdəyik və dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 500 illiyini birlikdə qeyd edirik. Şairin yubiley ilini YUNESKO Füzuli ili elan etmişdir. Füzulinin yubileyi Azərbaycanda, bir çox digər ölkələrdə geniş qeyd edilir, lakin bu, Azərbaycan xalqı üçün xüsusilə dəyərli və əhəmiyyətlidir ki, Füzulinin yubileyi Moskvada – zəngin mədəni və ədəbi ənənələri olan şəhərdə də qeyd olunur. Azərbaycanın mədəniyyət və incəsənət xadimlərinin bir çox nəsillərinin həyatı və yaradıcılığı bu şəhərlə bağlıdır.

Azərbaycan ədəbiyyatına, respublikamızın mədəniyyətinə belə qayğı göstərdiklərinə və bu gözəl gecəni təşkil etdiklərinə görə Rusiya dövlətinə, hamıya ürəkdən təşəkkür edirik. Mən Rusiya Federasiyasının prezidenti, çox hörmətli Boris Nikolayeviç Yeltsinə gecəmizin iştirakçılarına göndərdiyi səmimi təbrikə görə minnətdaram. Bu təbrikdə o, dahi Azərbaycan şairinə, Azərbaycan xalqına, Azərbaycan mədəniyyətinə öz münasibətini və bütün Rusiya xalqının münasibətini ifadə etmişdir.

Moskvanın, Rusiyanın ən gözəl saraylarından biri Rusiyanın, digər xalqların incəsənət, mədəniyyət xadimlərinin yubileylərinə, həyat və yaradıcılıqlarının əlamətdar ildönümlərinə həsr olunmuş bir çox unudulmaz gecələri xatırladır. Bu salonda Azərbaycan mədəniyyəti korifeylərinin yubileyləri dəfələrlə bayram edilmişdir. Lakin bugünkü gecə xüsusi əhəmiyyətə malikdir. Bu gün Rusiya paytaxtında Məhəmməd Füzulinin 500 illiyi, müstəqil Azərbaycan dövləti şairinin yubileyi qeyd olunur. Bunun xüsusi mənası var. Elə bunun özü də ona dəlalətdir ki, Azərbaycan və rus xalqlarını, Rusiya və Azərbaycan xalqlarını birləşdirən dostluq telləri möhkəm və pozulmazdır, bu telləri heç nə qıra bilməz. Bu tellər əbədi olacaq və gündən-günə möhkəmlənəcəkdir. [514-515]

Bütün Yer kürəsində, o cümlədən də keçmiş Sovet İttifaqının ərazisində baş verən ictimai-siyasi proseslər müxtəlif bölgələrdə, eləcə də bizim Qafqazda adamların həyatını, təbii olaraq çətinləşdirir, haradasa düşmənçilik, qarşıdurma şəraiti yaradılır. Biz burada, Moskvada Füzulinin 500 illiyini qeyd edərkən qəti şəkildə bildiririk ki, bütün bu hallar keçib gedəndir, onlar əsrlər boyu xalqlar arasında toplanmış, yaradılmış nə varsa, hamısını – dostluq, qarşılıqlı hörmət, qarşılıqlı yardım hisslərini sarsıda bilməz. Buna görə də belə düşünürəm ki, biz hamımız bu çətinlikləri əl-ələ verib birlikdə aradan qaldıracağıq, ümumbəşəri dəyərlərə xidmət etmək, ümumbəşəri amallara xidmət etmək üçün birləşəcəyik.

Rus və Azərbaycan xalqlarının incəsənət və mədəniyyəti, ədəbiyyatı bir-biri ilə elə sıx bağlanmış, bir-biri ilə elə möhkəm çulğaşmışdır ki, bu əlaqələri məhv etmək mümkün deyildir. Elə bugünkü gecə də buna ən inandırıcı və parlaq sübutdur.

Mən buraya rus xalqına, Rusiya xalqlarına, Moskvaya, moskvalılara Azərbaycan xalqının bəslədiyi dərin ehtiram hissi ilə gəlmişəm. Bu hisslər Azərbaycan xalqının rus xalqına münasibətini həmişə səciyyələndirmişdir. Bu hisslər indi də, müstəqil dövlətlərin hüdudları daxilində yaşadığımız dövrdə də yaşayır, bizi bir-birimizə bağlayır və bizi birləşdirir.

Mən bugünkü gecəyə görə sizə təşəkkür etmək, moskvalılara, rusiyalılara təşəkkür etmək və keçmiş zamanlarda bizi birləşdirmiş olan və bu gün də birləşdirən dostluğa görə rus xalqına, bütün Rusiya xalqlarına böyük hörmət, böyük minnətdarlıq hisslərini çatdırmaq istəyirəm.

Bugünkü gecəyə görə çox sağ olun! Sizə xoşbəxtlik və firavanlıq, Rusiya Federasiyasının xalqlarına uğurlar, sizə uğurlar, rus xalqına, rus mədəniyyətinə, rus ədəbiyyatına, rus incəsənətinə xoşbəxtlik və firavanlıq arzulayıram.

Sağ olun! [515-516]

## "AZƏRBAYCAN MÜƏLLİMİ" QƏZETİNİN KOLLEKTİVİNƏ TƏBRİK

"Azərbaycan müəllimi" qəzeti respublikamızın mətbuat tarixinə şərəfli yaradıcılıq yolu keçmiş, pedaqoji ənənələrin inkişafında silinməz izlər buraxmış, özünəməxsus dəst-xətti ilə seçilən nəşrlərdən biri kimi daxil olmuşdur. Azərbaycanda pedaqoji mühitin formalaşmasında, müəllim kadrların elmi-metodiki səviyyəsinin yüksəldilməsində bu qəzetin mühüm xidmətləri vardır.

"Azərbaycan müəllimi" yalnız sahə qəzeti olmaqla kifayətlənməmiş, respublika həyatında baş verən ictimai-siyasi hadisələrə də nüfuz etmişdir. Qəzet respublikamızda jurnalistika sənətinin inkişafı işində əhəmiyyətli rol oynamışdır.

"Azərbaycan müəllimi" qəzeti bu gün də öz ənənələrinə sadiq qalaraq pedaqoji maarif istiqamətində fəaliyyətini davam etdirir. Müstəqilliyinə qovuşmuş respublikamızın elm və təhsil sisteminin yeni əsaslar üzərində qurulduğu bir dövrdə, xalq maarifinin qarşısında duran başlıca vəzifələr qəzetin səhifələrində öz əksini tapır. Pedaqoji aləmdə qazanılmış qabaqcıl təcrübələr, görkəmli maarif və elm xadimlərinin həyatı qəzetdə mütəmadi işıqlandırılan məsələlərdəndir.

İlk nömrəsinin çapdan çıxmasının 60 illiyi münasibətilə "Azərbaycan müəllimi" qəzetinin bütün əməkdaşlarını ürəkdən təbrik edir, sizə cansağlığı, dəyərli fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram.

**HEYDƏR ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*18 noyabr 1994-cü il* [516-517]

## YENİ AZƏRBAYCAN PARTİYASI YARADILMASININ 2-ci İLDÖNÜMÜ MÜNASİBƏTİLƏ KEÇİRİLMİŞ ÜMUMRESPUBLİKA MÜŞAVİRƏSİNDƏ NİTQ

*19 noyabr 1994-cü il*

*Şəhriyar adına mədəniyyət mərkəzi*

Hörmətli xanımlar və cənablar, hörmətli bacılar və qardaşlar, dostlar, Yeni Azərbaycan Partiyasının bu yığıncağında iştirak edən nümayəndələri! Sizi və sizin simanızda Yeni Azərbaycan Partiyasının bütün üzvlərini partiyanın yaradılmasının ikinci ildönümü münasibətilə təbrik edirəm, sizə və Yeni Azərbaycan Partiyasına tutduğunuz yolda uğurlar arzulayıram.

Yeni Azərbaycan Partiyası iki ildir ki, yaşayır. Onun yaranması, meydana gəlməsi nə qədər çətin, mürəkkəb şəraitdə olsa da, partiyanın bu iki il ərzində yaşaması da bir o qədər çətin və mürəkkəb şəraitdə keçmişdir. Yeni Azərbaycan Partiyasının necə yaranması haqqında mən də bir neçə kəlmə demək istəyirəm, çünki indiyə qədər bunun üçün mənim fürsətim olmayıb.

Yeni Azərbaycan Partiyası Azərbaycanda son illər gedən ictimai-siyasi proseslərdə formalaşmış, üzə çıxmış və nəhayət, müəyyən mütəşəkkil bir şəkil almış və bu, vətənpərvər xalqına, ölkəsinə, millətinə xidmət etmək istəyən insanların təşəbbüsü ilə olmuşdur.

Şübhəsiz ki, Yeni Azərbaycan Partiyasının yaranması mənim adımla bağlıdır və bu, mənim iştirakımla olmuşdur. Lakin mən həmişə həqiqəti sevmişəm və həyatım da həqiqət üzərində qurulmuşdur. Buna görə də bildirmək istəyirəm ki, Yeni Azərbaycan Partiyasının yaranması mənim təşəbbüsümlə olmayıbdır. Bu partiyanın yaranması Azərbaycanın, demək olar, əksər bölgələrində, nöqtələrində, şəhərlərində, rayonlarında, əmək kollektivlərində yaranan əhval-ruhiyyədən irəli gəlmiş bir hadisədir.

Burada Əli Nağıyev 1986-cı ildən sonrakı dövr haqqında qısa məlumat verdi, təsəvvür yaratdı. Bunlar həqiqətdir, mən bu fikirlərlə tamamilə razıyam. Çünki Azərbaycanın təxminən 1985-ci ildən sonra düşdüyü ağır vəziyyət və respublikada gedən ictimai-siyasi proseslər təəssüf ki, bütövlükdə Azərbaycan millətinin, Azərbaycan xalqının və bütün Azərbaycan vətəndaşlarının xeyrinə olmamışdır. Həmin dövrdə ayrı-ayrı siyasi hərəkatlar, ayrı-ayrı siyasi qüvvələr Azərbaycanı qurmaq, Azərbaycanın mənliyini müdafiə etmək, xalqımızın qazandığı nailiyyətləri saxlamaq, onlara ləkə vurulmasına, onların dağıdılmasına yol verməmək əzmində olmuşlar. Lakin təəssüf ki, onlar o vaxtkı hakim dairələr tərəfindən həmin təzyiqə məruz qalmış, çox böyük çətinliklərlə üzləşmiş və böyük [517-518] repressiyalara uğramışdılar. Məhz bunların, bu proseslərin nəticəsində Azərbaycanda xalq azadlıq hərəkatı meydana çıxmışdır. Azərbaycanın Azərbaycan olduğunu dünyaya göstərmək üçün, nümayiş etdirmək üçün xalq ayağa qalxmış, toplaşmış və milli azadlıq hərəkatı artıq meydanlara çıxmışdı.

Şübhəsiz ki, 1988-ci ildən bax, bu proseslərin nəticəsində başlanmış milli azadlıq uğrunda mübarizə – Azərbaycanın mənliyini qorumaq, ərazi bütövlüyünü qorumaq üçün, Azərbaycanın məruz qaldığı təcavüzə qarşı çıxan qüvvələrin bir yerə toplaşması üçün milli azadlıq hərəkatı kimi meydana çıxması Azərbaycanın tarixində böyük hadisədir və bu hadisə layiqincə qiymətləndirilməlidir. Mən bunu daim qiymətləndirmişəm. Ona görə də ilk dəfə Azərbaycanda Azadlıq meydanına yüz minlərlə, hətta milyondan artıq adamın toplaşması, mitinqlər keçirilməsi – bunlar ayrı-ayrı şəxslərin, ayrı-ayrı adamların fəaliyyətinin nəticəsi deyil, həmin illərdə Azərbaycanın daxilində, xalqın içərisində, millətin, bütün Azərbaycan vətəndaşlarının daxilində baş qaldıran vətənpərvərlik hisslərinin, milli azadlığa yönəlmiş hisslərin qaynayıb qarışaraq meydana çıxmasının nəticəsidir.

Bütün bunlar, yəni Azərbaycanı qorumaq, Azərbaycan xalqının tarixini, ənənələrini, əldə etdiyi nailiyyətləri qorumaq, Azərbaycanı həm erməni təcavüzünə qarşı gücləndirmək, həm də Moskvada o vaxtlar Sovet İttifaqının rəhbərliyi tərəfindən Azərbaycana qarşı atılmış ədalətsiz addımlara və Azərbaycan rəhbərliyindəki ayrı-ayrı nalayiq şəxslərin xalqımıza zidd olan siyasətinə qarşı çıxmaq niyyətləri bax bu hərəkatları meydana çıxarmışdır. Buna görə də onlar yüksək qiymətləndirilməlidir və Azərbaycanda Milli Dirçəliş günü adlandırılan 17 noyabr hadisələrinə mən öz münasibətimi bildirdim, Azərbaycan xalqına öz təbrik məktubumu göndərdim. Mən bu günü də qiymətləndirirəm, ondan sonra gedən bütün prosesləri də qiymətləndirirəm, bütün bu proseslərdə iştirak etmiş fəal vətənpərvər insanların, Azərbaycan vətəndaşlarının, ziyalılarının, Azərbaycanın mütəfəkkir fikirli adamlarının fəaliyyətini də qiymətləndirirəm.

Təəssüf ki, sonra bu proseslərdən ayrı-ayrı dairələr tərəfindən bəlkə də bəzən düzgün olmayan istiqamətlərdə istifadə edildi. Ancaq bu proseslərdəki müəyyən mənfi cəhətlərə baxmayaraq, onların hamısı ümumən müsbət xarakter daşımışdır. Azərbaycanın müstəqilliyini əldə etmək üçün, Azərbaycan xalqının milli mənliyini, milli qürurunu dünyaya bəyan etmək üçün böyük hadisələrdir və bu hadisələr, nəhayət, Azərbaycanın müstəqillik qazanması üçün əsas yaratmışdır.

Mən bunu dəfələrlə demişəm və bizim partiya – Yeni Azərbaycan Partiyası yaradıldıqda da öz bəyanatımda bildirmişəm ki, Azərbaycanın müstəqil bir dövlət olması dünyada, xüsusən o vaxtlar Sovetlər İttifaqında gedən tarixi, ictimai-siyasi, obyektiv proseslərin məntiqi nəticəsidir. Bu, şübhəsiz, belədir. Əgər bu obyektiv proseslər getməsəydi və həmin proseslər nəticəsində Sovetlər İttifaqı dağılmasaydı, Azərbaycan ola bilsin, [518-519] beş il də mitinq etsəydi, yenə müstəqilliyini əldə edə bilməyəcəkdi. Bu proseslər, eyni zamanda onlara təkan verən, onları gücləndirən, bu proseslərə biganə qalmayan, onların fəal iştirakçısı olan Azərbaycanın müstəqilliyə, milli azadlığa can atan qüvvələrinin, qruplarının, insanlarının fəaliyyəti, şübhəsiz, yüksək qiymətləndirilməlidir. Mən həmişə bunları yüksək qiymətləndirmişəm.

İndi bunu mənim deməyim bəlkə də başqa cür qəbul edilsin. Ancaq bu, həqiqətdir. Bunu deməyə bilmərəm – onsuz da bunu deyir, bu barədə yazırlar – həmin proseslərin içərisində Heydər Əliyevin adı həmişə olubdur və bu, 1988-ci ilin mitinqlərində də, ondan sonrakı mitinqlərdə də, hərəkatlarda da olubdur. Lakin məsələ burasındadır ki, bu, Azərbaycan xalqına böyük ruh, ilham verməklə yanaşı, məni heç vaxt bu işə bilavasitə cəlb etməmişdir, çünki siz o vaxtkı dövrü, o vaxtkı şəraiti yaxşı bilirsiniz. Bunlarla əlaqədar mən bir neçə məqamı yada salmaq istəyirəm.

Mən "Əlincə" cəmiyyətinin fəaliyyətini çox yüksək qiymətləndirirəm. "Əlincə" cəmiyyəti öz fəaliyyəti ilə bu proseslərin inkişafına böyük kömək göstərmişdir. Məsələn, burada Əli Nağıyev dedi ki, Heydər Əliyevi müdafiə etmək, yaxud seçkilərdə yaş senzini, – bu senzi mənə görə qoymuşdular, – götürmək üçün fəallar, həvəskarlar, heç bir təmənna güdmədən bu işdə çalışan adamlar vardı. İndi mən Bakıdayam, Azərbaycandayam, bir prezident kimi Azərbaycana rəhbərlik edirəm. Ancaq səmimiyyətimə inanın ki, mən o vaxtlar, Naxçıvanda blokada şəraitində olarkən bu işlərin təşkilində nəinki heç bir rol oynamamışdım, heç bir fəaliyyətim olmamışdır, hətta onların çoxundan mənim xəbərim də yox idi. Yəni mənim xəbərim olmadan, məndən soruşmadan, fikrimi bilmədən, mənə müraciət etmədən və əksər hallarda mənimlə heç bir əlaqə olmadığı halda ayrı-ayrı qruplar, dəstələr, ayrı-ayrı vətənpərvər insanlar, indi bizim bu Yeni Azərbaycan Partiyasına toplaşan adamlar o vaxt belə hərəkətlər edirdilər. Bunu sonralar – Naxçıvan blokada şəraitində olduğuna görə, çox vaxt televiziyamız işləmədiyinə görə, onlara televiziya ilə çıxış etməyə imkan verilmədiyinə görə gəlib özləri danışırdılar, bəzən "Səs" qəzetində, yaxud başqa qəzetlərdə yazırdılar, onlardan məlumat alırdılar.

Yəni bunların hamısı olurdu və mən bunların heç birisinin iştirakçısı deyildim. Sadəcə olaraq mənim adım və keçmiş xidmətlərim, Azərbaycan xalqı qarşısında zəhmətim bu insanları belə əhval-ruhiyyəyə gətirib çıxarırdı. Bu, bir tərəfdən. Digər tərəfdən isə belə hesab edirəm ki, bu insanlar mənim şəxsiyyətim barədə düşünmürdülər, yeni tək məni nəzərə almırdılar. Onlar Azərbaycanı ağır vəziyyətdən çıxarmaq üçün axtarışlarda idilər. Bu axtarışlar nəticəsində gəlib yenə də mənim adımın üzərində dururdular. Əksəriyyəti də məhz bu ümummilli, ümumdövlət, ümumxalq mənafeyindən çıxış edirdi. Onlar heç də Heydər Əliyevə hansısa bir mövqe yaratmağa çalışmırdılar. Mən bunu belə qəbul edir, belə başa düşürdüm. Yenə də deyirəm, onların heç biri mənimlə bilavasitə əlaqədə [519-520] olmamışdır və bu insanlar Azərbaycanı ağır vəziyyətdən çıxarmaq üçün axtarış yollarında gəlib çox vaxt mənim adımın üzərində durur və bunun üçün fəaliyyət göstərirdilər.

Mən bunları yada salmaqla Yeni Azərbaycan Partiyasının yaranması mərhələsinə gəlib çıxmaq istəyirəm. O vaxtlar, Azərbaycan ağır vəziyyətdə olduğu dövrdə mən Naxçıvanda yaşayarkən mənə müraciət edən qruplar, ayrı-ayrı adamlar, ziyalılar, Azərbaycanın tanınmış adamları çox olurdu. Məsələn, mən bunu yüksək qiymətləndirirəm ki, Azərbaycan blokada şəraitində olsa da, dəmir yolu işləməsə də, təyyarə ilə Naxçıvandan Bakıya gəlib-getmək böyük bir problem olsa da, – çünki həm təyyarə az idi, həm təyyarəyə bilet almaq mümkün deyildi, həm də bu, böyük xərc istəyirdi, – adamlar dəstə-dəstə Naxçıvana gəlir, mənə müraciət edirdilər. Belə müraciətlər çox olurdu. Onlar hər dəfə məni Bakıya dəvət edir, Bakıya gəlməyimi xahiş edirdilər.

Sizin qarşınızda səmimi demək istəyirəm, – Azərbaycan mənim üçün nə qədər əziz olsa da, o vaxtlar Azərbaycanın aqibəti məni nə qədər narahat etsə də, mən 1986-1987-ci illərdən sonra, xüsusən 1987-ci ildə istefaya gedəndən sonra, ələlxüsus 1988-ci ildə bəzi qrupların mənə qarşı ədalətsiz hərəkətlərini görəndən sonra bir daha siyasət aləminə qayıtmaq istəmirdim. Bir daha dövlət işləri ilə məşğul olmaq istəmirdim. Bu, mənim qəti qərarım, qəti fikrim idi. Mən bunu istəmirdim. Ancaq biri var ki, bu barədə öz şəxsi fikirlərim olsun, biri də var ki, xalqın istəyi, Azərbaycan haqqında düşünən ayrı- ayrı böyük şəxslərin istəyi, fikirləri olsun. Onlar gəlirdilər, müraciət edirdilər. Mən də hər dəfə lazımi məsləhətlər verirdim. Amma özümün bu məsələdə iştirakımdan imtina edirdim. O adamların əksəriyyəti indi bu salondadır. Onlar bunu yaxşı bilirlər. İki saat, üç saat, dörd saat davam edən bütün danışıqlarımız onunla bitirdi ki, deyirdim gedin, fəaliyyətinizi davam etdirin. Amma mən bu təkliflərdən imtina edirəm.

Siz bilirsiniz ki, bu hallar 1992-ci ilin mart ayından may ayınadək olan dövrdə də çox oldu. O vaxtlar da mənə çox müraciətlər olurdu. Burada Əli Nağıyev dedi ki, o vaxt onlar Dövlət Şurası yaratmaq təşəbbüsü irəli sürmüşdülər. İndi təsəvvür edin ki, belə bir təşəbbüs olmuşdu, belə təkliflər verilmişdi. Ancaq mən onu bilməmişdim. Ordan-burdan xəbər gəlirdi ki, bəli, Dövlət Şurası yaratmaq təklifləri var, Heydər Əliyevin dəvət edilməsi, Dövlət Şurasına Heydər Əliyevin rəhbərlik etməsi təklifləri var. Mən bunların çoxunu bilmirdim və mənə xəbər çatanda da hər dəfə izahat verirdim ki, şübhəsiz, Azərbaycanı bu vəziyyətdən çıxarmaq lazımdır.

Lakin yaranmış şəraitdə mən özüm üçün mümkün bilmirəm ki, bir daha Bakıya qayıdım, bu işlərlə məşğul olum.

Bax, bu səpkidə Yeni Azərbaycan Partiyasının yaradılması məsələsi qaldırıldı. Bu barədə çoxları gəlib mənə müraciət edirdi, günlərlə Naxçıvanda vaxt keçirirdilər, mənimlə danışıqlar aparırdılar, belə bir parti[520-521]yanın yaradılması üçün təkliflər verirdilər. Mən bunlardan imtina edirdim.

Xatirinizdədir, mən uzun müddət danışıqlar aparandan sonra Sirus Təbrizli böyük bir müraciət hazırladı və onu təxminən 90 nəfər Azərbaycan ziyalısı imzaladı. Müraciətdə mənə təklif edilirdi ki, Bakıya qayıdım və Azərbaycanın paytaxtında fəaliyyətə başlayım. Bu müraciət mətbuatda dərc olundu, mən ona cavab verdim, minnətdarlığımı bildirdim. Ancaq şübhəsiz, həm bu təklifi qəbul etmək üçün o vaxtlar imkan və şərait yox idi, həm də, yenə deyirəm, mən öz mövqeyimdə dururdum ki, Azərbaycan üçün, xalq üçün, respublikamız üçün ürəyim nə qədər yansa da, mən o şərtlərlə, o şəraitdə Bakıya qayıdıb fəaliyyət göstərməyimi mümkün hesab etmirdim.

Lakin bütün bu proseslər, eləcə də tək Bakıdan deyil, Azərbaycanın bir çox şəhərlərindən, rayonlarından mənə, Naxçıvana ardı-arası kəsilmədən gələn məktublar elə bir şəraitə gətirib çıxardı ki, mən Yeni Azərbaycan Partiyasının yaranmasına razılıq verdim. Bundan sonra hazırlıq işi getdi, Yeni Azərbaycan Partiyasının rəhbər orqanlarının indi burada olan üzvlərindən, bizim həmfikirlərimiz və dostlarımızdan xahiş etdim ki, proqram, nizamnamə hazırlayıb gətirsinlər. Bir neçə layihə hazırlandı, onları gətirdilər. Lakin indi mən deməliyəm ki, Yeni Azərbaycan Partiyasının proqramının da, nizamnaməsinin də yazılması və hazırlanması işləri ilə şəxsən mən özüm bilavasitə məşğul oldum. Mən o vaxta qədər də belə bir partiyanın yaranmasının zəruriliyini qəbul edirdim. Amma özümün bu partiyada iştirakıma razı olduğum halda mən onun hansı əsaslarla yaradılması üçün lazım bildiyim fikirlərimi söylədim. Ona görə də partiyanın həm proqramının, həm də nizamnaməsinin yazılması ilə özüm məşğul oldum. Siz proqramla da, nizamnamə ilə də yaxşı tanışsınız. Bilirsiniz ki, o proqram, o nizamnamə Azərbaycanda müstəqil, demokratik, hüquqi bir dövlət yaradılması barədə sənədlərdir. Bu partiya isə Azərbaycan cəmiyyətinin demokratik cəmiyyət, insan hüquqlarının bərqərar olduğu bir cəmiyyət, mətbuat azadlığı, söz azadlığı olan bir cəmiyyət kimi təşəkkül tapması istiqamətində fəaliyyət göstərən bir partiyadır. Azərbaycanda bütün vətəndaşların bərabər hüquqlara malik olması, vicdan azadlığı, dil azadlığı, din azadlığı, söz azadlığı yolu ilə gedən bir partiyadır.

Bunlar hamısı Yeni Azərbaycan Partiyasının proqramında öz əksini tapmışdır. Özü də Azərbaycanın müstəqilliyi ən əsas məsələdir və bu əsasda mən Yeni Azərbaycan Partiyasının yaranmasına razılıq verdim. Beləliklə, Yeni Azərbaycan Partiyası 1992-ci il noyabrın 21-də Naxçıvanda yarandı. Bu, qeyri-adi bir hadisədir. İndi Azərbaycanda 40-dan artıq partiya var. Mən elə o vaxtlar da çoxpartiyalılıq tərəfdarı olmuşdum. Özümün siyasi fəaliyyətdən kənar olduğum vaxtlarda, indi isə Azərbaycanın prezidenti kimi mən Azərbaycanda çoxpartiyalı sistemin bərqərar olması üçün şərait yaratmağa çalışıram və hesab edirəm ki, Azərbaycanda çox [521-522] partiyalı sistem olmalıdır, Azərbaycan çoxpartiyalı sistem şəraitində demokratik cəmiyyət, demokratik dövlət, hüquqi dövlət qurmaq yolu ilə getməlidir.

Ancaq bu partiyaların, demək olar, hamısı Bakıda yaradılmışdır, özü də sərbəst şəraitdə. Yəni onların yaranmasının qarşısını alan bir qüvvə olmayıbdır və onlar Bakıda, Azərbaycanın paytaxtında yarandığına görə də, şübhəsiz, ümumazərbaycan xarakteri daşıyır, Yeni Azərbaycan Partiyasının bu partiyalardan fərqi ondan ibarətdir ki, onun təsis konfransı Bakıda yox, Naxçıvanda keçirilibdir, çünki o vaxtlar bu konfransı Bakıda keçirmək mümkün deyildi. Əvvəla, o vaxtlar bu partiyanın yaranması çox böyük maneələrlə rastlaşırdı. İkincisi isə, bu partiyanın yaranmasında mənim iştirakım zəruri olduğuna görə mənim Bakıya gəlməyim üçün şərait yox idi.

Mənim isə Bakıya gəlmək istəyim həmişə olmuşdur. Axı, mən Bakıda yaşayıb-yaratmış olan adamam. Amma məni Bakıya qoymurdular. Siz bunu bilirsiniz. Bəli, məni Bakıya qoymurdular. Mən 90-cı ildə Moskvadan böyük çətinliklərlə çıxıb gələndə də qoymadılar ki, Bakıda üç gündən artıq yaşayım. Odur ki, Naxçıvana getdim. Bundan sonra mən Azərbaycan Ali Sovetinin deputatı seçildikdə Bakıya bir deputat kimi gəlməyimə də böyük maneçiliklər törədirdilər. Gəlib sessiyalarda iştirak etdikdən sonra buradan tezliklə çıxıb getməyimi tələb edirdilər.

O rejim dəyişib başqa bir rejim yarandı. Bu rejimin yaranmasında mənim də xidmətlərim oldu, mən buna çox kömək etdim. Yəni Xalq Cəbhəsinin hakimiyyətə gəlməsinə çox kömək göstərdim. Amma onlar da mənim Bakıya gəlməyimi qadağan etdilər.

Belə bir şəraitdə Bakıda təsis konfransı keçirilməsini mən mümkün hesab etmədim. Mən bunu da qiymətləndirirəm ki, belə bir şəraitdə, bax bu cür təqiblərə, təsirlərə, bu cür məhdudiyyətlərə baxmayaraq, o vaxtlar – Naxçıvanın ağır vəziyyətdə olduğu dövrdə, Bakı ilə Azərbaycanın başqa bölgələri arasında əlaqələr çox məhdud olduğu dövrdə, Naxçıvanin o şaxtalı-ayazlı günlərində Yeni Azərbaycan Partiyasını yaratmaq istəyən adamlar oraya gəldilər və biz Naxçıvanda təsis konfransı keçirdik.

İndi biz Azərbaycanda məşhur olan bir salona toplaşmışıq, onun çox yaxşı şəraiti var və heç kəs bizim buraya yığışmağımıza maneçilik törətmir. Biz azad və sərbəst bir şəraitdə söhbət aparırıq.

Bildiyiniz kimi ümumiyyətlə, Naxçıvan qışda şaxtalı olur. Ancaq o vaxtlar, o il Naxçıvanda şaxta daha şiddətli idi, hava çox soyuq keçirdi, elektrik enerjisi, yanacaq yox idi. Heç nəyi isidib-qızdırmaq mümkün deyildi. Naxçıvan Dram Teatrı uzun müddət idi ki, işləmirdi. Heç olmasa işləyəndə adamlar onu öz nəfəsi ilə az-çox qızdırırdılar. Bu, təbii bir haldır. Biz teatrın o soyuq binasını açdıq, orada təsis konfransı keçirdik. Yadımdadır, hamı paltoda oturmuşdu. Çoxları paltodan əlavə, başqa şeylə də bürünmüş, papaqlarını da çıxarmamışdı. Bax, biz belə bir şəraitdə təsis konfransı keçirdik.

Mən bunları nə üçün xatırlayıram? Çünki o günlər mənim üçün [522-523] əziz günlərdir. Ona görə yox ki, Yeni Azərbaycan Partiyası yaranıbdır. Bu, şübhəsiz, mənim üçün əziz bir hadisədir. Ona görə ki, bu bizim Azərbaycan vətəndaşlarının, bu partiyaya həvəs göstərən, bu partiyaya üzv olmaq istəyən, bu partiyanı qurmaq istəyən, bu partiyanı yaratmaq istəyən adamların nə qədər cəsarətli, fədakar, cəfakeş olduqlarını göstərir. Bu partiya bax, belə bir şəraitdə yarandı və biz proqramı, nizamnaməni qəbul etdik. Biz orada siyasi şura seçdik, idarə heyəti seçdik və beləliklə, bu partiya fəaliyyətə başladı.

Mən bu hadisələrdən bəzilərini xatırlayaraq onu qeyd etmək istəyirəm ki, Yeni Azərbaycan Partiyası Azərbaycanda gedən ictimai-siyasi proseslərin içərisindən çıxan zərurətdir. O, bir adamın istəyi ilə yaranan partiya deyildir. Azərbaycanda yaranan partiyaların bir çoxu ayrı-ayrı şəxslərin, siyasi fəaliyyətə başlayan adamların şəxsi təşəbbüsü ilə, onların ətrafında toplaşan adamların təşəbbüsü ilə yaranan partiyalardır. Ancaq Yeni Azərbaycan Partiyasının fərqi ondan ibarətdir ki, bu partiya onu yaratmaq istəyən, siyasi fəaliyyətlə məşğul olmaq istəyən adamların istəkləri ilə, bir təşkilati mərkəz olmadan, hərəsinin öz tərəfindən hərəkət etməsi nəticəsində, ağır şəraitdə, böyük təqiblər şəraitində yaranmış bir partiyadır.

Bu partiya keçmişdə, məsələn, vaxtilə çar Rusiyası dövründə bir çox partiyalar kimi gizli, qeyri-leqal şəraitdə yaranmasa da, tam gizli olmasa da hər halda müəyyən dərəcədə gizli şəraitdə yaranmışdır. Ona görə də bu partiyanın yaranması çox qiymətlidir və mən bu partiyanın yaranmasında təşəbbüskar olan, fəaliyyət göstərən, bu partiyanın yaranmasını ardıcıl surətdə təbliğ edən adamların və nəhayət, bir yerə toplaşaraq gəlib Naxçıvanda mənim qarşımda bu partiyanın yaranmasının zəruriliyini sübut edən adamların və onun yaranmasına nail olan adamların hamısının fəaliyyətini, xidmətlərini qiymətləndirirəm və bildirmək istəyirəm ki, bu partiya tək mənim təşəbbüsümlə deyil, yalnız xalqın istəyi ilə, xalqın təşəbbüsü ilə yaranan partiyadır. Hamınıza, yəni bu partiyanın yaranmasının beşiyi başında duran, onun qaynaqlarında duran adamlara xüsusi təşəkkür edirəm və bu fikirdəyəm ki, onlar o zaman uzaqgörən olublar, düzgün yolda olublar və artıq iki ildir fəaliyyət göstərən Yeni Azərbaycan Partiyası özünün yaranmasının zəruriliyini də sübut edir, bu gün də, gələcəkdə də yaşamasının zəruriliyini sübut edir.

Yeni Azərbaycan Partiyası yaranandan sonra mən hiss etdim ki, bu, çoxlarını narahat edir, o vaxtkı hakimiyyəti, başqa qüvvələri narahat edirdi. Ona görə də bu partiyanın yaranmasından sonra qeydə alınması, yaxud fəaliyyət göstərməsi üçün, ədalətlə deməliyəm, acıq bir maneçilik yox idisə də, o vaxt bu partiya hakimiyyət tərəfindən o qədər də qəbul olunmurdu və onun fəaliyyət göstərməsinə imkan verilmirdi. Doğrudan da, bu partiyanın yeri də yox idi, ümumiyyətlə heç nəyi yox idi. Yadımdadır, o vaxt yanıma gələrək dedilər ki, Bakıda partiya üçün heç olmasa bir-iki otaq lazımdır. Dedim ki, axı mən nə edə bilərəm, partiyanı yaratmısınız, gedin çalışın. O vaxtlar məndən xahiş etdilər ki, özüm müraciət edim, [523-524] mən Rəfael Allahverdiyevə dedim ki, get, Bakı Sovetinə müraciət et. O da getdi. Lakin orada məsələni süründürməyə başladılar. Dedilər ki, bir bina var, akademiyanın sərəncamındadır. Akademiyanın prezidenti Eldar Salayevə müraciət etmək lazımdır. Dedim, gedin mənim adımdan Eldar Salayevə müraciət edin. O, hər halda keçmişi unutmamalıdır, bu partiyaya kömək göstərməlidir. Bir sözlə, çox adama müraciət olundu. Ancaq partiyaya yer verilmədi.

İndi burada Əli Nağıyev deyir ki, partiya haradasa üç otaqda yerləşir. Heç bilmirəm harada yerləşir. O da mən buraya, Bakıya gələndən sonra, respublikanın rəhbəri seçiləndən sonra alınmış otaqlardır. Şübhəsiz ki, indi mən prezidentəm, istəsəm, böyük bir binanı boşaltdırıb Yeni Azərbaycan Partiyasına verə bilərəm. Ancaq mən bu işə qarışmadım və siz də gərək bunu üzrlü hesab edəsiniz, inciməyəsiniz. Mən bu işə qarışmadım. Üç otaq olsa da, hər halda işləyirsiniz. Deməli, iş binada, otaqda deyildir. Məsələ iş görməkdədir. İşləyirsiniz ki, buraya nümayəndələr toplaşmışlar.

Amma o vaxtlar, yenə də deyirəm, 92-ci ilin noyabrında partiyanın yaranmasına baxmayaraq, mən Bakıya 93-cü ilin iyun ayında döndüm. O vaxtlar başımın nə kimi işlərə qarışdığını bilirsiniz. İndi də nə işlər gördüyümü bilirsiniz. Ancaq sonralar, deyəsən, 93-cü ilin payızında partiya həmin o üç otağı əldə edə bildi. Yəni demək istəyirəm ki, o vaxtlar partiya yaransa da, onun fəaliyyəti üçün şərait olmadı və onun imkanlarını məhdudlaşdırmaqla fəaliyyətini də məhdudlaşdırmaq istədilər.

Gördüyünüz kimi, Yeni Azərbaycan Partiyası bütün çətinliklərdən çıxdı. Sizin bu gün də çətinlikləriniz var, mən bunu hiss edirəm. Ancaq bunlara baxmayaraq, bu partiya yaşayır, onun təşkilatları artıq formalaşıbdır və bu gün partiyanın ikinci ildönümünə çox mötəbər nümayəndə heyəti toplaşıbdır. Bu göstərir ki, o ideya ilə bağlı olan adamlar, təşkilatlar bütün çətinliklərin öhdəsindən gəlib öz məqsədlərinə nail ola bilərlər. Partiyanın həyatında ikinci mərhələ mənim Bakıya rəhbər işə qayıtmağımdan sonra başlamışdır. Mən buraya, Bakıya gələndən sonra Ali Sovetin sədri seçildim, sonra prezident seçildim. Bu vaxt ayrı-ayrı partiyalarda bəzən belə fikir yarandı ki, bir dövlət başçısı kimi Heydər Əliyev yalnız Yeni Azərbaycan Partiyasını dəstəkləyəcəkdir, bu

partiyaya yol açacaqdır və Yeni Azərbaycan Partiyası hakim partiya olacaqdır. Belə fikirlər Yeni Azərbaycan Partiyasının daxilində də çox olub. Ancaq siz bilirsiniz, mən bir-iki dəfə mətbuat konfranslarında bəyanat verdim ki, mən Azərbaycanın dövlət başçılığına Yeni Azərbaycan Partiyasının fəaliyyəti nəticəsində yox, bütün Azərbaycan xalqının iradəsi ilə gəlmişəm. Ona görə də indi gəlib dövlət başçısı olduğum halda vaxtilə mənə ən yaxın olan, məni ən çox dəstəkləyən, mənə qayğı göstərən adamları, Yeni Azərbaycan Partiyasını dəstəkləsəm, ümumazərbaycan xalqına qarşı ədalətsizlik etmiş olardım. Siz gərək bunu biləsiniz, dərk edəsiniz və düzgün başa düşəsiniz.

Yenə də deyirəm, mən sizin, yəni Yeni Azərbaycan Partiyasını təşkil edənlərin, quranların, o həvəskarların, uzun müddət bu məsələni mə[524-525]nim qarşımda qaldıranların və nəhayət, Yeni Azərbaycan Partiyasının Naxçıvanda yaranmasına nail olanların fəaliyyətini qiymətləndirirəm və həmişə də qiymətləndirəcəyəm. Bu, bizim Yeni Azərbaycan Partiyasının tarixində qalacaqdır. Bunu heç kəs tarixdən silə bilməz. Ancaq siz də bilirsiniz və sonra da bildiniz ki, mən Heydər Əliyev kimi təkcə Yeni Azərbaycan Partiyasına mənsub olan adam deyildim. Düzdür, siz qabağa düşmüşdünüz, təşəbbüs göstərirdiniz, bu sahədə fədakarlıq, cəfakeşlik edirdiniz. Cəsarət göstərirdiniz, heç nədən qorxmurdunuz. Bakıda mitinqlər keçirib Heydər Əliyevin qayıtmasını tələb edəndə sizi döyürdülər, gözümçıxdıya salırdılar, qovurdular, hətta həbs edirdilər. Mən bunları bilirəm, qiymətləndirirəm. Sizi döyən, sizə təzyiqlər göstərən, sizi təqib edən adamlara mən nifrət edirəm. Amma Azərbaycan xalqı təkcə onlardan ibarət deyildir. Onlar sadəcə olaraq tarixin müəyyən mərhələlərində Azərbaycanın hakimiyyət dairələrini ələ keçirmiş bir qrup adamlar idi. Azərbaycan xalqının, Azərbaycan vətəndaşlarının böyük əksəriyyəti sağlam əhval-ruhiyyə ilə yaşayan insanlardır. Siz cəsarətli olub qabağa düşdünüz və bu ideyaları həyata keçirdiniz. Bununla bərabər, çoxları da həmin ideyaları qəlbində saxlayırdı, bu ideyalarla yaşayırdı. Məsələn, mənim portretlərim milyonlarla adamın evində qalırdı. Onlar da məni istəyirdilər. Lakin hərə öz duyğularını öz imkanları daxilində büruzə verirdi.

Siz gördünüz ki, mənim Bakıya qayıtmağım, Azərbaycan rəhbərliyinə qayıtmağım təkcə Yeni Azərbaycan Partiyasının fəaliyyətinin nəticəsi deyildir. Baxmayaraq ki, Yeni Azərbaycan Partiyası buna böyük cığırlar açmışdır. Mənim də Bakıya qayıtmağım, Azərbaycana rəhbərlik etməyim mənim şəxsi istəyimdən asılı deyildi, bununla bağlı deyildi, mən bunu istəmirdim. Siz bunu da bilməlisiniz. Siz bilməlisiniz ki, bir neçə gün mənimlə danışıqlar gedirdi. O günlər mənim yanıma – Naxçıvana hər gün 4-5 təyyarə gəlirdi, bu təyyarələrlə müxtəlif qruplar gəlir, iyun hadisələri zamanı, Azərbaycanda vətəndaş müharibəsi başlananda məni buraya dəvət edirdilər.

Mən gəlmək istəmirdim. Ancaq yenə də xalqın mənafeyini, millətin mənafeyini, Azərbaycanın mənafeyini öz mənafeyimdən üstün tutub Bakıya qayıtdım. Mən bütün xalqın mənafeyini ifadə etməli idim. Belə də etdim. Bu gün də xalqın mənafeyini ifadə edirəm. Xalqın içində cürbəcür mənfi adamlar da var. Həyat onları bir-bir üzə çıxaracaq və ifşa edəcəkdir. Lakin Azərbaycan xalqının, Azərbaycan vətəndaşlarının, insanlarının böyük əksəriyyəti həm Azərbaycanın müstəqilliyini istəyir, həm ərazi bütövlüyünü istəyir, həm ölkəmizin müharibə şəraitindən çıxmasını istəyir, həm də Azərbaycanın bizim tutduğumuz bu yolla getməsini istəyir. Bax, ona görə mən bu xalqı qucaqlayıram.

Mən Azərbaycan dövlətinin rəhbəri kimi fəaliyyətə başlayandan sonra Yeni Azərbaycan Partiyasından uzaqlaşmadım, lakin bir-iki bəyanat verdim ki, mən partiyalara münasibətimdə tərəfsiz olmalıyam, bitərəf olmalıyam. Çünki belə olmasaydı, verdiyim sözlərin əksinə çıxardım. Yəni [525-526] əgər Azərbaycanda bütün partiyalar eyni hüquqla fəaliyyət göstərə bilərsə, mən bir prezident kimi ancaq bir partiyanı dəstəkləmiş olsam, onda, deməli, mən demokratik prinsiplərə riayət etməmiş olaram, yaxud da ki, bu prinsiplərin əksinə getmiş olaram. Ona görə də mən bu bəyanatları verdim və əlaqələrimiz, demək olar, tamamilə kəsildi. Lakin eyni zamanda mən Yeni Azərbaycan Partiyasını heç vaxt unutmadım və unuda da bilmərəm. Yeni Azərbaycan Partiyası mənim qəlbimdədir.

Mən Yeni Azərbaycan Partiyası ilə bərabərəm və partiyanın bugünkü vəziyyətini görərkən çox sevinirəm və hesab edirəm ki, Yeni Azərbaycan Partiyası yaşayacaq və fəaliyyət göstərəcəkdir.

Əgər Yeni Azərbaycan Partiyası yaranandan 1993-cü ilin iyun hadisələrinə qədər bir mərhələ, sınaq mərhələsi keçmişdirsə, ondan sonrakı dövr ikinci sınaq mərhələsidir. Əvvəlki sınaq mərhələsi Yeni Azərbaycan Partiyasının hakimiyyət tərəfindən təzyiq və təqibi ilə əlaqədar idisə, sonrakı sınaq mərhələsi partiyanın dövlət tərəfindən dəstəyi olmadan özünün nəyə qadir olduğunu sübut etmək mərhələsidir. Demək, Yeni Azərbaycan Partiyası bu sınaq mərhələsindən də çıxdı.

Əgər əvvəldən prezident kimi mən Yeni Azərbaycan Partiyasını tam dəstəkləmiş olsaydım, siz elə mənim qanadım altında yaşayacaqdınız. Amma mən sizi təkbaşına buraxdım və fikirləşdim ki, görüm siz nəyə qadirsiniz, nə edə bilərsiniz. Bu da sizi daha da mətinləşdirdi, daha da cəsarətləndirdi. Bilirsiniz bu nəyə bənzəyir? İndi burada səmimi söhbət edirik, – hesab edirəm ki, söhbətlərimiz sadə və səmimi olmalıdır, heç vaxt basma-qəlib olmamalıdır, – məsələn, imkanlı valideynlərin uşağı yemək-içməyin haradan gəldiyini bilmir, yaxud məktəbə də asanlıqla girir, instituta da necə daxil olduğunu bilmir, vəzifəyə keçməkdə də ona kömək edirlər. Amma o, həyatın çətinliklərini görmür və bu mərhələdən də keçməyəndə mürəkkəb vəziyyətlərə düşərkən yaşamaq ona çox çətin olur. Bunu hamınız bilirsiniz. Sizin də bəzilərinizin, professorların və s.

uşaqları belə olmuşdur. Amma o gənc ki, ucqar kənddən, ucqar rayondan gəlib burada öz gücünə, öz bacarığına ali məktəbə girir, yataqxanada yaşayır, əla qiymətlərlə oxuyur, çətinliklərə baxmayaraq işə düzəlir, müəyyən mərhələyə yüksəlir, cəmiyyətdə müəyyən yer tutur, – o, hansı çətinliklə qarşılaşsa da, ona dözəcəkdir.

Ola bilər, bu analogiya sizə qəribə gəlsin, lakin təxminən belədir. Yenə də deyirəm, əgər prezident kimi mən sizi qanadım altına alsaydım, sizə əlverişli şərait yaratsaydım, tapşırsaydım ki, sizə yaxşı bir bina da versinlər, o zaman sizin yaxşı işlərinizi də belə qələmə verəcəkdilər ki, prezident kömək etdiyinə görə belədir, yoxsa, özləri elə bir şey deyillər. O vaxt belə fikir də yaranardı ki, Yeni Azərbaycan Partiyası bir şey deyildir.

Amma siz öz ümidinizə qaldınız, bəzən ayrı-ayrı yerlərdən çoxlu narazılıqlar da gəldi ki, Heydər Əliyev nə üçün bizi saymır, niyə bizimlə hesablaşmır, təqdimatımızla nə üçün adam təyin etmir, kadrların seçilməsində düz işlər görmür və s. Bir az vuruşduq, çarpışdıq, çalışdıq, möhkəm[526-527]ləndiniz. İndi də mənə belə gəlir ki, partiyanın yeni bir mərhələsidir. Yəni əgər o dövrdə bir mərhələ idisə, bu dövrdə ikinci mərhələdir. Amma bu o demək deyil ki, mən bu gün sizi yenə qanadım altına alacağam.

Siz artıq fırtınalardan çıxmısınız. Məsələn, adamı atırsan dəryaya ki, görüm nəyə qadirdir. Görürsən ki, o fırtınalı dənizdən çıxır. Siz artıq bu fırtınalara tab gətirib sahilə çıxmısınız, bərkimisiniz, ayaq üstə möhkəm dayanırsınız. Bundan sonra da beləcə fəaliyyət göstərəcəksiniz, mən buna tamamilə əminəm.

Mən partiyanın bugünkü gününə çox sevinirəm, təbrik edirəm və ümidvaram ki, Yeni Azərbaycan Partiyası bundan sonra daha da sürətlə inkişaf edəcək, respublikanın demokratik prinsiplər əsasında formalaşan cəmiyyətində, çoxpartiyalı sistemdə özünəlayiq yerini tutacaqdır. Bu, sizdən asılı olacaqdır.

Sizin fəaliyyətiniz haqqında bir neçə kəlmə öz fikirlərimi demək istəyirəm. Tarix göstərir ki, hər bir partiya yarandıqdan sonra inkişaf dövrü keçir. Həmin dövrdə partiyanın daxilində də çəkişmələr olur, ona xaricdən də təzyiqlər göstərilir. Bunlar hamısı olur. Bu, Yeni Azərbaycan Partiyasında da var. Bunların bəzisi obyektiv, bəzisi isə subyektiv xarakter daşıyır. Mənə belə gəlir ki, Yeni Azərbaycan Partiyasının daxilindəki bəzi münaqişələr, çəkişmələr, bir-birindən narazılıq, siyasi hikkələr və s. əksərən subyektiv xarakter daşıyır. Ona görə də məsləhətim bundan ibarətdir ki, hərə özünütənqid baxımından özünə bir nəzər salmalıdır, özü özünü təhlil etməlidir. Bilirsiniz, əgər Yeni Azərbaycan Partiyası bax bu cür ağır şəraitdə, qeyri-adi vəziyyətdə yaranmışdırsa, – bir də deyirəm, onun yaranma prosesi Azərbaycanda yaranmış başqa partiyaların hamısından fərqlidir, – həqiqi həmfikirlər, həqiqi həmkarlar böyük çətinliklərə sinə gərərək toplaşıb bu partiyanı yaratmışlarsa, demək, onun daxilində olan prosesləri də həll edə bilərsiniz. Ona görə də siyasi hikkələrdən uzaqlaşmaq lazımdır, bir-birinə hörmət lazımdır, bir-birinə kömək etmək lazımdır. Ən əsası odur ki, bu ideya məslək üzərində qurulmalıdır. Hər bir partiyaya şəxsi mənafe, şəxsi məqsəd arzusu ilə gələn adamlar bu partiyada daim qala bilmirlər. Partiyaya gələn, onda iştirak etmək istəyən, onun üzvü olan adamlar doğrudan da gərək ideya, məslək əsasında birləşsinlər.

Məsələn, əgər Kommunist Partiyasını götürsək, o, ideya əsasında yaranmışdı. Amma bu proseslər keçdi getdi. Son vaxtlar bu partiya nə üçün nüfuzdan düşdü, nə üçün özü özünü itirdi? Ona görə ki, adı qaldı partiya, amma ondan hərə öz məqsədləri üçün istifadə etməyə çalışdı. Axırda da Kommunist Partiyası belə günə düşdü. Lakin Kommunist Partiyasının ideologiyasının, marksist-leninçi ideologiyanın ümumbəşəri dəyərlərə, ümumdünya proseslərinə nə qədər uyğun olub-olmadığını bir kənara qoyuram. Bu partiyanın tarixini hamınız yaxşı bilirsiniz, – vaxtilə bir yerdə öyrənmişik, – həmin tarixə nəzər salsanız, görərsiniz ki, partiyanı quran adamların tam əksəriyyəti onu ideya əsasında yaradıblar. Onları bu ideya [527-528] birləşdirib. Sonra həmin ideyanın həyata keçirilməsində buraxılan səhvlər, sonralar meydana çıxmış qüvvələrin bu partiyadan cürbəcür məqsədlərlə istifadə etməsi nəticəsində əvvəlki, kökündən yaranmış ideyalar pozuldu və partiya bu günə düşdü.

Mən başa düşürəm, indi respublikanın həyatı çox ağırdır. Siyasi fəaliyyətdə olan adamlar üçün də yaşayış şəraiti lazımdır, həyat şəraiti lazımdır. Onlar böyük çətinliklərlə qarşılaşırlar. Mən bunların hamısını bilirəm. Demək istəmirəm ki, – keçmişdə kommunist ideologiyası belə idi, – sən gərək bir neçə müddət ac yaşayasan ki, gələcək kommunizmdir. Yaxud başqa bir ideologiya var ki, sən gərək bu dünyada əzab çəkəsən ki, o dünyada xoşbəxt olacaqsan. Mən belə fikirləri təbliğ etmək istəmirəm və bunların tərəfdarı deyiləm. Sadəcə olaraq demək istəyirəm ki, biz indi ağır keçid dövründə yaşayırıq. Əgər Yeni Azərbaycan Partiyası bir ideya, məslək ətrafında birləşmişdirsə, həmin ideyanı, məsləki hər şeydən üstün tutmaq lazımdır. Əlbəttə ki, ədalətsizliyə qarşı mübarizə aparmaq lazımdır. Ancaq eyni zamanda çalışmaq lazımdır ki, partiyanın daxilində çəkişmə olmasın, çətinlikləri birlikdə aradan qaldırasınız, məsələləri bərabər həll edəsiniz. Ayrı-ayrı münaqişələr, tək-tək insanların bir-birinə münasibəti partiyanın zəifləməsinə, pozulmasına gətirib çıxarmamalıdır.

Məsələn, son vaxtlar belə söz-söhbət gedir ki, Yeni Azərbaycan Partiyası artıq iflasa uğramışdır, ölübdür, yoxdur. Belə məlumatlan mənə oradan-buradan çoxları gəlib deyir. Bir çox hallarda, məsələn kadrların təyin olunması zamanı mən soruşuram Yeni Azərbaycan Partiyasını. Deyirlər ki, yox, Yeni Azərbaycan Partiyasını təmsil edən adamlar o qədər də yararlı deyillər və s. Mənə, bax, belə sözlər də deyirlər. Şübhəsiz ki, bunlar Yeni Azərbaycan Partiyasını zəiflətmək istəyən, onun gücünü azaltmaq istəyən rəylər, fikirlərdir. Baxmayaraq ki, Yeni Azərbaycan Partiyasının rəhbərliyi ilə sıx əlaqəm yox idi, mən, şübhəsiz ki, bu fikirlərə heç vaxt inanmırdım. Əmin idim ki, Yeni Azərbaycan Partiyası yaşayacaq və müəyyən mərhələlərdən keçərək

daha da möhkəmlənəcək. Ona görə də bəlkə bu mərhələ sizin üçün həm sınaq mərhələsi olsun, həm də Yeni Azərbaycan Partiyasında, xalq arasında deyildiyi kimi, saf-çürük mərhələsi olsun. Yeni Azərbaycan Partiyasına şəxsi məqsədlər üçün gələnlər buna nail olmadıqlarını gördükdə kənara çəkildilər. Kim ideya, məslək yolu ilə gəlibsə, o, bütün çətinliklərə dözür, cəfakeşlik edir, bu gün partiya ilə birlikdədir və inanır ki, bu partiya onun bütün şəxsi istək və arzularını da həyata keçirəcəkdir.

Ona görə də mən bu məsələnin dərinliyinə getmək istəmirəm. Məndə olan məlumatlara görə demək istəyirəm ki, partiyanın daxilində hər halda hamı bir boyda ola bilməz, hamının eyni fikri ola bilməz. Fikir müxtəlifliyi təbii haldır.

Bunu qəbul etmək lazımdır, buna dözmək lazımdır. Başqasının fikrinə hörmət etmək, ondan faydalı bir şey götürmək qabiliyyəti hər bir adama lazımdır. Amma bu fikir müxtəlifliyini, fikir ayrılığını münaqişəyə çevir[528-529]mək, küsmək, çəkinmək lazım deyil, belə şeylər yaramaz. Mən bunu məsləhət görmürəm.

Ona görə mən sizi, bir prezident kimi bütün xalqı da vətəndaş birliyinə, vətəndaş həmrəyliyinə, milli həmrəyliyə dəvət edirəm. Bu, mənim bütün xalqa müraciətimdir. Partiyanın daxilində isə sizin hamınızı tam həmrəyliyə, birliyə dəvət edirəm. Ona görə yox ki, birinin dediyi digəri üçün istər-istəməz qanun olsun, yaxud keçmişdə Kommunist Partiyasında olduğu kimi, yuxarıdan dedilərsə, istəsən də, istəməsən də aşağıda bunu həyata keçirməlisən. Yox, mən buna razı deyiləm. Yeni Azərbaycan Partiyası o halda həqiqi, sağlam, mübariz və doğrudan da görkəmli partiya olar ki, onun daxilində fikir mübadiləsi getsin, fikir toqquşmaları getsin, sağlam prinsiplər əsasında mübarizə getsin, amma düzgün, yaxşı qərarlar qəbul olunsun. Bunlar şəxsi ədavətə və ən nəhayət, bir-birinə qarşı düşmənçiliyə gətirib çıxarmasın. Mənim sizə tövsiyəm, təkliflərim bundan ibarətdir. Güman edirəm ki, partiyanın bu potensialı var və bundan sonra həmin potensialdan istifadə olunacaqdır.

Kadr məsələləri ilə əlaqədar Yeni Azərbaycan Partiyası tərəfindən çox vaxt belə fikirlər deyilir ki, filankəs düz təyin olundu, başqası yox; filan yerə filankəs təyin olunmalı idi, niyə filankəs təyin edildi. Yaxud belə fikirlər var ki, Heydər Əliyev prezidentdir, deməli, hər yerə Yeni Azərbaycan Partiyasının adamları təyin olunmalıdır. Ya da bəzən deyirlər ki, Yeni Azərbaycan Partiyası təqdimat verməlidir. Bilirsiniz, mən bunları qəbul edə bilmirəm. Bu partiyanı yaradanlara nə qədər hörmətim varsa da, deyirəm ki, bunu o qədər də qəbul edə bilmərəm. Nəyə görə? Çünki onda siz bolşevik partiyasının prinsipləri əsasında gedəcəksiniz, onda siz Xalq Cəbhəsinin prinsipləri əsasında gedəcəksiniz. Xalq Cəbhəsinin daxilində çox sağlam qüvvələr də vardı, milli azadlıq hərəkatında iştirak etmiş, sağlam əhval-ruhiyyə ilə mübarizəyə qalxmış adamlar da vardı. Onlar çox idi, bir çoxu indi də var, mən bunları inkar etmirəm. Ancaq bədbəxtlik nədən ibarət idi? Məsələn, bufetdə araq satanı gətirib qoydular icra hakimiyyəti başçısı. Nə var, nə var, o gəlib dedi ki, mən meydanda beş dəfə qışqırmışam, səsim tutulubdur, həkim məni müalicə edib, filan qədər xərcim çıxıb, gərək məni icra başçısı qoyasınız.

Birincisi, siz mənim üçün meydanda çox qışqırmamısınız, əlbəttə, bunu zarafatla deyirəm, məni düzgün başa düşün. Əsas məsələ ondan ibarətdir ki, əgər biz bu prinsipi təkrar etsək, böyük səhvlər buraxmış olarıq. Bir halda ki, Heydər Əliyev xalq tərəfindən seçilmiş prezidentdir, gərək o, xalqın bütün təbəqələrindən istifadə etsin. Siz gərək bunu biləsiniz. Ancaq bu təbəqələrdən istifadə olunmasında buraxılan səhvlərin qarşısını almaqda siz kömək etməlisiniz, sizin içərinizdə olan sağlam, bacarıqlı, peşəkar, ağıllı adamların irəli çəkilməsinə, respublikanın bu vəziyyətdən çıxması üçün kömək göstərmək məqsədi ilə yaxşı yerlərdə işləməsinə çalışmalısınız. Yəni demək istəyirəm ki, Yeni Azərbaycan Partiyasının prinsiplərində və prezidentlə münasibətində keçmiş, necə deyərlər, özünü [529-530] tamamilə ləkələmiş prinsiplərdən kənar olmalıyıq. Biz gərək yeni prinsiplər əsasında əməkdaşlıq edək. Hesab edirəm ki, bu prinsiplər əsasında əməkdaşlıq edərək çox böyük işlərə nail ola bilərik. Yeni Azərbaycan Partiyası özünə layiq yerləri də, vəzifələri də tuta və respublikaya xeyir verə bilər.

Məqsədimiz kimisə mütləq hansı vəzifəyəsə qoymaqdan ibarət deyildir. Məqsədimiz ondan ibarətdir ki, bizim proqramımızda – Yeni Azərbaycan Partiyasının proqramında göstərilən müstəqillik və bütün başqa demokratik prinsipləri – bazar iqtisadiyyatı, iqtisadiyyatın inkişafı prinsiplərini həyata keçirək, bu partiyanın içərisindən, digər təbəqələrdən ən dəyərli, peşəkarlıq baxımından imkanı olan adamları seçib işə qoyaq. Bu işlər yaxşı gedəndə, xalqımızın rifahı yaxşılaşanda, biz bu ağır vəziyyətdən çıxanda Yeni Azərbaycan Partiyasının hər bir üzvünün, lap sıravi üzvünün də vəziyyəti yaxşılaşacaq. Ona görə də xahiş edirəm, bu məsələlərdə də diqqətli olasınız. Məni düzgün başa düşün, mən demək istəmirəm ki, Yeni Azərbaycan Partiyası kənarda qalmalıdır, yox. Ancaq bu məsələlərdə diqqətli olmağınızı xahiş edirəm.

Müxalifətdə olan qüvvələr bəzən, hətta mütəmadi olaraq, bizim gördüyümüz, hakimiyyətin gördüyü işləri ləkələmək istəyirlər. Nə yaxşı iş görürsən, – istəyirlər onu pisləsinlər. Hətta, hansı partiya isə, deyəsən Sosial-Demokrat Partiyasıdır, orada-burada bəyanat vermişdir ki, heç bir dövlət çevrilişi cəhdi olmamışdır, sadəcə olaraq, Heydər Əliyev öz hakimiyyətini möhkəmləndirmək üçün bunu etmişdir. Bilirsiniz, bu dərəcədə vicdansızlıq etmək xalqa xəyanətdən başqa bir şey deyildir. Əgər dövlət çevrilişi cəhdi olmamışsa, bəs bu adamlar niyə qaçdılar? Əgər çevriliş etmək istəmirdilərsə, cinayət törətməmişdilərsə, nə üçün qaçdılar? İndi qaçıb bir hissəsi Moskvada, bir hissəsi orada-burada yığışmışdır. Necə yəni dövlət çevrilişi cəhdi olmayıb?

Olub! Bax burada, necə deyərlər, xoruzun quyruğu görünür. Dövlət çevrilişinə cəhd göstərən əsas təşkilatlardan birinə – Gəncədə quldurlar, cinayətkarlar tərəfindən yaradılmış "Nicat" təşkilatına Sosial-Demokrat Partiyası pul keçirir, onun fəaliyyətində iştirak edirdi. Əlbəttə, demək, bu da dövlət çevrilişi cəhdinə müəyyən qədər, dolayısı ilə, yaxud da birbaşa köməkdir. Ona görə də, şübhəsiz ki, onlar belə yazacaqlar.

Azərbaycanda siyasi plüralizm varsa, demək, siyasi müxalifət olmalıdır. Siyasi müxalifətin olması hər bir dövləti həm totalitarizmdən xilas edir, həm də dövlət siyasətinin aparılmasında dövləti daha da sayıq saxlayır. Ona görə də siyasi müxalifət olmalıdır. Siyasi müxalifətin, əlbəttə ki, sivilizasiyalı müxalifətin yaranması üçün prezident kimi mən bundan sonra da səy göstərəcəyəm. Amma biri var ki, siyasi müxalifət ədalətli olsun, biri də var ki, böhtançı, yalançı, xalqın beynini zəhərləyən müxalifət. Biz bununla razılaşa bilmərik. Bu baxımdan gərək Yeni Azərbaycan Partiyasında olan adamlar əgər nədənsə, hansı hərəkətdənsə narazıdırlarsa, bunu mədəni çərçivədə desinlər. Yaxud, bir yerə kimsə təyin olunur, Yeni [530-531] Azərbaycan Partiyasından kimsə deyir ki, bu adam yaramazdır, nə bilim nədir, ondan filan qədər rüşvət alıblar. Axı belə fikirləşmək olmaz. Azərbaycanda rüşvətxorluq var. Mənim də ən böyük vəzifəm ondan ibarətdir ki, rüşvətxorluqla mübarizəni daha da gücləndirim.

Bilirsiniz ki, hələ 25 il bundan əvvəl mən ilk dəfə Azərbaycanın başçısı seçiləndə ilk addımlarım rüşvətxorluqla mübarizə olmuşdur. İndi rüşvətxorluq geniş yayılmışdır, özü də təkcə Azərbaycanda yox, hər yerdə. Ancaq başqa yerlərin bizə dəxli yoxdur, biz öz dövlətimiz haqqında düşünməliyik. Rüşvətxorluqla mübarizədə birləşmək əvəzinə, bir də görürsən ki, orada-burada söz-söhbət gedir: hə, filan qədər rüşvət alıb vəzifəyə qoydular. Bunu müxalifət deyirsə, bu başqa məsələ. Doğrudan da belə məlumat varsa, gəlin deyin, bunu yoxlayaq. Əgər belə bir hadisə olubsa, onun qarşısını alaq. Amma belə fikirləri yaymaq yaxşı deyil, bunlar yaramaz.

Mətbuatın xidməti barədə də danışmaq istəyirəm. Yeni Azərbaycan Partiyasının mətbuat orqanlarından biri "Səs" qəzetidir. Mən bu qəzetin xidmətlərini xüsusi qiymətləndirirəm. Çünki, səhv etmirəmsə, hələ 1990-cı ildə yaranmış "Səs" qəzeti o vaxtdan düzgün, sağlam mövqedə dayanmışdır və bu yolla da gedir. O vaxt Yeni Azərbaycan Partiyası yox idi. O zaman ki, mən Naxçıvanda işləyirdim və Bakıda bəzi dairələrdə Naxçıvana qarşı ədalətsiz hərəkətlər olurdu, "Səs" qəzeti cəsarətlə, çox ağıllı şəkildə məqalələr yazır, öz fikirlərini deyirdi, ictimaiyyətdə düzgün fikirlər formalaşmasına səy göstərirdi. Yenə deyirəm, buna görə də mən "Səs" qəzetinin fəaliyyətini yüksək qiymətləndirirəm.

O vaxt "İki sahil" qəzeti yaranmışdı. Mən hesab edirəm ki, bu qəzet də çox iş görmüşdür. Bu qəzet indi də Yeni Azərbaycan Partiyasına xidmət edir. Amma o vaxt bu partiya yox idi, lakin "İki sahil" qəzeti çox cəsarətli məqalələr verirdi. Mən təkcə Naxçıvanı götürmürəm, ədalətsiz hadisələrə qarşı Azərbaycanın ayrı-ayrı vətəndaşlarının, ziyalılarının fikrini dərc etməkdə bu qəzet yaxşı fəaliyyət göstərmişdir, indi də göstərir. Mən bunu da yüksək qiymətləndirirəm.

Məsələn, "Naxçıvan" qəzeti də yaranmışdır. Mən sizə açıq deyirəm, Naxçıvanda Ali Məclisin sədri idim, lakin bu qəzetin necə yaranmasından, onu kimin yaratmasından xəbərim olmadı. İndi kim isə deyə bilər ki, o, Heydər Əliyevin əli ilə yaradılmışdır. Vallah-billah yox! Birincisi, bu qəzetləri yaratmaq üçün pul lazımdır. Bilirsiniz ki, mənim heç vaxt pulum olmamışdır, həmişə kasıb yaşamışam. İkincisi də, Naxçıvanda olarkən mən birtəhər oranı qoruyub saxlamaq istəyirdim. Belə bir vəziyyətdə Bakıda qəzet yarat, adını da "Naxçıvan" qoy, – mənim bundan heç xəbərim də olmamışdır. Bir də eşitdim ki, Bakıda "Naxçıvan" qəzeti yaranıb. Onu yenə də ürəyi yanan, doğrudan da cəsarətli insanlar yaratmışlar. Allah rəhmət eləsin bizim Mirzə Əsgərov məndən xəbərsiz bu işdə təşəbbüs göstərdi. Naxçıvana gəlib mənə dedi ki, belə qəzet yaratmışıq. Düzü, əvvəl buna inanmadım, sonra gördüm ki, qəzet fəaliyyət göstərir, yaxşı məqalələr verir. Yeni Azərbaycan Partiyası yaranandan sonra bu qəzet ona [531-532] xidmət edir. Mən hesab edirəm ki, bu da Yeni Azərbaycan Partiyasının qəzetidir.

Partiya yaranandan sonra belə fikir oldu ki, partiyanın xüsusi bir orqanı olsun. Adı barədə çox fikirləşdilər və nəhayət, "Yeni Azərbaycan" qəzeti yarandı. Burada Əli Nağıyev bu qəzet barədə öz iradlarını bildirdi. Bilirsiniz, bu qəzet də yeni yaranmışdır. Doğrusu, qəzetləri oxumağa mənim vaxtım, imkanım yoxdur. Zənnimcə, bunu üzürlü hesab etməlisiniz. Bəzən hansı qəzetdə nə yazılması barədə mənə qısaca, üç-dörd dəqiqəlik məlumat verirlər. Ancaq mən bu fikirlə razıyam ki, "Yeni Azərbaycan" qəzeti öz səviyyəsinə görə adını çəkdiyim o biri üç qəzetin səviyyəsindən aşağıdır. Mən bunu etiraf etməliyəm. Ancaq bu o demək deyildir ki, "Yeni Azərbaycan" qəzeti Yeni Azərbaycan Partiyasının orqanı olduğu halda, burada ixtilaf yaratmaq lazımdır. Kömək etmək lazımdır ki, "Yeni Azərbaycan" qəzeti səviyyəsini daha da qaldırsın.

Mən "Səs", "Naxçıvan", "İki sahil" və "Yeni Azərbaycan" qəzetləri haqqında bu müsbət fikirləri deyərkən eyni zamanda hesab etmirəm ki, bu qəzetlər indiki müasir səviyyədə fəaliyyət göstərir. Onların imkanı var ki, daha güclü təbliğat orqanlarına çevrilsin, öz ətrafına daha güclü müxbirlər toplasın, daha güclü məqalələr dərc etsin. Mənə belə gəlir ki, məqalələr də əsasən respublikada gedən ictimai-siyasi prosesləri düzgün təhlil etmək və respublikada vəziyyəti qarışdırmağa, pozmağa çalışan, Azərbaycanı bu çətin, ağır vəziyyətdən çıxarmaqda bizə mane olan qüvvələri ifşa etmək, özü də sözçülüklə yox, ayrı-ayrı kəskin ifadələrlə yox, məntiqlə, təhlillə, dərin fikirlərlə ifşa etmək mövqeyindən yazılmalıdır. Beləlikdə də, bu qəzetlər əhalini,

respublikanın vətəndaşlarını düzgün istiqamətə yönəltməlidir. Ona görə də mən yenə deyirəm, bu qəzetlərin fəaliyyətini, xüsusən onların keçmişdəki fəaliyyətini xüsusi qiymətləndirirəm və arzu edirəm ki, onlar öz fəaliyyətlərini daha da genişləndirsinlər.

Azərbaycanda gedən prosesləri bilirsiniz. Respublika çox ağır vəziyyətdədir. Son 6-7 ildə respublika iqtisadi cəhətdən, ictimai-siyasi vəziyyət baxımından o qədər çətinliklərə düşüb ki, onu bu çətinliklərdən çıxarmaq bir günün, iki günün işi deyildir. Yadımdadır, mən iyun ayında Bakıya gələndə xarici müxbirlərin bir neçəsi mənə dedi ki, xalq sizdən möcüzələr gözləyir. Mən başa düşürəm, xalq doğrudan da, həmişə möcüzələr gözləyir. Çünki xalq o qədər ağır vəziyyətdədir ki, bu vəziyyətdən çıxmaq üçün istəyir hansısa bir möcüzə olsun. Xüsusən Heydər Əliyev haqqında düşünərkən və onun keçmiş fəaliyyətini, ümumiyyətlə siyasi imkanlarını, təcrübəsini və sairəni nəzərə alarkən hesab edirlər ki, Heydər Əliyev bunu mütləq etməlidir, onu mütləq etməlidir, bu işi görməlidir.

Bəli, mən öz məsuliyyətimi bilirəm və hesab edirəm ki, bunları etməliyəm. Ancaq, bilirsiniz, bunu bir də deyirəm: mən gəlib nə prezident olmaq, nə burada respublikaya rəhbərlik etmək arzusunda olmuşam. Mən siyasətdən tamamilə geri çəkilmiş adam idim. Tale məni buraya bir də gətirdi. Buraya mən özümə görə yox, vəzifə tutmağa görə yox, xalqı bu vəziyyətdən xilas etmək üçün gəlmişəm. Burada işlədiyim birinci gündən [532-533] indiyə qədər nə gecəm var, nə də gündüzüm, bütün həyatım buna sərf olunmuşdur. Nə mümkündürsə, onu da edirik və nə mümkündürsə, onu da edəcəyik.

Ancaq bunların hamısını adamlara düzgün izah etmək lazımdır. Bir də insanlarda müəyyən qədər dözüm yaratmaq lazımdır. Bu da sizin borcunuzdur. Məsələn, təsəvvür edin, iyun ayında Azərbaycan parçalanma ərəfəsində idi, vətəndaş müharibəsi idi, qan tökülürdü. Azərbaycanı artıq parçalamışdılar. Məgər bunun qarşısının alınması, Azərbaycanın bütövlüyünün saxlanması böyük hadisə deyilmi? Mən demək istəmirəm ki, buna böyük qiymət vermək lazımdır, yox. Əgər mən buraya gəlmişdimsə, bu, mənim borcum idi. Mən bu borcumu yerinə yetirirdim və heç kəsə də minnət qoymuram.

Sonrakı dövrü götürək. Surət Hüseynovu gətirib o mərtəbəyə çıxaran mən deyildim ki! Onun quldur dəstələrinə toplaşmağa imkan verən, ona belə imkanlar yaradan həmin o hakimiyyət oldu ki, o, onun əleyhinə çıxdı, münaqişəyə girdi. Rəhim Qazıyevi götürün, onun kimi adam Azərbaycan xalqının qatı düşmənidir. Amma uzun müddət meydanlarda, orada-burada, televiziyada və sairədə xalq qəhrəmanı kimi görünürdü. Bunlar hamısı birləşmişdilər. Cənub zonasını dağıdan kim idi? Təkcə Əlikram Hümbətov deyildi ki, Surət Hüseynov idi, Rəhim Qazıyev idi, Ayaz Mütəllibov idi. Nədən ötrü? Çünki onlar üçün millət, xalq, Azərbaycan, ölkə məfhumu yoxdur. Onlar oğru, cinayətkar, Azərbaycan xalqının qanını sormuş adamlardır. Onlar beləliklə öz hakimiyyətlərini təmin etmək istəyirdilər.

Bəs bunların qarşısının alınması? Əbülfəz Elçibəy bir dəfə Kələkidən mənimlə telefonla danışarkən soruşdu ki, niyə Rəhim Qazıyev Milli Məclisdə onun haqqında belə çirkin sözlər deyir, siz ona imkan verirsiniz? Mən dedim ki, Əbülfəz bəy, bəs o, neçə vaxt sizin qanadınızın altında sizə, sizin üzünüzə çirkin sözlər deyəndə onu işdən çıxarmağa, həbs etməyə niyə cəsarətiniz çatmadı? Mən isə bunu etdim.

Mən bu dövrü təhlil etmək fikrində deyiləm. Ancaq biz nə qədər çətinliklərdən gəlib keçdik. Bir dəstəni cənubda ləğv etmək, birini həbs etmək, digərini həbs etmək, onun qarşısını almaq, bunun qarşısını almaq... Müxalifətdə olan ayrı-ayrı qüvvələr də, – əgər onlar sağlam müxalifətdirsə, gərək belə etməsinlər, – ondan da, bundan da istifadə edərək yalnız və yalnız hakimiyyətə gəlmək üçün aranı qarışdırmaq istəyirlər. Bu da axı, Azərbaycan üçün təhlükədir. Bunların qarşısını almaq asan məsələ deyildir.

Son iki-üç ayı götürək. Burada Əli Nağıyev dedi ki, biz xəbərdarlıq edirdik. Bəli, biz özümüz də bilirdik ki, cürbəcür qüvvələr toplaşır, birləşir. Hətta keçmişdə bir-birinə zidd olan qüvvələr birləşir, əlaqəyə girirdi ki, nə var, nə var, Heydər Əliyevi hakimiyyətdən uzaqlaşdırsınlar. Bun[533-534]dan sonra hakimiyyəti özləri bölüşdürəcəkdilər. Bunu biz bilirdik. Ancaq görürsünüz ki, onlar istədiklərinə nail ola bilmədilər. Şübhəsiz, ola bilərdi ki, biz daha da kəskin tədbirlər görərdik. Ola bilərdi. Ancaq siz gördünüz ki, biz neft müqaviləsini imzalayan kimi, sentyabrın 22-də Rəhim Qazıyevi, Əlikram Hümbətovu qaçırtdılar. Onlar özləri qaçmadılar, bunu təşkil etdilər. Sentyabrın 29-da Afiyəddin Cəlilovu və Şəmsi Rəhimovu öldürdülər. Oktyabrın 1-də proseslər başlandı və ayın 4-5-də artıq gəlib kulminasiya nöqtəsinə çatdı. Bunların da qarşısını aldıq.

Yeni Azərbaycan Partiyasının bu dövrdə, Azərbaycan Respublikası dövlətçiliyinin böyük təhlükə qarşısında olduğu bir dövrdəki fəaliyyətini mən yüksək qiymətləndirirəm və sizə, Yeni Azərbaycan Partiyasının bütün üzvlərinə bu proseslərdə Azərbaycanın dövlətçiliyini qorumaq üçün gördüyünüz işlərə görə təşəkkür edirəm. Sağ olun.

Eyni zamanda biz hamımız onun şahidi olduq ki, həmin o gecə mənim müraciətimlə bütün Azərbaycan ayağa qalxdı. Mən bu gün tam qətiyyətlə deyirəm ki, o çevriliş cəhdinin qarşısını biz silah gücünə yox, ordunun, inzibati orqanların gücü ilə yox, bəzən onların arasında satqınlar olduğu halda belə, ancaq xalqın milli həmrəyliyi ilə və xalqın Azərbaycan dövlətçiliyini qorumaq üçün ayağa qalxması ilə, xalqın Azərbaycan prezidentinə göstərdiyi hörmət və sədaqət ilə aldıq.

İndi ayrı-ayrı qruplar yenə orada-burada baş qaldırmaq istəyirlər. Qaçanlar gedib Moskvada yığışıblar, Rəhim Qazıyev də, Surət Hüseynov da oradadır. Mütəllibov əvvəldən oradadır. Onlar buraya emissarlarını

göndərirlər və s. Bilirsiniz, Azərbaycanın belə ağır vəziyyətdə olduğu halda, xalqın müqəddəratını ayrı-ayrı qrupların mənafeyinə, necə deyərlər, qurban vermək istəyən adamlar Azərbaycanın xain düşmənləridir.

Təsəvvür edin, bu ağır vəziyyətdən çıxmaq üçün altı aydır ki, atəş dayandırılmışdır. İndi mən bunları demək istəmirəm, çünki bunlar bizim daxili işlərimizdir, bunları sadalamağa ehtiyac yoxdur. Biz nə qədər ağır danışıqlar aparırıq ki, məsələni sülh yolu ilə həll edək, müharibə qurtarsın. Altı il gedən müharibədə ilk dəfədir ki, altı aydır qan tökülmür, şəhidlər gəlmir. İnsanlar ağır da olsa, çətin vəziyyətdə də olsa heç olmasa sülh şəraitində yaşayırlar. Ancaq biz hesab etmirik ki, vəzifəmiz bununla qurtarmışdır, yox. Biz torpaqları azad etməliyik, qaçqınları öz yerlərinə qaytarmalıyıq, Azərbaycanın ərazi bütövlüyünü təmin etməliyik. Bu, asan məsələ deyildir. Ona görə asan məsələ deyil ki, 1988-ci ildən başlayaraq, bu problem meydana çıxan kimi dalbadal buraxılan səhvlər Azərbaycanı gətirib belə bir fəlakət vəziyyətinə çıxarmışdır. Ona görə asan məsələ deyil ki. Azərbaycanın başqa dövlətlər tərəfindən müdafiə olunması ilə Ermənistanın müdafiə olunması arasında böyük fərq var. Ermənistanın hələ böyük dövlətlər tərəfindən aldığı dəstəkdən savayı, nə qədər böyük diasporu var: Avropada, Amerikada, Rusiyada, Moskvanın özündə, Rusiyanın hər yerində.

Biz üz-üzə durmuşuq, amma eyni vəziyyətdə deyilik. Birinci ona görə ki, Ermənistanı müdafiə edən qüvvələr bizi müdafiə edən qüvvələrdən [534-535] qat-qat çoxdur. İkinci ona görə ki, üstünlük onlardadır, torpaqlarımızın 20 faizini işğal ediblər. Nə üçün işğal ediblər? 1988-ci ildən bəri gedən proseslərin nəticəsində. İndi kimsə ölçür ki, hansı rayon nə vaxt əldən gedib. Bu rayonların hamısı artıq 1991-ci ildə, 92-ci ildə əldən getmişdi. Hamısı əldən getmişdi.

Ona görə də indi bu vəziyyətdən çıxmaq üçün, işğal olunmuş rayonlarımızı geri qaytarmaq, yəni Ermənistan silahlı qüvvələrini oradan çıxarmaq üçün böyük siyasi işlər görülməlidir. Məsələn, mən Moskvaya getdim. Təsəvvür edin, səhər Moskvaya uçmuşam, gecə saat 5-də buraya qayıtmışam. Hər bir səfərim belədir. Keçən dəfə, oktyabrın 21-də səhər uçdum Moskvaya, gecə saat 1-də buraya qayıtdım. Bir dəqiqəm də boş olmadı. Noyabrın 17-də də orada bir dəqiqəm belə boş keçmədi. Boris Yeltsinlə görüşlər, danışıqlar, başqa şəxslərlə görüşlər, danışıqlar oldu. Nəhayət, Füzulinin yubileyi. Onun da böyük əhəmiyyəti var idi. Bəli, Məhəmməd Füzulinin 500 illik yubileyi Rusiyanın paytaxtı Moskvada keçirildi. Bu da Azərbaycanın təbliğ olunması üçün, onun doğrudan da müstəqil dövlət olması üçün böyük bir hadisədir. Mən oradakı çıxışımda dedim, vaxtı ilə Moskvada belə yubileyləri çox keçirmişik. Ancaq bu, Sovet İttifaqı vaxtında idi. İndi, müstəqil Azərbaycan Respublikasının dahi şairi Məhəmməd Füzulinin yubileyi başqa bir ölkədə, Rusiyanın paytaxtı Moskvada keçirildi. Bunlar hamısı bizim gecə-gündüz gördüyümüz gərgin işlərdir.

Belə bir vəziyyətdə bir qrup orada, bir qrup burada toplaşır ki, aranı qarışdırsın. Yenə də məlumat gəlmişdir ki, kimsə çevriliş etmək istəyir, kimsə silahlı qüvvələr toplayır və sairə. Yəni biz belə bir şəraitdə yaşayırıq. Belə bir şəraitdə prezident kimi mən Azərbaycanın rəhbərliyini öz üzərimə götürmüşəm. Məsuliyyətimi də bilirəm, çətinliyi də əvvəldən dərk etmişəm. Amma siz də bilməlisiniz, bütün xalq da bilməlidir ki, nə qədər böyük çətinliklər, problemlər var. Ancaq əmin ola bilərsiniz, heç bir qüvvə Azərbaycanın müstəqilliyini əlindən ala bilməyəcəkdir.

Dövlət çevrilişinə cəhd etmiş adamlar dərsini aldılar. Əgər kim bunu anlamamışsa, yenə də belə əhval-ruhiyyə ilə yaşayırsa, ayılsın, bilsin: onların heç birisi burada öz çirkin əməllərini həyata keçirməyə nail olmayacaq. Əbəs yerə qan tökmək lazım deyil və biz də buna yol verməyəcəyik. Azərbaycanın dövlətçiliyini, müstəqil Azərbaycan Respublikasının istiqlaliyyətini, Azərbaycanda indi bərqərar olan sabit ictimai-siyasi vəziyyəti qoruyacaq və mən bir prezident kimi bütün bu müqəddəs vəzifələrin keşiyində dayanmışam.

Bu gün sizin qarşınızda çıxış edərək eyni zamanda bir daha bütün Azərbaycan xalqına, bütün Azərbaycan vətəndaşlarına müraciət edirəm. [535-536] Sizdən də rica edirəm ki, hərəniz öz yerinizdə təkcə partiya üzvlərinə yox, bütün vətəndaşlara çatdırasınız ki, Azərbaycan üçün indi milli həmrəylik, vətəndaş həmrəyliyi, birliyi hava-su kimi lazımdır. Mən bir prezident kimi bu birliyi, həmrəyliyi təmin etməyə çalışacağam. Güman edirəm ki, Yeni Azərbaycan Partiyası da öz siyasi fəaliyyətini bundan sonra da bu istiqamətdə aparacaqdır və hamımız birlikdə bu çətinliklərdən çıxacağıq. Tam əminəm ki, biz müstəqil Azərbaycan Respublikasının xoşbəxt gələcəyinə nail olacağıq.

Yeni Azərbaycan Partiyasının yaranmasının ikinci ildönümü münasibətilə sizi bir daha təbrik edirəm, hər birinizə, partiyanın bütün üzvlərinə cansağlığı, xoşbəxtlik arzulayır, partiyanın gələcək işlərində uğurlar diləyirəm. Sağ olun. [536-537]

**ALMANİYA FEDERATİV RESPUBLİKASININ FEDERAL KANSLERİ ZATİ-ALİLƏRİ HELMUT KOL CƏNABLARINA**

Hörmətli cənab federal kansler!

Almaniya Federativ Respublikasının federal kansleri vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edir, sizə xoşbəxtlik, firavanlıq və bu yüksək vəzifədə uğurlar arzulayıram.

Ölkələrimiz arasında dostluğun və əməkdaşlığın inkişafının böyük əhəmiyyəti vardır. Mən əminəm ki, Azərbaycan ilə Almaniya arasında xoş münasibətlər Sizin fəal köməyiniz sayəsində daha da möhkəmlənəcək və inkişaf edəcəkdir. Biz də bunun üçün əlimizdən gələni əsirgəməyəcəyik.

Hörmətlə,

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*21 noyabr 1994-cü il* [537-538]

**TACİKİSTAN RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ İMAMƏLİ RƏHMANOV**
**CƏNABLARINA**

Hörmətli cənab prezident!

Sizi Tacikistanın prezidenti seçilməyiniz münasibətilə səmimi təbrik edirəm. Sizə və bütün tacik xalqına sülh, sabitlik və tərəqqi arzulayıram. Əminəm ki, ölkələrimiz arasında dostluq və əməkdaşlıq qardaş xalqlarımızın rifahı naminə bundan sonra da inkişaf edəcəkdir.

Hörmətlə,

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasını Prezidenti**

*21 noyabr 1994-cü il* [538-539]

**MƏMMƏD ƏMİN RƏSULZADƏ ADINA**
**BAKI DÖVLƏT UNİVERSİTETİNƏ**

Respublikamızın ilk ali təhsil ocağı – Bakı Dövlət Universitetinin 75 ili tamam olur. Əsrin əvvəlindən bu günə kimi Azərbaycan elminə və maarifinə çıraq tutan universitetimizin yaradılması xalqımızın tarixində ən əlamətdar mədəni hadisədir.

Bakı Dövlət Universiteti qısa ömürlü Azərbaycan Demokratik Respublikasının qiymətli yadigarıdır. Bu müqəddəs təhsil və elm ocağının qoynundan pərvazlanmış dünya şöhrətli elm və zəka sahiblərinin, müəllim və pedaqoqların qaynar və mənalı ömürləri millətimizin fəxridir.

75 illik fəaliyyət dövründə xalqımıza sədaqətli xidmətin rəmzinə çevrilmiş bu möhtəşəm ali məktəbimiz neçə-neçə nəslin vətənpərvərlik, xalqına məhəbbət ruhunda tərbiyə edilməsində əvəzsiz rol oynamışdır. Torpağına, mənliyinə, varlığına təcavüz edilən Azərbaycanın bu ağır çağında onun suverenliyi və toxunulmazlığı keşiyində duran qeyrətli övladlarımız sırasında Bakı Dövlət Universitetinin məzunları və tələbələri də vardır. İnanıram ki, gənc Azərbaycan dövləti məhz bu saf əqidəli, dərin bilikli, geniş dünyagörüşü, mətin və dönməz gənclərimizin fəaliyyəti sayəsində öz müstəqilliyini əzmlə qoruyacaq, dünyanın ən qüdrətli dövlətlərindən birinə çeviriləcəkdir.

Ömürlərini məşələ çevirib gənc nəslin təlim-tərbiyəsində qətrə-qətrə əridən professor və müəllim heyətini, Azərbaycanın sabahının etibarlı təminatçısı olan bugünkü tələbələri, qəlbində universitet sevgisini əbədi yaşadan məzunları, respublikamızın elm və maarif xadimlərini, ziyalılarını – belə bir əzəvsiz milli sərvətin sahibi olan bütün Azərbaycan xalqını bu gün Bakı Dövlət Universitetinin şanlı 75 illik yubileyi münasibətilə ürəkdən təbrik edir, işıqlı sabahlar naminə hamıya cansağlığı və uğurlar diləyirəm. Əsrin əvvəlində universitetin yaradılmasında misilsiz xidmətlər göstərmiş və onun beşiyi başında durmuş nurlu şəxsiyyətləri də bu yubiley günündə minnətdarlıqla yad etməyi özümə borc bilirəm.

Əminəm ki, Bakı Dövlət Universiteti öz zəngin ənənələrinə bundan sonra da sadiq qalacaq, elm və təhsil məbədi kimi sabaha uzanan yollara gur işıq salacaqdır. Ona bu yolda uğurlar arzulayıram.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasını Prezidenti**

*25 noyabr 1994-cü il* [539-540]

**MƏMMƏD ƏMİN RƏSULZADƏ ADINA BAKI DÖVLƏT UNİVERSİTETİNİN 75 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİMDƏ NİTQ**

*26 noyabr 1994-cü il*

*Respublika Sarayı*

Hörmətli xanımlar və cənablar, əziz müəllimlər, tələbələr, hörmətli qonaqlar! Sizi, bütün Azərbaycan xalqını Məmməd Əmin Rəsulzadə adına Bakı Dövlət Universitetinin yaradılmasının 75-ci ildönümü münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan xalqı bəşər tarixinə böyük, dəyərli, dahi simalar bəxş etmiş, onların əsərləri, yaradıcılığı dünya elmini, mədəniyyətini zənginləşdirmiş, insanları maariflәndirmişdir, maarifçilik Azərbaycanın mütəfəkkir adamlarının əsas vəzifəsi olmuş və xalqımızın görkəmli simaları bu sahədə tarix boyu böyük xidmətlər göstərmişlər. Ancaq Azərbaycan xalqının geniş miqyasda, kütləvi surətdə maariflənməsi, təhsillənməsi, savadlanması prosesi XX əsrin əvvəlindən başlanmışdır. Bu prosesdə Azərbaycanın ilk ali məktəbinin – Bakı Dövlət Universitetinin yaranması tarixi, əlamətdar bir hadisədir. Bakı Dövlət Universiteti 75 illik tarixi ərzində Azərbaycan xalqı qarşısında, Azərbaycan Respublikası qarşısında böyük xidmətlər göstərmiş və Azərbaycanın indi bu yüksək səviyyəyə gəlib çatmasında böyük işlər görmüşdür.

Bakı Dövlət Universiteti Azərbaycan xalqının, Azərbaycan Respublikasının milli sərvətidir, milli iftixarıdır və onun 75 illik yubileyi bütün Azərbaycan xalqının böyük bayramıdır.

Bakı Dövlət Universitetinin yaranmasında ilk Azərbaycan Demokratik Respublikasının böyük xidmətləri olmuşdur. Eyni zamanda əsrin əvvəlində Azərbaycanda ilk ali təhsil ocağının yaranması o dövrdə gedən tarixi proseslərin zərurətindən doğan bir hadisədir. 75 il ərzində universitet Azərbaycanın həyatının bütün sahələrinə həm təsir göstərmiş, həm də bütün hadisələrin inkişafında iştirak etmişdir. 80 min nəfər adam, azərbaycanlı, gənc bu universitetdə ali təhsil almış, öz xalqına, öz torpağına, Öz millətinə xidmət etmiş və edir.

Bakı Dövlət Universitetinin xidmətləri haqqında geniş danışıldı. Mən onu qeyd etmək istəyirəm ki, Azərbaycanda ali təhsilin, ümumi təhsilin, elmin, mədəniyyətin, iqtisadiyyatın inkişafında Bakı Dövlət Universitetinin xidmətləri əvəzsizdir. Universitetin 75 illik tarixi Azərbaycan Res[540-541]publikasının elminin, mədəniyyətinin, təhsilinin inkişaf tarixidir. Bakı Dövlət Universitetinin Azərbaycanda ali təhsilin inkişafı sahəsindəki xidmətlərini xüsusi qeyd etmək lazımdır. İndi Azərbaycan böyük ali təhsil ölkəsidir. Xalqımızın hamısı savadlıdır. Bu 75 il müddətində xalqımızın savadlanmasında, eyni zamanda təhsilin yaranmasında, inkişafında böyük işlər görülmüşdür. Yeni-yeni təhsil ocaqlarının – ali məktəblərin, universitetlərin yaranması indi müstəqil Azərbaycan Respublikasının böyük ali təhsil potensialına malik olmasının əsasını qoymuşdur. Əgər bu 75 il ərzində həmin işlər görülməsəydi, indi müstəqil Azərbaycan Respublikası özünün böyük elmi, mədəni, intellektual potensialı ilə fəxr edə bilməzdi.

Azərbaycan elmi dünyanın qabaqcıl elmləri sırasındadır. Onun inkişafında Bakı Dövlət Universitetinin fəaliyyəti əvəzsizdir. Bakı Dövlət Universiteti yarandığı gündən Azərbaycanda elmi inkişaf etdirən mərkəzə çevrilmişdir. Sonrakı dövrlərdə Azərbaycanda yaranmış elmi tədqiqat institutlarının əksəriyyəti, elmi ocaqların hamısı öz başlanğıcını Bakı Dövlət Universitetindən götürmüşdür. Təsadüfi deyil ki, 1945-ci ildə Azərbaycanda ilk Dövlət Milli Akademiyasının yaranması da Bakı Dövlət Universitetinin və onun əsasında, onun şaxələri olaraq yaranmış başqa ali məktəblərin yetişdirdiyi alimlərin fəaliyyəti nəticəsində mümkün olmuşdur. Ona görə də biz Bakı Dövlət Universiteti haqqında danışanda Azərbaycanın həm elmini, həm təhsilini, həm mədəniyyətini, həm də bütün xalqımızın savadlanmasını düşünürük.

75 il ərzində Bakı Dövlət Universitetində bir çox müəllim, professor nəsilləri fəaliyyət göstərmiş, bizim ali məktəbimizi, ali təhsilimizi, elmimizi inkişaf etdirmiş, böyük xidmətlər göstərmişlər. Ona görə bu gün – bu bayram, yubiley günü həm Bakı Dövlət Universitetinin əsasını qoyanları, həm də 75 il ərzində universitetin inkişaf etməsində xidmət göstərənləri böyük hörmət hissi ilə yad edirik. Mən Bakı Dövlət Universitetində fəaliyyət göstərmiş, xidməti olan şəxslərin hamısına Azərbaycan dövləti adından təşəkkürümü, minnətdarlığımı bildirirəm.

Bakı Dövlət Universiteti yarananda Azərbaycanın milli kadrları az idi, demək olar ki, yox idi. Ona görə də təsadüfi deyil ki, ilk milli Azərbaycan Demokratik Respublikası Bakıda dövlət universitetinin təşkili üçün Rusiya alimlərini dəvət etmiş və onların xidmətləri ilə Bakıda dövlət universiteti yaranmışdır. Dövlət universitetinin ilk rektoru Razumovski, ondan sonra Devidenko, daha sonra Qulyayev olmuşdur. Ancaq 1926-cı ildə Bakı Dövlət Universitetinin rektoru bizim həmvətənimiz, məşhur şəxsiyyət Tağı Şahbazi təyin edilmişdir.

Bakı Dövlət Universiteti yaranan vaxt qəbul olunan tələbələrin əksəriyyəti azərbaycanlı olmamışdır. Ancaq sonrakı dövrlərdə azərbaycanlı gənclər savadlanmış, universitet təhsili almışlar. Bu gün burada qeyd

edildi ki, hazırda universitetin tələbələrinin 90 faizi azərbaycanlılardır. Yəni Bakı Dövlət Universiteti mürəkkəb tarixi bir yol keçmişdir. Onu yaradanlar da Azərbaycan xalqına böyük xidmətlər göstərmiş və sonrakı mərhələlərdə universiteti inkişaf etdirənlər də, fəaliyyət göstərənlər də Azər[541-542]baycan Respublikasına çox xidmətlər etmişlər. Ona görə də biz 75 il ərzində universitetin həyatında fəaliyyət göstərən adamların hamısının işlərini yüksək qiymətləndirməliyik.

Siz, yəni universitetin müəllimləri, tələbələri elmi konfranslar keçirmisiniz, universitetin tarixini təhlil etmisiniz. Ancaq mən bir-iki nöqtəyə toxunmaq istəyirəm. Bakı Dövlət Universitetinin bütün digər xidmətləri ilə yanaşı, Azərbaycan xalqının ana dilinin inkişafındakı xidmətlərini xüsusi qeyd etməliyik. Universitet yaranarkən müəllimlərin əksəriyyəti azərbaycanlı olmamışdır. Ancaq sonrakı mərhələlərdə universitet Azərbaycanda xalqımızın ana dilinin inkişaf etməsi üçün, təbliğ olunması üçün böyük işlər görmüşdür. Biz indi müstəqil dövlət kimi, azad xalq kimi öz ana dilimizlə, Azərbaycan dili ilə fəxr edirik. Ancaq əgər keçmişə nəzər salsaq, bu gün zəngin, yüksək mədəni səviyyədə olan, çox geniş söz ehtiyatına malik olan ədəbi, mədəni dilimiz həmişə belə olmamışdır. Onu yaradanlar olub, elmi əsasını quranlar olub, inkişaf etdirənlər olub. Bu, müstəqil Azərbaycanın, Azərbaycan xalqının ən böyük milli sərvətidir. Hər bir xalq öz dili ilə yaranır. Ancaq xalqın dilini yaşatmaq, inkişaf etdirmək və dünya mədəniyyəti səviyyəsinə çatdırmaq xalqın qabaqcıl adamlarının, elm, bilik xadimlərinin fəaliyyəti nəticəsində mümkün olur. Bu baxımdan Bakı Dövlət Universitetinin fəaliyyətini xüsusi qeyd etmək lazımdır.

Bakı Dövlət Universitetinin əsas fakültələri – tarix fakültəsi, filologiya fakültəsi, fəlsəfə fakültəsi, yəni bütün bu humanitar fakültələr Azərbaycan dilinin, Azərbaycan elminin inkişafında müstəsna yer tutur. Şübhəsiz ki, bütün başqa elmlər də Azərbaycanın həm elmi, həm intellektual potensialının, həm də iqtisadi potensialının inkişafı üçün xidmətlər göstərmişlər. Ancaq bu elmlərin inkişafı xüsusi əhəmiyyət kəsb edir və bu sahədə Bakı Dövlət Universitetində 75 il ərzində görülən işlər yüksək qiymətə layiqdir.

Bakı Dövlət Universitetinin auditoriyalarında, dərs otaqlarında, kafedralarında Azərbaycan xalqının mənliyinin, milli şüurunun, milli ruhunun inkişaf etdirilməsi üçün də çox işlər görülmüşdür. Mən bu gün bunu xüsusi qeyd edirəm. Çünki öz dilini inkişaf etdirən alim, müəllim, öz tarixini yazan, inkişaf etdirən, tarixini əks etdirən alim, öz mənəviyyatını araşdıran, təhlil edən və ümumiləşdirən, elmiləşdirən, xalqına yüksək səviyyədə çatdıran alim – onlar hamısı birlikdə öz xalqının, millətinin, milli şüurunun, milli ruhunun, vətənpərvərlik ruhunun inkişaf etməsinə, irəliyə getməsinə xidmət göstərir. Azərbaycanda milli azadlıq hərəkatının yaranması, meydana çıxması, inkişaf etməsi, tariximizin səhifələrinin təxribatdan, təhrifdən qorunması, əsrlərdən-əsrlərə xalqımızın böyük tarixə, böyük mədəniyyətə malik olması, böyük mənəviyyat sahibi olması – bunlar hamısı XX əsrdə alimlərimizin, müəllimlərimizin, ali təhsil ocaqlarında çalışanların fəaliyyəti nəticəsində olmuşdur. Bu sahədə Bakı Dövlət Universitetinin xidmətləri çox böyükdür və mən bu gün onu xüsusi qeyd etməyi lüzumlu hesab edirəm. [542-543]

Biz bu il dahi şairimiz Məhəmməd Füzulinin 500 illik yubileyini qeyd edirik. Fəxr edirik ki, 500 il bundan öncə Məhəmməd Füzuli öz ana dilində – Azərbaycan dilində, türk dilində əsərlərini yazmışdır. Eyni zamanda onu da unutmayaq ki, elə bu əsrin əvvəlində də, ortasında da ana dilimizdə yazanlarımız çox olmuşdur. Ancaq ana dilini, Azərbaycan dilini yüksəklərə qaldırmaq istəyənlər, zənginləşdirməyə çalışanlar fədakar adamlar olublar. Onların əksəriyyəti Azərbaycan Dövlət Universitetində olublar.

Burada Bakı Dövlət Universitetinin yubileylərini xatırladılar. Mən çox xoşbəxtəm ki, Bakı Dövlət Universitetinin məzunuyam. Eyni zamanda xoşbəxtəm ki, Bakı Dövlət Universitetinin 50 illik yubileyinin də, 60 illik yubileyinin də iştirakçısı olmuşam. İndi universitetin 75 illik yubileyinin iştirakçısıyam. Xatirimdədir, universitetin 50 illik yubileyində çıxış edərkən, şübhəsiz ki, öz ana dilimdə, Azərbaycan dilində danışdım. Bu, böyük bir sensasiya kimi qəbul olundu, təəccüb doğurdu, – nə cür olur ki, respublikanın rəhbəri Azərbaycan dilində çıxış edir və bu dildə heç də pis danışmır. Bəziləri məni bu hadisə münasibətilə təbrik edirdilər, minnətdarlığını bildirirdilər. Dilini sevən, milli ruhla yaşayan insanlar doğrudan da bunu böyük bir hadisə kimi qəbul etdilər. Mən isə onlara dedim ki, burada bir qeyri-adilik yoxdur, nahaq təəccüb edirsiniz, bu mənim ana dilimdir və ana dilində çıxış etmək elə böyük bir qəhrəmanlıq da deyildir. Ana dilini bilməmək isə, ana dilini qiymətləndirməmək isə, şübhəsiz ki, xalq qarşısında qəbahətdir.

O illəri xatırlayıram. O vaxt, 1968-ci ildə mən respublikada Dövlət Təhlükəsizliyi Komitəsinin sədri idim. Universitetdə bir neçə alim Azərbaycanın tarixini araşdırarkən Azərbaycanın Rusiyaya birləşməsi haqqında mübahisə aparmışdı ki, Azərbaycan Rusiyanın tərkibinə könüllü surətdə girmişdir, yaxud elə-belə girmişdir, ya da məcburi girmişdir. Bunu o vaxtlar şişirtdilər. Şübhəsiz ki, elm adamları elmi axtarışlar zamanı gərək həmişə bütün versiyaları yoxlasınlar. O vaxt isə ümumi qərar belə idi ki, Azərbaycan Rusiyanın tərkibinə könüllü daxil olmuş, özü bunu xahiş etmişdir. Şübhəsiz ki, bu, tarixi həqiqətdən uzaqdır. Ancaq belə olmuşdu və bu hadisə də bayram kimi qeyd edilmişdi. Amma bir neçə alim o vaxt bunu şübhə altına alaraq öz fikirlərini söyləmişdi. Bu, böyük bir iğtişaş yaratdı. Başladılar araşdırmağa ki, bunlar millətçidirlər, yaxud başqa fikirləri var, dövlət mövqeyindən kənar fikirlə yaşayırlar və s. Düzdür, bundan ötrü o vaxtlar bəzi adamları xırdaca cəzalandırdılar. Ancaq mən bilirəm ki, o adamların hamısı indi də fəaliyyətdədir, işləyir və ondan sonra da yaxşı fəaliyyətdə olmuşlar.

Bunu nə üçün xatırlayıram? Xatırlatmaq istəyirəm ki, universitet həqiqəti axtaran, milli ruhu inkişaf etdirən bir ocaq, mənbə olmuşdur. Təsadüfi deyildir ki, bir də deyirəm, Azərbaycanın müstəqilliyi, milli azadlığı uğrunda mübarizə aparan insanların da çoxu burada təhsil almış, universitet divarları arasında işləmiş, fəaliyyət göstərmişlər və bu gün də göstə[543-544]rirlər. Ona görə də Bakı Dövlət Universitetinin Azərbaycan dilinin inkişafında, milli ruhun, milli şüurun inkişafında, vətənpərvərlik ruhunun inkişafında olan xidmətlərini bir daha xüsusi qeyd edirəm və bu gün müstəqil Azərbaycan dövlətində belə insanlara, belə axtarışlara öz hörmət və ehtiramımı bildirirəm.

75 illik tarix cürbəcür mərhələlərdən keçmişdir. Bu 75 ilin hər biri bizim üçün əzizdir. Keçmişdə tariximizi yazarkən bəzən ya o tərəfə, ya da bu tərəfə əyilirdik. İndi isə müstəqil Azərbaycan Respublikasında öz məmləkətimizin, öz taleyimizin sahibi olduğumuz halda, müstəqil siyasət apardığımız halda gərək tariximiz doğru, düzgün, ədalətli, obyektiv yazılsın. Universitetin 50 illiyi, 60 illiyi qeyd olunmuşdur. Amma təəssüf ki, 70 illiyi nədənsə qeyd edilməmişdir. Bunu yaddan çıxarmışlar. İndi 75 illiyi qeyd olunur. Bu 75 illik tarixi ədalətli, düzgün yazmaq üçün indi ən gözəl şərait yaranmışdır. Amma bu, təkcə universitetin tarixi deyil, bu, Azərbaycan xalqının tarixidir, Azərbaycan Respublikasının tarixidir, Azərbaycan elminin, təhsilinin, mədəniyyətinin tarixidir. Ona görə bunu təhrif etmək olmaz.

Keçən vaxtlarda da təhrif olmuşdur, ancaq bu yaxın keçmişdə də təhrif olmuşdur. Keçən vaxtlar – Sovet hakimiyyəti vaxtı bütün tarixçilər ümumi tarixi yazarkən, o cümlədən də universitetin tarixini yazarkən hər bir şeyi marksist-leninçi ideologiya əsasında və bir də o tarix ki, qurulmuşdu, onun əsasında yazmağa çalışırdılar, ona görə də təhriflərə yol verirdilər, amma iki-üç il bundan qabaq, respublikamızda yeni bir dövr yarananda bəziləri hesab etdilər ki, 1920-ci ildən 1992-ci ilədək Azərbaycanda nə olmuşdursa, bunlar heç bir şey deyil. Tarix indidən başlayır. Belə münasibət yaramaz! Xalqın hər bir günü tarixdə öz yerini tapmalıdır. Tariximizin hər bir nöqtəsi, hər bir günü bizim üçün əzizdir, – nə cür olur-olsun.

İki-üç il bundan qabaq mən eşitdim: bəzi yeni siyasətçilər deyəndə ki, Nəriman Nərimanovdan başlayan və indiyə qədər, bizə qədər olan dövr tarix deyildir, mən dəhşətə gəldim. Belə ədalətsizliyə yol vermək olmaz. Əgər Bakı Dövlət Universiteti 1919-cu ildə ilk, demokratik respublika vaxtında yaranmışsa, sonrakı inkişafı Nəriman Nərimanov və onun kimi böyük şəxsiyyətlərin fəaliyyəti nəticəsində indiki səviyyəyə gəlib çatmışdır. Təsəvvür edin, əgər bu dövr olmasaydı, bu gün burada professor Murtuz Ələsgərovun və başqa natiqlərin 75 il ərzində universitetin əldə etdiyi nailiyyətlər barədə gətirdikləri çox heyranedici rəqəmlər, məlumatlar olardımı? Olmazdı! Yenə də deyirəm, bütün başqa şeyləri kənara qoyaq. Azərbaycanın maariflənməsində, Azərbaycan xalqının savadlanmasında, elmimizin inkişafında, Azərbaycan dilinin bugünkü yüksək səviyyəyə gəlib çatmasında bu dövrün nə qədər böyük mənası, nə qədər böyük xidməti var. Bunu nə pozmaq olar, nə də unutmaq olar. Bunu etmək istəyənlər tarixinə xor baxan, tarixinə düşmən çıxan adamlardır.

Universitet 50 illik yubileyində o vaxtkı Sovetlər İttifaqının yüksək [544-545] mükafatı – Qırmızı Əmək Bayrağı ordeni ilə təltif olunmuşdu. Bu, tarixdir və bu tarixi dəyişdirmək olmaz. Azərbaycan Dövlət Universiteti o dövrün ən yüksək mükafatlarından birini aldı, 50 illik fəaliyyətinə görə aldı. Ondan sonrakı dövrlərdə Bakı Dövlət Universiteti yeni yüksək adlara, mükafatlara layiq görüldü. Bunlar da hamısı tarixdir, heç birisini dəyişdirmək olmaz. Hamısına hörmətlə, ehtiramla yanaşmaq lazımdır. Ona görə bütün Azərbaycan xalqının, Azərbaycan Respublikasının, o cümlədən onun elminin, təhsilinin XX əsrdəki tarixi böyük hörmət və ehtirama layiq tarixdir. Biz bu tarixin hər səhifəsini, hər vərəqini hörmət və ehtiramla yad etməliyik, bu tarixin qarşısında, Azərbaycan Respublikasını yaradıb, yaşadıb, Azərbaycan elmini, təhsilini bu səviyyəyə gətirən insanların hamısının qarşısında baş əyməliyik.

Keçmişdə, ölkəmiz xarici dövlətlərlə çox əlaqədə olmadığı vaxtda bəzən belə düşünürdük ki, başqa ölkələrdə elm, ali təhsil bizimkindən çox yüksəkdir. Şübhəsiz ki, dünyanın 800-900 illik tarixi olan məşhur universitetləri var, Avropa universitetlərini, Şərq universitetlərini, Rusiya universitetlərini götürün, 100 illik tarixi olan universitetləri var. Şübhəsiz ki, onların yüksək səviyyəsi var. Ancaq indi biz dünyaya açıldıq, bizim alimlərimiz, universitetin müəllimləri, professorları dünyanın bir çox ölkələrinə getdilər, gəldilər. İndi onlar bir çox ölkələrdə dərs deyirlər, elmi iş aparırlar. Aydın oldu ki, bu müddətdə Azərbaycanın elmində, təhsilində əldə edilən nailiyyətlər başqa dövlətlərinkindən aşağı deyildir, bəzi hallarda yüksəkdir. Əgər belə olmasaydı, indi Bakı Dövlət Universitetinin, yaxud da ki, digər universitetlərimizin, elmi tədqiqat institutlarımızın alimləri, elmi işçiləri gedib başqa ölkələrdə yüksək səviyyədə fəaliyyət göstərə bilərdilərmi? Bunlar hamısı bu 75 illik tarixin bəhrələridir. Ona görə də biz bunu qiymətləndirməliyik.

Bir sözlə, 75 illik yol şanlı yoldur, şərəfli yoldur. Mən bir daha sizi təbrik edirəm. Universitetin 75 illik yubileyi Azərbaycan xalqının böyük bayramıdır.

Ancaq hər bir yubiley, ildönümü bizi geriyə yox, irəliyə baxmağa, qarşıdakı vəzifələr haqqında düşünməyə dəvət edir. Vəzifələr böyükdür. Respublikamız keçid dövründə yaşayır. Bütün sahələrdə, o cümlədən tədris, təhsil sahəsində islahatlar keçirilir. Bunlar zəruridir, ancaq eyni zamanda bu islahatlar, xüsusən təhsil, elm sahəsində islahatlar çox ağıllı, düşünülmüş şəkildə həyata keçirilməlidir. İslahat naminə, dəb naminə aparılmamalıdır. Adını dəyişdirməklə, bir qədər formasını dəyişdirməklə ki, yeni bir qiyafəyə girsin, dəbə düşsün – bunun naminə yox, yalnız və yalnız əldə etdiyimiz səviyyədən daha yuxarı qalxmaq üçün, təhsilin

səmərəliliyini, elmin səmərəliliyini artırmaq üçün aparılmalıdır. Bütün bu islahatlar ancaq bu yolla, bu istiqamətdə getməlidir, bu məqsədi daşımalıdır və biz bu məqsədə nail olmalıyıq. Mən bu arzularımı sizə bildirirəm və güman edirəm ki, siz də belə düşünürsünüz, siz də məhz bu yolla gedəcək və səhvlərə yol verməyəcəksiniz.

Universitet, ali məktəb gənclərə məxsusdur. Bakı Dövlət Universite[545-546]tində 1200 nəfərlik professor – müəllim heyəti, 12 min tələbə var. Müəllimlər tələbələr üçündür, onlara təhsil vermək, onları həyata hazırlamaq, yaxşı tərbiyə vermək müəllimlərin şərəfli borcudur. 75 il ərzində bütün çətinliklərə baxmayaraq, həyatımızda olan bəzi mənfi hallara baxmayaraq, universitet bu şərəfli vəzifəsini yerinə yetirmişdir. Bakı Dövlət Universitetini bitirmiş adamların tam əksəriyyəti həqiqətən Azərbaycanın bugünkü həyatını inkişaf etdirənlərdir. Ancaq gənclərə diqqət, qayğı bu gün daha çox lazımdır. Ona görə də mən bu bayram günü gənclərə müraciət edirəm, həm də təkcə Bakı Universitetinin tələbələrinə yox, bütün Azərbaycan gənclərinə müraciət edirəm.

Müstəqil Azərbaycan üç ildir ki, yaşayır. Qarşımızda böyük yol var. Biz bu ağır, çətin yoldan keçməliyik. Ona görə də mən bu gün, universitetin 75 illik yubileyi qeyd edilərkən ümidvar olduğumu bildirmək istəyirəm ki, Azərbaycanın gəncləri atalarının, babalarının adət-ənənələrinə, onların keçdiyi yola sadiq qalacaqlar, özlərini universitetlərdə, digər təhsil ocaqlarında, iş yerlərində müstəqil Azərbaycana xidmət etmək üçün hazırlayacaqlar və Azərbaycanın üçrəngli bayrağını uğurla irəli aparacaqlar.

Gənclərimizin bir qismi ordu sıralarındadır. Sizin universiteti, bütün ali məktəblərimizi bitirənlərin bir qismi vuruşmuş, döyüşmüş, torpaqlarımızın qorunması yolunda şəhid olmuşdur. Bir qismi hazırda ordu sıralarında, torpaqlarımızın keşiyində dayanmışdır, müstəqilliyimizi, Azərbaycanın ərazi bütövlüyünü qoruyurlar, Azərbaycanı erməni işğalçılarından qoruyurlar. Onlar cəbhədə, hərbi hissələrdədirlər, hərbi geyimdə, silah altındadırlar. Azərbaycan xalqı onlara, yəni ordumuza, Milli Ordu sıralarında olan gənclərə ümid bəsləyir. Xalqımız bu ümidlə yaşayır ki, Azərbaycan Milli Ordusunda olan gənclər bundan sonra torpaqlarımızı tam qətiyyətlə qoruyacaqlar, Azərbaycanın sərhədlərinin keşiyində möhkəm dayanacaqlar, ölkəmizin suverenliyini müdafiə edəcəklər. Azərbaycan Respublikasının müstəqil bir dövlət kimi yaşaması üçün öz xidmətlərini göstərəcəklər. Mən sizi əmin edə bilərəm ki, Milli Ordumuzun sıralarında olan gənclərin tam əksəriyyəti belə əhval-ruhiyyə ilə vətənpərvərlik ruhu ilə, cəsarət, qəhrəmanlıq ruhu ilə yaşayır və xidmət edir. Ona görə də bu gün, bu gənclik günü – universitetin bayramı gənclik bayramıdır, – ordu sıralarında olan universitet məzunlarını, bütün ali məktəblərin məzunlarını sizin adınızdan, öz adımdan xüsusi olaraq ürəkdən təbrik edirəm, ordu sıralarında olan bütün gənclərimizə salamımızı göndərirəm, onlara hörmət və ehtiramımı bildirirəm. Əmin olduğumu bildirmək istəyirəm ki, onlar Azərbaycan Respublikasının ərazi bütövlüyünün keşiyində bundan sonra da cəsarətlə, mətanətlə dayanacaqlar.

Qarşımızda duran vəzifələr gəncliyi daha yaxşı hazırlamaqdan, tərbiyə etməkdən ibarətdir. Professorlar, müəllimlər bu vəzifələrini bundan sonra da indiyə qədər olduğu kimi ləyaqətlə yerinə yetirməlidirlər. Məlumdur, hamımız bu dərdin içində yaşayırıq, respublikamız ağır vəziy[546-547]yətdədir. Torpaqların bir qismi işğal olunmuşdur, bir milyondan artıq qaçqın var, respublikanın sosial-iqtisadi vəziyyəti çətinləşir, böhran içindəyik, böhran dərinləşir, insanların həyat tərzi ağırlaşır. Bunlar hamısı dövrümüzün xarakterik cəhətləridir, obyektiv səbəblərdən doğan cəhətlərdir. Belə bir şəraitdə müəllimlər də, professorlar da, ali məktəblərdə çalışan digər ziyalılarımız da çətin dövr keçirirlər. Yaşayış çətinləşmişdir. Yaxşı işləmək üçün bəzən istənilən şərait yoxdur. Bunlar hamısı həyatımızın gerçəkliyidir.

Ancaq eyni zamanda belə düşünürəm ki, xalqımız dözümlü olduğu kimi, ziyalılarımız da, alimlərimiz də, müəllimlərimiz də ən dözümlülərdəndir, ən mətanətlilərdəndir. Mən bütün bu çətinlikləri bilərək və bu çətinliklərə görə qəlbən narahat olaraq ziyalılarımıza, müəllimlərimizə müraciət edirəm: gənclərimizin təlim-tərbiyəsi işinə, təhsil, tədris işinə diqqətinizi azaltmayın. Əksinə, belə bir şəraitdə diqqət, qayğı daha da artmalıdır. Mən əminəm ki, müəllimlərimizin, ziyalılarımızın, alimlərimizin əksəriyyəti belə düşünür, belə yaşayır və bütün bu çətinliklərə baxmayaraq, öz vəzifələrini şərəflə yerinə yetirir və bundan sonra da yerinə yetirəcəkdir.

Bu gün universitetin 75 illiyini bayram edərkən bütün bu çətin problemlərlə rastlaşdığımız halda, eyni zamanda hamımız nikbin əhval-ruhiyyə ilə yaşamalıyıq. Biz bu çətinlikləri görərək, eyni zamanda onu dərk etməliyik ki, milli azadlığımıza nail olmuşuq, müstəqilliyimizi əldə etmişik. Azərbaycan xalqı artıq öz taleyinin sahibidir. Azərbaycan müstəqil dövlətdir. Azərbaycan Respublikası müstəqil dövlət kimi Dünya Birliyində görkəmli yer tutmuşdur, Dünya Birliyində öz sözünü deməyə qadirdir, öz taleyini özü həll edir. Bunlar xalqımızın, zəmanəmizin böyük nailiyyətləridir və bu nailiyyətlərə görə bütün çətinliklərə dözməli, gələcəyə nikbinliklə baxmalıyıq. Çalışmalıyıq ki, bu çətinlikləri tezliklə aradan qaldıraq, müstəqil Azərbaycan Respublikası bütün ərazisinin sahibi olaraq qarşısına qoyulmuş məqsədlərə nail olsun və biz gələcək nəsillər üçün yeni-yeni töhfələr hazırlayaq.

Əminəm ki, biz bunlara nail olacağıq. İnanıram ki, bizim ziyalılar da, alimlər də, müəllimlər də bu duyğularla yaşayırlar və əminəm ki, bu duyğular bizi daha da möhkəmləndirəcək, daha da birləşdirəcək, sıralarımızı daha da sıxlaşdıracaq və biz müstəqil Azərbaycanın xoşbəxt gələcəyinə birlikdə nail olacağıq.

Bu bayram münasibətilə sizi bir daha təbrik edirəm, Azərbaycan xalqını onun elminin, mədəniyyətinin bayramı münasibətilə bir daha təbrik edirəm. Hamınıza, bütün ziyalılara, bütün müəllimlərə, Azərbaycanın çoxmilyonlu gənclərinə səadət və xoşbəxtlik arzulayıram.

Yaşasın Bakı Dövlət Universiteti!

Yaşasın elm, yaşasın mədəniyyət, yaşasın təhsil!

Yaşasın müstəqil Azərbaycan Respublikası!

Sağ olun. [547-548]

## ÜMUMXALQ NÜMAYƏNDƏLƏRİ TOPLANTISINDA GİRİŞ SÖZÜ

*28 noyabr 1994-cü il*

*Respublika sarayı*

Hörmətli xalq nümayəndələri!
Əziz həmvətənlər!
Bacılar və qardaşlar!

Azərbaycan xalqı öz tarixinin ən ağır, ən çətin, keşməkeşli və eyni zamanda şərəfli mərhələsini yaşayır. 1988-ci ildən Azərbaycan Respublikasının ərazi bütövlüyünü pozmaq üçün, onun ərazisinin bir hissəsini ələ keçirmək üçün Ermənistan tərəfindən, erməni millətçiləri və Dağlıq Qarabağda olan separatçı qüvvələr tərəfindən Azərbaycana qarşı təxribat, təcavüz hərəkətləri başlayıbdır və bu, Azərbaycanın həyatında böyük dəyişikliklər əmələ gətiribdir. O vaxtdan Azərbaycan xalqı bu dəhşətli hadisəyə görə daim narahatlıq hissi keçirir və ərazisini, torpaqlarını qorumaq, öz mənliyini, şərəfini qorumaq əzmində olubdur.

Həmin dövrün tarixi xalqımıza və bu salona toplaşanlara məlumdur, onu indi təhlil etməyə ehtiyac yoxdur. Ancaq qısaca bunu demək olar ki, müəyyən obyektiv səbəblərə görə, o vaxt Sovetlər İttifaqının hakim dairələrində olan bəzi qüvvələrin Azərbaycan xalqına qarşı, Azərbaycan Respublikasına qarşı ədalətsiz mövqeyinə görə, eyni zamanda Azərbaycanın hakim qüvvələrinin, hakim strukturlarının, hakim orqanlarının xalqın mənafeyini, millətin, dövlətin, torpağın mənafeyini qorumaq əzmində olmadıqlarına görə, yaxud qorumaq istəmədiklərinə görə, bəziləri də xəyanətkar, satqın olduqlarına görə bu məsələ ilə əlaqədar Azərbaycanın mövqeləri aybaay, ilbəil zəifləmişdir. Nəticədə Azərbaycan indiki vəziyyətə gəlib çıxmışdır.

Eyni zamanda xalq daim öz torpaqlarını, ərazisini, sərhədlərini, milli mənliyini və şərəfini, milli tarixini, ənənələrini qorumaq əzmində olubdur. Məhz bunlara görə də xalq "Dağlıq Qarabağ problemi" deyilən problemin ortaya atılması münasibətilə və Azərbaycan ərazisinin bir qisminin Ermənistan tərəfindən ələ keçirilməsi ilə əlaqədar gedən proseslərə öz münasibətini, etirazını bildirib, meydanlara çıxıb, mitinqlər edibdir, o vaxtkı Sovetlər İttifaqının rəhbərliyi tərəfindən Azərbaycana qarşı olan ədalətsizliyə, haqsızlığa öz münasibətini bildirib və mübarizə aparıb. Həm də Azərbaycanın hakim dairələrinə, dövlət başçılarına, o vaxtkı partiya başçılarına öz etirazlarını bildirib, fəal mübarizə aparıbdır. [548-549]

Bunlar hamısı bizim tariximizdir, tariximizin səhifələridir. Biz bunları həmişə yadımızda saxlamalıyıq. Bugünkü məsələləri həll etmək üçün də bunu bilmək lazımdır.

Bu dövrdə Azərbaycan xalqının sağlam qüvvələri, milli azadlıq uğrunda mübarizə aparan vətənpərvər qüvvələri ilə yanaşı, Azərbaycanın ərazi bütövlüyünü qorumaq, canından keçərək, şəhid olaraq torpaqlarını qorumaq əzmində olan insanlarla yanaşı, bu hadisələrdən öz şəxsi məqsədləri, şəxsi mənafeləri naminə istifadə etmək üçün meydana çıxmış insanlar, qruplar da var, mövcud olubdur. Bunlar da keçmiş dövrün xarakterik cəhətləridir və xalqımıza, ictimaiyyətimizə məlumdur. Məhz belə cinayətkar qüvvələrin meydana çıxması, ayrı-ayrı qüvvələrin, o cümlədən dövlət başında olan qrupların belə cinayətkar qüvvələrdən öz hakimiyyətini saxlamaq üçün istifadə etməsi Azərbaycanın daxili həyatında mürəkkəb, qarışıq bir vəziyyətlə bağlıdır. Azərbaycanda həqiqi vətənpərvərlik hissi ilə yaşayan, torpaqlarımızı qorumaq əzmində olan insanların milli azadlıq uğrunda, Azərbaycanı qoruyub saxlamaq uğrunda mübarizəsi ilə yanaşı olaraq, ayrı-ayrı cinayətkar qüvvələrin bu hadisələrdən istifadə etməsi və o dövrlərdə olan hakim dairələrin, dövlət başçılarının bu cinayətkar qrupları əllərinə keçirib nəyin bahasına olursa-olsun öz mövqelərini, öz hakimiyyətlərini saxlaması prosesləri mövcud olubdur.

Bunların hamısı məlumdur. Güman edirəm ki, tədqiqatçılarımız, tarixçilərimiz, siyasətçilərimiz bütün bunlara doğru-düzgün, obyektiv, dəqiq təhlil və qiymət verəcəklər. Məhz bunların nəticəsində ola bilər ki, Azərbaycan xalqı – öz tarixində milli qəhrəmanlıq nümunələri göstərmiş və bu gün də qəhrəmanlıq əhval-ruhiyyəsi ilə yaşayan Azərbaycan xalqı erməni qəsbkarlarının, erməni işğalçılarının təcavüzkar hərəkətlərinə lazımi cavab verə bilməyib və torpaqlarımızın bir qismi işğal olunub, insanlarımızın bir qismi həlak olubdur, öz yerlərindən, obalarından, yurdlarından didərgin düşübdür. Ərazimizin 20 faizi erməni silahlı qüvvələrinin işğalı altındadır, bir milyondan artıq soydaşımız, Azərbaycan vətəndaşı öz ölkəsində qaçqın vəziyyətində yaşayır.

Belə bir zamanda, belə günlərdə cinayətkar dəstələrin, cinayətkar qrupların – bu fürsətlərdən öz şəxsi mənafeləri üçün istifadə etmək istəyənlərin fəaliyyəti Azərbaycana çox zərbələr vurubdur. Bu, bəlkə də erməni işğalçılarının vurduğu zərbələr kimi zərbələrdir. Güman edirəm, əgər bu təxribatçı qrupların, Azərbaycanın daxilindəki bu təxribatçı dəstələrin, ayrı-ayrı təşkilatların Azərbaycan xalqının milli mənafeyinə zidd, cinayətkar hərəkətləri olmasaydı, xalqımız bəlkə də bu vəziyyətə düşməzdi, Azərbaycan Respublikası torpaqlarının bir hissəsini itirməzdi və qaçqınlarımız, şəhidlərimiz də bu qədər olmazdı.

Bu proseslər davam edir və təəssüf ki, belə şəraitdə Azərbaycanın mötəbər, ağıllı, tanınmış, ağsaqqal adamları bəzən kənarda qalıblar. Bəzən özləri özlərini kənara çəkiblər. Bəzən məcburiyyət nəticəsində biganəlik mövqeyi tutublar. Ancaq bəzi yaramaz qüvvələr, Azərbaycan [549-550] xalqını ləkələyən qüvvələr meydana çıxıb, hətta özlərini xalq qəhrəmanı, milli qəhrəman, azadlıq uğrunda mübarizənin aparıcı qüvvələri kimi qələmə veriblər. Bunlar hamısı Azərbaycanın ümumi mənafeyinə – həm onun ərazisinin qorunmasına, həm də daxili ictimai-siyasi və iqtisadi vəziyyətinə öz təsirini göstərmişdir.

Belə hadisələr keçmişdə olub. Mən vaxtınızı alıb bu barədə çox danışmaq istəmirəm. Ancaq xatırlatmaq istəyirəm ki, 1993-cü ilin əvvəlindən Azərbaycanda vəziyyət gərginləşmişdir. Bunun səbəblərini də mən indi təhlil etmək fikrində deyiləm, sadəcə, bir neçə məqamı yadınıza salmaq istəyirəm. Buna görə də bu gün ümumxalq nümayəndələri toplantısının keçirilməsini lazım bilmişik.

Həmin vaxt respublikada vəziyyət kəskinləşmişdi. Erməni silahlı qüvvələrinin hücumlarına qarşı mütəşəkkil qüvvə yox idi. Ordu yaranmamışdı. Ayrı-ayrı dəstələr, ayrı-ayrı qüvvələr guya Azərbaycan torpaqlarını qoruyaraq, əslində cürbəcür işlərlə, bəzən də qarətlə, təxribatlarla məşğul idi.

Ancaq hakimiyyətdə olan şəxslər, dövlət strukturları bunların qarşısını almağa qadir olmadılar. Beləliklə də Rəhim Qazıyev, Surət Hüseynov kimi adamlar və onların yanında olan digər şəxslər baş qaldırdılar. 1993-cü ilin fevral ayında Azərbaycanda böhran vəziyyəti – dərin ictimai-siyasi böhran, dövlət böhranı yarandı. Bu böhranın qarşısını almaq üçün dövlətdə və dövlət başçılarında qüdrət, cəsarət, səriştə çatmadı. Bunları siz bilirsiniz. Azərbaycan 1993-cü ilin əvvəlindən artıq parçalanırdı, parçalanmışdı da. Əgər 1993-cü ilin əvvəlində – fevral ayında Gəncə şəhərindəki və onun ətrafındakı ayrı-ayrı silahlı qüvvələr faktiki olaraq oranı ələ keçirmişdilərsə və Azərbaycanın dövlət başçıları bu vəziyyətin öhdəsindən gələ bilmirdilərsə, deməli, gözlərinin qabağında Azərbaycanın parçalanmasını görürdülər.

Azərbaycanın cənub hissəsi parçalanırdı. Lənkəran-Astara zonası, təxminən 7 rayon artıq parçalanmışdı. Oranı bir neçə quldur ələ keçirmişdi. O cümlədən, keçmişdə Xalq Cəbhəsi Məclisinin, sonra guya Sosial-Demokrat Partiyasının üzvü olan bir quldurun – heç bir siyasi hörməti olmayan Əlikram Hümbətov kimi bir adamın əlində Azərbaycanın bir hissəsi yesir olmuşdu. Ona görə bu sözü işlətməyə mənim haqqım var. Bunların hamısı Azərbaycanın dövlət başçılarının, dövlət adamlarının gözü qabağında idi.

Nəhayət, iyunda Gəncə hadisəsi və onun nəticələri – bunlar da məlumdur. Ona görə də mən bu məsələyə də toxunmuram. Bir sözlə, bir tərəfdən Ermənistan və Ermənistanla bağlı olan qüvvələr Azərbaycanı parçalamaq və onun bir hissəsini ələ keçirmək istəyirdilər. Digər tərəfdən isə Azərbaycanın daxilində olan qüvvələr ancaq və ancaq öz şəxsi məqsədlərinə nail olmaq istəyirdilər, hakimiyyət uğrunda mübarizə aparırdılar, vəzifə davası aparırdılar. Bu, ancaq öz şəxsi mənafeləri, yəni qanunsuz olaraq sərvətlənmək, zənginləşmək, qanunsuz pul, imkan ələ keçirmək məqsədi daşıyırdı. Onlar hamısı bu kimi çirkin əməllər yolu ilə [550-551] Azərbaycanı parçalamaq istəyirdilər. Belə bir vəziyyət 1993-cü ildə yaranmışdı.

Biz bunların hamısının öhdəsindən gələ bildik. Ancaq bu qüvvələr yenə də sakit dayanıb qalmadılar. Onlar yenə də öz çirkin əməllərinə nail olmağa çalışdılar. Biz bunları hansı yolla, necə dəf etmişik, – mən indi bunu demək fikrində deyiləm. Bunlar hamısı mənə məlumdur və güman edirəm ki, Azərbaycana ürəyi yanan və Azərbaycanda gedən proseslərə diqqət edən insanlara da, xüsusən, bu salonda olanların əksəriyyətinə də məlumdur.

Belə bir vəziyyətdə 1994-cü ilin əvvəlindən başlayaraq aprel və may aylarında bu qüvvələrdə yenidən hakimiyyəti ələ keçirmək, öz mövqelərini möhkəmlətmək, şəxsi mənafeləri üçün Azərbaycanın bütün varını-yoxunu istifadə etmək meylləri baş qaldırmışdı. Şübhəsiz ki, bunlar bir tərəfdən, belə insanların çirkin niyyətlərinin, əməllərinin bəhrəsi idi. İkinci tərəfdən isə Azərbaycanı xaricdən parçalamaq, zəiflətmək və beləliklə də təslim etmək, ölkəmizin bir hissəsini tamamilə əlimizdən almaq istəyən xarici qüvvələrin təxribatçı fəaliyyəti ilə əlaqədar idi. Çox təəssüflər olsun ki, bizim daxilimizdən olan, çirkin əməllərlə yaşayan, çirkin məqsədlərə nail olmaq istəyən adamlar xalqımıza, ölkəmizə millətimizə düşmən olan xarici qüvvələrlə bu sahədə birləşib hərə öz məqsədini daşıyırdı. Əgər xaricdə olan qüvvələr Azərbaycana qarşı böyük təxribat məqsədi, qlobal məqsədlər daşıyırdılarsa, daxildə olanlar isə bunlardan istifadə edib çalışırdılar ki, Azərbaycan da dağılsa, millət də parçalansa – təki bunlar vəzifə əldə etsinlər, hakimiyyət əldə etsinlər, öz çirkin əməllərini yerinə yetirsinlər, onsuz da çox ağır vəziyyətə düşmüş Azərbaycan iqtisadiyyatını daha da dağıtsınlar, xalqı soysunlar – özlərinə var-dövlət yığmaq üçün və qanunsuz zənginləşmək üçün.

Bu siqnallar, bu məlumatlar bizə gəlirdi, çatırdı. Bunlar cürbəcür istiqamətdə gedirdi. Son aylarda Moskva mətbuatında, başqa xarici ölkələrin – Türkiyənin, Qərb ölkələrinin mətbuatında, hətta Azərbaycanın müxalifət qəzetlərində də Azərbaycanda dövlət çevrilişinin hazırlanması, ayrı-ayrı qüvvələrin birləşməsi haqqında məlumatlar verilirdi. Əgər bir tərəfdən bunu keçmiş baş nazir Surət Hüseynov xəlvətcə hazırlayırdısa, ikinci tərəfdən də ona ruh verən, bu işə qızışdıran, ona həmrəylik göstərən qüvvələr, adamlar var idi.

Belə məlumatlar bizə gəlirdi, çatırdı. Mən şəxsən bir prezident kimi, Azərbaycanda həm daxili ictimai-siyasi sabitliyin olması, həm də ki, ölkəmizin ərazi bütövlüyünün qorunması vəzifəsini üzərimə götürmüşəm. Ona görə də bu məlumatlar məni narahat etməyə bilməzdi. Eyni zamanda mən ölçüb-biçib nəticəyə gəlirdim ki, bu qüvvələr nə qədər çalışsalar da, Azərbaycanda artıq formalaşmış ümumi həmrəylik əzmini, xalqın ümumi

fikrini korlaya bilməzlər, poza bilməzlər. Odur ki, bəzi adamlar hətta gəlib çox qorxu ilə, təhlükə ilə mənə deyəndə ki, dövlət çevrilişi hazırlanır, filankəslər hazırlayır, şübhəsiz ki, mən bunları nəzərə alırdım, [551-552] bu barədə müəyyən yoxlamalar aparırdım. Ancaq eyni zamanda heç vaxt ehtiyat etmirdim. Keçmiş baş nazir Surət Hüseynov bəlkə də onun haqqında bu qədər danışılmağa layiq olan adam deyil. Mən dedim ki, son illərdə gedən proseslərdə belə adamlar meydana çıxdı – Surət Hüseynov kimi, Rəhim Qazıyev kimi, Əlikram Hümbətov kimi adamlar. Başqaları da var. Onların adlarını çəkmək istəmirəm, – hamısı bir-bir üzə çıxacaqdır, onlara əl altından kömək etmək istəyən adamlar da. Surət Hüseynovu kim idi meydana çıxaran, kim idi ona Milli Qəhrəman adı verən, kim idi onun – bu cinayətkar adamın ətrafında belə əhval-ruhiyyə yaradanlar? Onların özləri də bu cinayətkarın qurbanı oldular.

Ancaq mən son vaxtların hadisələri haqqında danışmaq istəyirəm. Bu Surət Hüseynov kimi adam baş nazir vəzifəsi ilə məşğul olmaq əvəzinə – baxmayaraq ki, onun bu vəzifə ilə məşğul olmağa o qədər də potensialı, imkanı yox idi, amma əgər istəsəydi, bir şey öyrənə bilərdi, – ancaq altdan-altdan çirkin işlərlə məşğul olurdu, başqa işlərlə məşğul olmağa vaxtı yox idi.

Təəssüf ki, bizim bəzi vəzifəli, rəhbər işçilər, bəzi qruplar da yenə keçmişləri yada salaraq – yəni kimsə hansı zorakılıq əməli ilə nə isə edə bilərsə, ona yıxılmaq, ona yaxınlaşmaq, – onunla əlbir olmağa, birləşməyə çalışdılar. Beləliklə də cürbəcür qüvvələrin dövlət çevrilişi hazırlaması prosesi gücləndi. Xatirinizdədir, qəzetlərdə yazırdılar, hətta mən sentyabrın 24-də Amerikaya səfər edərkən İstanbulda təyyarə meydanında mənə bir neçə qəzet göstərdilər. Bildirdilər ki, çevriliş hazırlanır. Surət Hüseynov çevriliş hazırlayır, – bunu qəzetlərdə yazmışdılar. Bunları mən özümdən demirəm, – çevrilişi Əbülfəz Elçibəy hazırlayır, Rövşən Cavadov hazırlayır, çevrilişi Ayaz Mütəllibov hazırlayır, filankəs hazırlayır. Müxbirlər bunu çox təlaşla, narahatlıqla mənə dedilər. Mən bildirdim ki, narahat olmayın. Azərbaycan xalqı artıq belə şeylərə yol verməz, imkan verməz.

Ancaq eyni zamanda bu adamlar, görünür ki, xalqın indi nə qədər yetkin olduğunu dərk etməmişlər. Onlar köhnə əhval-ruhiyyə ilə, köhnə fikirlərlə yaşayırlar.

Bir neçə təxribat hadisəsi həyata keçirildi. Bunlar sentyabrın 21-dən başlayaraq, oktyabrın 4-nə qədər oldu. Nəhayət, oktyabrın 3-4-də dövlət çevrilişi prosesi son həddə çatdı. Gəncədə, bir neçə rayonda dövlət hakimiyyət orqanları artıq ələ keçirilmişdi və Bakıda da dövlət çevrilişi aparmaq üçün lazımi tədbirlər görülmüşdü.

Biz bu dövlət çevrilişi cəhdinin qarşısını aldıq. Bunun qarşısını silah gücünə yox, qan tökülməsi ilə yox, dava ilə yox, ancaq və ancaq xalqımızın, Azərbaycan vətəndaşlarının milli həmrəyliyi ilə, xalqın artıq belə cinayətkar ünsürləri tanıyaraq, onlara bundan sonra imkan verməmək əzmi ilə aldıq.

Oktyabrın 4-dən 5-nə keçən gecə vəziyyətin gərginləşməsi ilə əlaqədar olaraq mən xalqa müraciət etdim. Əmin idim ki, xalq mənim səsimə səs verəcəkdir. Çünki xalqın əksəriyyəti ədalət istəyir, rahatlıq istəyir. [552-553] Xalqın əksəriyyəti artıq bu çəkişmələrdən, bu cinayətkar ünsürlərin cürbəcür fırıldaqlarından doyubdur. Əmin idim ki, əgər xalq 1993-cü ilin oktyabr ayında ümumxalq səsverməsində mənə etibar göstəribsə, məni prezident seçibsə, demək, belə bir böhranlı vəziyyətdə də xalq öz dövlətçiliyini qoruyacaqdır, xalq bunu edərkən dövlətçiliyinin başında duran Azərbaycan prezidentini qoruyacaqdır.

Buna görə də mən tam cəsarətlə xalqa müraciət etdim. Xalq bu müraciətə səs verdi. O gecə vaxtı Bakıda prezident sarayının qarşısına yüz minlərlə adam toplaşdı. Azərbaycanın, demək olar ki, bütün rayonlarında, bütün şəhərlərində insanlar o gecə ayağa qalxdılar, həmin o qiyamçılara, o cinayətkarlara və Azərbaycan dövlətini devirməyə çalışanlara lazımi cavab verdilər. Sabahısı gün – oktyabrın 5-də Azadlıq meydanında keçirilən mitinqə toplaşmış bir milyondan artıq Azərbaycan vətəndaşı – həm Bakıdan, həm də başqa şəhərlərdən, rayonlardan gəlmiş adamlar Azərbaycan xalqının, millətinin, vətəndaşlarının milli həmrəyliyini bir daha nümayiş etdirdilər. Həm o cinayətkarlara, həm də ki, bütün dünyaya bildirdilər ki, artıq Azərbaycan xalqı öz müstəqilliyini və öz respublikasının daxili ictimai-siyasi vəziyyətini qorumağa qadirdir və bundan sonra da qoruyacaqdır!

Mən bu gün bir daha o anları, o dəqiqələri, o saatları, o gərgin gecəni və oktyabrın o işıqlı günəş şüaları ilə işıqlanmış Bakını yadıma salıram. Bir daha həm sizin qarşınızda, həm də respublikamızın bütün vətəndaşları qarşısında Azərbaycan xalqına, bütün Azərbaycan vətəndaşlarına vətənpərvərliklərinə görə, cəsurluqlarına, qəhrəmanlıqlarına görə, Azərbaycanın dövlətçiliyini qorumaq əzmində olduqlarına görə və cinayətkarlara layiqli zərbələr vurduqlarına görə, Azərbaycanın dövlətçiliyini, Azərbaycanın prezidentini qoruduqlarına görə öz minnətdarlığımı və təşəkkürümü bildirirəm.

O gün, yəni oktyabrın 4-dən 5-nə keçən gecə, oktyabrın 5-də mən öz çıxışlarımda hadisələrə məhz o günə bəlli olan məlumatlar əsasında qiymət verdim, fikirlərimi bildirdim. Ancaq indi artıq iki aya yaxın vaxt keçibdir. Bu müddətdə xalqımız bu məsələləri daha ətraflı təhlil etməyə imkan tapıbdır. Hər bir insan o günləri də və ondan sonra keçən günləri də təhlil etməyə imkan tapıbdır. Bununla yanaşı, bizim istintaq orqanları, hüquq-mühafizə orqanları o cinayətkarların bəd əməllərini meydana çıxarmaq üçün lazımi işlər, lazımi tədbirlər görüblər və bunları nəzərə alaraq, həmin o günlərdən keçən dövrdə aparılmış işləri müəyyən qədər təhlil etmək, eyni zamanda sizə və respublikanın ictimaiyyətinə daha geniş məlumat vermək məqsədi ilə bu gün ümumxalq nümayəndələrinin toplantısını keçirməyi lazım bilmişəm.

Bu gün bu salonda xalqın nümayəndələri toplaşıb. Xalqın bütün təbəqələrinin nümayəndələri buraya dəvət olunubdur. Bu, dövlət müşavirəsi deyil, ötən dövrlərdə keçirilən fəallar yığıncağı deyil. Bu, oktyabrın 4-dən 5-nə keçən gecə prezident sarayının qarşısına toplaşmış adamların mitin[553-554]qinin bir hissəsidir. Oktyabrın 5-də Azadlıq meydanına toplaşmış vətəndaşlarımızın keçirdikləri mitinqin bir hissəsidir. Şübhəsiz ki, bu salona indi oradakı qədər adam toplaşa bilməz. Ancaq istəsəydik, bundan da çox adam bizim möhtəşəm Azadlıq meydanına toplaşardı. Buna indi ehtiyac yoxdur. Biz sadəcə olaraq bu məsələləri, yenə də deyirəm, təhlil etmək üçün, çevriliş cəhdi ilə əlaqədar məsələlərdən irəli gələn vəzifələri aydınlaşdırmaq üçün ümumxalq nümayəndələrinin indiki toplantısını keçirməyi lazım bilmişik və toplantıya yığışmışıq.

Bu gün burada sərbəst, səmimi və demokratik əsaslarla söhbət gedəcəkdir. Ancaq məsələləri açmaq üçün, müzakirə etmək üçün, həmin məsələlərin Azərbaycan üçün nə qədər təhlükəli olduğunu bir daha dərk etmək üçün və eyni zamanda, xüsusən, bundan sonra belə cinayətkar qrupların, adamların, təşkilatların cinayətkar hərəkətlərinin qarşısını almaq üçün burada müəyyən söhbət, danışıqlar, müzakirə aparmalıyıq. Bu müzakirələrin istənilən səviyyədə keçməsi üçün və ümumi söhbət şəklində deyil, konkret faktlar əsasında keçməsi üçün yəqin ki, bizim hüquq-mühafizə orqanları rəhbərlərinin məlumatını dinləmək lazım olardı. Onlar bizi məlumatlandırarlar. Sonra isə kim çıxış etmək istəyirsə, buna imkanı vardır.

Toplantı bu gün bütün gün ərzində keçiriləcəkdir. Yəni respublikanın bu ağır vəziyyətdən çıxması üçün, həm iqtisadi, həm sosial vəziyyəti, həm də daxili ictimai-siyasi vəziyyəti daha dərindən dərk etmək üçün burada sərbəst söz deməyə hər kəsin imkanı vardır.

Beləliklə, mən ümumxalq nümayəndələri toplantısını açıq elan edirəm.

## YEKUN SÖZÜ

Hörmətli xalq nümayəndələri!

Hörmətli xanımlar, cənablar, hörmətli qonaqlar!

Bu gün bu salonda Azərbaycan xalqının, Azərbaycan vətəndaşlarının bütün təbəqələrinin nümayəndələrinin toplanması və Azərbaycan Respublikasının dövlətçiliyi ilə, müstəqilliyi ilə əlaqədar olan mühüm məsələnin müzakirə edilməsi respublikamızın həyatında əlamətdar bir haldır. Azərbaycanda dövlət çevrilişi etmək cəhdindən iki ay keçir. Bu müddətdə xalqımızın, millətimizin, respublikamızın vətəndaşlarının həm sentyabrın sonu – oktyabrın əvvəlində baş vermiş hadisələri daha dərindən təhlil etməyə, həm də onları qiymətləndirməyə imkanları var idi. Bugünkü toplantıdan, eləcə də əhalidən, ayrı-ayrı vətəndaşlardan, kollektivlərdən, təşkilatlardan Azərbaycan Prezidentinin ünvanına, başqa dövlət orqanlarına, mətbuat, informasiya orqanlarına gələn məktublardan belə bir nəticə çıxır ki, xalqımız, Azərbaycan vətəndaşları o hadisələri, doğrudan da, dövlət çevrilişinə cəhd kimi qiymətləndirir, o hadisələri izləyir və Azərbaycan dövlətçiliyini qorumaq əzmində olduqlarını bir daha bəyan edirlər. [554-555]

Bu gün burada hüquq-mühafizə orqanlarının, inzibati orqanların rəhbərləri məlumat verdilər. Bunlar və nümayəndələrin çıxışlarındakı məlumatlar hamısı birlikdə bir daha sübut edir ki, Azərbaycanın müstəqilliyinə qarşı, dövlətçiliyinə qarşı uzun müddət hazırlanmış çevriliş planı var imiş və həmin planı həyata keçirmək cəhdi olmuşdur, bu cəhdin qarşısı alınmışdır. Cinayətkarların bir qismi yaxalanıb, digərləri isə qaçıblar, respublikanı tərk ediblər, başqa ölkələrdə gizləniblər. Ancaq yenə də sakit durmurlar, yenə də öz bəd əməllərini həyata keçirmək istəyirlər, cinayətkar fəaliyyətlərini davam etdirirlər.

Ona görə də bu gün belə bir toplantının keçirilməsinin zəruriliyini bu tədbir artıq sona çatarkən mən daha çox hiss edirəm. Hiss edirəm ki, əgər oktyabrın əvvəlində – 4-də, 5-də o mitinqlərdə, ondan sonra şəhərlərdə, rayonlarda, qəsəbələrdə, təşkilatlarda, müəssisələrdə olmuş yığıncaqlarda, mitinqlərdə bu məsələlər haqqında çox sözlər deyilmişdisə, indi, o hadisələrdən təxminən iki ay keçəndən sonra bu məsələlər haqqında daha ciddiyyətlə danışmaq olar, bu məsələlərin, bu hadisələrin Azərbaycan üçün nə qədər böyük təhlükə olduğunu demək olar və vətəndaşlarımızı, xalqımızı bir daha sayıqlığa dəvət etmək olar.

Azərbaycan müstəqilliyini əldə edən gündən indiyə qədər, təəssüf ki, çox ağır bir şəraitdə yaşamışdır. Mən bu gün toplantını açarkən qeyd etdim ki, 1988-ci ildən indiyə qədər Azərbaycanın həyatında bir çox mərhələlər, bir çox dəyişikliklər olmuş və bunlar hamısı da aybaay, günbəgün, ilbəil xalqımızın, vətəndaşların, respublikanın vəziyyətini ağırlaşdırmış, çətinləşdirmişdir. Bu gün biz bir daha qeyd etməliyik ki, Azərbaycan xalqı üçün, Azərbaycan Respublikası üçün ən ağır bəla ölkəmizin hərbi təcavüzə məruz qalmasıdır, müharibə şəraitində olmasıdır, altı ildən artıq gedən müharibədə Azərbaycanın böyük itkiləri, torpaqlarının işğal olunmasıdır, bir milyondan çox əhalisinin qaçqın vəziyyətinə düşməsidir. Bu, bizim ümumi problemimizdir. Azərbaycan xalqının, Azərbaycan Respublikasının və Vətəni, torpağı haqqında düşünən hər bir azərbaycanlının başına gələn bəladır. Bu, bizim dərdimizdir, faciəmizdir.

Bu illər ərzində Azərbaycan faciəli günlər, faciəli illər yaşayıb. Bu gün də biz faciəli günlər yaşayırıq. Ona görə də düşmənin Azərbaycanı parçalamaq, dağıtmaq, torpaqlarımızın bir qismini ələ keçirmək planlarının qarşısını almaq üçün, buna sinə gərmək üçün, bu planları pozmaq, Azərbaycanı qorumaq üçün hamının bir məqsədi olmalı idi: o vaxt da, 1988-ci ildə də, ondan sonrakı illərdə də birləşib xalqımızı bu vəziyyətdən

çıxarmaq, ümumi düşmənin, təcavüzkarın, Azərbaycanı parçalamaq istəyən düşmənlərin qarşısına çıxmaq, onların qarşısını almaq. Xalqın əksəriyyəti, – bu gün mən bunu ürəyimdə olan sözlər kimi demək istəyirəm, çünki həmin bu illərin bir hissəsini öz doğma torpağında olmasam da, bu dərdlərlə yaşamışam. Digər hissəsini isə xalqımla bir yerdəyəm, – xalqın tam əksəriyyəti həmişə bu hisslərlə, bu duyğularla yaşamışdır, yəni başqa bir məqsədi, fikri olmamışdır. Ancaq təəssüflər olsun ki, 1988-ci ildə başlanmış proseslərdə – xalqın əksər hissəsinin sağlam əhval-ruhiyyədə, Və[555-556]tənini, torpağını qorumaq əzmində olduğu bir vaxtda xalqın içərisində bu dövrün, şəraitin, proseslərin imkanlarından istifadə edərək öz şəxsi məqsədlərinə nail olmaq istəyənlər vardır. Onlar o vaxt da olmuşlar, təəssüf ki, indi də var. Məhz onlara görə Azərbaycan məğlubiyyətlərə uğramışdır, məhz onlara görə Azərbaycanın başına belə bəlalar gəlmişdir.

Bu gün toplantının başlanğıcında dediyim sözləri bir daha təkrar etmək istəyirəm. 1988-ci ildən Azərbaycanda hakimiyyətin ədalətsizliyinə görə, tərkibində olduğumuz Sovetlər İttifaqının rəhbərləri Azərbaycan Respublikasına, Azərbaycan xalqına ədalətli münasibət göstərmədiyinə görə və Azərbaycanda hakim olan şəxslər, orqanlar Azərbaycan xalqının, millətinin qayğısına lazımi qədər qalmadığına görə, hələ 1988-ci ildə bu günləri görən adamlar Azərbaycanın müdafiəsinə qalxmış, onun torpaqlarını müdafiə etmək üçün fəaliyyət göstərməyə çalışmışlar. Bunlar hamısı Azərbaycanda milli ruhun, vətənpərvərlik ruhunun oyanmasına, yüksəlməsinə, formalaşmasına kömək etmiş, milli azadlıq hərəkatı meydana çıxmış və bu proseslər nəhayət, Azərbaycanda başqa proseslərlə yanaşı, müstəqilliyin əldə olunmasına gətirib çıxarmışdır.

Biz bu il noyabrın 17-də Azərbaycanın Milli Dirçəliş gününü qeyd etdik. Bəli, bu, doğrudan da tarixə düşmüş bir gündür. O vaxt Azərbaycanın gəncləri, milli şüurla, vətənpərvərlik şüuru ilə yaşayan insanları Azərbaycana qarşı ədalətsizliyə etiraz əlaməti olaraq meydanlara çıxdılar, böyük mitinqlər keçirildi. Azərbaycanda milli azadlıq hərəkatı formalaşdı. O vaxtlar bu mitinqlərə ayrı-ayrı adamlar yox, Azərbaycanın yüz minlərlə vətəndaşı toplaşırdı. Noyabrın 17-də Azadlıq meydanında xüsusən Nemət Pənahovun rəhbərliyi altında başlanan mitinqlər – bunlar hamısı Azərbaycanın ağır vəziyyətdə olması ilə əlaqədar meydana gələn müsbət hadisələr idi. Bu hadisələr sonra inkişaf etdi və şübhəsiz ki, Azərbaycanda milli ruhun artmasına kömək etdi, öz müsbət nəticələrini göstərdi. Bunları biz qiymətləndirməliyik, unutmamalıyıq. Ondan sonra gedən müsbət prosesləri də həmişə qiymətləndirməliyik. Bunları da unutmamalıyıq.

Ancaq eyni zamanda, bu proseslər Azərbaycanın belə ağır vəziyyətindən öz şəxsi məqsədləri üçün istifadə etmək yoluna düşmüş ayrı-ayrı insanları da üzə çıxardı. O vaxt Azərbaycanın hakim dairələri xalqa pis münasibət bəsləyirdilər. Vətəni, torpağı qoruya bilmədilər. Qarabağ məsələsi başlayarkən onun qarşısını ala bilmədilər. Məhz ona görə də xalq Azərbaycanın kommunist rəhbərliyinin əleyhinə qalxdı və 1990-cı il 20 Yanvar hadisələri baş verdi.

20 Yanvar hadisələri Azərbaycan xalqının milli şüurunun daha da yüksəldiyini göstərdi. Eyni zamanda bu hadisələr milli hərəkatın, milli şüurun imperiya qüvvələri tərəfindən boğulduğunu göstərdi. Azərbaycan xalqı şəhidlər verdi. Onların xatirəsi bizim üçün daim əziz olacaqdır. Ancaq eyni zamanda Azərbaycan xalqı sübut etdi ki, onun mənliyi var, milli qüruru var. O, şəhidlər vermiş olsa da, artıq bu ədalətsizliyə dözmür.

Hakimiyyət dəyişildi. Ancaq yeni hakimiyyət özü üçün nəticə çıxarmadı. Ayrı-ayrı qüvvələr bütün bu proseslərdən Vətəni, torpağı, milləti [556-557] qorumaq üçün yox, – bir tərəfdən, hakimiyyətdə olan adamlar özlərini qorumaq üçün, digər tərəfdən isə ayrı-ayrı adamlar, qruplar, təşkilatlar şəxsi məqsədlərinə nail olmaq üçün istifadə edirdilər.

Beləliklə, Ermənistanda ordu, silahlı qüvvələr yarandı, Qarabağı ardıcıl olaraq öz əllərinə keçirməyə başladılar. Azərbaycanda isə ordu yaratmaqla məşğul olmadılar. Ayrı-ayrı silahlı dəstələr bu fürsətdən istifadə edib öz şəxsi məqsədlərinə nail olmağa çalışdı. Belə olan halda, o vaxt Azərbaycanın rəhbəri Mütəllibov özü üçün də "Qardaşlıq" adlı silahlı dəstə yaratdı. Bu, xatirinizdədir. Müxalifətdə olan adamlar cəbhədə döyüşmək əvəzinə, torpağımızı qorumaq əvəzinə öz müxalifət fikirlərini həyata keçirmək üçün silahlı dəstələr yaratdılar. Belə silahlı dəstələrin yaranması, şübhəsiz ki, qanuna sığmayan şeydir. Ölkədə dövlət strukturu var, ordu, hüquq-mühafizə orqanları var. Lakin hakimiyyətdə olan adamların bunlara inanmayaraq özlərinə silahlı qüvvə yaratması ayrı-ayrı nalayiq şəxslərin meydana çıxıb Azərbaycanın hörmətli, nüfuzlu adamlarının, necə deyək, kənara çəkilməsinə şərait yaratdı. Mən bunu geniş təhlil etmək istəmirəm. Bax, bu proseslər nəticəsində Rəhim Qazıyev kimi, Surət Hüseynov, Əlikram Hümbətov kimi və onlara bənzər adamlar meydana çıxdı. Vəzirov xalqına xəyanət etdi, qaçdı. Mütəllibov xalqına xəyanət etdi, qaçdı.

Nəhayət, dörd ildən sonra, bu ilin əvvəlində Milli Məclis yanvar hadisələrinə qiymət verdi. O vaxt Azərbaycan xalqına xəyanət edən adamların adları Milli Məclisin qərarında öz əksini tapdı. O adamlar qaçıb gizləndilər. Amma Azərbaycanda yaranmış bu silahlı dəstələr yenə də hakimiyyət əldə etmək, vəzifə ələ keçirmək əhval-ruhiyyəsindən çəkinməmişlər. Onlar bunu davam etdirdilər və 1993-cü ilin iyun hadisələri baş verdi.

1993-cü ilin iyununda Azərbaycan artıq parçalanmışdı. Mən toplantının əvvəlində dedim, bir də təkrar etmək istəyirəm, – 1993-cü ilin əvvəlindən Azərbaycanda artıq parçalanma prosesi gedirdi. Azərbaycanın bəzi bölgələrində etnik qrupları qızışdırmaq, bir-birinə qarşı qoymaq istəyirdilər. Milli məsələdə buraxılan bəzi səhvlər Azərbaycanın bölgələrində etnik qruplar arasında cürbəcür proseslər yaratdı. Rəhim Qazıyev, Əlikram

Hümbətov və Surət Hüseynov kimi adamlar da bu proseslərdən öz siyasi məqsədləri üçün istifadə etməkdən ötrü müəyyən fəaliyyətə başladılar.

Bunların qarşısı alına bilərdi. Necə ki, mən bu gün də hesab edirəm ki, əgər 1987-ci ilin axırında, 1988-ci ilin əvvəlində o vaxtkı Sovetlər İttifaqı Qarabağ probleminin yaranmasını istəməsəydi, onun qarşısını alardı. Nə Ermənistanla Azərbaycan arasında müharibə başlanardı, nə də Qarabağ problemi bu səviyyəyə çatardı. Ancaq onlar bunu istəmədilər, bu problemi süni surətdə özləri yaratdılar. Eyni şəkildə, əgər kiçik miqyasda götürsək, Azərbaycan Respublikasında 1993-cü ilin əvvəlində bu proseslərin qarşısı alına bilərdi. Ancaq hakimiyyətdə olan şəxslər, təşkilatlar, xüsusən o vaxt hakimiyyətdə olan Xalq Cəbhəsi bunun qarşısını ala bilmədilər və ala da bilməzdilər. Çünki artıq onlar xalq qarşısında hörmətdən düşmüş[557-558]dülər. Əgər hörmətdən düşməsəydilər, Surət Hüseynov kimi adam başına bir elə dəstə yığıb ordunun bir hissəsini öz əlinə keçirə bilməzdi. Əgər dövlət, onun başında duran adamlar hörmətdən düşməsəydilər, xalqın onlara inamı itməsəydi, Əlikram Hümbətov kimi adam, – burada çıxış edən müəllim onun haqqında karikatura şəklində bir söz dedi, həqiqətən belə idi, – Azərbaycanın cənubunda yeddi rayonu əlinə keçirməzdi. Axı, Əlikram Hümbətov təkcə iyun ayında deyil, ondan əvvəl də bunu etmişdi.

Artıq fevral ayından başlayaraq həmin rayonlar onun əlində idi. Ordunun bir hissəsini də, tankları, topları da – hamısını ələ keçirmişdi.

Azərbaycanın o vaxtkı rəhbərliyi aciz qaldı. Nə üçün? Çünki dövlətçiliyi qurmaq əvəzinə, dövlətin strukturlarına istinad etmək əvəzinə, o vaxt Xalq Cəbhəsi də özünə silahlı qüvvə saxlayırdı. Mən o zaman təəccüb edirdim ki, necə ola bilər, sən dövlətin başında olasan, dövlətə rəhbərlik edəsən, dövlət strukturlarından savayı, onlarla yanaşı Xalq Cəbhəsinin silahlı dəstələri də olsun? Mən bunu Naxçıvanda gördüm. Amma bu, təkcə orada deyildi. Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Nazirliyi var idi. O vaxtlar biz Rusiyaya mənsub olan diviziyanı çıxardıq, orada bir hərbi briqada yarandı. Amma eyni zamanda Xalq Cəbhəsinin böyük silahlı dəstələri vardı. Onların bir qismi indiyədək qalır. Üç gün bundan əvvəl oradan nə qədər silah tapıldı. Bu gün milli təhlükəsizlik naziri vəzifəsini icra edən Namiq Abbasov həmin silahlar barədə danışdı. Amma son aylarda orada ayrı-ayrı yerlərdə gizlədilmiş nə qədər silah tapıldı. Bunlar nəyə lazımdır? Əgər dövlətə lazımdırsa, dövlətin əlində olmalıdır. Amma dövlətin başında dura-dura eyni zamanda gizli silahlı dəstə saxlayırsansa, demək, ya sən dövlətə başçılıq etməyə yaramırsan, yaxud da qəsdən bunu edirsən ki, aranı qızışdırasan.

Bax, bunların nəticəsində 1993-cü ilin əvvəlində bu hadisələr baş verdi, Surət Hüseynov kimi adamı meydana çıxaranlar Azərbaycan xalqı qarşısında cavabdehdirlər. Çünki Surət Hüseynov artıq böyük vəzifələr sahibi idi. Prezidentin Dağlıq Qarabağ üzrə səlahiyyətli nümayəndəsi, baş nazirin birinci müavini, korpus komandiri idi və Milli Qəhrəman adı almışdı. Bunların hamısını ona Azərbaycanın dövlət başçıları vermişdi. Rəhim Qazıyev kimi adamın – mən bunu dəfələrlə demişəm, Azərbaycan xalqına onun vurduğu zərbəni, ola bilər heç kəs vurmamışdır – bir tərəfdən guya Xalq Cəbhəsinin rəhbərlərindən, liderlərindən idi, Xalq Cəbhəsinin liderlərindən biri kimi müdafiə naziri idi, guya ki, Azərbaycanın torpaqlarını müdafiə edirdi, eyni zamanda Azərbaycanı içəridən dağıdırdı. Nə üçün? Aşkar oldu, 1993-cü ilin iyun – iyul aylarında Milli Məclisdə gedən müzakirələr onun iç üzünü tamamilə açdı. Halbuki bunu etmək o qədər də çətin bir şey deyildi. Onun iç üzünü 1991-ci ildə də, 1992-ci ildə də və 1993-cü ilin əvvəllərində də acmaq olardı, ifşa etmək olardı ki, Azərbaycanı gətirib bu vəziyyətə salmasın. Bunların hamısının nəticəsində belə layiqsiz adamlar üzə çıxdılar, özlərinə yeni silahlı dəstələr düzəltdilər və 1993-cü ilin iyununda Azərbaycanı vətəndaş müharibəsi həddinə çatdırdılar. [558-559]

Vətəndaş müharibəsi başladı. Gəncədə qan töküldü. Fərqi yoxdur, kim kimə atəş açdı, nə təhər oldu, – həlak olan, ölən azərbaycanlılar oldu. Azərbaycanlı azərbaycanlı ilə vuruşdu. Bakının yaxınlığında qan töküldü. Bunun qarşısını almaq, Azərbaycanı belə vəziyyətdən çıxarmaq lazım idi. Ona görə də Surət Hüseynov meydana çıxdı. Əlbəttə, indi şübhə etmək olar ki, Surət Hüseynov kimi adam nə cür gəlib baş nazir oldu. Çünki onu baş nazir vəzifəsinə gətirən adamlar əvvəldən onu bu səviyyəyə çatdıranlar idi. Ona görə də belə oldu.

Əlikram Hümbətovun qurduğu işlər sentyabr ayına qədər hələ davam edirdi. Biz orada da istəmirdik ki, qan tökülsün. Ancaq yeddi rayon onun əlində idi. Nəhayət, xalq ayağa qalxdı. Əlikram Hümbətovun quldur dəstəsi adamlara atəş açdı, orada da dörd nəfər həlak oldu. Əlikram Hümbətova havadarlıq edən adamlar onu qaçırdılar. Sonra biz nə qədər əzab-əziyyətlə onu tapıb həbs etdik. Rəhim Qazıyev də həbs olundu. Məhkəmə başlandı. Görəndə ki, hər şey açılacaq, bəli, yenidən dövlət çevrilişinə başladılar. Mən bu gün dedim, o vaxtdan yayılan şayiələr, bizə gələn məlumatlar, istintaqda əldə edilən sübutlar, xarici mətbuatın və Azərbaycandakı qeyri-formal, müxalifət qəzetlərinin yazıları – hamısı onu göstərirdi ki, doğrudan da Azərbaycanda ayrı-ayrı qüvvələr dövlət çevrilişi hazırlayırlar. İş burasındadır ki, – mən bu gün bunu deməliyəm, – Surət Hüseynov özü də bir neçə dəfə gəlib mənə deyirdi ki, onlar bizi devirmək, yıxmaq istəyirlər, bizim əleyhimizə çıxmaq istəyirlər. Mən bununla demək istəmirəm ki, onun sözlərinin hamısı doğrudur. Ancaq o, dəfələrlə mənə demişdi ki, onun yanına Xalq Cəbhəsinin də, Müsavat Partiyasının da nümayəndələri gəlir, nə bilim, Rövşən Cavadov da gəlir, o birisi, bu birisi də gəlir, hamısı deyir ki, gəlin birləşək, Heydər Əliyevi yıxaq, amma mən deyirəm ki, yox, Heydər Əliyev bizə çox lazımdır, ağsaqqaldır, belə şey olmaz.

Mən onu dinləyirdim və deyirdim ki, axı nə təhər olur, bunlar hamısı sənin yanına gəlir? Niyə belə olur. Nədən ötrü sənin yanına gəlirlər? Əgər sən hesab edirsənsə ki, bunlar dövlət çevrilişi etmək istəyirlər deməli, onda sənin kimi adamı özlərinə müttəfiq etmək istəyirlər.

Yaxud da sən yalan deyirsənsə, bunları özünə müttəfiq etmək istəyirsən. Mən bu sözləri ona dəfələrlə demişəm. Son zamanlar, hadisələr qızışan vaxtda da deyirdi ki, mənim yanıma hamısı gəlir və bildirirlər ki, bizimlə işin olmasın, bizim də səninlə işimiz yoxdur. Biz ancaq Heydər Əliyevi yıxacağıq, sonra sizinlə birlikdə olacağıq. Dedim ki, yaxşı, get onlarla birləş, əgər yıxa bilirsənsə, yıx.

Demək istəyirəm ki, bu qaynaşma respublikamızda may ayından da əvvəl başlanmışdı və təəssüf ki, – mən indi konkret heç bir şey demək istəmirəm, – vəzifə hərisi olan ayrı-ayrı adamlar, bu fürsətdən bəhrələnərək özlərinə məqam seçmək istəyən adamlar bunların hamısından istifadə edirdilər. Surət Hüseynovun mənə dediyi sözlərdə də müəyyən həqiqət var idi. Çünki yoxlamalar göstərirdi ki, həmin qəbildən olan ayrı-ayrı qüvvələr Surət Hüseynovla görüşür, danışır, əlaqə saxlayırdılar. [559-560]

Ancaq, bu, təkcə onların işi deyildi. Şübhəsiz ki, xaricdən idarə olunan Mütəllibov, onun havadarları, başqaları – bunlar hamısı birləşmişdi. Bu proseslər nə üçün sentyabrda başlandı? Çünki biz neft müqaviləsini imzalatdıqdan sonra bu qüvvələr fikirləşdi ki, indi bundan sonra çevriliş etmək lazımdır. Rusiyanın bir diplomatı mənə deyir ki, Surət Hüseynov onunla görüşərkən bildirib ki, o, neft müqaviləsinin əleyhinədir, buna yol verməyəcək, Rusiyaya tərəfdardır və s. Belə sözlərlə guya onlardan kömək almaq istəyirdi. Şübhəsiz ki, mən bunu dövlətə şamil etmirəm, xahiş edirəm düzgün başa düşəsiniz. Həmin diplomat da bunu mənə Surət Hüseynovun çirkin əməllərini açmaq mənasında dedi. Görürsünüz, nə qədər çirkin yollara əl atırlar!

Ona görə də bu hadisələr başlandı. Tarixdə hələ görünməyib ki, Milli Təhlükəsizlik Nazirliyindən – keçmiş NKVD desək, onun ənənələri hələ orada yaşayır – oradan insanlar qaça bilsin. İndi mən qəti söz demirəm, bunların hamısına istintaq cavab verəcəkdir. Ancaq heç şübhə etmirəm ki, onların oradan qaçırılması çevrilişin başlanğıcı idi. Onları qaçıran və çevrilişi edən qüvvələr eyni idi. Afiyəddin Cəlilovun və Şəmsi Rəhimovun terrorçuluq vasitəsilə öldürülməsi ikinci həlqədir. Üçüncü həlqə Xüsusi Təyinatlı Polis Dəstələrinin yolunu azmış bəzi qüvvələrinin başqa istiqamətə yönəldilməsi idi: prokurorluqla münaqişə və s. Nəhayət, Gəncədəki hadisə. Bunların hamısı planlaşdırılmış proseslər idi. Onlar Azərbaycanda dövləti devirmək istəyirdilər. Burada deyilən məlumatlar da bunu göstərdi, sübut etdi.

May ayında da, iyun ayında da, ondan əvvəl də adamlar narahatlıqla mənim yanıma gəlirdilər ki, belə danışıqlar gedir, şayiələr yayılır, ola bilər, dövlət çevrilişi olsun. Mən bu adamlara, – şübhəsiz, ürəyi yanan adamlara, çünki görürdüm onlar, doğrudan da, millətin, xalqın dərdinə yanan adamlardır, dəfələrlə demişdim və indi də deyirəm: əgər kimsə Azərbaycanın dövlətçiliyinə xəyanət edəcəksə, mən son damla qanıma qədər onunla mübarizə aparacağam. Azərbaycanın dövlətçiliyinin, müstəqilliyinin keşiyində bir vətəndaş kimi də, bir prezident kimi də durmuşam, duracağam və bu yolda hər dəqiqə, hər gün şəhid olmağa hazıram. Ona görə bu söz-söhbət, bu danışıqlar məni nə o vaxt qorxudurdu, nə də bu gün qorxudur.

Mən sizə bir dəfə demişəm, təkrar da edə bilərəm ki, mən Amerikaya yola düşərkən Azərbaycanda vəziyyət gərgin idi. Ancaq oraya getmək, Birləşmiş Millətlər Təşkilatında Azərbaycanın sözünü demək lazım idi. Onu da bilirsiniz ki, Azərbaycan müstəqillik qazanandan bəri onun dövlət başçısı BMT-də olmamışdı. Müstəqillik əldə edildikdən sonra keçən üç il ərzində ilk dəfə idi ki, Azərbaycanın dövlət başçısı Birləşmiş Millətlər Təşkilatında olmalı idi. Bu, əvvəllər də ola bilərdi, amma olmamışdı. Ona görə mən bunu etməli idim. Mən oraya gedərkən İstanbulun hava limanında müxbirlər məni əhatə etdilər, qəzetləri göstərdilər. Qəzetlərdə iri hərflərlə yazılmışdı ki, Azərbaycana zərbə vurmaq, çevriliş etmək istəyirlər. Men hamısına dedim ki, narahat olmayın. Birincisi, zərbə olmayacaq, [560-561] ikincisi, əgər olarsa, mən Azərbaycanda olsam da, olmasam da xalq bunun qarşısını alacaqdır.

Ancaq cinayətkarlar çirkin planlarmı yerinə yetirdilər. Demək istəyirəm ki, bu, heç vaxt məni qorxutmamışdır və bu gün də qorxutmur, sabah da qorxutmur, heç vaxt da qorxutmayacaq. Ona görə ki, mən öz saf vicdanıma inanıram. Mən buraya vəzifə üçün gəlməmişəm, mənsəb üçün gəlməmişəm. Mən böyük yükü ancaq ona görə çiynimə götürmüşəm ki, xalqın həyatının ən çətin dövründə ona xidmət göstərim. Mənim başqa fikrim, başqa məqsədim yoxdur. İkincisi də, əgər belə cinayətkar qüvvələr, doğrudan da, Azərbaycan xalqına güc gələrsə, onda elə mən də həlak olaram, başqaları da həlak olar. Lakin əminəm ki, bu cinayətkar qüvvələr heç vaxt Azərbaycan xalqına, onun iradəsinə güc gələ bilməz. Əgər keçmişdə bəzi hadisələrdə onlar istədiklərinə nail ola bilmişdilərsə, bundan sonra artıq nail ola bilməzlər. Belə olmasaydı, Surət Hüseynov və onun əlaltıları qoyub qaçmazdılar, burada qalardılar. Əgər mübarizə aparacaqdılarsa, aparaydılar, qaçmayaydılar. Hamısı qaçdı. Tutulan tutuldu, qalanları qaçdı. Əvvəlkilər də qaçdılar, Moskvada yerləşdilər, o birilər də qaçdılar. İndi bir qismi Moskvadadır, biri Kələkidədir, biri nə bilim, haradadır.

Ancaq mən bir müddət Azərbaycandan kənarda olmuşam. İndi Azərbaycana ömürlük gəlmişəm, bura mənim doğma Vətənimdir, doğma torpağımdır. Məni buradan heç bir qüvvə tərpədə bilməz. Mən bu işi ya başa çatdırmalıyam, ya da, əgər bunu edə bilməsəm, Azərbaycanın dövlətçiliyi, müstəqilliyi, ərazi bütövlüyü yolunda həlak olacağam.

Ancaq siz də bilin, xalq da bilsin, bütün Azərbaycan vətəndaşları da bilsin: mən nikbinəm, hesab edirəm ki, xalq, millət, Azərbaycanın vətəndaşları – biz hamımız birlikdə bu çətinliklərin öhdəsindən gələcəyik. Heç bir qüvvə Azərbaycanın müstəqilliyini əlindən ala bilməz, bundan sonra heç bir qüvvə Azərbaycanın dövlətçiliyini məhv edə bilməz. Bunä arxayın ola bilərsiniz!

Şübhəsiz ki, bu hadisələrdən nəticə çıxarmaq lazımdır. Birinci nəticə ondan ibarət olmalıdır ki, cinayətkarların hamısı cəzalanmalıdır. Bu gün burada çox ədalətli sözlər deyildi ki, cəzasızlıq çox vaxt belə hallara gətirib çıxarır. Biz artıq bunu tam dərk etməliyik. Bütün təbəqələrdə hər bir Azərbaycan vətəndaşı, hər bir vəzifəli şəxs gərək bilsin ki, Azərbaycanı bu vəziyyətdən çıxarmaq üçün qayda-qanun möhkəmləndirilməlidir, qanun tətbiq olunmalı, hər bir cinayətkar cəzasını almalıdır. Cəzasız heç bir şey qalmamalıdır.

Biz humanistik, demokratik dövlət qururuq, demokratik prinsiplər əsasında yaşamaq istəyirik. İnsan hüquqlarının, insan şəxsiyyətinin qorunmasına çalışacağıq. Ancaq gərək insan da dövlətin qanunlarına riayət etsin. Dövlətin qanunlarına əməl etməyən insan dövlətin qanunları əsasında cəzalanmalıdır. Başqa yol yoxdur. Biz özbaşınalığa, hərc-mərcliyə yol verə bilmərik. Bu müddətdə keçdiyimiz dövrdə, təəssüf ki, belə hallara yol ve[561-562]rilmişdir. Oktyabr hadisələri göstərdi ki, bunlara yol vermək mümkün deyildir. Şəxsiyyətindən, keçmiş xidmətlərindən, adından-sanından asılı olmayaraq hər kəs qanuna tabe olmalıdır. Qanunun aliliyi hamı üçün eyni olmalıdır – adi vətəndaş üçün də, vəzifəli şəxs üçün də, prezident üçün də. Mən də qanunun aliliyinin keşiyində duracağam. Bu hadisələrdən çıxaracağımız birinci nəticə və qanunun keşiyində duran bütün adamlardan mənim tələbim ondan ibarətdir ki, qanunu qorumaq, onu tətbiq etmək, cinayət törətmiş adamların hamısını məsuliyyətə cəlb etmək, cəzalandırmaq lazımdır.

Çevriliş cəhdi ilə əlaqədar bir qisim adam həbs olunmuşdur. İstintaq orqanları qısa müddətdə öz işini görməlidir. Hörmətli şairimiz Qabil burada doğru dedi, bunu uzatmaq olmaz, istintaq gedir, uzanır, məsələni öldürürlər. İndi məhkəmə orqanlarında o qədər natəmiz adamlar peyda olublar ki, onlar məhkəmədə bu işləri tamamilə öldürürlər və beləliklə, cinayətkar cəzasız qalır. Ona görə birinci nəticə və istintaq orqanlarından, hüquq-mühafizə orqanlarından bizim birinci tələbimiz ondan ibarətdir ki, bütün istintaq qısa müddətdə getməlidir, keyfiyyətli getməlidir, cinayətkarlar aşkara çıxarılmalı və tezliklə məhkəmə qarşısında dayanmalıdırlar. Məhkəmə öz sözünü deməlidir. Qaçmış və ya Azərbaycan ərazisində gizlənən, yaxud da Azərbaycandan kənarda olan adamları axtarıb tapmaq lazımdır. Bu, bizim hüquq-mühafizə orqanlarının, xüsusən Daxili İşlər Nazirliyinin borcudur və bu vəzifə yerinə yetirilməlidir.

Eyni zamanda, həm o cinayət fikirli adamlar, həm də bütün başqaları bilməlidirlər ki, bundan sonra belə hadisələrə yol verilməyəcək. Hamı bilməlidir ki, bu hadisələr Azərbaycan xalqının nəyə qadir olduğunu göstərdi. Bundan hərə özü üçün nəticə çıxarsın. İndi orada-burada danışıq, söz-söhbət gedir ki, yenə haradasa qruplaşıblar, yenə kimsə aranı qarışdırmaq istəyir, Moskvada guya onlar yığışır, görüşürlər, planlar qururlar, haradasa hansı qüvvələrini isə işə salmaq istəyirlər və s. Bilirsiniz, bu məlumatların müəyyən əsası da var, müəyyən mənada bunları bəlkə şişirdirlər də, ancaq həqiqət bundan ibarətdir ki, respublikamızda ayrı-ayrı pullu, vəsait ələ keçirmiş adamlar həmin o cinayətkarlarla əlaqədədirlər, onları maliyyələşdirirlər, maddi yardım göstərirlər. Burada çıxış edənlərdən biri dedi, onlar yenə də fikirləşirlər ki, bəlkə də yenə ara qarışdı, bir şey oldu və onlar yenə də bir mövqe tuta bilərlər.

Ona görə də hüquq-mühafizə orqanlarının və bütün ictimaiyyətin ikinci vəzifəsi budur ki, belə adamlar aşkara çıxarılmalıdır. Burada çox danışıqlar oldu ki, elə adamlar var, iki stulda oturmuşlar – o tərəfə də baxırlar, bu tərəfə də. İndi hər şey aydın oldu, gəlin o adamları aşkara çıxaraq. Əgər gözləyirsinizsə ki, o adamların hamısını mən tapmalıyam, onda sizin mənə yazığınız gəlmir. Bunu sizə açıq deyirəm. O adamlar bizim aramızdadır. Onlar aşkar olunmalı, kənarlaşdırılmalıdırlar. Ancaq eyni zamanda, mən dəfələrlə demişəm, heç kəsə damğa vurmaq olmaz. Əgər bir adam dünən səhv etmişdisə, başa düşməmişdisə, yolunu azmışdısa və bu gün düz yolla gedirsə, xalqla birlikdədirsə, qanuna riayət edirsə, – buna [562-563] söz yoxdur. Lakin adamlar var ki, üzdə bu deyilən sözlərə riayət edirlər, arxada isə çirkin işlər görürlər, xalqına xəyanət edirlər, yenə də aranı qarışdırmaq istəyirlər.

Ona görə belə adamlar aşkara çıxarılmalıdır. Ayrı-ayrı mafioz qüvvələr, hansılar ki, respublikadan kənarda və ya daxildə aranı qarışdırmaq istəyən, yenə də dövlətçiliyimizə, müstəqilliyimizə qəsd etmək istəyən adamlara kömək edirlər, onları maliyyələşdirirlər, silahlandırırlar – belələri aşkara çıxarılmalıdır. Bu, bizim hüquq-mühafizə orqanlarının vəzifəsidir, eyni zamanda ictimaiyyətin vəzifəsidir, hər bir vətəndaşın vəzifəsidir. Düzdür, son illər belə cinayətkarlar insanları o qədər qorxudublar ki, bəziləri öz canlarından, ailələrindən, uşaqlarından qorxurlar. Ona görə də cinayəti görəndə göz yumurlar, yaxud üzlərini yana çevirirlər. Belə hallar var, belə hallar çoxdur.

Elə götürün Gəncə şəhərinin özünü, böyük abidələr, tarixi ənənələr şəhəri, böyük Nizami Gəncəvi şəhəri, görkəmli şəxsiyyətlər yetişdirmiş şəhər Surət Hüseynovun, indi burada adını çəkdilər – Kəramət Kərimovun və bu cür quldurların əlində yesir qalmışdı. Gəncədə adamlar küçəyə çıxa bilmirdilər. İndi bəs nə oldu – quldurlar qaçandan sonra Gəncədə hamı rahat nəfəs alır. Gəncəlilər artıq rahatlaşıblar. Əgər təkcə Surət Hüseynovun evinin bir divarından 30 avtomat, pulemyot, qumbaraatan, qumbara çıxıbsa, buna nə ad vermək

olar? Həm də o, tək deyildir, başqaları da var. Əlbəttə, onlar bu silahlarla, sursatlarla adamları həm qorxudurdular, həm də incidirdilər.

Üçtəpə haqqında söz gedir. Bu Üçtəpə nədir? Vaxtilə orada olan diviziyanın komandirinin iqamətgahı idi, yəni bağ evi idi. Bundan sonra həmin bağ evini Surət Hüseynov əlinə keçirdi. Mənim bundan xəbərim yox idi. Mən biləndə, müdafiə nazirinə göstəriş verdim ki, bu, hərbi hissənin əmlakıdır və onu gedin alın. Surət Hüseynov buna müqavimət göstərmişdi. Müdafiə naziri də bir şey edə bilməmişdi. Surət Hüseynov orada cürbəcür çirkin işlər görürdü. Respublika daxili işlər naziri bir dəfə Gəncədə idi. Mənə dedilər ki, orada hadisələr var. Mən ona dedim ki, gedin baxın, görün orada nə olub? Getdi, orada onu təhqir etdilər, ona qarşı çox hörmətsizlik göstərdilər.

Kəramət deyilən bu adam kimdir? Heç adını da çəkməli adam deyil. Gəncə kimi ziyalılar şəhərini, böyük şəxsiyyətlər şəhərini bu cür quldurlar əlinə keçirib insanlara nə qədər əziyyət, mənəvi əzab veriblər. Ona görə də mən belə hesab edirəm ki, bəzi adamlar qorxurlar, çəkinirlər. Ancaq gəlin, vətəndaşlıq hissini, bizim ümummilli hissimizi hər şeydən üstün tutaq. Əgər Surət Hüseynovun, onun Gəncədəki dəstəsinin qarşısından biz də başqaları kimi ora-bura qaçsaydıq, onlar yenə də hakim olacaqdılar. Amma qaçmadıq.

Burada sizin qarşınızda şahidlər çıxış etdilər. Mən bu zabitə həmin gecəki hadisələrdə igidlik göstərdiyinə görə Milli Qəhrəman adı verdim. O, gənc Azərbaycan övladıdır, döyüşlərdə cəsarətlə iştirak edib. Haralarda [563-564] döyüşdüyü barədə özü burada söhbət acdı. Mən Füzuli rayonunun ərazisində, döyüş yerində onu görmüşdüm, görüşmüşdüm. Xatirimdədir, vaxtilə Naxçıvana da gəlmişdi. Sədərəkdə də olmuşdu. Bu da xatirimdədir ki, Naxçıvanski adına məktəbi oxuyub qurtaranlardan biridir. Yəni, mənim qəlbimdə o vaxtilə hazırladığım gənclərdən biridir. Gənc, Vətəninə sadiq, təmiz, saf insandır. Həm döyüşür, həm də gözəl qəhrəmanlığı ilə cinayətkarların qarşısını aldı. Onunla bərabər briqada komandiri Cəbrayılov da cinayətkarların qarşısını aldı.

Amma Gəncənin icra hakimiyyəti başçısı Elsevər İbrahimovu üç dəfə tutub aparmış, onların o şəxsi həbsxanasında saatlarla saxlamışdılar. İndi buna baxın, – bu gənc, cavan oğlana. Elsevəri görmüsünüzmü? Bu da onun kişiliyi. Ona o boyda vəzifə verilmişdi. Oktyabrın 2-də onu tutub aparmışdılar, orada saxlamışdılar. Sabahısı günü, ayın 3-də elan edib ki, heç bir şey olmayıb. Məlumat verib ki, orada heç bir şey yoxdur. Məgər sən görmürdün ki, orada dövlət çevrilişi hazırlanır? Demək, canından qorxurdun? Əgər o da, bu da canından qorxsa, cinayətkarlar gəlib bütün millətimizi dağıdar axı! Buna imkan vermək olarmı? Məgər Rövşən Əkbərovun canı can deyilmi? Cəbrayılovun canı can deyilmi?

Gəncə hadisələrində bizim üç nəfər gənc əsgərimiz həlak oldu. Bəli, cinayətkarların qəddarlığının həddi-hüdudu yoxdur – orada üç nəfər əsgəri öldürdülər. Onlar həlak oldular, amma bəzi şəxslər qaçıb evdə gizlənirlər. Əsgərlər xalqın yolunda, Azərbaycanın müstəqilliyi yolunda, Azərbaycanın dövlətçiliyini qoruyaraq həlak oldular. Lakin onlar dünyalarını dəyişdilərsə də, Milli Qəhrəman kimi Azərbaycan xalqının qəlbində daim yaşayacaqlar. Ona görə də gərək bizim hamımızda cəsarət olsun. Cinayətkarları üzə çıxaraq və indən sonra bunlara yol verilməsin.

Bu hadisələrdən sonrakı təxminən iki ay müddətində əhalidə olan silahların bir qismi yığılıb. Silahların bir qismini əhali gətirib könüllü təhvil verir, bir hissəsini hüquq-mühafizə orqanları alırlar. Bilirsiniz, bu müddətdə yığılan silahların sayına baxanda görürsən ki, əhalidə nə qədər silah var. Bizə, ordumuza silah lazımdır. Bizə silah lazımdır – erməni işğalçılarının qarşısını almaq üçün. Bizə silah lazımdır – Vətənimizi, torpaqlarımızı qorumaq üçün. Amma hər evdə silah saxlayıb, bir-birinə atəş açıb, bir-birini öldürüb, bir-biri ilə ədavət kəsmək, necə deyərlər, bizi içərimizdən dağıtmaqdır. Buna yol vermək olmaz.

Ona görə də bir daha deyirəm, bütün bu cinayətkarların aşkar olunması, meydana çıxarılması həm hüquq-mühafizə orqanlarının, həm ictimaiyyətin işidir, həm də hər bir vətənpərvər insanın işidir. Mən hamınıza müraciət edirəm. Bütün Azərbaycan xalqına, Azərbaycan vətəndaşlarına müraciət edirəm ki, gəlin hamımız birlikdə bu vəzifənin yerinə yetirilməsinə çalışaq, qarşıda qoyulan məqsədə nail olaq, respublikamızda əmin-amanlıq yaranması, cinayətkarlığın qarşısının alınması üçün lazımi işlər görək.

Ancaq bunu bir də qeyd etmək lazımdır: baxmayaraq ki, dövlət çevrilişinin qarşısı alındı, ayrı-ayrı cinayətkar adamlar öz fikirlərindən əl çək[564-565]mirlər. Yenə də deyirəm, onlar Moskvada, başqa yerlərdə toplaşıblar, cürbəcür işlər görürlər. Ona görə də hüquq-mühafizə orqanları çox ciddi işlər görməli, bütün bu kanallar aşkara çıxarılmalıdır.

Burada tələblər oldu. Hüquq-mühafizə orqanlarının rəhbərləri də bu məsələləri qaldırdılar. Mən hesab edirəm ki, bizim Baş Prokurorluq da, Daxili İşlər Nazirliyi də, Milli Təhlükəsizlik Nazirliyi də öz səviyyələrində bu məsələləri başqa ölkələrin lazımi orqanları qarşısında qoya bilərlər, qoymalıdırlar və buna nail olmalıdırlar. Cinayət etmiş bütün şəxslər – başqa ölkələrdə yaşayan bu adamların hamısı Azərbaycana qaytarılmalı, burada məhkəmə, ədalət, xalq qarşısında cavab verməli və cəzalarını almalıdırlar. Öz tərəfimizdən biz lazımi tədbirlər görəcəyik, ancaq hüquq-mühafizə orqanları rəhbərlərinin bu məsələdə həm imkanları, həm də səlahiyyətləri vardır. Bu gün burada səslənən təkliflərin hamısını nəzərə alaraq onlar bu işi də görməlidirlər.

Bu gün bu toplantının keçirilməsinin məqsədi keçmiş dövrə müəyyən qədər yekun vurmaq, o hadisələrə qiymət vermək, eyni zamanda xalqı bir daha birliyə, həmrəyliyə dəvət etmək, xalqı birləşdirməkdir.

Azərbaycanda demokratik prinsiplər bundan sonra da bərqərar olacaqdır. Respublikamızda fikir, söz, insan azadlığı var və bunların hamısı bundan sonra da qorunub saxlanılacaqdır. Respublikamızda çoxpartiyalı sistem var və biz bundan sonra da onun davam etməsinə şərait yaradacağıq. Ancaq bunların hamısı sağlam məfkurə əsasında, sağlam prinsiplər əsasında, Azərbaycanın dövlətçiliyinin, qanunlarının qorunması prinsipləri əsasında olmalıdır. Təəssüf ki, müxalifətdə olan bəzi qüvvələr, adlarını partiya və ya təşkilat qoyurlar – öz işləridir, belə fürsətlərdən istifadə edib istədiklərinə nail olmağa çalışırlar.

Birincisi, mən onları bir daha xəbərdar etmək istəyirəm ki, belə hərəkətlərdən əl çəksinlər. İkincisi də bilsinlər ki, həmin oktyabr hadisələrinə elə oktyabrın 4-dən 5-nə keçən gecə cavab verən xalq Azərbaycanın dövlətçiliyinə, müstəqilliyinə, qanunlarına qarşı hər bir belə cinayətə cavab verməyə qadirdir. Ona görə də hərə özü üçün nəticə çıxarsın. Şübhəsiz ki, hər bir partiya, hər bir ictimai-siyasi təşkilat fəaliyyət göstərə bilər, – əgər o, qanunidirsə. Ancaq bu "Nicat" təşkilatı kimisi yox. Şübhəsiz ki, gərək ədliyyə naziri cavab versin, necə ola bilir ki, bu cür quldurlar, cinayətkarlar dəstəsini dörd gün içərisində heç bir əsas olmadan qeydiyyata alıb onlara bir ad verir? Nə cür olur ki, bu quldur dəstəsinə özlərini eyni zamanda demokrat adlandıran Sosial-Demokrat Partiyasının üzvləri daxil olurlar? Bu nə cür olur? Bunlar anlaşılmazdır. Şübhəsiz ki, Ədliyyə Nazirliyi cavab verəcək. Ancaq o birisilər də özləri üçün nəticə çıxarmalıdırlar.

Yenə də deyirəm, hər bir partiya, hər bir təşkilat fəaliyyət göstərir və fəaliyyət göstərə bilər. Ancaq gəlin açıq danışaq. Bu partiyaların-filanların məqsədi nədir? Azərbaycanın müstəqil dövlət olması? Azərbaycan müstəqil dövlətdir. Dəfələrlə demişəm, Azərbaycanın müstəqilliyini qorumaq Prezident kimi mənim və mənim rəhbərliyim altında olan strukturla[565-566]rın hamısının birinci vəzifəmizdir və onu qoruyuruq, qoruyacağıq. Müharibənin qurtarması məsələsi?

Bu barədə nə işlər görüldüyünü bilirsiniz. Ərazimizin bütövlüyünün təmin olunması, işğal edilmiş torpaqlarımızın azad olunması, qaçqınların öz yerlərinə qayıtması? Bu məsələlərlə də məşğul oluruq. Yəni, dövlətin götürdüyü prinsipial xətlə bu partiyaların, təşkilatların prinsipial xətləri arasında fərq nədən ibarətdir?

Azərbaycan müstəqil dövlətdir, müstəqil dövlət kimi yaşayacaqdır. Azərbaycanda demokratik prinsiplər var, – yaşayacaqdır. İnsan, söz azadlığı var və yaşayacaqdır. Azərbaycan iqtisadiyyatı bazar yolu ilə gedir, – gedəcəkdir. Özəlləşdirmə prinsipləri tətbiq olunur, – olunacaqdır. Bu barədə yaxınlarda qanunlar qəbul ediləcəkdir. 1995-ci ildə Azərbaycanda demokratik əsasda parlament seçkiləri keçiriləcəkdir. Bunlar hamısı olacaqdır. Əgər bunlar dövlətin siyasətinin və əməli fəaliyyətinin də əsas prinsiplərıdirsə, partiya və təşkilatların da prinsipləri bundan ibarətdirsə, onda fərq nədədir? Bu vuruşma, söyüşmə nədən ötrüdür? Əgər bu prinsiplər bizim hamımız üçün eynidirsə, hamı bu prinsiplər ətrafında birləşsin. Mən demirəm hamı bir partiyada olsun, yox. Ayrı-ayrı partiyalar da olsun. Lakin bu partiyalar, bu təşkilatlar ancaq həmin prinsiplərin həyata keçirilməsi ilə məşğul olsunlar, nəyin bahasına olursa-olsun vəzifə tutmaqla, hakimiyyətə gəlməklə yox. İndi hakimiyyətə gəlmək mümkün deyil.

Burada dedilər ki, mən Surət Hüseynovu bir il üç ay, – mən saymamışam nə qədərdir, əgər deyirlərsə, deməli, bu qədərdir, – tərbiyə etmək istədim, amma tərbiyə edə bilmədim. Sizə acıq deyirəm, – mən dəfələrlə, saatlarla onunla söhbətlər aparmışam. Mən istəyirəm ki, hər bir insanı azdığı yoldan çəkindirəm. Ona dəfələrlə demişəm ki, sən cavan adamsan, bu vəzifəni tutmağa sənin nə savadın, nə təcrübən, nə də biliyin çatır – bunlar səndə yoxdur. Ancaq şərait elə gətirib ki, sən bu vəzifəyə gəlib çıxmısan. Səbəbləri də məlumdur, bunu açmağa ehtiyac yoxdur. Bir halda ki, gəlib düşmüsən, bir şey öyrən. Əgər, doğrudan da, düz yolla getmək istəyirsənsə, gəl bir təcrübə topla. Gəl, bu dövlətçilik prinsiplərini öyrən, iqtisadiyyatı öyrən, digər şeyləri öyrən, başqa işlərlə məşğul olma. Mən bunun üçün çox səylər etdim, ancaq nail ola bilmədim. Çünki, o mənə hər dəfə "baş üstə, baş üstə" dedi, ancaq sonradan quldur dəstəsini başına yığıb öz işləri ilə məşğul oldu.

O, bu vəzifəni tutaraq, bir çox adamları əlinə keçirmişdi. Məsələn, milli təhlükəsizlik naziri, kənd təsərrüfatı naziri onun əlində idi, bir çox başqa adamlar ona yaltaqlıq edirdilər, ikiüzlülük edirdilər. Bəzilərini mən nə üçün işdən çıxardım? Məsələn, Əsgər Məmmədovu, Əli Təhməzovu dərhal işdən götürdüm. Çünki ona yaltaqlıq edirdilər, ikiüzlülük edirdilər. Əlbəttə ki, baş nazirin tapşırığını yerinə yetirmək lazım idi. Ancaq əgər görürsənsə ki, bu baş nazir qeyri-qanuni iş görür, sən onu başa sal ki, bunu etmək olmaz. Amma Əli Təhməzov bir yerdə gedirdi və deyirdi – hörmətli Prezidentimiz, hörmətli Ali Sovetin sədri, hörmətli Baş nazir [566-567] belə dedi, elə dedi. Bu cür işləmək olmaz. Ancaq belələri var idi. Belələri olan halda, əgər bu Surət Hüseynov dövlət çevrilişi edə bilmədisə, başqaları necə çevriliş edib hakimiyyətə gələ bilərlər? Mən başa düşə bilmirəm, bunu nə cür etmək istəyirlər?

Hakimiyyətə gəlməyin qanuni yolu var. Birincisi, parlament seçkilərində qalib gəlib parlamentdə yer tutmaq olar. Ancaq bu, hakimiyyətə gəlmək demək deyil. Hakimiyyət Prezidentdədir. Prezidenti xalq seçibdir. Prezidentin hələ qabaqda dörd il vaxtı var. Mən bir ildən çox çalışdım ki, Surəti öyrədim, öyrədə bilmədim. Ona görə də mən o adamların hamısına məsləhət görərdim ki, onlar heç olmasa, özləri öz üzərlərində işləsinlər, gələcəkdə – dörd il sonra prezident seçkilərində özlərini bir yoxlasınlar ki, ola bilər, bəlkə onlardan bir şey çıxar. Mən bunu məsləhət bilirəm. Amma ara qarışdırmaq, cürbəcür işlər görmək lazım deyil. Respublikamız ağır vəziyyətdədir. Onu bu ağır vəziyyətdən çıxarmaq lazımdır.

Altı aydan çoxdur, bir neçə gündən sonra yeddi ay olacaq ki, cəbhədə atəş kəsilib. Siz təsəvvür edin, bunu indi acıq demək istəmirəm, bu yeddi ay müddətində o gün olmayıb ki, biz bu məsələlərdən, müharibədən çıxış yolu axtarmayaq. Biz müharibənin yenidən başlanmasını istəmirik. Elə dövlət, elə beynəlxalq təşkilat yoxdur ki, bu məsələlərdən çıxış yolunu onlarla müzakirə etməyək. Bütün imkanlardan istifadə etməyə çalışırıq.

Müharibəni qurtarmaq, camaatı yerinə-yurduna qaytarmaq, işğal olunmuş torpaqlarımızı azad etmək lazımdır. Bunlar bizim əsas vəzifəmizdir. Kim bu vəzifəyə qulluq etmək istəyirsə, gəlsin bərabər edək. Bu barədə kim ağıllı məsləhət verə bilərsə, gəlsin. Amma təxribatla məşğul olmaq lazım deyil.

İqtisadiyyatda çətinliklər var. Bu, son illərin proseslərinin nəticəsidir. Vəziyyət ağırdır. Müəssisələrin bir çoxu ya işləmir, yaxud da ki, istehsal gücünün 20-30-35-40 faizi səviyyəsində işləyir. Camaatın çoxu işsizdir, məvacibləri azdır, çatmır. Bunlar məlumdur. Mən sizə, bütün xalqa deyirəm ki, bizim insanların maddi vəziyyətinin aşağı olmasına görə qəlbim hər gün ağrıyır.

Bir qisim şəxslər bu şəraitdən istifadə edib çox gözəl yaşayırlar. Ancaq əksəriyyət ağır maddi vəziyyətdədir, çətinlik çəkir. Çadırlar altında yaşayan adamlar, qaçqın vəziyyətində olan adamlar ən çətin vəziyyətdədirlər. Mən şəxsən bunların hamısını görürəm, bilirəm. Respublikanı bu vəziyyətdən çıxarmaq üçün lazımi tədbirlər görürəm və bir Prezident kimi bundan sonra da görəcəyəm. Biz bu məsələlərlə məşğul oluruq, olacağıq. Ancaq respublikanın vəziyyətindən istifadə edib yenə ara qarışdırmaq lazım deyil.

Televizorda baxırsınız, – dünən də, srağagün də Gürcüstanda, Ermənistanda olan vəziyyəti Moskva televiziyası ilə verirdilər. Vəziyyəti görürsünüz – cəmisi bir saat işıq verirlər. Qaz yoxdur. Onlar o qədər də qaz almırlar – Türkmənistandan bir az alırlar, onu da kəsiblər. Çörək, başqa şeylər yoxdur. Gürcüstanda da, Ermənistanda da maddi vəziyyət həddən artıq ağırdır. Şübhəsiz ki, bu, bizə təskinlik verə bilməz. Hər xalqın öz işi [567-568] var. Deyə bilmərik ki, orada vəziyyət pisdir, bizdə də pis olsun. Ancaq bizdə elektrik də, qaz da var. Aparılan işlərin nəticəsində Amerikanın "Penzoyl" şirkəti bizim böyük bir qaz mənbəyindən qazın Bakıya gətirilməsinə kömək etdi. Bunun hesabına bizim qaz təminatımız artıb. Elektrik enerjisi də var.

İndi təsəvvür edin, məsələn, Azərbaycanın elektrik enerjisi özünü bütünlüklə təmin edir, hətta Gürcüstan bizdən enerji istəyir. Bəzən onlara da enerji veririk. Ancaq nə Ermənistan, nə də Gürcüstan özünü öz enerjisi ilə təmin edə bilmir. Mən bunu sizə deməklə özümə şöhrət qazandırmaq istəmirəm. O qaragüruhçu adamlara isə heç cavab vermək istəmirəm. Ümumiyyətlə, demək istəyirəm ki, əgər biz 70-80-ci illərdə Mingəçevirdə o elektrik stansiyalarını tikməsəydik, – orada 8 blok tikilib, – indi Azərbaycan Gürcüstandan da, Ermənistandan da pis vəziyyətdə idi. O vaxtlar bu bloklar tikildi. Hər blok bir zavoddur – onları almaq da çətin idi, çünki Leninqradda hazırlayırdılar və o vaxtlar Sovetlər İttifaqının hər yerinə lazım idi. Biz onları nə çətinliklərlə alırdıq, gətirirdik, tikirdik, yaradırdıq. Düzdür, indi onların da çoxu köhnəlib. Əgər təmir olunmasa, bəziləri bərpa edilməsə, ola bilər, bir-iki ildən sonra elektrik enerjisi ilə təminatımız pis olsun. Ancaq vaxtilə biz onları yaratmışıq. Onları bu hay-küyçülər yox, cinayətkarlar yox, orda-burda qışqıranlar yox, Azərbaycan xalqı, Azərbaycanın zəhmət adamları yaradıb və mənim də orada xüsusi xidmətlərim olub.

Ancaq bunlar o demək deyil ki, yenə də deyirəm, bizdə elektrik enerjisi, qaz və başqa şeylər var və onlarda yoxdursa, özümüzə təskinlik verməliyik. Yox. Biz narahatıq, çox narahatıq. Məsələn, məni ən çox narahat edən çörək məsələsidir. Siz təsəvvür edin. 2-3 ay bundan qabaq alınan buğdanın qiyməti ilə indi alınan buğdanın qiyməti arasında həddindən artıq böyük fərq vardır. Bu buğdanı biz xaricdən dollara alırıq. Alıb gətirmək də çətindir. Şimali Qafqazdan yol bağlanıbdır. Biz buğdanı Volqoqraddan, Həştərxandan gəmilərlə gətirmək üçün nə qədər çətinliklə yollar açdıq. Mən Aşqabatda olanda İranın Prezidenti Rəfsəncanidən xahiş etdim, oradan da çətinliklə taxıl gətiririk. Mən sizə deyim ki, bu, baha qiymətə gəlir. Biz Qazaxıstandan da çətin yolla buğda gətiririk. İndi Avropa İqtisadi Şurasının bizə köməyi gəlməlidir. Biz gecə-gündüz bu işlərlə məşğuluq.

Mən başa düşürəm ki, çörəyin qiymətinin qalxması gərginlik yaradır. Mən bunu bilirəm, Ancaq baxın görün, başqa yerlərdə çörəyin qiyməti neçəyədir. Baxın görün ki, çörəyin hər kiloqramının maya dəyəri nə qədərdir, satış qiyməti nə qədərdir.

Bizdə başqa etnik qruplar da var. Bəziləri bu etnik qrupları bir-birinə qarşı qoymaq istəyirlər. Ola bilər ki, keçmiş illərdə buraxılan səhvlər də buna müəyyən qədər şərait yaradır. Ancaq mən dəfələrlə demişəm, bu gün bir daha deyirəm: milli mənsubiyyətindən, milli köklərindən asılı olmayaraq Azərbaycan vətəndaşlarının hamısı eynihüquqludur. Heç kəs çalışmasın ki, ayrı-ayrı bölgələrdə olan, ayrı-ayrı köklərə mənsub olan [568-569] Azərbaycan vətəndaşlarını bir-birinə qarşı qoysunlar, bir-biri ilə vuruşdurmağa çalışsınlar. Birincisi, mən tam əminəm ki, bizim ayrı-ayrı bölgələrdə belə fikirlərlə yaşayan adamlar azdır. Ola bilər ki, olanlar da Əlikram Hümbətov kimiləri və başqalarıdır. İkincisi də illər, əsrlər boyu bizim bir yerdə yaşayıb bir yerdə olmağımız və bütün bu millətlərin hamısının bir dinə – İslam dininə mənsub olması hamımızın birliyini təşkil edir. Eyni zamanda, Azərbaycan dili bizi bir-birimizə birləşdirib. Burada bizim bir çox etnik köklü millətlərə mənsub olan adamların hamısı Azərbaycan dilini öz ana dili kimi qəbul edib. Azərbaycan dili bizi keçmişdə də, gələcəkdə də birləşdirəcəkdir.

Bu amillərdən, bu məqamlardan istifadə etmək istəyən qruplara xəbərdarlıq edirəm ki, bunu etməsinlər. Onlar buna nail ola bilməyəcəklər. Birincisi, bu imkanı xalqlar özü onlara verməyəcək, ikincisi də biz

verməyəcəyik. Azərbaycan vahid respublikadır. Azərbaycan Respublikasında yaşayan vətəndaşların hamısı dilindən, dinindən, yaxud milli köklərindən asılı olmayaraq, eyni hüquqlara malikdirlər, onların hər biri eyni səviyyədə təmsil olunur və təmsil olunacaqdır. Bu birliyi biz bundan sonra da qorumalıyıq, saxlamalıyıq.

Yəni, demək istəyirəm ki, erməni işğalçılarının bizə qarşı təcavüzündən başqa, respublikamızda milli münasibətlər problemi olmamalıdır. Əgər haradasa hansı bir hadisə baş verirsə, biz ağılla, kamalla onun qarşısını almalı, ona cavab verməli, onu həll etməliyik və belə kiçik məsələlərin şişib böyük bir hadisəyə çevrilməsinə imkan verməməliyik.

Mən bir daha qeyd etmək istəyirəm ki, bugünkü görüşümüz çox əhəmiyyətli toplantıdır. Mən bu gün sizin qarşınızda, Azərbaycan Respublikasının bütün vətəndaşlarının qarşısında çıxış edərkən oktyabrın 3-də, 4- də, 5-də baş verən hadisələri bir daha xatırlayaraq, yenə də demək istəyirəm ki, xalqımızın həmrəyliyi, birliyi hər şeyi: Azərbaycan Respublikasının müharibədən çıxmasını da, Azərbaycanın ərazi bütövlüyünü də, müstəqil respublikamızın gələcəkdə firavan həyat sürməsini də həll edəcəkdir.

Oktyabrın 4-də, 5-də Azərbaycan xalqının, Azərbaycan vətəndaşlarının öz milli həmrəyliyini, vətəndaş həmrəyliyini nümayiş etdirməsini, cinayətkar qüvvələrə qarşı çıxmasını yüksək bir nailiyyət kimi qeyd edirəm və əmin olduğumu bildirmək istəyirəm ki, əldə olunan bu nailiyyət bundan sonra da yaşayacaq, inkişaf edəcək, biz hamımız bu birliyi göz bəbəyimiz kimi qoruyub saxlayacağıq.

Oktyabrın 4-dən 5-nə keçən gecə mənim müraciətimə səs verən Azərbaycan vətəndaşlarına və o günlərdə Azərbaycanın dövlətçiliyini qorumaq üçün ayağa qalxan xalqımıza, vətəndaşlara və cinayətkar qüvvələrin layiqli cavabını verən, onlara zərbə vuran Azərbaycanın qəhrəman, cəsur oğullarına öz hörmət və ehtiramımı bildirirəm. Keçirdiyimiz o günlərdə Azərbaycanın dövlətçiliyini qoruduğunuza görə, Azərbaycanın Prezidentinə dayaq olduğunuza görə, Azərbaycanın Prezidentini müdafiə etdiyinizə görə hamınıza, bütün Azərbaycan xalqına, bütün Azərbaycan vətən[569-570]daşlarına bir daha öz hörmətimi, ehtiramımı, minnətdarlığımı bildirirəm. Əmin olduğumu bildirmək istəyirəm ki, mən daim bu etibara, bu etimada layiq olacağam.

Burada çıxış edənlər mənim ünvanıma xoş sözlər dedilər. Təşəkkür edirəm. Burada deyildi ki, 17 mindən artıq məktub, teleqram gəlib. Bunların hamısında da Azərbaycanın müstəqilliyinin, dövlətçiliyinin qorunmasından bəhs edilir. Azərbaycan Prezidentinə bir daha etimad göstərilir. Buna görə də məktub yazanların, teleqram göndərənlərin, müraciət edənlərin hamısına təşəkkürümü bildirirəm. Əlinə qələm alıb məktub yazmaq, teleqram vurmaq, əziyyət çəkmək – bunun özü də bir vətənpərvərlikdir, bunun özü də bir şücaətdir. Ona görə də bu vətəndaşların hamısına öz xüsusi təşəkkürümü və minnətdarlığımı bildirirəm.

Bu məktubların bir çoxunda belə təkliflər var – həmin təkliflər bu gün burada da səsləndi ki, Heydər Əliyevə Milli Qəhrəman adı verilsin, Heydər Əliyevə filan fəxri ad verilsin. Məsələn, bu yaxınlarda mənə xəbər verdilər ki, BDU-da mənə universitetin fəxri doktoru adı verilməsi barədə qərar qəbul olunub. Mən sizə səmimi demək istəyirəm, bütün bu xoş arzulara, xoş niyyətlərə görə hamıya minnətdaram, hamıya təşəkkür edirəm. Ancaq hamı da bilsin, mənim üçün xalqın mənə göstərdiyi etimaddan və etibardan yüksək mükafat yoxdur. Başçılıq etdiyim dövlətdə mən özüm üçün başqa bir mükafat görmürəm, Ona görə də xahiş edirəm məni düzgün başa düşəsiniz, mən bu dövlətin başçısı kimi ən yüksək mükafat almışam. Bu, xalqın mənə verdiyi yüksək mükafatdır. Qalan mükafatları prezident verir. Prezident özü-özünə mükafat verməz. Ona görə də bu arzulara, bu sözlərə görə təşəkkür edirəm. Əmin ola bilərsiniz ki, bu vəzifəni həyata keçirdiyim müddətdə axıradək mənim belə şeyə ehtiyacım olmayacaq və bundan sonra heç kəs bu barədə özünü narahat etməsin.

Sizin hamınıza bir daha öz hörmət və məhəbbətimi, sevgimi bildirirəm, bütün Azərbaycan xalqını mənə göstərilən etimada görə qucaqlayıram, bağrıma basıram və əmin olduğumu bildirmək istəyirəm ki, biz bundan sonra daha cəsarətli addımlarla irəliyə gedəcəyik. Sağ olun. [570-571]

## "AZƏRBAYCAN" QƏZETİNİN KOLLEKTİVİNƏ

Əsası, 1918-ci ildə qoyulmuş "Azərbaycan" qəzeti müstəqil dövlətçilik tariximizdə öz yeri olan nəşrlərdəndir. Vaxtilə Azərbaycan Demokratik Respublikasının rəsmi qəzeti kimi nəşr olunmuş "Azərbaycan" xalqımızın istiqlal mübarizəsində mühüm xidmətlər göstərmişdir.

Məlum tarixi səbəblər üzündən ADR kimi, "Azərbaycan" qəzetinin də ömrü uzun olmamışdır. Xalqımız əsrin əvvəllərində itirdiyi müstəqilliyini əsrin axırlarında bərpa etdiyi zaman "Azərbaycan" qəzeti də yenidən fəaliyyətə başladı və müstəqil Azərbaycan Respublikasının rəsmi dövlət qəzeti kimi ictimai həyatda layiqli yerini tutdu.

Müstəqilliyimizə düşmən kəsilmiş daxili və xarici qüvvələr öz çirkin məqsədlərinə nail olmaq üçün bu gön də azğın niyyətlərindən əl çəkmirlər. Məlum oktyabr hadisələri onların mürtəce təbiətini bir daha aşkarladı. Amma Azərbaycan xalqı yekdilliklə ayağa qalxaraq öz qanuni prezidentini, müstəqil dövlətçiliyini müdafiə etdi. Fərəhli haldır ki, həmin həlledici məqamda "Azərbaycan" qəzeti öz sayıqlığını bir an belə itirmədi.

"Azərbaycan" qəzetinin 1000-ci sayının çapdan çıxdığı bu əlamətdar gündə sizi təbrik edir, müstəqil dövlətimizin həyatının işıqlandırılmasında yaradıcı heyətə uğurlar diləyirəm.

**HEYDƏR ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*4 dekabr 1994-cü il* [571-572]

## ATƏM-in ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ ZİRVƏ TOPLANTISINDA İŞTİRAK ETMƏK ÜÇÜN BUDAPEŞT ŞƏHƏRİNƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRƏ MÜSAHİBƏSİ

*4 dekabr 1994-cü il*

Səfərin xüsusi əhəmiyyəti var. Çünki 1975-ci ildə Finlandiyada Helsinki Yekun Aktının imzalandığı, yəni Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin yarandığı dövrdən bu, dövlət rəhbərlərinin dördüncü görüşüdür. ATƏM-ə daxil olan dövlətlərin başçıları bu görüşdə iştirak edəcəklər və Avropa Təhlükəsizliyi, Avropa Birliyinin möhkəmləndirilməsi barədə mühüm məsələlər müzakirə olunacaqdır. Əsas məsələlər bu təşkilatın, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin işini gücləndirmək və fəallaşdırmaqdan ibarətdir. Biz buna tərəfdarıq. Amerikanın prezidenti cənab Bill Klinton mənə məktubunda da bu məsələlər barəsində öz fikirlərini yazmışdır. Mən ona göndərdiyim məktubda – dekabrın 2-də ona cavab məktubu göndərmişəm – Azərbaycanın mövqeyini bildirmişəm. Bizim mövqeyimiz belədir ki, ATƏM təşkilatı güclənməlidir, daha böyük fəaliyyət göstərməlidir, yeni Avropanın yaranması üçün, yeni Avropanın inkişafı üçün bu təşkilatın fəaliyyəti bundan sonra daha da artıq olmalıdır. Biz bir Avropa dövləti kimi və Avropa Birliyinə daxil olan bir dövlət kimi ATƏM təşkilatının güclənməsinin tərəfdarıyıq. Bu mövqelərimizi orada bildirəcəyik.

Eyni zamanda Budapeşt Zirvə görüşündə Ermənistanla Azərbaycan arasında gedən hərbi münaqişə, müharibə ilə əlaqədar məsələ də müzakirə olunacaq, xüsusən, ATƏM-in sülh məramlı qüvvələrinin yaradılması və bizim bölgəyə göndərilməsi məsələləri müzakirə ediləcəkdir. Bu da bizim üçün çox əhəmiyyətlidir. Çünki demək olar, ilk dəfədir ki, belə Zirvə görüşündə bu məsələ xüsusi bir məsələ kimi gündəliyə salınıbdır və müzakirə olunacaqdır, ona görə də biz bu görüşdən çox şeylər gözləyirik. [572-573]

## ATƏM-in ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ BUDAPEŞT GÖRÜŞÜNDƏ ÇIXIŞ

*6 dekabr 1994-cü il*

Hörmətli cənab sədr!
Hörmətli dövlət başçıları!
Xanımlar və cənablar!

Göstərilən qonaqpərvərliyə, Budapeşt şəhərində işləməyimiz üçün yaradılan gözəl şəraitə görə Macarıstan Respublikasının prezidenti cənab Arpad Göntsə, Macarıstan hökumətinə səmimi minnətdarlığımı bildirmək istəyirəm.

Azərbaycan xalqı Avropada Təhlükəsizliyə və Əməkdaşlığa dair Müşavirəyə böyük əhəmiyyət verir, indiki görüşdən çox şey gözləyir. 1975-ci ildə Helsinkidə ATƏM-in Yekun Aktının imzalanması dünya proseslərinin gedişinə uzunmüddətli müsbət təsir göstərmiş, son illərdə dünyada baş verən əsaslı dəyişikliklərin ilk əlamətlərindən biri olmuşdur. Dünyanın siyasi xəritəsi dəyişmiş, ATƏM-in üzvü olan yeni suveren dövlətlər meydana gəlmişdir ki, onlardan biri də mənim ölkəm – müstəqil Azərbaycandır.

Müasir şəraitdə ATƏM-in rolu və əhəmiyyəti getdikcə daha da artır. Yeni Avropaya, sərhədlərin və nüfuz dairələrinin olmayacağı Avropaya təkmilləşmiş ATƏM gərəkdir. ATƏM-in fəaliyyətini gücləndirmək, onu demokratikləşdirmə və insan hüquqlarının qorunması proseslərinə təsirli kömək göstərməyə, hələ möhkəmlənməmiş gənc dövlətlərin azadlığına və istiqlaliyyətinə xələl gətirə biləcək təcavüzkarlıq hərəkətlərinin və ya planlarının qarşısını qətiyyətlə almağa, qitəmizin qaynar nöqtələrində sabitliyin bərpasına kömək etməyə qadir olan, "soyuq müharibə" qurtardıqdan sonra Avropa təhlükəsizliyinin yeni binasının dayaqlarından birini təşkil edə bilən səmərəli vasitəyə çevirmək son dərəcə zəruridir.

Azərbaycan Respublikası öz istiqlaliyyətini elan etmişdir və bazar iqtisadiyyatına, çoxpartiyalı sistemə, insan hüquqlarını və şəxsiyyətin azadlığını təmin edən qanunlara malik demokratik dövlət yaradılması yolunda inamla irəliləyir. Keçid dövrünün obyektiv çətinliklərinə, zorla cəlb edildiyimiz altı illik müharibənin nəticələrinə baxmayaraq, biz bu yolun xeyli hissəsini keçmişik və əminik ki, qarşıya qoyduğumuz məqsədlərə çatacağıq.

Azərbaycan NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramına qoşulmuşdur, tərksilah və silahlanma üzərində nəzarət sahəsində beynəlxalq [573-574] hüquqi öhdəliklərin, o cümlədən Avropada adi silahlı qüvvələr haqqında müqaviləyə aid öhdəliklərin yerinə yetirilməsi xəttinə ciddi əməl edir.

Biz bərabərhüquqlu tərəfdaş kimi iqtisadi cəhətdən dünya birliyinə qoşulmağımızı sürətləndirmək üçün də əlimizdən gələni edir, istər öz qonşularımızla, istərsə də dünyanın bütün ölkələri ilə sıx əməkdaşlığı inkişaf etdiririk.

Xəzər dənizinin Azərbaycan sektorundakı neft yataqlarının birgə işlədilməsinə dair bu il sentyabrın 20-də dünyanın bir sıra iri şirkətləri ilə müqavilə imzalanması dediklərimə parlaq nümunədir. Xüsusi qeyd etmək istəyirəm ki, bu çox iri investisiya layihəsinin bir sıra iştirakçıları ATƏM-ə daxil olan ölkələri – ABŞ-ı, Rusiyanı, İngiltərəni, Türkiyəni, Norveçi təmsil edirlər. Ümidvaram ki, həmin müqavilə bu konsorsiumda iştirak edən ölkələrin və xalqların bir-birinə yaxınlaşmasına, bütövlükdə isə Avropada sabitliyin və əməkdaşlığın möhkəmlənməsinə kömək edəcəkdir.

Hörmətli xanımlar və cənablar!

Müşavirənin iştirakçılarına məlumdur ki, altı il bundan əvvəl respublikamızın bir hissəsini – Dağlıq Qarabağı onun əlindən qoparıb almaq məqsədi ilə bizə qarşı təcavüz edilmişdir. Ermənistan Respublikası, Dağlıq Qarabağdakı erməni separatçıları dövlətimizin ərazi bütövlüyünə qarşı geniş hərbi əməliyyatlara əl atmışlar. Azərbaycanın Şuşa şəhəri və Laçın rayonu zəbt olunduqdan sonra əslində Dağlıq Qarabağ ilhaq edilmişdir. Dağlıq Qarabağın 50 mindən çox azərbaycanlı yaşamış onlarca yaşayış məntəqəsi dağıdılmış və yandırılmışdır. Dağlıq Qarabağ əməliyyat meydanından istifadə etməklə erməni silahlı birləşmələri Azərbaycanın altı başqa rayonunu – Dağlıq Qarabağın hüdudlarından kənarda yerləşən və sahəsi onun sahəsindən dörd dəfə böyük olan Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlı rayonlarını da işğal etmişlər.

Təcavüz nəticəsində Azərbaycanın iyirmi faizindən çoxu işğal olunmuşdur. Mənim həmvətənlərimin 20 mindən çoxu həlak olmuş, təqribən 100 min nəfəri yaralanmış və şikəst qalmış, 6 min nəfəri əsir düşmüşdür, bir milyondan çox azərbaycanlı, yəni respublikanın əhalisinin təqribən on beş faizi doğma yurd-yuvasından qovulmuşdur və hazırda çadır şəhərciklərində yaşayır, ən zəruri ehtiyaclarını ödəyə bilmir. İşğal edilmiş Azərbaycan ərazilərində 700 şəhər və kənd dağıdılmış, yandırılmış, bütün evlər, məktəblər, xəstəxanalar talan olunmuş, ən qədim mədəniyyət abidələri məhv edilmişdir.

Münaqişəni aradan qaldırmaq üçün Minsk qrupunun yaradılması haqqında ATƏM-in 1992-ci ilin yazında qəbul etdiyi qərarı Azərbaycan xalqı böyük ümidlə qarşılamışdır. Qrupun tərkibinə münaqişənin iştirakçısı olan Ermənistan və Azərbaycan ilə yanaşı, dünyanın doqquz nüfuzlu ölkəsi daxildir. Ötən dövr ərzində xeyli iş görmüş bu qrupun fəaliyyətini biz böyük minnətdarlıqla qiymətləndiririk.

Rusiya Federasiyasının vasitəçilik fəaliyyətini qeyd etməyi zəruri sayıram. Onun səyləri və ATƏM-in köməyi ilə yeddi aya yaxındır ki, [574-575] atəşkəsə əməl edilir və qan tökülmür. Lakin atəşin hər hansı şəkildə kəsilməsi hələ sülh demək deyildir. Tərəflərin mənafeyini və beynəlxalq hüquq normalarını nəzərə alan siyasi saziş imzalanmadan möhkəm və ədalətli sülh ola bilməz. Atəşkəsdən istifadə etməklə biz bu sənədin razılaşdırılıb qəbul edilməsinə intensiv çalışırıq.

Əmin etmək istəyirəm ki, Azərbaycan Respublikası bu prosesdə son dərəcə sülhsevər və əməli mövqe tutur. Təcavüzün ağır nəticələrinə baxmayaraq, biz Ermənistan tərəfinə ədalət və humanizmin əsasında, ATƏM-in prinsipləri, BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında sülh təklif edirik. Biz Dağlıq Qarabağın erməni əhalisinin təhlükəsizliyinə təminat verməyə hazırıq, münaqişə zonasında ATƏM-in sülhü qoruyan qüvvələrinin yerləşdirilməsinə razıyıq. Biz milli azlıq təşkil edən ermənilərin hüquqlarının həyata keçməsi üçün Azərbaycan dövlətinin tərkibində Dağlıq Qarabağın statusunu müzakirə etməyə və Azərbaycanın Dağlıq Qarabağ regionu ilə Ermənistan Respublikası arasında nəqliyyat kommunikasiyalarının normal işləməsini təmin etməyə də hazırıq. Amma bizim üçün sarsılmaz olan normalar və prinsiplər vardır ki, bunlar da sərhədlərin pozulmazlığı, Azərbaycanın ərazi bütövlüyü, işğal edilmiş bütün ərazilərdən erməni silahlı birləşmələrinin çıxarılması, qaçqınların doğma ocaqlarına qaytarılmasıdır.

Bu gün məhz təcavüzkarın BMT Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirməkdən və işğal olunmuş bütün Azərbaycan ərazilərindən öz silahlı birləşmələrini mərhələ-mərhələ çıxarmağa razılıq verməkdən boyun qaçırması siyasi saziş əldə edilməsinə mane olur.

Minsk qrupunun üzvləri arasında fikir ayrılıqlarının aradan qaldırılmasından, onların səylərinin Azərbaycan ilə Ermənistan arasında sülhün və sabitliyin bərqərar edilməsi üçün birləşdirilməsindən də çox şey asılıdır.

Ermənistan-Azərbaycan münaqişəsinin aradan qaldırılması üçün sülhü qoruyan beynəlxalq qüvvələr təşkil etmək sahəsində ATƏM-in sədrinin səylərini biz alqışlayırıq. Mən sədrin çağırışına səs vermiş bütün ölkələrə təşəkkür edir və hamını bu nəcib işdə ona kömək göstərməyə çağırıram.

Xram çayı üzərində olan, Ermənistanı Gürcüstanla birləşdirən körpünün partladılması ilə əlaqədar Ermənistan Respublikasının prezidenti cənab Levon Ter-Petrosyanın bəyanatı məni son dərəcə təəccübləndirdi. Mən baş verən hadisədə Azərbaycan Respublikasının əli olması barədə ittihamları qətiyyətlə rədd edirəm və bu bəyanatı tamamilə sübutsuz, heç bir əsası olmayan bəyanat sayıram. Üçüncü dövlətin ərazisində, döyüş əməliyyatı zonasından yüz kilometrlərlə uzaqda baş vermiş bu hadisəyə atəşkəs rejiminin Azərbaycan tərəfindən kobud şəkildə pozulması kimi düşünülməmiş qiymət verilməsi də xüsusi narahatlıq doğurur.

Belə təəssürat yaranır ki, Azərbaycana heç bir dəxli olmayan bu hadisədən vəziyyəti kəskinləşdirmək, gərginliyi artırmaq üçün xüsusi olaraq istifadə edilir. Bununla əlaqədar mən cənab Levon Ter-Petrosyanı başlan[575-576]mış sülh prosesinə, burada, Budapeştdə, bizim məclisimizdə hökm sürən əlverişli şəraitə ziyan vura biləcək hər hansı düşünülməmiş hərəkətlərdən çəkindirirəm.

Mən öz tərəfimdən bir daha bildirirəm ki, dövlətimiz əldə olunmuş atəşkəsə sadiqdir və Ermənistan-Azərbaycan münaqişəsini sülh yolu ilə aradan qaldırmaq üçün səylərini əsirgəməməyə hazırdır. Mən cənab Levon Ter-Petrosyanı sülh axtarışı yolunda fəal əməkdaşlığa dəvət edirəm.

Münaqişənin aradan qaldırılması işində əsaslı irəliləyişə nail olmaq üçün Budapeşt görüşünün nadir imkanı vardır. Mən ATƏM-in üzvü olan dövlətlərin hörmətli başçılarına müraciətlə xahiş edirəm ki, bu işdə fəal iştirak etsinlər, mənim xalqımı, milyonlarla adamı ağrı-acıya, iztirablara məruz qoyan altı illik müharibənin alovunu söndürməyə kömək etsinlər, bununla da Avropada Təhlükəsizliyə və Əməkdaşlığa dair Müşavirənin Yekun aktının ümdə prinsiplərinin həyata keçməsinə imkan açsınlar. Bu sənədi biz hamımız təntənə ilə imzalamışıq.

Diqqətinizə görə təşəkkür edirəm. [576-577]

## BUDAPEŞTDƏN VƏTƏNƏ QAYIDARKƏN ZİRVƏ TOPLANTISININ YEKUNLARI BARƏDƏ TƏYYARƏDƏ JURNALİSTLƏRƏ MÜSAHİBƏSİ

*7 dekabr 1994-cü il*

**Sual**: **Cənab prezident, "Soyuq müharibə"nin başa çatması, böyük regional müharibələrin məhəlli müharibələrlə əvəz olunması və yeni beynəlxalq təşkilatların meydana çıxması ilə əlaqədar ATƏM-in yarandığı tarixdən başlayaraq və Budapeşt Zirvə toplantısı ilə bağlı rolunu nədə görürsünüz?**

**Heydər Əliyev**: ATƏM-in yarandığı vaxtdan iyirmi il keçir. Bu müddət ərzində onun fəaliyyətinin cürbəcür mərhələləri olmuşdur. Mən dünən Budapeşt görüşündəki çıxışımda ATƏM-in yarandıqdan sonra dünyanın siyasi iqliminin, siyasi xəritəsinin dəyişilməsində göstərdiyi xidmətləri, rolu və fəaliyyəti qeyd etdim. Məhz ATƏM yarandıqdan sonra dünyada demokratik proseslər inkişaf etməyə başladı. Həm ölkələrin daxilində gedən demokratik proseslər, həm də dövlətlər arasında olan münasibətlər "Soyuq müharibə"nin sona çatmasına gətirib çıxardı, dünyanın siyasi xəritəsini dəyişdirdi. Yeni müstəqil dövlətlər meydana gəldi, o cümlədən müstəqil Azərbaycan dövləti də yarandı.

İndi isə yeni bir mərhələ başlamışdır. ATƏM-in üzvü olan ölkələrin dövlət və hökumət başçılarının toplantısında mən birinci dəfədir ki, iştirak edirəm. Bu, ATƏM yaranandan bəri dördüncü görüşdür. Bütün bunlara görə də mən, yarandığı dövrdən bəri ATƏM-in fəaliyyətinə yüksək qiymət verirəm.

Hesab edirəm ki, Budapeşt görüşündə ATƏM yeni bir qüvvə aldı. Yeni bir mərhələyə çatdı. Şübhəsiz ki, hər bir görüşün tarixdə öz yeri var. Zənnimcə, bu dördüncü görüş ATƏM-in tarixində xüsusi yer tutacaqdır. Çünki bu görüşdə çox böyük məsələlər müzakirə olundu və Avropanın təhlükəsizliyi, qitədə ATƏM-in fəaliyyətinin bundan sonra genişləndirilməsi haqqında Avropanın təsir bölgələrinə bölünməməsi haqqında, bölgə xətlərinin yaranmaması şərti ilə qitənin vahid Avropa kimi inkişaf etməsi haqqında çox fəal iş görüldü. Ona görə də mən Budapeşt görüşünü ümumbəşəri, dünya nöqteyi-nəzərindən çox yüksək qiymətləndirirəm.

**Sual**: **Cənab prezident, Zirvə toplantısında ATƏM-in sülhməramlı qüvvələrinin yaradılmasına razılıq verildi. Bu, bir tərəfdən, Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılması perspektivi ilə, digər tərəfdən, Qərb ekspertlərinin və diplomatlarının da dediyi kimi, sizin fəaliyyətinizlə bağlıdır. Türkiyənin baş naziri Tansu Çillər isə belə bir qənaətə gəldi ki, ATƏM-in sülhməramlı qüvvələri və onun taleyi bu qüv**[577-578]**vələrin Dağlıq Qarabağ münaqişəsinə son qoyulmasında imtahandan necə çıxacağından asılıdır. O, həmçinin dedi ki, ATƏM-in fəaliyyəti bu məsələnin həllindən asılıdır. Siz buna necə qiymət verirsiniz?**

**Cavab**: Mən qeyd etdim ki, ATƏM-in Budapeşt görüşünün çox böyük əhəmiyyəti var. Ancaq bizim region, Qafqaz regionu üçün, o cümlədən Azərbaycan üçün bu toplantının əhəmiyyəti əvəzsizdir. Mən bunu xüsusi qeyd edirəm. Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində altı ildir ki, müharibə gedir. 1992-ci ilin martından etibarən ATƏM bu işə bilavasitə qarışıb və Ermənistan-Azərbaycan münaqişəsini aradan qaldırmaq üçün, Qarabağ məsələsini həll etməkdən ötrü Minsk konfransı, Minsk qrupu yaratmışdır. Az sonra üç il olacaqdır ki, Minsk qrupu fəaliyyət göstərir. Minsk qrupu ilə bizim fəaliyyətimiz Azərbaycan ictimaiyyətinə də, sizə, mətbuatımıza da məlumdur. Mən Azərbaycanın dövlət başçısı kimi fəaliyyətə başladığım vaxtdan, Ali Sovetin sədri seçilən gündən ATƏM-lə və onun Minsk qrupu ilə sıx əməkdaşlıq edirəm. Siz bunların hamısının şahidisiniz. Bütün bu əməkdaşlıq dövründə mən daim çalışmışam ki, ATƏM-in əvvəldən nəzərdə tutulmuş fəaliyyətinə, – xüsusən Minsk qrupu vasitəsilə bu münaqişənin aradan qaldırılmasına – üstünlük şəraiti yaradılsın. Çünki bu, münaqişəyə son qoyulması üçün ən etibarlı yoldur, ola bilər ki, əlimizdə olan imkanların ən etibarlısıdır. Ona görə də mən buna çox fikir vermişəm.

Bilirsiniz ki, ATƏM-in nümayəndələri, Minsk qrupunun başçıları ilə dəfələrlə uzun-uzadı söhbətlər aparmışam, buna çox vaxt sərf etmişəm və ATƏM-in bu məsələyə nəinki bilavasitə qarışmasını, həm də təşəbbüsü öz əlinə almasını istəmişəm. İndiyədək bu, sizə məlum olan səbəblər üzündən baş tutmurdu. Mən çalışmışam ki, ATƏM-in Minsk qrupunun fəaliyyətini və Rusiyanın vasitəçilik səylərini bir-birinə yaxınlaşdırım, hətta bunları birləşdirim. Bu tövsiyələri mən ATƏM-in Minsk qrupunun başçısı Yan Eliassona da, Rusiyanın vasitəçilik missiyasının rəhbəri Vladimir Kazimirova da etmişəm. Onların həm Bakıda, həm də Moskvada görüşlərinin təşkil olunmasına çalışmışam. Biz bu işdə də müəyyən nailiyyətlər əldə etmişik. Ancaq istədiyimiz nailiyyətə çata bilməmişik. Çünki bu müddətdə Minsk qrupunun fəaliyyəti ilə Rusiyanın vasitəçilik səylərini birləşdirməyə nail olmamışıq.

Biz, şəxsən mən Rusiyanın vasitəçilik fəaliyyətini yüksək qiymətləndirirəm. Məsələn, Rusiyanın vasitəçiliyi sayəsində biz mayın 12-də atəşin kəsilməsi haqqında qərar qəbul etdik. Sonra Minsk qrupu da bu işə qoşuldu. Rusiya və Minsk qrupunun başçısı Böyük Sülh Müqaviləsi əldə olunana qədər atəşkəsin davam etməsi haqqında birgə bəyanat verdilər.

Ancaq bunların hamısı onların səylərinin birləşdirilməsinə gətirib çıxarmadı. Ona görə də biz fəaliyyətimizi davam etdirdik. Həm Rusiya ilə, həm Amerika Birləşmiş Ştatları ilə, həm də ATƏM-in üzvü olan başqa ölkələrlə əməkdaşlıq etdik və nəticədə Budapeşt görüşünə yeni bir qətnamə hazırlandı. Bu qətnamənin hazırlanması yolu da çox enişli-yoxuşlu, əzab[578-579]-əziyyətli, çətin olmuşdur. Çünki bəzi qüvvələr bu işə mane olurdular. Həmin sənəd bir neçə mərhələdən keçdi. Hətta biz Budapeştə gələndə də bu qətnamənin qəbul ediləcəyinə ümid çox az idi.

Mən Amerika Birləşmiş Ştatlarının nümayəndələri ilə, o cümlədən ABŞ prezidenti cənab Bill Klintonla görüşdüm, Türkiyənin baş naziri Tansu Çillərlə, Rusiyanın, digər ölkələrin nümayəndələri ilə söhbətlər apardım. Bizim həm Vyanaya, həm də Budapeştə göndərdiyimiz işçi qruplarımız da çox çalışdı. Xüsusən də həm Qərbin, həm bizim, həm də Minsk qrupuna daxil olan başqa dövlətlərin bu işə birgə razılığı nəticəsində, həmçinin Amerika Birləşmiş Ştatları ilə Rusiya arasında aparılan danışıqlar nəticəsində qətnamənin müzakirəyə çıxarılması məsələsi həll olundu və müzakirələr zamanı qarşıya çıxan maneələr aradan qaldırıldı. Nəhayət, qətnamə qəbul edildi. Bu, altı il gedən müharibə ərzində bizim üçün çox böyük əhəmiyyətli ilk beynəlxalq sənəddir.

Şübhəsiz ki, Azərbaycan torpaqlarının işğal olunması ilə bağlı BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi dörd qətnamə bizdən ötrü qiymətlidir. Ancaq həmin qətnamələr həyata keçirilmədi. Nə üçün? Çünki qətnamələr qəbul edildi, lakin həyata keçirilmə mexanizmi olmadı və onlar havada asılı qaldı. Ancaq Ermənistanla Azərbaycan arasındakı münaqişəyə son qoyulması üçün Budapeştdə çoxmillətli sülhü mühafizə qüvvələri yaradılması haqqında qərar qəbul edildi.

Son illər, xüsusən mən bu işlə məşğul olduğum vaxt çoxları dəfələrlə mənə demişdilər ki, ATƏM heç zaman sülhməramlı qüvvələr yarada bilməz və bu, mümkün deyil. Belə fikirlər hətta Birləşmiş Millətlər Təşkilatında, digər ölkələrin başçılarında, nümayəndələrində də vardı. Ancaq mən daim inanırdım ki, ATƏM-in sülhü mühafizə qüvvələrini yaratmaq olar. Mən bundan ötrü çalışırdım, bütün səylərimi də buna yönəltmişdim. İndi burada, qısa söhbətdə nə vaxt, hansı addımlar atıldığını deməyi lazım bilmirəm. Ola bilər, bu, işin pillələri, mərhələləri gələcəkdə açılıb yazılsın. Ancaq ötən müddət ərzində mən böyük inamla bu işə yanaşırdım və bilirdim ki, ATƏM-in sülhü mühafizə qüvvələri yarana bilər.

Nəhayət, son ay ərzində böyük ölkələrin paytaxtlarında belə bir fikir, demək olar, formalaşdı. Düzdür, ziddiyyətlər də meydana çıxdı. ATƏM-in sülhü mühafizə qüvvələrinin yaranması reallaşdığı zaman bəzi paytaxtlarda bunun əleyhinə çıxanlar da oldu. Ancaq sülhü mühafizə qüvvələrinin yaranması o qədər zəruri idi ki, bunun qarşısını ala bilmədilər. Bu maneələr Vyanada, Budapeşt görüşünün hazırlanması dövründə, görüş zamanı da özünü büruzə verdi. Son mərhələdə Amerika Birləşmiş Ştatları ilə Rusiya arasında bu barədə danışıqlar nəticəsində qətnamənin əldə olunması artıq reallaşdı və nəyahət, dekabrın 6-da həmin sənəd qəbul edildi.

Mən bunu Azərbaycan Respublikası üçün, xüsusən Ermənistanın Azərbaycana qarşı təcavüzünün aradan qaldırılması üçün çox böyük tarixi hadisə, tarixi bir nailiyyət, bizim nailiyyətimiz hesab edirəm. Ümidvaram ki, onun əsasında biz bundan sonra atəşkəsin möhkəmləndirilməsinə, [579-580] xüsusən çoxmillətli qüvvələrin yaranmasına nail olacağıq. Həmin qüvvələrin yaranması ilə indi böyük sazişin hazırlanması da asanlaşır. Çünki bu qətnaməyə görə, indi Minsk qrupunun iki sədri var: onların biri İsveçdən, digəri Rusiyadandır. Bu, bizdən ötrü məsələni yüngülləşdirəcəkdir. İndiyədək bir sədrin olması çətinlik yaradırdı. Mən hesab edirəm ki, biz bu imkanlardan istifadə edə biləcəyik. Yəni ATƏM-in sülhməramlı qüvvələrinin yaranması məsələsi artıq reallaşmışdır və biz həm bu qüvvələrin toplanması, həm də Böyük Siyasi Sazişin hazırlanması ilə məşğul olacağıq, sazişin hazırlanması daha da asanlaşacaqdır.

Mən Budapeştdə bir çox dövlətlərin, xüsusən Avropa dövlətlərinin başçıları ilə görüşdüm. Onların hamısı bu qətnaməni dəstəklədi və əksəriyyəti ATƏM-in sülhməramlı qüvvələrinin yaranmasında öz ölkələrinin iştirak edəcəyi barədə mənə bəyanatlar verdi. Bütün bunlar məndə belə bir inam yaradır ki, biz artıq yeni mərhələdəyik və bundan sonra həmin məsələləri daha da müvəffəqiyyətlə həll edə bilərik.

**Sual**: **Cənab prezident, çox böyük iş görülüb, qətnamə qəbul olunub. Lakin bu, hələ problemin həll edilməsi demək deyil. Ancaq inditdən belə səslər eşidilir ki, daha bir qətnamə qəbul olunsun. Yəni görülən işi nüfuzdan salmağa çalışanlar da var. Siz buna necə baxırsınız?**

**Cavab**: Mən sizə dedim: Budapeşt görüşünə qədər bizim yolumuz çox ağır, əzablı yol olmuşdur. Hesab etməyin ki, bundan sonra biz böyük bir asfalt yola çıxırıq. Yolumuz yenə çətin olacaq, ancaq bir halda ki, biz prinsipiallıq, dəyanət göstərdik, öz mövqeyimizi daim müdafiə etdik, mövqeyimizdən çəkilmədik, buna nail olduq, deməli, bundan sonra da istədiklərimizə nail ola biləcəyik.

**Sual**: **Bəzi dövlət başçıları deyirlər ki, ATƏM indi böhran keçirir. Məsələn, Eduard Şevardnazde də bu fikirdədir. Digər tərəfdən, indiki Zirvə toplantısında qlobal məsələlər həll olundu. Siz buna necə baxırsınız?**

**Cavab**: Bilirsiniz, indi Eduard Şevardnadzenin ölkəsinin vəziyyəti çox ağırdır. Vaxtilə Birləşmiş Millətlər Təşkilatı da, ATƏM də orada məsələni həll etmək barədə müəyyən vədlər vermiş, lakin bunları yerinə yetirməmişlər. Buna görə də onun belə söz deməyə haqqı var. Ancaq mən bu fikirlə heç də razı deyiləm ki,

ATƏM böhran dövrü keçirir. Mən hesab edirəm ki, Budapeşt toplantısında ATƏM özünün gücünü nümayiş etdirdi və göstərdi ki, bu, güclü, böyük bir beynəlxalq təşkilatdır. ABŞ prezidenti cənab Bill Klintonun çıxışında da bu fikirlər səsləndi. Belə fikirlər başqa çıxışlarda da oldu. Ona görə də mən hesab etmirəm ki, ATƏM böhran dövrü keçirir. Mənim fikrimcə, ATƏM yeni bir pilləyə qalxmışdır.

**Sual**: **Nəhayət ki, ATƏM-in silahlı qüvvələri yaradılır və onların Ermənistan-Azərbaycan münaqişəsi zonasında yerləşdirilməsi ilk imtahan olacaqdır. Sizcə, bu, Böyük Siyasi Sazişin imzalanmasını sürətləndirməyə imkan verəcəkmi? Budapeşt görüşü ərəfəsində Rusiyanın bir çox kütləvi informasiya vasitələri belə xəbərlər yayırdı ki, ATƏM və** [580-581] **Azərbaycan Rusiyanı Qarabağ probleminin həllindən kənarlaşdırmaq istəyirlər. Bu barədə nə deyərdiniz?**

**Cavab**: Əvvəla mənim fikrimcə, ATƏM-in çoxmilli qüvvələri tərkibində Rusiya qüvvələrinin də olması nəzərdə tutulur. MDB qüvvələrinin daxil edilməsindən söhbət getmir. Rusiya çoxmillətli qüvvələrdə kifayət qədər təmsil olunacaqdır. Deməli, burada heç bir problem yoxdur. Əlbəttə, ATƏM-in qüvvələrində hansı ölkəyə nə qədər yer veriləcəyini ATƏM-in sədri müəyyən edəcəkdir. Bu aydındır və biz də bilirik ki, yenə deyirəm, Rusiya orada kifayət qədər təmsil olunacaqdır.

O ki qaldı siyasi saziş barədə sualınıza, mən əvvəl də dedim. Böyük Siyasi Saziş hazırlamaq üçün indi daha əlverişli şərait yaranır. Çünki indiyədək Minsk qrupunun və Rusiyanın səylərini birləşdirməyə imkan yox idi. Belə ziddiyyət vardı. Mən görüşdəki çıxışımda dedim ki, Minsk qrupuna daxil olan ölkələrin səylərinin birləşdirilməsindən çox şey asılıdır. Mən BMT-də də demişdim ki, Rusiya və Minsk qrupu öz səylərini birləşdirməli, fəal əməkdaşlıq etməlidirlər. Budapeşt qətnaməsi buna imkan yaradır və zənnimcə, indi Böyük Siyasi Saziş hazırlamaq bizə asan olacaqdır.

İkinci sualınıza gəldikdə isə, belə məlumatların heç bir əsası yoxdur. Çünki Rusiya ATƏM-in üzvüdür. ATƏM isə Avropanın beynəlxalq təşkilatıdır. Ona daxil olan hər bir ölkə istəyir ki, bu təşkilatın fəaliyyətində yaxından iştirak etsin. O cümlədən Rusiya da, Azərbaycan da, başqa ölkələr də. Bir də ki, biz Rusiya ilə fəal əməkdaşlıq edirik. Mən bayaq dedim ki, Budapeştdə qəbul olunmuş qətnamə məhz ümumi əməkdaşlığın, o cümlədən Amerika Birləşmiş Ştatları ilə Rusiya arasında əməkdaşlığın nəticəsidir. [581-582]

## RESPUBLİKA ALİ SOVETİNDƏ "AQRAR İSLAHAT: PROBLEMLƏR VƏ ONLARIN HƏLLİ YOLLARI" MÖVZUSUNDA BEYNƏLXALQ KONFRANSDA ÇIXIŞ

*9 dekabr 1994-cü il*

Hörmətli xanımlar və cənablar!
Hörmətli qonaqlar!

Müstəqil Azərbaycan Respublikası demokratik prinsiplər əsasında öz dövlətini quraraq, cəmiyyəti formalaşdıraraq, eyni zamanda demokratik prinsiplər əsasında iqtisadiyyatın inkişafını təmin etmək yolu ilə gedir. Azərbaycan dövlətinin bu əsas prinsipləri dəfələrlə bəyan edilmişdir. Biz bu gün bir daha bunu bəyan edərək, həmin sahədə görüləsi işlər haqqında müəyyən müzakirələr aparmaq fikrindəyik.

Azərbaycan iqtisadiyyatının bütün sahələri, ümumiyyətlə, respublikanın bütün iqtisadiyyatı sərbəst iqtisadiyyat prinsipləri əsasında qurularaq, sahibkarlıq, bazar iqtisadiyyatı yolu ilə təşkil edilərək gələcək inkişaf yollarına düşməkdədir. Bununla əlaqədar son illər ölkəmizdə proseslər gedir, amma bu proseslər ağır, çətin gedir. Bunun obyektiv və subyektiv səbəbləri var. Lakin bütün bunlara baxmayaraq, Azərbaycan dövlətinin strateji yolu yalnız həmin yoldan ibarətdir. Bu yol demokratiya, sərbəst iqtisadiyyat prinsiplərinin bərqərar olması və bazar iqtisadiyyatı, sahibkarlıq yoludur. Həmin yolla müvəffəqiyyətlə getmək və istədiyimiz məqsədlərə çatmaq üçün vəzifə iqtisadiyyatın bütün sahələrində islahatlar aparmaqdan və bu islahatlar vasitəsilə Azərbaycanın mövcud iqtisadiyyatını sərbəst iqtisadiyyat prinsipləri əsasında irəlilətməkdən ibarətdir.

Azərbaycan iqtisadiyyatının böyük bir hissəsini aqrar sahə təşkil edir. Bu sahə iqtisadiyyatımızın, yəni bizim iqtisadi sahədə istehsalın təxminən 40-42 faizinə bərabərdir. Azərbaycan Respublikasında həm əhalinin ərzaq malları ilə, həm də sənayenin bir çox sahələrinin xammal ilə təmin edilməsi aqrar sahə ilə bağlıdır.

Azərbaycanın təbiətinə, iqliminə, torpağına, ərazisinə görə aqrar sahəmiz böyük imkanlara malikdir. Bu imkanlardan daha səmərəli istifadə etmək, onların hamısını, Azərbaycan xalqının rifahı naminə yönəltmək dövlətimizin və aqrar sahədə aparılmalı olan islahatların əsas məqsədidir.

Ölkəmizdə aqrar sənayenin, kənd təsərrüfatının çox böyük tarixi var. Əgər uzaq keçmişə nəzər salsaq, görərik ki, Azərbaycan aqrar ölkə olubdur, yəni uzaq keçmişdə Azərbaycan əhalisinin yaşayışı tamamilə torpaqdan, kənd təsərrüfatından asılı idi. XIX əsrin ikinci yarısında və XX əsrin əvvəllərində Azərbaycanda sənaye geniş inkişaf etmişdir və indi, XX əsrin sonuna çatdığımız bir dövrdə Azərbaycan Respublikası həm aqrar [582-583] ölkə, həm də böyük sənaye ölkəsi kimi tanınmışdır. Doğrudan da, aqrar sənaye Azərbaycan iqtisadiyyatının əsasını təşkil edir.

Azərbaycanda sərbəst iqtisadiyyat prinsiplərini bərqərar etmək, hər yerdə tətbiq etmək üçün, ölkəmizi dünya iqtisadiyyatına qovuşdurmaq üçün bütün sahələrdə islahatlar aparılmalıdır. Bu gün biz bu sahədə lazımi əməli tədbirlər görürük. Ancaq hər sahənin özünəməxsus xüsusiyyətləri var. Bu xüsusiyyətləri, eləcə də Azərbaycan iqtisadiyyatının potensialının və 1920-ci ildən sonra yaranmış iqtisadi prinsiplərin, iqtisadi sistemin indiyədək davam etdiyini nəzərə alaraq həmin islahatlar elə aparılmalıdır ki, bunlar, əvvəla, iqtisadi potensialımızın səmərəliliyini təmin etsin, ikincisi isə iqtisadiyyatın gündən-günə inkişafı ilə yanaşı, xalqın rifah halının yaxşılaşmasını da təmin etsin.

Bu baxımdan aqrar sahədə, kənd təsərrüfatı sahəsində görüləsi işlər xüsusi əhəmiyyət kəsb edir və həmin işlər sənayenin, iqtisadiyyatın, sosial sektorun başqa sahələrinə nisbətən daha mürəkkəbdir. Bu məsələlər, bir tərəfdən, həmin səbəbdən ləng gedir, ikinci tərəfdən isə burada islahatların aparılması bəzən bir çoxlarını qorxuya salır, narahat edir. Onlarda belə əhval-ruhiyyə yaranır ki, əgər aqrar sahədə, kənd təsərrüfatı sahəsində ciddi islahatlar getsə, bu, kənd təsərrüfatımızı, aqrar sahəmizi daha da dağıdacaqdır. Belə fikirlərin olması müəyyən qədər təbiidir. Eyni zamanda onlar cəmiyyətimizdə, xüsusən aqrar sahədə uzun müddət – on illər ərzində çalışanların psixoloji vəziyyəti nəticəsində yaranmış mühitlə əlaqədar bir haldır. Bununla bərabər, belə hallar bu sahədə islahatlar aparılmasının həqiqətən tərəfdarı olan adamların müəyyən qədər tərəddüd etməsinə gətirib çıxarır.

Bir daha qeyd etmək istəyirəm ki, aqrar sahə ilə iqtisadiyyatın başqa sahələri arasında böyük fərq var. Əgər təkcə Azərbaycanın deyil, ümumiyyətlə, keçmiş Sovet İttifaqının bütün regionlarında aqrar sahənin tarixinə nəzər salsaq, onun 20-ci illərədək bir iqtisadi sistem üzərində qurulduğunu xatırlatsaq, onda görərik ki, bundan sonrakı, xüsusən 1930-cu illərdən sonrakı dövrdə, yəni kənd təsərrüfatında kollektivləşmə prosesi getdiyi zaman tamamilə başqa bir sistem, tamamilə başqa bir psixologiya yaranmışdır və bizim indiki kənd təsərrüfatının idarə edilməsi sistemi burada istehsalın təşkil olunması sistemi və kənd təsərrüfatında çalışan adamların psixologiyası, dünyagörüşü, ümumiyyətlə, bu məsələlərə münasibəti 30-cu illərdən sonra formalaşmış prinsiplərə çox oxşayır.

1930-cu ilə qədər kənd təsərrüfatı, xüsusən torpaq sahibkarlarda və hər kəsin özündə olmuşdur. Buna görə də hər kəs ondan istədiyi kimi istifadə etmişdir. Şübhəsiz ki, sahibkarlar da torpağın sahibi kimi ayrı-ayrı fərdləri işlədərək, o vaxtın şəraitinə və tələblərinə görə kənd təsərrüfatı məhsullarından müəyyən səviyyədə istifadə edərək insanların yaşamasını təmin edirdilər. Bildiyiniz kimi 1930-cu ildə tətbiqinə başlanmış kol[583-584]lektivləşmə prinsipləri kollektivləşmə sistemi çox ağır şəraitdə, inzibati-amirlik, repressiyalar şəraitində, insanları bu sistemi qəbul etməyə məcbur etmək yolu ilə gedib, bütün bunlar çox böyük itkilərə gətirib çıxarıb. O vaxtlar aclıq dövrü olub, insanların çoxu bütün var-yoxundan məhrum olub, bir hissəsi kollektivləşmə prinsiplərini qəbul etmədiyinə görə repressiyalara məruz qalıb, həlak olub. Bütün bu proseslər nəticəsində kollektivləşmə prinsipi təxminən on il ərzində öz yerini tutub və bərqərar olub. Növbəti mərhələlərdə sonrakı nəsillər kollektiv təsərrüfat sistemini, sosialist idarəetmə sistemini, torpaqdan istifadə, ümumiyyətlə, təbiətin bütün yerüstü sərvətlərindən istifadə sahəsində bu prinsipləri qəbul edib və bunu da məqbul biliblər.

Bir çox mənfi cəhətləri ilə yanaşı, bu sistem keçmiş Sovet İttifaqında, o cümlədən Azərbaycanda da kənd təsərrüfatının inkişafını təmin edib və sonrakı dövrlərdə kənd təsərrüfatı həmin sistem çərçivəsində inkişaf edib, müsbət nəticələr əldə olunub. Ona görə də indi aqrar sektorda işləyən, həmin sektoru idarə edən və onun ən aşağı pilləsində, yəni torpaqda işləyən adamların əksəriyyəti bu psixologiya ilə yaşayır, ona öyrəşmişdir və keçmişdə olan çətinlikləri, mənfi prosesləri, onların insan hüquqlarına, ümumiyyətlə, demokratik prinsiplərə nə qədər zidd olmasını unudub belə bir sistemə artıq alışmışdır. Odur ki, indi bu insanları həmin sistemdən ayırmaq, başqa sistemə yönəltmək böyük bir prosesdir, özü də mürəkkəb prosesdir və bəzən böyük müqavimətlərə, çətinliklərə rast gəlir.

Lakin aqrar sahədə sosialist iqtisadiyyatı prinsiplərinin daha bir nəticə vermədiyi hələ bir neçə il bundan öncə məlum olmuşdur. Buna görə də adamlar, xüsusən öz ölkəsini, xalqını daha doğru yolla aparmaq istəyən qüvvələr, təşkilatlar, insanlar bu vəziyyətdən çıxış yolları axtarıblar. Bildiyiniz kimi, bu proseslər keçmiş Sovet İttifaqında təxminən 1980-ci illərin əvvəllərindən başlanıb, cürbəcür yollar axtarılıb, müxtəlif formalar təklif edilib. O vaxtlar bu formaların əksəriyyəti sosialist quruluşunun, sosialist sisteminin içində müəyyən dəyişikliklər etməklə əlaqədar idi. Bunların çoxu da təcrübədən keçirildikdən sonra lazımi nəticə vermədi və bütün keçmiş Sovet İttifaqının ictimaiyyəti, o cümlədən də Azərbaycan ictimaiyyəti qəti olaraq belə bir fikrə gəldi ki, köklü dəyişikliklər getməlidir, ciddi islahatlar aparılmalıdır, bütün iqtisadiyyat sərbəst yol ilə getməlidir, eləcə də aqrar sahədə ciddi dəyişikliklər, ciddi islahatlar həyata keçirilməlidir.

Son illər Azərbaycanda iqtisadi istehsalın ilbəil aşağı düşməsi və iqtisadiyyatın getdikcə dağılması sübut edir ki, biz köhnəlmiş prinsiplər, köhnə sistem əsasında daha nailiyyət qazana bilmərik. Əgər bu prinsiplərdən möhkəm yapışıb qalsaq, yenə də böyük çətinliklərlə rastlaşacaq və şübhəsiz, iqtisadiyyatda, o cümlədən aqrar sahədə istehsal yenə də aşağı düşəcəkdir. Ona görə də islahatların aparılması zəruri bir vəzifədir. Bu barədə tərəddüdlərə son qoymaq lazımdır. Qarşımızda nə qədər çətin[584-585]liklər olsa da, biz bu islahatları həyata keçirməliyik. Bunu da nəzərə almaq lazımdır ki, Azərbaycan Respublikasının təbiəti, torpağı, iqlimi ölkəmizdə bol kənd təsərrüfatı məhsulları istehsal etməyə və aqrar sektoru yüksək səviyyəyə qaldırmağa imkan verir.

Bu imkanların yüksək səviyyədə olduğunu sübut etmək üçün bir neçə rəqəm gətirmək istərdim. 70-ci illərin axırlarında – 80-ci illərin əvvəllərində Azərbaycan Respublikası kənd təsərrüfatı sahəsində ən yüksək iqtisadi göstəricilərə nail olmuşdu. O illərdə Azərbaycanda hər il orta hesabla 1,5 milyon ton buğda, 800 min ton pambıq, 1,5 milyon ton üzüm, 650-700 min ton tərəvəz məhsulları, 300 min ton meyvə, 25 min ton çay yarpağı, 55-60 min ton tütün, təxminən 5 min ton barama, 130-140 min ton ət və digər kənd təsərrüfatı məhsulları istehsal edilirdi. 1993-cü ili götürsək, 1 milyon 100 min ton buğda, habelə təxminən 200 min ton üzüm, 285 min ton pambıq istehsal edilib. Başqa məhsulların istehsalı da o qədər aşağı düşüb ki, onları heç dilə gətirmək istəmirəm.

Mən bu rəqəmləri gətirməklə Azərbaycan Respublikasının kənd təsərrüfatı sahəsində, aqrar sahədə imkanlarını nəzərə çatdırmaq istəyirəm. Çünki o göstəricilər olmuşdur, həmin illərdə o məhsullar istehsal edilmişdir. Eyni zamanda demək istəyirəm ki, həmin yolla getməklə biz bu vəziyyətə düşmüşük və əgər bundan sonra da bu yolla getsək, indikindən də pis vəziyyətə düşəcəyik. Mən bunu bir daha qeyd etmək istəyirəm. Tam əminəm ki, əgər biz aqrar sektorda iqtisadi islahatlar aparıb istədiyimiz prinsipləri həyata keçirəriksə, 70-80-ci illərin nailiyyətləri ilə müqayisədə daha yüksək səviyyəyə qalxıb, insanların sərbəst istehsal ilə məşğul olması sayəsində respublikanın kənd təsərrüfatı məhsullarına tələbatını tamamilə ödəyə bilərik və aqrar sektorda əldə olunan məhsullar Azərbaycanın ixrac imkanlarını qat-qat artıra bilər.

Məsələn, son illərdə heyvandarlıq sahəsində müəyyən dəyişikliklər baş verir. Mal-qaranın sayı ictimai bölmədə azalmış, şəxsi bölmədə isə artmışdır. Bu dəyişikliklər respublikada mal-qaranın ümumi sayını azaltmamışdır, sadəcə olaraq üstünlük bir bölmədən digərinə keçmişdir.

Ancaq mən müşavirələrimizdə, söhbətlərimizdə, görüşlərimizdə dəfələrlə sual verdim və cavab aldım ki, ictimai bölmədə heyvandarlığın məhsuldarlığı fərdi, özəl bölmədəkindən qat-qat aşağıdır. Demək, əgər ictimai bölmədə olan və az məhsul verən mal-qaranın əksər hissəsi, bəlkə də hamısı özəlləşdirilsə, biz heç bir şey itirməyəcəyik, əksinə, məhsuldarlıq artacaqdır. Ola bilər mal-qaranın sayı çoxalmasın, bəlkə də çoxalsın, lakin məhsuldarlıq xeyli yüksələcəkdir.

Şübhəsiz ki, burada müəyyən çətinliklər, proseslər var. Məsələn, ictimai bölmədə – kolxoz və sovxozlarda mal-qaranın saxlanması, bəslənməsi üçün çox böyük heyvandarlıq kompleksləri tikilmiş, istehsal fondları yaradılmışdır. Bunları dağıtmaq, pozmaq olmaz. əksinə, bu proseslər zamanı gərək onlardan daha səmərəli istifadə edilsin. Bu, işin praktiki cəhətidir. Bunun yollarını tapmaq olar və güman edirəm ki, bizim bugünkü [585-586] konfrans da bu barədə müəyyən təkliflər verəcəkdir. Ancaq strateji yol bundan ibarətdir ki, biz heyvandarlıq sahəsində ciddi şəkildə özəl bölməyə keçməliyik.

Bitkiçilik sahəsində keçid proseslərini, şübhəsiz ki, daha da sürətləndirməliyik. Məsələn, pambıq istehsalı sahəsini götürək. Bu, Azərbaycan Respublikasının aqrar bölməsində ən mühüm sahədir. Bu gün üçün və gələcək üçün Azərbaycanın həm daxili tələbatını ödəməkdən, həm də ixrac malları istehsal etməkdən ötrü pambıqçılığın inkişafına ciddi fikir vermək lazımdır. Əgər biz 70-ci illərdə və 80-ci illərin əvvəllərində əldə etdiyimiz nailiyyətlərə çata bilsək, yəni ildə təxminən 800 min ton pambıq istehsal edə bilsək, bu, indikindən 3,5 dəfə artıq olacaqdır. Nəticədə bizim ixracat imkanlarımız, respublikanın valyuta əldə etmək imkanları qat-qat artacaqdır.

Bu sahədə islahatların keçirilməsi daha çətin, daha mürəkkəbdir. Pambıqçılıqla məşğul olan kolxoz və sovxozların geniş əkin sahələri var. Bundan sərbəst iqtisadiyyat prinsipləri ilə istifadə olunması, şübhəsiz ki, heyvandarlıq sahəsində aparacağımız işlərdən qat-qat çətindir. Sizə xatırlatmaq istəyirəm ki, xalqımız pambıqçılıqla əsrlər boyu məşğul olmuşdur. Keçmişdə kolxoz və sovxozlar olmayanda da pambıqçılıq bölgələrində pambıq həmişə əkilib-becərilmişdir. O vaxtlar geniş torpaq sahələri sahibkarların əlində idi. Onlar kəndlilərin əməyindən istifadə edərək həmin sahələrdə pambıq istehsal etmişlər. Məsələn, Qarabağ zonasında – indiki Ağcabədi, Bərdə rayonlarında və başqa yerlərdə pambıq əkini sahələri o vaxt Cavanşirlər nəslinin əlində idi. Vaxtilə mən arxiv materialları ilə tanış olarkən öyrəndim ki, 1912-ci ildə Tiflisdə Qafqaz pambıqçılarının ikinci qurultayında Azərbaycanın nümayəndəsi Həmidə xanım Cavanşir, – böyük yazıçımız Cəlil Məmmədquluzadənin həyat yoldaşı, – torpaq sahibkarı kimi çıxış edərək pambıqçılığın problemlərindən danışmışdı.

Yəni demək istəyirəm ki, o vaxt kolxoz da yox idi, sovxoz da yox idi, lakin torpaqdan istifadə olunur və pambıq da istehsal edilirdi. Doğrudur, məhsuldarlıq çox aşağı idi: hər hektardan 4 sentner pambıq götürülürdü. Bu, o dövrün səviyyəsi idi. Mən Həmidə xanımın 1912-ci ildə Tiflisdəki çıxışından götürdüyüm rəqəmi deyirəm.

Ancaq 1970-80-ci illərdə Azərbaycanda pambıq istehsalı ildə 800 min tona qalxanda hər hektardan orta hesabla 25 sentner məhsul götürülürdü. İndi isə, məsələn, keçən il, bu il, hesab edirəm ki, məhsuldarlıq orta hesabla 10-11 sentnerdən artıq olmamışdır. Əgər 200 min hektar sahədən 285 min ton məhsul götürülmüşdüsə, hər hektarın orta məhsuldarlığı təxminən dediyim qədərdir.

Bu rəqəmləri, bu müqayisələri sizə xatırladaraq demək istəyirəm ki, Azərbaycan torpağı, məsələn, pambıqçılıq sahəsində böyük imkanlara malikdir. 1930-cu illərdə bu torpaqlar zorla ümumiləşdirilmiş, kollektivləşdirilmişdir. İndi biz islahatlar keçirərkən zor işlətməməliyik, bu işi demokratik prinsiplər əsasında aparmalıyıq. Elə etməliyik ki, 30-cu illərdə [586-587] aparılan işlər kimi, ölkəyə, xalqa zərbələr vurulmasın. Eyni zamanda mühafizəkarlığa da yol vermək olmaz. Çünki mən hiss edirəm ki, indi mühafizəkarlıq islahatçılığı üstələyir. Biz islahatçı qüvvələrə yol açmalı, islahatları cəsarətlə həyata keçirməliyik. Ancaq bunlar hamısı ağıllı, səriştəli olmalıdır. Ən əsas prinsiplərdən biri odur ki, gərək bunlar xalqımıza, xüsusən kasıb təbəqəyə, kəndlilərə, daim torpaqla bağlı olan insanlara zərər vurmasın, əksinə, xeyir gətirsin.

30-cu illərdə dövlət insanların mülkiyyətini, torpaqlarını zorla, repressiyalarla onların əlindən aldı. Adamlar mülkiyyətdən məhrum oldular. Əhali çox ağır, çətin bir dövr yaşadı. Bundan sonra kənd təsərrüfatımızda torpaq ictimailəşdirilərək ümumxalq mülkiyyəti oldu. Bütün istehsal fondları da ümumxalq mülkiyyətinə çevrildi. İndi islahatlar keçirərkən gərək elə edək ki, bunu sərbəstləşdirərkən, insanların ixtiyarına verərkən hərə özünə düşən payı götürə bilsin.

İslahatlar yeni sahibkarlar yaradacaq. Ancaq aqrar bölmə ilə bağlı olan hər bir adam da öz payını almalıdır. Birinin varlanması digərinin kasıblaşmasına gətirib çıxarmamalıdır. Yəni bu islahatlar xalqımızın ümumi rifahının qaldırılması üçün həyata keçirilməlidir. Əks təqdirdə islahatlar səmərəsiz ola bilər və xalq da bunu qəbul etməz. Biz yığıncaqlarda, müşavirələrdə dəfələrlə bu barədə göstərişlərimizi vermişik. Xüsusən 1994-cü ilin əvvəlindən aqrar bölmədə islahatların keçirilməsi haqqında mən bir prezident kimi öz mövqeyimi bildirmişəm, bu barədə əlaqədar orqanlara lazımi göstərişlər vermişəm. Bu məsələlərlə bağlı Prezident Aparatında, Ali Sovetdə, xüsusən onun aqrar məsələlər komissiyasında, Nazirlər Kabinetində, Kənd Təsərrüfatı Nazirliyində və başqa nazirliklərdə müəyyən işlər görülmüşdür.

Noyabrın 5-də mən bu məsələ ilə əlaqədar geniş müşavirə keçirdim. Orada bütün əlaqədar nazirliklərin, idarələrin, Ali Sovetin, yerli hakimiyyət orqanlarının başçıları Nazirlər Kabinetinin rəhbərləri iştirak edirdilər. Biz qəti qərar qəbul etdik ki, aqrar bölmədə islahatların keçirilməsi daha təxirə salına bilməz və bunlar payız-qış mövsümündə mütləq əməli şəkildə həyata keçirilməlidir. Noyabrın 5-də mən göstəriş verdim ki, Zaqatala və Xızı rayonlarında bu islahatların kompleks şəkildə təcili olaraq həyata keçirilməsi haqqında təkliflər hazırlansın.

Biz bundan bir nümunə kimi istifadə etmək istəyirik. Ancaq eyni zamanda hər bir rayonda belə təkliflərin hazırlanması barədə göstəriş verilmişdir.

O zaman mən tövsiyə etdim ki, biz keçmiş sovet respublikalarının, indiki müstəqil dövlətlərin əldə etdiyi nailiyyətlərdən, onların təcrübəsindən də istifadə etməli, bəhrələnməliyik. Xüsusən tövsiyə etdim ki, Qazaxıstana, Orta Asiya respublikalarına nümayəndə heyətləri göndərilsin. Çünki bizim iqlim şəraitimizin, təbiətimizin bu ölkələrlə, onların kənd təsərrüfatı ilə çox oxşarlığı var. Keçmişdə də, xüsusən pam[587-588]bıq istehsalı sahəsində biz onlarla uzun müddət çox sıx əlaqədə olmuşuq, yarış keçirmişik.

Hesab edirəm ki, həmin müşavirədən sonra xeyli iş görülmüşdür. Bu barədə müəyyən əsasnamə, qanun layihələri hazırlanmışdır. Güman edirəm ki, biz bundan sonrakı qısa müddətdə çox ciddi addımlar atacağıq. Mənim – prezidentin, Ali Sovetin təşəbbüsü ilə bu gün toplanmış konfrans da məhz bu məsələyə həsr olunmuşdur. Çox məmnunam ki, bizim dəvətimizlə konfransa bir necə ölkənin nümayəndələri də gəlmişlər. Mən onları xüsusi salamlayıram. Güman edirəm ki, onların konfransda iştirakı və özlərinin işi, təcrübələri haqqında verdikləri məlumatlar respublikamızda aqrar islahatların aparılmasına kömək edəcəkdir.

Mən bu konfransı bizim aqrar sahədə islahatların aparılması üçün mühüm tədbir hesab edirəm. Konfransın işinə uğurlar arzulayıram və sizi, Azərbaycanın bütün ictimaiyyətini bir daha əmin etmək istəyirəm ki, respublikanın prezidenti kimi iqtisadiyyatın bütün sahələrində, o cümlədən aqrar bölmədə islahatların keçirilməsini zəruri sayıram. [588]

**Kitabın hazırlanmasında iştirak edənlər:**

**Tofiq Babayev, Qəzənfər Zalıyev, Arif Məmmədov, Müzəffər Maşayev,**
**Kamil Muxtarov, Azər Fərzəliyev, Eyvaz Həsənov**

**Rəssamı** ***Fuad Fərəcov***
**Redaktorları** ***Tofiq Babayev, Kamil Muxtarov***

**Bədii redaktoru** ***Rəfail Əzizov***
**Texniki redaktoru** ***Zoya Nəcəfova***
**Korrektorları** ***Validə Musayeva, Bətul Eyvazlı***

**Tayms" qarnitur. Formatı 60x90 1/16. Ofset kağızı №1 Şərti çap vərəqi 39,96. Uçot nəşr vərəqi 40. Sifariş 156. Müqavilə qiyməti ilə.**

**Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyi.**
**Azərbaycan Dövlət Nəşriyyatı. Bakı, – 370005, Hüsü Hacıyev küç. 4.**
**Yığılmışdır "Şərq-Qərb" mətbəəsində. Bakı, Aşıq Ələsgər küç. 17.**

**"Qismət" Nəşriyyat, Poliqrafiya və Ticarət LTD tərəfindən çap olunmuşdur.**